Avropada enerji daşıyıcılarına tələbat gündən-günə artır. Avropa ölkələri həmin tələbatı ödəmək üçün Azərbaycan ilə bu sahədə əməkdaşlığa can atır. Məhz buna görə də uzun illər Azərbaycan qazının Avropaya nəqli istiqamətində davam edən müzakirələr ən etibarlı yol olan Trans-Anadolu qaz kəməri (TANAP) marşrutunun seçilməsi ilə nəticələnmişdir. 2012–ci il iyunun 26-da isə İstanbul şəhərində "Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair" saziş imzalanmış və 2012-ci il noyabrın 20-də Azərbaycan Respublikası Milli Məclisi tərəfindən hər iki müqavilə ratifikasiya olunmuşdur. TANAP layihəsinin inşasında məqsəd Azərbaycanın "Şahdəniz" yatağının ikinci fazasından hasil olunan təbii qazın Avropa bazarlarına nəqlinin təmin edilməsi idi.

TANAP layihəsinin davamı olaraq, Azərbaycandan ixrac olunan qazın Avropaya nəqli istiqamətində bir sıra yollar ("NABUCCO", ITGI (Türkiyə-Yunanıstan-İtaliya qaz kəməri) və SEEP (Cənubi-Şərqi Avropa boru kəməri) təklif olunsa da, nəticədə 2013-cü ildə "Şahdəniz" Konsorsiumu Azərbaycan qazını Avropaya nəql edəcək layihə kimi Trans-Adriatik Qaz Kəməri layihəsini (Trans-Adriatik Pipeline (TAP)) seçmişdir. Məlum olduğu kimi, 2013-cü ilin dekabrın 17-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə bp şirkəti arasında "Şahdəniz" layihəsinin ikinci mərhələsi üzrə yekun investisiya sazişi, həmçinin Azərbaycan qazının Qərbə nəqlini nəzərdə tutan tranzit ölkələr arasında "Cənub" qaz dəhlizinin həyata keçirilməsi sahəsində

əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır. İmzalanma mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirmişdir ki, "Şahdəniz-2", TANAP və TAP dünyanın ən iri enerji layihələrindəndir. Ölkə rəhbəri bu müqaviləni "XXI əsrin müqaviləsi" adlandırmışdır və müvafiq layihəni Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna layihələrdən biri kimi dəyərləndirmişdir.

Təxmini hesablamalara görə təkcə Azəri-Çıraq-Günəşli yataqlarında çıxarıla bilən neft ehtiyatı 1 mlrd. tona yaxındır. İndiyə kimi "Azəri-Çıraq-Günəşli"dən 436 milyon tondan çox neft hasil edilib. Hələ bu yataqda hasil edilməmiş təxminən 500 milyon ton neft ehtiyatı var. Azərbaycanda çox zəngin qaz yatağı olan "Şahdəniz"in ehtiyatlarının həcmi isə 1,2 trilyon kubmetrdir.

2017-ci ilin sentyabr ayının 14-də isə Xəzərin Azərbaycan sektorunda "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun 2050-ci ilədək işlənməsi üzrə müqavilə imzalanıb. Qarşıdakı 32 ildə layihəyə 40 mırd. dollar sərmayə qoyulacağı gözlənilir. Layihədə SOCAR-ın payı iki dəfə artırılaraq 25 faizə çatdırılıb. Bundan əlavə, şirkət bonus şəklində 3,6 mlrd. dolaar alacaq.

Prezident İlham Əliyev "Cənub" qaz dəhlizi layihəsinin uğurunu təmin edən səbəblərdən bəhs edərkən xüsusi olaraq aşağıdakı amilləri ön plana çəkmişdir: "Birincisi, bu layihə enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi və azad rəqabəti özündə ehtiva edir. İkincisi, bu layihədə istehsalçı, istehlakçı və tranzit dövlətlər arasında balans yaratmağa nail olmuşuq. Yəni burada uduzan tərəf yoxdur. Üçüncüsü, siyasət və enerji bir-birindən ayrı olmalıdır. Enerji siyasi alət kimi istifadə edilməməlidir. Hesab edirəm ki, "Cənub" qaz dəhlizi sazişində göstərdiyimiz nümunə nümayiş etdirir ki, enerji ilə siyasət ayrılanda uğur əldə edilə bilər."

Hazırda Avropa İttifaqı neftin 82%, qazın 57%-ni idxal edir ki, bu göstəricilərə görə o, dünyada ilk yeri tutur. 2030-cu ilədək Aİ-nin qaz tələbatı 700 milyard kub metrədək artacaq.

Mütəxəssislərin fikrinə görə Avropa İttifaqının gələcəkdə də qaz istehlakı idxal hesabına artmaqda davam edəcək və bu tələbatın ödənilməsində Xəzər regionu, xüsusilə də Azərbaycan böyük rol oynayacaqdır. Xəzər regionunun dünya enerji məkanındakı yeri və rolu günü-gündən artır. Bu həm onunla bağlıdır ki, Xəzər hövzəsi ölkələri enerji resursları həcminə görə dünyanın ən əhəmiyyətli ikinci (Fars körfəzi regionundan sonra) geoiqtisadi bölgəsi hesab olunur, həm də Bakı-Tbilisi-Ceyhan neft boru kəməri dünyada ən təhlükəsiz enerji məhsullarının dünya bazarlarına, istehlakçılara çatdırılması marşrutudur. Son onillikdə Qərbi Avropada, daha dəqiq desək, iqtisadiyyatı sürətlə inkişaf edən Avropa İttifaqında karbohidrogen ehtiyatlarına, xüsusən də təbii qaza olan tələbatın durmadan artması, Aİ-nin ən böyük qaz təchizatçısı olan Rusiyadan enerji asılılığı, 2006-cı ildən başlayan və 2009-cu ildə Avropaya qısa müddətə qaz verilişinin dayandırılması ilə nəticələnən Rusiya-Ukrayna qaz münaqişələrinin baş verməsi, Rusiyanın qitədə öz enerji şərtlərini diktə etməsi, geniş şaxəli təbii qaz marşrutlarının mövcud olmaması Avropa İttifaqını alternativ təbii qaz mənbələri, eləcə də təchizat marşrutlarını axtarmaq məcburiyyəti qarşısına qoydu. Bu hal Qərbin Yaxın Şərq, Xəzər və Mərkəzi Asiyanın zəngin qaz ehtiyatlarına malik dövlətləri ilə əməkdaşlığını şərtləndirdi. Nəticədə Mərkəzi Asiya və Xəzər regionu qazın Avropaya nəqlini nəzərdə tutan Cənub Qaz Dəhlizi qaz layihəsi irəli sürüldü.

"Şahdəniz-2" dünyanın ən iri enerji layihələrindən biridir. Bu layihə enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Bu tarixi layihədə iştirakçı dövlət və şirkətlərin geniş əməkdaşlığı təmin ediləcəkdir. "Şahdəniz-2" layihəsi Azərbaycan və Gürcüstan ərazisi boyunca Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsinə xidmət etməklə Trans-Anadolu və Trans-Adriatik qaz boru kəmərlərinin tikintisi ilə bağlı planların reallaşmasına təkan verəcək, Avropaya yeni qaz dəhlizi açacaqdır. İlk qazın Avropaya 2019-cu ildə çatdırılması planlaşdırılır. "Şahdəniz-2" layihəsi regionun və Avropanın enerji xəritəsini dəyişdirəcəkdir. Azərbaycanın qaz ehtiyatları bu sərvəti gözləməkdə olan bazarlara nəql ediləcəkdir. Ekspertlərin hesablamalarına görə, Azərbaycanın qaz ehtiyatı 3 trilyon kubmetrə bərabərdir.

Təbii ki, "Şahdəniz-2" layihəsi enerji təhlükəsizliyi layihəsidir. Hər bir ölkənin enerji təhlükəsizliyi onun milli təhlükəsizliyindən ayrılmazdır. Enerji təhlükəsizliyinin əsas elementlərindən biri təbii qazdır Bu səbəbdən enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi Azərbaycan kimi istehsalçı ölkə, həmçinin tranzit və istehlakçı ölkələr üçün eyni dərəcədə vacibdir.

"Şahdəniz-2", TANAP və TAP həm də dünyanın ən iri enerji layihələrindəndir. Layihəyə 45 milyard dollar məbləğində sərmayə cəlb ediləcək, marşrut boyu yerləşən ölkələrdə 30 mindən çox yeni iş yeri yaradılacaqdır. Təbii ki, bu layihə əlavə səylər tələb edəcəkdir. Bu layihə ölkəmizin uzunmüddətli və dayanıqlı iqtisadi inkişafını təmin edəcəkdir. Azərbaycanda enerji sahəsinin iki lideri və strateji tərəfdaşı olan ARDNŞ və BP arasında 20 illik əməkdaşlıq təcrübəsi vardır. Bu layihə çərçivəsində Xəzər dənizində ən qabaqcıl sualtı hasilat texnologiyasının tətbiqi ilə Azərbaycandan Avropaya qədər 6 ölkəni birləşdirəcək təxminən 3500 kilometr uzunluğunda boru kəmərləri sisteminin tikintisi və istismarı gerçəkləşdiriləcəkdir.

2011-ci ildə Azərbaycan ilə Avropa İttifaqı arasında strateji enerji əməkdaşlığa dair memorandum imzalanmışdır. Bu da öz növbəsində ölkəmizin enerji strategiyasının həyata keçirilməsinə və Avropa istiqamətində enerji təchizatının şaxələndirilməsinə yardım etmişdir.

Azərbaycanın enerji siyasəti iqtisadiyyatımızın transformasiyasına və şaxələndirilməsinə imkan yaratmışdır. Bu gün özəl sektor ölkə iqtisadiyyatının 85 faizini təşkil edir. İşsizlik səviyyəsi 4,8 faizə, yoxsulluq səviyyəsi isə 5,5 faizə endirilmişdir. Bizim xarici borcumuz ümumi daxili məhsulun sadəcə 8 faizini təşkil edir, maliyyə vəziyyəti sabitdir və iqtisadiyyatımızın 55 faizini təşkil edən qeyri-neft sektoruna yatırımlar davam etdirilir.

Qeyd etmək lazımdır ki, avropalıların bir çox nəsillərinə xidmət edəcək "Cənub" qaz dəhlizinin yaradılmasında ən böyük investorlardan biri ARDNŞ olacaqdır. ARDNŞ respublikanın regionlarında qazlaşdırma işinin tam başa çatdırılması üçün hazırda çoxlu layihələr icra edir.

Ölkəmiz öz enerji resurslarını dünya bazarına çıxarmaqla yanaşı bölgədə əsas tranzit ölkəsi kimi də çıxış edir. Trans-Xəzər boru kəmərinin çəkilişi ilə Azərbaycan tranzit ölkə kimi imkanlarını daha da artıracaq.

Enerji strategiyası milli enerji təhlükəsizliyinin əsas tərkib hissəsi olaraq əksər iqtisadi inkişaf etmiş müasir modern ölkələrdə dövlətin uzunmüddətli strateji proqramlarından biri kimi təyinat alır. Enerji strategiyası milli enerji siyasətinin konkretləşməsi, dəqiq təyinatlı fəaliyyət məqsədlərinə və hərəkətin təşkili metodlarına zəruri resurslar və mümkün potensial imkanlar müqabilində seçilmiş yolla nailolma çərçivəsində onun işçi sənədinə çevrilməsini şərtləndirir.

Qlobal axının gücləndiyi müasir zamanda isə hər bir ölkə enerji resurslarının mövcudluq diapazonunun fərqinə varmadan özünün enerji təhlükəsizliyini təmin etmək məqsədi ilə məxsusi enerji strategiyası formalaşdırmağa məhkumdur.

Milli enerji müstəqilliyini dolğunlaşdırmaq və enerji təhlükəsizliyini daha təminatlı etmək üçün real bazar iqtisadiyyatı ölkələrində olduğu kimi, Azərbaycanda da enerji strategiyasının hazırlanması və tətbiqi olduqca zəruri və mühümdür. Enerji təhlükəsizliyini təmin edən tədbirlər blokuna aşağıdakıları aid etmək olar:

- Neft Fondunun resurslarının əhəmiyyətli hissəsini bərpaolunan və nüvə təyinatlı enerji istehsalı sahələrinə yönəltəməklə təbii enerji ehtiyatları varisliyinin təmin edilməsi;
- postneft konsepsiyasının işlənməsi.
- Yanacaq Enerji Kompleksinin funksionallığının artırılması istiqamətində struktur yenidənqurmasının aparılması;
- neft məhsulları assortimentinin genişləndirilməsi və keyfiyyətinin universal standartlara qaldırılması; (Emal dərinlyinin artırılması Tərbiz müəllim Səidənin işi müzakirə olunarkən qeyd etdi)
- enerji sektorunda bazar münasibətlərinin inkişafını və əlverişli bazar şəraitini təmin edən təkmil normativ-hüquqi bazanın formalaşdırılması;
- Neft Bankı, Neft Birjası və enerji kompleksinin digər mühüm infrastruktur seqmentlərinin təsisatı.
- enerji sektorunda aparılan iqtisadi islahatların dərinləşməsi və təkmilləşməsi sahəsində elmi-tədqiqatların genişləndirilməsi;
- investisiya mühitinin əlverişliliyinin artırılması, sahəvi vergi və tarif siyasətinin təkmilləşdirilməsi, milli sahibkarların enerji sektoruna aktiv cəlb edilməsi;
- iqtisadi inkişafı hərtərəfli stimullaşdıran enerji daşıyıcılarının daxili qiymətlərinin optimallaşmasına nail olunması, xərclər balansında enerji elementlərinin xususi çəkisinin azaldılması.
- enerji resurslarının və yanacaq-enerji məhsullarının rəqabətədavamlı ixracına nail olunması;
- Ümumdunya Ticarət Təşkilatı, NATO və Avropa Birliyinə inteqrasiyasının dərinləşdirilməsi [2].

**Ədəbiyyat**

1. Белозеров И.П. Экономическая безопасность государства в условиях глобализации // Вестник Омского университета. Серия «Экономика». 2006, № 4.

2. Hacızadə E.M. Milli enerji strategiyası: konseptual əsaslandırmalar və perspektivlər // AMEA-nın xəbərləri İqtisadiyyat seriyası, 2010, №1

**Резюме**

***Гусейнов Г.С.***

**Энергетическая безопасность – как одна из условий устойчивого экономического развития Азербайджана**

*В статье рассказывается о месте Азербайджана в энергетическом пронстрансве мира и о ее роли в обеспечении энергетической безопасности Европы. Энергетическая стратегия рассматривается как основная часть национальной энергетической безопасности. Указываются меры обеспечения энергетической безопасности Азербайджана.*

# I BÖLMƏ

# BİZNESİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİ: RİSKLƏRİN İDARƏ EDİLMƏSİNİN AKTUAL MƏSƏLƏLƏRİ

# I СЕКЦИЯ

# ЭКОНОМИЧЕСКАЯ БЕЗОПАСНОСТЬ БИЗНЕСА: АКТУАЛЬНЫЕ ВОПРОСЫ УПРАВЛЕНИЯ РИСКАМИ

# PART 1

# ECONOMIC SECURITY OF BUSINESS: ACTUAL PROBLEMS OF RISK MANAGEMENT

## BÖHRANLI VƏZİYYƏTDƏ VƏ RİSK ŞƏRAİTİNDƏ BİZNESİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİNİ YOLLARI

**_Abdullayeva Y.T._**
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Məqalədə böhranlı vəziyyətdə və risk şəraitində biznesin iqtisadi təhlükəsizliyini təmin edən tədbirlər sistemi tədqiq edilmişdir. Biznes fəaliyyəti zamanı yarana biləcək daxili və xarici təhlükələr qiymətləndirilmişdir. Həmçinin risklərin qiymətləndirilməsi, proqnozlaşdırılması və idarə olunması problemlərinə baxılmışdır.*

***Açar sözlər:*** *biznes, iqtisadi təhlükəsizlik, risk, qiymətləndirmə, proqnozlaşdırma*

Hazırkı şəraitdə öz fəaliyyətinin təhlükəsizliyini təmin etmək sahibkarların, bankın, firmanın, korporasiyanın fəaliyyətinin olduqca vacib şərtlərindən biridir. Bir çox firma rəhbərləri, çox təəssüf ki, problemin vacibliyini lazımınca qiymətləndirmir, iqtisadi təhlükəsizliyin təmini üçün lazımi şərait yaratmır. Bunun nəticəsi olaraq əhəmiyyətli dərəcədə ziyana düşürlər.

Biznes fəaliyyətinin iqtisadi təhlükəsizliyi firmanın həyat əhəmiyyətli maraqlarını daxili və xarici təhlükələrdən müdafiəsi, daha doğrusu, firmanın, onun kadr və intellektual potensialının, informasiya, texnologiya, kapital və gəlirlərinin müdafiəsi deməkdir. Firmanın iqtisadi təhlükəsizliyinin təmin etməkdə məqsəd onun fəaliyyətinə vurulacaq ziyanın qarşısını almaq, müəssisənin hüquqlarını qorumaq, əməkdaşları və mülkiyyəti daxili və xarici təhlükələrdən müdafiə etmək, maliyyə vəsaitlərini, maddi dəyərlərini qorumaq, müxtəlif qanun pozuntularını vaxtında aşkarlamaq və aradan qaldırmaq, onları doğuran səbəblərin qarşısını almaq, eləcə də fövqəladə situasiyanın olmasına imkan verməmək, yaxud onların neqativ nəticələrini minimallaşdırmaqdır. Müəssisənin təhlükəsizliyinin təmini bahalı və əmək tələb edən işdir. Firmanın təhlükəsizliyini təmin edən optimal sistem yaratmaq üçün təhlükəsizlik konsepsiyası işləyib hazırlamaq lazımdır. Bunun bazası əsasında isə sonra bu sistemin fərz edilən modeli yaradılır və onun uzunmüddətli fəaliyyəti üçün müvafiq mexanizmlər işlənib hazırlanır.

Biznes fəaliyyətinin etibarlı müdafiəsi üçün ya bu sahədə ixtisaslaşmış firmaların köməyinə müraciət etmək, ya da müəssisə özünümüdafiə yaratmalıdır. Ancaq iqtisadi təhlükəsizlik sistemi yaratmaq üzrə aparılan iş diletantlıqdan uzaq olmalıdır. Daxili və xarici təhlükəni real qiymətləndirərək öz müəssisəsini əsas müdafiə elementləri konsepsiyasını konkretləşdirməlidir. Təəssüf ki, bir çox müəssisə və firmalarda sahibkarlığın iqtisadi təhlükəsizliyin təmini sahəsində xüsusi bilik və təcrübəyə malik olan işçilər, məsləhətçilər yoxdur. Lakin belə işçilərin olduğu və müvafiq müdafiə sistemi olan müəssisələrdə də iqtisadi təhlükəsizliyin təmini bir çox çətinliklərlə üzləşir. Bu çətinliklər bazar münasibətlərinin xüsusiyyətlərindən, hüquq-normativ və metoldoloji bazanın çatışmazlığından, ixtisaslaşmış mütəxəssislərin yoxluğundan irəli gəlir. Kommersiya strukturunun təhlükəsizlik xidmətinin sayı və tərkibi müəssisənin real ehtiyaclarına əsasən təyin olunur. Onun informasiya məxfiliyinin dərəcəsinə, öz fəaliyyətinin həyata keçirdiyi bazar sektoruna, təhlükəsizlik xidməti qarşısında qoyulan məqsəd və vəzifələrə, yaradılan təhlükəsizlik strukturunun miqyasına və gücünə birbaşa və dolayısı ilə təsir göstərən bir çox digər faktorlara əsasən təyin olunur. Onu da qeyd etmək lazımdır ki, bu vacib işdə açıqdan –açığa qənaət etmək yolverilməzdir [2].

İqtisadi təhlükəsizliyin təmini sisteminin effektliyi və etibarlılığı kriteriyalarına obyektə cinayətkar məqsədlərlə edilən qeyri-leqal müdaxilə cəhdlərinin qarşısını almaq, yaxud vaxtında aşkarlamaq, kommersiya sirri olan məlumatın sızması və yayılmasına yol verməmək, sənədlərin, məlumatların itkisinə yol verməmək, personal tərəfindən qeyri-qanuni və digər neqativ fəaliyyətə operativ reaksiya vermək və onun qarşısını almaq, firma kollektivində stabil mənəvi-psixoloji iqlim yaratmaq, maddi-texniki vasitələrin, pulun və digər dəyərlilərin etibarlı qorunması, əməkdaşların və rəhbərliyin həyat və sağlamlığına edilən qəsdlərin qarşısının alınması, fövqəladə hadisələrin qarşısının alınması və s. göstərmək olar.

Ümumiyyətlə, hər bir biznesmen iqtisadi təhlükəsizliyin təmini üzrə elə tədbirlər sistemi yaratmağa can atmalıdır ki, bu sistem ilkin mərhələdə mümkün qanun pozuntularının əlamətlərini aşkarlasın, cinayətkar fəaliyyətlə bağlı planın işlənib hazırlanmasının ilkin mərhələdə qarşısını alsın. Bu isə öz növbəsində böyük itkilər olmadan cinayətkar məqsədlərin qarşısının alınmasına kömək etməli olacaq.

Məlumdur ki, bazar iqtisadiyyatı şəraitində sahibkarlıq fəaliyyətinin əsas prinsiplərindən biri böyük mənfəət əldə etməkdir. Ancaq digər tərəfdən gəlir qazanmağa şans nə qədər böyükdürsə, risk də bir o qədər yüksəkdir. Çünki hər bir yüksək gəlir qazanmaq ehtimalını ziyana düşmək ehtimalı müşayiət edir. Ancaq bütün biznesmenlər onu da bilir ki, hər bir risk ikili xarakterə malik olur. Belə ki, o, biznesmeni həm tam müflis, həm də çox varlı edə bilər. Risklər, onların qiymətləndirilməsi, proqnozlaşdırılması və idarə olunması firmanın təhlükəsizlik xidməti üçün əhəmiyyət kəsb edir. Təhlükəsizlik xidməti isə obyektin müdafiəsi və təhlükəsizliyinin təmini üzrə müvafiq əlavə tədbirlərin işlənib hazırlanması üçün firmanın qarşılaşa biləcəyi problemlər və onun rəhbərlərinin bu vəziyyətdən necə çıxmağı düşündükləri barədə dəqiq informasiyaya malik olmalıdır. Riski yaradan əsas faktorlara hədələr və xarici mühitin məhdudlaşdırılması, fors major vəziyyət, yüksək olmayan professionallıq və firma işçilərinin kifayət qədər olmayan səriştəliyi, yaxud ödəniş qabiliyyəti olmayan borclu və mütəşəkkil cinayətkarlıq fəaliyyəti, reket, dələduzluq və digər cinayətkar hərəkətlər, vicdansız rəqabət və s. aiddir. Bütün bunlar situasiyanın proqnozlaşdırılmasını əhəmiyyətli dərəcədə çətinləşdirir [1].

Hədənin qiymətləndirilməsində edilən səhv vəziyyətin mümkün inkişafını qeyri-adekvat addımlar atmağa, zərərli nəticələri qabaqcadan görməyə çətinlik törədir. Bu isə son nəticədə səhv qərarların qəbul edilməsinə, böyük itkilərə və hətta firmanın məhvinə səbəb ola bilər. Qanunvericilik riskini də nəzərə almamaq olmaz. Belə ki, qanun yaradıcılığı dinamikası o qədər sürətlidir ki, hər həftə çoxlu qanun və göstərişlər, əmr və qərarlar meydana çıxır. Bütün bunları mənimsəyə bilmək isə çətindir. Bu problemin həlli üçün bəzi biznesmenlər kompüter-məsləhəti sistemi əldə edirlər. Ancaq onlarda informasiya tam olmur. Bir çox sahibkarlar bu problemi şəxsi risk, təcrübə və intuisiyalarına, digərləri isə şəxsi ştatlı işçi tutaraq, əsaslanaraq həll etməyə çalışırlar. Ancaq unutmaq olmaz ki, adi bir hüquqşünas sahibkarı xilas edə bilməz. Belə ki, sahibkarlar, məsləhətçilər qrupu lazımdır ki, bu da çox bahadır. Bu məsələni hüquqi mərkəz, büro və ixtisaslaşdırılmış agentliklərə müraciət etməklə həll etmək olar.

Risk şəraitində biznesin təhlükəsizliyini təmin etmək üsullarından biri də özünüsığorta ola bilər. Daha doğrusu, gözlənilməz vəziyyət yaransa, gəlirdən tutulma hesabına xüsusi Rezerv Fondunun yaradılması məqsədəuyğun hesab edilə bilər. Bu üsuldan ziyana düşmək ehtimalı yüksək olduğu hallarda istifadə edilir.

Proqnozlaşdırma ilə demək olar ki, hər bir biznesmen məşğul olur. Bəzi kommersantlar hesab edir ki, bu ideyaların həyata keçməsi üçün kifayətdir, bəziləri isə hər şeyi diqqətlə yoxlamaq və ölçüb biçmək üçün analitik təhqiqat aparır. Təhlükələrin proqnozlaşdırılması, təhlükələrin kəmiyyət və keyfiyyət dəyərinin qiymətləndirilməsi, müəyyən əlamətlər əsasında mümkün təhlükənin üzə çıxarılması, planlaşdırılmış tədbirlərin və layihənin həyata keçirilməsinin mümkünlüyünün müəyyənləşməsi, bütün neqativ nəticələrin və onların vuracağı ziyanın proqnozlaşdırılması deməkdir.

Təhlükəsizlik biznesin yaranması üçün son məqsədi dəqiq müəyyən etməklə yanaşı, ona çatmaq yolunda rast gəlinə biləcək bütün maneələri qabaqcadan görmək lazımdır. Bir çox kommersiya strukturlarını müflişləşdirən, yaxud zəifldən böhranlar, onların sahiblərini əvvəllər əhəmiyyətsiz hesab etdikləri məsələlərə daha ehtiyatla və diqqətlə yanaşmağa məcbur edir. Beləliklə, sahibkarlıq fəaliyyətinə müəyyən təhlükə yaratdığı xarici mühitin təsir faktorlarını belə qruplaşdırmaq olar: iqtisadi, siyasi, texnoloji, bazar, rəqabət, sosial, beynəlxalq və s [3].

Vurduğu ziyanın səviyyəsinə görə ən ağır nəticələrə gətirib çıxaran təbii fəlakətləri qeyd etmək olar. Təbii fəlakətlərə daşqın, zəlzələ, çovğun və digərlərini misal çəkmək olar ki, bunu da qabaqcadan bilmək olmur. Nəticədə isə, həmin zonada yerləşən firma ağır vəziyyətə düşə bilər. Daha ağır nəticələr siyasi və sosial-iqtisadi faktorların təsiri ilə yaranır. Maliyyə-kredit sisteminin qeyri-stabilliyi isə hər bir nəticənin qeyri-müəyyən olmasına və çoxlu sayda firmaların məhvinə səbəb olur.

Buna görə də firmanın yaşaması üçün onun personalının həyatını qorumaq, ziyanı azaltmaq, maddi və texniki vasitələrin, avadanlığın itkisini minimallaşdırmaq, müəssisənin normal fəaliyyətinə şərait yaratmaq üçün vaxtında bu cür kritik situasiyaların qarşısını alan tədbirlər planı hazırlamaq lazımdır.

**Ədəbiyyat**

1. Abbasov A.B. və başqaları. Biznesin təşkili və idarə edilməsi. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2011, 464 s.

2. Kazımlı X.H., Quliyev İ.İ. İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi. Baki: İqtisad Universitetinin nəşriyyatı, 2011,187 s.

3. Mahmudova İ.M., Zeynalov T.Ş., İsmayılov N.M. İqtisadi təhlil. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2010, 800 s.

**Резюме**

***Абдуллаева Е.Т.***

**Пути обеспечения экономической безопасности бизнеса в условиях кризиса и риска**

*В статье исследуется система мероприятий, обеспечивающих экономическую безопасность бизнеса в условиях кризиса и риска. Оцениваются внутренние и внешние угрозы, которые могут возникнуть при реализации бизнес деятельности. Также, рассмотрены проблемы оценивания, прогнозирования и управления рисков.*

***Ключевые слова:*** *бизнес, экономическая безопасность, риск, оценка, прогнозирование*

**Summary**

***Abdullayeva Y.T.***

**Ways to Ensure Economic Security for Businesses in Condition of Crisis and Risk**

*The article examines the system of measures that ensure economic security of business in the context of crisis and risk. Internal and external threats that may arise in the course of carrying out business activities are assessed. Also, problems of estimation, forecasting and risk management are considered.*

***Key words:*** *business, economic security, risk, assessment, forecasting*

## İQTİSADİ FƏALİYYƏT PROSESİNDƏ RİSKLƏR VƏ ONLARIN İDARƏ EDİLMƏSİ

***Ağarzayev A.H.***

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

***Açar sözlər:*** *risk, risklərin idarəedilməsi, maliyyə riski, optmal qərarlar*

Risk obyektiv bir haldır, risk təbiəti etibarilə gələcək hadisələrin birmənalı olmaması ilə şərtlənir. Risk itkilərlə, zərərlərlə, əldən çıxmış imkanlarla əlaqədardır. Zərərlər, itkilər baş verməmişdən əvvəl risk potensial bir təhlükə sayılır.

Mürəkkəb iqtisadi təzahür forması olan riskin aşağıdakı xarakteristikaları vardır: gələcək nəticələrin məlum olmaması (qeyri-müəyyənliyi), fəaliyyətin mənfi nəticələrinin ehtimalı və həcmi, qəbul ediləcək qərar üçün neqativ nəticələri. Risk anlayışını bazar münasibətləri nəzəriyyəsinə ilk dəfə fransız iqtisadçısı R.Kantilyon daxil etmişdir. R.Kantilyon riski rəqabət şəraitində həyata keçirilən ticarət fəaliyyətinin xassəsi kimi izah etmişdir. Ticarətçilik, mənfəət və itkiləri isə iqtisadçı qeyri-müəyyənlik və riskin nəticəsi kimi qiymətləndirirdi. Həmin dövrün iqtisadi baxışlarının müəyyən məhdudluğuna baxmayaraq, müasir Qərb iqtisadçıları R.Kantilyonu risk nəzəriyyəsinin yaradıcısı adlandırırlar [1, 45].

Riski doğuran başlıca səbəb olan qeyri-müəyyənliyi daxili və xarici mühit vəziyyətlərinin çoxluğu kimi xarakterizə etmək olar. Məqsədin reallaşdırılması zamanı əvvəlcədən düşünülmüş qərarlar yeganə ən yaxşı qərar kimi seçilir. Burada əsas çətinlik ondan ibarətdir ki, bu və ya digər qərar qəbulunun nəticələri qeyri-məlum situasiyadan asılıdır. Bu nəticələrin yararsızlığı səviyyəsi, şərti vahidlərlə – itkilərlə ölçülür və

qeyri-müəyyənlik riski törədir. Risk – insanın istənilən qeyri-aktiv fəaliyyətinə xas olan, aydın olmayan, çoxcəhətli bir anlayışdır. Risk-ehtimal xarakterli bir kateqoriyadır, ona görə də riskin qeyri-müəyyənliyinin və kəmiyyətinin müəyyən edilməsində ehtimal tipli hesablamalardan istifadə edilir.

İqtisadiyyatda optimal qərarlar seçimi məsələlərinin ehtimal xarakteristikası real situasiyaları əks etdirir. Ona görə də əksər hallarda ehtimal xarakterli modellərin tətbiqi ən səmərəli qərarlar seçimində riski azaltmağa imkan verir. Onu da qeyd edək ki, iqtisadi göstəricilərin ehtimal bölgüsü çox vaxt məlum olmur. Risklər müəyyən proseslərdə və fəaliyyət sferasında özünü göstərir. Həmin proses və fəaliyyət sferasında təsadüfi, qeyri-müəyyənlik hallarının azlığı və yaxud da çoxluğu iqtisadi risklərin də müvafiq səviyyəsini səciyyələndirir. Bir qayda olaraq riskli situasiya stoxastik qeyri-müəyyənlik kimi qiymətləndirilir və bu ehtimal nəzəriyyəsi ilə əlaqələndirilir. Əlbəttə, bunu bütövlükdə düzgün hesab etmək olar. Lakin onu da nəzərə almaq lazımdır ki, qeyri-müəyyənliyin özü də riskli situasiyaları yaradır. Bu mənada stoxastik riskləri bütün hallarda, o cümlədən maliyyə sferasında qeyri-müəyyənliyin zəruri, təbii bir əsası, mexanizmi kimi qiymətləndirmək heç də düzgün olmazdı. Əlbəttə, bərabər şərait daxilində risklərin başvermə ehtimalının müəyyən edilməsi, qiymətləndirilməsi, riskli təsadüflərin kəmiyyətinin müəyyən edilməsi vacibdir. Bu, həm də risklərin özünün məzmunca öyrənilməsi baxımından da lazımdır. Çünki bunu öyrənmədən firma və şikrətlərin maliyyə təhlükəsizliyini, investisiya vəziyyətini və digər problemlərini araşdırmaq mümkün deyildir. Bunun üçün eyni zamanda güclü məntiq, risk-menecmenti, anti-böhran menecmenti tədbiləri lazımdır. Həm də burada risklərin meyilləri və onların davamiyyət müddəti nəzərə alınmalıdır. Burada situasiyanı nəzərə alaraq, müvafiq sabitləşdirici tədbirlərin görülməsi də lazımdır.

Risklər yalnız determinasiya olunmuş amillərdən deyil, həm də onların təzahür formalarından da asılıdır. Burada riyazi gözləmə, dispersiya, orta kvadrat kənarlaşma ehtimal xarakteristikasını səciyyələndirir. Dispersiya və orta kvadrat kənarlaşma eyni zamanda mütləq kənarlaşmanın ölçüsü kimi çıxış edir. Bununla belə dispersiya xətti kənarlaşmanı tamamilə əks etdirmir.

İqtisadi fəaliyyətin istənilən növlərində hökm sürən qeyri-müəyyənlik onunla əlaqədardır ki, iqtisadi sistemlər özünün fəaliyyəti prosesində çoxlu sayda situasiyalı səbəblərdən asılı vəziyyətə düşür. İqtisadi sistemin fəaliyyətinin asılı olduğu səbəblər bazar şəraitində məcmuu qeyri - müəyyənliklər sistemi kimi müəyyən olunur. Qeyri-müəyyənliklər zaman baxımından retroperspektiv, cari və perspektiv qeyri - müəyyənliklərə bölünür. Qəbul edilən qərarların iqtisadi səmərəliliyinin qiymətləndirilməsində vaxt amilinin nəzərə alınmasının, onun uçotunun zərurəti onunla əlaqədardır ki, bu istər səmərə, istərsə də xərclər baxımından zaman görə müxtəlif olur. Məsələn, bərabər həcmli xərclər, zaman çərçivəsində qeyri-bərabər paylandıqda bu və ya digər fəaliyyət növü üzrə (iqtisadi, sosial və s.) həmişə eyni faydalı nəticə vermir.

Meydanagəlmə amillərinə görə qeyri-müəyyənliklər iqtisadi (kommersiya) və siyasi qeyri-müəyyənliklərə bölünür. İqtisadi qeyri-müəyyənliklər müəssisə və ya bütövlükdə hər hansı bir ölkənin iqtisadiyatındakı əlverişsiz dəyişikliklərlə əlaqədar olur. İqtisadi qeyri-müəyyənliklərə aşağıdakılar aiddir: bazar tələbinin qeyri-müəyyənliyi; bazar qiymətlərinin qabaqcadan müəyyən edilməsinin qeyri-müəyyənliyi; bazar təklifinin qeyri-müəyyənliyi və rəqiblərin fəaliyyəti haqqında kifayət qədər informasiyanın olmaması. Qeyri-müəyyənliklə risk arasındakı əlaqələrin xarakteri çoxcəhətli və mürəkkəb iqtisadi proseslərin qarşılıqlı təsirindən irəli gəlir. Lakin bu qarşılıqlı əlaqə və təsir mexanzmləri, istiqamətləri riskoloji baxımdan kifayət qədər öyrənilməmişdir. Hətta qeyri-müəyyənlik və risk arasındakı oxşar və fərqli cəhətlər də nəzəri-metodoloji baxımdan kifayət qədər öyrənilməmişdir.

Riskin təhlili başlanğıc mərhələ olub, obyektin xüsusiyyətləri, strukturu və mövcud risklər haqqında zəruri informasiyanın toplanmasını qarşıya qoyur. Yığılmış informasiya gələcək mərhələdə adekvat qərarlar qəbul etmək üçün kifayət qədər olmalıdır. Riskin təhlili risklərin aşkara çıxarılması və qiymətləndirilməsindən ibarətdir.

Riskin idarə edilməsi prosesinin əsas mərhələləri aşağıdakılardır: riskin təhlili; riskə təsir edən metodların müqayisə yolu ilə səmərəliliyinin qiymətləndirilməsi ilə seçimi; qərar qəbulu; riskə birbaşa təsir; idarə prosesinə nəzarət və idarəetmə prosesi nəticələrinə düzəlişlər. Maliyyə risklərinin idarə edilməsinin spesifik metodlarından biri xedcələşmədir ki, bu da öz növbəsində aktivlər portfelinin dəyərinin azaldılması şəklində zərərlərin baş verməsi tezliyinə təsir etmir, lakin xüsusi tədbirlərin həyata keçirilməsi yol uilə zərərlərin həcmini azaldır. Riskin idarə edilməsi strukturunun yaradılmasının üç əsas təşkilati aspekti var: aparıcı risk - menecerin fəaliyyəti; riskin idarə edilməsi bölməsinin fəaliyyəti və bu bölmənin təşkilatın digər strukturları ilə qarşılıqlı əlaqəsi. Bir sıra ölkələrdə, ayrı-ayrı təşkilatlarda və firmalarda riskin idarə edilməsi üçün xüsusi bir sektor, bölmə – riskin idarə edilməsi bölməsi yaradılır ki, bu bölməyə də risk meneceri rəhbərlik edir, risk meneceri yalnız riskin idarə edilməsi problemləri ilə məşğul olur, riskin tənzimlənməsi və mümkün zərərlərin ödənilməsini təmin etmək məqsədilə fəaliyyəti yönəldir [2, 45].

Riskin qiymətləndirilməsi aşkar edilmiş risklərin kəmiyyətcə təsviridir ki, bu zaman da mümkün zərərlərin ehtimalı və miqyası müəyyən edilir. Eyni zamanda əlverişsiz situasiyaların inkişafının ssenariləri

formalaşır və müxtəlif risklər üçün zərərlərin başvermə ehtimalının bölüşdürülməsi funksiyaları müəyyən edilir. Risklərin aşkara çıxarılması və qiymətləndirilməsi bir-birilə sıx əlaqədardır. Adətən, təhlil risklərin qiymətləndirilməsindən aşkara çıxarılmasına doğru istiqamətdə müəyyən edilir. Əgər bu proses risklərin qiymətləndirilməsindən risklərin aşkar edilməsinə doğru gedirsə, deməк, artıq zərərlər məlumdur və onların səbəblərini aşkar etmək zəruridir. Əksinə, əgər bu proses risklərin aşkar edilməsindən risklərin qiymətləndirilməsinə doğru gedirsə, onda sistemin təhlili əsasında risklər və habelə mümkün ola biləcək nəticələr aşkar edilir. Riskin idarə edilməsi çoxpilləli bir proses olub, əlverişsiz hadisələrin baş verdiyi zaman obyektə dəyə biləcək zərərlərin azaldılmasını öz qarşısına məqsəd qoyur. Zərərlərin minimuma endirilməsi və riskin azaldılması müxtəlif anlayışlardır. Riskin azaldılması mümkün zərərin azaldılması, ya da əlverişsiz hadisələrin başvermə ehtimalırının aşağı salınması deməkdir.

**Ədəbiyyat**


1. Коротков Э.М. Антикризисное управление . М.: ИНФРА -М. 2014, 554 с
2. Рэдхед К. Управление финансовыми рисками. М.: ИНФРА -М. 2015, 234 с


**Резюме**


***Агарзаев А.Г.***

**Риск и антикризисное управление в процессе экономической деятельности**

*В работе проанализированы виды рисков и реализации мероприятий антикризисного управления, которые, на основе учета рисков и взаимодействия предприятия с основными элементами внешней среды позволяют повысить эффективность результатов антикризисного управления, и, как следствие, добиться повышения финансовой эффективности бизнеса.*

***Ключевые слова:*** *риск, управление рисками, финансовый риск, оптимальные решения*

**Summary**

***Agharzayev A.H.***

**Risk and Crisis Management in the Process of Economic Activity**

*The work analyzes the types of risks and the implementation of the anti-crisis management measures, which are based on the risks and interaction of the enterprise with the main elements of the external environment, makes it possible to improve the effectiveness of the results of crisis management and, as a result, to increase the financial efficiency of the business.*

***Key words:*** *risk, risk management, financial risk, optimal decisions*


## DAŞINMAZ ƏMLAK BAZARINDA RİSK AMİLİ


***Əhmədov M.M.***

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*


**Xülasə**


*Daşınmaz əmlak bazarı milli iqtisadi sistemin mühüm tərkib hissəsi hesab edilir. Tədqiqatda əsas məqsəd daşınmaz əmlak bazarında mövcud risklərin xüsusiyyətlərinin təhlili və onların fərqləndirilməsinin əsaslandırmaqdan ibarətdir. Eyni zamanda maliyyə riskləri fərqləndirilmişdir ki, bu da üç punkda qeyd edilmiş, qeyri-müəyyən hall kimi riski xarakterizə edən təhlükənin azaldılması tədbirləri göstərilmişdir. Elmi yenilik kimi riskin baş vermə ehtimallarının sadalanmışdır.*

***Açar sözlər****: daşınmaz əmlak bazarı, risk, maliyyə riski, investisiya riski*


Daşınmaz əmlak bazarında əmlakın mürəkkəb təbiəti, başqa sözlə, hər bir daşınmaz əmlak obyektinin fiziki, hüquqi və iqtisadi müəyyənliyə malik olması, daşınmaz əmlak obyektlərinin fərdiliyi və unikallığı, bazarın regional iqtisadi durumdan yüksək dərəcədə asılılığı risklərin meydana çıxmasını qaçılmaz edir.

"Risk" yunan sözü olan Ridsikon, Ridsa sözlərindən götürülüb, mənası sıldırım qaya deməkdir [1,səh.10].Ümumi mənada risk hər hansı əməliyyat və ya layihənin həqiqi nəticələrinin başlanğıcda planlaşdırılan nəticələrlə müqayisədə mənfi istiqamətə yönəltmək imkanıdır. Bu yanaşmanın daha çox iqtisadi sferaya yönəldilən daha dəqiqləşdirilmiş versiyası vardır. Bu yanaşmaya əsasən risk zərər vurmaq iqtidarında olan və pul ifadəsinə malik olan hadisədir. Riskin tərifinin daha ciddi variantında isə riskin qiymətləndirilən qeyri-müəyyənlik olduğu deyilir. Buradan belə qənaət hasil edilir ki, risklərin idarə edilməsi və tədqiqi zamanı başlanğıc nöqtə, özündə ziyan yetirə biləcək hadisənin baş vermə ehtimalının və bu ziyanın kəmiyyətinin qiymətləndirilməsi olmaqla,iki tərkib hissəni ehtiva edən riskin qiymətləndirilməsidir.

Risk amilini 2 formada təsəffür etmək olar. Birincisi o gələcəklə baxlıdır və reallaşa bilməsi ehtimal olan hadisədir. İkinci formada risk fürsət və ya təhlükə kimi anlaşılır [2]. Daşınmaz əmlak bazarının xüsusiyyətlərinə görə risklərə gətirib çıxaran səbəblərə uyğun olaraq hüquqi, şəhərsalma, inzibati, iqtisadi və texnoloji olmaqla çox sayda amilləri fərqləndirirlər:

- ➢ hüquqi (mülkiyyət hüququnun itkisi ehtimalı, müqavilə və sazişlərin bağlanması zamanı səhvlərlə əlaqədar zərərin əvəzinin ödənilməsinin qeyri-mümkün olması, üçüncü şəxslərdə etirazın, obyektlə bağlı üzə çıxarılmamış öhdəliklərinmeydana gəlməsi ehtimalı);
- ➢ texnoloji və şəhərsalma (layihənin reallaşdırılma yerinin yanlış seçilməsi, ətrafdakı tikinti ilə uyğunsuzluğu, konstruktiv qərarlarda buraxılan səhvlər, materialların düzgün seçilməməsi);
- ➢ inzibati (vergi rejimində dəyişikliklər ehtimalı, şəhər icra hakimiyyəti orqanları qarşısında öhdəliklərin yerinə yetirilməsinə dair yeni tələblərin meydana çıxması, binaların funksional istifadəsində məhdudiyyətlərin tətbiq edilməsi və s.);
- ➢ təşkilati-iqtisadi (regional iqtisadi inkişafla və makroiqtisadi durumla bağlı düzgün olmayan proqnozlar, bazarda tələblə təklifin proqnozlaşdırılması üsullarında səhvlər, obyektin bazarda mövqeyinin təyin edilməsində səhvlər, rəqabət mühitinin yanlış qiymətləndirilməsi, layihənin həyata keçirilməsinin təşkilati formasının seçimində buraxılan səhvlər və s.)

Daşınmaz əmlak bazarında baş verən mürəkkəb proseslər bazarın vəziyyətinin, bazarda inkişafın perspektiv ve tendensiyalarının tədqiqinə xüsusi diqqət tələb edir. Adı çəkilən amillərə yetərincə diqqət ayrılmaması xüsusilə aşağıdakı səbəblərdən riskin baş vermə ehtimalını əhəmiyyətli dərəcədə yüksəltməyə qadirdir:

- ✓ bazarda analoji saziş və layihələrlə bağlı situasiyanın təqdimat şəklindəyetərsiz təhlil olunmaması;
- ✓ mövcud məlumatların yanlış şərh olunması;
- ✓ məlumatlara qeyri-obyektiv yanaşma;
- ✓ dəyşikən ətraf mühiti nəzərə almadan keçmiş təcrübənin gələcək dövrlərə əsaslandırılmamış ötürülməsi və s.

Real iqtisadiyyatın təhlilində daşınmaz əmlak bazarında risk sahələrindən biri daşınmaz əmlaka investisiya müasir işgüzar mühitində və xüsusən də daşınmaz əmlak bazarı biznesində kifayət qədər geniş yayılmış fenomendir. Belə ki, investisiya risklərinin təhlilinə dair çoxsaylı metodika və proqramların mövcudluğuna baxmayaraq, onlar bazarda situasiyanın öyrənilməsinə yetərsiz diqqət ayrılması səbəbindən adı çəkilən metodika və proqramlar faydasızdır. Nəticə etibarilə, əldə edilənlər çox vaxt kəsik-kəsik məlumatlardan, şəxsi təhlildən və ətraf mühitə dair təcrübədən ibarət olur. Bir çox hallarda təhlil bazarın inkişaf vəziyyəti və tendensiyalarına təsir göstərən amilləri tədqiq etmədən bazar konyukturasının öyrənilməsilə, bazarın texniki təhlililə məhdudlaşır. Məsələn, daşınmaz əmlak bazarında tələb və təklif tendensiyaları mühüm dərəcədə iqtisadiyyatın və məşğulluğun strukturu, demoqrafik situasiya, əhalinin miqrasiyası, əhalinin və sahibkarlıq subyektlərinin gəlirlər səviyyəsi və strukturu ilə, vergi dərəcələri səviyyəsi, saziş prosedurlarının davamiyyəti kimi amillərlə şərtlənən ümumi sahibkarlıq iqlimi və digərləri ilə müəyyən edilir.

Bu amillərin təsiri özünü dərhal biruzə verməsə də, onları nəzərə almamaq olmaz.

Daşınmaz əmlak bazarında istehlakçı bu bazarın mühüm iştirakçısı hesab edilir. İstehlakçı təklif edilən məhsula münasibətdə alıçıq qabiliyyətini formalaşdırır. Burada istehlakçı riskinin qiymətləndirilməsi böyük rol oynayır. R. Bauerin qavranılan risk konsepsiyasına əsasən alqı-satqı zamanı istehlakçı yeni əmtə ilə bağlı risk dərəcəsini qiymətləndirir. İstehlak riski dedikdə, əmtəə tərəfindən gözlənilməz problemlərin meydana çıxma ehtimalı başa düşülür [4]. Son nəticədə, bu növ risklər istehlak siğortası bağlı məsrəfləri tənzimləməklə, bu məsrəflərin əvvəlcədən planlaşdırılmış müddətlərdə maliyyə itkiləri baxımından ölçüyəgələndir.

Yuxarıda qeyd edilənlərlə yanaşı eyni zamanda maliyyə riskləri fərqləndirmək olar. Həmin risklər arasında aşağıdakıları göstərmək olar:

1. Maliyyə resursları ilə əlaqədar bankın uçot dərəcəsi, qiymətli kağızların dəyərinin artıb və ya azalması zamanı maliyyə risklərini ehtiva edir.[3,səh.162] Maliyyə sistemində ümumi vəziyyəti və dəyişkənliklərindən irəli gələn risklərə kreditlər üzrə faiz dərəcələrinin dəyişilməsi, valyuta məzənnəsində tərəddüdlərə, inflyasiya templərində proqnozlaşdırılan templərlə müqayisədə dəyişikliklərə məhdudiyyətlərin qoyulması, alternativ sərmayələrin gəlirliliyində dəyişikliklər aiddir.
2. Fəaliyyətin maliyyələşdirilməsi üçün seçilən bu və ya digər variantla, maliyyə qərarlarının işlənib hazırlanma səviyyəsilə şərtlənən risklər. Misal üçün, kreditin maliyyələşdirmə mənbəyi kimi seçilməsi əsas borcların və fazilərin ödənişində səhmlərin emissiyas edilməməsilə müqayisədə sərt qrafiki nəzərdə tutduğuna görə, səhmlrəin buraxılışı ilə müqayisədə daha riskli variant olmalıdır. Eyni zamanda bazara yeni daxil olmuş, az tanınmış müəssisə tərəfindən səhmlərin buraxılması maliyyə ehtiyatlarının kifayət qədər həcmdə cəlb olunmasını təmin etməyə bilər.
3. Maliyyə hesablamalarının aşağı keyfiyyətilə əlaqədar meydana çıxan risklər. Məsələn, layihə üzrə mədaxil və məsrəflər planının işlənib hazırlanması zamanı belə risklər meydan çıxdıqda layihənin hər

hansı mərhələdə likvidlikdən məhrum olmasına, yəni öhdəlikləri yerinə yetirmək qabiliyyətinin olmamasına gətirib çıxara bilər ki, bu da ya yeni maliyyələşdirmə mənbələrinin cəlb olunmasını tələb edə, ya da hətta layihənin icrasının qeyri-mümkünlüyü ilə nəticələnə bilər.

Riski qeyri-müəyyən hall kimi xarakterizə etsək təhlükənin azaldılması üçün aşağıdakılara diqqət etmək lazımdır:

1. Daşınmaz əmlakla hər hansı əməliyyatların aparılması zamanı mümkün olan risklərin üzə çıxarılması.
2. Risklərin kəmiyyət və keyfiyyət təhlili. Risk və amillərin meydana çıxma ehtimalını yüksəltməyə qadir olan risk və amillərin, risk zonalarının, daha doğrusu, riskin meydana çıxdığı əməliyyat və ya saziş mərhələlərinin, bu və ya digər riskin səbəb olduğu mümkün itki miqyaslarının müəyyən edilməsi. Mahiyyət etibarilə, risklərin təhlili vasitəsilə riskin ilkin zəmini qismində çıxış edən qeyri-müəyyənlik aradan qaldırılmaqla, risk "qeyri-risk"ə çevrilir.
3. Riskin və riskin qarşısının alınması üçün zəruri olan məsrəflərin azaldılması imkanlarının müəyyən edilməsi. Bu mənada risklərin idarə edilməsi haqqında "dar mənada" danışmaq olar. Bir neçə variant arasından seçim edilir: riski qəbul etmək, riski bölüşmək, riskin yerini dəyişmək və s.
4. Riskin qarşısını almaq imkanı verən tədbirlərin görülməsi, risklərin meydana çıxması ehtimalını və ya mümkün itkinin həcmini azaltmaq.
5. Zəruri tədbirlərin yerinə yetirilməsinə nəzarət, bu tədbirlərin məzmunu və reallaşdırılma mexanizminə dəyişikliklərin edilməsi.

**Ədəbiyyat**


1. Kazımlı X., Quliyev İ. İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi. Dərs vəsaiti, Bakı, 2011.
2. http://www.isguvenligionline.com/?pnum=15&pt=Tehlike%20ve%20risk;
3. Bağırov D., Həsənli M. Maliyyə. Dərs vəsaiti, Bakı, 2011.
4. Crocker H. Liu, Jianping Mei. The Predictability of International Real Estate Markets, Exchange Rate Risks and Diversification Consequences. 1998.
5. https://studopedia.ru/1_79384_riski-na-rinke-nedvizhimosti.html
6. Thomas Wolfgang Wiegelmann. Risk Management in the Real Estate Development Industry. Bond University. 2012.
7. Stephen L. Lee, "The Risks of Investing in the Real Estate Markets of the Asian Region", The University of Reading Whiteknights.
8. http://www.aup.ru/books/m245/4_5.htm.


**Резюме**


***Ахмедов М.М.***

*Азербайджанский государственный экономический университет (UNEC)*


**Фактор риска на рынке недвижимости**


*Рынок недвижимости представляет собой неотъемлемую составляющую национальной хозяйственной системы. Главная цель исследования заключается в анализе особенностей сложившихся рисков на рынке недвижимости и обосновании их разделения. В то же время, выделены финансовые риски, которые описаны в трех пунктах, приведены меры сокращения опасности, характеризующей риски как неопределенный случай. В качестве научной новизны тезиса перечислены вероятности возникновения риска.*



***Ключевыеслова:*** *рынок недвижимости, риск, финансовые риски, инвестиционые риски*


**Summary**


***Ahmadov M.M.***

*Azerbaijan State Economic University (UNEC)*


**Risk Factor in Reale State Market**


*The real estate market is an integral part of the national economic system. The main objective of the research comprises analysis of the specific features of the existing risks in the real estate market and justification of their distinction. At the same time, financial risks are highlighted, which are described in three paragraphs, and measures for reducing the threat characterizing risks as an indeterminate case are illustrated. The probability of occurrence of risk is listed as the scientific novelty of the thesis.*



***Key words****: real estate market, risk, financial risks, investment risk*

# AZƏRBAYCANDA QİDA SƏNAYESİ VƏ XAMMAL BAZASININ MÜASİR VƏZİYYƏTİ

***Əliyev S.H.***
*Azərbaycan Texnologiya Universiteti*

**Xülasə**

*Məqalədə Azərbaycanda qida sənayesinin müasir vəziyyəti təhlil edilmişdir. Qida təhlükəsizliyinin təmin olunması üçün hökumətin atdığı addımlar qeyd edilmişdir. İqtisadi təhlükəsizliyə nail olmaq üçün Dövlət Proqramı çərçivəsində vəzifələr müəyyən edilmişdir*

***Açar sözlər:*** *iqtisadiyyat, ərzaq, qida təhlükəsizliyi, qida sənayesi, iqtisadi təhlükəsizlik*

Dövlətin əsas iqtisadi təhlükəsizliklərindən biri də qida təhlükəsizliyidir. Azərbaycan Respublikasında gələcək yaxın on il ərzində kənd təsərrüfatının innovasiyalı inkişaf strategiyasının məqsədi bu dövr ərzində istehsalatı elə inkişaf yoluna qoymaqdır ki, bu əsasda istehsalın inkişaf tempinin artmasına, məhsul istehsalçılarının rəqabətqabiliyyətliliyini bizimlə analoji aqroiqlim şəraitində olan inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmaqdan ibarətdir.

Kənd təsərrüfatı və onunla əlaqəli olan qida sənayesi ölkə iqtisadiyyatının aparıcı sistemyaradıcı sahələri olub, aqroərzaq bazarı, ərzaq və iqtisadi təhlükəsizlik və kənd ərazilərinin əmək və məskunlaşma potensialını formalaşdırır. Kənd təsərrüfatı, xammal və ərzaq bazarının tənzimlənməsi Dövlət Proqramlarında nəzərdə tutulur ki, burada əsas prioritet əhalinin rifah halının, həyat səviyyəsinin və vətəndaşların məşğuliyyətinin artırılmasından kənd təsərrüfatı ərazilərinin inkişaf davamlılığına nail olunmasına verilmişdir [1, 2].

Qida sənayesi və kənd təsərrüfatı məhsullarının emalı sahələri qarşısında duran vəzifələr isə əhalinin yüksəkkeyfiyyətli yeyinti məhsulları ilə davamlı təmin olunması, onların həcm və çeşidinə görə fizioloji cəhətdən tövsiyə olunan istehlak norması (gündə 800-1000 q) səviyyəsində olmasından ibarətdir.

Qidalanma insan sağlamlığını müəyyən edən ən vacib amillərdən biridir. Bununla belə, bu gün ərzaq bazarında neqativ ənənəyə rast gəlmək mümkündür. Bu vəziyyət bazara təqdim olunmuş qida məhsullarında onların maya dəyərini azaltmaq məqsədi ilə bir sıra natural komponentlərin kimyəvi qida əlavələri ilə dəyişdirilməsinə əsaslanır.

Tədqiqatlar göstərmişdir ki, gündəlik rasionda A, B, E, C qrupundan olan vitaminlər və Fe, J mikroelementləri yetərincə deyildir. İnsan orqanizmi üçün vacib olan vitaminlər heç də hər gün istifadə olunan məhsulların (ət, süd, düyü) tərkibində olmur. Daimi olaraq meyvə və tərəvəz yedikdə belə vitamin defisiti probleminin aradan qalxacağına zəmanət vermək mümkün olmur. Çünki gündəlik qida məhsulları orqanizmin balansı üçün tələb olunan normanı verə bilmir. Bu gün məhşur olan vitamin əlavələri süni inqrediyentlərdən təşkil olunmuşdur və onlar heç də hər vaxt immun statusuna yaxşı təsir göstərmirlər. Bununla əlaqədar olaraq, qida məhsulları istehsalı sahəsində çalışan mütəxəssislər, yeni vasitələr hesabına bioloji tam dəyərli, enerji dəyərli qida məhsullarının genişləndirilməsi lüzumunu qeyd edirlər. Belə variantlardan biri yerli təbii bitki məhsullarından istifadəyə əsaslanır .

Bu vəzifələrin həyata keçirilməsi müalicəvi və profilaktik əhəmiyyət daşıyan məhsullarla əhalinin bilavasitə təmin olunmasına xidmət edə bilər.

Məhz bu baxımdan Azərbaycanda kənd təsərrüfatı ilə yanaşı, qida sənayesinin inkişafı da daim prioritet sahə sayılmışdır.

1995-ci ildən başlayaraq iqtisadiyyatın bazar münasibətləri əsasında qurulması, kənddə aqrar islahatların həyata keçirilməsi, məhsulun alış qiymətlərinin sərbəstləşdirilməsi, ərzaq və yeyinti məhsulları emal edən sənaye tipli müəssisələrin özəlləşdirilməsi və sair bu kimi tədbirlər dövlət mülkiyyətində olan və kənd təsəttüfatı məhsullarının emalı ilə məşğul olan sənaye müəssisələrini də əhatə etmiş və nəticədə, yeyinti sənayesi də yeni mütərəqqi texnologiyaların tətbiqinə istehsal üsullarının yerli xammala əsaslanmaqla genişləndirilməsi və təkmilləşməsinə maraq artmışdır.

Respublikamızda emal-yeyinti sənayesi sahəsində islahatların aparılması üçün hüquqi baza yaradılmış, bir sıra yeni qanunlar ("Yeyinti məhsulları haqqında", "Taxıl haqqında", "Üzümçülük və şərabçılıq haqqında" "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Müəssisələr haqqında" və s.) qəbul edilmişdir [3, 4, 5 ,6, 7]. Qida sənayesinin güclü inkişafı üçün, ilk növbədə, ancaq xammal ehtiyatları nəzərə alınır. Bu baxımdan ölkə ərazisində emal müəssisələrinin yaradılması və istehsal sahələri aşağıdakı bölgə xammal mənbələrinə görə müəyyənləşdirilmişdir.

Bölgələrin kənd təsərrüfatı ilə əlaqəli qida sənayesinin vəziyyətini təhlil sahənin inkişaf etdirilməsi üçün bir sıra üstünlüklərin olmasını göstərir. Bunlar: yeyinti sənayesinin tarixi ənənələrinin olması; bu sahədə istehsal üçün zəngin xammal bazasının olması; ölkədə yetişdirilən meyvə-tərəvəz məhsullarının bir çoxunun dünyada təkrarının olmaması; bir sıra istehsalatların respublikanın kiçik və orta şəhərlərində

yerləşdirilməsi imkanı və ərazi resurslarının olması; nəqliyyat daşımaları baxımından əlverişli iqtisadi-ciğrafi mövqedə olmaqla, potensial ixrac bazarlarına yaxınlığın olmasından ibarətdir.

Sahənin inkişaf etdirilməsi məqsədi ilə daxili və xarici bazar üçün məhsul istehsalı həcminin artırılması, həmçinin əsaslı vəsaitlərin, ilk növbədə, fəaliyyətdə olan müəssisələrin yenidən qurulması, genişləndirilməsi və texniki cəhətdən silahlandırılmasına yönəldilməsi, xarici investisiyaların, ekspertlərin, texnologiya və innovasiyaların cəlb edilməsi, digər yeyinti məhsulları istehsalçıları ilə əməkdaşlıq və kooperasiya əlaqələrinin qurulması, müstəqil dövlətlər birliyi və yaxın xarici ölkələrinin bazarlarına keyfiyyətli məhsulun ixrac edilməsi, emal-yeyinti sənayesinin inkişafı üçün xammal mənbəyi hesab edilən kənd təsərrüfatı məhsullarının bölgələr üzrə inkişafı, daxili və xarici istehlak bazarının tələbatının rəqabətədavamlı qida məhsulları ilə təmin edilməsi, qida sənayesi üçün xammal və hazır məhsulun ekoloji təmizliyinin və keyfiyyətinin dünya standartları səviyyəsinə çatdırılması, emal sənayesi üçün tələb olunan avadanlıqların ölkədə layihələndirilməsi və istehsalının təşkil edilməsi zəruridir.

Qeyd etmək lazımdır ki, qarşıda duran vəzifələrin həyata keçirilməsi respublika iqtisadiyyatının idarə edilməsində daim rəhbərliyin diqqət mərkəzində olmuş, bu sahədə artıq gələcək inkişafın təməli qoyulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli, 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2004-2008-ci illər) Azərbaycan Respublikasının regionlarında qida sənayesinin inkişafı üzrə önəmli tədbirlər nəzərdə tutulmuş və bu tədbirlər icra edilmişdir. Proqramın icrası qida sənayesinin inkişafına müsbət təsir göstərmiş-dir. Proqramın icrası nəticəsində regionlarda çoxsaylı müəssisələr fəaliyyətə başlamışdır. Bəzi müəssisələrin fəaliyyəti yenidən qurulmuşdur.

Hazırda ölkədə qida məhsulları istehsal edən müəssisələrin ümumi sayı 409 ədəd, konservləşdirilmiş tərəvəz və meyvə istehsalı 148,7 min ton (604 mln şərti banka), tərəvəz məhsulları 428 min ton, bostan məhsulları istehsalı 810 min ton təşkil edir.

"2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın təsdiq edilməsi ölkəmizdə qida sənayesində yeni bir səhifə açmışdır. Dövlət Proqramının əsas məqsədi ölkənin hər bir vətəndaşının sağlam və məhsuldar həyat tərzi üçün onun qəbul edilmiş normalara uyğun ərzaq məhsulları ilə tam təmin edilməsinə nail olmaqdır. Bu məqsədə nail olmaq üçün Dövlət Proqramı çərçivəsində aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- ölkədə ərzaq məhsullarını artırmaq;
- əhalini təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək;
- ərzaq təminatı sahəsində risklərin idarə olunmasını genişləndirmək;
- ərzaq təminatı sisteminin institusional inkişafını həyata keçirmək;
- sahibkarlıq mühitini yaxşılaşdırmaq.

Qeyd olunan vəzifələrin yerinə yetirilməsi üçün bu sahədə həyata keçiriləcək tədbirlər ölkədə sabit və adekvat ərzaq təklifinin formalaşmasına, elmi əsaslara dayanan yeni texnologiya və səmərəli istehsal yaradılmasına, ərzaq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsinə yönəldiləcəkdir.

**Ədəbiyyat**


1. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı". Bakı, 25 avqust 2008-ci il.

2. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı". Bakı, 15 sentyabr 2008-ci il.

3.İstehlakçıların hüquqlarının müdafiəsi haqqında Azərbaycan Respub-likasının qanunu. Bakı, 19 sentyabr 1995-ci il.

4. Müəssisələr haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1 iyul 1994-cü il.

5. Taxıl haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 16 iyun 2000-ci il.

6. Üzümçülük və şərabçılıq haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 19 oktyabr 2001-ci il.

7. Yeyinti məhsulları haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 18 noyabr 1999-cu il.


**Резюме**


***Алиев С.Н.***


**Пищевая промышленность в Азербайджане и современное состояние сырьевой базы**


*В статье проанализировано современное состояние пищевой промышленности в Азербайджане. Отмечено шаги правительства по обеспечению продовольственной безопасности, для которой были поставлены задачи в рамках Государственной программы.*



***Ключевые слова:*** *экономика, продовольствие, продовольственная безопасность, пищевая промышленность, экономическая безопасность*

**Summary**

***Aliyev S.H.***

**Food Industry in Azerbaijan and the Current State of the Raw Materials Base**

*The article analyzes the current state of the food industry in Azerbaijan, notes the government's steps to ensure food security. To ensure economic security, tasks were set within the framework of the State Program.*

***Key words:*** *economics, food, food security, food industry, economic security*

## AZƏRBAYCANIN KİMYA SƏNAYESİ MÜƏSSİSƏLƏRİNİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİNIN MÜASİR ASPEKTLƏRİ

***Əliyev Ş.T., Bayramov R.D.***

*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Məqalədə Azərbaycanın kimya sənayesi müəssisələrinin iqtisadi təhlükəsizliyinin müasir aspektləri tədqiq olunmuşdur. Müəssisənin iqtisadi təhlükəsizliyi ilə bağlı problemlərə yanaşmalar verilmişdir. Azərbaycanın sənaye sektorunda kimya sənayesi müəssisələrinin rolu qiymətləndirilmişdir. Qlobal iqtisadi təhlükələr şəraitində kimya sənayesi müəssiələrinin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi əsaslandırılmış və təkliflər verilmişdir.*

***Açar sözlər:*** *kimya sənayesi müəssisələri, iqtisadi təhlükəsilik, müəssisənin iqtisadi təhlükəsizliyi, qlobal iqtisadi təhlükələr, müəssisənin iqtisadi təhlükəsizliyinin müasir mexanizmləri*

Qlobal iqtisadi təhlükələrin artdığı bir dövrdə sənaye müəssisələrinin rəqabətqabiliyyətinin gücləndirilməsi və qlobal iqtisadi çağırışlara adekvat olaraq təmin edilməsi aktuallığı ilə diqqət çəkir. Belə ki, beynəlxalq bazarlarda və inteqrasiya kanallarında rəqabətin kəskinləşməsi, transmilli kompaniyaların dünyanın istənilən ölkəsində və regionunda gedən proseslərə asanlıqa təsir edə bilməsi sənaye müəssisələrinin fəaliyyətinin gücləndirilməsi, onların daha təhlükəsiz şəraitdə və az risklərə məruz qalmaqla fəaliyyət göstərməsinə təminatın yaradılması vacib şərtlərdəndir. Müəssisənin təsərrüfat, həmçinin, xarici ticarət fəaliyyəti subyekti kimi eyni vaxtda səmərəli fəaliyyət göstərməsi, beynəlxalq bazarlara çıxması və beynəlxalq əməkdaşlığa açıq olması, ixrac potensialının yüksəldilməsi müasir dövrdə daha çox tələb olunur [1, s.13]. Müəssisənin mühüm fəaliyyət mexanizmlərinin daxili və xarici risklərdən, təhlükələrdən qorunması, onun fəaliyyətinin uzunmüddətli dövr üçün təmin edilməsi, bu məqsədlərlə daha təsirli təhlükəsizlik mexanizmlərinin və elementlərinin hazırlanması kompleks tədbirlərin görülməsini şərtləndirir. İstənilən müəssisənin iqtisadi təhlükəsizliyinin əsas mexanizmləri və alətləri müəssisənin strateji fəaliyyətinə uyğun olaraq hazırlanmlıdır [2, s.51]. Bununla əlaqədar olaraq, müəssisənin spesifik fəaliyyət istiqamətləri və mexanizmləri obyektiv şəkildə təhlil edilməli, öyrənilməli, həssas və zəif halqalar müəyyənləşdirilməli, preventiv tədbirlər görülməli və müəssisənin iqtisadi təhlükəsizliyinin əsas komponentlərinin işləkliyi və adekvatlığı qiymətləndirilməlidir. Müəssisənin iqtisadi təhlükəsizlik sistemi etibarlı şəkildə formalaşdırılmalı və bu sistemə strateji idarəetmə baxımından yanaşılmalıdır [3, s.134]. İqtisadi təhlükəsizliklə bağlı problemlər, mexanizmlər, vacib elementlər barəsində idarəetmə qərarları kifayət qədər əsaslandırılmalı və müəssisənin iqtisadi fəaliyyətinin gücləndirilməsinə, istehsalın strukturunun diversifikasiyalaşdırılmasına, məhsulun keyfiyyətinin və rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə, marketinq və satış strategiyasının düzgün seçilməsinə, təsərrüfat və kooperasiya əlaqələrinin adekvatlığına uyğun olaraq hazırlanmalıdır. Qəbul edilən hər bir yüksək səviyyəli idarəetmə qərarı müəssisənin iqtisadi təhülkəsizliyi ilə bağlı amilləri ciddi şəkildə nəzərə almalıdır [4, s.59]. Xüsusilə, bazar iqtisadiyyatı şəraitində sənaye müəssisələrinin iqtisadi təhlükəsizliyi ilə bağlı daxili və xarici amillərin vaxtında müəyyənləşdirilməsi, onların mənfi fəsadlarının minimuma endirilməsi müəssisə rəhbərliyindən çevik idarəetmə qərarları və strateji yanaşmalar tələb edir. Müəssisə rəhbəri istehsalın strukturunu təkmilləşdirməklə bərabər, müasir texnologiyaların tətbiqi, satış bazarlarında tələb olunan səviyyədə mövqeyin qazanılması, məhsulun istehsal prosesindən son istehlakçılara qədər çatdırılması ilə bağlı məsələlərin ritmik təşkilinə dair kompleks tədbirlərin görülməsini təmin etməli və müəssisənin fəaliyyətində sabitliyə nail olmalıdır. Xüsusilə, antiböhran şəraitində müəssisənin iqtisadi sisteminin immunitetinin artırılmasına daha çox diqqət yetirilməlidir [5, s.114].

Qeyd edək ki, Azərbaycanda milli iqtisadiyyatın qlobal iqtisadi təhlükələr şəraitində davamlı və dayanıqlı inkişafınının təmin edilməsi məqsədilə son illərdə ardıcıl və sistemli tədbirlər görülməkdədir. Bu məqsədlə, milli iqtisadiyyatın müxtəlif sektorları üzrə strateji yol xəritələri hazırlanmış və hədəflər müəyyənləşdirilmişdir [6]. Ölkəmizin sənaye sektorunda kimya sənayesinin xüsusi əhəmiyyəti və rolu vardır. Bu sahə bilavasitə neft və qaz xammallarının emalı ilə bağlı olduğundan daha çox maraq doğurur və

güclü inkişaf potensialına malikdir. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında xammal və resursların emal proseslərinə cəlb edilməsi məsələləri xüsusilə vurğulanır və milli iqtisadi təhlükəsizliyin təmin edilməsində emal sahələrinin rolu önə çəkilir [7]. Buna görə də strateji yol xəritələri hazırlanarkən kimya sənayesinin inkişafına və onun strateji hədəflərinin müəyyənləşdirilməsinə xüsusi önəm verilmişdir. Təsadüfi deyildir ki, kimya sənayesinin inkişaf perspektivləri və strateji fəaliyyət istiqamətləri ölkənin həlledici iqtisadiyyat sahəsi olan neft və qaz sənayesi ilə birgə baxılmış və müəyyənləşdirilmişdir[8].

Qeyd edək ki, son illərdə kimya sənayesinin strukturunun təkmilləşdirilməsi və bu sahənin modernləşdirilməsi məqsədilə xeyli işlər görülmüşdür. Kimya sənayesinin yüksək iqtisadi potensialının olması səbəbindən, bu mühüm iqtisadiyyat sahəsinin inkişafının intensivləşdirilməsi və ixracyönlü məhsulların istehsal həcminin artırılması milli iqtisadiyyatın inkişaf tempinin sabitləşdiirilməsi üçün kifayət qədər mühüm məsələlərdəndir. Belə ki, kimya sənayesində və onun müəssisələrində əlavə dəyər zənciri üzrə yeni istehsal sahələrinin təşkili, emalın səviyyəsinin və ixrac həcminin artırılması üçün güclü potensial mövcuddur [9, s.16]. 2011-2017-ci illər ərzində ölkənin kimya sənayesi müəssisələrində sənaye məhsulunun həcmi 2,7 dəfəyə yaxın artmışdır. Kimya sənayesi müəssisələrində məhsul həcmi 2011-ci ildə 189 mln. manat olmuşdursa, bu göstərici 2015-ci ildə 353,2 mln. manat, 2016-cı ildə 374,2 mln. manat və 2017-ci ildə isə 503,2 mln. manat təşkil etmişdir. 2017-ci ildə məhsul istehsalı 2016-cı ilə nisbətdə 34,5 % artmışdır [10]. Ölkə üzrə emal sənayesinin sahə strukturunda kimya sənayesi müəssisələrinin payı 2017-ci ilin yekununda 5,2 %-ə yaxın olmuşdur. Qeyd edək ki, bu göstərici 2016-cı ilin yekununda cəmisi 4,2 % təşkil etmişdir [11, s.29]. Kimya sənayesi müəssisələrinin ixrac potensialı da kifayət qədər güclüdür, amma bu sahədəki potensialdan daha səmərəli istifadəyə ehtiyac vardır və valyuta vəsaitlərinin ölkəyə daha çox gətirilməsi milli iqtisadiyyatımızın təhlükəsizliyi, həmçinin kimya sənayesi müəssisələrinin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edirlər. 2016-cı ildə kimya sənayesi məhsullarının ixrac həcmi 56 mln. dollara yaxın olmuşdur, amma yaxın perspektivdə yeni iri kimya komplekslərinin və müəssisələrinin istismara verilməsi gözlənilir. Bunlar isə öz növbəsində kimya sənayesi müəssisələrinin istehsal və ixrac potensialını əhəmiyyətli səviyyədə artıracaqdır. Hazırda Sumqayıt sənaye mərkəzində nəhəng Karbamid zavodu və polimer məhsullar istehsal edə biləcək iri emal müəssisəsi-SOCAR-Polimer zavodu tikilir. Sumqayıt kimya sənaye parkında bir sıra müasir texnologiyaları əsaslı kimya müəssisələrinin istismara verilməsi gözlənilir.

Bütün bunlarla əlaqədar olaraq, kimya müəssisələrinin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi, qlobal iqtisadi təhlükələrə immunitet nümayiş etdirən iqtisadi təhlükəsizlik mexanizmlərinin işlənib hazırlanması və tətbiq edilməsi məsələləri yaxın perspektivdə aktual olaraq qalacaqdır. Bu baxımdan, ölkəmizin kimya sənayesi müəssisələrinin iqtisadi təhlükəsizliyinin müasir aspektləri daha dərindən baxılmalı və strateji yanaşmalar təmin olunmalıdır.

## Ədəbiyyat


1. Чекмазова С.И. Обеспечение экономической безопасности предприятия. Дисс. канд. экон. наук. М., 2008, 170 с.
2. Рубищев А.Н. Совершенствование комплексной системы обеспечения экономической безопасности предприятий. Дисс. канд. экон. наук. М., 2014, 136 с.
3. Гребенников В.В. Стратегия управления экономической безопасностью предприятия. Дисс. канд. экон. наук. Воронеж, 2012, 188 с.
4. Кашин А.В. Экономическая безопасность предприятия: управленческие решения. Дисс. канд. экон. наук. М., 2008, 165 с.
5. Смирнов А.А. Формирование системы экономической безопасности в условиях рыночного хозяйства. Дисс. канд. экон. наук. Санкт-Петербург, 2009, 202 с.
6. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.
7. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir.
8. "Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
9. Əliyev Ş.T. Azərbaycanın kimya və neftkimya komleksinin qiymətləndirilməsi və yenidən qurulması istiqamətləri. Bakı, Elm vətəhsil, 2012, 156 s.
10. 2017-ci ildə Azərbaycan Respublikasında sənayenin inkişafı. http://www.senaye.gov.az.
11. Azərbaycan sənayesi. Statistik məcmuə. Bakı, 2017. 342 s.

**Резюме**

***Алиев Ш.Т., Байрамов Р.Д.***

**Современные аспекты экономической безопасности предприятий химической промышленности Азербайджана**

*В статье исследованы современные аспекты экономической безопасности предприятий химической промышленности Азербайджана. Даны подходы по проблемам экономической безопасности предприятия. Оценена роль предприятия химической промышленности в промышленном секторе Азербайджана. Обоснованы и даны предложения по усилению экономической безопасности предприятий химической промышленности в условиях глобальных экономических угроз.*

***Ключевые слова:*** *предприятия химической промышленности, экономическая безопасность, экономическая безопасность предприятия, глобальные экономические угрозы, современные механизмы экономической безопасности предприятия*

**Summary**

***Aliyev Sh.T., Bayramov R.D.***

**Modern Aspects of Economic Security of the Chemical Industry Enterprise of Azerbaijan**

*The modern aspects of economic safety of the enterprises of the chemical industry of Azerbaijan are investigated in the article.The approaches on the problems of economic security of the enterprises are given.The role of chemical industry enterprise in the industrial sector of Azerbaijan is assessed.The suggestions on strengthening the economic security of chemical industry enterprises in the face of global economic threats are justified and given.*

***Key words:*** *enterprises of the chemical industry, economic security, economic security of the enterprise, global economic threats, modern mechanisms of economic security of the enterprise.*

## MİLLİ İQTİSADİYYATDA SERVİS XİDMƏTLƏRİNİN TƏŞKİLİ PROBLEMLƏRİ

***Əliyeva S.Y.***

*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Məqalədə servis xidmətlərinin təşkili problemləri tədqiq edilmiş, eyni zamanda servis xidmətlərinin qiymətləndirilməsi məsələsi araşdırılmışdır.*

***Açar sözlər:*** *sahibkarlıq, servis xidməti, istehlakçı, qiymətləndirmə*

Məlumdur ki, sahibkarlıq fəaliyyəti qarşısında duran əsas problemlərdən biri göstərilən xidmətlərin həcminin artırılmasıdır. Xidmətlər müəssisənin şəxsin, sahibkarın müəyyən tələbatının ödənilməsinə yönəldilmiş qeyri-maddi istehsal fəaliyyətinin nəticəsidir. Xidmətlər həddən artıq müxtəlif təyinatlı və məzmunludur. Digər tərəfdən xidmətlər həm dövlət, həm də qeyri-dövlət müəssisə və təşkilatları tərəfindən həyata keçirilir. Hazırda hava yolları, şirkətləri, dəmiryol vağzalları, banklar, otellər, sığorta şirkətləri, idarəetmə məsələləri üzrə məsləhət firmaları, ticarət təşkilatları xidmətlər sahələri ilə məşğul olurlar. Özü də xidmətlər oz tiplərinə görə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Belə bir hal onların təsnifləndirilməsini zəruri edir.

Xidmətlərin təsnifləndirilməsi servis sənayesinin oxşar sahələrində tapılan idarəetmə problemləri üzərində fikri cəmləşdirməyə imkan verir. Xidmətlərin təbiətinin qiymətləndirilməsi o ideyanın başa düşülməsindən başlayır ki, servis əmtəələri asanlaşdıran yardım və istifadə vasitələri daxilində edilmiş aşkar və qeyri-aşkar faydalar paketidir. Bu xidmət paramertləri servis tədarükü sistemlərinin layihələndirilməsi və idarə edilməsi zamanı çox vacibdir.

Xidmətlərin duyulmazlıq xarakteri istehlakçılar üçün problem yaradır. Məhsul alarkən istehlakçı onun fəaliyyətini görmək, duymaq və yoxlamaq qabiliyyətinə malikdir. Buna baxmayaraq, xidmətlər üçün istehlakçı servis firmasının nüfuzuna güvənməlidir. Bir çox servis sahələrində tələb olunan servisin effektivliyini təmin etmək üçün dövlət orqanlarının müdaxiləsi baş verir. Dövlət qeydiyyat, lisenziyalaşdırma və tənzimlənmənin köməyi ilə təhsil və bir sıra xidmət tədarükçülərinin fəaliyyətinin yoxlanması vasitəsilə istehlakçılara bir sıra vacib standartların yerinə yetirilməsinə təminat verə bilər. Belə ki, hiss edirik ki, ictimai obyektlərin tikinti çertyojları peşəkar mühəndis tərəfindən təsdiq edilməli, həkim tibbi təcrübə ilə məşğul olmaq üçün lisenziyalaşdırılmalıdır. Telefon şirkətlərinin fəaliyyəti isə, məlum olduğu kimi, həm də dövlət tərəfindən tənzimlənir. Öz səyi ilə istehlakçını “müdafiə etmək”lə isə dövlət bazara giriş maneələrini götürərək və ümumiyyətlə rəqabəti azaldaraq yeniliklərə mane ola bilər [1].

Servis təşkilatı məhsulunun ölçülməsi bir sıra səbəblər üzündən sadə məsələ deyil. Xidmət göstərilən istehlakçıların sayının hesablanması nadir halda faydalı olur, çünki o, göstərilən xidmətin unikallığını müəyyən etmir. Ölçmə problemi daha sonra o faktla mürəkkəbləşmişdir ki, mənfəətsiz servis sistemləri (məsələn, universitetlər, dövlət strukturları və bir sıra xəstəxanalar) mənfəətin maksimumlaşdırılması tipli vahid meyara malik deyillər ki, onların fəaliyyətinin qiymətləndirilməsi ona əsaslana bilsin. Daha vacib olanı odur ki, sistemin fəaliyyətini yalnız buraxılış əsasında o halda qiymətləndirmək mümkün oları ki, o xidmətlər üzrə eyni tələb növlərini qəbul etsin. Servis fəaliyyətinin daha ciddi qiymətləndirilməsi o dəyişikliklərin ölçülməsidir ki, onun haqqında hər bir istehlakçı prosesi girişdən çıxışa qədər (nəticəni) nəzərdən keçirərək, yəni transaksiya (işgüzar) təhlili kimi məlum olan proses əsasında məlumat verə bilər. Məsələn, konsaltinq xidmətləri və bazarın tədqiqi çox vaxt müştərilərin müvafiq informasiyaya girişinin və onların vəziyyətinə aid hər şeyi onlara nümayiş etdirməyin təmin edilməsini özündə birləşdirir. Bu xidmət metodları yalnız kastomizasiya servis fəaliyyətidir.

Xidmət prosesinin iştirakçısı kimi istehlakçının iştirak etməsi ənənəvi istehsal əməliyyatlarında tapılması mümkün olmayan vəsaitlərin layihələndirilməsinə diqqəti tələb edir. Avtomobillərin isti, çirkli, zavodda istehsal edildiyi mümkün alıcılar üçün heç bir maraq kəsb etmir, ona görə ki, onlar əvvəlcə ticarət agentinin nümayiş salonunda qəbul edilmiş vəziyyətdə məhsulu görürlər. İstehlakçının "yer"də iştirakı müəssisə üçün zəruri hesab edilməyən xidmət vasitələrinin mühitinə diqqət tələb etmir. İstehlakçı üçün servis bu xidmət vasitələri mühitində rast gəlinən təcrübədir, servis vasitələri istehlakçı üçün perspektiv nöqteyi-nəzərindən işlənmişdirsə, xidmətlərin keyfiyyəti yüksəlir. İnteryerin bəzədilməsinə, şəraitə, planlamaya, səsə, hətta gülə diqqət edilməsi istehlakçı tərəfindən servis mənimsənilməsinə təsir göstərə bilər. Sizdə bilavasitə stereotip avtobus dayanacağının qavranılmasına səbəb olan hissləri bilvasitə siz də aeroportda olan hisslərlə müqayisə edin. Əlbəttə, sərnişinlərə sənaye müəssisəsi mühitinə oxşar mühitdə işləyən aerovağzalın xidməti binasında (məsələn, baqajın yüklənməsi zonasında) olmağa icazə verilmir. Ancaq bir sıra innovasiya xidmətləri ictimai diqqət üçün servisdə inamı irəli aparmaq üçün "bek-ofislər" açdılar (məsələn, bir sıra restoranlar mətbəxləri yoxlamağa icazə verirlər, bir sıra avtomobil təmiri dayanacaqlarını gözləmə salonunun pəncərəsindən izləmək olar) [2].

Xidmətçi və istehlakçının birbaşa əlaqəsi servis sahələrində istehsal münasibətləri üçün tətbiqə də malikdir. Avtomobil sənayesi işçiləri firma ilə münaqişəyə girərək, məlum olduğu kimi, yığım xəttində məhsul buraxılışını dağıda bilər. Mümkündür ki, sonuncu nəzarət yoxlaması hər bir bu cür avtomobillərin tədarükqabağı düzəldildiyinə zəmanət verə bilər. Hirsləndirilmiş servis xidmətçisi, buna baxmayaraq, təşkilata düzəldilməsi mümkün olmayan ziyan vura bilər, çünki işçi firmanın istehlakçı ilə yeganə əlaqəsini özündə əks etdirir. Müvafiq olaraq, servis meneceri işçilərin fəaliyyətində olduğu kimi, onlarla münasibətdə maraqlı olmalıdır. Marriott mehmanxanalar silsiləsinin banisi Uillard Marriott demişdir: "Servis biznesində siz uğursuz işçilərin köməyi ilə qonaqları xoşbəxt edə bilməzsiniz". Öyrətmə və işçinin rifahının artmasında əsl maraq vasitəsilə təşkilati məqsədlər daxili əhəmiyyətli məqsədlər ola bilər.

Servisin təmin edilməsində mühüm fikir istehlakçının prosesdə fəal rol oynaya bilməsini başa düşməkdir. Bir sıra nümunələr izah edir ki, istehlakçının bilik, təcrübə, motivləşdirmə və hətta düzlüyü servis sisteminin fəaliyyətinə bilavasitə toxunur:

1. Diskont universam və mağazaların məşhurluğu istehlakçıların pərakəndə ticarət prosesində fəal rol oynamaq istəmələrinə əsaslanmışdır.
2. Xəstənin tibbi göstərişlərinin dəqiqliyi həkimin baş çəkməsinin effektivliyinə əhəmiyyətli təsir göstərə bilər.
3. Tələbələrin təhsili xeyli dərəcədə öz səyləri və tələbənin iştirakı ilə müəyyən edilir [3].

Bu strategiyanın şəklini hər şeydən yaxşı xidmət və qab-qacağın yığışdırılması ilə məşğul olan heyətin sayını xeyli azaldan sürətli yemək restoranları verə bilər. İstehlakçı vasitəsiz olaraq məhdud yeməkdən sifarişi nəinki düzür, həm də, gözlənildiyi kimi, qida qəbul etdikdən sonra özündə saxlayır. Əlbəttə, istehlakçı sürətli xidmət və bu qoyuluşa görə kompensasiya almaq üçün daha bahalı qida gözləyir, xidmətlərin tədarükçüsü isə bir çox incə üsullarla xeyir əldə edir. Birincisi, nəzarət və əlavə güzəştlər tələb edən daha az sayda heyət cəlb olunur. İkincisi, bu daha vacibdir ki, istehlakçı işi yalnız tələb olunanda yerinə yetirir. Beləliklə, xidmətlərin gücü daha çox təsbit edilmiş sayda ştat işçilərinin tələbləri ilə bağlı olaraq daha dəqiq dəyişir. İstehlakçı yalnız servis heyətinin işinin artması ilə bağlı öhdəlikləri yerinə yetirmək zəruri olduğu halda gələn müvəqqəti işçi kimi fəaliyyət göstərir. İstehlakçının prosesdən çıxarılması, hər halda, ümumi təcrübəyə çevrilir.

**Ədəbiyyat**

1. Cəbiyev R. M. Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafı. Bakı: Elm, 2000, 236 s.
2. Həsənov H.S. İri sahibkarlıq strukturları. Bakı: Azərnəşr, 2007, 276 s.

3. Vəliyev T.V. İnfrastrukturlar: mahiyyəti, təsnifatı və əhəmiyyəti. Bakı: Elm, 2000, 169 s.

**Резюме**

***Алиева С.Ю.***

**Проблемы организации сервисных услуг в национальной экономике**

*В статье исследуются проблемы организации сервисных услуг. А также анализируются вопросы оценки сервисных услуг.*

***Ключевые слова:*** *предпринимательство, обслуживание, потребитель, оценка*

**Summary**

***Aliyeva S.Y.***

**The Problems of Organization of Services in the National Economy**

*The article explores the problems of the organization of service services. And also questions of an estimation of service services are analyzed.*

***Key words:*** *entrepreneurship, service, consumer, valuation*

## KORPORATİV İDARƏETMƏNİN ƏSAS MEYARLARI VƏ ONLARIN İŞLƏNMƏSİNƏ YANAŞMALAR

***Əmiraslanova D.Ə.***

*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Korporativ strategiya diversifikasiya olunmuş şirkətin ümumi fəaliyyət planıdır. Korporativ idarəetmənin işlənməsi prosesi müəssisənin ali rəhbərliyi tərəfindən qurulur. Korporativ idarəetmə diversifikasiya olunmuş şirkətin müxtəlif sahələrdə öz işgüzar prinsiplərinin necə təsdiq etməsini, şirkətin fəaliyyət sahələrində səmərəliliyin yüksəlməsinə istiqamətlənmiş yanaşmalar və tədbirlərdən ibarət plandır.*

***Açar sözlər:*** *korporativ idarəetmə, şirkət, müəssisə, menecer, strategiya*

Korporativ idarəetmə bütün şirkəti əhatə edərək şirkətin idarə edilməsi üzrə yanaşmaları və istiqamətləndiyi sahələrdə rəqabət mövqelərinin qazanılması üçün nəzərdə tutulan tədbirləri müəyyən edir. Korporativ idarəetmədə bir çox amillər nəzərə alınmalıdır. Korporativ idarəetməni müəyyən edərkən hər bir şirkət, diversifikasiya genişliyini nəzərdə tutaraq, müəssisə tərəfindən buraxılan məhsulun çeşidinin genişlənməsi, yeni istehsal sahələrinin yaradılması, diversifikasiyanın uyğun olan növünü seçməlidir. Şirkətin rəqiblərdən fərqləndirici daha səmərəli xüsusiyyətlərini nəzərdən keçirməklə, qohum sahələrlə müqayisədə rəqabət üstünlüyünü ələ keçirərək və itki ilə işləyən sahələrin fəaliyyətini dayandırmaqla korporativ idarəetmə qurulmalıdır.

Korporativ idarəetmənin uğurluluğunu müəyyən etmək üçün aşağıdakı meyarlardan istifadə olunur [1].

- **Uyğunluq dərəcəsi meyarı.** Yaxşı strategiya şirkətin daxili və xarici mühitinə, imkanlarına və istəklərinə uyğun gəlməlidir. Vəziyyətə uyğun olmayan strategiya uğur qazana bilməz.
- **Rəqabət mübarizəsində uyğunluq meyarı.** Yaxşı strategiya sabit rəqabət üstünlüyünün əldə edilməsinə aparır. Strategiyanın köməyi ilə yaranmış rəqabət üstünlüyünün möhkəmliyi nə qədər möhkəm olarsa, strategiya bir o qədər səmərəli hesab olunur.
- **İşlərin intensivliyi meyarı.** Yaxşı strategiya şirkətin işinin intensivliyini artırır. Mənfəətliliyin artırılması, şirkətin uzunmüddətli işgüzar fəallığının və rəqabət qabiliyyətinin artırılması üzrə işlər daha əhəmiyyətli hesab olunur.

Bu və ya iki meyar üzrə yüksək olmayan potensiala malik korporativ idarəetməyə baxılması artıq vaxt itkisidir. Yalnız hər üç meyar üzrə yüksək potensiala malik olan strateji alternativ ən yaxşı hesab oluna bilər. Strateji qərar qəbul edildikdən sonra şirkətin qəbul edilmiş korporativ idarəetmənin təsirini bu meyarlarla yenidən qiymətləndirmək olar. Korporativ idarəetmənin fəaliyyətdə tətbiqi zamanı hər üç meyar üzrə yüksək səviyyəyə uyğun gələn cəhətlər nə qədər çox olarsa, bu strategiyanı bir o qədər yaxşı hesab etmək olar [2].

Korporativ idarəetmənin üstünlüklərini müəyyən etmək üçün əlavə meyarlar da mövcuddur. Bu meyarlara nümunə kimi aşağıdakıları misal göstərə bilərik:

aydınlıq; strategiyaların bütün hissələrinin qarşılıqlı əlaqəliliyi və bir-birini tamamlaması; aparıcı icraçıların şəxsi motivlərinə və dəyərlərinə uyğunluq; risk dərəcəsi; çeviklik və s.

Şirkətlərdə korporativ idarəetmənin işlənməsi prosesinə müxtəlif formada yanaşırlar. Sahibi tərəfindən idarə olunan kiçik şirkətlərdə korporativ idarəetmənin işlənməsi qeyri-formal surətdə baş verir, bir çox hallarda yalnız menecerin yaddaşında olmaqla, yazılı surətdə mövcud olmur. İri şirkətlərdə isə korporativ

idarəetmə əməliyyatlarının köməyi ilə hazırlanır. Bu işlərin görülməsi üçün böyük inzibati potensialın mövcudluğu, çoxsaylı tədqiqatlar və təklif olunan qərarların müzakirəsi üçün görüşlər tələb olunur. Şirkətin diversifikasiya dərəcəsi yüksək olduğu hallarda, menecerlər inzibati yoxlamadan keçmiş və bütün səviyyələrdə rəsmən təsdiq edilmiş plana daha çox üstünlük verirlər.

Xarici şirkətlərin təcrübəsində korporativ idarəetmənin işlənməsində dörd yanaşmadan istifadə olunur:[3, 4]

* **Əsas strateji yanaşma.** Bu yanaşmada menecer əsas icraçı və sahibkar kimi çıxış edir, vəziyyətin və alternativ korporativ idarəetmənin qiymətləndirilməsində, korporativ idarəetmənin əsas hissələrinin müəyyən edilməsində aparıcı rol oynayır. Bu, o demək deyil ki, menecer korporativ idarəetmənin hazırlanması üzrə bütün işləri özü həyata keçirir. Bu halda menecer korporativ idarəetmənin işlənməsinin arxitektoru kimi çıxış edir və onun təşkiledicilərinin formalaşmasında fəal rol oynayır. Əsas strateji yanaşmaların zəif cəhəti ondan ibarətdir ki, korporativ idarəetmənin uğurluluğu bir nəfərin – rəhbərin dünya görüşü, motivləri, biznes fəlsəfəsi mədəni dəyərləri və peşəkarlıq səviyyəsi kimi xüsusiyyətlərindən asılı olur. Belə yanaşma şirkətin rəhbərində nə etmək və necə etmək sualları barədə çox yaxşı təsəvvürün olduğu halda özünü doğruldur. Əsas strateji yanaşma adətən bir istiqamət üzrə ixtisaslaşmış kiçik və orta ölçülü müəssisələrdə olunur.

* **Səlahiyyətlərin ötürülməsi yanaşması.** Bu yanaşmada menecer korporativ idarəetmənin işlənməsi vəzifəsini strateji planlaşdırmada bölməsinə və ya mütəxəssislərdən ibarət komissiyaya tapşırır. Menecer işin gedişatı ilə dövri hesabatlar və müşavirələr vasitəsilə tanış olur, rəsmi qaydada təqdim edilərək müzakirələrdə tam həmrəyliklə qəbul edilmiş strateji planı təsdiq edir. Bu yanaşma menecerə strateji ideyalar arasında daha yaxşı seçim etməyə, müxtəlif ranqlı menecerləri bu işə cəlb etməyə imkan verir. Burada menecerin korporativ idarəetmənin işlənməsi prosesindən kənarda qalması və beləliklə, şirkətə strateji rəhbərlik etmək imkanlarının azalması təhlükəsinin olması göstərilən yanaşmanın mənfi cəhətlərindən hesab olunur. Digər tərəfdən korporativ idarəetmədə işləyən mütəxəssislər menecerin bu prosesə az diqqət göstərməsini elə qəbul edə bilərlər ki, korporativ idarəetmənin işlənməsi üzrə səylər rəhbərin diqqətini cəlb etmək üçün o qədər də əhəmiyyətli deyil. Bu da öz növbəsində həmin işçilərin motivasiyasının dəyişməsinə və korporativ idarəetmənin işlənməsinə diqqətin azalmasına gətirib çıxara bilər. Bir çox hallarda şirkətlərdə korporativ idarəetməni qısa müddət üçün işləyirlər. Belə strategiya cari problemlərin həllinə istiqamətlənir və müəssisəyə gələcəkdə yaranacaq imkanlardan istifadə imkanları yaratmır.

* **Birgə yanaşma.** Bu yanaşma əvvəlki yanaşmalar arasında orta mövqedə dayanır. Burada razılaşdırılmış strategiyanın işlənməsi və onun uğurla həyata keçirilməsi üçün tabeçiliyində olan aşağı ranqlı menecerləri bu işə cəlb edir. Birgə yanaşmanın üstün cəhəti ondan ibarətdir ki, burada qəbul edilən strategiya onu qəbul edən şəxslər tərəfindən də icra olunur. Buna görə də, korporativ idarəetmənin işlənməsinə cəlb olunmuş gələcək icraçılar bu prosesdə daha fəal iştirak edirlər. Belə yanaşmanın zəif cəhəti ondan ibarətdir ki, burada cəsarətli təşəbbüslərdən məhrum olan razılaşdırılmış variant strategiya kimi qəbul edilir. Bəzi hallarda isə şirkətdə böyük təsir gücünə malik olan qrupun maraqlarını ifadə edən variant strategiya kimi qəbul olunur. Şirkətdə strateji variantlar arasında seçimdə yekdilliyin olmadığı halda siyasət və hakimiyyətdən istifadə zərurəti yaranır [5].

* **Təşəbbüskar yanaşma.** Bu yanaşmada rəhbər nə korporativ idarəetmənin işlənməsi prosesinə, nə də bu işlə məşğul olan işçi qrupa şəxsən başçılıq etmir. Burada rəhbər öz tabeçiliyində olan menecerləri strategiyanı yaxşı işləməyə, müdafiə etməyə və reallaşdırmağa həvəsləndirir, korporativ idarəetmənin işlənməsi prosesi aşağıdan yuxarı istiqamətində irəliləyir. Rəhbərlər menecerlərin onlara təqdim etdikləri strategiyanı qiymətləndirən hakim rolunda çıxış edirlər. Bu yanaşma diversifikasiyaya dərəcəsi böyük olan şirkətlərdə daha çox istifadə olunur. Belə ki, belə şirkətin rəhbərləri müxtəlif sahələr üçün uğurlu strategiyaların işlənməsinə şəxsən rəhbərlik etmək imkanlarında olmurlar. Şirkətin ali rəhbərliyi isə aşağı bölmələr üçün strateji istiqamətləri təyin edirlər. Bu yanaşmada korporativ idarəetmə menecerlər tərəfindən müdafiə olunacaq və rəhbərlik tərəfindən bəyəniləcək təşəbbüslərdən ibarət olur. Təşəbbüskar yanaşmanın əsas mənfi cəhəti ondan ibarətdir ki, aşağılardan gələn və adətən biznes vahidlərin və ya funksional bölmələrin problemləri və imkanları ilə bağlı olan strateji təşəbbüslər arasında məntiqi bağlılığı tapmaq çox çətin olur və onları bir strateji istiqamət altında birləşdirmək demək olar ki, mümkün olmur. Buna görə də, şirkət rəhbərliyi təşəbbüskar yanaşma zamanı aşağı halqa rəhbərlərinə müəyyən strateji istiqamət göstərərək bu yöndə təşəbbüsləri irəli sürməyi təklif edə bilərlər.

Strategiyanın uğurlu olması üçün onu bazarın imkanları və xarici mühitin təhlükələri ilə bağlı surətdə hazırlamaq lazımdır. Bunun üçün bazarın imkanlarından istifadə istiqamətində hücum tədbirləri, uzunmüddətli rəqabət mövqelərinin qorunması üçün istifadə tədbirləri, uzunmüddətli rəqabət mövqelərinin qorunması üçün istifadə tədbirləri hazırlanmalıdır.

**Ədəbiyyat**

1. Hüseynov T.Ə. Müəssisənin iqtisadiyyatı. Bakı, 2005.
2. Hüseynov T.Ə. Sənayenin iqtisadiyyatı. Bakı, 2001.
3. Səmədzadə Ş.Ə. İstehsal menecmenti. Bakı, 2006.
4. İmranov A.M., Mustafayev A.M. Menecmentdə motivləşdirmə. Bakı, 2004.
5. Kərimov X. Strateji menecment. Bakı, 2008.

**Резюме**

***Амирасланова Д.А.***

**Основные критерии корпоративного управления и подходы к их разработке**

*Корпоративная стратегия - это общий план деятельности диверсифицированной компании. Процесс разработки корпоративного управления создается высшим руководством предприятия. Корпоративное управление является планом мероприятий и подходов, направленных на повышение эффективности в сферах деятельности диверсифицированной компании и утверждению принципов ее работы в различных сферах.*

***Ключевые слова:*** *корпоративное управление, компания, предприятие, менеджер, стратегия*

**Summary**

***Amiraslanova D.A.***

**Main Criteria of Corporate Governance and Approaches to Their Development**

*A corporate strategy is a general plan for the activities of a diversified company. The process of developing corporate governance is created by senior management of the enterprise. Corporate governance is a plan of actions and approaches aimed at increasing efficiency in the areas of the diversified company's activities and asserting the principles of its operation in various fields.*

***Key words:*** *corporate governance, company, enterprise, manager, strategy*

## SƏNAYE MÜƏSSİSƏLƏRİNİN DAVAMLI İNKİŞAFINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

***Əsgərov X.G.***
*Azərbaycan Texniki Universiteti*

**Xülasə**

*İqtisadi qloballaşma şəraitində sənaye müəssisələrinin formalaşdırılması və onun möhkəmləndirilməsi sahəsində həyata keçirilən tədbirlər müvəqqəti xarakter daşımamalıdır. Bu sahədə həyata keçirilən tədbirlərin fasiləsiz olaraq təkmilləşdirilməsi, istehsalın müasir tələblərə uyğun təşkilinin təmin edilməsi tələb olunur. Odur ki, məqalədə sənaye müəssisələrinin davamlı inkişafına təsir göstərən amillərin tədqiqi mühüm vəzifə kimi qarşıya qoyulmuşdur.*

***Açar sözlər:*** *milli iqtisadiyyat, sənaye müəssisələri, davamlı inkişaf, innovasiya, investisiya, rəqabət*

Müasir şəraitdə davamlı inkişaf milli iqtisadiyyatın elə bir artımını nəzərdə tutur ki, onun sayəsində cəmiyyətin müasir tələbatlarını ödəyərkən gələcək nəsillərin artan tələbatlarının daha yaxşı ödəmək qabiliyyətini məhdudlaşdırmasın. Azərbaycanda səmərəli fəaliyyət göstərən milli iqtisadiyyatın formalaşdırılması və inkişafı həlledici dərəcədə onun dayanıqlı inkişafından asılıdır. Hal-hazırda qloballaşan dünyaya fəal inteqrasiya olunan Azərbaycan milli iqtisadiyyatın rəqabət mübarizəsinə davam gətirmək üçün ilk olaraq iqtisadi inkişafın prioritetlərini düzgün müəyyənləşdirməlidir. Daha sonra onların reallaşdırılmasının mövcud reallığa və imkanlara uyğun səmərəli üsul, vasitə və mexanizmlərini seçməlidir. Son illərdə Azərbaycanda milli iqtisadiyyatın davamlı və dayanıqlı inkişafa keçidini təmin etmək üçün kompleks iqtisadi, təşkilati, siyasi ilkin şərtləri formalaşdırmaqla bağlı görülən işlər sayəsində ölkəmizdə kifayət qədər iqtisadi, sosial, elmi–texniki, kadr potensialı, institutsional, hüquqi baza, start kapitalı yaradılmışdır.

Milli iqtisadiyyatda baş verən quruluş dəyişiklikləri elmi-texniki tərəqqinin inkişaf səviyyəsi və xarakteri ilə qarşılıqlı əlaqədə və asılılıqda olan bir prosesdir və o eyni zamanda elmi-texniki tərəqqinin sürətləndirilməsinin mühüm şərti kimi çıxış edir. Bu baxımdan respublikamızda elə elmi-texniki və struktur siyasətin formalaşdırılmasına çalışmaq lazımdır ki, o bir tərəfdən Azərbaycanın malik olduğu bütün resurslardan səmərəli istifadə etməyə və respublikamızın qarşısında duran sosial-iqtisadi problemlərin mümkün qədər optimal müddətdə həll etməyə şərait yaratsın və ən başlıcası isə, perspektivdə iqtisadi artımın imkanlarını məhdudlaşdırmasın. Respublikamızda uzun bir dövrü əhatə edən struktur siyasəti, bir tərəfdən milli iqtisadiyyatın cari problemlərinin həllini, digər tərəfdən isə perspektivdə Azərbaycanın dünya iqtisadiyyatına daha intensiv qovuşmasını, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsini, ən başlıcası isə, davamlı və dayanıqlı inkişaf problemlərinin həllini nəzərə almalıdır[2].

Bazar münasibətlərinin formalaşdığı və səmərəli fəaliyyət göstərdiyi müasir dövrdə ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi həlledici səviyyədə sənaye müəssisələrinin intensiv yüksəlişindən asılıdır. Məlum olduğu kimi, dövlətin sənaye siyasəti bir qayda olaraq iqtisadi sistemlərin tipindən və formasından, ölkənin iqtisadiyyatının və xüsusilə sənayenin inkişafının mövcud vəziyyətindən asılı olaraq həyata keçirilir. Sabit iqtisadi inkişafa malik olan ölkələrdə sənaye siyasəti yalnız qarşıya qoyulan prioritet məqsədlərə nail olunmasına istiqamətləndirilir.

Bazar iqtisadiyyatı formalaşan ölkələrdə, o cümlədən Azərbaycan Respublikasında dövlətin sənaye siyasətinin həyata keçirilməsinə bir sıra amillər, yəni yeni mülkiyyət münasibətlərini nəzərdə tutan normativ-hüquqi əsasların hazırlanması, çoxukladlı iqtisadiyyatın formalaşması, istehsal olunan məhsulların və maddi-texniki resursların qiymətinin liberallaşması və s. təsir göstərir.

Sənaye müəssisələrinin inkişafına yeni təkan vermək və onun modernləşdirilməsini sürətləndirmək, sənaye sektorunda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmək, eləcə də maliyyə resurslarını səmərəli şəkildə cəlb etmək kimi vəzifələr sənaye sektorunun möhkəm maliyyə təminatının yaradılmasını tələb edir. Qeyd edək ki, qlobal iqtisadi proseslər zəminində xam neftin qiymətinin dünya bazarlarında kəskin azalması ölkənin gəlirlərinə mənfi təsir göstərmişdir. Buna baxmayaraq, son illər qeyri-neft sektorunun inkişafında və əhalinin sənaye məhsullarına olan tələbatının tam ödənilməsində xüsusi rolu olan sənayenin inkişafına dövlət büdcəsindən ayrılan vəsait azaldılmamışdır. Bunu biz bu sahədə əldə olunan nəticələrdən də aydın görə bilərik.

**Cədvəl 1.**

**Sənaye sektoru üzrə əsas makroiqtisadi göstəricilər[3]**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| Əlavə dəyər, cari qiymətlərlə, milyon manat | 27 040 | 26 442 | 24 169 | 17 912 | 22 447 |
| Ümumi mənfəət, cari qiymətlərlə, milyon manat | 25 286 | 24 440 | 22 215 | 15 803 | 19 798 |
| Xalis mənfəət, cari qiymətlərlə, milyon manat | 24 397 | 23 554 | 21 140 | 14 318 | 17 942 |
| Muzdlu işçilərin orta illik sayı, min nəfər | 181.0 | 197.2 | 197.2 | 187.1 | 186.1 |
| Orta aylıq nominal əmək haqqı, manat | 590,1 | 630.8 | 694.8 | 809.3 | 927.6 |
| Əsas fondlar (ilin axırına), milyon manat | 46 769 | 53 529 | 61 809 | 71 979 | 84 744 |
| Əsas kapitala investisiyalar, milyon manat | 6 040 | 7 500 | 7 640 | 8 500 | 9 950 |

Cədvəl 1-dən göründüyü kimi, sənayedə yaradılan əlavə dəyərin həcmi 22447 milyon manat təşkil etmişdir ki, bu da 2015-ci illə müqayisədə 4535 milyon manat və yaxud 25,3% çoxdur.

Sənayedə istehsalın iqtisadi səmərəliyinin artırılması ilk növbədə məhsuldarlığın səviyyəsinin yüksəldilməsindən və məhsulun rəqabət qabiliyyətinin mühüm şərti olmaqla çox cəhətdən elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin tətbiqindən asılıdır. Sənayedə yaranmış iqtisadi vəziyyət onun elmi-texniki təchizatının yeniləşdirilməsi probleminin əhəmiyyətini artırmışdır.

Sənaye istehsalının xüsusiyyətləri, onun təbii, texnoloji və sosial-iqtisadi mahiyyətinin mürəkkəbliyi texnoloji, iqtisadi, sosial və ekoloji səmərəliliyinin fərqləndirilməsini nəzərdə tutur. Sənaye müəssisələri ilə onların xammalını emal edən sənaye müəssisələrinin arasında münasibətlərin normativ-hüquqi əsaslarının qaydaya salınması və təkmilləşdirilməsi günün vacib məsələlərindən biridir. Sənaye sahələrini inkişaf etdirməklə yanaşı, onun texnika ilə təchizatının yaxşılaşdırılması, maddi-texniki təminatının möhkəmləndirilməsi, əhalinin istehsal və həyat şəraitinin yaxşılaşdırılması, əməyin məhsuldarlığının artırılması məsələləri ön plana çəkilməlidir. [1].

Sənaye müəssisələrinin davamlı inkişafının formalaşdırılması da bir sıra amillərin vacibliyini tələb edir. Həmin amilləri əsas olaraq iqtisadi, sosial, ekoloji, siyasi və hüquqi amillərə bölmək olar. İqtisadi amillər hər şeydən öncə, əlverişli iqtisadi və investisiya mühitinin formalaşdırılmasını, təbii və digər amillərdən qənaətli istifadə əsasında makroiqtisadi və makromaliyyə göstəricilərinin yüksəldilməsini nəzərdə tutur və davamlı inkişaf konsepsiyasının əsasını təşkil edir. Hesab edirik ki, sənayenin davamlı inkişafına təsir göstərən yuxarıda qeyd edilən bu amillərin hər birinin ayrı-ayrılıqda deyil, kompleks şəkildə nəzərdən keçirilməsi daha məqsədəuyğundur. Çünki bu amillərin hər biri digərini tamamlamaqla, qarşılıqlı əlaqə şəraitində fəaliyyət göstərir. Davamlı inkişafın formalaşması və tarixi inkişafı baxımından qeyd edilən amillərdən üçü: iqtisadi, sosial və ekoloji amillər ilkin əhəmiyyət kəsb edir. İlkinlik davamlı inkişafın məhz bu amillərin mövcud olduğu sferaların qovşağında meydana gəlməsi və mövcud olması ilə əlaqədardır. Dövlətin və cəmiyyətin davamlı inkişafa baxışlarından və bu istiqamətdə həyata keçirilən tədbirlərin miqyasından və keyfiyyətindən, digər amillərdən asılı olaraq bu sferalar ayrı-ayrılıqda da, kəsişmə halında da fəaliyyət göstərə bilər. Ölkədə davamlı inkişaf səviyyəsi daha da genişləndikcə kəsişmə sahəsinin həcmi böyüyür, əks halda isə kiçilir. Sənayenin davamlı inkişafının formalaşması zamanı prioritetlərin düzgün

müəyyən edilməsi də mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Göründüyü kimi, sənayedə davamlı inkişafın formalaşdırılması çox çətin və uzun müddət tələb edən bir prosesdir. Odur ki, davamlı inkişafın yalnız məcburetmə tədbirləri sayəsində və dövlətin köməyilə formalaşdırılması fikiri düzgün deyildir. Bunun üçün cəmiyyətin hər bir üzvü tərəfindən davamlı inkişaf məsələsinə ciddi maraq göstərilməlidir. Bir sözlə, yerli səviyyədən tutmuş qlobal miqyaslı tədbirlərə qədər ciddi addımlar atılmalı, bütün qüvvələr eyni məqsəd istiqamətində səfərbər edilməli, davamlılıq prinsiplərinə əməl olunması hər kəsin gündəlik həyat tərzinə çevrilməlidir. Beləliklə, insanların həyat tərzindən tutmuş illərlə formalaşan dəyərlər sisteminə qədər ciddi dəyişikliklər aparılmalıdır. Necə deyərlər, israfçılığı qənaət, kəmiyyət artımını keyfiyyət təkmilləşməsi, sərt rəqabəti isə əməkdaşlıq əvəz etməlidir. Azərbaycan Respublikasında ayrı-ayrı sənaye məhsullarının istehsalı sahəsində mövcud olan əlverişli, hətta unikal iqtisadi şərait, sənaye məhsullarının istehsalı üzrə infrastrukturun və müsbət təcrübənin ucuz və eyni stabillik və nəhayət, əverişli geostrateji mövqe ölkənin sənaye sahəsinin istər milli, istərsə də xarici investorlar üçün cəlbediciliyini təmin edir.

Sənayenin inkişafı üçün innovasiya-investisiya siyasəti həlledici əhəmiyyət kəsb edir. Bununla əlaqədar sənayenin bütün sahələrində elmi-texniki nailiyyətlərdən istifadənin səmərəliliyini artırmaq üçün əsaslı tədbirlər görülməlidir. Sənayedə vahid, razılaşdırılmış elmi-texniki və innovasiya siyasətinin həyata keçirilməsi üçün şərait yaratmaq məqsədilə innovasiya və investisiya siyasətini stimullaşdıran qanunlar qəbul edilməli, stimullaşdırmanın müxtəlif növlərindən istifadə edilməli, mühüm strateji əhəmiyyətli dövlət innovasiya layihələri həyata keçirilməli, elmi-texniki və investisiya fəaliyyəti sahəsində dövlət siyasətinin regional aspektləri gücləndirilməlidir.

Neft sektorunun sürətli inkişafı, tikinti və sənaye sahələrinin dirçəlməsi ilə əlaqədar yüksəlməyə meyilli olan şəhər əhalisinin gəlirləri ilə kənd əhalisinin gəlirləri arasındakı fərqin azaldılması sənayenin inkişafı baxımından mühüm rola malikdir. Ona görə də, birinci növbədə, rəqabətədavamlılıq əsasında sənaye davamlı istehsal imkanları yaradılmalıdır.

**Ədəbiyyat**

1. Nuriyev Ə.X. Regional siyasət və idarəetmə. Bakı: Elm, 2004, 348 s.

2. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: dayanıqlı və davamlı inkişafın təntənəsi. Monoqrafiya. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2011. 556 s.

3. www.azstat.org - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin elektron səhifəsi.

**Резюме**

***Аскеров Х.Г.***

*Азербайджанский технический университет*

**Факторы, влияющие на устойчивое развитие промышленных предприятий**

В условиях глобализации меры по формированию и укреплению промышленных предприятий не должны носить временный характер. Меры, внедряемые в этой области, должны постоянно совершенствоваться. Требуется организовывать производства в соответствии с современными требованиями. Поэтому статья посвящена изучению факторов влияющих на устойчивое развитие промышленных предприятий.

***Ключевые слова:*** *национальная экономика, промышленные предприятия, устойчивое развитие, инновации, инвестиции, конкуренция*

**Summary**

***Asgarov Kh.G.***

*Azerbaijan Technical University*

**Factors Affecting the Sustainable Development of Industrial Enterprises**

The measures on the formation and strengthening of the industrial enterprises in the condition of economic globalization should not be temporary. The measures introduced in this area should improve constantly the need to organize production according to modern requirements. Therefore, the article is devoted to the study of factors affecting the sustainable development of the industrial enterprises.

***Key words:*** *national economy, industrial enterprises, sustainable development, innovation, investment, competition*

# İQTİSADİ SƏMƏRƏLİLİK ANLAYIŞINA YANAŞMALARIN ELMİ-NƏZƏRİ ƏSASLARI VƏ SUVARILAN TORPAQLARIN İQTİSADİ SƏMƏRƏLİLİYİNİN METODOLOJİ ASPEKTLƏRİ

***Əzizova K.V.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Müasir dövrün əsas vəzifələrindən biri kənd təsərrüfatında əmək məhsuldarlığının yüksəldilməsi yollarının aşkar edilməsidir. Bu məqsədlə kənd təsərrüfatı üçün yararlı olan torpaq sahələri genişləndirilməli, onların məhsuldarlığı artırılmalıdır. Burada suvarma suyundan səmərəli istifadənin rolunu xüsusilə qeyd etmək lazımdır.*

***Açar sözlər:*** *suvarma, meliorasiya, səmərəlilik, məhsuldarlıq, torpaq*

Sahibkarlığın inkişaf etdiyi müasir dövrdə istehsal münasibətlərinin əsas amillərindən biri olan iqtisadi səmərəlilik anlayışı hər zaman olduğu kimi bu gün də mühüm iqtisadi məsələlərdən biridir. Belə ki, yeni istehsal münasibətlərinin formalaşması iqtisadi səmərəliliyi aktual bir məsələ halına gətirmişdir. Müasir dövrdə iqtisadi səmərəlilik göstəricilərində müəyyən dəyişikliklər olmuşdur ki, bunun da nəticəsində bugünkü səmərəlilik anlayışı müəyyən mənada dəyişmişdir. Bu baxımdan kənd təsərrüfatı sahəsində suvarılan torpaqlardan istifadənin iqtisadi səmərəliliyi müasir dövrün şərtlərinə uyğun olaraq müəyyənləşdirilmişdir.

Məlumdur ki, səmərəlilik mürəkkəb bir anlayış olmaqla, onun mahiyyəti müxtəlif yanaşma formaları ilə izah edilir. Odur ki, iqtisadi ədəbiyyatlarda vahid fikir birliyi yoxdur. Kənd təsərrüfatında səmərəliliyi, ictimai istehsal anlayışı kimi, bəzi iqtisadçılar 1 hektar torpaq sahəsindən minimal xərclər müqabilində daha çox məhsul istehsalı ilə xarakterizə etməyi, digər iqtisadçılar isə cəmiyyətin tələbatının ödənilməsi ilə yanaşı, xalis məhsul alınmasının təmin edilməsini səmərəlilik kimi qəbul edilməsini təklif edirlər. Üçüncü qrup iqtisadçılar isə səmərəliliyi əldə edilmiş nəticələrin xərclərə nisbəti kimi qiymətləndirirlər [3].

Təbii ki, müasir dövrdə ölkədə sahibkarlığın inkişafı şəraitində kənd təsərrüfatında səmərəlilik müəyyən olunarkən onun təsərrüfatçılıq formaları, təşkilati, iqtisadi, ictimai və sosial aspektlərini əsas meyar kimi qəbul etmək daha məqsədə uyğun olar. Sahibkarın başlıca məqsədi də mümkün qədər az xərc çəkmək müqabilində daha çox və keyfiyyətli məhsul əldə etməkdən ibarətdir. Belə ki, tanınmış iqtisadçı alim L.İ.Abalkin hesab edir ki, səmərəlilik iqtisadi inkişaf prosesinin nəticəsidir. Onun fikrincə, səmərəlilik alınan nəticələrin sərf edilən məsrəflərə və ehtiyatda olanlara nisbətidir. Səmərəliliyin artması isə minimum səviyyədə məsrəflər müqabilində mümkün qədər çox nəticələrə malik olmaq deməkdir [2].

V.A.Tixonov isə səmərəliliyi iqtisadi kateqoriya kimi qiymətləndirərək onu iqtisadi münasibətlər prosesinin nəticəsi kimi qəbul edilməsini düzgün hesab edir. O, həmçinin səmərəliliyi istehsalın nəticəsi kimi də əks etdirir. Deməli, səmərəlilik iqtisadi nəticələri qiymətləndirmə meyarı olmaqla, həmin məqsədə nail olmaq səviyyəsini müəyyən etmək üçün iqtisadi bir vasitə və kateqoriya kimi də qəbul oluna bilər.

Həmçinin "səmərəlilik" yalnız iqtisadi münasibətlərin nəticələrinin deyil, həmçinin insan fəaliyyətinin ayrı-ayrı sahələrinin qimətləndirilməsi üçün istifadə edilən, eyni zamanda istehsal prosesinin bütün sahələrinin nəticələrinin qiymətləndirilməsi meyarı olan ayrıca bir kateqoriyadır. Araşdırmalar nəticəsində aydın olur ki, iqtisadçı alimlər arasında istehsalın səmərəliliyini müəyyən edən göstəricilər barədə də birmənalı fikir formalaşmamışdır. Bəzi hallarda istehsalın səmərəliliyi kateqoriyası ilə onu müəyyən edən göstəricilər arasında heç bir fərq qoyulmur, onların məzmun və mahiyyəti eyniləşdirilir. Bəzi iqtisadçılar isə istehsal nəticələrinin qiymətləndirilməsi meyarı ilə iqtisadi göstəricilər arasında oxşarlığın olmadığını iddia edirlər. Məhdud mənada istehsalın səmərəliliyinin yüksəldilməsinə ən az məsrəflə eyni istehsal nəticəsində nail olunur. Başqa sözlə, eyni əmək müqabilində daha çox məhsul əldə etmək, yaxud ən az əmək miqdarı ilə eyni səviyyədə və daha çox istehsal nəticəsinə nail olmaqdan ibarətdir.

Professor İ.Ş.Qarayevin fikrincə, istehsalın səmərəliliyi özünü texnoloji, sosial və iqtisadi səmərəlilik formalarında göstərir. Aqrar bölmədə istehsalın texnoloji səmərəliliyi kənd təsərrüfatı bitkilərinin və heyvandarlığın məhsuldarlığı, bitkiçilik və heyvandarlıq məhsullarının enerji tutumu, müqayisəli qiymətlərlə kənd təsərrüfatının ümumi məhsulu, hər hektar yararlı torpağa, o cümlədən əkin yerinə görə əsas heyvandarlıq məhsulları istehsalı, əlavə sərf olunmuş resursların hər vahidi hesabı ilə müqayisəli qiymətlərlə ümumi məhsul istehsalının artımı və s. göstəricilər vasitəsilə müəyyənləşdirilir.

Sosial səmərəlilik isə bir nəfərin orta illik işçi hesabı ilə istehlak fondunun həcmi, real gəlirlərin səviyyəsi, əmək haqqının səviyyəsi, əhalinin demoqrafik geniş təkrar göstəriciləri, bir nəfərin cari istehlakı, bir nəfər hesabı ilə satılmış məhsulun fiziki həcmi, bir nəfər hesabı ilə pullu xidmətlərin həcmi, real gəlirlə minimum yaşayış zənbili arasındakı nisbət və s. göstəricilərdən istifadə edilməsi kimi təklif edilir. Belə

qeyri-müəyyənlik şəraitində sahibkarın fəaliyyətinin iqtisadi səmərəliliyini müəyyən etmək üçün konkret təkliflər irəli sürülməsi olduqca nəzəri və praktiki əhəmiyyət kəsb edir [5].

Eyni zamanda İ.Ş.Qarayev göstərir ki, iqtisadi səmərəlilik əsas növ kənd təsərrüfatı məhsullarının maya dəyəri, cari qiymətlərlə ümumi məhsulun dəyəri, ümumi gəlir, mənfəət, bir hektar kənd təsərrüfatına yararlı torpaq, bir hektar əkin yeri, bir nəfər orta illik işçi, bir manatlıq əsas istehsal fondları və cari istehsal vasitələrinin hər bir vahidi hesabı ilə cari qiymətlərlə ümumi məhsulun dəyəri, ümumi gəlir və mənfəət göstəriciləri ilə səciyyələndirilir. Bununla yanaşı, ədəbiyyatlarda iqtisadi səmərəliliyin mahiyyətinin müəyyən edilməsinə birmənalı yanaşılmayaraq müxtəlif ziddiyyətli fikirlər mövcuddur. Suvarılan torpaqlarda isə kənd təsərrüfatı məhsulları istehsalının iqtisadi səmərəlilik aspekti ayrı-ayrı növ məhsulların istehsalına çəkilən xərclər, satış qiymətləri, rentabellik səviyyəsi və digər iqtisadi qiymətləndirmə xüsusiyyətlərini özündə əks etdirir. Bəzi iqtisadçı alimlər səmərəlilik məfhumu altında Aqrar Sənaye Kompleksi (ASK) sisteminin məhsuldar qüvvələrinin və istehsal əlaqələrinin mütərəqqiliyini başa düşürlər. Digər tərəfdən isə aqrar - sənaye istehsalının effektliyinə məhsul istehsalı prosesində kompleksin istehsal ehtiyatlarından istifadə səviyyəsinə təsir edən kateqoriya kimi baxılır.

Ümumiyyətlə, kənd təsərrüfatında səmərəlilik göstəriciləri bilavasitə istehsal vasitələri və əmək cisimləri sərfindən, istehsal münasibətlərinin formasından, kənd təsərrüfatına yararlı torpaqların keyfiyyəti və suvarılan torpaqlardan faktiki istifadə edilməsi səviyyəsindən, mütərəqqi istehsal mədəniyyətindən, istehsal edilmiş məhsulların keyfiyyətindən, onlardan səmərəli istifadə edilməsi və sair amillərdən asılı olur. Odur ki, səmərəliliyi müəyyən edən göstəricilər təhlil edilərkən əmək məhsuldarlığı, maya dəyəri, fond tutumu, material tutumu, rentabellik, mənfəət (xalis gəlir) və s. göstəricilər əsas üstünlük təşkil edir.

Beləliklə, səmərəlilik kateqoriyasını həm iqtisadi münasibətlər nəticəsinin meyarı kimi qəbul etmək, həm də onu iqtisadi göstəricilərdən ayrılıqda qəbul edilməsini məqsədəuyğun hesab etmək olar. Səmərəlilik bir və daha çox göstəricilər vasitəsilə xarakterizə edilir ki, onunla da müasir dövrdə hər bir sahibkarın fəaliyyətini qiymətləndirmək mümükündür. Həmin göstəriciləri 4 qrupda birləşdirmək daha münasib olardı [1]:

I-İstehsal ehtiyatlarını xarakterizə edən göstəricilər: kənd təsərrüfatına yararlı torpaq sahəsi, əkinə yararlı torpaq sahəsi, biçənək və otlaqlar, yem bitkilərinin əkin sahəsi, yaylaq və qışlaq sahələri, işçilərin sayı, cəlb edilmiş muzdlu işçilərin sayı, istehsal tikilileri, dövriyə vəsaitlərinin tərkibi, təbii-iqlim şəraiti, su və enerji təminatı, texniki təchizat səviyyəsini xarakterizə edən göstəricilər və s. [7]

II-İstehsalın səviyyəsini xarakterizə edən göstəricilər: kənd təsərrüfatı sahəsi üzrə ümumi və müxtəlif növ məhsullar istehsalının dəyəri və miqdarı, onlardan istifadə edilməsinə dair məlumatlar, təsərrüfatdaxili istifadələr, əmtəəlik məhsullar, zay və tullantılar hesabına itirilmiş məhsullar, məhsul qalıqları və sair istifadə formaları və məhsul hərəkətini xarakterizə edən göstəricilər[6].

III- Maliyə resursları və istifadəsini xarakterizə edən göstəricilər: məhsul istehsalına çəkilən xərclər, məhsul satışından əldə edilən pul vəsaiti, hesablaşmalar və s. pul-kredit məsələlərini müəyyən edən göstəricilər (nəqd pul ehtiyatları, istifadə etdiyi qısa müddətli və uzun müddətli kreditlər, subsidiyalar), istehsal ehtiyatlarını, istehsal nəticələrini və onlardan istifadə edilməsini, istehsalın son nəticələrini qiymətləndirmək və səmərəliliyi müəyyən etmək məqsədilə zəruri sayılan və dəyər ifadəsində hesablanan göstəricilər, aktivlərin (əsas vəsaitlərin, dövriyyə vəsaitlərinin) və qeyri-maddi aktivlərin dəyəri, istehsal edilmiş ümumi məhsulun dəyəri, aralıq istehlak xərcləri, yeni yaradılmış əlavə dəyər, istehsala subsidiyalar, sərəncamda qalan əlavə dəyər, istehsala vergilər, amortizasiya ayırmaları, cəlb edilmiş işçilərin əmək haqqı, mənfəət və digər göstəricilər.

IV-Səmərəliliyi xarakterizə edən göstəricilər: istehsal ehtiyatlarına və istehsal xərcləri ilə müqayisədə istehsal olunmuş məhsulun miqdar və dəyər göstəriciləri.

Yuxarıda qeyd edilən göstəricilər təsərrüfat fəaliyyətinin qiymətləndirilməsinin bütün istiqamətlərini, həmçinin səmərəliliyi müəyyən etmək üçün yardımçı vasitələr sayılır. Səmərəliliyə təsir edən təbii amillərdən biri olan torpaq - kənd təsərrüfatında əsas istehsal vasitəsi olmaqla, əhalini daima kənd təsərrüfatı məhsulları ilə təmin edərək, ilk növbədə, yeni torpaq mülkiyyət münasibətlərinin tənzimlənməsinin hüquqi əsaslarını təmin edir. Torpaq və torpaq örtüyünün inkişafı, həmçinin münbitliyinin formalaşması, torpaqəmələgəlmənin təbii amillərinin ahəngi və insan cəmiyyətinin müxtəlif təsirləri ilə, onun məhsuldar qüvvələrinin, iqtisadi və sosial şəraitlərinin inkişafı ilə çox sıx bağlıdır[4].

**Ədəbiyyat**

1.“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”

2. Абалкин Л.И. Роль государства в становлении и регулировании рыночной экономики// Вопросы экономики, 1997, № 6, с. 4-12

3. Eynalov H. Aqrar bölmədə səmərəliliyin müəyyənləşdirilməsinə yeni baxış/"Faktor 4" Respublika elmi-təcrübi konfransının məruzələri. Qafqaz Universiteti. Bakı, 2001.
4. Məmmədov Q.Ş. Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları. Bakı: Elm, 2007, 383 s.
5. Məmmədov, A.I., Kənd Təsərrüfatı iqtisadiyyatı, Bakı, 1992.
6. Hüseynov V. Özəl Kənd Təsərrüfatı müəssəsələrində istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi yolları, Bakı, 2001.
7. Xurşudov Ş. Bazar münasibətlərinə keçid şəraitində aqrosənaye istehsalının iqtisadi səmərəliliyinin yolları, Bakı, 1998.

**Резюме**

***Азизова К.В.***

**Научно теоретические основы подходов к понятию экономической эффективности и методологические аспекты экономической эффективности орошаемых земель**

*Одной из основных задач в настоящие время является изыскание путей повышения производительности труда в сельском хозяйстве. В этих целях необходимо расширение земельных участков пригодных сельскому хозяйству, сохранение ее урожайности. Особо следует отметит роль эффективного использования орошаемых вод.*

***Ключевые слова:*** *орошение, мелиорация, производительность, эффективность, земля*

**Summary**

***Azizova K.V.***

**The Scientific Theoretical Principals to the Approach of Economic Efficiency and Methodological Aspects of Economic Efficiency of Irrigated Soils**

*Nowadays, it is main duty to investigate and find the ways providing the increase of efficiency in the production of agriculture. So, me must enlarge the sowing fields and protect the fertility of lands. We must especially note the role of the effective using of irrigated water here.*

***Key words:*** *irrigation, melioration, productivity, efficiency, soil*

## BİZNESİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİ: RİSKLƏRİN İDARƏ EDİLMƏSİNİN AKTUAL MƏSƏLƏLƏRİ

***Həsənov A.A., Mahmudov E.H.***
*Azərbaycan Dövlət Aqrar Universiteti*

***Açar sözlər*****:** *iqtisadi təhlükəsizlik, biznes fəaliyyəti, risk, təhdidlər, risklərin idarə edilməsi*

Biznesin iqtisadi təhlükəsizliyi şirkətin müasir menecment sisteminin əsas elementlərindən biridir. Şirkətin bazarda uğurlu fəaliyyəti biznesin iqtisadi təhlükəsizliyinin səmərəliliyindən asılıdır. Şirkətin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin təşkili zamanı bir çox məsələləri həll etmək zəruridir: maddi dəyərlərin qorunub saxlanması, tender prosedurların və sənədlərin dövr etməsinə nəzarət və s. "Müəssisənin iqtisadi təhlükəsizliyi –indiki və gələcək dövrdə müəssisənin təhdidlərin qarşısının alınması və stabil fəaliyyətinin təmin olunması üçün korporativ ehtiyatlardan daha səmərəli istifadə edilməsi vəziyyəti" başa düşülür. Korporativ ehtiyatlar müəssisənin menecer və rəhbərləri tərəfindən, biznes fəaliyyətin məqsədlərinin həyata keçirilməsi üçün istifadə olunan biznes amilləridir. Korporativ ehtiyatlara aiddir:

- *Kapital ehtiyatları* – müəssisənin səhmdar kapitalı borc alınmış maliyyə resursları ilə birlikdə, müəssisənin hərəkətverici qüvvəsidir və digər resursların əldə olunmasına və saxlanılmasına imkan verən əsas resurslardan biridir.
- *Heyət ehtiyatları* – müəssisənin menecerləri, mühəndis heyəti, istehsalat işçiləri, onların malik olduqları bilik,bacarıq və vərdişləri ilə birlikdə, müəssisənin məqsədlərinə nail olunmasını, ideologiyasının həyata keçirilməsini təmin edən əsas resursdur.
- müasir informasiya texnologiyaları dövründə, müəssisənin mövcud ehtiyatlarından biri də hər bir işçi kateqoriyasına və müəssisənin bütün fəaliyyət sferasına aid olan, idarəetmə qərarlarının qəbul edilməsinə təsir edən i*nformasiya və texnologiya ehtiyatları*
- *Hüquq ehtiyatları* - sivilizasiyanın inkişafı, təbii resursların tükənməsi və biznes üçün qeyri-maddi aktivlərin dəyərinin yüksəlməsi ilə səciyyələnən dövrdə, hüquq ehtiyatlarının rolu kəskin artmışdır [1].

İqtisadi təhlükəsizliyin təmin olunması baxımından əsas fəaliyyət müəssisənin maliyyə,personal, maddi, informasiya, texniki və texnoloji, hüquqi və siyasi mühitinə daxili və xarici təhdidlərin təsirini minimum səviyyəyə endirməkdən ibarətdir. Biznesdə baş verə biləcək uğursuzluqların səbəbləri aşağıdakılar ola bilər: strateji tərəfdaşın seçilməsindəki səhv, malgöndərənlərin vicdansız hərəkətləri, bazara gözlənilmədən güclü rəqabətin daxil olması və s. Risklər isə öz növbəsində aşağıdakı kimi təsnifləndirilir: əməliyyat riskləri ( siyasi, maliyyə), bazar riskləri (

valyuta, rəqabət), təşkilati risklər (işçilərin mitinqi, ixtisaslı kadrların itirilməsi), investisiya riskləri və s. Risklər təhdidlərlə müqayisədə daha geniş məfhumdur, bu baxımdan da, demək olar ki, iqtisadi təhlükəsizlik sistemi riskyönümlüdür, yəni risklərin müəyyən edilməsi, təhlili və qiymətləndirilməsi, təhlükəsizliyin təmin olunması məsələlərində idarəetmə qərarlarının qəbul edilməsinin fundamental əsasları olmalıdır [2].

*Risk menecment* mənfi nəticələrin olma ehtimalının azaldılmasına və onun həyata keçirilməsi nəticəsində yaranan layihənin zərərlərini azaltmağa yönəlmiş idarəetmə qərarlarının qəbul edilməsi və icrası prosesidir. Risklərin idarə edilməsi şirkətin risklərinin müəyyən edilməsi və qiymətləndirilməsinin və şirkətin onlardan mühafizəsi üzrə müvafiq tədbirlərin həyata keçirilməsinin sistematik prosesidir. Əksək risk-menecerlər, risklərin yaranmasına heç də neqativ bir hal kimi və şirkətə zərər vuracaq bir proses kimi yanaşmırlar, həmçinin yeni imkanların meydana çıxmasının bir aləti kimi təhlil edirlər. Risk-menecmentin vəzifəsi – şirkət daxilində itkilərin qarşısının alınması və ya idarə edilməsi üzrə tədbirlərin proqnozlaşdırılması və həyata keçirilməsindən ibarətdir. Risklərin idarə edilməsi prosesini tam dərk edilməsi üçün bu prosesi müəyyən mərhələlərə bölmək məqsədəuyğundur: biznes fəaliyyətinin təhlili, riskin identifikasiyası və təhlili; riskin idarə edilməsinin alternativ üsullarının təhlili; risklərin müəyyənləşdirilməsi və onların idarə edilməsi üsullarının seçilməsi; itirilmiş səmərə riski və zərər riski zonalarında itkilərin minimallaşdırılması metodlarının işlənib hazırlanması və seçilmiş metodların içrası; nəticələrin monitorinqi və risklərin idarəetmə sisteminin təkmilləşdirilməsi;

İqtisadi sahədə risklərin idarə edilməsi əsas məqsədi riskin yaranma səbəblərinin müəyyən edilməsi və yekun nəticənin əldə olunması üçün (itkilərin minimallaşdırılması və mənfəətin maksimallaşdırılması) hərəkət istiqamətinin işlənib hazırlanmasıdır.

**I mərhələ**. Riskin müəyyənləşdirilməsi və təhlili. Riskin identifikasiyası dedikdə iqtisadi zərərin həcminin araşdırılması daxil olmaqla, risklərin, onların icra xüsusiyyətlərinin müəyyən edilməsi, həmçinin risklərin zaman daxilində dəyişməsi, onlar arasında qarşılıqlı münasibətlərin dərəcəsi və onlara təsir edən amillərin araşdırılması başa düşülür. Bu mərhələdə, əsasən, risklərin idarə edilməsi prosesinin həyata keçirilməsi üçün informasiya bazası yaradılır: risk haqqında ümumi məlumat, iqtisadi zərərin həcmi və risklərin nəticələri, riskin göstəricilərin kəmiyyət qiymətləndirilməsi.

**II mərhələ**. Risk dərəcəsini və zərərin səviyyəsini azaltmağa imkan verən bir sıra müxtəlif metodlar mövcuddur. Bu mərhələdə bu cür üsullar müəyyən bir vəziyyətlə əlaqəli olaraq nəzərdən keçirilir və təhlil edilir. Menecer risk vəziyyətinin baş verməsi halında qərar verməlidir: necə riski, itkiləri azaldacaq və bu zərərin aradan qaldırılması mənbələrini axtaracaq.

**III mərhələ**. Burada menecer firmanın riskə qarşı siyasətini, həmçinin işdə qeyri-müəyyənlik dərəcəsini azaltmağa yönəlmiş siyasət təşkil edir.

**IV mərhələ**. Burada əvvəlki mərhələdə hazırlanan proqram birbaşa həyata keçirilir. Bu mərhələdə həll olunan məsələlər, qəbul olunmuş qərarların texniki xüsusiyyəti ilə bağlıdır: həyata keçirilməsi zəruri hesab edilən konkret tədbirlər; bu tədbirlərin həyata keçirilməsi müddəti; bu tədbirlərin həyata keçirilməsi üçün zəruri resursların mənbələri və tərkibi; məsul şəxslərin müəyyə edilməsi.

**V mərhələ.** Bu mərhələ risklərin idarə edilməsi sitemində əks-əlaqəni həyata keçirir. Bu əlaqənin ilk vəzifəsi sistemin bütövlükdə səmərəliliyini müəyyən etməkdir. İkinci vəzifə risklərin başvermə müddətində tətbiq olunan üsulların təhlili, onların həyata keçirilməsi səbəblərindən ibarətdir[1].

Biznes fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektlərinin sahibkarlıq risklərinin azaldılması yollarının şərh edilməsi məqsədəuyğundur. Beləliklə, daxili sahibkarlıq risklərinin azaldılması üçün müəssisə öz fəaliyyətini səmərəli şəkildə aparmalıdır. Buraya, ilk öncə potensial biznes tərəfdaşların seçilməsi, müqavilənin tərtibatı, firma fəaliyyətinin planlaşdırılması və proqnozlaşdırılması, kadrların düzgün seçilməsi aiddir.




**Şəkil 1.Riskləri idarə edilməsi metodlarının təsnifatı**

Biznes planının işlənib hazırlanması- sahibkarlıq riskinin minimallaşdırılmasının digər daxili üsuludur. Düzgün tərtib edilmiş biznes plan biznesə müxtəlif nöqteyi-nəzərdən baxmağa imkan verir: marketinq, maliyyə, istehsal və s. Biznes planının tərtib olunması əksər hallarda, müəssisənin strateji planlaşdırılmasının I mərhələsi kimi çıxış edir. Kadrların düzgün seçilməsi- sahibkarlıq riskinin azaldılmasının III mənbəsidir. Bu riskin səviyyəsinin azaldılması üçün kadrların planlaşdırılması, seçilməsi, inkişafının müxtəlif üsulları mövcuddur. Düzgün aparılmış kadr siyasəti, yüksək səmərəliliyə malik idarəetmə komandalarının yaranması, müəssisənin uğurlu fəaliyyəti üçün zəruri olan yüksəkixtisaslı və professional kadrlarla təmin edir.

**Ədəbiyyat**


1. Qaponenko V.F., Vlaskov A.S. Müəssisələrin iqtisadi təhlükəsizliyi. Prinsip və yanaşmalar. M., 1989.
2. Korezin A.S. Menecment və müəssisənin təhlükəsizliyinin kontrollinqi. M., 2011


**Резюме**


***Гасанов А.А., Махмудов Э.Г.***

*Азербайджанский государственный аграрный университет*


**Экономическая безопасность бизнеса: актуальные вопросы управления рисками**


*Экономическая безопасность - совокупность мероприятий (организационных, правовых, режимных, технических, информационных), направленных на достижение достаточного уровня безопасности от воздействия различных угроз внутренней и внешней среды. Управление рисками - это процесс принятия и исполнения управленческих решений, направленных на снижение вероятности отрицательных результатов и сокращение потерь проекта в результате его реализации.*



***Ключевые слова:*** *экономическая безопасность, business, управление рисками, угрозы, риски*


**Summary**


***Hasanov A.A., Mahmudov E.H.***

*Azerbaijan State Agrarian University*


**Economic Security of Business: Actual Issues of Risk Management**


*In this article I consider the essence and important aspects of ensuring the economic security of business. World practice shows that to ensure the safe operation of the company, it is necessary to create a comprehensive protection system. Ensuring the economic security of the company begins with the search for an answer to the question: whom to entrust the solution of important tasks.*



***Key words:*** *risk management, economic security, risk, threats.*

# BİZNES MÜHİTİNİN ƏLVERİŞLİLİYİNİN İQTİSADİ İNKİŞAFDA ROLU

***Həsənova E.X.***
*Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzi*

**Xülasə**

*Məqalədə biznes mühitinin əlverişliliyinin qiymətləndirilməsi üçün zəruri olan göstəricilər əsasında Azərbaycanın biznes mühiti təhlil edilib. Doing Buisness tədqiqat qrupunun biznes mühitinin əlverişliliyini müəyyən etmək üçün istifadə etdiyi göstəricilər sadalanmış, Beynəlxalq Əmək Təşkilatının qiymətləndirimələrinə aydınlıq gətirilmişdir.*

***Açar sözlər**: biznes mühiti, iqtisadi inkişaf, əlverişli, sahibkarlıq, şirkət*

Sahibkarlığın inkişafı ölkədə formalaşan biznes mühitinin əlverişliliyindən asılıdır. Biznes mühitinin əlverişliliyi isə dövlətin iqtisadiyyata müdaxiləsi dərəcəsi ilə daha çox bağlıdır. Dövlətin iqtisadiyyata müdaxiləsi artdıqca biznes mühiti pisləşir. Müdaxilə azaldıqca, biznes mühiti yaxşılaşır. Bəs hansı sahələrdə dövlətin iqtisadiyyata müdaxiləsi biznes mühitinə təsir göstərir. Axı dövlətin iqtisadiyyata hər hansı müdaxiləsi biznes mühitinə təsir göstərmir və ya mənfi təsir göstərmir. Belə olan halda biznes mühitinə təsir göstərən və dövlətin iqtisadiyyata müdaxiləsi hesab edilə bilən bəzi amillərin ayrılmasına və daha dərindən tədqiq edilməsinə ehtiyac var.

Özəl müəssisələrin milli iqtisadiyyatda roluna həsr edilmiş tədqiqatların əsas nəticəsi ondan ibarətdir ki, bütün dünyada milli iqtisadiyyatların inkişafında özəl müəssisələrinin rolu artmaqdadır [1]. Elə buna görə də özəl müəssisələr iqtisadi artımın əsas vasitəsi hesab edilir. Avropa Komissiyasının hesabatına əsasən Avropa İttifaqında belə vasitələrin sayı artıq 23 milyondan çoxdur. Özəl sektorda fəaliyyət göstərən məşğulların 2/3 hissəsi məhz kiçik və orta ölçülü müəssisələrin payına düşür. Son 5 ildə yaradılan yeni iş yerlərinin 80%-i özəl müəssisələr tərəfindən yaradılıb. Bu göstəricilər iqtisadi cəhətdən mühüm olduğu qədər də iqtisadi siyasətin qurulması üçün düşündürücüdür. [2]

Bəzi tədqiqatçılar özəl sahənin inkişafında konseptual fərqlərin olduğunu qabardırlar. Onlar iddia edirlər ki, hansı özəl müəssisə öz fəaliyyətini innovativ və kreativ əsasda qurmağa çalışacaqsa və fəaliyyət istiqaməti kimi mövcud istehlakçının davranışını deyil, perspektiv bazarı nəzərədə tutacaqsa, o, sürətlə inkişaf edəcək. Buna "Kreativ yönümlü sahibkarlıq" yanaşması demək olar. Əksinə, əgər özəl müəssisə öz fəaliyyətini yalnız mövcud bazarın və mövcud istehlakçının tələbi əsasında quracaqsa, onun inkişafı davamlı olmaya bilər. Bu, "istehlakçıya yönələn sahibkarlıq" adlandırıla bilər [3].

Beynəlxalq Əmək Təşkilatının qiymətləndirimələrinə görə, kiçik sahibkarlıq üçün biznes mühiti üç əsas perspektivi nəzərə almalıdır: 1) iqtisadi siyasət, qanunvericilik və tənzimləmə çərçivələrini; 2) təşkilati çərçivəni; 3) bazar konyukturalarını, sosial və iqtisadi vəziyyəti. Bu perspektivlər hökumət, qeyr-hökumət təşkilatları, həmçinin digər maraqlı tərəflər arasında geniş müzakirə predmeti olmalıdır. Qlobal Rəqabərqabiliyyətliklik Hesabatının hazırladığı göstəricilər bu perspektivləri müəyyən dərəcədə əhatə edir. Beynəlxalq Əmək Təşkilatı qeyd edir ki, iqtisadi siyasətin, qanunvericiliyin və dövlət tənzimləməsi ilə bağlı tədbirlərin qiymətləndirilməsi vacibdir. Çünki özəl biznes mühiti ilə bağlı və ya tez-tez dəyişə bilən qanunvericiliklə bağlı yaranan mürəkkəb prosedurları yerinə yetirmək üçün idarəetmə və maddi resurları azdır [4].

Bu sahədə ən geniş yayılan və bütün dünyada əsas qiymətləndirmə metodu kimi istifadə edilən metod Dünya Bankının Doing Buisness qrupunun hazırladığı metoddur. Doing Buisnes biznes mühitinin əlverişliliyi göstəricisi kimi əvvəllər 5 göstəricidən, o cümlədən 1) şirkətin yaradılması, 2) işçilərin işə qəbulu; 3) işçilərin işdən azad edilməsi, 4) müqavilələrin yerinə yetirilməsi, 5) kreditlərin əldə edilməsi imkanı göstəricilərindən istifadə edirdi. Sonrakı illərdə göstəricilərin sayı 7-yə, daha sonra 10-a çatdırılıb. Hazırda Doing Buisness tədqiqat qrupu biznes mühitinin əlverişliliyini müəyyən etmək üçün 11 göstəricidən istifadə edir. Biznes mühitinin əlverişliliyinin əsas amilləri kimi bu göstəricilər də ildən-ilə təkmilləşdirilib. Hazırda 11 göstəricidən istifadə edilir. Bu göstəricilər bunlardır:1) şirkətin yaradılması; 2) tikintiyə icazənin alınması; 3) elektrik enerjisinə qoşulma; 4) mülkiyyətin qeydiyyata alınması; 5) kreditin alınmasının asanlığı; 6) kiçik investorların qorunması; 7) vergilərin ödənilməsi; 8) xarici ticarətin asanlığı; 9) müqavilələrin yerinə yetirilməsinin təmin edilməsi; 10) ödəmə qabiliyyətinin olmaması probleminin həlli; 11) əmək bazarının tənzimlənməsi. Bu göstəricilərin özləri də altgöstəricilərdən ibarətdir və onlar əsasında müəyyən edilir.

Doing Business yeni müəssisənin qeydiyyata alınmasını tənzim edən normaların əlverişlilik dərəcəsini hərtərəfli qiymətləndirməyə imkan verən 4 göstəricini təhlil edir: 1) zəruri prosedurların sayı; 2) qeydiyyata sərf edilən orta müddət; 3) qeydiyyat üçün rəsmi xərclər; 4) pul depozitinin minimum məbləği. Bu amillərin bisnes mühitinə təsirinin öyrənilməsi zamanı müəyyən fərziyyələr də edilir. Məsələn, belə fərz edilir ki, şirkət açmaq istəyənlər üçün məlumatlar tam açıqdır, şirkətin açılmasına razılıq verən müvafiq

dövlət orqanında qəsdən süründürməçilik və korrupsiya halları baş vermir. Digər tərəfdən, müxtəlif ölkələrdə özəl müəssisələrin ölçüləri müxtəlif olduğundan və şirkətin ölçüsündən asılı olaraq qanunvericilikdə fərqlər yarandığından Doing Buisness özəl müəssisəsinin özünəməxsus modelini formalaşdırır. Doing Buisnesə görə "model şirkət" öz hüquqi təşkilati formasına görə məhdud məsuliyyətli cəmiyyətdir; ölkənin əhalisi çox olan şəhərlərdə yerləşir; tamamilə yerli şirkətdir, onun 5 fiziki təsisçisi var; nizamnamə fondu ölkədə adambaşına orta gəlirdən 10 dəfə çoxdur; lisenziya tətbiq edilməyən adi mal istehsal edir, xidmət göstərir və ya ticarətlə məşğuldur; istifadə etdiyi binaları və ya ticarət obyektlərini icarəyə götürür; heç bir xüsusi güzəştlərə malik deyil; fəaliyyətə başladığı bir aydan sonar 50 işçisi var; 10 səhifə həcmində sənədləri var.

Şirkətin qeydiyyata alınması üçün zəruri olan prosedurlar da müəyyən model əsasında müəyyənləşdirilir. Məsələn, prosedurların sayı hesablananda yalnız təsisçilərin özü tərəfindən yerinə yetirilən prosedurlar nəzərə alınır. Hüquqi cəhətdən vacib olmayan prosedurlar nəzərə alınmır. Şirkətin qeydiyyatı üçün tələb olunan müddət dedikdə bir prosedura sərf edilən günlərin sayı nəzərdə tutulur. Əgər bu və ya digər prosedur əlavə xərclər hesabına sürətləndirilə bilərsə, onda əsas olaraq ən qısa müddət götürülür. Güman edilir ki, sahibkar boş yerə vaxt itirmir və bir proseduru tamamlayaraq dərhal digərinə keçir.

Şirkətin qurulması üçün xərclər hesablanarkən həm qanunvericilik və hüquqi-normativ sənədlər, həm də xüsusi qiymət siyahıları nəzərə alınır.

Doing Buisness tədqiqat qrupu biznes mühitinin qiymətləndirilməsi üçün ikinci mühüm amil kimi tikintiyə icazənin verilməsinin nə dərəcədə asan olması amilini götürür. Bunun qiymətləndirilməsi üçün bir neçə məlumatdan istifadə edilir.

"Elektrik enerjisinə qoşulma" göstəricisi müəssisənin anbarının daimi olaraq elektrik enerjisi ilə təmin edilməsi üçün zəruri olan presedurların sayını, bu prosedurların həyata keçirilməsi üçün tələb olunan vaxtı və hər bir prosedurun xərcini nəzərdə tutur.

Doing Buisness tədqiqat qrupu mülkiyyət baxımından əlverişli biznes mühitinin ölçü göstəricisi kimi mülkiyyətin qeydiyyatı üçün hüquqi prosedurların sayını, bu prosedurların yerinə yetirilməsi üçün tələb olunan vaxtı və belə prosedurları keçmək üçün rəsmi tələb olunan xərcləri nəzərdə tutur. Bu göstərici üzrə də müxtəlif ölkələrdəki biznes mühitini müqayisə etmək üçün bəzi fərzlər edilir. Məsələn, fərz edilir ki, alıcı məhdud məsuliyyətli şirkətdir, bu şirkət ölkənin ən böyük şəhərinin ətrafında yerləşir, şirkətin bütün təsisçiləri ölkə vətəndaşlarıdır, şirkətin 50 işçisi var və ümumi iqtisadi fəaliyyət növü ilə məşğul olur. Mülkiyyətin növü ilə də bağlı bəzi fərzlər edilir. Məsələn, mülkiyyətin dəyəri ölkədə adambaşına gəlirin 50 misli həcmindədir, tam olaraq satıcı şirkətə məxsusdur, girovda deyil və s.

Beləliklə, bu göstərici də biznes mühitinə təsir edən əsas amillərdən hesab edilir.

### Ədəbiyyat

**1.** KARPAK, B., TOPCU, I. Small medium manufacturing enterprises in Turkey: an analytic network process framework for prioritizing factors affecting success. *International Journal of Production Economics.* 2010, Vol. 125, Iss. 1, pp. 60-70. ISSN 0925-5273. doi:10.1016/ j.ijpe.2010.01.001.

2. Evropska Komise. Velke zaměry pro male podniky-co děla EU pro MSP. Lucemburk: Uřad pro publikace EU, 2011.

3. Eggers, F., Kraus, S., Hughes, M.,Laraway, E., Snycerski, S. Implications of customer and entrepreneurial orientations for SME growth. Management Decision. 2013, Vol. 51, Iss. 3, pp. 524-546. ISSN 0025-1747. doi:10.1108/00251741311309643.

4. International Labour Organization. 1998. Job Creation in Small and Medium-Sized Enterprises. Recommendation 189 in the subject of Employment Policy and Promotion. General Conference of the International Labor Organization. Geneva, Switzerland.

### Резюме

***Гасанова Э.Х.***

**Роль благоприятной бизнес-среды в экономическом развитии**

*В статье анализируется бизнес-среда Азербайджана на основе показателей, необходимых для оценки ее благоприятности. Перечислены показатели исследовательской группы Doing Buisness, используемые для определения благоприятной деловой среды и уточнены оценки Международной организации труда.*

***Ключевые слова**: бизнес-среда, экономическое развитие, благоприятный, предпринимательство, компания*

### Summary

***Hasanova E. K.***

**The Role of Favorable Business Environment in Economic Development**

*The article analyzes Azerbaijan's business environment on the basis of indicators which are necessary to assess the business environment. The Doing Buisness research team listed the indicators used to*

*determine the business environment's availability, which is clarified by the International Labor Organization's assessments.*
***Key words:*** *business environment, economic development, affordable, entrepreneurship, company.*

## BİZNESDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASINDA DÜNYA TƏCRÜBƏSİ

***Həşimova A.Ç.***
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Xülasə**

*Qloballaşan müasir dövrdə aktuallığını artıran məsələlərdən biri iqtisadi təhlükəsizlikdir. İqtisadi təhlükəsizlik iqtisadi stabilliyin, əldə edilmiş iqtisadi imkanların yaxın və uzaq perspektivdə təminatının qazanılmasıdır. Uzunmüddətli prespektivdə rəqabət mübarizəsində firmaya təhlükəsiz fəaliyyət imkanı verən strategiyanın işlənməsinin mahiyyəti çox böyükdür.*
***Açar sözlər:*** *iqtisadi təhlükəsizlik, informasiya mühafizəsi, biznes strategiyası, informasiya təhlükəsizliyi*

Günümüzdə dünyada şirkətlərin gəlirləri milyardlarla dollar təşkil edir. Əlbəttə ki, bu gəlirin etibarlı bir şəkildə qorunması hər bir şirkətin ən əsas borcudur. Dünyada böyük şirkətlər gəlirlərinin çox böyük bir qismini təhlükəsizlik xidmətlərinə ayırırlar. Məs: ABŞ-ın pərakəndə ticarət sahəsində fəaliyyət göstərən sahibkarlar 2014-cü ildə istifadəçilərin təhlükəsizliyinin mühafizəsinə xərcləri xeyli artırıblar. Belə ki, ötən il pərakəndə ticarət şirkətləri kibercinayətkarlıqla mübarizəyə 2013-cü ildə sərf etdiklərindən 38% çox vəsait xərcləyiblər. “Lexis Nexis” tədqiqat şirkətinin məlumatına görə, pərakəndə şəbəkələrdə ödəniş fırıldaqçılığından mühafizə ilə bağlı illik xərclər 2014-cü ildə 32 milyard dollara çatıb. Ötən il ümumilikdə təhlükəsizliyə xərclər pərakəndə ticarət şirkətlərinin mədaxilinin 0,68%-nə bərabər olub. Bu göstərici 2013-cü ilin nəticəsindən 17% yüksəkdir [1].

Alıcıların informasiyasının mühafizəsinə xərclərinin artmasına iki amil səbəb olub. Bunlar pərakəndə satış həcminin 3,75% yüksəlməsi və kibertəhdidlərin sayının artmasıdır. Bununla yanaşı, pərakəndə ticarət şirkətləri ödəniş terminallarını modernləşdirirlər. 2019-ci ilin sonunadək terminalların yarıdan çoxu “EMV” adlandırılan təhlükəsizlik standartına uyğun olacaq və tranzaksiyaları kontaktsız həyata keçirəcək. Fırıldaqçılar tranzaksiyalar zamanı kart rekvizitlərini ələ keçirməkdə, eləcə də bank kartlarına quraşdırılan mikroçip sayəsində ödəniş alətlərini saxtalaşdırmaqda çətinliklərlə üzləşəcəklər.

2014-cü ildə dünya informasiya təhlükəsizliyi xərclərinin həcmi 71,1 milyard dollar təşkil edəcək ki, bu da 2013-cü illə müqayisədə 7,9% çoxdur. Bu barədə “Gartner” analitik şirkətinin proqnozunda deyilir. 2019-ci ildə xərclərin daha 8,2% artaraq 76,9 milyard dollara çatacağı gözlənilir [2].

İnformasiya təhlükəsizliyi bazarının ən sürətlə artan sektoru verilənlərin itkisindən mühafizə hesab edilir. Bu məqsədlər üçün xərclərin illik hesablamada 18,9% artacağı proqnozlaşdırılır. Həmçinin hesab edilir ki, “bulud” xidmətlərinin, eləcə də, informasiya texnologiyalarının tətbiqinin genişlənməsi yaxın bir neçə ildə yeni texnoloji həllərin və rəqəmli təhlükəsizlik sahəsində servislərin inkişafına xidmət edəcək. 2013-cü ildə yaranan əsas yeniliklərdən biri kimi təhlükəsizlik təhdidlərinin demokratikləşməsini hesab edərək məqsədyönlü hücumların təşkilinin mümkün olduğu zərərli proqram təminatı və digər vasitələrin əldə olunmasını nəzərdə tuturlar. Analitik şirkət mütəxəssislərinin fikrincə, belə tendensiya onunla nəticələnib ki, təşkilatlar əvvəllər informasiya texnologiyalarının istiqamətlərindən və şirkətlərin xərc mənbələrindən biri hesab olunan informasiya təhlükəsizliyinə daha diqqətli yanaşmağa başlayıb. Mütəxəssislər “Gartner”in yaxın illər üçün nəzərdə tutulan proqnozundakı bir necə vacib trendi də sadalayıblar. Onlar arasında “bulud” hesablama sistemləri ilə təqdim edilən informasiya təhlükəsizliyi xidmətlərinin payının artması, müəyyən edilmiş hüquqi normaların əməl olunmasına tələblərin sərtləşdirilməsi, informasiya təhlükəsizliyi sahəsində kompleks xidmətlər paketinin yayılması yer alıb. Həmçinin proqnozlaşdırılır ki, 2019-ci ilədək informasiya təhlükəsizliyinin təmini üçün lazımi resursların olmaması səbəbindən təşkilatların yarıdan çoxu bu məqsədlər üçün oxşar servislərdə ixtisaslaşan digər şirkətləri cəlb edəcək. Google-un reklam satışlarından əldə etdiyi gəlir artmağa davam edir, ancaq uzun müddətdir davam edən yavaşlama və şirkətin artan xərcləri 2014-cü ilin üçüncü rübündə maliyyə gözləntilərini qarşılamayıb [3].

Dünyada ən məşhur mühafizə şirkətlərindən biri İspaniyanın Prosegur- transmilli özəl mühafizə şirkətidir. Qərbi Avropa, Asiya, Okeaniya və Latın Amerikası ölkələrində çalışan 150 min nəfər üzvü var. Şirkət 1976-ci ildə yaradılıb, onun əsas kontoru Madriddə yerləşir. Prosegur şirkəti obyektlərin fiziki qorunması, mühafizə texnologiyaları, konsaltinq və yanğından mühafizə sahəsində ixtisaslaşmışdır. Madrid fond birjasında öz səhmlərini qoymuş ilk müəssisədir. 2011-ci ildə şirkətin gəlirini 233,7 milyon dollar təşkil edib. Sərəncamında 4700 zirehli furqon var. Məlumata görə, dünyanın ən varlı insanlarından biri Microsoft

Şirkətinin yaradıcısı Bill Qeyts Prosegur şirkətinin səhmlərinin 3 %-nə sahibdir [4].

Digər mühafizə şirkəti 1934-cü ildə İsveçdə yaradılan Securitas'ın kökləri, 1850-ci ildə yaradılan və 1999-cu ildə satın alınan Amerika Detektivlik və Təhlükəsizlik Şirkəti Pinkertona qədər uzanır. Pinkerton Milli Detektiv Agentliyi, 1850-ci ildə Allan Pinkerton tərəfindən yaradılan xüsusi bir ABŞ təhlükəsizlik və detektivlik şirkətidir. Prezident Abraham Linkolnu hədəf alan sui-qəsd planını ortaya çıxardaraq məşhur olan Pinkerton, daha sonra Amerikanın daxili müharibələri zamanı Linkolnun şəxsi təhlükəsizliyini təmin etmişdir. Pinkerton təhlükəsizlikdən xüsusi hərbi vəzifələrə qədər hər cür işdə vəzifə almışlar. Pinkerton gücünün zirvəsində Amerikan Ordusundan daha çox silahlı şəxsi təhlükəsizlik üzvünə malik idi. Securitas, Şimali və Cənubi Amerika, Avropa və Asiyada 51 ölkədə apardığı operativ fəaliyyətləri ilə hər gün fərq yaratmağa davam edir. Dünyanın dörd bir tərəfində kiçik və orta müəssisələrdən, hava limanlarına qədər bir çox fərqli sahədə 300.000-dən çox əməkdaşı ilə fəaliyyət göstərir. Təhlükəsizlik sektorunda dünyanın ən böyük qrupu olan Securitas, satın aldığı təşkilatların ixtisaslarına görə ixtisaslaşmış xidmətlər verməkdədir. Securitas-da, çalışanların inkişaf etdirilməsi: "Yetərlilik, Karyera Rəhbərliyi, Təminat, Bitərəflik, Bərabərlik" prinsiplərinin başçılığı ilə aparılır. Securitas dəyərlərinin mənimsədilməsi və attestasiyaların inkişaf etdirilməsi təhsil proqramlarının əsas hədəfini təşkil edir. Securitas-ın idarəçilik fəlsəfəsində yer alan işçi modeli isə: "Anlayış, Bağlılıq, Asan və Nümunə ol/al" prinsiplərindən ibarətdir. Securitas, ünsiyyətin getdikcə sürətləndiyi, hər keçən gün yeni məlumatlarla qarşılaşılan və getdikcə kiçilən dünyada, yeni biliklərə çatdıqca və bu məlumatları təşkilat mədəniyyətinə verdikcə uğurlu ola biləcəyinin şüuru ilə təhsilə ayn bir əhəmiyyət verir. Securitas üçün məqsəd, daim öyrənmək və öyrənən bir təşkilat olmağı bacarmaqdır [5].

## Ədəbiyyat


1. Abbasov A.B. elmi redaktəsi ilə. Biznesin təşkili və idarə edilməsi. Dərslik. Bakı, 2011.
2. Məmmədov N.M., Bərxudarov M.İ. İqtisadi təhlükəsizlik. Bakı, 2006.
3. Akalp G., Yamankaradeniz N. İşletmelerde güvenlik kültürünün oluşumu. 2013.
4. Yaroçkin İ.V., Buzanova V.Y. Biznesin və sahibkarlığın təhlükəsizliyinin əsasları. Bakı, 2008.
5. Марков М. М. Системное развитие предпринимательства как фактор обеспечения экономической безопасности. Санкт-Петербург, 2009.



**Резюме**

***Хашимова А.Ч.***

**Мировой опыт в обеспечении экономической безопасности**

*Одной из проблем, которая повышает актуальность глобализации в наше время, является экономическая безопасность. Экономическая безопасность - это экономическая стабильность, экономические возможности в ближайшем и отдаленном будущем. Суть стратегии - ключ к разработке стратегии, позволяющей фирме безопасно работать в долгосрочной конкурентной перспективе.*

***Ключевые слова:*** *экономическая безопасность, защита информации, бизнес-стратегия, информационная безопасность*

**Summary**

***Hashimova A.C.***

**World Experience in the Provision of Economic Safety**

*One of the issues that increases the relevance of globalization in modern times is economic danger. Economic security is to gain economic stability, acquired economic opportunities in the near and distant future.The key to developing a strategy that allows a firm to operate safely in the long-term prospect of competition is the essence of the strategy.*

***Key words:*** *economic security, information protection, business strategy, information security*

# BİZNES FƏALİYYƏTİNİN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA DAXİLİ NƏZARƏTİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİNİN ZƏRURİLİYİ

**Hüseynova M.S.**
*Sumqayıt Dövlət Universiteti*
*Ağarzayev F.K.*
*Azərbaycan Hidrotexniki və Meliorasiya Elmi İstehsalat Birliyi*

**Xülasə**

*Məqalədə biznesin təhlükəsizliyinin təmin edilməsində daxili nəzarətin rolu tədqiq edilmişdir. Daxili nəzarətin mühüm vasitəsi kimi auditin rolu, məqsəd və vəzifələri nəzərdən keçirilmişdir.*

***Açar sözlər:*** *biznes, iqtisadi təhlükəsizlik, daxili nəzarət, audit*

Biznes fəaliyyətində iqtisadi təhlükəsziliyin təmin olunması müəssisədə resurslardan kompleks şəkildə səmərəli istifadənin təmin olunmasıdır. Səmərəli istifadə dedikdə, biznes fəaliyyətinə qarşı yarana biləcək mümkün və potensial təhlükələrin qarşısının alınması və gəlirliliyin maksimallaşdırılması funksiyalarının effektiv olaraq həyata keçirilməsi və sabit qalmasının təmin edilməsi başa düşülür. Biznes fəaliyyətində iqtisadi təhlükəsizliyin səviyyəsi, müəssisədaxili nəzarət sisteminin fəaliyyətindən də asılıdır. Optimal daxili nəzarətin təşkili və daimi olaraq fəaliyyət göstərməsi müəssisədə təhlükəsizlik tədbirlərinin təmin olunmasına çox böyük köməklik edir. Müasir dövrdə biznes fəaliyyətinin yüksək inkişaf səviyyəsi və ölkəmizdə aparılan islahatlar müəssisələrin fəaliyyətində də bəzi dəyişikliklərin həyata keçirilməsini zəruri edir. Belə ki, müəssisələrin beynəlxalq standartlara uyğunlaşdırılması və inkişafı üçün mütəmadi təkmilləşdirmə tədbirlərinin həyata keçirilməsi prosesində biznes fəaliyyətinin işinin və siyasətinin ümumi strateji istiqamətləri, daxili nəzarət sisteminin yaradılması, tətbiqi və əməliyyatların düzgün və tam olaraq zamanında aparılması daimi olaraq diqqət mərkəzində olmalıdır. Bu baxımdan daxili nəzarət sistemləri müəssisə aktivlərinin qorunması, məlumatların yığılması və təhlil edilməsi, maliyyə hesabatlarının düzgünlüyü və etibarlılığının təmin olunması prosesində nöqsanların aşkarlanması və aradan qaldırılması üçün ən səmərəli vasitədir. Fəaliyyət prosesində daxili nəzarət mexanizmlərini təmin etmək məqsədilə hər bir müəssisə aşağıdakı qayda və prinsiplərə diqqət yetirməlidir:

- səmərəli təşkilati strukturun qurulması;
- zəruri siyasət və uçot qaydalarının təmin edilməsi;
- aktivlərin qorunması üçün tədbirlər planının işlənib hazırlanması;
- daxili audit üzrə səmərəli proqramın olması [1].

Müəssisədə müvafiq daxili nəzarət mexanizmləri işlənib hazırlanarkən müəssisənin bütün bölmə və strukturları əhatə edilməli, təşkilati strukturda səlahiyyətlərin və vəzifələrin dəqiq və aydın bölgüsü öz əksini tapmalıdır. Müəssisənin bölmələri üzrə hər fəaliyyət növü üçün müvafiq siyasət və daxili prosedur qaydaları yaradılmalı, habelə həmin siyasət və qaydalara əməl olunmasına nəzarət etmək üçün adekvat nəzarət sistemi müəyyənləşdirilməlidir. Səlahiyyət və vəzifələr isə elə bölüşdürülməlidir ki, hər bir əməliyyatın baş verməsi anından sonunadək onu bir şəxs həyata keçirməsin. Rəhbərliyin, daxili nəzarəti yerinə yetirən əməkdaşların zəruri hazırlıq keçməsini, lazımi biliklərə yiyələnməsi və bunun üçün yetərli vaxt ayrılmasını təmin etməsi zəruridir. Hər bir müəssisənin uçot sistemi onların müəyyən etdiyi uçot standartlarına və müasir biznes fəaliyyətinin iş prinsiplərinə uyğun olmalıdır. Müəssisənin uçot məlumatları onun həqiqi maliyyə vəziyyətini və əməliyyatarın dəqiq nəticələrini əks etdirməlidir. Aktivlərin qorunması, onlara nəzarətin təşkili və idarə edilməsi məqsədilə səlahiyyətli əməkdaşlar üçün səmərəli prosedur qaydalarının işlənib hazırlanması və həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Həmçinin müəssisədə ən mühüm aktivləri və sənədləri qorumaq üçün gözlənilməz vəziyyətlərdə, habelə müəssisə əmlakına başqa növ daxili və xarici təsirlərin nəticəsində zərər dəyməsinin qarşısını almaq məqsədilə tədbirlər planı hazırlamaq və tətbiq etmək lazımdır [2].

Biznes fəaliyyətinin inkişafına, əhəmiyyətliliyinin yüksəldilməsinə yönəldilmiş müstəqil, obyektiv, təminatverici və məsləhətverici fəaliyyət olan daxili audit müəssisədə ən səmərəli daxili nəzarət vasitəsidir. Daxili auidit fəaliyyəti, riskin idarə edilməsinə nəzarət və idarəetmə formasının qiymətləndirilməsinə və inkişafına sistemli yanaşmaqla müəssisəyə öz məqsədlərinə nail olmaqda yardımçı olur. Daxili auditin əsas məqsədlərindən biri əməliyyat sistemləri, prosessual nəzarət mexanizmləri və sənədləşmənin mükəmməlliyi, təsirliliyinin və etibarlılığının müəyyənləşdirilməsinə yönəldilmiş yoxlamalar və təhlillər aparmaq yolu ilə müəssisə kapitalının və əmlakının(aktivlərinin) qorunmasıdır [3].

Müşahidə Şurası tərəfindən yaradılan Auidit Komitəsinin səlahiyyətlərinə aşağıdakılar aiddir:

- müəssisənin audit siyasətini və strategiyasını müəyyən etmək;
- daxili audit planlarını təsdiq etmək və audit departamentinin fəaliyyətinə nəzarəti həyata keçirmək;

- kənar auditin təyin edilməsi ilə əlaqədar müəssisənin səlahiyyətli idarəetmə orqanlarına təkliflər vermək;

- müəssisənin idarəetmə orqanları ilə kənar auditorlar, habelə nəzarət orqanları arasında əlaqələr qurmaq;

- daxili nəzarət sistemlərinin təkmilləşdirilməsinə dair Səhmdarların Ümumi Yığıncağına və Müşahidə Şurasına təkliflər vermək;

- səlahiyyətləri daxilində lazımi hallarda qəbul etdiyi qərarların icrası üzərində monitorinq keçirmək;

- müəssisənin normativ xarakterli aktları ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək [2].

Komitə qanunla məyyən edilmiş aşağıdakı vəzifələri yerinə yetirir:

- müəssisənin inzibati, əməliyyat, uçot siyasəti və prosedurları, müvafiq daxili nəzarət mexanizmlərinin təkmilləşdirilməsi barədə təkliflər vermək;

- əməliyyatlarla bağlı vəzifələrin və məsuliyyətin bölüşdürülməsinin və əməliyyatlar üzrə ikili nəzarət mexanizmlərinin təkmilləşdirilməsi barədə təkliflər vermək;

- daxili audit departamentinin büdcəsi, daxili auditorların vəzifədə irəliləyişi, işdən kənarlaşdırılması və ya azad olunması, habelə mükafatlandırılması barədə müəssisənin Müşahidə Şurasına təkliflər vermək;

- daxili audit departamentinin əsasnaməsini təsdiq etmək;

- müəssisədaxili nəzarətin vəziyyətinin biznes fəaliyyətinin reqlamentinə və fəaliyyətinin biznesplana uyğunluğunun yoxlanılmasına dair audit hesabatlarını, habelə auditin müstəqilliyini və onun nəticəsinin əsaslandırılmasını qiymətləndirmək və təsdiq etmək;

- daxili audit yoxlamasının nəticələrini, rəy, təklif və tövsiyələrini Müşahidə Şurasına təqdim edərək birgə təhlil etmək;

- aşkar edilmiş səhvlərin, nöqsanların, uyğunsuzluqların və pozuntuların aradan qaldırılması barədə Müşahidə Şurasına təkliflər vermək;

- illik maliyyə hesabatlarını nəzərdən keçirmək və onların tam və komitə üzvlərinə məlum olduğu məlumata uyğun olmasını müəyyən etmək;

- kənar auditin gedişi zamanı bankın fəaliyyətinə dair mühüm fakt və məlumatların kənar auditora təqdim edilməsini təmin etmək;

- kənar auditordan audit zamanı aşkar olunan mühüm faktlar və hadisələr haqqında məlumatın dərhal komitəyə təqdim edilməsini tələb etmək;

- müəssisənin daxili nəzarətinə və maliyyə vəziyyətinə dair mühüm məlumatları əks etdirən kənar auditor hesabatının İdarə Heyətinə təqdim edilməsini təmin etmək;

- kənar auditor, İdarə Heyəti və digər inzibatçılarla birlikdə hesabatı müzakirə və təhlil etmək, çatışmazlıqların və pozuntuların aradan qaldırılması üçün tədbirlər planlarının hazırlanması üzrə təkliflər vermək;

- zərurət yarandıqda mühüm məsələlərin müzakirə edilməsi məqsədi ilə müəssisənin idarəetmə orqanlarının və kənar auditorun iştirakı ilə görüşlərin keçirilməsini təşkil etmək.

Müəssisənin daxili audit funksiyası aşağıdakı minimum tələblərə cavab verməlidir:

1. Auditorun hərtərəfli, dolğun işlənib hazırlanmış proqramı olmalıdır.

2. Auditorun audit yoxlaması barədə dəqiq, dolğun rəyi olmalıdır [4].

Daxili auditin səmərəliliyi, daha çox tövsiyələrin yerinə yetirilməsi üçün nəzarətin davam etdirilməsindən asılıdır. Daxili audit həm ümumi müəssisə üzrə, həmdə ayrı-ayrı şöbələr üzrə keçirilə bilər. Daxili auditor yoxlamasının hər bir sahə üzrə risk dərəcəsindən asılı olaraq, ildə bir dəfədən az olmamaqla keçirilməsi məqsədəuyğundur. Biznes fəaliyyətinin maliyyə təhlükəsizliyinin obyektiv qiymətləndirilməsi həddindən artıq çətin məsələdir. Onun həllində biznes fəaliyyətini kompleks xarakterizə edən göstəricilər xüsusi yer tutur. Bütün bu göstəricilər arasında sıx qarşılıqlı əlaqə mövcuddur.

**Ədəbiyyat**


1. Abbasov A.B. və başqaları. Biznesin təşkili və idarə edilməsi. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2011, 464 s.
2. Abbasov İ.M. Audit. Bakı: Biznes Universitetinin nəşriyyatı, 2007, 530 s.
3. Rzayev Q.R. Mühasibat uçotu və audit. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2006, 392 s.
4. Yaroçkin İ. V., Buzanova V.Y. Biznesin və sahibkarlığın təhlükəsizliyinin əsasları. Bakı: 2008. 174 s.

**Резюме**

***Гусейнова М.С.***

**Необходимость повышения эффективности внутреннего контроля в обеспечении безопасности бизнес деятельности**

*В статье исследуется роль внутреннего контроля в обеспечении безопасности бизнеса. Рассмотрены цели и должности аудита, как важного инструмента внутреннего контроля*

***Ключевые слова:*** *бизнес, экономическая безопасность, внутренний контроль, аудит*

**Summary**

***Huseynova M.S.***

**The Need to Improve the Effectiveness of Internal Control in Ensuring the Security of Business Activities**

*The article examines the role of internal control in ensuring business security. The purposes and positions of audit, as an important instrument of internal control are viewed*

***Keywords:*** *business, economic security, internal control, audit*

# İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNDƏ RSA ALQORİTMİNİN İŞLƏNMƏSİ

***İsgəndərova G.A., Hüseynov K.K.***

*Milli Aviasiya Akademiyası*

***Xülasə***

*RSA alqoritminin işləmə prinsipi və alqoritmdəki əməliyyatların sayının onun əsas parametrlərindən asılılığına baxılmışdır. Göstərilmişdir ki, bu parametrlərin qiymətlərinin artması proqramda icra olunan əməliyyatların sayının xətti artmasına gətirib çıxarır.*

***Açar sözlər:*** *informasiya, alqoritm, proqram, funksiya*

Növündən və xarakterindən asılı olmadan baş verə biləcək istənilən təhlükələrin qarşısının alınması, başqa sözlə, sistemdə toplanan, saxlanan və emal olunan, eləcə də şəbəkə vasitəsilə ötürülən informasiyanın təhlükəsizliyinin təmin olunması məqsədilə indiyədək çoxlu sayda müxtəlif üsullar, vasitələr və tədbirlər sistemi işlənib hazırlanmışdır.

Məxfi informasiyanın məzmununun kənar şəxslər tərəfindən oxunmasının qarşısını almaq üçün atılan ciddi addımlardan biri də informasiyanın mənasının və məzmununun gizlədilməsi, yəni şifrələnməsi üsullarının tətbiqindən ibarətdir. İnformasiyanın şifrələnməsi rəqib qarşısında daha ciddi bir maneənin yaradılmasını təmin edir. Şifrələmə üsulları dedikdə istənilən formada olan, o cümlədən disk qurğularında saxlanılan və ya kompyüterdə emal olunan, eləcə də rabitə kanalları vasitəsilə ötürülən informasiyanın məzmununun gizlədilməsi üsulları başa düşülür. Bu üsullardan biri də RSA alqoritmidir.

RSA (Rivest, Shamir və Adleman soyadlarından götürülmüşdür)-açıq açarlı kriptoqrafik alqoritm, böyük tam ədədlərin sübutu probleminin hesablama mürəkkəbliyinə əsaslanır. RSA kriptosistemi şifrləmə və rəqəmsal imza üçün ilk yararlı sistemdir.

RSA alqoritmi belə işləyir: “ $p$ „və “ $q$ „ kimi iki kifayət qədər böyük sadə ədədlər götürülür və onların hasilləri tapılır. Bu hasil $n$ ilə işarələnir və $\varphi(n) = (p-1)(q-1)$ hesablanır. $\varphi(n)$-Eyler funksiyası, $n$-isə modul adlanır. Sonra aşağıdakı şərti ödəyən

$$1 < e < (p-1)(q-1) \text{ yəni } 1 < e < \varphi(n)$$

“$e$” kəmiyyəti seçilir. Bu, $(p-1)(q-1)$ ədədi ilə ümumi bölənə malik deyildir. Sonra elə bir “$d$” ədədi seçilir ki, $(e*d-1)$ ifadəsi $(p-1)(q-1)$-ə bölünsün.

Burada

$e$-açıq (publik) göstərici.

$d$-şəxsi(private) göstərici.

$(e,n)$- RSA-nın açıq(publik) açar.

$(d,n)$- RSA-nın şəxsi(private) açar.

$\varphi(n)$ modulundan $e$ ədədinə əks olan multiplikativ $d$ ədədi hesablanır. Yəni $d \cdot e \equiv 1(\text{mod}\,\varphi(n))$. $d$ ədədi gizli eksponent adlanır.

**Şifrələmə və deşifrələmə.**

Fərz edək ki, Əli Aygünə $m$ məlumatını göndərmək istəyir. Məlumat 0-dan $n-1, m \in Z_n$ intervalında olan tam ədəddir.

Alqoritm

- $(e,n)$-ni Aygünün açıq açarı kimi götürək;
- $m$ açıq mətndir;
- Aygünün açıq açarından istifadə edərək məlumatı şifrələyək:

$c = E(m) = m^e \bmod n$ (1).

Alqoritm

- Əlinin deşifrələmə açarını $c$ qəbul edək;
- $(d,n)$-ni bağlı açar götürək;
- Deşifrələmə açarını tətbiq edək: $m = D(c) = c^d \bmod n$ (2).

Burada $e$-şifrələmə, $d$-deşifrələmədir. Burada biz $e$ və $d$-ni elə seçməliyik ki, onların tapılması kifayət qədər çətin olsun. Bunun üçün ikinci birtərəfli funksiya tapılmalıdır ki, $d$-ni tapmaq mümkün olsun. Onun tapılması üçün Evklidə dönək.

2000 il bundan əvvəl Evklid göstərdi ki, hər bir ədəd yeganə yolla sadə vuruqlara ayrılır, hansını gizli açar hesab etmək olar. Böyük ədədlər üçün bunun edilməsi isə kifayət qədər çətin məsələdir və bunun həll edilməsi üçün çox vaxt tələb olunur.

Koks bunun üçün aşağıdakıları irəli sürmüşdür:

Fərz edək ki, Alisa təsadüfi yolla $p = \underbrace{123\ldots9}_{150 \text{ rəqəmli ədəd}}$ $q = \underbrace{234\ldots9}_{150 \text{ rəqəmli ədəd}}$ seçdi, sonra isə $n = \underbrace{567\ldots9}_{300 \text{ rəqəmli ədəd}}$ ədədini tapmaq üçün onu bir neçə kompyuterdə illər tələb olunacaq.

İndi isə Koksa elə funksiya tapmaq tələb olunur ki,bu funksiya $n$-ci sadə vuruqlara ayırmasından asılı olsun. Bunun üçün o 1760-cı ildə İsveç riyaziyyatçısı Leonard Eylerin işindən istifadə etdi. İndi bizə $\varphi$-nin tapılma metodu məlumdur. Əgər $n$-nin vuruqları məlumdursa, $\varphi$-nin tapılması kifayət qədər sadə məsələdir. İndi isə $\varphi(n)$ funksiyanın modulu üzrə qüvvətə yüksəltmə əməli ilə əlaqəsini tapmaq vacibdir. Bunun üçün o Eyler teoreminə müraciət etmişdir, hansı ki, aşağıdakı əlaqəni isbat edir.

$m^{\varphi(n)} \equiv 1 \bmod n$. Bu o deməkdir ki, ixtiyari ortaq böləni olmayan iki $m$ və $n$ ədədlərini götürsək və $m$-i $n$-nin Eyler funksiyasına yüksəltsək, həmişə 1 alarıq. Məsələn:

$n = 8, m = 5, \varphi(8) = 4$

$5^4 \equiv 1 \bmod 8$

$625 \equiv 1 \bmod 8$

İndi isə burada aşağıdakı sadə qaydaları nəzərə alsaq,

1) $1^k = 1$

$m^{k\cdot\varphi(n)} \equiv 1 \bmod n$.

2) $1 \cdot m = m$

$m \cdot m^{k\cdot\varphi(n)} \equiv m \bmod n \Rightarrow m^{k\cdot\varphi(n)+1} \equiv m \bmod n$

İndi bizdə $e \cdot d$-nin tapılması tənliyi var.

$$\begin{cases} m^{e\cdot d} \equiv m \bmod n \\ m^{k\cdot\varphi(n)+1} \equiv m \bmod n \end{cases} \Rightarrow e\cdot d = k\cdot\varphi(n)+1 \Rightarrow d = \frac{k\cdot\varphi(n)+1}{e}$$

Demək, $n$-nin sadə vuruqlarını bilsək, $d$-ni tapmaq çox asandır. Deməli, $d$-ni gizli açar götürəcəyik.

Misal:

$$\begin{matrix} p = 53 \\ q = 59 \end{matrix} \quad m = hi, h = 8, i = 9 \quad n = 59\cdot 53 = 3127 \quad m = 89 \quad \varphi(312) = 52\cdot 58 = 3016$$

Sonra $e = 3$ götürür. $e$-ni bu şərtlə seçməlidir ki, o, çüt ədəd olmasın və $\varphi(n)$ ilə ortaq böləni olmamalıdır və $d$-ni hesablasaq, $k$-nı 2 götürək $d = \dfrac{2\cdot 3016+1}{3} = 2011$.

$\{e,n\}$-onun açıq açarıdır. $89^3 \bmod 3127 \equiv 1394 = c$. Əli $c$-ni Aygünə göndərir. Aygün bunun köməyilə mətni deşifrələyir. $1394^{2011} = 89 \bmod 3127$. Deməli, Aygün $d$-nin qiymətini bildiyi üçün deşifrələməni edə bilir.

Bununla da nəticəyə gəlmək olar ki, deşifrələmə üçün $\varphi(n)$-ni tapılması şərtdir və ancaq $n$-nin sadə vuruqlarını bilməklə hesablamaq olar.

Əgər $n$-i kifayət qədər böyükdürsə, Aygün əmin ola bilər ki, bunun üçün ən mükəmməl hesablama sistemlərindən istifadə olunsa belə tapmaq üçün 1000-lərlə il vaxt tələb olunacaq.

RSA alqoritminin qurulmuş proqramında q və p sadə ədələrindən birini sabit saxlayıb digərinə müxtəlif qiymətlər verməklə, proqramın köməyilə aldığımız nəticələri qrafiklə ifadə edək.

P=7=const götürək, q-nun qiymətini hər dəfə artırmaqla müxtəlif qiymətlər verək. RSA alqoritmində icra olunan əməliyyatların sayının q dan asılı olaraq dəyişməsinin qrafiklə ifadəsi aşağıdakı kimi olar. Burada e=1789 qəbul edək. (Şəkil 1) :




***Şəkil 1. q-nin qiymətini dəyişməklə, proqramın əməliyyatlarının sayının dəyişməsinin qrafiklə ifadəsi***

P=7=const. q-nun əvvəlki qiymətlərini dəyişmədən e-nin daha böyük qiymətlərində RSA alqoritminin əməliyyatlarının sayının artmasının qrafiklə təsviri aşağıdakı kimidir:




**Şəkil 2.** ***e-nin qiymətini dəyişməklə, proqramın əməliyyatlarının sayının dəyişməsinin qrafiklə ifadəsi***

Bu qrafiklərə əsasən demək olar ki, q, p və e ədədlərdən hər hansı birini artırmaqla, proqramda icra olunan əməliyyatların sayı artmış olur. Proqram əməliyyatlarının sayının artması ilə şifrələmə əməliyyatı daha da mürəkkəbləşmiş olur, şifrələmənin mürəkkəbləşməsi deşifrələmə əməliyyatını da çətinləşdirir. Bununla da alqoritmin mürəkkəbləşməsi onun sındırılmasını mümkünsüz hala gətirir.

**Ədəbiyyat**

1. Əliquliyev R.M., İmamverdiyev Y.N. Kriptoqrafiyanın əsasları. Bakı, İnformasiya texnologiyaları. 2006, 688 s.
2. Qasımov V.Ə. İnformasiya təhlükəsizliyinin əsasları. Bakı, 2009, 221 s.
3. А.А.Безбогов, А.В.Яковлев, В.Н.Шамкин “Методы и средства защиты компьютерной информации” ГОУВПО "Тамбовский государственный технический университет"(ТГТУ), 2006-120 s.

**Резюме**

***Искандарова Г.А., Гусейнов К.К.***

**Алгоритм обработки RSA в информационной безопасности**

*Рассмотрена работа алгоритма RSA и зависимость числа операций алгоритма от значений основных параметров. Показано, что увеличение значений этих параметров приводит к линейному увеличению числа операций программы.*

***Ключевые слова:*** *информация, алгоритм, программное обеспечение, функция*

**Summary**

***Isgandarova G.A., Huseynov K.K.***

**Processing Algorithm RSA in Information Security**

*The operation of the RSA algorithm and the dependence of the number of algorithm operations on the values of the main parameters are considered, it’s shown that an increase in the values of these parameters leads to a linear increase in the number of operations of the program.*

***Key words:*** *information, algorithm, software, function*

# SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ RESTRUKTURİZASİYANIN APARILMASI PRİNSİPLƏRİ

***Kərimov X.Z.***
*Azərbaycan Texniki Universiteti*

**Xülasə**

*Məqalədə restrukturizasiya prosesinə müəssisələrin təkamül prosesində yaranan daxili struktur problemlərinin həll yolu kimi yanaşılmış, müəssisələrin həyat dövrünün hər bir mərhələsində meydana gələn struktur problemlərinin xüsusiyyətlərinin təhlili vasitəsilə restrukturizasiyanın aparılması prinsipləri əsaslandırılmışdır.*

***Açar sözlər:*** *müəssisənin təkamülü, struktur, restrukturizasiya*

Müəssisələrin strateji struktur problemləri bir çox iqtisadçı alimlərin - İ.Ansoff, M.Porter, T.Levitt və başqaları - tədqiqatlarında mühüm yer tutmaqdadır. Bu mövzuya həsr olunmuş elmi əsərlərlə və bir sıra müəssisələrin strateji idarəetmə praktikası ilə tanışlıq onu göstərir ki, ölkəmizdə formalaşmaqda olan iqtisadi şəraitdə müəssisə rəhbərlərinin qarşılaşdığı struktur problemlər çox oxşardır (baxmayaraq ki, hər bir müəssisənin düşdüyü vəziyyət bir-birindən xeyli fərqlənir).

Müəssisənin qarşılaşdığı ilkin strateji problem onun yaranması dövründə qarşıya çıxır. Yeni yaranan hər bir müəssisə statistikanın acı taleli çoxluğuna deyil, cüzi azlıq təşkil edən və gələcəyə ümidli olan müəssisələr siyahısına düşmək üçün mübarizə aparır. Bunun üçün müəssisəni digərlərindən fərqləndirən nadir fəaliyyət növü müəyyən edilməlidir. Bu qabiliyyət müəssisəyə onun istiqamətlənmək istədiyi bazar seqmentində rəqabət üstünlüyünə nail olmağa imkan verməlidir. İstehsal prosesinə başlamazdan əvvəl müəssisə rəhbərliyi bu suala cavab verməlidir: alıcı nə üçün rəqiblərin deyil, sizin məhsulu alacaq? Əgər bu suala dəqiq cavab yoxdursa, bu işə vaxt və maliyyə sərf etməyin məqsədəuyğunluğu şübhə doğurur. Müəssisənin nadir qabiliyyəti - yeni istehsal texnologiyası, yeni təşkil və idarəetmə metodlarının tətbiqi, yeni satış üsulları - eyni keyfiyyətli məhsulu rəqiblərlə müqayisədə daha aşağı məsrəflərlə istehsal etmək və yaxud alıcını eynisəviyyəli qiymət müqabilində daha yüksək dəyərlə təmin etmək imkanlarını verməlidir.

Sahibkarlıq ideyası və nadir qabiliyyət müəyyən edildikdən sonra onların reallaşdırılması prosesi başlayır.

Müəssisənin qarşılaşdığı növbəti strateji problemlər onun inkişaf mərhələləri ilə səciyyələnir. Hər bir müəssisənin özünəməxsus fərqləndirici cəhətləri olmasına baxmayaraq, onların inkişafının ümumi qanunauyğunluqları vardır. Bu qanunauyğunluqlar müəssisənin rəhbərliyinin arzu və qabiliyyətlərindən asılı olmayaraq təzahür olunur. Həmin qanunauyğunluqlar, ilk növbədə, təşkilatin idarəetmə strukturunun dinamikasında və idarəetmə metodlarının dəyişilməsində təzahür olunur. Müəssisə açıq sistem olduğu üçün daim bazarın təsiri altında olur. Bazarda mövqe qazanmaq, onu qorumaq və ya artırmaq üçün fasiləsiz axtarışların aparılması zəruriyyəti firmadaxili prosesləri bir qədər də sürətləndirir. Bazarların lazımi səviyyəli tədqiqi, rəqiblərin öyrənilməsi, ümumi iqtisadi meyillərin proqnozlaşdırılması olmazsa, müəssisə bazarda öz mövqeyini itirə bilər. Buna görə də, bazarlarda rəqabətqabiliyyətliliyini saxlamaq istəyən müəssisələr təşkilati və struktur dəyişikliklərini vaxtında və səmərəli həyata keçirməlidirlər. Struktur dəyişikliklərinin zəruriliyi əvvəlcədən proqnozlaşdırılmalı və planlaşdırılmalıdır. Belə dəyişikliklərin zəruriliyini dərk və ya qəbul etməyən təşkilatlar uğursuzluqlarla, yaranmış yeni imkanlardan istifadə etmək imkanlarını itirməklə qarşılaşmağa məhkumdurlar.

Müəssisənin təşkilati inkişafı beş əsas parametrlə xarakterizə olunur: təşkilatın yaşı, ölçüsü, təkamül mərhələsi, təşkilatın inqilabi inkişaf mərhələsi, fəaliyyət göstərdiyi bazar seqmentinin inkişaf dinamikası.

Müəssisənin idarəetmə sisteminin təkamülü beş mərhələdən ibarət olur:

1. Müəssisənin yaranması
2. Direktiv idarəetmə
3. Səlahiyyətlərin bölüşdürülməsi
4. Koordinasiya
5. Əməkdaşlıq

Bu mərhələlərdən hər biri böhran dövrü ilə bitir. Belə böhran dövrlərində yeni reallıqlara uyğun idarəetmə metodlarını tapa bilməyən, özünün idarəetmə strukturunu və menecment praktikasını dəyişə bilməyən təşkilatlar uğursuzluğa məhkumdurlar. Müəssisə rəhbərləri bir həqiqəti qəbul etməlidirlər ki, bu günün reallıqlarına uyğun olan və müəssisənin inkişafına təkan verən yeni idarəetmə üslubu gələcəkdə inqilabi dəyişikliklərin yeni mərhələsinin başlanmasına gətirəcəkdir. Bugunkü problemin həlli yolu özü sabah problemə çevrilir. Bazarın inkişafı, yeni iqtisadi siyasət və başqa bu kimi xarici amillər müəssisədaxili dəyişikliklərin surətinə və xarakterinə böyük təsir göstərir. Bazar seqmentlərinin surətli artımı müəssisənin təkamül mərhələlərinin qısalmasına gətirir. Bazarın mənfəətlilik səviyyəsi yüksək olduqda və uzunmüddətli

xarakter daşıdıqda həmin mərhələlərin ömrü də uzanır. Əksinə, bazarın mənfəətliliyi az olduqca buradakı inqilabi böhranlar cətin və kəskin xarakter alır.

İlk dövrlərdə cari tələbatların tam ödənilməsi, adətən mümkün olmadığı üçün müəssisə rəhbərlərinin əsas motivi kimi gələcək uğur arzuları və tükənməz inam hissləri ilə çıxış edirlər. Bu zaman ən əsas məsələ məhsulun istehsalı və satılması qəbul olunur. Sərf olunan əməyin keyfiyyətini bazar qiymətləndirir. Müəssisənin strukturu qeyri-formal xarakter daşıyır, informasiya kanalları isə birbaşa və qısa olurlar. Bu mərhələ sifarişçilərə xüsusi diqqət və gərgin iş rejimi ilə səciyyələnir. Müəssisənin sifarişləri artdıqca onun istehsal həcmi də artmağa başlayır. Bu isə öz növbəsində daha çox işçi qüvvəsi və digər iqtisadi ehtiyatlara tələbat yaratmaqla, iş prosesini xeyli mürəkkəbləşdirir. Müəssisədə qeyri-formal münasibətlər mürəkkəbləşərək əlavə nəzarətə zərurət yaradır. İdarəetmə ilə məşğul olan əməkdaşların qarşısına yeni və cətin vəzifələr qoyulur. Belə şəraitdə əməkdaşların bir hissəsi öz peşəkarlığını yüksəldərək yeni tələblərə uyğunlaşır, digərləri isə bu prosesdə geri qalırlar. Yeni cəlb olunan yüksəkixtisaslı mütəxəssislərlə müəssisənin aşağı ixtisas səviyyəli veteranları arasında qarşılıqlı münasibət problemləri meydana çıxmağa başlayır. Bir çox müəssisələrdə qazanılmış ilkin mənfəətin bölüşdürülməsi və istifadəsi problemi də kəskin xarakter alır. Belə şəraitdə «Lider» böhranı yaranır. Xarici təsirlərə dözən bir çox müəssisələr meydana çıxan birinci daxili böhrana dözə bilmir və ləğv olunur. Belə şəraitdə müəssisənin yaranma tarixi ilə bağlı olmayan, yalnız iqtisadi məsələləri meyar kimi qəbul edən kənar peşəkar menecerin dəvət olunması praktikada daha çox istifadə olunur.

Birinci böhran dövrünü keçən müəssisə ikinci təkamül mərhələsinə - müəyyən bazar seqmentində tələbatların səmərəli ödənilməsi mexanizmi kimi qəbul olunan müəssisə - qədəm qoyur.

Artıq müəssisə bazarda tanınır və onun məhsulu bazar tərəfindən qəbul olunur. Burada əsas məsələlər kimi məhsulun rəqabətqabiliyyətliliyi və biznesin mənfəətliliyi qəbul olunur. Məlumdur ki, bu məsələlərin həlli bir-birinə zidd olan iki məsələnin həlli: keyfiyyətin yüksəldilməsi və məsrəflərin azaldılması ilə sıx bağlıdır. Müəssisənin istiqamətləndiyi bazar seqmentinin xarakteri bu məsələlərdən hansının daha üstün olması haqqında fikir söyləməyə imkan verə bilər. Həmin məsələlərin həlli üçün ayrı-ayrı bölmələrin ixtisaslaşması ilə bərabər sərt funksional strukturun və digər müvafiq idarəetmə strukturlarının tətbiqinə ehtiyac yaranır. Müəssisədaxili əlaqələr formalaşır, iyerarxiyalar qurulur. Müəssisədə hər bir əməkdaş dəqiq müəyyən olunmuş funksional öhdəliklərə malik olur və hesabat göstəriciləri ilə qiymətləndirilir. İdarəetmə işçilərinin müəsisənin son məhsulunun dəyərinin yaranmasında zəhmətlərinin qiymətləndirilməsi çətinləşdiyi üçün daxili qiymətləndirmə göstəriciləri sisteminin işlənməsinə ehtiyac yaranır. Müəssisənin artımı ilə onun rəhbərliyinin fəaliyyət sferaları da artmağa başlayır - onlar həm bazarı izləməli, həm də daxili cari prosesləri idarə etməli olurlar. Bundan əlavə, mərkəzləşdirilmiş iyerarxiyalar aşağı ranqlı idarərəetmə işçilərinin motivləri ilə müəssisənin ümumi məqsədləri arasında uyğunsuzluqları xeyli dərinləşdirir. Orta ranqlı menecerlərin öhdəlikləri və səlahiyyətləri arasındakı disbalans artır və beləliklə «müstəqillik» böhranı yaranmağa başlayır.

Belə böhran vəziyyətindən çıxış yolu kimi aşağıdakılar təklif olunur:

-müəssisə rəhbərliyinin iki cəbhədə eyni zamanda fəaliyyət göstərməsinin qeyri-mümkünlüyünün qəbul edilməsi və müvafiq tədbirlərin görülməsi;

-aşağı ranqlı bölmə rəhbərlərinin müəssisənin biznesinə, cəlb edilməsi.

Səlahiyyətlərin bölüşdürülməsinin əsas şərti müəssisənin daxili fəaliyyətinin qiymətləndirilməsində natural göstəricilərdən iqtisadi göstəricilərə keçməkdir, yəni bölmə rəhbərləri müstəqil qərarlar qəbul etməklə, bölmənin gəlirliliyinə cavabdehlik daşıyırlar. Müəssisənin idarə heyətinin iclaslarında bölmələrin cari texniki problemləri deyil, iqtisadi hesabat göstəriciləri (gəlirlərin həcmi, məsrəflər, mənfəətin miqdarı və b.) müzakirə olunur. Müəssisənin strukturu divizional qruplara və yaxud biznes-vahidlərə bölünür (biznes-mərkəzlər). Həmin biznes-vahidlər özləri müstəqil fəaliyyət göstərərək mərkəzi orqana iqtisadi-maliyyə hesabatı verir. Mərkəzi orqan strateji rolu həyata keçirərək biznes-vahidlərin fəaliyyət sahələrini və onlara nəzarət meyarlarını müəyyən edir, bölmələr isə bütün taktiki işləri həyata keçirirlər. Müəssisə rəhbərliyi bazarların genişləndirilməsi, fəaliyyətin diversifikasiyası (biristiqamətli fəaliyyət riskinin azaldılması), biznesin gələcək inkişafı kimi məsələlərin həlli ilə məşğul olur. Rəhbərliyin müəssisədaxili fəaliyyəti isə bölmələrin fəaliyyət səmərəliliyinin təhlili, investisiyaların bölüşdürülməsi və kadr siyasətinin müəyyənləşdirilməsinə istiqamətlənir. Ali rəhbərliyin bölmə rəhbərləri ilə əlaqələri xeyli azalır ki, bu da öz növbəsində idarəetmənin itirilməsinə gətirə bilər. Bölmələrin müstəqilliyi müəssisənin ümumi maraqlarının ziddinə olur, lakin bölmənin xeyrinə olan qərarların qəbuluna şərait yaradır. Buna görə də müəssisə daxilində bölmələrin qarşılıqlı fəaliyyəti və koordinasiya edilməsi problemləri meydana çıxmağa başlayır.

Bu mərhələ bölmələrin fəaliyyətinin koordinasiya edilməsi üçün formal sistemlər və prosedurların istifadəsi ilə xarakterizə olunur. Divizional struktur dedikdə mənfəət mərkəzləri kimi adlanan biznes-vahidlərdən ibarət struktur nəzərdə tutulur. Ali rəhbərlik orta ranqlı rəhbərlikdən daha çox uzaqlaşır. Hər bir

bölmə ali rəhbərliyin daha yüksək diqqəti və investisiyaları üçün mübarizə aparmalı olur. Bütün sahələrdə işçilər özlərini müəssisənin bir hissəsi kimi hiss edir və müəssisənin ümumi məqsədləri uğrunda çalışırlar. Bölmələr arasında əlaqələrin azalması prosesi baş verir ki, bu da öz növbəsində ümumi qarşılıqlı fəaliyyətin məqsədyönlülüyü və zəruriliyinə şübhələrin yaranmasına gətirir.

Bu mərhələdə bölmələr funksional baxımdan müstəqil olurlar. Strateji əməkdaşlıq qarşılıqlı fəaliyyətin əsasını təşkil edir. Belə əməkdaşlıq forması ümumi məqsədləri dəqiqləşdirməyə kömək edir, onların həyata keçirilməsi və koordinasiyasında firmadaxili problemlərin səmərəli həll mexanizmi kimi çıxış edir.

**Ədəbiyyat**

1. Основы Бизнес-анализа. Под.ред. проф. В.И.Бариленко. Кнорус. М., 2014. Магистратура.

2. Елаферов В.Г., Репин В.В. Бизнес-процессы: регламентация и управление: учебник. М.: ИНФРА-М, 2013.

3. Аакер Д. Стратегическое рыночное управление : пер. с англ. (Серия «Теория и практика менеджмента»). СПб. : Питер, 2010.

4. Хэмел Г., Прахалад К. Борьба за будущее // Управление в условиях неопределенности : пер. с англ. М. : Альпина Бизнес Букс, 2016.

**Резюме**

***Каримов Х.З.***

**Принципы проведения реструктуризаций на промышленных предприятиях**

*Процесс реструктуризации рассмотрен как способ решения структурных проблем эволюции предприятия, на основе анализа проблем, возникающих на каждом этапе эволюции, обоснованы принципы проведения реструктуризации.*

***Ключевые слова:*** *эволюция предприятия, структура, реструктуризация.*

**Summary**

***Karimov Kh.Z.***

**Principles of Restructuring in Industrial Enterprises**

*The process of restructuring is considered as a way to solve the structural problems of the company's evolution, based on the analysis of problems arising at each stage of evolution, the principles of restructuring are justified.*

***Key words:*** *enterprise evolution, structure, restructuring*

## KİMYA VƏ NEFT-KİMYA MÜƏSSİSLƏRİNDƏ İSTEHSALIN DİVERSİFİKASİYALAŞDIRILMASI PROBLEMLƏRİ VƏ İQTİSADİ TƏHLÜKƏSİZLİK ASPEKTLƏRİ

***Kərimli A.S., Əliyev Ş.T.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Məqalədə kimya və neft-kimya müəssislərində istehsalın diversifikasiyalaşdırılması problemləri və iqtisadi təhlükəsizlik aspektləri tədqiq olunmuşdur. Kimya və neftkimya müəssisələrində istehsalın şaxələndirilməsi problemləri təhlil edilmişdir. Bu problemlərə yanaşmaların mahiyyəti açıqlanmışdır. Sumqayıt Kimya Sənayesi Parkında cəmləşən və "Azərikimya" İB-nin istehsal potensialından səmərəli istifadə edilməsinin aktuallığı qabardılmışdır. Yaxın perspektivdə kimya və neft-kimya kompleksində yeni istehsal güclərinin yaradılması hesabına qeyri-neft sektorunun potensialının artırılması və iqtisadi təhlükəsizliyin gücləndirilməsi imkanları açıqlanmış və proqnozlar verilmişdir.*

***Açar sözlər:*** *kimya və neft-kimya müəssisləri, istehsalın diversifikasiyalaşdırılması problemləri, iqtisadi təhlükəsizlik aspektləri, Sumqayıt Kimya Sənaye Parkı, "Azərikimya" İB-yi.*

Müasir dövrdə milli iqtisadiyyatın yeni inkişaf mərhələsinə qaldırılması, iqtisadi təhlükəsizliyin təmin edilməsi istiqamətində kompleks və sistemi tədbirlər həyata keçirilməkdədir. Bu məqsədlərlə müxtəlif milli iqtisaidyyat sektorları üzrə strateji yol xəritələri hazırlanmış və realaşdırılmaqdadır [1]. Bundan əlavə, güclü istehsal və ixrac poetnsialına malik olan iqtisadiyyat sahələrinin əlavə dəyər yaratmaq imkanlarından istifadə edilməsi məsələləri yüksək prioritetlik təşkil edir. Belə sahələrdən biri də Azərbaycanın sənaye sekotrunda mühüm əhəmiyyət kəsb edən kimya və neft-kimya kompleksidir.

Qeyd edək ki, kimya və neftkimya kompleksinin strateji hədəfləri ölkəmizin neftqaz sənayesinin perspektiv inkişaf hədəfləri ilə bir yerdə baxılmış və müəyyənləşdirilmişdir. Başqa sözlə, kimya və neft-

kimya sektorunun inkişafı, onun xammal bazasının gücləndirilməsi birbaşa olaraq neft-qaz xammallarından asılıdır. Bu qeyd edilənlər nəzərə alınmaqla, kimya və neft-kimya müəssisələrində əlavə dəyər zənciri üzrə istehsalın diversifikasiyalaşdırılması aktuallığı ilə diqqət çəkir. Məsələ burasındadır ki, neft və qaz xammalının emal imkanlarının güclü olması ilə əlaqədar olaraq, kimya və neft-kimya müəssisələrinin xammal bazasının daha etibarlı formalaşdırılması üçün əlverşli şərait və kifayət qədər potensial mövcuddur [2]. Hələ sovetlər birliyi dönəmində, Azərbaycanda çoxlu sayda kimya və neft-kimya müəssisələri fəaliyyət göstərirdi və Sumqayıt sənaye mərkəzi güclü kimya və neftkimya mərkəzi kimi tanınırdı [3]. Həmin dövrdə tikilən qurğuların bir hissəsi hazırda ölkəmizdə istehsal olunan kimya məhsullarının 70-80 %-ni əhatə edir. Məsələn, "Azərikimya" İB-nin "EP-300" qurğusu 1988-ci ildə istismara verlmişdir və hazırda ölkəmizin kimya və neft-kimya sənayesinin istehsal bazasının əsasını təşkil edir. Bu qurğuda il ərzində 280-300 min ton həcmində neft və qaz emalından alınan yan məhsulların və yarımfabrikatların emalı həyata keçirilir. Amma həmin qurğunun emal gücünün texnoloji yenilənmədən və təkmilləşdirilmələrdən sonra, 500-600 min tona çatdırılması imkanları vardır. Bununla belə, müasir dövrün tələbləri nəzərə alınmaqla kimya və neftkimya müəssislərində istehsalın daha rəqabətqabiliyyətli təşkili və əlavə dəyər zənciri üzrə şaxələndirilməsi müasir texnologiyaların tətbiqi və güclü xammal bazasının formalaşdırılmasını, satış problemlərinin həll edilməsini, müəssisənin marketinq strategiyasının olmasını şərtləndirir.

Bir qrup tədiqatçılar – T.V.Sukrova, M.M.Saburova, A.S.Udalov, T.V.Avdeyeva, A.Q.Kokoriv və A.S.Masalov sənaye müəssisələrində, xüsusilə kimya müəssisələrində istehsalın şaxələndirilməsi və yeni istehsal sahələrinin yaradılması, yüksək texnologiyalar əsaslı və innovativ funksiyalarala malik istehsal qurğularının istismara verilməsi məsələlərinin sistemli və ardıcıl şəkildə baxılmasını vacib sayırlar. Belə ki, dünya ölkələrinin təcrübəsi nəzərə alınmaqla, kimya sənayesinin əlavə dəyər yaratmaq imkanlarının reallaşdırılması milli iqtisadiyyatın yeni və məhsuldar artım mənbəyi kimi də baxıla bilər və bir çox ölkələrdə 1 dollarlıq xammal müqabilində əlavə dəyər yaratmaq hesabına, orta hesabla 10 dollardan çox məhsul istehsalına nail olunur. Bu isə milli məhsulun artımına, onun iqtisadi təhlükəsizliyinin gücləndirilməsinə və iqtisadiyyatın diversifikasiyalaşdırılmasına əhəmiyyətli şəkildə müsbət təsir göstərə bilər. T.V.Sukrova bildirir ki, kimya müəssisələrinin fəaliyyətinin və istehsal strkturunun diversifikasiyalaşdırılması çoxlu sayda yarımfabrikatların və əlavə dəyər verən məshulların istehsalı ilə nəticələnmək imkanına malikdir [4].Bundan əlavə, müəssisədə istehsal sahələrinin məhsuldar texnologiyalar hesabına yenilənməsi zamanı, əsas şərtlərdən biri istehsal zənciri üzrə əlavə dəyər yaradan proseslərinin və mərhələlərin inteqrativliyinin təmin edilməsidir, yəni istehsal proseslərində alınan yeni xammal və yarımfabrikatların yeni məhsula çevrilmək potensialının olmasıdır. Bu baxımdan müəssisənin istehsal strukturunun diversifikasiyalaşdırılması zamanı əlavə dəyər zənciri üzrə çoxfunksiyalı xüsusiyyətlərə malik istehsal proseslərinə və texnologiyalarına üstünlük verilməlidir [5]. Kimya və neftkimya müəssisələrində istehsalın diversifikasiyalaşdırılması zamanı təşkilati-iqtisadi mexanizmlərə strateji yanaşmalar təmin olunmalıdır. A.S.Udalov belə hesab edir ki, əlavə dəyər zənciri üzrə istehsalın diversifikasiyalaşdırlmasında müəssisənin xammal potensialı uzunmüddətli dövr üçün güclü şəkildə formalaşdırılmalı və təmin edilməlidir [6]. Eyni zamanda xammal təminatı ilə bərabər, müəssisənin istehsal potensialının inkişaf strategiyası işlənib hazırlanmalı və ardıcıl şəkildə həyata keçirilməlidir. Bu halda istehsal sahələrinin vahid əlavə dəyər zənciri tsiklində birləşdirilməsinə maksimum səy göstərilməlidir. Bu məqsədlərə çatmaq üçün müəssisədə istehsalın yenilənməsi və şaxələndirilməsi problemlərinə strateji yanaşma təmin olunmalıdır [7]. Kimya müəssisələrində istehsalın diversifikasiyalaşdırılmasının səmərəli təşkilinin bir qrup prinsiplərinədavamlı şəkildə əməl olunması tələb olunur. Burada, ilk növbədə istehsalın yenilənməsinin gözlənilən nəticələrinin obyektiv reallıqdan əsaslandırılması və uzunmüddətli dövr üçün proqnozlaşdırlması mühüm əsmiyyət kəsb edir [8;9]. Bunlarla yanaşı, kimya müəssisələrinin istehsal imkanlarının diversifikasiyalaşdırılmasında metodoloji üslublar və yanaşmalar həmin müəssisələrin strateji innovativ hədəflərinə uyğun olmalıdır.

Müasir dövrdə ölkəmizdə kimya və neft-kimya müəssisələrinin istehsal potensialının artırılması üçün iri layihələr reallaşdırılmaqdadır. Sumqayıt Sənaye Mərkəzində nəhəng Karbamid zavodu istismara verilmək ərəfəsindədir. Bu zavodda üzvi kənd təsərrüfatı gübrələri istehsal oluinacaqdır. Bundan əlavə, SOCAR-Polimer zavodunda aşağı təzyiqli polietilenlərin və digər polimerlərin istehsalı həyata keçiriləcəkdir. Bu baxımdan yaxın perspektivdə kimya və neft-kimya kompleksində istehsalın diversifikasiyalaşdırlmasının dərinləşdirilməsi hesabına qeyri-neft sektorunun imkanlarının genişlənidirlməsi gözlənilir. Bütün bunlar isə milli iqtisadiyyatın şaxələndirilməsi və iqtisadi təhlükəsizliyin təminedilməsi baxımından mühüm əhəmiyyət kəsb edəcəkdir və s.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.

2. Əliyev Ş.T. Azərbaycanın kimya və neft-kimya komleksinin qiymətləndirilməsi və yenidən qurulması istiqamətləri. Bakı, Elm və təhsil, 2012, 156 s.

3. Əliyev Ş.T. Azərbaycanda neft-kimya kompleksininin inkişafının müasir aspektləri və istiqamətləri // Audit, № 3, 2016, s.41-45.

4. Сукрова Т.В. Совершенствование механизмов диверсификации для промышленных предприятий в российских условиях: на примере химической отрасли. Дисс. канд. экон. наук. М., 2005, 184 с.

5. Сабурова М.М. Диверсификация как фактор устойчивого развития предприятия. Дисс. канд. экон. наук. Ульяновск, 2006, 195 с.

6. Удалов А.С. Организационно-экономическое обеспечение реализацистрагтегии предприятия на основе диверсификации. Дисс. канд. экон. наук. Нижний Новгород, 2011, 220 с.

7. Авдеева Т.В. Развитие производственной стратегии промышленного предприятия. Дисс. канд. экон. наук. Саратов, 2010, 219 с.

8. Кокорин А.Г. Диверсификация производства и обоснование ее эффективности. Дисс. канд. экон. наук. Нижний Новгород, 2002.

9. Масалов А.С. Методы оценки реструктуризации химических предприятий на основе диверсификации производства. Дисс. канд. экон. наук. Санкт-Петербург, 2004, 169 с.

**Резюме**

***Каримли А.С., Алиев Ш.Т.***

**Проблемы диверсификации производства и аспекты экономической безопасности на химических и нефтехимических предприятиях**

*В статье исследованы проблемы диверсификации производства и аспекты экономической безопасности на химических и нефтехимических предприятиях. Анализированы проблемы расширения структуры производства на химических и нефтехимических предприятиях. Раскрыта сущность подходов к этим проблемам. Акцентировано внимание на актуальности рационального использования потенциала Сумгаитского химического промышленного парка и ПО «Азерикимйа». Обобщены потенциал и даны прогнозы по усилению экономической безопасности ненефтяного сектора с учетом создания новых производственных мощностей в химическом и нефтехимическом комплексе страны на ближайшую перспективу.*

***Ключевые слова:** предприятия химии и нефтехимии, проблемы диверсификации производства, аспекты экономической безопасности, Сумгайытский химический промышленный парк, ПО «Азерикимйа».*

**Summary**

***Karimli A.S., Aliyev S.T.***

**Problems of Production Diversification and Aspects of Economic Security in Chemical and Petrochemical Enterprises**

*The problems of production diversification and aspects of economic security in chemical and petrochemical enterprises are investigated in the article.The problems of expanding the structure of production in chemical and petrochemical enterprises are analyzed.The essence of approaches to these problems is revealed.Attention on the relevance of rational use of the potential of Sumgayit Chemical Industrial Park and PA "Azerikimya"is focused. The potential and forecasts to enhance the economic security of the non-oil sector, taking into account the creation of new production capacities in the chemical and petrochemical complex of the country are summarized and given for the near future.*

***Key words:** enterprises of chemistry and petrochemistry, problems of production diversification, aspects of economic security, Sumgayit Chemical Industrial Park, PA "Azerikimya".*

## BİZNES FƏALİYYƏTİNİN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ LOGİSTİK MƏRKƏZLƏRİN ROLU

***Qasımova Z.M.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə***

*Məqalədə logistik mərkəzlərin yaradılmasınını vacibliyi tədqiq edilmişdir. Logistik mərkəzlərin biznes fəaliyyətinin səmərəli təşkilində və idarə edilməsində rolu araşdırılmışdır. Həmçinin Azərbaycanda logistik mərkəzlərin yaradılmasının məqsəd və vəzifələri araşdırılmışdır.*

***Açar sözlər:*** *logistik mərkəzlər, idarəetmə, investisiya, istehsal, biznes, təhlükəsizlik*

Müasir dövrdə elmi-texniki tərəqqinin inkişafı, alıcı bazarının formalaşması və rəqabət mübarizəsinin kəskinləşməsi kimi proseslər bazar mühitinin dinamik inkişafını şərtləndirən əsas amillərdəndir. Belə bir şəraitdə fərdiləşdirmə ənənələrinə tabe olmaqla kütləvi istehsal imkanlarının saxlanılmasına çalışan sahibkarlar çevik logistik mərkəzlərin köməyi ilə təsərrüfat fəaliyyətlərinin təşkili məsələsinə daha çox üstünlük verirlər. Logistik mərkəzlərin formalaşması prosesində stabilliyin - dayanıqlığın təmin edilməsi üçün çevikliyi səciyyələndirən mühüm xüsusiyyətləri aydınlaşdırmaq lazım gəlir.

Logistik mərkəzlərin yaradılması beynəlxalq iqtisadi münasibətlərin formalaşmasında mühüm rol oynayır. Logistika sürətlə qloballaşan dünyada iqtisadi artımın mühüm təkanverici qüvvəsinə çevrilməklə, iqtisadiyyatın aparıcı sahələrində birbaşa xarici investisiya qoyuluşlarının həcmini artırmağa şərait yaradır. Bir çox dünya ölkələri dəniz, avtomobil və dəmiryolu daşımalarında logistika mərkəzləri vasitəsilə əlavə dəyər yaratmaqla iqtisadi fayda əldə etməyə çalışırlar. Dünyanın ən qabaqcıl təcrübələrinə əsasən logistika mərkəzləri vasitəsilə əlavə dəyər yaradılmasının üç əsas uğur amili vardır. Həmin uğur amilləri aşağıdakılardan ibarətdir:

İlk olaraq, dəyərin yaradılması üçün seçilmiş təchizat zəncirlərində tarazlaşdırılmış inkişafın daha çox səmərə verməsi nəzərə alınmaqla, infrastruktur və xidmətlər bərabər şəkildə inkişaf etdirilməlidir. Belə ki, infrastruktura həddən çox diqqətin yetirilməsi ticarət üçün zəruri xidmətlərin təminatında çatışmazlıqların yaranmasına səbəb ola bilər ki, bu da artımı məhdudlaşdıra bilər. Digər tərəfdən, xidmətlərə həddən çox diqqət yetirilməsi infrastruktur çatışmazlığına yol aça bilər.

İkincisi, logistika mərkəzlərinə investisiya qoyuluşları üçün aydın strategiyanın və düşünülmüş planlaşdırmanın olması çox vacib amillərdəndir. Potensialın və gəlirliliyin düzgün hesablanmaması ilkin fəaliyyətə başlamaqda və fəaliyyətin sürətləndirilməsində problemlərə yol aça bilər. Yüksək potensiallı mərkəzlərin tikintisinin irihəcmli investisiya qoyuluşları tələb etdiyini nəzərə alaraq, qeyd etmək olar ki, əvvəlcədən müvafiq risk qiymətləndirməsi aparılması zəruridir. Bu baxımdan hərtərəfli düşünülmüş planlaşdırmanın və təfərrüatlı texniki-iqtisadi əsaslandırmanın əhəmiyyəti böyükdür.

Üçüncüsü, bir qayda olaraq, logistika mərkəzlərinin tikintisi zamanı bütövlükdə təchizat zəncirinin optimallaşdırılmasını həyata keçirə biləcək mövqedə özəl sektor iştirakçısı mövcud olmur. Belə ki, şirkət səviyyəsində natamam planlaşdırma və optimallaşdırma logistika mərkəzlərinin qurulması mərhələsində səmərəsizliyə yol aça bilər. Həmçinin, adətən, bütövlükdə təchizat zəncirlərinə münasibətdə logistikanın düzgün optimallaşdırılmasını bilən və ya bunu etmək üçün lazımi bazar gücünə malik olan üçüncü tərəf kimi güclü logistika şirkətlərinin çatışmazlığı hiss olunur. Dövlətin nəzarəti ilə təchizat zənciri komponentlərinin, o cümlədən gömrük və birbaşa xarici investisiyalar bazasının olması logistika mərkəzlərin yaradılmasına və inkişafına təsir edən amillərdəndir [4].

Müasir şəraitdə logistik mərkəzlərin səmərəli təşkili və idarə edilməsi biznesin fəaliyyətinin təhlükəsizliyinin təmin olunmasında xüsusi rol oynayır.

Müəssisələrdə istehsal-texnoloji proseslərin yeni tələblər nöqteyi-nəzərindən təşkili ilə bağlı problemlərin həlli və istehsala xidmət göstərən infrastruktur komplekslərinin normal fəaliyyəti məhz logistik mərkəzlər hesabına təmin edilir.

Logistik mərkəzlər yaradan xarici ölkələrin təcrübəsi sübut edir ki, bu mərkəzlərdən istifadə edən istehsalçı müəssisələr tələb və təklifin dinamikliyi şəraitində bazaryönümlü mürəkkəb və az materialtutumlu məhsul istehsalı, habelə məhsulların yeniləşməsi səviyyəsinin qorunub saxlanılması üzrə strategiyaların hazırlanması imkanlarına malik olur [2].

Bazar dinamikliyi və tələbin qeyri-müəyyənliyi böyük həcmdə istehsal ehtiyatlarının yaradılmasını zəruriyyətə çevirir. Bu zaman istehsalçı hər dəfə hətta böyük olmayan istehlakçı sifarişlərinin alınması üçün çox maraqlı olur. Bunlar isə əvvəl qeyd edildiyi kimi, tələbin konyunkturasını tez nəzərə ala bilən çevik istehsal gücünə tələbat yaradır və bazar uğrunda rəqabət mübarizəsinin spektrini genişləndirir. Belə bir rəqabət şəraitində istehsal olunmuş məhsulların maya dəyərinin azaldılmasına ənənəvi formada istehsal olunacaq məhsul partiyasının həcminin artırılması hesabına deyil, məhz istehsal proseslərinin logistik prinsiplər və metodlarla təşkili hesabına nail olunur. Logistik proseslərin tədarük, istehsal, bölüşdürücü və s. ayrılması isə şərti xarakteri daşıyır. İstehsal sahələrində material axınlarının idarə edilməsi bir mərkəzdən təşkil olunur. Bütün logistik əməliyyatlar bir-birilə qarşılıqlı əlaqədə olmaqla yanaşı, həm də bir-birindən funksional asılılıq təşkil edir. Onlar material, informasiya və digər axınların idarə edilməsi məsələlərinə vahid bir proses kimi baxırlar. Eyni zamanda əsas istehsalda yerinə yetirilən, cəmləşən logistik əməliyyatların mühüm hissəsi logistik mərkəzlərin giriş və çıxışında icra edilən logistik əməliyyatlardan özlərinin xarakterinə və strukturuna görə fərqlənir [1,3].

Ümumiyyətlə, logistik mərkəzlərin əsas məqsədi istehsal prosesləri ilə müəssisənin qarşılıqlı əlaqədə olan struktur bölmələri arasında yerinə yetirilən logistik əməliyyatların dəqiq sinxronluğuna nail olmaqdır.

Bu mərkəzlərin əsas vəzifəsi istehsal güclərinin tam yüklənməsinə nail olmaqla dövriyyə vəsaitlərinin dövr sürətini artırmaq və ya onların müəssisədən keçmə müddətini minimuma endirmək, istehsalın fasiləsizliyini təmin etmək məqsədi ilə zəruri səviyyədə material ehtiyatları yaratmaq və bu resursların emalı üçün sərbəst istehsal-logistik gücü idarə etmək və istehlakçıların sifariş paketlərinə uyğun tələbatlarını dolğun ödəmək şərti ilə məhsulların maya dəyərini aşağı salmaqdan ibarətdir.

Başqa sözlə, logistik mərkəzlərin əsas vəzifəsi təkcə logistik sistemlər daxilində deyil, eyni zamanda istehsal prosesləri çərçivəsində material və informasiya axınlarının idarə edilməsinin təşkili məsələlərini özündə əks etdirmək və bu zaman biznes fəaliyyətinin təhlükəsizliyinə şərait yaratmaqdır.

Beləliklə, istehsalın təşkili baxımından logistik mərkəzlər qarşısında qoyulan əsas tələb - meyar istehsalın çıxış xarakteristikalarının stabil səviyyəsini qoruyub saxlamaqdan, yəni kənarlaşdırıcı təsir göstərə biləcək müxtəlif daxili və xarici amillərin mövcud olduğu bir şəraitdə biznes proseslərinin stabilliyini və təhlükəsizliyini təmin etməkdən ibarətdir.

**Ədəbiyyat**


1. İmanov T.İ. Logistikanın əsaları. Bakı, 2005.
2. İsayev A.S. Maddi istehsalda fəaliyyət göstərən təsirlər, yaxud texniki-iqtisadi inkişafın yeni tələbləri. Bakı: Azərnəşr, 2009, 425 s.
3. Hüseynov T.Ə. Firmanın iqtisadiyyatı. Bakı: Azərnəşr, 2009, 600 s.
4. Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı.



**Резюме**

***Гасымова З.М.***

**Роль логистических центров в процессе обеспечения безопасности бизнес деятельности**

*В статье исследуются вопросы создания логистических центров. Исследуется их роль в организации и управлении бизнес деятельности. Также исследуются цели и должности создания логистических центров в Азербайджане.*

***Ключевые слова:*** *логистические центры, управление, инвестиции, производство, бизнес, безопасность*

**Summary**

***Qasimova Z.M***

**The Role of Logistics Centers in the Process of Ensuring the Safety of Business Activity**

*The article explores the creation of logistics centers. The role of logistics centers in the organization and management of business activities is examined. Also, the aims and positions of creating logistics centers in Azerbaijan are being investigated.*

***Key words:*** *logistics centers, management, investment, production, business, security*


## SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ ƏMƏK MÜNASİBƏTLƏRİNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİK PROBLEMLƏRİ


***Məmmədova E.Ş.***
*Sumqayıt Dövlət Universiteti*



***Xülasə***

*Müəssisə qarşısında nə qədər böyük texniki imkanlar, təskilati-idarə üstünlükləri olsa da, müvafiq əmək ehtiyatı olmasa, səmərəli fəaliyyət göstərə bilməz. Axı son nəticədə hər şey adamlardan, onların ixtisasından, işləmək qabiliyyətindən və marağından asılıdır. Müəssisədə əməyin düzgün təşkili üçün bu və ya başqa işin yerinə yetirilməsinə nə qədər əmək məsrəfləri lazım olduğunu bilmək, başqa sözlə, hər bir işçinin əmək məsrəfləri ölçüsünü, daha doğrusu, əmək normasını müəyyən etmək lazımdır.*

***Açar sözlər:*** *əmək, əməkhaqqı,əməyin stimullaşdırılması, müəssisə.*


Milli iqtisadiyyatın inkişaf strategiyası, daxili və xarici təhlükələrin öz vaxtında tənzimlənməsinə, istehsalın elmi-texniki inkişafının sürətləndirilməsinə, yoxsulluğun aradan qaldırılmasına istiqamətləndirilməlidir. Milli iqtisadiyyatın inkişaf strategiyasının əsas məqsədi, ölkədə sabit, dinamik sosial-iqtisadi inkişafı təmin etmək əsasında, onun təhlükəsizliyini hər vasitə ilə qoruyub saxlamaqdan ibarətdir. Sənaye müəssisələrində əmək münasibətlərində iqtisadi təhlükəsizlik problemlərini araşdırarkən əməyin normallaşdırılması, stimullaşdırılması kimi amilləri araşdırmağımız yerinə düşərdi.

Əməyin normallaşdırılması mövcud istehsal şəraitində konkret işin və ya əməliyyatın yerinə yetirilməsi üçün maksimal vaxt miqdarının təyin edilməsidir. Müəssisədə əməyin normallaşdırılması əməyin və əməkhaqqının düzgün təşkilindən asılıdır. Əməkhaqqı işçilərin maddi cəhətdən həvəsləndirilməsini təmin

edir. Odur ki, işçilərin istehsalın inkişafındakı əsas marağı bilavasitə əməkhaqqı səviyyəsinin nə dərəcədə əsaslandırılmasından, əməyin kəmiyyəti ilə onun keyfiyyətinin necə əlaqələndirilməsindən asılıdır. İşçilərin əməyinin ödənilməsinin təşkil olunmasında iqtisadi qanunların tələblərinin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Burada, əsasən, əməyə görə bölgü prinsipi və dəyər qanununun qarşılıqlı fəaliyyətindən irəli gələn iqtisadi mexanizm və qanunauyğunluqlara əməl olunması zəruridir. İstehsal münasibətləri əmək prosesinin ictimai təşkili forması olmaqla, təbiətlə insan arasında baş verən bir proses kimi xarakterizə olunur. İnsan bu prosesdə təbiət cisimlərini cəmiyyətin tələbatlarına uyğunlaşdırır. Əmək prosesində insan yalnız təbiətə təsir göstərmir, öz əmək qabiliyyətini reallaşdırır, digər tərəfdən bu prosesdə əqli cəhətdən inkişaf edir, yeni biliklərə yiyələnir. İstehsal prosesinə cəlb olunan işçi qüvvəsinin əməyinin müqabilində aldığı əməkhaqqı istehsal xərclərinə əlavə olunmaqla məhsul üzərində əlavə dəyər yaradır. Beləliklə, qısaca demək olar ki, əmək dəyərin mənbəyidir və o əmtəə istehsalçıları arasında iqtisadi münasibətləri ifadə edir.

İstehsal prosesində əmək amilinin rolunu müəyyən etmək üçün, ilk növbədə, ölkədə mövcud əmək ehtiyatlarının, istehsal prosesinə cəlb edilmiş işçi qüvvəsinin strukturunda və dinamikasında baş verən dəyişiklikləri tədqiq etmək lazımdır.

İstehsalın səmərəli təşkili və idarə olunması, onun texnika-texnologiya ilə təmin olunma səviyyəsi əmək bazarında ixtisaslı və qeyri-ixtisaslı əməyə tələbi müəyyən edir. İstehsalın və elmtutumlu sənaye sahələrinin inkişafı, istehsal prosesinin üstün keyfiyyət göstəricilərinə malik alət və avadanlıqlarla təchiz olunması yüksək təhsil səviyyəsinə malik iş qüvvəsinə olan tələbatı artırır. Digər tərəfdən elmi-texniki tərəqqi və iqtisadi inkişaf əhalinin məşğulluq səviyyəsinə və quruluşuna təsir edir.

Belə ki, elm və texnikanın inkişafı yeni istehsal sahələrinin yaranmasına, istehsal daxilində bir peşənin köhnəlməsinə və yenisinin yaranmasına səbəb olur. Nəzəri araşdırmalar göstərir ki, istehsal prosesinə cəlb edilmiş işçi qüvvəsinin peşə-ixtisas səviyyəsi, onların təhsillə əhatə olunması əhalinin həyat tərzinin yaxşılaşmasına, pul gəlirlərinin artımına bilavasitə təsir edir. Bu mənada əmək bazarında tarazlığın yaradılması, səmərəli məşğulluğun təmin edilməsi məqsədilə əmək ehtiyatlarının peşə-ixtisas strukturu ilə iş yerlərinin strukturları arasında uyğunluq yaradılmalıdır.

Əmək ehtiyatlarının səmərəli idarə olunmasının ən mühüm şərti əmək münasibətlərinin və əməyə görə ödəniş sisteminin elmi əsaslar üzərində qurulmasıdır. Başqa sözlə desək, gəlir mənbəyi kimi əməkhaqqı əməyə görə haqq olmaqla, əməyin maddi stimullaşdırılması və yaşayış təminatıdır. Əməyə olan tələb onun qiymətini müəyyən edən başlıca amildir[1, s.331].

AR Əmək Məcəlləsinin 154-cü maddəsində «əməkhaqqı» müvafiq iş vaxtı ərzində əmək funksiyasını yerinə yetirmək üçün əmək müqaviləsi ilə müəyyən edilmiş, işçinin gördüyü işə (göstərdiyi xidmətlərə) görə işəgötürən tərəfindən pul və ya natura formada ödənilən gündəlik və ya aylıq məbləğ, habelə ona edilən əlavələrin, mükafatların və digər ödənclərin məcmusu kimi şərh edilib.

Qeyd edək ki, işçinin əmək fəaliyyətindən əldə etdiyi gəlir onun işçi qüvvəsinin təkrar istehsalını təmin etməli, özünün və ailəsinin normal yaşamasına imkan verməlidir. Bu zaman işçidə daha yaxşı çalışmaq və yaşamaq, gördüyü işin keyfiyyətinə maraqlı olmaq və başqaları ilə rəqabət aparmaq kimi müsbət keyfiyyətlər önə çıxır ki, bu da işçinin hərtərəfli inkişafında xüsusi rol oynayır.

Təcrübə göstərir ki, əməkhaqqı sisteminin düzgün təşkili əmək məhsuldarlığının artım tempinə bilavasitə təsir göstərir. Əmək məhsuldarlığı vaxt vahidi ərzində buraxılan məhsul vahidinə sərf olunan əməyin kəmiyyət və keyfiyyət göstəricisi kimi çıxış edir. Bu baxımdan, əməyə görə ödəniş sisteminin elmi əsaslar üzərində qurulması məcmu məhsul buraxılışının həcminə, əhalinin sosial rifahının yaxşılaşdırılmasına və pul gəlirlərinin artırılmasına bilavasitə təsir göstərir. Aparılan tədqiqatın nəticəsi göstərir ki, ölkədə əmək ehtiyatlarının əsaslı hissəsi ictimai istehsal prosesinə cəlb edilməmiş, məşğulların tərkibində əmək fəaliyyəti qeyri-məhsuldarlıqla xarakterizə olunan özünüməşğulların xüsusi çəkisi üstünlük təşkil etmişdir. Bu mənada hesab edirik ki, başlıca diqqət özünüməşğulluğun inkişaf (iş vaxtından tam və səmərəli istifadəni, daha məhsuldar əmək fəaliyyətini təmin edəcək) etdirilməsinə zəmin yaradan və nizama salan yeni qanunvericilik aktlarının işlənib hazırlanmasına və qəbuluna, habelə məşğul olanların mülkiyyət növləri üzrə strukturunda xüsusi mülkiyyətin və birgə müəssisələrin payının artırılmasına yönəldilməlidir. Özəl sektorun inkişafına və müəssisələrin yaradılmasına yönəldilən tədbirlər planı muzdlu işçilərin sayının artımına şərait yaradacaqdır. Bazar iqtisadiyyatı şəraitində müəssisələr ən yaxşı son nəticələrin əldə edilməsində stimullaşdırıcı təsir vasitələrindən istifadə edirlər. Hazırda əməyin idarə ediməsinin fəallığını təmin edən müxtəlif səmərəli üsulların axtarışı gedir. Bu, ölkədə iqtisadi artımın sabitləşdirilməsinin əsas istiqamətlərindən biridir[2, s.78].

Ona görə də burada şəxsi maddi marağın böyük əhəmiyyəti vardır, çünki şəxsi maddi maraqlandırma eyni zamanda işçinin şəxsi məhsuliyyətinin artması deməkdir. Bu müasr dövrdə çox vacib bir maraqlandırma formasıdır. Bəziləri belə hesab edir ki, istehsalın genişmiqyaslı təşkili, xarakteri yuxarıda göstərilən maraqlandırma formasının əhəmiyyətini arxa plana çəkir.

Əksinə, müasir istehsal şəxsi məsuliyyət və beləliklə də şəxsi maraq olmadan inkişaf edə bilməz. Həm də nəzərə almaq lazimdir ki, əməyə şəxsi maraq peşə marağı və əmək nizamı ilə bağlıdır. Sosioloji müşahidələr göstərir ki, əməyə şəxsi maddi və mənəvi maraq oyadan əmək kolektivlərində işin səmərəsi və keyfiyyəti yüksək olur. Lakin bu heç də digər amillərin rolunun inkar edilməsi demək deyildir. Stimullaşdırmada başlıca məqsəd insanın əmək davranışını fəallaşdırmaqdan ibarətdir. Bunu isə, birinci növbədə, işçilərdə müsbət emosiyalar və yüksək hislər yaratmaqla həyata keçirmək olar. İşçilərin əməyə münasibətlərinin bir sıra cəhətləri və tələbləri vardır. Eyni zamanda stimullaşdırmanın bir sıra ümumi, necə deyərlər, standart növləri və metodları vardır. Bunlar iqtisadi və sosioloji ədəbiyyatlarda özünün geniş şərhini tapmışdır. Lakin bununla belə, ən vacib məsələlərdən biri stimullaşdırma işlərinin sistemləşdirilməsi, konkret əmək şəraitindən asılı olaraq onların forma və sistemləri arasındakı ümumi və fərqli cəhətlərinin aşkara çıxarılması, bir-birinə və konkret əmək fəaliyyətinə təsirinin müəyyən edilməsindən ibarətdir. Burada həm də stimulların vacibliyinə görə quruplara və pillələrə ayrılmasının da az əhəmiyyəti yoxdur. Ona görə belə qruplaşdırmada, təsnifata ayırmada ən başlıca meyar yenə də tələbat və əməyin məzmunudur. Tələbat isə, məlum olduğu kimi, maddi və qeyri maddi tələbat növlərinə ayrılır və onların da öz növbəsində müxtəlifliliyi vardır. Bununla əlaqədar olaraq, stimul da maddi və qeyri maddi stimula ayrılır. Maddi stimul həm pul, həm də qeyri- pul formasında olur. Qeyri-maddi stimulların diapozonu daha genişdir. Bura sosial, mənəvi, yaradıcı və sosiloji-pisxoloji stimullaşdırma aspektləri daxildir [3, s.105].

Maddi stimullaşdırmada maddi motivlərin özəyini təşkil etməli olan əmək haqqı əsas rola malik olmalıdır. Əksər sosioloqlar, pisxoloqlar və iqtisadçilar maddi stimullaşdırmanı əməkdən kənar tələbat və yaxud da xarici stimul da adlandırırlar. Əmək fəaliyyəti ilə bağlı tələbata isə əvvələr göstərdiyimiz kimi, işin məzmunu, məqsədə nail olmaq, kontrakt-əlaqə motivi və s. daxil edilir.

Göründüyü kimi, işçilərin dəyərlər meyli, əsasən, əməkhaqqının təşkili və onun tətbiq olunan variantlarının seçilməsi qaydasından çox aslıdır. Çünki işçilərə tələbat və mənafelərinin reallaşdırılması əməyin stimullaşdırılması və onun həyata keçirilməsinin daxili mexanizimi ilə üzvi şəkildə bağlıdır.

**Ədəbiyyat**


1. Quliyev T.Ə. Əməyin iqtisadiyyatı, Bakı, 2003
2. Yahudov X.M. Müəssisənin iqtisadiyyatı, Bakı, 2002.
3. Nağıyev Ə.H., Abdullayev Z.S. İstehsalın təşkili. Bakı,2000.


**Резюме**


***Маммадова Э.Ш.***


**Проблемы экономической безопасности в трудовых отношениях промышленных предприятия**


*Нормализация производства в условиях труда проводится с тем, чтобы выполнить конкретный случай или транзакцию, для определения максимальною количества времени. Это зависит от правильной организации труда и заработной платы нормализации труда.*



***Ключевые слова:*** *труд, заработная плата, предприятие, стимулирование труда*


**Summary**


***Mammadova E.Sh.***


**Economic Safety Problems in Labor Relations in Industrial Enterprises**


*Normalization of production in working conditions, in order to perform a particular case or transaction, to determine the maximum amount of time. This depends on the correct organization of labor and the wages of the normalization of labor.*



***Key words:*** *labor, wages, enterprises, labor incentives*


## TURİZM MÜƏSSİSƏLƏRİNİN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN YÜKSƏLDİLMƏSİNİN SOSİAL-İQTİSADİ SƏMƏRƏLİLİYİ


***Məmmədova E.M.***

*Sumqayıt Dövlət Universiteti*


***Xülasə***


*Məqalədə turizm müəssisələrinin rəqabətqabiliyyətliliyini artıran amillər tədqiq edilmiş, rəqiblərin marketinq araşdırmalarının turizm müəssisəsinə verdiyi imkanlar haqqında məlumat verilmişdir. Həmçinin turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi zamanı meydana çıxan problemlərə toxunulmuş, onların aradan qaldırılmasının sosial-iqtisadi səmərəliliyi araşdırılmışdır.*



***Açar sözlər:*** *turizm, müəssisə, marketinq, iqtisadiyyat, rəqabətqabiliyyətlilik*

Turizm müəssisələrinin inkişafı müasir bazar iqtisadiyyatı şəraitində özünün əhəmiyyəti və sosial-iqtisadi nəticələrinə görə mütərəqqi sahə kimi qiymətləndirilir. Turizm sferası iqtisadi və sosial potensialı olan ölkələr üçün struktur siyasətin və perspektiv bazar tipli iqtisadiyyatın prioritet istiqamətidir. Turizm müəssisələrinin mövcud vəziyyəti onun ümumi daxili məhsulun artımı və sosial problemlərin həllində rolu ilə qiymətləndirilir. Turizm müəssisələrinin rəqabətqabiliyyətlilik baxımından qiymətləndirilməsi elmi cəhətdən aktualdır. Turizm müəssisələrinin rəqabətqabiliyyətliliyini artırmaq məqsədilə onun amillərinin tədqiqi, planlaşması və səmərəli təşkili metodologiyası və modelləri nəzəri və praktiki əhəmiyyət kəsb edir. Rəqabət nəticəsində məhsulun keyfiyyətinin yaxşılaşdırılması, bazara rəqabətqabiliyyətli məhsulla çıxmağa imkan yaranır. Rəqabət nəticəsində məhsul vahidinə material məsrəfləri istehsalçı tərəfindən aşağı salınır və nəticədə həm istehsalın həm də bütövlükdə iqtisadiyyatın səmərəliliyi yüksəlir. Bu isə nəticə etibarilə istehlakçıların tələbatını mövcud resurslardan səmərəli istifadə etməklə daha dolğun ödənilməsinə şərait yaradır. Digər tərəfdən rəqabət təsərüffat subyektlərini məcbur edir ki, istehsal güclərinin bir hissəsini ehtiyatda saxlasınlar. Daha əlverişli bazar şəraiti yaranan kimi həmin ehtiyatda olan resursları istehsala cəlb etməklə, özləri üçün əlverişli istehsal bazar şəraiti yaratsınlar. Qərb ölkələrinin təcrübəsi göstərir ki, istehsal güclərinin bir hissəsinin ehtiyatda saxlanması rəqabət mübarizəsində məhv olmamaq zərurətindən irəli gəlir.

Turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinə təsir edən əsas amilləri daxili və xarici olmaqla iki əsas qrupa bölmək olar. Daxili amillərə turizm müəssisələrinin işçi heyəti, texniki avadanlığı, təşkilati strukturu, məqsəd və strategiyası aid edilir. Xarici amillər dedikdə, istehlakçılar, rəqiblər, partnyorlar, həmkarlar ittifaqları təşkilatları və s. başa düşülür. Daxili və xarici amillərdən başqa, turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinə bilavasitə təsir edən bir çox başqa amillər də vardır. Turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinə təsir edən əsas amilləri kimi turizm müəssisələrinin xüsusi memarlıq görünüşünü, yerləşmə yerini, müştəri portfelini, qiymət siyasətini, təklif etdikləri yüksək xidməti, işçi kollektivinin ixtisaslı olmasını və s. göstərmək olar [1].

Ümumilikdə turizm müəssisələrində rəqabət mübarizəsinə bir çox amillər təsir göstərir. Bu amilləri nəzərdən keçirək.

1. Mübarizə rəqabət aparan müəssisələrin sayı artdıqda daha da güclənir. Müəssisələrin sayı vacib amildir, çünki say artdıqca yeni strateji inisiativlərin ehtimalı artır. Bu zamanda hər hansısa bir müəssisənin digərlərinə təsiri azalır. Əgər rəqib firmalar ölçü və imkanlar cəhətdən müqayisə oluna bilirsə, bu zaman onlar rəqabət apara bilərlər.

2. Rəqabət mübarizəsi məhsula olan təklif zəif inkişaf edəndə güclü olur. Bazar çəkisi zəifləyəndə müəssisələr bazar payına mübarizə aparmağa başlayırlar. Bu yeni strateji ideyaların, manevrlərin yaranmasını stimullaşdırır.

3. Turizm xidmətlərindəki mövsümilik amili rəqabət mübarizəsini artıran digər vacib faktorlardan biridir. Buna görə də müəssisələr satışın artırılması məqsədi ilə müəyyən endirimlər edir, yeni taktikalardan istifadə edirlər.

4. Turizm müəssisəsinin məhsulu kifayət qədər differensial olmadıqda rəqabət mübarizəsi güclü hesab olunur.

5. Sahədən getmək, sahədə qalıb rəqabət mübarizəsini davam etdirməkdən daha yaxşı olur. Bu da, rəqabət mübarizəsini gücləndirən digər tendensiyalardandır. Çıxma üçün nə qədər çox maneə varsa, bir o qədər də firmalar sahədə qalıb rəqabət aparmağa cəhd göstərirlər, baxmayaraq ki, bu zaman onlar daha az gəlir götürə bilərlər [2].

Yuxarıda nəzərdən keçirilən bütün amillər və onların meydana gəlməsi əminliklə deməyə əsas verir ki, turizm müəssisəsinin rəqabət mühiti onun marketinq mühitinin bir hissəsi olaraq sərbəst qiymətləndirmənin predmeti olmalıdır. Bazar subyektlərinin uyğunluğu və onların rəqabət mübarizəsi zamanı yaranan münasibətləri, marketinq araşdırmaları nöqteyi-nəzərindən mühüm praktiki əhəmiyyətə malikdir. Rəqiblərin təhlili və rəqib hərəkətlərinin hazırlanması, müəyyən bazar seqmentində mövcud real artımdan daha çox fayda verir. Rəqiblərin güclü və zəif cəhətlərini bilmək onların potensialı, məqsədləri, indiki və gələcək strategiyalarını qiymətləndirməyə imkan verir. Bu, müəssisəni rəqibin zəif yerini bilməkdə ona istiqamətləndirir. Bu yolla, müəssisə öz imkanlarını rəqabət mübarizəsində uğur qazanmağa yönəldə bilər. Praktik olaraq müəssisələrin bütün marketinq uğurları öz güclü tərəflərindən rəqiblərin zəif cəhətlərinə qarşı istifadəyə əsaslanır. Bunu yalnız yaxşı və dəqiq araşdırma nəticəsində etmək mümkün olur.

Rəqiblərin marketinq araşdırmaları turizm müəssisəsinə aşağıdakı imkanları verir:

- rəqiblərin fəaliyyəti haqqında məlumatlı olmaqla, bazardakı uğurun perspektivlərini daha dolğun qiymətləndirə bilmək;
- prioritetləri daha asan müəyyən etmək;
- mövcud rəqabətə tez cavab vermək;
- rəqiblərin güclü tərəflərini neytrallaşdıra biləcək güclü strategiyanın hazırlanması;

- müəssisənin rəqabətqabiliyyətliliyini artırmaq;

- müəssisənin əməkdaşlarını rəqiblər haqqında informasiya ilə təmin etmək və onları motivasiya etmək;

- işçi heyətinin təlim və təhsil səviyyəsinin artırılması, ixtisaslaşdırılması;

- müəssisənin bazardakı mövqeyini yaxşı qorumaq və genişləndirmək.

Bazarda mövcud olan bütün rəqiblər arasındakı mübarizənin müəyyən edilməsi zamanı qiymətləndirmə çətinləşir. Buna görə də iki strateji qrup seçilir: birbaşa və potensial rəqiblər. Birbaşa rəqiblər – bu, elə turizm müəssisələridir ki, keçmişdə mövcud olub, indi də mövcud olmaqda davam edir. Potensial rəqiblər ayrılır:

- təklif edilən xidmətlər çeşidinin genişləndirməyə çalışan müəssisələr, öz istehlakçılarının tələbini daha yaxşı ödəmək və birbaşa rəqiblər olmaq üçün məhsul strategiyasını həyata keçirir;

- rəqabət mübarizəsinə qoşulan yeni firmalar [3].

Rəqabət mühitinin ən əhəmiyyətli cəhəti istehsal xərclərinin aşağı salınması, məhsulun çeşidinin dəyişən tələbata uyğun surətdə yeniləşdirilməsi, onun keyfiyyətinin yaxşılaşdırılması, məhsulun və onu istehsal edən firmanın rəqabət qabiliyyətinin yüksəldilməsi, qanunvericilik yolu ilə dövlət tərəfindən hüquqi müdafiənin təmin edilməsi və inhisarçı fəaliyyətin məhdudlaşdırılmasıdır. Rəqabətdə uğurun əsas amilləri hər bir müəssisənin rəqabətqabiliyyətli olması və yaxşı maliyyə göstəricilərinə nail olması üçün vacib olan amillərdir.

Yekun olaraq qeyd etmək olar ki, turizmi inkişaf etdirmək üçün Azərbaycanın geniş potensialı var. Bu potensialı imkana çevirmək və inkişaf etdirmək istiqamətində hökumət tərəfindən müvafiq infrastruktur işləri həyata keçirilərək, rəqabətqabiliyyətli turizm müəssisələrinin yaradılması təmin olunmalıdır. Ölkədəki turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılması və daha çox turist cəlb etmək üçün xidmət səviyyəsi yüksəldilməlidir.

## Ədəbiyyat

1. Məmmədov C.A., Bilalov B.Ə. Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları. Bakı: Mütərcim nəşriyyatı, 2004, 255 s.

2. Əlirzayev Ə.Q., Aslanova S.İ. Turizmin inkişafının sosial-iqtisadi nəticələri. Bakı: Adiloğlu nəşriyyatı, 2006, 164 səh.

3. Гуляев В.Г. Туризм: экономика и социальное развитие. М. Финансы и статистика, 2003, 304 с.

## Резюме

***Мамедова Е. М.***

### Социально-экономическая эффективность повышения конкурентоспособности туристических предприятий

*В статье рассматриваются факторы, повышающие конкурентоспособность туристических предприятий и информация о возможностях, предлагаемых конкурентами маркетинговым фирмам. Они также затронули проблемы, возникающие при повышении конкурентоспособности туристических предприятий и социально-экономической эффективности их ликвидации.*

***Ключевые слова:*** *туризм, предпринимательство, маркетинг, экономика, конкурентоспособность*

## Summary

***Mammadova E. M.***

### Socio-economic Effectiveness of Increasing the Competitiveness of Tourism Enterprises

*The article considers factors that increase the competitiveness of tourism enterprises, and information about the opportunities offered by competitors to marketing firms. They also touched upon the problems that arise with increasing competitiveness of tourism enterprises and the socio-economic efficiency of their liquidation.*

***Key words:*** *tourism, enterprise, marketing, economics, competitiveness*

# SAHİBKARLIQ FƏALİYYƏTİNDƏ HEYƏTİN TƏLİMƏ CƏLB EDİLMƏSİ İLƏ SƏMƏRƏLİLİYİN ARTIRILMASI MƏSƏLƏLƏRİ

***Məmmədova İ.İ.***
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Xülasə**

*Müəssisələrdə müxtəlif mədəniyyətlərin daşıyıcısı olan insanlar arasında komunikasiya proseslərinin təkmilləşdirilməsi, kollektiv biliklərin dərinləşməsilə səmərəli fəaliyyətin yüksəldilməsi və baş verə biləcək neqativ halların minimuma endirilməsi məqsədilə təlim keçmə məsələlərinin nəzəri həm də praktik tərəflərinin öyrənilməsi mövzusunu aktuallaşdırır. Tədqiqatın məqsədi heyətin təlimə cəlb edilməsi mexanizmini ətraflı araşdırmaqdır. Tədqiqatın elmi yenili təlimin aparılması metodları təhlil edilərək sahibkarlıq fəaliyyətinə qazandırdığı üstünlüklərin sadalanmasıdır. Fərdi və qrup şəkilində təlimin təşkil edilməsinin üstünlüklərinin müəyyən edilməsi tədqiqatın nəticəsi qismində göstərilmişdir.*

***Açar sözlər**: heyətin idarə edilməsi, təlim keçmə, qrup təlim, fərdi təlim*

İşçiyə resurs yanaşması öz əksini "insan kapitalı" konsepsiyası şəklində tapmışdır [1,səh.35]. Bu konsepsiyaya əsasən insan kapitalı işçilərin ixtisas dərəcəsini və qabiliyyətini, yaxud əmək məhsuldarlığını artıran istənilən tədbirdir. Avadanlıq və digər istehsal vasitələrinə çəkilən xərclər kimi bu məsrəflər də investisiya hesab oluna bilər, çünki onlara ayrılan vəsaitlər gələcəkdə bir neçə dəfə artmış gəlirlərlə kompensasiya ediləcəkdir.

Kollektivə təsir üslubu kimi idaəetmə termini ilk zamanlar təlim verən mənasında işlədilirdi [2,səh.80]. Təşkilatda çalışan heyət üzvləri müəssisənin rəqabətqabiliyyətliliyini şərtləndirir. Yüksəkhazırlıqlı və təlim keçmiş heyət yüksək keyifyyətli işə yaxşı motivləşdirildikdə müəssisəyə ən son texnoloji avadanlıq və ya qabaqcıl texnologiyalar qədər fayda gətirməyə qadirdir.

Bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən müəssisədə heyətin və əməyin motivasiyasının maddi əsası, işçilərin həvəsləndirilməsi idarə edildikdə işçi qüvvəsinə çəkiləcək xərclərin konkretləşdirilməsi, işçilərlə bağlı bütün məsrəflərin nəzərə alınması və təhlili müəyyənləşdirilir.

Təlim prosesində aparıcı şəxs ixtisasartırma tələblərini və təlim büdcələrini müəyyən etmək; xarici imkanların təhlili və seçilməsi; daxili kursların təşkil olunması; təlimin effektivliyinin qiymətləndirilməsi üçün metodların hazırlanması və həyata keçirilməsini icra edən şəxsdir [3,səh.404]. O, təşkilatda heyətin idarə edilməsi səmərəliliyini, əmək məhsuldarlığının artımı, kadr axıcılığının azalması və heyətin gələcəkdə bir neçə peşəni əvəz etməsi vəziyyətinə uyğun təlimin məzmununu müəyyən edir.

Heyətin təlimə cəlb edilməsi mexanizmi müəssisədə bir neçə vacib prosesin fəaliyyətini təmin edir:

- ✓ heyətin ixtisas dərəcəsinin yüksəlməsi;
- ✓ əməkdaşların adaptasiyası;
- ✓ heyətin motivasiyası;
- ✓ nəticəliliyin idarə edilməsi.

Bu zaman şirkətin inkişaf strategiyasına və hər bir əməkdaşın peşəkarlıq səviyyəsinə diqqət yetirilməlidir. Heyətin inkişafı üzrə iş şirkətin bütün kateqoriya əməkdaşları üçün səlahiyyət hədləri modelinin tərtib olunmasından və hər bir işçinin başlıca səriştə sahələrinin inkişafının qiymətləndirilməsindən başlayır. Bu, heyətin inkişafına çəkilən xərcləri optimallaşdırmağa və daha yüksəlk nəticələr əldə etməyə kömək edir.

Aparılmış müşahidələrin nəticələri əsasında, təşkilatda heyətin idarə edilməsinin adekvat sisteminin mövcudluğunu səciyyələndirən bir neçə şərt formalaşdırmaq olar:

- ➢ heyətə məsrəflər maddəsi kimi deyil, şirkətin daima inkişafa ehtiyac duyan başlıca aktivi kimi yanaşılmalıdır;
- ➢ heyətin inkişaf strategiyası ilə ümumilikdə təşkilatın və onun ayrı-ayrı komponentlərinin strategiyası arasında qarşılıqlı əlaqə vardır;
- ➢ təlim və inkişaf proqramı nizamsız şəkildə deyil, məqsədyönlü və düşünülmüş qaydada, təşkilatın missiya və strateji inkişaf məqsədlərilə qarşılıqlı əlaqədə işlənib hazırlanmalıdır;
- ➢ təlim və inkişaf proqramlarının təşkilatın strateji məqsədlərinə nail olunmasına verdiyi faydanın dərəcəsinin daima qiymətləndirilməsi;
- ➢ əməkdaşlarda təşkilatın fəaliyyətinə şəriklilik hissinin oyadılaraq dəstəklənməsi, təşkilatın strategiyası, strukturu, məhsul və xidmətləri, texnoloji fəaliyyətilə tanışlıq;
- ➢ heyətin inkişafının daha rasional, balanslaşdırılmış idarəetmə üslubuna keçidə şərait yaradan fasiləsiz və bütövləşdirilmiş sisteminin qurulması, formal strukturun heyətin idarə olunması sahələrindəki sistemlərlə uyğunluğunun, bu sistemlərin təşkilatın strateji məqsədlərə nail olmasına köməklik göstərməsi üçün təmin edilməsi.

A.Pettiqryu və R.Uipp hesab edirlər ki, "təşkilati imkanlar"ın inkişafı təşkilati təlimin diqqət mərkəzində saxlanmalıdır. Müxtəlif səviyyə əməkdaşlarının ideya və hipotezləri əks etdirilən zaman, təşkilati öyrənmənin səmərəliliyinin qiymətləndirilməsi üçün aşkara çıxarılan imkanların miqdarında ifadə olunan təşkilati potensial göstəricisindən istifadə etmək olar [4,səh.20]. Qeyd edilənləri nəzərə alaraq, heyətə təlim keçilməsi və inkişafı sayəsində sahibkarlığın qazandığı üstünlüklər aşağıdakı formada göstərmək olar:

- ✓ ümumilikdə mədəni dəyərlərdə nəticəliliyinin yüksəldilməsi;
- ✓ şirkətin motivasiya sisteminin yaxşılaşdırılması;
- ✓ heyətin təşkilatın cari və gələcək tələbatlarını ödəmək qabiliyyətinin inkişafı;
- ✓ heyətin müəssisəyə sadiqliyinin yüksəldilməsi.

Bu günkü gündə kadrların ixtisas dərəcəsinin daima yüksəldilməsi onların fəaliyyət göstərdiyi sahədə ən yeni texnologiyalardan istifadəyə imkan yaratmaqla, bu bacarıqların peşə fəaliyyəti baxımından da aktuallığı getdikcə güclənir. Bu isə öz növbəsində, sahibkarlığın uğuruna və çiçəklənməsinə gətirib çıxarır.

Heyətə təlim keçilməsi və inkişafı iki formada aparılır: qrup və fərdi şəkildə. Hər iki formanın üstünlük və çatışmazlıqları, həmçinin spesifik metod və texnologiyası vardır. Onları daha ətraflı şəkildə nəzərdən keçirək.

Qrup halında təlim və inkişaf üsullarına aşağıdakılar şamil edilir:

- peşə və idarəçilik bacarıqlarının treninqi;
- peşə seminarları və məharətin nümayiş etdirildiyi müsabiqələr;
- peşə baxımından yenidən hazırlıq və ixtisas dərəcəsinin artırılması;
- biznes-simulyasiyalar və s.

Qrup halında təlimin üstünlükləri aşağıdakılardır:

- ✓ real praktikadan götürülmüş müxtəlif iş situasiyalarını modelləşdirmək və tədris formatında onların yeni davranış üsullarını işləmək imkanı;
- ✓ təlim prosesində əks-əlaqə və həmkarlardan dəstək əldə etmək imkanı;
- ✓ komandayaradıcı effekt;
- ✓ iqtisadi fayda – 12 nəfər üçün treninq keçirmək hər bir işçiyə ayrı-ayrılıqda təlim təşkil etməkdən qat-qat az vəsait tələb edir;

Qrup şəklində təlim məhdudiyyətlərinə:

- bütün fərdi xüsusiyyətləri və hər bir iştirakçının hazırlıq səviyyəsini nəzərə almağın qeyri-mümkünlüyü, deməli, bütün iştirakçıların ilkin mərhələdə hazırlıqları və şəxsi xüsusiyyətləri arasında fərqliliklər üzündən yeni bilik və bacarıqların ötürülməsini tam şəkildə təmin etmək mümkün deyil.
- dayanıqlı biliklərin formalaşdırılması üçün yetərsiz vaxt – bir treninq çərçivəsində insana ən mürəkkəb bacarıqları aşılamaq qeyri-mümkündür, buradan da praktikada əldə edilmiş bilik və bacarıqların möhkəmlədilməsi üçün treninqdən sonrakı mərhələdə keyfiyyətcə müşayiət olunması zəruriliyi meydana çıxır.

Təlim prosesi ixtisasın axtırılmasına dair biliklərin yenililənməsini özündə ehtiva edir ki, bu da cəmiyyətdə, ümumi iqtisadiyyatın tərkibində baş verən dəyişikliklərdən irəli gəlir [5,səh.561]. Təlimin aparılması metodlarına aşağdakılar aiddir:

- ✓ inkişaf etdirilən layihə və tapşırıqlar;
- ✓ stajkeçmə və müvəqqəti əvəzetmə;
- ✓ fərdi inkişaf planları;
- ✓ öyrətmə imkanları və s.

Fərdi təlimin üstünlükləri aşağıdakılardır:

- təlimin planlaşdırılması və keçirilməsi zamanı əməkdaşların fərdi xüsusiyyət və tələbatlarının, bilik və bacarıq səviyyəsinin nəzərə alınması;
- təlim prosesində əməkdaşa şəxsi yanaşma, inkişafın hər bir konkret situasiyaya maksimal dərəcədə uyğun gələn forma və metodlarından istifadə;
- əsas iş yerindən ayrılmadan təlim keçmə imkanı.

Fərdi təlimin məhdudiyyətləri aşağıdakılardır:

- yüksək dəyər;
- işlənib hazırlanma və reallaşdırmada çətinlik.

Təlim keçmə və inkişafın adı çəkilən iki formasının xüsusiyyət, imkan və məhdudiyyətlərini nəzərə alaraq, təlim keçmənin optimal keyfiyyət, miqyas və dəyər balansı baxımından müəssisələrdə qrup metodlarından bir qayda olaraq, xətti heyət və orta menecment üzvlərinə təlim keçmədə istifadə edilir. Fərdi metoddan isə təlim keçmənin dərinlik, diqqət cəmləşdirmə kimi şəxsi parametrlərilə yüksək nəticəliliyin kombinasiyası nöqteyi-nəzərindən vacib kadrların və ali rəhbərliyin inkişafında istifadə olunur.

**Ədəbiyyat**
1. İnsan İnkişafi (tədris vəsaiti). Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Bakı, 2014
2. Bazarov T. Y., Yeremin B.L. Heyətin idarə edilməsi (tərcümə), Bakı, 2012.
3. Biznesin təşkili və idarə edilməsi (dərslik). Bakı, 2011.
4. Слободско А.Л. Обучение персонала организаций (dərs vəsaiti). Sant-peterburq, 2013.
5. Abbasov A. Biznesin əsasları (dərslik). Bakı, 2005.

**Резюме**

***Мамедова И.И.***
*Азербайджанский государственный экономический университет (UNEC)*

**Вопросы повышения эффективности с привлечением к обучению персонала в предпринимательской деятельности**

*Актуальность данной темы объясняется совершенствованием коммуникационных процессов на предприятиях среди людей, являющихся носителями разных культур, повышением эффективной деятельности с углублением коллективных знаний, изучением как теоретических, так и практических сторон вопросов обучения с целью сведения возможных отрицательных явлений к минимуму. Цель исследования состоит в подробном изучении механизма привлечения персонала к обучению. Научная новизна исследования заключается в перечисленных преимуществ, придаваемых предпринимательской деятельности методами проведения обучения, вследствие их анализа. Определение преимуществ организации обучения в индивидуальной и групповой формах было приведено в качестве результата исследования.*

***Ключевые слова**: управление персоналом, обучение, групповое обучение, индивидуальное обучение*

**Summary**

***Mammadova I.I.***
*Azerbaijan State Economic University (UNEC)*

**Issues of Increasing Efficiency with the Involvement of Personnel inTraining in Entrepreneurial Activities**

*The relevance of the topic herein is explained by the improvement of communication processes at enterprises among people who are carriers of different cultures, by increasing effective activity with the deepening of collective knowledge, as well as by studying both the theoretical and practical aspects of training issues, with a view to reducing possible negative phenomena to a minimum. The purpose of the research comprises a detailed study of the mechanism for involving staff in training. The scientific novelty of the research consists in the listed advantages, given to entrepreneurial activity by methods of conducting training, as a result of their analysis. The identification of the advantages of organizing the training in individual and group forms has been cited as a result of the study.*

***Key words**: staff management, training, group training, individual training*

# İNSAN KAPİTALININ FORMALAŞDIRILMASINA ÇƏKİLƏN XƏRCLƏRİN İSTİQAMƏTLƏRİ

***Məmmədova S.T.***
*Sumqayıt Dövlət* Universiteti

**Xülasə**

*İqtisadi kateqoriya olan insan kapitalı cox mürəkkəb daxili qurluşa malikdir. İnsan kapitalı təkcə təhsil, intellekt və fərdin sağlamlığı hesabına deyil, həm də onun mənəvi keyfiyyətləri hesabına formalaşır. İnsan kapitalının formalaşmasında investisya böyük rol oynayır.*

***Açar sözlər:** kapital, dəyər, insan kapitalı, investisya, gəlir, bilik və bacarıqlar ehtiyatı.*

İnsan kapitalı təhsilə, istehsalatda hazrlığa, sağlamlığa, miqrasiyaya, qiymətlər və gəlirlər haqqında məlumat axtarışına investisiya əsasında formalaşır.[1,səh.39].

İnsan kapitalı– şəxsin gələcəkdə peşə fəaliyyəti zamanı gəlir gətirə biləcək istedad və qabiliyyətləri hazırda qoyulan sərmayələrin cəmidir.

Bekker “insan kapitalı“ nəzəriyyəsinin aşağıdakı iki qanunauyğunluğunu göstərmişdir:

1. İnsan kapitalına qoyulan sərmayələr əsas fondlara qoyulan sərmayədən daha cox gəlir gətirir. Səmərəli seçim ondan ibarətdir ki, ailə gəlirlərini əvvəlcə övladlarının təhsilinə yönəltdikdən sonra sərvət toplamaq fikrinə düşməlidir.

2. Ailənin öz övladlarına qoyduğu sərmayə onlar üçün ailədən miras hesab edilir. Əgər hər hansı bir ailə övladlarının təhsil xərclərinə xəsislik edirsə, deməli, onları bu mirasdan məhrum edir. [2,səh.92]

İqtisadiyyatda insan kapitalı insana yönələn investisiyanın həcmi ilə ölçülür. İnsan kapitalını iqtisadi kateqoriya kimi öyrənən R.İ.Kopelyuşnikov onu kapital hesab edərək deyir: "İstehsal qabiliyyətlərinin formalaşdırılması vəsait tələb edir və bununla da gələcəkdə məhsuldarlığın, əmək haqqının mənbəyi olur." [3, s.4]. İnsan kapitalını o, fərddə olan bilik, qabiliyyət, bacarıq, motivasiya ehtiyatları adlandırır.

Maddi kapital kimi insanın məhsuldar bacarıqlarının inkişafı müəyyən məqsədli xərclər tələb edir. Bununla bağlı H. Bekkerin və digər Çikaqo məktəbinin üzvləri təhsilə, istehsala hazırlığa, sağlamlığa, tibbi xidmətə xərcləri, qiymət və gəlirlər barədə alınmış və ya yığılmış informasiyaları, miqrasiyaya, uşaqların doğulması və tərbiyəsinə çəkilən xərcləri insan kapitalına aid edirlər. İstehsalatda təhsilə və təlimə cəkilən xərclər insanın ən əsas itisadi bacarıqlarının inkişafının özəyini təşkil edir. Sağlam həyat tərzi, fiziki möhkəmliyin, sağlamlığın qorunması insanın ömrünü və istehsal fəaliyyətində fəal iştirakı dövrünü uzadır. Qiymətlər və gəlirlər haqqında informasiyalar dedikdə fərdin istehsalatda əməyinin necə yüksək qiymətləndirilə bilməsi, başqa alternativ gəlir mənbələrini necə tapması, regiondakı cari qiymətlərə münasibəti başa düşülür. Fərd əgər özünə başqa bir yerdə onu qane edəcək həyat şəraiti və peşəkar fəaliyyət tapırsa, o miqrasiya edir və insan kapitalını bir regiondan digər regiona aparır. Digər etaplarda, təbii ki, ailə yaranır, uşaqlar dünyaya gəlir və yeni vəzifələrin, ailənin, fərdin qarşısında qoyduğu yeni tələbləri - maliyyə, güc və itirilmiş imkanların geri qaytarılması tələblərini qoyur. Bütün çətinliklərə baxmayaraq, fikirləşmədən insan özünü inkişafa, təkmilləşdirməyə və yenidən istehsala yönəldir.

İnsan kapitalına çəkilən xəcləri dörd səviyyədə qruplaşdırmaq olar:

- mikro (fərdin özü və ailəsi tərəfindən fərd üçün);
- mezo (müəssisə tərəfindən kadrlar üçün);
- makro (dövlət tərəfindən vətəndaşlar üçün);
- meqa (qlobal təşkilatlar tərəfindən insanlar üçün).

İnsan kapitalının formalaşdırılmasında həm fərdin özü, həm müəssisə, həm də dövlət maraqlı olmalıdır. Fərdin gələcəyini təmin etmək üçün ailəsi və özü ona investisiya yönəltməlidir. Müəssisə öz əməkdaşlarının iş keyfiyyətlərindən öz məqsədi üçün istifadə etməlidir, ona investisiya yönəltməlidir. Beləliklə, bu işçi üçün gəlirlərinin səviyyəsinin artımı, işdən məmnunluq, əmək şəraitindən razılıq, özünə hörmət, həyat keyfiyyətinin yüksəldilməsi deməkdir. Müəssisə üçün isə əmək məhsuldarlığının yüksəldilməsinə, iş vaxtı itkisinin azaldılmasına, istehsalın səmərəliliyinə səbəb olur ki, bu da, nəticədə, rəqabət qabiliyyətinin yüksəldilməsinə səbəb olur. Dövlət üçün isə, vətəndaşın rifahının yüksəldilməsi, dövriyyə gəlirinin yüksəldilməsi və vətəndaşın iqtisadi aktivliyinin yüksəldilməsi deməkdir[4,səh.123].

İnsan kapitalına investisiya qoyuluşu işçilərin ixtisasını və qabiliyyətlərini yüksəldir və bunun da nəticəsində əmək məhsuldarlığı artırır. Əmək məhsuldarlığının yüksəldilməsinə yönəldilən hər hansı bir xərcə investisiya kimi baxmaq lazımdır, çünki, faktiki xərclər və ya məsrəflər elə planlaşdırılmalidır ki, gələcəkdə dəfələrlə artan kompensasiya edilmiş gəlir axınına səbəb olsun.

Tədqiqatlara əsaslanaraq insan kapitalının istehsalına çəkilən xərcləri aşağıdakı kimi təsnifləşdirmək olar:

-birbaşa xərclər: təhsilə ödəniş və onunla əlaqədar xərclər; sağlamlığa–sağlam həyat tərzinə xərclər; işədüzəlmə ilə bağlı xərclər;

-itirilmiş imkanlar: əməkhaqqı imkanları və investisiya üsulları; imtina edilmiş vəsait qoyuluşları; maliyyə gətirməyən alternativ vaxt və güc imkanları;

-psixoloji xərclər: təhsillə, işədüzəlmə ilə, miqrasiya ilə bağlı mənəvi zərbələr.

Göstərilən amillər insan kapitalına kompleks yanaşmanı təmin edir və ona vəsait qoyuluşlarının sistemləşdirilməsinin həyata keçirilməsini tələb edir. Qərarların qəbulunda bu vəsait qoyuluşlarının qruplaşdırılması lazımlı amillərdən biri hesab edilməlidir. İnsan kapitalına qoyulan xərcləri aşağıdakı qruplara ayırmaq olar:

- qısamüddətli;
- ortamüddətli;
- ömürlük.

Təhsil insan kapitalının keyfiyyətinin əsasıdır, çünki bu iqtisadi resursun inkişafının ən səmərəli alətidir. Yalnız təhsil ən birinci növbədə fərdin yüksək ixtisaslaşmasına qadirdir, onun müxtəlif istehsal sahələrində tez bir zamanda uyğunlaşmasını və inkişafını təmin edir. Sağlamlığın qorunması və miqrasiya amilləri isə insan kapitalından uzunmüddətli və səmərəli istifadə edilməsinə kömək edir, onun keyfiyyətini yüksəltmir, lakin fərdin bacarıqlarını və qabiliyyətlərini genişləndirir. Heyətə çəkilən xərclər təşkilatın istehsal və sosial göstəricilərini işləyib hazırlanması üçün əsas xərclər hesab olunur.

Heyətə çəkilən xərclər məhsulun maya dəyərində artım meylinə malikdir. Bu meyil aşağıdakılarla bağlıdır;

- əmək məhsuldarlığına və heyətə çəkilən xərclər arasında bir başa asılılığın olmaması ilə;

-heyətin ixtisas səviyyəsinə daha yüksək tələblər irəli sürən və getdikcə daha baha olan yeni texnologiyanın tətbiqi ilə;

- əmək hüququ sahəsindəki qanunvericiliyin dəyişməsi ilə, yeni tariflərin tətbiqi ilə, ilkin tələbat mallarının qiymətlərinin yüksəlməsi ilə (xarici amillər).

- heyətə çəkilən xərcləri planlaşdırarkən, ilk növbədə aşağıdakı xərc maddələrini diqqətdə saxlamaq lazımdır;

- əsas və əlavə əmək haqlarını, sosial sığortaya ayırmalarını, ezamiyyət və xidməti səfər xərclərini;

- kadrların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının yüksəldilməsinə çəkilən xərcləri;

- ictimai iaşə xərlərinə əlavələr verilməsi, mənzil – məişət xidmətlərinə, mədəniyyət və bədən tərbiyəsinə, səhiyyə və istirahətə, uşaq müəssisələri ilə təminata, xüsusi geyimlərin əldə edilməsinə əlavə ödənclər verilməsi ilə bağlı olan xərcləri.

- əməyin və ətraf mühitin mühafizəsi ilə, psixofiziologiya əməyin erqonomikası və texniki estetikanın tələblərini gözləməklə, daha əlverişli əmək şəraitinin yaradılması ilə əlaqədar olan xərcləri.

**Ədəbiyyat**


1.Беккер Г.С. Человеческое поведение: экономический подход: избранные труды по экономической теории. М.: ГУ-ВШЭ, 2003.

2. Беккер Г.С. Человеческий капитал: теоретический и эмпирический анализ. 1964 . Человеческий капитал США: Экономика, политика,идеология. 1993.11 с.109-119, 12 с.86-104

3. *Капелюшников Р. И.* Концепция человеческого капитала. Критика сов-
ременной буржуазной политэкономии. М. : Наука, 1977, 80 с.

4. Məmmədova S.T. Müəssisədə insan kapitalının idarə edilməsi strategiyası //Koperasiya elmi-praktiki jurnal,№3 (46), 2017, 5 s.

5. *Макконнелл К.Р., Брю С.Л.* Экономикс: принципы, проблемы и политика: В 2 т.: Пер. с англ. М.: ИНФРА-М, 1997, Т. 1, 399 с.



**Резюме**

***Мамедова С.Т.***

**Направления расходов на формирование человеческого капитала**

*Человеческий капитал, являющийся экономической категорией обладает сложной внутренней структурой. На процесс формирования человеческого капитала оказывают влияние не только образование, интеллект и здоровье индивида, но и его нравственные качества. Инвестиции играют большую роль в формировании человеческого капитала.*

***Ключевые слова:*** *капитал, стоимость, человеческий капитал, инвестиции, доход, запас знаний и навыков*

**Summary**

***Mammadova S. T.***

**Directions of Charges in Forming of Human Capital**

*Human capital as on economic category has a complex internal structure. Human capital formation is influenced not only by education, intelligence and health of the individual, but also by his moral qualities. Investment plays an important role in the formation of human capital.*

***Key words****: capital, cost, human capital, investment, income, the stock of knowledge and skills*


## STRATEJİ PLANLAŞDIRMA SOSİAL – İQTİSADİ PROSESLƏRİN TƏNZİMLƏNMƏSİNİN XÜSUSİ FORMASI KİMİ


***Məmmədova Ş.R.***

*Sumqayıt Dövlət Universiteti*



**Xülasə**

*Strateji planlaşdırma məqsəd və prioritetlərin, eləcə də ölkənin (regionun) sosial-iqtisadi inkişafının uzunmüddətli perspektivə və ya eyni zamanda reallaşdırılması mexanizmlərinin formalaşdırılması ilə orta müddətə, əsas, daha vacib istiqamətləri üzrə iqtisadi göstəricilərin müəyyən olunması prosesidir. O, xarici mühit amilinin nəzərə alınmasını nəzərdə tutur və artıq bu səbəbdən həmişə alternativ, çoxvariantlı olur.*

***Açar sözlər:*** *strateji planlaşdırma, perspektiv, sosial- iqtisadi inkişaf, xarici mühit.*


Strateji planlaşdırma zamanı iqtisadi transformasiyanın ümumi xarakterini, iqtisadiyyatın dayanıqlığı və rəqabətqabiliyyətliyini, əhalinin həyat səviyyəsini, ölkənin müdafiə qabiliyyəliyini və s. müəyyən edən

məqsəd həll olunur. Bu zaman son nəticə ciddi şəkildə təsbit olunmur, zaman və kəmiyyət (həcm) üzrə verilmiş hədd sərhədlərilə müəyyən zonada yerləşir.

Strateji planlaşdırma – sosial – iqtisadi sistemin, strateji cəhətdən lazımlı istiqamətdə hərəkətini təmin edən ilkin şərtlərinin məcmuunun formalaşması baş verən fazadır. Bu fazada hazırlanan və qəbul olunan hər cür qərarlar heç vaxt sərt və alternativsiz olmur, onların xarakterik xüsusiyyəti dəqiqləşdirilməyə yüksək hazırlığıdır (perspektivə dair yeni məlumatlardan asılı olaraq), həm də yalnız nəzərdə tutulmuş göstəricilərin məzmununa görə yox, vəzifələrin qoyuluşuna görə, məsələn, digər vəzifələrlə müqayisədə birinciliyinnin korreksiyası yolu ilə dəqiqləşdirilməsinin aparılması tam mümkündür.

Strateji planlaşdırmanın metodologiyası bazar – kapitalist münasibətlərinə xarakterik olan sosial – təsərrüfat sistemlərində çeviklik və uyğunlaşmanın keyfiyyətini qoruyub saxlayan və artıran bu sistemlərin inkişaf xarakteri və istiqamətlərinə mərkəzləşdirilmiş çox saylı təsir imkanlarını özündə birləşdirir.

Strateji planlaşdırma metodologiyası sosial – təsərrüfat sistemlərində bazar – kapitalist münasibətlərinə xarakterik olan çevikliyi və uyğunlaşmanı saxlamaq şərtilə bu sistemlərin mərkəzləşdirilmiş istiqamətləndirmə və xarakterini özündə birləşdirmək imkanlarına malikdir.

Ümumi halda strateji planlaşdırma təşkilatın müəyyən edilməsi prosesini və onların dəyişilməsini, habelə onların nailiyyətlərinə lazım olan resursları, bu resursların əldə edilməsi və istifadəsinə yönəldilmiş siyasəti özündə birləşdirir.

Sosial təsərrüfat sisteminə tətbiqi nöqteyi-nəzərdən strateji planlaşdırma və idarəetmənin ümumi məzmununu və xüsusiyyətlərini dörd başlıca komponentə bölmək olar: onlara nail olma məqsədləri və vasitələri, həlli vaxtı (imkanı) və sistemin məkan strukturu. Aydındır ki, strategiyalar hakim komponent sistemin məqsədləridir, hansı ki, təcrübədə məsələlərə digər üç komponentdən təcrid olunmuş şəkildə baxılarsa, nəticədə qənaətbəxş olmaz.

Adətən həllinin ən geniş mənasında strateji planlaşdırma çərçivəsində təşkilatların qəbul etdikləri qərarlarda təşkilatın inkişafının başlıca məqsədi seçilir. Başlıca məqsədin seçilməsi təşkilatın (sistemin) vəzifəsini müəyyən etməyin dəqiqləşdirməsini göstərir. Vəzifə daha geniş mənada təşkilatın nəyi qarşıya qoyduğunu, sonuncunun nə üçün mövcud olmasını və inkişaf mühitində onun vahid yerinin harada olmasını xarakterizə edir.

Təşkilatın (sistemin) başlıca məqsədini müəyyən edən alt məqsədləri və ümumi vəzifələri seçmək mümkündür. Onlar kəmiyyət və keyfiyyət formalarında ola bilər, lakin xeyli uzun müddətli (möhkəm) xarakter daşımalıdır. Məqsədlər və altməqsədlər əsasında formalaşdırılan vəzifələr əslində konkret, öz strategiyasının reallaşdırılmasının gedişində təşkilatın əldə etdiyi, arzuladığı müddətlər üzrə müəyyən edilmiş nəticələrə bağlı olmalıdır. Bu yolda (vasitə) təşkilatın (sistemin) strategiyası məqsədlərə nail olma yollarını axtarmağı nəzərdə tutan ümumi istiqamət kimi qarşıda durur.

Təsərrüfat təşkilatına münasib olaraq strateji planlaşdırmanın məzmun nəticəsi onun simasında və fəaliyyətində aşağıdakı formada dəyişikliklər güman etmək qəbul edilmişdir[1]:

- ETTKS – nın yeni səviyyəyə çıxması;
- Bazarda yeni məhsul növlərinin bərqərar edilməsi (təsdiqlənməsi);
- məhsul və xidmət portfelinin diversifikasiyası;
- firmaların əldə edilməsi və birləşdirilməsi;
- təşkilat daxilində səlahiyyətlərin və cavabdehliklərin bölüşdürülməsi və yenidən qurulması;
- gəlirsiz istehsalın ləğv edilməsi və aradan qaldırılması;
- yeni güclərin layihələndirilməsi və aradan qaldırılması;
- personalın təhsilinin təminedilməsi;
- yeni bazarların yaradılması.

Tamamilə aydındır ki, sosial – təsərrüfat sistemi (milli iqtisadiyyat, region və b.) üçün strateji proqramların məqsədli xarakteristikası tamamilə başqa cür, funksiyalar üzrə daha geniş və daha az detallaşdırılmış olmalıdır. Lakin makrosistem çərçivəsində perspektivə strateji yanaşmanın ümumi mənası müvəffəqiyyətli korporasiyaların strateji idarəedilməsi prosesinin reallaşdırılmasına daha yaxın olacaqdır. Burada başlıca mühitin dəyişilməsinə sırf relyef dəyişikliklərindən imtina edərək mühitinin özünün bu və ya digər dərəcədə məqsədyönlü dəyişdirə bilən yeni amillərin qabaqcadan nəzərdə tutulması xüsusi əhəmiyyət kəsb edir.

Makro səviyyədə strateji planlaşdırma yalnız o halda müvəffəqiyyət gətirir ki, o, sosial – iqtisadi proseslərin və inkişafın strateji idarə edilməsi ilə üzvi surətdə elmi uzaq görənliyin ümumi sisteminə birləşdirilsin. İlkin şərt ondan ibarətdir ki, strateji planlaşdırma yaxşı qurulmuş sosial – iqtisadi inkişafın proqnozlaşdırılması sisteminə söykənsin[2].

Adətən, strateji planın ciddi olmaması və çox variantlılığı ilə əlaqədar təcrübədə proqnozlaşdırma və planlaşdırma məsələləri arasında sərhəd xətti çəkmək mümkün deyildir. Məlumdur ki, proqnozlaşdırma bu və ya digər dərəcədə məqsədlərin müəyyən edilməsini qarşıya qoyur, normativ (teleoloji – müəyyən məqsədə yönəldilmiş) proqnozlaşdırma həyata keçirildikdə isə məqsədlərin müəyyən edilməsi onların proqnoz işinin başlıca məzmunu olur. Nə qədər ki, sosial – iqtisadi sferada proqnozların formalaşdırılmasında məhz normativ yanaşmalara üstünlük verilir, deməli, metodoloji cəhətdən tamamlanmış, uzun müddətli proqnozla strateji planarasında böyük fərqlər yoxdur. Buna görə də təəccüblənməyə dəyməz ki, bir sıra ölkələrdə perspektiv inkişafı istiqamətləndirən əsas sənəd kimi uzunmüddətli kompleks proqram çıxış edir, strateji plan isə ümumiyyətlə tərtib edilmir. Strateji planın funksiyalarını başqa adlarda sənədlər, məsələn, kompleks proqram və ya sosial – iqtisadi inkişaf konsepsiyası yerinə yetirə bilər.

Düşünürük ki, daha aydın şəkildə ölkənin sosial – iqtisadi inkişafın başlıca məqsədinə istiqamətləndirilibsə və kifayət dərəcədə məqsədləri reallaşdırmaq üçün zəruri tədbirlər nəzərdə tutulubsa, bu proqnozu strateji planın tələbatını ödəyən səviyyəyə qaldırmaq olar. Həmçinin, milli layihələrin və məqsədli proqramların konkret konturları verilməlidir, hansı ki, onun əsasında ölkə iqtisadiyyatını yeni struktur mövqeyinə qaldırılmasının təmin edilməsini nəzərdə tutulur. Bu orta müddətli və cari dövrlərə ölkənin, sosial – iqtisadi inkişafının indikativ planlarını işləyib hazırlamaq üçün özül olardı.

Strateji planla üzvi əlaqədə milli proqramlar və layihələr formalaşdırılır ki, bu da maksimum mümkün olan iqtisadi və sosial effektə, mütərəqqi texnologiyalara və struktur irəliləyişlərinə nail olmaqla biznesin inkişafına və vətəndaş cəmiyyətinin yardımına əsaslanaraq dövlət resurslarını milli üstünlüklərin reallaşdırılmasına təmərküzləşdirməyə imkan verir.

Strateji planın əsas göstəriciləri balansların, əmək, sahələr, xalq təsərrüfatı kompleksləri, təkrar istehsal bölmələri üzrə məşğul olanların sayı dəyər ifadəsində əsas fondlar və investisiyalar (ümumi buraxılış), dəyişilməz (müqayisəli) və cari (qiymətlərin nisbət səviyyələrinin dəyişilməsi imkanlarını nəzərə almaqla) qiymətlər, habelə makro regionlar üzrə (federal dairələr) üzrə ÜDM və onun elementləri və s. köməyilə bir – biri ilə əlaqələndirilir.

**Ədəbiyyat**


1. Axundov M.Ə. Strateji idarəetmə, Bakı, Elm, 2001, 191 s.
2. Camalov E.S. Müəssisədə xərclərin strateji idarə edilməsi. Elmi əsərlər, 2015, №2, 46 s.


**Резюме**


***Мамедова Ш.Р.***


**Стратегическое планирование как специальный формат для решения социально-экономического развития**


*Стратегическое планирование процесс идентификации экономических показателей, целей и приоритетов, также социально- экономического развития на долгосрочную перспективу, и в тоже время, формирование механизмов взаимодействие по среднесрочным, первичным и более важным направлениям. Оно подразумевает учет факторов внешней среды, и поэтому бывает всегда альтернативным, множественным.*



***Ключевые слова:*** *стратегическое планирование, перспектива, социально-экономическое развитие, внешняя среда*


**Summary**


***Mamedova S.R.***


**Strategic Planning As A Special Format For Solving Social And Economic Development**


*Strategic planning is the process of identifying economic indicators, goals and priorities, as well as socio-economic development for the long term, and at the same time, the formation of mechanisms for interaction over medium-term, primary and more important areas. It implies the consideration of environmental factors, and therefore it is always an alternative, plural.*



***Key words:*** *strategic planning, perspective, socio-economic development, external environment*

# İNNOVASİYA LAYİHƏSİ KOMANDASININ STİMULLAŞDIRILMASI MEXANİZMİ VƏ ONA SİSTEMLİ YANAŞMA

***Mirzəbəyov A.Ə.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə***

*Məqalədə stimullaşdırıcı təsir vasitələrinin iqtisadi əhəmiyyəti açıqlanmışdır. İnnovasiya layihəsi komandasının stimullaşdırılması mexanizmi tədqiq edilmişdir. Həmçinin, innovasiya layihəsi komandasının maddi stimullaşdırılmasının müxtəlif variantları nəzərdən keçirilmişdir.*

***Açar sözlər:*** *innovasiya, layihə, stimullaşdırma, maddi maraq, menecer*

Mütərəqqi yeniliklərin əksəriyyəti öz real təcəssümünü elmtutumlu və rəqabət qabiliyyətli məhsulun yaradılmasında tapır. Yeniliklərin yayılma diapazonu praktika əsasında genişlənir. Onların dəyəri insanla və onun tələbatı ilə kontaktda üzə çıxır. Dəyər münasibətləri bazar iqtisadiyyatında tənzimləmə amillərinin ayrıca bir qrupunu təşkil edir. Bu halda elm və texnika inkişaf etdikcə əmtəələrin dəyərində fiziki əməkdən daha çox intellektual əmək sərfinə əhəmiyyət verilir. İnnovasiya prosesi müxtəlif resursların istehsal fəaliyyətinə cəlb edilməsilə bağlıdır. Əsas resurslar yeni məhsul istehsalının geniş miqyasda mənimsənilməsi ilə əlaqədar olan tədqiqatlar və araşdırmalar aparılmasına, layihə-texnoloji və başqa işlərin yerinə yetirilməsi üçün investisiyalar və vaxt sərf olunur. Bütövlükdə innovasiya fəaliyyəti sisteminə elm, texnologiya, iqtisadiyyat və təhsil kimi tərkib hissələri daxildir. Bütövlükdə innovasiya fəaliyyəti sistemində nəzərdən keçirilən komponentlərin içərisində ən əsas ünsür insandır. Çünki sənaye müəssisələrində innovasiya layihələrinin işlənib hazırlanmasında onların rolu həddindən çoxdur. Onlar innovasiya layihələrinin işlənib hazırlanmasında vahid komanda şəklində birləşməlidir. İnnovasiya layihələrinin səmərəli işlənilməsində onların mühüm rol oynadığını nəzərə alaraq stimullaşdırılması mühüm vasitələrdən biridir.

Bazar iqtisadiyyatı şəraitində müəssisələr ən yaxşı son nəticələrin əldə edilməsində stimullaşdırıcı təsir vasitələrindən istifadə edirlər. Hazırda əməyin idarə ediməsinin fəallığını təmin edən müxtəlif səmərəli üsulların axtarışı gedir. Bu, ölkədə iqtisadi artımın sabitləşdirilməsinin əsas istiqamətlərindən biridir.

Əməyin stimullaşdırılmasının optimallığı, birinci növbədə, kompleks cəhətlərin nəzərə alınmasını tələb edir. Bu bir tərəfdən zamanın, konkret dövrün tələblərini, ikincisi-əmək kollektivlərinin konkret xüsusiyyətlərini, üçüncüsü-hər bir işçinin sosial keyfiyyətini və psixoloji tipini nəzərə almağı zəruri edir. Ona görə də stimullaşdırma üzrə tədbirlər kompleksi işlənib hazırlanmalıdır. Elə etmək lazımdır ki, maddi stimullaşdırma və onun mənası işçi tərəfindən tam aydınlığı ilə dərk olunsun, onun əməyə münasibətinin məqsədyönlü motiv əsasına çevrilə bilsin. Ona görə də burada şəxsi maddi marağın böyük əhəmiyyəti vardır, çünki şəxsi maddi maraqlandırma eyni zamanda işçinin şəxsi məsuliyyətinin artması deməkdir. Bu müasir dövrdə çox vacib bir maraqlandırma formasıdır. Bəziləri belə hesab edir ki, istehsalın genişmiqyaslı təşkili, xarakteri yuxarıda göstərilən maraqlandırma formasının əhəmiyyətini arxa plana çəkir. Əksinə, müasir istehsal şəxsi məsuliyyət və beləliklə də, şəxsi maraq olmadan inkişaf edə bilməz [3].

Əksər menecerlər üçün maddi stimullaşdırma layihədə iştirak etmənin əsas motividir. Maddi stimullaşdırmanın müxtəlif variantları mövcuddur. Mümkün olan variantlara nəzər salaq:

1. Layihə iştirakçılarının maddi mükafatı əmək nəticələri ilə sıx bağlıdır və potensial surətdə adi əmək haqqından yüksəkdir (bəzən bir neçə dəfə). Layihə meneceri komandaya ən yaxşı mütəxəssisləri cəlb etməlidir, işi səmərəli təşkil etməlidir, layihənin planlaşdırılan müddətdə yerinə yetirilməsini təmin etməlidir, layihə iştirakçılarının yüksək fədakarlıqla işləmələrinə nail olmalıdır, mürəkkəb və qeyri-standart məsələlərin həllini təmin etməlidir. Bu zaman o, müəssisədə cari funksional vəzifələrindən azad edilə də, edilməyə də bilər. Əgər müəssisədə layihə idarəetmə sistemi yoxdursa və hər bir layihə çox nadir bir hadisədirsə, layihə menecerləri bir çox hallarda özlərinin layihədə iştirakı üçün çox yüksək maddi mükafat gözləyirlər ki, bu onların əmək haqqından əhəmiyyətli dərəcədə yüksəkdir və bunu layihənin nəticələrinə görə böyük məsuliyyətlə əlaqələndirirlər. Bir çox hallarda menecerlərin iddiaları bir qədər yüksək olur. Hərdən müəssisə rəhbərliyi də nəticələrin əhəmiyyətini azaldaraq, adi zəhmət haqqı çərçivəsindən çıxmaq istəmirlər. Ən obyektiv meyar tələb olunan dərəcəli mütəxəssisin əmək bazasında zəhmətinin dəyərinin orta hesabla neçəyə qiymətləndirilməsi ola bilər.

2. Layihədə iştirak etməyə görə əlavə ödəniş tətbiq edilir. Əgər, layihə meneceri cari funksional vəzifələrindən azad edilmirsə, onda əlavə ödəniş məbləği əhəmiyyətli olmalıdır, yoxsa stimul effektiv olmayacaqdır. Yaxşı olar ki, işçi yarım və yaxud bir ildə böyük mükafat alsın, layihənin başa çatdırılmasından sonra əldə edilən nəticələrə görə işçini mükafatlandırmaq lazımdır.

3. Menecer layihədə adi əmək haqqına görə iştirak edir, ancaq müəssisədə cari funksional vəzifələrdən azad edilir. Bu ödəniş forması bir çox maddi proseslərə layihə statusunun verilməsi, müəssisədə layihə idarəetmə formasının daxil edilməsində işlənilir.

4. Menecer layihədə adi əmək haqqına görə iştirak edir, ancaq müəssisədə cari funksional vəzifələrdən azad edilmir. Burada ön plana qeyri-maddi stimullar çıxır.

Qeyri-maddi stimullaşdırma zamanı elə hallar olmuşdur ki, insanlar layihə komandasında tam fədakarlıqla əsas iş yerlərində aldıqları zəhmət haqqından daha az haqq alaraq işləmişdirlər. Belə maddi stimullaşdırma forması layihədə könüllü iştirak etməni nəzərdə tutur və müəssisədə layihə idarəetməsi forması qəbul ediləndə, bir çox proseslərə layihə statusu veriləndə tətbiq edilir. Burada işçinin cari vəzifələrinin və eləcə də layihədə iştirakı məsuliyyətinin azalması təhlükəsi vardır [2].

Layihədə iştirak etmə peşəkarlıq ustalığının artırılması üçün yaxşı imkan yaradır. Bir çoxları, xüsusən də menecerlər belə addıma hazırdırlar. Hərdən layihə komandasına da işləmək mütəxəssisin şərəfi üçün bir çağırışdır. Müəssisələrdə layihə komandası üzvləri üçün korporativ tədris proqramları təşkil edirlər. Belə təlim əmək bazasında işçinin zəhmət haqqının potensial dəyərini yüksəldir. Fərdi planlar üzrə təlim alan işçilərə biznes-məktəblərin və tədris planlarının sərbəst seçimi imkanı yaradılır. Bu zaman müəssisə işçinin yenidən hazırlanması və ya ali məktəbdə təhsil alması haqqını özü ödəyir.

Layihədə iştirak etmək menecerlərin ünsiyyət dairəsini kəskin şəkildə genişləndirir. Bu dairəyə başqa müəssisələrin ən yaxşı mütəxəssisləri, xarici tərəfdaşlar, top-menecerlər, inzibatçı təmsilçilər və s. düşə bilər.

Menecer dərk etməlidir ki, rəhbərlik onun təfəkkürünə maraq göstərir və ən azı o, əks- əlaqəni qazanmış olur. Başlıcası isə onun təklifinin idarəçilik qərarına əsasən olmasıdır. Rəhbər, müşavirələr təşkil edə bilər ki, orada bütün komanda üzvləri komanda işinin səmərəliliyinin yüksəldilməsi üçün özlərinin təkliflərini verə bilsinlər. Menecer öz peşəkarlıq tələbatlarını özü reallaşdıra bilər. Rəhbər isə bu imkanları ona yaratmalıdır [1].

Ümumiyyətlə, innovasiya layihəsi komandasının stimullaşdırılması əmək məhsuldarlığına, buraxılan məhsulun keyfiyyətinə, işçilərin peşə-ixtisas hazırlığına müsbət təsir göstərir. Bunu həm əmək fəaliyyətinin rəqəmlərlə ifadə olunmuş nəticələrinə həm də sosial–psixoloji baxımdan əməyə münasibəti səciyyələndirən əlamətlərə görə müəyyən etmək olar. Bunun üçün burada, birinci, işçinin əmək fəaliyyətinə daxil olması, ikincisi, onun konkret əmək davranışı, üçüncüsü, onun əmək fəaliyyətinin qiymətləndirilməsi üzrə ölçülmə meyarlarından mühüm bir metod kimi istifadə edilir. İnnovasiya layihəsi komandasının stimullaşdırılması müasir dövrdə onun yüksək səviyyədə, elmi əsaslar üzrə təşkilini tələb edir. Ona görə də burada bir sıra tələblər nəzərə alınmalıdır. Bunlar stimullaşdırmanın çevikliyi və operativliyi, kompleksliyi, bütün stimullaşdırma formaları və növlərinin vəhdətliyi, aşkarlığı və sairədən ibarətdir. Bütün bunlar innovasiya layihəsi komandasının stimullaşdırmanın təkmilləşdirilməsi yolunda başlıca addımdır.

İnnovasiya layihələri üzrə komandanın stimullaşdırılmasına maraq oyadan mexanizm, elmi-texniki tərəqqinin müxtəlif fazaları üzrə əmtəələrin rəqabət qabiliyyətliliyi və rentabelliyinin dəyişməsidir. Bu isə o deməkdir ki, elmi yenilikləri, yeni texnologiyaları birinci olaraq mənimsəyən sahibkarlar xərclərin ilk artımından sonra bazara daha keyfiyyətli məhsullar çıxara və daha az məsrəflərlə məhsul istehsalına nail ola bilirlər. Ümumiyyətlə, müəssisə səviyyəsində innovasiya layihələrinin reallaşdırılmasının stimullaşdırılmasını fəallaşdıran innovasiya mexanizmləri sistemini işlənmə və tətbiq mexanizmləri, təşkilati mexanizmlər, maliyyələşdirmə mexanizmləri, texnoloji transfert mexanizmləri və intellektual mülkiyyətin müdafiəsi mexanizmləri kimi qruplaşdırmaq olar. Fikrimizcə, həmin mexanizmlər, həm bir-birindən ayrılıqda, həm də bütövlükdə tətbiq oluna bilərlər.

## Ədəbiyyat


1. Tağıyev A.H., Səfərov Q.Ə. İnnovasiya layihələrinin menecmenti Bakı, Təknur, 2013, 272 s.
2. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyaların yaranması, yayılması və inkişaf perspektivləri. Bakı, Elm, 2009, 416 s.
3. Попова. В.П. Управление инновационными проектами. М: ИНФРА , 2007, 191 с.


## Резюме


***Мирзебеков А.А.***


**Механизмы стимулирования команды инновационного проекта и системный подход к ней**


*В статье раскрывается экономическое значение влияния средств стимулирования. Исследуются механизмы стимулирования команды инновационного проекта. Также рассматриваются различные варианты их материального стимулирования.*



***Ключевые слова:*** *инновации, проект, стимулирование, финансовые интересы, менеджер*

**Summary**

***Mirzebeyov A.A.***

**Mechanisms of Stimulating an İnnovative Project Team and a Systematic Approach to it**

*The article reveals the economic significance of the incentive influence means. The mechanisms of stimulating the team of the innovative project are explored. And also various variants of material stimulation of a command of the innovative project are considered.*

***Key words:*** *innovation, project, incentive, financial interest, manager*

## AZƏRBAYCANDA SAHİBKARLIĞIN İNKİŞAFININ MÜASİR TƏZAHÜR FORMALARI

***Nəzərəliyev S.B.***

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Xülasə**

*Azərbaycan sahibkarlarının iqtisadi maraqlarının təminatı üçün ticarət siyasətinin alətlərindən istifadə olunması respublikamızın iqtisadiyyatının innovativlik xüsusiyyətini gücləndirir. Bu, müşahidə edilən əsas iqtisadi nəticələrdən biridir. Belə ki, məhz bu üstünlüyə malik olmaqla, müasir və daha səmərəli istehsal vasitələri əldə etmək mümkündür. İnnovasiya xarakterinə malik ölkəmizin ticarət siyasəti istehsal və xidmət sahibkarlığını əhatə edir.*

***Açar sözlər:*** *sahibkarlıq, biznes, özəlləşdirilmə, biznesin dövlət tərəfindən idarə olunması, milli iqtisadi mənafelər, iqtisadi təhlükəsizlik*

Uzunmüddətli müddətdə iqtisadi tərəqqinin təmin olunması bilavasitə sahibkarlığın inkişafından asılıdır. Dövlətdə sahibkarlığın inkişafı sayəsində Azərbaycan iqtisadiyyatının struktur baxımından təzədən qurulması, ETT-nin təmin olunması, məşğulluq və gəlirlərin artırılması və s. kimi məsələlər həll edilir.

Sahibkarların iqtisadi maraqlarının təminatının yaxşılaşdırılması üçün biznesin təşkili Azərbaycanda iqtisadi artımla nəticələnir ki, bu da əhalinin güzəranının yaxşılaşdırılmasına təsir göstərən mühüm faktordur. Dövlətdə sosial-iqtisadi və maliyyə sabitliyinin təminatı, təkmil qanunvericilik bazasının və qanunların icrası mexanizminin mövcudluğu, rəqabətədavamlı bağlı istehsalların, xüsusilə dövlətdə infrastrukturun inkişafı, ixtisaslı kadrları və inkişaf etmiş təhsil sisteminin olması və s. bu kimi faktorlar biznesin inkişafına gətirən faktorlardır.

Sahibkarlıgın inkişafına qoyulan maliyyə vəsaitlərinin, habelə maddi və intellektual sərvətlərdən səmərəli istifadə olunması hesabına məşğulluq problemləri həll olunur, əldə olunan gəlirlərin həcmi artır.

İngilis iqtisadçısı A.Marşal qeyd edirdi ki, «müdrik adam öz vəsaitlərini onun bütün təyinatları - indiki və perspektiv təyinatları üzrə elə bölüşdürür ki, onlar hər bir halda eyni son hədd faydalılığına malik olsunlar. Lakin vaxta görə perspektivdə zövq almaq mənbəyinin indiki son hədd faydallığını qiymətləndirərkən iki dəqiqləşdirmənin nəzərə alınması məqsədəuyğundur: birincisi, onun qeyri-müəyyən olmasını (bu obyektiv xassədir ki, bütün səriştəli şəxslər bunu eyni şəkildə qiymətləndirirlər) və ikincisi, vaxta görə uzaq olan zövq almağın indiki ilə müqayisəsinin müxtəlif insanlar üçün əhəmiyyətinin fərqini (bu subyektiv xassədir ki, bunu da başqa-başqa insanlar öz xarakterlərinə və həmin vaxtda maddi vəziyyətlərinə görə fərqli şəkildə qiymətləndirirlər) [3].

Sahibkarlığın mahiyyəti, funksiyaları, fəaliyyət xüsusiyyətləri və əhatəsi barədə fərqli cərəyanların nümayəndələrinin müxtəlif mülahizələri, elmi-nəzəri və metodoloji yanaşmaları mövcuddur. A.Smitə görə, mənfəət əldə etməyə yönəldilən fərdi fəaliyyət nəticədə hərc-mərcliyə deyil, cəmiyyətdə bazar ünsürləri yolu ilə müəyyən qaydaların yaranmasına, fərdi mənafenin «görünməyən əlin» köməyilə ictimai mənafe ilə uyğunlaşdırılmasına səbəb olur. Dövlətin iqtisadiyyata düşünülmüş müdaxiləsini məqsədəuyğun hesab edən A.Smit və onun davamçıları həmçinin, ölkənin iqtisadiyyata müdaxiləsinin mənfi nəticələrini də qeyd edirdilər. C.Keyns, S.Sey, Y.Şumpeter və s. biznesin elmi-nəzəriyyəsinin inkişafında vacib əhəmiyyətə malik olmuş, onun hüquqi və iqtisadi tənzimlənməsinin obyektiv zərurət olduğunu əsaslandırmışlar. Bu baxımdan U.Timberqenin «Dövlətin qarşıya qoyduğu məqsədlər onun sərəncamında olan vasitələrdən çox olmamalıdır» fikri xüsusi diqqətəlayiqdir. Bazarın iqtisadi sistem konsepsiyasının formalaşmasında mühüm əhəmiyyətə malik olmuş C.Keyns makroiqtisadi araşdırmanın prinsiplərini və antiböhran idarəetməsinin nəzəri əsaslarını işləyib hazırlamışdır [3].

Belə inkişaf paradiqmasının əsasını təşkil edən ideyalar hələ əvvəllərdə də mövcud idi. Aristotel qeyd edirdi ki, sərvət bizim əldə etməyə cəhd etdiyimiz son nemət deyildir, belə ki, onu nəyinsə naminə əldə etmək faydalıdır. İ.Kant oxşar formada israr edirdi ki, insan məxluqlarına digər məqsədlərə nail olmaq

məqsədilə vasitə kimi deyil, özü-özlüyündə məqsəd kimi baxılmalıdır. Oxşar ideyalar A.Smitin, R.Maltusun, C.S.Milin və s. əsərlərində də göstərilmişdir. Artıq XX əsrin sonunda insan inkişafı metodologiyası dəyişikliyə uğrayaraq «insanlar iqtisadiyyatın inkişafına yox, iqtisadiyyat insanların inkişafına xidmət etməlidir» prinsipinə əsaslanmağa başladı [6]. Bu, onunla izah olunur ki, hazırkı iqtisadiyyatı inkişaf məqsədilə azad, sağlam düşüncəli, müəyyən intellektual səviyyəli insanlar lazımdır.

Səmərəliliklə ədalətlilik arasındakı ziddiyyət bazar münasibətlərinə əsaslanan cəmiyyətin qarşılaşdığı ən vacib məsələlərdən biridir. Bazar mexanizminin bu sferada çatışmazlıqları dövlət tənzimlənməsi yolu ilə aradan qaldırılır. Ümumiyyətlə, hazırkı dünyada xalis bazar iqtisadiyyatı deyil, dövlət tənzimlənməsi ilə bazar tənzimlənməsinin qarışıq şəkildə fəaliyyət göstərdiyi iqtisadiyyat mövcuddur [2].

Bir çox hazırkı iqtisadçı alimlər sahibkarlıgın inkişafına və onun xarakterik xüsusiyyətinə mövcud reallıqlar prizmasından yanaşmalarda onlar həmçinin səmərəli milli inkişaf strategiyasının formalaşmasına da diqqət yetirirlər. Belə ki, hər bir dövlətin sosial-iqtisadi inkişafına milli biznes konsepsiyası və strategiyası indiki və perspektiv inkişaf mərhələsində biznes çətinliklərinin həll olunmasını aktuallaşdırır [5]. Biznes çətinliklərinin həllinə dövlət yardımı strategiyasının reallaşdırılması mexanizminin qurulması ölkənin iqtisadi suverenliyinin vacib şərtidir. Biznesin dövlət tərəfindən idarə olunması milli iqtisadi mənafelərin qorunması və iqtisadi təhlükəsizliyin təminatının vacib istiqamətlərindəndir. Dövlət biznesə səmərəli və dayanıqlı inkişaf şəraiti yaratmaqla istehsalın maddi-texniki təminatına, məhsul istehsalına, onun emalına, satışına və ixracatına yardım göstərir. Həmçinin özəl bölmədə biznesin inkişafını şövqləndirir.

Azərbaycan sahibkarlarının dinamik inkişafı, dünya təsərrüfatçılıq sisteminə inteqrasiyasının xarakteri, sahibkarların iqtisadi maraqlarının yaxşılaşdırılması səviyyəsi dövlətdə biznesin səmərəliliyindən bilavasitə asılıdır. Ölkəmizdə özəl sektorun inkişafına xüsusi diqqət yetirilən müasir şəraitdə sahibkarlar üçün faydalı fəaliyyət sferasının formalaşması xüsusi aktuallıq kəsb edir [1].

Biznesin inkişafının hazırkı tələblərə adekvat nəzəri-metodoloji bazasının formalaşdırılması istiqamətindəki tədbirlər ölkəmizin iqtisadi inkişaf tempinə görə dünyada liderlər sırasına çıxmasını şərtləndirən milli strategiyanın tərkib hissəsidir. Elmi cəhətdən əsaslandırılmış islahatların nəticəsi kimi 2016-cı ildə ən mötəbər iqtisadi qurumlarından biri olan Davos İqtisadi Forumu dövlətlərin rəqabətədavamlılığıyla əlaqədar təzə cədvəl dərc etmişdir və ölkəmiz həmin siyahıda 46-cı yerdədir (MDB məkanında isə birincilik təşkil edir). Bu cədvələ əsasən makroiqtisadi sabitliyə görə ölkəmiz dünya miqyasında 18-ci yerdədir.

Biznesin genişlənməsi onun institutsional şəraitindən, qeydiyyat və digər prosedurların operativliyindən, bürokratik əngəllərin aradan qaldırılması tədbirlərinin səmərəliliyindən birbaşa asılıdır. Ona görə də ölkəmizin başçısının sərəncamı ilə kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatında «bir pəncərə» sisteminin tətbiqi əlamətdar hadisədir. Belə ki, müvafiq sərəncamın icrası hesabına kommersiya hüquqi şəxslərin qeydiyyat prosedurları olduqca sadələşmiş, tələb olunan sənədlərin sayı 33-dən 7-yə endirilmişdir. Əvvəllər aylarla uzanan qeydiyyat müddəti, hazırda cəmi üç gün ərzində başa çatır.

Azərbaycan sahibkarlarının iqtisadi maraqlarının təminatının yaxşılaşdırılması sahibkarların tərəf-müqabillərlə münasibətindən, sonuncu isə onların təşkilatlanması səviyyəsindən asılıdır [1]. Bu nöqteyi-nəzərdən Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının fəaliyyəti xüsusi diqqətə layiqdir. Konfederasiya öz işini mərkəzi və yerli icra hakimiyyəti orqanları, Milli Məclis və Məhkəmə orqanları ilə əlaqəli qurur, sosial tərəfdaş kimi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir, bir sıra nüfuzlu Beynəlxalq Təşkilatların, o cümlədən Beynəlxalq Əmək Təşkilatının, Beynəlxalq İşəgötürənlər Təşkilatının, Beynəlxalq Sənayeçilər və Sahibkarlar İttifaqının, Dünya Qeyri-Hökümət Təşkilatları İttifaqının üzvlüyündə təmsilçiliyini davam etdirməklə, dövlət biznesin inkişafına dəstək verir.

**Ədəbiyyat**

1. Muradov Ş.M., Gültekin Erin. Azərbaycan iqtisadiyyatına xarici kapital qoyuluşunun məşğulluq probleminin həllinə təsirinin artırılması yolları // Audit, 2002, № 2, s. 27-31
2. Внешнеэкономическая деятельность предприятия / под ред. Р.И.Хасбулатова, В.М.Попова, А.Н.Тарнаева и др. М.: Международные отношения, 2011, 401 с.
3. Кумлин В.И. Экономика предпринимательства. М. Владос, 2015, 196 с.
4. Лузакова Е. П. Международные экономические отношения. Ростов-на-Дону: Феникс, 2014, 320 с.
5. Мировая экономика и международные экономические отношения / под ред. Хасбулатова И. Р. М.: Инфра-М, 2006, 703 с.
6. Овчинников Г.П. Международная экономика. СПб. Михайлова В.А., 2012, 384 с.

**Резюме**

***Назаралиев С.Б.***

**Современные формы развития предпринимательства в Азербайджане**

*Использование инструментов торговой политики для обеспечения экономических интересов азербайджанских предпринимателей усиливает инновационность экономики нашей республики. Это один из основных экономических результатов. Таким образом, с этим преимуществом можно получить современные и более эффективные средства производства. Торговая политика нашей страны с инновациями характеризует производственное и сервисное предпринимательство.*

***Ключевые слова:*** *предпринимательство, бизнес, приватизация, управление бизнесом, национальные экономические интересы, экономическая безопасность*

**Summary**

***Nazaraliyev S.B.***

**Modern Forms of Entrepreneurship Development in Azerbaijan**

*The use of trade policy tools to ensure the economic interests of Azerbaijani entrepreneurs strengthens the innovativeness of the economy of our republic. This is one of the main economic results observed. So, with this advantage, it is possible to obtain modern and more efficient production means. Trade policy of our country with innovation characterizes production and service entrepreneurship.*

***Key words:*** *entrepreneurship, business, privatization, business management, national economic interests, economic security*

## GETMƏ TURİZM – TURİZM SƏNAYESİNİN VACİB TƏRKİB HİSSƏSİ KİMİ

***Orucəliyeva B.Ə.***

*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*İnsanların həyat səviyyəsi yüksəldikcə, beynəlxalq iqtisadi münasibətlər hərtərəfli xarakter aldıqca, mübadilə münasibətləri inkişaf etdikcə, turizm insanlar üçün tarixi zərurətə çevrilmişdir. Bu proseslər artdıqca həmin sahəyə xidmət edən xüsusi qurumlar yaranır, turizm məhsulları meydana gəlir.*

***Açar sözlər:*** *turizm, mehmanxana, turist firmaları, turizm formaları, turizm xidmətləri*

Turizmin inkişafına hər hansı bir səyahətə çıxanların sayının artması kimi baxmaq olmaz.

İnsanların həyat səviyyəsi yüksəldikcə, beynəlxalq iqtisadi münasibətlər hərtərəfli xarakter aldıqca, mübadilə münasibətləri inkişaf etdikcə, turizm insanlar üçün tarixi zərurətdə çevrilmişdir. Bu prosseslər artdıqca həmin sahəyə xidmət edən xüsusi qurumlar yaranır, turizm məhsulları meydana gəlir. Bu zaman yeni sənaye və xidmət sahələrinə ehtiyac artır. Onda bu zaman turizmin inkişafı dedikdə, ilk növbədə turizm sənayesinin inkişafı nəzərdə tutulur. Turizm sənayesinə, yaxud da beynəlxalq turizm sisteminə mehmanxana təsərrüfatını, ictimai iaşə obyektlərini, müəyyən gəzinti, əyləncə təyinatlı obyektləri, idman komplekslərini, ekskursiya xidmətləri göstərən təşkilatları və sairəni aid etmək olar.

Turizm sənayesində və beynəlxalq turizm sistemində mehmanxana təsərrüfatı əsas yerlərdən birini tutur. Qeyd etmək olar ki, çox hallarda turist axınının qədəri məhz turizm sənayesinin bu bölməsinin həcmindən asılıdır. Məsələn, birdən-birə milyonlarla ziyarətçinin Məkkəyə ziyarətə getməsi minlərlə mehmanana mövcud olmasını tələb edir.

Turistlərin yerləşdirilməsi üçün nəzərdə tutulmuş mehmanxanalar bir çox xüsusiyyətlərinə görə fərqlənir. Məsələn, turistlərin yerləşdirilməsi üçün mehmanxanalar, turist bazaları pansionatlar, motellər öz rahatlıqlarına görə neçə nəfər yerləşdirilməsinə, mənfəət şəraitinə, dizayn quruluşuna və s. keyfiyyətlərinə görə fərqlənirlər. Bütün bu sadalanan cəhətlərinə görə mehmanxanalar 5 kateqoriyaya bölünür və yaxud 5 ulduzlu olur. Motel adlanan yerlər 4 ulduzlu, turist bazaları, turist bazaları, müəyyən ümumi yaşayış yerləri 3 dərəcəyə bölünür.

Məsələn, turizm mərkəzlərindən biri olan Fransada inkişaf etmiş mehmanxana şəbəkəsi fəaliyyət göstərir. Bunlardan:

- 1, 2, 3, 4 ulduzlu mehmanxanalar;
- 1, 2, 3, 4 lagerlər və istirahət evləri;
- kiçik balaca kotteclər, taxtadan düzəldilmiş evlər və s.

Hal-hazırda mehmanxana biznes, sahəsində ənənəvi təcrübəsi olan İsveçrədə 2600 mehmanxana birliyi fəaliyyətdədir. Böyük Britaniyada mehmanxana təsərrüfatının təsnifatı birdən beşədək ulduz sisteminə əsaslanır. Aydındır ki, yüksək səviyyəli xidmətlər də həmin sistemə uyğun həyata keçirilir.

Benilüks (Belçika, Niderland, Lüksemburq) ölkələrində də birdən beş ulduzadək dərəcə fəaliyyət göstərir. Bu sadaladığımız xidmətlərin keyfiyyəti, ildən-ilə çoxalmasına səbəb olur.

**Cədvəl 1**

**Azərbaycanda turizmin inkişafı ilə bağlı göstəricilər**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| Turizm şirkətlərinin sayı | 141 | 170 | 197 | 218 | 243 |
| Mehmanxanaların sayı | 508 | 514 | 530 | 535 | 536 |
| Yerləşdirmə obyektlərində yerlərin ümumi sayı | 31979 | 32824 | 33951 | 35652 | 37278 |
| Turizm sahəsində çalışan işçilərin sayı | 6198 | 7321 | 8259 | 9009 | 8364 |
| Azərbaycana gələn xarici turistlərin sayı (nəfər) | 2239141 | 2484048 | 2508904 | 2297804 | 2006176 |
| Xarici ölkələrdə Azərbaycan vətəndaşlarının sayı (nəfər) | 1631348 | 2162372 | 2362475 | 3175606 | 1.685564 |
| Turizmdə əldə olunan gəlir | 22634,8 | 27121,5 | 29600,9 | 31107,4 | 36,482,2 |

Cədvəldən göründüyü kimi, 2015-ci ildə xarici ölkələrdən Azərbaycana gələn turistlərin sayı 2006176 nəfər, 2014-cü ildə isə 2297804 nəfər təşkil etmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 211.100 nəfər (26%) artım çoxdur.

Ümumiyyətlə, dövlət turizm statistikasında təkmilləşdirmələr aparılmış və vəziyyəti daha aydın təsvir edilən rəqəmlər əldə edilməyə başlanılmışdır. DSK hesablamalarına görə, 2017-ci ildə xarici tuistin xərci 680 AZN müəyyən olunmuşdur. Həmçinin 2009-cu ildə ölkəyə turist kimi gəlmiş şəxslərin sayı 1.429.825 nəfər olmuşdur. Bu da təxminən 915 milyon AZN-lik dövriyyəni ortaya çıxarır.

Bütün irəliləyişlərə baxmayaraq, Azərbaycanda turizmin dünya standartlarına tam çatması üçün çox işlər görülməlidir. Bu məqsədlə 6 aprel 2010-cu il tarixində Azərbaycan Respublikasında 2010-2014 illərdə turizmin inkişafına dair yeni Dövlət Proqramı qəbul olunmuşdur. Bu barədə Azərbaycan Respublikası Prezidentinin sərəncamında əsas məqsəd kimi ölkəmizdə turizm sənayesinin dayanaqlı inkişafını təmin etmək və turizmin ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsinə nail olmaq göstərilmişdir. Bütün bunlarla yanaşı, turizmə xidmət edən ictimai iaşə sistemi, nəqliyyat sistemi və nəqliyyat vasitələrinin artırılması da turizm sənayesində mühüm rola malikdir. Göstərildiyi kimi, hər bir dövlətdə mehmanana təsərrüfatının, restoranların, tamaşa tədbirlərinin, nəqliyyat sisteminin və s. işini canlandırmaqla, məşğulluğun artmasına və xarici valyuta daxil olmasına zəmin yaradır. Bununla yanaşı, ölkə daxilində olan turizm ilə dövlətlər arası, ayrı-ayrı ərazilər üzrə olan turizm də fərqləndirilir. Bu da 1960-1970-ci illərdə beynəlxalq turizm adlandırılmış və Ümumdünya turizm bazarı yaranmışdır. Dünya turizm bazarında çox turist göndərən və turist qəbul edən ölkələr fərqləndirilir. Burada daha çox turist göndərən ölkələrdən ABŞ, Almaniya, İngiltərə və Belçika, daha çox turist qəbul edən ölkələrdən isə Fransa, İspaniya, ABŞ və İtaliyanı fərqləndirilər

Azərbaycanda fəaliyyət göstərən turist firmalarının əksəriyyəti uzaq ölkələrin turizm bazarını öyrənir. Həmin firmalar dünya turizm üçün ənənəvi olan marşrutlar təklif edirlər. Turizm biznesinin imkanları turizmin yalnız ekskursiya növü ilə kifayətlənmir. Firmalar öz fəaliyyətini genişləndirmək üçün başqa növ turlardan da istifadə edə bilərlər. Bu da, ilk növbədə, turist firmalarına turist xidmətlərindən istifadə edənlərin bir çox hissəsinin tələbatının ödənilməsi imkanı verər. Turizmin hər bir forması turistlərin özünəməxsus tələbatı ilə xarakterizə olunur və müvafiq xidmət kompleksi kimi nəzərdə tutur.

Turizm istehsalat xidmət prosesində aşağıdakı formaları növlərə və növ müxtəlifliyinə ayırır.

- Turizmin formaları;
- Turizmin növləri;
- Turizmin növ müxtəlifliyi;

Turizmin forması, turistin öz ölkəsi sərhədlərindən çıxıb-çıxmaması ilə bağlıdır və eyni zamanda turizmin formalara bölünməsinin əsasını ölkə prinsipi təşkil edir. Beləliklə, turizm daxili və beynəlxalq formalara ayrılır. Daxili turizm-bu, milli turizmdir, daha doğrusu ölkədaxili turizmdir. Ümumdünya turist təşkilatı tərəfindən təşkil edilən və 1980-ci il sentyabrın 27-dən oktyabrın 10-dək Manila şəhərində keçirilən Turizm Üzrə Beynəlxalq Konfrans daxili turizmin müəyyən edilməsinə həsr olunmuşdu.

**Cədvəl 2**

**2010-1015-ci illərdə Azərbaycanda turizm biznesinin inkişafını xarakterizə edən göstəricilərin dinamikası**

| Göstəricilər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2015-ci ilin 2010-cu ilə nisbəti |
|---|---|---|---|---|---|---|---|
| Turizm şirkətlərinin sayı | 126 | 141 | 170 | 197 | 218 | 243 | 192.9 |
| Turizm fəaliyyəti ilə məşğul olan işçilərin sayı (nəfər) | 1159 | 1279 | 1473 | 1515 | 1567 | 1308 | 112.9 |
| Turizm fəaliyyəti üzrə məhsul istehsalına çəkilən xərclər (min manat) | 13805,7 | 16065,6 | 18903,1 | 21818,2 | 25708,6 | 29480,0 | 213,5 |
| Əhaliyə satılmış turizm yollayış blanklarının sayı (ədədlə) | 34121 | 42583 | 62866 | 65448 | 66233 | 44615 | 130,8 |
| Əhaliyə satılmış turizm yollayış blanklarının dəyəri (min manat) | 25848,7 | 29316,6 | 40693,2 | 42892,3 | 44820,3 | 33474,7 | 129,5 |
| Qəbul edilmiş və göndərilmiş turistlərin sayı (nəfər) | 69923 | 83620 | 101431 | 91961 | 92305 | 61965 | 88,0 |

Statistik məlumatlara görə, 2015-ci ildə Azərbaycandakı lisenziya almış turizm şirkətlərinin sayı 243 olub, lakin bu şirkətlərin əksəriyyəti xaricdən turist göndərişi üzrə ixtisaslaşıb, yalnız 6 firma gələn və gedənlərlə bağlı turizmin inkişafı ilə məşğul olur. Son illər Azərbaycanda turizm fəaliyyətindən əldə edilən gəlirin həcmi əhaliyə satılmış turizm yollayış blanklarının sayı və dəyəri qəbul edilmiş və göndərilmiş turistlərin sayı xeyli dərəcədə artmışdır. Həm də turizm məhsullarının istehsalına çəkilən xərclərin artım sürəti turizm fəaliyyətindən əldə edilən gəlirin artım sürətini ötüb keçmişdir ki, bu da turizm biznesinin rentabellik səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdur.

Gəlir və xərclər arasındakı nisbətin ikincinin xeyrinə artmasının səbəbi turizm biznesinə kapital qoyuluşunun ödəmə müddətinin xeyli yüksək olması ilə izah olunur. 2015-ci ildə səyahət etmək üçün ölkədən kənara gedən Azərbaycan vətəndaşlarının satılmış turizm yollayış blanklarının sayı və dəyəri Azərbaycan ölkə vətəndaşlarına satılmış turizm yollayış blanklarının sayı və dəyərindən müvafiq olaraq 12,5 və 16,0 dəfə çox olmuşdur. Bu da onu göstərir ki, Azərbaycan Respublikasında getmə turizm gəlmə turizmi dəfələrlə üstələyir.

2016-cı ildə milli valyutanın devalvasiyası, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi və əhalinin gəlirlərinin azalması Azərbaycan vətəndaşlarının xaricdə istirahətə getmək imkanlarını azaltmış və eyni zamanda bütövlükdə turizm biznesinin inkişafına mənfi təsir göstərmişdir. Digər tərəfdən ABŞ dollarının manata nisbətdə artımı əksinə xarici turistlər üçün Azərbaycanda istirahəti, səyahəti ucuzlaşdırmışdır.

Aparılan təhlildən görünür ki Azərbaycan turizm xidmətlərinin keyfiyyətinə görə qonşu Türkiyədən, qiymətlərinə görə isə Gürcüstandan xeyli geri qalır. Azərbaycanda turizmin ümumi daxili məhsulda payı cəmi 4,1 % təşkil etdiyi halda, bu göstərici Gürcüstanda 7,5 %-ə, Türkiyədə isə 12,3 %-ə bərabərdir.

Daxili turizm - müxtəlif professional məqsədlər daşıya bilər: əyləncə, gündüz vaxtı iş yerinə getmək və s. Yerli əhali üçün getdiyi istirahət yerində 24 saatdan artıq qalmaq məcburi deyildir, daha doğrusu, turist həmin yerdə gecələməyə də bilər və ya da evə qayıda bilər.

Beynəlxalq turizm başqa ölkəyə turizm səyahəti etmək deməkdir. Beynəlxalq turizm turizm məqsədi ilə daimi yaşadığı ölkənin hüdudlarından kənara çıxan səfərdir. Beynəlxalq turizm daha doğrusu dövlətlər arası müqavilələrə əsasən həyata keçirilən səyahətlər sistemidir.

Əlamətlərinə görə turizm aktiv və passiv növlərə ayrılır. Xarici turistlərin ölkəyə gəlişi və ya ölkə vətəndaşları olan turistlərin həmin regiona gəlişi aktiv turizmdir. Aktiv turizm ölkəyə pul, valyuta gətirilməsi ilə müəyyən edilir. Bir ölkə vətəndaşlarının digər ölkəyə səyahəti və ya həmin regiondan olan turistlərin başqa ölkələrə səfərləri passiv turizmdir. Passiv turizm ölkədən pul çıxarılması ilə müəyyən edilir.

### Ədəbiyyat


1. Əlirzayev Ə.Q., Aslanov S.İ. Turizmin inkişafının sosial iqtisadi problemləri. Bakı, 2006.
2. Hüseynov İ., Əfəndiyeva N. Turizmin əsasları. Bakı, 2007

**Резюме**

***Оруджалиева Б.А.***

*Сумгаитский государственный университет*

**Выездной туризм-как важная составная часть индустрии туризма**

*С повышением жизненного уровня населения, принятия всестороннего характера в международных экономических отношениях, развитие валютного курса, туризм превратился в историческую актуальность среди населения. С увеличением этих процессов зарождаются специальные органы в обслуживании туризма.*

***Ключевые слова:*** *туризм, гостиница, туристические компании, туристические формы, туристические услуги*

**Summary**

***Orujalieva B.A.***

*Sumgayit State University*

**Travel as an Important Part Tourism Industry**

*With the increase in the living standard of the population, the adoption of a holistic nature in international economic relations, the development of the exchange rate, tourism has become a historical reality among the population. With the increase of these processes, special bodies are created in the sphere of tourism services.*

***Key words:*** *tourism, hotel, tourism companies, tourist forms, tourism services*

## AQRAR SAHİBKARLIQDA RİSKLƏRIN İDARƏ OLUNMASI, BİZNESİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİNATÇISIDIR

***Rzayev İ.B., Rzayeva Ü.İ.***

*Azərbaycan Dövlət Aqrar Universiteti*

**Xülasə**

*Sahibkarlıq fəaliyyəti istənilən istehsal və xidmət sahələrində ya müvəffəqiyyətlə (gəlir, mənfəət, cəmiyyət tərəfindən qəbul edilən, nüfuzlu), yaxud uğursuzluğu ilə (itkilərlə, zərərlə, ödəmə qabiliyyətinin olmaması və müflisləşmə) yola salınır. Məqalədə əldə edilən uğurlara təsir edən risklər araşdırılır və onların idarə olunması üsulları göstərilir.*

***Açar sözlər:*** *aqrar sahibkarlıqda risklər, uğur, uğursuzluq, risklərin ölçülməsi metodları: ekspert, statistik analitik hesab, mümkün risk, kritik risk, fasiləli risk, riskdən qaçmaq, riskin saxlanması, riskin bölüşdürülməsi, riskin ötürülməsi*

Ölkə Prezidenti cənab İ.Əliyevin rəhbərliyi altında həyata keçirilən iqtisadi siyasətin prioritet istiqamətləri olan qeyri-neft sektorunun inkişafının sürətlənməsi, regionların tarazlı inkişafı, əlverişli biznes və investisiya mühitinin formalaşması nəticəsində əhalinin rifahı daha da yaxşılaşmış, ölkənin davamlı sosial-iqtisadi tərəqqisinə nail olunmuş, son 14 ildə iqtisadiyyatımız 3,2 dəfə artmışdır. Bu artım sənayedə 2,6 dəfə, kənd təsərrüfatında 1,7 dəfə olmuşdur. Qeyri-neft ixracımız 4,1 dəfə artmışdır. [1]

Əldə olunan bu nailiyyətlərin əsasını qəbul edilmiş Dövlət Proqramları təşkil etmişdir. İlk Dövlət Proqramının qəbul edildiyi 2004-cü ildə ölkənin valyuta ehtiyatları 1,8 milyard dollar təşkil edirdi. Buna baxmayaraq, birinci regional inkişaf Proqramına böyük vəsait ayrıldı. Bu ölkə Prezidenti tərəfindən atılan düşünülmüş cəsarətli risk idi.

Azərbaycan regionlarının inkişafı, bölgələrdə yaşayan vətəndaşların güzəranı, həyat səviyyəsi ölkə Prezidenti üçün həmişə prioritet olub və olmaqdadır.

Bu gün ölkənin valyuta ehtiyatları 42 milyard dollara bərabərdir. Başqa sözlə, valyuta ehtiyatlarımız son 14 ildə 23 dəfə artmışdır.

Bu illər ərzində böyük investisiya layihələrinə, infrastruktur layihələrinə, neft-qaz kəmərlərinin tikintisinə vəsait qoyulmuşdur. Bu riskli işlərə, valyuta tutumlu layihələrə xeyli vəsait qoyulması ilə yanaşı, ölkənin valyuta ehtiyatları da 23 dəfə artırılmışdır.

Valyuta ehtiyatlarının həcminə görə Azərbaycan Respublikası dünyada qabaqcıl yerlərdədir. Azərbaycanın valyuta ehtiyatları, ölkənin ümumi daxili məhsuluna bərabərdir.

Azərbaycan Respublikasının bu uğurlarına təsir edən obyektiv səbəblər vardır. Bu səbəblərə siyasi vəziyyəti, iqtisadi durumu, qanunçuluq bazasını, istehlakçıların iqtisadi və sosial-mədəni səviyyəsini, elmi-texniki inkişafın dərəcəsini təbii-iqtisadi və bazar infrastrukturunu aid etmək olar.

Sahibkarlıq fəaliyyətinin uğur qazanması üçün sabit, dinc siyasi vəziyyət yaradılıb və sahibkarlığın inkişaf etdirilməsi üçün sahibkarlar torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilmişdir. Dövlət

tərəfindən sahibkarlıq fəaliyyətinə daima qayğı və dəstək göstərilir. Sahibkarlara yanacaq motor yağları 40% güzəştlə satılır.

Sahibkarlara hər hektar taxıl əkini sahəsi üçün 40 manat pul verilir. Elit toxumlar, superfosfat kübrənin 70%-qiyməti dövlət tərəfindən ödənilir. Sahibkarlara aqrolizinq və baytarlıq xidmətləri güzəştli yerinə yetirilir. Bütün bu köməkliklərin və dəstəyin nəticəsidir ki, aqrar sahə - sahibkarlıq fəaliyyəti ildən-ilə inkişaf edir. Sahibkarlıq riskinin müvəffəqiyyəti, sahibkarın əvvəlcədən tərtib etdiyi biznes-plandakı işlərlə üst-üstə düşməsindən irəli gəlir.

Aqrar sahibkarlıqda risklər idarə olunur. Buna baxmayaraq, sahibkarlıq fəaliyyəti aqrar sahədə açıq şəraitdə, birbaşa təbiətin şıltaqlığı şəraitində həyata keçirildiyindən uğursuzluqlar da olur. Məsələn, bitkilərin vegetasiya dövrü, küləyin, qasırğanın, tufanın baş verməsi, təsadüfü dolunun və yaxud güclü yağışın yağması, yayın və ya payızın ilkin günlərində təsadüfü sıx dumanın olması, yaxud ayrı-ayrı illərdə havanın quraqlıq keçməsi risklərin idarə olunmasına öz mənfi təsirini göstərir. Lakin savadlı, çevik məlumatlı, elmli sahibkar bu təsadüfləri görməli onları maksimum cilovlamalı və öz təsiri altına salmağı bacarmalıdır.

Sahibkarlıq risklərinin idarə edilməsi funksiyası, riskin azaldılmasına istiqamətlənmiş və iqtisadi cəhətdən əsaslandırılmış tövsiyyə və tədbirin işlənməsini və reallaşdırılmasını özündə birləşdirir. Riskin sahibkar tərəfindən azaldılmasına maliyyə sazişlərinin, yaxud əməliyyatlarının həyata keçirilməsində xüsusi fikir verilir. Belə ki, bütün potensial risklərin azaldılması və mümkün itkinin səviyyəsi təhlil edilir. Daha sonra risklərin səviyyəsinə təsir edən amillər aşkarlanır və risklərin vacibliyi qiymətləndirilir.

Sahibkarlıq fəaliyyətinə təsir edən risklərin neytrallaşdırılması və azaldılması metodları seçilir. Hər bir sahibkar risklərin neytrallaşdırılması, yumşaldılması və azaldılması istiqamətində təsiredici idarəetmə prinsiplərinə əsaslanaraq, istehsalı təşkil edir.

Aqrobiznesin təşkilində, sahibkar aqrobiznesin özünəməxsus xüsusiyyətlərini bilməlidir və həmin xüsusiyyətlərə uyğun istehsalı təşkil etməlidir.

Sahibkarlıq risklərinin idarə edilməsi müəyyən prinsiplərə əsaslanır. Riskli qərarların başa düşülməsi prinsipi, mahiyyət etibarı ilə, sahibkarın hər hansı bir kommersiya sazişi bağlayarkən, o, kommersiya sazişindən əldə edəcəyi gəliri və itirəcəyi itkini başa düşməsi və istehsalı təşkil edərkən, riski öz üzərinə götürməsi başa düşülür. Bu baxımdan sahibkar, o riski qəbul etməlidir ki, itki gəlirin müəyyən səviyyəsini keçməsin, yəni kommersiya bağlantısından alınacaq gəlirin səviyyəsindən keçməsin. [4]

Sahibkarlıq risklərinin idarə edilməsində risk səviyyəsinin, sahibkarın maliyyə imkanları ilə düz gəlməsi, müqayisə edilməsi çox vacib prinsipdir. Belə ki, kommersiya sazişi, yaxud maliyyə əməliyyatı, həyata keçiriləndə mümkün itki aktivlərdən az olmalıdır.

Sahibkarlıq risklərinin idarə edilməsində vaxt amilinin uçotu sahibkar üçün əhəmiyyətlidir. Yəni sahibkar kommersiya sazişi bağlanmasının əvvəlində ödəmə vaxtını hissə-hissə yerləşdirir ki, maliyyə vəsaitinə imkanı olsun və kreditor borcu yaranmasın.

Risklərin idarə edilməsinə kompleks yanaşma, maliyyə ehtiyatlarından nisbətən səmərəli istifadə etməyə imkan verir, nəticədə, işin səmərəsini yüksəltməklə özünün iqtisadi təhlükəsizliyini təmin edir. Sahibkarlıq risklərinin idarə edilməsi, risklərin yumşaldılması və neytrallaşdırılması üzrə tədbirlərin işlənməsi ilə sıx əlaqədardır.

Müasir şəraitdə aqrobiznesi həyata keçirərkən risklərin yumşaldılması və təhlil edilməsinin xüsusi üsulları vardır. Sahibkarlıq fəaliyyətində risklərin səviyyəsinə təsir edən faktorlar və onların əmələ gəlməsi mənbələrinin tətbiqi əsasında risklər qiymətləndirilir. Risklərin konkret vəziyyətinin tədqiqi nəinki riskin və mümkün itkilərin səviyyəsini düzgün qiymətləndirmək, həmçinin onun əmələ gəlməsi mənbələrinə qarşı təsirli iş aparmaqla riskin yumşaldılmasını düzgün təşkil etməyə imkan verir. Sahibkarlıq risklərini yumşaltmaq, onların ehtimalını aşağı salmaqla, zərəri azaltmaq olar.

Riskin və risk vəziyyətinin yumşaldılmasının əsas üsulları aşağıdakılardır:

- riskdən qaçmaq;
- riskin saxlanması;
- riskin bölüşdürülməsi;
- riskin ötürülməsi.

Riskdən qaçmaq-risklə bağlı, risklə əlaqədar riskli sazişlərdən, yaxud tədbirlərdən aralanmaqdır. Belə hallarda sahibkar mümkün mənfəətdən, qazancdan imtina etməlidir.

Apardığımız apaşdırmadan məlum olur ki, 2017-ci ildə sahibkarların riskdən qaçması ilə bağlı, bağladıqları ixrac kontraktlarında qazancın əldə olunmasına tam əminliklə yanaşılmış və xarici ticarət dövriyyəsi 12 faiz artaraq 21,8 milyard ABŞ dolları təşkil etmiş, əmtəə ixracı isə 19 faiz artaraq 14 milyard ABŞ dollarını üstələyib. Qeyri-neft əmtəə ixracının 24 faiz artmasını sevindirici hal kimi qəbul etmək olar. [2]

Risklərin idarə olunması insan təbiəti ilə daha çox bağlıdır. İnsan amili qeyri-məhsuldar vəziyyətlərdə riskin mənbəyi kimi, özünü daha fəal təqdim etməlidir. 1996-1998-ci illərdə pambıq bazarının yenidən zəifləməsi ilə əlaqədar, Aran iqtisadi rayonunda bu strateji əhəmiyyətə malik "ağ qızılın" əkilib-becərilməsi yenidən məhdudlaşdırıldı.

2015-ci ildən başlayaraq "ağ qızılın" ölkə daxilində və ölkədən xaricdə bazarın olması, Nazirlər Kabinetində keçirilən konfrans iclasında geniş müzakirə edilmiş və pambığın istehsal həcminin 2025-ci ilin sonunda 500 min tona çatdırılması bir hədəf kimi qəbul edilmişdir.

Götürülmüş öhdəlik riskli olsa da, Aran iqtisadi rayonun sahibkarları, bu riski öz üzərlərinə götürmüş və elə 2017-ci ildə 207 min ton pambıq toplanmasına nail olmuşlar. [2]

Riskin ötürülməsi sığorta şirkətləri ilə bağlı olan məsələ olduğundan dövlət aqrar sahənin sığortalanmasını öz üzərinə götürmüşdür.

Təbii amillərdən irəli gələn və əmələ gəlməsi dərəcəsindən asılı olaraq, sahibkarlara dəyən zərər, bağlanmış sığorta müqaviləsinə əsasən dövlət tərəfindən ödənilir.

Risk dərəcəsinin aşağı salınmasının, zəiflədilməsinin ən geniş yayılmış və əsaslandırılmış üsullarından biri diversifikasiya üsuludur. Bu üsulda investisiyaların bir istehsal sahəsinə deyil, bir-biri ilə əlaqəsi olmayan bir neçə istehsal sahəsinə qoyulmasıdır ki, hər hansı bir qəzadan qaça biləsən. Məsələn, son üç ildə investisiyaların pamidor, fındıq, xurma, çəltik, barama, pambıq, tütün və südlük repraduktor istiqamətli cins maldarlığın inkişafına qoyulması, həmin sahələrin səmərəli inkişafına öz müsbət təsirini göstərmiş və aqrar sahənin ümumi məhsulu artaraq 5,5 milyard manata yüksəlmişdir. [3]

Apardığımız təhlil və müqayisələrdən belə bir fikrə gəlmək olur ki, sahibkarlıq fəaliyyətində risklərin idarə olunması və biznesin iqtisadi təhlükəsizliyi, sahibkardan asılı olan və ondan asılı olmayan səbəblərdən yaranır. Lakin insan amili-sahibkar obyektiv və subyektiv səbəbləri dərindən araşdırmağı bacarmalı və riskin təbii xarakterindən asılı olaraq, gözlənilən riskə qarşı, riskin idarə olunması prinsipləri və üsullarından istifadə etməklə, riskin yumşaldılmasına nail olmalıdır.

**Ədəbiyyat**


1. "Prezident İ.Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclas. "Respublika"qəzeti 11 yanvar 2018-ci il.
2. "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfrans". Respublika qəzeti. 30 yanvar 2018-ci il.
3. "Azərbaycanın Kənd Təsərrüfatı." Azərbaycan Dövlət Statistika Komitəsi. Bakı, 2017-ci il.
4. Rzayev İ.B., Hüseynov N.Q., Rzayeva Ü.İ. Kənd təsərrüfatı istehsalının təşkili. Gəncə: ADAU nəşriyyatı, 2011.


**Резюме**


***Рзаев И.Б., Рзаева У. И.***


**Управление рисками в аграрном предпринимательства как гарант экономической безопасности бизнеса**


*В статье говорится что экономическая безопасности бизнеса в аграрном секторе зависит о умения управления рисками, то есть от умения распределять риск по нужным отраслям.*



***Ключевые слова:*** *риск, методы измерения рисков, прибыли, убытки статистический метод, экспериментальный метод распределения риска, передача риска*


**Summary**


***Rzayev I.B., Rzayeva U.I.***


**Risk Management in Agrarian Business as a Guarantor of Economic Security of Business**


*The article says that the economic security of business in the agricultural sector depends on the ability to manage risks, that is, from the ability to distribute risk to the right industries.*



***Key words:*** *risk, risk measurement methods, profit, losses statistical method, experimental method of risk distribution, risk transfer*

## AZƏRBAYCANDA E-BƏLƏDİYYƏ XİDMƏTLƏRİNDƏN İSTİFADƏNİN MÖVCUD VƏZİYYƏTİ

**Salayev E.A.**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Xülasə**

*Tədqiqatda işində yerli özünüidarəetmənin müasir təşkilatlanmasının strukturu təhlil edilmişdir. Bələdiyyələrin öz fəaliyyətlərinin səmərəli təşkili üçün elektron xidmətin qarşısına çıxan gözlənilən və gözlənilməyən problemlərə diqqət yetirilmişdir. Postsənaye cəmiyyətinin qurulmasında mövcud atributlardan biri kimi elektron bələdiyyə xidməti, onun istifadəçilərinin təbəqələşməsi və fəaliyyət aktivliyi tədqiqatda əsaslandırılmışdır. Tədqiqatın elmi yeniliyi kimi tədqiqat çərçivəsində nümayiş edilən şəkillərdə əks olunan internet istifadəçilərinin yaş və dil tərkibinə görə dəyişkənliyini, sayt ziyarətçilərinin sayının artım və azalma tendensiyalarını göstərmək olar.*

Bələdiyyə özünüidarəetməsi dedikdə ölkənin bu və ya digər inzibati-ərazi vahidinin əhalisini bilavasitə təmsil edən xüsusi seçkili orqanlar tərəfindən həyata keçirilən yerli məsələlərin idarəetmə sistemi nəzərdə tutulur[1,səh.9]. Müasir dövrdə yerli özünüidarəetmənin səmərəli fəaliyyətinin təşkili elektron xidmətlərin göstərilməsidən keçir. Bu istiqamətdə dövlət idarəçiliyinin beynəlxalq səviyyələrə uyğunlaşmasında atılan atdımlardan biri elektron hökumət portallarının səmərəli istifadəsinin təşkil edilməsidir. Hal-hazırda respublikada bələdiyyə qurumları öz fəaliyyətlərini daha təkmil formada təklif etmək üçün veb-portallardan istifadəyə ehtiyac vardır. Mövcud bələdiyyə saytlarından ən məhşurlarına nəzər saldıqda ölkədə e-belediyye.gov.az və belediyye.infonun fəaliyyətə başlaması müvafiq olaraq 2013-cü və 2015-ci illərə təsadüf edir. Saytlarda bələdiyyələrə dair geniş məlumatların əks etdirilməsi daha geniş müşahidə edilir.

İnformasiya məkanı müasirlik problemlərinin həllinin açarı olduğu halda, elektron bələdiyyələrin qurulması hələ ki lazımi səmərəni vermir. Qeyd olunan problemlərin həlli bölgə və ölkə miqyasında inteqrasiya edilmiş vahid informasiya məkanının yaradılması ilə şərtlənir[2]. Bu qisimdən problemə baxış etdikdə yerli özünüidarəetmələri fəaliyyətinin təkmilləşdirilməsi istiqamətdə yeniliklərə ehtiyac vardır. Araşdırılan mövzu ətrafında elektron bələdiyyə xidmətləri internet üzərindən yerinə yetirilməklə, bələdiyyənin iş saatlarında bələdiyyə idarəsinə gələ bilməyən, vaxt imkanları məhdud olan məşğul əhaliyə vaxta qənaət etməyə imkan verəcəkdir. Bu xidmətlər sayəsində bələdiyyə binasının həm fiziki sıxlığı, həm də iş yükü azalır, məsrəflərə daha az vəsaitlər sərf ediləcəkdir.

Respublikamız internet məkanına yenicə inteqrasiya etməyə başlamışdır. Yerli özünüidarəetmədə xidmətin təklifi qarşı tərəfin bu xidmətdən istifadə etmək bacarığından da asılıdır. Başqa sözlə, elektron xidmətlərin təklifi üçün vətəndaşların internetə çıxışının mümkün olması və elektron informasiyadan istifadə edərək yararlanmaq səriştəsi olmalıdır. Əhalinin 2002-2016-cı illəri əhatə edən internetdən istifadə reytinq göstəriciləri aşağıdakı diaqramda öz əksini tapır (Şəkil 1,).




*Mənbə : https://www.azstat.org/MESearch/details*

Şəkil 1. Ümumi əhalinin hər 100 nəfərinə düşən internet istifadəçilərinin payı.

Şəkil 1-dən aydın müşahidə etmək olar ki, 2005-ci ildə əhali arasında internet istifadəçilərinin böyük qismini 55,6 faizlə 15-24 yaş aralığında şəxslər təşkil etmişdir. Ümumilikdə internetdən istifadəçilərinin çoxluğu bu yaş aralığına təsadüf edir.

Dünya təcrübəsində elektron bələdiyyənin fəaliyyəti bələdiyyə saytlarında statik olaraq dərc edilən bütün növ elanları əhatə edir. Bundan əlavə, bəzi beynəlxalq dərclərdə yalnız yüklənə bilən formalar, elektron idarəetmə mülkiyyəti, idarəetmə əməliyyatlarının hazırkı statusu, onlayn vergi ödəmələri və onlayn vətəndaş iştirakı elektron bələdiyyə xidmətləri kimi təsnifatlandırılır. Elektron bələdiyyə, bələdiyyə saytları vasitəsilə həyata keçirilə bilən ödəniş və borc sorğuları kimi dinamik məlumatlar bazası kimi müəyyən edilə bilər. Dünya alimlərinin tədqiqatlarında elektron bələdiyyənin tərifi "təsisatın daxili və xarici bölmələrilə əlaqədə olan proqram" və "xidmət göstərilməsinin və şəffaflığın əsası" kimi təsvir edilir. Şəhər bələdçiliyi, daşınmaz əmlak, yol və sanitar qovşaqları barədə nişanlar, eləcə də ödənişlərə dair elektron bələdiyyə tətbiqləri əhali arasında geniş populyarlıq qazanmışdır. Adı çəkilən tətbiqlər 7/24 xidmət göstərməklə, əhaliyə vaxta, bələdiyyələrə isə resurslara qənaət etmək və daha səmərəli və sürətli xidmət təmin etmək imkanı verir.

Respublikada e-bələdiyyə xidmətlərinin göstərilməsində e-belediyye.gov.az saytının təhlilinə nəzər salaq. Saytın ziyarətçilərinin dil bölgüsü aşağıdakı kimi təsvir edilmişdir (Şəkil 2,) .




*Mənbə: https://ru.semrush.com/az/info/e-belediyye.gov.az?*

Şəkil 2. Sayt ziyarətçilərinin dillər üzrə bölgü nisbəti.

80-ci illərin sonlarında dünya şöhrətli filosof O.Toffler göstərirdi ki, ümumbəşəri dəyərlərdə mühüm dəyişikliklər, eləcə də bilik və informasiyaların tətbiqini geniş vüsət alması nəticəsində idarəetmə fəaliyyəti yeni dövrə qədəm qoymuşdur [5,səh.109]. Yuxarıdakı şəkil 2-dən məlum olur ki, sayt istifadəçilərinin böyük hissəsi azərbaycandilli şəxslərdir. Belə vəziyyət ondan irəli gəlir ki, digər dillərdə danışan istifadəçilərin azlığı və ya saytın həmin dillərdə təqdim olunan interfeysinin keyfiyyətinin aşağı olması ehtimal edilə bilər.

Saytın ziyarətçilərinin yaş qrupları üzrə bölgüsünə aşağıdakı şəkildə diqqət yetirək (Şəkil 3,).




*Mənbə: https://adwords.google.com/da/DisplayPlanner/Home?__c=3053918557&__u=5700451009&authuser=0&__o=cues#results*

Şəkil 3. Saytın istifadəçiləri arasında yaş qruplarının faiz nisbəti.

Şəkil 3-də öz əksini tapan yaş qrupları bölgüsündən aydın nəzərə çarpır ki, saytın ziyarətçiləri arasında 25-34 yaş aralığında şəxslər üstünlük təşkil edir. İnternet istifadəçiləri arasında müasir idarəetmədə sosial adaptasiyanı öncül qavrayan gənclərin yeniliyə meylli olmaları bu fenomenin əsas səbəbi qismində çıxış edir. Faizlərin ümumi hesablanmasına diqqət yetirdikdə müxtəlif yaş təbəqələrini birləşdirən vətəndaşlar da

vardır ki, 14% təşkil edən həmin şəxsləri naməlum qrupa şamil etmək olar. Naməlum qrup eyni qurğudan internetə daxil olan müxtəlif internet istifadəçilərinin dəqiq bilinməyən qismidir. Saytın ziyarətçi axınlarının artımına təsirini saytın çevik informasiya ötürmək qabiliyyətilə, zəruri tələbləri yerinə yetirməsini, həmçinin bələdiyyə təmsilçilərinin iş vaxtı imkanları da əsas amil kimi əhəmiyyətlidir. Saytın interfeysinə nəzər saldıqda aşağıdakı problemlər gözə çarpır.

- saytda müasir innovativ yeniliklərin çatışmazlığı;
- struktur ixtisaslaşmada təşkilati bölmələrin yaradılması;
- müvafiq sahə və obyektlərdə koordinasiyalı idarəetmənin qurulmaması;
- layihələndirmə, informasiya-kommunikasiya, yeni məhsulların istehsalı istiqamətində dəstəkləyici sektorun yaradılması;
- ərazi üzrə sahibkarların fəaliyyətinə dəstək üçün bazar göstəricilərinin marketinq və rəqabət problemlərini işıqlandıran guşənin olmaması.
- əhalinin əmək qabiliyyətliliyinin təmin edilməsi üçün məşğulluq problemlərinin əlaqələndirilməsi;
- vətəndaşların sosial-iqtisadi münasibətlərinin tənzimlənməsində ekspert-konsaltinq xidmətlərinin göstərilməsində dəstəkləyici davranışın olmaması və s.

Tədqiqatlar göstərir ki, ayrı-ayrı insan qrupları arasında kompüter və internet texnologiyalarından istifadə imkanlarında fərqliliyi tədqiq edən alimlər rəqəmsal bərabərsizlik və ya rəqəmsal bölünmə terminlərini ortaya çıxarmışdır ki, texnologiyaların inkişafı qaşısında duran bu böyük maneə aradan qaldırıldığı təqdirdə elektron bələdiyyə tətbiqlərini geniş surətdə təklif etmək mümkün olacaqdır. Bu ehtiyatlardan istifadə imkanlarını elektron hökumət adaptasiyasına təsir göstərən ən mühüm amillərdən biri kimi müəyyən etmək olar.

Sözügedən problemin həlli üçün informasiya mübadiləsinin format və protokollarını bələdiyyə sistemi standartlarına uyğunlaşdırmaq olar.

**Ədəbiyyat**


1. Səlimzadə M., Xəlilov Q.Yerli özünüidarəetmə: anlayış, təcrübə, əməkdaşlıq, hüquqi əsaslar, Bakı, 2010.
2. https://www.hse.ru/news/1163613/1093456.html
3. https://www.azstat.org/MESearch/details
4. https://ru.semrush.com/az/info/e-belediyye.gov.az?
5. İsmayılov G.İ. İnformasiya İqtisadiyyatı (dərslik), Bakı, 2010
6. adwords.google.com/da/DisplayPlanner/Home?__c=3053918557&__u=5700451009&authuser=0&__o=cues#results


**Резюме**


***Салаев Э.А.***

*Азербайджанский государственный экономический университет (UNEC)*


**Нынешнее положение использования услуг электронного муниципалитета в Азербайджане**


*В рамках исследования была проанализирована структура современной организованности местного самоуправления. Внимание было сфокусировано на предсказуемых и непредсказуемых проблемах, появляющихся перед электронным сервисом, для эффективной организации функционирования муниципалитетов. В данной работе были обоснованы электронные муниципальные услуги, распределение их пользователей по классам и активность их деятельности как один из сложившихся атрибутов становления постиндустриального общества. Разнообразие интернет-пользователей по возрасту, языкам, также тенденции роста и сокращения количества посетителей официального веб-сайта муниципалитетов, отображаемые в рисунках, представленных в рамках исследования, могут быть приведены в качестве научной новизны исследования.*



***Ключевые слова:*** *электронные услуги, интернет-пользователи, внедрение электронного сервиса, деятельность муниципалитетов.*


**Summary**


***Salayev E.A.***

*Azerbaijan State Economic University (UNEC)*


**The Current Status of the Use of E-Municipality Services in Azerbaijan**


*The structure of modern organization of local self-government has been analyzed within the framework of the research. Attention was concentrated on the predictable and unpredictable problems, arising regarding to electronic services, with the aim of effectively organizing the operation of*

*municipalities. In this research, the electronic municipal service, the dispersion of its users by classes, and the activity of its performance as one of the established attributes of the formation of a postindustrial society were substantiated. The diversity of Internet users by age, language, as well as the growth and reduction trends in the number of visitors to the official web-site of municipalities, displayed in the figures presented in the study can be cited as a scientific novelty of the study.*
***Key words:*** *electronic services, internet users, introduction of electronic services, the activities of municipalities.*

## KƏND TƏSƏRRÜFATINDA İNNOVASİYA FƏALİYYƏTİNİN FORMALAŞMASI İSTİQAMƏTLƏRİ

***Seyidova S.R., Niftəliyeva A. Q.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Müasir dövrdə kənd təsərrüfatının inkişafının tədqiqi elmi-praktiki nöqteyi-nəzərdən aktual məsələlərdən biridir. Onun xüsusiyyətləri, inkişaf istiqamətləri neftsiz iqtisadiyyatın müqavimətini yaxşılaşdırmaq istiqamətində tədbirlər həyata keçirməyə və mənfi sosial-iqtisadi nəticələri azaltmağa imkan verir. Bu istiqamətdə kənd təsərrüfatı sahələrinin araşdırılması məqalədə mühüm vəzifə kimi qarşıya qoyulmuşdur.*
***Açar sözlər:*** *kənd təsərrüfatı, innovasiya, innovasiya siyasəti, texnoloji risklər, istehsal prosesi*

Yeni innovasiya siyasəti kənd təsərrüfatının davamlı inkişafı üçün həlledici əhəmiyyət kəsb etməlidir. Elmi-texniki nailiyyətlərdən istifadənin səmərəsinin artırılması bu siyasətin əsasına çevrilməkdədir. Məlum həqiqətdir ki, elmi cəhətdən əsaslandırılmış və tarazlaşdırılmış innovasiya siyasəti, onun elmi, resurs, təşkilati və informasiya təminatının reallaşdırılmasından ibarət sistemli prinsipə riayət edilməsə, kənd təsərrüfatı istehsalının rentabelliyinin artırılması problemini həli etmək mümkün deyil. İnnovasiya prosesinin optimallaşdırılması və innovasiyanın istehlakçılara çatdırılması, vasitələrinin yaradılması milli əhəmiyyət kəsb edən dövlət probleminə çevrilməlidir.

Təhlil nəticəsində müəyyən edilmişdir [1] ki, Azərbaycanda kənd təsərrüfatında innovasiyaların prioritet istiqamətləri aşağıdakılar hesab edilməlidir:

- istehsal prosesində təşkilati iqtisadi münasibətlərin təkmilləşdirilməsi;
- istehsalın və idarəetmənin təşkilinin perspektivli formalarının tətbiq edilməsi;
- kadrların hazırlanması, onların ixtisasın artırılması və əməyin motivləşdirilməsi sisteminin təkmilləşdirilməsi;
- məhsulun satışı sisteminin təkmilləşdirilməsi;
- maliyyə-kredit mexanizminin, vergi sisteminin və kənd təsərrüfatı məhsullarının qiymət yaranma prinsiplərinin təkmilləşdirilməsi;
- məhsuldarlığın artırılması və məhsulun keyfiyyətinin yaxşılaşdırılması;
- ekoloji təmiz kənd təsərrüfatı məhsul istehsalının qurulması;
- bitkiçilik və heyvandarlıq məhsulları istehsalının yüksək adaptiv resursqoruyucu texnologiyalarının mənimsənilməsi;
- əmək və material məsrəflərinə qənaət edilməsi;
- kənd təsərrüfatı heyvanlarının və quşlarmın seleksion-genetik potensialımn təkmilləşdirilməsi;
- yem ehtiyatlarından səmərəli istifadə edilməsi;
- kənd təsərrüfatı texnikasından istifadə edilməsinin kooperativ üsullarının təşkil edilməsi;
- təmir-bərpa bazasının və texniki servisin intensiv inkişafı.

Beləliklə, iqtisadiyyatın aqrar sektorunda islahatlar nəticəsində əsas subyektləri və elmi-texniki məhsulların istehlakçıları iri kənd təsərrüfatı müəssisələri və birlikləri olan çoxukladlı iqtisadiyyat formalaşmışdır. Kənd təsərrüfatında innovasiya fəaiiyyətinin əsas subyektləri elmi təşkilatlar, informasiya və tətbiq qurumları, istehsal strukturlarıdır. İnnovasiya prosesində idarəetmə orqanları, təhsil müəssisələri və investorlar iştirak edir. Əgər müəssisələrdə istehsalın təşkili və idarəedilməsi müasir təiəblərə cavab verə bilmirsə, onda onun innovasiyaları mənimsəmə imkanları da aşağı olacaqdır. Başqa, sözlə, innovasiyanın mənimsənilməsinin prioritet istiqaməti kimi ilk növbədə müəssisələrin rəqabətlilik qabiliyyətinin yüksəldilməsini təmin edən innovasiyaların seçilməsi ön plana çəkilməlidir [2].

Müəssisələrin, o cümlədən aqrar sahə müəssisələrinin rəqabətlilik qabiliyyətinin yüksəldilməsində ən vacib şərtlərdən biri müəssisələrdə mütəmadi olaraq istehsal texnikasının, texnologiyasının təkmilləşdirilməsi və modernləşdirilməsidir. Bu isə öz növbəsində yeni texnika və texnologiya üçün investisiya qoyuluşunu tələb edir. Bir sıra iqtisadçıların fıkrincə, əmək məhsuldarlığının yüksəldilməsində yeni maşın və avadanlıqlara investisiyanın yönəldilməsi ən vacib şərtlərdən biridir.

Bütün bu qeyd edilənlər aqrar sahə müəssisələrində də prinsipcə öz həllini tapmalıdır. Aparılan tədqiqatları ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, Azərbaycan Respublikasının kənd təsərrüfatında innovasiya fəaliyyətinin genişləndirilməsi üçün zəruri amillər aşağıdakılardır:

- iqtisadiyyatın aqrar sektorunda innovasiyaların inkişafının dövlət tərəfindən dəstəklənməsi;
- kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə baxımından sağlamlaşdırılması və dəstəklənməsi üçün hökumət tərəfindən görülən tədbirlərin əhatə dairəsinin genişləndirilməsi;
- kənd təsərrüfatı istehsalının rentabelliyinin və iqtisadi səmərəliliyinin artırılması meylləri;
- potensial innovasiya fəaliyyəti ilə məşğul olan iri kənd təsərrüfatı müəssisələrinin üstünlük təşkil etməsi, kooperativ birliklərinin yaradılması və iri investisiya qurumları ilə kiçik sahibkarlıq subyektlərinin fəaliyyətlərinin əlaqəli şəkildə aparılmasının təmin edilməsi.

**Ədəbiyyat**

1. Əbülfəz Qasımov Ə. Aqrar - sənaye müəssisələrinin iqtisadiyyatı və idarəedil-məsi. Bakı, 2005.
2. Məmmədov C. Aqrar bölmədə maddi-texniki təminat və xidmət işinin təşkili. Bakı, 2004.

**Резюме**

***Сеидова С. Р., Нифталиева А. Г.***

**Формирование инновационной деятельности в сельском хозяйстве**

*Развитие аграрного сектора как крупнейшей отрасли экономики служит существенной задачей в деле устранения зависимости азербайджанской экономики от нефтяного сектора. Для развития аграрной отрасли Азербайджанской Республики необходима переориентация этой отрасли в развитие инновационной направленности.*

***Ключевые слова:*** *сельское хозяйство, инновации, инновационная политика, технологические риски , производственный процесс*

**Summary**

***Seyidova S.R. Niftaliyeva A.G.***

**Directions of Formation of Innovative Activity in Agriculture**

*The development of the agricultural sector as the largest sector of the economy is an essential task in removing dependence of Azerbaijan's economy on the oil sector. For the development of the agrarian sector in the Azerbaijan Republic reorientation of the industry is needed in the development of innovative orientation.*

***Key words:*** *agriculture, innovation, innovation policy, technological risks, the manufacturing process*

## LİZİNQİN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ VƏ AQRAR SEKTORDA ONUN TƏTBİQİ MEXANİZMİ

***Səfərova G.M.***

**Xülasə**

*Məqalədə müəllif lizinqin iqtisadi inkişafda zəruriliyini əsaslandırmış, lizinqi iqtisadi inkişafın təmin edilməsində istifadə edilən maliyyə mexanizmi kimi dəyərləndirmişdir. Lizinqin funksiyaları izah olunmuş, hər bir funksiyanın rolu açıqlanmışdır. Lizinqin xarakterik xüsusiyyətləri müəyyən edilmiş və aqrar sektorda lizinq mexanizminin mahiyyəti izah olunmuşdur. Eyni zamanda məqalədə lizinqverənlərin qrupları müəyyən edilmiş və onların qısa xarakteristikası verilmişdir.*

***Açar sözlər:*** *lizinq, lizinqin funksiyaları, lizinqin xarakterik xüsusiyyətləri, lizinq mexanizmi*

Lizinq iqtisadi inkişafın müasir mərhələsində iqtisadiyyatın bütün sahələrində və xüsusən də real sektorda geniş tətbiq olunmaqdadır. İqtisadiyyatın müxtəlif sahələrində tətbiq olunmasına baxmayaraq, lizinq ümumi xarakterik cəhətlərə malikdir.

Məlum olduğu kimi iqtisadiyyatın hər bir sahəsində inkişafı təmin etmək üçün müxtəlif maliyyə alətlərindən istifadə edilir. Belə maliyyə alətlərindən biri də lizinqdir. Bu maliyyə alətinin xarakterik xüsusiyyətləri bir çox parametrlərdən asılıdır. Bu lizinq xidməti yönəldilən vəsaitin mənbəyindən, lizinqin daxili və ya beynəlxalq xarakterdə olmasından, lizinq haqqının tərkibindən, əməliyyatda iştirak edən subyektlərin iştirakından asılı olaraq, aşağıdakı özünəməxsus, xarakterik formada həyata keçirilə bilər:

**a) Birinci xarakterik forma:** Lizinq xidmətinin reallaşdırılması üçün yönəldilən vəsaitin mənbəyinə görə; belə mənbələr aşağıdakılar ola bilər:

- Lizinq müəssisəsinin xüsusi vəsaitləri hesabına keçirilən xidmət;
- Lizinq müəssisəsinin xüsusi vəsaiti və digər təşkilatlardan cəlb edilmiş və bu əsasda yaradılmış birgə, ortaq kapital hesabına həyata keçirilən xidmət (birgə, ortaq kapital yaradılarkən burada lizinq təşkilatının öz vəsaiti ümumi kapitalın 30%-dən az olmamalıdır);

**b) İkinci xarakterik forma:** lizinq haqqının tərkibinə görə:

- Lizinq prosesində istifadə edilən əmlakın satınalma dəyəri, digər xidmət xərcləri, habelə lizinq müəssisəsinin mənfəəti daxil olmaqla lizinq haqqı ödənilən xidmət

- Əmlakın satınalma dəyəri və lizinq təşkilatının mənfəəti daxil edilməklə lizinq haqqı ödənilən xidmət;

**v)üçüncü xarakterik forma:** lizinq sövdələşməsi subyektlərinin iştirakına görə:

- Satıcı, lizinq təşkilatı və icarəçidən ibarət üç tərəfin iştirakı vasitəsilə həyata keçirilən lizinq xidməti;

- Təcrübəyə daimi olaraq deyil, bəzən iki tərəfin iştirakı ilə həyata keçirilən lizinq xidməti. Belə lizinq xidməti o zaman həyata keçirilir ki, maliyyə vəsaitlərinə dərin ehtiyac duyan təşkilat, idarə və ya hər hansı bir qurum öz mülkiyyətində olan əmlakı lizinq müəssisəsinə sataraq həmin əmlakı yenidən lizinqə götürür.

Respublikamızda aqrar sektorda formalaşmış meyillərə və mövcud qanunvericilikdə öz əksini tapmış qaydalara görə, lizinq müqaviləsi obyekti olaraq dəzgahlar, qurğular, avadanlıqlar, nəqliyyat vasitələri, müxtəlif təyinatlı texnikalar, istehsal təyinatlı binalar və s. qəbul edilə bilər. Çünki sadalanan bütün əmlak növlərinə aqrar sektorda həmişə ehtiyac yaranır.

Beynəlxalq təcrübəyə əsaslanan, demək olar ki, "Əsas fondlara" aid edilən istənilən daşınan və daşınmaz" əmlak lizinq obyekti ola bilməz. Dünyanın əksər ölkələrində, o cümlədən Azərbaycan Respublikasında da, lizinq obyekti olaraq daha çox nəqliyyat vasitələri, maşın və avadanlıqlar, qurğular, rabitə vasitələri, hesablama texnikası və s. istifadə olunur [3, səh.115]. Bir qayda olaraq çoxşaxəli və çoxməqsədli iqtisadiyyatda lizinq bir neçə mühüm funksiyalar yerinə yetirir ki, bu da onun xarakterik xüsusiyyətlərindən irəli gəlir: bu funksiyalar aşağıdakılardan ibarətdir:

**Birinci mühüm funksiya** onda ibarətdir ki, lizinq aqrar sektorda əsas fondlara vəsait qoyuluşunun bir forması kimi çıxış edir. Bu funksiyanı reallaşdırarkən lizinq əməliyyatları istehsalı investisiya qoyuluşunun maliyyələşdirilməsi kimi klassik formanı tamamlamış olur. Yəni lizinqalan lizinq müqaviləsi əsasında böyük məbləğdə xüsusi və borc vəsaitlərin, birdəfəlik qoymadan ona lazım olan texnika, qurğu, avadanlıq, maşın mexanizmi və s. əldə edir. Məhz bu xarakterik xüsusiyyətinə görə lizinq əmlakın adi alqı-satqı prosesindən fərqlənir.

**İkinci mühüm funksiya** ondan ibarətdir ki, müasir dövrdə lizinq istehsalın maddi-texniki təminatının proqressiv üsulu kimi çıxış edir. Bu funksiya yolu ilə texnikadan onun mənəvi cəhətdən hələ köhnəlmədiyi dövrdə səmərəli istifadə etməyə imkan yaradır. Bu funksiya daha böyük səmərəni çox baha, qiymətli maşın və mexanizmlər, mənəvi köhnəlmə riski yüksək elektron hesablama texnikası, kommunikasiya vasitələri və s. istifadə edilərkən verə bilir (1, s.301).

**Üçüncü mühüm funksiya** ölkə iqtisadiyyatında kənd təsərrüfatı və emal sənayesi sahəsində fəaliyyət göstərən, istifadə edilən istehsal vasitələrinə mövsümi tələbatın ödənilməsi və hazır məhsulların daşınmasının zəruri bazarlara çatdırılmasının təmin edilməsi ilə bağlıdır. Qeyd edilən vəziyyətdə lizinq əmlakından istifadə edənlər onlara yalnız mövsümi xarakterdən asılı olaraq, müəyyən bir dövrdə lazım olan texnikanın əldə olunmasına qısamüddətli vəsait yatırırlar ki, bu da çox böyük məbləğ təşkil etmir.

Hər üç funksiyanı nəzərdən keçirərək belə bir nəticəyə gəlmək olar ki, lizinq iqtisadiyyatın bütün sahələrində mühüm, zəruri təsərrüfat əməliyyatlarının həllində əsas rol oynayır.

Aqrar sektorda lizinqin təşkilində müxtəlif tərəflər – hüquqi və fiziki şəxslər iştirak edirlər. Onlar lizinqverənlərdən, lizinqalanlardan və lizinq əmlakını götürənlərdən ibarət olur. Formalaşmış olan meyil və qaydalara əsasən lizinq əməliyyatında iştirak edən hər bir iştirakçının ayrı-ayrı vəzifələri mövcuddur.

Dünyanın inkişaf etmiş ölkələrinin lizinq təcrübəsi göstərir ki, aqrar sektorda lizinqverənlərin aşağıdakı qrupları mövcuddur (şəkil 1).




**Şəkil 1. Lizinqverənlərin qrupları** *Mənbə:[ 1, s.302]*

**Birinci qrup lizinqverənlər**: Bu qrupa banklar, onların xüsui şöbə və bölmələri, digər maliyyə-kredit müəssisələri aiddir. Adları sadalanan təşkilatlar lizinq əməliyyatları ilə yalnız o vaxt məşğul ola bilərlər ki, bu fəaliyyət növünün icrası onların nizamnaməsində öz əksini tapmış olsun (1, s.302)

**İkinci qrup lizinqverənlər**: Bu qrupa lizinq əməliyyatları ilə məşğul olan səhmdar cəmiyyətləri və ya digər təşkilati-hüquqi formada təşkil olunan, kommersiya strukturu, təşkilati kimi fəaliyyət göstərən, özünün təsis sənədlərinə və fəaliyyət lisenziyasına görə eyni adla əməliyyatları yerinə yetirən şirkətlər aid edilir. Belə şirkətlərin təsisçiləri həm hüquqi, həm də fiziki şəxslər ola bilərlər. İkinci qrup lizinqverənlər üç formada təşkil olunurlar: maliyyə lizinq şirkətləri; ixtisaslaşmış lizinq şirkətləri; broker lizinq şirkətləri.

**Üçüncü qrup lizinqverənlər**: Bu qrupa lizinq əməliyyatlarını maliyyələşdirmək mənbələrinə malik olan istənilən firma, şirkət, müəssisə və təşkilatların bölmələri, şöbə və idarələri aid edilir. Belə bölmələr öz əsas fəaliyyətləri ilə yanaşı, həm də lizinq əməliyyatları ilə məşğul olurlar. Beynəlxalq təcrübədə formalaşmış qaydalara görə, belə bölmələr satışı stimullaşdırmaq üçün avadanlıq istehsal edən iri istehsalçılar tərəfindən təşkil olunur.

Lizinqdən səmərəli istifadə olunması üçün onun təşkilinin norma və qaydalara uyğun olması zəruridir.

Lizinq xidmətinin düzgün təşkili üçün bağlanan müqavilələrin düzgün tərtibi mühüm amildir. Lizinq müqaviləsi üç tərəfin qarşılıqlı fəaliyyətini nəzərdə tutur: istehsalçı, lizinqverən və istifadəçi. Real razılaşmalarda iştirakçıların sayı daha geniş ola bilər. Yazılı formada bağlanan lizinq müqaviləsində aşağıda qeyd olunanların göstərilməsi vacibdir: Müqavilənin adında lizinq forması; lizinqə verilən obyektin əhatəli təsviri; hüquqlar; lizinq obyektinin verilmə yeri və qaydası; müqavilənin müddəti; lizinq obyektinin balans uçotuna alınma qaydaları lizinq obyektinin saxlanılması və təmir edilməsi şərtləri; lizinq müqaviləsinin əsasında göstəriləcək əlavə xidmətlər; lizinqlə bağlı ödənişlərin, eləcə də lizinqverənə ödəniləcək mükafatın həcmi; hesablaşma qaydalarını göstərən lizinq ödənişlərinin cədvəli; müqavilə müddətindən əvvəl icra olunduqda ödənişlərin hesablanması qaydası; tərəflərin lizinq obyektinin risklərdən sığorta olunması (2, səh.309)

Lizinq alqı-satqı və adi kreditlə müqayisədə üstünlüklərə malikdir. Lizinqverən yalnız lizinq müqaviləsinin reallaşmasından alınan gəlir vergisinə görə yox, həmçinin lizinq xidmətlərindən əlavə dəyər vergisinə görə güzəştli şərtlərlə vergiyə cəlb edilir.

Amortizasiya və vergi güzəştlərinin mövcudluğu lizinqverənin lizinqalanla lizinq müqaviləsinin qarşılıqlı güzəştli şərtlərlə bağlanmasına imkan verir. Bu güzəştlər lizinq ödəmələrinin dərəcəsinin azalması və onun ödənişi qrafikinin əlverişli şərtlərlə müəyyənləşdirilməsi yolu ilə reallaşdırılır.

Əmlak formasında investisiya qoyma kreditdən fərqli olaraq vəsaitin qayıtma riskini azaldır, belə ki, lızinqverənin verilən əmlaka mülkiyyət hüququ qorunur.

Lizinqverən üçün bu fəal marketinqin yeni vasitəsindən istifadənin mümkünlüyüdür. Bəzən lizinqverən və istehsalçının birgə faydalı əməkdaşlığı olur. İstehsalçı öz məhsullarının satış sərhədlərini genişləndirməklə ticarət şəbəkəsinə istifadə hüququ verir. Belə qarşılıqlı əlaqə «sales aid» adlanır. Təcrübə göstərir ki, lizinqverən və onun vasitəsilə istehsalçı aşağıdakılara imkan qazanır:

- avadanlığın son istifadəçisi ilə əks-əlaqə kanalı qurur;

- öz məhsulunun satışı üçün əlavə imkanlar əldə edir;
- pulun vaxtında ödənilməməsi riski azalır, yəni lizinq şirkəti zəmanəti öz öhdəsinə götürür;
- məhsulun yeniləşmə tempi sürətlənir;
-istifadə olunmayan avadanlıqdan azad olur;
- əlverişli hesablaşma forması tətbiq olunur;
- köməkçi avadanlıqlar hesabına satışın həcmini artırmaq və s.

İstifadəçi (lizinqalan) lizinq əməliyyatına görə aşağıdakı əsaslı üstünlükləri əldə edir:

- Maliyyə vəsaiti cəlb etmədən istehsalı yeni və yüksək texnologiyalı avadanlıqlarla təchiz etmək (maliyyə çətinliyi olan subyektlər üçün bu xüsusilə aktualdır);
- lizinq bank kreditləri ilə müqayisədə daha əlverişli olduğuna görə iqtisadi cəhətdən səmərəlidir, belə ki, lizinqə görə ödəməni istehsal xərclərinə daxil etmək və beləliklə, gəlirə görə verginin azalması hesabına lizinqalanın ödədiyi vergiyə yönəldilən məbləği azaltmaq olar;
- müqavilədə nəzərdə tutulmuş ödəmə şərtlərinin, hesablaşmanın forma və sisteminin çevikliyi. Lizinqin çevikliyi dedikdə lizinqalan və lizinqverənin ayrılıqda götürülmüş hər bir maliyyə icarə müqaviləsinin konkret şərtləri barədə razılaşması başa düşülür. Məsələn, bəzən avadanlığı qısamüddətə lizinqlə götürmək lazım gəlir, bu halda lizinq şirkətləri qısamüddətli kontraktlar tərtib edirlər. Bəzən isə əksinə, uzun müddətə bağlanmış lizinq müqaviləsinə ehtiyac olur. Bu amil lizinqalan üçün olduqca vacibdir, çünki, bazar şəraitində işləyən şirkətlər öz işlərini həmişə vəziyyətdən asılı olaraq qurmalı olurlar;
- lizinqin növbəti üstünlüyü onunla izah olunur ki, maliyyə icarəsi bank kreditinə nisbətən əsas vəsaitlərin əldə olunmasının daha əlverişli mexanizmidir. Belə ki, lizinqlə verilən əmlak girov hesab olunur;
- mənəvi və fiziki aşınma, eləcə də əmlakın köhnəlməsi riski lizinqalan üçün azalır, çünki əmlak mülkiyyətə verilmir, müvəqqəti istifadəyə götürülür;
- maliyyə lizinqi vasitəsilə verilən əmlak lizinqalanın balansında olmadığına görə onun aktivlərini artırmır və onu əmlaka görə vergi ödəməkdən azad edir;
- lizinq ödəmələri lizinqalanın istehsal xərclərinə aiddir və müvafiq olaraq vergiyə yönəldilən gəliri aşağı salır və s.

Sadalanan bütün üstünlüklər obyektivdir və onlar lizinqlə maddi-texnik ehtiyatlar bazarının təşkilinin bir forması kimi bağlıdır.

Bir çox ölkələrdə lizinq "fəaliyyətinin fəal stimullaşdırılması dövründə onun iştirakçıları dövlət tərəfindən müxtəlif müvəqqəti güzəştlərdən istifadə etmək imkanları əldə etmişlər. Beynəlxalq Valyuta Fondunun qaydalarına görə beynəlxalq lizinq sazişlərinin məbləği Milli borc müəyyən olunarkən nəzərə alınmır və qiymətləndirmə göstəricilərini pisləşdirmir ki, bu da lizinq əməliyyatına görə istifadəçinin (lizinqalanın) üstünlüklərinə aid edilir. Bundan başqa, yeni texnologiyaların yaranmasına, məhsul istehsalı və xidmətin həcminin artmasına, istehsal gücünün genişlənməsinə kömək edən lizinq əməliyyatlarının aparılmasından əldə olunan ümumi iqtisadi səmərəliliyi də göstərmək olar (4, s.265).

Lizinq maliyyələşməsi elmi-texniki tərəqqinin faktorlarından biridir. Respublikamızın kənd təsərrüfatında lizinq kompaniyalarının yaradılmasına, texnikanın lizinqlə verilməsinin daha da inkişafına xüsusi əhəmiyyət verilir.

Regionlarda firmaların sıx əməkdaşlıq formalarından biri lizinq xətti üzrə razılaşmadır. Bu isə istifadəçiyə hər dəfə yeni müqavilə bağlamadan əlavə avadanlıq götürməyə imkan verir.

## Ədəbiyyat


1. Bağırov M.M. Banklar və bank əməliyyatları(Ali məktəblər üçün dərslik). Bakı: Nurlan, 2003, 512 s.
2. Əsədov Z.Ə. Azərbaycanda lizinq bazarı xidmətlərinin xüsusiyyətləri. Azərbaycan ETKTİ və Tİ-nun elmi əsərləri. Bakı, 2008, №4, s.307-310
3. Muradov R.A. Aqrar sahədə lizinqin həyata keçirilməsinin təşkilati hüquqi xüsusiyyətləri. Azərbaycan aqrar elmi. №6, 2009, s.113-117
4. Salamov S.B. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, Nurlan Poliqrafiya mərkəzi, 2004, 503 s.


## Резюме


***Сафарова Г.М.***


**Характеристики лизинга и его применение в аграрном секторе**


*В статье автор обосновал необходимость лизинга для экономического развития и оценил лизинг в качестве финансового механизма, используемого для обеспечения экономического развития. Объясняются лизинговые функции и роль каждой функции. Определены особенности лизинга и поясняется суть механизма лизинга в аграрном секторе. В то же время в статье указывается группа лизинговых компаний и их краткие характеристики.*

***Ключевые слова:*** *лизинг, лизинговые функции, лизинговые характеристики, лизинговый механизм*

**Summary**

***Safarova G.M.***

**Characteristic Features of Leasing and Applied Mechanism on Agrarian Sector**

*In the article, the author has substantiated the necessity of leasing in economic development and has evaluated leasing as a financial mechanism used to provide economic development. The role of each function has described in the leasing functions has explained. The specific features of leasing have identified and in the agrarian sector has explained the essence of the leasing mechanism At the same time, in the article have identified the group of leasing companies and is given their short characteristics*

***Keywords:*** *leasing, leasing functions, characteristic features of leasing, leasing mechanism*

## BİZNESİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİ

***Şirin A.N.***

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Xülasə**

*Müasir dövrdə elm və texnologiyanın sürətlə inkişaf etməsi, rəqabət mühitinin formalaşması və qloballaşma korporativ həyatın strukturunu və tempini dəyişdi. Bilik iqtisadiyyatına doğru dəyişiklik iş dünyasında artıq yeni təcrübələrə, korporativ idarəetmə və korporativ sosial məsuliyyət kimi digər sahələrdə müəssisələr ilə rəqabətetmə şəraitinə gətirib çıxartdı, habelə texnologiyanın inkişafı kommersiya sirlərinin yayılmasının qarşısının alınması və həmçinin informasiyanın asanlıqla ötürülməsi vəziyyətini yaratdı. Belə olan halda biznesin təhlükəsiz mühitdən uzaqlaşması qeyri-mümkündür və artıq dünya təcrübəsində biznes problemlərini həll etmək üçün müxtəlif bacarıq və təcrübələrə malik qruplar təşkil edilir, effektiv idarəetmə, şəbəkələr vasitəsilə təşkilat çərçivəsində müəyyən qədər "təhlükəsiz mühit" yaradılır. Bütün bunlara baxmayaraq, təhlükə riski hər zaman mövcuddur və mürəkkəb hal alıb.*

***Açar sözlər:*** *biznes , biznes təhlükəsizliyi, risk*

Biznes bazar iqtisadiyyatı şəraitində ən mühüm sahələrdən biridir. Uğurlu biznes mühitinə şərait yaranması, ilk növbədə, biznesin fəaliyyət göstərdiyi iqtisadiyyatın təhlükəsizliyinin qorunmasıdır. İqtisadi təhlükəsizliyə: texniki, informasiya, işçi, maliyyə, hüquqi, siyasi daxildir. Hal-hazırda dünyada bu problem aktual mövzulardandır, lakin ölkəmizdə bu kimi problemlər bir sıra iş yerlərində hələ də zəif araşdırılır və az önəm verilir.

İlk baxışda "iqtisadi təhlükəsizlik" termini liberal iqtisadiyyatlarda öz əksini tapır, çünki kapitalizm güvənliyə əsaslanır. Qloballaşma dövrü, ilk növbədə, iqtisadi bir proses olduğundan təhlükəsizliyin hərbidən də iqtisadiyyata keçdiyini başa düşmək olar. İqtisadi təhlükəsizlik xüsusilə qloballaşan rəqabətin və məlumatların inanılmaz yeni rolu, məsələn, məlumatların təhdidləri, ictimai araşdırma mərkəzlərinə hücumlar, maliyyə yırtıcılarından dövlət valyutalarına qarşı hücumlar və s. bu kimi "təhlükə riskindən" qorunmaq üçün vacibdir.

İlk öncə, biznes fəaliyyət xətti formalaşdırarkən iqtisadi təhlükəsizlik məfhumuna diqqət etmək lazımdır. Bu proqram çərçivəsinə aiddir : biznesin hansı məqsədlə yaradılması, fəaliyyətin tam strategiyasının hazırlanması və bu hədəflərə çatmada təhlükəsizlik formalarının müəyyən edilməsi.

Təbii ki, bu təhlükəsizlik formalarının müəyyən edilməsi iş yeri üçün mənfəəti təmin edən amillərin təhlükəsizliyinin təmini, həmçinin rəhbərliyin nüfuzunun artmasında işçilərin təhlükəsiz iş şəraitinin yaranması üçün və işçilərin özünü güvəndə hiss edərək iş yerinin etibar qazanması, firmanın rəqabət bazarında üstünlük əldə etməsinə imkan yaratması üçün vacibdir.

Bazar araşdırılması firmanın daxili və xarici bazardan xəbərdar olması nəticəsində əvvəlcədən baş verə biləcək zərərin qarşısının alınmasına şərait yaratması üçün mühüm tədbirlərdəndir.

Təhlükəsizlik anlayışı biznesdə bir çox istiqamətlərdə ola bilər. Müasir qlobal dövrdə təhdidlər və təhlükələr müəssisələrin idarə edilməsində mühüm bir təsiri var. Müəssisələrin güclü və zəif cəhətləri bu çətin mühitdə birləşmiş və müəssisənin təhlükəsizliyinə, müvəffəqiyyətli yaşamaq şəraitinə mühüm bir təsir göstərmişdir. Belə təhlükəli şəraitlərdə müasir müəssisələrin idarə edilməsi riskdən uzaq qaça bilmir. Risk, təbii ki, biznesin fəaliyyətindən məhrum edilə bilməz, lakin riski tanımaqla və onu səmərəli idarə etməklə riskin gətirəcəyi itkiləri azaltmaq mümkündür. Risk 6 mərhələdən ibarət olan: planlaşdırma, risklərin idarə edilmə prosesi, risk identifikasiyası, risk təsnifatı, riskin ölçülməsi, riskə reaksiya vermə üsulları və riskə nəzarəti planlaşdırmasıdır.

İlk başda riski səmərəli idarə etmək üçün onu ölçmək lazımdır. Eyni zamanda riski tanımaq effektivliyin təməlini qoyur. Rəqabət şəraitində fəaliyyət göstərən müəssisələrin riskə məruz qalmasının bir səbəbi düzgün biznes strategiyasının izlənməməsidir. İlk öncə, müəssisə daxili risklərin ümumi səviyyəsini anlamaq və idarə etmək vacib məsələdir. Müvəffəqiyyətli risk idarəçiliyi etmək mükəmməl qərarların qəbulundan asılıdır.

Ölkədə baş verən iqtisadi böhranlarda həmçinin müəssisələrin maliyyə riskini artırmışdır və bu hal qeyri-müəyyən potensiallı risklərə səbəb olmaqdadır.

Böyük biznes layihələri çox zaman qeyri-müəyyən ətraf mühitin təsirinə məruz qalır. Bundan başqa, maliyyə cəhətdən risklərə baxsaq, tələb və təklifdə dəyişikliklər, valyuta dəyişiklikləri, qiymətlərin dəyişməsi risklərini nəzərə almaqla monitorinq və proqnozlaşdırma yolu ilə müəssisə mühitində makroiqtisadi risk faktorlarının müəyyənləşməsi, onların mümkün ehtimallarının proqnozlaşdırılması gələcək inkişafı təmin edəcək gücə malikdir.

Biznes strategiyasının qurulmasında maliyyə risklərinin səviyyəsini optimallaşdırmaq üçün istifadə edilə biləcək beş mümkün strategiya var:

1) maliyyə riskinin mənbəyini müəyyənləşdirən fəaliyyətlərin rədd edilməsi;

2) öz mənbələrindən olan zərərləri üçün tam kompensasiya təmin etmək üçün risk maliyyə strategiyaları üçün məsuliyyət daşımaq

3)başqalarına (sığorta şirkətləri də daxil olmaqla) maliyyə riskinə görə məsuliyyətin satışı və dəyişdirilməsi

4) profilaktik tədbirlər vasitəsi ilə maliyyə riskinin mümkün mənfi nəticələrinin azaldılması və ya qarşısının alınması;

5) Maliyyə riskinin yönəldilməsi, bir qayda olaraq, bir sahədəki bütün ehtiyatların yüksək riskli mənfəət üçün istifadə edilməsi

Biznesin uğuru – gözlənilməz hadisələrə və qeyri-müəyyənliyə qarşı öncədən risk analizi ilə qarşı gəlməkdir. Həll prosesi zamanı risklərin nəzərdən keçirilməsi biznesin gələcək inkişafı üçün əhəmiyyətli hadisəyə çevrilmişdir. Risk idarəçiləri biznes ilə əlaqədar hər sahədə riskləri başa düşməli, mənbənin əsasını açığa çıxartmalı, ölçməli və daim izləməlidir. Bu proseslərdə xarici təcrübələrin öyrənilib tətbiq edilməsi məqsədəuyğundur. Riskləri nəzarət altına almaqla gələn zərəri zəiflədə və ya qarşısını ala bilmək mümkün olar.

Qeyd etmək lazımdır ki, maliyyə-iqtisadi təhlükəsizlik sisteminin inkişaf strategiyası aşağıdakılardan ibarətdir:

 biznesin iqtisadi təhlükəsizliyinə daxili və xarici təhdidlərin təsviri

 qısa və orta müddətdə sosial-iqtisadi vəziyyətinin sabitliyini artıran və ya məhv edən amilləri müəyyənləşdirmək və monitorinq etmək

 iqtisadi təhlükəsizlik amillərinə təsir edən mühasibat mexanizmlərini əhatə edən inkişaf siyasəti; biznes strategiyalarının həyata keçirilməsi üçün tədbirlər.

Digər təhlükə növləri kimi informasiya təhlükəsizliyinin qorunması hər bir iş yeri üçün çox vacib haldır. İnformasiya məlumatları yayıldıqda ciddi zərərlərə gətirib çıxarır. Kommersiya sirri sayılan məlumatların məxfiliyi, tamlığı və açıqlığı, rəqabətədavamlılığı, gəlirliliyi və müəssisənin müsbət imicinin yaradılmasının təmin edilməsində xüsusi əhəmiyyət kəsb edir.

Hazırda ölkəmizdə informasiya təhlükəsizliyinin qorunması ilə bağlı ciddi tədbirlər görülür. Misal olaraq: bir çox müəssisələrdə dünya praktikasında istifadə olunan işçini işə alma prosesində müəssisənin kommersiya sirlərinin qorunacağına dair müqavilə imzalanır. Məlumatların yayılması zamanı ciddi cəza tədbirləri görülür. Bu hal əvvəlcədən gələcək olan təhlükənin qarşısının alınması üçün çox vacibdir. Hazırda informasiya təhlükəsizliyi (İT) məsələsi qanunvericiliklə tənzimlənir. Dövlət müəssisələrində İT təminatının yerinə yetirilməsi məcburidir. Bundan başqa, korporativ şəbəkədə məlumatlara icazəsiz və seçmədən müdaxilə etmək; məlumatın daşıyıcı qurğulara (yaddaş kartlarına, CD və DVD disklərə və s. köçürmək, fotoşəkilləri mobil telefonlar vasitəsilə kağız daşıyıcılara və monitor ekranlarına ötürmək; viruslar, elektron poçtların kodlarının oğurlanması və.s bu kimi halların baş verməməsi üçün təxirəsalınmaz tədbirlər görülməlidir. Təbii ki, informasiya təhlükəsizliyi sistemi istənilən biznesin və ya istehsalın normal və uğurlu fəaliyyət göstərməsi üçün anlayış, planlaşdırma və adekvat xərclər tələb edən sistemdir.

Biznes sahəsinin fəaliyyət göstərməsi ölkənin mövcud vəziyyətindən də asılıdır. Digər xarici dövlətlər ilə münasibətlər, müharibə şəraiti, beynəlxalq kriminal qruplaşmalarının və ayrı-ayrı şəxslərin cinayətkar fəaliyyətləri iqtisadiyyat üzrə dövlət idarəetməsi, əsas sferalar üzrə bir sıra səbəblərdən istehsalın dağılması təhlükəsi kimi baş verə biləcək halların hər biri nəzərə alınmalıdır.

Hal hazırda müəssisə və təşkilatların təhlükəsizliyi dövlətin bu sahədə gördüyü vahid tədbirlər siyasətinin aparılması nəticəsində təmin edilir. Qanunilik, şəxsin və müəssisənin maraqlar balansının

gözlənilməsi, heyətin və rəhbərliyin qarşılıqlı mənsuliyyətliliyi, dövlət təhlükəsizlik orqanlarının fəaliyyəti, qanunvericilik, Azərbaycan Respublikasının Konstitusiyası və təhlükəsizlik sahəsində digər normativ aktlar, həmçinin iş yerlərində rəhbərliyin hazırladığı proqramlar, işçiləri təlimatlandırma, İT mütəxəssislərinin cəlb edilməsi ilə baş verə biləcək təhlükələrin qarşısı alınır və biznesin uğurlu fəaliyyət göstərməsi üçün şərait yaradır.

Əlavə edilməlidir ki, maliyyə və iqtisadi təhlükəsizliyin seçilmiş xidməti variantına uyğun olaraq, iqtisadi təhlükəsizliyin təmin edilməsi - biznesin inkişaf etdirilməsini, təhlükəsizlik baxımından əsas vəzifələrin və funksiyaların siyahısını, bu sahədə mənsuliyyətli şəxslərin funksional fəaliyyətlərini və səlahiyyətlərini müəyyən etməlidir. İqtisadi təhlükəsizliyin əməkdaşları yüksək səviyyəli peşə hazırlığı keçmiş şəxs olmalıdırlar ki, həmin fəaliyyətlərdə əsasən iqtisadi və hüquqi ekspertiza ilə məşğul ola bilsinlər.

**Ədəbiyyat**


1. Yaroçkin V.İ., Buzanova Y.V. Biznes və sahibkarlığın təhlükəsizliyinin əsasları. Azərbaycan Dövlət İqtisad Universiteti dərslikləri, 2008, Azərbaycan.
2. Gizem Akalp G., Yamankaradeniz N. "İşletmelerde güvenlik kültürünün oluşumu". 2013, Haziran 2013, cilt 3, sayı 2, s. 96-109
3. Oksana I., Vivchar O.I. Management System Interpreting Financial and Economic Security Business in Economic Processes ,Ternopil National Economic University, Ukraine , IEJME — MATHEMATICS EDUCATION , 2016, VOL. 11, NO. 4, p.p. 947-959
4. www.ictnews.az
5. http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_oktyabr2009/92920.htm
6. http://www.biznesinfo.az/businesspractice/technology/params/ln/az/article/68648
7. https://az.wikipedia.org/wiki/İqtisadi_təhlükəsizlik


**Резюме**


***Ширин А.Н.***


**Экономическая безопасность бизнеса**


*Быстрое развитие науки и техники в современном мире, формирование конкурентной среды и глобализация изменили структуру и темпы корпоративной жизни. Изменение в экономике привело к появлению новой бизнес-среды, конкурирующей с предприятиями в других областях, таких как корпоративное управление и корпоративная социальная ответственность. Существует ситуация, когда развития можно избежать путем распространения коммерческой тайны, а также легко переносить Информация. В этом случае невозможно перемещать бизнес из безопасной среды, и есть группы, которые имеют разные навыки и опыт для решения бизнес-задач в мировой практике, эффективного управления, создается «безопасная среда». Риск подверженности всегда присутствует и сложно.*

***Ключевые слова:*** *бизнес, безопасность бизнеса, риск*


**Summary**


***Shirin A.N.***


**Economic Safety of Business**


*The rapid development of science and technology in today's world, the formation of a competitive environment and globalization have changed the structure and pace of corporate life. The change in the economy has led to a new business environment that has been competing with businesses in other areas, such as corporate governance and corporate social responsibility; there is a situation where development can be avoided by the propagation of commercial secrets and also easily transferring information. In this case, it is impossible to move business from a safe environment, and there are groups that have different skills and experience to address business problems in world practice, so effective management and "safe environment" are created. Risk of exposure is always present and complicated.*

***Key words*** *: business, business risk, risk*


## KİÇİK BİZNES FƏALİYYƏTİNİN KREDİTLƏŞDİRİLMƏSİ METODLARI


***Tağıyeva A.V.***

*Sumqayıt Dövlət Universiteti*


**Xülasə**


*Son illər həyata keçirilən iqtisadi islahatlar Azərbaycan Respublikasında kiçik biznesin inkişafına təkan vermiş, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında və iqtisadiyyatının inkişafında kiçik biznesin rolunu artırmışdır.*

***Açar sözlər***: *kiçik biznes, kreditləşdirmə, maliyyələşmə, lizinq, bank kreditləri*

Milli iqtisadiyyatı formalaşdırmaq və inkişaf etdirmək üçün sağlam sahibkarlıq mühitinin yaradılması, insanların sahibkarlıq ruhunda tərbiyə olunması və sahibkarlıq fəaliyyətinin öncül inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi zəruridir. Ölkədə bazar iqtisadiyyatının normal fəaliyyət göstərməsi üçün onun əsasını təşkil edən bütün zəruri ünsürlərinin, xüsusilə kiçik biznes fəaliyyətinin formalaşması və inkişafı zəruridir. Müasir dövrdə kiçik biznes inkişafında əsas məsələlərdən biri onun kreditləşdirilməsidir. Azərbaycan iqtisadiyyatında bu məsələ ilə bağlı problem ondadır ki, yeni fəaliyyətə başlayan sahibkarlar kifayət qədər maliyyə vəsaitlərinə malik olmurlar. Dünya praktikasında bu problem müxtəlif yollarla həll olunur. İqtisadi nəticə isə eynidir. Kifayət dərəcədə maliyyə resurslarına malik olan dövlət, bank, investisiya fondları və s. böyük risk hesabına olsa da, yeni fəaliyyətə başlayan sahibkarlara yardımçı olmalıdır. Bu məsələlərin həllində ayrı-ayrı sərmayəçilər üçün maraqlı amil yüksək dərəcədə mənfəət əldə etmək, dövlət strukturları üçün isə məşğulluq probleminin həll olunması və belə layihələrin sosial səmərəsidir.

Ölkəmizdə biznesin, o cümlədən kiçik biznesin inkişafının maliyyələşdirilməsi və kreditləşdirilməsi məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi nəzdində Sahibkarlığa Kömək Milli Fondu yaradılmışdır.

Sahibkarlığa Kömək Milli Fondu tərəfindən verilən güzəştli kreditlər Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarında, məqsədli dövlət proqramlarında müəyyən edilmiş, ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətlərinə uyğun olaraq, qeyri-neft sektorunun və regionların tarazlı inkişafı, biznesin, o cümlədən kiçik biznesin dəstəklənməsi, yoxsulluğun azaldılması, məşğulluğun təmin edilməsi ilə bilavasitə əlaqəli olan sahələrdə dinamik iqtisadi inkişafın təmin edilməsinə yönəldilir.

Biznes fəaliyyətində həyata keçirilən investisiya layihələri həm dövlət vəsaiti, həm də sahibkarlıq subyektinin özünün vəsaitindən maliyyələşir. Bazar iqtisadiyyatlı ölkələrdə sahibkarlıq fəaliyyətində müxtəlif kreditləşdirmə metodlarından istifadə edilir. Hər bir ölkədə kiçik biznes fəaliyyətində müxtəlif kreditləşdirilmə metodlardan istifadə edilməsi məsələsi bu istiqamətdə formalaşan siyasətdən asılıdır. Hazırda qlobal maliyyə-iqtisadi böhran şəraitində Azərbaycan hökumətinin investisiya siyasətini, büdcə ödəmələrinə qənaət etməklə sahibkarların şəxsi vəsaitlərdən, həmçinin kənardan cəlb edilən vəsaitlərdən daha geniş istifadə etmək siyasətini gündəmdə saxlayır. Buna baxmayaraq, kiçik biznesin fəaliyyətinin dövlət vəsaiti hesabına kreditləşidirilməsi davam etdirilir. Bu məqsədlə Azərbaycanın İqtisadiyyat Nazirliyi Maliyyə Nazirliyi ilə birlikdə ayrı-ayrı sahələrin iqtisadi inkişafının istiqamətlərini müəyyənləşdirərək müvafiq investisiya layihələrinin həyata keçirilməsinə təminat yaradır. Bu zaman investisiya layihələri üç mərhələdə seçilir. Birinci mərhələdə müsabiqə elan edilir və onun keçirilməsi nəticəsində seçilmiş layihə həyata keçirilən tədbirlər siyahısına daxil edilir. İkinci mərhələdə layihəni həyata keçirən təşkilatla dövlət arasında müqavilə imzalanaraq ayrılacaq vəsaitin məbləği və işin yerinə yetirilməsi müddəti müəyyən edilir. Sonuncu mərhələ maliyyələşmə sisteminin seçilməsi ilə xarakterizə olunur [1, səh.42].

Məlumdur ki, kiçik biznesin kreditləşdirilməsi metodlarından biri olan qarışıq birbaşa kreditləşdirilmə qaytarılan və bağışlanan əsasda həyata keçirilir. Belə kreditləşdirmə həm dövlət büdcəsindən, həm də təşkilatların şəxsi vəsaitindən ödənilir. Təəssüflə qeyd olunmalıdır ki, birbaşa bağışlanan kreditləşdirilmə metodundan ölkəmizdə geniş istifadə olunmur. Bu metodun tətbiqi biznes fəaliyyətində əsas vəsaitlərin alınıb quraşdırılmasına yönəldilməlidir. Belə vəsait sahibkara nağd şəkildə ödənildikdə onun təyinatı ilə xərclənməsində çoxlu kənarlaşmalar olur. Bağışlanan birbaşa dövlət vəsaitinin yeni növ məhsul istehsalına yönəldilməsi bütövlükdə müəssisələrin rəqabət qabiliyyətinin artmasına təminat yaradar [2, səh.384].

Kiçik biznesin kreditləşdirilməsi onun maliyyələşdirilməsi metodları ilə bağlıdır. Kiçik biznesin maliyyələşdirilməsində büdcədənkənar maliyyələşdirmə metodu mühüm rol oynayır. Büdcədənkənar maliyyələşdirmə metodu sahibkarlıq fəaliyyətinin inkişafı və müvafiq məqsədli kompleks proqramların həyata keçirilməsində istifadə edilir. Büdcədənkənar fondlardan istifadənin mümkünlüyü, təyinatı Azərbaycan Respublikasının “Sahibkarlıq fəaliyyəti haqqında”, “Sosial sığorta haqqında”, “Qiymətli kağızlar haqqında”, “Vətəndaşların pensiya təminatı haqqında” qanunlarının tələbinə uyğunlaşdırılır. Lakin həmin mənbəyin formalaşması özünün bir sıra xüsusiyyətləri ilə fərqlənir. Əvvəla, dövlət büdcədənkənar vəsait hesabına sahibkarlıq subyektinin və vəsait ödəyən təşkilatın maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət edir. İkincisi, müxtəlif təyinatlı investisiya layihələrinin və sahibkarlıq subyektlərinin maliyyələşdirilməsinə imkan yaranır. Üçüncüsü, dövlət tərəfindən büdcədənkənar vəsaitdən düzgün istifadə olunması üzərində nəzarət funksiyasını həyata keçirir.

Kiçik biznes fəaliyyətinin kreditləşdirilməsində istifadə edilən metodlar içərisində lizinq xüsusi əhəmiyyət kəsb edir. Lizinq kiçik biznes fəaliyyətinin bir növü olub müvəqqəti istifadə olunmayan maliyyə vəsaitinin investisiya kimi istifadə olunmasına istiqamətlənmişdir. Hazırda ölkəmizdə kreditləşdirmənin lizinq metodu özünün inkişaf mərhələsindədir. İstehsalat sferasında sənaye potensialının yeniləşməsində,

yüksək rəqabətqabiliyyətli məhsul istehsal etmək, həm də investisiya fəaliyyətini stimullaşdırmaq məqsədilə Azərbaycanda lizinq münasibətlərinin genişlənməsinə ehtiyac duyulur [3, səh.302].

Lizinq xidmətinin təşkili kiçik müəssisələr, fermer təsərrüfatları və digər yeni təsərrüfatçılıq formaları ilə məşğul olan təşkilatlar üçün olduqca əlverişlidir. Çünki bu zaman təşkilatların investisiya imkanları genişlənir, birdəfəlik maliyyə qoyuluşlarından azad olurlar və s .

Lizinq həmçinin kənd təsərrüfatı əmtəə istehsalçılarını və emal müəssisələrinin maşın və avadanlıqlarla təminatı sistemini yüksəldən vasitələrdən biridir. O, əmtəə istehsalçılarını lizinq olan texnika və texnologiya, habelə maşın- traktor parkının təzələnməsində xüsusi maliyyələşdirmə formasıdır. Beləliklə də, texnika və texnologiyanın dəyəri hissə-hissə ödənilərək istehlakçıya icarəyə verilir. Bundan əlavə, icarəçi (texnikanı istifadə edən) maşın və texnika sahibinə kreditə görə müəyyən fond ödəyir, normativ gəliri, habelə göstərilən xidmətin dəyərini ödəyir. Beləliklə, kənd təsərrüfatı istehsalçıları və emal müəssisələri üçün lizinq eyni zamanda iki problemi: texnikanın əldə olunmasını və alınmış malların maliyyələşdirilməsini həll edir. Nəticədə, kəndli təsərrüfatının və digər kənd təsərrüfatı və emal müəssisələrinin bazar münasibətləri şəraitində rəqabət qabiliyyətini xeyli yüksəldir.

Kiçik biznesin kreditləşdirilməsində bank kreditlərini xüsusilə qeyd etmək olar. Kreditlərin cəlb edilməsinin mümkünlüyü gələcək müəssisənin xarakteri, onun səmərəliliyi, eləcə də, bankın investisiya layihələri ilə iş təcrübəsindən asılıdır. Kreditlər iki istiqamətdə xərclənə bilər: investisiya məqsədlərinə və təsərrüfat məqsədlərinə. Birinci istiqamət uzunmüddətli kreditləri nəzərdə tutur və avadanlığın alınmasına, binaların, qurğuların tikilməsinə, dövriyyə vəsaitlərinin pul hissəsinin artırılmasına çəkilən xərclərlə əlaqəlidir. Digər, təsərrüfat məqsədli kreditlər, maddi resursların alınması, istehsalat ehtiyatlarının artırılması ilə əlaqəlidir. Bu kreditlər, adətən, qısamüddətli olur.

Kreditlərdən istifadəyə görə faiz, qanunla təyin edilmiş həddə, məhsulun maya dəyərinə daxil edilir. Kreditlərin ödənilməsi sxemi layihənin sonrakı səmərəliliyinə böyük təsir göstərir. Çox vacibdir ki, müəssisə, öz fəaliyyətinə başlamazdan əvvəl, borclar üzrə ödəmələr etməyə məcbur olmasın. Layihənin reallaşmasının ilk dövrü ərzində aparılan maliyyə xərclərinin kapitallaşması və yeni istehsal gücünün istismarı nəticəsində əmələ gələn nağd vəsaitlərdən borcun ödənilməsi – adi prosedurdur. Yeni layihə üçün, eləcə də müəssisələrin genişləndirilməsi layihələri üçün, iki əsas kredit ödəmə sxemi mövcuddur:

1) bərabər paylarla borcun əsas məbləğinin müəyyən dövrlər ərzində ödənilməsi və faizlərin tədricən azaldılması;

2) bərabər paylarla əsas borcun və faizlərin müəyyən müddət ərzində ödənilməsi.

Birinci sxem daha az ümumi maliyyə xərcləri tələb edir, lakin burada layihə başa çatdırıldıqda, ümumi ödəmənin kifayət qədər çox məbləği tələb olunur. İkinci sxem daha yüksək ümumi maliyyə məbləğləri daşısa da, yeni müəssisə üçün daha az yüklüdür, belə ki, birinci haldan fərqli olaraq, borcun ödənilməsinin ilkin məbləğləri daha azdır.

Məlumdur ki, kiçik biznesin səmərəli kreditləşdirilməsində maliyyə bazarının yaradılması və inkişaf etdirilməsi xüsusi rola malikdir. Maliyyə bazarının köməyilə resurslar səfərbər edilərək kapital qoyuluşunun maliyyələşdirilməsi və kreditləşdirilməsinə yönəldilir. Məlumdur ki, kapital qoyuluşunun kreditləşdirilməsi əsasən orta və uzunmüddətli olur və borc alan üçün kreditə görə faiz dərəcəsinin səviyyəsi müstəsna rol oynayır. Öz növbəsində faiz dərəcəsi tələb-təklifdən, inflyasiyanın səviyyəsindən, kreditin müddətindən, eləcədə onun təminatlılıq səviyyəsindən asılıdır. Mövcud şəraitdə tez fayda gətirməyə hesablanan qısamüddətli kreditdən daha çox istifadə olunur. Bu kreditə görə faiz dərəcəsinin həddindən artıq çox olmasından (20-25%), habelə dünya bazarına çıxa biləcək məhsul istehsalı ilə məşğul ola biləcək investisiya layihələrinin mövcud olmamasından irəli gəlir. Sirr deyildir ki, bu gün ölkədə işsizlik probleminin həllində ən başlıca şərtlərdən biri əsaslı tikintinin inkişaf etdirilməsi, ən əsası isə istehsal xarakterli obyektlərin tikintisinə diqqəti artırmaqdan ibarətdir. Belə olduğu halda ölkədə mövcud olan gənc işçi potensialı iş tapmaq xatirinə yaxın-uzaq ölkələrə üz tutmaz, respublikamızda daimi iş yerləri ilə təmin oluna bilər. O da məlumdur ki, büdcədən maliyyələşmə ilə müqayisədə bank kreditlərindən istifadə edilməsi daha səmərəlidir. Bu kreditin prinsiplərindən irəli gələrək həm onun vaxtında qaytarılması, həm əlavə faizlə qaytarılması və ən əsası isə bu vəsaitin düzgün xərclənməsində ciddi bank nəzarətinin mövcudluğundan irəli gəlir.

İnvestisiya qoyuluşunun kreditləşdirilməsindən danışarkən qısamüddətli kreditləşməni də qeyd etmək lazımdır. Belə kreditlər bir qayda olaraq podratçı təşkilatlara, onların cari tələblərini ödəmək, eləcə də dövriyyə vəsaitlərini tamamlamaq məqsədilə verilir. Bir çox hallarda podratçı təşkilat öz işçilərinə əmək haqqı ödəmək, tikinti materialları üzrə hesablaşma aparmaq, yanacaq-enerji haqqını ödəmək, nəqliyyat idarələri ilə hesablaşma aparmaq və digər hesablaşmaları aparmaq məqsədilə banklardan qısamüddətli kreditlər alırlar.

Ümumiyyətlə, investisiya qoyuluşunun maliyyələşmə mənbələri içərisində bank kreditinin xüsusi çəkisini artırmaq üçün bizə belə gəlir ki, hökumət tərəfindən bəzi güzəştlər həyata keçirilməlidir. Bunlardan

investisiya layihələrini həyata keçirən investorlar üçün güzəştli vergi sisteminin tətbiqi, yerli istehsalçıların qorunması məqsədilə müvafiq məhsulların ölkəyə gətirilməsi şərtlərinin sərtləşdirilməsi, onlar üçün yüksək vergi və gömrük rüsumunun tətbiqi, qanunvericilik qaydasında istehsalla məşğul olan iri investorların fəaliyyətinə kənar müdaxilələrin azaldılmasını və s. göstərmək olar. Belə olarsa, investorlar ölkə iqtisadiyyatına təkan verə biləcək istehsal və qeyri-istehsal investisiya layihələrinin reallaşdırılmasına yaxından kömək edərlər [4, s.101].

İnvestisiya meyilli vergi krediti metodu dünya təcrübəsində kiçik biznesin kreditləşdirilməsində geniş istifadə olunur. Təəssüflə qeyd edilməlidir ki, yuxarıda şərh olunan metodlardan Azərbaycanda kiçik biznesin kreditləşdirilməsində lazımınca istifadə edilmir. Kiçik biznes fəaliyyətini genişləndirmək və ölkə iqtisadiyyatında kiçik biznesin rolunu artırmaq üçün məhz bu metodlardan geniş istifadə olunmalı və onlar təkmilləşdirilməlidir.

**Ədəbiyyat**


1. Бирман Г., Шмидт С. Капиталовложения: Экономический анализ инвестиционных проектов. М.: ЮНИТИ-ДАНА, 2003, 631 с.
2. Zeynalov V.Z. Qlobal maliyyə böhranı və antiböhran tədbirləri: təhlil və qiymətləndirmə. Bakı: Elm, 2012, 439 s.
3. Vəliyev D.Ə. Azərbaycan iqtisadiyyatı. Bakı: Azərbaycan Universitetinin nəşriyyatı, 2010, 428 s.
4. Əzizova G.A. Dövlətin investisiya-innovasiya siyasəti. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2012, 212 s.



**Резюме**

***Тагиева А.В.***

**Методы кредитование малогой бизнес-деятельности**

*Последние экономические реформы способствовали развитию малого бизнеса в Азербайджанской Республике, повышению роли малого бизнеса в поднятии уровня жизни и экономическому развитию населения.*

***Ключевые слова:*** *малый бизнес, кредитование, финансы, лизинг, банковские кредиты*

**Summary**

***Taghieva A.V.***

**Crediting Methods of Small Business Activities**

*Recent economic reforms have contributed to the development of small businesses in the Republic of Azerbaijan, enhancing the role of small businesses in improving the living standards and economic development of the population.*

***Key words:*** *small business, lending, finance, leasing, bank loans*


## İSTEHSAL GÜCLƏRİNDƏN İSTİFADƏ VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ


***Zeynalova N.A.***

*Azərbaycan Texniki Universiteti*



**Xülasə**

*Məqalədə sənayenin milli iqtisadiyyatda artan rolunun innovasiyalı inkişafla əlaqəsi verilir. İstehsal güclərindən istifadə vəziyyəti təhlil olunur və qiymətləndirilir. Yeni istehsal güclərinin yaradılması üçün geniş imkanların olduğu vurğulanır.*

*İstehsal güclərindən istifadə vəziyyətində olan dəyişikliklərin sivil bazar özünütənzimləməsinə əsaslandığı nəzərə çatdırılır.*

***Açar sözlər****. sənaye, iqtisaiyyat, innovasiya, istehsal gücü, potensial, müəssisə.*


Sənayenin milli iqtisadiyyatda artan rolu innovasiyalı inkişafın tempi və miqyası ilə mütənasibdir. Məsələ ondadır ki, sənaye texniki-texnoloji inkişafın poliqonu, maddi-texniki bazanın yaradılmasında aparıcı amili olmaqla, istehsal güclərinin formalaşmasında həlledici rola malikdir. Odur ki, sənayedə və onun qeyri-neft bölməsinə aid sahələrdə istehsal güclərindən istifadə vəziyyətinin qiymətləndirilməsi və gözlənilən meyillərin səciyyələndirilməsi elmi-nəzəri asprektləri ilə yanaşı, təcrübi baxımdan da aktualdır.

Azərbaycan Respublikası sənayesinin qeyri-neft bölməsinə aid sahələrdə istehsal və resurs potensialından istifadə imkanları iqtisadi fəaliyyətlərin şaxələndirilməsi, xammal bazalarının xarakteristikaları, satış bazarları ilə əlaqələrin xarakteri, idxalın əvəzlənməsi və ixracın təşviqi kimi amillərlə şərtlənir. XXI əsrin ikinci onilliyi üçün ölkə sənayesinin qeyri-neft bölməsinə aid sahələrdə iqtisadi, istehsal-texnoloji və bir sıra digər aspektlərdə tərəfdaşlıq imkanlarının reallaşdırılmasında uzaq xarici ölkələrlə əlaqələrin intensivləşməsi meyli xarakterikdir.

Sənaye mü**əssisələrinin istehsal güclərindən** istifadə vəziyyətinin təhlili və qiymətləndirilməsinin metodiki bazası, bir çox aspektlərdə kifayət qədər əsaslandırılmış və təcrübədə özünü doğrultmuşdur. Haqqında danışılan istehsal güclərinin istifadə vəziyyətinin qiymətləndirilməsinin metodiki məsələlərinə toxunmadan, qeyd edək ki, modernləşdirmə müstəvisində bəzi məqamlara münasibət bildirməyə ehtiyac vardır.

İlk növbədə, onu qeyd edək ki, istehsal güclərindən istifadə vəziyyətinin təhlili sənayenin, onun qeyri-neft bölməsinin inkişaf imkanlarını, bu bölməyə aid sahələrdə resurs və istehsal potensialından istifadə səviyyəsini qiymətləndirmək baxımından mühüm rola malikdir. Sənayedə istehsal güclərinin və onlardan istifadə vəziyyətinin qiymətləndirilməsinin birmənalı qəbul edilən metodiki və informasiya təminatı yaxşılaşdıqca burada fəaliyyət göstərən müəssisənin cari dövrdə və yaxın perspektivə məhsul buraxılışını etibarlı surətdə proqramlaşdırmaq imkanları artır.

Azərbaycanda emal sənayesinin qeyri-neft bölməsinə aid sahələrində "yeni istehsal güclərinin yaradılması üçün geniş imkanlar vardır. Son illər ölkədə, əsasən yeyinti sənayesi, yüngül sənaye, mebel sənayesi, tikinti materiallarının istehsalı sahələrində qabaqcıl texnologiyaların tətbiqi ilə rəqabətqabiliyyətli çoxlu sayda müəssisələr qurulmuşdur. Bu sahələrdə istehsal həcmlərinin genişləndirilməsi ilə yanaşı, digər sahələrdə, o cümlədən kimya, metallurgiya, maşın və avadanlıq istehsalı, alternativ enerji qurğu və avadanlıqlarının istehsalı, müdafiə sənayesi sahələrində yeni emal müəssisələrinin yaradılması tədbirləri davam etdirilməlidir. Yeni sənaye müəssisələrinin yaradılması zamanı yüksək ekoloji tələblərə cavab verən, enerjiyə qənaət edən texnologiyaların istifadəsi diqqət mərkəzində saxlanılmalıdır" . [2, s.8]

İstehsal gücü və ondan istifadə balansından götürülən məlumatlar əsasında imkanları qiymətləndirilən sənaye müəssisəsinin istehsal gücü dəyər ifadəsində müqayisəli qiymətlərlə təqdim olunur. Sənaye mü**əssisəsinin istehsal gücü onun** ixtisaslaşması istiqamətinə, habelə iş rejimində sərəncamında olan əmək vasitələrindən müəyyən dövr (il, gün, növbə və i.a.) ərzində daha dolğun istifadə etməklə, ən yüksək məhsul buraxılışı imkanını dəyər və naturada ifadə edir. Məlum olduğu kimi, istehsal gücləri müəssisə, sex, texnoloji xətt, aqreqat və s., habelə hər bir məhsul növü üzrə dəyər və natura ifadəsində müəyyən edilir. Modernləşdirmə dövründə kəmiyyətin keyfiyyətə keçməsi prosesi sürətlənir və bu halda müəssisə, sex, texnoloji xətt, aqreqat və s. üzrə istehsal güclərinin dəyər və natural ifadələri arasında əlaqələrin birmənalılıq və kəmiyyət xarakteristikalarında dəqiqlik müzakirə obyektinə çevrilir.

Sənayenin qeyri-neft bölməsinə aid sahələrin əksəriyyətində resurs və istehsal potensialından istifadə (istehsal) proqramlarında modernləşdirilmənin əsas xarakteristikaları bu və ya digər dərəcədə nəzərə alınır. Bununla belə, ölkə sənayesinin qeyri-neft bölməsində istehsal güclərinin mövcud vəziyyətini və onun yenilənmə tempini, heç də həmişə qənaətbəxş hesab etmək mümkün deyildir.

"Lakin sənayenin əsası hesab edilən metalkəsən avadanlıq parkında hər il 10%-dən artıq dəzgah və avadanlıqlar əsaslı təmirə məruz qalır. Hər il ən azı 12-15% avadanlıq parkı təzələnməlidir. Hazırda köhnəlmiş avadanlığı yenisi ilə əvəz etmək qeyri-mümkündür, çünki metalkəsən dəzgahların istehsalının illik həcmi, parkın genişlənməsi üçün lazım olan avadanlığa böyük tələbatı nəzərə alsaq, onda köhnəlmiş avadanlığı əvəz etmək üçün mümkün olan vəsaitlər mövcud olan parka nisbətdə 2-3% təşkil edir" [3, s.176].

Onu da qeyd edək ki, sadalanan problemlərin mühüm hissəsinin həlli üçün konseptual yanaşmalar kifayət qədər əsaslandırılmış, proqram-məqsədli yanaşmanın potensialdan istifadə imkanları qiymətləndirilmişdir. Başqa sözlə, "2004-cü ildən etibarən Azərbaycanda sənayeləşmə templəri yüksəlmiş, sənayenin regional strukturunun təkmilləşdirilməsi əsas prioritetlərdən biri kimi müəyyən olunmuş, sənaye istehsalı üçün həyati əhəmiyyət kəsb edən enerji təminatı məsələlərinin həlli istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmiş, respublika təbii qaz və elektrik enerjisi idxalçısından ixracatçıya çevrilmiş, sənayenin infrastruktur təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır. Ötən dövrdə infrastruktur layihələri ilə yanaşı, dövlət investisiyaları bir sıra istehsal təyinatlı layihələrə yönəldilmiş, ölkədə əlverişli biznes investisiya mühiti yaradılmış, özəl sektor tərəfindən icra edilən layihələrin güzəştli şərtlərlə dövlət tərəfindən maliyyələşdirilməsi və zərurət yarandığı halda dövlətin bu layihələrdə pay iştirakı təmin edilmişdir" [2].

Ölkə sənayesinin qeyri-neft bölməsi üzrə sahələrin böyük hissəsi qəbul olunmuş təsnifatda, əsasən emal sənayesinə aid edilir. Rəsmi statistikada emal sənayesi adı altında əhatə olunan 24 sahədən 23-ü, mədənçıxarma sənayesində 4 sahədən 3-ü qeyri-neft bölməsinə aid edilir. Sənayenin qeyri-neft bölməsinə aid sahələr sırasında aqroemal sahələri aparıcı rola malikdir və bu rolun daha da güclənəcəyi gözlənilir. Məsələ ondadır ki, ölkənin kənd təsərrüfatına artan qayğı və diqqət, sahəyə dövlət dəstəyinin sistemli xarakter alması və güclənməsi, burada kənd təsərrüfatı məhsulu və kənd təsərrüfatı mənşəli xammal hazırlanması imkanlarını genişləndirir.

Azərbaycanda sənayenin qeyri-neft bölməsinə aid sahələrdə əsas sənaye - istehsal fondlarının və ümumi yekuna nisbətən onların xüsusi çəkilərinin dinamika təhlili bir sıra meyilləri aşkar etməyə imkan

vermişdir. Ölkənin sənaye sahələrində əsas sənaye - istehsal fondlarının dəyəri 2011-2016-cı illər ərzində 2,02 dəfə, o cümlədən sənayenin qeyri-neft bölməsində 2,06 dəfə artmışdır. Bunun nəticəsidir ki, təhlil dövründə sənayenin qeyri-neft bölməsinə aid sahələrdə əsas sənaye - istehsal fondlarının ümumi yekuna nisbətən xüsusi çəkisi artaraq 27,0%-dən 27,5%-ə çatmışdır.

Qeyri –neft bölməsinə aid sahələrdə əsas sənaye-istehsal fondları emal sənayesində daha böyük xüsusi çəkiyə malikdir və həmin göstərici təhlil edilən illər ərzində müsbət dinamikaya malik olmuşdur.

Müasir sənaye istehsalının rəqabət qabiliyyəti onun innovasiyalı inkişaf tələblərinə uyğunlaşma səviyyəsindən, habelə innovasiyalara açıqlıq dərəcəsindən asılıdır. Daha doğrusu sənaye istehsalının rəqabət qabiliyyəti innovasiyalı fəaliyyət üçün yaradılan texniki-texnoloji şəraitdən və ilk növbədə, əsas sənaye-istehsal fondlarının yenilənməsinin tempi və proporsiyaları ilə bialvasitə əlaqədardır. Hazırda sənayenin qeyri-neft bölməsinin modernləşdirilməsinin iqtisadi mexanizmlərinin səmərəliliyi və yenilənmə xarakteristikaları arasında kifayət qədər ciddi asılılığın olduğunu söyləmək olar. [1]

İstehsal güclərindən istifadə vəziyyətinin qiymətləndirilməsi və gözlənilən meyillərin aşkar edilməsi məqsədi ilə Azərbaycanın emalı sənayesində nisbətən böyük paya malik qeyri-neft sahələrində əsas sənaye - istehsal fondlarının yenilənməsinin dinamikasını təhlil edək. Məlum olduğu kimi, bu və ya digər sahədə əsas sənaye - istehsal fondlarının yenilənməsi göstəricisi, əsas sənaye - istehsal fondlarının ümumi dəyərinə nisbətən faizlə hesablanır.

Deyilənləri yekunlaşdıraraq, emal sənayesinin qeyri-neft bölməsinə aid sahələrdə istehsal güclərindən istifadə vəziyyətində müşahidə edilən dəyişiklikləri sivil bazar özünütənzimləməsinin və haqqında danışılan sahələrin dövlət tənzimləməsinin üzvi vəhdətinə yönəlmiş cəhdlərin nəticəsi kimi qəbul edə bilərik.

### Ədəbiyyat


1. İsgəndərov R.K. Elmi-texniki tərəqqi: sosial – iqtisadi aspektlər. Bakı, Elm və təhsil, 2010, 636 s.
2. Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2014-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı. Bakı, 2014, s.8.
3. Hacıyev F.Ş. Milli sənayenin modernləşdirilməsi istiqamətlərinin təhlili və qiymətləndirilməsi // Azərbaycanın Vergi Jurnalı, №1 (121), 2015, s.171-182


### Резюме


***Зейналова Н.А.***


**Оценка степени использования производственных мощностей**


*В статье подчеркивается связь инновационного развития промышленности с возрастающей ролью в национальной экономике. Анализируется и оценивается состояние использования производственных сил. Подчеркивается, что существуют широкие возможности для создания новых производственных мощностей.*

*Указано, что изменения в использовании производственных сил основаны на саморегулировании цивилизованного рынка.*



***Ключевые слова:*** *Промышленность, экономика, инновация, производственная мощность, потенциал, предприятие*


### Summary


***Zeynalova N.A.***


**Evaluation of Use of Production Power**


*The article highlights the growing role of industry in the national economy with innovative development. Condition of use of production forces is analyzed and evaluated. It is emphasized that there are broad opportunities for the creation of new production capacities.*

*It is emphasized that changes in the use of production capabilities are based on the self-regulation of the civilian market.*



***Key words:*** *industry, economy, innovation, production capacity, potential, enterprise*


## ЗНАЧЕНИЕ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ МАЛОГО БИЗНЕСА В ОБЕСПЕЧЕНИИ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ СТРАНЫ


***Аллахвердиева Л.М.***

*Московский государственный гуманитарно-экономический университет*


### Резюме


*В статье рассмотрены вопросы взаимосвязи экономической безопасности малого бизнеса и экономической безопасности страны. Отмечается изменение роли экономической безопасности*

*малого бизнеса в современных условиях. Показано значение экономической безопасности малого бизнеса в обеспечении экономической безопасности страны.*

***Ключевые слова:*** *малый бизнес, экономическая безопасность, системы экономической безопасности*

Бизнес является неотъемлемым элементом рыночной экономики, условием ее нормального функционирования. Независимые предприниматели представляют собой наиболее многочисленный слой частных собственников и в силу своей массовости играют значительную роль не только в социально-экономической, но и в политической жизни страны. Малый бизнес обеспечивает укрепление рыночных отношений, а вместе с ними и в целом экономическую безопасность основанных на демократии и частной собственности. По своему экономическому положению и условиям жизни частные предприниматели близки к большей части населения и составляют основу среднего класса, являющегося гарантом социальной и политической стабильности общества.

Условия рыночной экономики, в которых осуществляют свою деятельность предприятия и организация различных форм собственности, всегда носят характер неопределенности и никогда полностью не непредсказуемы. Особенно это характерно для периодов экономических кризисов, которые порождают слишком много опасностей и угроз малому бизнесу. В это время на его состояние оказывают влияние такие факторы, как нестабильная политическая и социально-экономическая ситуация в стране, межнациональные, региональные, территориальные конфликты, несовершенство коммерческого законодательства, криминализация общества, мошенничество, коррупция и др. Все эти обстоятельства особо актуализируют проблемы обеспечения экономической безопасности малых предприятий.

Как известно, экономическая безопасность предприятия - это состояние его защищенности от негативного влияния внешних и внутренних угроз, дестабилизирующих факторов, при которых достигается устойчивая реализация главных коммерческих интересов и целей уставной деятельности. При этом система экономической безопасности каждой компании сугубо индивидуальна. Ее полнота и действенность во многом зависят от имеющейся в государстве законодательной базы, выделяемых руководителем предприятия материально-технических и финансовых ресурсов, понимания каждым из сотрудников важности обеспечения безопасности бизнеса, а также от знаний и практического опыта начальника системы экономической безопасности, непосредственно занимающегося построением и поддержанием в «рабочем состоянии» самой системы [3, с. 77].

Neft-qazçıxarma sənayesi – neft və qazın hasilatı, onların emalı, daşınması, saxlanılması və satışı ilə məşğul olan mürəkkəb texniki-texnoloji və sosial-iqtisadi sistemdir. Keçən əsrin 90-cı illərinin əvvəlində Ümumilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində formalaşan yeni neft strategiyası xarici investisiyaların Azərbaycanın neft-qaz yataqlarının işlənilməsinə cəlb edilməsi, xam neft və təbii qazın daşınması istiqamətlərinin şaxələndirilməsini, neft-qaz satışından əldə edilən gəlirlərin səmərəli idarə olunmasını və ölkənin dinamik sosial-iqtisadi inkişaf mərhələsinə qədəm qoymasını, onun beynəlxalq miqyasda nüfuzunun artmasını, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasındakı rolunu şərtləşdirmişdir. "Əsrin Müqaviləsi"-nin imzalanmasından keçən dövr ərzində, yəni 1995-2017-ci illərdə ölkə iqtisadiyyatına 125 mlrd. dollara yaxın xarici investisiya yönəldilmişdir ki, onun da təxminən 56%-i neft-qaz sektorunun payına düşmüşdür. Məhz bunun nəticəsidir ki, həmin hasilat sənayesində əsas istehsal fondlarının aşınma dərəcəsi 2000-ci ildə 64,6 %-dən 2016-cı ildə 29,4 %-ə enmişdir [1, s.59;2,s.85]. Bu illər ərzində ölkədə neft hasilatının həcmi 14,6 mlyn. tondan 41 mlyn.tona qaz hasilatı isə 5,6 mlrd. kub. metrdən 29,3 mlrd. kub. metrə çatdırılmışdır [2, s.327-330]. Statistik məlumatlara görə, 2017-ci ilədək Azərbaycanın Xəzər dənizindəki neft yataqlarının işlənilməsinə təxminən 33 mlrd. doll. investisiya qoyulmuş, "Azəri-Çıraq-Günəşli" yataqlarından 3,2 mlrd. barrel neft və 30 mlrd. kub m. səmt qazı hasil edilmmişdir.

"Əsrin Müqaviləsi" imzalandıqdan sonra SOCAR dünyanın 19 ölkəsini təmsil edən neft şirkətləri ilə 26 saziş imzalamışdır. Azərbaycan neftinin və qazının dünya bazarına çıxarılması üçün öz texniki-texnoloji unikallığı ilə seçilən Bakı-Supsa, Bakı-Tbilisi-Geyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz ixrac boru kəmərləri tikilib istifadəyə verilmiş, Bakı-Novorossiysk boru kəməri əsaslı şəkildə təzələnmişdir. Avropaya Azərbaycan qazının ixracını həyata keçirəcək TAP və TANAP layihələri uğurla icra edilir. Hesablamalara görə, Azərbaycanda 6 trlyn. kub. m. həcmində qaz və 4,6 mlrd. ton neft ehtiyatı vardır. Neftin sənaye üsulu ilə hasilata başlamasından 2017-ci ilin sentyabr ayınadək Azərbaycanda 2 mlrd. ton neft və 800 mlrd. kub.m. qaz hasil edilmişdir. Hazırki hasilat tempinə görə ölkədə neft ehtiyatlarının istismarı növbəti 45 ildə davam edəcəkdir. Odur ki, Xəzərin Azərbaycan sektorunda AŞG yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və Hasilatın Pay Bölgüsü (HPB) prinsipinə görə 2050-ci ilə qədər dövrü əhatə edən yeni neft sazişi imzalanmışdır.

Xəzərin Azərbaycan sektorunda 1,2 trlyn. Kub metr qaz ehtiyatı olan Şahdəniz yatağının və onun 2-ci mərhələsinin işlənilməsi, eləcə də yeni qaz yataqlarının kəşfi və istismarı Azərbaycanı həm də qaz ixrac edən ölkəyə çevirmişdir. Adı çəkilən neft-qaz ixrac boru kəmərləri istismara verildikdən 2017-ci ilin əvvəlinədək dünya bazarlarına 435,4 mlyn. ton neft və 49,7 mlrd. kub metr qaz hasil edilmiş və onların satışından Azərbaycan 125 mlrd. dollardan çox birbaşa mənfəət əldə etmişdir ki, bu da ölkənin iqtisadi təhlükəsizkliyinin təmin edilməsində mühüm rol oynamışdır.

Hazırda Azərbaycanın ərazisində 81 neft-qaz yatağı aşkar edilmiş, lakin onların yalnız 61-də karbohidrogen hasil edilir. İşləmədə olan bütün yataqların 70%-zi Azərbaycanın quru, 30%-zi isə - dəniz ərazisində yerləşir.

Uzun müddət istismar edilən yataqlar işləmənin son həddindədir və yataqlarda məhsulun sulaşması orta hesabla 96% təşkil edir. SOCAR sistemində 2016-cı ildə ümumi neft hasilatının 18,5%-zi fontan; 59,6%-zi – qazlift; 21,9%-zi isə - dərinlik nasosu üsulunun payına düşmüşdür. Şirkət üzrə ümumi neft quyu fondunun 70,2%-zi, qaz quyu fondunun isə - 67,2%-zi fəaliyyətdədir. SOCAR üzrə istismarda olan quyu fondunun 36,2%-zi, fəaliyyətdə olan quyu fondunun isə - 46,6%-zi "Azneft" İB-nin payına düşür. Şirkət üzrə 2016-cı ildə hasil edilən neftin 82,0%-zi, qazın isə - 89,7%-zi həmin birliyin müəssisələri üçün xarakterikdir. Lakin uzun illərdir ki, "Azneft" İB-də neft və qaz hasilatı ildən ilə azalmaqdadır [3]. Bunun əsas səbəbləri istismar edilən quru yataqların işləmənin son həddinə keçmələri; yataqların istismarının dağ-

geoloji şəraitlərinin pisləşməsi; istehsal fondlarından istifadənin qeyri-qənaətbəxş olması və s. ibarətdir. Odur ki, neft-qaz kompleksində texnoloji zəncirin bütün halqalarında - geoloji-kəşfiyyat işlərinin düzgün yerləşdirilməsindən tutmuş rasional nəqliyyat xidmətinə qədər, xammal və ondan alınan məhsulların səmərəli satışı prosesində müasir idarəetmə texnologiyalarından geniş istifadə edilməlidir. Bütünlükdə hasilatın azalması ilə bir ton neftin və 1000 kub metr qazın maya dəyərinin artması kontekstində həmin texnologiyadan istifadənin zəruriliyi daha da aktuallaşır. Bu məqsədlə də son illər SOCAR-ın idarə edən və idarə olunan sistemlərində bir ara struktur dəyişiklikləri aparılmışdır. Belə ki, şirkətin bəzi müəssisələrində ikipillləli idarəetmə sistemindən birpilləli idarəetmə sisteminə keçilmiş, bu da idarəetmə prosesini bir qədər asanlaşmışdır. SOCAR korporativ idarəetmə prinsipləri əsasında idarə edilir. Bu idarəetmə prinsipi qabaqcıl təcrübənin qəbul edilməsi, fəaliyyətin səmərəliliyinin artırılması, dövlətin və maraqlı tərəflərin mənafeyinin qorunmasına zəmanət verir. SOCAR-da idarəetmə mərkəzləşdirilmiş sistem ilə aparılır, o, Ali Şura strukturu tərəfindən idarə edilir.

Müasir idarəetmə metodları və texnologiyaları kontekstində şirkətin strukturunda-kadrların idarə edilməsi, audit fəaliyyəti, informasiya təhlükəsizliyi, risklər və satınalmalar üzrə Komitələr fəaliyyət göstərir.

Müasir dövrdə Azərbaycan neft sənayesi qarşısında duran əsas prioritet məsələlərindən biri neft-kimya kompleksini inkişaf etdirmək, müasir idarəetmə texnologiyalarının tətbiqi ilə standartlara cavab verən rəqabətədavamlı məhsulun xarici bazara çıxarılmasıdır. Şirkətin idarə edən və idarə olunan sistemlərində müasir idarəetmə texnologiyalarının tətbiqi məqsədilə kompüterləşmə, avtomatlaşdırma və sənəd dövriyyəsinin və informasiya mübadiləsinin təşkili, məlumat banklarının korporativ şəbəkə sistemlərinin yaradılması, bir sözlə, müasir rəqəmsal rabitə sisteminə keçid və s. istiqamətdə kompleks təşkilati-texniki tədbirlərin icrası təmin edilir. Yeni texnologiyanın tətbiqi zamanı ekoloji amillər də nəzərə alınır. Hələ 2011-ci ildə "SOCAR-ın 2025-ci ilə kimi strateji inkişafına dair kompleks planı" tərtib edilmişdir. Bu plana uyğun olaraq, müəssisələrin iqtisadi təhlükəsizliyinin texniki-texnoloji baxımdan qorunması üçün aşağıdakı strateji inkişaf istiqamətləri müəyyən edilmişdir:

- quruda yerləşən yataqlarda neft hasilatının optimalladırılması;
- dənizdə yerləşən yataqlarda neft hasilatının inkişafı;
- qaz layihələrinin inkişafı;
- karbohidrogenlərin nəqlinin və tranzit imkanların inkişafı;
- emal sahəsinin inkişafı;
- xarici bazarda fəaliyyətin genişləndirilməsi;
- digər fəaliyyət növləri üzrə strateji inkişaf trendləri [4].

SOCAR-ın 2014-2016-cı illər üzrə "Davamlı inkişaf haqqında" hesabatında qeyd edilir ki, şirkət hər zaman öz fəaliyyyətində qabaqcıl və ekoloji təmiz texnologiyalardan istifadə etməklə, Azərbaycanın elmi-texniki, iqtisadi və intellektual potensialının artırılmasına xidmət edir və bununla yanaşı, regional və beynəlxalq enerji layihələrində həlledici mövqe tutaraq karbohidrogen ehtiyatlarının və emal məhsullarının daxili və xarici bazarlarda satışından yüksək mənfəət əldə edir.

Həmin missiyanın icrası istiqamətində nanotexnologiyalar sahəsində layihələr, proqramlar və tədqiqatlar, innovasiya obyektlərinin tikintisi SOCAR-ın innovasiya fəaliyyətinin əsasını təşkil edir. Şirkətin "Neftqazelmitədqiqatlayihə" İnstitutu hələ 2012-ci ildə AVEVA PDMS (Plan Design Management System) – üçölçülü layihələndirmə sisteminin tətbiqinə başlamışdır. Bu sistem layihələr üzrə məlumatların mərkəzləşdirilməsini təmin edən layihələndirmə mühiti olmaqla, sənaye müəssisələrinin üçölçülü layihələnməsi nəzərdə tutur. Sistemə müxtəlif layihələndirmə modulları daxildir: avadanlıqların, boru kəmərlərinin, istilik, havalandırma və soyutma sistemlərinin, metalkonstruksiyaların, kabellərin və s. AVEVA PDMS – inteqrasiya olunmuş rəqəmsal model və vahid layihə-məlumat bazası əsasında informasiyanın bir dəfə daxil edilməsi və ondan dəfələrlə istifadə edilməsi, avtomatik olaraq koliziyalara (ziddiyyətlərə) nəzarət olunması, layihələndirməyə tam nəzarət olunması, layihə həlləri və dəyişikliklər haqqında tez bir zamanda qərar verilməsi və s. kimi mühüm xüsusiyyətlərə malikdir [4].

Respublikanın neft-qazşıxarma sənayesində müasir idarəetmə texnologiyalarının tətbiqi məqsədilə hələ 2013-cü ildən SOCAR baş ofisi və idarələri Elektron sənəd dövriyyəsi (ESD) sisteminə keçmişdir. SOCAR tərəfindən quyuların qazılmasına texnoloji nəzarətin artırılması, qazma rejimi parametrlərinn birbaşa vizual nəzarətdə saxlanmasını həyata keçirməyə qadir olan bir sıra proqram paketləri alınaraq istehsal obyektlərində istifadəyə verilmişdir ki, bu da quyuların qazılması prosesində yüksək nəticələr əldə etməyə imkan yaratmışdır. Yekun olaraq qeyd etmək olar ki, neft-qazçıxarma sənayesi müəssisələrinin iqtisadi təhlükəsizliyinin texniki-texnoloji təminatı istiqamətində həyata keçirən tədbirlər yüksək sinerji effekti yaratmışdır.

**Ədəbiyyat**

1. Azərbaycanın sənayesi. Bakı, Səda, 2007, 572s.
2. Azərbaycanın sənayesi. Bakı, DSK, 2017, 344 s.
3. SOCAR-ın 2016-cı il üzrə illik hesabatı. Bakı, 2017, 82s. (http:// www.socar.az/)
4. SOCAR-ın davamlı inkişaf haqqında hesabatı Bakı, 2017, 68s. (http://www.socar.az/).

**Резюме**

***Эминбейли И.А.***

**Технико-технологические аспекты экономической безопасности нефтегазодобывающих предприятий Азербайджана**

*В статье исследуются технико-технологические аспекты экономической безопасности предприятий нефтегазодобывающей промышленности, указана роль нефтяной стратегии в динамичном социально-экономическом развитии страны; определена степень инвестиционной обеспеченности экономики, проанализировано текущее состояние эксплуатации нефтяных и газовых месторождений, их влияние на рост добычи и себестоимось продукции и обоснована целесообразность расширения процесса осуществления современных управленческих технологий в управляемой и управляющей системе SOCAR are justified.*

***Ключевые слова:*** *нефтегазодобывающая промышленность, экономическая безопасность, технико-технологические аспекты, управленческая технология*

**Summary**

***Eminbeyli I.A.***

**Technical and Technological Aspects Of Economic Security of Oil and Gas Producers in Azerbaijan**

*The article studies technical and technological aspects of economic security of oil and gas industry enterprises, specifies the role of the oil strategy in the country's dynamic social and economic development; the degree of investment security of the economy has been determined, the current state of exploitation of oil and gas fields, their impact on the growth of production and production costs have been analyzed and the expediency of expanding the process of implementing modern management technologies in the managed and controlling system of SOCAR*

***Key words:*** *oil and gas production industry, economic security, technical and technological aspects, management technology*

## MİLLİ İQTİSADİYYATIN İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNİN MEYARLARI VƏ ƏSAS İSTİQAMƏTLƏRİ

***Əhmədov M.A.***

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Xülasə**

*Məqalədə Azərbaycanda milli iqtisadiyyatın təhlükəsizliyinin təmin edilməsinin zəruriyyəti, mahiyyəti, göstəriciləri və indikatorları göstərilir və sonra onun meyarları və prioritetlərini müəyyənləşdirməyə cəhd edilir.*

***Acar sözlər:*** *milli iqtisadiyyat, iqtisadi təhlükəsizlik, iqtisadi təhlükəsizliyin meyarları, iqtisadi təhlükəsizliyin indikatorları, iqtisadi artımın keyfiyyəti*

Dövlətin iqtisadi siyasətinin ana xəttini və ölkədə həyata keçirilən tənzimləmə siyasətinin başlıca meyarı və istisna bilməyən şərti milli iqtisadiyyatın təhlükəsizliyinin təmin edilməsi təşkil edir. Milli iqtisadiyyatın təhlükəsizliyi dedikdə, ilk növbədə iqtisadiyyatın və onun qurumlarının elə vəziyyəti başa düşülür ki, bu milli qloballaşan dünyada ölkənin maraq və mənafelərini, yeridilən siyasətin sosial yönümlüyünü, iqtisadiyyatın, ölkənin müdafiə qabiliyyətinin tələb olunan səviyyədə olmasına imkan yaratsın. Qeyd etmək lazımdır ki, iqtisadi təhlükəsizlik məsələsinə dövlət özünün inkişaf strategiyasının meyarlarından biri kimi baxmalıdır. İqtisadi təhlükəsizliyi təmin etmədən milli təhlükəsizliyi təmin etmək qeyri- mümkündür. Bu problem ölkəmizin qloballaşan dünya iqtisadiyyatına fəal inteqrasiya oldugu müasir dövrdə xüsusən aktualdır.

Son illərdə iqtisadi təhlükəsizliyin aşagıdakı başlıca istiqamətləri diqqəti daha cox cəlb edir. Ümumən, onlar beynəlxalq, milli, regional səviyyələri əhatə etməklə dövlətin, cəmiyyətin, regionun, müəssisənin, şəxsiyyətin, sosial, hərbi, siyasi, iqtisadi, ekoloji, informasiya, mədəni, hüquqi, elmi-texniki, demoqrafik, genetik, kriminal, enerji, intellektual, innovasiya istiqamətdə qruplaşdırıla bilər.

Qeyd etmək lazımdır ki, qloballaşma şəraitində formalaşan milli iqtisadiyyatın qarşısında duran ən başlıca problemlərdən biri həyata keçirilən əsaslı sistem dəyişiklikləri gedişində, ölkənin iqtisadi müstəqilliyi və təhlükəsizliyini gözləməklə, onun dünya bazarında rəqabət aparmaq qabiliyyətinin təmin edilməsi. Başqa sözlə, bu zaman həyata keçirilən bütün sistem dəyişikliklərini milli iqtisadi mənafelərin reallaşma dərəcəsi, hər bir ölkənin iqtisadi müstəqilliyi, təhlükəsizliyi, bütövlüyünün təmin edilməsi meyarları və göstəricilərinin səviyyəsi baxımından qiymətləndirilməlidir.

Ümumən, iqtisadi təhlükəsizlik dedikdə mövcud iqtisadi sistemin elə bir mühüm keyfiyyət halı başa düşülür ki, o, bir tərəfdən ölkə əhalisinin normal həyat fəaliyyəti şəraitini, xalq təsərrüfatının dinamik inkişafı üçün tələb olunan zəruri resurslarla təmin etmək, digər tərəfdən isə, ardıcıl surətdə milli iqtisadiyyatın dövlət maraqlarını səmərəli reallaşdırmaq qabiliyyətinə malik olsun.

Qeyd etmək lazımdır ki, iqtisadi təhlükəsizlik milli təhlükəsizlik probleminin tərkib hissəsi olmaqla, ölkənin milli və beynəlxalq səviyyədə suverenliyinin cəmiyyətdə sosial əmin-amanlığın, ekoloji fəlakətlərdən müdafiənin təmin edilməsi milli iqtisadiyyatın mütləq üstünlüklərin reallaşması proqramı ilə qarşılıqlı əlaqə və asılılıqda olan ümdə bir problemdir. Çünki bu problemlərin hər birinin həlli digərlərinin həlli üçün, mühüm şərt və vasitə kimi çıxış edir. Əlbəttə, bu bir həqiqətdir ki, bütünlükdə milli təhlükəsizlik problemlərini hər hansı bir tərkib hissəsinin və yaxud birgə həllinin ümumi və başlıca əsası səmərəli iqtisadiyyat fəaliyyətinin təmin edilməsidir. Belə ki, milli təhlükəsizlik problemlərinin həlli cəmiyyətdən külli miqdarda maddi və maliyyə resursların bu məqsədə sərfini tələb edir.

Müstəqillik illərində Azərbaycan iqtisadi təhlükəsizliyin mövcud vəziyyətin təhlili onun aşağıdakı başlıca ünsürlərini müəyyənləşdirməyə imkan vermişdir.

Birincisi, müasir dünya təsərrüfatı şəraitində iqtisadi müstəqillik problemi hec də bütün hallarda mütləq xarakter daşımır. Çünki bir tərəfdən qloballaşma prosesi, digər tərəfindən beynəlxalq əmək bölgüsü milli iqtisadiyyatları bir-birindən qarşılıqlı asılı edir. Belə bir şəraitdə, müəyyən bir mərhələdə az da olsa kənarlaşma mümkündür.

İkincisi, milli iqtisadiyyatın sabitliyinin təmin edilməsi bütün mülkiyyət formaları üzrə sahibkarlığa şərait yaradılmasını, vergidən yayınma iqtisadiyyatda kriminal hallara, sosial sarsıntılara qarşı mübarizə aparılmasını aktuallaşdırır.

Üçüncüsü, inkişaf edən müasir dünyada iqtisadi təhlükəsizliyin gözlənilməsində milli iqtisadiyyatın özü öz inkişafını və tərəqqisini təmin etmək qabiliyyəti mühüm əhəmiyyət kəsb edir. Bu hər şeydən əvvəl ölkədə müvafiq investisiya, innovasiya, sahibkarlıq mühitin yaxşılaşdırılmasını tələb edir.

Ümumən iqtisadi təhlükəsizlik – bu milli iqtisadiyyatın istisna bilməyən qaydası və elə bir vəziyyətdir ki, bu zaman dünya iqtisadi sistemində baş verən sosial-siyasi, iqtisadi və ekoloji kataklizmaların və problemlərin yaranmasından asılı olaraq ölkənin zəruri həyatı tələbatlarını təmin etmək imkanına malik olur.

Həmin kritik səviyyənin müəyyənləşdirilməsi makroiqtisadi səviyyədə iqtisadi təhlükəsizliyin əsas meyarlarının müəyyən edilməsini, qiymətləndirilməsini tələb edir. Məlumdur ki, keçid mərhələsində iqtisadi təhlükəsizliyin təmin edilməsi cəmiyyət, iqtisadiyyat və insanlar arasında müəyyən itkilər və risk ilə müşahidə olunur. Bu baxımdan, təhlükəsizlik anlayışı risk kateqoriyası ilə sıx bağlıdır. Çünki yeni dəyişən şəraitdə həyata keçirilən tədbirlər bir çox hallarda, təkrar istehsal prosesinin pozulmasına gətirib çıxarır. Bu isə öz növbəsində bu proseslərin idarə olunan və tənzimlənməsi üçün müəyyən risklər idarə olunmalıdır.

Apardığımız araşdırmalar əsasında iqtisadi təhlükəsizliyi xarakterizə edən ümumi göstəriciləri ümumi halda aşağıdakı kimi müəyyənləşdirə bilərik; Respublikamızda geniş təkrar istehsalın həyata keçirilməsinin təmin edilməsi; Əhalinin həyat səviyyəsi və keyfiyyəti; inflyasiyanın, işsizliyin səviyyəsi; büdcə kəsiri; dövlətin daxili və xarici borcları; bütünlükdə maliyyə sisteminin, iqtisadiyyatının strukturunun milli maraqlara uyğunluğu dərəcəsi; əhalinin gəlirləri; səviyyəsi mənzillə təminatı; idxal və ixracın saldosu; ÜDM ilə nağd pul kütləsinin nisbəti, tədiyyə balansının vəziyyəti və s.

Müasir dövrdə iqtisadi ədəbiyyata və təcrübəyə istinadən keçid mərhələsində olan ölkələrdə iqtisadi təhlükəsizliyin ümdə cəhətlərini tədqiq edərkən aşağıdakıları qeyd etmək olar. İqtisadiyyatın struktur deformasiyasının güclənməsi; Elmi-texniki potensialın dağıdılması investisiya və innovasiya fəallığının aşağı düşməsi; İdxaldan asılılığın güclənməsi; Valyuta ehtiyatlarının ölkədən axının güclənməsi; Cəmiyyətin əmlak cəhətdən təbəqələşməsinin güclənməsi; Xarici borcun artması; İqtisadiyyatın hədsiz dərəcədə açıqlığının artması; İqtisadi münasibətlərin kriminallaşması səviyyəsini və s.

Qeyd etmək lazımdır ki, iqtisadiyyatın o, vəziyyətini təhlükəsiz hesab etmək olar ki, birincisi, o, əsaslı xarici müdaxilə olmadan ölkədə milli maraqlara cavab verən sosial, iqtisadi və digər sahələrdə müstəqil daxili siyasəti müəyyən etmək, ikincisi, dünyada ölkənin milli maraqlarının təmin olunma prosesinə fəal təsir göstərmək qabiliyyətinə və nəhayət, üçüncüsü, ölkənin demokratik siyasi quruluşunu dərinləşdirməyə gətirib çıxara bilən böyük münaqişələrin qarşısını almaq, cəmiyyətdə ictimai və sosial sülhü, həmrəyliyi təmin etmək imkanına malik olsun.

Fikrimizcə, ölkəmizdə iqtisadi təhlükəsizlik sahəsində ölkənin qarşısında duran vəzifələri daha səmərəli həll edə bilməkdən ötəri, onun sistemli, dəqiq qanunvericilik bazası yaradılmalı və müvafiq strateji təhlükəsizlik və inkişaf konsepsiyası işlənib hazırlanmalı və reallaşdırılmalıdır. Bu baxımdan ölkə prezidenti İlham Əliyevin 16 mart 2016-cı il tarixli sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin qəbulu müstəsna əhəmiyyətə malikdir.

Milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi son nəticədə iqtisadi təhlükəsizliyinin gözlənilməsi ilə birbaşa bağlı olan bir problemdir. Çünki qloballaşma şəraitində milli iqtisadiyyatların açıqlığı genişlənir, onun dünya iqtisadiyyatına inteqrasiyası intensivləşir, belə bir şəraitdə iqtisadiyyatın rəqabət qabiliyyətini yüksəltmədən ölkədə davamlı inkişafı əslində təmin etmək mümkün deyildir. Digər tərəfdən milli iqtisadiyyatın açıqlığının artması öz növbəsində iqtisadi təhlükəsizlik problemini ön plana çıxarır. Bütün bunlar öz növbəsində «iqtisadi artım», «inkişaf», «davamlı inkişaf» anlayışlarının iqtisadi təhlükəsizlik baxımından mahiyyətinin dəqiqləşdirilməsini və dəyərləndirilməsini tələb edir. Məlumdur ki, hər bir inkişaf müəyyən dövr ərzində müşahidə olunan iqtisadi artımın dinamikası ilə şərtlənir. Ümumi halda iqtisadi artım müəyyən dövr ərzində ölkədə ümumi daxili və milli məhsulun, milli gəlirin artım dinamikasından asılı olur. Bununla iqtisadi artımın dinamikası hər hansı bir milli iqtisadiyyatın inkişafının daha çox kəmiyyət tərəfini xarakterizə etməklə, onun sosial inkişaf xarakterini, xərc və nəticənin dinamikasını, başqa sözlə səmərəliliyini, onun hansı amillər hesabına nail olunmasını, strukturunda baş verən dəyişiklikləri özündə əks etdirmir. Beləliklə, milli iqtisadiyyatın inkişafının, iqtisadi artımı xarakterizə edən göstəricilər əsasında dəyərləndirilməsi öyrənilən dövr ərzində milli iqtisadiyyatın inkişafının sosial, ekoloji, təhlükəsizlik, rəqabət qabiliyyətinin artırılması kimi amillər, başqa sözlə, iqtisadi artımın keyfiyyət xarakteristikasını əks etdirmir.

Bu baxımdan ölkəmizdə əhalinin milli maraq və mənafelərinə cavab verən, səmərəli fəaliyyət göstərən və qloballaşan dünyada Azərbaycanın maraqlarını daha səmərəli reallaşdırmağa imkan verən milli iqtisadiyyatın formalaşdırılması cari və perspektiv məsələləri nəzərə alaraq, iqtisadi inkişafın keyfiyyətinin yüksəldilməsi problemini ön plana çıxararaq kəskin aktuallaşdırır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev. Azərbaycan iqtisadiyyatının gələcəyi. 21 yanvar 2016.

2. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri". Azərbaycan qəzeti, 16 mart 2016.

3. "Azərbaycan" qəzeti, 19 yanvar 2016.

4. Əhmədov M.A. Azərbaycanın milli iqtisadiyyatının perspektivi üzrə Strateji Yol Xəritəsi – davamlı inkişafa kecıd konsepsiyasıdır. //AMEA-nın Elmi əsərləri, №1, 2017.

5. Əhmədov M.A., Hüseyn A. Dövlətin iqtisadi siyasəti. Bakı, 2012

**Резюме**

***Ахмедов М.А.***

**Критерии и основные направлении экономической безопасности национальной экономики**

*В статье обосновывается сущность и необходимость обеспечения национальной экономики Азербайджана, указываются показатели и индикаторы, далее делается попытка определить критерии и приоритеты экономической безопасности в современных условиях.*

***Ключевые слова:*** *национальная экономика, экономическая безопасность, критерии экономической безопасности, индикаторы экономической безопасности, качество экономического роста*

**Summary**

***Ahmadov M.A.***

**Criteria and Main Directions of Economic Security of National Economy**

*The article explains the essence and necessity of ensuring the national economy of Azerbaijan, indicates indexes and indicators, then an attempt is made to determine the criteria and priorities of economic security in modern conditions.*

***Key words:*** *national economy, economic security, economic security criteria, indicators of economic security, quality of economic growth*

**AZƏRBAYCANDA MƏNZİL BAZARININ TƏNZİMLƏNMƏSİ XÜSUSİYYƏTLƏRİ**

***Əhmədov M.M.***
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

***Xülasə***

*Təqdim edilən tezisin mövzusunda Azərbaycanın mənzil bazarının xüsusiyyətləri araşdırılmışdır. Tezisin məqsədi Azərbaycan Respublikasının Mənzil fondunun mülkiyyət formasından aslı olaraq növləri, istifadə hədəflərindən asılı olaraq mənzil fondunun cəhətləri təhlil edilmişdir. Elmi yenilik qismində mənzil təminatı problemlərini yaradan məsələlərə toxunulmuşdur. Araşdırılan mövzunun nəticəsi olaraq dövlət tənzimlənməsinin müasir Azərbaycan sisteminin çatışmazlıqları göstərilmişdir.*

***Açar sözlər:*** *mənzil xidmətləri, mənzil bazarı, mənzil fondu, daşınmaz əmlak*

Mənzil bazarı özündə mənzil fondu obyektlərinin, bu obyektlərin yaratdığı mənzil xidmətlərinin kompleks mexanizmlərini ehtiva edən qarşılıqlı əlaqəli mürəkkəb strukturdur. Bu mexanizmlər adı çəkilən bazarın bütün iştirakçılarının maraqları ilə torpaqdan səmərəli istifadə sahəsində rəqabətin vəhdətinə əsaslanır.

Daşınmaz əmlak anlayısına məkanda qeyd edilmis yeri olan fiziki obyektlər, onlarla bağlı olan həm yeraltı, həm də yerüstü, həmçinin mülkiyyət sahibkarlığı sərtləndirən, maraq və mənfəət daxildir. Bu anlayış tərkibində mənzil bazarı, ümumilikdə əmtəə və xidmətlər bazarına aid edilir. Lakin bu bazar elə təşəkkül tapmışdır ki, eyni zamanda bir-birindən ayrı iki bazarı, mənzil fondu bazarı və mənzil xidmətləri bazarını təcəssüm etdirir. Söylənilən bazarlar öz aralarında qarşılıqlı fəaliyyətdə olsalar da, müxtəlif dəyişənlərdən asılıdır. Qiymətlərin onlara doğru hərəkət meyilləri çox vaxt müxtəlif istiqamətlidir. Bununla belə, hər iki bazar seqmenti təklikdə fəaliyyət göstərmək iqtidarında deyil [1].

Daşınmaz əmlak bazarında dövlət iki əsas funksiyanı yerinə yetirir: tənzimləyici və təsərrüfat. Daşınmaz əmlak bazarının dövlət tənzimlənməsi həm inzibati, həm də iqtisadi metodlarla həyata keçirilir.

Mənzil bazarının dövlət tənzimlənməsi metodlarını aşağıdakı kimi qruplaşdırmaq olar:

I.İnzibati metodlar:

1) hüquqi tənzimləmə - standartların yenilənməsi, Torpaq və Mənzil məcəllələrinə, şəhərsalma və digər normativ-hüquqi aktlara dəyişikliklər edilməsi.

2) mənzil bazarının fəaliyyətinin infrastruktur təminatı: bura daşınmaz əmlaka və onunla aparılan sövdələşmələrə hüquqların uçotu və qeydiyyatı institutu, notariat, məhkəmə və s. daxildir.

3) ictimai ehtiyaclar üçün( qaçqınlara, məcburi köçkünlərə, şəhid ailələrinə, əlillərə, fövqəladə hadisə qurbanlarına və digər vətəndaş kateqoriyalarına) obyektlərin dövlət mülkiyyətinə alışı.

II. İqtisadi metodlar:

1) Vergi siyasəti alətlərindən istifadə:

- tikintiyə məsrəfə görə və ya mənzilin alınması, mənzil altında torpaq sahəsinin alınması zamanı, eləcə də məqsədli mənzil kreditlərinin (istiqrazların) qaytarılmasına görə əmlak vergisinin çıxılması;
- 3 ildən çox sahiblik şərti ilə mənzil satışı zamanı gəlir vergisindən azad olunması;
- yaxın qohumlar arasında vərəsəliyə və bağışlamağa görə verginin ləğvi və s.

2) pul-kredit siyasəti alətlərindən istifadə - başlıca olaraq ipoteka kreditləşməsi sahəsində;

3) tarif tənzimlənməsi sahəsində dövlət siyasəti.

2. Sahənin innovativ inkişafının aşağı templəri. Bu aşağıdakı səbəblər üzündən mövcuddur: iqtisadi stimulların yoxluğu və yeni tikinti texnologiyalarının tətbiqinin bahalığı; podratçıların aşağı səviyyəli təsnifatı; reqlamentlərin köhnəlməsi; cəmiyyətdə antiinnovasiya atmosferi və tikintidə idarəetmə qərarları qəbul edən şəxslərin konservativ düşüncələri. Bu problemin həllində dövlət tənzimlənməsinin tədbirləri aşağıdakılardır: standartların, tikinti normalarının və qaydalarının modernləşdirilməsi, enerji səmərəliliyinə malik materialların və texnologiyaların tətbiqinin stimullaşdırılması [2].

3. Əhalinin əksəriyyəti üçün mənzilin əlçatarlı olmaması. Bunun əsas səbəbləri Azərbaycanın iri şəhərlərində mənzillərin dəyərinin yüksək olması, ipoteka kreditlərinin bahalığı, eləcə də əhalinin əlçatar mənzillə təmin edilməsi proqramlarının reallaşdırılmasının zəif nəticələri.

Mənzil bazarının dövlət tənzimlənməsinin müasir Azərbaycan sisteminin nöqsanlarına baxaq:

1. Normativ-hüquqi tənzimləmənin nöqsanları:

- torpaq hüququnun inkişafının digər sahələrin daşınmaz əmlak dövriyyəsini tənzimləyən qanunvericiliyin inkişafından geri qalması. Bu isə binaların, qurğuların və onların yerləşdiyi torpaq sahələrinin vahid təsərrüfat subyektlərində əlaqəsini çox vaxt çətinləşdirir.
- mülkiyyət hüququnun qeydiyyat müddətlərinin və digər dövlət xidmətlərinin verilməsi müddətlərinin uzunluğu. Bunun nəticəsində daşınmaz əmlak bazarında daşınmaz əmlakla sövdələşmələrin dövlət qeydiyyatının

sürətləndirilməsi üzrə xidmətləri təqdim edən firmalar meydana çıxır. Tənzimləyici orqanların pozuntuya görə formal məsuliyyət xarakteri korrupsiya doğurur;

- tikinti normaları və qaydaları köhnəlmişdir. Onların modernləşdirilməsi üzrə işlər kifayət qədər aktiv deyil.

- şəhərsalmanın planlaşdırılmasının birləşmiş sxeminin işlənib hazırlanması zamanı razılaşmanın olmaması.

2. Mənzil bazarının fəaliyyətinin infrastruktur təminatı sisteminin nöqsanları:

- öz fəaliyyəti prosesində aşağıdakı informasiyalara ehtiyacları olan təşkilat və xidmətlərin işi üçün zəruri olan məkan məlumatlarının vahid Azərbaycan infrastrukturu yoxdur: torpaq sahələrini sərhəd koordinatları, əhalinin siyahıya alınmasının, seçkilərin nəticələri və s.

- daşınmaz əmlak obyektlərinin, o cümlədən dövlət mülkiyyətində yerləşən obyektlərin bazar qiymətləndirilməsi sistemi təkmil deyil. İnflyasiya şəraitində daşınmaz əmlakın dəyərinin aşağı düşməsi onun satışından renta ödənişlərinin və mənfəətin alınmasına gətirib çıxarır. Dövlət əmlakının bazar qiymətlərindən aşağı icarəyə verilməsi korrupsiyanı doğurur. Nəzərə almaq lazımdır ki, mənzilin kadastr dəyərinin bazar dəyərinə qədər yüksəlməsi daşınmaz əmlaka vergi məbləğinin artmasına səbəb olar ki, bu da əhalinin sosial cəhətdən zəif təbəqəsinin həyat səviyyəsinə mənfi təsir göstərir. Bundan qaçmaq üçün daşınmaz əmlaka proqressiv vergi dərəcəsini tətbiq etmək tələb olunur ki, bu da sosial ədalətə nail olmağa imkan verəcəkdir [3].

3. Dövlət və bələdiyyə mülkiyyətində yerləşən əmlakın idarə edilməsində nöqsanlar. Təsərrüfat funksiyasını yerinə yetirərkən dövlət büdcə sferasını maliyyələşdirmək ümün vəsaitləri cəlb etmək məqsədilə onun mülkiyyətində yerləşən daşınmaz əmlakı təsərrüfat dövriyyəsinə cəlb edir. Məsələn, hazırda zirzəmilərdə, birinci mərtəbələrdə, eləcə də çoxmərtəbəli evlərin yaşayış yerlərinə bitişik qeyri-yaşayış sığınacaqlarının satışı və ya icarəyə verilməsi geniş yayılıb. Həm də əmlak ayrı- ayrı məsələlərin həlli üçün, məsələn, dövlət və bələdiyyə mənzil fondlarının evlərində azəmlaklı vətəndaşa mənzil verilməsi üçün təsərrüfat dövriyyəsinə cəlb oluna bilər.

Dövlət tərəfindən bu funksiyanın həyata keçirilməsində başlıca problem daşınmaz əmlakın mülkiyyətçisi kimi dövlətin səlahiyyətini həyata keçirən müxtəlif dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin koordinasiya edilməməsi sayılır.

4. Vergitutma sisteminin nöqsanları. Daşınmaz əmlakla sövdələşmələrin mövcud vergitutma sistemi bəzi hallarda nəğd pulların qeyri-leqal dövriyyəsinin əmələ gəlməsinə kömək edir. Məsələn, Bakıda mənzilin satışı zamanı satıcı gəlir vergisi kimi hər kvadrat metrə görə 15 manat ödəməlidir. Lakin çox vaxt bu alqı-satqı müqaviləsində real sövdələşmə dəyərinin məqsədli olaraq azaldılmasına gətirib çıxaracaqdır [4]. Beləliklə, daşınmaz əmlak bazarında riskə meylli olmayan həmin potensial alıcı və satıcıların həddən artıq ehtiyatlılığı hesabına aktivlik azalacaqdır.

5. Pul-kredit tənzimlənməsinin nöqsanları. Dövlət hakimiyyəti orqanları tərəfindən kredit siyasəti hələ ki ipoteka kreditləşməsi mexanizmlərinin kifayət qədər inkişafına kömək etməmişdir. Hazırda ipoteka gənc ailələr üçün mənzilin əldə olunmasının, demək olar ki, yeganə imkanı sayılır. Lakin ipoteka kreditlərinin verilməsi şərtləri indiki halda onlar üçün heç də məqbul sayıla bilməz [5].

Yuxarıda sadalanan nöqsanlardan göründüyü kimi, Azərbaycan Respublikasında sivil daşınmaz əmlak bazarının inkişafı üçün ciddi maneələr mövcuddur. Sosial yönümlü qarışıq tipli iqtisadiyyatın formalaşmasında mövcud tendensiyalar ayrı-ayrı sahəvi bazarların dövlət tənzimlənməsinin istiqamətlərini müəyyən edirlər. Beləliklə, müasir iqtisadiyyatın, iqtisadi və sosial hadisələrin, idarəetmə və texnoloji məsələlərin keyfiyyətcə mürəkkəbləşməsi, istehsal miqyasının artması innovasiya proseslərinin universiallaşdırılması kimi xüsusiyyətləri Azərbaycanda daşınmaz əmlak bazarının dövlət tənzimlənməsinin iqtisadi metodlarını ön plana keçirir.

**Ədəbiyyat**


1. http://isfic.info/hompol/comep06.htm
2. Beydiyeva Y.Z. Daşınmaz əmlakın qiymətləndirilməsinin nəzəri-metodoloji əsasları. Bakı, 2011
3. Əhmədov M.M. Azərbaycanda Mənzil bazarının inkişafı: reallıqlar və perspektivlər. Bakı, 2016.
4. http://www.e-qanun.az/code/19
5. Nicole Gurran, Glen Bramley, "Urban Planning and the Housing Market: International Perspectives for Policy and Practice", London – 2017

# İNSTİTUSİONAL İSLAHAT TƏDBİRLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ ŞƏFFAFLIĞIN ROLU

***Əhmədzadə M. İ.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Məqalə Azərbaycanda həyata keçirilən iqtisadi islahat tədbirlərinin qiymətləndirilməsində, habelə istehsal sferasında model müəssisənin fəaliyyətində şəffaflığın rolunun öyrənilməsinə həsr edilir. Müəssisələrin maliyyə hesabatlarının internet səhifəsində və mətbu orqanda dərc olunması vəziyyətinin qənaətbəxş olmadığı, Elmlər Akademiyasının institutları ilə müəssisələr arasında əlaqələrin genişləndirilməsinin zəruriliyi göstərilir. Sənaye sahəsində qənaətli model müəssisənin fəaliyyətində şəffaflığın təmin edilməsi şərti ilə istehsal edilən məhsulun (işin, xidmətin) funksional təyinatına və standartlara uyğun keyfiyyətliliyinin təmin edilməsi tələbi irəli sürülür.*

***Açar sözlər:*** *maliyyə hesabatı, təhlil, şəffaflıq, əlaqə, qənaətli model müəssisə, keyfiyyət*

Strateji Yol Xəritəsi ilə tənzimlənən islahat tədbirlərinin həyata keçirilməsinin zəruri şərtlərindən biri həmin tədbirlərin iqtisadi mahiyyətinin və məqsədinin elm nümayəndələrinin və sahə mütəxəssislərinin iştirakı ilə konfranslarda (seminarlarda) hərtərəfli müzakirə edilməsi və mətbu orqanda işıqlandırılmasından ibarətdir. “Azərbaycanda mühasibat uçotu üzrə təhsilin təkmilləşdirilməsi və mühasibat işinin gücləndirilməsi”, “Qənaətli istehsal üsullarına əsaslanan model müəssisə”, “Sənayedə yerli xammaldan idxalı əvəz edən istehsalın genişlənməsi” kimi məsələlərin Dünya Bankının, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin iştirakı ilə keçirilən konfranslarda və seminarda müzakirə edilməsi elmi-praktiki əhəmiyyət kəsb edən həmin problemlərin həllinin təkmilləşdirilməsi istiqamətində yeni təkliflərin əsaslandırılmasına şərait yaradır. Konfrans və seminarın müzakirə predmetini təşkil etmiş bəzi məsələləri nəzərdən keçirək.

Dünya Bankının Azərbaycan Respublikası Maliyyə Nazirliyi ilə birlikdə 21-22 noyabr 2017-ci ildə Bakı şəhəri Four Season otelində keçirdiyi seminarda “Korporativ və Dövlət Sektorunda Hesabatlıq (CAPSAP)” layihəsi çərçivəsində institusional fəaliyyətin səmərəli təşkil edilməsi məqsədilə mərkəzləşdirilmiş Peşəkar Mühasiblər Təşkilatının yaradılmasının yeni fəaliyyət istiqaməti olduğu bəyan edildi. Dünya Bankının mütəxəssislərinin və Maliyyə Nazirliyinin əməkdaşlarının seminardakı çıxışlarında respublikada mühasiblərin peşəkarlığının artırılması, mühasibat uçotunun beynəlxalq standartlara və qəbul edilmiş beynəlxalq etik normalara uyğunluğunun təmin edilməsi, işgüzar davranmaq və tədqiqat aparmaq vərdişlərinə malik mühasiblərin hazırlanması peşəkar fəaliyyət istiqaməti üzrə assosiasiya qarşısında başlıca vəzifə kimi qeyd edildi. Fikrimizcə, seminarda qaldırılan institusional problemlərin həlli iqtisadi subyektlərin fəaliyyətində maliyyə şəffaflığının təmin olunmasına mənfi təsir göstərən amillərin aradan qaldırılmasına kömək edə bilər. Məlumdur ki, maliyyə şəffaflığının təmin olunması xeyli dərəcədə iqtisadi subyektlərin maliyyə əməliyyatlarının qüvvədə olan qanunvericilik normalarına uyğun aparılması, malgöndərənlər, kreditorlar, büdcə, bank və sığorta qurumları ilə hesablaşmalar üzrə öhdəliklərin yerinə yetirilməsi vəziyyətini əks etdirən hesabat göstəricilərinin mətbu orqanda dərc olunmasından asılıdır (3, s. 364-365).

Kommersiya təşkilatlarının maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi üzrə fəaliyyət “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu (29 iyun 2004-cü il) ilə tənzimlənir. Qanunun 12-ci maddəsi maliyyə hesabatlarını hazırlayan kommersiya təşkilatları qarşısında illik maliyyə hesabatlarının və konsolidə edilmiş maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə internet səhifəsində və mətbu orqanda dərc olunması, eləcə də hesabatın nüsxəsinin hər hansı şəxsə, onun müraciəti əsasında pulsuz təqdim olunmasına dair imperativ tələbləri təsbit edir. Eyni zamanda illik maliyyə hesabatlarının dərc edilməsinə dair Qanunla nəzərdə tutulan norma Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 may 2010-cu il tarixli, 97 nömrəli qərarı ilə təsdiq edilmiş “Kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi, hesabat dövrləri və dərc edilməsi Qaydaları” ilə konkretləşdirilmişdir.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, hesabatlarını internet səhifəsində və mətbuatda dərc etdirməli olan hüquqi şəxslər (səhmdar cəmiyyətləri, banklar, sığorta şirkətləri, məhdud məsuliyyətli cəmiyyətlər, investisiya fondları, xarici investisiyalı müəssisələr) qanunun maliyyə hesabatlarının dərc edilməsinə dair tələbinə bir qayda olaraq riayət etmirlər. İqtisadi subyektlərin fəaliyyətinin nəticələrini əks etdirən illik maliyyə hesabatlarının mətbuatda işıqlandırılmamasının vergi, bank, sığorta və auditor təşkilatlarla istehsalat müəssisələri arasında əlaqələrin həyata keçirilməsinə təsir dərəcəsi cüzidir. Çünki həmin təşkilatlar müəssisələrdən hər hansı hesabat məlumatını tələb etmək və almaq hüququna malikdir. Lakin maliyyə hesabatlarının istifadəçilərinin böyük əksəriyyətini təşkil edən iqtisadiyyat problemlərinin tədqiqatçıları (magistrlər, dissertantlar, doktorantlar) həmin hüquqdan de-fakto məhrum olmaqla, elmi-tədqiqat işlərinin

yerinə yetirilməsi üçün müəssisələrdən hesabat məlumatlarının alınmasında ciddi çətinliklərlə qarşılaşırlar. Məsələn: müasir dövrdə sənaye müəssisələrinin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi problemlərinin tədqiqatçıları internet səhifəsində və rəsmi qəzetlərdə yalnız "Neman İKF" MMC, "İtaldizayn" QSC, "Qazax Şərab-1" ASC, "Gəncə Şərab-2" ASC, "Xəzər Lada" ASC kimi kommersiya müəssisələrinin maliyyə vəziyyəti haqqında illik hesabatların göstəricilərini təhlil etmək imkanına malik ola bilərlər. Respublikanın iqtisadi inkişafında mühüm rol oynayan ağır və yüngül sənaye müəssisələrinin maliyyə hesabatlarının hazırlanması sahəsində şəffaflığın təmin edilməməsi iqtisadiyyatın inkişafı problemlərinin tədqiqinin nəticəliliyinə mənfi təsir göstərir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq və iqtisad elminin informasiya təminatının gücləndirilməsi məqsədilə respublikada elmi-tədqiqat işlərinin koordinasiyası vəzifəsinin icraçısı və Azərbaycan elminin aparıcı təşkilatı kimi çıxış edən Elmlər Akademiyasının institutları ilə istehsalat müəssisələri arasında əlaqələrin genişləndirilməsi zəruriliyi etiraf edilməlidir.

"Ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"nin "Qənaətli istehsal metodları üzrə təhlil aparılması" və "Özəl investisiya əsasında model müəssisənin (zavodun) yaradılmasının dəstəklənməsi" tədbirlərinin icrası çərçivəsində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun təşəbbüsü ilə 28 dekabr 2017-ci ildə Bakı şəhərində keçirilmiş respublika konfransında qənaətli istehsal üsullarına əsaslanan model müəssisənin yaradılması problemlərinin hərtərəfli müzakirə olunması ilə Azərbaycan sənayesində istehsalın təşkili probleminə yeni yanaşmanın yaranması haqqında fikir formalaşmışdır. "Qənaətli istehsal üsulları", Qənaətli model müəssisə" haqqında konfransda verilmiş məlumatlar bütünlükdə respublika iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edir. Qənaətli model müəssisənin iqtisadiyyatın digər sektorlarında fəaliyyət göstərməsinin zəruriliyi bütün səviyyələrdə etiraf edilməlidir. Yeni müəssisələr tərəfindən istehsal edilən və keyfiyyət standarlarına uyğun olmayan ərzaq məhsullarının, geyim əşyalarının, inşaat materiallarının, dərman vasitələrinin əhaliyə və təşkilatlara satışının anormal hadisələrin baş verməsi ilə nəticələnməsi faktları inkar olunmur. 2014-2016-cı illərdə mətbuatda əks-səda doğurmuş odadavamsız divar üzlük plitələri, insanların sağlamlığı üçün təhlükəli dərmanların müəyyən qismi yerli müəssisələr tərəfindən istehsal olunmuşdur və ya onların sifarişi ilə xarici ölkələrdən idxal edilmişdir. Eyni adlı məhsulları istehsal edən müəssislərin daxili və xarici bazara təklif etdiyi malların keyfiyyətində kəskin fərqlər vardır. Belə bir şəraitdə qənaətli model müəssisənin iqtisadiyyatın ayrı-ayrı sahələrində yaradılması vacibdir. Lakin yadda saxlamaq lazımdır ki, keyfiyyətsiz malların istehsalçıları maksimum mənfəət qazanmaq məqsədini güdərək daima məhsul vahidinin istehsalına çəkilən xərclərin azaldılmasına çalışırlar. İnkişaf etmiş ölkələrdə toplanmış təcrübəyə əsaslanaraq etiraf etmək lazımdır ki, məhsulun keyfiyyətinin yüksəldilməsi istehsal xərclərinin artmasına, bu isə mənfəətin ixtisarına səbəb olur. Məhsulun keyfiyyətinin yaxşılaşdırılması ilə xərclərin çoxalması arasında əlaqənin alternativi kimi model müəssisənin rəqabətqabiliyyətli məhsulların istehsalı və satışı üzrə fəaliyyətinin genişlənməsini görmək mümkündür. Bilirik ki, keçən əsrin 60-70-ci illərində böyükhəcmli, lakin qısamüddətli mənfəətlə faydalanmağı üstün tutan ABŞ firmaları rəqabət mübarizəsində Yaponiyaya uduzmuşdur.

Yuxarıda göstərilənləri nəzərə alaraq, sənaye sahəsində model müəssisənin fəaliyyətində şəffaflığın təmin edilməsi şərti ilə onun Nümunəvi Nizamnaməsinin "Model müəssisənin fəaliyyət istiqamətləri" adlanan ikinci bölməsində "Məhsulun (işin, xidmətin) funksional təyinatına və standartlara uyğun keyfiyyətliliyini təmin edir" məzmunlu bəndin təsbit edilməsi məqsədəuyğundur.

**Ədəbiyyat**

1. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu (29.06.2004).

2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi (Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il fərmanı ilə təsdiq edilimişdir).

3. Cəfərli H.A. İqtisadi təhlil. Bakı: Elm və təhsil, 2009.

**Резюме**

***Ахмедзаде М.И.***

**Роль прозрачности в оценке институциональных реформенных мероприятий**

*Статья посвящена изучению роли прозрачности в оценке реформенных мероприятий в экономике Азербайджана и функционировании модельного производственного предприятия. В статье указано на неудовлетворительное состояние опубликования финансовой отчетности предприятиями и выявлена необходимость расширения взаимодействия Академии Наук с производственными предприятиями. С учетом обеспечения прозрачности в деятельности экономного модельного предприятия обосновывается необходимость обеспечения качества производимой продукции в соответствии с ее функциональным назначением и стандартами.*

***Ключевые слова:*** *финансовая отчетность, анализ, прозрачность, связь, экономное производство, модельное предприятие, качество*

**Summary**

***Ahmadzadeh M. I.***

**The Role of Transparency in Assessing Institutional Reform Measures**

*The article is devoted to the assessment of the reform measures undertaken in Azerbaijan, as well as the role of transparency in the modeling business in the manufacturing sector. The article states that the status of publishing financial statements on the website and in the media is not satisfactory and the need to expand the relationships between enterprises and institutions of the Academy of Sciences is shown. Efficient model in the industry suggests the demand for quality assurance of the product (work, service) manufactured under conditions of transparency in the enterprise activity according to the standards and functional designation.*

***Key words:*** *financial report, analysis, transparency, contact, cost-effective production, model enterprise, quality*

## DAYANIQLI İQTİSADİ İNKİŞAF NƏZƏRİYYƏSİNDƏ GƏLƏCƏK NƏSİLLƏRƏ YÖNƏLİK KƏNARLAŞMALARIN XÜSUSİYYƏTLƏRİ

***Ələsgərova A.A.***

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Xülasə**

*Tezisdə dayanıqlı iqtisadi inkişafın formalaşdırılmasının kompleks mexanizmi nəzəri şəkildə təhlil edilmişdir. Tədqiqat obyekti kimi Azərbaycan Respublikası iqtisadiyyatının müasir vəziyyəti əsas götürülmüşdür. Tədqiqatın məqsədi dayanıqlı iqtisadi inkişafda gələcək nəsillərə yönəlik balanslaşdırılma üsullarını nəzərdən keçirməkdir. Elmi araşdırmanın yeniliyi iqtisadi əlaqələrin formalaşdırılması xüsusiyyətlərini üzə çıxarmaqdır.*

***Açar sözlər:*** *dayanıqlı inkişaf, müvəqqəti kənarlaşmalar,qlobal kənarlaşmalar, sektorlararası kənarlaşmalar, yerli kənarlaşmalar*

Dayanıqlı iqtisadi inkişaf nəzəriyyəsi son illərin ən çox tədqiq edilən, sürətlə inkişaf edən və tanınmış yeni nəzəriyyəsi deyil, həm də tamamilə praktik nəzəriyyə kimi təzahür edir. Belə ki, dünyanın əksər inkişaf etmiş dövlətləri dayanıqlı iqtisadi inkişafı təqib etməyi vacib sayır, eləcə də son dövrlər faktiki olaraq bütün rəsmi dövlət və beynəlxalq sənədləri baza ideologiyası qismində dayanıqlı inkişaf anlayışını tətbiq edir.

Hal-hazırda qəbul edilmiş iqtisadi qərarların uzunmüddətli nəticələri dayanıqlı iqtisadi inkişaf anlayışının mərkəzində durur. Növbəti nəsillər üçün mənfi iqtisadi fəsadlar, gələcək kənarlaşmalar minimallaşdırılmalıdır. Bununla da iqtisadi məhdudiyyətlər, cari və gələcək istehlak arasında kompromis problemi istənilən ölkənin uzunmüddətli perspektivdə sosial-iqtisadi inkişaf strategiyasının işlənib hazırlanmasına zəmin yaratmalıdır.

"Dayanıqlı inkişaf" – hazırkı dövrün tələblərini ödəməklə yanaşı, gələcək nəsillərin tələbatlarının ödənilməsini təhlükə altında qoymayan inkişaf üsuludur.[5] Buraya iki əsas anlayış daxildir:

• ilkin dərəcəli prioritet predmeti olacaq fərqli tələbatların, xüsusilə də əhalinin ən yoxsul təbəqələrinin yaşayışı üçün zəruri olan tələbatların anlaşılması;

• cəmiyyətin texnoloji və təşkilati vəziyyətilə şərtlənən, ətraf mühitin cari və gələcək tələbatlarını ödəmək qabiliyyətinin üzərinə qoyulan məhdudiyyətlərin anlaşılması."

Eləcə də dayanıqlı inkişafın ayrı-ayrı mühüm iqtisadi aspektlərini əks etdirən qısa təriflər mövcuddur. Belə təriflər arasında aşağıdakıları ayırd etmək olar:

• gələcək nəsillərə əlavə məsrəfləri yükləməyən inkişaf;

• nəsillər arasında mənfi kənarlaşmaları, xarici təsirləri minimallaşdıran inkişaf;

• perspektivdə istehsal potensialının bəsit və ya genişləndirilmiş daimi təkrar istehsalını təmin edən inkişaf.

Dayanıqlı inkişafın yuxarıda göstərilən tərifinə nəsillərin iqtisadi münasibətlər prizmasından yanaşdıqda, sosial aspekti, yoxsulluq problemini vurğulayan müasir nəslin içərisi və ekoloji-iqtisadi aspekti ortaya çıxaran nəsillər arası bölgüsünü ayırd etmək mümkündür.

Dayanıqlı iqtisadi inkişaf konsepsiyasının məqsədi iqtisadi, sosial və ekoloji olmaqla üç əsas məqsədi vahid sistemdə birləşdirməkdir.

Dayanıqlı inkişaf konsepsiyasının qlobal xarakteri, adı çəkilən konsepsiyada ən mürəkkəb ekoloji, iqtisadi, sosial problemlərin toqquşması hətta yuxarıda qeyd edilən qısa təsvirdə üzə çıxır [1,səh. 231].

Görkəmli fizik Nils Borun təbirincə desək, heç bir mürəkkəb fenomeni bir dilin köməyilə, başqa sözlə, hər hansı bir təfsir və ya paradiqma əsasında ifadə etmək mümkün deyil.

Dayanıqlı iqtisadi inkişafda proqram-məqsədli idarəetmə son məqsədlərin dəqiq müəyyən edilməsi və qoyuluşundan başlayır. Bu məqsədlər adi arzuolunan situasiyanı ək etdirir. İdarəetmə sistemi, verilən situasiyanı arzuedilən situasiyadan ayıran bir sıra problemlər həll edildikdən sonra müəyyən dövr ərzində verilmiş situasiyadan həmin situasiyaya keçməlidir [2,səh. 33]. “Proqram məqsədli idarəetmə” yanaşmasını nəzərdən keçirməklə, keyfiyyət etibarilə nəticədən yararlanmaq, daha dəqiq desək, arzuolunan dəyişikliklərin hansı istiqamətdə gedəcəyi barədə mülahizə yürütmək yerinə düşərdi.




*Şəkil 1. Dayanıqlı iqtisadi inkişaf konsepsiyasında hədəfin sxematik təsviri.*

Dayanıqlı iqtisadi inkişafın məqsədi ölkənin təkcə indiki nəslinin deyil, həm də gələcək nəsillərinin əlverişli yaşayışını təmin etməkdir [3,səh 21]. Gələcəyə yönələn nəsillər arasında tarazlığın qorunmasında kənarlaşmalara nəzər salaq. Kənarlaşmalar anlayışını zamanda, sektor və regionlar müxtəlif təsir növlərindən asılı olaraq geniş aspektdə şərh edərkən xarici effektlərin aşağıdakı növlərini ayırd etmək olar:

**Müvəqqəti (nəsillərarası) kənarlaşmalar** dayanıqlı iqtisadi inkişaf konsepsiyası ilə sıx əlaqədədir. Müasir nəsil öz tələbatlarını, gələcək nəsillərin zəruri yaşayış tələbatlarını ödəmək imkanlarını azaltmamaq şərtilə ödəməyə çalışmalıdır. Hal-hazırda bəşəriyyətin səbəb olduğu qlobal ekoloji problemlər, bərpa olunmayan enerji ehtiyatlarının çatışmazlığı, ətraf mühitin çirklənməsi halları gələcək nəsillərin tələbatlarını ödəmək imkanlarını məhdudlaşdıraraq onlar üçün nəhəng ekoloji, iqtisadi, sosial problemlər qoyub gedir. Burada prinsipal iqtisadi məqam mövcud texnogen inkişaf şəraitində müasir nəslin gələcək dövrlərə əlavə, kənar məsrəflər qoyub getməsidir. Belə ki, yaxın gələcəkdə neft-qaz ehtiyatlarının tükənməsi, kənd təsərrüfatı sahələrinin kütləvi surətdə deqradasiyası gələcəkdə nəhəng enerji və ərzaq qıtlığı çətinlikləri, ilkin dərəcəli ehtiyacların qarşılanmasına çəkilən məsrəflərin müasir dövrlə müqayisədə kəskin artımını şəklində təzahür edəcəkdir. Bunu hazırda baş verən müvəqqəti mənfi kənarlaşmalar sübut edir.

Lakin müvəqqəti müsbət kənarlaşmalar da mümkündür. Texnoloji sıçrayışlar, müasirlərin elmi-texniki inqilabı gələcəkdə məsrəflərin azaldılmasına zəmin hazırlayır. Məsələn, günəş, külək, dəniz dalğaları və s. mənbələrdən hasil edilən ucuz enerji istehsalı texnologiyalarının mənimsənilməsi gələcəkdə əhəmiyyətli dərəcədə iqtisadi təsirini göstərəcəkdir.

**Qlobal (ölkələrarası) kənarlaşmalar** planet miqyasında artıq sərhədlərarası çirklənmələrlə əlaqədar olan bir sıra konkret problemlər meydana gətirmişdir. Atmosferə kimyəvi birləşmələrin buraxılması, çayların çirklənməsi və digər ekoloji təsirlər başqa ölkələrdə mühüm ekoloji-iqtisadi problemlər yaradır. Məsələn, Böyük Britaniyada çirkləndiricilərin köçürülməsi İsveçin şimalında ölü göllərin yaranmasına, ətraf mühitin mühafizəsinə əlavə xərclər ayırmaq zərurətinə gətirib çıxarır. Dünyada bu qəbildən olan mənfi ekoloji təsirlər geniş vüsət almaqdadır. Hazırda dünya ictimaiyyəti bu problemin əhəmiyyətini dərk edir. Sərhədlərarası çirklənmələrlə mübarizəyə dair ölkələrin öhdəliklərinin öz əksini tapdığı xüsusi ümumdünya konvensiya və sazişləri imzalanır.

**Sektorlararası kənarlaşmalar.** Xüsusilə təbiətdən istifadə edən iqtisadi sektorların inkişafı digər sektorlara böyük həcmdə ekoloji zərər yetirir. Sektorlararası kənarlaşmaların müsbət tərəfi bu sektorlardan birinin inkişafının digər sektorlara yaxşı ekoloji-iqtisadi təsir göstərməsində təzahür edə bilər. Buna ekoloji problemlərin alternativ həlli, iqtisadiyyatın struktur baxımdan yenidən qurulması vasitəsilə nail olunur.

**Yerli kənarlaşmalar.** Bu hal iqtisadi ədəbiyyatda daha geniş araşdırılmışdır. Adətən, məhdud ərazidə çirkləndirici müəssisə nəzərdən keçirilir və onun fəaliyyətinin çirklənməyə məruz qalan digər müəssisələrdə, əhalidə və təbiət obyektlərində yaratdığı kənarlaşmalar təhlil edilir.

Sosial fəsadların nəzərə alınması. Kənarlaşmalarla bağlı məsrəf və fəsadları ilk dəfə 1920-ci ildə Piqu tədqiq etmişdir. O, şəxsi, sosial və fərdi fəsadları, bütün cəmiyyətin məsrəflərini fərqləndirirdi. Piqu göstərirdi ki, çirklənmə fəsadların artımına gətirib çıxarır [4,səh. 374]. Aydındır ki, mənfəəti yüksəltmək üçün şəxsi xərclərin minimallaşdırılması istənilən sahibkarın başlıca məqsədidir. Burada ən sadə yol təbiətdən mühafizə məsrəflərindən keçir. Bu zaman istehsalçı əmələ gətirdiyi tullantıları və çirklənməni nəzərə almır, buna görə də, onların aradan qaldırılmasına çəkilən xərcləri məhsulun maya dəyərinə daxil etmir. Bu halda cəmiyyət, ayrı-ayrı insanlar, müəssisələr və s. meydana gəlmiş zərəri aradan qaldırmaq üçün şəxsi vəsaitlərini sərf etmək məcburiyyətində qalır. Beləliklə, məhsul istehsalına ayrılan sosial məsrəf və fəsadlar maya dəyəri formasında qiymətləndirilən fərdi və kənar fəsadlardan ibarət olacaqdır.

**Ədəbiyyat**

1. Андрей Б., Митя Б., Майя М. Устойчивое развитие. Экономические, социальные и экологические аспекты. М.: 2014.

2. Управление социально-экономическим развитием территорий. Крутиков В.К., Зайцев Ю.В., Дорожкина Т.В., Костина О.И., Федорова О.В., Калуга, 2015.

3. İnsan inkişafı (tədris vəsaiti). Birləşmiş Millətlər Təşkilatinin İnkişaf Proqramı. Bakı, 2014.

4. Arsenio Balisacan, Ujjayant Chakravorty, Majah-Leah Ravago; "Sustainable Economic Development:1st Edition"; 2014

5.http://csrjournal.com/ustojchivoe-razvitie-koncepciya-principy-celi

**Резюме**

***Аласгарова А.А.***

**Особенности конфигураций работы в области устойчивого экономического развития**

*Комлексный механизм образования устойчивого экономического развития был теоретически проанализирован в рамках тезиса. В качестве объекта исследования был выбрано современное состояние экономики Азербайджана. Цель исследования заключается в рассмотрении способов балансирования, ориентированного на будущие поколения в устойчивом экономическом развитии. Научная новизна исследования состоит в выявлении особенностей формирования экономических отношений.*

***Ключевые слова***: *устойчивое развитие, временные отклонения, глобальные отклонения, межсекторальные отклонения, локальные отклонения.*

**Summary**

***Alasgarova A.A.***

**Features of Work Configurations in the Effective Economic Development Theory**

*The comprehensive mechanism for the formation of sustainable economic development was theoretically analyzed within the framework of the thesis. The modern state of the Azerbaijani economy was chosen as the object of the study. The aim of the study is to consider ways of balancing, oriented to future generations in sustainable economic development. The scientific novelty of the research consists in revealing the features of the formation of economic relations.*

***Key words:*** *sustainable development, temporary deviations, global deviations, intersectoral deviations, local deviations*

## AZƏRBAYCANIN İQTİSADİ TƏHLÜKƏSİZLİK PRİORİTETLƏRİ

***Əliyev Ş.T.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Məqalədə Azərbaycanın iqtisadi təhlükəsizlik prioritetləri və bununla bağlı məsələlər tədqiq olunmuşdur. Olkə iqtisadiyyatının inkişafı üzrə dinamika və iqtisadi təhlükəsizlik baxımından mühüm indikatorlar təhlil edilmişdir. Milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi vacibliyi əsaslandırılmışdır. İqtisadi təhlükəsizlik baxımından ölkə iqtisadiyyatının bir sıra fəaliyyət istiqamətləri üzrə ümumiləşdirmələr aparılmış və tövsiyələr hazırlanmışdır.*

***Açar sözlər:*** *milli-iqtisadi təhlükəsizlik, iqtisadi təhlükəsizlik mexanizmləri, iqtisadi təhlükəsizlik indikatorları, qlobal iqtisadi təhlükələr, milli iqtisadiyyatın inkişafının strateji hədəfləri*

Dünyanın istənilən bir ölkəsinin özünəməxsus milli təhlükəsizlik və milli iqtisadi təhlükəsizlik yanaşmaları, konsepsiyaları və strategiyalarının olması son 50-70 ildə dünya iqtisadi proseslərində və ölkələrin milli iqtisadi inkişaf sisteminin gücləndirilməsində müşahidə olunan mühüm amillərdəndir. İqtisadi təhlükəsizlik problemi və məsələsi dövlətin iqtisadi siyasətinin əsas tərkib hissəsini təşkil edir. Azərbaycan SSRİ-nin tərkibində olduğu dövrdə milli iqtisadi təhlükəsizlik siyasətinin sərbəst şəkildə formalaşdırılması və yürüdülməsi qeyri-mümkün idi.

Ölkəmiz öz müstəqilliyini bərpa etdikdən sonra təxirəsalınmaz vəzifələrdən biri də milli iqtisadi təhlükəsizliyin təmin edilməsi konsepsiyasının müəyyənləşdirilməsi və bununla əlaqədar olaraq strateji vəzifələrin həyata keçirilməsindən ibarət olmuşdur. Belə ki, 1990-cı illərin əvvəllərində ölkənin siyasi və iqtisadi sistemlərində xaos hökm sürürdü. Hakimiyyətdə olanların hələlik milli iqtisadi maraqları təmin etmək iqtidarında olmadığından, ölkənin iqtisadi sistemi dağılmış, baza müəssisələrin əksəriyyəti fəaliyyətini dayandırmış və ya qeyri-səmərəsiz işləmişdir. İslahatlara başlamaq üçün qanunvericilik bazası, maliyyə vəsaitləri və siyasi iradə tələb olunurdu. Bütün bu proseslər ümumimilli liderimiz Heydər Əliyevin tarixi səyləri nəticəsində 1993-cü ilin ortalarından başlayaraq tədricən kompleks, sistemli və ardıcıl xarakter almışdır [1]. Həmin dövrdə Azərbaycanın iqtisadi təhlükəsizliyinin gücləndirilməsini şərtləndirən əsas amillər bunlar olmuşdur:

- Ölkənin milli maraqlarına cavab verən milli iqtisadi sistem formalaşdırmaq tələb olunurdu;
- Milli iqtisadi inkişaf ənənələri və tendensiyaları, milli iqtisadiyyatın inkişaf xüsusiyyətləri nəzərə alınmaqla, milli iqtisadi inkişaf modelinin formalaşdırılması vacib idi;
- Azərbaycanın güclü ehtiyatlara malik təbii sərvətlərindən milli maraqlara uyğun istifadənin iqtisadi-təşkilati əsasları yaradılması və fəaliyyət proqramı hazırlanmalı idi;
- Ölkəmizin neft və qaz kimi qiymətli resurslarının hasilatı və onların dünya bazarlarına çıxarılmasının təmin olunması üçün mürəkkəb vəzifələrin öhdəsindən gəlinməsi tələb olunurdu;
- Bazar iqtisadiyyatına keçidlə əlaqədar iqtisadiyyatın mexanizmləri idarəetmə sistemləri yenidən yaradılmış, idarəetmə strukturları formalaşdırılmış və institusional islahatlar aparılmasına zərurət yaranmışdı;
- Ölkə sənayesinin potensialının bərpası və onun prioritet sektorlarının inkişafının yenidən təmin olunması, bu sahələrin modernizasiyası və yüksək texnologiyalar əsasında gücləndirilməsi tələb olunurdu;
- Kənd təsərrüfatı və aqrar sahədə islahatların aparılması, bu sahələrin inkişafı hesabına ölkə əhalisinin yarısından çoxunun kənd rayonlarında yaşaması amili əsas götürülməklə regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi vacib idi;
- Ölkədə sahibkarlıq və biznes mühitinin yaxşılaşdırlması, bu sahələrin inkişafına imkan verən qanunvericilik bazasının formalaşdırılması, süni maneələrin aradan qaldırılması, stimullaşdırıcı mexanizmlərin dövriyyəyə cəlb edilməsi tələb olunurdu;
- Milli məhsulun və ölkə ÜDM-nin artım dinamikasının təmin edilməsi, biznesin və sahibkarlıq fəaliyyətinin səmərəliliyinə nail olunması, məhsuldarlıq, əmək bazarı və maliyyə amillərinin nəzərə alınması, ölkədə milli iqtisadiyyatın inkişaf sahələrinin yeni tələblərə uyğun modelləşdirilməsi lazım gəlirdi;
- Ölkənin ixrac potensialının gücləndirilməsi, milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektoru sahələrinin inkişafının sürətləndirilməsi tədbirlərini həyata keçirmək zərurəti yaranmışdı;
- Ümumilikdə ölkədə əhalinin sosial-iqtisadi problemlərinin həll edilməsinə imkan verən iqtisadi siyasətin formalaşdırılması və bazar mexanizmləri əsasında inkişaf təmin edilməli idi;
- Ölkə əhalisinin rifahının yaxşılaşdırılması, mühüm qida və ərzaq növləri ilə təmin olunması, ümumilikdə iqtisadi təhlükəsizlik mexanizmlərinin formalaşdırlması və gücləndirilməsi, makroiqtisadi – maliyyə sabitliyinin təmin edilməsi lazım idi və s.

Azərbaycan öz müstəqilliyinin ilk illərindəki strateji vəzifələrin reallaşdırlması, dövlət atributlarının formalaşdırılması, siyasi və iqtisadi sistemlərin mexanizmlərinin yaradılması və praktiki alətlərinin müəyyənləşdirilməsi proseslərindən sonra, şübhəsiz, ilk növbədə, milli təhlükəsizlik və iqtisadi təhlükəsizlik konsepsiyalarının milli və milli iqtisadi maraqlar çərçivəsində formalaşdırılması vəzifəsinin öhdəsindən gəlməli idi. Bununla əlaqədar olaraq, ölkəmizdə milli iqtisadiyyatın əsas mexanizmlərinin möhkəmləndirilməsi və milli iqtisadi maraqlar çərçivəsində inkişafının təmin edilməsi proseslərinin intensivləşdirilməsinə başlanmışdır. Ölkəmizdə "Neft strategiyası"nın reallaşdırlması ilə əlaqədar olaraq, digər iqtisadiyyat sahələrinin inkişafının modelləşdirilməsi və ümumilikdə iqtisadi islahatların aparılması proseslərinin sürətləndirilməsinə nail olunmuşdur [2;3].

1995-2003-cü illərdə ölkəmizdə makroiqtisadi sabitlik nəinki təmin olunmuş, eyni zamanda həmin dövr ərzində ölkədə iqtisadi islahatların əsas fazası milli iqtisadi maraqlar çərçivəsində həyata keçirilmişdir. Bazar iqtisadiyyatı mexanizmləri əhəmiyyətli dərəcədə inkişaf etdirilmiş, aqrar islahatlar aparılmış və torpaqlardan səmərəli istifadə olunması mexanizmləri yaradılmış, region əhalisinin əkinçilik, bitkiçilik və

heyvandarlıqla daha məhsuldar məşğul olmasını təmin etmək üçün əhaliyə torpaqların paylanması həll edilmiş, sahibkarlığın, fermer təsərrüfatlarının, biznes subyektlərinin inkişafı mexanizmləri, o cümlədən stimullaşdırıcı mexanizmlər hazırlanaraq tətbiq olunmuşdur. 2003-cü ilin sonlarından başlayaraq Azərbaycanda sosial-iqtisadi inkişafın yeni mərhələsi, daha intensiv mərhələsi diqqət çəkmişdir. Artıq neft ixracından əldə edilən maliyyə vəsaitləri hesabına ölkə iqtisadiyyatının digər sahələrinin inkişafı proseslərini sürətləndirmək üçün tarixi şans yaranmışdı. Bu amil əsas götürülməklə ölkənin iri şəhərlərində və regionlarında zəruri infrastruktur obyektlərinin, o cümlədən yolların, körpülərin, aeroportların, elektrik enerjisi, təbii qaz və içməli su təchizatı ilə bağlı mühəndis qurğularının, kommunal obyektlərin, su kanallarının, yüzlərlə sənaye müəssisələrinin, emal qurğularının, istehsal və sosial obyektlərin tikintisi və istismarı təmin edilmişdir.

Azərbaycanda iqtisadi təhlükəsizliyin müxtəlif indikatorları üzrə son 10-15 il ərzində davamlı və ardıcıl tədbirlər görülməkdədir [4]. İqtisadi təhlükəsizliklə, həmçinin ölkənin dinamik inkişafı ilə bağlı dövlət proqramları, strategiyalar və konsepsiyalar, qanunvericilik hazırlanmış, tədbirlər reallaşdırılmış, bir hissəsi üzrə isə icra prosesləri davam etməkdədir [5;6;7;8]. Dünya bazarlarında əsas ixrac məhsulumuz olan neftin qiymətinin aşağı düşməsindən sonra, həmçinin dünya maliyyə böhranının, qlobal iqtisadi proseslərin mənfi təsirinin nəticələrinin ölkəmizin milli iqtisadi sisteminə təhdidlərinin qarşısının alınması və onların mənfi fəsadlarının azaldılması istiqamətində strateji hədəflər və fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. Milli iqtisadiyyatın perspektiv inkişafı üzrə strateji yol xəritəsində öz əksini tapmış bu qəbildən olan tədbirlərin reallaşdırılmasına başlanmışdır [9].

Ölkəmizin milli iqtisadi təhlükəsizliyinin təmin edilməsində əsas əhəmiyyət kəsb edən bir qrup indikatorlar üzrə göstəricilərə nəzərə salmağı məqsədəuyğun hesab etmişik.

Şəkil 1-də 2000-2016-cı illər ərzində Azərbaycanda ÜDM-in dinamikası verilmişdir.




***Şəkil 1. Azərbaycanda ÜDM-in dinamikası, mlrd. manat, 2000-2016-cı illər (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. http://www.stat.gov.az)***

2000-2016-cı illər ərzində ÜDM-in ümumi həcmi 12,9 dəfəyə yaxın artmışdır və 2016-cı ilin yekununda 60,4 mlrd. manat təşkil etmişdir.

Şəkil 2-də 2000-2016-cı illər üzrə Azərbaycanda adambaşına düşən ÜDM-in dinamikası öz əksini tapmışdır. 2000-ci ildə bu göstərici 593,2 manat, 2005-1494,3 manat, 2010-4763 manat, 2015-5706,6 manat və 2016-cı ildə isə - 6266,3 manat təşkil etmişdir.




***Şəkil 2. Azərbaycanda adambaşına düşən ÜDM-in dinamikası, manat, 2000-2016-cı illər (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. http://www.stat.gov.az).***

Qeyri-neft sektorunun inkişafının səmərəli təşkili milli iqtisadi təhlükəsizliyin təmin edilməsində əhəmiyyətli rol oynayır.

Şəkil 3-də Azərbaycanda 2006-2016-cı illər üzrə qeyri-neft sektorunun ÜDM-də payının dinamikası verilmişdir.




***Şəkil 3. Azərbaycanda qeyri-neft sektorunun ÜDM-də payının dinamikası, mlrd. manat, 2000-2016-cı illər (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. http://www.stat.gov.az).***

2006-cı ildən 2015-ci ilədək olan dövrdə bu dinamika artım nümayiş etdirmişdir və 2006-cı ildəki 7,6 %-dən 2010-cu ildə 19,2 %, 2015-ci ildə isə 34,5 %-ə qədər artmışdır. Lakin, 2016-cı ildə bu göstərici bir qədər azalaraq 32,9 % səviyyəsinə düşmüşdür.

Şəkil 4-də isə Azərbaycanda 2012-2016-cı illər üzrə ÜDM-də qeyri-dövlət bölməsinin payı öz əksini tapmışdır. Bu göstərici 2012-ci ildə 81,5 % olduğu halda, 2015-ci ildə bir qədər azalaraq 81,2 % təşkil etmiş, amma 2016-cı ildə artaraq 83,6 % səviyyəsinə çatmışdır.




***Şəkil 4. Azərbaycanda ÜDM-də qeyri-dövlət bölməsinin payı, %-lə, 2012-2016-cı illər (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. http://www.stat.gov.az)***

Şəkil 5-də 2011-2016-cı illər üçün Azərbaycana xarici investisiyaların cəlbinin dinamikası öz əksini tapmışdır. Son illərdə investisiyaların həcmi eyni səviyyədə qalmış və 2016-cı ilin yekununda 10,2 mlrd. dollar təşkil etmişdir.




***Şəkil 5.Azərbaycana xarici investisiyaların cəlbinin dinamikası, mlrd. $, 2011-2016-cı illər (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. http://www.stat.gov.az).***

Şəkil 6-da isə Azərbaycanın qeyri-neft sektoruna xarici investisiyaların 2011-2016-cı illər ərzində cəlbinin dinamikası verilmişdir. 2011-2015-ci illərdə ölkənin qeyri-neft sektoruna xarici investisiyaların cəlbi istiqamətində fəallıq təmin olunmamışdır, ancaq 2016-cı ildə 2015-ci ilə nisbətən investisiyalatın həcmi iki dəfəyə yaxın artmış və ilin yekununda 1,7 mlrd. dollar olmuşdur (bax: Şəkil 6).




***Şəkil 6.Azərbaycanın qeyri-neft sektoruna xarici investisiyaların cəlbinin dinamikası, mlrd. $, 2011-2016-cı illər (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. http://www.stat.gov.az).***

Ölkənin iqtisadi təhlükəsizliyinin optimal təmin edilməsində xarici dövlət borclarının tənzimlənməsi və təhlükəli həddə çatdırılmaması vacib əhəmiyyət kəsb edir. Azərbaycan son illərdə borc götürən ölkələrdən donor ölkələr sırasına keçmək tendensiyasını formalaşdıran dövlətlərdəndir. Amma, bununla belə, son illərdə ölkə valyutasının ikiqat devalvasiyası bu sahədə ehtiyatlı davranışı şərtləndirir. Baxmayaraq ki, 2015-2017-ci

illərdə dollar ifadəsində ölkə borcu əhəmiyyəti səviyyədə artmayıb, amma manat nisbətində bu borcun həcmi xeyli artıb və bütün bunlar narahatlıq doğurur (bax: Şəkil 7).




***Şəkil 7.Azərbaycanda xarici dövlət borcunun dinamikası, mlrd. $, 2005-2017-ci illər (Azərbaycan Respublikası Maliyyə Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. http://www.maliyye.gov.az).***

Azərbaycanda 2005-2017-ci illər ərzində xarici dövlət borcunun ÜDM-ə olan nisbəti verilmişdir. 2010-2015-ci illərdə bu nisbət sabit olaraq qalmasına baxmayaraq (8 %-8,6 %), 2016-cı ilin əvvəlinə 19,8 %, 2017-ci ilin əvvəlinə isə 20,4 % təşkil etmişdir.

İqtisadi təhlükəsizliyin vacib komponentlərindən biri olan valyuta ehtiyatlarının formalaşdırılması, onların səmərəli idarə edilməsi və istifadə proseslərinin optimallığı ölkəmiz üçün kifayət qədər aktual məsələlərdəndir. Bu məsələlər ilə ölkəmizdə ixtisaslaşdırılmış müasir qurum – Azərbaycan Respublikası Dövlət Neft Fondu məşğul olur. Valyuta ehtiyatlarının həcmi 2010-cu ildə 29,8 mlrd., 2014-cü ildə 50,9 mlrd. dollar, 2016-ci ildə 37,2 mlrd. dollar, 2017-ci ildə isə 41,1 mlrd. dollar olmuşdur.

Beləliklə, Azərbaycan yaxın illərdə özünün iqtisadi təhlükəsizliyinin gücləndirilməsi, bununla əlaqədar olaraq daha təsirli tədbirlərin görülməsi üçün müəyyənləşdirilmiş strateji hədəflərə və maliyyə resurslarına malikdir. Əsas vəzifə milli iqtisadiyyatın qlobal iqtisadi təhdidlərə qarşı müqavimətinin artırılması, antiböhran şəraitində iqtisadi sabitliyinin qorunması mexanizmlərinin hazırlanması, milli iqtisadiyyatın müəyyənləşdirilmiş strateji inkişaf hədəflərinin reallaşdırılması, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin gücləndirilməsi, ixrac potensialının əhəmiyyətli səviyyədə artırılması və ümumilikdə, iqtisadi təhüləsizlik baxımından vacib olan mühüm indikatorlar üzrə dinamik inkişafın təmin edilməsidir.

**Ədəbiyyat**

1. Mehdiyev R.Ə. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı: XXI əsr Yeni Nəşrlər evi, 2005, 464 s.

2. Əliyev Ş.T. Azərbaycanın xarici iqtisadi siyasəti. Dərs vəsaiti. Sumqayıt Dövlət Universitetinin nəşriyyatı, 2015, 185 s.

3. Əliyev Ş.T. İqtisadi diplomatiya. Dərs vəsaiti. Bakı, Elm və təhsil, 2012, 196 s.

4. Ataşov B. İqtisadi təhlükəsizlik problemləri: Kölgə iqtisadiyyatının və korrupsiyanın cilovlanmasına dair bəzi mülahizələr//"İqtisadiyyat və audit".2008, №8(98),s.5-8.

5. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2012. -39 s.

6. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir.

7. "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 29 iyun 2004-ci il. №712- IIQ.

8. "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 18 yanvar 2016-cı il.

9. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.

**Резюме**

***Алиев Ш. Т.***

**Приоритеты экономической безопасности Азербайджана**

*В статье исследованы приоритеты экономической безопасности Азербайджана и вопросы, связанные с ней. Анализированы важные индикаторы с точки зрения экономической безопасности и динамика развития экономики страны. Обоснована важность совершенствования структуры национальной экономики. Обобщен и подготовлен ряд рекомендаций в контексте экономической безопасности по ряду направлений деятельности экономики страны.*

***Ключевые слова:*** *экономическая безопасность, механизмы экономической безопасности, индикаторы экономической безопасности, глобальные экономические угрозы, стратегические цели развития национальной экономики*

**Summary**

***Aliyev Sh.T.***

**Priorities of Azerbaijan's Economic Security**

*The priorities of Azerbaijan's economic security and issues related to it are examined in the article. Important indicators in terms of economic security and the dynamics of the country's economic development are analyzed. The importance of improving the structure of the national economy is substantiated. A number of recommendations in the context of economic security in a number of areas of the country's economy are generalized and prepared.*

***Key words:*** *economic security, mechanisms of economic security, indicators of economic security, global economic threats, strategic goals of the development of the national economy.*

# AZƏRBAYCANIN NEFTQAZÇIXARMA MÜƏSSİSƏLƏRİNİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN KADR VƏ İNTELLEKTUAL TƏMİNEDİCİLƏRİ

***Əliyev T.N.***

*AMEA-nın İqtisadiyyat İnstitutu*

**Xülasə**

*Məqalədə neftqazçıxarma müəssisələrinin iqtisadi təhlükəsizliyinin kadr və intellektual təminedicilərilərinin formalaşdırılmasının metodoloji aspektləri açıqlanmış, SOCAR-ın timsalında kadrlardan istifadənin mövcud durumu, onların intellektual səviyyəsini xarakterizə edən göstəricilər təhlil edilmiş, intellektual mülkiyyətin qorunub saxlanması tədbirləri sistemləşdirilmişdir.*

***Açar sözlər:*** *Neftqazçıxarma müəssisələri, SOCAR, iqtisadi təhlükəsizlik, məqsədli proqramlar, kadr, intellektual təminat*

Bazar iqtisadiyyatı şəraitində müəssisənin əmək fəaliyyəti mürəkkəb sistem olub, işçilərin maddi nemətlərin, istehsalı, bölüşdürülməsi və istehlakı prosesində qarşılıqlı əlaqəsini özündə əks etdirir. İqtisadi fəaliyyət sahəsində çalışan hər bir işçinin öz zəhməti müqabilində qarşıya qoyduğu məqsəd faydalı məhsul istehsal edərək istehsalın təşkili amilinin birinə çevrilməkdir [2]

Odur ki, müəssisənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində kadrların tərkibi, quruluşu və intellektual səviyyəsi müstəsna əhəmiyyət kəsb edir. Bütünlükdə həmin təhlükəsizliyin səviyyəsi bir sıra indiqatorlar qrupunun köməyi ilə qiymətləndirilir. Onlara: müəssisənin intellektual potensialının vəziyyətini xarakterizə edən indiqatorlar öz əhatə dairəsinə görə fərqlənir. Onların içərisində heyətin təhlil səviyyəsi, yaradıcılıq təşəbbüsü, bir işçiyə düşən ixtira və səmərəliləşdirici təkliflərin, patentlərin, sertifikatların, lisenziyaların sayı, elmi dərəcəsi olanların sayı, rəhbər işçilərin və mütəxəssislərin orta yaş həddi və s. daxildir. [1]

Sənaye müəssisələrində işçilərin intellektual səviyyəsi onların yaradıcı prosesdə iştirakı ilə xarakterizə edilir. Yaradıcı prosesin subyektlərinə ilk növbədə ideyanı formalaşdıran, tətbiq üçün hazırlayan və digər iqtisadi fəaliyyət sahələrinə və yaxud idarəetmə səviyyələrinə yönəldilən-ideoloqlar aiddir. Yeni ideyanı formalaşdıra bilməyən opponent və tənqidçi statusunda çıxış edənlər - **eruditlərdir**. Həmin prosesdə digər iştirak edənlər adətən amilləri sistemləşdirir, tələb olunan zəruri informasiyaları toplayıb qeydə alır və onların ilkin emalını həyata keçirirlər (şəkil1).




**Şəkil 1. Yaradıcı prosesin iştirakçılarının tərkibi və əhatə dairəsi 1;2]**

Qeyd edilən nəzəri-metodoloji yanaşma baxımından respublikamızın neftqazçıxarma sənayesini idarə edən sistemində kadrlardan səmərəli istifadə və onların intellektual səviyyəsinin yüksəldilməsi istiqamətində məqsədli-sistem yanaşmaya əsaslanan çoxsaylı təşkilati-iqtisadi və motivləşdieici tədbirlər həyata keçirilir.

Əvvəlcə onu qeyd etmək vacibdir ki, son illər ölkədə aparılan uğurlu islahatlar və struktur dəyişiklikləri kontekstində neftqazçıxarma sənayesini təmsil edən SOCAR sistemində müasir idarəetmə texnologiyalarının tətbiqi nəticəsində işçilərin sayı, onların sosial-demokratik tərkibi intellektual səviyyəsində əsaslı şəkildə keyfiyyət dəyişiklikləri baş vermişdir. Orada neftqazçıxarma sənayesinin inkişafına dair məqsədli elmi-texniki, iqtisadi və sosial proqramlar işlənib hazırlanmış və uğurla həyata keçirilir. SOCAR-da korporativ prinsiplərə əsaslanan mərkəzləşdirilmiş idarəetmə sistemi tətbiq edilir. Bu sistemə şirkətin rəhbərliyi, kollegial şurası və aşağıdakı komitələr daxildir: kadrların idarə edilməsi; informasiya təhlükəsizliyi; audit; satınalmalar və risklər üzrə komitələr SOCAR-ın qarşısında duran vacib məsələlərdən biri regionda rəqabətli və ən yüksək ödənişli iş yerinə çevrilməkdir. Bu məsələnin həlli üçün şirkət özünün idarə edən və idarə olunan sistemlərinə yüksək biliyə və təcrübəyə malik mütəxəssisləri cəlb edir və onlarla davamlı əməkdaşlıq qurulmasına önəm verir.

SOCAR üzrə kadrların intellektual səviyyəsini xarakterizə edən göstəricilərin təhlili zamanı aşkar edilmişdir ki, təkcə -2013-2016-cı illərdə yuxarıda qeyd edilən sturktur dəyişiklikləri nəticəsində işçilərin orta siyahı sayı 22,7%, o cümlədən rəhbər işçilərin sayı-24%, mütəxəssislərin sayı 14,6%, rəhbər işçilərin və mütəxəssislərin tərkibində qadınların sayı 22,4 % azalmışdır. Şirkət üzrə ali təhsilli kadrların sayında nisbi azalma baş versə də, onların bütün işçilərinin tərkibindəki xüsusi çəkisi qeyd edilən illər ərzində 1,5 punkt artaraq-32,6 % təşkil etmişdir. Həmin dövrdə SOCAR sistemində çalışan elmlər və fəlsəfə doktoru adına layıq işçilərin sayı 36 nəfər azalsa da, onların bütün işçilərinin tərkibindəki xüsusi çəki dəyişməmişdir. Dünyanın nüfuzlu universitetlərinin və Bakı Ali Neft Məktəbinin məzunlarının SOCAR-da rəhbər işçi vəzifələrinə təyin edilməsi onların orta yaş həddinin 2013-cü ildə 58 yaşdan, 2016-cı ildə -41 yaşa enməsinə təminat yaratmışdır.[3]

SOCAR-da "İnsan resursları funksiyasının transformasiya proqramı" işlənib hazırlanmış və ilk olaraq pilot - versiya kimi "Azneft" İB-nin idarə aparatında və

"28 may", eləcədə Ə.C. Əmirov adına NQÇİ-də tətbiq edilməyə başlamışdır.

Həmin proqram özündə aşağıdakı istiqamətləri əks etdirir: sərbəstliyin idarə edilməsi; fəaliyyətin səmərəliliyi; işə qəbulun idarə edilməsi; təlim və inkişafın idarə edilməsi. Adı çəkilən proqram çərçivəsində SOCAR-ın işçilərinin istifadəsi üçün özünə xidmət portalı formalaşdırılmışdır. Işçilərlə sağlam ünsiyyət, əməyin motivləşdirilməsi, bərabər imkanların yaradılması eləcə də, onların mənəvi stimullaşdırılması işçi axıcılığının qeyd edilən illər ərzində kəskin azalaraq-3%-ə enməsinə təminat yaratmışdır ki, bu da beynəlxalq miqyasda nəzərdə tutulan astana həddindən 2 % aşağıdır.

SOCAR-da yüksək ixtisaslı mütəxəssislərin əməyinin motivləşdirilməsi məqsədilə hər il onlara fəxri adların, fərmanın, orden və medalların verilməsi prosesi davam edir. Həmin adlar 2013-cü ildə 245 nəfərə, 2016-cı ildə isə-201nəfərə təqdim olunmuşdur.(cədvəl 1)

**Cədvəl 1**

**Azərbaycanın neftqazçıxarma sənayesində kadrların intellektual səviyyəsini xarakterizə edən göstəricilər**

| Göstəricilər | 2013 | | 2016 | |
|---|---|---|---|---|
| | sayı | Yekuna görə xüsusi çəkisi, faizlə | sayı | Yekuna görə xüsusi çəkisi, faizlə |
| Işçilərin orta siyahı sayı. Min nəfər | 65,6 | 100 | 50,7 | 100 |
| Onlardan:<br>Rəhbər işçilər | 7,9 | 12,0 | 6,0 | 11,8 |
| Mütəxəssislər | 11,0 | 16,8 | 9,4 | 18,5 |
| Rəhbər işçiləri və mütəxəsislərin tərkibində qadınlar | 4,9 | 26,0 | 3,8 | 24,7 |
| Ali təhsili olanlar | 19,0 | 31,1 | 16,6 | 32,6 |
| Elmi dərəcəsi olanlar, nəfər | 305 | 0,5 | 269 | 0,5 |
| Rəhbər işçilərin orta yaş həddi | 58 | - | 41 | - |
| İşçi axıcılığı, faizlə | - | 9,0 | - | 3,0 |
| Rəhbər işçilərin və mütəxəssislərin sırasından “Əməkdar mühəndis” fəxri adına layiq görülmüşdür | 5 | 0,03 | 5 | 0,03 |
| “Şöhrət” ordeni və “Tərəqqi” medalına layiq görülmüşdür, nəfər | 52 | 0,08 | 44 | 0,09 |
| SOCAR-ın Fəxri fərmanı ilə təltif edilmişdir | 188 | 0,29 | 152 | 0,30 |
| **Cədvəl SOCAR-ın istehsal-təsərrüfat fəaliyyəti və davamlı inkişaf haqqında illik hesabatlarının məlumatları əsasında müəllif tərəfindən tərtib edilib hesablanmışdır [3:4 ]** | | | | |

Müəssisələrin iqtisadi təhlükəsizliyinin kadr və intellektual təminatı kontekstində SOCAR-ın İnsan Resursları Departamenti aşağıdakı bir sıra layihələri həyata keçirir: daxili və xarici təqaüd, ödənişli yay proqramları; Yay məktəbi; Karyeranın idarə edilməsi, eləcədə gələcəyin mühəndisləri layihələri. Şirkətin xarici təqaüd proqramı çərçivəsində 51 tələbə Böyük Britaniya, Fransa, ABŞ, Almaniya, Kanada, İsveçrə, İtaliya, Türkiyə, Hollandiya və Ukraynanın nüfuzlu Universitetlərində təhsil almışlar.

Ölkə daxilində və xaricdə təhsilalan tələbələr və gənc mütəxəssislərin enerji sektoruna marağının yüksək olduğunu nəzərə alaraq SOCAR 2010-cu ildə ali məktəb tələbələri üçün “Yay məktəbi” layihəsini həyata keçirir. Orada təlimlər: ixtisasartırma, yenidən hazırlama, maarifləndirmə, təkmilləşdirmə və təlimatlandırma istiqamətində aparılır. Təkcə 2016-cı ildə şirkətin dörd təlim mərkəzində dinləyicilərin sayı 10,2 min nəfər olmaqla 409 təlim keçirilmişdir. Bundan başqa il ərzində şirkətin 507 əməkdaşı kənar təlim müəssisələrinə göndərilmişdir. Bu təlimlər əsasən “Biznes proseslərinin optimallaşdırılması və səmərəliliyinin artırılması”, “SAPHR”, dəyişən standartlar, innovasiyalar və bazar tənzimlənməsi, ağır neftin keyfiyyəinin yaxşılaşdırılmasi və s. mövzuları əhatə etmişdir [4].

SOCAR- Ukrayna, Gürcüstan, İsveçrə və Türkiyədə olan nümayəndəliklərdə İnsan Resurslarının idarə edilməsi istiqamətində də fəaliyyətini davam etdirmiş və əsas təlim istiqamətləri-təhlükəsizlik və sağlamlıq, yanğından mühafizə, personalların işinin səmərəliliyinin artırılması, struktur bölmələri arasında əlaqənin səmərəliliyinin yüksəldilməsi, satış məntəqələrində xidmətin keyfiyyətinin yüksəldilməsi, xərclərin optimallaşdırılması və s yönəldilmişdir. Bütün bunlar isə- nəticə etibarı ilə neftqzçıxarma müəssisələrində iqtisadi təhlükəsizliyin təmin edilməsində bazis rolunu oynamışdır.

**Ədəbiyyat**

1. Səmədzadə Ş.Ə. və başqaları. İqtisadi subyektlərin (müəssisələrin) iqtisadi təhlükəsizliyi. Bakı: Təhsil, 2009, 270 s.
2. Бухалков М.И. Управление персоналом. М, ИНФРА-М, 2014, 416 с
3. SOCAR-ın 2016-cı il üzrə illik hesabatı Bakı, 2017, 82 s.
4. SOCAR-ın Davamlı inkişaf haqqında hesabatı. Bakı, 2014, 116s; 2017, 68 s.

**Резюме**

***Алиев Т.Н.***

**Кадровое и интеллектуальнос обеспечение экономической безопасности нефтегазодобывающих предприятий Азербайджана**

В статье раскрыты методологические аспекты формирования кадрового и *интеллектуального обеспечения экономической безопасности нефтегазодобывающих предприятий, на примере SOCAR проанализировано состояние использования кадрового потенциала, показатели, характеризующие интеллектуальный уровень; систематизированы меры по защите интеллектуальной собственности.*

***Ключевые слова**: Нефтегазодобывающие предприятия, SOCAR, экономическая безопасность, целевые программы, кадры, интеллектуальная обеспеченность*

**Summary**

***Aliyev T.N.***

**Personnel and Intellectual Support of Economic Security of Oil and Gas Producing Enterprises in Azerbaijan**

*The article outlines the methodologies and aspects of the formation of personnel and intellectual protection of the economic security of the oil-producing enterprises, analyzes the current status of the use of personnel in the case of SOCAR, as well as the indicators characterizing their intellectual level, and systematized intellectual property protection.*

***Key words:** oil & gas production facilities, SOCAR, economic security, targeted programs, staff, intellectual guarantee*

## SOSİAL İNKİŞAFIN TƏNZİMLƏNMƏSİNİN ZƏRURİLİYİ VƏ METODOLOJİ ASPEKTLƏRİ

***Əliyeva İ.S.***

*Sumqayıt Dövlət Texniki Kolleci*

***Xülasə***

*Bazar iqtisadiyyatı şəraitində sosial inkişafın tənzimlənməsi sosial obyektlərə olan tələbat sistemini formalaşdırır. Belə ki, sosial inkişaf əhalinin tələbat sistemi, həmin tələbatın ödənilmə dərəcələri və həmçinin tələbatın ödənilməsi yollarını təmin edən şəraitlə qiymətlənir.*

***Açar sözlər:** sosial siyasət, sosial tənzimlənmə, maliyyə strukturu, iqtisadi artım.*

Sosial inkişafın tənzimlənməsi bir sıra obyektiv və zəruri amillərin təsirindən idarə edilməyə ehtiyac baxımından meydana çıxır. Belə ki, hər bir ölkədə inkişaf meyillərinin xüsusiyyətləri, onların dinamikası və resurs potensialının maddi-maliyyə strukturu sosial inkişafın müəyyən konturlarını yaradır. Onun əsas istiqamətlərini müəyyən edir. Ona görə də sosial inkişafa iki əsas qlobal formada baxmaqla tənzimlənmənin sistemini yaratmaq olar.

1. Həyat səviyyəsinin yüksəldilməsi və həyat şəraitinin yaxşılaşdırılması.
2. Sosial mühitin sosial infrastrukturunun, obyektlərin və sosial təminat sisteminin yaxşılaşdırılması.

Birinci istiqamətdə iqtisadi artım və onun bölgüsünü təkmilləşdirməklə əhalinin maddi və mənəvi tələbatının ödənilməsi və yaxud insanın sosial kateqoriya kimi özünün sosial tələbatının səviyyəsinin yüksəldilməsi daxildir.

İkinci istiqamət isə bir sıra sosial sahələrinin inkişaf etdirilməsi yolu, onun bazarının təşkili və idarə edilməsi yolu ilə sosial inkişafın özünün tənzimlənməsi. Ona görə də tənzimləmə həm sahə, həm də funksional təyinatlar üzərində qurulur. Funksional tənzimləmə bazar tipli model şəraitində daha ünvanlı, sistemli və kompleks proqramlı təminatı özündə əhatə edir.

Sosial tənzimləmə birbaşa və dolayısı yolla, maddi –maliyyə və istehlak mühiti yaratmaqla baş verir. Daha çox gəlirlərin artımı, yoxsulluğun ləğvi və həmçinin bazar məcmusu tələb və təklifin tarazlığının təminatı ilə baş verir. Sosial tənzimlənmənin obyektiv və subyektiv səbəbləri mövcuddur. Belə ki, cəmiyyətdə tələbat və onun ödənilməsi imkanları eyni deyil. Sahələrdə məşğulluğun və həmçinin ayrı-ayrı regionlarda əmək və məişət şəraitinin eyni olmaması dövlətin tənzimləmə funksiyasını yaradır. Digər tərəfdən əhalinin əmək qabiliyyətinə və əldə etdiyi faydalı mənfəətə görə eyni olmadıqda və qütbləşməsi baş verdiyi üçün onların minimal həyat şəraitinin saxlanılması bir sıra tənzimləmə sistemini üsul və mexanizmlərini yaradır. Tənzimlənmənin dövlət və qeyri-dövlət mexanizmləri haqqında bir sıra kompleks tədbirlərin olması məqsədli proqramm metodlarını tələb edir[1].

Tənzimləmə qiymətləndirmə və həmçinin inkişaf üçün stimul yaradan maraqlar üzərində qurulur. Real şəraitdə sosial vəziyyət bir sıra sosial normalar və maddi imkanların və ehtiyacların özünün dinamikası, strukturu və həmçinin dəyişmə meyilləri ilə ölçülür. Ona görə də sosial inkişaf özü nisbi məna kəsb etməklə, ona baxmaq fəlsəfi, iqtisadi və həmçinin tənzimləmə meyarları baxımından qiymətləndirilir. Sosial inkişaf təkcə maddi amillər ilə deyil, bu maddi amillərin mənəvi dəyərlərlə kompleks ölçülür. Ona görə ki, insanın özünün və cəmiyyətin, millətin inkişafı sosial inkişafın determinantı rolunu oynayır. Belə ki, ancaq fizioloji tələbatla kifayətlənən fiziki şəxs, yaxud icmanın dünya səviyyəli inkişafla müqayisəsi, müxtəlif meyarlar baxımından ölçülür və tələbatın özünün inkişaf etdirilməməsi ucbatından qiymətləndirilir.

Sosial tənzimləmə obyekti olaraq makro iqtisadi və konkret funksional vəzifələr meydana qoyulur. Bu vəzifələrin strateji mahiyyəti və nəticələri qiymətləndirilməklə, onların səmərəli variantı və uyğun tərəflərin minimumlaşdırılması yolları seçilir. Beləki, rifah problemini həll etmək, müasir iqtisadi şəraitdə hər bir insanın potensial gəlir əldə etmək imkanları qiymətləndirilir.

Sosial inkişafın tənzimlənməsi bir sıra prinsiplər əsasında qurulur. Belə ki, makroiqtisadi səviyyədə tarazlı inkişaf siyasəti istehsal, bölgü və sosial müdafiə sistemi arasında tarazlı və uyğun artımların olması ilə müəyyənləşir. Mikrosəviyyəli problemlərin həlli üçün sosial tənzimləmə iqtisadi sahələr və əhalinin sosial qrupları arasında ədalətli bölgü və təminat arasında tarazlı inkişafla mümkün olur. Sosial tənzimləmə daha çox bazar iqtisadiyyatı şəraitində sosial təminatların elmi və normativ bazasının təkmilləşməsi və bu normaların daha çox ədalətli prinsiplər və stimullar üzərində qurulması ilə baş verir. Daha çox sosial normalar xarakterik olaraq ölkədə ümumi iqtisadi inkişafın tərkib hissəsi olan sosial inkişaf dinamikasını müəyyənləşdirir. Sosial təminat sistem olaraq əhali qrupları və ərazilər üzrə stimullar yaratmaq məqsədləri üçün özünəməxsus göstəricilər və resurslar kəsb edir.

Sosial müdafiə sosial inkişafın təminat sistemi olmaqla, ədalətli prinsiplər və dövlət nəzarəti olmaqla dövlət tənzimlənməsinin əsas istiqamətlərini müəyyənləşdirir.

Sosial tənzimləmə ilkin növbədə sahələr və ərazilər arasında dövlət resurslarının istehsalı və istifadəsi arasında bölgü sisteminin təkmilləşməsi ilə daha səmərəli təşkil olunur. Belə ki, dövlət tənzimləmə siyasəti bazar tipli inkişafda baş verən inflyasiya, qiymət dəyişməsi və istehsala stimul yaratmaq, sosial müdafiə sistemi arasında əlaqələrin optimallaşmasını tələb edir.

Makroiqtisadi tənzimləmə iqtisadi inkişafın indeksləri arasında tarazlıqla müəyyənləşir. Belə ki, Ümumi Daxili Məhsul, investisiya və əhalinin gəlirləri, həmçinin istehlak arasında tarazlıq tənzimləmə üçün ümumi şəraitdir. Ümumi Daxili Məhsulun adambaşına düşən səviyyəsi, makro səviyyədə yoxsulluğun azaldılmasının meyarı kimi qəbul edilir. Belə ki, adam başına düşən Ümumi Daxili Məhsul, onun əhali qruplarına təsiri, bölgü və yenidən bölgü sistemindən asılıdır. Əhalinin muzdlu əmək haqqına görə və gəlirlərin səviyyəsinə görə paylanması orta illik gəlir səviyyəsindən uzaqlaşma dərəcəsi ilə səciyyələnir. Belə ki, sosial tələbat və onun formalaşmasına təsir edən əsas amil əhalinin gəlirləri, xərcləri və adambaşına düşən yığım vəsaitləri təşkil edir.

Beləliklə, sosial inkişafın bir sıra makroiqtisadi şəraiti hamı üçün eyni dərəcədə təsir etmir. Daha çox bölgü sisteminə təsir edən amillərin və həyat şəraitinin əsas şərtləri təsir edər. Belə ki, əhalinin gəlir əldə etmək qabiliyyəti ilə ölçülür. Əhalinin sosial-demoqrafik tərkibi təbii artım və iş yerlərinin açılması həyat səviyyəsinin yüksəldilməsi və sosial mühitin yaxşılaşması yollarını müəyyənləşdirir. Sosial mühitin dəyişməsi sosial tələbatın quruluşu ilə müəyyənləşir.

Sosial inkişafın aspektləri, əsas istiqamətləri və iqtisadi nəticələri sistem metodologiyasına əsaslanır. Daha çox xarakterik cəhət respublikada əhalinin sosial tələbatını ödəməklə yanaşı, onun özünün inkişafı və inteqrasiya sisteminə uyğun əlamətlərini yaratmaq zəruriliyi meydana çıxır. Bu məqsədlə sosial-iqtisadi sistemin metodologiyası iqtisadi artım, struktur siyasət və strateji planlaşma ilə marketinq planlaşmasının vəhdətini və qarşılıqlı əlaqəsini təmin etmək vəzifəsi durur.

Sosial inkişafın tənzimlənməsi hədəflər, resurslar, proqnozlar və mexanizmlər vasitəsilə mümkün ola bilir. Hər şeydən əvvəl sosial inkişaf hədəflərinə aşağıdakıları aid etmək olar[2]:

- həyat səviyyəsinin yüksəldilməsi;
- istehlak səviyyəsinin tələbatın səviyyəsinə yaxınlaşması;
- yoxsulluğun azaldılması və iqtisadi inkişaf proqramı;
- maddi cəhətdən qütbləşmənin iqtisadi əsaslar üzərində qurulması;
- regionların sosial-iqtisadi inkişafı və onların əhalinin məskunlaşmasının təmin olunması;
- sosial infrastrukturun iqtisadi artıma uyğun inkişafı və onun marketinq strukturunun təkmilləşməsi.

İnteqrasiya amili olaraq respublika iqtisadiyyatının struktur dəyişməsi, ixracat yönlü iqtisadi inkişaf və sosial müdafiənin resurs potensialı qiymətləndirilir. Onların iqtisadi artıma təsiri proqnozlaşdırılır. Ölkə iqtisadiyyatında struktur amil olaraq region, sahə marketinq strukturunun təkmilləşməsi və hədəflərə uyğun transformasiyası modeli əsaslandırılır.

**Ədəbiyyat**

1. Əlirzayev Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi Bakı, 2010

2. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Bakı, 2006.

**Резюме**

***Алиева И.С.***

**Необходимость обеспечение социального развития и его методологических аспектов**

*Регулирование социального развития в условиях рыночной экономики способствует формированию системы спроса на социальные объекты,так как социальное развитие оценивается системой спроса на социальные объекты, а также степенью и условиями обеспеченности этого спроса.*

***Ключевые слова:*** *социальная политика, социальная адаптация, финансовая структура, экономический рост.*

**Summary**

***Aliyeva I.S.***

**Necessity and Methodological Aspects of Regulation Social Development**

*The regulation of social development in a market economy contributes to the formation of a system of demand for social objects. Since, social development is estimated by the system of demand for social objects, as well as by the degree and conditions of the provision of this demand.*

***Key words:*** *social policy, social relation, financial structures, economic rost.*

## ŞƏKİ-ZAQATALA İQTİSADİ RAYONUNDA KƏND TƏSƏRRÜFATININ MÖVCUD VƏZİYYƏTİ VƏ İNKİŞAF MEYİLLƏRİ

***Əliyeva Ş.İ.***

*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Ölkənin sərhədyani bölgələrindən biri olan Şəki-Zaqatala iqtisadi rayonu kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə ixtisaslaşmışdır. Ərzaq təhlükəsizliyində iqtisadi rayonun əhəmiyyətli yeri var. Şəki-Zaqala iqtisadi rayonunda, əsasən, kənd təsərrüfatı məhsulları istehsal olunur ki, bu da sənayenin xammal ehtiyaclarını ödəmək üçün mühüm rol oynayır.*

***Açar sözlər:*** *kənd təsərrüfatı, taxıl, aqrar sahə, fermer, meyvəçilik, heyvandarlıq*

Şəki-Zaqatala iqtisadi rayonunun kənd təsərrüfatı, xüsusilə də heyvandarlıq, meyvəçilik və bitkiçiliyin inkişafı üçün əlverişli coğrafi mövqeyi, iqlimi və relyefi vardır. İqtisadi rayona 6 iri kənd təsərrüfatı rayonu: Balakən, Qax, Qəbələ, Zaqatala, Oğuz və Şəki daxildir. Region ərazisinin 27%-ni meşələr əhatə edir. Onun əsas hissəsi Balakən və Zaqatala rayonlarının payına düşür. Torpaqları çox məhsuldar və münbitdir. Respublikamızda istehsal edilən kənd təsərrüfatı məhsullarının mühüm bir hissəsi bu regionun payına düşür. Tütünçülük, baramaçılıq, meyvəçilik, taxılçılıq, üzümçülük, ət-süd və ət-yun istiqamətində inkişaf etdirilən qoyunçuluq əsas yer tutur. Tütünün 25%-i, taxılın 17%-i, baramanın 35%-i, yaşıl çay yarpağının 2%-i bu regionun payına düşür. Respublikada istehsal edilən heyvandarlıq məhsullarının 10%-i bu regionda istehsal olunur [1,s.5]. Şəki-Zaqatala bölgəsində respublikada ilk dəfə olaraq sənaye xarakterli gülçülük təsərrüfatı yaradılmış, çayçılığın inkişafının əsası qoyulmuşdur. Hər yerdə olduğu kimi, burada da yerli tələbatı ödəmək üçün bostan – tərəvəz bitkiləri, heyvandarlığın yem bazasını təmin etmək üçün isə geniş sahələrdə müxtəlif birillik və çoxillik ot bitkiləri becərilir.

2017-ci ilin yekunlarına görə, regionun iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatı sahəsində 532138,6 min manat həcmində kənd təsərrüfatı məhsulları istehsal edilmişdir ki, bu da 2016-cı il ilə müqayisədə 59518,4 min manat və ya 13% çox olmuşdur. Kənd təsərrüfatı sahəsi üzrə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı 184 nəfərdir. Regionda 144 kəndli fermer təsərrüfatı fəaliyyət göstərir.

Regionun iqtisadiyyatının əsasını kənd təsərrüfatı məhsulları istehsalı təşkil etdiyi kimi, bu sahədə böyük üstünlük də taxılçılığın payına düşür. Belə ki, regionda istehsal edilən bitkiçilik məhsullarının 50%-i taxılın payına düşür. Şəki-Zaqatala regionu həm də respublika üzrə taxılçılığın geniş inkişaf etdiyi əsas ərazilərdən biridir.

**Cədvəl 1.**

**2013-2017-ci illər ərzində taxıl istehsalının məhsuldarlığı, sentner**

| s/s. | Rayonun adı | 2013-cü il | | 2014-cü il | | 2015-ci il | | 2016-cı il | | 2017-ci il | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | **taxıl** | **buğda** | **taxıl** | **buğda** | **Taxıl** | **buğda** | **taxıl** | **buğda** | **taxıl** | **buğda** |
| | Balakən | 20,6 | 21,3 | 14,8 | 22,3 | 24,7 | 25,1 | 29,7 | 32,4 | 27,0 | 27,2 |
| | Zaqatala | 17,5 | 23,7 | 19,5 | 19,8 | 28,1 | 27,9 | 31,3 | 31,9 | 31,9 | 32,4 |
| | Qax | 19,7 | 17,8 | 14,0 | 16,0 | 26,3 | 25,9 | 28,3 | 29,6 | 31,2 | 31,7 |
| | Şəki | 27,1 | 27,1 | 10,6 | 10,7 | 30,1 | 29,5 | 28,7 | 29,3 | 32,1 | 33,1 |
| | Oğuz | 25,6 | 26,4 | 19,4 | 19,0 | 30,6 | 29,3 | 26,8 | 27,9 | 24,4 | 24,7 |
| | Qəbələ | 25,2 | 25,1 | 16,3 | 15,0 | 31,0 | 32,0 | 31,6 | 31,0 | 32,1 | 32,5 |
| **Şəki-Zaqatala iqtisadi rayonu** | | **25,2** | **25,8** | **13,9** | **14,1** | **29,8** | **29,5** | **29,1** | **29,7** | **30,9** | **31,6** |

*Cədvəl inzibati rayonların yerli statistika orqanlarının müvafiq materialları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Taxılın məhsuldarlıq göstəricilərinə nəzər saldıqda 2015-2017-ci illərdə məhsuldarlığın daha yüksək olduğunu görürük. Ən yüksək göstərici isə 2017-ci ildə qeydə alınmışdır. Belə ki, 2013-cü ildə hər hektardan 25,2 sentner, 2014-cü ildə 13,9 sentner, 2015-ci ildə 29,8 sentner, 2016-cı ildə 29,1 sentner, 2017-ci ildə 30,9 sentner məhsul götürülmüşdür. Baləkən rayonunda 20,6-14,8-24,7-29,7-27,0 sentner, Zaqatala rayonunda 17,5-19,5-28,1-31,3-31,9 sentner, Qax rayonunda 19,7-14,0-26,3-28,3-31,2 sentner, Şəki rayonunda 27,1-10,6-30,1-28,7-33,1 sentner, Oğuz rayonunda 25,6-19,4-30,6-26,8-24,4 sentner, Qəbələ rayonunda 25,2-16,3-31.0-31,6-32,1 sentner məhsuldarlıq əldə edilmişdir.

Taxılçılıqda buğda istehsalı üstün yer tutmaqla, xeyli miqdarda dən üçün qarğıdalı sahələri də geniş yayılmışdır. Son dövrlər iqtisadi rayonda qarğıdalı istehsalına da maraq artmaqdadır.

Fındıq kənd təsərrüfatı məhsulları arasında bu gün ən çox valyuta gətirən məhsuldur. Bu səbəbdən son dövrlər fındıqçılığın inkişafına dövlət dəstəyi gücləndirilmişdir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli “İpəkçiliyin və fındıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamını qeyd etmək olar. Sərəncamda barama toxumlarının, tut tinglərinin və fındıq pöhrələrinin tədarük edilməsi və məhsul istehsalçılarına əvəzsiz verilməsi məqsədi ilə Kənd Təsərrüfatı Nazirliyinə ayrılmış vəsait hesabına 1,463 milyon manat, o cümlədən barama toxumlarının alınmasına 163,0 min manat, tut tinglərinin alınmasına 600,0 min manat, fındıq pöhrələrinin alınmasına 700,0 min manat ödənilməsi göstərilmişdir [4]. Dövlət tərəfindən fındıq pöhrələrinin alınaraq fermerlərə pulsuz verilməsi və yeni bağların salınması fındıq istehsalının və ixracının artmasına böyük töhfə verəcək.

Regionda istehsal olunan məhsul həcmi inkişaf etmiş ölkələrlə müqayisədə 8,9 dəfəyə qədər azdır. Bu da fermerlərin az gəlir əldə etməsinə və ümumilikdə regionun inkişafına mənfi təsir göstərir. Problemin həlli və regoinun inkişafı üçün kənd təsərrüfatı sahəsində aşağıdakı fəaliyyətlərin icrası təklif edilir:

- fermerlərə aqrar sahədə olan innovasiyaların və yaxşı təcrübələrin ötürülməsi məqsədilə yerli icmalarda Fermer Məsləhət Mərkəzlərinin (FMM) yaradılması;
- fermerlərin daha sürətli maarifləndirilməsi və istehsal xərclərinin aşağı salınması məqsədilə fermer birliklərinin, kooperativlərin yaradılmasına dəstək verilməsi;
- davamlı inkişafı təmin etmək məqsədilə yerli agrar mütəxəssislərin (aqronom, baytar, texnoloq və s) bilik vəa bacarıqlarının təkmilləşdirilməsi;
- istehsal olunmuş kənd təsərrüfatı məhsullarının marketinqinin dəstəklənməsi məqsədilə istehsalçı, təchizatçı, emalçı, tədarükçü, topdan satıçı və ixracatçı əlaqələrinin qurulması və gücləndirilməsi;
- davamlı məhsul satışına nail olmaq üçün müqavilə əsaslı istehsal və satışın təşkil olunması;
- aqrar sahənin inkişafına dövlət dəstəyinin gücləndirilməsi və nəzarət mexanizminin təşkili;
- fermerlərə dövlət və yerli maliyyə təşkiatları tərəfindən fermerlərə uzun müddətli və güzəştli kreditlərin verilməsənin sadələşdirlməsi;
- dünya standartlarına uyğun məhsul istehsal etmək və məhsula əlavə dəyər vermək məqsədilə məhsulun sertifikatlaşdırılması və məhsulun bazara “regional brend” altında çıxarılması.[3]

Şəki-Zaqatala iqtisadi rayonunun qarşısına qoyulan ən mühüm vəzifələrdən biri iqtisadiyyatın idxalyönümlülüyündən ixracyönümlülüyünə doğru inkişaf etməsidir. Bunun üçün regionda bütün potensial imkanlar vardır. [1,s.11] Həmçinin iqtisadi rayonda emal sənayesi ilə aqrar sektor arasında olan disporsiyanın aradan qaldırılması əsas prioritet kimi qoyulur.

Son 50 ildə bir sıra inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatı sahəsində elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə, təhsil və kəndin infrastruktur sahələrinə ayrılan vəsaitlər, kənd iqtisadiyyatına dövlət investisiyaları nəzərə alınmadıqda belə çəkilən digər xərclərlə müqayisədə daha rentabellidir. Təhsilə, infrastruktura və kənd iqtisadiyyatına yönəldilən investisiyalar qarşılıqlı effekt yaradaraq kənd təsərrüfatının investisiya cəlbediciliyinin yüksəlməsinə və bu sahəyə investisiyaların daha da artmasına gətirib çıxarır. [2,s.93]

**Ədəbiyyat**


1. Regionların sosial-iqtisadi inkişaf problemləri. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2006, 304 s.
2. Ataşov B. Aqrar sahədə struktur və səmərəlilik problemləri. Bakı, Kooperasiya nəşriyyatı, 2017, 536 s.
3. www.ulucay.org
4. Azərbaycan Prezidentinin rəsmi internet səhifəsi - prezident.az



**Резюме**

***Алиева Ш.И.***

**Состояние и тенденции развития сельского хозяйства в экономическом регионе Шеки-Загатала**

*Шеки-Загатальский экономический район является одним из приграничных регионов страны, который специализируется на сельском хоэяйстве и переработке, производстве продукции. Этот регион также играет важную роль в обеспечении продовольственной безопасности. Фруктовые и овощные продукты в основном производятся в регионе, поэтому важную роль играет удовлетворение потребностей в сырьевой промышленности.*

***Ключевые слова:*** *сельское хозяйство, зерно, фермер, аграрное поле, выращивание фруктов, скотоводство.*



**Summary**

***Aliyeva Sh. I.***

**Current Situation and Development Tendencies of Agriculture in Sheki Zagatala Economic Region**

*Sheki-Zagatala economic region, one of the border regions of the country, is specialized in the production and processing of agricultural products. The economic region has an important place in food security. Sheki- Zagatala economic region mainly produces agricultural products, which plays an important role in meeting the industry's raw material needs.*

***Key words:*** *agriculture, grain, agrarian, farmer, fruit growing, livestoc*


## MİLLİ İQTİSADİYYATIN İNKİŞAF MEYARLARI (ALTERNATİV NƏZƏRİ BAXIŞLAR)


***Hacıyev N.Q.***

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*



**Xülasə**

*Məqalədə milli iqtisadi inkişafın əsas meyarları alternativ nəzəri baxışlar səpkisindən araşdırılmış, əsasən, inkişaf etməkdə olan ölkələrin iqtisadçı alimlərinin bu sahədəki tədqiqatlarına müraciət edilmiş və Azərbaycanda tətbiqi xüsusiyyətləri təhlil edilmişdir.*

***Açar sözlər:*** *milli iqtisadiyyat, milli iqtisadi inkişaf meyarları, iqtisadi siyasət*


XX əsrin 90-cı illərinin əvvəllərində kəskin tənəzzüldən sonra Azərbaycan 1996-cı ildən etibarən keçən dövr ərzində ardıcıl olaraq sabit və sürətli artıma nail olmuşdur. Müstəqillikdən bir az öncə, ölkə iqtisadiyyatı iqtisadi artımın sürətli tənəzzülü, istehsalın həcminin mütləq göstəricidə azalması, istehsal ilə istehlak arasında böyük fərqlər, iqtisadi səmərəlilik göstəricilərinin aşağı düşməsi, iqtisadiyyatın qeyri-təkmil strukturu, şaxələnmə və inteqrasiyanın zəif səviyyəsi ilə xarakterizə olunurdu. Bütün bunlar iqtisadi böhranın ilk təzahürləri idi və müstəqilliyin ilk illəri (1992-1994-cü illər) dərin iqtisadi böhranla nəticələndi. 1991-1994-cü illər ərzində, ÜDM 52,5% (ümumi sənaye istehsalı isə 61,7%) azalmışdır. Nəticədə, bu vəziyyət yaşayış standartları, nominal gəlirlər, əmək haqları və əhalinin istehlakı sahəsində kəskin tənəzzül ilə müşayiət olunurdu.

İnkişaf etməkdə olan dövlətlərin təcrübəsi onu göstərir ki, xarici ticarət əyalət iqtisadiyyatının inkişafının heç də əsas hərəkətvericisi ola bilməz. Xarici iqtisadiyyat daha kompleks problemin - əyalətdə

iqtisadiyyatın inkişaf probleminin tərkib hissəsi kimi qiymətləndirilməlidir. 30 ildən sonra texnoloji amillərlə bağlı beynəlxalq ticarət problemlərilə məşğul olan alimlərdən biri 1970-ci ildə öz əsərində yazmışdı ki, ticarət nəzəriyyəsi artım və inkişaf nəzəriyyəsinə çevrilməyə məhkumdur. Qeyd olunan iqtisadçı alimlər yeni müstəqillik qazanmış dövlətlərin maraqları, onların ictimai-siyasi, iqtisadi-sosial durumlarından irəli gələrək belə baxışlarda israrlı idilər.

Latın Amerikası dövlətlərinin inkişaf nəzəriyyəsinin nüvəsini təşkil edən üç əsərdən (onlardan birincisi X.Prebiş tərəfindən hazırlanmış məruzə: "Latın Amerikasının iqtisadi inkişafı və onun başlıca problemləri" adlanır, digər ikisi onun redaktəsilə EKLA əməkdaşları tərəfindən hazırlanmış məruzələrdir - "1949-cu il Latın Amerikasının iqtisadi icmalı" və "İqtisadi artımın nəzəri və praktik problemləri" adlanır) biri olan "1949-cu il iqtisadi icmalında" "Artım, qeyri-tarazlıq, fərqlər, iqtisadi inkişaf prosesinin interpretasiyası" adlı fəsildə bəyan edilirdi: "...Klassik nəzəriyyə...həmişə statika ilə məhdudlaşmağa səy edirdi. Hər bir pozuntunun tarazlığın bir dövründən digərinə keçidi bildirməsi faktını qeydə alaraq o, bu keçid dövrünün müddətliyinə heç bir əhəmiyyət vermirdi. Belə qafiyədə nəzəriyyə iqtisadi inkişaf probleminə uğurla tətbiq oluna bilməz..." [2,s.47]. Söylənilən fikirdə həqiqət vardır, ancaq bu nəzəriyyənin yarandığı və qeyd olunan fikrin formalaşdığı dövr arasında fərqi görüb bəyanatı mülayimləşdirmək olardı.

1951-ci ildə Rio-De-Janeyroda mühazirədə çıxış edən Amerika iqtisadçısı R. Nurkse bazarın darlığını iqtisadi inkişafın "startı"na əsas, fundamental maneə hesab edirdi. Bu zaman o, Şumpeterin nəzəri abstraksiyasından kənarlaşırdı. Belə ki, 50-ci illərin əvvəllərində EKLA nəzəriyyəçilərindən olan S.Furtado qeyd edirdi: "İnkişaf bizim anlamımızda nemətlərin dövri hərəkətində müşayiət olunandan (Şumpeterə görə) və tarazlıq meyllərindən (Seyə görə) tamamilə fərqlənən bir fenomendir" [1,s.48]. Bu baxımdan hər bir istehsal olunan məhsulun reallaşması zəruriliyinə və reallaşma məkanının inkişafının əhəmiyyətliyinə diqqət önə çəkilməlidir.

Müstəqilliyin ilk illərində və ümumən hər bir irəliləyişin ilk addımlarında dayaq və istinadların olmasına zərurət gələcəkdə bəhrə verilməsi gözlənilən hər hansı bir layihə və ya iş üçün sərmayə qoyuluşuna bənzəyir və bunsuz müəyyən çətinliklər yaranır. Bu baxımdan S.Furtadonun fikrində həqiqət vardır: "Zəif iqtisadiyyat üçün öz resurslarına və sahibkarlarının öz-özünə birdən-birə əmələ gələn aksiyalarına güvənmək adamın özü-özünü saçından qaldırmasına bənzəyir" [2,s.48]. Respublika rəhbərliyinin apardığı iqtisadi siyasətdə və xüsusilə xarici investisiyaların cəlb olunması sahəsində tədbirlər planında bu məsələ açıq olaraq özünü büruzə verir.

Nurkse bazarın həcminin artması şəkilində istehsalın balanslı artımına və ictimai infrastrukturanın yaradılmasına üstünlük verirdi. Daha sonra Rozenşteyn-Rodan da infrasrtukturanın, onun bölünməzliyini, zamanda dönməzliyini, infrasrtukturaya investisiyanın digər bilavasitə istehsal təyinatlı investisiyalara səbəb olacağını, avadanlıqların uzun istifadə müddətliyini, istehsal güclərin mənimsənilməsinin uzun müddətliliyini, infrastruktur xidmətinin idxalının qeyri-mümkünlüyünü önə çəkirdi. Bu müddəa böyük təkan nəzəriyyəsi adını aldı. Hal-hazırda respublika rəhbərliyinin uğurla həyata keçirdiyi sosial-iqtisadi siyasət məhz bu baxışların nəzərə alınması üzərində köklənmişdir. Burada da infrastruktur layihələrinin ilbəil artması müşahidə olunur.

Beləliklə, Nurkse və Rozenşteyn-Rodanın nəticəsi belədir: infrastruktura investisiya — tələb və təklifi üzrə balanslaşdırılmış iqtisadi inkişafın ilkin şərtidir. Bu "balanslaşdırılmış versus balanslaşdırılmamış artım" (versus-qarşı deməkdir) diskussiyasına səbəb olmuşdur. Xrişman və Latın Amerika iqtisadçıları ikincinin tərəfdarları idilər. O, qeyd edirdi: "İqtisadi inkişaf ex nova – dan qabaq transformasiyanı bildirir. O, ənənəvi həyat tərzinin, istehsal, şeylərin hazırlanması üsulunun dağılmasına gətirir, bu prosesdə həmişə çoxlu itki olur, əvvəlki vərdişlər köhnəlir, köhnə müəssisələr məhv olur..." [2,s.50]. Bütün bunlar keçmiş Sovetlər birliyinin və Şərqi Avropa Sosialist məkanının dağılmasının ilk 5-7 ilində müşahidə olunurdu.

O, daha sonra deyirdi: "Əgər iqtisadiyyatı irəli hərəkət etməyə məcbur etmək zəruridirsə, inkişaf siyasətinin vəzifəsi gərginliyin, disproporsiyanın, qeyri-tarazlığın dəstəklənməsindən ibarət olmalıdır"[2,s.50]. Müəllifin dediyini sadəcə yaxşı halda sağlam rəqabətin dəstəklənməsi kimi başa düşmək olar.

Xrişmanın bu əsas tezisi 1967-ci ildə Kafkanın Beynəlxalq Nəzəri Konfransda EKLA adından çıxış etdiyi məruzədəki tezisi ilə həmahəngdir: "Haradakı, artımı həvəsləndirirlər, təşviq edirlər, orada struktur qeyri-tarazlığı təşviq edirlər". O, açıq aydın iqtisadiyyatın inkişafının ilk illərində iqtisadiyyatın ayrı-ayrı sahələri arasında balanslığın saxlanılması şərti ilə məqbul artım ideyasına qarşı çıxırdı. Buradan o, belə nəticə çıxarırdı ki, Latın Amerika dövlətlərinin iqtisadi artımlarının müxtəlif sürət və dərəcələri öz iqtisadiyyatlarının strukturunda baş verən dəyişikliklər sınağından müxtəlif cür çıxmaq qabiliyyətindən asılıdır [2,s.51]. O yazırdı: "Keçmişdə balanslaşdırılmamış inkişaf təcrübəsi iqtisadi inkişafın yüksəliş mərhələsində balanslaşdırılmış artım imkanını doğurur" [2,s.52]

Alimlərin təhlilləri zaman belə bir məsələ narahatçılıq doğururdu ki, əgər xammal ixracından ayrılmış istehsal amillərinin hesabına baş vermiş sənaye məhsulunun artımı ixracın mübadiləsi hesabına əldə olunan nemətlərin həcmindən çoxdursa, cəmiyyətdə məhsuldarlığın arımı mövcuddur, əks halda, real gəlirin itkisi baş vermiş olur.

Yerli sahələrin inkişafı və ya əmtəələrin idxalı meyarlarının seçimi haqda isə onu qeyd etmək olar ki, sənaye məhsullarının istehsal xərclərinin idxal olunan əmtəələrin qiymətlərindən yüksək olması heç də mütləq olaraq onu bildirmir ki, bəzi iqtisadçıların təsdiq etdiyi kimi, sənaye iqtisadi cəhətdən əlverişsizdir, şübhəsiz fərq nə qədər azdırsa, bir o qədər yaxşıdır. lakin problemə başqa prizmadan baxmaq lazımdır. İşin mahiyyəti sənaye məhsullarının istehsal xərclərinin idxal olunan əmtəələrin qiymətlərilə müqayisə edilməsindən deyil, istehsalın genişləndirilməsindən əldə olunan gəlir artımının, həmin istehsal amilinin istifadə ediləcəyi ixrac sahələrindən əldə olunacaq gəlirin artımı ilə müqayisəsindən gedir. Bu yanaşmanın mahiyyəti müqayisəli xərclər meyarından imtina və ona adambaşına düşən gəlirin maksimallaşdırılması meyarının qoyulmasından ibarətdir. Bu baxımdan respublika rəhbərliyinin qəbul etdiyi sosial-iqtisadi inkişaf proqramlarının fundamental məqsədi - əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün adambaşına düşən real gəlirin artımının sürətləndirilməsidir.

Belə bir meyarın qəbulu makroiqtisadi proqramların qurulması metodologiyasını və inkişaf probleminin araşdırılması üsulunu şərtləndirdi. Bu hal makroiqtisadi dəyişənlərin təhlili və layihələşdirilməsində ciddi məhdudiyyətlər qoysa da, iqtisadi təhlildə sosial məsələlərin öndə olmasına gətirib çıxardır. Qeyd olunan nəticə və baxışlar müasir Azərbaycanın iqtisadi siyasətində əhəmiyyətli şəkildə nəzərə alınır.

**Ədəbiyyat**


1. Критика буржуазной экономической мысли, вып. Издательство Московского Университета, 1977.

2. Ярошевски Б.Е. Теория периферийной экономики (Современные буржуазные экономические теории: критический анализ). М.: Мысль, 1977, 212 с.


**Резюме**


***Гаджиев Н.Г.***

**Критерии развития национальной экономики (альтернативные теоретические взгляды)**

*В статье исследуются основные критерии национального экономического развития с позиции альтернативных теоретических взглядов, было обращено внимание на исследования ученых-экономистов развивающихся стран и анализируются характеристики их использования в Азербайджане.*

***Ключевые слова:*** *развитие национальной экономики, отрасли экономики*


**Summary**


***Hajiyev N.G.***

**Criteria of Development of National Economy (alternative theoretical sights)**

*In the article it is investigated the basic criteria of national economic development from a position of alternative theoretical sights, has been paid attention to researches of scientific economists developing and the countries and use in Azerbaijan is analyzed characteristics.*

***Key words:*** *developments of national economy, economy branch*


## İQTİSADİ TƏHLÜKƏSİZLİK VƏ ONUN TƏŞKİLİNDƏ STRATEJİ İDARƏETMƏNİN ROLU


***Həsənov A.A., Hacıyeva S.İ.***

*Azərbaycan Dövlət Aqrar Universiteti*



***Açar sözlər:*** *beynəlxalq biznes əməkdaşlığı, təhlükəsizliyin təmin edilməsi, rəqabət, strategiya, idarəetmə, menecment, marketinq, risk*


Müasir dövrdə təhlükəsizlik komponentlərinin təsnifatı, iqtisadi təhlükəsizliyin funksional komponentləri və struktur elementlərinin təhlili (SWOT analiz) təsərrüfat subyektlərinin idarə edilməsində vacib komponentlərdən hesab olunur. Bunun nəticəsində müəssisənin işçi heyətinin təhlükəsizlik anlayışı açıqlanır və insan təhlükəsizliyinə təsir edən bir sıra faktorlar da göstərilir. Həmçinin, bu istiqamətdə iqtisadi təhlükəsizliyin istehsal prosesi, cəmiyyət, dövlət və onun inkişaf xüsusiyyətləri ilə qarşılıqlı əlaqəsinin qurulması da vurğulanır.

İqtisadi təhlükəsizliyin ən yüksək səviyyəsinə çatmaq üçün müəssisə iqtisadi təhlükəsizlik sisteminin əsas funksional komponentlərinin maksimum təhlükəsizliyini təmin etməsinin müşahidəsini aparmalıdır.

Ümumiyyətlə, hər hansı bir müəssisənin iqtisadi təhlükəsizliyinin aşağıdakı funksional komponentləri seçilir:

- maliyyə;
- intellektual və kadr;
- texniki və texnoloji;
- hüquqi və siyasi;
- ekoloji;
- məlumat;
- güc.

İqtisadi təhlükəsizliyini təmin etmək üçün müəssisə korporativ resursların birləşməsindən istifadə edir. Korporativ resurslar müəssisənin qarşısında duran məqsədləri yerinə yetirmək üçün rəhbərlər və menecerlər tərəfindən istifadə olunan biznes amilləridir.

Onların arasında aşağıdakıların fərqləndirilməsi məqsədəuyğundur:

a) Kapitalın mənbəyi. Səhmdarların resursları və cəlb olunmuş maliyyə vəsaitləri şirkətin nizamnamə kapitalını, müəssisədə maliyyə sisteminin qan damarını təşkil edir;

b) Personal resursları. Şirkətin idarəçiləri, mühəndis heyəti, istehsal işçiləri və onların bilik, təcrübə və bacarıqların, bütün amillər nəzərə alınmaqla birləşdirən körpü.

c) Məlumat və texnologiya resursları. Müəssisənin fəaliyyətinin bütün aspektləri ilə yanaşı, məlumat hazırda ən vacib, son dərəcə dəyərli və qiymətli aspektdir. Bu, təşkilatın və biznesin idarə edilməsi üsulları ilə bağlı yeni iqtisadi, siyasi, sosial, və ekoloji vəziyyətin yaranmasını, işgüzar mühit, iqtisadi fəaliyyətin effektiv şəkildə planlaşdırılmasını və həyata keçirilməsi təşkil edir.

d) Maşın və avadanlıqların resursu. Mövcud maliyyə, informasiya texnologiyaları və insan imkanları əsasında şirkət (mövcud resurslara əsaslanaraq) lazım olan avadanlıq ilə təmin olunur.

e) Hüquq resursu. Sivilizasiyanın inkişafı, təbii ehtiyatların tükənməsi və qeyri-maddi aktivlərin artması ilə bu resursun rolu kəskin şəkildə artmışdır. Bu resursa təbii ehtiyatların istifadəsi üzrə patent, lisenziya və kvota istifadə etmək hüququ, eləcə də ixrac kvotası, torpaqdan istifadə hüquqları daxildir.

İqtisadi təhlükəsizliyin təmin edilməsi - mümkün zərərin qarşısını almaq üçün indi və gələcəkdə funksional komponentlərin həyata keçirilməsi prosesidir.

Müəssisənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində ən mühüm mərhələ strateji planlaşdırmadır. Bu mərhələ müəssisənin iqtisadi təhlükəsizliyini dəstəkləmək üçün strateji planın hazırlanmasını əhatə edir.

Şirkətin fəaliyyətinə dair strateji planların hazırlanmasından sonra müəssisənin iqtisadi təhlükəsizlik səviyyəsi və hazırkı taktiki planlaşdırma əməliyyatlarının qiymətləndirilməsi tələb oluna bilər. Şirkətin iqtisadi təhlükəsizlik səviyyəsinin təhlili zərərin qarşısını almaq üçün tədbirlərin effektivliyini qiymətləndirmək və müəssisənin iqtisadi təhlükəsizliyinin funksional meyarlarını hesablamaq əsasında həyata keçirilir.

Biznes mühitinin sürətli inkişafı, rəqabətin artması, biznes strukturlarının qloballaşması, kommunikasiya və həmçinin, digər amillər strateji idarəetmənin rolunun artmasını tənzimləyən, vacib əhəmiyyət kəsb edən faktorlardır. Strateji idarəetmə nəzəri və praktiki cəhətdə şirkətin hərtərəfli inkişafına və ən əsası, bütün iyerarxik səviyyələrdə müxtəlif nəzarət funksiyaları, o cümlədən menecmentin əsas funksiyalarından olan planlaşdırma və proqnozlaşdırmanı həyata keçirmək üçün şərait yaradır.

Şirkətlərin uğurlu inkişafı üçün düzgün strategiyanın seçilməsi önəmli faktor olsa da, uzunmüddətli işin qurulması üçün kifayət deyil. Şirkətin biznesinin inkişafı üçün mühüm faktor məhz onun çevik olması, bazarda baş verən dəyişikliklərə tez reaksiya verməsi, ekoloji amillərin düzgün araşdırılması, daxili və xarici amillərin təsirinin giymətləndirilməsidir.

Strateji idarəetmə metodları və modelləri ölkənin inkişaf səviyyəsindən, bazarın çevikliliyindən, şirkətin şaxələnməyə olan mövgeyindən asılıdır. Düzgün idarəetmədə ümumi inkişaf istiqamətinin seçilməsi vacibdir və yalnız bundan sonra iş prosesi doğru tənzimlənə bilər.

Strateji idarəetmə həmçinin kəmiyyətin və keyfiyyətin düzgün qiymətləndirilməsi, müvəqqəti standartlar olmadan şirkətin idarə edilməsinin mümkün olmadığını göstərir.

D. Rekfellerin belə bir sözü var: "Sizin gələcək rifahınız öz verdiyiniz qərarlardan asılıdır". Məhz bu cümləyə əsaslanıb strateji menecmentlə idarəetməni fərqləndirmək mümkündür. Qabaqcadan planlaşdırılmış, araşdırılmış və düşünülmüş işin nəticəsi, əsasən, müsbət qiymətləndirilir. Burada bazar seqmentinin düzgün seçimi, obyektin və subyektin düzgün müəyyənləşdirilməsi də vacibdir.

Vilhelm Buş demişdi: "Əksəriyyətin məhəl qoymadığı xırda şeylərə yönələn diqqət bəzi insanları varlılara çevirmişdir".

Ümumiyyətlə, hər bir işdə (idarəetmədə) çoxlu çətinliklər meydana çıxır və bu zaman bütün perspektivlər kölgə altına düşür. Düzgün düşüncə tərzi, düzgün yanaşma doğru strategiyanın seçilməsinə aparan yollardan biridir.

Hər bir şirkət üçün xərclərin minimuma endirilməsi (salınması) və daha unikal keyfiyyətli məhsulları əldə etmək arzusu bir faktdır. Ardından beynəlxalq bazara çıxma və istehsal fəaliyyətinin genişləndirilməsi də arzu olunan hədəfdir. Bu bir tərəfdən xərclərin azaldılmasına, digər tərəfdən isə istehsal prosesinin daha da təkmilləşdirilməsinə yönələn fəaliyyətə əsaslanmadır. Belə halda şirkət qiymət və keyfiyyət rəqabətində daxili bazarda mühüm üstünlük əldə etməyə başlayır. Son illərin təcrübəsindən göründüyü kimi, bençmarketinq şirkətin rəqabətqabiliyyətinin öyrənilməsi prosesinə ideal uyğunlaşmadır. Bu şirkətin strateji idarəetməsinin müxtəlif cəhətlərindən biri kimi nəzərə alınmalıdır.

**Ədəbiyyat**


1. Axundov N.Ə. Strateji idarəetmə. Bakı, 2002.
2. İsayev A.S. İstehsalın təşkili əsasları. Bakı, Azərnəşr, 2009.
3. Кабушкин Н.И. Основы менеджмента. Самара, 2009.
4. İmran A.M. İdarəetmə nəzəriyyəsi. Bakı, 2011.


**Резюме**


***Гасанов А.А., Гаджиев С.И.***

*Азербайджанский государственный аграрный университет*


**Экономическая безопасность и важность стратегического управления в её организации**


*Стратегический менеджмент, такой как современная теория и практика корпоративного управления, позволяет нам рассматривать различные управленческие функции организационного процесса, а также единую единицу, которая объединяет методы планирования и прагматизации на всех правительственных иерархических уровнях. Стратегическое управление должно определяться как группа конкретных целевых действий, которые могут быстро реагировать на изменения во внешней и внутренней среде, могут потребовать стратегической маневренности, переопределения цели и общего развития. Основной целью участия компании на международном рынке является снижение издержек и достижение уникальных, более качественных и конкурентоспособных продуктов. Доступ к международному рынку означает рост масштабов производственной деятельности компании.*



***Ключевые слова:*** *международное деловое сотрудничество, экономическая безопасность, конкуренция, стратегия, управление, менеджмент, маркетинг, риск*


**Summary**


***Hasanov A. A.,Hajiyeva S. I.***

*Azerbaijan State Agrarian University*


**Economic Security and Importance of Strategic Management in its Organization**


*Strategic management like modern corporate governance theory and practice allows us to consider the various management functions of the organization process, as well as a single unit that combines planning and pragnovation methods at all hierarchical levels of the government. Strategic management should be defined as a team of specific, targeted actions that can provide rapid response to changes in the external and internal environment that may require the strategic maneuverability, purpose redefining, and overall development. The main purpose of the company's participation in the international market is to reduce costs and to achieve unique, better quality products. Access to the international market means growth in the scale of the company's production activity.*



*Key words: international business cooperation, economic security, competition, strategy, management, marketing, risk*


## XÜSUSİ İQTİSADİ ZONALARIN YARADILMASI VƏ İQTİSADİ TƏHLÜKƏSİZLİK


***Həsənov Ə.H.***

*AMEA-nın İqtisadiyyat İnstitutu*


**Xülasə**


*Məqalədə müəllif respublikada xüsusi iqtisadi zonaların yaradılması və inkişafı məsələlərini təhlil edir və onların ölkənin iqtisadi təhlükəsizlik məsələlərinə təsirini araşdırır.*

***Açar sözlər:*** *rəqabətqabiliyyətlilik,xüsusi iqtisadi zona, azad ticarət zonası, qeyri-neft sektoru, texnoloji park*

Dünya təcrübəsi təsdiq edir ki, xüsusi iqtisadi zonaların yaradılması və inkişaf etdirilməsi milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi alətlərindən ən səmərəli olanlarından biridir. Bundan başqa, XİZ-lər istehsalın inkişafına, yeni iş yerlərinin açılmasına, əmək məhsuldarlığının artırılmasına, ölkənin depressiv rayonlarının sosial-iqtisadi inkişafına, sahibkarlığın sürətli inkişafına yardım edən dövlət regional siyasətinin bir aləti kimi də istifadə oluna bilər. Bütün bunlar isə ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasının vacib elementləridir. Müxtəlif növ XİZ-lər yerli və xarici kapitalın cəlb olunması imkanlarının genişlənməsinə, istehsalata qabaqcıl xarici elmi və idarəçilik texnologiyaların tətbiqinə, istehsalatda struktur dəyişikliklər prosesinin sürətləndirilməsinə, istifadə olunan istehsal gücünün səmərəliliyinin artırılmasına, milli təsərrüfatın dünya iqtisadiyyatına daha dərin daxil olmasına və beynəlxalq əmək bölgüsünün üstünlüklərindən daha səmərəli istifadəsinə imkan yaradır. Bu isə, öz növbəsində, gələcəkdə milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılmasına əhəmiyyətli potensial yaradır. Qeyd etməliyik ki, beynəlxalq rəqabətin gərginləşdiyi zaman dövlət dəstəyi ən böyük amil kimi çıxış edir, bunun isə bir növü kimi XİZ-in yaradılması hesab edilir.Hesab edirik ki, XİZ-lər modeli respublika iqtisadiyyatının inkişafı üçün çox perspektivli model kimi baxıla bilər.Azərbaycan XİZ-lərin yaradılması proseslərinə qoşulmaq haqqında düşündükcə, dünya bu sahədə daha irəli gedir. Ona görə də, respublikamız bu istiqamətdə gecikə bilər. XİZ-lərin üstünlükləri isə danılmazdır. Müasir dünya təcrübəsinə əsaslanan səmərəli təsərrüfat fəaliyyəti və xarici investisiyaların iri həcmi qısa müddət ərzində infrastrukturun sürətli inkişafına və regionun geopolitik nüfuzunun yüksəlməsinə güclü təkan verər. Respublikamız bu işdə gecikməməlidir.

Fikrimizcə, XİZ-in 30 növündən bir neçəsini yaxın illərdə yaratmaq olar. Bunlar: texnoparklar, elmi-texnoloji zonalar, azad ticarət zonaları, ekoloji-iqtisadi regionlar, azad limanlar və s. Bütün bunlar respublika rəhbərliyinin qeyri-neft sektorunun inkişafına aid tövsiyələrinin yerinə yetirilməsinə, rəqabət qabiliyyətli iqtisadiyyatda azad sahibkarlığın inkişafına böyük təkan verəcək.

Son illər gedən proseslər: texnoloji zonaların və Yüksək Texnologiya Parklarının (YTP) yaradılması, AMEA-nın bazasında YTP-nın yaradılması qərarı XİZ-rin respublika iqtisadiyyatı üçün daima artan əhəmiyyətinin sübutudur.

Azərbaycanda AİZ-lərin yaradılması üzrə iş ölkə rəhbərliyinin BMT-nin inkişaf proqramı UNDP ofisinə müraciətindən sonra başlamışdı. 1994-cü ildən Sumqayıtın qlobal planda sənayecə yenidən qurulması işi təşkil edilmişdi. Burada məqsəd BMT-nin ixtisaslaşmış müstəqil ekspertləri tərəfindən Sumqayıtın sektorlar üzrə sənayesinin hərtərəfli inkişafının layihə platformalarının yaradılması işi təşkil etmişdir. Eyni zamanda burada yenidənqurma strategiyası, xarici investisiya məsələləri, birgə müəssisələr yaradılması, dövlətlərin qarşılıqlı ticarət strategiyası və s. nəzərdə tutulmuşdu. Layihəyə görə xüsusi kapital tam idarə olunmalı idi. UNDP-nin, maliyyələşdirmə agentliyi UNİDO-nun, icra agentliyinin məqsədi bilavasitə xarici kapitalın cəlb edilməsinə əlverişli iqtisadi şəraitin yaradılması olmuşdur. Sumqayıt variantının bir sıra üstün və mənfi cəhətləri vardır. Üstünlüklər yüksək potensiala malik sənaye infrastrukturu ilə yanaşı, nisbətən aşağı əmək haqqı və zəruri texniki vərdişli kadrların, nəqliyyat infrastrukturunun olması, təbii resursların yaxınlığı, paytaxta yaxınlıq, xarici ticarət fəaliyyəti təcrübəsi və yüksək təhsil sisteminin mövcudluğudursa, mənfi cəhətlər aeroportun olmamağı, limanın yarıqapalı olması, qeyri-sağlam ekoloji vəziyyət və nisbətən kasıb təbiət, regionun daha yüksək ekoloji təzyiqə məruz qalma təhlükəsi və ölkə iqtisadiyyatının əsas kütləsinin Abşeron yarımadasında təmərküzləşməsi nəticəsində respublika ərazisinin iqtisadi, ekoloji və miqrasiya balansının pozulması kimi amillər idi. Belə fikirlər də səslənirdi ki, azad iqtisadi zona ölkənin təhlükəsizliyinə xələl gətirə bilər.Əfsuslar olsun ki, bu layihənin həyata keçirilməsi (baxmayaraq ki, ekspertlər tərəfindən böyük işlər görülmüşdü və 5 mln. ABŞ dolları xərclənmişdi) bəzi subyektiv səbəblərdən 1999-cu ildə dayandırılmışdı. Həmin dövrdə hökumət və parlament səviyyəsində bəzi iradlar, o cümlədən AİZ-in təhlükəli olması, separatizmin mənbəyi, Sumqayıtın Dünya okeanına çıxışının olmaması, ölkəyə vəsait qoyuluşunun riskli olması və s. səslənmişdi. Eyni zamanda «AİZ haqqında» qanun layihəsində vergi imtiyazları 2 ilə nəzərdə tutulmuş, bütün işgüzar maliyyə əməliyyatları milli valyuta ilə həyata keçirilməsi təsbitlənmişdi. Fikrimizcə, AİZ-nın yaradılması üçün Sumqayıt şəhərinin seçilməsi olduqca düzgün olmuşdur. Belə ki, bu şəhərin əsas istehsal gücləri, müəssisələri fəaliyyətlərini dayandırmış, 350 min əhaliyə malik Sumqayıtın gələcəyi həll olunmalı idi. Bunu da müasir tarix təsdiqlədi.

6 mart 2007-ci il tarixli "Xüsusi İqtisadi Zonalar haqqında" Prezident Fərmanı [1] və 2009-cu ilin aprelində Milli Məclis tərəfindən "Xüsusi İqtisadi Zonalar haqqında Qanun" [2] qəbul olunduqdan sonra respublikada böyük işlərin aparılmasına başlanılmışdır. Belə ki, respublikada Texnoloji Parklar, Sənaye Parkları, Yüksək Texnologiya Parkları, AİZ-lər və Sənaye Məhəllələri yaradılıb və bu iş sürətlə davam edir. Sumqayıt Texnoloji Parkının yaradılması və fəaliyyəti, Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı Sənaye

Parkı, Yüksək Texnologiyalar Parkı və "Sənaye Parkları haqqında nümunəvi Əsasnamə" Prezident fərmanları ilə yaradılması bu işlərin bariz nümunəsidir və bu sahədə böyük işlər aparılır.

XİZ-lərin inkişafına yeni dəstək də alınıb. Belə ki, Milli Məclisdə hazırlanan "Elm haqqında" qanunda elmi tədqiqatları dəstəkləmək məqsədilə elmi nəticələrin kommersiyalaşması nəzərdə tutulur. Bunun üçün elmi təşkilatlar üçün XİZ-lər və texnopolislər təşkil olunması nəzərdə tutulur.

Sumqayıtda fəaliyyət göstərən texnopark və yeni yaradılan Kimya Sənaye Parkı Azərbaycan sənayesinin potensialını qat-qat artıracaq, ölkəyə böyük miqdarda investisiyalar, ən müasir texnika və texnologiyalar cəlb edəcək, idxaldan asılılığı azaldıb, ixrac potensialını artıracaq, sahibkarlıq fəaliyyətini stimullaşdırıb qeyri-neft sektorunun çəkisini yüksəldəcək. Burada əsas problemlərdən biri istehsal olunan məhsullar üçün yeni satış bazarlarının tapılması, xarici ölkələrdə Azərbaycan məhsullarının tanıdılmasıdır. Təhlil onu göstərir ki, sonuncu məsələ Sumqayıt Texnoloji Parkı üçün böyük problemə çevrilib-istehsal olunan məhsulun keyfiyyəti aşağı düşüb, satış azalıb və bunun nəticəsində maliyyə qıtlığı yaranıb, fəhlə və qulluqçular əmək haqlarını ala bilmir.

Bu günə qədər sənaye parklarının rezidentləri Azərbaycan iqtisadiyyatına 1 mlrd. dollardan artıq vəsait yatırıblar və bunun nəticəsində 5 mindən çox yeni iş yerləri açılmışdır. Bundan sonra da rezidentlər 850 mln. dolların iqtisadiyyata yatırılmasını planlaşdırıblar və bunun da nəticəsində 7500-dən çox yeni iş yerləri açılacaq. Hal-hazırda Neftçala sənaye zonasında 6 müəssisəsinin yaradılması üzrə işlər aparılır, Masallı sənaye zonasında isə infrastrukturun tamamlanması üzrə işlər başa çatır. Bundan başqa, Hacıqabul və digər rayonlarda sənaye parklarının tikintisi aparılır. 2018-ci ildə Sumqayıt Kimya Sənaye Parkında investisiya dəyəri 2 milyard ABŞ dollarına yaxın olan bir neçə sənaye müəssisəsi açılacaq.Qeyd etdiyimiz kimi, müxtəlif XİZ-də fərqli biznes mühit yaradılır və istifadə edilir. Belə ki, "Mingəçevir Yüksək texnologiyalar parkında" inkibator tipli biznes-mərkəz yaradılır və beləliklə də regional səviyyədə innovativ ideya və layihələr dəstək alır. Nə qədər çox uğurlu layihələr olsa, o qədər də başqa sahələrdən İKT-rı sahəsinə potensial investisiyaların cəlb olunması prosesi sürətlənər.

Respublika rəhbərliyinin prioritet kimi seçdiyi iqtisadiyyatın yenidən formalaşması, nəqliyyat infrastrukturunun modernizasiyası, bir sıra texnoloji, sənaye, aqroparkların yaradılması kimi istiqamətləri nəzərə alaraq, xarici investorlar üçün böyük maraq və imkanlar yaranıb. Oktyabr ayının 30-da, böyük əhəmiyyət və geniş imkanlar yaradan, Bakı-Tiflis-Qars dəniz yolunun açılış isə bu maraq və imkanları qat-qat artırır və respublikamızın dünya iqtisadiyyatına inteqrasiya olunmasına və iqtisadi inkişafımıza böyük impuls verir. Ələt qəsəbəsində yaradılan ATZ respublika prezidentinin 2016-cı ilin mart ayında verdiyi sərəncam əsasında qurulur və buraya yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı da daxil edilib [3]. Qeyd etməliyik ki, buna əlavə olaraq prezident İ.Əliyev 31 may 2017-ci ildə azad iqtisadi zonaların yaradılması prosesinin sürətləndirilməsi işinə dair sərəncam imzalamışdır. Sərəncamda qeyd edildiyi kimi, "transmilli enerji infrastrukturu və beynəlxalq nəqliyyat layihələrinin Azərbaycanda reallaşdırılması investorların ölkəmizə marağını xeyli artırıb". Xarici investisiyaların cəlb edilməsi, əlverişli coğrafi mövqeyi ilə seçilən ərzailərin loqistik və sənaye potensialından tam istifadə olmasına, iqtisadiyyatımızın daha da möhkəmlənməsinə, büdcə gəlirlərinin diversifikasiyasına və əhalinin məşğulluğuna böyük töhfə verə bilər. Bundan başqa "Bakı şəhəri Qaradağ rayonun Ələt qəsəbədində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaraılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası prezidentinin 17 mart 2016-cı il tarixli 1912 nömrəli Sərəncamın icrası ilə əlaqədar hazırlanmış normativ hüquqi aktların, layihələri "azad iqtisadi zona" elan ediləcək ərazilərdə həyata keçiriləcək iqtisadi fəaliyyət üçün əlverişli hüquqi rejiminin müəyyənlişdirilməsini nəzərdə tutmuşdur.

Bizim fikrimizcə, Xəzər dənizinin statusunun həll edilməsi 5 sahilyanı ölkənin inteqrasiya əlaqələrinin aktivləşməsinə və iqtisadi əməkdaşlığa əlavə təkan olacaq. Bu yolda Bakı dəniz limanında və Ələt qəsəbəsində ATZ-lərin yaradılması böyük dəstək ola bilər. Ələt qəsəbəsində yaradılan yeni beynəlxalq dəniz limanının tikilməsini, o ərazidən keçən beynəlxalq dəmir, avtomobil yollarının olmasını, Bakı-Tiflis-Ceyhan neft və Bakı-Tiflis-Ərzurum qaz kəmərlərinin yaxınlıqdan keçməsini nəzərə alaraq bu qəsəbədə sahibkarlığın inkişafı, yeni iş yerlərinin açılması, əhalinin həyat səviyyəsinin artırılması məqsədilə xüsusi iqtisadi zonanın yaradılması məqsədə uyğun hesab edilmişdir. Bundan başqa, qeyd etmək istərdik ki: əlbəttə hər şey yeni olaraq sərbəst ərazidə yaradılır; bura 2 avtomobil yolunun kəsişməsi və "İpək yolunun" üstündə yerləşir; inkişaf etmiş infrastruktura "Bakı-Tiflis-Qars" dəmir yolu da əlavə olundu və bu faktda Ələt XİZ-in imkanlarını dəfələrlə artırdı. Bunun nəticəsində beynəlxalq ticarət dövriyyəsi artacaq və xarici ticarət strukturu təkmilləşəcək, iqtisadi əlaqələr möhkəmlənəcək, tranzit əməliyyatları sürətlə artacaq, əlbəttə ki, XİZ qeyri-neft sektorunun inkişafını sürətləndirəcək;qonşu regionlar da inkişaf etməyə başlayacaq; beləliklə də, bu XİZ-də tətbiq olunan biznes-mühit həm zonada çalışan sahibkarlara həm də ətraf rayonların iş adamlarına böyük dəstək olacaq.

**Ədəbiyyat**

1. “Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı, 6 mart 2007-ci il, “İqtisadiyyat və həyat”, 2007, №3.

2. “Xüsusi iqtisadi zonalar haqqında”. Azərbaycan Respublikasının Qanunu. Bakı, 9 aprel 2009.

3. "Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla, azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 mart 2016-cı il tarixli, 1912 nömrəli Sərəncamı.

**Резюме**

***Гасанов А.Х.***

**Создание специальных экономических зон и экономическая безопасность**

*В статье автор анализирует вопросы создания и развития специальных экономических зон в республике и исследует их влияние на вопросы экономической безопасности страны.*

***Ключевые слова:*** *конкурентоспособность, специальная экономическая зона, зона свободной торговли, ненефтяной сектор, технологический парк*

**Summary**

***Hasanov A.H.***

**Creation of Special Economic Zones and Economic Security**

*In the article the author analyzes the issues of creation and development of special economic zones in the republic and investigates the impact of their country on economic security issues.*

***Key words:*** *competitiveness, special economic zone, free trade zone, non-oil sector, technological park*

# DAXİLİ BAZARIN QORUNMASI VƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİNİN KONSEPTUAL ƏSASLARI

***Hümbətova S.İ.***

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Xülasə**

*Məqalədə daxili bazarın qorunması və iqtisadi təhlükəsizliyin təmin edilməsinin nəzəri metodoloji əsasları araşdırılıb, müxtəlif yerli və xarici iqtisadçı alimlərin bu sahədəki tədqiqatlarına nəzər yetirilib, müəlliflərin baxışları təhlil edilib və müəllif fikri göstərilmişdir. Iqtisadi təhlükəsizlik indikatorları və astana kəmiyyətlərinin müxtəlifliyi öyrənilib. Azərbaycanda iqtisadi təhlükəsizliyin təmin edilməsi zəruriliyi vurğulanıb.*

***Açar sözlər:*** *iqtisadi təhlükəsizlik, təhlükəsizlik indikatorları, astana kəmiyyətləri*

Təhlükəsizlik subyektin elə bir vəziyyətidir ki, onda bu subyektə xas olan keyfiyyətlərin və onun xarici mühit parametrlərinin dəyişməsi ehtimalı azdır və müəyyən intervaldan aşağıdır. Subyektin «arzu olunan» vəziyyəti onun həyat fəaliyyəti parametrlərinin konkret üzvi əlaqəsi ilə müəyyən edilir. Bu üzvi əlaqənin dəyişməsindən asılı olaraq, «arzu olunan» dəyişiklik üçün təhlükəsizlik səviyyəsinin düzgün qiymətləndirilməsi çox vacibdir. Subyekt tərəfindən təhlükəsizliyin qiymətləndirilməsi onun real səviyyəsi ilə uyğun olmaya da bilər. Bu kənarlaşmanın dərinliyi mövcud vəziyyət haqqında informasiyanın dolğunluğundan, onun dəyişməsinin təhlükəsizlik səviyyəsinə təsir dərəcəsindən və s. asılıdır.

Keçən əsrin 70-ci illərindən başlayaraq qərb ədəbiyyatında dövlətin «milli gücü» və «milli təhlükəsizlik» anlayışlarından geniş istifadə edilir. Hətta Yapon alimləri dövlətin «milli gücü»nün aşağıdakı əsas meyarlarını da müəyyən etmişlər [10, s.65-66]:

– dövlətin beynəlxalq miqyasda iqtisadi, maliyyə, elmi-texniki tərəqqidə xidməti;
– beynəlxalq böhran və ekstremal şəraitdə onun davamlılığı;
– «milli güc»ə arxalanaraq beynəlxalq miqyasda milli maraqları reallaşdıra bilmək imkanları.

Ümumiyyətlə, iqtisadi təhlükəsizlik kateqoriyası elmi ədəbiyyatda müxtəlif formalarda şərh olunur. Məsələn, V.Tambovtsevin fikrincə, bu və ya digər sistemin iqtisadi təhlükəsizliyi dedikdə, sistemin bütün məqsədlərinə nail olunması imkanlarını təmin edən istehsal altsistemlərinin vəziyyəti göstəricilərinin məcmusu başa düşülməlidir [8, s.18]. Fikrimizcə, istehsal altsistemlərinin deyil, bütün təkrar istehsal sisteminin vəziyyəti göstəricilərinin məcmusunu əhatə etməlidir.

V.A.Savin hesab edir ki, iqtisadi təhlükəsizlik ölkənin həyati maraqlarının müdafiəsi sistemidir [6, s.17]. Təkcə müdafiəsi deyil, eyni zamanda bu maraqların reallaşdırılması və təminatı sistemi kimi qiymətlədirilməlidir. Müdafiə obyektləri kimi bütövlükdə ölkənin xalq təsərrüfatının ayrıca təsərrüfat sahələri və sferaları, təsərrüfat fəaliyyətinin subyektləri kimi hüquqi və fiziki şəxslər çıxış edə bilərlər.

Bəzi iqtisadçıların fikrincə, iqtisadi təhlükəsizlik dedikdə dövlət institut və hakimiyyət orqanları tərəfindən milli mənafelərin təminatlı müdafiəsi, eləcə də daxili və xarici əlverişsiz şəraitin mövcud olduğu dövrdə kifayət dərəcədə müdafiə potensialının təmin edilməsi başa düşüldüyü halda, [9,s.18], bəzi iqtisadçıların fikrincə isə, iqtisadi təhlükəsizlik zamanı uzunmüddətli perspektivdə daha səmərəli üsulla əhalinin hər nəfərinə iqtisadi resursların maksimum miqdarının dayanıqlı istehsalı təmin olunan iqtisadi, siyasi və hüquqi şəraitlərin optimal uzlaşması baş verir [9, s.49]. Deyilənlərə əlavə olaraq onu demək olar ki, ümumiyyətlə əlverişsiz şəraitin yaranmasına imkan verməmək, eynilə də milli sərvətin hər manatından tutmuş, hər bir fərdin fəaliyyətinin ətraf mühitə müsbət təsirinin maksimumlaşdırılmasına nail olmaq.

L.İ.Abalkinə görə isə, iqtisadi təhlükəsizlik iqtisadi sistemin elə bir vəziyyətidir ki, ona dinamik inkişaf etməyə, sosial məsələləri səmərəli həll etməyə, eləcə də dövlət tərəfindən sərbəst iqtisadi siyasətin işlənilməsinə və həyata keçirilməsinə imkan verir [5,s.21]. Deyərdim ki, vəziyyəti yox, artiq qaydası olmalıdır.

XXI əsrdə – qloballaşan dünya iqtisadiyyatı şəraitində ölkələrin iqtisadi təhlükəsizliyi probleminin ön plana çəkiləcəyini qabaqcadan söyləyən akademik Z.Ə.Səmədzadəyə görə, iqtisadi təhlükəsizlik dedikdə, iqtisadiyyatın və onun qurumlarının elə vəziyyəti başa düşülür ki, bu, milli mənafeləri müdafiə etməyə, yeridilən siyasətin sosial yönümlüyünə, iqtisadiyyatın, ölkənin müdafiə qabiliyyətinin tələb edilən səviyyədə olmasına imkan yaradır [3, s.208]. Əlavə olaraq qeyd etmək istərdim ki, iqtisadi təhlükəsizlik milli mənafeyi müdafiə edən sistemin tərkib hissəsidir.

Prof. V.K.Sençaqovun fikrincə isə, iqtisadi təhlükəsizlik «…hakimiyyət institutlarının yerli iqtisadiyyatın inkişafı, cəmiyyətin sosial-siyasi sabitliyinin qorunub saxlanması üzrə milli maraqların reallaşması və qorunması mexanizmlərini yaratmaq hazırlığı və qabiliyyəti ilə təmin edilir» [8, s.58-59]. Fikrimizcə, iqtisadi təhlükəsizlik həm də qeyd olunan mexanizmin sabitlik və inkişafı ilə təmin edilir.

M.A.Əhmədovun fikrincə, iqtisadi təhlükəsizlik dedikdə, "…. dünya iqtisadi sistemində baş verən sosial-siyasi, iqtisadi və ekoloji kataklizmaların və problemlərin yaranmasından asılı olaraq ölkənin zəruri həyati tələbatlarını təmin etmək» imkanına malik olması başa düşülür. Məncə, başqa sözlə, minimum göstəricilər sisteminin təminatı başa düşülür. İqtisadçı alimə görə, iqtisadi təhlükəsizlik o zaman təmin edilə bilər ki, ölkənin digər ölkələrdən asılılığı, milli müstəqilliyin itirilməsi, iqtisadi gücün kəskin zəifləməsi, əhalinin həyat səviyyəsinin kəskin aşağı düşməsi və ölkənin qlobal strateji məqsədlərinin əldə olunması üçün tələb olunan ən minimum həddi ötüb keçməsin [2, s.439].

İqtisadi təhlükəsizlik anlayışının aşağıdakı bloklardan təşkil olunduğunu əsaslandırmaq olar:

1. İqtisadi müstəqillik. Bu, milli resurslar üzərində dövlət nəzarətinin aparılmasından, beynəlxalq ticarətdə bərabərhüquqlu iştirak üçün milli rəqabət üstünlüklərindən istifadə etmək qabiliyyətindən ibarətdir;
2. Milli iqtisadiyyatın dayanıqlığı və sabitliyi. Bu, iqtisadi sistemin bütün elementlərinin möhkəmliyini və etibarlılığını, bütün mülkiyyət formalarının müdafiəsini, səmərəli sahibkarlıq fəaliyyəti üçün təminatın yaradılmasını nəzərdə tutur.
3. Öz-özünə inkişaf və tərəqqi etmək qabiliyyəti, daha doğrusu, müstəqil olaraq milli iqtisadi maraqları reallaşdırmaq və müdafiə etmək, daim istehsalın modernizasiyasını, səmərəli investisiya və innovasiya siyasətini aparmaq, ölkənin intellektual və əmək potensialını inkişaf etdirmək imkanlarına malik olmaq.
4. Dünya bazarında qarşılıqlı fəaliyyət göstərən ölkələrin iqtisadiyyatlarının balans vəziyyəti.

İqtisadi təhlükəsizliyin hüquqi təminat məsələləri öz əksini 2004-cü ilin iyununda qəbul edilmiş «Milli təhlükəsizlik haqqında» Azərbaycan Respublikası Qanununda tapmışdır [1, s.4-5].

Rusiya iqtisadçıları arasında ilk əvvəl iqtisadi təhlükəsizlik sisteminin 6 blokdan ibarət olması iddia edilirdi [10, s.71]. Qeyd olunurdu ki, bu sistemə milli təhlükəsizlik konsepsiyası, iqtisadiyyat sferasında Rusiyanın milli maraqları, iqtisadiyyat sferasında təhdidlər, iqtisadi təhlükəsizlik indikatorları, iqtisadi təhlükəsizliyin təşkili və iqtisadi təhlükəsizliyin hüquqi təminatı kimi yarımsistemlər daxildir.

Lakin son illərin iqtisadi ədəbiyyatında iqtisadi təhlükəsizlik sisteminə əlavə olaraq iqtisadi təhlükəsizliyin astana kəmiyyətləri adlı yeni bir yarımsistem də daxil edilmişdir [8, s.64-65].

Fikrimizcə, iqtisadi ədəbiyyatda qeyd edilənləri ümumiləşdirməklə, Azərbaycanın iqtisadi təhlükəsizlik sistemini aşağıdakı kimi ifadə etmək mümkündür:

1. Milli təhlükəsizlik konsepsiyası;
2. İqtisadiyyat sferasında ölkənin milli maraqları;
3. İqtisadi təhlükəsizliyin təhdidləri;
4. İqtisadi təhlükəsizliyin indikator kəmiyyətlərinin astana tərkibi;
5. İqtisadi təhlükəsizliyin təmin edilməsinin təşkilati strukturu;
6. İqtisadi təhlükəsizliyin hüquqi təminatına aid olan qanunlar;
7. İqtisadi təhlükəsizlik indikatorlarının tərkibi.

Ölkənin iqtisadi təhlikəsizliyinin yüksəldilməsi xeyli dərəcədə daxili və xarici bazarlarda milli maraqların müdafiəsi alətlərinin səmərəliliyindən və qiymət amilinin nəzərə alınmasından asılıdır. Xüsusilə də bu, bazar iqtisadiyyatına keçid mərhələsində daha zəruridir. Ona görə ki, keçid mərhələsi idxal məhsullarının milli bazara yayılmasına qarşı yerli əmtəə istehsalçılarının zəif müdafiəsi, yerli məhsulların ixracında ayrı-seçkilik məhdudiyyətlərinin qoyulması və kapitalın xaricə axını ilə səciyyələnir. Bu proseslər ixrac məhsullarının qiymətlərinin süni olaraq aşağı salınması və idxal məhsullarının qymətlərinin qaldırılması hallarında, eləcə də kifayət qədər təkmil olmayan gömrük nəzarəti şəraitində baş verir.

Daxili bazarda iqtisadi təhlükəsizliyin təmin olunması və xarici bazarlarda milli maraqların müdafiəsi, iqtisadi artım mənbələrinin yaradılmasına və istehsalın inkişafına yönəldilmiş iqtisadi siyasətin həyata keçirilməsi aşağıdakı tədbirlər vasitəsilə reallaşdırıla bilər:

– müəssisələr arasında hesablamalar sisteminin normallaşdırılması;

– qiymətlərlə dolayı və bir çox təbii inhisar məhsullarının qiymətlərinə isə birbaşa tənzimlənmə yolu ilə daxili tələbin artmasına şəraitin yaradılması;

– valyuta siyasətinin köməyilə idxalla rəqabətə tab gətirə bilən məhsulların qiymətlərin sabitliyini saxlamaqla daxili bazarın qorunmasına, onun iqtisadi təhlükəsizliyinin təmin olunmasına və ixracın stimullaşdırılmasına yönəldilməsi.

Yerli istehsalçıların milli maraqlarının müdafiəsində və daxili bazarın iqtisadi təhlükəsizliyinin təmin olunmasında qiymət amilindən çevik istifadə edərək əsas rol Azərbaycan Respublikasının gömrük orqanlarına məxsusdur, çünki bu, mövcud qanunvericiliklə onların vəzifələri sırasına daxil edilmişdir.

Beləliklə, dünya təsərrüfat əlaqələrini inkişaf etdirərək Azərbaycan xarici və daxili bazarda milli maraqların müdafiəsi və daxili bazarın iqtisadi təhlükəsizliyinin təmin olunması üzrə müxtəlif alətlərdən istifadəyə həmişə hazır olmalıdır.

**Ədəbiyyat**


1. "Milli təhlükəsizlik haqqında " Azərbaycan Respublikası Qanunu.
2. Əhmədov M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı: 2003, 520 s.
3. Səmədzadə Z.Ə. Dünya iqtisadiyyatı. Çin iqtisadi möcüzəsi. Bakı: Gənclik, 2001, 317 s.
4. Бобылев С.Н., Макеенко П.А., «Индикаторы устойчивого развития России», 2001
5. Абалкин Л.И. Вызов эпохи и приоритет экономической и социальной политики государства. //Банковское дело. 1998. №12.
6. Гаджиев Ш.Г. Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития. Киев: Экспресс – об-ява, 2000, 504 с.
7. Савин В.А. Некоторые аспекты экономической безопасности России, Международный бизнес России №9, 1995, с.14-19.
8. Сенчагов В.К. Экономическая безопасность: геополитика, глобализация, самосохранение и развитие (книга XV). Институт Экономики РАН М.: ЗАО Финстатинформ, 2002.
9. Тамбовцев В.А. Экономическая безопасность хозяйственных систем: структура, проблемы. Вестник МГУ №3, 1995, с.17-24.
10. Зарицкий Б.Е. Людвиг Эрхард: секреты «экономического чуда». М.: БЕК, 1997.
11. Экономическая и национальная безопасность: Учебник / Под ред. Е.А.Олейникова. М.: Экзамен, 2004, 768 с.


**Резюме**


***Гумбатова С.И.***

*Азербайджанский государственный экономический университет (UNEC)*


**Концептуальные основы зашиты внутреннего рынка и обеспечение экономической безопасности**


*В статье исследована теоретико-методологические основы зашит внутреннего рынка и обеспечения экономической безопасности, уделено внимание исследованиям в этой области отечественных и зарубежных ученых- экономистов. Проанализированы взгляды авторов, изучен индикаторы экономической безопасности и разнообразие их пороговых значений. Была отмечена необходимость обеспечения экономической безопасности в Азербайджане.*

***Ключевые слова:*** *экономическая безопасность, индикаторы экономической безопасности, пороговые значения*

**Summary**

***Humbatova S.I.***
*Azerbaijan State University of Economics (UNEC)*

**The Conceptual Bases of Protecting Domestic Market And Providing Economic Safety**

*The article contains investigation of theoretical and methodological bases protection of domestic market and providing of economic safety. It was looked through the researches of native and foreign economic scientists in this sphere, analyzed viewpoints of these authors' and was shown their opinions. The indicators of economic safety and variety of threshold significance was studied. The necessity of providing economic safety was noted in Azerbaijan.*

***Keywords**: economic safety, indicators of economic safety, threshold significance.*

## ELEKTROENERGETİKADA STRUKTUR İSLAHATLARI

***Hüseynov Q.S., Hüseynzadə G.Q.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Məqalədə elektroenergetika sahəsində struktur islahatlarının dünya təcrübəsinə toxunulur. Azərbaycanda elektroenergetika bazarının liberallaşdırılmasına dair təkliflər verilir.*

***Açar sözlər:*** *elektroenergetika, liberallaşdırma, təbii inhisar, qiymət, rəqabət*

Təbii inhisar sferalarında səmərəsiz təsərrüfatçılıq XX əsrin sonunda bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrinin hökumətlərini təbii-inhisar bazarlarının fəaliyyət göstərməsində əhəmiyyətli dəyişikliklərə səbəb olan ciddi struktur dəyişiklikləri həyata keçirməyə məcbur etmişdir. Son vaxtlar, xüsusilə *dünyada neftin qiymətinin* kəskin *azalmasından* sonra Azərbaycan hökuməti də bu sahədə islahatların qaçılmaz olduğunu duyur və Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair” Strateji Yol Xəritəsində bu istiqamətdə görüləcək tədbirlər müəyyənləşdirilmişdir.

Dünya təcrübəsində elektroenergetikada struktur islahatlarının aparılmasının müxtəlif variantları mövcuddur. İslahatlar modelinin seçilməsi iqtisadi və siyasi şəraitdən, liberallaşdırılmanın prioritet məqsəd və vəzifələrindən, bu və ya digər ölkənin spesifik xüsusiyyətlərini müəyyən edən bir sıra amillərdən asılıdır. Elektroenergetikanın islahatı bir neçə əsas istiqaməti özündə birləşdirir:

- dövlət unitar müəssisəsi, dövlət səhmdar müəssisəsi, şirkətlərin etibarlı idarəetməyə, icarəyə, konsessiyaya verilməsi, özəlləşdirmə və s. kimi mülkiyyət formalarının hesabına mümkün olan sahədə özəl sektorun iştirakının genişləndirilməsi;
- təsərrüfat münasibətlərinin liberallaşdırılması dərəcəsi. Elektroenergetikada rəqabət münasibətlərinin dəyər zəncirinin elementləri üzrə yayılması dərəcəsindən asılı olaraq dörd əsas modeli ayırırlar: təbii inhisar; alış agentliyi, topdansatış bazarında rəqabət; pərakəndə bazarda rəqabət;
- şirkətlərin vertikal dezinteqrasiyası. Bu halda elektroenergetikanın iki əsas sahə modeli mümkündür: 1) kompleks (sahədə generasiya güclərinin bir hissəsinin satıldığı vertikal inteqrasiyalı şirkətlərin üstünlük təşkil etməsi, rəqiblərə şəbəkələrdən istifadə etmək hüququnun verilməsi); 2) ixtisaslaşmış (müstəqil şirkətlərin üstün olması).

Elektroenergetikanın liberallaşdırlması sahəsində təcrübəyə malik ölkələr əsas addımlar qismində aşağıdakıları görürlər:

- texnoloji və kommersiya bazar infrastrukturunun formalaşdırılması, topdansatış bazarının sistemli və kommersiya operatorlarının yaradılması;
- elektrik enerjisi istehsalçılarının, topdansatış bazarında elektrik enerjisinin alıb-satanların, vertikal-inteqrasiyalı şirkətlərin və iri istehlakçıların topdansatış bazarına girişinin açılması ilə onun derequlyarlaşdırılması;
- elektrik enerjisinin tam tarifinin tənzimlənməsindən şəbəkə xidmətləri üzrə tarif və son istehlakçılar üçün derequlyasiyalı bazara girişin icazə verildiyi satış əlavəsinin tənzimlənməsinə keçilməsi;
- bütün istehlakçı kateqoriyaları üçün satış sahəsində rəqabətin tətbiqi hesabına pərakəndə bazarların mərhələli derequlyasiyası [1, s. 252].

Azərbaycanda müvafiq istiqamətdə islahatlar həyata keçirərkən hökumət xüsusi ehtiyatlıqla elektroenergetika bazarının liberallaşdırılması prosesində rəqabət haqqında ümumi qanunvericiliyi qəbul etməlidir. Elektroenergetikanın dövlət tənzimlənməsinin məhz bu cür şərhinin doğruluğu xarici təcrübədən nümunələrlə təsdiq edilir: müstəqil operatorlar yaradılır, texnoloji və kommersiya idarəetməsinin funksiyaları ayrılır, aparıcı elektrik şirkətlərinin mülkiyyətində dövlətin payı artır. Belə ki, Norveç, İsveç və Finlandiyada kommersiya və texnoloji operatorların funksiyaları ayrılmışdır. Bu cür tənzimləmə sxemi Kaliforniya və Argentinada da tətbiq edilir. Bir sıra hallarda bu funksiyalar vahid idarəetmə altında qovuşur və təşkil olunur. Əksər hallarda isə makroiqtisadi səviyyədə sahə üzrə tənzimlənmə vəzifəsi dövlətin müstəsna hüququ olaraq qalır.

Elektrik enerjisi bazarına keçid dünya energetikası üçün dönüş məqamıdır. Elektrik enerjisi bazarının liberallaşdırılması nəticəsində dəqiq müəyyən olunmuş və etibarlı istehlak sferası yerinə azad satış bazarı yaranır, dövlətlə razılaşdırılmış inhisar qiyməti əvəzinə, gözlənilmədən əhəmiyyətli azalma meyillərinə malik güclü şəkildə dəyişməkdə olan bazar qiyməti gəlir [2, s. 13].

ABŞ (1978-ci il) və Böyük Britaniya (1982-ci il) elektroenergetikanın islahatının pionerləri hesab olunur. Elektroenergetikada təsərrüfat münasibətlərinin ardıcıl liberallaşdırılması və müxtəlif profildən energetika şirkətlərinin özəlləşdirilməsi 1980-ci illərdə sənaye cəhətdən inkişaf etmiş (ABŞ, Aİ, Avstraliya və başqaları), bir sıra inkişaf etməkdə olan (Argentina, Çili və başqaları), eyni zamanda postsosialist ölkələrində (Polşa, Macarıstan, Ukrayna, Qazaxıstan və başqaları) həyata keçirilmişdir. Nəticədə, 2000-ci illərin sonuna doğru İİƏT-in üzv ölkələrinin əksəriyyətində və təxminən 70 inkişaf etməkdə olan ölkənin iqtisadiyyatında bu sahənin islahatı üzrə ciddi addımlar atıldı. Aparılan islahatlar dövlət sahibkarlığından və ölkənin infrastruktur sahələrinin mərkəzləşdirilmiş təşkilindən xüsusi mülkiyyətə, dövlət tənzimlənməsinə və bazaryönümlü struktura keçid konsepsiyasıdır.

Bir sıra inkişaf etmiş ölkələrdə elektroenergetika sahəsinin islahatının təhlili göstərir ki, liberallaşdırmanın əsas məqsədi sektorun işinin səmərəliliyinin yüksəldilməsi, istehlakçılar üçün elektrik enerjisinin dəyərinin azaldılması, enerji xammalı təminatı məsələsinin həllinə aid olmuşdur.

İnkişaf etməkdə olan ölkələrdə isə sahənin liberallaşdırılması, hər şeydən əvvəl, elektroenergetikanın modernləşdirilməsi üçün investisiya vəsaitlərinin çatışmazlığı problemi ilə şərtlənmişdir. Müstəqil investorlar onlar tərəfindən nəzarət olunmayan, resursları səmərəsiz xərcləyən, fəaliyyətsiz dövlət inhisarlarına vəsait qoymaq arzusunda deyillər. Bu vəziyyətdə ölkə üçün yeganə çıxış – sahənin islahatıdır. Qazaxıstanın elektroenergetikasının islahatı təcrübəsi bu nəticəni təsdiq edir. İnkişaf etməkdə olan ölkələrdə elektroenergetika sahəsinin liberallaşdırılması siyasətinin əsas məqsədi investisiya axınının artırılması və milli büdcənin xərclərinin azaldılmasıdır.

"Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair" Strateji Yol Xəritəsində elektroenergetika sektorunda liberallaşdırılma tədbirlərinin aparılması xüsusi vurğulanır.

Elektrik enerjisi sektorunda gəlirlərdə baş verən azalmalardan sonra daha çox gəlir əldə edilməsi məqsədilə investisiyalardan səmərəli istifadənin təmin olunması üçün xərclərin optimallaşdırılması vacib amilə çevrilmişdir. Bu istiqamətdə iqtisadi səmərəliliyin yüksəldilməsi və şəffaflığın artırılması məqsədilə enerji bazarının liberallaşdırılması və sektorlar üzrə komponentlərin bir-birindən ayrılması xüsusi önəm kəsb edir. Belə ki, əksər ölkələr bu sektor üzrə dövlət inhisarçılığından elektrik enerjisi üzrə istehsaldan tutmuş pərakəndə satışa qədər ayrı-ayrı komponentləri özündə ehtiva edən tamrəqabətli dəyər zəncirinə keçidi təmin etməyə nail olmuşlar. Strateji Yol Xəritəsində ölkəmizdə elektrik enerjisi ehtiyatlarını artırmaq üçün təbii qaz, su və bərpa olunan enerji mənbələrindən (məsələn, günəş və külək) enerji istehsalına investisiya qoyuluşları ediləcəyi qeyd olunur. Hazırda təbii qazla işləyən elektrik stansiyalarının istehsal portfelində əsas paya malik olmasına baxmayaraq, onların ümumi portfeldəki payının 2025-ci ildən sonrakı dövrdə azalacağı proqnozlaşdırılır. Bu nöqteyi-nəzərdən, orta və uzunmüddətli perspektivdə bərpa olunan enerji növləri üzrə daha dayanıqlı enerji istehsalı strategiyasına hədəflənmək əsas götürülür. Sektorun liberallaşdırılmasının bu məqsədə nail olmaqda vacib mexanizm rolunu oynayacağı əsaslandırılır. .

Həmçinin Strateji Yol Xəritəsində kommunal xidmətlər sektorunda, xüsusilə elektrik enerjisinin verilişi ilə istehsalının bir-birindən ayrılması, satış üçün topdansatış bazarlarının yaradılması, alternativ və bərpa olunan enerji mənbələri üzrə təqdim olunmuş layihələr əsasında tariflərin müəyyənləşdirilməsi, mövcud tariflərin (külək və kiçik su elektrik stansiyalarında istehsal edilən elektrik enerjisi tariflərinin) təkmilləşdirilməsi, digər mənbələr üzrə tariflərin formalaşdırılması, seçmə qaydada özəlləşdirmə üçün istehsal aktivlərinin prioritetləşdirilməsi (bəzi istehsal aktivlərinin səmərəliliyini yüksəltmək üçün özəl müəssisələrə diqqət yetirilməsi), paylama ilə pərakəndə satışın bir-birindən ayrılması və pərakəndə satış sektorunun liberallaşdırılması məsələlərinin nəzərdən keçiriləcəyi və müvafiq islahatların aparılacağı qeyd

olunur. Strateji Yol Xəritəsində o da qeyd olunur ki, bu sahədə uzunmüddətli qiymət zəmanətlərinin və rəqabətli tender təkliflərinin müəyyənləşdirilməsi müqavilələrin bağlanmasına, investorların cəlb edilməsinə və uzunmüddətli dövrdə tələbatın ödənilməsinə imkan verə bilər [3].

Nəticə olaraq, təbii inhisarların struktur islahatlarının əsasları qismində aşağıdakıları ayırmaq olar: təbii-inhisar halqasinin fəaliyyətin potensial rəqabətli növlərindən ayrılması; o fəaliyyət sahələrində real rəqabətin inkişafı üçün şəraitin təmin edilməsi ki, orada bu mümkündür və məqsədəuyğundur; qiymət tənzimlənməsinin liberallaşdırılması və həmin sektorlarda onun sonrakı sadələşdirilməsi, hansı ki, orada səmərəli bazar rəqabəti əldə edilə biləndir; təbii-inhisar komponentinin mövcudluğu ilə xarakterizə olunan bazar seqmentlərində sabit və şəffaf tənzimlənmənin tətbiqi.

Liberallaşdırılmış təbii inhisarın uzunmüddətli inkişafı konsepsiyası mərkəzləşdirilmiş, bütün bu sahələrin və qarışıq sahələrin bütün (dövlət daxil olmaqla) investorlarının inkişaf planını nəzərə almalıdır.

**Ədəbiyyat**

1. Кольжанова А.С. Стратегия структурных преобразований электроэнергетического комплекса РФ в условиях рыночной экономики: диссертация на соискание ученой степени кандидата ученой степени экономических наук. Саратов – 2005.

2. Трачук А.В. *Теоретико-методологическое обоснование* совершенствования механизма деятельности естественных монополий: диссертация на соискание ученой степени доктора экономических наук. Москва:, 2010.

3. "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair" Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.

***Резюме***

***Гусейнов Г.С., Гусейнзаде Г.Г.***

***Структурные реформы в электроэнергетике***

*Затронут мировой опыт в области структурных реформ в электроэнергетике. Даны предложения по либерализации рынка электроэнергетики в Азербайджане.*

***Ключевые слова:*** *электроэнергетика, либерализация, естественная монополия, цена, конкуренция*

**Summary**

***Huseynov G.S., Huseynzadeh G.G.***

**Structure Reforms in the Electroenergetic**

*The world experience of the structure reforms in the electroenergetics area are touched. Offers about liberalization of the electroenergetics market in Azerbaijan are given*

***Key words:*** *electroenergetics, liberalization, natural monopoly, price, competition*

## KLASTERLƏR- DÖVLƏTİN İNNOVASİYA SİYASƏTİNİN TƏRKİB HİSSƏSİ KİMİ

***İsmayılova L.F.***

*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Klaster yüksək innovasiya fəallığı məkanıdır və dövlətin innovasiya siyasətinin tərkib hissəsidir. Klaster şəbəkələrinin formalaşdırılması və inkişafı iqtisadiyyatın rəqabətqabiliyətliyinin yüksəldilməsi və xarici iqtisadi inteqrasiyanın fəallaşdırılmasının səmərəli mexanizmi kimi çıxış edir.*

***Açar sözlər:*** *klasterlər, milli iqtisadiyyat, innovasiya, investisiya, xarici siyasət.*

Klasterlərin inkişafı üzrə layihələrin həyata keçirilməsi klaster şəbəkəsinə daxil olan subyektlərin inkişafına mənfi təsir göstərən müxtəlif növ maneələrin səmərəli şəkildə aradan qaldırılmasına imkan verir. Belə problemlərdən biri müxtəlif klaster tiplərinin inkişafına mane olanlardır. Onlara ixtisaslı kadrların çatışmazlığı, kiçik müəssisələrin innovasiya qabiliyyətinin, istehsal edilən məhsullarda modelli yeniləşmə tempinin və onların istehlak keyfiyyətinin aşağı olması, infrastrukturun əlçatmazlığı və keyfiyyətsizliyi, klasterlərin inkişafı üzrə strateji planlaşdırma təcrübəsinin, klaster iştirakçıları arasında səmərəli informasiya - kommunikasiya sisteminin olmaması, xarici bazara çıxışın məhdudluğu və s. aiddir.

Bunun nəticəsində yerli klasterlər dəyərin qlobal zəncirinə cəlb edilir ki, bu da milli texnoloji bazanın səviyyəsini və müəssisələrin beynəlxalq rəqabətqabiliyyətliyinin yüksəldilməsi hesabına iqtisadi artımın keyfiyyətini əhəmiyyətli şəkildə artırmağa imkan verir. Bu prosesdə klasterə daxil olan subyektlər yeni texnologiyalar, müasir idarəetmə metodları və xüsusi bilikləri əldə edir və tətbiq edir, həmçinin onlar yüksək rəqabətqabiliyyətli beynəlxalq bazara çıxış imkanları qazanır.

Ümumiyyətlə, klasterləşmə prosesinin əsas vəzifələrinə aşağıdakıları aid etmək olar [1]:

- klasterlərin səmərəli təşkili üçün şəraiti formalaşdırmaq. Buraya klaster iştirakçılarının aşkar edilməsi, klasterlərin inkişaf strategiyasının işlənib hazırlanması, klaster iştirakçılarının rəqabət üstünlüyünün artırılmasını təmin etmək və s. kimi məsələlər daxildir.

- klaster iştirakçılarının rəqabətqabiliyyətliyinin yüksəldilməsinə istiqamətlənən layihələrin səmərəli dəstəyini təmin etmək. Bu vəzifənin yerinə yetirilməsi klasterlərin inkişaf prioritetlərinin nəzərə alınmasını və iqtisadi siyasətin müxtəlif istiqamətləri üzrə (kiçik sahibkarlığın dəstəklənməsi, innovasiya və texnoloji, təhsil, investisiyanın cəlb edilməsi, ixracın inkişafı, regionların və iqtisadiyyatın sahələrinin inkişafı və s.) tədbirlərin ciddi əlaqələndirilməsini zəruri edir.

- regionlar və ayrı-ayrı sahələr səviyyəsində klasterləşmənin həyata keçirilməsinə müxtəlif istiqamətlərdə səmərəli dəstəyin (metodoki, informasiya-məsləhət, təhsil, müxtəlif idarəetmə strukturlarının fəaliyyətinin əlaqələndirilməsi, dövlət- xüsusi sektor əməkdaşlığı və s.) təmin edilməsi.

Bunlarla yanaşı, klasterlərin inkişafına mane olan digər amillərə kooperasiya əlaqələrinin və subkontrakt mexanizmlərinin kifayət qədər inkişaf etməməsi, xarici təchizatçılar üçün göndərilən məhsulların və göstərilən xidmətlərin keyfiyyətinin və texnoloji səviyyəsinin (rəqabətqabiliyətliyinin), quraşdırma işi ilə məşğul olan müəssisələrin əməliyyat rəqabətqabiliyyətliyinin, istehsalın təşkilinin və texnoloji təchizat səviyyəsinin aşağı olması, əsaslandırılmamış qaimə xərcləri və s. aid edilir.

Klaster şəbəkələrinin prosesli inkişafına bir sıra tipik amillər, xüsusilə bahalı istehsal avadanlıqlarının əldə edilməsinə maliyyə imkanının olmaması, kiçik və orta müəssisələrin xammala əlçatmazlığı, müasir prosesli avadanlıqlara xidmət göstərən ixtisaslı işçilərin olmaması və s. mənfi təsir göstərir. İnnovasiya və yaradıcılıq, həmçinin turizm klasterləri üçün tipik problemlər adətən? klasterlərin mühüm inkişaf istiqamətləri üzrə elmi-tədqiqat fəaliyyətinin zəifliyi, texnologiyaların kommersiyalaşdırılması prosesinin aşağı səmərəliliyi, yeni fəaliyyətə başlamış texnoloji kampaniyaların inkişafı üçün maliyyə resurslarının əlçatmazlığı və onların ixtisaslaşmış xidmətlərdən istifadə mümkünlüyünün aşağı səviyyəsi, sahəvi tənzimlənmənin qeyri-səmərəliliyi, turist obyektlərində ixtisaslaşmış infrastrukturun və xidmətin aşağı inkişaf səviyyəsi, təqdim edilən xidmətlərin keyfiyyət standartlarına riayət edilməməsidir və s. Beləliklə, qeyd edilənlərdən göründüyü kimi? innovasiya klasterlərinin formalaşdırılması və inkişafı çoxlu sayda problemlərin aradan qaldırılmasını, zəruri ilkin şəraitin yaradılmasını, onların sabit inkişafının təmin edilməsini tələb edir.

Təcrübə göstərir ki, iqtisadiyyata fəal müdaxilə edən ölkələrdə rəqabətqabiliyyətliyin yüksəldilməsinə istiqamətlənən innovasiya klasterləri yüksək templə inkişaf edir. Əlbəttə ki, klasterləşmə prosesi dövlət tərəfindən müxtəlif səviyyələrdə məqsədəmüvafiq və əsaslandırılmış fəaliyyət proqramının həyata keçirilməsini, onun ciddi əlaqələndirilməsini, tənzimlənməsini və dəstəklənməsini tələb edir. Müxtəlif ölkələrdə yüksək innovasiya fəallığı məkanı kimi klaster şəbəkələrinin formalaşdırılmasında və inkişafında dövlətin iştirakı iqtisadi siyasətdə bazar amillərinin fəaliyyət imkanından asılı olaraq həyata keçirilir. Bəzi ölkələrdə hökumət klasterlərin ehtiyacı üçün infrastrukturun yaradılması xərclərində birbaşa iştirak edir, maliyyələşdirmə və vergi güzəştləri ilə müəssisələrin yerləşdirilməsini stimullaşdırır, bir sıra ölkələrdə isə dəstək yalnız regional orqanların təsiri ilə məhdudlaşır. Bu zaman məqsədi yeni bilik və texnologiyaları yaratmaq olan iştirakçılar arasında interaktiv proseslər nəticəsində regionun və bütövlükdə ölkənin rəqabət üstünlüyünü yaradan innovasiya klasterlərinə xüsusi diqqət yetirilir. İnnovasiya klasterlərinin mühüm tərkib hissəsi (biliyin daşıyıcısı olan qrup) universitetlər və elmi-tədqiqat strukturlarıdır. Bu cür fəaliyyət elm və texnologiya sferasının peşəkarları arasında müntəzəm əlaqələri tələb edir. Bundan başqa? universitetlər klasterlərin həyatının davam etməsi üçün onları gənc kadrlarla təmin edir [2, s.248]. Dövlətlə sahibkarlıq strukturları arasında qarşılıqlı əlaqə iqtisadiyyatın fəaliyyətinin strateji məqsədlərini müəyyən edir. Belə optimal qarşılıqlı münasibətlər iqtisadiyyatın modernləşdirilməsi prosesində klasterli yanaşmadan istifadə edilməsi və ona dövlətin təsir imkanlarını genişləndirir. Bütün səviyyələrdə klasterləşmə prosesinin rellaşdırılmasının informasiya dəstəyi üzrə tədbirlər sisteminin həyata keçirilməsi və zəruri analitik bazanın formalaşdırılması klaster şəbəkələrinin formalaşdırılmasında uğura nail olmaq üçün əlverişli şəraitin yaradılmasına istiqamətlənən addımlardan biridir.

Klasterlərin formalaşdırılması və inkişafında dövlətin əsas funksiyalarından biri maliyyə funksiyasıdır. Dövlət tərəfindən klasterlərin inkişafının maliyyələşdirilməsi əsasən dövlət vəsaitləri hesabına həyata keçirilir. Klasterlərin ilkin mərhələsində dövlət dəstəyi xüsusilə vacibdir, daha sonra isə qarışıq və hətta özünümaliyyələşdirmə mümkündür. Qeyd etmək lazımdır ki, klaster maliyyələşdirmənin xüsusi mexanizmi deyil, mövcud inkişaf institutlarının səmərəliliyinin yüksəldilməsi vasitəsidir. Təhlilin yeni obyekti kimi klaster coxsaylı və dağınıq inkişaf institutlarının kompleks tətbiqinə imkan verir. Komplekslilik klasterin tamlığını təmin etməklə, milli və region iqtisadiyyatının zəif tərəflərini aşkar etməyə şərait yaradır. Deməli, maliyyələşdirmə klasterin formalaşdırılması üçün deyil, birbaşa klaster təşəbbüsləri üçün vacibdir.

Beləliklə, araşdırma göstərir ki, ölkəmiz böyük innovasiya resurslarına və rəqabətqabiliyyətli intellektual potensiala malikdir. Ona görə də şəxsi elmi-texnoloji potensialın inkişafı və istifadəsinə arxalanan milli innovasiya sistemini formalaşdırmaq olar. Belə nəticənin əsasında güclü fundamental elm, ixtisaslı kadrlar, müasir təhsil sisteminin inkişafı durmalıdır. Ümumiyyətlə, milli innovasiya sisteminə keçid üçün aşağıdakılar lazımdır [3]:

- Azərbaycan elminin eksperimental bazasını təkmilləşdirmək;
- elmlə istehsalın sıx əlaqəsini təmin etmək və yeni tipli innovasiya sistemini formalaşdırmaq,
- elmlə təhsilin güclü inteqrasiyasına nail olmaq,
- elmi-texnoloji mühiti bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırmaq.
- innovasiyalı inkişafın mükəmməl və beynəlxalq standartlara müvafiq qanunvericilik bazasını formalaşdırmaq və s.

**Ədəbiyyat**


**1. Əliyev Ş.T. Milli iqtisadiyyatın inkişafının sürətləndirilməsində sənaye klasterlərinin tətbiqini şərtləndirən amillər// Audit jurnalı,** №4, 2015, s. 73-78

2. Губайдуллина Ф.С. Роль государства в создание инновационных кластеров, Регион: экономика и социология. №3,2011, с.247-259

3. Əhmədov M.A. Qloballaşma şəraitində Azərbaycanda davamlı inkişaf konsepsiyasının formalaşdırılmasının prioritetləri/ Beynəlxalq konfransın materialları, ADİU,15-16 may, 2009-cu il, 137s.



**Резюме**

***Исмаилова Л.Ф.***

**Кластеры как составная часть государственной инновационной политики**

*Кластер является высокотехнологичным местом инноваций и является частью инновационной политики правительства. Формирование и развитие кластерных сетей служат эффективным механизмом повышения конкурентоспособности экономики и усиления внешнеэкономической интеграции.*

***Ключевые слова:*** *кластеры, национальная экономика, инновации, инвестиции, внешная политика*

**Summary**

***Ismayilova L.F.***

**Clusters as an Integral Part of the State Innovation Policy**

*The cluster is a high-tech innovation site and isa part of government innovation policy. Formation and development of cluster networks serve as an effective mechanism for increasing the competitiveness of the economy and strengthening foreign economic integration.*

***Key words:*** *clusters, national economy, innovation, investment, foreign policy.*


## BAZAR İQTİSADİYYATINA KEÇİD DÖVRÜNDƏ RABİTƏ SAHƏSİNDƏ İSLAHATLARA DAİR


***Kərimli S.S.***

*Sumqayıt Dövlət Universiteti*



***Açar sözlər:*** *rabitə, lisenziya, sertifikat, mobil telefon*


Məlumdur ki, XX əsrin sonu rabitə texnikasının böyük sürətlə inkişafı ilə xarakterikdir. Dünyanın bir çox dövlətlərinin uyğun şirkətləri tərəfindən qabaqcıl texnologiya əsasında müxtəlif növ müasir rabitə vasitələri istehsal olunur. Bu vasitələrə isə onların istismar olunduğu dövlətlərdə yerli şəbəkə ilə əlaqədar müəyyən tələblər irəli sürülür. Bu, əsasən, onların sertifikatlaşdırılma sınaqlarının aparılması ilə müəyyənləşdirilir.

Ölkəmizdə texniki rabitə vasitələrinin sertifikatlaşdırılması şəbəkələrin və istehsalçıların keyfiyyətsiz rabitə vasitələrindən müdafiəsi ilə yanaşı, həmçinin avadanlığın parametrlərinin uyğun texniki və ekoloji tələblərə cavab verməsinin təsdiqlənməsinə dair dövlətin tənzimlənmə elementlərindən biridir.

"Rabitə haqqında Azərbaycan Respublikası Qanunu"na müvafiq surətdə ölkəmizdə qarşılıqlı əlaqədə olan rabitə şəbəkələrində istifadə edilən bütün avadanlıqlar məcburi olaraq sertifikatlaşdırılmalıdır [1]. Rabitə vasitələrinin sertifikatlaşdırılması proseduru Nazirlər Kabinetinin 21 avqust 1998-ci il tarixli 175 saylı "Azərbaycan Respublikasında rabitə vasitələrinin sertifikatlaşdırılması qaydalarının təsdiq edilməsi haqqında" qərarına müvafiq olaraq, Rabitə Nazirliyinin Beynəlxalq Əlaqələr və Hesablaşma Mərkəzinin nəzdində açıq formada fəaliyyət göstərən rabitə vasitələrinin sertifikatlaşdırılması şöbəsi tərəfindən həyata keçirilir. Bir amili qeyd etmək lazımdır ki, 1990-cı illərin əvvəllərində digər yeni yaranmış müstəqil

dövlətlərdən fərqli olaraq, keçmiş İttifaqdan respublikamız üçün sertifikatlaşdırmaya dair heç bir miras qalmamışdır. Bu səbəbdən sertifikatlaşdırma sisteminin təşkilinə demək olar ki, sıfırdan başlamaq lazım olmuşdur. Prosedurun aparılması üçün vacib şərtlərdən olan müəyyən akkreditasiya sahəsinə malik uyğun sınaq laboratoriyaları "Aztelekom" İB, BTRİB, "Teleradio" İB nəzdində yaradılmış, müvafiq texniki-normativ sənədlər və həmçinin texniki göstəricilər üzrə "Uyğunluq sertifikatı" blankları hazırlanmışdır. Müvafiq qaydaya uyğun olaraq, hər bir rabitə avadanlığı üzrə texniki göstəricilərə görə, Rabitə Nazirliyindən, ekoloji və təhlükəsizlik göstəricilərinə görə isə, "Azərdövlətstandart"dan uyğunluq sertifikatı alınmalı idi [7]. Buna baxmayaraq əhali tərəfindən kütləvi şəkildə istifadə edilən abunəçi qurğularının müxtəlif növ mobil telefonların, ev telefonlarının və s. yalnız kiçik hissəsi üçün uyğunluq sertifikatı alınmışdır. Bu sahənin sürətləndirilməsi məqsədi ilə Rabitə Nazirliyi (və ya onun struktur bölmələri) nəzdində geniş səlahiyyətlərə malik olacaq qurumun təşkilinə böyük ehtiyac vardı.

Bazar iqtisadiyyatının genişləndiyi şəraitdə, xüsusilə də 1998-ci ildən "Rabitənin inkişaf konsepsiyası"nın həyata keçirilməsinin başlanmasından sonra ölkəmizdə rabitə sahəsində əsaslı dəyişikliklər inkaredilməzdir. Lakin əldə edilən müsbət nəticələrlərdən öz xeyrinə istifadə etmək istəyən şəxslər də olmuşdur. Belə şəxslərə misal olaraq səyyar telefon xidməti göstərənləri qeyd etmək olar. Qeyri-qanuni xidmət göstərən bu şəxslər hər il Rabitə Nazirliyinin, o cümlədən dövlətin büdcəsinə milyonlarla manat zərər vururdular. Mobil telefon şəbəkəsinin telekommunikasiyanın ən gəlirli sahəsi olmasını nəzərə alsaq, qeyd edə bilərik ki, qeyri-qanuni göstərilən xidmətin qarşısının alınması ilə sahənin gəlirlərini daha da artırmaq mümkün olmuşdur.

Lakin rabitə sahəsində bir sıra şəxslərin sui-istifadə hallarına yalnız mobil telefon şəbəkəsində deyil, həmçinin faks, internet və s. xidmətlərdə də rast gəlmək mümkün olmuşdur. Bəzi vətəndaşlar abunəçi olduqları telefondan icazəsiz olaraq faks və internet xidməti məqsədilə istifadə etmişlər. Rabitəçilər isə belə halları aşkar edərək xidmətin normativ qaydalarına uyğunluğunu təmin etmiş və gəlirlərin büdcəyə daxil olmasına nail olmuşlar. Yalnız 2001-ci ilin ilk 4 ayı ərzində inventarlaşdırılmanın aparılması sayəsində abunəçi telefonlarına 439 qeyri-qanuni faks aparatının qoşulması müəyyən edilmişdir [6].

Bəzi vətəndaşlar isə mənzildəki telefondan ofisdə istifadə etmişlər. Bu, onunla əlaqədardır ki, mənzildə işlədilən telefonların çəkiliş, abunə və bir sıra xidmət haqqları dövlət təşkilatları, özəl müəssisələrlə müqayisədə aşağıdır. Ümumiyyətlə, 2001-ci ilin ilk 4 ayı ərzində 142 belə fakt aşkar edilmişdir [6].

İnventarlaşdırmada abunə telefonları vasitəsilə şəbəkəyə mini-ATS-lərin quraşdırılması da müəyyən edilmişdir. Bir sıra müəssisə və qurumlar abunə telefonları ilə yaradılan şəbəkə sayəsində xeyli iş otağı ilə telefon əlaqəsi yaratmışlar. Lakin Rabitə Nazirliyinin müvafiq qurumunun razılığı olmadan, lazımi sənədləşmə aparmadan, öz təşəbbüsü ilə mini-ATS yaratmaq mövcud normativ bazaya ziddir. 2001-ci ilin ilk 4 ayı ərzində 238 qeyri-qanuni mini-ATS aşkarlanmış və 18457,7 min manat vəsait büdcəyə daxil edilmişdir [2, v.87].

Bundan başqa, respublika ərazisində vətəndaşlar, müəssisə və təşkilatlar tərəfindən abonenti olmadıqları telefonlardan istifadə hallarına da rast gəlinmişdir. 2001-ci ildə 2218 telefonun qanuni abonentinin istismarında olmadığı müəyyən edilmişdir. Onlardan 1093-ü Rabitə Nazirliyinin müvafiq strukturları tərəfindən aşkarlanmış və 1125-i öz təşəbbüsü ilə aidiyyatlı qovşağa gələrək telefonu adına keçirmiş və büdcəyə 202,7 milyon manat daxil edilmişdir [6].

Borcların hesablanmasını Rabitə Nazirliyinin Məlumat Hesablama Mərkəzi və onun regional kompüter şəbəkəsi həyata keçirmişdir. Abonentlərdən ödənişləri Bakı Avtomat Telefon Stansiyası (bundan sonra BATS), Səhər Telekommunikasiya Qovşaqları (bundan sonra ŞTQ ) və poçt filialları toplayır. Danışıq haqqlarını idarə və müəssisələrdən BATS, vətəndaşlardan isə ŞTQ-ları və poçt şöbələri toplayırlar. Abunəçilərə paylanılan qəbzlərdəki pul məbləğinin yığımından asılı olaraq, poçt filialları yığılan vəsaitin 6, 8, 10 faizinin sahibi olurlar. Bundan əlavə, paylanılan hər qəbz üçün "Aztelekom" İB poçt filiallarına 600 manat pul ödəmişdir [5].

Lakin bəzi abonentlər borcu ödəməkdən bu və ya digər formada imtina etmişlər. Mövcud vəziyyətə uyğun olaraq, şəhər və rayon telekommunikasiya qovşaqları borcunu ödəməyən abonentlərin telefonlarının bağlanılması üçün ATS-lərə siyahılar təqdim edirdilər. Telefonların bağlanılması borcların ödənilməsi prosesini sürətləndirmişdir. Rabitə Nazirliyi bəzi abonentlərin maddi imkanının məhdudluğunu nəzərə alaraq, ərizəyə, əsasən, borcun hissə-hissə ödənilməsinə icazə vermişdir. Əvvəlki illərdə vətəndaşların debitor borcları 15010, idarə, müəssisə və təşkilatlar üzrə 013 hesabında toplanılırdı. 1999-cu ilin 01 oktyabr tarixindən Bakı şəhərində 17.923 abonent üzrə 15010 və 013 hesablardakı 10248,0 milyon manat borc BTRİB-nin balansına keçirilmişdir. 2000-ci ilin 01 noyabr tarixinə kimi bu borcdan 14.110 abonent üzrə 1842,0 milyon manatı toplanmışdır [4].

2000-ci il ərzində aparılan inventarlaşdırma prosesində bir neçə il ərzində əmələ gələn 2,7 milyard manat borcun məxsus olduğu 6597 abonentin telefonun sənədləşdirildiyi ünvanda yaşaması, borcu 4,3

milyard manat olan 3469 abonentin isə əvvəllər yaşadığı ünvandan köçməsi müəyyən edilmişdir. Bu abonentlərin bəziləri respublikadan kənara, digərləri isə respublikanın daxilində yaşayış yerlərini dəyişmişlər. Ölkəni tərk edən borclu abunəçiləri ödənişə cəlb etmək üçün Rabitə Nazirliyi bir sıra tədbirlər hazırlamışdır. Bunun üçün beynəlxalq normalardan yararlanmaq məqsədi qarşıya qoyulmuşdur. Beynəlxalq Telekommunikasiya İttifaqının D-173 saylı tövsiyəsinə əsasən abunəçilərdən borcları yığmaq üçün bir ölkədən digərinə köçən abunəçinin borcu 100 altun frankdan çox olduqda rabitə müdiriyyətləri borcların ödənilməsinə köməklik etməlidirlər [3, v.132].

Rabitə Nazirliyinin göstərişinə əsasən 2000-ci ilin 13 oktyabr tarixindən etibarən 15010 və 013 hesablarında borcların qeydə alınması dayandırılmışdır. Səbəb MHM-nin regional kompüter bazasında hər bir telefonun işlədiyi gündən göstəricilərinin bir yerdə arxivləşdirilməsidir. Bu isə yeni abunəçinin köhnə abunəçi borcuna görə telefonunun bağlanmamasına şərait yaradır [4].

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Rabitə haqqında Qanunu // Qanunvericilik toplusu, 1997, N 6, s. 37-53
2. Rabitə Nazirliyinin Mərkəzi Arxivi. f. 1, siy. 1, iş 6, cild 2
3. Rabitə Nazirliyinin Mərkəzi Arxivi. f. 1, siy. 12, iş 134, cild 6
4. “Rabitə dünyası” qəzeti, 22 noyabr 2000, N 45
5. “Rabitə dünyası” qəzeti, 7 mart 2001, N 10
6. “Rabitə dünyası” qəzeti, 30 may 2001, N 21
7. “Rabitə dünyası” qəzeti, 13 iyun 2001, N 23


**Резюме**


***Керимли С. С.***

*Сумгаитский государственный университет*


**О реформах в отрасли связи в условиях перехода к рыночной экономике**


*Соответствующие компании многих стран мира производят различные средства коммуникации согласно передовым технологиям. На эти средства, в связи с локальной сетью, возлагаются определенные требования в странах, где они эксплуатируются. В основном, это определяется их сертификационными испытаниями. Сертификация технических средств связи в нашей стране является одним из элементов государственного регулирования не только по защите сетей и потребителей от некачественных средств связи, но и также подтверждением того, что параметры оборудования соответствуют техническим и экологическим требованиям.*



***Ключевые слова:*** *связь, лицензия, сертификат, мобильный телефон*


**Summary**


***Karimli S.S.***

*Sumgayit State University*


**About the Communication Reforms in the Period of Transition to Market Economy**


*Various types of modern communications are produced by advanced technology based technology companies from many countries around the world. Certain requirements to these means related to the local network are put forward in the countries where they are exploited. This is mainly determined by their certification tests. Certification of technical communications in our country is one of the state's regulatory elements of ptotecting networks and consumers from poor quality communications as well as confirming compliance of the equipment parameters with applicable technical and environmental requirements.*



***Key words:*** *communication, license, certificate, mobile phone*


## QİDA SƏNAYESİ MÜƏSSİSƏLƏRİNDƏ MARKETİNQİ İDARƏETMƏ STRUKTURLARININ FORMALAŞDIRILMASI MƏSƏLƏLƏRİ


***Qasımov Ə.İ.***

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*


**Xülasə**


*Məqalədə qida sənayesi müəssisələrində marketinqi idarəetmə strukturlarının təşkili ilə bağlı məsələlər işıqlandırılmışdır. Daxili və xarici mühit amilləri nəzərə alınmaqla, müəssisələrdə adekvat marketinqi idarəetmə strukturlarının formalaşdırılmasına dair elmi əsaslandırılmış təkliflər verilmişdir.*



***Açar sözlər:*** *qida sənayesi, qida məhsulları bazarı, marketinq konsepsiyaları, marketinq idarəetmə, marketinqin təşkilati strukturları*

Son illər qida sənayesində sahibkarlıq fəaliyyəti ilə məşğul olmanın cəlbediciliyi artmaqda davam edir. Dünya bazarında qida məhsullarının qiymətlərinin fasiləsiz yüksəlişi bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərin sayının və qida məhsullarının istehsalı ilə məşğul olan müəssisələrin yaradılmasına investisiya yatırımlarının çoxalmasına gətirib çıxarmışdır. Bütün bunlar həm də ölkəmizin qida sənayesi üzrə müşahidə edilir. Belə ki, aşağıdakı cədvəlin məlumatlarından göründüyü kimi, 2011-ci illə müqayisədə qida sənayesində sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyata alınmış sahibkarların sayı 2270 nəfərdən 4290 nəfərə qədər və yaxud 1,9 dəfə, ölkədə istehsal olunmuş sənaye məhsulunda qida sənayesinin payı 1,5 %-dən 4,3%-ə qədər və yaxud 2,8% bənd, əsas kapitala investisiyalar isə 46,5 milyon manatdan 63,6 milyon manata qədər və yaxud 36,8% artmışdır (cədvəl 1).

Hazırda ölkəmizdə istehsal olunan qida məhsulların əhəmiyyətli hissəsi qeyri-dövlət sektorunda, daha doğrusu, sahibkarlar tərəfindən istehsal edilir və sənayenin qeyri-dövlət sektorunda qida sənayesinin payı artmaqda davam edir (şəkil 1).

Qida məhsulları bazarında əlverişli mövqeyə malik olmaq istəyən sahibkarlıq strukturunun fəaliyyətində marketinq konsepsiyalarını tətbiq etmək qaçılmazdır. Çünki marketinq sahibkarlıq strukturunun fəaliyyətinin metodologiyasıdır, eyni zamanda işgüzar fəaliyyətinin müvəffəqiyyətini təmin edən əsas amildir. "Bu gün marketinq hamı tərəfindən işgüzar müvəffəqiyyətin mühüm komponenti, müasir menecmentin məhək daşı kimi dərk edilir"[7, s.24].

Müəssisələrin istehsal-satış fəaliyyəti üzrə yüksək göstəricilərə nail olunması həmin müəssisələrdə marketinq idarəetmə strukturlarının təşkilindən asılıdır. Bunu müəssisələrin fəaliyyətinin marketinq idarə edilməsi də tələb edir. Bu fəaliyyətin təmin olunmasında isə əsas rolu müəssisədə təşkil ediləcək marketinq xidməti və həmin xidmətin əməkdaşları oynamalıdır. Müəssisələrin marketinq idarəetmə sistemi, əslində, bu müəssisələrin marketinq xidmətinin iştirakı olmadan qeyri-mümkündür. Çünki marketinq idarəetmə sistemi marketinq xidmətinin sisteməmələgətirici rolundan istifadə edilməklə yaradılır.

**Cədvəl 1**

**Qida məhsullarının istehsalı ilə məşğul olan müəssisələrin işinin əsas göstəriciləri**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı, cəmi | 396 | 427 | 439 | 389 | 382 | 391 |
| dövlət | 16 | 17 | 17 | 18 | 18 | 16 |
| qeyri-dövlət | 380 | 410 | 422 | 371 | 364 | 375 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyata alınmış sahibkarların sayı, nəfər | 2270 | 3170 | 3353 | 3752 | 4079 | 4290 |
| Sənaye məhsulunun(işlərin, xidmətlərin)dəyəri, müvafiq illərin cari qiymətləri ilə, milyon manat | 2108 | 2575 | 2516 | 2597 | 2547 | 3257 |
| Ölkədə istehsal olunmuş sənaye məhsulunda sənayenin payı, % | 1,5 | 1,5 | 1,7 | 2,0 | 2,5 | 4,3 |
| Ölkə sənayesinin qeyri-dövlət sektorunda sahənin qeyri-dövlət sektorunun payı, % | 7,5 | 9,3 | 9,1 | 10,2 | 12,6 | 12,5 |
| İşçilərin orta siyahı sayı, min nəfər | 14,6 | 17,0 | 18,8 | 20,6 | 18,8 | 18,8 |
| İlin sonuna əsas fondların mövcudluğu, milyon manat | 786,5 | 856,4 | 796,9 | 857,7 | 884,2 | 910,4 |
| Əsas kapitala investisiyalar, milyon manat | 46,5 | 75,3 | 160,8 | 92,4 | 87,9 | 63,6 |

**Mənbə: Cədvəl Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir**

Marketinqin idarə olunmasına sistemli yanaşdıqda müəssisənin fəaliyyətini bazarın tələblərinə uyğunlaşdırmaq və istehlakçıların istədikləri məhsulları onlara vermək olur.

Müəssisələr də marketinq idarəetmə sisteminin formalaşdırılmasına nail olmaqdan ötrü, ilk növbədə, həmin müəssisələrdə marketinq xidmətinin təşkilinə nail olmaq lazımdır. Məhz bu sistemin fəaliyyəti nəticəsində istehlakçılara və alıcılara lazım olan qida məhsulları onlar üçün münasib qiymətə, lazım olan yerdə və lazım olan vaxtda çatdırılır.

Marketinq konsepsiyalarına əsaslanmaqla istehsal-satış fəaliyyətini həyata keçirən qida sənayesi müəssisələri marketinqlə bağlı ayrı-ayrı tədbirləri icra etməkdən ötrü öz daxilində müvafiq strukturları formalaşdırmalıdır. Bu təşkilati strukturları formalaşdırmadan marketinq üzrə həyata keçirilən ayrı-ayrı marketinq əməliyyatlarının səmərəliliyini təmin etmək – marketinq idarəetməyə nail olmaq və beləliklə də,

müəssisənin bazar fəaliyyətinin davamlılığına nail olmaq mümkün deyil. Bu, marketinq sahəsində tanınmış əksər mütəxəssislərin gəldikləri qənaətə görə, belədir. "Marketinqin təşkilati strukturunun düzgün və bazar situasiyasına uyğun qurulması müəssisənin bazar fəaliyyətinin müvəffəqiyyətlə həyata keçirilməsini, onun rəqabət mübarizəsində rəqabət üstünlüyü əldə etməsini təmin edir"[1, 263].

**Şəkil 1. Qida sənayesinin ölkə üzrə sənaye məhsulunda və sənayenin qeyri - dövlət sektorunda payının dəyişmə meyli**




Apardığımız araşdırmalar göstərir ki, Azərbaycanın qida sənayesi müəssisələrində marketinqlə bağlı tədbirlərin icra olunma səviyyəsi fərqlidir. Bu, marketinqin müəssisəyə inteqrasiya olunma səviyyəsindən asılıdır. Lakin müəssisələrdə marketinqlə bağlı tədbirlərin reallaşdırılması səviyyələrindəki müxtəlifliyə baxmayaraq, hər bir müəssisə öz fəaliyyətini bazara daha çox uyğunlaşdırmağa və beləliklə də, bazar mövqeyini qoruyub saxlamağa çalışır. Bu, əksər qida sənayesi müəssisələrinə aiddir. Bu məqsədə nail olunması müəssisələr daxilində adekvat marketinqi idarəetmə strukturunun formalaşdırılmasından asılıdır. Bunun üçün isə, ilk növbədə, müəssisə daxilində marketinqi idarəetmə strukturlarının formalaşdırılmasına təsir göstərən amillər hərtərəfli surətdə öyrənilməlidir.

Tədqiqatlar göstərir ki, qida sənayesi müəssisəsinin bazar fəaliyyətinin çevikliyinin təmin olunmasına imkan verə biləcək marketinqi idarəetmə strukturunun formalaşdırılmasına çoxsaylı amillər təsir göstərir. Həmin amilləri müəssisədaxili və müəssisədənkənar amillərə bölmək olar.

**Ədəbiyyat**

1. Məmmədov A.T. Marketinqin əsasları. Dərs vəsaiti. Bakı, İqtisad Universitetinin nəşriyyatı, 2007, 336 s.
2. Гайдаенко Т.А. Маркетинговое управление. М.: Эксмо, 2006, 418 с.
3. Данько Т.П. Управление маркетингом. М.: ИНФРА, М., 2001, 88-96 с.
4. Управление в АПК/Под ред. Ю. Б. Королева. М.: Колос, 2002, 376 с.
5. Ханс Хершген. Маркетинг (основы профессионального успеха).М.: ИНФРА, М., 2001.
6. Цацулин А.Н. Маркетинговые структуры предприятия при переходе к рынку. Минск: Деловой вестник, 1991, № 7, 11-12 с.
7. Шив Чарльз Д., Александр Уотсон Хайэм. Курс МБА по маркетингу / Пер. с англ. М.: Альпина Паблишер, 2003, 717 с.

**Резюме**

***Гасымов А. И.***

**Вопросы создания структур управления маркетингом на предприятиях пищевой промышленности**

*В статье освещены вопросы связанные с организацией структуры управления маркетингом на предприятиях пищевой промышленности. Учитывая факторы внешней и внутренней среды, даны научно-обоснованные предложения по формированию адекватных структур управления маркетингом на предприятиях.*

***Ключевые слова:*** *пищевая промышленность, рынок пищевых продуктов, концепции маркетинга, маркетинговое управление, организационные структуры маркетинга*

**Summary**

***Qasimov A.İ.***

**Issues of Marketing Management Structures in Food Industry Enterprises**

*The article focuses on the organization of marketing management structures in the food industry. Based on internal and external ambient factors, scientifically justified proposals have been made to establish adequate marketing management structures in enterprises.*

***Key words:*** *food industry, foodstuff market, marketing concepts, marketing management, organizational structures of marketing*

## REGİONUN İQTİSADİ İNKİŞAFINDA, MƏŞĞULLUĞUN VƏ MƏSKUNLAŞMA SƏVİYYƏSİNİN YÜKSƏLMƏSİNDƏ EV TƏSƏRRÜFATLARININ ROLU

***Qasımov S.H.***

*Sumqayıt Dövlət Texniki Kolleci*

***Xülasə***

*Məqalədə regionun iqtisadi inkişafında, məşğulluğun səviyyəsinin yüksəlməsində ev təsərrüfatlarının üzərinə düşən vəzifələrdən bəhs edilmişdir. Ev təsərrüfatlarına marağın artırılması və qarşılaşdıqları çətinliklərin aradan qaldırılması yolları təhlil edilməklə, əhalinin ucqar kənd yerlərində məskunlaşmasına yardımçı olma yolları araşdırılmışdır.Bu kimi sahələrdə ev təsərrüfatlarının rolunun artırılması üzrə bir sıra təkliflər verilmişdir.*

***Açar sözlər:*** *ev təsərrüfatları, regionun iqtisadi inkişafı, məşğulluq, məskunlaşma, özünəməşğulluq, tədarük məntəqələri, ABAD mərkəzləri, davamlı sosial-iqtisadi inkişaf, iqtisadi təhlükəsizlik.*

Ölkə iqtisadiyyatının inkişafında regional iqtisadi inkişaf əhəmiyyətli yer tutmaqdadır. Regionların iqtisadi inkişafında isə ev təsərrüfatlarının məxsusi yeri vardır. Fərdi təsərrüfatların inkişaf etdirilməsi ev təsərrüfatlarının və ailə biznesinin inkişafına və nəticədə, ailə gəlirlərinin artırılmasına xidmət edir. Regionda ev təsərrüfatlarının formalaşması və inkişaf etdirilməsi ailə biznesinin inkişafını xarakterizə edir və regionda əhalinin gəlirlərinin inkişafına səbəb olur. Ölkə iqtisadiyyatının inkişafı hər bir təsərrüfat sahəsində müasir tələblərə cavab verəcək fəaliyyətin mövcudluğunu tələb edir. Sənaye, nəqliyyat, kənd təsərrüfatı, tikinti və sair sahələrdə islahatların aparılması ölkədə məşğulluq səviyyəsinin yüksəlməsinə və əhali gəlirlərinin artmasına səbəb olur. Regionlarda məşğulluq səviyyəsinin artımı və əhalinin maddi rifah halının yüksəlməsi regionda məşkunlaşma siyasətinə öz müsbət təsirini göstərir. Məskunlaşmanın artımı isə öz növbəsində regionda istehsalın artımına və regionun sosial-iqtisadi inkişafına və iqtisadi təhlükəsizliyin təmin olunmasına öz töhfəsini vermiş olur.

Müasir dünyada baş verən siyasi və iqtisadi yanaşmalar ümumən istehsal və istehlak münasibətlərinin qarşılıqlı şəkildə həll edilməsi üçün yeni hədəflərin müəyyənləşməsini tələb edir. Bu nöqteyi-nəzərdən dünya ölkələri üçün müəyyən olunmuş beynəlxalq ticarətə daxil olan fərqli əmtəələrin qiymətlərində baş verən dəyişikliklər həmin ölkələrin gəlirlərinə təsir göstərir. Hər bir ölkə tərəfindən xarici iqtisadi əməkdaşlıq əsasında əldə ediləcək gəlirlər azaldıqda bu zaman əhalinin təminatı üçün zəruri addımların həyata keçirilməsi məcburiyyəti yaranır.[1]

Son illər bir sıra ölkələrdə münaqişələrin olması, pul vahidləri üzrə məzənnə fərqinin kəskin dəyişməsi, məşğul əhalinin işlə təmin olunmasındakı problemlər ciddi tədbirlərin həyata keçirilməsinə zəmin yaratmışdır. Beynəlxalq aləmdə baş verən iqtisadi tənəzzülün nəticəsində ölkəmizin əsas ixrac məhsulu olan neftin qiymətindəki ucuzlaşma ölkəyə daxil olan pul ehtiyatlarının azalmasına səbəb olmuşdur. Lakin bütün bu hallara baxmayaraq, ölkənin iqtisadi təhlükəsizliyi, ölkə əhalisinin həyat səviyyəsinin və sosial rifahın yüksəldilməsi ölkə prezidenti cənab İlham Əliyevin əsas tələb etdiyi fəaliyyət istiqamətidir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq xidməti tərəfindən əhalinin işlə təmin olunmasına xidmət edəcək bir sıra tədbirlər həyata keçirilir. Əmək və Əhalinin Sosial müdafiəsi Nazirliyi tərəfindən qəbul olunmuş özünəməşğulluq proqramına uyğun 100-dən artıq ailəyə fərdi təsərrüfatlarının qurulması üçün tələb olunan aktivlər verilmişdir. Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyev tərəfindən vətəndaşlara xidmət və sosial innovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" publik hüquqi şəxsin yardaılması haqqında 23 sentyabr 2016-cı il tarixli fərman imzalanmışdır. Fərmanda qeyd olunur ki, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və

rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşmasına dəstək məqsədi ilə sosial yönümlü layihələr həyata keçirən "ABAD" (Ailə Biznesinə Asan Dəstək) mərkəzləri yaradılsın. 11 bənddən ibarət bu fərman ölkəmizdə özünüməşğulluq və ailə biznesinin qurulması üçün hüquqi bazanı təmin etmişdir[2]. Hal-hazırda "ABAD" mərkəzləri əhali tərəfindən edilən müraciətlərə əsasən lazım olan şəraiti təmin etmək üçün dövlətin hüquqi və maliyyə imkanlarını məqsədyönlü şəkildə səfərbər edir.

Regional siyasətin və davamlı sosial-iqtisadi inkişaf strategiyasının məqsəd və vəzifələri müəyyənləşdirilərkən iqtisadiyyatın və regionların mövcud potensialı, sosial vəziyyəti nəzərə alınır. Regionların iqtisadi potensialının davamlı olaraq inkişaf etdirilməsi məqsədi ilə ölkə başçısı "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı" Dövlət proqramını təsdiq etdi və əsas məqsədi ixracyönümlü və müasir rəqabət şəraitində davam gətirə bilən məhsul istehsal edən sahibkarlıq subyektlərinin dəstəklənməsi, iqtisadiyyatın sahələrinin genişləndirilməsi, regionlarda dayanıqlı inkişaf tendensiyasının davamlılığının təmin edilməsi, ucqar kəndlərin əhalisinə xidmət edən müəssisələrin inkişafı və sosial xidmətin daha səmərəli təşkilini planlayır.[3]

Ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyi iqtisadi inkişafın dayanıqlı olması üçün zəruridir. Dayanıqlı və davamlı sosial-iqtisadi inkişafın yüksək səviyyəsinə nail olunması yalnız insan kapitalının, beləliklə də, əhalinin məşğulluğunun və rifahının yüksək səviyyədə olduğu ölkədə mümkündür. Kiçik biznesin bir parçasını təşkil edən ev təsərrüfatlarının inkişaf etdirilməsi ilə yerli yeyinti sənayesinin inkişafına və əhalinin məşğulluğunun səviyyəsinin artımına nail olmaq olar. Yerli yeyinti sənayesinin inkişafı ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsinin başlıca amilidir ki, bu da iqtisadi təhlükəsizliyə və dövlətin bütün iqtisadi sisteminin maraqlarına xidmət edir.

Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin 2016-2020-ci illər ərzində həyata keçirilməsi hesabına ölkədə dayanıqlı inkişaf prinsiplərinə əsaslanmaqla, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü və emalı sektorunun formalaşdırılmasına nail olmaq nəzərdə tutulur.

Regionun və ölkənin etibarlı ərzaq təminatı dövlətin iqtisadi sabitliyinin, sosial dayanıqlılığının və davamlı sosial-iqtisadi inkişafın başlıca şərtidir. Cəmiyyətin hər bir üzvünün əsas ərzaq məhsullarına olan tələbatının tam ödənilməsi üçün davamlı olaraq müvafiq tədbirlərin həyata keçirilməsi çox vacibdir.

Azərbaycan Respublikasında regionların tarazlı inkişafı, əhalinin özünəməşğulluq səviyyəsinin artırılması, regionlarda məskunlaşma siyasətinin həyata keçirilməsi üçün ardıcıl olaraq dövlət proqramlarının icrası uğurla davam etdirilməkdədir.

Bunları Naxçıvan Muxtar Respublikasının timsalında aydın görmək mümkündür. Ulu öndər Heydər Əliyevin başlatdığı, ölkə prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi siyasəti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri cənab Vasif Talıbov Naxçıvanda uğurla həyata keçirməkdədir. Ölkəmizin digər regionlarında olduğu kimi, Naxçıvan regionunda da ucqar kəndlərdə müasir tipli məktəblər, kənd mərkəzləri, ambulator mərkəzlər, ticarət və iaşə mərkəzləri tikilmiş və bu kəndlərə gedən yüksək səviyyədə əsaslı yollar salınmışdır. Eyni zamanda qaz kəmərləri çəkilmiş və kəndlərdə su, işıq və təbii qaz problemləri yüksək səviyyədə həll olunmuşdur. Naxçıvan Muxtar Respublikası mürəkkəb coğrafi və iqtisadi şəraitdə yerləşməsinə, mənfur qonşu olan Ermənistan tərəfindən blokada şəraitində olmasına baxmayaraq, istər şəhər, istərsə də kənd yerlərində inkişafın sürətlənməsi hiss olunmaqdadır. Bunların nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası üzrə 2005-2016-cı illər ərzində əsalı kapital qoyuluşunun həcminin artırılmasına nail olunmuşdur. Həmin illər ərzində illik kapital qoyuluşu 133 min manatdan 1 mlrd. manatadək artmışdır. Həmin dövr ərzində istehsalın səviyyəsi 15 dəfəyə yaxın artmış və orta illik 2,9-3,0 mlrd. manat səviyyəsində formalaşmışdır. Sənaye məhsulu 21 dəfə, kənd təsərrüfatı məhsullarının istehsalı 4 dəfəyə yaxın artmış və orta illik 390-400 mln. manat səviyyəsinə çatmışdır.[4], [5] Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının əkilməsi üçün 40 min hektardan çox yararlı torpaqlar mövcuddur. Bu amil ev təsərrüfatlarının inkişafında mühüm rol oynayır. Naxçıvanda kənd yerlərində ev təsərrüfatlarının hər birində 5 nəfərə yaxın təsərrüfat üzvü vardır. Muxtar Respublikada heyvandarlığın və bitkiçiliyin inkişaf etdirilməsi üçün güclü potensial vardır. Bu proseslərdə ev təsərrüfatları əhəmiyyətli funksiyaları yerinə yetirirlər. Kənd yerlərindəki ev təsərrüfatlarında taxıl, qarğıdalı , kartof, kələm, günəbaxan bitkisi, müxtəlif növ tərəvəz bitkilərinin, meyvələrin, balın, ət və süd məhsullarının istehsalı istiqamətlərində müsbət nəticələr əldə olunmuşdur. Bütün bunlar region əhalisinin özünəməşğulluğunun artmasında, maddi rifahının və həyat səviyyəsinin yaxşılaşdırılmasında, eyni zamanda əhalinin məskunlaşmasında əhəmiyyətli rol oynayır. Məhz bu baxımdan ev təsərrüfatlarının inkişaf etdirilməsi və bu təsərrüfatın üzvlərinin iqtisadi fəallıq istiqamətinə yönəldilməsinə kifayət qədər mühüm məsələ kimi baxılmalıdır [6] .

Regionlarda tədarük məntəqələrini formalaşdırmaqla ev təsərrüfatlarının fəaliyyətində artıma nail olmaq olar. Ev təsərrüfatları vasitəsilə istehsal edilən məhsulların pərakəndə şəkildə saxlanması, qorunması, satılması müəyyən çətinliklərlə başa gəlir. Bu işləri mütəşəkkil formada həyata keçirməklə məhsulun istehsalına, ev təsərrüfatlarının formalaşmasına, kənd təsərrüfatının inkişafına stimul yaratmaq olar. Xüsusilə ərzaq məhsullarının saxlanılması üçün anbarların, soyuducu kameraların, elevatorların, eləcə də kənd təsərrüfatı texnikası və gübrə istehsalı, qablaşdırma müəssisələrinin artırılması, taxıl, yem, ət və süd məhsulları, meyvə-tərəvəz və digər ərzaq məhsullarının istehsalının genişdirilməsi, emal sənayesinin inkişafı ilə bağlı tədbirlərin görülməsi istehsalla məşğul olan əhaliyə dəstək olmuş olar. Bu kimi dəstək yönümlü tədbirləri istehsala təşviq kimi dəyərləndirmək olar. Belə tədbirlər sayəsində ev təsərrüfatları vasitələrilə özünəməşğulluq, regionlarda məskunlaşma sahəsində artıma nail olmaq olur ki, buda əhalinin maddi rifah halının yüksəlməsinə səbəb olur. Regionların sosial-iqtisadi inkişafının fəallaşmasında ev təsərrüfatlarının rolunu yüksəltməklə, ümumilikdə regionların iqtisadi fəallığının genişləndirilməsinə, əhalinin məşğulluq səviyyəsinin artımına nail olunması məqsədilə yeni fəaliyyət mexanizmləri işlənib hazırlanmalı və tətbiq olunmalıdır.

**Ədəbiyyat**


1. İqtisadi nəzəriyyə, makroiqtisadiyyat: 1,2. Q.P. Juravlyovanın ümümi redaktəsi ilə. Rus dilindən tərcümə, Bakı, 2008.

2. Azərbaycan Respublikası Prezidentinin Vətəndaşlara Xidmət və Sosial innovasiyalar üzrə dövlət Agentliyinin tabeliyində “ABAD “ publik hüquqi şəxsin yaradılması haqqında 23 sentyabr 2016-cı il tarixli Fərmanı.

3. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı” Dövlət proqramının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli Sərəncamı.

4.Нахчыванская Автономная Республика .Государственный Статический Комитет Азербайджанской Республики .http: //www/ .stat .gov. az .

5. Сельское хозяйство . Нахчыванская Автономная Республика .Официальный портал.http: //www.nakhchivan. az .

6. Краснова О.М .Домашние хозяйства в современной экономической системе .Дисс .канд. экон. наук .Казан , 1999 , 205 с .


**Резюме**

***Касымов С.Х.***



**Роль домашних хозяйств в *развитии экономики региона, в повышении занятости и уровня* населённости**

*В статье упоминается о роли домашнего хозяйства в экономическом развитии региона и повышении уровня занятости. Возрастающий интерес к домашним хозяйствам и способы устранения трудностей, с которыми они сталкиваются, были проанализированы. Исследованы способы помощи населению по поселению в отдаленных сельских районах. Дано несколько предложений для повышения роли домашних хозяйств в таких районах.*

***Ключевые слова**: домашнее хозяйство, экономическое развитие региона, занятость, поселение, самостоятельная занятость, пункты снабжения, устойчивое социально-экономическое развитие, экономическая безопасность.*


**Summary**

***Qasımov S. H.***



**The Role of Households in the Economical Development of the Region and in İncrease of Employment and Housing Level**

*The article deals with the household duties in the economic development of the region and increase of employment level. Increasing interest to the households, ways to overcome difficulties they face were analyzed and the ways of helping the population to settle down in remote rural areas were investigated. Some proposals were given for increasing the role of households in such areas.*

***Key words**: households, economic development of the region, employment, settlement, self-employment, supply points, (Easy Support for Family Business) ESFB centers, sustainable social and economic development, economic safety.*

# İSTEHSAL VASİTƏLƏRİ BAZARININ İNFRASTRUKTUR TƏMİNATI VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ MEYİLLƏRİ

***Qazıyeva S.T.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə***

*Məqalədə istehsal vasitələri bazarının formalaşmasında infrastrukturların rolu tədqiq edilmişdir. Həmçinin istehsal vasitələri bazarının infrastruktur təminatının yaxşılaşdırılması istiqamətləri araşdırılmışdır.*

***Açar sözlər:*** *istehsal vasitələri, bazar, infrastruktur, nəqliyyat, birja, əmtəə*

İstehsal vasitələri bazarının subyektləri hesab edilən satıcı və alıcı arasında hər iki tərəfin maraqlarını nəzərə alan qarşılıqlı iqtisadi münasibətlərin təmin edilməsi səviyyəsi, ilk növbədə, bu bazarın infrastruktur təminatından, onun inkişaf səviyyəsi və dərəcəsindən asılıdır. Bütün sahələrdə yaranan iqtisadi problemlərin vaxtında həll edilməsi infrastrukturun normal fəaliyyəti ilə bağlıdır. Buna görə də infrastrukturun normal fəaliyyəti və yerində olması bütövlükdə ölkənin sosial-iqtisadi həyatında çox mühüm rol oynayır. Hər hansı bir infrastrukturun və ya onun tərkibində hər hansı bir ünsürün olmaması müvafiq sahəyə, o cümlədən istehsal vasitələri bazarının normal fəaliyyətinə və tərəqqisinə dərhal təsir göstərir.

Bu baxımdan infrastrukturun əsas vəzifəsi səmərəli bazar mühitinin yaradılmasından ibarət olduğundan onun inkişafı istehsal vasitələri bazarının formalaşması və inkişafı proseslərinin aktivləşməsinə istiqamətlənməlidir.

Bazar münasibətləri şəraitində istehsal vasitələri bazarının infrastrukturu olduqca rəngarəngdir. Bu elementləri əlaqələndirən yeganə amil ondan ibarətdir ki, onların hər biri material axınlarının ilkin yaranma mənbəyindən (istehsaldan) son istehlak yerlərinə qədər optimal hərəkətinə xidmət göstərir.

İstehsal, sosial və institusional infrastruktur bir sıra ümumi və spesifik əlamətlərə malik olmalarına baxmayaraq, ölkənin milli iqtisadiyyatının mövcud strukturu çərçivəsində təşkilati-iqtisadi və hüquqi nöqteyi-nəzərdən tam formalaşmayıb.

İstehsal vasitələri bazarının formalaşması və inkişafında əmtəə birjasının rolunu gələcəkdə yüksəltmək məqsədilə bir sıra tədbirlər həyata keçirilməlidir:

- strateji əhəmiyyətli istehsal vasitələrinin satışına nəzarət etmək üçün qara və əlvan metallar, eləcə də bir sıra digər məhsullar birja məhsulları hesab edilməlidir. Bu məhsullar məcburi formada əmtəə birjasında qeydiyyatdan keçməli və birja ticarətində (hərraclarda) formalaşan qiymətlər dövlət büdcəsinə yönəldilən vergilərin əsas ağırlıq mərkəzini təşkil etməlidir;
- müəssisə və təşkilatların anbarlarında ehtiyat formasında saxlanılan hazır məhsulların və istifadə edilməyən lüzumsuz materialların, gömrük komitəsi və hüquq-mühafizə orqanları tərəfindən müsadirə edilmiş məhsulların, eləcə də müflisləşmiş müəssisə və təşkilatların əmlakının satışı birja vasitəsilə təşkil olunmalıdır;
- forvard və fyüçers əməliyyatları genişləndirilməlidir;
- istehsal vasitələrinin idxal və ixrac kvotalarının praktiki olaraq birjada satışı təmin edilməlidir. Belə bir tədbirin həyata keçirilməsi kvota satışından büdcəyə daxilolmaları artırmaqla yanaşı, idxal yönümlü məhsulların kəmiyyət və keyfiyyətcə yoxlanılmasına, daxili bazarın qorunması və ona dövlət nəzarətinin gücləndirilməsinə şərait yarada bilər [3].

Nəzərdə tutulan bu tədbirlərin reallaşması həm Respublika Əmtəə Birjasının iqtisadi fəaliyyət baxımından canlanmasına, onun iştirakçılarında birja ticarəti yolu ilə məhsulların reallaşmasına həvəsləndirici motivlərin yaradılmasına, həm də bir sıra təşkilatları onlara aid olmayan işlərdən azad etməyə imkan verə bilər.

Məhsul istehsalçısı ilə istehlakçı arasında optimal əlaqələrin qurulması, yeni satış bazarlarının formalaşması, potensial müştərilərin cəlb edilməsi baxımından yarmarka, hərrac və sərgilər və onların vaxtaşırı təşkili həm istehsal vasitələri bazarının canlanmasında, həm də onun infrastrukturunun formalaşmasında spesifik rola malikdir.

Yeni xidmət növü kimi konsaltinq xidməti istehsal vasitələri bazarının mühüm infrastruktur elementi olmaqla bazar subyektlərinin təsərrüfat fəaliyyətinin mövcud vəziyyətinin müfəssəl təhlili və gələcək dövr üçün onların maliyyə və idarəetmə fəaliyyətinin yaxşılaşdırılması məqsədilə səmərəli tövsiyələrin işlənib hazırlanmasını nəzərdə tutur. Məsləhət xidmətinə ehtiyacın yaranması təkcə bu xidməti göstərənlərin yeni bilik, analitik təhlil apara bilmək bacarığından, metodoloji yanaşmalardan daha çox bu xidməti həyata keçirənlərin istehsal yerlərində apardıqları texniki dəyişikliklərlə əlaqəlidir. Konsaltinq xidməti bazarı tutumlu və müxtəlif istiqamətlidir, lakin respublikamızda hal-hazırda bu bazar tələb olunan səviyyədə formalaşmamışdır.

İstehsal vasitələri bazarının infrastruktur təminatında mövcud geriliklərin aradan qaldırılması və onun inkişaf etdirilməsi məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- topdansatış ticarətinin səmərəliliyini, məhsulların minimum xərclərlə saxlanması və hərəkətini təmin edən sivil anbar təsərrüfatı, vasitəçi müəssisə və təşkilatlar şəbəkəsi yaradılmalıdır;
- beynəlxalq standartlara cavab verən tara-qablaşdırıcı məhsulların yaradılması və tətbiqi hesabına məhsulların rəqabət qabiliyyəti yüksəldilməlidir;
- məhsul yeridilişini təmin edən şərait və obyektlər şəbəkəsi yaradılmalıdır;
- infrastruktur obyektlərin əlverişli fəaliyyəti əsasında respublika daxilində və onun hüdudlarından kənar bazarlarda məhsul yeridilişini optimal formada təşkil etmək üçün vasitəçi mərkəzlər yaradılmalıdır;
- istehsal vasitələri bazarının infrastrukturunun formalaşmasını təmin edən qanunvericilik bazası formalaşdırılmalıdır;
- nəqliyyat şəbəkələri və nəqliyyat vasitələri parkı təkmilləşdirilməli, məhsulgöndərmələrə kompleks xidmət göstərilməlidir;
- terminal texnologiyalara əsaslanan yüklərin hərəkətinin səmərəli sisteminin yaradılması hesabına məhsulların daşınmasına çəkilən xərclər azaldılmalıdır.

İstehsal vasitələri bazarının optimal fəaliyyəti, bu bazarda material resurslarının hərəkəti nəqliyyat amilindən birbaşa asılıdır və onun hesabına təmin edilir.

İstehsal vasitələri bazarının nəqliyyat təminatının yaxşılaşdırılması məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- nəqliyyatın inkişaf strategiyası müəyyən edilərkən irimiqyaslı tədbirlərdən biri kimi ayrı-ayrı nəqliyyat növləri arasında optimal əlaqələndirməyə nail olunmalı;
- respublikanın malik olduğu nəqliyyat parkı, nəqliyyat təsərrüfatı sahəsində aparılan islahatlar sürətlənməli və bu sahədə yerinə yetirilən işlər beynəlxalq təcrübədəki mütərəqqi meyillərə uyğunlaşdırılmalı;
- nəqliyyat, anbar sahələri, yükləmə-boşaltma vasitələri, çəkmə və qablaşdırma sexləri, tara-qablaşdırıcı vasitələr, ticarət sahələri və s. ilə kompleks xidməti təmin edən nəqliyyat terminalları yaradılmalı və terminal texnologiyalardan istifadəyə üstünlük verilməlidir;
- Azərbaycan Respublikası üzrə yüklərin tranzit formada nəqli zamanı xidmət sferasının inkişaf etdirilməsi və onun səmərəliliyi yüksəldilməlidir və s. [3].

İstehsal vasitələri bazarının formalaşmasına təsir edən təşkilati amillər sırasında infrastruktur elementi kimi topdansatış vasitəçiləri aparıcı mövqeyə malikdir. Topdansatış vasitəçiləri istehsalçılara və ya topdan ticarət müəssisələrinə mənsub olmasından asılı olmayaraq, məhsulötürücü şəbəkənin mühüm tərkib hissəsi hesab olunurlar. İstehsal vasitələri bazarının subyektləri arasında rəqabətin səviyyəsi, məhz bazarın formalaşması prosesini müəyyən edən infrastruktur həlqələrinin, xüsusilə topdansatış vasitəçi strukturların inkişaf dərəcəsindən asılıdır [2].

İstehsalçı firmalar tez-tez özlərinin xüsusi bölüşdürmə şəbəkələrinin yaradılması və ya hazır məhsulların reallaşdırılması üçün topdansatış vasitəçilərinin xidmətlərindən istifadə etmək dilemması ilə qarşılaşırlar. Bu gün hər bir istehsalçının əmtəə bazarında marketinq fəaliyyəti baxımından bütün təsərrüfat məsələlərini arzu edilən səviyyədə həll edən təchizat və satış təşkilatlarının xüsusi şəbəkəsinə malik olması qeyri-mümkündür. Xüsüsi bölüşdürmə şəbəkələrinin yaradılması böyük həcmdə maliyyə vəsaitləri tələb etməklə bərabər satış bazarına və satışın həcminə tam nəzarət etməyə imkan verir. Buna görə də topdansatış vasitəçiləri tərəfindən istifadə olunan bölüşdürmə kanalları hazır məhsul istehsalçıları arasında hər dəfə rəqabət obyektinə çevrilir.

İstehsal vasitələrinin bazara yeridilməsi ilə bağlı strategiyanın işlənib hazırlanması zamanı topdansatış vasitəçilərinin seçilməsi mühüm əhəmiyyət kəsb edir. Bu işi sadələşdirmək məqsədilə maliyyə etibarlılığı, marketinq konsepsiyası, vasitəçinin reputasiyası və işgüzar keyfiyyətləri, vasitəçilərin təşkili və texniki vasitələrlə təchizatı kimi meyarlardan istifadə olunması məqsədəuyğundur.

**Ədəbiyyat**

1. Cəbiyev R. M. Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafı. Bakı: Elm, 2000, 236 s.

2. Ələsgərov A.K., Nadirov A., Muradov Ş.M., Nuriyev Ə., Hüseynov T. Azərbaycan iqtisadiyyatı. Bakı: Elm, 2003, 215 s.

3. İmanov T.İ. İstehsal vasitələri bazarı: problemlər və perspektivlər. Monoqrafiya. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2008, 340 s.

**Резюме**

***Газыйева С.Т.***

**Инфраструктурное обеспечение рынка средств производства и тенденции его совершенствования**

*В статье исследуется роль инфраструктуры в формировании рынка средств производства. Также анализируются направления совершенствования инфраструктурного обеспечения рынка средств производства.*

***Ключевые слова:*** *средства производства, рынок, инфраструктура, транспорт, биржа, товар*

**Summary**

***Qaziyeva S.T.***

**Infrastructural Support of the Market of Production means and Tendencies of its perfection**

*The article explores the role of infrastructure in the formation of the market of means of production. And also the directions of perfection of infrastructure maintenance of the market of production means are analyzed.*

***Key words:*** *industrial means, market, infrastructure, transport, exchange, goods*

## MÜASİR ŞƏRAİTDƏ ÖLKƏNİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASI MƏSƏLƏLƏRİ

***Qəmbərova R.M.***

*Azərbaycan Dövlət Aqrar Universiteti*

***Xülasə***

*Dünya təsərrüfat sisteminin bütövləşdiyi müasir dövrdə hər hansı bir ölkədə davamlı sosial-iqtisadi inkişafın təmin olunması mütləq qaydada xarici iqtisadi əlaqələrin, məqbul vasitələrlə genişləndirilməsini tələb edir. Ona görə də belə şəraitdə iqtisadi təhlükəsizliyin qorunması xüsusi ilə aktuallaşır. Məqalədə müstəqillikdən sonrakı illərdə dövlətin sosial-iqtisadi inkişafı, eyni zamanda ölkənin ÜDM və əhalinin hər nəfərə düşən əmək haqqı təhlil edilmişdir.*

***Açar sözlər:*** *iqtisadi təhlükəsizlik, sosial-iqtisadi inkişaf, milli təhlükəsizlik*

Hazırda iqtisadi təhlükəsizlik anlayışı daha aktual məsələlərdəndir. İqtisadi təhlükəsizlik milli iqtisadiyyatın artımı, eyni zamanda onun cəmiyyətin və dövlətin tələbatlarını ödəyə bilməsi üçün əlverişli olan daxili və xarici şəraitlərin məcmusudur. Azərbaycan Respublikası daxili və xarici iqtisadi siyasət aparmaqla, ölkənin təhlükəsizliyini təmin edir.

Azərbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli "Milli təhlükəsizlik haqqında" Qanunun 17-ci maddəsində deyilir ki, Azərbaycan Respublikasının iqtisadi sahədə milli təhlükəsizliyinin təmin olunması Azərbaycan Respublikasının milli iqtisadiyyatının və iqtisadi münasibətlərinin inkişafına təhlükə yaradan daxili və xarici amillərdən qorunmasıdır. Qanunda Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin olunmasının əsas istiqamətləri kimi aşağıdakılar qeyd edilir: [1]

1) Dövlətin iqtisadi potensialının artırılması;
2) Təbii ehtiyatların energetika əsaslarının, tranzit imkanlarının qorunması;
3) Daxili və xarici maliyyə ehtiyatlarının ölkə iqtisadiyyatına yönəldilməsi;
4) Büdcə vəsaitlərinin və dövlət ehtiyatlarının səmərəsiz istifadəsinə yol verilməməsi;
5) Bank sisteminin təkmilləşdirilməsi;
6) İqtisadiyyatda dövlət idarəetməsinin təkmilləşdirilməsi və s.

Azərbaycan regionda iqtisadi cəhətdən güclü dövlətdir və bu da onun milli maraqlarından irəli gəlir. Son dövrlər neft-qaz və nəqliyyat infrastrukturlarının inkişafı Azərbaycanın Qərb dövlətləri ilə iqtisadi əlaqələrini daha da möhkəmləndirmişdir. Bu da respublikanın iqtisadi təhlükəsizliyinin təmin olunmasında müsbət nəticələrə gətirib çıxartmışdır.

Həmçinin, dövlətimizin Cənubi Qafqazda əlverişli strateji mövqeyə və zəngin təbii ehtiyatlara malik olmaqla qonşuları Rusiya, İran, Gürcüstan və Türkiyənin, həmçinin ABŞ, Avropanın və digər dövlətlərin maraqlarını cəlb edir. Belə bir regionda yerləşən Azərbaycan Respublikasının geoiqtisadi təhlükəsizliyi də xüsusi əhəmiyyət kəsb edir. Geoiqtisadi, eləcə də geosiyasi təhlükəsizliyin təmin edilməsi istiqamətində əsas uğurlardan biri də bütün güc mərkəzləri ilə balanslaşdırılmış siyasi, iqtisadi münasibətlərin qurulmasıdır.

İnkişaf etmiş bəzi dövlətlərin tədqiqatçıları belə hesab edirlər ki, ictimai əmək məhsuldarlığı ildə 5 % artırsa, ölkənin iqtisadi təhlükəsizliyi təmin oluna bilər. Onu da qeyd edək ki, Azərbaycan üçün bu hal məqbul sayıla bilməz. Ona görə ki, Azərbaycan tranzitiv ölkələr qrupuna daxildir. Bu prosesdə Azərbaycanın

üzləşdiyi problemlər həmin qrupa daxil olan bütün dövlətlərdə mövcud olan problemlərdən daha mürəkkəbdir. Onu da qeyd edək ki, bu kriteriyanı tətbiq edən ölkələrdə onun az faydalı olduğu aşkar olub, yəni bu kriteriya ölkənin iqtisadi təhlükəsizliyini qiymətləndirmək üçün yetərli deyil. Buna səbəb olan amillər isə aşağıdakılardır: [2]

1.Bu göstərici üzrə hesablamalar zamanı bir çox səhvlər və qeyri-dəqiqliklər olur;

2. Müxtəlif ölkələrdə xalq təsərrüfatının xüsusiyyətini və strukturunu əks etdirə bilmir;

3. Müxtəlif ölkələrdə sərvətin və gəlirin bölgüsünün xüsusiyyətlərini və xarakterini dolğun göstərə bilmək ehtimalı çox aşağıdır;

4. Bu zaman müasir təsərrüfatın sahələri arasında fərqləri kifayət qədər nəzərə almaq olmur, əmtəə-pul münasibətlərinin hökmranlığı şəraitində istehsal olunan məhsulun hamısı istehlak bazarı vasitəsilə deyil, məhsulun əhəmiyyətli hissəsi ailə təsərrüfatından bilavasitə şəxsi istehlaka daxil olur;

5. Bu göstərici üzrə hesablayanda və ya müqayisə edildikdə bütün ölkələrin təbii- iqlim şəraitinin müxtəlifliyi üzündən uyğunsuzluqlar meydana çıxır;

6. Milli gəlirin artım tempi göstəricisi ilə hesablayarkən milli valyutaların dönərliyinin müxtəlif olması bir çox çətinliklər yaradır.

Ölkənin iqtisadi təhlükəsizliyini müəyyənləşdirmək üçün bir çox ümumi və sınaqdan çıxmış metodlar vardır. Bunlardan biri mühüm makroiqtisadi göstəricilərdir, bunlar öz əhəmiyyətinə görə digər iqtisadi göstəricilərdən daha böyük əhəmiyyət kəsb edir.

Müstəqillikdən sonrakı dövr ərzində ölkəmizin sosial-iqtisadi həyatında yaranmış müxtəlif köklü dəyişikliklər, sosial-iqtisadi inkişaf strategiyasının inamla davam etdirilməsi sayəsində Azərbaycanda yaradılmış sosial-iqtisadi potensial davamlı iqtisadi inkişafı və makroiqtisadi sabitliyi təmin etmişdir. Müasir iqtisadi inkişaf tarixinin birinci mərhələsinin əsas siyasi hadisəsi sayılan Hasilatın Pay Bölgüsü sazişinin imzalanması sonrakı mərhələlərdə Azərbaycan iqtisadiyyatına investisiyaların cəlb edilməsində və ÜDM-ın artımında əhəmiyyətli rola malik oldu. 1991-1995-ci illər arasında ölkənin ÜDM-da əhəmiyyətli dərəcədə geriləmələr olsa da, 1995-ci ildən etibarən BVF və Dünya Bankı ilə ortaqlıq çərçivəsində iqtisadiyyat yenidən formalaşmağa, özəlləşdirmə proqramları həyata keçirilməyə başlandı ki, bunun nəticəsində iqtisadi stabillik proqramı ilə 1996-cı ildən etibarən inkişaf dövrünə qədəm qoyulmuşdur.

2008-ci ildə ÜDM artaraq 40137,2 milyon manat, hər nəfərə düşən ümumdaxili məhsul 4603,7 manat olmuşdur. Gəlir səviyyəsindəki artım insanların mal satınalma güclərinin artmasına, bu da öz növbəsində real sektorun inkişafına zəmin yaradan amillərdən olmuşdur. Hər nəfərə düşən ümumi daxili məhsulun səviyyəsi 2009-cu ildə 2008-ci ilə nisbətən 13% azalmışdır. Buna səbəb dünya iqtisadiyyatında maliyyə böhranının yaşanmasıdır. Qeyd etmək lazımdır ki, dünyada müşahidə olunan maliyyə böhranının təsiri Azərbaycandan da yan ötməmişdir. Bu istiqamətdə ölkədə həyata keçirilən sosial-iqtisadi tədbirlər əhalinin gəlirlərinin azalmasının qarşısını almışdır.

2003-2014-cü illər arasında ümumi daxili məhsulun orta illik artımı 12 faiz, qeyri-neft sektorunda 10,6 faiz təşkil etmişdir. Ümumiyyətlə, 2003-cü ilə nisbətən 2014-cü ildə ÜDM 8 dəfə, onun adambaşına düşən həcmi 7,2 dəfə, qeyri-neft sektoru 2,3 dəfə, əsas kapitala yönəldilən investisiyaların həcmi 7,3 dəfə artmışdır. Bu dövrdə ölkənin iqtisadiyyatı 3 dəfədən çox artmış və onun inkişafına 132 milyard dollar məbləğində sərmayə qoyulmuşdur. Dövlət büdcəsi 19 dəfə, strateji valyuta ehtiyatları 29 dəfə, iqtisadiyyatın kreditləşməsi 24,5 dəfə artmışdır. 2016-cı ildə isə 2014-cü ilə nisbətən ÜDM 2,4%-ə qədər artmışdır. Azərbaycan Respublikası Statistika Komitəsinin məlumatına görə, 2017-ci ildə ölkənin ÜDM-i əvvəlki illə müqayisədə 0,1 % artaraq 70135,1 mln. manat olmuşdur. ÜDM-in 62,8%-i iqtisadiyyatın qeyri-neft sektorunda, 37,2 %-i isə neft – qaz sektorunda istehsal edilmişdir. 2017-ci ildə əhalinin hər nəfərə düşən ÜDM 7205,0 manat təşkil etmişdir. [3]

Qeyd etmək lazımdır ki, iqtisadi islahatların həyata keçirilməsi prosesində Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifə onların həyata keçirilməsinin optimal strategiyasını seçmək əsas məsələlərdən olmuşdur. Əlbəttə ki, hər bir ölkədə odluğu kimi, Azərbaycanda da iqtisadi islahatları konsepsiyası onun tarixi inkişafına, eləcə də iqtisadi və sosial vəziyyətinin xüsusiyyətlərinə əsaslanmaqla hazırlanmış, həyata keçirilmiş və indi də davam etdirməkdədir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli "Milli təhlükəsizlik haqqında" Qanunu.
2. Məmmədov N. Ölkənin iqtisadi təhlükəsizliyi. Bakı: Elm, 2009, 438 s.
3. Azərbaycanın Statistik Göstəriciləri. Bakı, 2016.
4. www.azstat.org.

**Резюме**

***Гамбарова Р.М.***

**Вопросы обеспечения экономической безопасности страны в современных условиях**

*В современный период усиления процессов интеграции в мировой хозяйственной системе, обеспечение социально-экономического развития в какой-либо стране обязательно требует расширения всеми приемлемыми средствами внешних экономических связей. Поэтому в этой ситуации особенно актуальным становится защита экономической безопасности. В статье анализируется социально-экономическое развитие страны после завоевания независимости, а также ВВП и заработная плата на душу населения.*

***Ключевые слова:*** *экономическая безопасность, социально-экономическое развитие, национальная безопасность*

**Summary**

***Qambarova R.M.***

**Questions of Securing the Economic Security of the Country in Modern Conditions**

*In the modern period of strengthening the processes of integration in the world economic system, the provision of social and economic development in any country necessarily requires expansion by all acceptable means of external economic ties. Therefore, in this situation, the protection of economic security becomes especially urgent. The article analyzes the country's socio-economic development after independence, as well as GDP and per capita income.*

***Key words:*** *economic security, social and economic development, national security*

## MİLLİ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİNATININ GÖSTƏRİCİLƏRİ

***Qiyasova Z.H.***

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Xülasə**

*Ölkəmizdə milli iqtisadi təhlükəsizlik sisteminin formalaşmasında makroiqtisadi sabitliyin qorunub saxlanmasına, davamlı iqtisadi artıma və yoxsulluğun azalmasına imkan verən səmərəli pul-kredit və məzənnə siyasətinin həyata keçirilməsi müstəsna əhəmiyyətə malikdir. Odur ki, neft gəlirlərinin artması şəraitində ölkədə makroiqtisadi əlaqələndirmə mexanizmini daha da gücləndirmək məqsədilə pul-kredit siyasətini iqtisadi siyasətin digər istiqamətləri ilə daha sıx uzlaşdırmaq tələb olunur.*

***Açar sözlər:*** *milli iqtisadi təhlükəsizlik, iqtisadi maraqlar, iqtisadi göstəricilər*

Milli təhlükəsizlik milli iqtisadiyyatın səmərəli dinamik yüksəlişi, cəmiyyətin, dövlətin, fərdin tələbatlarını ödəyə bilməsi üçün əlverişli olan daxili və xarici şəraitlərin məcmusudur. İqtisadi maraqlar üçün birbaşa təhlükəni, ictimai təkrar istehsalın normal gedişini pozan iqtisadi təhdidlər yaradır.

İqtisadi təhlükəsizliyin göstəriciləri aşağıdakılardır:

1) ümumi daxili məhsulun fiziki həcminin indeksi;
2) adambaşına düşən ümumi daxili məhsul (paritet ilə satın alma gücü);
3) dünyada ölkəmizin ümumi daxili məhsulunun payı ;
4) ümumi daxili məhsulda əsas vəsaitlər üzrə investisiyaların həcmi;
5) əsas vəsaitlərin amortizasiyası dərəcəsi;
6) sənaye istehsalı indeksi;
7) əmək məhsuldarlığı indeksi;
8) pul kütləsi indeksi (M2 pul aqreqatı);
9) inflyasiya səviyyəsi;
10) Ölkənin daxili dövlət borcu, Azərbaycan Respublikası və bələdiyyə subyektlərinin dövlət borcu, o cümlədən dövlətin xarici borcu ;
11) kapitalın xalis idxalı (ixracı);
12) Ölkədə subyektlərin iqtisadi inteqrasiyasının səviyyəsi;
13) əmək bazarında gərginlik əmsalı;
14) maşın, avadanlıq və nəqliyyat, əsas vəsaitlər üzrə investisiyaların ümumi həcmi;
15) ixrac olunmuş məhsul, iş və xidmətlərin həcmində innovativ məhsulların, işlərin, xidmətlərin payı;
16) yüksək texnologiyalı və innovativ məhsulların ümumi daxili məhsulda payı;
17) texnologiyanı həyata keçirən təşkilatların payı və onlarda innovasiya göstəricisi;
18) dövlət büdcə kəsiri;
19) ölkənin qızıl və valyuta ehtiyatlarının mal və xidmət idxalının həcminə nisbəti;

20) ixracın fiziki həcminin indeksi;
21) idxalın fiziki həcminin indeksi;
22) ticarət balansının saldosu;
23) ümumi olaraq maşın, avadanlıq və nəqliyyat vasitələrinin qeyri-əsas ixracatın həcmində payı;
24) əmək qabiliyyətlilərin ümumi ölkə əhalisinin sayına nisbəti;
25) enerji ehtiyatlarının istehsalı və istehlak balansı (adambaşına düşən);
26) ümumi olaraq maşın, avadanlıq və nəqliyyat vasitələrinin idxal həcmində payı;
27) ərzaq mallarının həcminin idxal mallarının ümumi həcminə nisbəti;
28) pərakəndə ticarət dövriyyəsi;
29) iqtisadiyyatda cinayətin səviyyəsi və s.[3]

Cəmiyyətin iqtisadi təhlükəsizliyi və milli maraqları üçün təhlükə yaradan daxili amillərə iqtisadiyyatın keçmişdən miras qalmış deformasiyası, milli təsərrüfat sahələrinin çoxunun texnoloji baxımdan geridə qalması, yüksək enerjitutumluluğu və resurstutumluluğu ilə bağlı aşağı rəqabət qabiliyyətliliyi, iqtisadiyyatın inhisarlaşmasının yüksək səviyyəsi, inflyasiyanın yüksək səviyyəsi,infrastruktur obyektlərinin kifayət qədər inkişaf etməməsi və dayanıqlı olmaması, mineral-xammal bazasının zəif öyrənilməsi və resursların təsərrüfat dövriyyəsinə cəlb olunma imkanlarının məhdudluğu,ölkənin elmi-texniki vəziyyətinin pisləşməsi, elmi-texniki inkişafın ayrı-ayrı sahələrində, o, cümlədən xarici və başqa fəaliyyət sahələrinə "beyin axını" nəticəsində aparıcı mövqelərin itirilməsi, intellektual əməyin prestijinin aşağı düşməsi, ölkə əmtəə istehsalçılarının, xüsusilə istehlak məhsulları istehsalçılarının daxili bazardan xarici firmalar tərəfindən sıxışdırılması, idarəetmə qərarlarının qəbul edilməsi zamanı region separatizmi və sahə lobbizminin yüksək səviyyəsi, tendensiyasının mövcudluğu, investisiya fəallığının aşağı olması, əsaslı xərclərə deyil, cari xərclərə üstünlük verilməsi, sosial münaqişələrin o, cümlədən əməyin haqqının ödənilməsi mexanizminin qeyri-kamilliyi, işsizliyin artması, təhsilin keyfiyyətinin və səviyyəsinin aşağı düşməsi səbəbindən, yaranmasına potensial təhlükə, hüquqi qanunvericiliyin qeyri-kamilliyi, bazar agentlərinin maliyyə və müqavilə intizamının aşağı olması, iqtisadiyyatın idarə edilməsi sahəsində kriminallaşma və korrupsiya, gəlirlərin kütləvi gizlədilməsi və vergidən yayınmalar, maliyyə vəsaitlərinin qeyri-qanuni xaricə köçürülməsi, işsizliyin artması da daxildir.

2004–2014-cü illər ərzində Azərbaycanda yürüdülən makroiqtisadi siyasətin hər iki istiqaməti – fiskal və pul-məzənnə siyasətləri iqtisadi artımın dəstəklənməsinə yönəlmişdir. Dövr ərzində Azərbaycan makroiqtisadi sabitlik göstəricilərinə görə qlobal miqyasda qabaqcıl mövqelərdə qərarlaşmış, əldə edilmiş iqtisadi siyasət uğurları ölkənin biznes–investisiya cəlbediciliyini əhəmiyyətli dərəcədə yüksəltmişdir. Ötən dövr üzrə makroiqtisadi siyasətin təhlili onu göstərir ki, iqtisadi siyasətin formalaşdırılması və reallaşdırılmasında neft ən mühüm amil olmuşdur.

İqtisadi artım mühərriki: fiskal genişlənmə

Azərbaycan iqtisadiyyatının sıçrayışlı artım dövründə iqtisadi artıma yüksək ötürücülüyə malik ən mühüm siyasət istiqaməti fiskal siyasət olmuşdur. Fiskal göstəricilər dövr ərzində əhəmiyyətli dərəcədə yaxşılaşmış, dövlət maliyyəsinin iqtisadi artıma töhfəsi ciddi şəkildə artmışdır. İrihəcmli dövlət maliyyə resurslarından istifadə edilməsi nəticəsində yüksək keyfiyyətli sosial–iqtisadi infrastruktur qurulmuş, iqtisadi aktivlik yüksəlmiş, bank– maliyyə sektorunda əhəmiyyətli dərəcədə canlanma müşahidə olunmuşdur. 2004–2014-cü illərdə dövlət büdcəsinin xərcləri 12,5 dəfə artmış, xərclərin ÜDM-ə nisbəti isə 14 faiz artaraq 32 faizə yüksəlmişdir. Fiskal genişlənmə əsasən büdcənin kapital xərcləri hesabına artmışdır. Belə ki, bu dövrdə cari xərclər 8 dəfə artdığı halda, kapital xərcləri 41,5 dəfə, büdcə gəlirləri isə 12 dəfə artmışdır. Lakin xüsusi diqqət çəkən məqam ondan ibarətdir ki, qeyri-neft gəlirlərinin ümumi gəlirlərdə xüsusi çəkisi 30 faiz azalaraq, 64 faizdən 34 faizə düşmüşdür. Gəlirlərin artımının əsas hərəkətverici amili Azərbaycan Respublikası Dövlət Neft Fondundan (ARDNF) transfertlərin həcminin artması olmuşdur. Bu dövrdə transfertlərin həcmi 72 dəfə artaraq, 130 milyon manatdan 9,3 milyard manata çatmışdır. Bütövlükdə, büdcənin neft gəlirlərinin payı (neft sektorundan vergi daxilolmaları ilə birlikdə) 36 faizdən 66 faizə yüksəlmişdir. Qeyri-neft gəlirləri qrupuna daxil olan vergilər, gömrük daxilolmaları və sair daxilolmalar 7 dəfə yüksələrək, 966 milyon manatdan 6.3 milyard manata çatmışdır [2, s.26].

Ölkəmizdə milli iqtisadi təhlükəsizlik sisteminin formalaşmasında makroiqtisadi sabitliyin qorunub saxlanmasına, davamlı iqtisadi artıma və yoxsulluğun azalmasına imkan verən səmərəli pul-kredit və məzənnə siyasətinin həyata keçirilməsi müstəsna əhəmiyyətə malikdir. Odur ki, neft gəlirlərinin artması şəraitində ölkədə makroiqtisadi əlaqələndirmə mexanizmini daha da gücləndirmək məqsədilə pul-kredit siyasətini iqtisadi siyasətin digər istiqamətləri ilə daha sıx uzlaşdırmaq tələb olunur.

**Ədəbiyyat**

1. Nəcəfov Z. Azərbaycanın Milli Təhlükəsizlik problemləri: nəzər məsələlər//Beynəlxalq həyat. N-4, 1998, s.14

2. Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi
3. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik problemi. Bakı, BDU, 2005.
4. Hans J. Morgentau. Politics Among Nations: The Struggle for Powerand Peace. Fifth edition. New-York, 2003, p.34
O cümlədən internet resursları

**Резюме**

***Гиясова З. Х.***

**Показатели обеспечения национальной экономической безопасности**

*Крайне важно внедрить эффективные денежно-кредитные и валютные политики, которые позволят нам поддержать макроэкономическую стабильность в национальной системе экономической безопасности страны, чтобы обеспечить устойчивый экономический рост и сокращение бедности. Поэтому в условиях увеличения доходов от нефти требуется тесно координировать денежно-кредитную политику с другими аспектами экономической политики в целях дальнейшего укрепления механизма макроэкономической координации в стране.*

***Ключевые слова:*** *национальная экономическая безопасность, экономические интересы, экономические показатели*

**Summary**

***Giyasova Z.H.***

**Indicators of Provision of National Economic Security**

*It is of paramount importance to implement effective monetary and exchange rate policies that enable us to maintain macroeconomic stability in the country's national economic security system, to enable sustainable economic growth and poverty reduction. Therefore, in conditions of increasing oil revenues, it is required to closely co-ordinate monetary policy with other aspects of economic policy in order to further strengthen the macroeconomic coordination mechanism in the country.*

***Key words:*** *national economic security, economic interests, economic indicators*

## MİLLİ İQTİSADİYYATDA İNNOVASİYA LAYİHƏLƏRİNİN REALLAŞDIRILMASININ STRATEJİ İDARƏETMƏ MEXANİZMLƏRİ

***Mahmudova L.F.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə***

*Məqalədə innovasiya layihələrinin reallaşdırılmasının zəruriliyi məsələlərinə toxunulmuşdur. İnnovasiya layihələrinin reallaşdırılmasının strateji idarəetmə mexanizmləri şərh edilmişdir. Həmçinin müəssisələrdə innovasiyaların tətbiqinin tələb olunduğu ən mürəkkəb idarəetmə məsələləri müəyyənləşdirilmişdir.*

***Açar sözlər:*** *innovasiya layihəsi, innovasiya prosesi, strateji idarəetmə, istehsal, müəssisə*

Ölkənin innovasiya bazarında səmərəli innovasiya layihələrinin seçilməsi və reallaşdırılmasının böyük iqtisadi əhəmiyyəti vardır. İnnovasiya layihələri, adətən, təsərrüfat subyektlərinin istehsal və kommersiya məsələlərinin həlli vasitəsi kimi çıxış edir. Müəssisənin bu növ layihələrin həyata keçirilməsində maraqlı yeniliklərin reallaşdırılması prosesində alınan gələcək mənfəətin ölçüsü müəyyən edilir. İnnovasiya layihələrinin reallaşdırılması üçün əlverişli şəraitin yaradılması dövlət idarəetmə orqanlarının əsas vəzifəsi sayılır. Dövlətin innovasiya siyasəti cəmiyyətin sosial-iqtisadi strategiyası ilə müəyyən edilən məqsədyönlülükdən əlavə, dünya bazarında milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyi səviyyəsinin yüksəldilməsi vəzifələri ilə innovasiya prosesinə cəlb edilən bütün iştirakçıların maraqlarının uzlaşmasını təmin etməlidir.

Məlumdur ki, innovasiyaların istehsalatda mənimsənilməsi maddi, maliyyə, intellektual məsrəflə bağlıdır və innovasiya təkliflərinin sistemli şəkildə reallaşdırılması vasitəsi olan innovasiya layihələri əsasında həyata keçirilir. İnnovasiya layihələri üzrə işin təşkili qarışıq sistemin bir növüdür. Bu halda layihəni hazırlayan bölmə inzibati şəkildə mövzu rəhbərinə tabe olan müxtəlif xidmətlərin mütəxəssislərindən ibarətdir. Bu növ bölmə müəyyən mövzu üzrə bütün əsas işlərin yerinə yetirilməsi üçün zəruri olan həcmdə kadr və maddi resurslara malikdir. Bu zaman yardımçı və təminat xidmətləri innovasiya müəssisələri miqyasında mərkəzləşmiş olur. Layihə bölməsi (briqada, qrup) kompleks tətbiqi problemlərin həlli üçün yaradılır və qoyulmuş problemi həll edəndən sonra ləğv edilir. Layihələr üzrə işlərin təşkili işləmələrin yüksək operativliyi və sürətli reallaşması ilə səciyyələndirilir. Adətən, bu bölmələr işləmələrin istehsalatda tətbiqinə də cavabdehdir. Nəzərdən keçirilən strukturun üstünlüklərində həm təşkilat xarakterli,

həm də layihə üzrə iş prosesi zamanı bölmənin xüsusi say tərkibinin dəyişdirilməsi zərurəti ilə bağlı çətinliklər əmələ gəlir. Faza strukturu da qarışıq strukturlara aiddir. Bu struktur əməyin bölgüsü formasını nəzərdə tutur: bütün qoyulmuş məsələlərin yerinə yetirilməsi bir sıra fazalarla həyata keçirilir. Qəbul edilmiş işlər istiqamətinin proqnozlaşdırılması və əsaslandırılması fazalardan birincisidir; ikincisi– axtarış tədqiqatları; sonuncusu faza– layihənin mühəndis-texnoloji emalı və onun təcrübi sınaqdan keçirilməsidir. Bu sistemin bütün mərhələlərində qərar variantları hazırlanır və bu qərarların məntiqinə əsasən son nəticə bir daha təhlil edilir. Sistemin və onun mərhələlərinin işinin səmərəliliyi qiymətləndirilir. Sonuncu mərhələdə sistemin təhlili əsasında onun işində olan çatışmazlıqlar və xətalar təyin edilir. Alınan nəticə əsasında sistemin təkmilləşməsi haqqında qərar qəbul edilir. İdarəetmə mexanizmlərinin qiymətləndirilməsini dəstəkləyən informasiya sistemlərinin oxşar cəhətləri çoxdur. Bu sistemləri vahid metodologiyaya malik deyildir. Qiymətləndirmə sisteminin (innovasiya potensialının) idarəetmə sisteminin avtomatlaşdırılması prosesində ilk növbədə əsas mərhələlər sistemləşdirilməlidir. Çoxparametrli obyekti qiymətləndirməyə imkan verən mərhələ bu sistemdə əsas moduldur. Qiymətləndirmənin etibarlılığı bu modulun informasiyanın keyfiyyətindən asılıdır. Subyektlərin qiymətləndirmə sisteminin formalaşmasında müxtəlif iyerarxik səviyyəli göstəricilərdən istifadə edilir. Qiymətləndirmə sistemi formalaşdırıldıqda bu sahədə indiyə qədər olan təcrübə nəzərə alınmalıdır. Göstəricilərin strukturları müəyyən ediləndən sonra onların subyektlərin səmərəliliyinə təsir dərəcələri müəyyən edilməlidir. Bu halda müxtəlif ekspert, proqnozlaşdırma və müqayisə üsullarından istifadə edilir. Qiymətləndirmənin informasiya sistemlərində müxtəlif obyektləri xarakterizə edən göstəricilər optimallaşdırılmalıdır. Bu qiymətləndirmə sistemi obyektlərə uyğunlaşdırılmalıdır [1].

Məlumdur ki, yeniliyin tətbiqi innovasiya prosesinin nəticəsidir. İnnovasiya prosesi isə nə isə yeni bir şeyin sadəcə tətbiqi yox, istehsalın təşkili və idarəetmə prosesinin məqsədlərində, şərtlərində, məzmununda, forma və metodlarında dəyişikliklərin edilməsini nəzərdə tutur. Lakin yeniləşdirilən yeniliklərin keyfiyyəti əhəmiyyətli dərəcədə innovasiya prosesinin necə təşkil olunmasından asılı olur. Azərbaycan müəssisələrinin innovasiya fəaliyyətindəki qüsurlar, adətən aşağıdakı formalarda özünü büruzə verir;

- potensial səmərəli yeniliklər ya tətbiq olunmur və ya zaman etibarı ilə əhəmiyyətli dərəcədə gecikdirilərək tətbiq olunur. Nəticədə isə, yeniliyin tətbiqindən faydalı səmərə əldə etmək imkanından istifadə olunmur;
- zəruri innovasiya potensialına malik olmayan yeniliklər tətbiq olunur;
- tətbiq olunan yenilik açıq və ya gizli müqavimət üzündən, yaxud tətbiqetmənin pis təşkili səbəbindən gözlənilən nəticəni vermir;
- yeniliyin tətbiqi bu haqda qərar qəbul edilərkən gözləniləndən daha çox xərc tələb edir;
- ilkin qiymətləndirilmənin düzgün olmaması, tətbiqin pis təşkil olunması və ya güclü müqavimət üzündən yeniliyin tətbiqolunma müddəti planlaşdırılan müddətdən əhəmiyyətli dərəcədə uzun olur [2].

Hər bir belə qüsur yalnız innovasiya prosesinin müəyyən mərhələsinin keyfiyyətlə yerinə yetirilməsi səbəbindən irəli gələ bilər ki, bu da innovasiyaların idarə olunmasının lazımi səviyyədə olmadığını göstərir. Bunu həm də menecment sahəsində innovasiyalara hazırlıq səviyyəsinin aşağı olması ilə, innovasiya problemlərinin, xüsusi halda idarəetmə innovasiyalarının bəzi müəssisə rəhbərləri üçün az əhəmiyyət kəsb etməsi ilə əlaqələndirmək olar. Lakin tədricən müəssisələrdə bazar iqtisadiyyatına yönəlmiş davranış formalaşdıqca onların idarəetmə məsələlərinə münasibəti dəyişir, idarəetmə fəaliyyətində dəyişikliklərin aparılması zərurəti meydana çıxır. Buna görə də Azərbaycan şəraitində müəssisə rəhbərləri yeni idarəetmə məsələlərinin həllində çətinliklərlə qarşılaşırlar, onların bu məsələlərinin həllində zəruri bilik və vərdişlərinin, təcrübələrinin çatışmadığı özünü büruzə verir. Müəssisələrdə innovasiyaların tətbiqinin tələb olunduğu ən mürəkkəb idarəetmə məsələlərini aşağıdakı kimi müəyyənləşdirmək olar:

- müəssisənin fəaliyyətinin strateji planlaşdırılması;
- müəssisənin ətraf mühitinin təhlili və qiymətləndirilməsi;
- müəssisənin cari fəaliyyətinin planlaşdırılması;
- qarşıya qoyulmuş məsələlərin yerinə yetirilməsinə səmərəli nəzarət sisteminin yaradılması;
- yeniliklərin tətbiqi sisteminin yaradılması;
- işçilərin məhsuldar işinin stimullaşdırılması;
- müəssisədə səmərəli uçot sisteminin təşkili;
- müəssisədə funksional idarəetmə strukturunun yaradılması;
- müəssisənin fəaliyyətinin nəticələrinin təhlili və s. [3].

Bu siyahıda strateji planlaşdırma məsələsinin birinci yerdə olması heç də təsadüfü deyildir, belə ki, strategiyanın işlənib hazırlanması, bu strategiya əsasında planların tərtib olunması Azərbaycan müəssisələrinin təcrübəsində yeni məsələdir. Məlumdur ki, dünyanın inkişaf etmiş ölkələrində artıq ötən əsrin 70-ci illərindən firmadaxili planlaşdırılmanın ən müasir növü kimi özündə həm fəaliyyət strategiyasını birləşdirən, həm də bu strategiyanı firmanın cari istehsal-təsərrüfat planına çevirən strateji idarəetməyə

keçməyə başlamışlar. Azərbaycanda isə əvvəlki dövrlərdə, yəni nisbətən stabil sosial-iqtisadi şəraitdə texnika və texnologiyaların ləng dəyişdiyi vaxtlarda, idarə olunan maliyyə vəziyyəti şəraitində beynəlxalq bazarlarda rəqabətin zəif olduğu, daxili bazarda isə müəssisələrimizin bu rəqabətlə rastlaşmadığı dövrlərdə müəssisələr strategiyanı dəqiq müəyyənləşdirmədən də öz fəaliyyətlərini təşkil edə bilirdilər. Ayrı-ayrı müəssisələr səviyyəsində isə strateji planlar, demək olar ki, işlənib hazırlanmırdı. Bazar iqtisadiyyatına keçid bu məsələni aktuallaşdırmışdır. Mühitin getdikcə artan dəyişkənlik şəraitində müəssisələrin öz strategiyalarının işləyib hazırlanmasına obyektiv zərurət meydana çıxır ki, bu da onlara maliyyə itkilərindən, imkanların itirilməsindən və bütövlükdə müəssisənin mövcudluğunu hədələyən təhlükələrdən yayınmağa imkan verə bilər.

**Ədəbiyyat**


1. Qasımov F.H., Əliyev T.N., Nəcəfov Z.M. Milli innovasiya sisteminin təşkili və idarə edilməsi. Bakı: Elm və təhsil, 2013, 679 s.
2. Tağıyev A.H., Səfərov Q.Ə. İnnovasiya layihələrinin menecmenti. Bakı: Təknur, 2013, 272 s.
3. Попова. В.П. Управление инновационными проектами. М.: ИНФРА, 2007, 191 с.


**Резюме**


***Махмудова Л.Ф.***

**Механизмы стратегического управления реализации инновационных проектов в национальной экономике**

*В статье затронуты вопросы необходимости реализации инновационных проектов, прокомментированы механизмы стратегического управления реализации инновационных проектов, также определены самые сложные вопросы применения инноваций на предприятиях.*

***Ключевые слова:*** *инновационный проект, инновационный процесс, стратегический менеджмент, производство, предприятие*


**Summary**


***Mahmudova L.F.***

**Mechanisms of Strategic Management of the Implementation of Innovation Projects in the National Economy**

*The article touches upon the necessity issues of implementation of innovation projects. Also, strategic management mechanisms of realization of innovation projects have been commented, the most complex management issues of applying innovations at enterprises have been identified.*

***Key words:*** *innovation project, innovation process, strategic management, production, enterprise*


## AQRAR BAZARIN FORMALAŞMASI DÖVLƏTİN İQTİSADİ SİYASƏTİNİN TƏRKİB HİSSƏSİ KİMİ


***Mehdiyeva Y.T.***
*Sumqayıt Dövlət Texniki Kolleci*


***Xülasə***


*Bazar münasibətlərinin inkişafı şəraitində aqrar bazarın formalaşması və səmərəli fəaliyyət göstərməsi həlledici səviyyədə dövlətin aqrar siyasəti ilə bağlıdır. Aqrar sferanın inkişafı aqrar siyasət ilə əlaqədar olaraq qarşısında duran başlıca məqsəd və vəzifələrdən biri də aqrar bazarın düzgün formalaşması və səmərəli fəaliyyət göstərməsinin müəyyən edilməsidir.*



***Açar sözlər**: aqrar bazar, aqrar siyasət, əmtəə, bazar münasibətləri*


İnkişaf etmiş ölkələrin təcrübəsindən aydın olur ki, aqrar bazarın formalaşması və fəaliyyət göstərməsi uzunmüddətli prosesin nəticəsi olub, yalnız aqrar bazar iştirakçıları arasında mövcud olan qarşılıqlı iqtisadi münasibətlər əsasında formalaşmır. Əgər aqrar bazar yalnız aqrar əmtəə istehsalçıları ilə istehlakçıları arasında ikili, daha doğrusu heç bir üçüncü tərəfin iştirakı olmadan formalaşardısa, onda hər hansı ekstremal şərait istər istehsalçı, istərsə də istehlakçı baxımdan acınacaqlı vəziyyətlə qarşılaşmış olardı.

Məlum olduğu kimi, aqrar bazar təkcə aqrar sferada çalışan əmtəə istehsalçılarının, eləcə də kənd əhalisinin deyil, nəticə etibarilə cəmiyyətin bütün üzvlərinin istehlakına, maraq və mənafelərinə xidmət edir. Belə desək, heç də səhf etmərik ki, aqrar bazar mahiyyət etibarilə ölkə əhalisinin yaşayış səviyyəsini müəyyənləşdirir. Bu baxımdan müasir şəraitdə bütün sivil dövlətlər öz ölkələrində səmərəli və etibarlı aqrar bazar formalaşdırmağın qayğısına qalırlar. Bu sahədə Azərbaycan Respublikasında da mühüm tədbirlər həyata keçirilir; aqrar bazarın formalaşması və fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə dair müasir dövrün tələbləri səviyyəsində normativ-hüquqi baza yaradılmış, bir çox praktiki məsələlər həll edilmişdir.

Bir çox ölkələrin aqrar bazarın formalaşdırılmasında dövlətin aktiv iştirakı təcrübəsi göstərir ki, bütün hallarda bu proses qiymət paritetinə nail olunmasına və gəlirlərin tənzimlənməsinə şərait yaradır. Onu da qeyd etmək lazımdır ki, müasir aqrar iqtisadiyyatın inkişafını aqrar bazarın formalaşmasına dövlətin səmərəli təsiri olmadan təsəvvür etmək mümkün deyildir. Dövlət ölkədə səmərəli, etibarlı, yüksək keyfiyyətli və nəhayət, istər istehsalçının, istərsə də istehlakçının maraqlarını təmin edə bilən aqrar bazar formalaşdırmağa maraqlıdır. Məhz belə bir aqrar bazarın formalaşması nəticə etibarilə dövlətin prioritet strateji maraqlarının təmin edilməsinə xidmət edir[1].

Aqrar bazarda daxili əmtəə istehsalçılarının maraq və mənafelərinin etibarlı qorunması, istehlakçıların sosial maraqlarına uyğun gələn qiymətlər və ən nəhayət, ərzaq və kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılması sonda dövlətin aqrar sferada iqtisadi təhlükəsizliyinin təmin olunmasının ən mühüm atributlarından biri hesab olunur. Beləliklə, dövlət səmərəli aqrar siyasət həyata keçirməklə aqrar bazarda stabillik yaratmağa cəhd göstərir. Dövlətin həyata keçirdiyi aqrar siyasət aqrar bazarda istehsalçı və istehlakçı arasında qarşılıqlı anlaşmanın yaranmasına, ekvivalent mübadilə münasibətlərinin formalaşdırılmasına, aqrar-sənaye kompleksində dəyər qanununun tələblərinin yerinə yetirilməsinə və ən nəhayət, iqtisadiyyatın sahələri, xüsusilə sənaye ilə kənd təsərrüfatı arasında disproporsiyanın aradan qaldırılmasına xidmət edir. Dövlətin aqrar siyasəti bilavasitə aqrar bazarda dövlətin strateji maraqlarının qorunmasına, aqrar sferanın digər xarici ölkələrin zərərli təsirlərindən əlverişli şərait yaradır.

Müasir dövrdə dövlətin aqrar siyasətinin aqrar bazarın formalaşmasına təsiri aşağıdakı amillərlə şərtlənir:

1. Aqrar bazar iştirakçılarının təbii fəlakət və digər əvvəlcədən proqnozlaşdırıla bilməyən təsirlərdən etibarlı sığortalanması;

2. Daxili əmtəə istehsalçılarının iqtisadi maraqlarının səmərəli və etibarlı şəkildə müdafiə olunması;

3. İstehlakçıların vəziyyətinin stabil saxlanılması.

Bazar münasibətlərinin formalaşdığı şəraitdə dövlətin aqrar siyasəti dövlətin aqrar sferanın müasir dövrün tələblərinə uyğun inkişaf etdirilməsinə dair həyata keçirdiyi kompleks tədbirlərin cəmindən ibarətdir. Müasir dövrdə dövlətin aqrar siyasətinin başlıca məqsədi aqrar sferada çoxukladlı iqtisadi münasibətlərin bərqərar olmasına şərait yaratmaqdan, azad sahibkarlığın inkişafını və müxtəlif mülkiyyət formalarına əsaslanan çoxsaylı təsərrüfat qurumlarının azad rəqabət əsasında fəaliyyətini təmin etməkdən, ölkə əhalisinin ərzaq və kənd təsərrüfatı məhsullarına olan tələbatının daha çox xüsusi mənbələr hesabına ödəməkdən, mövcud resurslardan, xüsusilə əmək və maliyyə ehtiyatlarından səmərəli istifadəyə nail olmaqdan və bu əsasda əhalinin həyat şəraitini yaxşılaşdırmaqdan ibarətdir.

Azərbaycan Respublikasında son illər bu istiqamətdə mühüm nəzəri və təcrübi əhəmiyyətli tədbirlər həyata keçirilmiş və bunun nəticəsində aqrar sferanın dinamik inkişafı təmin edilmişdir. Bazar münasibətlərinin formalaşdığı müasir mərhələdə dövlətin aqrar siyasətinin əsas vəzifəsi ölkə əhalisini yüksəkkeyfiyyətli xammal ilə müntəzəm səviyyədə təmin etməkdən, etibarlı və səmərəli aqrar bazar yaratmaqdan, iqtisadiyyatın, dövlətin sosial inkişafını, əhalinin həyat tərzini yaxşılaşdırmaq məqsədi ilə səmərəli aqrar sənaye istehsalı formalaşdırmaqdan ibarətdir.

Dövlətin aqrar siyasətinin başlıca istiqaməti aqrar bazarın düzgün formalaşmasına və səmərəli fəaliyyət göstərməsinə istiqamətlənir. Bu fəaliyyət aqrar bazar münasibətlərinin inkişafı ilə yanaşı, həm də aqrar sferanın təsərrüfat-maliyyə fəaliyyətinin kəskin olaraq yaxşılaşdırılmasına bu sahədə mövcud olan nöqsanların aradan qaldırılmasına, istehsalın artırılmasına və səmərəliliyin yüksəldilməsinə şərait yaradır. Bununla əlaqədar olaraq, dövlətin aqrar siyasətinin aqrar bazarın formalaşmasına təsirin gücləndirilməsi məqsədi ilə bazar infrastrukturunun genişləndirilməsi əmək, kapital ve istehsal resurslarından istifadənin səmərəli mexanizmini formalaşdırmalıdır. Aqrar siyasət aqrar bazarın fəaliyyətinin səmərəli təsərrüfat-iqtisadi mexanizmini formalaşdırmalı, kənd təsərrüfatı və sənaye məhsulları arasında qiymət paritetini təmin etməli, vergi, kredit, sığorta, gömrük və digər tənzimlənmə vasitələrindən istifadə etməklə, aqrar iqtisadiyyatın inkişafına təşkilat-maliyyə yardımı və dəstəyin göstərilməsini artırmalıdır. Dövlət aqrar-sənaye istehsalının planlaşdırılması və proqnozlaşdırılmasını təmin etməklə aqrar bazarın konyunkturunda baş verən dəyişiklərə uyğun təşkilati-iqtisadi və texniki-texnoloji tədbirlərin həyata keçirilməsinə nail olmalı, habelə torpaq münasibətlərinin təkmilləşdirilməsini təmin etməlidir.

Aqrar bazarın səmərəli formalaşdırılmasına və müasir dövrün tələbləri səviyyəsində fəaliyyət göstərməsinə nail olunması məqsədi ilə aşağıdakılara əməl edilməlidir [2]:

- aqrar sferada istehsalçıların və istehlakçıların sosial-iqtisadi tarazlığına əsaslanan iqtisadi münasibətlər formalaşdırılmalı;
- aqrar sferada dövlətin başlıca strateji maraqlarını təmin etməklə, kənd təsərrüfatı məhsulları istehsalının stabil və dinamik inkişafı təmin edilməli;

- aqrar sferanın istehsal-iqtisadi fəaliyyətinin yaxşılaşdırılmasına yönəldilən normativ-hüquqi və iqtisadi təyinatlı tədbirlər hazırlanmalı və tətbiq edilməlidir.

Bütün bunlar aqrar bazarın inkişafına, onun aqrar sferanın sosial-iqtisadi yüksəlişin təmin edilməsində rolu və əhəmiyyətinin artmasına imkan verəcəkdir. Beləliklə, ölkədə aqrar bazarın formalaşması dövlətin aqrar siyasətinin inkişafından asılıdır. Aqrar bazar aqrar siyasətə əsasən yaradılır və inkişaf edir. Deməli, aqrar bazarın səmərəliliyi dövlətin aqrar siyasətindən asılıdır.

Qeyd edilənlər nəzərə alınaraq göstərmək lazımdır ki, aqrar bazarın formalaşmasına və onun səmərəliliyinin yüksəldilməsinə yönəldilən dövlətin aqrar siyasəti bir sıra hallarda yerli əmtəə istehsalçılarının və ticarət strukturlarının istər daxili, istərsə də xarici bazara çıxışına müxtəlif növ hüquqi, iqtisadi və təşkilati baryerlərin yaradılmasına səbəb olur.

Belə ki, məhsul istehsalçıları öz məhsullarını sərbəst reallaşdırmaq imkanına malik deyildir, məhsulların daşınması, saxlanılması, emalı, tədarükü qaydaları bazar iqtisadiyyatının tələblərinə cavab vermir. Bu kimi məsələlərin vaxtında həll edilməməsi aqrar bazarın fəaliyyətinə ciddi zərər vurur.

**Ədəbiyyat**

1. Qarayev A.İ. Yeni iqtisadi şəraitdə ASK-nin inkişafı və maliyyə münasibətləri, Bakı, 2000
2. Qasımov Ə.C. Aqrar-sənaye müəssisələrinin iqtisadiyyatı və idarə edilməsi, Bakı, 2005

**Резюме**

***Мехдиева Е.Т.***

**Формирование аграрного рынка как составной части экономической политики государства**

*В условиях развития рыночных отношений формирование и эффективная деятельность аграрного рынка в решающей степени связана с аграрной политикой. Одной из главных целей и задач, стоящих перед аграрной политикой в связи с развитием аграрной сферы, является определение правильного направления формирования и эффективной деятельности аграрного рынка.*

***Ключевые слова:****аграрный рынок, аграрная политика, товарные, рыночные отношения*

**Summary**

***Mehdiyeva Y.T.***

**Formation of Agricultural Market as a Component of State Economic Policy**

*In condition of development of market relations, the formation of agrarian market and its effectiveness are connected with agrarian policy of the state.*

**Key words:** *agrarian market, agrarian policy, commodity, market relations*

## LƏNKƏRAN-ASTARA İQTİSADİ RAYONUNDA SOSİAL İNFRASTRUKTUR SAHƏLƏRİNİN ƏRAZİ TƏŞKİLİ

***Niftiyev F.Q.***

*Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu*

***Xülasə***

*Məqalə Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastrukturun rabitə və kommunikasiya, elm, mədəniyyət, idman və bədən tərbiyəsi kimi sahələrinin müasir vəziyyəti, təhlili, inzibati rayonlar arasındakı müqayisə və onların inkişafına həsr olunmuşdur. Sosial infrastruktur sahələrinin ərazi təşkili və inkişaf səviyyəsi öyrənilir.*

***Açar sözlər:*** *poçt, ATS, kitabxana, klub, muzey*

Sosial infrastrukturun əsas yarımsahələri ilə bərabər, rabitə və kommunikasiya, elm, mədəniyyət, idman və bədən tərbiyəsi kimi yarımsahələri də mövcuddur və onların kəmiyyət göstəriciləri əsasında Lənkəran-Astara iqtisadi rayonunun inkişafında müəyyən tendensiyalar müşahidə edilmişdir. Belə ki, Azərbaycanın müstəqilliyi illərində bu sahələrin inzibati rayonlar üzrə inkişafında, kəmiyyət göstəricilərində və s. bir sıra mühüm dəyişikliklər baş vermişdir [4]. Bu prosesə iqtisadi rayonda sosial xidmət sahələrinin keyfiyyətinin yaxşılaşdırılması, sosial infrastruktur obyektlərinin istifadəyə verilməsi, insanların estetik-mənəvi ehtiyaclarının ödənilməsi istiqamətində aparılan islahatlar və görülmüş müvafiq tədbirlər əhəmiyyətli təsir göstərmişdir.

Rabitə sosial infrastrukturun ən vacib sahələrindən biri olub, hazırda onsuz heç bir cəmiyyətin inkişafını təsəvvür etmək mümkün deyildir. Müstəqillik dövründən əvvəlki illərdə Lənkəran-Astara iqtisadi rayonunda rabitənin inkişafı sahəsində görülmüş mühüm işlər müstəqillik illərində keyfiyyətcə yeni səviyyədə davam etdirilmişdir. Xüsusən elmi-texniki tərəqqinin nailiyyətlərinin daha geniş miqyasda və yüksək texniki səviyyədə tətbiq olunduğu son 15 ilə yaxın müddətdə rabitə sahəsində mühüm irəliləyişlər

baş vermişdir. Rabitə sistemində elektronlaşma, avtomatlaşma, işin operativ təşkili, informasiyanın daha sürətli çatdırılması, rəqəmsal yayım və s. istiqamətində mühüm tədbirlər görülmüş, əhalinin bu xidmətdən daha keyfiyyətli şəkildə istifadə etmək imkanı təmin edilmişdir.

2000-2016-ci illərdə Lənkəran-Astara iqtisadi rayonunda poçt şöbələrinin sayı 147-dən 178-yə çatdırılmışdır. İqtisadi rayonda olan poçt şöbələrinin sayı ölkə üzrə olan göstəricinin 10,75%-i qədərdir [2].

İqtisadi rayonda ATS-lərin sayı 2002-ci ildə 154 vahid idisə, 2016-ci ildə 181 vahid olmuşdur. İqtisadi rayonda ATS-lərin sayı ölkə üzrə olan göstəricinin 10,3%-i qədərdir [2].

**Cədvəl 1**

**Lənkəran-Astara iqtisadi rayonunda 2016-ci il üzrə sosial infrastruktur sahələrinin göstəriciləri**

| Ərazi | Poçt şöbələri | 100 ailəyə düşən tel. aparat sayı, ədəd | Kitabxana | Klub | Muzey |
|---|---|---|---|---|---|
| Astara | 20 | 41 | 50 | 46 | 3 |
| Lənkəran | 41 | 67 | 71 | 71 | 4 |
| Lerik | 30 | 46 | 64 | 66 | 1 |
| Yardımlı | 18 | 46 | 43 | 27 | 2 |
| Masallı | 42 | 54 | 50 | 33 | 3 |
| Cəlilabad | 27 | 23 | 63 | 43 | 3 |
| İqtisadi rayon | 178 | 48 | 341 | 286 | 16 |
| Respublika | 1658,0 | 63 | 3088 | 2539,0 | 236[,0 |

*Mənbə: "Azərbaycanda mədəniyyət-2017" , " Azərbaycanda informasiya cəmiyyəti" materialları əsasında tərtib olunmuşdur*

Lənkəran-Astara iqtisadi rayonunda hər 100 ailəyə düşən telefon aparatlarının sayı 2000-ci ildə 38 olduğu halda, 2009-cu ildə 57 ədədə çatmış, sonrakı illərdə bir qədər azalaraq 2016-ci ildə 48 ədədə enmişdir (Cədvəl 1). Müqayisə üçün qeyd etmək lazımdır ki, hər 100 ailəyə orta hesabla Azərbaycanda 67, Bakıda 120, Naxçıvan MR-də 55, Gəncə-Qazax iqtisadi rayonunda 53, Aranda 36, Quba-Xaçmazda 38 telefon aparatı düşür [1].

Sosial infrastrukturun yarımsahələrindən biri də elmdir. Elmi tədqiqatların aparılması, elmi müəssisə və təşkilatların fəaliyyəti də ölkənin sosial infrastrukturunun tərkib hissəsi kimi cəmiyyətin inkişafına, tərəqqisinə, təhsilli, savadlı nəslin yetişdirilməsi üçün lazım olan kadrlarla təmin olunmasına xidmət edir. Elmin inkişafı həm də texnika və texnologiyanın inkişafına səbəb olur, müasir texnologiyaların praktiki tətbiqi nəticəsində isə idarəetmə və istehsal prosesləri təkmilləşir ki, bu da son nəticədə insanların yaşayışının yaxşılaşmasına, onların rahatlığının, mənəvi-estetik tələblərinin daha yüksək səviyyədə təmin olunmasına və ödənilməsinə müsbət təsir göstərir.

Lənkəran-Astara iqtisadi rayonunda bir tədqiqat müəssisəsi – Azərbaycan Milli Elmlər Akademiyasının Lənkəran Regional Elm Mərkəzi fəaliyyət göstərir.

İqtisadi rayonda çalışan elmi işçi heyətinin sayı 136 nəfər təşkil edir. Onlardan 26-sı qadınlardır. Bundan başqa, ştatda olmayan, lakin tədqiqat aparmaqla məşğul olan, ali təhsil müəssisələrində çalışan elmi pedaqoji işçilər də vardır. Bu qrup insanların sayı 93-dür, onlardan 16-sı qadınlardır [3].

Sosial infrastrukturun tərkib hissəsi kimi mədəniyyətin inkişaf səviyyəsinin əsas göstəricilərinə kitabxanaların sayı, onlarda olan kitab fondu, adambaşına düşən sayı, klub müəssisələrinin, teatrların, konsert müəssisələrinin, muzeylərin, sirklərin sayı və adambaşına düşən sayı, ərazi üzrə paylanma göstəriciləri, xüsusən onların yer tutumu və onlara gələn insanların faktiki sayı, habelə insanların dincəlməsi və asudə vaxtlarını keçirməsini təmin edən parkların və şəhərdaxili yaşıllıq ərazilərinin mütləq və adambaşına düşən sahəsi, qoruqların, heyvanxanaların olması və s. aid edilir.

Lənkəran-Astara iqtisadi rayonunda 341 kitabxana vardır. İqtisadi rayonda kitabxanaların kitab fondu 2789,4 min nüsxədir. Bu, respublika üzrə olan müvafiq göstəricinin təxminən 8,6%-i qədərdir. Həmin göstəriciyə görə, Lənkəran-Astara ölkə regionları arasında dördüncü yeri tutur [3].

Lənkəran-Astara iqtisadi rayonunda 286 klub müəssisəsi fəaliyyət göstərir ki, bunlar da ölkə üzrə olan göstəricinin 11,2%-i qədərdir[3].

Qeyd etmək lazımdır ki, Lənkəran-Astara iqtisadi rayonunda hazırda heç bir kinoteatr fəaliyyət göstərmir.

İqtisadi rayon ərazisində 1 peşəkar teatr mövcuddur. Bu, Lənkəran inzibati rayonunda yerləşən Lənkəran Dövlət Dram Teatrıdır.

İqtisadi rayonda 16 muzey, o cümlədən Lənkəranda 4, Astarada 3, Masallıda 3, Cəlilabadda 3, Yardımlıda 2, Lerikdə 1 muzey vardır [3].

Sosial infrastrukturun yarımsahələrindən biri də idman və bədən tərbiyəsidir. Azərbaycanda son 15 ilə yaxın müddətdə idman sahəsinə göstərilən dövlət qayğısı nəticəsində regionlarda müxtəlif idman kompleksləri, stadionlar, idman zalları, təbii və ya süni ot örtüklü futbol meydançaları, atçılıq idman mərkəzləri, qolf meydançaları, atıcılıq tirləri, üzgüçülük hovuzları və s. açılıb istifadəyə verilmişdir və onların sayı getdikcə artmaqdadır.

Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastrukturun rabitə, informasiya və telekommunikasiya, elm, mədəniyyət, idman və bədən tərbiyəsi kimi yarımsahələrinin inkişafının müqayisəli təhlili göstərir ki, iqtisadi rayonda Lənkəran, Cəlilabad və Masallı rayonlarının, demək olar ki, bütün mütləq və adambaşına düşən kəmiyyət göstəricilərinə görə digər inzibati rayonlardan üstünlükləri nəzərə çarpır. Lerik və Yardımlı rayonlarında sosial infrastruktur sahələri zəif inkişaf edib. İnzibati rayonların kitabxanalarında müasir kompyuter və internet çatışmazlığı vardır.

**Ədəbiyyat**


1. Azərbaycanda informasiya cəmiyyəti, 2016. ARDSK, 9 №-li kiçik müəssisə, Bakı: 2017, 163 s.
2. Azərbaycanda telekommunikasiya və poçt, 2016. ARDSK, 9 №-li kiçik müəssisə, Bakı: 2017, 160 s.
3. Azərbaycanda təhsil, elm və mədəniyyət, 2016. ARDSK, 9 №-li kiçik müəssisə, Bakı: 2017, 506 s.
4. Mahmudov M.M., Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi, Bakı: 2011, 371 s.



**Резюме**

***Нифтиев Ф.Г.***

**Территориальная организация социальной инфраструктуры в Ленкаран-Астаринском экономическом районе**

*Статья посвящена современному состоянию социальной инфраструктуры, как связь и коммуникация, наука, культура, спорт и физическая культура. Так же дан проанализировано развитие и сравнение административных районов Лянкяран-Астаринского экономического района. Показан уровень развития и территориальная организация отраслей социальной инфраструктуры.*

***Ключевые слова**: почта, АТС, библиотека, клуб, музей*

**Summary**

***Niftiyev F.Q.***

**Territorial Organization of Social Infrastructure Areas in Lankaran-Astara Economic Region**

*The article is dedicated to the present state of social structure, such as communication, science, culture, sports and physical culture. The analysis of development and comparison of administrative districts of Lankaran-Astara economic region are given as well. The level of development and territorial organization of social infrastructure areas are elucidated.*

***Key words:** post, ATS, library, club, museum*


## İQTİSADİ QLOBALLAŞMANIN VƏ REGİONAL İNTEQRASİYA PROSESLƏRİNİN İNKİŞAFININ MİLLİ GÖMRÜK SİYASƏTİNƏ TƏSİRİ


***Osmanov İ.O.***

*Sumqayıt Dövlət Universiteti*



***Xülasə***

*Məqalədə iqtisadi qloballaşmanın və regional inteqrasiya proseslərinin milli iqtisadiyyatda roluna toxunulmuşdur. Həmçinin, iqtisadi qloballaşmanın və regional inteqrasiya proseslərinin inkişafının milli gömrük siyasətinə təsiri araşdırılmışdır.*



***Açar sözlər:** iqtisadi qloballaşma, regional inteqrasiya, gömrük siyasəti, iqtisadi inkişaf, əmtəə axını*


Müasir dövrün ən mühüm əlaməti, müxtəlif ölkələrin iqtisadiyyatlarının qarşılıqlı asılılığının güclənməsi, makro və mikro səviyyələrdə inteqrasiya proseslərinin inkişafı, sivilzasiyalı ölkələrin intensiv surətdə qapalı milli iqtisadiyyatdan açıq tipli iqtisadiyyata keçməsindən ibarətdir. Bütün bunlar dünya təsərrüfatının iqtisadi inkişaf qanunauyğunluqlarından irəli gəlir. Dünyanın müxtəlif regionlarında inteqrasiya proseslərinin inkişafı üçün güclü stimul dünyanın bir-biri ilə mübarizə aparan iki əks qütbə parçalanmasına son qoyulmasından gəldi. İqtisadiyyatın idarə edilməsinin inzibati-amirlik sisteminə aid olan planlı iqtisadiyat tipli milli iqtisadiyatların aradan çıxması nəticəsində dünyada demək olar ki, eyni iqtisadi bazisə əsalanan ölkələrdən ibarət şərait yarandı. Bazar mexanizmlərinin tətbiqi və neoliberal islahatların aparılması zərurətinin dərk edilməsi daha da genişləndi. Çox böyük həcmdə vəsait və güc tələb edən elmi-texniki tərəqqi də inteqrasiyanı gücləndirdi.

Regional inteqrasiya ilə dünya iqtisadiyyatının qlobal sistemi arasındakı münasibətlər qarşılıqlı təsirdə olan münasibətlərdir. Belə ki, iqtisadiyyatın regionlaşması nəinki uzunmüddətli beynəlxalq dəyişikliklərin nəticəsi kimi, eləcə də qlobal strukturun mühüm elementi kimi çıxış edir. İqtisadi regionlaşma qloballaşmanın formalaşmasında iştirak etməklə, iki əsas funksiyanı yerinə yetirir. O bir tərəfdən qloballaşmanın obyekti kimi (passiv funksiya), digər tərəfdən isə qloballaşmanın subyekti kimi (aktiv funksiya) çıxış edir. İqtisadi regionlaşma inteqrasiya proseslərinin genişlənməsinə şərait yaradır və effektivliyinin yüksəldilməsinə təsir göstərir.

Amerika alimi Cekob Vaynerin fikrinə görə, inteqrasiya prosesi nəticəsində inteqrasiya qrupuna daxil olan ölkələr arasında yeni əmtəə axınları yaradılır ki, bu da öz növbəsində ölkə daxilində analoji məhsulların bahalı istehsalını ixtisar etməyə imkan verir. Tədricən inteqrasiya qrupu daxilində istehsal olunan məhsullar üçüncü qrup ölkələrdən idxal olunan məhsulları əvəz etməyə başlayır. Beləliklə, inteqrasiya daxilində belə “xalis əmtəə axınlarının” yaradılması istehsalın həcminin artmasına, əhalinin həyat səviyyəsinin yüksəlməsinə, inteqrasiyaya daxil olan ölkənin isə ixtisaslaşma səviyyəsinin yüksəlməsinə səbəb olur.

Polşa iqtisadçısı Herard Moseyin fikrinə görə, iqtisadi qloballaşma nəticəsində gömrük rüsumları ümumən aşağı düşür, milli gömrük siyasətində muxtariyyətin məhdudlaşdırılması baş verir. Bu sahədə ölkələrin fəaliyyətinin əlaqələndirilməsi və konkret növ məhsullara görə vahid gömrük tarifləri qəbul edilir. Regionlaşmanın nəticəsi kimi konkret birlik daxilində muxtariyyatın (gömrük, ticarət, iqtisadi) saxlanması baş verir. Lakin bu zaman birlik (region) daxilində gömrük siyasəti əlaqələndirilir, vahid gömrük normativləri, vahid gömrük qanunları fəaliyyət göstərir [1].

Müasir ictimai həyatın, o cümlədən iqtisadi inkişafın əsas şərtlərindən biri onun şəffaflığının güclənməsidir. Keçən əsrin 80-cı və 90-cı illərində neft böhranı ilə əlaqədar protoksionizm meyillərinin tətbiqində dönüş baş verdi. Bunun nəticəsi kimi gömrük məhdudiyyətlərinin tədricən azalması və beynəlxalq iqtisadi münasibətlərin liberallaşdırılması zəruriliyi gücləndi. Dünya iqtisadiyyatındakı bu yeniliklər hal-hazırda iki əsas istiqamətdə aparılır. Birinci istiqamət ticarət və maliyyə dövriyyəsinin liberallaşdırılması, iki və çoxtərəfli müqavilələrin bağlanmasından imtina edilməsidir.

İkinci istiqamət onlarca dövlətin daxil olduğu birliklərdə şəffaflığın meydana gəlməsidir. Qeyd etmək lazımdır ki, dünya ölkələrinin iqtisadiyyatının xaricə açıqlığının həm mənfi, həm də müsbət olan ümumi cəhətləri çoxdur. Belə ki, beynəlxalq rəqabət qarşısında hər cür məhdudiyyətləri aradan götürmüş milli iqtisadiyyat xarici təsərrüfat konyunkturasının dəyişikliklərinə qarşı, eləcə də sabitliyi pozan spekulyativ xarakterli amillərə qarşı çox həssas olur.

XX əsrin 90-cı illərində dünya ticarəti kəskin dəyişikliklərlə üzləşdi. Hal- hazırda elə bir milli iqtisadiyyat yoxdur ki, o dünya bazarının hər hansı bir seqmentindən bu və ya digər dərəcədə asılı olmasın. Bu asılılıq gömrük siyasətinin müvafiq səmərəli vasitələrinin axtarılmasını tələb edir. Nəticədə, əvvəlki dövrlərlə müqayisədə gömrük siyasətinin roluna, onun funksiyalarına baxışlarda dəyişikliklər baş vermişdir. Gömrük siyasətində iqtisadi inkişafın tempi və meyilləri, eləcə də nəinki ayrı-ayrı müəssisələrin, eləcə də milli iqtisadiyyatların rəqabətqabiliyyətliliyindəki eyniliklər nəzərə alınmalıdır. Bu zaman ənənəvi iqtisadi siyasətlə fəaliyyət göstərmək imkanı məhdudlaşır. Belə ki, çox zaman fəaliyyətin etibarlı, klassik üsullarından istifadə etmək mümkün olmur. Bu halı tarif sisteminə də aid etmək olar. İqtisadi qloballaşma və regional inteqrasiya problemləri üzrə aparılan elmi diskussiyalarda əsas diqqətin aşağıdakı məsələlərə yönəldilməsi tələb edilir.

Birinci, iqtisadi qloballaşma və regional inteqrasiya proseslərinin inkişafı milli gömrük siyasətinin müstəqilliyinin azalmasına səbəb ola bilərmi? Həqiqətən, qarşılıqlı ticarət asılılığı şəraitində hər bir ölkənin gömrük siyasətinin səmərəliliyi gömrük tariflərinin müəyyənləşdirilməsində dövlətin sərbəstlik səviyyəsindən asılıdır. Yəni gömrük rüsumları o zaman güclü alətə çevrilir ki, hökumət onun dəyişdirilməsində sərbəstliyə malik olsun.

İkincisi, dünya iqtisadiyyatında baş verən proseslərə ölkənin həssaslığı necədir və bu həssaslıq necə dəyişir?

Üçüncüsü, dövlətlər arasındakı liberal ticarət siyasətindən irəli gələn sıx münasibətlər ayrı-ayrı milli iqtisadiyyatlar arasında ziddiyyətlərin artmasına səbəb ola bilərmi? Belə bir şəraitdə bu və ya digər ölkə tərəfindən həyata keçirilən korrupsiyalar həm dünya əmtəə axınına, həm də bütün beynəlxalq ticarət sisteminə təsir göstərə bilər. Bu zaman digər ölkələrdəki mövcud vəziyyətin pisləşməsi hesabına öz məqsədlərini həyata keçirmək imkanı yaranır. Bu isə dünya iqtisadiyyatındakı sabitliyi pozur.

Dördüncüsü, prinsipial gömrük məqsədlərinin həyata keçirilməsi konkret bir ölkə üçün çətinlik törətməyəcəkmi? Çünki ümumi xarici ticarət siyasətinin formalaşması müxtəlif konsepsiyalar arasında kompromiss bir variantın seçilməsini və ümumi bir məqsədin işlənib hazırlanmasını tələb edir [3].

Əmtəə bazarının inkişafı və beynəlxalq ticarətin artması qloballaşmanın ən xarakterik xüsusiyyətidir. Müasir şəraitdə əvvəllər fəaliyyət göstərmiş bir çox qaydalar öz əhəmiyyətini itirmişdir. Bununla əlaqədar

dünya ölkələri yeni qaydalarla hesablaşmalıdırlar. Qloballaşma ilə bağlı baş verən proseslərin dərk edilməsi ayrı-ayrı ölkələr üçün xərclərin minimallaşdırılması və əksinə, gəlirlərin artırılmasına imkan verəcəkdir. Dövlətin iqtisadi siyasəti bir tərəfdən qloballaşma proseslərini stimullaşdıra, digər tərəfdən isə onun inkişafını ləngidə bilər. İqtisadi siyasətin tərkib hissəsi kimi gömrük siyasəti də göstərilən məqsədlərə tabedir. Belə ki, beynəlxalq ticarətin qloballaşması müasir gömrük rüsumlarının mahiyyətinin və funksiyalarının dəyişdirilməsinə səbəb ola bilən əsas hərəkətverici qüvvə kimi çıxış edir.

Fiskal siyasətin modernləşdirilməsi problemi hal-hazırda getdikcə aktuallaşmaqdadır. Bu məsələ, əsasən, xarici-iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsi ilə əlaqədar beynəlxalq təşkilatlar tərəfindən qaldırılmışdır. Odur ki, XXI əsr üçün gömrük rüsumlarının modelləri tərtib olunur, dəqiq və səmərəli gömrük sistemini yaratmaq istəyində olan ölkələr üçün göstərişlər, tövsiyələr işlənib hazırlanır [2].

Fiskal siyasətin mahiyyətində də dəyişikliklər baş vermişdir. Hazırda fiskal siyasət beynəlxalq müqavilələri və gömrük konvensiyalarını pozanlara qarşı fəal iqtisadi və hüquqi tədbirlərin tətbiq edilməsi ilə yanaşı, maksimum dərəcədə beynəlxalq əmtəə dövriyyəsini yüngülləşdirməlidir. Ölkələr, o cümlədən Azərbaycan Respublikası da öz gömrük sistemini tövsiyə olunan tələblərə uyğunlaşdırmasalar, onlar qlobal ticarət adlanan yeni dünya qaydalarından kənarda qala bilərlər.

Nəticə olaraq qeyd etməliyik ki, Azərbaycan Respublikası öz gömrük siyasətini beynəlxalq tələblərə uyğunlaşdırmaqla yanaşı, öz iqtisadi inkişaf səviyyəsindən asılı olaraq formalaşdırmalıdır.

**Ədəbiyyat**


1. Əhmədov M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı: Azərnəşr, 2003, 520 s.
2. Qafaraov Ş.S. Müasir iqtisadi sistem və qloballaşma. Bakı: Elm, 2004, 325 s.
3. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Monoqrafiya. Bakı: İqtisad Universiteti, 2009, 415 s.



**Резюме**

***Османов И.О.***

**Влияние процессов экономической глобализации и региональной интеграции на национальную таможенную политику**

*В статье затронута роль экономической глобализации и региональной интеграции в национальной экономике, также исследуется влияние процессов развития экономической глобализации и региональной интеграции на национальную таможенную политику*

***Ключевые слова:*** *экономическая глобализация, региональная интеграция, таможенная политика, экономическое развитие, товарный поток*

**Summary**

***Osmanov I.O.***

**The Influence of the Development of Economic Globalization and Regional Integration Processes on the National Customs Policy**

*The article touches upon the role of economic globalization and regional integration in the national economy, also examines the impact of the processes of development of economic globalization and regional integration on the national customs policy*

***Key words:*** *economic globalization, regional integration, customs policy, economic development, commodity flow*


## İQTİSADİ TƏHLÜKƏSİZLİK GÖSTƏRİCİLƏRİ


***Pənahəliyeva M.Ö.***

*Sumqayıt Dövlət Universiteti*



**Xülasə**

*Məqalədə dövlətin iqtisadi təhlükəsizlik göstəriciləri haqqında məlumat verilmiş, ölkədə təhlükə yarada bilən daxili və xarici amillər açıqlanmış, iqtisadi təhlükəsizliyə dair rus və Avropa alimlərinin fikirləri öz əksini tapmışdır.*

***Açar sözlər:*** *iqtisadi təhlükəsizlik, təhlükəli amillər, həyat keyfiyyəti, qiymət həddi.*


Respublikada iqtisadi təhlükəsizliyin mahiyyəti göstəricilər və meyarlar sistemi ilə reallaşır. Respublikamızda iqtisadi təhlükəsizliyin meyarları – iqtisadi təhlükəsizliyin mahiyyətini əks etdirə biləcək mühüm, vacib proseslər nöqteyi-nəzərindən mövcud iqtisadi vəziyyətin qiymətləndirilməsidir. Ölkədə təhlükəsizliyin meyarlar baxımından qiymətləndirilməsi vacibdir. Ölkədə resurs potensialının və onun inkişaf imkanlarının; ehtiyatlardan, kapitaldan və əməkdən səmərəli istifadə səviyyəsi və onun inkişaf etmiş ölkələrdəki səviyyəyə, həmçinin daxili və xarici təhlükələrin minimum səviyyəsinə uyğunluğu ilə müəyyənləşir.

Ölkənin iqtisadi təhlükəsizliyini xarakterizə edən göstəriciləri aşağıdakılardir: 1) Həyat səviyyəsi və həyatın keyfiyyəti; inflyasiyanın tempi; 2) İşsizliyin səviyyəsi (norma səviyyəsi); 3) İqtisadi artım; 4) Büdcə kəsiri; 5) Dövlətin borcları; 6) Dünya iqtisadiyyatına daxil olmaq, qoşulmaq; 7) Qızıl valyuta ehtiyatlarının vəziyyəti, səviyyəsi; 8) Kölgə iqtisadiyyatının fəaliyyəti və s.

Ölkədə iqtisadi təhlükəsizlik göstəricilərinin özləri deyil onların qiymət səviyyələri, hədləri mühüm rol oynayır. Qiymət həddi dedikdə yekun, son hədd başa düşülür. Mövcud meyarların gözlənilməməsi təkrar istehsal prosesinin müxtəlif elementlərinin normal inkişafına mane olur. Bu isə iqtisadi təhlükəsizlik sahəsində neqativ, dağıdıcı meyillərin formalaşmasına gətirib çıxarır. Belə ki, yüksək təhlükəsizlik dərəcəsinin bütün göstəricilər kompleksinin qiymətlərinin yol verilən hədd daxilində olması, ancaq bir göstəricinin qiymət həddinin digər göstəricinin zərərinə olmaması şərti daxilində təmin edilir.

Qeyd etmək lazımdır ki, təhlükəli amillərə xaricdən olan təhlükələr daha ciddi təsir göstərir. Ölkəyə xarici təhlükə mənbələri kimi, ölkənin xarici borclarının artması, ixracatın xammalyönümlü olması, xarici ticarət dövriyyəsinin həcminin azalması kimi amillər emal sənayesinin zəif rəqabətqabiliyyətliliyini şərtləndirir və sonda daxili təhlükənin yaranmasına şərait yaradır [1].

Professor V.İ.Fomiçevin fikirlərinə görə ölkələr arasında kommersiya münasibətlərinin təşəkkülü və inkişafı beynəlxalq əmək bölgüsü subyektlərinin bir-birindən qarşılıqlı asılılığının güclənməsinə, eləcə də ixtisaslaşma və kooperasiyadan əldə olunan üstünlüklərdən gəlir götürmənin zəruriliyinin meydana çıxmasına səbəb olur. Belə ki, ÜDM-un səviyyəsi xaricdəki təsadüfi, yaxud da bilərəkdən hazırlanmış hadisələrdən əhəmiyyətli dərəcədə asılı deyilsə, bu zaman milli iqtisadiyyat təhlükəsizlikdədir. Əgər ÜDM-un səviyyəsi xarici amillərə həssasdırsa və bu reaksiyanın nəticələrini neytrallaşdırmaq mümkün deyilsə, bu zaman iqtisadi təhlükəsizliyin səviyyəsi aşağı düşür [2].

Ölkədə daxili təhlükə mənbələri sırasında sosial və elmi-texniki sferalarda yaranan meyillər daha ciddi təhlükə xarakteri daşıyır. Belə ki, güclü resurs potensialına malik olmaq hər bir dövlət üçün mühüm əhəmiyyət kəsb edir. Mövcud ehtiyatlar və elmi texniki potensial maddi istehsal sahələrinin kompleks inkişafını təmin edir.

Belə ki, iqtisadi və milli təhlükəsizliyin təmin olunmasında sosial sfera mühüm rol oynayır. Bura fərdlərin, cəmiyyətin, ailələrin, həmçinin siniflərin, sosial qrupların dövlət maraqlarının həyata keçirilməsi daxildir. Buna görə də bütün çoxcəhətli sosial münasibətlərin ahəngdarlığı və davamlılığı, möhkəmliyi, həmçinin dövlət, fərd və müəssisə arasında münaqişəli və münaqişəsiz münasibətlər nəzərdən keçirilir, yoxlanılır. Respublika və onun təhlükəsizliyi üçün böyük qorxu amilləri aşağıdakılardır: əhalinin gəlir və istehlak səviyyəsində kəskin differensiasiyanın olması; qiymətli ərzaq malları üzrə orta istehlak normasının azalması hesabına ərzaq istehlakı strukturunun dəyişilməsi; ölkədə gəlir səviyyəsi yaşayış minimumundan aşağı olan əhalinin çoxluğu nəticəsində yoxsulluq səviyyəsinin yüksək olması. Məsələn: ABŞ-da yüksək gəlir səviyyəsinə malik 12% əhalinin gəliri aşağı gəlir səviyyəsinə malik 10% əhalinin gəlirindən 12 dəfə, Rusiyada isə 15 dəfə çoxdur, Qərbi Avporada isə bu 6-9 dəfə çoxdur. Belə vəziyyətdə differensiasiyaya nə iqtisadi, nə də sosial cəhətdən qiymət verilə bilməz.

Ölkədə məşğulluğun səviyyəsinin azalması, təhsil alma imkanlarının məhdudlaşması, xüsusilə əhali arasında ölümün artması və doğum səviyyəsinin aşağı düşməsi həyat keyfiyyətinin pisləşməsinə səbəb olur. Həyatın keyfiyyəti haqqında inteqral göstərici kimi adambaşına düşən ümum daxili məhsul əsas götürülür.

Respublikada elmi-texniki potensial iqtisadiyyatın səviyyəsini, gələcəkdə onun inkişaf imkanlarını müəyyən edir. Belə ki, elmi-texniki tərəqqinin özünün inkişafı və təkmilləşdirilməsi olmadan ölkənin müdafiə qabiliyyətini yüksəltmək, əsas sənaye sahələrində əsas fondların yeniləşdirmək qeyri - mümkündür. Elmi-texniki işlərin daha geniş miqyasda həyata keçirilməsi, elmi-texniki tədqiqatların həcminin artırılması, kadr potensialının səviyyəsinin təkmilləşdirilməsi iqtisadiyyatın inkişafında əsas amildir.

Məşhur avropalı ekspertlər belə hesab edirlər ki, əhalinin normal inkişafı, yaşayışı üçün elm sahəsində işləyənlər məşğul əhalinin 35%-ni təşkil etməlidir. Belə ki, bu sahədə kadr axıcılığının qarşısının alınması bazar iqtisadiyyatı şəraitində həlli gözlənilən əsas məsələdir. Ölkədə iqtisadi təhlükəsizliyə qarşı olan bütün amillər iqtisadiyyatın mühüm sferalarını əhatə edir. Bu da insanın həyat fəaliyyətinə, onun fundamental əsaslarına ciddi təsir göstərir. Hazırkı şəraitdə iqtisadi təhlükəsizlik strategiyasının müəyyənləşdirilməsi, onun perspektivlərinin öyrənilməsinin tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, belə bir fikir formalaşır ki, keçid dövründə əsas məsələ bütün ölkənin və iqtisadiyyatın «yaşamasını», daha sonra isə onun stabilliyini və gələcək inkişafını təmin etməkdir. Belə ki, sağ qalma meyarı olduqca genişdir. İstehsalın azalmasının son həddə çatması və stabilləşmənin başlamasını müəyyən etmək məsələsi olduqca mürəkkəbdir. Mövcud bazarın «qüdrətli əllər»i haqqında, onun adi gözlə görünməyən gücü barəsində təsəvvürlər artıq bizə məlumdur. Bu «görünməz əllər» özü gələcək inkişafın təkan nöqtəsini tapır. Doğrusu, bazar iqtisadiyyatı sisteminin imkanları informasiya bazası üzərində qurulan iqtisadi strategiya olmadan reallaşa bilməz. Məşhur rus iqtisadçısı V.Leontyevə görə, bazar və sahibkarlıq iqtisadiyyatın «yelkənidir» və məqsədli

idarəetmə, sınaqdan keçirmə və səhvləri aşkaretmə metodları olmadan inkişaf istiqamətlərinin trayektoriyasını müəyyənləşdirmək çox vaxt tələb edən məsələdir [3].

Ölkədə iqtisadi, bütövlükdə milli təhlükəsizliklə bağlı dövlətin həyata keçirdiyi strategiyanın əsasını təhlükə qorxusunu minimuma endirə biləcək strateji prioritetləri, ölkənin maraqlarını nəzərə alacaq inkişaf ideologiyası (yəni iqtisadi, fəlsəfi, sosial, informatika, hüquq politologiya və geosiyasət və s. bağlı elmi baxışlar sistemi, elmi dünyagörüş) təşkil etməlidir. Belə ki, bazarın özünün gücü ilə ölkəni inkişaf yoluna çıxarmaq mümkün deyilsə, o zaman bazar şəraitinin geniş və dərin təhlili əsasında istehsalın artırılmasının bazası müəyyənləşdirilməlidir. Müasir ideologiya olmadan, sənaye və elmi-texniki yüksəlişi təmin etmədən, ona şəraiti yaratmadan büdcə gəlirlərini artırmaq, əhalinin məşğulluq səviyyəsini təmin etmək, əhalinin həyat keyfiyyətini və sosial müdafiəsinin səviyyəsini yüksəltmək kimi iqtisadi təhlükəsizlik məsələlərini həll etmək mümkün deyil.

Respublikada iqtisadi inkişafın yeniləşməsi, həm istehlak, həm də investisiya sektorunda ödəməqabiliyyətli tələbin bərpa olunmasını tələb edir. Belə ki, hərbiləşdirilmiş və inhisarlaşdırılmış iqtisadiyyat şəraitində aşağı ödəmə qabiliyyətli tələb müxtəlif istehsal növlərinin sıradan çıxmasına, səbəb olur. Belə şəraitdə istehsalın əmtəə və xidmətlərin təklifinin azalması şəraitində həddindən artıq yüksək ödəməqabiliyyətli tələb qiymətlərin artmasına səbəb olur, pul emissiyasına «təsiri» artırır (yaradır) və inflyasiyanın güclənməsinə təkan vermiş olur.

Respublikamızda ödəməqabiliyyətli tələbin genişləndirilməsi istiqamətində siyasətin aparılması zamanı bu və ya digər əhali qruplarının ödəməqabiliyyətində, alıcılıq qabiliyyətindəki dərin fərqlər nəzərə alınmalıdır. Belə ki yüksək qiymətli əmtəələrlə yanaşı, orta və aşağı qiymətli əmtəələr də vardır. Bu cür siyasətin mühüm elementi – bir tərəfdən əmtəə və maddi nemətlərə, digər tərəfdən də maliyyə-kredit xidmətlərinə olan tələbin müəyyənləşdirilməsidir.

Respublikada əhalinin ödəməqabiliyyətli tələbinin optimal strukturu, istehlak və fond bazarlarının bütün seqmentlərinin inkişafı istehlak xərclərinin azaldılmasına və qiymət qalxmanın zəiflədilməsinə imkan yaradır. Qiymətli kağızlara olan tələbin fəallaşması sürətlə varlanmaq, zəngin olmaq illüziyası yaradır. Bu ayrı-ayrı vətəndaşlar üçün mümkündür, lakin onların əksəriyyəti və bəzi sosial qruplar üçün qeyri-mümkündür. Belə ki, qiymətli kağızlara olan tələbin dəyişdirilməsi maliyyə-kredit təşkilatlarının, həmçinin dövlətin öz vəzifələrinin icrasına ciddi yanaşmaları şəraitində mümkündür. Belə ki, əhali üçün milli valyuta kursunun dəyişməsinin əvvəlcədən müəyyənləşməsi lazımdır. Qiymətli kağızlar bazarı onun iştirakçıları üçün «şəffaf» olmalı, əhali üçün isə bu bazarın stabillik qeyri-stabillik sərhədləri, həddi aydın göstərilməlidir.

Respublikada məcmu tələbin genişlənməsi investisiya siyasətinin fəallaşdırılmasını tələb edir və bu məsələnin həll olunmasında dövlət xüsusi rol oynayır. O, amortizasiya ayırmalarına kapital qoyuluşuna müsbət təsir yaradaraq tədarük sistemi vasitəsilə sabit fəaliyyət şəraitini yaradır.

Qeyd etmək lazımdır ki, dövlət investisiya layihələrində iştirakı barədə qərar qəbul edərsə, bu, yerli və xarici investorlar üçün əsas təminatdır. Belə ki, kapital qoyuluşuna tələbatın yeniləşməsi və genişlənməsi ilə bağlı meydana çıxan çətinliklər dövlət qiymətli kağızlarına , kapital qoyuluşlarına gəlirliyin real iqtisadi sektorun rentabellik norması ilə müqayisədə həddindən artıq artmasıdır. Bu isə alver xarakterli sövdələşmələrin gəlirliliyini azaltmayınca iqtisadi inkişafın yeniləşməsinə şərait yaratmaq və kapital qoyuluşlarına stimul, yaratmaq mümkün olmur [4].

Ölkədə pul kütləsinin idarə olunması – ödəməqabiliyyətli tələbin və inflyasiyanın tənzimlənməsinin, idarə olunmasının ən sadə yoludur. Bu çox sərt üsuldur və iqtisadiyyata sərt inzibati təsir üsulunu xatırladır. Bu isə daha mürəkkəb və çoxamilli üsullarla inflyasiyanın qarşısının alınmasının istehsal xərclərinin və qiymətlərin stabilləşməsinə səbəb olur. İnamla demək olar ki, pul emissiyasının sərt tənzimlənməsi, büdcə kəsirinin azaldılması yolu ilə qiymətləri stabilləşdirmək mümkün deyildir. Qiymətlərin liberallaşdırılmasından sonra nə qədər çox vaxt keçərsə, bir o qədər tam aydın olar ki, istehsal xərclərinin və tədavülün stabilləşməsi, həmçinin əmək məhsuldarlığının yüksəldilməsi olmadan qiymətlərin stabilləşməsi mümkün deyildir. Eyni zamanda qiymətlərin sərbəstləşdirilməsi vasitəsilə bu problemi həll etmək olmaz. Burada rəqabətin inkişafı üçün şəraitin yaradılması istiqamətində bütöv tədbirlər sistemi aşağıdakıları tələb edir:

- Ölkənin ümumi mövqeyindən irəli gələn struktur siyasətinin və milli iqtisadiyyatın prioritetlərinin formalaşması;
- Ölkədə orta və kiçik müəssisələrin sayının artırılması;

Ölkədə iqtisadi təhlükəsizliyin təmin olunmasında aşağıdakı şərtlər nəzərə alınmalıdır:

1. Ölkədə yaxın və uzaq perspektivdə dövlətə iqtisadi təhlükə yarada biləcək faktorların müəyyən edilərək qiymətləndirilməsi, həmçinin ölkənin iqtisadi təhlükəsizliyinin kriteriya və parametrlərinin müəyyən olunması;

2. Respublikada sosial və iqtisadi sabitliyin, milli iqtisadiyyatdakı dayanıqlığın pozulmasına təhlükə yaradan amillərin aradan qaldırılması üçün, yeniliklərin mütəmadi olaraq nəzərə alındığı tədbirlər həyata keçirilməlidir;

3. Sahibkarlıqda iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün, işdə partnyorların düzgün seçilməsi, maliyyə resurslarının mövcud plana uyğun olaraq düzgün idarə edilməsi, kommersiya sirrinin qorunması, marketinq fəaliyyətinin düzgün qurulması nəticəsində firmanın bazardakı mövqeyinin qorunub saxlanması olduqca vacibdir.

**Ədəbiyyat**


1. Məmmədov N., Bərxudarov M. İqtisadi təhlükəsizlik. Ali məktəblər üçün dərslik. Bakı: İqtisad Universiteti, 2006, 452 s.

2. Фомичев В.И. Международная. ИНФРА, М.: 2001, стр.44

3. Леонтьев В. Экономические эссе. М.: Политиздат, 1990, 415 с.

4. Кулиев Р.А. Инвестиционные проблемы в условиях рыночных трансформаций экономики Азербайджана. Баку: Елм, 2004, 318 с.



**Резюме**

***Панахалиева М.О.***

**Показатели экономической безопасности**

*В статье нашли свое отражение показатели экономической безопасности государства, а также внутренние и внешние факторы, которые могут создать опасность в стране и выражение русских и свронени ученых о экономической безопасности государства.*

***Ключевые слова:*** *опасные факторы, экономическая безопасность, качество жизни, уровень цен*

**Summary**

***Panahaliyeva M.O.***

**ECONOMIC SAFETY INDICATORS**

*The article states the economic security of the state indicators are given domestic, that can pose a threat to the country and external factors have been clarified and the views of Russian and European scholars on economic security have been reflected.*

***Key words:*** *economic security, dangerous factors, quality of life, price hike*


## MİLLİ İQTİSADİYYATIN İNNOVATİV İNKİŞAFININ TƏMİN EDİLMƏSİ DAVAMLI İNKİŞAF KONSEPSİYASINA KEÇİDİN HƏLLEDİCİ AMİLİDİR


***Pənahova G.M.***

*Azərbaycan Dövlət İqtisad Universitet*



**Xülasə**

*Məqalədə milli iqtisadiyyatın innovativ inkişafının təmin edilməsi davamlı inkişaf konsepsiyasına keçidin həlledici amili olaraq təhlil edilmişdir. Burada davamlı inkişaf konsepsiyası son strateji məqsəd kimi elmi – texniki tərəqqinin geniş tətbiqi əsasında gələcək nəsillərin tərəqqi imkanlarının reallaşdırılması üçün tələb olunan potensial resursların səmərəli və optimal nisbətdə hərəkətə gətirilməsi kimi qiymətləndirilib. Strateji yol xəritəsində innovativ, xüsusən insan kapitalının inkişafının təmin edilməsi gələcək inkişafımızın həlledici və tükənməz bir mənbəyi kimi əsaslandırılması məsələləri işıqlandırılmışdır.*



***Açar sözlər:*** *innovativ inkişaf, davamlı inkişaf, strateji yol xəritəsi, milli innovasiya sistemi, iqtisadi artımın keyfiyyəti, davamlı inkişaf ehtiyatları*


Son 10 illikdə Azərbaycanda kifayət qədər güclü iqtisadi, sosial, elmi-texniki, kadr, maliyyə potensialı, institusional baza yaradılmışdır ki, o da ölkəmizə davamlı inkişaf modelinə kecidi əməli bir problem kimi qarşıya qoymağa imkan vermişdir. Məlumdur ki, davamlı inkişaf konsepsiyası hər şeydən əvvəl cəmiyyətin və iqtisadiyyatın cari tələbatlarının mümkün qədər yaxşı ödəməklə yanaşı gələcəkdə bu imkanların məhdudlaşmamasını və davamlı olmasını tələb edir. Məlumdur ki, hər ölkənin təbii, iqtisadi, insani resursları nə qədər cox olsa da, onların həcmi məhduddur. Bu baxımdan gələcəkdə milli iqtisadiyyatın davamlı inkişafını təmin etmək ücün resursların hər vahidindən daha cox nəticə əldə etməyə innovativ inkişafa keçidi tələb edir.

Məlumdur ki, Azərbaycan müstəqil dövlətə çevrildikdən sonra özünün bütün yeraltı, yerüstü və təbii sərvətlərinin və insan potensialının şəriksiz sahibinə çevrildi. Belə bir şəraitdə çağdaş və gələcək nəsillərin maraqları naminə ölkənin malik olduğu bütün resurslardan səmərəli istifadə edərək onların hər vahidi hesabına maksimum son nəticə əldə etməklə davamlı inkişafa nail olunması ölkəmizdə yaxın gələcək üçün

müəyyənləşdirilən iqtisadi strategiyanın ana xəttini təşkil etməlidir. Davamlı inkişaf konsepsiyası son strateji məqsəd kimi elmi – texniki tərəqqinin geniş tətbiqi əsasında gələcək nəsillərin tərəqqi imkanlarının reallaşdırılması üçün tələb olunan potensial resursların səmərəli və optimal nisbətdə hərəkətə gətirilməsini nəzərdə tutur. Qeyd etmək lazımdır ki, müasir dövrdə qloballaşma prosesləri iqtisadi, siyasi, texnoloji. informasiya və s. vasitələrlə inkişaf etməkdə olan Milli iqtisadiyyatların formalaşması və inkişafı xarakterinə müəyyən təhlükələr törədə bilər.

Məlumdur ki, hər hansı bir konkret dövrdə iqtisadi inkişafın xarakteri və cəmiyyətdə prioritet tələblər dəyişdiyinə görə resurslara olan tələbat dəyişir ki, belə bir şəraitdə də müvafiq olaraq iqtisadiyyatda yeni proporsiyalar formalaşır və iqtisadi artımı təmin edən amillərin nisbəti dəyişir. Qloballaşma şəraitində davamlı inkişafın təmin edilməsinin nəzəri və praktiki probleminin təhlili göstərir ki, qloballaşan dünyada hər bir ölkə bu məqsədə çatmaq üçün hər şeydən əvvəl dörd problemi həll etməlidir. Birincisi, son onillikdə dünya iqtisadiyyatının inkişafı nəticəsində ekoloji böhran, başqa sözlə təbiətlə cəmiyyətin qarşıdurması elə bir həddə gəlib çatmışdır ki, bu problemə biganə münasibət bəşəriyyətin özünün mövcudluğunu şübhə altına ala bilər. İkincisi, beynəlxalq miqyasda davamlı inkişafın təmin edilməsinin mühüm istiqaməti davamlı insan inkişafının təmin edilməsi ilə bağlıdır ki, bu isə özünə hər şeydən əvvəl səhiyyə, təhsil, bütünlükdə insan inkişafını xarakterizə edən problemlərin həllini tələb edir.

Üçüncüsü, dünya miqyasında davamlı inkişafın təmin edilməsinin digər mühüm istiqaməti sistemin böhranına düçar olmuş ölkələrdə yaranan gərgin demoqrafik proseslərlə şərtlənir.Dördüncüsü, ayrı-ayrı ölkələr üzrə davamlı inkişafı təmin edən amil və şərtlərin sistemli təhlili göstərir ki, onun təmin edilməsinin mühüm əsası iqtisadi problemlərlə bağlıdr. Çünki, son nəticədə ekoloji, sosial və istərsə də demoqrafik problemlərin həlli imkanları həlledici dərəcədə iqtisadi inkişafın potensialı səviyyəsi və xarakterindən asılı olur.

Dünya təcrübəsi göstəriri ki, davamlı inkişaf modelinə kecidi təmin etmək ücün hökmən hər bir ölkədə davamlı inkişafın müvafiq kapital ehtiyatlarının yaradılmasını tələb edir. Bu ehtiyatlara hər şeydən əvvəl ölkədə milli iqtisadiyyatın davamlı inkişafını təmin etmək ücün dünya standartlarını və milli reallıqları, habelə dəyişən şəraiti və tələbi nəzərə alaraq insan kapitalının inkişaf etdirilməsini, müvafiq social kapitalın yaradılmasını, habelə ətraf mühit kapitalının yaradılmasını, habelə bütün bu mövcud kapitalların formalaşması, inkişafı və davamlı inkişaf baxımından səmərəli inkişafını təmin etmək ücün müvafiq normativ-hüquqi qanunvericilik və institusional bazasının yaradılmasını tələb edir. Azərbaycanda innovativ inkişaf əsasında davamlı inkişaf modelinə kecidi təmin etmək ücün ölkə prezidentinin 16 mart və 6 dekabr 2016-cı il tarixli sərəncamı ilə "Milli iqtisadiyyatın 11 sektoru üzrə strateji yol xəritəsi" təsdiq edilmişdir.

Strateji yol xəritəsində innovativ, xüsusən insan kapitalının inkişafının təmin edilməsi gələcək inkişafımızın həlledici və tükənməz bir mənbəyi kimi əsaslandırılmışdır. Innovativ inkişaf cəmiyyətin bütün sahə və sferalarını əhatə etməklə onların qabaqcıl texnologiyaların tətbiqinə əsaslanmasını, iqtisadiyyatın strukturunun dünyada baş verən mütərəqqi meyllərə uygun təkmilləşdirilməsini, iqtisadi artımın keyfiyyətinin yaxşılaşdırılmasını, iqtisadiyyata qoyulan investisiyaların innovasiya xarakterinin kəskin gücləndirilməsini, milli innovasiya sisteminin yaradılmasını, iqtisadiyyatın diversifikasiyasının təmin edilməsini və bütünlükdə innovasiyalı artım əsasında ölkəmizin qlobal dəyər zəncirində fəal iştirakını tələb edir. Əlbəttə, milli iqtisadiyyatın innovativ inkişafını təmin edərkən hökmən iqtisadiyyatın səmərəliliyi ilə yanaşı onun rəqabətqabiliyyətliliyinin artırılmasını tələb edir.

Ümumən, innovativ inkişafa kecid öz növbəsində ölkəmizdə müvafiq əlverişli investisiya, innovasiya, biznes mühitinin yaxşılaşdırılmasını tələb edir.

Məlumdur ki, hər hansı bir iqtisadi artım heç də bütün hallarda davamlı inkişafa gətirib çıxarmır. Bu baxımdan hər hansı bir ölkədə davamlı inkişaf probleminin xarakterizə edilməsi «artım» və «inkişaf» anlayışlarının qarşılıqlı əlaqəsinin mövcud reallıqlar prizmasından dəyərləndirilməsini tələb edir.. Belə ki, «artım» dedikdə adətən, ÜDM-in müəyyən dövr ərzində kəmiyyətcə artım tempi nəzərdə tutulur. Bundan fərqli olaraq «inkişaf» mövcud potensialın sosial-iqtisadi səmərəliliklə müşahidə olunan keyfiyyət artımına əsaslanır. Onu da xüsusi qeyd etmək lazımdır ki, transformasiya şəraitində milli iqtisadiyyatın kəmiyyət artımı və keyfiyyət inkişafı fərqli iqtisadi qanunlara, mühitə əsaslanmaqla davamlı inkişafın təmin edilməsi baxımından fərqli nəticələrə də gətirib çıxarır.

Milli iqtisadiyyatın innovativ inkişaf əsasında davamlı inkişaf modelinə kecidi təmin etmək üçün aşagıdakı prinsipial müddəaları qətiyyən nəzərdən qacırmaq olmaz. Belə ki, milli iqtisadiyyatın özünü təşkil, özünü idarə etmək, özünü təkmilləşdirmək və nəhayət, özə öz inkişafını təmin etmək qabiliyyətinə malik olması başa düşülməlidir. Milli iqtisadiyyatın inkişafı ölkədə bütün iqtisadi proseslərin təkrar istehsalın səmərəliliyi prinsipindən qiymətləndirilməsini tələb edir. Davamlı inkişaf anlayışı milli iqtisadiyyatın elə inkişafını nəzərdə tutur ki, onun sayəsində müasir tələbatı ödəyərkən gələcək nəsillərin bu tələbatı daha yaxşı ödəmək qabiliyyətini şübhə altına almasını məhdudlaşdırmasın.

Belə yanaşma iki prinsipial müddəaya əsaslanır:

-Tələbatlar anlayışı (bu prioritet bir istiqamət kimi irəli sürülür)

-Məhdudiyyətlər anlayışı. Texnologiyanın mövcud vəziyyəti və cəmiyyətin təşkili ilə şərtlənir, müasir və gələcək tələbatları ödəyərkən ətraf mühiti formalaşdıran məhdudiyyətlərə əsaslanır. Davamlı inkişafa iqtisadi səpkidən yanaşdıqda aşağıdakı cəhətləri xüsusi qeyd etmək lazımdır.

- İnkişaf gələcək nəsillərin üzərinə əlavə xərc yükləməyən inkişaf yoludur. (borc kredit və s.)

- İnkişaf nəsillər arasında xarici səmərəni minimuma endirir.

- İnkişaf perspektiv dövrə tətbiqən istehsal potensialının geniş təkrar istehsalını təmin edir.

- İnkişaf kapitaldan elə bir formada istifadəni nəzərdə tuturki, kapitalın öz nizamnamə məbləğinə toxunmadan sosial-iqtisadi inkişaf təbii kapitaldan əldə olunan faiz hesabına təmin olunur.

Məlumdur ki, hər bir ölkə obyektiv və subyektiv amillərlə şərtlənən iqtisadi davamlılıq potensialına malik olur. Bu potensial özünə aşağıdakıları daxil edir: milli iqtisadiyyatın resurs və ehtiyatlarını; iqtisadi fəaliyyətin səmərəliliyini; təsərrüfatın idarə olunmasının institusional quruluşunu; xarici konyukturanın dəyişməsinə müvafiq reaksiya vermək qabiliyyətini; beynəlxalq maliyyə, siyasi təşkilatlarda iştirakı dərəcəsini və s. Əlbəttə, davamlılıq potensialı ümumən inkişaf etmiş ölkənin malik olduğu mütləq üstünlüklərlə müəyyənləşsə də düzgün, optimal, çevik iqtisadi siyasət, və onun reallaşdırılması prosesində qlobal, regional, milli maraqları uzlaşdırmaq cari və perspektiv məqsədləri həllinin optimal mərhələləyinin gözləməklə onun imkanlarını artırmaq olar. Bu baxımdan transformasiya şəraitində mövcud imkanlar daxilində hərəkətə gətirilə bilən potensial resursların elə bölgüsü optimal hesab edilməlidir ki, onlar bir tərəfdən cəmiyyətin bu günki sosial-iqtisadi tələbatını yaxşı ödəməyə imkan versin, digər tərəfdən isə bu tələbatların perspektivdə daha yaxşı ödənilməsinin maddi əsaslarını aradan qaldırmasın.

Ümumən, təhlil göstərir ki, ölkəmizdə innovativ inkişaf əsasında davamlı inkişafa kecidin təmin edilməsi strateji yol xəritəsinin pinsipial müddəalarına, məqsədlərinə və hədəflərinə əsaslanaraq yaxın gələcəkdə ölkəmizin 5 prioritet inkişaf istiqaməti üzrə həyata kecirilməsi:birincisi; insan kapitalının inkişafına nail olmaq ücün innovasiya yönümlü **investisiya** siyasətinin formalaşdırılması və reallaşdırılması; ikinci, perspektiv dövrə tətbiqən ölkəmizdə davamlı sosial-iqtisadi inkişafı təmin etmək üçün müvafiq müvafiq innovativ **infrastrukturun** yaradılması; ücüncü, Azərbaycan iqtisadiyyatının innovativ inkişafı əsasında milli iqtisadiyyatının rəqabət qabiliyyətliliyinin və səmərəliliyini təmin etmək üçün dünya meyarlarına cavab verən milli **innovasiya** sisteminin formalaşdırılması; dördüncü, innovativ inkişaf əsasında milli iqtisadiyyatın davamlı və dinamik inkişafını təmin etmək üçün ölkənin ümumi daxili məhsulda **intellektual kapitalın** xüsusi çəkisinin kəskin artırılmasını; beşinci, müasir dövrdə bazarın dəyişən şəraitə və tələbinə uyğun olaraq innovtiv inkişafı təmin etmək üçün zəruri **institusional** dəyişikliklərin aparılmasını tələb edir.

Ümumən, "təhsil-tədqiqat-innovasiya" vəhdətinin təmin edilməsi əsasında insan kapitalının inkişaf etdirilməsi ilə bağlı strategiyanın işlənib hazırlanması və qəbulu onun real inkişafının təmin edilməsinin ilkin şərtidir. Əsas problem bu strategiyanın reallaşma mexanizminin ölkəmizin mövcud iqtisadi reallıqlarına və nə dərəcədə mütərəqqi dünya təcrübəsinə uyğun olması ilə şərtlənir. Bu baxımdan insan inkişafı ilə bağlı olan qanunlar, qanunvericilik aktları kifayət qədər güclü intellektual yükə malik olmaqla, cari, perspektiv məqsəd və vəzifələrin həlli imkanlarını nəzərə almalıdır.

Fikrimizcə, yuxarıda qeyd olunan prioritet istiqamətlər əsasında Azərbaycan iqtisadiyyatının innovativ inkişafı yaxın gələcəkdə ölkəmizin davamlı inkişaf modelinə əməli cəhətdən keçidinə imkan verəcəkdir.


**Резюме**

***Панахова Г.М.***

**Обеспечения инновационного развития национальной экономики как решающего фактора концепции перехода к устойчивому развитию**

*В статье обеспечения инновационного развития национальной экономики проанализирован как решающий фактор концепции перехода устойчивому развитию.*

***Ключевые слова:*** *инновационное развитие, устойчивое развитие, стратегическая дорожная карта, национальная инновационная система, экономический рост, качество, ресурсы устойчивого развития*

**Summary**

***Panahova G.M.***

**To ensure Innovative Development of the National Economy as a Decisive Factor of the Concept of Transition to Sustainable Development**

*The article national economy, innovative development, sustainable development, the concept kecidin a decisive factor in the analysis. Here the concept of sustainable development strategic objective technical and scientific progress on the basis of the wide use of future generations, the progress of the opportunities for the*

*implementation of the required potential resources, the effective and optimum proportions of actuation rated as. A strategic way on the map of innovation, in particular, human capital development and the future development of the decisive and inexhaustible one source as justification issues are covered.*

***Key words:*** *innovative development, sustainable development, strategic roadmap of national innovation system, economic growth, quality, sustainable development, resources*

## İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİNİN NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI

***Piriyeva N.R., Qəmbərova X.N.***
*Sumqayıt Dövlət Texniki Kolleci*

***Xülasə***

*İqtisadi təhlükəsizlik anlayışı strateji əhəmiyyətli kateqoriya kimi müasir cəmiyyətin ictimai və siyasi həyatının mühüm və ayrılmaz tərkib elementini təşkil edir. Eyni zamanda bu kateqoriya dövlətlərin daxili və xarici siyasətinin prioritet istiqamətinə çevrilmişdir. Bu baxımdan respublikamızın milli təhlükəsizlik strategiyalarının əsas elementini iqtisadi təhlükəsizliyin təmin edilməsi təşkil edir.*

***Açar sözlər:*** *iqtisadi təhlükəsizlik, iqtisadi inkişaf, sosial tələbat*

İqtisadi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsi olmaqla yanaşı, ölkənin iqtisadi müstəqilliyini təmin edir. Belə ki, "iqtisadi təhlükəsizlik" termini leksikonmuza müstəqillik əldə etdikdən sonra daxil olmuşdur. İqtisadi təhlükəsizlik problemi cəmiyyətin inkişafının tarixi dönəmlərində mərhələli şəkildə təzahür etmişdir. Ümumiyyətlə, iqtisadi təhlükəsizlik problemi bütün dövrlərdə daxili və xarici şəraitin təsiri altında formalaşır. Bu baxımdan hər bir dövlətin müstəqilliyi, mövcud ictimai-siyasi, sosial-iqtisadi şəraiti və onun xüsusiyyətləri iqtisadi təhlükəsizlik probleminin spesifik mahiyyətini şərtləndirir.

Dünya təcrübəsi göstərir ki, iqtisadi təhlükəsizlik səviyyə baxımından beynəlxalq (qlobal və regional), milli, lokal (regional və ya iqtisadiyyatın sahə quruluşu üzrə) və xüsusi aspektdə (firma və şəxsi) olmaqla təsnif edilir. Beynəlxalq iqtisadi təhlükəsizlik dövlətlərarası razılaşmalar sistemini özündə əks etdirərək dünya birliyinə üzv olan hər bir dövlətə öz sosial-iqtisadi inkişaf strategiyasını seçmək və həyata keçirmək imkanı qazandırır.

Yuxarıda qeyd etdiyimiz kimi, milli təhlükəsizlik anlayışı iqtisadi təhlükəsizlik anlayışından daha geniş mənaya malik olmaqla yanaşı, özündə hərbi, ekoloji, informasiya, energetika və s. kimi təhlükəsizlik komponentlərini birləşdirir. Yalnız təhlükəsizlik sisteminin səmərəli qurulması üçün onun iqtisadi aspektləri olmadan keçinmək və bu prosesi təmin etmək mümkün deyildir.

İnkişaf etmiş dünya ölkələrinin təcrübəsi göstərir ki, iqtisadi təhlükəsizlik anlayışını xarakterizə etməzdən əvvəl onun mühüm komponentləri olan milli-dövlət maraqları və iqtisadi məqsədlər üzərində dayanmaq zəruridir. Təbii ki, bu maraqlar ölkənin sərhədləri çərçivəsində mövcud olaraq fəaliyyət göstərir. Ölkənin milli-dövlət maraqları ilk növbədə dövlətin suverenliyini və müstəqil inkişafını beynəlxalq mövqeyini, beynəlxalq ticarətdə, beynəlxalq maliyyə və bank sistemində, qiymətli kağızlar bazarında və s. yerini özündə əks etdirir. Həqiqətən, də milli iqtisadiyyatın ən mühüm keyfiyyət parametrlərindən biri də dayanıqlılıqdır. Belə ki, dayanıqlı iqtisadiyyatın formalaşması əhalinin sosial ehtiyaclarını ödəmək, bütün sahələrdə təkrar istehsalı təmin etmək imkanı verir.

Amma iqtisadi təhlükəsizliyin təmin edilməsini yalnız dayanıqlılıq faktoru ilə əlaqələndirmək yalnış fikir olardı. Dayanıqlılıq iqtisadi təhlükəsizlik sisteminin çox önəmli bir elementini təşkil etsə də, digər vasitələrin təsirini unutmaq olmaz. Belə ki, inkişafa nail olmadan, iqtisadi artımı təmin etmədən təhlükəsiz iqtisadiyyat formalaşdırmaq mümkün deyildir.

İqtisadi təhlükəsizlik anlayışına dünya təcrübəsində akademik L.İ.Abalkinin və rus iqtisadçı V.K.Sençaqovun baxışları mühüm əhəmiyyət kəsb edir. İqtisadi təhlükəsizliyin təmin edilməsinin konkret vasitələri və mexanizmlərini müəyyənləşdirərkən, ilk növbədə, nəzərə almaq lazımdır ki, ölkənin iqtisadi maraqlarına təhlükə törədən daxili və xarici mənbədən olan bəzi tendensiyalar mövcuddur. Bütün bunlar qarşısının alınması üçün uzunmüddətli tədbirləri özündə əks etdirən iqtisadi siyasət həyata keçirilməlidir. İqtisadi təhlükəsizliyə daxili və xarici mənbədən olan təhlükənin neytrallaşdırılmasına yönələn iqtisadi siyasətin müvəffəqiyyəti, ilk növbədə, dövlət hakimiyyətinin möhkəmləndirilməsindən, güclü cəmiyyətin və iqtisadiyyatın formalaşmasından əhəmiyyətli dərəcədə asılıdır.

Müasir şəraitdə, xüsusilə qloballaşma proseslərinin təsirinin güclənməsi iqtisadi təhlükəsizliyin, cəmiyyətin və dövlətin ictimai-siyasi həyatındakı rolunu davamlı olaraq artırır. Belə ki, hər bir ölkənin milli iqtisadiyyatının təhlükəsiz fəaliyyət göstərməsi üçün dövlət tərəfindən zəruri tədbirlər sisteminin həyata keçirilməsi tələb edilir.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər yuxarıda qeyd etdiyimiz kimi, ilk növbədə strateji milli maraqların müdafiəsinə xidmət edir və aşağıdakı istiqamətləri özündə əks etdirir[1]:

- davamlı iqtisadi artımın təmin edilməsi;
- milli iqtisadiyyatın, o cümlədən sahələr üzrə məhsul istehsalının rəqabət qabiliyyətinin yüksəldilməsi;
- əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, etibarlı məşğulluğun təmin edilməsi, əhalinin gəlirlərinin artırılması.

Xalq təsərrüfatının sahə strukturu baxımından iqtisadi təhlükəsizliyin formalarını aşağıdakı kimi təsnif etmək olar:

- maliyyə, investisiya təhlükəsizliyi;
- enerji təhlükəsizliyi;
- ərzaq təhlükəsizliyi.

Deməli, milli iqtisadiyyatın formalaşması, onun təhlükəsizliyinin tənzimlənməsi istiqamətləri- bir-birini tamamlayan iqtisadi siyasət və iqtisadi təhlükəsizlik, vahid ayrılmaz sistemə malikdir.

İqtisadi təhlükəsizlik Qərb ölkələrinə nisbətən ölkəmizdə yeni anlayış hesab edilir. İqtisadi təhlükəsizlik, tənzimləmənin obyekti kimi aşağıdakı üç istiqamətdə həyata keçirilir: 1. Beynəlxalq iqtisadi təhlükəsizlik; 2. Milli iqtisadi təhlükəsizlik; 3. Xüsusi iqtisadi təhlükəsizlik.

İqtisadi təhlükəsizliyin subyektləri qanunvericilik, icraedici, məhkəmə qanunları, vergi, gömrük xidmətləri, milli məclisin müvafiq komissiyaları, banklar, birjalar, sığorta və pensiya kompaniyaları, ictimai istehlakçılar təşkil edirlər və bütün hallarda iqtisadi təhlükəsizliyin tənzimləyicisi dövlət hesab edilir.

Beləliklə, iqtisadi təhlükəsizlik şəraitində ölkə öz suveren inkişaf yolu ilə sosial-iqtisadi qüdrətini getdikcə daha da möhkəmləndirmiş olur.

Hər bir ölkə üzrə iqtisadi təhlükəsizliyin qiymətləndirilməsi üçün dünya təcrübəsində bir çox metodlardan istifadə edilir. Daha geniş yayılmış metodlar isə aşağıdakılardır[2]:

1. Ekspert qiymətləndirilmə metodları.
2. Statistik təhlil metodları.
3. Nəzəri oyun metodları.
4. Qeyri-dəqiq sistem nəzəriyyəsi metodları.

Aparılan araşdırmalar nəticəsində müəyyən etdik ki, iqtisadi təhlükəsizlik sisteminə; İqtisadi təhlükəsizlik konsepsiyası; İqtisadi təhlükəsizliyin təşkili, İqtisadi təhlükəsizliyin hüquqi təminatı; İqtisadiyyat sferasında təhdidlər; İqtisadi təhlükəsizlik indikatorları və İqtisadi təhlükəsizliyin astana kəmiyyətləri daxildir.

İqtisadi təhlükəsizlik anlayışı ümumi olmaqla yanaşı, həm də geniş məfhumdur. Ona görə də beynəlxalq və regional iqtisadi təhlükəsizliyi, milli iqtisadi təhlükəsizliyi, habelə ölkə daxilində müəssisələrin və fərdlərin iqtisadi təhlükəsizliyini bir- birindən fərqləndirmək lazımdır.

Fikrimizcə, iqtisadi təhlükəsizlik ölkənin iqtisadi sahədə strateji əhəmiyyətli milli maraqlarının qorunması, iqtisadiyyatın daxili və xarici mənbələrdən olan təhlükələri neytrallaşdırmaq, istehsalın rəqabət qabiliyyətini yüksəltmək və davamlı, geniş, təkrar istehsalı təmin etmək, daxili bazarın xarici rəqabətini bəzi təzahürlərdən səmərəli şəkildə müdafiə etmək kimi xarakterizə edilməlidir. Aparılan təhlillər nəticəsində qeyd edə bilərik ki, ölkə üzrə iqtisadi təhlükəsizliyin məqsədi hər şeydən əvvəl dövlətin milli marağını qorumaq olmalıdır.

**Ədəbiyyat**

1. Abbasov A.F. İqtisadi təhlükəsizliyin əsasları. Bakı, 2000, 185 s.
2. Bərxudarov M., Məmmədov N. İqtisadi təhlükəsizlik, Bakı: İqtisad Universiteti nəşriyyatı, 2006, 452 s.

**Резюме**

**Пириева Н.Р., Гамбарова Х.Н.**

**Теоретические и методологические основы обеспечения экономической безопасности**

*Основная цель экономической безопасности является защита национальных интересов. Национальная безопасность рассматривается как поддержание национальной экономики и условий жизни людей. Проведение политики государственной национальной безопасности является трудным и длительным процессом. Национальные государства, национальные интересы и экономические проблемы безопасности широкие функциональные, стабильные и важные процессы, которые завершают друг друга.*

***Ключевые слова:*** *экономическая безопасность, экономическое развитие, социальные требования*

**Summary**

***Piriyeva N.R., Gambarova Kh.N.***

**Theoretical and Methodological Bases of Ensuring Economic Safety**

*The main aim of the economic security is to protect national interest. National security is considered as maintenance of national economy and the people's living conditions. Provision of state national security isa difficult and long process. National state, national interest and economic security problems are wide functional, stable and important processes that complete one another.*

***Key words:****, economic security, economic development, social demand*

## RESPUBLİKADA MAKROİQTİSADİ SABİTLƏŞMƏ PROSESİNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASI YOLLARI

***Rəhimli E.Ş., Vəliyeva R.A.***

*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Məqalədə normal siyasi və iqtisadi şəraitin təmin edilməsi normal investisiya mühitinin yaradılmasının əsas şərtləri, böhran vəziyyətinin yaranması və onun aradan qaldırılması sahəsində iqtisadçı alimlərin fikirləri öz əksini tapmışdır.*

***Açar sözlər:*** iqtisadi təhlükəsizlik, pul axını, böhran, kapital, pul dövriyyəsi

Ölkədə həyata keçirilən qeyri-düzgün makroiqtisadi siyasət nəticəsində iqtisadiyyatda dezinteqrasiya prosesi dərinləşir. Nəticədə, iqtisadi sistem bir-birilə zəif əlaqədə olan iki sahəyə ayrılır.

1) Kapitalın dövriyyəsi sferası. Bura qiymətli kağızlar və valyuta bazarında, həmçinin ticarət sferasında aparılan əməliyyatlar daxildir. Bu sahədə yüksək gəlirlilik səviyyəsi və pulun dövriyyəsi sürətilə xarakterizə olunur ki, burada da dövlət tərəfindən qısamüddətli borc bazarı mühafizə olundüğü üçün, bu sferada risklər o qədər də yüksək olmur.

2) İstehsal sahəsi. Yəni maddi istehsal, məişət xidməti, tibbi xidmət, təhsil, nəqliyyat daşımaları və maddi istehsalla əlaqədar olan digər sahələri əhatə edən «real iqtisadi sektor» başa düşülür. Bu sahə isə birincidən fərqli olaraq, aşağı gəlirlilik və pul dövriyyəsi sürətilə, əməliyyatların yüksək riskli olması ilə seçilir. Belə bir vəziyyət istehsal sferasında təsərrüfat əlaqələrinin xaotikliyi, qırılması, mülkiyyət münasibətlərinin qeyri-müəyyənliyi, tələbin qeyri-sabitliyi, ədalətsiz rəqabət mühitinin və qeyri-əlverişli bazar konyukturunun olması ilə xarakterizə edilir [1].

Qeyd etmək lazımdır ki, böhranlar tələb və təklif arasında getdikcə artan uyğunsuzluqda, milli valyutanın dəyərsizləşməsində, həyat dəyərinin, işsizliyin artmasında və s. özünü göstərə bilər. Belə ki, bütün məşhur iqtisadçılar böhranlar probleminə diqqət ayırmışlar. Con Meykard Keynsin davamçısı olan Oksford Universitetinin alimi R.Xarrod yazırdı: «Bütün bu mühazirələrin əsasında belə bir fikir durur ki, biz gec və ya tez staqnasiya problemi ilə üzləşməliyik və iqtisadçılar məhz bu problemə öz diqqətlərini daha çox yönəltməli olacaqlar» .

Qeyd etmək yerinə düşərdi ki, qeyri-taraz iqtisadi sistemdə isə hər iki sahə bir-birindən ayrılmış, dezinteqrasiya olunmuşlar. Bu sahələrin gəlirlilik və əməliyyatların cəlbediciliyi nöqteyi - nəzərindən bir-birindən kəskin şəkildə uzaqlaşmaları, fərqlənmələri kapitalın istehsal sahəsindən dövriyyə sahəsinə kütləvi və sürətli axınına səbəb olur. Belə vəziyyət istehsal müəssisələrinin ucuz vəsaitlərinin səfərbərliyi əsasında bank sahəsinin inkişafına şərait yaradır. Dövriyyə sferasına cəlb olunmuş bu vəsaitlər daha gəlirli mübadilə, qeyri - müəyyən əməliyyatlara istiqamətlənir. Belə ki, borc bazarında faiz dərəcəsi istehsal sahəsində gəlir normasından dəfələrlə yüksək ola bilir. Buna görə kapitalın axını istehsal sahəsində dövriyyə vəsaitlərinin çatışmazlığına və onların bərpası üzrə xərclərin artmasına, qeyri-ödəmələrdə aktivlərin dondurulmasına və sonda – müəssisənin dağılmasına gətirib çıxarır. Belə proseslərin sürətlənməsi sonda büdcə kəsirinin əsas yaranma səbəbi olur. Belə ki, istehsal sahəsindən dövriyyə sahəsinə kapitalın axını dövlət büdcəsi vasitəsilə də baş verir. Belə ki, istehsal sferasından yığılan vergi gəlirlərini toplayaraq, dövlət onları «qısamüddətli dövlət borcları» piramidasının saxlanması üçün yenidən bölüşdürür, kapitalın dövriyyəsi sferasında sabitliyi təmin etmək üçün kommersiya banklarının hesablarında ehtiyat halında toplayır. İstehsal sahəsindən dövriyyə sahəsinə kapitalın axını dövriyyə sahəsindən pul emissiyasının böyük bir hissəsinin toplanması və bunun bilavasitə tələbin həcminə və inflyasiyanın səviyyəsinə təsir göstərməsilə davam edir. Belə bir vəziyyət milli valyutanın mübadilə kursunun dəfələrlə aşağı düşməsi ilə də güclənir. Sonda yerli məhsullara nisbətən ixrac məhsullarına tələbin artması, «ixraca tələbin yüksəlməsi – xarici valyutaya tələbatın artması –

pul vəsaitlərinin valyuta bazarına axını – milli valyutanın mübadilə kursunun aşağı düşməsi – qiymətlərin artımı» üzrə dövriyyə sahəsinin makroiqtisadi zəncirini bağlayır [2]. Belə ki, milli valyutanın kursunun süni olaraq saxlanılması, tənzimlənməsi kapitalın idxal məhsulları ilə ticarət sahəsinin istehsal sferasından axınına əlavə olaraq güclü təzyiq göstərərək kapital dövriyyəsinin ləngiməsinə səbəb olur. Ölkədə kapitalın dövriyyə sahəsinə axını müəssisələrin vəsaitlərinin azalmasına səbəb olur. Hərgah likvidlik böhranı, milli valyutanın real kursunun artması nəticəsində müəssisələrin maliyyə vəziyyəti çətinləşir.

Ölkədə pul kütləsinin dövriyyə sahəsinə cəlb edilməsi onun təbii olaraq artmasına təsir göstərir ki, bu da sövdələşmə sektorunda yüksək elastik tələbi şərtləndirir. Hərçənd dövriyyəyə əlavə olaraq pul kütləsinin buraxılması, yəni əlavə olaraq emissiya olunmuş pul kütləsi dövriyyə sahəsində tələbi (o cümlədən xarici valyutaya olan tələbi) artıraraq bu sahəyə istiqamətləndirir.

Ölkədə istehsal sahəsində pul vəsaitlərinə tələbin artımı təklifə nisbətən aşağıdır. Ölkədə pul kütləsinin artımından asılı olaraq, qiymətlərin qalxması ilə bağlı hesabatlar istehsal sahəsində pula olan tələbin vəziyyətini praktiki olaraq əks etdirmir. Belə vəziyyət istehsal sahəsində dövriyyə sferasına kapitalın axınna, emissiya göstəricilərindən əks olunmayaraq tələbin artmasına, deməli, dövriyyə sahəsində qiymətlərin qalxmasına əhəmiyyətli təsir göstərir. Bu isə ticarət sferasında əmtəə və xidmətlərin, həmçinin valyuta əməliyyatlarının bahalaşmasına səbəb olur və eyni zamanda kapitalın istehsal sferasından dövriyyə sahəsində bu cür axını pulun dövriyyə sürətini də sürətləndirir.

Belə bir faktı göstərmək lazımdır ki, real pul kütləsinin həcminin azaldılması, əlavə tədbirlər həyata keçirməklə pul emissiyasının məhdudlaşdırılması inflyasiyanın səviyyəsinin əhəmiyyətli dərəcədə aşağı düşməsinə gətirib çıxara bilir. Belə ki, pul kütləsinin həcminin azaldılaraq kapital dövriyyəsi sferasının və əhalinin nəğd pula olan tələblərinə uyğunlaşdırılması ilə makroiqtisadi tənzimləmə vasitəsilə antiinflyasiya məqsədlərinə nail olmağa şərait yaradır.

Ölkədə istehsal sahəsində kapital dövriyyəsi sferasına genişmiqyaslı pul axını nəticəsində sənayedə, real iqtisadi sektorda rentabellik, gəlir səviyyəsinin azalması, zərərlə işləyən qeyri-ödəmə qabiliyyətli müəssisələrin sayının çoxalması, işsizliyin səviyyəsinin artması və əhalinin gəlirlərinin azalması ilə müşahidə olunur.

Respublikanın istehsal sahəsində maliyyə vəziyyətinin pisləşməsi və oradan dövriyyə sferasına kapital axınının imkanlarının tükənməsi bank sektorunda böhranların kəskinləşməsilə daha da güclənir, dərinləşir. Bu prosesin qarşısının tədricən alınması yeni şəraitə uyğunlaşa bilməyən və kapital axını fonunda formalaşmış bankların fəaliyyətini dayandırmalarına gətirib çıxarır.

Respublikamızda istehsal sahəsində pulun dövriyyə sürəti sövdələşmə sahəsində olduğundan iki dəfə aşağıdır, əmtəə istehsalı və dövriyyə sahəsi arasında MDM həcmi bərabər şəkildə paylanırsa, o zaman, demək olar ki, istehsal sferasında pul resurslarına olan tələb bütün pul kütləsi həcminin 85%-ni təşkil edəcək. İstehsal sahəsində pul vəsaitlərinin çatışmazlığı şəraitində müəssisələrdə həyata keçirilən vaxtı ötmüş borclarla aparılan əməliyyatlar bu sahədə pul dövriyyəsinin əsas formasına çevrilir, qeyri - ödəmələrin həcmi isə göndərilmiş məhsulların dəyərini ötüb keçir. Belə halda istehsal sahəsində pul çatışmazlığı müəssisələrin vaxtı keçmiş borcları, müxtəlif təşkilatların veksellləri, həmçinin barter sövdələşmələri ilə əvəz edilməsi məqsədəuyğun hesab edilir [3].

Hal-hazırda ölkədə normal iqtisadi inkişafı təmin edəcək makroiqtisadi siyasət minimum 2 fundamental məqsədə xidmət etməlidir: 1) İstehsal sahəsinin, o cümlədən onun kapital dövriyyəsi sahəsinə pul vəsaitlərinin axınından dağılmaq təhlükəsi qarşısında olan seqmentlərinin inkişafını; 2) İstehsal sahəsi və kapitalın dövriyyəsi sahəsi arasında, eyni zamanda onların daxilində olan maneələri aradan qaldıraraq inteqrasiyanı təmin etmək. Belə məsələlərin həll edilməsi makroiqtisadi siyasətin istənilən metodlarının uğursuzluğa düçar olmasını zərurətə çevirəcək.

**Ədəbiyyat**


1. Məmmədov N., Bərxudarov M. İqtisadi təhlükəsizlik. Ali məktəblər üçün dərslik. Bakı, İqtisad Universiteti, 2006, 452 s.

2. Sençaqov Q. İqtisadi təhlükəsizlik. M., 2010, 310 s.

3. DGK-nın internet saytı


**Резюме**


***Рахимли Е.Ш., Валиева Р.А.***


**Пути обеспечения экономической безопасности и процессе макроэкономической стабилизации в республике**


*В статье нашли свое отражение мысли ученых экономистов создание нормальных политических и экономических условий, обеспечения инвестиционной среды, устранения кризисов.*



***Ключевые слова**: экономической безопасности, денежный поток, кризис, капитал, денежный оборот*

**Summary**

***Rahimli E.Sh, Valieva R.A.***

**Macroeconomic Stabilization Process in the Country on the Path of Economic Security**

*İn the article ordinary political and economic conditions ensuring investment establishment of emironment main terms, the emergence of the crisis and in his address mitigation reflected views of the economists.*

***Key words**: economic security, the flow of money, the crisis, capital, the turnover money*

## MARKETİNQİN İDARƏ EDİLMƏSİNİN TƏŞKİLATİ STRUKTURU

***Rüstəmova G.R.***

*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Marketinqin idarə edilməsi dedikdə məhsul və xidmətlərə tələbin yaradılması və təkrar istehsalının intensivləşdirilməsi, mənfəətin artırılması üzrə tədbirlərin planlaşdırılmasının, təşkilinin, əlaqələndirilməsinin, ona nəzarətin, auditin və stimullaşdırılmasının həyata keçirilməsilə əlaqədar olan idarəetmə fəaliyyəti başa düşülür. Marketinqin idarə edilməsinin əsas vəzifəsi mübadilədə iştirak edən bütün tərəflərin və subyektlərin tələbatının ödənilməsinə və onların rəğbətini qazanmağa nail olmaqdır. Marketinqin idarə edilməsinin təşkilati quruluşu dedikdə bilavasitə bu və ya digər dərəcədə marketinq fəaliyyətilə məşğul olan işçilərin çalışdığı şöbə və bölmələrin məcmusu başa düşülür*

***Açar sözlər:** marketinq, idarəetmə, bazar, seqmentləşdirmə, tələbat, müəssisə*

Marketinqin idarə edilməsi sosial-iqtisadi sistemin bütün səviyyələrində marketinq fəaliyyətinin idarə edilməsinin funksional və institusional mahiyyətini özündə birləşdirir. Marketinqin idarə edilməsinə *funksional yanaşmada* o, hər hansı bir marketinq probleminin təşkili (məsələn, marketinqin planlaşdırılması) və onun həyata keçirilməsi üzrə fəaliyyət kimi izah edilir. *Marketinqin idarə edilməsinə institusional yanaşmada* marketinqin idarə edilməsində rəhbərliyi həyata keçirən menejerlər və ya menejer qrupuna verilmiş hüquq və səlahiyyətlərin, həmçinin vəzifələrin ayrı-ayrı işçilər və işçi qrupları arasında bölüşdürülməsi üzrə idarəetmə vasitəsi kimi baxılır. Müəssisələrdə marketinqin idarə edilməsi iqtisad elmində birmənalı, vacib şərh olunan mövzulardan biridir. Bu sübut edir ki, nə xarici, nə də yerli alimlər və mütəxəssislər arasında marketinq idarəetmə sisteminin qurulmasının və fəaliyyətinin vahid metodikası mövcud deyil. Marketinqin inkişafında müəssisənin prinsipial vacib şərtlərindən biri marketinq idarəetmə konsepsiyasından istifadə etməkdir. Bu problemi F.Kotler "planlaşdırma prosesi və siyasətin həyata keçirilməsi məqsədəuyğunluğu, ideyaların, məhsulların və xidmətlərin irəli sürülməsi və planlaşdırılması, fərdlər və təşkilat arasında mübadilənin həyata keçirilməsi istiqamətində" marketinq idarəetməsi üsullarını müəyyən etməklə həll etmişdir [1].

Bunu marketinq sahəsində çalışan rusiyalı alim E.П. Qolubkov daha dəqiq müəyyən etmişdir. O, müəssisədə marketinqin inkişaf tempindən asılı olaraq, onun istifadə edilməsini 3 səviyyəyə ayırır:

● Birincisi, müəssisənin fəaliyyəti bütövlükdə bazar idarəetmə konsepsiyası kimi marketinqə yönəlib, bu sadəcə marketinq xidmətlərinin yaradılmasını deyil, həm də bütün idarəetmə fəlsəfəsinin dəyişməsini nəzərdə tutur;

● İkincisi, bütövlükdə marketinq "ruhu"nun bütün təşkilatı əhatə etməsinə baxmayaraq, müəssisədə tələbatın öyrənilməsi və konyunkturaya əsaslanaraq marketinq fəaliyyətinin və məhsul istehsalının ayrı-ayrı kompleksləri istifadə olunur;

● Üçüncüsü, müəssisədə marketinqin ayrı-ayrı elementləri (reklam, satış, qiymətqoyma, tələb və s. stimullaşdırılması) nəzərə alınmaqla, yalnız təcrid olunmuş şəkildə həyata keçirilir [2].

Beləliklə, "marketinq idarəetməsi" termininin istifadəsi zamanı söhbət marketinq prinsiplərinə görə təşkilatın bütün fəaliyyətinin idarə edilməsindən gedir. Marketinqin idarə edilməsi marketinq fəaliyyətinin təhlili və planlaşdırılması, planların və ona nəzarətin həyata keçirilməsi ilə yanaşı, bütün növ bazarları əhatə edir. Marketinqin idarə edilməsi prosesi: 1) müəssisənin bazar imkanlarının təhlilini; 2) məqsədli bazarların seçilməsini; 3) marketinq kompleksinin, yəni marketinq-miksin hazırlanmasını; 4) marketinq tədbirlərinin həyata keçirilməsini əhatə edir. Marketinqin idarə edilməsinin fəaliyyət istiqamətləri bunlardır: Təhlil, məqsədli bazarların seçilməsi, marketinq strategiyasının hazırlanması, yeni məhsul və xidmətlərin hazırlanması, yoxlanılması və bazara çıxarılması, bölüşdürmə kanallarının seçilməsi və idarə edilməsi, kommunikasiya proseslərinin idarə edilməsi, marketinq proqramlarının və qərarlarının təşkili, həyata keçirilməsi, qiymətləndirilməsi və ona nəzarət edilməsi. Marketinqin idarə edilməsi müəssisənin marketinq fəaliyyəti sahəsində çalışan bütün işçilərə və bölmələrə uzunmüddətli (strateji) və qısamüddətli (operativ)

idarəetmə tədbirləri kompleksini formalaşdırmağa imkan verir. Bu tədbirlər kompleksi marketinq fəaliyyətinin məqsədinə nail olmasını və bunun sayəsində isə müəssisənin fəaliyyətinin planlaşdırılan nəticələrinə nail olunmasını təmin edir. Marketinqin idarə edilməsi aşağıdakı ardıcıl mərhələlərlə həyata keçirilir:

*Situasiyalı təhlil* prosesində istehlakçıların, rəqiblərin, satış heyətinin və marketinqin ətraf mühitinin digər elementlərinin davranışının strateji və taktiki problemləri təhlil edilir və real bazar situasiyasında müəssisənin güclü və zəif cəhətləri aşkar edilir. *Planlaşdırma* mərhələsi müəssisənin gələcək inkişafında marketinq amillərinin rolunun qiymətləndirilməsini nəzərdə tutur. Başqa sözlə desək, bu mərhələdə bazar münasibətlərinin hansı istiqamətdə inkişaf edəcəyi müəyyənləşdirilir. Marketinqin idarə edilməsinin *strateji marketinq* mərhələsində müəssisənin bütün fəaliyyət sahələrinin, o cümlədən marketinq fəaliyyətinin uzunmüddətli məqsədi və strategiyası hazırlanır. Bu zaman bazar seqmentinin seçilməsinə və onun tutumunun müəyyən edilməsinə xüsusi diqqət yetirilir, marketinq proqramlarının və vasitələrinin hazırlanması məsələlərinə, müəssisənin rəqiblərlə və ticarət təşkilatları ilə iş üsullarına baxılır. Marketinqin *operativ planlaşdırılması* və yaxud operativ marketinq mərhələsində qısamüddətli marketinq məsələləri çərçivəsində ayrı-ayrı məhsullar və ya məhsul çeşidi qrupları üzrə marketinq tədbirləri və marketinq kompleksi hazırlanır, cari marketinq planları tərtib edilir. Marketinqin strategiyasının və tədbirlərinin *realizasiyası* mərhələsində bilavasitə marketinq prosesinin təşkili, idarə edilməsi və strategiyanın həyata keçirilməsi baş verir, ona nəzarət edilir və marketinqin idarə edilməsinin effektliliyi qiymətləndirilir. Marketinqin idarə edilməsi strategiyası və taktikasının hazırlanması vasitəsi kimi marketinq kompleksindən və marketinqin idarə edilməsi subyektlərinin motivasiyası metodlarından istifadə edilir.

Marketinqin təşkilati strukturunun düzgün və bazar situasiyasına uyğun qurulması müəssisənin bazarda rəqabət üstünlüyü əldə etməsini təmin edir. Müəssisənin marketinq fəaliyyətinin idarəetmə strukturu aşağıdakı tələblərə cavab verməlidir:

- marketinq fəaliyyətinin məqsədləri vəhdət təşkil etməlidir;
- marketinq fəaliyyətinin idarə edilməsi strukturu mümkün qədər sadə olmalıdır;
- müəssisənin bölmələri arasında marketinq fəaliyyətinə və müəssisənin digər fəaliyyət sahəsinə aid olan informasiyanın ötürülməsini təmin edən effektli kommunikasiya sistemi mövcud olmalıdır;
- vahid tabeçilik prinsipi mövcud olmalıdır;
- marketinq idarəetmə strukturu mümkün qədər azpilləli olmalıdır.

Marketinqin idarəetmə strukturuna bir sıra amillər təsir edir. Müəssisənin marketinq xidmətinin təşkilati quruluşu konkret olaraq müəssisənin böyüklüyündən və idarəetmə strukturundan, onun istehsal etdiyi məhsulların çeşidinin genişliyindən, fəaliyyət ərazisindən, bazarın tipindən, real bazar situasiyasından, rəhbərliyin biznesə baxışlarından, idarəetmə fəlsəfəsindən və bu kimi digər amillərdən asılı olaraq qurulur. Marketinqin idarə edilməsinin təşkilat strukturu, əsasən, funksional, məhsul, regional, bazar və bunların kombinasiyaları əlamətlərinə görə təşkil olunur. Marketinqin *funksional təşkilati quruluşunda* marketinq fəaliyyətinə aid olan funksiyalar, əməliyyatlar və ya işlər ayrı-ayrı struktur bölmələrinə təhkim olunur (şəkil 1). Marketinqin funksional təşkilat quruluşundan əsasən xırda, məhsul çeşidi və fəaliyyət bazarları məhdud olan müəssisələr istifadə edirlər.




**Şəkil 1 Marketinqin idarə edilməsinin funksional təşkilati strukturu**

Marketinqin bu idarəetmə strukturunun üstünlüyü onun sadəliyi, az xərc tələb etməsi, hər bir icraçının vəzifə öhdəliklərinin və vəzifələrinin dəqiq müəyyənləşdirilməsi imkanı, işçilərin konkret funksiyalar üzrə ixtisaslaşmasıdır. Lakin bu idarəetmə strukturunun bir sıra çatışmazlıqları da mövcuddur. Bura əsasən məhsul üzrə ixtisaslaşmış bölmənin olmaması səbəbindən məhsul çeşidinin genişləndirilməsi işlərinin keyfiyyətinin aşağı düşməsi, marketinqin müxtəlif funksiyalarını həyata keçirən bölmənin maraqlarının, həmçinin həmin bölmələrin maraqları ilə bütünlükdə müəssisənin maraqlarının uyğun gəlmədiyi halda dar qrup maraqlarının meydana çıxması və bunun nəticəsində ziddiyyətli situasiyaların yaranması, işçilərin innovasiyaların tətbiqində maraqlı olmaması, meydana çıxan problemlərin operativ həll edilməsinin çətinliyi və s. aid edilir. Həm də müəssisənin istehsal etdiyi məhsul çeşidinin və fəaliyyət bazarlarının sayı artdıqca bu çatışmazlıqların sayı da artır. *Məhsulyönümlü idarəetmə strukturunda* marketinq xidməti müəssisənin

istehsal etdiyi müxtəlif məhsul çeşidi və çeşid qrupları üzrə təşkil edilir və onlar üzrə bütün marketinq fəaliyyəti bu struktur bölmələrinə təhkim edilir (şəkil 2). Bu idarəetmə strukturundan, bir qayda olaraq, iri, qeyri-mərkəzləşdirilmiş idarəetmə prinsipi əsasında fəaliyyət göstərən müəssisələr, yəni filialları muxtar qaydada fəaliyyət göstərən, spesifik xüsusiyyətlərə malik olan və geniş çeşidli məhsul istehsal edən müəssisələr istifadə edirlər.




**Şəkil 2. Marketinqin məhsul yönümlü idarəetmə strukturu**

Bu idarəetmə strukturu hər bir məhsulun xüsusiyyətlərini, istehlakçıların tələbatlarını, alış motivlərini və davranışını daha dərindən öyrənməyə və bunun sayəsində, bazara daha tez və aktiv uyğunlaşmağa, həmçinin hər bir məhsulun bazar uğuruna və ya uğursuzluğuna görə məsuliyyət daşıyan bölməni müəyyənləşdirməyə imkan verir. Marketinq bölməsinin işçilərinin öhdəliklərinin və vəzifələrinin geniş olması, ayrı-ayrı məhsul üzrə marketinq xidmətlərinin fəaliyyətlərindəki paralelçilik, baha başa gələn idarəetmə pillələrinin yaranması imkanı, məhsul çeşidi həddən artıq geniş olduqda marketinq fəaliyyətinin effektliyinin azalması və idarə aparatı xərclərinin səviyyəsinin artması və bu kimi digər neqativ halların meydana çıxması imkanı bu idarəetmə strukturunun başlıca çatışmazlıqlarındandır. Marketinqin idarə edilməsinin *bazaryönümlü idaəetmə strukturunda* marketinq xidməti bazarlar (istehlakçı qrupları) üzrə təşkil olunur və həmin bazarlardakı marketinq fəaliyyəti müvafiq marketinq bölməsi tərəfindən həyata keçirilir (şəkil 3).




**Şəkil 3. Marketinqin bazar yönümlü idarəetmə strukturu**

Bazar yönümlü idarəetmə strukturundan istehlakçılarının məhsul seçimi və davranışı bir-birindən fərqlənən, həmçinin məhsulları spesifik xidmət tələb edən bazarda fəaliyyət göstərən müəssisələr istifadə edirlər. Bu idarəetmə strukturu hər bir bazarın tələbatlarının xüsusiyyətini nəzərə almağa və məhsulları həmin tələbatlara uyğun olaraq differensiallaşdırmağa, hər bir bazara uyğun gələn marketinq strategiyası və marketinq kompleksi hazırlamağa və s. imkan verir. Lakin onun bu üstünlükləri ilə yanaşı bir sıra çatışmazlıqları vardır: İdarəetmə strukturu kifayət qədər mürəkkəb, heyətin ixtisaslaşma səviyyəsi aşağıdır, müxtəlif bazarlar üzrə yaradılmış marketinq xidmətlərinin fəaliyyətində paralelçilik mövcuddur, çox xərc tutumludur və s. Müəssisələrdə marketinq fəaliyyəti *regional idarəetmə strukturu* üzrə təşkil edildikdə marketinq xidməti ayrı-ayrı regionlar üzrə təşkil edilir. Başqa sözlə, müəssisənin fəaliyyət göstərdiyi hər bir region üzrə ayrıca marketinq xidməti təşkil edilir (şəkil 4). Bu idarəetmə strukturundan, əsasən, transmilli korporasiyalar, dünyanın müxtəlif ölkə və regionlarında məhsul satan müəssisələr istifadə edirlər. Bu idarəetmə strukturu hər bir regionun istehlakçılarının tələbatlarını, onların adət-ənənələrini, dəyərlər sistemini və davranışlarını, həmçinin həmin regionun sosial-iqtisadi, siyasi, demoqrafik, mədəni və digər ətraf mühit amillərini daha dərindən nəzərə almağa imkan versə də, müxtəlif bölmələrin fəaliyyətində paralelçiliyin meydana çıxmasına və onların fəaliyyətinin əlaqələndirilməsinin çətinləşməsinə və s. gətirib çıxarır.



**Şəkil 4. Regional yönümlü idarəetmə strukturu**

Bir sıra müəssisələr marketinqin idarəetmə strukturunu hazırlayarkən konkret şəraitdən asılı olaraq, yuxarıda qeyd edilən idarəetmə strukturlarının kombinasiyasından, yəni çox əlamətli idarəetmə strukturundan istifadə edirlər.

**Ədəbiyyat**

1. Котлер Ф. Основы маркетинга. 2-е европейское издание. Пер. с англ. М.: Издательский дом Вильяме, 2006, с. 994.

2. Голубков Е.П. Маркетинг как концепция рыночного управления // Маркетинг в России и за рубежом. 2002, №2.

**Резюме**

***Рустамова Г. Р.***

**Организационная структура управления маркетингом**

*Под организационной структурой управления маркетингом понимается ряд отделов и подразделений, в которых сотрудники непосредственно или косвенно вовлечены в маркетинговую деятельность. Организационная структура управления маркетингом основана на признаках функционального, товарного, регионального, рыночного и их сочетаний. Надлежащая организация маркетинговой структуры и соответствия рынку позволяет предприятию получить конкурентное преимущество перед рынком.*

***Ключевые слова:*** *маркетинг, управление, рынок, сегментация, спрос, предприятие*

**Summary**

***Rustamova G. R.***

**Organizational Structure of Marketing Management**

*The organizational structure of marketing management is understood by the combination of units and divisions where employees are engaged in marketing activities directly or indirectly. The organizational structure of marketing management is mainly based on the signs of functional, product, regional, market and combinations thereof. The proper organization of the marketing structure and market conformity make it possible for the enterprise to gain competitive advantage over the market.*

***Key words:*** *marketing, management, market, seqmentation, need, enterprise*

# ƏQLİ MÜLKİYYƏTİN STRUKTURU VƏ ONDAN İSTİFADƏNİN XÜSUSİYYƏTLƏRİ

***Seydəliyev İ. M.***

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

***Xülasə***

*Məqalədə əqli mülkiyyətin struktur tərkibi iki qrupa bölünərək təhlil edilmiş, müəlliflik hüququ obyektləri, əlaqəli hüquq obyektləri, patent hüquq obyektləri, sahibkarlıq fəaliyyətində istifadə olunan fərdiləşmə vasitələri, qeyri-ənənəvi əqli mülkiyyət obyektləri tədqiq olunmuşdur. Məqalədə əqli fəaliyyətin nəticələrinə hüquq üçün xarakterik əlamətlər şərh edilir, sənaye mülkiyyəti səciyyələndirilir, əqli mülkiyyətə müstəsna və qeyri-müstəsna hüquqlar təhlil olunur. Məqalədə göstərilmişdir ki, əqli mülkiyyət və əqli mülkiyyət hüququ eynilik təşkil etmir, müəlliflik hüququnun hər hansı bir formada qeydiyyatında ilkinlik tarixlərinin müəyyənləşdirilməsi xüsusi yanaşma tələb edir.*

***Açar sözlər:*** *əqli mülkiyyət, müəlliflik hüququ, sənaye mülkiyyəti, patent hüququ, ilkinlik tarixi, müstəsna hüquq*

İnnovativ inkişafın idarə edilməsi dövlətin həyata keçirdiyi siyasətin ayrılmaz tərkib hissəsidir. Bu mühüm vasitə davamlı və balanslaşdırılmış iqtisadi inkişafın təmin edilməsinə, insanların iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə əsaslanan həyat şəraitinin keyfiyyətcə yaxşılaşdırılmasına yönəldilmişdir. Onun baza elementlərindən biri əqli mülkiyyət bazarının formalaşması və inkişaf etdirilməsi, elmi tədqiqatların və işləmələrin nəticələrinin kapitallaşmasıdır. Azərbaycanda əqli mülkiyyət hüququnun əsas prinsiplərindən biri belədir: hər kəsin əqli mülkiyyət hüququ vardır, müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur [1]. Əqli mülkiyyət obyektlərinə hüquq üçün aşağıdakı əlamətlər xarakterikdir:

1. Əqli mülkiyyət obyektləri qeyri-maddidir, aşınmaya (amortizasiyaya) məruz qalmır, dəyəri qiymətləndirilə biləndir, obyektiv formada ifadə oluna bilir, onlardan qeyri-məhdud dairədə şəxslər istifadə edə bilir.

Bu anlayışa bəzən haqsız rəqabətdən müdafiə huququ da aid olunur.

2. Müstəsna hüququn mütləq xarakterdə olması. Müstəsna hüquq hüquq sahibinə (fiziki və ya hüquqi şəxsə) məxsus olan, əqli fəaliyyətin nəticəsindən onun öz seçiminə uyğun, qanuna zidd olmayan üsullarla istifadə hüquqlarının məcmusudur. O, əqli fəaliyyətin nəticəsindən istifadəyə icazə verə də bilər, ona qadağa da qoya bilər [4, 267]. Əgər qanunvericilik digər halları nəzərdə tutmazsa, təbii ki, digər şəxslər müstəsna hüquq sahibinin icazəsi olmadan əqli fəaliyyətin nəticəsindən istifadə edə bilməzlər.

3. Mürəkkəb hüquqi konstruksiya. Buraya həm şəxsi (mənəvi), həm də ondan irəli gələn əmlak hüquqları daxildir.

4. Yaradılan obyektlə əlaqəli müxtəlif fəaliyyətlərin mümkünlüyü, bütün digər şəxslərə həmin obyektlə bağlı fəaliyyətin qadağan edilməsi imkanı (qanunla nəzərdə tutulan hallar istisna olmaqla)

5. Müstəsna hüquqların müddətli olması.

6. Ərazi xarakterli olması.

7. Yaranmasının və xitam verilməsinin spesifikliyi. Məsələn, ixtiraya müstəsna hüququn yaranması üçün aşağıdakı əməliyyatlar yerinə yetirilməlidir [3, 54]: ixtiraya iddia sənədinin tərtib edilməsi; iddia sənədinin təqdim edilməsi; iddia sənədinin qeydə alınması, onun ilkin ekspertizası; iddia sənədinin ekspertizası, patentin verilməsi haqqında qərarın qəbul edilməsi; iddia sənədi və ona patentin verilməsi barəsində məlumatların dərci.

8. Müəlliflik hüququ faktiki monopoliyaya yox, qanuna əsaslanır.

"Əqli mülkiyyət" və "əqli mülkiyyət hüququ" eynilik təşkil etmir. Bu kateqoriyalar əmlak-hüquq anlayışları deyildir və bu sahədə meydana gələn hüquqi münasibətlərə əmlak mülkiyyəti normaları şamil edilmir.

Yuxarıda qeyd olunanların davamı olaraq əqli mülkiyyət obyektlərini şərti iki qrupda birləşdirmək olar: müəlliflik hüququ obyektləri və sənaye mülkiyyəti obyektləri.

Sənaye mülkiyyəti obyektlərinə nümunə kimi göstərilə bilər: ixtira, faydalı model, sənaye nümunəsi. İxtira istənilən sahədə məhsula və ya üsula aid olan texniki həldir, faydalı model qurğuya aid olan texniki həldir, sənaye nümunəsi məmulatın yeni zahiri görkəmini müəyyən edən bədii və ya bədii-konstruktiv həldir [2]. İxtira kimi iddia edilən təklifə hüquqi mühafizə almaq üçün o: texniki həll olmalıdır; yeni olmalıdır; məlum həllərlə müqayisədə mühüm fərqlərə malik olmalıdır; faydalı effektə malik olmalıdır.

Yuxarıda qeyd edilənlərdən göründüyü kimi? sənaye mülkiyyəti obyektləri prinsipcə daha asan təkrar olunandır. Müxtəlif insanlar problem üçün eyni həll (texniki, bədii-konstruktiv və s.) təklif edə bilərlər, öz əmtəələri üçün eyni nişanlar tətbiq edə bilərlər. Odur ki, onlara müstəsna hüquqların yaranması üçün müəlliflərin birinciliyinin, həllin ilkinliyinin dövlət tərəfindən tanınması zəruridir. Azərbaycanda ilkinlik tələblərə uyğun rəsmiləşdirilmiş iddia sənədinin Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə daxil olduğu tarixdən müəyyənləşdirilir.

Məsələn, ixtira üzrə ilkinlik ilk iddia sənədinin Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyasının və ya Ümumdünya Ticarət Təşkilatının iştirakçısı olan dövlətdə verilməsi tarixindən müəyyənləşdirilərsə, bu konvensiya ilkinliyidir. Beləliklə, patent hüququ obyektlərinə və sahibkarların fərdiləşdirilməsi vasitələrinə hüquqlar dövlət qeydiyyatına alınması anından qüvvəyə minir [4, 41].

Əqli mülkiyyət obyektlərinin strukturuna son illər meydana gəlmiş yeni əqli mülkiyyət obyektləri də daxil olmuşdur. Onların hüquqi mühafizəsi qeyri-ənənəvi xarakterdədir. Onlara domen adları, inteqral mikrosxemlərin topologiyaları, "nou-hau" aiddir. Həmin obyektlər qeyri-ənənəvi sənaye mülkiyyəti obyektləri adlandırıla bilər.

"Əqli mülkiyyət" anlayışının aşağıdakı xüsusiyyətilərini göstərmək olar:

• Bu, əqli fəaliyyətin və ondan irəli gələn digər fəaliyyətlərin nəticəsi olan qeyri-maddi sərvətlər üzrə insanlar arasında yaranan münasibətlərin məcmusudur;

• Bu, insanların əqli fəaliyyətinin nəticələrinə (əqli mülkiyyət obyektlərinə) aid olan ümumiləşdirici anlayışdır;

• Bu, daha geniş mənada obyektlər və onlara hüquqlardır.

Əqli mülkiyyət hüququ anlayışına obyektiv və subyektiv nöqteyi-nəzərdən yanaşıla bilər. Obyektiv nöqteyi-nəzərdən əqli mülkiyyət anlayışı mülki hüququn bir sahəsi olub, fiziki və hüquqi şəxslərin əqli fəaliyyətinin nəticələrinə hüquqları tənzimləyən və qoruyan hüquq normalarıdır. Subyektiv nöqteyi-nəzərdən bu, əqli mülkiyyət obyektlərinə müstəsna hüquq olub, əqli mülkiyyət sahibinə üçün istifadə üçün müstəsna səlahiyyətlər verir, digər şəxslərin istifadəsinə isə qanunvericiliklə müəyyənləşdirilən hallar istisna edilməklə qadağa qoyulur.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Biznesmenin bülleteni, 1995, №34 (64).

2. “Patent haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı: Biznesmenin bülleteni, 1997, №51 (166).

3. Seydəliyev İ.M. Patentşünaslıq: Dərs vəsaiti. Bakı: Təhsil NPM, 2014. 248 s.

4. Судариков С.А. Право интеллектуальной собственности: Учебник. М:, Проспект, 2016. 368 с.

**Резюме**

***Сейдалиев И. М.***

*Азербайджанский государственный экономический университет (UNEC)*

**Структура интеллектуальной собственности и особенности ее использования**

*В статье анализируется структурный состав интеллектуальной собственности. Здесь исследуются объекты авторских прав, объекты смежных прав, объекты патентных прав, средства индивидуализации предпринимателей, нетрадиционные объекты интеллектуальной собственности. В статье излагаются характерные признаки прав интеллектуальной собственности, характеризуется промышленная собственность, анализируются исключительные и неисключительные права интеллектуальной собственности. В статье указывается, что «интеллектуальная собственность» и «право интеллектуальной собственности» имеют разные значения, а установление приоритета при регистрации авторских прав во всех случаях требует особого подхода.*

***Ключевые слова:*** *интеллектуальная собственность, авторское право, промышленная собственность, патентное право, дата приоритета, исключительное право*

**Summary**

***Seydaliyev I. M.***

*Azerbaijan State Economic University (UNEC)*

**The Structure of Intellectual Property and the Features of its Usage**

*The article analyzes the structural composition of intellectual property by dividing into two groups. Here we study the objects of copyrights, the objects of related rights, the objects of patent rights, the means of individualization of entrepreneurs, non-traditional objects of intellectual property. The article outlines the characteristic features of the intellectual property rights, characterizes industrial property, analyzes exclusive and non-exclusive intellectual property rights. The article points out that intellectual property and intellectual property law have different meanings and the determination of the priority dates requires a special approach in all cases of the registering of copyrights.*

***Key words:*** *intellectual property, copyright, industrial property, patent law, priority date, exclusive right*

# İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİNİNDƏ MƏŞĞULLUĞUN ROLU

***Soltanlı P.S.***

*Azərbaycan Texniki Universiteti*

**Xülasə**

*Ölkənin milli təhlükəsizliyinin təmin olunmasında məşğulluq və işsizlik çox böyük əhəmiyyətə malikdir. Məşğulluq və işsizlik məsələsi bütün dövrlərdə aktual iqtisadi göstərici olub. Ancaq iqtisadiyyatın inkişafı və qloballaşma bu məsələlərin daha da gündəmdə olmasına səbəb olur. Məqalədə klassik və modern nəzəriyyələr araşdırılıb.*

***Açar sözlər:*** *məşğulluq, işsizlik, iqtisadi inkişaf, klassik məşğulluq nəzəriyyəsi, modern məşğulluq nəzəriyyəsi*

Britaniya və bəzi Qərb ölkələri XVIII əsrin sonunda mühüm iqtisadi və siyasi dəyişikliklərə məruz qaldı. Əvvəlki dövrlərlə müqayisədə texniki yeniliklərin sənayeyə tətbiqi zəif inkişaf edən texniki yeniliklərin sənayeyə tətbiqi bu əsrdə intensivləşmişdi. İngiltərədə bu dövr “Sənaye inqilabı”adlandırıldı. Sənaye inqilabı ilə yanaşı, “İqtisadi adam” xüsusiyyətlərinə sahib olan, kapitalist sahibkarlar, istehsal vasitələrindən məhrum qalan fəhlə sinfi meydana gəldi. Bundan başqa, Fransa İnqilabı (1789) Orta əsrlərdən qalan cəmiyyətləri təmizlədi və “fərdiyyətçilik və azadlıq” hakimiyyətə gələn burjuaziyanın şüarı oldu. Bu yeni sinfin siyasi hegemonluğu ələ keçirməsinin zəfəri sayıla bilər. İngilis koloniyası olan Şimali Amerikada müstəqil dövlətin (ABŞ) yaranması, merkantilist müstəmləkəçiliyinin əhəmiyyətli dayağını itirməsinə səbəb oldu.

Klassik iqtisadiyyat, qiymət, milli istehsal, gəlir, məşğulluq, istehsal, qənaət və investisiya səviyyəsi kimi əsas makroiqtisadi dəyişənləri izah edən ilk sistematik təşəbbüs kimi qabul edilir. Klassik iqtisadi düşüncənin əsas təmsilçilarinə Adam Smiti, Jean Patiiste Sayi, David Rikardonu, John Stuard Milli, Robert

Maltusu və Francois Quesnayi daxil edə bilərik. Bunların içində klassik nəzəriyyəni inkişaf etdirən Marşal və Pigonu da daxil etmək olar.

1770-ci ildən 1930-cu ilə qədər olan dövrdə nəşr olunan əsərlərdə qiymətlərin və ödənişlərin elastik olduğunu və iqtisadiyyatda rəqabətli bazarların olduğunu iddia edirdilər.

Klassik məktəbin başlanğıcı 1776-cı ildə Adam Smitin "Xalqların zənginliyi" nin nəşr olduğu il, sonu isə 1873-cü il John Stuart Mili-nin olduğu il qəbul edilərsə bir əsr hökmranlıq sürdüyünü demək olar. Onlar yeni dövrün fəlsəfəsini, "Sənaye inqilabı"nın iqtisadi şərtlərini araşdırmış və onları elmi qaydalarla əlaqələndirməyə çalışmışdı. Bu yeni düşüncənin ən məşhur təmsilçisi İsveç əsilli Glasgov Universitetinin də professor olan Adam Smit idi.

Klassik iqtisdiyyat, əslində, özündən əvvəlki iqtisadi düşüncə konsepsiyasına malik olan merkantilizmə cavab olaraq ortaya çıxdı. Merkantilizm XVI-XVII əsrdə Avropada xalqların yaranması ilə inkişaf edən düşüncə sistemidir. Klassiklər merkantilistlərin 2 əsas fikrinə xüsusilə qarşı çıxmışdı.

1-Metalizm olaraq adlandırıla biləcək bir xalqın zənginliyinin sahib olduğu qiymətli metalın miqdarı ilə bağlı olduğu;

2-Kapitalist sisteminin inkiafı üçün dövlət müdaxiləsinin vacibliyinə olan inam.

Metalizm ölkələri ixracı həvəsləndirmək və idxalı azaltmaq, xarici ticarət yolu ilə qızıl və gümüş ehtiyatını artırmaq istiqamətində siyasətə yönləndirilmişdi. Bu cür xarici ticarət siyasəti, dövlət müdaxiləsinə gətirib çıxardı. Bundan əlavə, yerli sənayenin inkişafını təmin etmək məqsədi ilə bəşəri və təbii ehtiyatların inkişafı üçün də dövlət müdaxiləsinin zəruri olduğu fikri müdafiə edilmişdi.

Klassik iqtisadçılar iqtisadi problemlərin ən effektiv həlli üçün bazar iqtisadiyyatı nəzəriyyəsini inkişaf etdirmişdilər. Bazar iqtisadiyyatının qaydalarına riayət edildiyi təqdirdə, iqtisadi problemlərin öz-özlüyündən və mövcud olan imkanlar çərçivəsində ən effektiv şəkildə həll ediləcəyini iddia edirdilər. Dövləti məhdud sahədə fəaliyyət göstərən və iqtisadiyyata müdaxilə etməyən bir vahid kimi bildirmişdilər.

Tam məşğulluğu əldə etmək inflyasiya və deflyasiya kimi qiymət hərəkətindən qaçmaq üçün dövlətin iqtisadiyyata müdaxiləsinə ehtiyac olmadığını və iqtisadiyyatda "görünməz əl" özlüyündən tam məşğulluğu və qiymət sabitliyini təmin edə biləcəyini proqnozlaşdırmışdılar.

Klassik iqtisadi nəzəriyyənin əsas fərziyələrinə aşağıdakılar daxildir.

- İqtisadiyyatda mükəmməl rəqabət şəraiti;
- Qiymət, faiz dərəcəsi və əmtəə qiymətləri elastikdir;
- Hər təklif öz tələbini yaradır (Say qanunu);
- İqtisadiyyatda pul ancaq əməliyyat üçün istənilir, pul neytraldır. Pul təklifi ancaq mütləq qiymət səviyyəsinə təsir göstərir, nisbi qiymətlərə və real iqtisadiyyata təsir göstərmir.

Say qanunu. "Xalqların zənginliyi" ilə təməli qoyulan klassik iqtisadi nəzəriyyəyə Smitdən sonra tanınmış iqtisadçı Con Baptiste Say dəstək verdi. Say "Xalqların zənginliyi" əsərini həm Avropaya həm də Amerikaya tanıtdırmışdı.

Eyni zamanda "Say qanunu" kimi bilinən nəzəriyyə ilə "Klassik iqtisadi nəzəriyyə"yə dəstək olmuşdu. "Say qanunu" na həmçinin "Məxrəclər Qanun" da deyirlər. Məxrəc sözü satış, versiya buraxılış yeri, mal və xidmətlərin təklif edildiyi yer bazar mənasını verir.

Keynsin məşğulluq nəzəriyyəsi. John Meynard Keyns 1936-cı ildə "The General theory of Employment, interest and Money"- "Məşğulluq, Faiz və Pulun ümumi nəzəriyyəsi" əsərini nəşr etdirdi.

Bu dövrdə sənayeləşmiş bir çox ölkədə iqtisadi nizam, böhran nəticəsində pozuldu. İşsizlik rekord həddə çatdı və davamlı olaraq artım baş verirdi. 1921-ci ildə İngiltərədə başlayan iqtisadi böhran qısa fasilələr ilə 1930-cu illərdə təsirini daha da artırdı. [1.səh 235]

İngiltərədə bəzi siyasətçilər işsizliyin qarşısını almaq üçün ictimai işlər proqramını irəli sürdülər və Keyns də bu siyasəti dəstəklədi. Bu dövrdə getdikcə azalan ixrac həcmini artırmaq məqsədi ilə Keyns İngilis Sterlinqi qızıla konvertasiya olunmasının ləğv olunmasını istəyirdi. Keyns həmçinin iddia edirdi ki iqtidarda olan mühafizəkarlar partiyasının tətbiq etdiyi iqtisadi siyasət işsizlik səviyyəsini artırır.

Keynsin bu mövzudakı fikirləri tərəfdar tapmadı. Ancaq 1929-cu ildə ABŞ-da başlayan iqtisadi böhran İngiltərəyə qədər yayıldı və 1931-cı ildə İngilis Sterlinqi devalvasiya edildi. Bu proses İngiltərənin ixracını artdı. ABŞ-da iqtidarda olan Ruzvelt də bir sıra iqtisadi siyasət yürütməyə başladı. Bu siyasətdən bəziləri dövlət xərclərini, qiyməti artırmaq və dolları devalvasiya edərək ixracı artırmaq oldu.

Xarici ticarətdə qəbul edilən "Qonşunu səfalətə itələ" siyasəti reallaşdıqda ölkələr arası ticarət azaldı və məşğulluğun artması planı həyata keçmədi [2, səh 235-237].

Müasir məşğulluq nəzəriyyəsi, ümumi nəzəriyyə.

Keynsin Ümumi nəzəriyyəsinin əsas məqsədi istehsal və bütünlükdə məşğulluq səviyyəsində yaranan dəyişiklikləri müəyyənləşdirən qüvvələri araşdırmaq idi [3, səh 254].

Keyns "ümumi nəzəriyyə"sində iqtisadiyyatın özünü tarazlaya bilməyəcəyini, dövlətin iqtisadiyyata müdaxilə edə biləcəyi iqtisadi siyasətin olmasının vacibliyini bildirmişdi.

Keynsin müasir məşğulluq nəzəriyyəsinə əsasən iqtisadiyyatda milli gəlirin hansı səviyyədə olacağını o ölkənin sahib olduğu istehsal gücü müəyyənləşdirilir. Məşğulluq artdıqca istehsal gücündən daha çox istifadə ediləcək, beləliklə, daha çox məhsul və xidmət istehsal olunacaq və milli gəlir artacaq.

Keynsin müasir məşğulluq nəzəriyyəsinə qazandırdığı əhəmiyyətli anlayışlardan biri də " effektiv tələb"dir. Effektiv tələb, satınalma gücünə malik olanların tələbini və ya başqa sözlə, satınalma gücü ilə dəstəklənən tələbi ifadə edir [4, səh 147].

Başqa cür ifadə etsək, effektiv tələb, cəmiyyətdə müxtəlif mal və xidmətləri almaq üçün xərclənmiş pul miqdarıdır və bu səbəbdən cəmiyyətdən əldə edilən gəlirlərin cəminə, yəni milli gəlirə bərabər olacaq.

Keynsin "klassiklərin elastik əməkhaqqı səviyyəsi işsizliyi həll edəcək və əgər işçilər aşağı əmək haqqına razılaşsalar işsizlik problemi aradan qalxacaq" fikrinə qarşı çıxıb.

Yeni klassiklərə görə, məşğulluğu qiymətlər və əməkhaqqı tərəfindən müəyyənləşdirir fikrini rədd edərək iqtisadiyyatda istehsal olunan mal və xidmətlərə olan ümumi tələbin məşğulluğu müəyyənləşdirən təməl faktor olduğunu iddia edirdi. Müxtəlif siyasət yürütməklə iqtisadiyyata müdaxilə etmək vacibdir. Bu müdaxilələrin istehsal və məşğulluq həcmin də təsir edəcəyi fikrini irəli sürmüşdü.

Monetarist məşğulluq nəzəriyyəsi.

1940-cı illər Keyns nəzəriyyəsinin "qızıl illəri" sayılır. Bu dövrdə sənaye ölkələrinin, demək olar ki, hamısında sürətli milli gəlir və məşğulluq artımı qeydə alınmışdı. Ancaq 1960-cı illərdə eyni sənaye ölkələrində bir tərəfdən işsizlik digər tərəfdən inflyasiya sürəti artmağa başlamışdı. ABŞ-da başda olmaqla bir çox ölkə bu problemləri əvvəldən tətbiq etdikləri siyasətlə həll edə bilmədikləri kimi daha da artmasına səbəb oldu. Tətbiq olunan siyasətin effektiv olmaması və bəzi iqtisadi hadisələri həll edə bilməməsi bu nəzəriyyənin tənqidə səbəb olmasına gətirib çıxardı. Bu tənqidlərin əsas hissəsi "Müasir miqdar nəzəriyyəsi"(Modern Quantity Theory of money) ni meydana gətirməkdə idi. Pul mövzusunda zamanla inkişaf edən bu yanaşma "Pulçuluq" adlandırılırdı. Monetarist adı ilk dəfə 1968-ci ildə bu nəzəriyyənin yaradıcılarından biri olan Karl Brunner tərəfindən istifadə edilmişdi.

Monetarizm əsas inflyasiya problemi ilə maraqlanmışdı. İnflyasiyanın əsas səbəbi isə hökümətlər tərəfindən pul kütləsinin həddindən artıq və lazımsız artırılması səbəbindən olduğunu bildirmişdi [5, səh. 200]. Bu yanaşmaya görə, iqtisadiyyatda tələb, istehsal, qiymətlərin ümumi səviyyəsi və məşğulluq kimi əsas iqtisadi fəaliyyətlər pul təklifində meydana gələn dəyişikliyə görə müəyyənləşir. İqtisadiyyatda yaranan problemlər hökümətlərin pul və maliyyə siyasətlərinin düzgün aparılmamasından qaynaqlandığı bildirilmişdi. Rəqabət gücünün, iqtisadiyyat da avtomatik tənzimləmə mexanizmi üçün yetərli olduğuna inanırdılar. Belə strukturda qiymət, ödəniş elastik olduqda iqtisadi tarazlığın həmişə təmin edildiyini bildirmişdilər.

**Ədəbiyyat**


1. WILLIAM J. Barber, "İktisadi Düşünce Tarihi"(Tərcümə: İhsan DURDU), *İstanbul: Çıdam nəşriyyatı, 1991.*

2. WILLIAM J. Barber, "İktisadi Düşünce Tarihi"( Tərcümə: İhsan DURDU), *İstanbul: Çıdam nəşriyyatı, 1991.*

3. Savaş Vural, "İktisatın Tarihi". *İstanbul: Liberal Düşünce Topluluğu nəşriyyatı, 1997.*

4. SEYİDOĞLU Halil, "Ekonomik Terimler Ansiklopedik Sözlük", *2-ci nəşr, İstanbul: Güzem Can nəşriyyatı, No:16, 1999.*

*5.* AKTAN, Coşkun Can, "Monetarizm ve Rasyonel Beklentiler Teorisi", İçinde: C.C.Aktan, Politik İktisat, Anadolu *nəşriyyatı,* , İzmir, 2000.


**Резюме**


***Солтанлы П.С.***

*Азербайджанский технический университет*


**Роль занятости обеспечение участия в поддержке экономической безопасности**


*Занятость и безработица имеют огромное значение для обеспечения национальной безопасности страны. Проблема занятости и безработицы всегда была фактическим экономическим показателем. Но развитие экономики и глобализация делают эти вопросы еще более актуальными. В статье рассматриваются классические и современные теории.*



***Ключевые слова:*** *занятость, безработица, экономическое развитие, классическая теория занятости, теория умеренной занятости*

**Summary**

***Soltanli P.S.***
*Azerbaijan Technical University*

**The Role of Employment in the Provision of Economic Security**

*Employment and unemployment were of tremendous importance in ensuring the country's national security. The issue of employment and unemployment has always been an actual economic indicator. But the development of the economy and globalization make these issues even more relevant. The article examines classical and modern theories.*

***Key words:*** *employment, unemployment, economic development, classical employment theory, moder employment theory*

## İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİNDƏ GÖMRÜK SİYASƏTİNİN ROLU

***Süleymanova Ş.S., Səlimova İ.S.***
*Sumqayıt Dövlət Texniki Kolleci*

***Xülasə***

*Milli iqtisadi artımın təmin edilməsinin və onun səmərəliliyinin yüksəldilməsinin əsas amillərindən biri gömrük siyasətidir. Gömrük siyasəti xarici iqtisadi fəaliyyətdə maneələr-kvotalar, qadağalar və s. bu kimi məhdudiyyətlər tətbiq etməklə, beynəlxalq əmək bölgüsünün üstünlüklərindən yararlanmağa yönəldilmiş dövlət tədirləri sistemidir. Gömrük siyasəti iqtisadi fəaliyyətin tənzimlənməsinin əsas vasitələrindən biridir.*

***Açar sözlər:*** *gömrük siyasəti, iqtisadi təhlükəsizlik, beynəlxalq əmək bölgüsü.*

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında gömrük xidmətinin özünəməxsus yeri və mövqeyi vardır. Ölkəmizdə aparılan güclü islahat dalğası gömrük sahəsində də islahatlara səbəb olmuşdur. Bu da məhz ümummilli liderimiz Heydər Əliyevin uzaqgörənliyindən irəli gəlirdi ki, ölkəmiz müstəqillik əldə etdikdən üç ay sonra Gömrük Komitəsi yaradılmışdır. Məqsəd sürətlə inkişaf edən iqtisadiyyatımızın təhlükəsizliyinin daha da gücləndirilməsi idi.

Beləki, iqtisadi təhlükəsizlik yüksəkkeyfiyyətli idarəçilik, iqtisadi maraqların qorunmasının və s. kimi məsələlərin milli və beynəlxalq səviyyədə təmin olunmasıdır. İqtisadiyyatımızın ildən-ilə ticari əlaqələrinin genişlənməsi, idxal-ixrac əməliyyatlarının həcminin artması və s. bu kimi iqtisadi islahatlar Azərbaycan Respublikasının gömrük qanunvericiliyinin təkmilləşməsinə və yeni Gömrük Məcəlləsinin qəbul edilməsinə gətirib çıxarmışdır.

İqtisadi təhlükəsizlik ölkənin resurslarının qorunması, tarazlaşdırılmış və dinamik artımın, sosial inkişafın, iqtisadi təhlükəsizliyin qorunmasını təmin edən iqtisadi, siyasi və hüquqi kompleks şərtləri əhatə edir. Sözsüz ki, bu şərtlərin hər birində olan problem iqtisadi təhlükəsizliyin pozulmasıdır. Belə ki, ölkənin resurslarının (bura həm enerji, həm ərzaq, həm də digər mallar daxildir) nəzarətdə saxlanılması, həmçinin ekologiyanın qorunması kimi vacib məsələlər iqtisadi təhlükəsizliyin təmin olunmasına bərabərdir. Yəni əgər ölkədə ərzaq problemi yaranarsa, ekoloji vəziyyət dəyişərsə, bu iqtisadiyyatın təhlükə riskinin artmasına səbəb olar.

Ölkəmizdə həyata keçirilən gömrük siyasəti ölkədaxili bazarın beynəlxalq normalara uyğunlaşması və milli iqtisadiyyatın inkişafının təmin olunması və s. kimi məsələlər üzərində hazırlanmışdır.

Qloballaşan dünya ticarətində istehsal imkanlarının rəqabətli bir hala gətirilməsi hər hansı bir malın ucuz başa gələn ölkədə istehsal olunub digər ölkələrə idxal edilməsinə imkan yaradır. Beynəlxalq şirkətlərin bu avantajlardan istifadə edə bilməsi üçün hər bir ölkənin iqtisadiyyatı və gömrük xidməti bu prosesə nəzarət edir.

Ölkəmizdə iqtisadi təhlükəsizliyin təmin edilməsinin hüquqi əsasları 2004-cü ilin iyulunda qəbul edilmiş “Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikası Qanunu”nda qeyd olunduğu kimi, ölkənin iqtisadi sahədə milli maraqlarının artırılmasından və iqtisadiyyatın inkişafı onun hüquqi əsaslarının təkmilləşdirilməsindən ibarətdir[1].

Bildiyimiz kimi, iqtisadi təhlükəsizliyin hərtərəfli təmin olunması ölkədə yürüdülən siyasətdən və gömrük sərhəd xidmətindən çox asılıdır. Yəni ölkəyə daxil və xaric olunan malların müəyyənləşdirilməsi, onlara rüsumların və qaydaların qoyulması kimi məsələlər iqtisadi təhlükəsizliyin təmin olunmasına bir başa təsir edir.

Ölkə iqtisadiyyatının inkişaf səviyyəsi ilə gömrük rüsumlarının dərəcələri arasında müəyyən asılılıq mövcuddur. Belə ki, inkişaf etmiş ölkələrdə gömrük rüsumlarının dərəcələri aşağı olur. Çünki inkişaf etmiş ölkələr istehsal etdikləri məhsulun rəqabət qabiliyyəti yüksək olduğu üçün daxili bazarın yüksək rüsumlar

hesabına qorunmasına, ixracın əlavə tədbirlərlə stimullaşdırılmasına və büdcənin gəlir hissəsinin gömrük ödənişləri hesabına doldurulmasına ehtiyac qalmır.

Beləliklə, deyə bilərik ki, hər bir məhsul üçün müəyyən olunmuş rüsumlar həm ölkənin iqtisadi inkişafını, həm də təhlükəsizliyini təmin edir.

Государственный контроль в России как отдельное независимое установление в составе государственного управления ведет свою официальную историю со времени издания высочайшего царского манифеста - 28 января 1811 г. Но, фактически, учреждения с функциями государственного контроля появились в стране намного раньше. Первые исторические сведения об учреждениях с контрольными функциями, в том числе в области финансов, относятся и ко второй половине XVII в.

В 1654 г. был образован Счетный приказ для проверки раздачи полкового жалованья во время войны, для этого сюда доставили приходно-расходные книги за десять лет [1, 3, 4].

Контрольным учреждением, может быть, признана и так называемая Ближняя канцелярия, учрежденная Петром I в 1699 г. Круг вопросов, подлежавших ее ведению, охватывал широкую сферу административных действий. Здесь сосредоточивались сведения о движении денежных сумм, содержании армии, состоянии военных запасов и т.п.

С установлением в стране в 1802 г. министерской системы управления, в которой заметную роль стало играть Министерство финансов, вопросы контроля за образованием, движением и расходованием государственных средств приобрели особое значение. Общие принципы функционирования министерств и распределения государственных дел между ними с несущественными изменениями применялись в системе государственного управления более 100 лет, до февральской революции 1917 г.

В 1810 г. Государственный совет рассмотрел предложение Особого комитета, возглавляемого графом Н.П. Румянцевым. Было решено, что министр финансов будет ведать доходами и управлять ими. Ответственность за движение финансов возлагалась на государственного казначея. Значительные события в совершенствовании финансовой системы и укреплении финансового контроля связаны с именем государственного контролера В.А. Татаринова, который занял этот пост в 1863 г. В.А. Татаринов обосновал устройство в государстве одной, независимой от исполнительной власти, ревизионной инстанции. Ведомство государственного финансового контроля получило право наблюдать по документам за движением государственных сумм, проверять и оценивать действия распорядителей и получателей средств [4, 7, 8].

**В советский период** российской истории происходит фактически полное сосредоточение государственного финансового контроля в системе Наркомата, а затем Министерства финансов страны. Уже 5 декабря 1917 г. был создан Народный комиссариат государственного контроля, получивший право финансовых ревизий. Но, постепенно, ревизия стала компетенцией исключительно финансового ведомства, услугами специалистов которого пользовались органы партийного, государственного и народного контроля.

Идеи о неразрывном единстве учета и контроля, их роли и месте в решении задач социалистического строительства, об обоснованных принципах экономического контроля нашли отражение сначала в «Положении о рабочем контроле» (1917 г.), а затем в декрете Всероссийского Центрального исполнительного комитета (ВЦИК) «О государственном контроле» от 9 апреля 1919 г., передавшем в ведение ранее созданного наркомата государственного контроля все контрольно-ревизионные органы других ведомств, и декрете ВЦИК «О рабоче-крестьянской инспекции» от 8 февраля 1920 г. с объединением в единый контрольный орган наркомата государственного контроля [2, 9, 10]. В октябре 1923 г. в составе Наркомфина образовали Финансово-контрольное управление. Позже оно было преобразовано в Финансово - бюджетную инспекцию, которая просуществовала до 1937 г.

В 1937 г. было создано Контрольно-ревизионное управление (КРУ) Наркомфина СССР, положившее начало новой централизованной системе государственного финансового контроля. Определяющую роль в ее организации сыграл выдающийся финансовый руководитель А.Г.Зверев. Он рассматривал финансовый контроль как функцию управления и инструмент реализации экономической роли государства. 9 мая 1938 г. Совнарком СССР утвердил Положение о Контрольно-ревизионном управлении Народного комиссариата финансов СССР. Была заложена организационная и правовая база того, что КРУ Наркомфина (позднее - Минфина) с его местными органами на десятилетия стало единственным независимым неведомственным органом государственного финансового контроля в стране. Было установлено, что главным методам ревизии следует отнести проверку документов, характеризующих состояние финансового хозяйства организации и деятельность руководителей, отвечающих за финансовую работу. Тогда же был введен порядок оформления результатов ревизии актом за подписью ревизора, руководителя и бухгалтера проверяемого предприятия [3, 11, 12].

После распада СССР КРУ осталось единственным государственным учреждением в России, обладающим опытом организации проведения ревизий финансово-хозяйственной деятельности предприятий и организаций, многолетней практикой обеспечения законности расходования и сохранности государственных средств. Указом Президента РСФСР от 9 ноября 1991 г. «О неотложных организационных мерах по борьбе с преступностью в РСФСР» на контрольно-ревизионные органы Минфина России было возложено проведение ревизий и проверок по требованиям правоохранительных органов.

Сегодня и на государственном уровне, и в общественном сознании признано, что государственный финансовый контроль нуждается в совершенствовании и усилении. С целью повышения эффективности осуществления финансового контроля предлагается доработать методологию финансового контроля в следующих направлениях: законодательно определить понятия внешнего и внутреннего финансового контроля; рекомендовать на отраслевом уровне специализированные типовые формы, методы и направления финансового контроля; уточнить полномочия органов, осуществляющих финансовый контроль; включить комплексные меры ответственности за нарушение бюджетного законодательства [5, 13].

Совершенствование системы государственного финансового контроля в России позволит целесообразно и эффективно использовать государственные финансовые ресурсы страны, а также движение финансовых потоков от отправителя к адресату. Снизится вероятность того, что денежные средства будут использованы с нарушениями законодательства, и появится уверенность, что данные денежные средства будут применены по целевому назначению, а значит, возникнут серьезные препятствия.

Таким образом, следует подчеркнуть, что государственный контроль над обществом — процесс необходимый. Следует согласиться с точкой зрения тех авторов, которые считают, что, с позиции стабильного существования государства и общества, данный процесс не вызывает споров по поводу форм и средств его осуществления. Но, когда контроль становится панацеей при решении большинства задач, когда армия контролеров неуклонно растет, а порядка от этого не становится больше, тогда возникают неизбежные вопросы: почему контроль неэффективен, каковы его пределы, возможности и др. Проблема пределов государственного контроля и экономической безопасности над обществом — это вопрос диалога общества и государства.

**Литература**

1. Бардовский В.П., Рудакова О.В., Самородова Е.М. Экономика: учебник, М.: ИНФРА-М, 2009, 672 с.

2. Батычко В.Т. История отечественного государства и права в вопросах и ответах. Учебное пособие. 2009, с. 101-110 с.

3. Макоев О.С. Контроль и ревизия. Учебное пособие. 2012. с. 51-70.

4. Мунчаев Ш.М., Устинов В.М. История Советского государства, 2-е изд., М.: НОРМА, 2008, 720 с.

5. Рахматуллин Ю.Я. Экономический анализ финансовых результатов от продажи продукции на примере сельскохозяйственных организаций [Текст]: монография / Ю.Я. Рахматуллин. СПб: Свое издательство, 2016, 163 с.

6. Рахматуллин Ю.Я. Теоретические и практические аспекты учета финансовых результатов от продаж на примере сельскохозяйственных организаций: монография. Уфа: РИЦ БашГУ, 2014, 152 с.

7. Рахматуллин Ю.Я. Пути улучшения методики учета и проблемы счета 90 «Продажи» по основным видам деятельности для сельскохозяйственных организаций / Ю.Я. Рахматуллин // Вестник Алтайского государственного аграрного университета. 2013, № 6 (104), с. 126-129.

8. Рахматуллин Ю.Я. Нормативное регулирование учета финансовых результатов от продаж в сельскохозяйственных организациях / Ю.Я. Рахматуллин // Известия Оренбургского государственного аграрного университета. 2015, № 3 (53), с. 271-274.

9. Рахматуллин Ю.Я. Нормативные акты и правовые основы организации учета прибыли от продаж в сельскохозяйственных организациях / Ю.Я. Рахматуллин // Вестник Алтайского государственного аграрного университета. 2015, № 8 (130), с. 149-153.

10. Рахматуллин Ю.Я. Оптимизация доходов и расходов в бухгалтерском и налоговом учете от продаж в коммерческих организациях / Ю.Я. Рахматуллин // Известия Оренбургского государственного аграрного университета. 2014, № 2, с. 255-258.

11. Рахматуллин Ю.Я. Практические и теоретические основы учетной политики в формировании финансовых результатов от продаж в сельском хозяйстве / Ю.Я. Рахматуллин // Вестник АПК Ставрополья. 2015, № 2 (18), с. 287-290.

12. Рахматуллин Ю.Я. Соответствие доходов и расходов в бухгалтерском и налоговом учете от продаж / Ю.Я. Рахматуллин // Вестник Алтайского государственного аграрного университета. 2013, № 3 (101)., с. 143-147.

13. Рахматуллин Ю.Я. Учет доходов, расходов и финансовых результатов по основным видам деятельности для предприятий АПК / Ю.Я. Рахматуллин // Известия Оренбургского государственного аграрного университета. 2013, № 4 (42), с. 183-186.

**Summary**

***Muginova Q.I., Rakhmatullin Y.Y.***

**Development of Control and Audit, as an Element of Economic Safety of the State**

*The article systemizes the historical aspects of the development of control and audit in the Soviet state as a special type of activity aimed at improving economic security and the efficiency of the functioning of the state. Synthesis of scientific data characteristic of a certain historical stage is used.*

***Key words:*** *control, audit, Soviet state, Russia, historical aspect, reforming*

# ПРОДОЛЖЕНИЕ "НЕФТЯНОЙ СТРАТЕГИИ", РЕАЛИЗАЦИЯ "ГАЗОВОЙ СТРАТЕГИИ" - ЗАЛОГ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ И ИНТЕГРАЦИИ АЗЕРБАЙДЖАНА В МИРОВУЮ ЭКОНОМИКУ

***Нейматова Л.Т.***

*Азербайджанский технический университет*

**Резюме**

*Рассмотрены вопросы интеграции Азербайджана в мировую экономику путем реализации проектов по транспортировке газа из Азербайджана и стран Азии в ЕС. Проанализирована важность этих проектов для обеспечения экономической безопасности стран, участниц проекта. Рассмотрены вопросы энергетической безопасности и диверсификации поставок энергоресурсов, как обеспечение экономической безопасности страны.*

***Ключевые слова:*** *газовый трубопровод, энергетическая безопасность, диверсификация поставок энергоресурсов, альтернативные источники энергии*

Одним из ключевых факторов экономической безопасности и устойчивого развития экономики любого государства являются наличие и развитая инфраструктура транспортировки энергоресурсов путем трубопроводов. На сегодняшний день для Азербайджана открываются новые альтернативы, связанные с продажей и транзитом энергоресурсов в Европу, что, конечно же благотворно повлияет на национальную экономику. Реализация этих альтернатив - продолжение нефтяной стратегии общенационального лидера Гейдара Алиева и является приоритетом государственных интересов. Так, начиная с 2020 года, посредством Трансадриатического газопровода (ТАП), через Турцию, Грецию, Албанию и по дну Адриатического моря в Европу начнет поступать газ с месторождения "ШахДениз -2".

Этот проект является проектом энергетической безопасности, а энергетическая безопасность является составной частью национальной безопасности государств. Это проект диверсификации. Сегодня для транспортировки наших ресурсов в различные пункты назначения в Азербайджане построено 7 трубопроводов, в том числе 3 нефтепровода и 4 газопровода. Восьмой - Южный газовый коридор, который также вскоре будет сдан в эксплуатацию [1].

Также для Европейского союза представляет огромный интерес проект строительства Транскаспийского трубопровода, предусматривающего транспортировку газа из Центральной Азии на европейский рынок. Реализация проекта Транскаспийского трубопровода соответствует интересам всех сторон, участвующих в проекте. С этой целью, в 2015 году была подписана Ашхабадская декларация с туркменской, турецкой, азербайджанской и грузинской сторонами о сотрудничестве в сфере энергетики [2].

В 2017 году на долю Российской Федерации пришлось около 43% газового импорта ЕС. На втором месте среди экспортеров газа в ЕС — Норвегия, с 33% долей. Далее около 14% газового импорта ЕС поставляет Венгрия, около 9% - Алжир, и 1% - Ливия [3].

Как видно из привиденных статистических данных, основную долю газового импорта ЕС составляет газ из России, и для Европы особым важным является избавление зависимости от поставок газа из России и Украины - политическая нестабильность является стратегической угрозой функционирования экономики стран ЕС. И в связи с этим, перед Европой остро стоит вопрос диверсификации поставок энергоресурсов. Согласно предварительным данным, по трубопроводу ТАР ежегодно планируется поставлять в страны ЕС до 10 миллиардов куб. метров газа.

Реализация газовых проектов и строительство газопроводов предоставляет экономике Азербайджана ряд преимуществ:

1. интеграция национальной экономики в мировую энергетическую систему;
2. привлечение в страну дополнительных инвестиций на реализацию этих и других проектов;

3. усиление экономической позиции страны на мировой арене;
4. превращение Азербайджана в крупный энерготранспортный узел и т.д.

Однако для экономики Азербайджана реализация этих проектов в долгосрочной перспективе наряду с положительными бонусами несет и определенные угрозы. Так, экономика Азербайджана до последнего времени была ориентирована на нефтяную промышленность. С принятием Государственных программ по развитию ненефтяного сектора Азербайджана в республике был предпринят ряд мер в этом направлении. Приоритетными были признаны металлургическая промышленность, машиностроение, туризм, сфера ИКТ, образование, медицина, развитие альтернативных источников энергии и т.д. Падение цен на нефть и уменьшение нефтяных доходов вынудило государство обратить внимание на другие отрасли промышленности. Однако, с подписанием контрактов по строительству Транскаспийского трубопровода и реализацией проетов TAP, TANAP, существует угроза того, что экономика страны вновь станет ориентирована на добычу и транспортировку энергоресурсов, и развитие остальных отраслей промышленности вновь останется в тени.

Кроме того, перспективы развития в этой области, и, следовательно, безопасности национальной экономики во многом зависят от того, насколько решительно Евросоюз будет стимулировать развитие возобновляемой энергетики и энергосбережение. На данный момент, осознавая важность развития альтернативных источников энергии, в Евросоюзе разрабатываются соответствующие планы до 2030 года. В европейской и особенно немецкой энергетике все более серьезную конкуренцию газу составляют ветер, солнце и биомасса. Бум возобновляемой энергетики привел к тому, что в Евросоюзе почти перестали строить новые газовые электростанции. Резкое падение спроса на турбины, вынудили компании Siemens и General Electric объявить в конце 2017 года о радикальном сокращении производства.

О необходимости развития альтернативных источников энергии в Азербайджане указывается и в стратегических дорожных картах по развитию экономики Азербайджана. [4]

Истощение энергоресурсов создает значительную угрозу для нынешней мировой экономики, которая удовлетворяет подавляющее большинство своих потребностей в энергии за счет нефти и газа.

Следует отметить, что интенсивное развитие альтернативных источников энергии наблюдается во всех развитых странах мира. По данным Financial Times, доля газа в энергоресурсах Европы составляет 23%, ядерной энергетики — 28%. 19% энергетических потребностей европейцев удовлетворяют альтернативные источники энергии, включая ветер, солнце и биотопливо.

Так что в первую очередь развитие этого направления экономики сулит в перспективе Азербайджану серьезные инвестиции и одновременно создает предпосылки для существенного уменьшения зависимости от нефтегазовых ресурсов.

Развитие возобновляемой энергетики в стране должно стать приоритетной частью государственной политики по инновационному развитию.

**Литература**

1. https://news.day.az/politics/872440.html;
2. https://www.trend.az/business/energy/2837821.html;
3. European Commission DG Energy;
4. **Стратегическая дорожная карта перспектив национальной экономики**

**Xülasə**

***Nemətova L.T.***

**"Neft strategiyasının" davamı - "Gaz strategiyasının" tətbiqi - Azərbaycanın dünya iqtisadiyyatına integrasiyasının və iqtisadi təhlükəsizliyinin təmini kimi**

*Azərbaycan və Asiya ölkələrindən Avropa Birliyinə qaz nəqli layihələrini həyata keçirərək Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası məsələləri nəzərdən keçirilir. Layihədə iştirak edən ölkələrin iqtisadi təhlükəsizliyini təmin etmək üçün bu layihələrin əhəmiyyəti təhlil edilir. Enerji təhlükəsizliyi və enerji təminatının diversifikasiyası məsələlərinin ölkənin iqtisadi təhlükəsizliyini təmin etməsində əhəmiyyəti qeyd edilib.*

***Açar sözlər:*** *enerji boru kəməri, enerji təhlükəsizliyi, enerji təchizatı diversifikasiyası, alternativ enerji mənbələri*

## Summary

***Neymatova L.T.***

**"Oil Strategy" Continuation of, Realization of "Gas Strategy" - Gurantee of Economic Safety and Integration of Azerbaijan into the World Economy**

*The given article deals with analyses of integration of Azerbaijan into the world economy by implementing projects on gas transportation from Azerbaijan and Asian countries to the EU. The importance of these projects is analyzed to ensure economic security of the countries participating in the project. The issues of energy security and diversification of energy supply are considered as ensuring the economic security of the country.*


***Key words:*** *gas pipeline, energy security, diversification of energy supply, alternative energy sources*

# III BÖLMƏ

# İQTİSADİ TƏHLÜKƏSİZLİK STRATEGİYASINDA MALİYYƏ-PUL SİYASƏTİ

# III СЕКЦИЯ

# ФИНАНСОВО–ДЕНЕЖНАЯ ПОЛИТИКА В СТРАТЕГИИ ПО ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

# PART 3

# FINANCIAL AND MONETARY POLICY IN THE ECONOMIC SECURITY STRATEGY

## BANK FƏALİYYƏTİNƏ NƏZARƏT VƏ TƏNZİMLƏMƏ: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

***Abbasbəyli M.A.***
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

***Açar sözlər:*** *bank nəzarəti, tənzimləmə, böhran, kapitallaşdırma, risklər, sabitlik, meqatənzimləyici*

Müasir böhran şəraitində həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə müşahidə olunan iri bank və qeyri-bank maliyyə institutlarının müflis olması maliyyə sisteminin nəzarət və tənzimləmə mexanizm və prinsiplərinə yenidən baxmaq zərurətini şərtləndirdi. Bu zaman söhbət təkcə bank nəzarəti və tənzimləmənin gücləndirilməsindən deyil, həm də maliyyə sabitliyinin, əməliyyat və sövdələşmələrin şəffaflığının yüksəldilməsinə yönələn ümumdünya qaydalarının işlənməsindən gedir.

Bank nəzarəti sistemi təsərrüfat subyektlərinin fəaliyyətini tənzimləyən qanunverici və normativ aktlar toplusunu; mülkiyyət institutlarını; maliyyə sisteminin seqmentlərini; bank müəssisələrinin uçot və hesabat standartlarının işlənməsini; nəzarət orqanlarını, onların funksiyalarını, səlahiyyətlərini; görülən tədbir və sanksiyaları əhatə edir. Bank nəzarəti özündə lisenziyalaşdırma, qeydiyyat, inspeksiyalaşdırma, distant nəzarət, "problemli" banklarla iş (bank qruplarının qeyd olunması, təsir proqramlarının işlənməsi), lisenziyaların geri götürülməsi və bankın ləğvi prosedurlarını birləşdirir.

Bank tənzimlənməsi və nəzarət orqanları öz fəaliyyətində operativ, ardıcıl və çevik hərəkət etməli; görülən tədbirlərin və onlara çəkilən xərclərin səmərəliliyinin nisbətini nəzərə almalı; bankın müxtəlif növ və qruplarına qarşı vahid tənzimləmə siyasətini həyata keçirməli (xüsusi böhranlı hallarda istisnalar mümkündür, lakin bu, qanunvericilik çərçivəsində qəbul olunmalıdır); banklarla əməkdaşlıq etməlidir. Bank tənzimlənməsi hal-hazırda iki istiqamətdə aparılır: bank sistemlərinin beynəlxalq orqanlar tərəfindən tənzimlənməsi və ölkə üzrə (milli) qanunverici və normativ tənzimlənmə.

Beynəlxalq maliyyə təşkilatları arasında nəzarət sahəsində rolu baxımından daha əhəmiyyətlisi Mərkəzi Avropa Bankı (MAB), Bank nəzarəti üzrə Bazel komitəsi, Beynəlxalq valyuta fondu və Dünya Bankıdır. Bank nəzarəti üzrə Bazel komitəsi (Basel Committee on banking Supervision) bank müəssisələrinin fəaliyyətinə nəzarət mexanizminin işlənməsi və korreksiya edilməsi üçün təsis edilmişdir. Bazel komitəsinin 1988-ci ildə işlənmiş tələbləri (Bazel -I), AB ölkələrini bankları üçün icbari və digər dövlətlərin bankları üçün tövsiyə olunan tələblərdir (100-dən çox ölkədə qüvvədədir). Bununla da vahid normalar, lisenziyalaşdırma və bank müəssisələrinin fəaliyyətinə nəzarət prosedurlarının tətbiqi və razılaşdırılması, bank nəzarətinin ahəngləşdirilməsi mexanizmi həyata keçmiş olurdu.

Bank nəzarəti üzrə Bazel komitəsinin qərarına uyğun olaraq, likvidliyi təmin etmək və ya müstəsna hallarda ödəmə qabiliyyətini yüksəltmək üçün hətta dövlət vəsaitindən də istifadə oluna bilər. Lakin bu zaman hər hansı bankın fəaliyyətinin maliyyələşdirilməsi haqqında qərar mərkəzi bank tərəfindən deyil, dövlət idarələri və ya qanunverici orqanlar tərəfindən qəbul olunmalıdır. Bank nəzarəti üzrə Bazel komitəsi tərəfindən həmçinin kommersiya banklarının lisenziyalaşdırılması, o cümlədən lisenziyanın genişləndirilməsi, qovuşma imkanları, banklar üçün prudensial qaydalar (kapital, likvidlik, risk limitləri, əlaqəli kreditləşdirmənin həcminin məhdudlaşdırılması), səmərəli korporativ idarəetmə tələbləri (o cümlədən bank informasiyasının açıqlanması şərtləri), dövri hesabatın təqdim edilməsi və banklarda yoxlamaların keçirilmə tələbləri, çətinliklərin aradan qaldırılması üçün tədbirlər, mühasibat standartlarına əməl edilməsi, bankların auditinin keçirilməsi və s. üzrə ümumi qaydaları nəzərdə tutan “Səmərəli bank nəzarətinin əsas prinsipləri” də işlənmişdir.

2004-cü ildə işlənmiş yeni, Bazel-II tələblərinə (Convergence of Capital Measurement and Capital Standards: a Revised Framework və ya Bazel-II) keçid bank sabitliyinin yüksəldilməsinə, bank sferasının şəffaflığının artırılmasına, bank idarələrində daxili nəzarət və audit sistemlərinin yaxşılaşdırılmasına, bankın əməliyyatlarının risklik səviyyəsinə uyğun olan ehtiyatların formalaşdırılmasına, dünya bazarlarında rəqabət şəraitinin yaxşılaşdırılmasına, bütün banklar üçün vahid tələblərin tətbiqinə yönəlmişdir. Yeni tələblər bank kapitalının yetərliliyinin təkmilləşdirilmiş qiymətləndirmə metodikasından istifadəni nəzərdə tutur. Bazel razılaşması üç elementdən idarətdir: kapitala minimal tələblər – kredit, bazar və əməliyyat riskləri nəzərə alınmaqla; nəzarət tədbirlərinin həyata keçirilməsi – risklərin profili nəzərə alınmaqla kapitalın yetərliliyinin qiymətləndirilməsi; bazar nizam-intizamı – borc alanların fəaliyyət sferaları, kapitalının həcmi, risk təhlükəsinə məruz qala bilmə dərəcəsi, kapitalın yetərliliyi haqqında informasiyanın açıqlanması üzrə tələblər[1, 55].

Bank nəzarəti üzrə Bazel komitəsi aşağıdakıları müəyyən etmişdir: bank idarələrində likvidliyin idarə edilməsi; kredit riskinin idarə edilməsi; kapital üzrə əlavə razılaşma; əməliyyat riski üzrə idarəetmə və nəzarət; faiz riski üzrə idarəetmə və nəzarət; maliyyə qruplarında likvidlik riskinin idarə edilməsi.

Bazel-II razılaşması ilə kredit və əməliyyat risklərinin standartlaşdırılmış, baza və təkmilləşdirilmiş metodlar əsasında üç hesablama variantı tətbiq olunmuşdur. Bu zaman banklara riski qiymətləndirərkən istifadə edəcəkləri yanaşmanı müstəqil seçmək hüququ verilmişdir:

1) riskin nəzarətedici orqanın tələblərinə əməl etməklə və müstəqil reytinq agentliklərinin qiymətləndirmələri əsasında qiymətləndirilməsini nəzərdə tutan sadələşdirilmiş (fundamental) yanaşma;

2) riskin banklar tərəfindən müstəqil şəkildə müəyyən edilən borc alanların reytinqlərinə əsaslanmaqla qiymətlədirilməsini nəzərdə tutan inkişaf etmiş yanaşma.

Risklərinn idarə edilməsi proseduru ardıcıl olaraq həyata keçirilən aşağıdakı hərəkətləri nəzərdə tutur:

- faiz, kredit və əməliyyat risklərinin şərhi, risklərin qiymətlədirmə (ölçmə) üsullarının ətraflı izahı, limitlərin strukturunun təsviri və onların müəyyənləşdirilməsi qaydaları, təqdim olunan hesabatların siyahısı və forması, monitorinq, risklərin idarə edilməsi sisteminin təşkili və məsuliyyət.

Banklar tərəfindən açıqlanan stress-testləşdirmə qaydası defoltu, qalıq riski və kreditlərin təmərküzləşmə riskini müəyyən etmək imkanı verir. Beləliklə, yeni tələblər bank fəaliyyətini kreditorların və bank əmanətçilərinin minimal riski ilə həyata keçirilməsini nəzərdə tutur.

Lakin müasir böhranın miqyası və nəticələri bankların əksər inkişaf etmiş ölkələrdə əməl olunan Bazel-II-nin tələblərinə kifayət qədər uyğun gəlmədiyini nümayiş etdirdi. Bu, bir tərəfdən böhrandanqabaqkı dövrdə bank tənzimlənməsinin liberallaşdırılması şəraitində bankların uyğun

olmalı olduqları icbari iqtisadi normativlərin siyahısının azaldılması ilə bağlı olmuş, digər tərəfdən isə daxili nəzarət sistemləri, bir qayda olaraq, itkilər yarandıqda kredit təşkilatlarının heç bir məsuliyyətini nəzərdə tutmurdu, baxmayaraq ki, maliyyə nəticələrini maksimallaşdırmağa, əldə edilən bonusları və mükafatları artırmağa can atan bank menecerləri yüksək risklə fəaliyyət göstərirdilər.

Bununla əlaqədar tənzimləmənin millli xüsusiyyətləri də nəzərə alınmalıdır, çünki müxtəlif dövlətlərdə bank nəzarətinin funksiyaları ya ölkənin mərkəzi bankının, ya da başqa bir orqanın – nazirlik və ya xüsusi olaraq yaradılmış və bu funksiyanı müstəqil, ya da mərkəzi bankın və ya maliyyə nazirliyinin iştirakı ilə həyata keçirən komissiyanın üzərinə qoyulmuşdur.

Bank sisteminin tənzimlənməsinin səmərəliliyi dövlət və nəzarətedici orqanın bank fəaliyyətinin ümumiqtisadi səmərəli yüksəldilməsinə gətirib çıxaracaq təşkilinə, bank xidmətlərinə çıxış imkanlarının və keyfiyyətinin yüksəldilməsinə, habelə bank sisteminin iqtisadiyyatın real tələbatlarına adekvatlığının qiymətləndirilməsinə nə dərəcədə köməklik edə bilməsi ilə müəyyən olunur. Bu cür qiymətləndirmə keyfiyyətində bank sektorunun aktivlərinin ölkənin UDM qarşılığında, real sektora kreditlərin UDM qarşılığında, əhaliyə verilən kreditlərin UDM qarşılığında artdığını xarakterizə edən göstəricilər, bütün bank müəssisələri tərəfindən nəzarət orqanlarının prudensial normalarına əməl olunması və s. çıxış edə bilər.

Beləliklə, yuxarıda deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, böhran dövründə bank sistemlərinin tənzimlənməsində əsaslı dəyişikliklər baş verir. Bu dəyişikliklər aşağıdakıları nəzərdə tutur:

• maliyyə sisteminin bütün seqmentləri üçün ümumdünya tənizmləmə qaydalarının işlənməsi;
• maliyyə sisteminin dövlət təzimlənməsinin gücləndirilməsi;
• maliyyə institutlarının şəffaflığının artırılması;
• maliyyə idarələrinin fəaliyyət nəticələrinə görə məsuliyyətinin gücləndirilməsi;
• beynəlxalq təşkilatlar tərəfindən bank tənzimlənməsi prinsiplərində dəyişikliklərin edilməsi[2, 48].

Sadalanan tədbirlərin həyata keçirilməsi maliyyə, ilk növbədə, bank sistemlərinin sabitlliyini yüksəltmək, maliyyə idarələrinə müştərilər tərəfindən inamı artırmaq və nəticə etibarı ilə milli iqtisadiyyatların artımını və davamlı inkişafını təmin etmək imkanı verəcəkdir.

**Ədəbiyyat**

1. С.Ю. Совершенствование банковского регулирования и надзора в России. Монография. М., 2015, 230 с.
2. Эффективность системы регулирования банковского сектора. М., 2017. 158 с.

**Резюме**

***Аббасбекли М.А.***

**Надзор и регулирование банковской деятельности: проблемы и перспективы**

*Перед лицом современных кризисов банкротство крупных банков в странах с развивающейся экономикой привели к необходимости пересмотра нормативных и регуляторных механизмов финансовой системы. В этом случае речь идет не только о банковском надзоре и регулировании, но и о разработке глобальных правил, направленных на улучшение финансовой стабильности, транзакций и прозрачности.*

***Ключевые слова:*** *банковский надзор, регулирование, кризис, капитализация, риски, стабильность, мегарегулятор*

**Summary**

***Abbasbayli M.A.***

**Control and Regulation of Banking Activities: Problems and Perspectives**

*In the condition of modern crises, the bankruptcy of large banks in emerging economies led to the need to review the control and regulatory mechanisms of the financial system. In this case, the conversation focuse is not only on banking supervision and regulation, but also on the development of global rules aimed at improving financial stability, transactions and transparency.*

***Key words:*** *banking supervision, regulation, crisis, capitalization, risks, stability, mega-regulator*

# İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİNDƏ VALYUTA EHTİYATLARININ ROLU

**Abdullayev L.İ.**
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Azərbaycan Respublikasında valyuta ehtiyatlarının artması ümumən iqtisadi təhlükəsizlik baxımından mühüm hal hesab oluna bilər. Bu məqsədlə əsas strateji məhsul olan neftin satışından əldə edilən gəlirlər sonradan qeyri-neft sahələrinin inkişafına sərf edilməlidir. Son illər dünyada baş verən qlobal tənəzzül və böhran halları valyuta ehtiyatlarının da artımına mənfi təsir göstərmişdir. Məhz 2017-ci il üzrə illik valyuta ehtiyatlarının artması nəticəsində ölkənin iqtisadi təhlükəsizliyini təmin edəcək iqtisadi siyasətin aparılmasına münbit şərait yaranmışdır.*

***Açar sözlər:*** *iqtisadi təhlükəsizlik, iqtisadi siyasət, valyuta ehtiyatları, kredit*

İqtisadi əlaqələrin sürətli inkişafı müasir dünyada dövlətlərinin prioritet istiqamətlərindən biri hesab olunur. Siyasi və iqtisadi sahədə əməkdaşlıq əlaqələrinin qurulması ölkələr tərəfindən müəyyən olunmuş strategiyaya əsasən formalaşır. Ölkə üzrə tələbatın təmin olunması səmərəli iqtisadi əməkdaşlıq əsasında formalaşdıqda daxili resurslara qənaət etmə imkanları artmış olur. Bu əsasda ayrı-ayrı növlər üzrə tələbat göstəricilərinin müəyyən olunması və bununla da idxal və ixracın səmərəli təşkil edilməsi ölkənin mühüm iqtisadi təhlükəsizlik tədbirlərindən biri hesab olunur. Beynəlxalq təcrübəyə əsaslansaq, məlum olur ki, iqtisadi təhlükəsizlik hər bir ölkənin ümumi böhran şəraitinə uyğunlaşması və dözümlülük imkanlarını əks etdirir. Milli sərvəti olan ölkənin resurslarından istifadə etmə imkanları müntəzəm yeni texnoloji vasitələrin əldə edilməsi və çevik maliyyə siyasətinin aparılması əsasında təmin edilə bilər. Ümumən hər bir ölkə üzrə iqtisadi təhlükəsizlik şəraiti onun siyasi müstəqilliyinin yüksək olması əsasında formalaşır. Siyasi müstəqillik o halda qorunub yüksəliş yoluna daxil olur ki, həmin ölkədə mövcud resurslardan səmərəli istifadə edilsin və tələbatların ödənilməsində milli iqtisadi mənafelərin müdafiəsi yolları müəyyən olunsun. İqtisadi təhlükəsizliyin təmin edilməsində ölkənin maliyyə pul siyasəti real iqtisadi əsaslara uyğun aparılmalıdır. Milli valyutanın qorunması, inflyasiya həddinin aşağı salınması, məqsədəuyğun kredit münasibətlərinin yaradılması, ölkənin pul ehtiyatlarının artırılması kimi tədbirlər ümumən iqtisadi təhlükəsizliyin təmin edilməsinə xidmət edir.

Azərbaycan Respublikasında maliyyə-pul siyasətinin tənzimlənməsi müvafiq dövlət maliyyə qurumları tərəfindən yerinə yetirilir. Xüsusən iqtisadi sahədə inkişafa əsaslanacaq tədbirlərin həyata keçirilməsi səmərəli maliyyə-pul siyasətinin aparılması əsasında təmin edilir. Ölkəmizdə beynəlxalq iqtisadi əməkdaşlıq kontekstində əlaqələrin qurulması maliyyə resurslarının hərəkəti ilə müşahidə olunur. Dünya bazarında neft məhsullarımızın satış həcminin artması ölkəyə digər valyutaların daxil olmasına səbəb olur. Bu hal valyuta ehtiyatlarının artmasını əks etdirsə də digər tərəfdən milli valyutanın onlara nisbətdə ucuzlaşmasına səbəb olur. Eyni zamanda qeyri-neft sektorunda canlanmanın təmin edilməsi istehsalyönümlü sahələrdə müasir avadanlıqlarla təchiz olunma zərurəti yaradır. Tələb olunan texnoloji avadanlıqlar bu baxımdan məhz xarici valyutalar hesabına əldə oluna bilər. Deməli, ölkənin maliyyə-pul siyasəti həm daxili valyuta ehtiyatlarının qorunmasına xidmət etməlidir, həm də texnoloji avadanlıqlarla təmin olunmaq üçün maliyyə imkanlarının genişləndirilməsinə şərait yaratmalıdır. Bu iki fərqli cəhət iqtisadi təhlükəsizlik baxımından olduqca düşünülmüş və dəqiq hesablanmış iqtisadi əməkdaşlıq əsasında yarana bilər. Statistik məlumatlara əsasən Azərbaycanda 2017-ci il yanvar ayının 1-nə ümumi valyuta ehtiyatları 37 milyard 121,4 mln. ABŞ dolları təşkil etmişdir. Mövcud valyuta ehtiyatlarının 89,29% -i, yəni 33 milyard 147 mln. dolları Dövlət Neft Fondunun və 10,71%-i, yəni 3 milyard 974,4 mln. dolları Mərkəzi Bankın payına düşür. Əvvəlki illə müqayisədə ümumi cəm olaraq ölkənin valyuta ehtiyatları əvvəlki illə müqayisədə 3,81%, yəni 1 milyard 469,4 mln. dollar azalmışdır. Lakin 2018-ci il yanvarın 1-nə ölkəmizin valyuta ehtiyatlarında artma müşahidə olunur. Belə ki bu dövr üçün ümumi valyuta ehtiyatları 41 milyard 141,1 mln. dollar olmuşdur. Bu vəsaitin 87,03 %-i, yəni 35 mlyard 806,5 mln. dolları Dövlət Neft Fondunun və 12,97%-i yəni 5 milyard 334,6 mln. dolları Mərkəzi Bankın payına düşür. Artıq əvvəlki illə müqayisədə ölkənin ümumi valyuta ehtiyatı 10,83 %, yəni 4 milyard 19,7 mln. dollar artmışdır. Valyuta ehtiyatlarının artması, əsasən, Dövlət Neft Fondunun payına düşür. Belə ki məhz son ilin məlumatından aydın olur ki, 2 milyard 659,5 mln. dollar vəsait artımı Dövlət Neft Fondunda və 1 milyard 360,2 mln. dollar artım Mərkəzi Bankda müşahidə edilmişdir.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında valyuta ehtiyatlarının artım sürəti məqsədyönlü tələbatların ödənilməsinə münbit şərait yaratmış olur. Son bir il ərzində valyuta ehtiyatlarında artım ölkəmizin əsas ixrac potensialını təşkil edən neftin satışından əldə edilsə də, ölkə üzrə digər strateji sahələr üzrə təminatın həll edilməsi üçün maliyyə imkanları genişlənmişdir. Həmçinin kredit resurslarından istifadə

etmə imkanlarının genişlənməsi məhz Mərkəzi Bankın valyuta imkanlarının artması əsasında təmin edilmişdir. Statistik məlumatlardan aydın olur ki, 2017-ci ildə əvvəlki illərlə müqayisədə kredit qoyuluşları azalmışdır. 2014 və 2015-ci illərdə kredit vəsaitləri ilə təmin olunma yüksək olduğu halda, 2016-cı ildə bu sahədə tənəzzül müşahidə olundu. Buna səbəb əvvəlki illər üzrə problemli kreditlərin miqdarının artması ilə yanaşı, ümumən beynəlxalq miqyasda baş verən tənəzzül olmuşdur. Xüsusən ölkə üzrə həmin ildə valyuta ehtiyatlarının azalması kreditlə təminolunmada ciddi problemlər yaratdı. Bank kreditlərinin verilməsində 2017-ci il üzrə də mövcud vəziyyət hələ ki tam həllini tapa bilməmişdir. Bu il üzrə ümumi valyuta ehtiyatları 10,83 %, yəni 4 milyard 19,7 mln. dollar artsa da, ümumi kreditləşmə təxminən 11 milyard 757,8 mln. manat olmuşdur. Bu isə 2015-ci ildən başlayaraq bu sahədə azalmanı əks etdirir. Statistik məlumatlar əsasında təhlil apararaq qeyd etmək olar ki, neft gəlirlərinin artması ümumən ölkə üzrə iqtisadi təhlükəsizliyin təmin edilməsində maliyyə imkanlarının artmasını əks etdirir. Lakin bu artım istifadəsiz və yalnız dəfinə formasında qaldığı halda iqtisadi inkişafı təmin etmək qeyri-mümkün ola bilər. Ölkə üzrə stabil inkişaf üçün mövcud valyuta ehtiyatları digər qeyri-neft sahələrinin inkişafına yönəldilməlidir. Burada həm əmək, həm də maddi resurslardan səmərəli istifadə etmə modelləri qurulmalı və tətbiq edilməlidir. 2017-ci ilin yekunları üzrə əldə edilən ümumi valyuta ehtiyatları haqqında məlumatlanmadan aydın olur ki, ölkəmizdə bu istiqamətdə məqsədyönlü işlərin görülməsində dönüş əldə edilmişdir.

**Ədəbiyyat**


1. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti:Reallıqlar və perspektivlər. Bakı, 2009.
2. Azərbaycanın Statistik Göstəriciləri, Bakı, 2017
3. "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu
4. www.azstat.org



**Резюме**

***Абдуллаев Л.И.***

**Роль валютных обязанностей в обеспечение экономической безопасности**

Увеличение валютных резервов в Азербайджанской Республике может рассматриваться как важный вопрос экономической безопасности. С этой целью прибыли от продажи нефти, которая является основным источником доходов, должны быть направлены на разработку ненефтяных областей. Глобальный спад и кризис в мире негативно повлияли на рост валютных резервов в последние годы. В результате увеличения годовых валютных резервов на 2017 год были созданы благоприятные экономические условия для обеспечения экономической безопасности страны.

***Ключевые слова:*** *экономическая безопасность, экономическая политика, валютные резервы, кредит*



**Summary**

***Abdullayev L.I.***

**Role of Currency Reserves in Prarsion of Economic Safety**

*An increase in foreign exchange reserves in the Republic of Azerbaijan can be considered as an important economic security issue. For this purpose, revenues from the sale of oil, which are the main source of income, should be spent on the development of non-oil fields. Global recession and crisis in the world have adversely affected the growth of foreign exchange reserves in recent years. As a result of an increase in annual currency reserves for 2017, favorable economic conditions have been created to ensure economic security of the country.*

***Key words:*** *economic security, economic policy, foreign exchange reserves, credit*


## EMAL SƏNAYESİNDƏ SƏMƏRƏLİ İNVESTİSİYA SİYASƏTİNİN İQTİSADİ TƏHLÜKƏSİZLİYƏ TƏSİRİ


***Abdulazizov E.M.***

*Sumqayıt Dövlət Universiteti*



**Xülasə**

*Məqalədə investisiyanın xarakteri açıqlanmış, reallaşdırılması vasitələri göstərilmişdir. İnvestisiyaların səmərəliliyini yüksəltmək üçün bütün mərhələlərdə yüksək səmərəliliyin təmin edilməsinin vacibliyi qeyd edilmişdir. Klassiklərin fikirlərinə istinad olunmuşdur. Vurğulanmışdır ki, emal sənayesində investisiya fəaliyyətinin tənzimlənməsi sistemi iqtisadi təhlükəsizlik kimi hədəflərə çatmağı nəzərdə tutmalıdır.*

***Açar sözlə:*** *sənaye, investisiya, istehsal, səmərə, iqtisadiyyat, fəaliyyət*

Sənaye, artıq iki əsrdən çoxdur ki, maddi istehsalın intensiv inkişafının texniki bazasının yaranması və inkişafında həlledici rol oynayır. Onun rolu XXI əsrdə daha yüksək templə artmaqla, insan həyatının bütün sahələrini əhatə etmişdir. Maddi sərvətlərin cəmiyyətin mövcudluğu və inkişafına cəlb etməyin texnogen istiqaməti kimi sənaye sahələrinin fəaliyyətinin genişlənən arealı, həmin sahələrə yönəldilən investisiyaların səmərəliliyinin yüksəldilməsinin nəzəri-metodoloji məsələlərinin aktuallığını artırır.

İnvestisiya fəaliyyətinin məqsədi, iqtisadi və ya sosial səmərə əldə etməkdir. Müasir dövrdə, investisiyalaşdırılan proseslərin inkişafa (o cümlədən sənayedə əsas kapitalın artması və zənginləşməsinə) yönəldilən əsas vəsaitlərin funksional təyinatı baxımından şərhi investisiya anlayışına digər və yuxarıda qeyd ediləndən əhəmiyyətli dərəcədə fərqli yanaşmanı şərtləndirir.

İnvestisiya öz ölkəsində, yaxud xaricdə müxtəlif sahələrdəki müəssisələrə, maliyyə, sosial - iqtisadi proqramlara, innovasiya layihələrinə kapitalın, uzunmüddətli qoyuluşudur. [1, s. 378]

Sənayedə investisiya fəaliyyətinin nəticələri, həlledici dərəcədə dövlətin tənzimləyici tədbirlərinin keyfiyyət və kəmiyyət xarakteristikalarından asılıdır. Sahədə mühüm iqtisadi və sosial nəticələrə nail olmaq baxımından inkişafın dayanıqlı maliyyə təminatında aparıcı rol oynayan investisiya prosesləri dövlət tərəfindən fəal və hərtərəfli əsaslandırılmış surətdə tənzimlənməlidir.

Sənayenin emal sahələrində investisiya proseslərinin tənzimlənməsində səmərəliliyin iqtisadi, sosial, iqtisadi-ekoloji digər aspektləri nəzərə alınmalıdır. İnvestisiya fəaliyyətinin sadalanan səmərəlilik aspektlərində çoxsaylı və müxtəlif xarakterli təsirə malik göstəricilər təhlil edilməlidir.

Müasir dövrdə, investisiyalaşdırılan proseslərin inkişafa (o cümlədən sənayedə əsas kapitalın artması və zənginləşməsinə) yönəldilən əsas vəsaitlərin funksional təyinatı baxımından şərhi investisiya anlayışına digər və yuxarıda qeyd ediləndən əhəmiyyətli dərəcədə fərqli yanaşmanı şərtləndirir.

İnvestisiya prosesi pul təklif edənlə (müvəqqəti sərbəst vəsaitə malik olan tərəflə) tələb irəli sürən (ona ehtiyacı olan) tərəfin əlaqələndirilməsini əks etdirən mexanizmin fəaliyyətidir. [4, s. 15]

Emal sənayesində investisiyaların və investisiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi nəinki sahədə, habelə ümumilikdə milli iqtisadiyyatda dinamik və dayanıqlı inkişafa həlledici dərəcədə təsir imkanlarına malikdir. Məsələ ondadır ki, bir çox hallarda məhz emal sənayesi son istehlakçı tələblərini nəzərə alaraq, hazır məhsulu bazara çıxarır. Bu isə iqtisadi fəaliyyətin mərkəzi məsələsi olan satışın nəticələrinə və mahiyyət etibarı ilə, müəssisənin maliyyə durumuna təsir edir. Sənayedə istehsal və emal fəaliyyətinin intensivləşdirilməsi və genişləndirilməsinə xidmət edən investisiyaların səmərəliliyini yüksəltmək üçün araşdırmalardan və qabaqcıl təcrübənin təhlilindən göründüyü kimi, emal proseslərinin iqtisadi xarakteristikalarını hərtərəfli qiymətləndirmək tələb olunur.

Emal sənayesində maddi-texniki bazanın modernləşdirilməsi investisiya proseslərinin tənzimlənməsi dairəsinə təsirsiz qalmır. Bu və digər səbəblərdən həmin amillər ayrı-ayrılıqda spesifik xüsusiyyətlərə malik olsalar da, son nəticədə onlar istehsal fəallığına artan tələbatın ödənilməsi istiqamətində proporsionallığın təmin olunmasına imkan yaradır.

Pul vəsaitinin, maliyyə alətinin, yaxud digər qiymətlilərin istehsala və ya müxtəlif biznes sahəsinə yönəldilməsi investisiya hesab olunur. Belə ki, bu halda, investisiyalaşdırılan bu və ya digər prosesin mahiyyətinin növbəti mərhələdə açıqlanması nəzərdə tutulur. [2, s. 155]

Klassiklərin, o cümlədən C.Keyncin fikrinə görə, tədiyyə qabiliyyətli tələbin yüksəldilməsinə yönəldilmiş investisiyalar, milli iqtisadiyyatın əksər sahələrində çoxvektorlu imkanları reallaşdıra bilirlər. Başqa sözlə, bu məqsədlə:

- bankların və digər kredit təşkilatlarının kredit faizləri aşağı salına bilər. Bu zaman qoyuluşların son səmərəliliyinin yüksəldilməsinin təsiri altında investisiyalar artacaqdır;
- dövlət investisiya qoyuluşlarını artırmaq əlverişlidir;
- investisiyaların səmərəliliyinin yüksəldilməsi zəruridir

Emal sənayesində maddi-texniki bazanın modernləşdirilməsi investisiya proseslərinin tənzimlənməsi dairəsinə təsirsiz qalmır. Bu və digər səbəblərdən, həmin “ amillər ayrı-ayrılıqda spesifik xüsusiyyətlərə malik olsalar da, son nəticədə onlar istehsal fəallığına artan tələbatın ödənilməsi istiqamətində proporsionallığın təmin olunmasına imkan yaradır. [3, s. 7, 11]

Milli iqtisadiyyatının prioritet hesab edilmiş sahələrinin inkişafının sürətləndirilməsi, həm yerli, həm də xarici investisiyaların cəlb edilməsi üçün daha əlverişli şəraitin yaradılması, elmtutumlu sahələrin inkişafının, rəqabətqabiliyyətli yüksək texnoloji istehsal və xidmət sahələrinin təşkilinin dəstəklənməsi məqsədi ilə yaradılan xüsusi iqtisadi zonalar, sənayedə sahibkarlığın inkişafının müasir iqtisadi modellərindən biri kimi diqqətəlayiqdir.

Azərbaycan Respublikasının "Xüsusi iqtisadi zonalar haqqında" Qanununun (2009-cu il 14 apreldə qüvvəyə minmişdir) və bu qanunun tətbiqi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti tərəfindən

imzalanmış Fərmanda (Bakı, 3 iyun 2009, № 101) göstərildiyi kimi, xüsusi iqtisadi zonaların yaradılması və fəaliyyəti üzrə dövlət siyasəti Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən həyata keçirilir. [5]

Emal sənayesində investisiya fəaliyyətinin tənzimlənməsi sistemi çoxvektorlu proses olub, iqtisadi təhlükəsizlik, sistemlilik, dayanıqlıq və perspektivlilik kimi hədəflərə çatmağı nəzərdə tutmalıdır. Həmin hədəflərin əldə edilməsi sayəsində investisiya fəaliyyətinin tənzimlənməsi sistemi yüksək məcmu səmərəliliyi təmin edəcəkdir ki, bu da tənzimləmə obyektinin dinamik və tarazlı inkişafında, fəaliyyəti tənzimlənən təsərrüfatçılıq subyektlərinin ictimai faydalılıq baxımından bazarda səmərəli davranışında ifadə oluna bilər.

İnvestisiyaların səmərəliliyini yüksəltmək üçün investisya tsiklinin bütün mərhələlərində (planlaşdırma, layihələndirmə, bilavasitə investisiya qoyuluşu, vəsaitin mənimsənilməsi) yüksək səmərəlilik təmin edilməlidir. İnvestisiya fəaliyyətinin planlaşdırılma mərhələsində səmərəliliyi yüksəltmək üçün optimal nisbətlər təmin edilməli, məqsəd funksiyaları seçilərkən müddət, gəlir və məsrəf parametrləri diqqət mərkəzində olmalıdır.

Emal sənayesinin qeyri-neft sahələrində investisiyaların və investisiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin sadalanan və digər istiqamətlərində real nəticələrə nail olmaq üçün, bazar infrastukturunun (bank-maliyyə qurumları, sığorta şirkətləri və i.a.) imkanlarından səmərəli istifadə edilməlidir. Həmin imkanlardan səmərəli istifadə isə, məlum olduğu kimi, müvafiq normativ hüquqi bazanın təkmilləşdirilməsindən tutmuş, maliyyə vasitəçiliyi qurumlarının iş rejimlərinin xarakteristikalarına qədər çoxsaylı amillərdən asılıdır.

Emal sənayesi sahələrində fəaliyyət göstərən müəssisələrin rəqabət qabiliyyəti səviyyəsi investisiya cəlbediciliyinin qiymətləndirilməsinin ümumiləşdirici meyarı kimi qəbul edilməlidir. Belə ki, sənayedə emal fəaliyyətinin rəqabət mühitini formalaşdıran daxili inkişaf amillərinə resursların (maddi, əmək, maliyyə və informasiya resursları) səfərbərlik dərəcəsi, vergi, gömrük, kredit, qiymət və tənzimləmənin digər vasitələrindən istifadə səmərəliliyi, iqtisadi potensialın reallaşması səviyyəsi aid edilir.

Dayanıqlı inkişafa adekvat risk-menecmentin həyata keçirilməsi üçün, qabaqcıl təcrübədə tətbiq olunan üsullardan, habelə risklərdən sığortalanma, fəaliyyətin şaxələndirilməsi, limitlərinin müəyyən edilməsi, ehtiyatların yaradılması, natamam informasiya şəraitində qərar qəbulu hallarının minimuma endirilməsi kimi risk dərəcəsini azaldan vasitələrdən istifadə olunur.

Emal sənayesində investisiya fəaliyyətinin idarə edilməsi sisteminin səmərəliliyinin yüksəldilməsi idxalı əvəzləmə və ixracı təşviqetmə imkanlarını genişləndirməyə, ölkənin tədiyə balansında müsbət saldonun davamlı mövcudluğuna təmin etməyə, xammal ixracını azaltmağa və hazır məhsul ixracını təşviq etməyə, texnoloji innovasiyaların transferini və mənimsənilməsini sürətləndirməyə, sahədaxili fəaliyyət inteqrasiyası və sahələrarası inteqrasiya hesabına multiplikasiya effektini gücləndirməyə, mərkəzəqaçma meyillərini neytrallaşdırmaqla tarazlı ərazi inkişafı konsepsiyasını reallaşdırmağa imkan verəcəkdir.

Ədəbiyyat

1. İzahlı iqtisadi terminlər. I hissə. Bakı, Nurlan, 2005, 536 s.
2. Ağayev A. Maliyyə terminləri lüğəti. Bakı, 2005, 421 s.
3. Əliyev Q.İ. İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi. Bakı, 2009, 274 s.
4. Лоренс Дж. Гитман, Майкл Д. Джонк. Основа инвестирование. М.: Дело, 1997, 870 с.
5. www.economy.gov.az

**Резюме**

***Абдулазизов Е.М.***

**Влияние эффективной инвестиционной политики в обрабатывающей промышленности на экономическую безопасность**

*В статье раскрыт характер инвестиций, показаны средства их реализации. Для повышения эффективности инвестиций указана важность обеспечения эффективности на всех этапах. Приведены мысли классиков по этому вопросу. Было подчеркнуто, что регулирование инвестиционной деятельности в перерабатывающей промышленности должно быть нацелено на достижение экономической безопасности.*

***Ключевые слова:*** *промышленность, инвестиция, производство, эффективность, экономика, деятельность*

**Summary**

***Abdulazizov E.M.***

**Impact of Effective Investment Policy toEconomic Security in the Processing Industry**

*The article describes the nature of the investment and shows the means of its realization. The importance of ensuring high efficiency at all stages was emphasized in order to increase investment efficiency. It is based on the ideas of classics.*

*It was emphasized that the regulation of investment activity in the processing industry should aim to achieve targets such as economic security.*
***Key words:*** *industry, investment, production, efficiency, economy, activity*

## MALİYYƏ-BANK SİSTEMİNİN TƏHLÜKƏSİZLİYİNİN FORMALAŞMASI İSTİQAMƏTLƏRİ

***Ağayeva İ.R.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə***
*Dünya ölkələrinin təcrübəsi göstərir ki, milli iqtisadiyyatın formalaşması xeyli dərəcədə ölkənin sosial-iqtisadi inkişaf göstəricilərinin optimal səviyyəsinin təmin edilməsindən asılıdır. Məhz bu mənada Azərbaycanın milli iqtisadi təhlükəsizlik sisteminin formalaşdırılmasında ölkənin sosial-iqtisadi inkişaf göstəricilərinin, iqtisadi təhlükəsizliyin beynəlxalq təcrübədə sınaqdan çıxmış müvafiq astana kəmiyyətləri ilə müqayisə olunması mühüm əhəmiyyət kəsb edir.*
***Açar sözlər:*** *milli iqtisadi təhlükəsizlik, indikator, milli iqtisadiyyat, maliyyə- bank sistemi.*

İqtisadi təhlükəsizliyin beynəlxalq təcrübədə təhlili üçün respublikamızda iqtisadi təhlükəsizliyin təmin olunmasının müasir vəziyyəti və onların indikatorları qiymətləndirilməlidir. İqtisadi təhlükəsizlik indikatorlarına aiddir[1]:

- ölkə iqtisadiyyatının sabit artım qabiliyyətini xarakterizə edən indikatorlar;
- bütün maliyyələşmə mənbələri hesabına əsas kapitala investisiyaların həcmini xarakterizə edən indikatorlar;
- maliyyə – bank sisteminin təhlükəsizlik indikatorları;
- sosial sferanın təhlükəsizliyini xarakterizə edən indikatorlar;
- ölkənin xarici ticarət strukturunun səmərəliləşdirilməsini ifadə edən indikatorlar.

Son illər Azərbaycan iqtisadiyyatında müsbət meyillər daha da güclənmiş və iqtisadi artım tempi ən yüksək həddə çatmışdır. Nəticədə, makroiqtisadi sabitlik daha da möhkəmlənmiş, yüksək sosial-iqtisadi artıma nail olunmuşdur. Belə ki, 2015-ci ildə Azərbaycanda ümumi daxili məhsul 54,4 milyard manat olduğu halda 2016-cı ildə bu rəqəm 62,2 milyard manata çatmışdır.

İndi isə iqtisadi təhlükəsizlik indikatorlarından biri olan maliyyə-bank sferasının iqtisadi təhlükəsizlik anlayışını aydınlaşdıraq. Qeyd etmək lazımdır ki, iqtisadiyyatın davamlı inkişafı və diversifikasiyası, əhalinin rifahının yaxşılaşdırılması və bütövlükdə yoxsulluq səviyyəsinin aşağı salınmasında maliyyə sektoru müstəsna rola malikdir.

Məhz buna görə də ölkənin iqtisadi təhlükəsizlik sisteminin formalaşmasında maliyyə-bank sferasında təhlükəsizlik tədbirlərinin işlənib hazırlanması mühüm əhəmiyyət kəsb edir. Bunun üçün isə ölkənin valyuta-pul, vergi-büdcə və kredit sistemində mövcud olan daxili və xarici təhdidlərin qruplaşdırılmaqla müfəssəl təsnifatı və dərindən təhlili tələb olunur.

Beynəlxalq təcrübədə maliyyə-bank sferasında mövcud olan təhlükəsizlik təhdidləri ümumi şəkildə aşağıdakı kimi təsnifləndirilir[2]:

- siyasi cəhətdən qeyri-sabitlik;
- maliyyə sisteminin qeyri-sabitliyi;
- makroiqtisadi göstəricilərin (ÜDM-nin, istehsal həcmlərinin, gəlirlərin və s.) dinamikasında nizamsızlıq;
- fond bazarı infrastrukturunun zəif inkişafı;
- daxili və xarici borcun artımı;- investisiya sferasının böhranı;
- büdcə-vergi sisteminin aşağı səmərəliliyi;
- əhalinin əmlak diferensiasiyasının yüksək səviyyəsi;
- xarici-iqtisadi əlaqələrdə uyğunsuzluqlar;
- regional seperatizm: - özəlləşdirmənin səhvləri.

Maliyyə-bank sferasında mövcud olan iqtisadi təhlükəsizlik təhdidlərini konkret olaraq aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

- maliyyə-pul dövriyyəsi sferasındakı təhdidlər;
- bank sferasındakı təhdidlər;
- fond bazarının fəaliyyəti ilə bağlı təhdidlər;
- xarici ticarət fəaliyyətində təhlükəsizlik təhdidləri.

İki dəfə baş vermiş devalvasiyadan sonra hal-hazırda Azərbaycanda maliyyə-bank sistemində təhlükəsizlik indikatorlarının mövcud səviyyəsini qiymətləndirməklə, müasir qloballaşma şəraitində milli iqtisadiyyatımızın maliyyə-bank sferasında təhlükəsizlik prioritetlərinin formalaşması xüsusiyyətlərini aşkara çıxarmaq böyük əhəmiyyət kəsb edir.

Son illərdə ölkədə inflyasiyanın səviyyəsi məqbul hesab edilmiş, milli valyuta məzənnəsinin sabitliyi təmin olunmuş, beynəlxalq normalara uyğun valyuta ehtiyatları qorunub saxlanılmışdır. Bununla yanaşı, dövlətin pul-kredit və məzənnə siyasəti bank sisteminin daha da möhkəmləndirilməsinə və iqtisadiyyatın pulla təminatının daha da yaxşılaşmasına yönəldilmişdir.

**Ədəbiyyat**


1. Abbasov A.H. Azərbaycanda maliyyə bazarının formalaşması və bazar iqtisadiyyatında maliyyə - kredit sisteminin problemləri. Bakı, 2003.
2. Sadıqov M.M. Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul kredit siyasəti. Bakı, 2003.


**Резюме**


***Агаева И.Р.***


**Направления формирования безопасности финансово-банковской системы**


*Финансовый сектор имеет определяющую роль в интенсивном развитии и диверсификации экономики, улучшения положения населения и, в целом, снижении уровня бедности. Именно по этой причине для формирования безопасной экономической системы страны, финансы имеют важное значение, подготавливая систему безопасности банковской сферы.*



***Ключевые слова:****национальная экономическая безопасность, индикатор, национальная экономика, финансовая и банковская системы.*


**Summary**


***Agaeva I.R.***


**Directions of Forming the Security of the Financial and Banking System**


*The financial sector has a decisive role in the intensive development and diversification of the economy, improving the situation of the population and, overall, reducing poverty. It is for this reason that for the formation of a secure economic system of the country, finance is important, preparing a security system for the banking sector.*



***Key words:****national economic security, indicator, national economy, financial and banking system.*


## AZƏRBAYCAN BANKALARINDA KREDİT RİSKİ VƏ ANALİZ MODELLƏRİ


***Akbulaev N., Əsədova F.Q.***

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*


**Xülasə**


*Hər bir sahədə risk anlayışı önə çıxır. Kredit riski, ən sadə mənasıyla, bir bankın faktiki sahibi kredit müştərisinin, ya da özüylə bir razılaşmağa tərəf olanın, razılaşma şərtlərinə uyğun şəkildə öhdəliklərini qarşılaya bilməmək ehtimalıdır. Kredit riskin idarə edilməsinin məqsədi bankın müvafiq parametrlər daxilində məruz qaldığı riskləri idarə etməklə bankın riskə uyğunlaşdırılmış verimini maksimum dərəcədə artırmaqdır. Banklar kredit strategiyalarını yaxşı bir risk idarəetməsi üzərində qurmalıdır. Tətqiqatın nəticəsi olaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən bankların kredit risklərinin beynəlxalq standartlara uyğun olaraq ölçülüb monitorinq olunduğu, risklərin idarə edilməsi sistemlərinin hamısı müəyyən edilmişdir.*



***Açar sözlər:*** *Azərbaycan bankları, kredit riski, risklərin idarə edilməsi*


Risk – bankın mənfəətinə və kapitalına təsir edən gözlənilməz zərərin baş verməsi ehtimalıdır. Risklərin idarə edilməsi prosesi - iqtisadi həyatın və bankın yaşadığı fövqəladə vəziyyətlərdə bankın qarşı-qarşıya qala biləcəyi zərər böyüklüyünü əvvəldən öngörebilmek, ölçə bilmək və fövqəladə vəziyyətlərə hazırlıqlı olmaq və risk ortaya çıxdıqdan sonra da, normala dönməyə istiqamətli strategiyalar inkişaf etdirməkdir. Risklərin idarə edilməsi əsas korporativ funksiyadır. Risklərin idarə edilməsi, risk və gəliri idarəetmə qərarlarında istifadə edilməsini təmin edən bir prosesdir. Banklar etibarlı və dəqiq müəyyənləşdirilmiş kreditləşmə meyarlarına uyğun olaraq işləməlidir. Bu meyarlar həm kredit alan həm də kreditin quruluşu, alınmasında məqsəd və geri ödəmə mənbəyi haqqında kifayət qədər məlumat əldə edilməsinə imkan verir məzmunda olmalıdır [Doç. Dr.K.Evren Bolgün, M. Barış Akçay, 2009].

Bankların məruz qaldığı ən əhəmiyyətli risklərdən biri kredit riski. Maliyyə rəqabətini artırmaq, maliyyə institutları arasında rəqabət artırmaq, kredit bazarlarının inkişafı və yeni maliyyə alətlərinin

istifadəsi ilə kredit riskinin idarə edilməsi banklar baxımından daha çətinləşdi. Səmərəli kredit riskinin idarə edilməsi prosesində ilk addım bankın məruz qaldığı kredit risklərini müəyyən etmək, bu riskləri ölçmək və kredit risklərindən qorunmaq üçün yeni üsullardan istifadə etməkdir [Korkmaz,2004].

Araşdırmanın məqsədi, Azərbaycan bank sektorunda fəaliyyət göstərən bankların kredit riskinin qiymətləndirilməsi və hesaplanmasına istiqamətli beynəlxalq təcrübələrdən bankların nə ölçüdə faydalandıqlarını təyin etmək, kredit riskinin Azərbaycan bank sektorunda işləyiş mexanizmi təhlil etməkdir.

Bank sistemi - Azərbaycan maliyyə sisteminin mühüm elementi sayılır. Bu gün banklar aktivlərinin və kapitalının həcminə, regional əhatəsinə görə digər maliyyə vasitəçilərini dəfələrlə üstələyir. Hazırda respublikada inkişaf etmiş, bazar prinsiplərinə əsaslanan iki pilləli bank sistemi (birinci pillədə Azərbaycan Respublikasının Mərkəzi Bankı, ikinci pillədə kommersiya bankları və bank olmayan kredit təşkilatları) fəaliyyət göstərir. [http://azerbaijan.az/portal/Economy/BankSystem/bankSystem_01_a.html]

Əsas pilləni təmsil edən Mərkəzi Bank dövlətin mərkəzi bankıdır və onun fəaliyyəti “Azəbaycan Respublikasının Konstitusiyası”, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Qanun, Mülki Məcəllə və digər normativ hüquqi aktlarla tənzimlənir. Qanunvericiliyə uyğun olaraq, Mərkəzi Bank – bank fəaliyyətini lisenziyalaşdırır və tənzimləyir, qanunla müəyyən edilmiş qaydada bank fəaliyyətinə nəzarəti həyata keçirir. Bank sisteminin ikinci pilləsini kredit təşkilatları təşkil edir. Kredit təşkilatlarının fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, "Banklar haqqında" qanun, Mülki Məcəllə, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Bank olmayan kredit təşkilatları haqqında" və "Kredit İttifaqları haqqında" qanunlar və s. normativ hüquqi aktlarla tənzimlənir [https://www.cbar.az/].

01.01.2017-ci il tarixinə Azərbaycanda 32 bank fəaliyyət göstərir ki, onlardan 30-u özəl, 15-i xarici kapitallı bankdır, o cümlədən 6 bankın nizamnamə kapitalında xarici pay 50%-dən artıqdır (sonunculardan ikisi xarici bankların yerli filiallarıdır). Hesabat ili ərzində bank bazarına yeni iştirakçı daxil olmamış, ilin əvvəlində fəaliyyət göstərən 43 bankdan 11-nin lisenziyası ləğv edilmişdir. 31.01.2018 -ci il tarixinə Azərbaycanda 30 bank fəaliyyət göstərir ki, onlardan 28-i özəldir [Maliyyə Bazarlarına Nəzarət Palatası /Bank Sektorunun İcmal Göstəriciləri/ Hesabatı].

**Cədvəl 1.**

**Bankların sayı, xidmət şəbəkəsi və heyəti haqqında məlumatlar**

| Göstəricilər / Tarix | 31.12.2016 | 31.01.2018 |
|---|---|---|
| Bankların sayı | 32 | 30 |
| Dövlət bankları | 2 | 2 |
| Özəl banklar | 30 | 28 |
| Xarici kapitallı banklar | 15 | 15 |
| - nizamnamə kapitalının 50%-dən 100% qədərini təşkil edən, o cümlədən | 6 | 8 |
| - xarici bankların yerli filialları | 2 | 2 |
| - nizamnama kapitalının 50%-dən az olan hissəsini təşkil edən | 9 | 7 |
| İlin əvvəlindən lisenziya alan bankların sayı | 0 | 0 |
| İlin əvvəlindən lisenziyası ləğv edilmiş bankların sayı | 11 | 0 |
| Bankların filiallarının sayı: | 569 | 511 |
| Bankların şöbələrinin sayı: | 131 | 142 |
| ATM-lərin sayı | 2461 | 2439 |
| İşçilərin sayı | 16947 | 16207 |

*[Maliyyə Bazarlarına Nəzarət Palatası /Bank Sektorunun İcmal Göstəriciləri/ Hesabatı]*

Kredit riskini ölçmək üçün reytinq agentlikləri və banklar tərəfindən müxtəlif modellər hazırlanmışdır. Bu modellərdə əsas məqsədi ehtimal olunan risklərin müəyyən edilməsi, risklərin hesablanması, qiymətlərin müəyyənləşdirilməsi, kreditin girovlanması və ya satışı ilə ortaya çıxan kredit riskinin idarə olunmasıdır. Kredit riskin ölçülməsi metodları: 1) Ənənəvi modeller 2) Kredit hesablama modelleri 3) İnkişaf etmiş modeller [Korkmaz ,2004].

Ənənəvi Metodlar Ekspertiza Modelleri; Kredit riskinin ölçülməsində geniş istifadə olunan subyektiv modellərə ekspertizası modeli adlanır. Ekspertiza modelində, birbaşa filialdakı kreditlərdən məsul olan kredit işçisi kredit qərarını verir. Kredit ekspertinin hesab edə biləcəyi amillər sonsuzdur. Ancaq qəbul edilən sistem 5C modelidir. Bu modeldə kredit ekspertizası kredit qərarının ən əhəmiyyətli göstəricilərini müəyyən edən beş əsas amilini təhlil edir, subyektiv şəkildə qiymətləndirir və kredit qərarını verir. Bu modeldə kredit təcrübəsi kredit qərarının ən vacib determinantları olan beş əsas faktoru təhlil edir, onu subyektiv şəkildə qiymətləndirir. Bu 5 əhəmiyyətli xüsusiyyət: 1) xarakter (character) 2) sərmayə (capital) 3) tutum (capasity) 4) təminat (collateral) 5) iqtisadi şərtlər (economic conditions) [Altman ve Saunders, 1998].

Kredit hesablama modelləri, borclunun müşahidə xüsusiyyətləri haqqında məlumatı ya temerrüt ehtimalını hesablamaq ya da borcluları fərqli temerrüt qruplarına ayırmaq üçün istifadə edilməkdədir. Kredit hesablama modelləri: 1) Lineer Olasılık Modeli 2) Logit Model 3) Probit Model 3) Lineer Diskriminant Modeli.

İnkişaf etmiş modellər-kredit riskinin ölçülməsində istifadə olunan mövcud yanaşmalar kredit riskini ölçmək, qiymət səviyyəsinə uyğun olaraq risk səviyyəsinə uyğun olaraq gəlir dərəcəsini artırmaq üçün nəzərdə tutulmuşdur. Bu yanaşmaların əsas məqsədi portfelin nə qədər qaytarılacağını proqnozlaşdırmaqla, tələb olunan kapitalın məbləğinin çıxarılmasıdır. Merton əsaslı modellər, Moody's KMV Modelləri, CreditMetrics və Credit PortfolioView modelləri, beynəlxalq səviyyədə etibarlı və geniş istifadə olunan kredit riski ölçmə modelləridir [Doç. Dr.K.Evren Bolgün, M. Barış Akçay, 2009].

Tədqiqatım tam bitməsə də, əsasən, Azərbaycanda 5C modelinden istifadə olunur.

**Ədəbiyyat**

1. Azərbaycan Bankları Haqqında Qanun. Bakı, 2010
2. https://www.cbar.az/
3. Azərbaycan banklar assosiasiyasi “Bank sektoru trendləri”. 2016 /12/
4. Maliyyə Bazarlarına Nəzarət Palatası /Bank Sektorunun İcmal Göstəriciləri/ Hesabatı
5. http://azerbaijan.az/portal/Economy/BankSystem/bankSystem_01_a.html
6. Doç. Dr.K.Evren Bolgün, M. Barış Akçay “ Risk Yönetimi”. İstanbul: Skala Yayıncılık 2009
7. Korkmaz T. Bankalarda Kredi Riski Ölçümünde Alternativ Yöntemler.//Active Finans Dergisi Temmuz-Ağustos, 2004.

**Резюме**

***Акбулаев Н., Асадова Ф.Г.***

**Кредитные риски и аналитические модели в Азербайджанских банках**

*Концепция риска выделяется во всех областях. Риск кредитования - это, в простейшем смысле, возможность того, что клиенты-клиенты-бенефициары банка или участники соглашения не могут выполнить свои обязательства в соответствии с условиями соглашения. Цель управления кредитным риском - максимизировать доходность банка, скорректированную с учетом риска, путем управления рисками, которые могут быть подвергнуты банки в рамках соответствующих параметров. Банки должны создавать кредитные стратегии для эффективного управления рисками. В результате исследования были определены все системы управления рисками, в которых измеряется и контролируется кредитный риск банков, действующих в Азербайджанской Республике, в соответствии с международными стандартами.*

***Ключевые слова:*** *азербайджанское банки, кредитные риски, управление рисками*

**Summary**

***Akbulaev N., Asadova F.Q.***

**Credit Risk and Analysis Models in Azerbaijan Banks**

*The concept of risk stands out in every field. The risk of credit is, in its simplest terms, the possibility that a bank's beneficiary credit customers, or those who are parties to an agreement, can’t meet their obligations in accordance with the terms of the agreement. The goal of credit risk management is to maximize the risk-adjusted yield of the bank by managing the risks that the bank may be exposed to within the appropriate parameters. Banks are building their credit systems based on a good risk management. As a result of the study, all risk management systems, in which the credit risk of banks operating in the Azerbaijan Republic is measured and monitored in accordance with international standards, have been determined.*

***Key words:*** *Azerbaijan banking, credit risk, risk management*

## İQTİSADİ ARTIMIN TƏMİN OLUNMASINDA İNVESTİSİYANIN ROLU

***Bağırova T.H.***

*Sumqayıt Dövlət Texniki Kolleci*

**Xülasə**

*Məqalədə bazar münasibətlərində iqtisadi artımın investisiya qoyuluşu ilə qarşılıqlı əlaqədə olmasının araşdırılması bir məqsəd kimi qarşıya qoyulmuşdur. Burada ölkə iqtisadiyyatında əldə olunmuş nailiyyətlər, iqtisadi stabillik, rəqabətqabiliyyətli məhsulların artırılması, regional inkişaf və digər məsələlərə baxılmışdır. Milli iqtisadiyyatımızın daha da inkişaf etdirilməsi sahəsində sənaye parklarının yaradılması və onların iqtisadi artımın təminatçısına çevrilməsi şərh edilmişdir.*

***Açar sözlər:*** *nəzəriyyə, investisiya, milli gəlir, xərclər, qeyri-neft sektoru, sənaye parkı*

Mülkiyyət münasibətlərindən asılı olmayaraq, bütün cəmiyyətlərdə istehsal və qeyri-istehsal sahələrinin inkişafı, əsas fondların təzələnməsi, geniş təkrar istehsalın fasiləsizliyi, işsizlik probleminin həlli və nəhayət, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması ilk növbədə investisiya qoyuluşlarından, onun həcmindən, eləcə də səmərəli istifadəsindən asılıdır.

İnvestisiya qoyuluşlarına həlledici əhəmiyyət verən nəzəriyyə məşhur ingilis iqtisadçısı C.M.Keynsin iqtisadiyyatı tənzimləmək üçün irəli sürdüyü nəzəriyyə olmuşdur. Dövlətin iqtisadiyyata aktiv müdaxiləsinə üstünlük verən C.M.Keyns iqtisadi inkişaf və sabitliyə nail olmaq istiqamətində investisiya qoyuluşlarına xüsusi əhəmiyyət verirdi. Onun fikrincə, məhz investisiya qoyuluşlarının həcmində baş verən dəyişiklik iqtisadi işgüzar aktivliyin təkanverici qüvvəsidir. O investisiyaların səviyyəsinə bir çox amillərin, o cümlədən yığıma olan meylin təsir göstərməsini qeyd edirdi. İnvestisiyalara həlledici əhəmiyyət verən Keyns onun mənfəətliliyini, onlardan gözlənilən gəlir və həmin gəlirin nə qədər çox olması ilə istehsalın miqyasının və templərinin də bir o qədər çox olacağını göstərirdi. Bu nəzəriyyəyə görə dövlət %-in səviyyəsini tənzim etmək vasitəsilə və ya ictimai və digər sahələrə investisiyaları həyata keçirməklə onlara təsir göstərə bilər. Keyns tələbin artımına maneə törədən amillərdən biri kimi investisiya qoyuluşlarının səmərəliliyinin az olmasını göstərirdi. Belə ki, yığılmış kapitalın həcminin artması ilə mənfəət norması kapitalın məhsuldarlığının azalması qanunun təsiri altında aşağı düşür. Əgər mənfəət norması % normasından elə kəskin fərqlənmirsə, onda istehsalın genişləndirilməsindən və modernləşdirilməsindən yüksək gəlirin əldə olunmasına ümid etmək daha az cəzbedici olur. Buna görə də investisiya əmtəələrinə tələb aşağı düşür.

Keyns nəzəriyyəsində multiplikator konsepsiyası mühüm rol oynayır. Belə ki, o investisiya qoyuluşu ilə milli gəlir arasında asılılığı aşkar etmiş və onu “multiplikator effekti” adlandırmışdır. Multiplikator makroiqtisadi anlamda milli gəlirlə daha çox bağlı olan əmsalla yanaşı, gəlirin yüksəldilməsilə onu bəhrələndirən artım arasında mövcud olan münasibəti əks etdirir. Başqa sözlə, multiplikator milli gəlirin artımının investisiya artımından asılılığını göstərən əmsaldır. Bu, o halda artır ki, istehlakçılar öz gəlir artımından istehlakı artırmaq üçün meyilli olurlar, əksinə o zaman azalır ki, istehlakçılarda əmanət yığımına meyil güclənir. Keyns qeyd edir ki, iqtisadi inkişafın artım tempi sürətləndikcə investisiyaların artımı da baş verir. Eyni zamanda investisiyalara təsir göstərən amillərin öyrənilməsi istiqamətində % dərəcəsi ilə kapital qoyuluşu arasında mövcud olan əlaqəni aşkara çıxarmaq lazımdır. Belə ki, bu əlaqə ilk növbədə ona görə zəruridir ki, dövlətin yeritdiyi pul-kredit siyasəti ilə əlaqədar % dərəcələrində təzahür edən dəyişikliklərin birbaşa investisiyalara təsiri vardır [1, s.124].

Deməli, investisiya qoyuluşları haqqında bəzi nəzəri məsələlərə diqqət yetirməklə aydın olur ki, Azərbaycan Respublikası (AR) üçün problemin ətraflı təqdim edilməsi böyük nəzəri və təcrübi əhəmiyyətə malikdir. Bu öncədən milli iqtisadiyyata, xüsusilə onun neft-qaz sektoruna külli miqdarda investisiya qoyuluşları ilə bilavasitə bağlıdır.

Dünyada gedən siyasi və iqtisadi proseslər neftin dünya bazarında qiymətinin dəfələrlə aşağı salınmasına səbəb olmuşdur. Karbohidrogen ehtiyatları ilə zəngin olan ölkələrin-xüsusilə iqtisadiyyatı daha çox neftin satışından asılı ölkələrin durumu təhlükəli vəziyyətə düşmüşdür. Məlumdur ki, bu məsələlər Azərbaycan iqtisadiyyatından da təsirsiz keçməmişdir. Bununla belə, ölkə iqtisadiyyatının böhranlı vəziyyətindən uğurla çıxması üçün iqtisadiyyatın şaxələndirilməsi, postneft dövrünün tələbləri yerinə yetirilməkdədir.

Qeyri-neft sektorunun aparıcı sahəsi olan kənd təsərrüfatının ənənəvi sahələrindən olan pambıqçılığın, üzümçülüyün, baramaçılığın, tərəvəz və tütünçülüyün daha sürətlə inkişaf etdirilməsinin vacibliyi ön plana çəkilmişdir. Bunun nəticəsi olaraq, 2017-ci ildə bu sahədə məhsul istehsalı 479,2 mlrd. man. artmış (4,1%), 2018-ci ildə isə 616,6 mlrd man. artması nəzərdə tutulmuşdur.

Ölkədə yaradılmış əlverişli investisiya mühiti böhran illərində də sərmayə qoyuluşunun davamlı olmasını təmin etmişdir. Bunun nəticəsi kimi 2016-cı ildə ölkə iqtisadiyyatına 11 mlrd. $-dan çox investisiya yatırımı mümkün olmuşdur. Bunlardan 8 mlrd. $-ı xarici, yerdə qalanı isə yerli investisiya olmuşdur. 2017-ci ildə ölkə iqtisadiyyatına 14,6 mlrd. $ sərmayə qoyulub. Bu çox gözəl göstəricidir. Bir daha onu göstərir ki, həm yerli, həm də xarici investorlar ölkəmizə vəsait qoymaqda maraqlıdırlar. Dünyada iqtisadi və maliyyə böhranının davam etdiyi bir dövrdə xaricdən investisiya cəlb etmək heç də asan məsələ deyildir. Bu, onu deməyə əsas verir ki, xarici sərmayədarlar Azərbaycana inanır, onun etibarlı tərəfdaş olmağına etibar edir [2, s.4].

Azərbaycanda aparılan islahatlar, həyata keçirilən tədbirlər beynəlxalq iqtisadi və maliyyə qurumları tərəfindən lazımi səviyyədə qiymətləndirilir. Təsadüf deyildir ki, Dünya Bankının “Doing Business” hesabatında ölkəmiz dünya ölkələri arasında 65-ci, Davos ümumdünya İqtisadi Formu hesabatında isə rəqabət qabiliyyətinə görə 37-ci pilləyə qalxaraq MDB məkanında birinciliyi əlində saxlayır. İnkişaf dinamikasının kökündə iqtisadiyyatın diversifikasiyası istiqamətində həyata keçirilən məqsədyönlü siyasət

durur. Belə ki, ölkədə iqtisadiyyatın tərəqqisi məhdud sferada olmayıb, çoxsahəli, genişmiqyaslı xarakterə malikdir. İqtisadiyyatın müxtəlif sahələrində inkişafın paralel aparılması, bir-birini tamamlaması, ölkəmizin sosial-iqtisadi inkişafında yeni mərhələnin başlanğıcını qoyaraq, regionların inkişafını dövlət siyasətinin prioritet istiqaməti səviyyəsinə qaldırmışdır. Regionlarda iqtisadiyyatın inkişafını sürətləndirən amillərin, bununla bağlı dövlət siyasətinin və dəstəyinin əsas istiqamətlərinin müəyyən edildiyi proqram mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin genişləndirilməsinə, ixracatyönnümlü məhsul istehsalının stimullaşdırılmasına və bütövlükdə kənd təsərrüfatı sahələrinin inkişafına yol açır.

Azərbaycan başladığı böyük işləri, nəhəng layihələri uğurlu davam etdirir. Dünya enerji bazarında təklifin artması, tələbin isə həmin artım tempi ilə ayaqlaşmaması, ölkə iqtisadiyyatı üçün əsas gəlir və valyuta daxilolması mənbəyi olan neftin qiymətinin hələ də aşağı olması nəzərə alınmalıdır. Belə makroiqtisadi proseslər nəzərə alınmaqla, əvvəlki illərdən fərqli iqtisadi siyasət aparılmalıdır. Burada başlıca məqsəd dünya iqtisadiyyatında baş verən qlobal iqtisadi proseslərin yaratdığı risklərin, ölkə iqtisadiyyatına mövcud təsirlərin təhlil edilərək, ölkənin uzunmüddətli sosial-iqtisadi inkişafının prioritet istiqamətlərini nəzərə almaqla makroiqtisadi sabitliyin təmin edilməsidir.

Bu mənada ölkə başçısının xalqımızın maraqları və tələbatı üzərində qurulan inkişaf kursunun nəticəsi olaraq, dünyada baş verən dərin, siyasi və iqtisadi böhranlara baxmayaraq makroiqtisadi sabitlik saxlanılmaqdadır. 2018-cı ildə Azərbaycanın sosial-iqtisadi inkişafının yekunları göstərdi ki, regional və qlobal səviyyədə mürəkkəb iqtisadi proseslərin mənfi təsirləri olsa da, ölkədə iqtisadi inkişafın dayanıqlılığı qorunur.

Bununla bərabər, ötən ildə iqtisadi artım istənilən səviyyədə olmadı. Xüsusilə ölkələrin iqtisadi vəziyyətləri arasında fərq daha da dərinləşdi. Böyük Britaniyanın Avropa Birliyindən çıxması dünya iqtisadiyyatında mövcud olan qeyri-müəyyənliyi daha da dərinləşdirdi. Mənfi qlobal meyllər, təbii ki, Azərbaycan iqtisadiyyatı qarşısında da ciddi problemlər qoydu. Bunlar neftin dünya bazar qiymətinin aşağı və dəyişkən olması şəraitində büdcənin neft kəsirlərinin tədricən azaldılması, bu məqsədlə pul və fiskal siyasətin sərtləşdirilməsi iqtisadiyyatın şaxələndirilməsi, idxalın əvəzləndirilməsi imkanlarından tam istifadə etmək məqsədilə struktur və institusional islahatların sürətləndirilməsi və digər məsələlərin aktuallaşdırılmasını qarşıya qoydu [3, s.24].

Bu məqsədlə cari ildə və sonrakı illərdə fiskal qənaət siyasətinin davam etdirilməsi, dövlət büdcəsi xərclərinin daha qənaətlə icra edilməsi, xərclərin səmərəliliyinin artırılması məqsədilə daha vacib layihələrin reallaşdırılması artıq xərcə yol verilməməsi, dövlətin borc və öhdəliklərinin tam və vaxtında yerinə yetirilməsi, dövlət büdcəsinə Neft Fondundan transferin tədricən azaldılması, qeyri-neft sektoru və onun aparıcı sahələrində iqtisadi artımın dəstəklənməsi istiqamətində siyasət davam etdiriləcəkdir.

Bunu nəzərə alaraq 2018-ci ilin dövlət büdcəsi hazırlanarkən Beynəlxalq maliyyə qurumları tərəfindən xam neftin dünya bazarında proqnoz qiymətləri və digər qlobal amillər diqqət mərkəzində saxlanılmışdır. Xam neftin 1 bareli üçün proqnoz qiymətləri 50 $ tövsiyə edilsə də, 2018-ci ilin dövlət büdcəsi gəlirlərin hesablanması zamanı neftin 1 bareli üçün ixrac qiyməti 45 $ səviyyəsində nəzərdə tutulmuşdur. İcmal büdcənin gəlirləri hesablanarkən digər makroiqtisadi amillər də nəzərə alınaraq büdcənin gəlirləri 20127 mln., xərcləri isə 20905 mln. man. proqnoz edilir.

Büdcə gəlirlərinin vəziyyətinə uyğun olaraq, 2018-ci ilin dövlət büdcəsinin xərcləri sosial yönümlü olmaqla xərclərin strukturunun, səmərəliliyinin və ünvanlılığının artırılması, yalnız vacib investisiya layihələrinin maliyyələşdirilməsi nəzərdə tutulmuşdur. Cari ilin büdcə layihəsi hazırlanarkən xərclərin makroiqtisadi mühitə uyğun olaraq, ölkənin uzunmüddətli inkişafının təminatı, regionların inkişafına yönələn tədbirlərə önəm verilməsi, kənd təsərrüfatının ənənəvi sahələrinin (pambıq, üzüm, barama və s.) stimullaşdırılması və inkişaf etdirilməsinə, maliyyə təminatı diqqətdə saxlanılacaq [4,s.54].

Cari ilin büdcə və vergi siyasətinin başlıca xüsusiyyəti əvvəlki illərdə yürüdülən fiskal yığcamlaşdırma davam etdirilməklə Dövlət Neft Fondundan (DNF-dən) dövlət büdcəsinə transferin məbləğini mərhələli şəkildə azaltmaqdan ibarətdir.

Ötən ildə keçən ilə nisbətən transferin məbləği 1,5 mlrd. man. və ya 20%-dək azaldılaraq 6,1 mlrd. man. təşkil etmişdir. 2018-ci ildə isə DNF-dən dövlət büdcəsinə transferin məbləği 9,217 mlrd. man. nəzərdə tutulmuşdur. Bununla əlaqədar növbəti illərdə davamlı artımın təmin edilməsi üçün dövlət dəstəyi tədbirlərinin davam etdirilməsi, , kənd təsərrüfatına yararlı torpaqlardan və su təsərrüfatı resurslarından daha səmərəli istifadə olunması, intensiv metodların və müasir texnologiyaların geniş tətbiqi, yeni aqroparkların və müasir iri fermer təsərrüfatlarının yaradılması nəzərdə tutulmuşdur.

Ötən ilin büdcə xərcləri içərisində investisiya qoyuluşları diqqət mərkəzində saxlanılmışdır. Belə ki, cari ildə neft sektoruna 9,7 mlrd. man., qeyri-neft sektoruna isə 5,6 mlrd. man. investisiya qoyuluşu olmuşdur. 2017-ci ildə bir neçə mühüm layihələr yerinə yetirilmişdir. Belə ki, 2017-ci il 30 oktyabr tarixində

Bakı Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmiryolu istifadəyə verilmişdir. Eyni zamanda Ələt-Astara avtomobil yolunun tikintisi, kənd yollarının təmiri və istifadəyə verilməsi, vacib sosial layihələrin maliyyələşdirilməsi və s. nəzərdə tutulmuşdur.

2016-cı ildən tətbiq olunan "investisiyanın təşviqi" mexanizmi özəl investisiyanın artımına ciddi təsir etmişdir. Bu dövr ərzində sahibkarlara respublikanın 8 iqtisadi rayonu üzrə 79 investisiya təşviqi sənədi verilmişdir və daha 14 layihə xüsusi komissiyada baxılmışdır. Qeyd etmək lazımdır ki, investisiyanın təşviqi sənədi verilmiş layihələrin reallaşmasına 1,0 mlrd. man.-dək investisiya yatırılıb və 6000-dən çox yeni iş yeri açılmışdır.

Cari ildə Mərkəzi Bank sərt pul siyasətini həyata keçirməyə davam edəcəkdir. Əsas məqsəd pul emissiyasına yol verməmək, manatın məzənnəsinə əlavə təzyiq yaratmamaq və bu yolla infilyasıyanın qarşısını almaqdır. Cari ilin büdcəsi-xərclərin qənaətli və səmərəli istifadəsi gəlirlərin daha da artırılmasını təmin etməlidir.

Qarşıya qoyulan vəzifələrdən biri də büdcə xərclərinin səmərəliliyinin artırılması və optimallaşdırılmasıdır. Bu sırada vəzifələrdən biri də şəhər və rayonların dövlət büdcəsindən maliyyələşmənin azaldılması və tədricən dayandırılmasıdır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının nəticəsi olaraq regionlarda mühüm irəliləyiş baş verməkdir. Ölkə başçısı İlham Əliyev cənabları Füzuli rayon ictimaiyyətinin nümayəndələri və məcburi köçkünlərlə görüşdə bu barədə danışarkən deyib:

"Gələcəkdə bizim planlarımız ondan ibarətdir ki, hər bir rayon özünü təmin edə bilsin. Yəni bu gün rayonların bir çoxu dotasiya ilə yaşayır. İndi Azərbaycan dövlətinin gücü, maddi imkanları var, biz bunu edirik və edəcəyik. Ancaq hər bir rayon çalışmalıdır ki, öz hesabına yaşasın. Buna imkan var" [5].

Ötən illərdə büdcədən dotasiya alan rayonların sayının xeyli azalması göstərir ki, bütün bölgələrin özünümaliyyələşdirmə prinsipləri əsasında yaşaması mümkündür. Bunun üçün sadəcə hər bir şəhər və rayon özünün potensial imkanlarından düzgün yararlanmalıdır.

## Ədəbiyyat


1. Əliyev Q. İnvestisiya maliyyələşdirilməsi və kreditləşdirilməsi. Bakı: 2008.
2. Azərbaycan qəzeti. 17 noyabr 2017
3. Əmirov İ.B., Mirzəbəyov A.Ə. İnvestisiya menecmenti. Bakı: Təknur, 2014. 536 s.
4. Allahverdiyev H.B. İnvestisiya proseslərinin tənzimlənməsi. Bakı: 2003.
5. İqtisadiyyat qəzeti, №07, 15-21 fevral 2018.


## Резюме


***Багирова Т.Г.***


### Роль инвестиции в обеспечении экономическую прироста


*В данных статье основная цель-исследование взаимосвязи в рыночных отношениях инвестиционного вложения с экономическим приростом. Здесь рассмотрены полученные достижения, экономическая стабильность, увеличение конкурентоспособных продукции, региональное развитие и другие вопросы в экономике страны. Изложена роль инвестиции в развитии национальной экономики, создании промышленных парков и превращение их обеспечение экономического прироста.*



***Ключевые слова:*** *теория, инвестиция, национальный доход, расходы, не-нефтяной сектор, промышленный парк*


## Summary


***Baghirova T.H.***


### The Role of Investment in Ensuring Economic Growth


*In this article, the main goal is to study the relationship in the market relations of investment with economic growth. Here we consider the achievements, economic stability, increase in competitive products, regional development and other issues in the country's economy. The role of investment in the development of the national economy, the creation of industrial parks and the transformation of their provision of economic growth is described.*



***Key words:*** *theory, investment, national income, expenditures, non-oil sector, industrial park*

## İQTİSADİ TƏHLÜKƏSİZLİYİN FORMALAŞMASINDA İQTİSADİ DİVERSİFİKASİYANIN MODELLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

***Bayramov V.***
*İqtisadi və Sosial İnkişaf Mərkəzi*

**Xülasə**

*Azərbaycan iqtisadiyyatında diversifikasiya və eləcə də sənayeləşmə iqtisadi inkişafın prioritet istiqamətlərindən hesab edilir. Bu baxımdan sənaye sektorunda difersifikasiya imkanlarının tədqiq edilməsi və modelləşdirilməsi olduqca vacibdir. Ogive indeksi və VAR modeli sənayenin inkişaf potensialını qiymətləndirən əsas nəzəri modellərdən hesab edilir. Məqalədə sənayenin mövcud durumuna diqqət yetirilməklə, bu sahədə aparılan islahatlar qiymətləndirilib. Sənayeləşmə siyasətinin təhlili ilə yanaşı bu prosesdəki çətinliklər və maneələr də ayrıca öyrənilib. Həm tədqiqatlar, həm də nəzəri modelləşdirmələr göstərir ki, Azərbaycanda sənaye sektorunun inkişaf imkanları xeyili güclüdür. Sənaye sektorunun inkişafı bir tərəfdən daha dayanıqlı inkişaf, digər tərəfdən isə idxal əvəzləyici məhsulların istehsal edilməsi deməkdir. Bu isə Azərbaycanda iqtisadiyyatın diversifikasiyası baxımından olduqca əhəmiyyətlidir.*

***Açar sözlər:*** *diversifikasiya, sənaye, qeyri-neft sektoru, VAR modeli, iqtisadi inkişaf*

**Giriş**

Neftin dünya bazar qiymətinin azalması və qlobal-regional çətinliklər iqtisadi diversifikasiya və sənaye sektorunun inkişafı məsələlərini daha da aktuallaşdırmışdır. İqtisadi şaxələnmə eyni zamanda sənaye sektorunun sektoral diversifikasiya səviyyəsindən asılıdır. Bu baxımdan məqalə özündə regional diversifikasiyanı deyil, sektorial diversifikasiyanı şərtləndirir. Sektorial diversifikasiya “Ogive index” ilə Ümum daxili məhsul üçün hesablanır. Qeyd etmək lazımdır ki, sektorial məşğulluğun diversifikasiyası “Herfindahl-Hirschman” indeksi [1. s.45] ilə təmin olunur. Ogive indeksi Tress tərəfindən 1938-ci ildə təqdim edilib. Digər iqtisadçıların fikrincə, Hackbart və Anderson [2. s.32 ], o cümlədən Attaran və Zvink [3. s.143 ] metodları müxtəlif ölkələrdə iqtisadi diversifikasiyanı ölçmək üçün istifadə olunur. “Ogive indeksi” belə formada hesablanır:

$$OGV = N * \sum_{i=1}^{N}(P_i - 1/N)$$

Burada:

$P_i$-Sektorial ÜDM-in ümumi ÜDM-də payı

N- Sektorların ümumi miqdari iqtisadiyyatda

İqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun ÜDM-da payının artması ölkədə aparılan şaxələndirmə siyasətinin bariz nümunəsidir. Sırf qeyri-neft sektorunda xüsusi paya sahib Sənaye sahələri son 10 il müddətində kifayət qədər irəliləmişdir. Sənaye sektorları öz təbii və insan resursları, o cümlədən potensial daxili tələbata uyğun olaraq müvəffəqiyyətlə inkişaf etmiş sahələrdən biridir. Qeyd olunan sektor müstəqillik əldə etdikdən sonra digər sahələrlə müqayisədə daha çox gəlir gətirən sahə kimi müşahidə olunub.

Sənaye sektorunda iqtisadi siyasətin iqymətləndirilməsi məqsədi ilə VAR modelinin aşağıdakı şəkildə tərtib edilmiş tənliyindən istifadə edilib:

VAR Modeli

===============================

Y = C(1,1)*Y(-1) + C(1,2)*Y(-2) + C(1,3)*X1(-1) + C(1,4)*X1(-2) + C(1,5)*X2(-1) + C(1,6)*X2(-2) + C(1,7)*X3(-1) + C(1,8)*X3(-2) + C(1,9)*X4(-1) + C(1,10)*X4(-2) + C(1,11)*X5(-1) + C(1,12)*X5(-2) + C(1,13)*X6(-1) + C(1,14)*X6(-2) + C(1,15)[5. s.45]

Modelləşdirmə zamanı dəyişənlər aşağıdakı şəkildə işarələnib:

Vector Autoregression Estimates

| ÜDM, Mln. AZN | Uçot dərəcəsi, % | M0 pul aqreqatı | M3 pul aqreqatı | Investisiya | Dövlət xərcləmələri | Vergi güzəştləri |
|---|---|---|---|---|---|---|
| Y | x1 | x2 | x3 | x4 | x5 | x6 |

Sample (adjusted): 2003Q3 2014Q4
Included observations: 46 after adjustments
Standard errors in ( ) & t-statistics in [6. s.18]

| | Y | X1 | X2 | X3 | X4 | X5 | X6 |
|---|---|---|---|---|---|---|---|
| Y(-1) | 0.467247 | -3.47E-05 | 2.699635 | 2.321057 | 0.118371 | 0.004736 | -0.001025 |
| | (0.23596) | (5.4E-05) | (1.73609) | (2.98454) | (0.12647) | (0.00230) | (0.00102) |
| | [ 1.98018] | [-0.64279] | [ 1.55501] | [ 0.77769] | [ 0.93594] | [ 2.05896] | [-1.00638] |
| Y(-2) | 0.144570 | -4.55E-05 | -3.210745 | -4.195923 | -0.119676 | 0.000162 | 0.000126 |
| | (0.21089) | (4.8E-05) | (1.55162) | (2.66743) | (0.11303) | (0.00206) | (0.00091) |
| | [ 0.68552] | [-0.94182] | [-2.06928] | [-1.57302] | [-1.05876] | [ 0.07867] | [ 0.13843] |
| X1(-1) | 691.2339 | 1.271045 | 15063.64 | 27387.19 | 729.2478 | -17.28113 | -1.069167 |
| | (683.721) | (0.15661) | (5030.46) | (8647.97) | (366.465) | (6.66458) | (2.95019) |
| | [ 1.01099] | [ 8.11625] | [ 2.99449] | [ 3.16689] | [ 1.98995] | [-2.59298] | [-0.36241] |
| X1(-2) | -375.1521 | -0.571840 | -7737.898 | -12195.36 | -523.1408 | -6.266583 | 2.471803 |
| | (887.323) | (0.20324) | (6528.46) | (11223.2) | (475.592) | (8.64919) | (3.82871) |
| | [-0.42279] | [-2.81362] | [-1.18526] | [-1.08662] | [-1.09998] | [-0.72453] | [ 0.64560] |
| X2(-1) | -0.060017 | -9.44E-06 | 1.392751 | 0.193602 | -0.005599 | 0.000945 | -4.60E-05 |
| | (0.04187) | (9.6E-06) | (0.30807) | (0.52961) | (0.02244) | (0.00041) | (0.00018) |
| | [-1.43335] | [-0.98433] | [ 4.52086] | [ 0.36555] | [-0.24948] | [ 2.31497] | [-0.25441] |
| X2(-2) | 0.067379 | 1.17E-05 | -0.504969 | -0.325310 | 0.044159 | -4.65E-05 | 0.000202 |
| | (0.05203) | (1.2E-05) | (0.38282) | (0.65812) | (0.02789) | (0.00051) | (0.00022) |
| | [ 1.29496] | [ 0.98142] | [-1.31907] | [-0.49430] | [ 1.58342] | [-0.09159] | [ 0.90061] |
| X3(-1) | 0.004568 | 9.32E-06 | -0.599887 | 0.371254 | -0.012132 | -0.000687 | 2.82E-05 |
| | (0.02709) | (6.2E-06) | (0.19930) | (0.34263) | (0.01452) | (0.00026) | (0.00012) |
| | [ 0.16864] | [ 1.50275] | [-3.00991] | [ 1.08355] | [-0.83557] | [-2.60249] | [ 0.24150] |
| X3(-2) | -0.000185 | -8.87E-06 | 0.523219 | 0.480222 | -0.005609 | 0.000173 | -0.000127 |
| | (0.03128) | (7.2E-06) | (0.23016) | (0.39568) | (0.01677) | (0.00030) | (0.00013) |
| | [-0.00593] | [-1.23823] | [ 2.27326] | [ 1.21367] | [-0.33452] | [ 0.56834] | [-0.94328] |
| X4(-1) | 0.233368 | 8.33E-05 | -4.085857 | 0.600051 | 0.647260 | 0.001581 | 0.001054 |
| | (0.41876) | (9.6E-05) | (3.08100) | (5.29661) | (0.22445) | (0.00408) | (0.00181) |
| | [ 0.55729] | [ 0.86798] | [-1.32615] | [ 0.11329] | [ 2.88378] | [ 0.38730] | [ 0.58340] |
| X4(-2) | -0.309951 | -8.08E-05 | 7.998244 | 5.508649 | 0.086970 | 0.005812 | -0.000229 |
| | (0.47006) | (0.00011) | (3.45846) | (5.94551) | (0.25195) | (0.00458) | (0.00203) |
| | [-0.65938] | [-0.75035] | [ 2.31266] | [ 0.92652] | [ 0.34519] | [ 1.26846] | [-0.11304] |
| X5(-1) | 7.127815 | 0.001345 | -96.16159 | 365.9024 | -19.73611 | -0.570290 | 0.075713 |
| | (30.6241) | (0.00701) | (225.316) | (387.346) | (16.4141) | (0.29851) | (0.13214) |
| | [ 0.23275] | [ 0.19180] | [-0.42678] | [ 0.94464] | [-1.20239] | [-1.91046] | [ 0.57298] |
| X5(-2) | 1.658872 | -0.008274 | 563.2612 | 598.0756 | 31.83490 | 0.060592 | -0.007595 |
| | (29.9248) | (0.00685) | (220.171) | (378.501) | (16.0393) | (0.29169) | (0.12912) |
| | [ 0.05543] | [-1.20709] | [ 2.55829] | [ 1.58012] | [ 1.98481] | [ 0.20773] | [-0.05882] |
| X6(-1) | -66.94766 | -0.001883 | -463.5980 | -401.2291 | -44.20577 | -0.847171 | 0.871171 |
| | (46.0729) | (0.01055) | (338.980) | (582.748) | (24.6944) | (0.44910) | (0.19880) |
| | [-1.45308] | [-0.17842] | [-1.36762] | [-0.68851] | [-1.79011] | [-1.88639] | [ 4.38214] |
| X6(-2) | 4.904042 | -0.013799 | 403.8589 | 536.0953 | 26.29648 | 0.158924 | -0.023938 |
| | (45.8199) | (0.01049) | (337.119) | (579.548) | (24.5588) | (0.44663) | (0.19771) |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | [ 0.10703] | [-1.31478] | [ 1.19797] | [ 0.92502] | [ 1.07076] | [ 0.35583] | [-0.12108] |
| C | 112.7321 | 0.055850 | -488.1907 | -1079.898 | 25.23081 | 2.272940 | 0.156414 |
| | (83.0480) | (0.01902) | (611.024) | (1050.42) | (44.5125) | (0.80951) | (0.35834) |
| | [ 1.35743] | [ 2.93605] | [-0.79897] | [-1.02806] | [ 0.56682] | [ 2.80779] | [ 0.43649] |
| R-squared | 0.967487 | 0.955081 | 0.995999 | 0.996460 | 0.986669 | 0.966363 | 0.895236 |
| Adj. R-squared | 0.952804 | 0.934795 | 0.994192 | 0.994861 | 0.980649 | 0.951172 | 0.847923 |
| Sum sq. resids | 44036.68 | 0.002310 | 2383814. | 7045062. | 12650.88 | 4.184098 | 0.819891 |
| S.E. equation | 37.69003 | 0.008633 | 277.3035 | 476.7180 | 20.20131 | 0.367384 | 0.162629 |
| F-statistic | 65.89083 | 47.08085 | 551.1972 | 623.3133 | 163.8864 | 63.61502 | 18.92168 |
| Log likelihood | -223.1463 | 162.4063 | -314.9493 | -339.8727 | -194.4585 | -10.13211 | 27.35500 |
| Akaike AIC | 10.35419 | -6.408969 | 14.34562 | 15.42925 | 9.106892 | 1.092701 | -0.537174 |
| Schwarz SC | 10.95048 | -5.812673 | 14.94192 | 16.02554 | 9.703188 | 1.688997 | 0.059122 |
| Mean dependent | 430.5457 | 0.069674 | 4241.103 | 8621.063 | 201.7201 | 2.142080 | 0.217391 |
| S.D. dependent | 173.4898 | 0.033807 | 3638.624 | 6650.320 | 145.2189 | 1.662599 | 0.417029 |

| | |
|---|---|
| Determinant resid covariance (dof adj.) | 1.73E+08 |
| Determinant resid covariance | 10930141 |
| Log likelihood | -829.6600 |
| Akaike information criterion | 40.63739 |
| Schwarz criterion | 44.81146 |

VAR Modeli-dəyişənlər daxil edilməklə[7. s.21] :
===============================

Y = 0.467247045402*Y(-1) + 0.144569792307*Y(-2) + 691.233869815*X1(-1) - 0.0600173369428*X2(-1) + 0.00456832736281*X3(-1) + 0.233367766583*X4(-1) + 7.1278148772*X5(-1) - 66.9476647989*X6(-1) + 112.73206957

Sektora qoyulan investisiyalar və hökumət xərcləri ÜDM istehsalında effektiv olmaqla yanaşı, eyni zamanda vergi güzəştlərinin tətbiq edilməsi heç də müsbət təsir etmədiyini söyləyə bilərik. Bundan fərqli olaraq, uçot dərəcələrinin sektorda pozitiv təsir yaratdığını görmək olar.

**Nəticə və təkliflər**

Tətbiq edilən və aparılan tədqiqatlar əsasında aşağıdakı nəticələr əldə edilmişdir:

- Sektorun mövcud potensialı yüksək olsa da, inkişaf tempi zəifdir. Xüsusi ilə də yeyinti və yüngül sənaye, kimya sənayesi, əczaçılıq, maşınqayırma və elektronika istiqamətində rəqabətqabilliyyətli istehsal mühiti formalaşmayıb (məsələn: ənənəvi kimya sənayesi hazırda sektorda yaradılan əlavə dəyərin 0.08%-nə, əczaçılıq isə 0.01%-nə malikdir);
- Ölkə sənayesi daha neft təyinatlıdır – belə ki, sektorda yaradılan hər 100 manatlıq əlavə dəyərin 69,6 manatı xam neft və təbii qaz hasilatının, 9.5 manatı neft məhsullarının istehsalının və 3 manatı isə bu istiqamətlərdə xidmətlərin nəticəsində formalaşır;
- Sənaye sahəsi üzrə ölkə daha çox xammal istehsalçısı və ixracatçısı kimi təkmilləşib. Xüsusilə də neft sektorun aid subbölüm əsasən xammal ixracı üzrə formalaşıb;
- Qeyri-neft təyinatlı emal sənayesi zəif inkişaf edib – belə ki, bu istiqamət üzrə sənaye istehsalının sektor üzrə ümumi payı 5.8%-dir;
- Mövcud qeyri-neft emal sənayesi xammal baxımından böyük həcmdə idxaldan asılıdır;
- Sənaye sektorunda subsektorlararası kordinasiyalı fəaliyyət zəif inkişaf edib. Nəticədə yerli istehsalda mövcud tələbə istiqamətlənən xammal istehsalçıları yox səviyyəsindədir;

Bütün bunlar göstərir ki, Azərbaycan sənayesinin sektoral diversifikasiya imkanları kifayət qədər genişdir. Mövcud iqtisadi islahatlar qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatda sənayeləşmənin genişlənməsi üçün real baza formalaşdıra bilər. Bu baxımdan aşağıdakı təkliflərin reallaşması məqsədəuyğun hesab oluna bilər:

a) İqtisadi sektor və subsektorlararası rəqabət mühitinin formalaşdırılması – güclü rəqabət mühiti sektorlar üzrə mövcud potensialdan səmərəli istifadə, innovasiyanın tətbiqi və təşəbbüskarlığın-iqtisadi aktivliyin mühüm faktorlarından biridir;

b) Ölkənin Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlük prosesi və qlobal iqtisadiyyata inteqrasiya prosesi sürətləndirilməlidir – məhz bu halda sektoral üstünlüklər qısa zaman ərzində üzə çıxa və ölkədə səmərəli istehsal mühiti formalaşa bilər;

c) Hökumətin iqtisadiyyatda iştirakçılığı azaldılmalıdır – hökumətin bu sahədə funksiyaları azad bazar mühitinin formalaşdırılması, təşviqedici proqramların hazırlanması və icrası, qanunvericiliyinin təkmilləşdirilməsi və qanunların işləkliyinin təmin edilməsi, təhlükəsiz investisiya mühitinin yaradılması və iqtisadi fəaliyyətin təşkili ilə məhdudlaşmalıdır;

ç) Ucuz maliyyə əlçatanlığı təmin edilməli və müqayisəli üstünlüyə malik iqtisadi sektorlar üzrə dövlət kreditlərindən istifadə imkanları genişləndirilməli, subsidiyalaşdırma və kreditləşdirmə prosesində şəffaflıq təmin edilməli, subyektiv yanaşmalar aradan qaldırılmalıdır.

**Ədəbiyyat**

**1.** Merlin Hackbart and Donald Anderson, On Measuring Economic Diversification, Land Economics Journal, Vol 54, February, 1978, p.p 123-167.

**2.** Akio Matsumoto, Ugo Merline and Ferenc Szidarovsky, Some notes on applying the Herfindahl-Hirschman Index, University of Arizona Press, 2010, pages 45-83.

**3.** Regional Economic Diversity and Regional Economic Stability: Research Results and Agenda,International Regional Science Review, October 2003, p.p. 423-446.

4. Hesabat. İqtisadiyat və Sənaye Nazirliyi, Qeyri-neft sənayesi-2014

**5.** Labour market reforms since the crisis: Drivers and consequences, p.p.134-138

6**.** Bernhard Pfaf, VAR, SVAR and SVEC Models: Implementation Within R Package vars, Journal of Statistical Software, 2010, p.p 2-14.

**7.** Luetkepohl Helmut,Vector Autoregressive Models for Multivariate Time Series, European University Press, 2011, p.p. 20-56.

**Резюме**

***Байрамов В.***

*Центр экономического и социального развития*

**Направления моделирования диверсификации экономики в формализации экономической безопасности**

*Диверсификация и индустриализация считаются приоритетами для развития экономики Азербайджана. В связи с этим, исследования и моделирования возможностей диверсификации в промышленном секторе является очень важным. Индекс Огива и VAR модель рассматриваются как основные теоретические модели для оценки потенциала развития промышленности. В статье основное внимание уделено текущему состоянию развития промышленности, а также оценены реформы. В дополнение к анализу проблем и препятствий в этом процессе, политика развития промышленности также изучается в статье. Исследования и построенные теоретические модели показывают, что возможности для развития промышленного сектора достаточно высоки. Развитие промышленного сектора это устойчивое развитие с одной стороны, и производство для заменены продуктов импорта с другой. Это очень важно с точки зрения диверсификации экономики Азербайджана.*

***Ключевые слова:*** *диверсификация, промышленность, сектор за вычетом нефтепродуктов, модель VAR, экономическое развитие*

**Summary**

***Bayramov V.***

*Center for Economic and Social Development (CESD)*

**Problems of Modelling of Economic Diversification in the Formalization of Economic Security**

*Diversification and industrialization are considered as a key factors and priorities for development of the economy of Azerbaijan. In this regard, research and modelling of opportunities of diversification in industrial sector is very crucial. The Ogive index and VAR model are considered as the main theoretical models for an assessment of potential of development of the industry. In article, the main attention is paid on the industry flowing to a condition of development, but reforms have been estimated too. In addition to the analysis of problems and obstacles in this process, the policy of development of the industry is studied in article too. Researches and the constructed theoretical models show that opportunities for development of industrial sector it is sufficiently high. Developments of industrial sector is steady developments on the one*

*hand, and production for are replaced import products on the other hand. It is very important from the point of view of diversification of economy of Azerbaijan.*

***Key words:*** *diversification, industry, non-oil sector, VAR model, economic development*

## AQRAR SEKTORDA KREDİT SİYASƏTİNİN FORMALAŞMASI QAYDALARI

***Əfəndiyeva J.M.***
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Xülasə**

*Məqalədə müəllif aqrar sektorda kredit siyasətinin formalaşması qaydalarını müəyyən etmişdir. Bunun üçün kredit siyasətinin mahiyyəti izah edilmiş, kredit siyasətinin parametrləri müəyyən edilmiş, kreditin bir sıra əlamətlər üzrə təsnifatlaşması aparılmışdır. Həmin əlamətlərə kredit alanın statusu, kreditin verilmə forması, valyuta ssudalarının formaları, kreditin məqsəd və təyinatı, kreditin təyin olunma dərəcəsi, kreditin müddəti, faiz dərəcələrinin növü və s. aid edilmişdir. Qeyd edilənlərin əsasında aqrar sektorda kreditləşmə qaydası müəyyən edilmişdir.*

***Açar sözlər****: kredit siyasəti, kredit siyasətinin parametrləri, kreditin təsnifatı, kreditləşmə qaydaları*

Kommersiya banklarının aqrar bölmədə kredit siyasətinin formalaşması kreditləşmənin srateji məqsədlərinin müəyyən olunmasından başlayır. Kredit münasibətləri sahəsində bütün bankların məqsədi demək olar ki, eynidir – kredit əməliyyatlarından maksimal gəlir götürmək və kredit riskinin səviyyəsini mümkün qədər aşağı salmaq. Bu, istənilən bankda kreditləşmənin ümumi və əsas məqsədidir. Lakin, bununla yanaşı, hər bir konkret bankın digər xüsusi məqsədləri də olmalıdır. Məsələn, yeni coğrafi bazarlara daxilolma, müştərilərə yeni kredit xidmətlərinin təklif olunması, müəyyən biznes sahəsini təmsil edən müştərilərlə əməkdaşlıq və s.

Kreditləşmənin xüsusi məqsədlərinin seçilməsinin, bank üçün aşağıdakı mühüm əhəmiyyətləri vardır:

- Qarşıdakı müddət üçün bankın ümumi məqsədlərinin (o cümlədən gəlirlilik və likvidliklə əlaqədar) müəyyən olunması;
- Kredit bazarının tam uyğunluqla təhlili;
- Bankın resurs bazasının inkişaf prespektivlərinin aydınlığı;
- Bankın kredit portfelinin keyfiyyətinin dəyərləndirilməsi;
- İşçi heyətinin peşəkarlıq səviyyəsinin nəzərə alınması.

Banklar orta və uzunmüddətli dövr üçün kredit siyasətinin istiqamətlərini müəyyən etməlidir. Belə istiqamətlər rolunda problemli kreditlərin maksimal həcmi, kredit portfelinin seqmentlərinin normaları və s. çıxış edə bilər. Belə ki, kredit normaları və qaydaları haqqında danışarkən, eyni sahəni təmsil edən mütəxəssislərin, eyni tipli mülkiyyətin, müəyyən kredit tarixinə malik müştərilərin, yeni müştərilərin kreditləşməsinə olan normalar, coğrafi normalar və s. nəzərdə tutulur.

Kredit siyasətinin məqsədlərinə əsasən bankın kredit şöbəsinin bu məqsədlərin yerinə yetirilməsi üçün həll edəcəyi məsələlər formalaşdırılmalıdır. Bunlar aşağıdakılardan ibarət ola bilər:

- müştərilərin krediti ödəmə qabiliyyətinin qiymətləndirilməsinin təkmilləşdirilməsi;
- kreditlərin qaytarılmasının təmin edilməsinin yeni formalarının işə salınması;
- qəbul edilən qərarların obyektivliyinin yüksəldilməsi;
- kredit prosesinin bütün mərhələlərində nəzarət sisteminin yaradılması və s. (4, c164)

Kredit siyasətinin əsas elementlərindən biri kreditləşdirmənin prinsipləridir. Bunlara aşağıdakılar aiddir:

qaytarmanın zəruriliyi; müddətlilik; məqsədyönlülük; təmin olunma; ödənişlilik.

Bu prinsiplərin məğzi kifayət qədər məlum olsa da kommersiya banklarının işi bunların hər birinin mahiyyətini müəyyən etməkdən ibarətdir, çünki ayrılıqda hər bir kommersiya bankı öz kredit siyasətini həm strategiya, həm də taktika baxımından fərqli şəkildə qura bilər.

Bundan başqa, strateji nöqteyi-nəzərdən, kredit siyasəti potensial müştəriləri potensial biznes layihələrini və təmin olunma qarşısında qoyulan konkret tələbləri müəyyən etməlidir. Başqa sözlə, kredit siyasətinin hər bir elementi üzrə kredit məhdudiyyətləri dəqiq şəkildə müəyyən edilməlidir. Belə ki, bu məhdudiyyətlər təmin etmənin müxtəlif formalarının tətbiqi ilə bağlı müəyyən edilə bilər və s. Kredit vəsaitinin yerləşdirilməsinin istiqamətləri kimi elementi də dəqiq müəyyən olunmalıdır. Kredit haqqında ərizələrin seçilmə meyarları mövcud olmalıdır. Əgər müştəri və onun kredit haqqında ərizəsi aşkar şəkildə bankın tələblərinə cavab vermirsə, bank işçilərinin bu müştəriyə vaxt ayırmalarının heç bir mənası yoxdur.

Kommersiya bankının özünün aqrar bölmədən olan müştərilərinə verəcəyi kreditin forma və növlərinin müəyyən edilməsi kredit siyasətinin mühüm elementlərindəndir.

“Rus dilinin izahlı lüğəti”ndə “növ”ə “əşyanın dəyişmiş forması, tipi, vəziyyəti və ya digər xüsusiyyəti” kimi tərif verilir. Kredit öz əksini formalarda tapır. Bu baxımdan kreditin hər bir forması bir tərəfdən kreditin mahiyyətini, digər tərəfdən isə kredit münasibətləri ilə bağlanmış saziş arasında olan qarşılıqlı əlaqəni özündə əks etdirir. “Forma” - “1) xarici görünüş, 2) təşkilatın sistemi, quruluşu, daxili məzmuna möhkəm bağlı olan daxili struktur...”.

İqtisadi ədəbiyyatda kreditlərin təsnifatı ilə bağlı məsələ öz ictimai həllini hələ tapmamışdır. Elə məhz bu səbəbdəndir ki, elmi şərhlərdə “ssuda”, ssudanın “tipi” və “növü”, “kreditin növü”, “kreditin forması” və s. kimi anlayışların şərhində uyğunsuzluq mövcuddur. Sovet iqtisadi ədəbiyyatında əsas anlayışların şərhində yekdillik yox idi.

Müasir ölkə ədəbiyyatlarının kreditlərin əsasən xarici iqtisadi ədəbiyyatdan götürülmüş təsnifatdan istifadə olunur. Burada kreditlər verildikləri müddətə, müştəriləri və kredit verənlərin qruplarına, təmin olunmanın növlərinə, kreditlərin həcminə, təyinatın növlərinə və s. görə müxtəlif qruplara ayrılır.

Kreditlərin təsnifatına kommersiya bankları nöqteyi-nəzərindən yanaşaraq və əldə olunan məlumatları ümumiləşdirərək, müəllif aşağıdakı təsnifatı əsas tutur:

Kredit alanın statusu:

1. Müəssisə və təşkilatlar; 2. Banklar; 3. Dövlət orqanları və dövlət proqramları; 4. Fiziki şəxslər; 5.Sahibkar fiziki şəxslər.

Kreditin verilmə forması:

1. Təcili kreditlər;
2. Yenidən maliyyələşdirmə (veksellərin yenidən uçota alınması, və s.);
3. Veksel kreditləri;
4. Kredit xətləri;
5. Kontokorrent kreditlər;
6. Overdraftlar.

Valyuta kreditləri:

1. Milli valyutada kredit;
2. Kredit verən ölkənin valyutasında kredit;
3. Üçüncü ölkənin valyutasında kredit;
4. Multivalyuta kreditləri.

Kredit əməliyyatında iştirak edənlərin sayı:

1. İkitərəfli sazişlər; 2. Çoxtərəfli sazişlər (sindikatlaşdırılmış sazişlər, bank konsorsiumu tərəfindən kreditləşdirmə).

Kreditin məqsədi və təyinatı:

1. İnvestisiya kreditləri (istehsal fondlarının, istehsal həcminin artırılması, ehtiyatların artırılması).
2. Dövriyyə və vəsaitlərinin artırılması (ödəniləcək sənədlər üçün kreditlər, əmtəə-mal ehtiyatlarının artırılması, və s.);
3. İpoteka (daşınmaz əmlakın alınması üçün);
4. İstehlak kreditləri.

Kreditin təmin olunma dərəcəsi:

1. Təmin olunmuş kreditlər;
2. Təmin olunmamış kreditlər (bank kreditləri);

Kreditin müddəti:

1. Tələb olunanadək; 2. Qısamüddətli; 3. Ortamüddətli; 4. Uzunmüddətli.

Faiz dərəcəsinin növü:

1. Faiz dərəcəsi qəti müəyyənləşdirilmiş;
2. Üzən faiz dərəcələri.

Ödəmə qaydası:

1. Kredit müddətinin sonunda birdəfəlik ödənən kreditlər;
2. Kredit müddəti ərzində bərabər hissələrlə ödənən kreditlər;
3.Qeyri-bərabər hissələrlə ödənən kreditlər;

Uzun illər ərzində Azərbaycanda kreditlərin verilməsi AR MB-nın 03.04.2001 tarixli (protokol №13, reyestr №13) və “Uçot qaydaları və banklarda kredit verilməsinin daxili proseduru” sərlövhəli qaydaları ilə tənzim olunurdu (1). Bu Qaydaya uyğun olaraq, Azərbaycanda kreditləşmənin aşağıdakı yollarla həyata keçirilirdi:

1. Pul vəsaitinin bank hesabına birdəfəlik köçürülməsi və ya fiziki şəxs olan borcalana nağd pulun verilməsi yolu ilə;

2. Kredit xəttinin açılması, yəni borc alanın razılaşdırılmış müddət ərzində istifadə edə biləcəyi kreditin maksimal həcmi haqqında müqavilə bağlanması;

3. Müştərinin bank hesabının kreditləşdirilməsi (həmin hesabda kifayət qədər pul vəsaitinin olmadığı və ya ümumiyyətlə olmadığı halda) və hesab sənədlərinin ödənilməsi yolu ilə, bir şərtlə ki müştərinin öz kredit öhdəliklərini ödəyəcəyi məbləğ və müddət haqqında razılıq əldə olunsun;

4. Bankın pul vəsaitinin sindikatlaşdırılmış (konsorsiumlaşdırılmış) əsasda verilməsində iştirakı yolu ilə.

5. Bununla yanaşı, qüvvədə olan qanunvericiliyə zidd olmayan digər üsullarla da kredit verilməsinə icazə verir.

Qeyd etmək lazımdır ki, bu Qaydaların bir sıra ciddi çatışmazlıqları olmuşdur.

Birincisi, qaydaya görə, yalnız yenilənə bilməyən kredit xətlərinin verilməsinə icazə verilirdi. Bununla da dövriyyə vəsaitinin kreditləşdirilməsinə daim ehtiyac duyan və "overdraft" üsulundan istifadə edə bilməyən müştərilər üçün məhdudiyyət yaranmış olurdu

İkincisi, qaydaya görə, müştəri ancaq o zaman "overdraft" üsulundan istifadə edə bilərdi ki, onun kredit üzrə borcu ayrıca balans hesabında uçota alınsın. Odur ki, bank müştərinin hesabında olan pul vəsaitini avtomatik olaraq kreditin ödənilməsinə yönəldə bilmirdi. Dünyada olan bankların çoxunda "overdraftların uçotu vahid aktiv-passiv hesabda aparılır. Həmin hesaba müəyyən pul məbləği köçürüldükdə müştərinin kredit üzrə borcu avtomatik olaraq azalır. (2, c 42) Azərbaycan banklarının kredit portfelində ən böyük xüsusi çəki 3-6 ay müddətinə verilən kreditlərə məxsusdur. İqtisadiyyatın real sektoruna, o cümlədən aqrar sektora kapital qoyuluşunun maliyyələşdirilməsinə kredit verməyə banklar o qədər də maraqlı deyillər. Banklar hələ də ticarət və vasitəçiliklə məşqul olan şirkətləri fəal surətdə kreditləşdirirlər. Lakin prioritetlərin dəyişməsi (manatın xarici valyutadan üstün tutulması) ilə əlaqədar ticarətin kreditləşməsində də struktur dəyişiklikləri baş vermişdir. 1995-ci ildən başlayaraq, banklararası kredit bazarı öz cazibədarlığını itirməyə başlamışdır. Son illər ərzində isə o, bank likvidliyinin saxlanılmasında əsas vasitə rolunu da itirmiş oldu.

Hazırda kreditləşmə, əsasən, MBNP-nın qaydaları və digər normativ aktlara əsasən həyata keçirilir və həmin sənədlər də təkmilləşdirilməkdədir. İrəlidə göstərilən məhdudiyyətlərin bəzisi aradan qaldırılmışdır.

Kommersiya bankının həyata keçirdiyi kreditləşdirmənin növ və formalarından asılı olaraq, kredit bölmələrinin təşkilati strukturu formalaşır. Aydındır ki, kredit prosesində iştirak edən bölmələrin strukturu müxtəlif ola bilər. Hər bir kommersiya bankında bu struktur, kreditləşdirmənin istifadə olunan növ və formaları ilə yanaşı, bir sıra amildən, o cümlədən bankın miqyasından, onun ərazi strukturundan, verdiyi kreditlərin həcmindən və s. asılıdır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında kreditlərin verilməsinə dair AR. MB-nin 03.04.2001 tarixli (protokol № 13, reyestr XI 13) Qaydaları.

2. Bağırov M.M. Kommersiya banklarının kredit siyasəti. Azərbaycan Respublikasının Elm və Texnika üzrə dövlət komitəsinin nəşriyyatı, Bakı, 1997, 80 s.

3. Pul, kredit banklar: İqdisadi ixtisaslar üzrə ali məktəblər üçün dərslik. O.İ. Lavruşinin rəhbərliyi altında. – "Maliyyə və statistika", 1998, 447 s.

4. Siropolis Nikolas K. Bank biznesinin idarə edilməsi. Sahibkarlar üçün vəsait. M.: İş-2007, 326 s.

**Резюме**

***Афандиева Ж.М.***

Правила формирования кредитной политики в аграрном секторе

*В статье автор определил правила формирования кредитной политики в аграрном секторе. С этой целью была оценена сущность кредитной политики, определены параметры кредитной политики и классификация кредитов по ряду критериев. Эти параметры включают статус заемщика, форму выдачи кредита, формы валютных ссуд, цель и назначение кредита, степень определения займа, срок кредита, тип процентных ставок и т.д.. Исходя из вышесказанного, была определена процедура кредитования аграрного сектора.*

***Ключевые слова:*** *кредитная политика, параметры кредитной политики, классификация кредитов, правила кредитования*

**Summary**

***Afandiyeva J.M.***

**Rules for the Formation of Credit Policy in the Agricultural Sector**

*In the article the author has defined the rules of formation of credit policy in the agrarian sector. For this purpose, the essence of the credit policy has been explained, the parameters of the credit policy have been determined and the credit classification has been ascertained according to a number of features. These features include the status of the borrower, the form of credit, the forms of currency loans, the purpose and*

*assignment of the loan, the degree of loan assignment, the term of the loan, the types of interest rates and so on. On the basis of the above mentioned points, the procedure for lending in the agrarian sector has been characterized.*
***Key words:*** *credit policy, credit policy parameters, classification of credit, crediting rules*

## İNVESTİSİYA QOYULUŞUNUN İDARƏ EDİLMƏSİNİN TƏŞKİLATİ-İQTİSADİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

***Əhmədova T.M.,***
*Sumqayıt Dövlət Universiteti*
***Telliyeva N.N.***
*Sumqayıt Dövlət Texniki Kolleci*

**Xülasə**

*İqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, bütün sənaye sahələrinin daxili investisiya qoyuluşuna ehtiyacı vardır. Hər hansı bir sahəyə investisiyanı cəlb etməklə, əvvəllər pis istifadə olunmuş təbii, istehsal və əmək resurslarını daha səmərəli şəkildə istifadə etmək olar.*
***Açar sözlər:*** *investisiya, istehsal, idarəetmə*

Ümumiyyətlə, investisiya qoyuluşuna çoxtərəfli proses kimi baxmaq lazımdır. Belə ki, investisiya fəaliyyəti qarşılıqlı faydalılığa, yəni həm obyektə, həm də subyektə (investora) mənfəət gətirməlidir.

İnvestisiya fəaliyyəti müxtəlif mənbələr hesabına aparıla bilər. Bunlar əsasən aşağıdakılardır:

- investorun şəxsi vəsaiti (mənfəət, amortizasiya ayırmaları, pul yığımı və s);
- borc vəsaiti (bankların krediti, digər təşkilatların borc vəsaitləri);
- cəlb olunmuş vəsaitlər (səhm və digər qiymətli kağızların satışından);
- büdcə və qeyri-büdcə fondlarının vəsaitləri [1].

İnvestisiyaların həcminin əksər hissəsi inkişaf etmiş ölkələrin payına düşür. Birbaşa investisiyaların 90%-i və portfel investisiyaların 97%-i inkişaf etmiş ölkələrin payına düşür. Müasir dövrdə portfel investisiyaların həcmi birbaşa investisiyaların həcmini ötmüşdür. Belə ki, kapitalın beynəlxalq hərəkətində birbaşa investisiyalar 25%, portfel investisiyalar 66%, digər beynəlxalq investisiyalar isə 9% təşkil edirlər. Beynəlxalq Valyuta Fondunun qəbul etdiyi qaydaya görə, birbaşa investisiyaların xarakterik xüsusiyyəti investorun investisiya qoyulmuş obyektin idarə edilməsində iştirak etməsidir. Bunun üçün isə həmin obyektin səhmlərinin 10%-nə malik olmaq kifayətdir

İnvestisiyalaşdırmanın istiqaməti və formalarının seçilməsi, maliyyə fəaliyyətinin səmərəliliyinin artırılmasının təmin olunması, investisiya layihələrinin optimal maliyyələşdirilməsi, texniki-texnoloji-innovasiyalı tərəqqinin nailiyyətlərinin tətbiqi və s. birbaşa və dolayısı ilə neftqazçıxarma müəssisəsinin fəaliyyətinin bütün sferalarında səmərəliliyin təminini şərtləndirir. Ona görə də neftqazçıxarmada investisiya qoyuluşunun idarə edilməsi digər funksional idarəedici sistemlər və müəssisənin ümumi idarəetmə sistemi ilə üzvü surətdə inteqrasiya olunmalıdır.

Təyinatına görə investisiyalar istehsal və infrastruktur təyinatlı investisiyalar fərqləndirilir. Adından göründüyü kimi, istehsal təyinatlı investisiyalar istehsalın genişləndirilməsi, səmərəliliyinin artırılması və s. ilə əlaqədardırsa, infrastruktur investisiyalarının məqsədi iqtisadiyyatın fəaliyyəti üçün zəruri əlverişli şərait yaradılmasıdır.

Azərbaycan Respublikasında bazar münasibətləri inkişaf etdikcə, əldə edilən iqtisadi artım və respublika əhalisinin maddi rifah halı yaxşılaşdıqca Azərbaycan Respublikasının xarici investorlar üçün cəlbediciliyi artır, Azərbaycan investorları isə xarici ölkələrin aktivlərinə daha çox vəsaitlər yönəltmiş olacaqdır. Bunun üçün, hər şeydən əvvəl, yüksək ixtisaslı mütəxəssislər tələb olunur. Bu mütəxəssislər qiymətli kağızlar üzrə müxtəlif milli bazarların xüsusiyyətlərini bilməli, dövri mətbuatda, internet saytlarda verilən məlumatları öyrənməli, təhlil etməli, onlardan faydalanmağı bacarmalı, müvafiq hesablamalar aparmağı, valyuta risklərinin azaldılması üzrə metodlar da daxil olmaqla, xarici investisiya portfelinin idarə edilməsi metodlarını öyrənməli, həmçinin daxili investisiyaların idarə edilməsini də təkmilləşdirməlidirlər. Bütün bunlar isə investisiyanın idarə edilməsi, onun təkmilləşdirilməsi üçün mühüm əhəmiyyət kəsb etməklə, ölkənin investisiya cəlbediciliyinin yüksəldilməsi istiqamətlərini müəyyən etməyə imkan verir.

Yuxarıdakıları yekunlaşdıraraq qeyd edirik ki, daxili maliyyə mənbələri hesabına investisiya layihələrinin həyata keçirilməsi sənayedə texniki-texnoloji-innovasiyalı inkişafa zəmin yaradır. Onların bəziləri haqqında yuxarıda qeyd etmişdik. Təbiidir ki, bir tədqiqat işində daxili investisiyanın, onun tətbiq obyektlərinin bütün istiqamətlərinə toxunmaq mümkün deyildir. Bununla belə, təqdim olunan işdə bu sahədə

alınan nəticələr göstərdi ki, daxili investisiyalar və onların tətbiqi istiqamətində ehtiyatlar mövcuddur və onlardan istifadə istehsal səmərəliliyini artırardı [2].

Qeyd etmək lazımdır ki, "investisiya fəaliyyəti" məfhumuna baxılması investisiya fəaliyyətinin idarə edilməsi mexanizminin qurulmasının məzmun və prinsiplərini formalaşdırmağa imkan verir. Bütün bunlar bazar münasibətlərinin tam hüquqlu subyekti olan, investisiya sahəsində sərbəst qərar qəbul edən, onun maliyyə nəticələri üçün tam məsuliyyət daşıyan müəssisənin fəaliyyəti ilə şərtlənir. Bununla əlaqədar olaraq, müəssisələrdə investisiya prosesinin idarəetmə mexanizminin fəaliyyəti ardıcıl olaraq investisiya strategiyası və investisiya proqramlarının işlənməsi, dövlətin investisiya siyasəti çərçivəsində ayrı-ayrı investisiya layihələrinin reallaşdırılması ilə həyata keçirilir. Qeyd olunmalıdır ki, investisiya fəaliyyətinin idarə edilməsi mexanizmi özündə istehsal, maliyyə və risk-menecmentini birləşdirən kompleksdir [3].

Məlumdur ki, idarəetmənin hər bir səviyyəsi, yəni aşağıdan yuxarıya kimi, idarəetmənin məqsəd və vəzifələrinə, təşkilati və iqtisadi mexanizmlərə, qanunvericiliklə təsbit olunmuş qayda və şərtlərə malikdir. Bazar münasibətlərində iqtisadiyyatın dövlət tənzimlənməsi isə qanunvericilik və proqram formasında həyata keçirilir. Qanunvericilik istehsalın prioritet inkişaf istiqamətləri üzrə istehlakçılar üçün konkret proqram, bu və ya digər güzəştli şərtlər və s. siyasəti nəzərə almaqla, dövlətə lazım olan "oyun qaydaları"nı müəyyən edir. Proqram və layihələr konkret obyekt üzrə verilən istiqamətlər üzrə idarəetmənin bütün funksiyalarının reallaşdırılmasına imkan verir. Dövlət tənzimlənməsinin mexanizmlərinə bir az geniş nəzər yetirək. Bura büdcə siyasəti, vergi siyasəti, maliyyə-kredit siyasəti, gömrük siyasəti, qiymət siyasəti, pul-emissiya siyasəti, xarici iqtisadi siyasət aiddir. Büdcə siyasəti - iqtisadiyyatın dövlət tənzimlənməsinin əsas mexanizmidir, belə ki, dövlətin əksəriyyət iqtisadi alətlərinin istifadəsi büdcə ilə əlaqədardır. Lakin büdcənin defisiti şərtlərində bu mexanizmin imkanları məhduddur. Vergi siyasəti dövlətin stimullaşdırma strategiyası və bölüşdürmə istiqamətinin vacib aləti sayılır. Vergi dövlətdə pul vəsaitlərinin toplanmasının əsas mənbəyidir. Dövlətin maliyyə-kredit siyasəti Milli Bankın maliyyə manevretmə üsulunu özündə birləşdirir.

**Ədəbiyyat**


1. Həsənov.N.Ə. İnvestisiya strategiyasının formalaşması və modernləşdirilməsinin inkişaf problemləri. Bakı, 2003, 442 s.
2. Hacızadə E.M., Abdullayev Z.S. Neft təsərrüfatının iqtisadi strukturunun modernizasiyası. Bakı, Elm 2009, 512 s.
3. Hacızadə E.M. Neftqazçıxarma kompleksinin iqtisadi inkişaf modeli. Bakı, Elm, 2002, 470 s.


**Резюме**


***Ахмедова Т.М., Телиева Н.Н.***

**Совершенствование организационно-экономических механизмов управления инвестиционных вложений**

*Независимо от степени экономического развития все отрасли промышленности нуждаются во внутренних инвестиционных вложениях. За счет привлечения инвестиций обеспечиваются более эффективное использование производственных, трудовых и приводных ресурсов отрасли*

***Ключевые слова:*** *инвестиция, производство, управление*


**Summary**


***Ahmadova T.M., Telliyeva N.N.***

**Improvement of Organizational and Economic Mechanisms for Managing Investment**

*Regardless of the degree of economic development, all industrial areas need internal investment. By attracting investments, more efficient use of production, labor and drive resources of the industry are ensured.*

***Key words:*** *investment, production, management*


## XİDMƏT SAHƏLƏRİ MÜƏSSİSƏLƏRİNDƏ MAYA DƏYƏRİNİ FORMALAŞDIRAN XƏRCLƏRİN QRUPLAŞDIRILMASI


***Əliyeva A.H.***

*Sumqayıt Dövlət Universiteti*


**Xülasə**


*İş və xidmətlərin həyata keçirilməsində onlara çəkilən xərclərin qruplaşdırılaraq düzgün hesablanması əsas şərtdir. Bu baxımdan xidmət sahələri müəssisələrində maya dəyərini formalaşdıran xərclərin müxtəlif formada qruplaşdırılması məqalədə öz əksini tapmışdır. Həmçinin xərclərin qruplaşdırılmasının zəruriliyi və ümumi prinsipləri də göstərilmişdir.*



***Açar sözlər:*** *xidmət sahəsi, maya dəyəri, xərclər, prinsiplər, qruplaşdırma*

Məlumdur ki, iş və xidmətin maya dəyəri iqtisadi bir kateqoriya kimi bazar iqtisadiyyatının obyektiv qanunlarının təsiri altında formalaşır. İş və xidmətin satışı ilə əlaqədar xərclər öz xarakterinə, funksional təyinatına, maya dəyərinin tərkibinə daxil edilməsinə və sair əlamətlərə görə müxtəlifdir. Hazırda xidmət sahələri müəssisələrində maya dəyərini formalaşdıran xərclər çox əlamətlər üzrə qruplaşdırılır və təsnifləşdirilir. Müxtəlif fəaliyyət növlərinin meydana gəlməsi, idarəetmənin funksiyalarının keyfiyyətcə dəyişməsi, bazar iqtisadiyyatı şəraitində müəssisələr qarşısında duran məqsədlərin dəyişilməsi, maya dəyərinin və maliyyə nəticələrinin təhlili və qiymətləndirilməsi istiqamətlərinin konkretləşdirilməsi, maliyyə və idarəetmə uçotu çərçivəsində xərclərin uçotu və maya dəyərinin kalkulyasiyası metodlarının harmonizə edilməsi və s. xərclərin qruplaşmasına səbəb olmuşdur [1]. Bununla belə, dövlət maya dəyərinin tərkibini ümumi şəkildə müəyyən edir və tənzimləyir. Bu, hər şeydən əvvəl özünü maliyyə nəticələrinin müəyyən olunması və formalaşdırılmasında, xammal və materiallara, yanacağa, satın alınan yarımfabrikatlara qiymətlərin, enerjiyə və nəqliyyat xidmətlərinə tariflərin, amortizasiya normalarının qoyulmasında tapır. Dövlət həmçinin məhsulun (işin, xidmətin) maya dəyərinin hədlərinin formalaşmasına təsir göstərir. Bu da öz təzahürünü onda tapır ki, dövlət mərkəzləşdirilmiş qaydada məhsulların maya dəyərinə daxil olunmalı məsrəfləri, müəssisənin sərəncamında qalan mənfəətə aid ediləcək, həmçinin digər mənbələrdə silinəcək məsrəfləri müəyyən edir.

***Maya dəyərini formalaşdıran xərclərin qruplaşdırılması***

Bütövlükdə istehsal sferası müəssisələrində məhsul (iş, xidmət), onun satışı aşağıdakı xərclər əsasında formalaşır [2]:

● bilavasitə xidmət ilə bağlı olan xərclər - xidmət məsrəfləri və əməyin ödənilməsinə çəkilən xərclər: iş və xidmətlərin həyata keçirilməsinə sərf edilən malın, materialların, satın alınan komplektləşdirici və yarımfabrikatların, bütün növ yanacaq və enerjinin, taranın, qablaşdırılmış mallarının və digər ehtiyatların, həmin ehtiyatların daşınması və xidmət sferasına gətirilməsilə əlaqədar xidmətlərin dəyəri, təbii itki normaları daxilində mal ehtiyatlarının əskik gəlmələri;

● işin təşkili və texnologiyanın təkmilləşdirilməsi, xidmətin keyfiyyətinin yüksəldilməsi və digər qeyri-əsaslı xərclər;

● ixtiralar və səmərələşdirici təkliflərlə əlaqədar xərclər: təsdiq edilmiş təcrübə-sınaq işlərinin aparılması, ixtiralar və səmərələşdirici təkliflər üzrə modellərin və nümunələrin hazırlanması və sınaqdan keçirilməsi, ixtiraçılıq və səmərələşdiricilik üzrə müsabiqələrin, baxışların təşkili, müəlliflik haqqının ödənilməsi üzrə xərclər;

● xidmət xərcləri: xammal, material, yanacaq, enerji, alətlər, ləvazimatlar və digər vasitələr və əmək əşyaları ilə təmin olunma üzrə xərclər; əsas vəsaitlərin bütün növ təmirinə çəkilən xərclər; bina və inventarların saxlanılması, xidmətdə təmizlik qaydalarına riayət edilməsi və s. xərclər;

● normal iş şəraiti və təhlükəsizlik texnikasının təmin edilməsi üzrə xərclər;

● təbiəti mühafizə təyinatlı vəsaitlərin istismarı və saxlanması üzrə xərclər;

● istehsalın idarə olunması ilə əlaqədar xərclər: müəssisə idarə aparatı işçilərinin və onun struktur bölmələrinin saxlanması, müəssisə rəhbərinin xidməti minik maşınlarının saxlanması xərcləri;

● işçi qüvvəsinin yığılması, kadrların hazırlanması, ixtisasının artırılması və yenidən hazırlanması ilə əlaqədar xərclər;

● Dövlət Sosial Müdafiə Fonduna və s. təşkilatlara ayırmalar və ödəmələr;

● qanunvericilikdə müəyyən edilmiş normalara uyğun ezamiyyə, reklam və nümayəndəlik xərcləri;

● texniki idarəetmə vasitələrinin saxlanması və onlara xidmət göstərilməsi üzrə xərclər: hesablama mərkəzləri, rabitə qovşaqları, siqnalizasiya vasitələri və digər texniki idarəetmə vasitələri üzrə xərclər;

● auditor, informasiya və məsləhət xarakterli xidmətlər üzrə ödənişlər;

● məcburi qaydada beynəlxalq rabitə təşkilatlarına üzv olmaqla əlaqədar ödənilən üzvlük haqqı da daxil olmaqla rabitə xidmətlərinin (istehsal prosesi ilə bilavasitə əlaqəsi olmayan şəxsi danışıqlardan başqa) dəyəri;

● ümumi istifadədə olan sərnişin nəqliyyatının xidmət etmədiyi istiqamətlərdə işçilərin iş yerinə və geriyə daşınması üzrə xərclər;

● qısamüddətli bank kreditlərinə görə ödənilən faiz məbləğləri və qanunvericilikdə nəzərdə tutulan bank xidmətlərinin dəyəri;

● qanunvericilikdə nəzərdə tutulmuş məhsulun satılması ilə əlaqədar olan xərclər: qablaşdırma, saxlanma, yüklənmə və daşınma xərcləri;

● əsas vəsaitlərin, qeyri-maddi aktivlərin amortizasiyası üzrə xərclər;

● qanunvericilikdə nəzərdə tutulmuş normalar həddində ekologiyanı çirkləndirməyə görə ödənilən məbləğlər və s.

İdarəetmə uçotunda xərclərin elementlər üzrə qeyri-rəsmi aşağıdakı kimi qruplaşdırılması qəbul edilmişdir:

1
- material xərcləri;

2
- əmək haqqı xərcləri;işəmuzd qiymətlər, tarif dərəcələri, müavinətlər, məzuniyyət haqları, əmək qabiliyyətini müvəqqəti itirdiyinə görə verilən ödənişlər, mükafatlar və s.

3
- sosial sığortaya ayırmalar;

4;
- amortizasiya xərcləri;

5
- sair xərclər: icarə haqqı, əmlakın sığorta edilməsi, ezamiyyə və digər oxşar xərclər.

***Xərclərin qruplaşdırılmasının zəruriliyi və prinsipləri***

Qeyd etdiyimiz xərclərin qruplaşdırılması nəinki təkcə nəzarətin tələblərinə cavab verməlidir, həmçinin bütövlükdə müəssisə, sahə və dövlət statistikası səviyyəsində xərclərin və gəlirlərin hesablanması, müqayisə olunması, onlar üzərində nəzarətin həyata keçirilməsi zəruriliyini də nəzərə almalıdır. Məhz xərclərin növlər üzrə qruplaşdırılması və təsnifatı əsasında ayrı-ayrı yerlər və mərkəzlər üzrə məsrəflər, kalkulyasiya obyektləri vahidinin maya dəyəri müəyyən edilir, xərclər və nəticələr müqayisə olunur, normalardan kənarlaşmalar aşkar edilir. Gələcək məhsulların maya dəyəri planlaşdırılır və hesablanır. Xərclərin növlər üzrə qruplaşdırılması və təsnifatı satılan məhsulun maya dəyərinin müəyyən olunması, onun səviyyəsinin və quruluşunun qiymətləndirilməsi və təhlili, ona təsir edən faktorların aşkara çıxarılması, xərclərin müxtəlif mərhələlər və səviyyələr üzrə uçotu və hesabatının təşkili, aparılması və sair məqsədlər üçün lazımdır.

Xərclərin növlər üzrə qruplaşdırılmasının başlıca prinsipləri aşağıdakılardır [3]:

● xərclərin maddiləşmiş və ya canlı əməyə, yaxud yeni yaradılmış dəyərə aid olub-olmamasını dəqiq müəyyənləşdirmək və əks etdirmək;

● müxtəlif, ancaq bir-biri ilə əlaqəsi olan xərclərin müəyyən yerlər və mərkəzlər üzrə ümumiləşdirilməsi;

● xərclərin səmərəli olub-olmaması üzərində nəzarətin həyata keçirilməsi, xərclərlə nəticələrin bütün səviyyələrdə müqayisə edilə bilməsi üçün zəruri olan informasiyanın formalaşdırılması imkanının təmin olunması.

Xidmət sahələri müəssisələrində maya dəyərini formalaşdıran xərclərin qruplaşdırılması təşkilat tərəfindən istehsala və xidmətlərin göstərilməsinə istifadə olunan material, əmək və maliyyə resurslarının həcmini müəyyənləşdirmək üçün tələb olunur. Maddələr üzrə xərc prinsiplərinin təsnifatından xidmətlərin müxtəlif növlərinin maya dəyərinin kalkulyasiyası üçün istifadə edilir.

İdarəetmə uçotunda xərclərin elementlər üzrə qruplaşdırılması təkcə bütövlükdə müəssisə üzrə deyil, həmçinin xərc yerləri, mərkəzləri və daşıyıcıları üzrə həyata keçirilməlidir. Burada başlıca məqsəd-müəssisənin istehsal-satış fəaliyyətinin faydalılığını təmin etmək, gəlirlər və xərclərin formalaşdırılması üzərində nəzarəti həyata keçirmək, onları və bütövlükdə müəssisənin səmərəli idarə edilməsini təmin etməkdir. Əgər maliyyə və vergi uçotunda xərclərin elementlər üzrə tərkibi reqlamentləşdirilirsə, idarəetmə uçotunda həmin tərkib müəssisənin özü tərəfindən müəyyən olunur. Müəssisə daxilində xərclərin elementlər üzrə hansı tərkibdə uçota alınması zəruriliyi, həmin xərclərin müəssisə və onun bölmələri üzrə hansı və ya necə əhəmiyyət daşıması, onların hər bir növünün həcmi və xüsusi çəkisi ilə, eləcə də bir çox digər faktorlarla müəyyən edilir.

Kalkulyasiya maddələrinin tipik siyahısını müəyyənləşdirdikdə, tibb xidmətlərinin xərclərini hesabladıqda qrupların hər biri üzrə aşagıdakıları əsas göstərmək olar [3,4,5]:

● müvafiq xidmətlərin göstərilməsi ilə əlaqədar xərclərin ehtimal olunan hissəsini;

● məqsədli təyinatı üzrə xərclərin müxtəlif növlərinin qruplaşdırılması;

● xidmətlərin maya dəyərində xərclərin müxtəlif növlərinin gözlənilən xüsusi çəkisi;
● xərclərin müstəqim və dolayı xərclərə bölüsdürülməsi.

Beləliklə, xərclərin kalkulyasiya maddələri üzrə qruplaşdırılmasının başlıca xüsusiyyəti onların təyinatının ön plana çəkilməsidir. Digər bir xüsusiyyət isə həmin xərclərin bir çox maddələrinin kompleks xarakter daşımasıdır. Kalkulyasiya maddələri üzrə xərclərin idarəetmə uçotu sistemində xərc nomenklaturası müəyyən edilərkən müəssisənin mənsub olduğu sahənin, onun istehsal etdiyi məhsulun, işin, xidmətin xüsusiyyətləri, kalkulyasiya obyektlərinin seçilməsi, kalkulyasiyalaşdırmanın məqsədləri, metodları və sair faktorlar nəzərə alınmalıdır.

**Ədəbiyyat**

1. Azərbaycan Dövlət İqtisad Universitetinin dərslikləri. Xidmət sferasında mühasibat uçotu. Bakı, 2015.
2. Rzayev Q.R. Beynəlxalq mühasibat uçotu standartları və maliyyə hesabatı. Dərs vəsaiti, 11 ç.v. 2004.
3. Sadıqov Ə.A., Sadıqov T.Ə., Cəfərova Ş.Ə. Mühasibat uçotu. Dərslik. Bakı, 2012.
4. Палий В.Ф. Международные стандарты финансовой отчетности. Учебное пособие. Москва, 2002 г.
5. http://www.maliyye.gov.az

**Резюме**

***Алиева А.Г.***
*Сумгаитский государственный университет*

**Группирование расходов, формирующих стоимость на предприятиях сервисных областей**

*Крайне важно группировать и рассчитать затраты, понесенные в бизнесе и предоставлении услуг. В этой связи в статье кратко излагаются затраты на формирование стоимостной стоимости в сфере услуг. Также показаны необходимость и общие принципы распределения затрат.*

***Ключевые слова:*** *зона обслуживания, стоимость, затраты, принципы, группировка*

**Summary**

***Aliyeva A.H.***
*Sumgayit State University*

**Grouping Costs that form Value in the Service Areas**

*It is essential to group and calculate the costs incurred in the business and service delivery. In this regard, the article summarizes the expenses of forming cost value in service industries. The necessity and general principles of cost allocation are also shown.*

***Key words***: *service area, cost value, costs, principles, grouping*

## SƏNAYE MÜƏSSİSƏLƏRİNİN MALİYYƏ SAĞLAMLAŞDIRILMASI STRATEGİYASI

***Əliyeva A.Q.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Məqalə sənaye müəssisələrinin müflisləşmə şəraitində maliyyə sağlamlaşdırılması strategiyasının hazırlanması probleminə həsr edilir. İflas təhlükəsinin qabaqcadan diaqnostikası metodlarının qiymətləndirilməsi, müflisləşmənin ilkin əlamətlərinin aşkara çıxarılması, maliyyə sağlamlaşdırılması mexanizmlərinin yaradılması və tətbiq edilməsinin mühüm şərtləri əsaslandırılır. Sənaye sahələri üzrə müəssisələrin müflisləşməsinin qiymətləndirilməsi üçün kapitalın üzvi quruluşunun, mənfəət normasının və milli valyutanın məzənnəsinin nəzərə alınması şərti ilə maliyyə təhlilində geniş tətbiq edilən Altman modelindən istifadə olunmasının mümkünlüyünə dair təklif irəli sürülmüşdür.*

***Açar sözlər:*** *maliyyə sağlamlaşdırılması, strategiya, Altman modeli, antiböhran idarəetmə, iflas təhlükəsi*

Sənaye müəssisələrinin müflisləşmə şəraitində idarə edilməsi konsepsiyasının əsasını maliyyə sağlamlaşdırılması strategiyası təşkil edir. Fəaliyyət göstərən müəssisələrin maliyyə sağlamlaşdırılması strategiyasının hazırlanmasında başlıca məqsəd iqtisadi subyektin maliyyə vəziyyətinin təhlili əsasında təsərrüfat-maliyyə fəaliyyətindən yaranan itkilərin miqyasını azaltmaq, ödəmə qabiliyyətini və dayanıqlı inkişafını təmin etməkdir.

Müəssisənin maliyyə sağlamlaşdırılması strategiyası ən əvvəl onun antiböhran idarəetmə sistemi ilə qarşılıqlı əlaqəyə malikdir. Antiböhran idarəetmə strateji idarəetmənin tərkib hissəsi kimi iflasdan müdafiə funksiyasını yerinə yetirərək müəssisənin işinin sabitləşdirici amilinə çevrilir.

Müəssisənin maliyyə sağlamlaşdırılması strategiyasının onun böhranlı vəziyyətdən çıxması üçün iflas təhlükəsinin qabaqcadan diaqnostikası metodlarının qiymətləndirilməsi, müəssisənin maliyyə sağlamlaşdırılması mexanizmlərinin yaradılması və tətbiq edilməsinin, mühüm şərtlərinin məcmusu kimi nəzərdən keçirilməsi məqsədəuyğundur. Göründüyü kimi, müəssisənin maliyyə sağlamlaşdırılması strategiyasının hazırlanması bütün işlərin iki mərhələ üzrə yerinə yetirilməsini nəzərdə tutur. Birinci mərhələdə mövcud müəssisələr üçün iflas təhlükəsinin diaqnostikası metodlarının qiymətləndirilməsi və müflisləşmənin mühüm əlamətlərinin aşkara çıxarılması ilə bağlı məsələlərin həllinin şərtləri əsaslandırılır. İkinci mərhələdə müəssisənin maliyyə sağlamlaşdırılması mexanizminin yaradılması və tətbiq edilməsinə dair ümumi müddəalar formulə edilir.

Birinci mərhələdə yerinə yetirilən işlərin məzmununa diqqət yetirsək, həmin işlərin nəticəsində müəssisənin müflisləşməsini proqnozlaşdırmaq mümkün olur.

Müəssisənin müflislik dərəcəsini qiymətləndirmək üçün xarici maliyyə ədəbiyyatında və təcrübədə amerikalı E.Altman tərəfindən multiplikativ diskriminantlı təhlil metodu ilə işlənilmiş Z-modeli geniş tətbiq edilir. Altman modelində dəyişənlər müxtəlif saylı olan diskriminantlı xətti funksiya kimi qiymətləndirilir və çoxamilli reqressiya tənliyi kimi təsvir edilir [2, s. 432]. Dəyişənlərin sayından asılı olaraq, ikiamilli, beşamilli və yeddiamilli modellərdən istifadə edilir. Dəyişənlərin qismində müəssisələrin maliyyə vəziyyətini xarakterizə edən cari likvidlik və borc vəsaitlərinin konsentrasiyası əmsallarından istifadə edilir.

E.Altmanın əsaslandırdığı ikiamilli model aşağıdakı funksiyanı özündə əks etdirir:

$$Z = -3877 - 1{,}0736 \times k_1 + 0{,}0579 k_2$$

Burada, $k_1$ - cari likvidlik əmsalı;

$k_2$ - borc vəsaitlərinin konsentrasiya əmsalı

Z indeksinin normativ kəmiyyəti Altman tərəfindən öyrənilən müəssisələr üzrə statistik qruplaşdırma məlumatlarının təhlili əsasında hesablanmışdır. Hər bir müəssisənin hesablanmış ödəmə qabiliyyətliyi indeksi normativ kəmiyyətlə müqayisə edilir və müflisliyin baş verməli ehtimalı qiymətləndirilir. Z-in kəmiyyəti nə qədər yüksək olarsa, müəssisənin müflisləşmə ehtimalı bir o qədər yüksək olar. Z=0 olduqda müflislik təhlükəsi yaxın iki il ərzində 50%-ə bərabər götürülür. Z olduqda isə müflisliyin baş verməsi ehtimalı 50%-dən az qiymətləndirilir. Z nisbəti müflisliyin ehtimalının 50 %-dən yüksək olduğunu göstərir.

Altmanın ikiamilli modelinin sadəliyi, nəzərə alınan amillərin kəmiyyətini ifadə edən əmsalların hesablanması üçün müvafiq göstəricilərin maliyyə hesabatlarından maneəsiz götürülməsinin mümkünlüyü bu modelin üstünlüyünü, müəssisənin fəaliyyəti ilə əlaqəli bir çox mühüm amillərin müəssisənin maliyyə vəziyyətinə təsirinin nəzərə alınmaması isə öyrənilən modelin qüsurluluğunu göstərir.

İkiamilli modelə xas olan nöqsanların aradan qaldırılması üçün E.Altman tərəfindən müəssisələrin iflasının proqnozlaşdırılmasının beşamilli modeli hazırlanmışdır [1, s.508]. İndiki dövrdə geniş miqyasda tətbiq edilən həmin model aşağıdakı düsturla ifadə olunur:

$$Z = 0{,}012x_1 + 0{,}014x_2 + 0{,}033x_3 + 0{,}06x_4 + 0{,}999x_5$$

Burada, $x_1$ - xüsusi dövriyyə vəsaitlərinin aktivlərin məbləğinə nisbəti;

$x_2$ - bölüşdürülməmiş mənfəətin aktivlərin məbləğinə nisbəti;

$x_3$ - balans mənfəətinin (vergi və faizlərin ödənilməsinədək) aktivlərin məbləğinə nisbəti;

$x_4$ - adi və imtiyazlı səhmlərin balans dəyərinin borc kapitalının (uzunmüddətli və qısamüddətli) balans qiymətinə nisbəti;

$x_5$ - satışdan alınan gəlirin aktivlərin məbləğinə nisbəti.

Altmanın tənliyində ilk dörd dəyişənlər əmsalla deyil, faizlə ifadə olunmuşlar. Müflisləşmə ehtimalının qiymətləndirilməsinin aşağı həddi 1,81 və yuxarı həddi 2,99 səviyyəsində müəyyən edilmişdir. Z indeksinin kəmiyyəti 2,99-dan nə qədər çox olarsa, müəssisənin müflisləşmə ehtimalı bir o qədər aşağı olar.

Azərsun Holdinq MMC-nin maliyyə hesabatının məlumatlarının təhlili əsasında şirkətin müflisləşmə ehtimalını Altman tənliyi tətbiq edilməklə qiymətləndirək.

$$x_1 = \frac{313807855 - 212650504}{468162287} = 0{,}216 \text{ və ya } 21{,}6\%$$ ;

$$21{,}6 \times 0{,}012 = 0{,}259$$

$$x_2 = \frac{107355928}{468162287} = 0{,}229 \text{ və ya } 22{,}9\%; \qquad 22{,}9 \times 0{,}014 = 0{,}321$$

$$x_3 = \frac{9888509}{468162287} = 0{,}021 \text{ və ya } 2{,}11\%; \qquad 2{,}11 \times 0{,}033 = 0{,}07$$

$$x_4 = \frac{181698712}{286463575} = 0{,}634 \text{ və ya } 63{,}4\%; \qquad 63{,}4 \times 0.006 = 0{,}380$$

$$x_5 = \frac{309528712}{468162287} = 0{,}661; \qquad 0{,}661 \times 0{,}999 = 0{,}660$$

$$Z = 1{,}69$$

Azərsun Holdinq MMC-nin törəmə müəssisələrinin müflisləşməsi dərəcəsinin E.Altmanın beşamilli modeli əsasında hesablanmış Z indeksinin faktiki qiymətinin müflisliyin aşağı və yuxarı hədlərindən kiçik, yəni $1{,}6 < 1{,}81$ və $1{,}69 < 2{,}99$ olması şirkətin 2016-2018-ci illərdə iflasa uğraması təhlükəsinin yüksək səviyyədə qalmasına dəlalət edir.

E.Altman tərəfindən əsaslandırılmış ikiamilli, beşamilli və yeddiamilli modellərin Z indeksinin normativ qiymətinin Azərbaycanın sənaye müəssisələrinin müflisləşmə dərəcəsinin proqnozlaşdırılması üçün istifadə olunması imkanlarının məhdudluğu etiraf edilməlidir. Belə ki, Azərbaycan sənayesində səhmdar cəmiyyətlərin adi və imtiyazlı səhmlərinin balans dəyərinin borc kapitalının balans qiymətinə nisbəti əmsalının dəqiq hesablanması respublikanın qiymətli kağızlar bazarında tətbiq edilən birja qiymətləndirilməsi mexanizminin qüsurluluğu səbəbindən mümkün olmur [3, s. 71]. Altman modelinə uyğun hesablanmış Z indeksinin 1,69-a bərabər olması fəaliyyətini qiymətləndirdiyimiz Azərsun Holdinq MMC-nin törəmə istehsal müəssisələrində əsas kapitalın aktivlərin ümumi həcmində xüsusi çəkisinin 33% təşkil etməsi və Azərbaycan sənayesinin sahələr üzrə mənfəət normasının tənzimlənməməsi ilə izah olunur. Azərbaycanın yeyinti sənayesi müəssisələrinin maliyyə vəziyyətinin qiymətləndirilməsi üçün yuxarıda istifadə edilən diskriminantlı funksiya əmsalları ABŞ-ın böyük çəkidə əsas kapitala malik olan 33 ağır sənaye məhsullarının istehsalı ilə məşğul olan zavodların maliyyə hesabatlarının göstəriciləri əsasında hesablanmışdır. Belə şirkətlərdə əsas kapitalın ümumi aktivlərdə xüsusi çəkisinin 65% təşkil etməsi həmin şirkətlər üzrə amortizasiya məsrəflərinin məhsulun maya dəyərində xüsusi çəkisinin yeyinti sənayesi ilə müqayisədə iki dəfədən çox olmasına və əsas kapitalın hər vahidinə alınan mənfəətin məbləğinin az olmasına səbəb olur. Buradan belə qənaətə gəlmək mümkündür ki, E.Altman tərəfindən təklif edilən xətti diskriminantlı $x_3$ və $x_4$ funksiyalarının əmsallarının Azərbaycanın yeyinti sənaye müəssisələrinin müflisləşmə dərəcəsinin proqnozlaşdırılması üçün istifadə edilməsi məqsədəuyğun deyildir.

Sənaye sahələri üzrə müəssisələrin müflisləşmə dərəcəsinin proqnozlaşdırılması üçün kapitalın üzvi quruluşu, mənfəət norması və milli pulun dollara nisbətən məzənnəsi nəzərə alınmaq şərti ilə E.Altman tərəfindən əsaslandırılmış beşamilli və yeddiamilli modelin tətbiq edilməsini məqsədəmüvafiq hesab etmək mümkündür.

Müəssisənin maliyyə sağlamlaşdırılması mexanizminin yaradılması, onun təcrübədə tətbiq edilməsi prosedurlarının müəyyən edilməsi maliyyə sağlamlaşdırılması strategiyasının mühüm istiqamətini təşkil edir. Müəssisə üçün iflas təhlükəsi yarandıqda təsərrüfat-maliyyə fəaliyyətinin idarə olunması sisteminin sərtləşdirilməsi yolu ilə müəssisənin müflisləşmədən qorunmasını təmin edən “Maliyyə sağlamlaşdırılması strategiyası”nın işlənilməsi və tətbiq edilməsi zəruriliyi ortaya qoyulur. Maliyyə sağlamlaşdırılması strategiyası müəssisənin ümumi antiböhran idarə olunması sisteminin mühüm tərkib hissəsi olmaqla özündə maliyyə sağlamlaşdırılması mexanizminin yaradılması və tətbiq edilməsi üzrə tədbirlərin ardıcıl surətdə həyata keçirilməsinin mühüm şərtlərini birləşdirir. Müəssisənin maliyyə sağlamlaşdırılması strategiyasının əsas müddəalarına aşağıdakıları aid etmək məqsədəuyğundur:

1. Müəssisənin müflisləşməsinin ilk əlamətlərinin aşkara çıxarılması məqsədilə istehsal-kommersiya, investisiya və maliyyə fəaliyyətinin təşkili üzərində fasiləsiz maliyyə nəzarətinin həyata keçirilməsi.
2. Debitor borcların qaytarılması vəziyyətinin təhlili əsasında həmin borcların Azərbaycan Respublikasının maliyyə qanunvericiliyinin normalarına uyğun olaraq, restrukturizasiyasının aparılması üzrə tədbirlərin hazırlanması və yerinə yetirilməsi.
3. Müəssisənin istehsal fəaliyyətinin pisləşməsinə təsir edən əsas amillərin müasir təhlil üsullarının köməyi ilə qiymətləndirilməsi.
4. Müəssisənin investisiya fəaliyyətinin pisləşməsinə təsir edən amillərin qiymətləndirilməsi;
5. Müəssisənin maliyyə fəaliyyətinin pisləşməsinə təsir edən amillərin qiymətləndirilməsi;
6. Müəssisənin daxili istehsalat ehtiyatlarının səfərbərliyə alınması;

7. Məhsulun (işin və xidmətin) texniki standartlara uyğun keyfiyyətliyinin təmin edilməsi;
8. Bazarda marketinq işinin səmərəliliyinin yüksəldilməsi.

Yuxarıda sadalanan maliyyə sağlamlaşdırılması tədbirlərinin ardıcıllıqla həyata keçirilməsini iflas təhlükəsi ilə qarşılaşan müəssisələrin fəaliyyətinin strateji istiqaməti kimi etiraf edərək, həmin strategiyadan irəli gələn vəzifələrin işçilər arasında optimal bölgüsünün aparılması zəruridir.

**Ədəbiyyat**


1. Бригхем Ю., Гапенски Л. Финансовый менеджмент. СПб., Экономическая школа, 1998, Т. 2
2. Кириченко Т.В. Финансовый менеджмент. М., ИТК «Дашков и К$^0$», 2010
3. Финансовый менеджмент/колл. Авт. под ред. проф. Е.И.Шохина. М., КНОРУС, 2011


**Резюме**


***Алиева А.К.***
*Сумгаитский государственный университет*


**Стратегия финансового оздоровления промышленных предприятий**


*Статья посвящена проблеме разработки стратегии финансового оздоровления промышленных предприятий в условиях банкротства. Обосновываются существенные условия оценки предварительной диагностики опасности банкротства, выявления первичных признаков банкротства, создания и применения механизмов финансового оздоровления. Выдвинуто предложение о целесообразности использования модели Альтмана, широко применяемой в финансовом анализе для оценки банкротства по отраслям промышленности с учетом органического строения капитала, нормы прибыли и курса национальной валюты.*



***Ключевые слова:*** *финансового оздоровление, стратегия, модель Альтмана, антикризисное управление, опасность банкротства*


**Summary**


***Aliyeva A.G.***
*Sumgayit State University*


**The Strategy of Financial Recovery of Industrial Enterprises**


*The article is devoted to the problem of preparing a financial recovery strategy for industrial enterprises in the conditions of bankruptcy. Evaluation of bankruptcy risk forecasting methods, identification of initial signs of the bankruptcy, creating financial recovery mechanisms and important terms of application are justified. A proposal was made to evaluate the bankruptcy of enterprises in industry by using the Altman model, which is widely used in financial analysis, taking into consideration the capital structure to assess the bankruptcy of enterprises in industrial sector, the profit standard and the national currency rate.*



***Key words:*** *financial recovery, strategy, Altman model, anti-crisis management, risk of bankruptcy*


## AQRAR-SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İSTEHSAL VASİTƏLƏRİ İLƏ TƏMİNATININ YAXŞILAŞDIRILMASI İSTİQAMƏTLƏRİ


***Hacıyeva Z.E.***
*Sumqayıt Dövlət Universiteti*


***Xülasə***


*Aqrar sferanın qarşısında duran başlıça vəzifə kənd təsərrüfatı məhsulları istehsalçılarının maddi-texniki təminatını yaxşılaşdırmaq, keyfiyyətli məhsul yetişdirmək və onun itkisiz yığımını təmin etməkdir. Bu isə aqrar sferada məhsuldarlığın artırılmasında başlıca vasitədir. Məqalədə aqrar-sənaye müəssisələrinin istehsal vasitələri ilə təminatının yaxşılaşdırılması istiqamətləri tədqiq edilmişdir.*



***Açar sözlər:*** *aqrar sfera, istehsal vasitələri, kənd təsərrüfatı, texniki təminat, lizinq, maşın və avadanlıqlar*


Aqrar sənaye kompleksinin maddi-texniki bazasının möhkəmlənməsi və aqrar-sənaye müəssisələrinin istehsal vasitələri ilə təmin olunmasının yaxşılaşdırılması sahəsində aparılan kompleks tədbirlərdən olan Azərbaycanda istehsal vasitələrinin topdansatış, eləcə də təchizat, təmir və texniki xidmət, energetika, nəqliyyat və digər sahələri üzrə müxtəlif xidmət bazarlarının yaradılması aktuallaşır. Respubilkada yalnız texnikanı satan deyil, həm də istehsalçı-zavodlarla sıx əlaqədə olan onun keyfiyyətinə, satışdan öncə və satışdan sonra olan servisinə nəzarət edən diler şəbəkəsinin inkişaf etdirilməsi zəruridir. Bu cür diler şəbəkəsinin yaradılması texniki vasitələrin istehsalçıları tərəfindən onların təchizi üzrə müqavilələrin pozulmasının istisna edilməsi, keyfiyyətə görə məsuliyyətin yüksəldilməsi, maşın və avadanlıqlarla yanaşı, onların ehtiyat hissələri ilə təminatı baxımından vacibdir.

Araşdırmalar göstərir ki, kənd təsərrüfatının istehsal vasitələri ilə təminatı elmi-texniki tərəqqinin tələblərindən geri qalır. Mövcud olan istehsal vasitələrindən və avadanlıqlardan ekstensiv istifadə olunmuş və onların yenisi ilə əvəzolunması çox ləng yerinə yetirilmiş və nəticədə olduqca az gəlir əldə olunur ki, bunun da əsas səbəbləri indiyə qədər olan planlaşdırma, istehsal proseslərinin təşkili, iqtisadi mexanizmin məqsədyönlü olmaması, nəticə etibarı ilə texnoloji dəyişikliklərin aparılmaması və s. bir çox çatışmazlıqlardan irəli gəlmişdir. Aqrar sfera üçün istehsal vasitələri istehsal edən sənaye sahələri mexaniki olaraq hazırki inkişaf səviyyəsinə heç də cavab verməyən, aşağı keyfiyyətdə olub və yüksək qiymətə malik olan texniki vasitələr və avadanlıqlar təklif edilmişdir. Bu isə öz növbəsində biləvasitə son məhsulun maya dəyərinin yüksəlməsinə səbəb olur. Mövcud olan texniki vasitələrin və avadanlıqların tərkibində 15 il və daha çox müddətdə istifadə olunmuş mənəvi cəhətdən aşılanan texniki vasitələrin və avadanlıqların xüsusi çəkisi 70-80%-dən yuxarı təşkil edir. Texniki vasitələr və avadanlıqlara kompleks halda tələbat ancaq 15-20% ödənilir. Aqrar sferada əsas istehsal fondlarının aşılanması 55-60%-ə çatır. Heç bir kənd təsərrüfatı subyektlərində istehsal proseslərinin kompleks mexanikləşdirilməsi tam halda həyata keçirilmir [2].

Hazırda kənd təsərrüfatında sahibkarlar bir çox işləri əl əməyi ilə yerinə yetirirlər. Kənd təsərrüfatının material ehtiyatları və istehsal vasitələri ilə təmin olunması səviyyəsi dövrün tələblərindən geri qalır. Texniki vasitələrin çox hissəsi sıradan çıxmış və yeni texnikanın alınmasına əmək tutumlu proseslərin mexanikləşmə səviyyəsinin və bütövlükdə ehtiyatlardan səmərəli istifadə olunmasının azalması səbəb olmuşdur.

Müasir iqtisadi şəraitdə maşın-traktor parkının faktiki yeniləşmə əmsalının normativdən 35-40% aşağı səviyyədə olması vəziyyəti yaranmışdır. Respublikada yerli kənd təsərrüfatı əmtəə istehsalçılarının enerji və texniki təminat səviyyəsi qabaqcıl inkişaf etmiş ölkələrlə müqayisədə 4-6 dəfə aşağı səviyyədədir. Belə ki, keçmiş iqtisadi sistemdəki vəziyyətlə müqayisədə müasir şəraitdə respublikanın aqrar sahəsində fəaliyyət göstərən müxtəlif kateqoriyalı müəssisələrin texniki təminatının azalması meyli müşahidə olunur. Buna görə də respublikada xarici ölkələrin inkişaf təcrübəsinə uyğun olaraq maşın-traktor parkının genişləndirilməsi zəruridir. Bu, aqrar sferada məhsul istehsalının həcmini artırmağa, köhnəlmiş texnikaya xidmət xərclərini azaltmağa, fəaliyyətin maliyyə nəticələrini yaxşılaşdırmağa və son nəticədə ümumi məhsul buraxılışını artırmağa imkan verər. "Aqroservis" xidmətlərinin yaradılması kənd təsərrüfatı işlərinin aqrotexniki qaydada və müddətlərdə aparılmasına, sahibkarların texniki vasitələrə olan tələbatının ödənilməsinə imkan verə bilər. Bu baxımdan lizinq şirkətlərinin fəaliyyətini müsbət qiymətləndirmək olar [3].

Ümumilikdə aqrar-sənaye müəssisələrinin istehsal vasitələri ilə təmin edilməsini yaxşılaşdırmağa böyük ehtiyac varıdır. Təsərrüfatlarda köhnəlmiş texnika müasir texnikanı üstələyir. Hazırda bir sıra təsərrüfatların ixtiyarında olan maşın və avadanlıqlar, əsasən, işləmə müddəti bitən, təmiri üçün böyük xərc tələb olunan kənd təsərrüfatı texnikasıdır. Əksər hallarda köhnəlmiş texnikanın təmirinə çəkilən xərclər özünü doğrultmur.

Alaq otlarının təmizlənməsinə, bitki ziyanvericiləri və xəstəliklərinə qarşı mübarizədə müxtəlif kimyəvi vasitələrin tətbiq edilməsi zəruridir. Buna nail olduqda əlavə 10-12% məhsul arta bilər. Odur ki, aqrar sənaye müəssisələrinin istehsal vasitələri ilə təmin edilməsinin yaxşılaşdırılmasının böyük iqtisadi əhəmiyyəti vardır [1].

Aqrar-sənaye müəssisələrinin istehsal vasitələri ilə təmin edilməsinin yaxınlaşdırılmasına lizinq şəbəkəsinin genişləndirilməsi, lizinq əməliyyatlarının təkmilləşdirilməsi, kənd təsərrüfatı istehsalçıları üçün lizinq kreditləri üzrə faizlərin endirilməsi səbəb olacaqdır. Texnika və avadanlığın tədarükü kənd təsərrüfatı istehsalçılarının real imkanlarını nəzərə almaqla həyata keçirilməlidir.

Köhnəlmiş maşın və avadanlıqların yenidən qurulması və dəyişdirilməsi üçün müasir investisiya vasitəsi kimi lizinqdən səmərəli istifadə edilməlidir. Milli iqtisadiyyatın müasir inkişaf mərhələsində texnikanın lizinqə verilməsi Azərbaycan Respublikasında aqrar sahənin dövlət tərəfindən dəstəklənməsinin əsas formalarından biridir.

Aqrar-sənaye müəssisələrinin istehsal vasitələri ilə təminatının yaxşılaşdırılması üçün Azərbaycanda bir çox inkişaf etmiş ölkələrdə olduğu kimi, səmərəli olan, qismən-alınmış kənd təsərrüfatı texnikası bazarının yaradılması böyük əhəmiyyət kəsb edir. İşlənmiş maşın bazarının yaradılması kənd təsərrüfatı müəssisələrinin (xüsusilə, iqtisadi cəhətdən zəif olan) texniki təminatının yüksəldilməsinin güclü amilidir. Bunun sayəsində onların texnikanın alınmasına məsrəfləri xeyli azalır. Yəni, bahalı maşın və avadanlığın alınması üçün lazımı vəsaiti olmayan fermer, işlənmiş lakin uzunmüddətli istifadə üçün yararlı olan traktor və kombayn ala bilər.

Yuxarıda qeyd edilən bütün bu tədbirlər aqrar sənaye kompleksinin istehsal vasitələri ilə daha yaxşı təmin edilməsinə əlverişli şərait yarada bilər.

**Ədəbiyyat**


1. Cavadov N.Ə. Aqrar sahədə struktur dəyişiklikləri. Bakı: Elm, 2009, 440 s.
2. Hacıyev Ə.H. Aqrar sənaye kompleksinin iqtisadiyyatı. Bakı: Təhsil, 2006, 335 s.

3. Qarayev İ.Ş. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Dərslik. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2011.522 s.

**Резюме**

***Гаджиева З.Е.***

**Направления улучшения обеспечения аграрно-промышленных предприятий средствами производства**

*Главная задача аграрной сферы - улучшение материально-технического обеспечения производителей сельскохозяйственной продукции, повышение качества производимой продукции и обеспечение сбора этой продукции без потер. Это является важнейшим фактором повышения производительности труда в аграрной сфере. В статье исследуются основные направления улучшения обеспечения средствами производства аграрно-промышленных предприятий.*

***Ключевые слова:*** *аграрная сфера, производственные мощности, сельское хозяйство, техническая поддержка, лизинг, техника и оборудование*

**Summary**

***Hajiyeva Z.E.***

**Directions for Improving the Provision of Agro-Industrial Enterprises With Production Facilities**

*The main task of the agrarian sphere is to improve the material and technical support of agricultural producers, the quality of their products and to ensure the collection of these products without loss. This is the most important factor in increasing labor productivity in the agrarian sector. The article examines the main directions of improving the provision of means of production for agro-industrial enterprises.*

***Key words:*** *agrarian sphere, production facilities, agriculture, technical support, leasing, machinery and equipment*

## TEXNOPARKLARDA MALİYYƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Hüseynzadə H.A., Əliyev Ş.T.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Məqalədə texnoparklarda maliyyə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri tədqiq olunmuşdur. Texnoparkların milli iqtisadiyyatın inkişafında, onun şaxələndirilməsində rolu təhlil edilmişdir. Azərbaycanda texnoparkların yaradılmasının əhəmiyyəti açıqlanmışdır və iqtisadi təhlükəsizliyin təmin edilməsində texnoparkların rolu vurğulanmışdır.*

***Açar sözlər:*** *texnoparklar, maliyyə mexanizmləri, maliyyə mexanizmlərinin təkmilləşdirilməsi, Sumqayıt Texnologiyalar Parkı, texnoparkların iqtisadi təhlükəsizliyinin təmin edilməsində rolu.*

Azərbaycan hazırda özünün iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi və yeni inkişaf mərhələsində möhkəmlənməsi dövrünü yaşayır. Milli iqtisadiyyatın əsas sektorları üzrə strateji inkişaf hədəfləri müəyyənləşdirilmişdir və intensiv olaraq onların həyata keçirilməsi prosesləri gedir [1]. Bununla bağlı olaraq, iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən ölkə iqtisadiyyatının aparıcı sahəsi olan sənaye sektorunda əlavə dəyər yaradan mənbələrin müəyyənləşməsi və onlardan səmərəli istifadə istifadə edilməsi aktuallığı ilə diqqət çəkir. Digər tərəfdən əlavə dəyər yaradan fəaliyyət sahələri kifayət qədər maliyyə resursları və investisiyalar tələb edir. Bu baxımdan istənilən sənaye müəssisəsinin və şəbəkəsinin təşkili, fəaliyyətinin genişləndirilməsi üçün maliyyə mənbələrinin formalaşdırılması mühüm məsələlərdəndir.

Qeyd edək ki, sənaye sahələrinin fəaliyyətinin müasir texnologiyalar əsasında təşkil edilməsi, avadanlıqların alınması və tətbiqi məqsədilə birbaşa investisiyaların cəlb edilməsi və maliyyə resurslarının mənbələrinin müəyyənləşdirilməsi mürəkkəb problemlərdən hesab olunur. Bir çox dünya ölkələrində bu kimi strateji vəzifələrin öhdəsindən gəlmək üçün dövlət dəstəyi mexanzimləri tətbiq edilir. Azərbaycanda sənaye potensialının yenilənməsi, xüsusilə qeyri-neft sektoru sahələrinin inkişafının sürətləndirilməsi üçün kompleks və sistemli yanaşma diqqəti cəlb edilir. Belə ki, ənənəvi və sovet dövründən qalma sənaye müəssisələrinin fəaliyyət potensialının yenilənməsi, dünya təcrübəsinə adekvat olan yeni istehsal şəbəkəsinin yaradılması məqsədi ilə texnopark institutundan istifadəyə geniş yer verilməkdədir. Texnoparklar çoxfunksiyalı maliyyə təsərrüfat fəaliyyətini özündə cəmləşdirən sənaye qurğuları, istehsalatları, mini-zavodları olan müəssisələr şəbəkəsidir. Azərbaycanda texnopark institutunun səmərəli inkişaf etdirilməsi məqsədilə dövlət tərəfindən ardıcıl şəkildə tədbirlər görülməkdədir. 2009-cu ildən fəaliyyətə başlayan

Sumqayıt Texnologiyalar Parkı ölkənin ilk texnoparkı kimi mühüm əhəmiyyət kəsb edir [2]. Bundan əlavə, ölkəmizdə fəaliyyət göstərən texnoparklara dövlət tərəfindən müəyyən dövr üçün konkret olaraq 7 illik güzəştlər verilmişdir [3]. Bütün bunlar ölkə texnoparklarının özlərinin maliyyə resurslarının formalaşdırılmasına, inkişafına, maddi-texniki bazanın gücləndirilməsinə əlavə stimullar verir.

Qeyd edək ki, dünya təcrübəsində texnoparkların təşkilinə və onların maliyyə mexanizmlərinin formalaşdırılmasına yanaşmalar müxtəlifdir. Amma ümumilikdə dünya ölkələrində texnoparkların maliyyələşdirilməsində əsas istiqamət birbaşa dövlət dəstəyi mexanizmləri ilə yanaşı, investisiyaların təşviqi və stimullaşdırılması, investisiya cəlbediciliyi mühitinin yaradılması, güzəştli kreditlərin verilməsi və əvvəldə qeyd etdiyimiz kimi vergi güzəştlərinin verilməsi ilə bağlıdır. Bir qrup tədqiqatçılar - Y.Y.Korneva, A.M.Yeroşkin, Z.F.Aminova, İ.İ.Maxmutov, O.V.Bildina, G.M.Şapovalov, Y.Q.Belokonskaya, M.Y.İnçin, S.N.Kuznetsova və digərləri texnoparkların fəaliyyəti, təşkili mexanizmləri, onların inkişaf etdirilməsi və maliyyə mexanizmlərinin tənzimlənməsi ilə bağlı araşdırmalar aparmışlar. Avropanın ən güclü iqtisadiyyata malik ölkəsi olan Almaniyada texnoparklardan yüksək texnologiyalar əsaslı sənaye sahələrinin inkişafı üçün səmərəli istifadə təmin olunmuşdur [4]. Almaniya höküməti bu sahələrə investisiyaların yönləldilməsini tənzimləməklə bərabər, həm də stimullaşdırır. Dövlət tərəfindən texnologiyalar bazarının inkişaf etdirilməsi üçün hər il iri məbləğdə maliyyə resursları ayrılır. A.M.Yeroşkin hesab edir ki, dünya ölkələrində texnoparkların maliyyə mexanizmlərinin formalaşdırılması və təkmilləşdirilməsində innovativ inkişafa üstünlük verilməlidir və maliyyə mexanizmləri balanslaşdırılmaqla uzunmüddətli dövr üçün inkişaf perspektivləri müəyyənləşdirilməlidir [5]. Bu halda, investisiya cəlbediciliyi yaxşılaşdırılması üçün əlavə potensial formalaşdırılır, xarici investorlar daha fəal investisiya yatırırlar. Digər tərəfdən dövlət tənzimlənməsi mexanizmləri texnoparklarda, istehsal və sənaye şəbəkəsinin yeni potensialının yaradılmasında özəl sahibkarlığın rolunun gücləndirilməsinə xüsusi diqqət yetirilməlidir. Z.F.Aminovaya görə, texnoparkların kommersiya strukturlarının istehsal sahələrinin genişləndirilməsində rolunun təmin edilməsi üçün uzunmüddətli hədəfləri özündə əks etdirən maliyyə strategiyasının hazırlanması və tətbiqi vacibdir[6]. Digər tərəfdən texnoparkların potensialının yenilənməsidaimi olaraq maliyyə yatırımları tələb edir. Buna görə də texnoparklar özlərinin maliyyə resursları hesabına maliyyə vəsaitlərinin toplanmasında və onlardan səmərəli istifadənin təmin edilməsində məqsədli konsepsiyaya malik olmalıdırlar. İ.İ.Maxmutov bildirir ki, texnoparkların və texnopolislərin sənaye potensialının gücləndirilməsində rolunun artırılması məqsədilə maliyyə mexanizmlərinin optimal hazırlanmasıvacib şərtlərdəndir [7]. Belə ki, maliyyə təminatı müəyyənləşdirilməyən istənilən layihə əvvəlcədən uğursuzluğa məhkumdur. Tədqiqatçı O.V.Bildina qeyd edir ki, milli iqtisadiyyatın innovativ inkişafının təmin edilməsində texnoparklar əhəmiyyətli rol oynayır və bu baxımdan onlara dövlət dəstəyinin göstərilməsi vacibdir [8]. Amma fikrimizcə dövlət dəstəyi mexanizmləri ilə bərabər, texnoparkların özlərinin əsaslandırılmış və balanslaşdırılmış maliyyə-investisiya strategiyası olmalı, maliyyə resurslarının hərəkəti, onlardan istifadənin idarəedilməsi sisteminin optimallığı təmin edilməli və maliyyə resurslarından ümumilikdə səmərəli istifadəyə heyətin motivasiyası gücləndirilməlidir. Məlumdur ki, bazar iqtisadiyyatı şəraitində sahibkarlığın səmərəliliyinin təmin edilməsində maliyyə mexanizmlərimühüm funksiyaları yerinə yetirir [9;10]. Son dövrlərdə texnoparkların, eyni zamanda sənaye klasterlərinin maliyyə mexanzimlərinin formalaşdırılması və inkişaf etdirilməsi ilə bağlı ənənəvi mexanizmlərin yenilənməsi və təkmilləşdirilməsi zərurəti diqqət çəkir. Bu baxımdan maliyyə mexanzimlərinin təkmilləşdirilməsində dövlət-özəl əməkdaşlığına üstünlük verilməsi praktiki baxımdan daha əhəmiyyətli görünür və sahibkarlığın inkişafında bu amillərin rolu yüksəkdir [11;12]. Bunlarla bağlı iqtisadiyyatın modernləşdirmə proseslərində texnoparkların çoxfunksiyalılıq xüsusiyyətlərinə xüsusi önəm verilməlidir.

Beləliklə, müasir dövrdə texnoparklarda maliyyə mexanizmlərinin təkmilləşdirilməsi kifayət qədər aktuallığı ilə diqqət cəlb edir. Azərbaycanda texnoparkların yaradılması proseslərinin intensivliyini nəzərə alsaq, ölkəmizin milli iqtisadi təhlükəziliyinin təmin edilməsində bu kimi texnoprakların rolu artmaqdadır və bu baxımdan onların maliyyə mexanizmlərinin adekvatlığının təmin edilməsi vacib şərtlərdəndir. Texnoparkların maliyyə mexanizmləri davamlı və dayanıqlı, diversifikasiya olunmuş mənbələrdən ibarət olmalı, istehsal strukturunun genişləndirilməsi tədbirlərinə, həmçinin müasir texnologiyaların tətbiqi proseslərinin intensivləşdirilməsinə xarici investisiyaların cəlb edilməsi üçün kifayət qədər münbit şərait yaradılmalı, işlək mexanizmlər hazırlanmalı və investisiya cəlbediciliyi təmin edilməlidir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.

2. Sumqayıt Texnologiyalar Parkı. 22 dekabr 2009-cu il.https://stp.az.

3. Sənaye parkları haqqında Nümunəvi Əsasnamə. AR Prezidentinin 24 aprel 2013-cü il tarixli Fərmanı ilə təsdiq edilib.
4. Корнева Е.Ю. Соврменные механизмы государственного стимулирвоанияинвстиций в промышленность ФРГ. Дисс. канд. экон. наук. М., 2003, 175 с.
5. Ерошкин А.М. Мировой опыт формирвоания механизмов финансирования инновационного развития. Дисс. канд. экон. наук. М., 2011, 165 с.
6. Аминова З.Ф. Формирование и реализация финансовой стратегии коммерческих структур в сфере производства. Дисс. канд. экон. наук. М., 2003, 155 с.
7. Махмутов И.И. Оргниазционно-экономический механизм формирования технополисов на базе промышленных центров. Дисс. канд. экон. наук. Екатеринбург, 2000, 165 с.
8. Бильдина О.В. Государственная поддержка технопарков как организационной формы развития инновационной сферы национальной экономики.Дисс. канд. экон. наук. М., 2008, 209 с.
9. Инчин М.Е. Финансовый механизм реализации инновационной политик в условиях моедрнизации экономики России. Дисс. канд. экон. наук. Саратов, 2012, 186 с.
10. Кузнецова С.Н. Развитие организационно-экономического механизма формирования промышленных парков. Дисс. канд. экон. наук. Иваново, 2013, 130 с.
11. Белоконская Е.Г. Финансовый механизм формирования и функционирования промышленно-территориального кластера. Дисс. канд. экон. наук. Иваново, 2012, 226 с.
12. Шаповалов Г.М. Формирование механизма эффективного предпринимательства. Дисс. д-ра экон. наук. Санкт-Петербург, 1998, 372 с.

**Резюме**

***Гусейнзаде Х.А., Алиев Ш.Т.***

**Направления совершенствования финансовых механизмов технопарков**

*В статье исследованы направления совершенствования финансовых механизмов технопарков. Анализирована роль технопарков в расширении и развитии национальной экономики. Раскрыта важность создания технопарков и отмечена их роль технопарков в обеспечении экономической безопасности в Азербайджане.*

***Ключевые слова:*** *технопарки, финансовые механизмы, совершенствование финансовых механизмов, Сумгаитский технологический парк, роль технопарков в обеспечении экономической безопасности.*

**Summary**

***Huseynzadeh H.A., Aliyev Sh.T.***

**Directions for Improving the Financial Mechanisms of Technology Parks**

*The directions of perfection of financial mechanisms of technoparks are investigated in the article. The role of technoparks in the expansion and development of the national economy is analyzed. The importance of creating technoparks and the role of technology parks in ensuring economic security in Azerbaijan are highlighted and noted.*

***Key words:*** *technoparks, financial mechanisms, improvement of financial mechanisms, Sumgayit Technological Park, the role of technology parks in ensuring economic security.*

## İQTİSADİ TƏHLÜKƏSİZLİK SİSTEMİNDƏ KİÇİK BİZNESİN ROLU

***Xudaverdiyeva E.M., Turabova G.S.***
*Gəncə Dövlət Universiteti*

***Xülasə***

*Bütün ölkələrdə kiçik sahibkarlıq iqtisadiyyatın inkişaf etdirilməsinin ən mühüm hərəkətverici amillərindən biridir. Çünki o, orta təbəqənin formalaşmasına təsir edir. Başqa sözlə, hansı ölkədə iqtisadiyyatın bu sahəsi inkişaf etmişdirsə, o ölkənin iqtisadi inkişaf səviyyəsi də yüksək olur. Məqalədə iqtisadi təhlükəsizlik sistemində kiçik biznesin və sahibkarlıq riskinin rolundan bəhs olunub.*

***Açar sözlər:*** *iqtisadi təhlükəsizlik, kiçik biznes, sahibkarlıq riski, vergi, dövlət dəstəyi*

İqtisadi təhlükəsizlik dövlətin milli təhlükəsizliyin əsas ünsürü, onun suverenliyinin qorunması faktoru, demoqrafik siyasətin əsas tərkib hissəsidir. Kiçik sahibkarlığın mövcud vəziyyəti, onun inkişafı və davamlı dinamikası dövlətin iqtisadi təhlükəsizliyini bir çox hallarda əvvəlcədən təyin etmək üçün imkanlar yaradır. Hazırda bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etmiş olduğu ölkələrdə ümumi daxili məhsulun 50-60 faizə qədəri kiçik müəssisələrdə yaradılır. Beynəlxalq kiçik və orta müəssisələr federasiyasının 18 ölkə üzrə apardığı hesablamalara əsasən istehsal olunan məhsulun orta hesabla 50%-i,

əsaslı vəsait qoyuluşu və ixracın 30%-dən çoxu kiçik müəssisələrin payına düşür. Birləşmiş Millətlər Təşkilatının məlumatlarına əsasən dünyada əhalinin 50%-dan çoxu kiçik müəssisələrdə çalışır. Azərbaycan Respublikasında kiçik sahibkarlıq XX əsrin 90-cı illərinin əvvələrində müstəqilliyimizi bərpa etdikdən sonra formalaşmağa başlamışdır.

Hələ 1954-cü ildə hazırlanmış ABŞ Milli Təhlükəsizlik Konsepsiyasında iqtisadi təhlükəsizliyin təmin edilməsi məsələsində kiçik sahibkarlığın rolu vurğulanır: "Açıq rəqabətin qorunması və təşviqi, kiçik və orta sahibkarlığın inkişafı yalnız iqtisadi rifahı deyil, eyni zamanda bütün ölkənin milli təhlükəsizliyini təmin edir." [1].

Kiçik sahibkarlıq sektorunun inkişafında mövcud olan qeyri-bərabərlik və ziddiyyətlər risklərin artırılmasına və iqtisadi təhlükəsizliyin ümumi səviyyəsinin aşağı düşməsinə səbəb olur. Bu halda hətta ən kiçik müəssisənin iqtisadi təhlükəsizliyi sahibkarlıq fəaliyyətinin ayrılmaz bir xüsusiyyəti olan sahibkarlıq riski ilə birbaşa əlaqəlidir.

Bazar münasibətləri şəraitində müxtəlif mülkiyyət formaları hər hansı digər fəaliyyətdə olduğu kimi, risklərə məruz qalırlar. Ölkəmizdə və xaricdə risklərin təhlili, qiymətləndirmə və idarə olunma sahəsində iqtisadçıların ümumiləşdirilmiş təcrübəsi aşağıdakı nəticələri çıxarmağı imkan verir:

- sahibkarlıq fəaliyyəti risksiz mümkün deyil;
- bazar münasibətləri şəraitində yaşamaq üçün riskə getmək lazımdır;
- riskdən qaçmaq deyil, onu əvvəlcədən müəyyən etmək və optimal səviyyəsini tapmaq lazımdır.

İnsan tərəfindən riski qavrama faktının praktiki təcəssümü və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq qabiliyyətini qiymətləndirmək üçün psixoloji testlər mövcuddur.

Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində müvəffəqiyyət əldə etmək üçün əvvəlcədən riski görməyi öyrənmək lazımdır və onun nəticələrinin qarşısının alınması üçün tədbirlər görülməlidir.

Sahibkarlıq risklərinə iqtisadi təhlükəsizliyə birbaşa təsir edən kiçik müəssisələrin vergi risklərini də aid etmək olar. Vergi riskləri kiçik biznes sektorunda sistemli bir xarakterə malik olan vergi ödəməkdən yayınma problemi ilə əlaqəlidir, bu isə iqtisadi təhlükəsizliyə birbaşa təhlükədir. Vergidən yayınmaya gəldikdə, kiçik vergi ödəyiciləri üçün əsas məsələ vergi xərclərinin yüksək səviyyəsidir, bu isə həmin kateqoriya ödəyicilərinə əlavə vergi yükü qoyur. Bundan başqa, vergi ödəyiciləri üçün vergi yükünün miqdarından çox, onun dövlət tərəfindən yaradılmış biznes üçün şəraitə uyğun gəlməməsi əsas önəm daşıyır.

Kiçik biznes fəaliyyətində risklərin azaldılması və ya təsirinin yumşaldılması dövlət dəstəyi mexanizminin yaradılması vasitəsilə mümkündür (sistematik və sistemsiz risklərin idarə edilməsi prosesi). Buna görə də riskin idarə edilməsi sistemlərinin tətbiq edilməsi prosesinin stimullaşdırması yolu ilə kiçik biznesin iqtisadi təhlükəsizliyinin yüksək səviyyədə dövlət dəstəyi tədbirləri kompleksinin hazırlanması və elmi əsaslandırılması tələb olunur.

Bölgənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi sistemində iki amili qeyd etmək yerinə düşərdi: birincisi, bölgənin iqtisadi elementi kimi öz iqtisadi təhlükəsizliyini təmin etmək və bütün regional iqtisadi sistemin təhlükəsizliyinin təmin edilməsi; ikincisi, bölgə iqtisadiyyatının inkişafına töhfə verən fəaliyyətin hədəflənmiş regional yönümündə təmin edilməsi. V. V. Chernovanın sözləri ilə desək, "ölkənin iqtisadi təhlükəsizliyi bütün səviyyələrdə təsərrüfat subyektlərinin iqtisadi maraqlarının daxili balansından asılıdır." [2]

Kiçik biznesin inkişafı müsbət dinamikliyə malikdir. Lakin fəaliyyət göstərdiyi müddətdə kiçik müəssisələr bir sıra çətinliklərlə qarşılaşırlar, onlardan ən əsası maliyyə problemləridir. İqtisadiyyat siyasətlə sıx əlaqəlidir, çünki bunlar cəmiyyətin iki funksional altsistemləridir. Siyasət iqtisadi agentlər üçün davranış qaydaları yaradır. Deməli, kiçik sahibkarlıq subyektlərinin dinamik inkişafı üçün hökumət və biznes arasında dialoq olmalıdır. [3] Biznes və hökumət arasında tam ikitərəfli dialoq mexanizmlərinin olmaması sosial-iqtisadi sabitliyin kompleks pozulmasına təsir göstərir və böhran şəraitində ağırlaşır. Dövlət və biznes arasında qarşılıqlı təsir mexanizmləri və formaları müəssisələrin davranışlarına əhəmiyyətli dərəcədə təsir göstərir. Müxtəlif sahibkarlıq formalarına görə dövlətin əsas funksiyaları tənzimləyici və stimullaşdırıcı funksiyalardır. Müasir şəraitdə, biznes təhlükəsizliyində əsas təhdidlər arasında vergi yükünün artması, korrupsiya və əhalinin alıcılıq qabiliyyətinin aşağı səviyyədə olmasını göstərmək olar. Bu amillərə sahibkarlıq fəaliyyətinin davamlı inkişafına nail olmasına və bütövlükdə dövlətin iqtisadi təhlükəsizliyinə təhlükə yaradan ciddi maneələr kimi baxılmalıdır.

Kiçik biznes milli iqtisadiyyatın sosial-iqtisadi inkişafına və davamlılığına təsir göstərir. Onlar isə öz növbəsində dövlətin iqtisadi təhlükəsizliyi prinsipləridir.

**Ədəbiyyat**

1. Medvedev V. Problems of Russian economic security. Voprosy ekonomiki = Issues of Economics, 1999, no. 3, pp. 111–127.

2. Чернова В. В. Многополярная модель реализации экономических интересов регионов — концепт экономической безопасности национального хозяйства: автореф. дис. … д-ра экон. наук: 08.00.01 / В. В. Чернова. — Тамбов, 2009, 42 с.

3. Вершинина А. П. Роль малого предпринимательства в обеспечении экономической безопасности государства. «НАУКОВЕДЕНИЕ» Том 7, №5, Новосибирск, 2015.

**Резюме**

***Худавердиева Е.М., Турабова Г.С.***
*Гянджинский государственный университет*

**Роль малого предпринимательства в системе обеспечения экономической безопасности**

*Во всех странах развитие малого бизнеса в экономике является одним из наиболее важных движущих факторов, потому что это влияет на формирование среднего класса в стране. Другими словами, в стране, в которой эта отрасль наиболее развита, будет высокой и экономическое развитие. В статье рассмотрена роль малого предпринимательства в системе обеспечения экономической безопасности, отмечена роль предпринимательского риска.*

***Ключевые слова:*** *экономическая безопасность, малый бизнес, предпринимательский риск, налог, государственная поддержка.*

**Summary**

***Khudaverdiyeva E.M., Turabova G.S.***
*Ganja State University*

**The Role of Small Entrepreneurship in Economic Security System**

*In all countries the development of small business in the economy is one of the most important driving factors. Because, it affects the formation of the middle class in the country. In other words, the country in which the economy has developed in this area tend to have a high level of economic development. This article examines the role of a entrepreneurial risk in the system of economic security, the role of a business enterprise.*

***Key words:*** *economic security, small business, predefined risk, tax, state support*

## AZƏRBAYCANDA MALİYYƏ SEKTORUNUN MÜASİR VƏZİYYƏTİ: TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

***İbrahimov K.***
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

***Açar sözlər:*** *bank sistemi, hüquqi baza, pul-kredit siyasəti, pul siyasəti*

Azərbaycanda müasir bazar iqtisadiyyatı şəraitində bank sistemində inkişaf etmiş dünya ölkələrinin qabaqcıl təcrübəsi əsasında radikal islahatlar aparılır və bank strukturlarının hüquqi-iqtisadi bazasının möhkəmləndirilməsində ciddi addımlar atılır. Cəmiyyətin inkişaf tarixində kredit sisteminin normal fəaliyyəti təmin edilərsə, onda yüksək və sürətli sosial-iqtisadi inkişaf səviyyəsindən danışmaq mümkündür. Hal-hazırda kredit sistemi bazar iqtisadiyyatı ilə əlaqədar olaraq, dövlətin işləyib hazırladığı iqtisadi inkişaf strategiyasının yerinə yetirilməsinə xidmət edir və bu məqsədlə səmərəli pul-kredit siyasəti həyata kecirilməkdədir.

Azərbaycanda pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri iqtisadi artımın və inkişafın başlıca şərti olan makroiqtisadi sabitliyin qorunmasına, bank sektorunda maliyyə sabitliyinin təmin olunmasına və maliyyə vasitəçiliyinin dərinləşməsinə yönəldilib. Bu hədəflərə nail olmaq üçün Mərkəzi Bank pul siyasətinin və bank nəzarətinin strateji çərçivəsinin davamlı təkmilləşdirilməsini həyata keçirir, habelə makroiqtisadi siyasətin koordinasiyasının daha da təkmilləşməsinə zəruri dəstək verməkdədir. Hazırda həyata keçirilən pul siyasəti nəticəsində maliyyə sabitliyi qorunub saxlanılmış, maliyyə sisteminin institusional inkişafı davam etdirilmiş, maliyyə xidmətlərinə çıxış imkanları artmaqdadır.

Son illər Azərbaycan Respublikasında maliyyə sisteminin formalaşması və təkmilləşdirilməsində dövlətin rolu getdikcə güclənir və bu zaman qarşıya qlobal maliyyə böhranının təsirinin başa çatmadığı hazırkı dövrdə ölkənin maliyyə sabitliyinin və təhlükəsizliyinin təmin edilməsi, makroiqtisadi, vergi və pul-kredit siyasətinin qarşılıqlı üzvi əlaqədə həyata keçirilməsi, büdcə sektorunun restrukturizasiyası və büdcə planlaşdırılması metodlarının daha səmərəli tətbiqi, büdcə gəlirlərinə və xərclərinə nəzarətin effektivliyinin yüksəldilməsi və s. kimi mühüm vəzifələr irəli sürülür. Beləliklə, 2017-ci ildə ölkədə qiymətlərin sabitliyi təmin edilmiş, inflyasiyanın səviyyəsi qoyulmuş hədəf çərçivəsində saxlanılmışdır. Bank sektorunda kapitalın adekvatlığı göstəricisi 12%-lik normaya qarşı 17.6% təşkil edir ki, bu da beynəlxalq standartlar üzrə tələbi 2 dəfəyədək üstələyir. Sistemin likvidliyi yüksəkdir, bankların öhdəlikləri və

hesablaşmaların icrası fasiləsiz həyata keçirilir. Hazırda real sektorun və əhalinin bank sisteminə vaxtı keçmiş borclarının xüsusi çəkisi cəmi 5.3% səviyyəsindədir və bunun da yarısı banklar tərəfindən yaradılmış ehtiyatlarla örtülür. 2017-cü ildə bank sistemi üzrə maliyyə nəticələri qənaətbəxş olmuş, mənfəətlə işləyən bankların sayı artmışdır. Bank sektoru üzrə aktivlərin gəlirliyi 2%, kapitalın gəlirliyi isə 15% təşkil edir. Bank sektorunda dayanıqlığın və sabitliyin qorunması, bank aktivliyinin optimallaşması, sektorun tarazlı və sağlam inkişafı maliyyə sabitliyi siyasətinin əsas imperativləridir. Azərbaycanda Mərkəzi Bankın pul və məzənnə siyasəti ölkədə makroiqtisadi sabitliyin qorunmasına yönəldilmiş, kontr-tsiklik siyasət çərçivəsinin formalaşması mühüm prioritet olmuşdur. Pul siyasəti inflyasiya və iqtisadi artım, pulun dəyəri və iqtisadiyyatda gəlirlilik norması arasında mümkün optimal balansın tapılmasına istiqamətləndirilmişdir. Azərbaycanda Mərkəzi Bankın pul siyasətinin başlıca hədəfi illik inflyasiyanın təkrəqəmli səviyyədə saxlanması təşkil edir. İnflyasiyanın aşağı səviyyədə saxlanması ödəniş qabiliyyətli tələbin təmin olunmasında, əhalinin və biznesin maliyyə yığımlarının real dəyərinin qorunmasında, faiz dərəcələrinin aşağı düşməsində və manatın real məzənnəsinin rəqabətli olmasında həlledici amildir. Manatın məzənnəsi makroiqtisadi sabitliyin saxlanmasında, maliyyə sabitliyinin idarə olunmasında, habelə qeyri-neft sektorunun beynəlxalq rəqabət qabiliyyətinin qorunmasında əhəmiyyətli amil olaraq qəbul edilib. Eyni zamanda girov və mülkiyyət hüquqları institutlarının inkişafı, real sektorda maliyyə hesabatlılığının şəffaflığı iqtisadi subyektlərin maliyyə xidmətlərinə çıxış imkanlarını artıran başlıca amillərdir. İqtisadi artım, məşğulluq, gənclər siyasətinin səmərəli realizasiyası baxımından sosial ipotekanın inkişafı və onun miqyasının genişlənməsi öz aktuallığını qoruyur və bu səbəbdən, ölkədə ipoteka kreditləşdirilməsi sisteminin inkişafı istiqamətində də tədbirlər davam etdirilir. İpoteka kreditləşməsinin kommersiyalaşmasının dərinləşməsi və bu əsasda ipoteka kreditlərinə çıxışın genişləndirilməsi istiqamətində cidd addımlar atılır. Mərkəzi Bankın tənzimləmə potensialının və şəffaflıq göstəricilərinin daha da yüksəldilməsi istiqamətində zəruri tədbirlər görülməkdə davam edir. Mərkəzi Bankın qoşulduğu FSAP 2 proqramı çərçivəsində gözlənilən qiymətləndirmələrin nəticələri Mərkəzi Bankın və bank sisteminin inkişaf prioritetlərinin müəyyən edilməsində mühüm rol oynayacaqdır. Azərbaycan bank sistemində maliyyə sabitliyinin qorunması üçün sektorun institusional inkişafı davam edir. Bank sisteminin kapital adekvatlığı və likvidlik göstəriciləri məqbul səviyyədə saxlanılmışdır. Maliyyə xidmətlərinə çıxış imkanları genişlənmiş, iqtisadiyyatın kreditləşdirilməsi davam etdirilmişdir. Bank sektorunun potensial riskləri vaxtında tənzimlənmişdir. Sektorda restrukturizasiya tədbirləri davam etməkdədir. Mərkəzi Bank tərəfindən həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan bank sistemi maliyyə dayanıqlığını qorumuşdur. Bank sistemi optimal gəlirliliyini qorumuş və investisiya cəlbediciliyini saxlamışdır. Hazırda ümumi likvidlik səviyyəsi yüksəkdir.

Mərkəzi Bankın məzənnə siyasəti valyuta bazarında tarazlığın təmin olunmasına və manatın məzənnəsinin sabitliyinə yönəlib. Dəhliz daxilində ABŞ dolları/manat ikitərəfli məzənnəsinin hədəflənməsi növbəti ildə də məzənnə siyasətinin əməliyyat çərçivəsini təşkil edir. Tədiyyə balansının profisiti manatın məzənnəsinə təsir edən başlıca makroiqtisadi amildir. Makroiqtisadi sabitliyinin təməl şərtlərindən biri bank sektoruna inam və güvəni artırmaqdır. Lakin bununla yanaşı, makroiqtisadiyyatda nizam, etibar və sabitliyi təmin edəcək islahatlar mütləq həyata keçirilməlidir. Maliyyə və pul nizamını saxlayacaq ciddi normativ- aktlar qəbul olunmalıdır. Əhalinin ehtiyacdan borclanmaması üçün mütləq bir nizam qurulmalı və Avropa Birliyinə üzv ölkələrdə Maastrichit müqaviləsinin tələbi ilə hələ də tətbiq olunan əhali borclarının ÜDM 60% nisbətinin keçməyəcəyi, buna bənzər konstitusiya qanunu ilə qorunmalıdır. Yüksək faiz siyasətinin və bunun nəticəsi olan zəif iqtisadiyyatdan xilas olmanın əsaslarından biri əhalinin ehtiyacdan əlavə borclanmasının qarşısının alınmasıdır. Vergi sistemində tərəfzislik, sadəlik, ədalət, ümumilik, sabitlik, təsiretmə qanunları çərçivəsində köklü bir şəkildə yenidən nizamlanmalıdır. Ölkəmizdə vergidənkənar bazar iqtisadiyyatını zəiflədəcək tədbirlər gücləndirilməlidir. Gələcəkdə də Mərkəzi Bankın pul siyasətinin başlıca hədəfini illik inflyasiyanın təkrəqəmli səviyyədə saxlanması təşkil edəcəkdir. İnflyasiyanın aşağı səviyyədə saxlanması ödəniş qabiliyyətli tələbin təmin olunmasında, əhalinin və biznesin maliyyə yığımlarının real dəyərinin qorunmasında, faiz dərəcələrinin aşağı düşməsində və manatın real məzənnəsinin rəqabətli olmasında həlledici amildir. Bank sistemindəki likvidlik həm inyeksiya (likvidliyin verilməsi), həm də sterilizasiya alətləri vasitəsilə tənzimlənəcəkdir.

Maliyyə sabitliyi üzrə əsas hədəflərə nail olunması və Bazel-III standartları ilə harmonizasiya məqsədilə prudensial nəzarət çərçivəsi təkmilləşdirilməlidir.

Mərkəzi Bank pul və maliyyə sabitliyi siyasətini uzunmüddətli iqtisadi inkişaf hədəflərini və həmçinin növbəti ilin makroiqtisadi xüsusiyyətlərini nəzərə almaqla həyata keçirir. İqtisadiyyatın şaxələnməsinin və yüksək iqtisadi artımın sosial rifaha transformasiyasının fundamental şərtlərindən biri makroiqtisadi və maliyyə sabitliyi, habelə “maliyyə inklüzivliyi”- maliyyə resurslarına geniş çıxış imkanlarının təmin olunmasıdır.

Bu hədəfləri əsas götürərək Mərkəzi Bank orta müddətli dövrdə çevik pul və məzənnə siyasəti yürüdəcək, siyasət çərçivəsinin, o cümlədən məzənnə rejiminin təkmilləşdirilməsini diqqət mərkəzində saxlayacaq və qiymət sabitliyinin qorunmasına dəstək vermək üçün Mərkəzi Bank sərəncamında olan alətlərdən istifadə edərək zəruri antiinflyasiya tədbirlərini həyata keçirəcəkdir. Antiinflyasiya siyasəti yürüdülərkən inflyasiyanın tələb və xərc amillərini diqqətdə saxlamaq lazımdır. Pul siyasətinin makroiqtisadi siyasətlə koordinasiyası çərçivəsinin daha da inkişaf etməsi, monetar idarəetmənin empirik əsaslarının gücləndirilməsinə xüsusi diqqət yetirmək lazımdır.

Maliyyə sabitliyini təmin etmək üçün makro və mikroprudensial siyasət bank sektorunda hərarətlənmənin sistem tənzimlənməsi və fərdi nəzarət vasitəsilə idarə edilməsinə yönəltmək məqsədəuygundur.

Bazel-3 standartlarının yerli şəraitə adaptasiyası təmin edilərək, "kontr-tsiklik bank nəzarəti" çərçivəsinin formalaşması mütləqdir. Maliyyə dərinliyinin artırılmasına yönəlmiş siyasət çərçivəsində bankların biznes modelinin yeni strateji inkişaf hədəflərinə uyğunlaşdırılması, faiz dərəcələrinin azalmasının təşviqi həyata keçirilməlidir. Bank-maliyyə infrastrukturunun, o cümlədən nağdsız hesablaşmalar sisteminin daha da inkişaf etməsi və dərinləşməsi üçün səyləri artırmaq gərəkdir. Qiymətlərin sabitliyinin təmin edilməsi mərkəzi banklar tərəfindən dayanıqlı iqtisadi artımın dəstəklənməsi vacib şərtdir. Bunu nəzərə alaraq, Mərkəzi Bank inflyasiyanın daha çevik idarə olunmasına imkan verən pul siyasəti rejiminin tətbiqi şərtlərinin reallaşdırılması istiqamətində fəaliyyətini davam edəcəkdir.

Bütövlükdə, gələcəkdə də Mərkəzi Bank pul siyasətini iqtisadi artım və qiymət sabitliyi arasında səmərəli şəkildə tarazlaşdırmağa çalışacaq, habelə maliyyə sektorunun hərarətini də tənzimləyəcəkdir. Eyni zamanda son qlobal meyillərə uyğun olaraq, pul siyasəti və makroprudensial siyasətin sinxronlaşması təmin olunacaqdır.

**Ədəbiyyat**


1. www.bfb.az – Bakı Fond Birjasının rəsmi saytı
2. www.qkdk.gov.az – Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin rəsmi saytı
3. www.cbar.az – AR Mərkəzi Bankının rəsmi saytı
4. www.maliyye.gov.az – Maliyyə Nazirliyinin rəsmi saytı
5. www.economy.gov.az – İqtisadi İnkişaf Nazirliyinin rəsmi saytı
6. www.stat.gov.az – AR Statistika Komitəsinin rəsmi saytı


**Резюме**


***Ибрагимов К.***


**Современная ситуация финансового сектора в Азербайджане: анализ и оценка**


*Радикальные реформы осуществляются на основе передового опыта развитых стран в банковской системе в условиях современной рыночной экономики в Азербайджане, и предпринимаются серьезные шаги для укрепления правовой и экономической базы банковских структур. Если нормальное развитие кредитной системы обеспечивается в истории общества, то можно говорить о высоком и быстром социально-экономическом развитии. В настоящее время кредитная система служит реализации стратегии экономического развития, разработанной государством в отношении рыночной экономики, и для этой цели осуществляется эффективная денежно-кредитная политика.*



***Ключевые слова:*** *банковская система, правовая основа, ипотечная политика, денежно-кредитная политика*


**Summary**


***Ibrahimov K.***


**Modern Situation of Financial Sector in Azerbaijan: Analysis and Evaluation**


*Radical reforms are being carried out on the basis of the advanced experience of developed countries in the banking system in the conditions of the modern market economy in Azerbaijan and serious steps are taken to strengthen the legal-economic base of banking structures. If the normal development of the credit system is provided in the history of society, then it is possible to talk about high and rapid socio-economic development. Currently, the credit system serves to implement the economic development strategy developed by the state in relation to the market economy, and for this purpose an effective monetary policy is being implemented.*



***Key words:*** *banking system, legal basis, hypothecary policy, monetary policy*

# İQTİSADİ TƏHLÜKƏSİZLİK KONTEKSTİNDƏ SIĞORTA ŞİRKƏTLƏRİNİN MALİYYƏ SABİTLİYİNİN TƏMİN EDİLMƏSİ PROBLEMLƏRİ VƏ HƏLLİ YOLLARI

**İbrahimov K.M.**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Xülasə**

*Məqalədə iqtisadi təhlükəsizlik kontekstində sığorta şirkətlərinin maliyyə sabitliyinin təmin edilməsi problemləri və həlli yolları tədqiq olunmuşdur. Sığorta şirkətlərinin fəaliyyət prinsipləri, maliyyə mexanizmləri, maliyyə sabitliyinin təmin edilməsi tədbirləri təhlil edilmişdir. Azərbaycanda sığorta sisteminin və sığorta şirkətlərinin inkişaf proseslərinə baxılmış və problemlər açıqlanmışdır. İqtisadi təhlükəsizlik kontekstində sığorta şirkətlərinin maliyyə sabitliyinin gücləndirilməsi məsələlərinin vacibliyi əsaslandırılmış və təkliflər verlimişdir.*

***Açar sözlər:*** *iqtisadi təhlükəsizlik, sığorta sistemi, sığorta şirkətləri, sığorta şirkətlərinin maliyyə sabitliyi problemləri, sığorta şirkətlərinin riskləri*

Dünya iqtisadi proseslərinin deformasiyaya uğraması, xüsusilə maliyyə sisteminin qeyri-sabitliyi, maliyyə böhranının mənfi fəsadlarının hələ də davam etməsi iqtisadi təhlükəsizlik problemlərini kifayət qədər aktuallaşdırmışdır. Bu baxımdan istənilən fəaliyyət sahəsində ənənəvi iqtisadi və maliyyə mexanizmlərinin təkmilləşdirilməsi, yenilənməsi problemlərinin daha optimal həlli yollarının tapılması vacib şərtlərdəndir. Xüsusilə, maliyyə xidmətləri bazarlarının əsas fəaliyyət istiqamətlərinin mövcud mexanizmlərinin təkmilləşdirilməsi, maliyyə sabitliyinin təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Spesifik xüsusiyyətləri ilə maliyyə bazarlarında diqqət çəkən sahələrdən biri kimi-sığorta fəaliyyətinin optimallaşdırılması və onun əsas mexanizmlərinin təkmilləşdirilməsi problemləri xeyli aktual olaraq ortaya çıxmışdır.

Qeyd edək ki, dünya sığorta şirkətlərinin fəaliyyətinin müasir istiqamətləri və xüsusiyyətləri bir sıra problemlər üzrə yeni mexanizmlərin hazırlanmasını və tətbiqini şərtləndirir. Belə ki, sığorta sistemi və sığorta əməliyyatları hesabına təmərküzləşdirilən və yığılan maliyyə vəsaitlərindən səmərəli istifadə edilməsi problemləri mövcuddur. Digər tərəfdən sığorta şirkətlərinin özlərinin maliyyə sabitliyinin təmin edilməsi, uzunmüddətli dövr üçün onların davamlı və dayanıqlı şəkildə fəaliyyət göstərmələrinin əsas mexanizmlərinin hazırlanması, strategiyasının işlənməsi və tətbiqi heç də bütün sığorta şirkətləri tərəfindən uğurla həyata keçirilmir. Bu baxımdan sığorta şirkətlərinin maliyyə resurslarından istifadə edilməsinin optimal planlaşdırılması, strateji yanaşmaların təmin edilməsi, operativ idarə edilməsi və nəzarətin təşkili kimi funksional elementlərin adekvatlığı vacib şərtlərdəndir. Müasir bazar iqtisadiyyatı şəraitində sığorta istehsal və kommersiya münasibətlərində, xüsusilə istehsal sahələrinin inkişaf etdirilməsində, yenidən qurulmasında, müasir texnologiyalar əsaslı yeni müəssisələrin yaradılmasında, daşınmaz əmlak bazarının fəallaşdırılmasında, o cümlədən dövlət əmlakının kommersiya və istehsal dövriyyəsinə cəlb edilməsində xeyli tələb olunan mühüm element kimi xarakterizə olunur [1;2]. Buna görə də istənilən fəaliyyət sahələrində ortaya çıxan risklərin sığortalanması, dəymiş zərərin ödənilməsi, bazar iqtisadiyyatı fəaliyyətinin daxili və kənar risklərdən qorunması tədbirlərinin əhəmiyyəti xeyli yüksəkdir və bu proseslərdə sığorta mexanzimləri mühüm əhəmiyyət kəsb edir. Bir sözlə, sığorta ictimai istehsalın və kommersiya fəaliyyətinin fasiləsizliyinin təminatçısı kimi mühüm funksiyaları yerinə yetirir.

Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsində haqlı olaraq qeyd edilir ki, sığorta bazarının inkişafı qeyri-müəyyənliklərdən və risklərdən qorunmağa kömək etməklə, eləcə də daxili yığımın toplanması üçün investisiya kanalı təmin etməklə ölkə iqtisadiyyatının dayanıqlı inkişafına töhfə verir [3,s.22]. Amma ölkəmizdə sığorta bazarının inkişaf səviyyəsi müasir dövrün və qlobal iqtisadi təhdidlərin təsir dairəsinə adekvat deyildir. Belə ki, ölkəmizin sığorta bazarının mövcud maliyyə sektoruna, maliyyə sabitliyinə və dayanıqlılığına, iqtisadiyyatın makroiqtisadi sabitliyinə, iqtisadi inkişaf proseslərinə, sahibkarlığın inkişafının stimullaşdırılmasına təsiri xeyli aşağıdır. Təsadüfi deyildir ki, Maliyyə Bazarlarına Nəzarət Palatasının apardığı araşdırmalara görə, 2016-cı ilin əvvəlinə ölkəmizdə mövcud olan sığorta sektorunun maliyyə dərinliyini əks etdirən sığorta haqlarının ÜDM-də payı 1 %-dən də az olmuşdur [4]. Bu onunla bağlıdır ki, sığorta şirkətləri maliyyə bazarlarında o qədər də fəal deyildirlər və xidmətlərin strukturu xeyli kasaddır. Sığorta sinifləri üzrə 2017-ci il ərzində hesablanmış haqların və sığorta ödənişlərinin təhlili göstərir ki, bütün növ sığorta sinifləri üzrə ölkədə sığorta haqlarının ümumi məbləği 556,9 mln. manata yaxın olmuşdur, ancaq il ərzində sığorta ödənişlərinin həcmi cəmisi 257,1 mln. manat və yaxud ümumi yığılmış sığorta haqlarının 46,2 %-nə yaxın olmuşdur [5]. Əmlak sığortası üzrə 2017-ci ildə toplanmış sığorta haqlarının ümumi məbləği 107 mln. manata yaxın olduğu halda, bu məbləğdən cəmisi 19,2 mln. manat sığorta ödənişi həyata keçirilmişdir. Ölkədə güclü potensialı, o cümlədən ixrac potensialı ilə fərqlənən fəaliyyət sahələrinin, məsələn kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası üzrə haqlar cəmisi

1,3 mln. manat, ödənişlər isə 1,4 mln. manat təşkil etmişdir. Ümumiyyətlə, toplanmış sığorta haqlarının maliyyə bazarlarında investisiya xüsusiyyətlərindən və funksiyalarından səmərəli istifadə edilməsi üzrə mexanizmlər və yanaşmalar müasir dövrün tələblərindən kifayət qədər uzaqdır. Sığorta şirkətləri üzrə 2017-ci ildə hesablanmış sığorta haqları və ödənişlərin təhlilinə baxsaq, məlum olar ki, bir sıra sığorta şirkətlərində illik ödənişlər toplanan haqları üstələyir, bu isə həmin sığorta şirkətlərində maliyyə sabitliyi mexanizmlərinin gücləndirilməsini tələb edir [6]. Bu cür disporsiyalar onu göstərir ki, sığorta şirkətlərinin maliyyə resurslarından istifadənin səmərəliliyinin modelləşdirilməsi üzrə daha praqmatik və müasir yanaşmalar təmin edilməli, sığorta şirkətlərinin maliyyə sabitliyinin əsas mexanizmlərinin gücləndirilməsinə nail olunmalı və sığorta xidmətlərinin diversifikasiyalaşdırılması problemləri həll edilməlidir. Sığorta şirkətlərinin optimal strateji fəaliyyət planları və strategiyaları olmalı, sığorta risklərinin əhatəsi və dairəsi müəyyənləşdirilməli, sığorta portfelinin diversifikasiyalaşdırılması təmin edilməli, sığorta şirkətlərinin maliyyə sabitliyinin baza prinsipləri ciddi şəkildə qorunmalıdır [7]. Sığorta şirkətlərinin hesabatları dürüst və şəffaf olmalı, onların fəaliyyətinin obyektiv güzgüsü kimi çıxış etməli və toplanmış maliyyə vəsaitlərinin səmərəli istifadəsi konsepsiyası hazırlanmalı, sistemli və ardıcıl şəkildə onun icrasına əməl olunmalıdır. Sığorta xidməti sahəsində sığorta təşkilatlarının maliyyə sabitliyi və ödəmə qabiliyyətinin mövcudluğunu və sığortalılar qarşısında öhdəliklərinin yerinə yetirilməsi təminatının qanunvericiliyinə uyğunluğu sığorta təşkilatlarının tərtib və təqdim etdikləri mühasibat hesabatları üzrə göstəricilərlə müəyyən olunur [8,s.175]. Bu baxımdan sığorta şirkətlərinin fəaliyyətinin əsas mexanizmlərinin təkmilləşdirilməsi prosesləri intensivləşdirilməlidir.

Yaxın perspektivdə ölkəmizdə sığorta fəaliyyətinin tənzimlənməsi və ona nəzarət mexanizmlərinin gücləndirilməsi prioritetlərinin təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edəcəkdir. Sığorta bazarı iştirakçılarının maliyyə sabitliyinin təmin edilməsi məqsədilə beynəlxalq təcrübəyə adekvat təkmilləşdirmə istiqamətlərinə üstünlük verilməsi nəzərdə tutulmuşdur. Görülən tədbirlər sığorta bazarında toplanan haqlardan iqtisadiyyatın müxtəlif sahələrində daha məqsədli və səmərəli istifadəyə imkan verə və maliyyə bazarında sığorta təşkilatlarının rolunun gücləndirilməsinə əlavə perspektivlər aça bilər. Bunun üçün sığorta şirkətlərinin fəaliyyəti qlobal iqtisadi çağırışlara adekvat olaraq modelləşdirilməli və təklif olunan sığorta xidmətlərinin çeşidi, həmçinin keyfiyyəti yüksəldilməli, ölkənin bütün regionlarında sığorta xidmətlərinə marağın yüksəlməsi və əlçatanlığı təmin edilməlidir.

**Ədəbiyyat**

1. Худиев Н. Н. Совершенствование механизма налогообложения в страховых организациях. М.: Финансы, 2012, 287 с.

2. Xudiyev N.N. Sıgortanın əsasları. Bakı, 2013.

3. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016, 59 s.

4. Maliyyə Bazarlarına Nəzarət Palatası.https://www.fimsa.az.

5. 2017-ci il yanvar-dekabr ayları üzrə hesablanmış haqları və sığorta ödənişləri haqqında məlumat (təcili məlumatlar əsasında; sığorta sinifləri üzrə). Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası. https://www.fimsa.az.

6. 2017-ci il yanvar-dekabr ayları üzrə hesablanmış sığorta haqları və sığorta ödənişləri haqqında məlumat (təcili məlumatlar əsasında; sığorta şirkətləri üzrə) Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası. https://www.fimsa.az.

7. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası. Sığorta fəaliyyətinin lisenziyalaşdırılması. https://www.fimsa.az.

8. Xankişiyev B.A. Sığorta fəaliyyətinin əsasları. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2006, 274 s.

**Резюме**

***Ибрагимов К.М.***

**Проблемы и пути решения обеспечения финансовой стабильности страховых организаций в контексте экономической безопасности**

*В статье исследованы проблемы и пути решения обеспечения финансовой стабильности страховых организаций в контексте экономической безопасности. Анализированы принцип деятельности, финансовые механизмы и мероприятия обеспечения финансовой стабильности страховых организаций. Рассмотрен процесс развития и раскрыты проблемы системы страхования и страховых организаций в Азербайджане. Обоснована важность и даны предложения по вопросам усиления финансовой стабильности страховых компаний в контексте экономической безопасности.*

***Ключевые слова:*** *экономическая безопасность, система страхования, страховые компании, проблемы финансовой стабильности страховых компаний, риски страховых компаний*

**Summary**

***Ibrahimov K.M.***

**Problems and Solutions to Ensure the Financial Stability of Insurance Organizations in the Context of Economic Security**

*The problems and ways to solve the financial stability of insurance organizations in the context of economic security are investigated in the article.The principle of activity, financial mechanisms and measures to ensure the financial stability of insurance organizations are analyzed.The process of development and problems of the insurance system and insurance organizations in Azerbaijan are considered.The importance and proposals on the issues of strengthening the financial stability of insurance companies in the context of economic security are substantiated.*

***Key words:*** *economic security, insurance system, insurance companies, problems of financial stability of insurance companies, risks of insurance companies*

## AZƏRBAYCANDA APARILAN MÜASİR MALİYYƏ SİYASƏTİNİN ƏSAS VƏZİFƏLƏRİ VƏ ONUN BÜDCƏ GƏLİRLƏRİNİN ARTIRILMASINA TƏSİRİ

***İbrahimova Ç.İ.***

*Sumqayıt Dövlət Universiteti*

***Xülasə***

*Maliyyə siyasəti, hər şeydən əvvəl, müəyyən bir iqtisadi məqsədlərə çatmaq üçün maliyyədən istifadə olunması prosesidir. Dövlət makroiqtisadi məqsədlərə-iqtisadi tarazlığın təmin edilməsinə, iqtisadi artıma, sosial- iqtisadi inkişafın reallaşmasına çatmaq üçün müxtəlif maliyyə vasitələrindən istifadə edir. Dövlət gəlirlərinin artması, büdcə tarazlığı və s. iqtisadi artımın əsas vasitəsidir.*

***Açar sözlər:*** *maliyyə siyasəti, sosial-iqtisadi inkişaf, maliyyə ehtiyatları, büdcə gəlirləri*

Maliyyə siyasətinin əsas məqsədi maliyyə ehtiyatlarının həcmini və istifadəsinin səmərəliliyini artırmaqdan ibarətdir. Bu siyasətin hazırlanması zamanı konkret tarixi şəraitdən çıxış etmək lazımdır. Ümumiyyətlə, maliyyə siyasətinin formalaşması zamanı aşağıdakı konkret vəzifələrin icrası əsas götürülməlidir:

1.Maliyyə siyasətinin təşkili zamanı, müəyyən məkan və zaman daxilində hər bir ölkənin özünəməxsus cəhətləri, yəni regional, demoqrafik, milli, psixoloji xüsusiyyətlər nəzərə alınmalı və maliyyə siyasəti də onlara uyğun təşkil olunmalı, maliyyə ehtiyatlarının həcmi, onların mənbələri və istifadə istiqamətləri düzgün müəyyənləşdirilməlidir.

2. Maliyyə- büdcə prosesinin səmərəliliyini təmin etmək üçün maliyyə- büdcə sahəsində müvafiq qanunvericilik bazası yaradılmalı, dövlət maliyyə strukturlarının işi düzgün təşkil edilməli, maliyyə siyasətinin qarşısında duran vəzifələri uğurla yerinə yetirmək üçün qabaqcıl dünya ölkələrinin zəngin təcrübəsindən istifadə edilməlidir.

Maliyyə siyasətinin təşkili zamanı, ölkədə idarəetmənin xüsusiyyətləri, cəmiyyətin inkişaf səviyyəsi, həmçinin digər məsələlər və prinsiplər nəzərə alınmalıdır. Bu prinsiplər aşağıdakılardır[1]:

1. Sərbəstlik prinsipi.
2. Dövlətin iqtisadiyyata müdaxiləsi prinsipi.
3. Dövlətin gəlir və xərclərinin balanslaşdırılması və maliyyə ehtiyatlarının yaradılması prinsipi.

Ölkənin sosial-iqtisadi durumu, yeridilən maliyyə siyasətinin səmərəliliyi üçün başlıca meyardır. Dövlətin strateji xəttinin başlıca istiqamətlərindən biri yeridilən maliyyə siyasətinin Azərbaycanın texniki-iqtisadi və intellektual potensialından, mövcud idarəetmə formasından, bütün daxili imkanlardan səmərəli istifadə etmək və iqtisadi islahatları həyata keçirməkdir. Ölkənin maliyyə siyasətində əsas istiqamətlərdən biri də keçid dövründə məşğulluğun təmin edilməsidir.

Manatın sabitliyini qorumaq, milli pul vahidinin alıcılıq qabiliyyətini möhkəmləndirmək maliyyə siyasətinin səmərəliliyini artıran meyarlardan biridir. Bu istiqamət son illərdə baş vermiş devalvasiyalardan sonra daha çox diqqət mərkəzində olan maliyyə istiqamətlərindən biridir.

Ölkədə yeridilən maliyyə siyasətinin əsas istiqamətlərindən biri də kreditlərin iqtisadi cəhətdən əsaslandırılmış faiz dərəcələrinin müəyyən edilməsidir. Bunu Mərkəzi Bank müəyyən edir və həyata keçirir. Obyektiv iqtisadi qanunlara əsasən kreditlərə tələb nə qədər yüksək olsa da, faiz dərəcəsi orta mənfəət normasından aşağı olmalıdır.

Ölkəmizdə həyata keçirilən maliyyə siyasətinin bir istiqaməti də aktiv tədiyyə balansı formalaşdırmağa nail olmaqdır. Bu makroiqtisadi göctərici ölkənin xarici- iqtisadi əlaqələrinin vəziyyətini

səciyyələndirən əsas göstəricidir[2]. Maliyyə siyasətinin səmərəliliyinin yüksəldilməsi üçün Mərkəzi Bank ümumi daxili məhsulun artımı, istehlak qiymətlərinin yüksəldilməsi və rəsmi dövriyyədə olan pul kütləsinin həcmi arasında nisbətin optimallığını təmin etməlidir. Unutmaq olmaz ki, pula tələbatın müəyyən edilməsində ən azı 3 fundamental amilin ÜDM-in fiziki həcmi, qiymətlər indeksi və pul dövriyyəsinin sürəti nəzərə alınmalıdır.

Azərbaycan Respublikası hökümətinin 2017-ci ildə də həyata keçirdiyi maliyyə siyasəti makroiqtisadi sabitliyin və iqtisadi artımın əldə olunmasına, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına, büdcə kəsirinin minunuma endirilməsinə yönəlmişdir.

Azərbaycanda gedən bazar transformasiyası obyektiv olaraq dünya miqyasında baş verən maliyyə-iqtisadi proseslərlə şərtlənir. Bu açıq iqtisadiyyat adlanan konsepsiya, habelə daxili və xarici iqtisadiyyatın liberallaşması konsepsiyası ilə üzvi şəkildə bağlıdır.

Beləliklə, maliyyə siyasətinin hazırlanması prosesi, qarşıya qoyulmuş məqsədləri uğurla yerinə yetirə biləcək maliyyə mexanizmi prinsiplərinin təşkilini nəzərdə tutur. Maliyyə siyasətinin elmi cəhətdən əsaslandırılması və düzgün, uğurlu reallaşması böyük, müsbət nəticələr verir. Bu isə o deməkdir ki, maliyyə siyasəti xalqın güzaranının yaxşılaşdırılmasını təmin edən əsas iqtisadi ünsürdür. Xalqın həyat səviyyəsinin yaxşılaşdırılması, dövlətin güclənməsi və iqtisadi artım makroiqtisadi siyasətin əsas cəhətlərini təşkil edir. İstər köhnə iqtisadi sistemdə, istərsə də indiki bazar iqtisadiyyatı sistemində maliyyə siyasətinin başlıca məqsədi bunlar olmuş və olmaqdadır.

**Ədəbiyyat**


1. Sadıqov M.M. Maliyyə potensialının formalaşmasında dövlətin borc siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsi problemləri. Bakı, 2003
2. Səfərov S. İqtisadi siyasət strategiyası, Bakı, 2000



**Резюме**

***Ибрагимова Ч.И.***

**Основная задачи современной финансовой политики, проводимой в Азербайджане, и ее влияние на доход и бюджет**

*Прежде всего, финансовая политика- процесс достижения некоторых экономических целей. Государство использует различные финансовые инструменты для достижения микроэкономических целей, урегулирования баланса экономическою развитию, реализация социально- экономического развития. Приоритет финансовой политики состоит из увеличения финан-совых запасов и эффективности их использования. В течение подготовки этой политики реальное состояние должно быть принято во внимание. Реальное состояние означает спецификацию шага усовершенствования общества, внутренней и внешней ситуации и реальных возможностей государства.*

***Ключевые слова:*** *финансовая политика, социально-экономическое развитие, финансовые ресурсы, доходы бюджета*

**Summary**

***Ibrahimova Ch.I.***

**Main Tasks of Financial Policy Conducted in Azerbaijan and Ist Impact on Increase of Budget Revenues**

*First of all, fiscal policy is the process of achieving certain economic goals. State uses various financial tools for accomplishment of macro economical goals, settlement of the balanced economic development, realization of socio-economic development. The priorities of fiscal policy are grouter of financial reserves and efficiency of their utilization. During the preparation of this policy real conditions have to be taken into account. Real conditions mean step-by-step improvement of the society, internal and external situation and real opportunities of the state.*

***Key words:*** *financial policy, social and economic development, financial resources, budget revenues*


## QİYMƏTLİ KAĞIZLAR BAZARINDA VƏSAİT CƏLBETMƏ İMKANLARI


***Qasımova L.L.***

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*



***Açar sözlər:*** *qiymətli kağızlar bazarı, investisiya, kapital, pay*


Maliyyə bazarı xarici kapitalı cəlbetmə vasitələrindən biri hesab edilir. Qiymətli kağızlar bazarının fəaliyyəti maliyyə tapşırıqlarının maddi bazaya maddi qatqının verilməsi ilə məhdudlaşmır, həmçinin yığım vasitəsi kimi daha səmərəli tətbiqi üçün də müxtəlif çeşidli tələblər yaradır. Bir çox insanlar bu bazarda məhz

gəlirlərini və əmanətlərini saxlamaq və artırmaq üçün aksiyalardan (səhmlərdən) və qiymətli kağızlardan istifadə edir və qiymətli kağızlar bir qayda olaraq uzunmüddətli bir dövr üçün əldə olunur. Maliyyə biznesi pul ehtiyatlarını (yəni investisiyaları) səyyar şəkildə cəlb etməyə imkan verir. Fond birjasında ümumi mənfəətin kapitallaşma həddi, və eyni zamanda onun dəyər həcmi əsas qiymətli kağızın kommersiya qiymətinin dəyişməsi həddindən irəli gəlir.

Bildiyimiz kimi, qiymətli kağızlar bazarında əsas vasitəçilərdən biri məhz kommersiya banklarıdır.

Bankların qiymətli kağızlar bazarında peşəkar fəaliyyəti müvafiq qanunlara uyğun olaraq həyata keçirilməlidir. Kommersiya bankları şəxsi kapitalın formalaşdırılması məqsədilə emitentlər qismində çıxış edə bilər, şəxsi borc öhdəliklərini - istiqraz vərəqələrini və digər qiymətli kağızları, o cümlədən, törəmə kağızları buraxa bilər. Banklar həmçinin fond bazarlarında broker-diler əməliyyatları göstərərək öz müştərilərinə müxtəlif imkanlar yaradırlar. Maliyyə bazarlarına müdaxilə etmək üzrə xidmətlər göstərmək və bu fəaliyyətdən gəlir əldə etmək imkanına banklar yalnız çoxsaylı müştəri əməliyyatlarını həyata keçirdikləri zaman əldə edirlər ki, bu da mükəmməl müştəri bazası tələb edir. Öz növbəsində, ciddi müştəri bazası banklar üçün öz daxilində şəxsi depozitarilərindən, bankda hesab açmaq imkanından və sair istifadə etməklə klirinq xidmətlərini təşkil etmək şəraitini yaradır. Banklar arasında müştəri uğrunda rəqabətə baxmayaraq, kreditləşdirmə riskini iştirakçılar arasında bölüşdürmək və bununla da ayrı-ayrılıqda hər bir bank üçün minimuma endirmək imkanını verir. Kommersiya bankları həmçinin qiymətli kağızlar bazarında bu bazarın peşəkar iştirakçısı - investisiya institutu qismində çıxış edə bilər.

Kommersiya banklarının qiymətli kağızlar bazarında fəaliyyətinin yeni forması kapitalın bu və ya digər maliyyə aktivlərinə investisiyası ilə əlaqəli məsələlər üzrə məsləhət xidmətlərinin göstərilməsidir. Məsləhət xidmətləri bankların daxili informasiya sisteminə əsaslanır, çünki bu sistem müxtəlif aktivlərin gəlirləri və riskləri arasında nisbəti dərindən təhlil etmək və müştərilər üçün qiymətli kağızların dinamikasını nəzərə alaraq, onların portfelinin alınması və formalaşdırılması alqoritmlərini tərtib etmək imkanlarını verir.

Bazarın mövqeyindən ümumilikdə kapitalın yaranması və artırılması mənbəyi yalnız onun öz istehsal prosesidir. Bazarın müəyyən edilərək öz istehsal fəaliyyətindən başqa heç bir xarici kapital mənbəyi yoxdur. Əgər söz bazarın ayrıca iştirakçılarından gedirsə, onun həmişə fəaliyyət göstərən kapitalı artırması üçün iki mənbəyi var - daxili və xarici: o ya kapitalı müstəqil şəkildə artıra bilər ya da bazarın başqa iştirakçısından əlavə kapital götürə bilər.

Kapitala tələbat adətən birincisi kommersiya təşkilatları, hansılara ki, kapital öz fəaliyyət miqyasını artırmaq üçün lazımdır, ikincisi, dövlət tərəfindən vardır, hansı ki, cəlb edilmiş kapitalı kapital kimi istifadə etmir, amma yüksək səviyyəli zəmanətlə bu və ya digər formada təmiz gəliri qiymətli kağızlara ödəyir, hansının ki, müqabilində axırıncı öz tətbiqi ilə kapital olmayaraq onsuzda sərmayəçilər üçün kapitala çevrilir.

Hal-hazırda bütün ölkələrdə kommersiya banklarının qiymətli kağızlarla əməliyyatdan və investisiya fəaliyyətindən gələn gəlirləri onların maliyyə vəziyyətinin inkişafında getdikcə gözəçarpan dərəcədə böyük rol oynayır. Banklar və ya digər vasitəçilər bazarda vəsaitləri cəlb edərək gəlirlərini artırmağa çalışırlar. Şirkətlər, banklar yarandığı tarixdən etibarən qiymətli kağızlar bazarında aktiv şəkildə iştirak edir və vəsaitlərin cəlbetmə vasitəsi kimi istiqraz və digər qiymətli kağızlardan istifadə edirlər.

Bazar iqtisadiyyatı şəraitində şirkətlər üçün borc vəsait (kapital) cəlb etməyin bir neçə üsulu vardır və bunlar içərisində bank kreditləri ilə yanaşı, qiymətli kağızlar bazarından kapital cəlbi də xüsusi yer tutur. Qiymətli kağızlar bazarı investorlara əlavə gəlir qazanmaq imkanı yaratdığı kimi, müxtəlif şirkətlərə də borc vəsaiti və ya kapital cəlbi üçün geniş imkanlar təqdim edir. Bu istiqamətdə qiymətli kağızlar bazarı şirkətlərə iki əsas alternativ təqdim edir:

1. İstiqraz buraxılışı (emissiyası).
2. Səhm buraxılışı (emissiyası).

İstiqraz emissiyasının digər maliyyə imkanlarından bir sıra fərqləndirici və üstün cəhətləri var. Səhm emissiyasından fərqli olaraq, istiqrazların emissiyası zamanı istiqrazları əldə etmiş investorlar şirkətin idarəçiliyində heç bir paya malik olmur. Bu baxımdan idarəçililiyi itirməmək şərti ilə borc vəsait cəlb etmək istəyən emitentlər (qiymətli kağızları emissiya edən şirkət) istiqraz emissiyasını seçirlər.

Səhm emissiyası emitent şirkətlərə öz nizamnamə kapitallarının artırılması üçün əvəzedilməz vasitədir. Lakin səhm emissiyasının imkanları yalnız bununla məhdudlaşmır. Belə ki, səhm emissiyasından əldə edilmiş kapital da digər maliyyə imkanlarında olduğu kimi, şirkətin daha gəlirli fəaliyyəti üçün istifadə edilə bilir.

Vəsait cəlb etmək istəyən şirkətlər asanlıqla qiymətli kağızlar bazarından borc vəsait və ya əlavə kapital cəlb edə bilərlər. Çünki qiymətli kağızlar bazarı şirkətlərin vəsait cəlb edə bilməsi üçün bir neçə

imkanlar təqdim edir və onlardan biri də Repo/əks repo adlanır. Ümumilikdə isə Repo əməliyyatları iki fazadan ibarətdir:

Repo açılış əqdi

Repo bağlanış əqdi

Birinci fazada vəsait cəlb etmək istəyən tərəf Repo satıcısı adlanır və bir növ sahib olduğu qiymətli kağızları "girov" qoymaqla qarşı tərəfdən, yəni Repo alıcısından borc pul götürür. Milli Depozit Mərkəzi (MDM) isə müvafiq qiymətli kağızları repo satıcısının hesabında repo müddətinin sonuna kimi dondurur.

İkinci fazada isə əvvəlcədən müəyyənləşdirilmiş müddətin tamamında həmin məbləğ və əvvəlcədən razılaşdırılmış faiz dərəcəsi üzrə hesablanmış vəsait Repo satıcısı tərəfindən Repo alıcısına ödənilməlidir. Müddətin tamamında repo satıcısı bütün öhdəliklərini yerinə yetirdiyi təqdirdə, müvafiq qiymətli kağızlar "girovluqdan azad edilir" və yenidən repo satıcısının sərəncamında olur. Əks təqdirdə isə müvafiq qiymətli kağızlar MDM tərəfindən birjada satılır və repo satıcısının bütün öhdəlikləri ödənilir.

Bu əməliyyatlardan əsasən, Mərkəzi Banklar və Kommersiya bankları istifadə edir. Lakin mövcud qanunvericiliyə görə Dövlət və marketmeykeri olan qiymətli kağızlara malik istənilən şəxslər bu imkanlardan yararlana bilərlər. Qeyd edək ki, repo müddəti (açılış və bağlanış əqdləri arasındakı müddət) adətən maksimum 1 aylıq olur.

Qeyd olunanlardan da göründüyü kimi, qiymətli kağızlar bazarında vəsaitlərin cəlb olunması kapitalı cəlb edən şirkətin və ya bankı inkişafı ilə yanaşı bazarın və iqtisadiyyatın inkişafına da müsbət təsir göstərir. Bu baxımdan hər bir bank bazarda vəsait cəlb etmək üçün mümkün yollardan yararlanmalıdır.

**Ədəbiyyat**


1. Sadıqov E.M. Bank əməliyyatları. Bakı, 2010, 120 s.
2. CFA İnstitute. Equity and Fixed income. 2012, 274 s.
3. Берзон Н.И., Буянова Е.А., Кожевников М.А., Чаленко А.В. Фондовый Рынок. M.: 1998, 36 s.
4. www.fimsa.az – Maliyyə bazarlarına nəzarət palatasının rəsmi saytı.


**Резюме**


***Гасымова Л.Л.***

*Азербайджанский государственный экономический университет*


**Возможности привлечения средств на рынке ценных бумаг**


*В статье определены сущность и функции рынка ценных бумаг. Рассматриваются способы привлечения средств на рынке ценных бумаг. Автор исследует влияние привлечения капитала на развитие рынка ценных бумаг и экономики.*



***Ключевые слова:*** *рынок ценных бумаг, инвестиция, капитал, акция*


**Summary**


***Gasimova L.L.***

*Azerbaijan State Economic University*


**Opportunities to Attract Funds in the Securities Market**


*The article defines essence and functions of securities market . The article deals with ways to raise funds on the securities market. The author explores the impact of capital attraction on the development of the securities market and the economy.*



***Key words:*** *securities market, investment, capital, stock*


# MÜƏSSİSƏNİN MALİYYƏ GÖRÜNÜŞÜNÜN YARADILMASINDA MALİYYƏ HESABATLILIĞININ ZƏRURİLİYİ


***Quluzadə Ç.Ə.***

*Sumqayıt Dövlət Universiteti*


**Xülasə**


*Şirkətin imicini "bəzəmək" və maliyyə hesabatlarında məlumatların idarə edilməsi problemi daha da yayılmaqdadır. Yeni maliyyələşdirmə mənbələri, investorlar və kreditorları əldə etməyə çalışan şəxslər faktiki olaraq daha yaxşı olan maliyyə vəziyyətini nümayiş etdirirlər. Bu məqsədlə bir şirkətin maliyyə vəziyyətinin göstərilməsində əsas vasitə olan uçot siyasətindən istifadə olunur. Bu işin məqsədi, uçot siyasətinin müəssisənin maliyyə imicinə necə təsir göstərə biləcəyini nümayiş etdirməkdir.*



***Açar sözlər:*** *maliyyə hesabatı, daxili və xarici istifadəçilər, imic yaratmaq, korporativ imic*


İqtisadi fəaliyyətin təşkili əsas olaraq həmin sahədə mühasibatlıq işinin dəqiq olmasını tələb edir. Yalnız mühasibatlıqla bağlı görülən işlər əsasında müəssisədə biznes fəaliyyəti və əldə edilən nəticələr haqqında məlumat verilə bilir. Mühasibatlıq ümumən bir sistem halında uçotun təşkili və hesabatların tərtib

olunmasına əsaslanacaq istiqamətləri cəmləşdirir. Bu sistemin bir hisəsi də maliyyə hesabatlılığıdır. Hər bir təsərrüfat subyekti üzrə müəyyən olunan dövr üzrə maliyyə hesabatlarının hazırlanması məcburidir. Maliyyə hesabatlarının hazırlanması daxili istifadəçilərlə yanaşı xarici alıcı və investorlar üçün də tərtib olunan hesabat formasıdır. Tərtib olunan maliyyə hesabatlarında əks olunan məlumatlar qarşı tərəf üçün şirkətin iqtisadi vəziyyətini qiymətləndirməyə imkan verir. Ümumən maliyyə hesabatlarına müəssisədə aparılan mühasibat uçotu işinin "son məhsulu" olaraq baxdıqda aktivlər, onların mənbələri və maliyyə nəticələri haqqında məlumat əldə olunur. Bir çox xarici və daxili istifadəçi qrupları müxtəlif iqtisadi qərarlar vermək üçün maliyyə hesabatlarının məlumatlarından istifadə edirlər. Şirkətlər maliyyə hesabatlarında göstərilən məlumatlara əsasən qiymətləndirilərək fərqlənir və sıralanır. Burada maliyyə hesabatları təsərrüfat subyektinin vəziyyətini əks etdirən əsas element hesab olunur.

Müasir dövrdə hər bir müəssisənin maliyyə hesabatlarında olan məlumatlarının idarə edilməsi onun imicini müəyyən edən amillərdən biridir. Yeni maliyyələşdirmə mənbələri, investorlar və kreditorları əldə etməyə çalışan təsərrüfat subyektləri faktiki olaraq daha yaxşı olan maliyyə vəziyyətini nümayiş etdirirlər. Bu məqsədlə də müəssisədə uçot siyasətindən istifadə edirlər. Hər bir müəssisədə maliyyə vəziyyətinin göstərilməsində əsas vasitə aparılan uçot siyasətidir. Mühasibat uçotu siyasəti mövcud mühasibat uçotu haqqında qanun və qaydalara əsasən aparılmalıdır. Müəssisədə rəhbər tərəfindən mühasibat siyasətinin bir hissəsi olan və maliyyə hesabatlarında göstərilən maliyyə vəziyyətinə təsir edən məsələlərlə bağlı qərarlar verilir. Verilən qərarlarda məqsəd şirkətin imicini, xüsusilə də uçot siyasətinin konsepsiyasını yaratmaq və bununla da mövcud maliyyə vəziyyətinə uyğun hazırlanan maliyyə hesabatlarının rolunu yüksəltməkdən ibarətdir. Bu məsələ ilə bağlı yeni bir istiqamət olacaq maliyyə hesabatlarında korporativ imicin formalaşdırılması metodundan istifadə edilməsi məqsədəuyğundur. Müəssisələr öz məqsədlərinə nail olmaq üçün müvafiq qaydada müsbət imic yaratmalıdırlar. Müəssisədə güvən, müştərilərlə və işçilərlə əlaqələr müsbət bir görünüş sayəsində əldə edilir. Belə bir fəaliyyət əsasında tələb olunan biznes tərəfdaşları, investorlar və kreditorlardan yararlanmaq imkanı mümkün olur. Yaxşı bir görüntüyə malik olan müəssisə son nəticədə rəqabət şəraitində inkişafa və uğur qazanmağa şanslı olur.

Müsbət görünüş müəssisənin əsas qaynaqlarından biridir. Belə təsvir etmək olar: şəkil, portret, fotoşəkil, rəsm; əksetdirmə, təqdimetmə, bərpa. Bu şəxsin şəxsiyyətinin və ya müəssisənin fəaliyyətinin əks etdirilməsi və ya onun istifadəsi üçün yaradılan bir görünüşdür. Korporativ görünüş müsbət (yayılır və şirkət üçün faydalıdır), və ya mənfi (pis, şirkətə zərərli) və daha az, laqeyd (rəngsiz və qeyri-müəyyən) ola bilər. Hər bir müəssisə fəaliyyəti haqqında müsbət bir imic yaratmaq üçün çalışır. Bunun əldə olunması üçün korporativ imicin formalaşdırılmasında çoxsaylı vasitələrdən istifadə edirlər. Alətlərin seçilməsi prosesi müəssisənin təsir etmək istədiyi biznes sahəsinə və müəyyən bir sahədə olan üzvlərə əsaslanır.

Bu görünüşün aşağıdakı məqsədlər üçün yaradılması nəzərdə tutulur:

- Müştərilər. Müştərilərin sayının məhsulların keyfiyyətindən və göstərilən xidmətlərdən asılılığı;
- İşçilər. İşçilərin iş qabiliyyətinin mövcud iş şəraitindən və mədəni səviyyədən asılılığı;
- İnvestorlar və kreditorlar. Müəssisənin iqtisadi vəziyyətinə aid olan investorlar və kreditorların mövcudluğunun müəssisənin səmərəli fəaliyyətindən asılılığı.

Korporativ imicin yaradılmasında maliyyə hesabatlarının hazırlanması mühüm elementdir. Yəni müəssisə müəyyən müddət ərzində aktivlərini, kapitalını və biznes fəaliyyətinin nəticələrini təsvir edir. Burada müəssisə üzrə onun biznes kursunu müəyyən edən aspektlər barədə hesabat təqdim edilir. Hesabatlar mühasibat qeydlərindən əldə edilən təsviri və məlumat təqdimat formullarına əsasən yazılır və müəssisənin maliyyə vəziyyətini, onun nəticələrini təsvir edir. Hesabatlardakı məlumatlara əsasən, müəssisənin maliyyə vəziyyətinin qiymətləndirilməsi aparılır.

Maliyyə hesabatları daxili istifadəçilərdən daha artıq müəssisənin uçot sənədlərinə birbaşa daxil olmayan xarici istifadəçilər üçün hazırlanır. Maliyyə hesabatlarının xarici istifadəçiləri potensial investorlar, banklar, borc verənlər, biznes tərəfdaşlar, müştərilər, hökumətlər və hökumət idarələri, məsləhətçilər, analitiklər, şirkətlər və müəssisələrin şirkətlərindən ibarətdir. Dünyadakı bir çox qurumlar tərəfindən kənar istifadəçilər üçün maliyyə hesabatları hazırlanır və təqdim edilir. Belə maliyyə hesabatlarının müxtəlif ölkələrdə oxşar görünməsinə baxmayaraq, çox güman ki, sosial, iqtisadi və hüquqi vəziyyətlərdə müxtəlifliklərin səbəb olduğu fərqlər və bir çox ölkələrdə milli tələblərin müəyyən edilməsi zamanı maliyyə hesabatları istifadçilərinin tələblərindən irəli gələn fərqlər mövcuddur [2, s.4]. Daxili istifadəçilər müəssisənin sahibləri və müəssisə ilə birbaşa bağlı olan işçilərdir. Müxtəlif səviyyəli rəhbərlər, hazırlıq və düzgün təqdimat üçün məsul şəxslər maliyyə hesabatlarının daxili istifadəçisidir. Daxili istifadəçilər şirkət rəhbərliyinə, idarə heyətinə, audit komitələrinə, daxili auditorlara və aşağı səviyyəli rəhbərliyə bölünə bilər. Maliyyə hesabatlarında əks olunan məlumatlar müxtəlif istifadəçilər tərəfindən, müxtəlif ehtiyac və gözləntilərlə istifadə olunur. Bu məlumatlara uyğun olaraq, müxtəlif qərarlar verilir və əsaslandırılır.

Məsələn, sərmayəsini bir müəssisədə yerləşdirən investorlar investisiya ilə bağlı riskləri qiymətləndirmək və kapital mənfəətin səviyyəsini hesablamaq üçün maliyyə hesabatlarından istifadə edirlər.

Kreditorlar və borc verənlər, ilk əvvəl, müəssisənin kreditləşmə, faizlə birlikdə borc ödəmə qabiliyyətini mövcud maliyyə hesabatlarında olan məlumatlar əsasında müəyyən edirlər. Biznes tərəfdaşları müəssisənin maliyyə likvidliyi ilə yanaşı, qısamüddətli və uzunmüddətli işlə məşğul olma imkanları ilə də maraqlanırlar. Hökumət idarələri iqtisadi siyasət və vergi qanunvericiliyinə görə müəssisələrin fəaliyyətinə diqqət yetirirlər. Ölkənin iqtisadi vəziyyətini təsvir edən makroiqtisadi göstəricilər yaratmaq üçün maliyyə hesabatlarında olan məlumatlardan istifadə edirlər.

Belə bir nəticəyə gəlmək olar ki, müəssisənin iqtisadi vəziyyətinin təqdimatı vasitəsilə müxtəlif istifadəçilərin ehtiyaclarını təmin etmək mümkündür. Həm də bu təqdimat korporativ imici göstərmək üçün bir vasitədir. Maliyyə hesabatlarının şəffaflığının təmin olunması, bütün maliyyə xidmətlərinin inkişafı üçün əsas hüquqi baza "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin 16 mart 2016-cı il tarixli 1897 nömrəli Sərəncamıdır. Müəyyən edilmiş vəzifələrin icra edilməsi məqsədilə "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair hazırlanmış Strateji Yol Xəritəsi" qəbul olunmuşdur.

Strateji Yol Xəritəsi qlobal iqtisadiyyat və maliyyə bazarlarında müşahidə edilən proseslərə çevik adaptasiya və postneft iqtisadi inkişaf modelinin dəstəklənməsi üçün maliyyə sektoru qarşısında duran yeni çağırışlar və imkanlar nəzərə alınmaqla hazırlanmışdır. Sənəd maliyyə xidmətləri sektorunun çevikliyi, rəqabətqabiliyyətliliyi, innovativliyi və iqtisadi inkişafı dəstəkləməsi prinsiplərini əks etdirir. Bu sənəddən irəli gələn məsələlərin həlli maliyyə hesabatlarının hazırlanmasında mühüm istiqamətverici hal hesab olunur.

**Ədəbiyyat**


1. Maliyyə Hesabatının Beynəlxalq Standartları: nəzəriyyədən praktikaya. Aleksander.D., Britton A., Yorissen A. 2010.
2. Maliyyə Hesabatlarının hazırlanması və təqdim olunması üzrə Konseptual Əsaslar, 2010.
3. www.president.az. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı.



**Резюме**

***Гулузаде Ч.А.***

**Необходимость финансовой отчетности в создании конкурентного финансового вида**

*Широко распространена проблема «украшения» имиджа компании и проблемы управления данными в финансовой отчетности. Инвесторы и кредиторы, ищущие новые источники финансирования, стремятся показать лучшее финансовое положение. Для этой цели используется учетная политика, которая является основным инструментом для финансового положения компании. Цель здесь - продемонстрировать, как учетные политики могут влиять на финансовый имидж организации*

***Ключевые слова:** финансовый отчет, внутренние и внешние пользователи, создание образа, корпоративный имидж*



**Summary**

***Guluzada Ch.A.***

**The Necessity of Financial Reporting in Establishment of the Financial View of Enterprise**

*The problem of "decorating" the image of the company and the problem of data management in the financial statements are widespread. Investors and lenders seeking new sources of financing are trying to show a better financial situation. For this purpose, the accounting policy, which is the main instrument for the company's financial position, is used. The objective here is to demonstrate how accounting policies can affect the entity's financial image.*

***Key words:** financial report, internal and external users, image creation, corporate image*


## İQTİSADİ TƏHLÜKƏSİZLİK STRATEGİYASINDA DÖVLƏT BORCU VƏ ONUN İDARƏ EDİLMƏSİ


***Qurbanov T.M.***

*AMEA-nın İqtisadiyyat İnstitutu*



**Xülasə**

*Məqalədə yeni iqtisadi və davamlı iqtisadi inkişaf şəraitində Azərbaycanda dövlət borcunun vəziyyəti və onun idarə edilməsi məsələlərindən bəhs edilir. Qeyd edilir ki, dövlətin iqtisadi təhlükəsizliyinin*

*möhkəmlənməsində büdcə siyasətinin, ələlxüsus da, büdcə tarazlığının saxlanılması aktual və prioritet məsələlərdən biridir. Məqalədə büdcə kəsirinin yaranması və bu kəsiri aradan qaldırmaq üçün dövlətin borclanmaya getməsi, onun mahiyyəti, müsbət və mənfi cəhətləri, borc strategiyasının yaradılması və idarə edilməsinin vacibliyi göstərilir. Göstərilir ki, dövlət borcunun idarə olunmasında borc limitinin müəyyənliyi iqtisadi inkişafın dinamikasına uyğun həyata keçirilmişdir. Məqalədə həmçinin effektiv həyata keçirilmiş borclanma proqramı nəticəsində investorlarda inamın yaradılması, maliyyə təşkilatları tərəfindən normal şəraitdə borclanma və borcalma dərəcələri arasında fərqin azaldılmasına nail olunması vurğulanır.*

***Açar sözlər:*** *iqtisadi qloballaşma, iqtisadi təhlükəsizlik, davamlı iqtisadi inkişaf, büdcə siyasəti, dövlət borcu, borc strategiyası*

İqtisadi qloballaşmanın təsir gücünün artdığı bir dövrdə milli iqtisadiyyatlarda artımın dayanıqlı halda olması ən vacib məsələlərdən hesab olunur. İqtisadi artım güclü, mütərəqqi və stimullaşdırıcı fiskal siyasətlə əhatə olunduğu təqdirdə iqtisadi təhdidlərin minimuma endirilməsi mümkün ola bilər. Şübhəsiz ki, ölkədə stimullaşdırıcı maliyyə mexanizminin olması özlüyündə büdcənin tarazlı-balanslı olmasını şərtləndirir. Lakin büdcəni tarazlı vəziyyətdə saxlamaq olduqca mürəkkəb bir prosesdir. Bir çox ölkələr tarazlığı təmin etməkdən ötrü (kəsiri aradan qaldırmaq üçün) müəyyən borclanma siyasətini həyata keçirir. Borclanma iqtisadi bir hadisə kimi həm kəsirin aradan qaldırılmasına, həm də maliyyə mexanizminin təsərrüfatçılıqdakı stimullaşdırıcı funksiyasına xidmət etməlidir. Bu baxımdan dövlət borcunun yaranma səbəbləri, onun idarə olunması, daxili və xarici formaları üzrə nisbətin müəyyən olunması və bunların fonunda iqtisadi seçimin edilməsi daimi diqqət mərkəzində olmalıdır. Müasir dünyada dövlət borcları hər bir ölкənin maliyyə siyasətində mühüm yer tutur. Belə кi, bir tərəfdən, beynəlxalq maliyyə-кredit qurumları ilə inкişaf etməкdə olan ölкələr arasında sıx münasibətlər yaranır, digər tərəfdən daima bu ölкələrdə dövlət qiymətli кağızlar bazarı formalaşır və genişlənir. Beləliкlə, bütün bunlar dövlət borcu münasibətlərinin əhatəsini genişləndirir və dövlətin maliyyə sistemində onun rolunu əhəmiyyətli dərəcədə artırır. Azərbaycanda da borc "Dövlət Borcu haqqında" Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir. "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunundan, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir (maddə 2.1-2.2). Qanunvericiliyə uyğun olaraq dövlət borcalmalarının əsas məqsədi ölkənin sosial-iqtisadi inkişafına yönəldilmiş proqramların həyata keçirilməsini təmin etmək, dövlət büdcəsinin kəsirini örtmək, dövlət investisiyalarını maliyyələşdirmək və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilən digər məsələlərin həlli məqsədi ilə həyata keçirilir (maddə 4). Qanunvericiliyin təməl prinsipləri:

- Dövlət borcunun idarə edilməsi;
- Dövlət borcunun limitlərinin təyin edilməsi;
- Dövlət borcuna xidmət xərclərinin təyin edilməsi;
- Dövlət zəmanətlərinin verilməsi və onlardan istifadə şərtləri;
- Dövlət zəmanətləri üzrə öhdəliklərin icrası.

Strateji Yol Xəritəsi üzrə dövlət borcunun hədəflərində göstərilir ki, 2014-cü ilin sonlarından etibarən dünya əmtəə bazarlarında neftin qiymətinin kəskin ucuzlaşmasının mənfi təsirləri 2015-ci ilin ikinci yarısından etibarən Azərbaycan iqtisadiyyatında müşahidə edilməyə başlamışdır. Mənfi təsir, ilk növbədə, tədiyyə balansına, daha sonra iqtisadi artımın maliyyələşmə kanalları üzərindən iqtisadi aktivliyə ötürülmüşdür. ABŞ dollarının məzənnəsi milli valyutaya qarşı iki dəfəyə yaxın bahalaşmış, maliyyə sabitliyinin təmini üzrə bir sıra risklər formalaşmış, dövlət borcunun ödənilməsi üzrə fiskal yük artmışdır. Azərbaycan hökuməti iqtisadi aktivliyin bərpa edilməsi məqsədilə iqtisadi siyasətin daha da təkmilləşdirilməsi, institusional islahatların sürətləndirilməsi istiqamətində bir çox tədbirlər görmüşdür [1].

Beynəlxalq maliyyə-кredit təşкilatları xarici borc münasibətlərində əsas borc verən subyeкtlər кimi çıxış edir. Belə кi, bu qurumların dünya ölкələrinin xarici borclarındaкı payı olduqca böyükdür. İnкişaf etməкdə olan ölkələrin maliyyələşdirilməsi məqsədilə xarici borc və xarici yardım qurumları meydana gəlmişdir. Hazırda həm beynəlxalq, həm də regional miqyasda maliyyə-кredit qurumları fəaliyyət göstərməкdədir. Fəaliyyət dairiəsindən asılı olmayaraq, bu qurumların vahid ortaq məqsədləri vardır:

- inкişaf etməкdə olan ölкələrin iqtisadi inkişafına yardımçı olmaq;
- dünya ölкələri arasında iqtisadi inteqrasiya, sərbəst ticarət və iş birliyi münasibətlərini inкişaf etdirmək;
- sıx iqtisadi münasibətlərə stimul vermək;
- beynəlxalq mal alış-verişində ödəmə çətinliкlərini aradan qaldırmaq və bu istiqamətdə beynəlxalq inкişafı təmin etməк.

Beynəlxalq təcrübəyə əsasən dövlət borcunun idarə edilməsi üçün, ilk növbədə, dövlət borcunu daimi nəzarətdə saxlayan və onun dayanıqlılığının təmin edilməsində zərurət hesab edilən borc strategiyasının yaradılması və idarəedilməsidir ki, bu da öz növbəsində ehtiyac duyulan borclanmanın uzunmüddətli alınmasını şərtləndirir (BVF). Dövlət borcunun idarəedilməsi strategiyasında ölkə uzun müddətli strateji hədəfləri müəyyən etməlidir. Nəticə etibarı ilə, borcun idarə edilməsi strategiyası bu hədəflərə çatmaq və nail olmaq üçün müəyyən fəaliyyətləri əhatə etməlidir. Beynəlxalq təcrübəyə əsasən borcun idarəedilməsinin əsas məqsədi tələb olunan maliyyələşmə məbləğinin mümkün olan ən aşağı xərclə orta müddətdən uzun müddətə uzadılması və həmçinin mövcud olan risk dərəcəsinin sabit risk dərəcəsinə qədər azaldılmasını və öhdəliklərin zamanla ödənişlərində güzəştlərə nail olunmasıdır.

Ümumilikdə, borcun idarə edilməsi strategiyasının əsas məqsədi olan ən aşağı xərclə tələb olunan maliyyələşmənin həyata keçirilməsindən başqa əlavə olaraq borc yükü portfelinin tərkibinin xarici makroiqtisadi şokların büdcəyə və gələcək uzunmüddətli xərclərə təsirinin azaldılması məqsədilə tərtib olunması da başlıca prioritet tələb olaraq göstərilməlidir. Maliyyələşmə strategiyası sonrakı illərdə tələb olunan maliyyə vəsaitlərinin cəlb edilməsi planını tərtib etməli və həmçinin strategiyanın qarşıya qoyulan məqsədləri ölkənin başlıca ortamüddətli və uzunmüddətli borcun idarə edilməsi strategiyasının hədəfləri ilə üst-üstə düşməlidir. Portfeldə borc alətlərinin istənilən şəkildə təşkili və tərtib olunması borcun idarə edilməsi strategiyası sənədlərində öz əksini tapmalıdır. Ona görə ki, bu beynəlxalq təcrübədə göstərildiyi kimi, borcun idarə edilməsi fəaliyyəti ilə borcun idarə edilməsi sənədləri üzərində əvvəlcədən tərtib olunan portfelin təşkilati strukturunun müqayisəli dəyərləndirilməsi həyata keçirilir. Borcun idarə edilməsi strategiyasının vacibliyi ondan ibarətdir ki, bu strategiyanın olmaması sonradan ölkənin xarici borclanma imkanları zamanı yarana biləcək problemlərin artmasına səbəb ola bilər.

Dövlət borcunun idarə edilməsi strategiyasının yaradılması, digər məqsədlər üçün də zərurət hesab edilə bilər, bunlara dövlət qiymətli kağızlar bazarının inkişafı və onun təkmilləşdirilməsi və ya dövlət borcunun ÜDM-ə nisbətinin aşağı salmasını misal göstərə bilərik.

Qeyd olunanların fonunda biz aşağıdakı nəticələrə gələ bilərik:

-Dövlət borcu ilə bağlı son illərin təhlili göstərir ki, borclanma milli iqtisadiyyatda ciddi əlavə yükə çevrilməmiş, iqtisadi inkişaf göstəricilərinə mənfi təsir etməmişdir. Belə ki, dövlət borclanması dünya ölkələri arasında ən aşağı dərəcəyə malik olan ölkələrdən biri olmaqla, adambaşına düşən həcm 675 ABŞ dollarına bərabər olmuşdur. Qeyd edək ki, bu rəqəm Rusiyada 4200, Gürcüstanda 2400, Almaniyada 71000, Fransada 81000 ABŞ dolları təşkil etmişdir).

- İllər üzrə dövlət borcunun idarə olunmasında borc limitinin müəyyənliyi iqtisadi inkişafın dinamikasına uyğun həyata keçirilmişdir. (Qeyd edək ki, 2015-ci il üçün bu limitin daxili borclanma üçün yuxarı həddi 4,5 mlrd. manat, 2016-cı ildə 3,5 mlrd. manat, 2017-ci ildə isə 1,0 mlrd. manat olduğu təqdirdə, xarici borclanmada bu rəqəm 2015-ci ildə 1,5 mlrd. manat, 2016-cı ildə 5,0 mlrd. manat, 2017-ci ildə isə 0,5 mlrd. manat olmuşdur.)

- Fikrimizcə, borc limitinin bu səviyyədə verilməsi özlüyündə dünya enerji bazarında qiymətlərin kifayət qədər aşağı səviyyədə qalması ilə, ticarət tərəfdaşı ölkələrdəki iqtisadi aktivliyin zəifləməsi ilə, manatın devalvasiyası ilə, dollara tələbatın artması ilə proqnozlaşdırılan maliyyə aktivlərinin səviyyəsi və dövlət tənzimlənməsi mexanizminin mövcud vəziyyəti ilə ahənglik təşkil etmişdir.

- Dövlət borclanması ilə bağlı son illərdə əldə olunan müsbət meyillərə baxmayaraq beynəlxalq təcrübəyə əsaslanaraq deyə bilərik ki, borclanma risklərinin idarə olunması mexanizmi və ona uyğun strategiyanın olmaması çatışmazlıq kimi göstərilə bilər.

- Daxili borclanma ilə bağlı dövlətin əsas iri maliyyə təşkilatlarının fəaliyyəti beynəlxalq təcrübəyə əsasən qənaətbəxş deyildir (yəni bir sıra dövlət şirkətlərinin daxili borclanmada öhdəlik götürməsi).

Nəticə etibarı ilə onu qeyd edə bilərik ki, dövlət borcunun yaxşı idarə edilməsi özündə bir çox müsbət iqtisadi səmərəni birləşdirir:

- Birincisi, dövlət borcunun yaxşı idarə edilməsi bir çox yollarla dövlətin borc yükünün azaldılmasına şərait yaradır və borc dayanıqlılığını artırır. Məsələn, yaxşı qurulmuş və həyata keçirilmiş borclanma proqramı, investorlarda inam yarada bilər, belə ki, maliyyə təşkilatları tərəfindən normal şəraitdə borclanma və borc alma dərəcələri arasında fərqin azaldılmasına nail olmaq olar.

- İkincisi, dövlət borcunun yaxşı idarə edilməsi həmçinin yerli maliyyə bazarının inkişafına kömək edə bilər. Yerli maliyyə bazarının qazancı maliyyə bazarına aid olan maliyyə alətlərin əldə olunması və istifadəsi hansı ki bu alətlər ilə investisiya yatırımları etmək və ya digər maliyyə alətlərinin qiymətlərinin təyin edilməsində xüsusi rol oynaya bilər. İnkişaf etmiş yerli maliyyə bazarı iqtisadi inkişafa və iqtisadiyyatın kənar şoklara, məsələn, kapitalın kənara axınına qarşı daha elastik olmasına səbəb ola bilər.

- Üçüncüsü, dövlət borcunun səmərəli idarə edilməsi təcrübəsi iqtisadiyyatın maliyyə və iqtisadi şoklara qarşı həssaslığını azalda bilər.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin təsdiq edilməsi haqqında 6 dekabr 2016-cı il tarixli Fərmanı.
2. http://sai.gov.az/upload/files/
3. http://www.maliyye.gov.az/node/1890
4. http://www.stat.gov.az/macroeconomy/
5. http://www.stat.gov.az/source/myxs/

**Резюме**

***Гурбанов Т.М.***
*НАНА,Институт Экономики*

**Управление государственным долгом в стратегии экономической безопасности**

*В статье рассматривается ситуация с государственным долгом в Азербайджане и его управление в условиях нового экономического и устойчивого экономического развития. Отмечается, что, поддержание бюджетной политики, в частности, бюджетного баланса, является одним из актуальных и приоритетных вопросов укрепления экономической безопасности государства. В статье излагается необходимость перехода государства к долгу, его сущность, положительные стороны и недостати, а также создание и управление долговой стратегией для преодоления этого дефицита. Показано, что определение лимита задолженности при управлении государственным долгом осуществляется в соответствии с динамикой экономического развития. В статье также подчеркивается важность инвестирования уверенности инвестора в результате эффективной программы заимствований и снижения ставок заимствований и займов финансовыми учреждениями.*

***Ключевые слова:*** *экономическая глобализация, экономическая безопасность, устойчивое экономическое развитие, бюджетная политика, государственный долг, долговая стратегия*

**Summary**

***Gurbanov T.M.***
*Institute of Economics of ANAS*

**Government Debt Management in the Economic Security Strategy**

*The article deals with the state debt situation in Azerbaijan and its management in the conditions of new economic and sustainable economic development. It is noted that maintaining budgetary policy, in particular the budget balance, is one of the topical and priority issues in strengthening the economic security of the state. The article outlines the necessity of the state transition into debt, its essence, advantages and disadvantages, and the creation and management of a debt strategy to overcome this deficit. It is shown that the determination of the debt limit in the management of public debt has been carried out in accordance with the dynamics of economic development. The article also stresses the importance of investing confidence in the investor as a result of an effective borrowing program, and a reduction in the rate of borrowing by financial institutions.*

***Key words:*** *economic globalization, economic security, sustainable economic development, budget policy, public debt, debt strategy*

## AZƏRBAYCANDA VALYUTA BAZARI VƏ ONUN TƏNZİMLƏNMƏSİ PROBLEMLƏRİ

***Qurbanova R.V.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Məqalədə Azərbaycanda valyuta bazarının inkişafının təmin edilməsi, ölkənin strateji valyuta ehtiyatlarının beynəlxalq standartlara uyğun səviyyədə saxlanılması və artırılmasından bəhs olunur. İqtisadiyyatın tənzimlənməsi sistemində valyuta siyasətinin həyata keçirilməsi zamanı yaranan problemlər ön plana çəkilmişdir. Ölkədə maliyyə bazarının mühüm struktur hissəsi olan valyuta birjalarının müasir dövrün tələblərinə uyğun qurulması məqalədə öz əksini tapmışdır.*

**Açar sözlər:** *valyuta bazarı, valyuta siyasəti, milli valyuta, iqtisadiyyatın tənzimlənməsi, valyuta birjası, bloomberg, milli iqtisadiyyat*

Respublikamızda valyuta siyasətinin əsas istiqamətləri milli valyutanın məzənnəsinin sabitliyini qorumaq, onun dönərliyinin inkişaf etdirilməsi, daxili valyuta bazarının daha da inkişafının təmin etdirilməsi, həyata keçirilən valyuta əməliyyatlarının dairəsinin genişləndirilməsi, ölkənin strateji valyuta ehtiyatlarının

beynəlxalq standartlara uyğun səviyyədə saxlanılması və artırılmasından ibarətdir. Valyuta siyasətinin bu və ya digər istiqamətləri Mərkəzi Bank tərəfindən həyata keçirilir.

Bildiyimiz kimi, iqtisadiyyatın tənzimlənməsi sistemində valyuta siyasəti mühüm yer tutur. Valyuta siyasəti iqtisadi siyasətin mühüm tərkib hissəsidir və onun çoxtərəfli məqsədlərinin yerinə yetirilməsinə, yəni güclü iqtisadi inkişafın təmin edilməsinə, işsizlik və inflyasiyanın artmasının dayandırılmasına, ödəniş balansı müvazinətinin dəstəklənməsinə yönəldilir. Valyuta siyasəti dövlətin cari və strateji məqsədlərinə uyğun olaraq, ümumdünya təsərrüfat əlaqələri sistemində iqтisadiyyatın daxili və xarici dinamik müvazinətini təmin etmək, beynəlxalq valyuta və digər iqtisadi münasibətləri həyata keçirmək üçün tətbiq olunan əməliyyatların məcmusudur.

Ölkədə maliyyə sabitliyinin yaradılmasında, düzgün pul siyasətinin aparılmasında və daxili bazarın müdafiəsinin təmin olunmasında valyuta tənziminin əhəmiyyəti böyükdür. Valyutanın tənzimlənmə tədbirlərinin keçirilməsi zamanı aşağıdakılar da nəzərə alınmalıdır:

- ticarət balansının vəziyyəti. Ticarət balansının kəsiri idxalın ödənilməsi üçün dövləti xarici valyuta almaq məcburiyyətində qoyur və valyuta məzənnəsinin aşağı düşməsinə gətirib çıxarır. Müsbət saldo isə, əksinə, milli valyuta məzənnəsinin qalxmasına səbəb olur;
- kapital hərəkətinin saldosu. Bu onunla əlaqədardır ki, xarici kapitalların ölkəyə axını onun valyuta məzənnəsini qaldırır. Lakin faiz ödənişlərinin əks axını ilə əlaqədar olaraq, bu faktor perspektivdə əks-tendensiyaya gətirib çıxara bilər;
- inflyasiya səviyyəsi və inflyasiya gözləmələri.

Valyuta bazarlarında əməliyyatların müntəzəm olaraq aparılmasının zəruriliyi vahid dünya pulunun yoxluğundan irəli gəlir və bu da valyutaların müntəzəm şəkildə konvertasiya olunmasını tələb edir. Hazırda elə ödəniş vasitəsi yoxdur ki, xarici bazarda biznes subyektlərilə sövdələşmə aparıldıqda beynəlxalq tədavül vasitəsi kimi istifadə olunsun.

Xarici valyutalarla sövdələşmələr bəzi ölkələrdə məhdudiyyət qoyulmadan aparılır. Bu, inkişaf etmiş bazar iqtisadiyyatına malik olan ölkələrin hamısında (ABŞ, Kanada, Qərbi Avropa ölkələri, Yaponiya) müşahidə olunur. Başqa ölkələrdə hakimiyyət və idarəetmə orqanları çox zaman milli bazarda xarici valyutaların dövriyyəsinə inzibati qaydada məhdudiyyətlər qoyurlar. Bu, adətən, güclü xarici valyutalar tərəfindən sıxışdırılıb çıxarılmaması məqsədilə milli valyutanın müdafiəsi, yəni möhkəmləndirilməsi üçün edilir [3].

Belə məhdudiyyətlər postsovet ölkələrinin iqtisadiyyatında tətbiq edilir. Onlar xarici banklarda valyuta hesabları açmaqla, aparılmış əməliyyatlardan əldə edilmiş valyuta gəlirinin sahibkar şirkətləri tərəfindən saxlamaqla, dövlət sərhədləri vasitəsilə valyuta qiymətlərinin yerini dəyişdirməklə, xarici valyuta ilə ticarət əməliyyatlarını əhatə edirlər.

Valyuta bazarında ən mühüm anlayış valyuta məzənnəsidir. Bildiyimiz kimi, valyuta məzənnəsi - bir ölkənin pul vahidi ilə digər ölkənin pul vahidində ifadə olunan qiymətidir. Hər bir valyutanın məzənnəsinə çoxsaylı müxtəlif amillər təsir edır, onların arasında ən əsası dünya bazarında müqayisə olunan milli valyutaların möhkəmlik dərəcəsi hesab edilir.

Valyuta məzənnəsi tələb və təklif əsasında, ya da dövlət tərəfindən təyin edilə bilər. Çox vaxt valyuta мəzənnəsi tələb və təklif əsasında formalaşır. Ona görə də sabit rəqəm deyildir, çünki valyuta bazarında tələb və təklif tez-tez dəyişir. Tələb çox olduqda valyuta məzənnəsi artır, əksinə isə, azalır [2].

Valyuta məzənnəsi spesifik xarakterə malik pul kateqoriyasıdir və milli iqtisadiyyatla dünya iqtisadiyyatı arasındakı qarşılıqlı əlaqəni ifadə edir. Əgər hər hansı bir valyutanın əsas xarakteri milli təsərrüfat çərçivəsində formalaşırsa, onun miqdar ölçüsü dünya bazarında beynəlxalq iqtisadi əməliyyatlar prosesində müəyyən edilir.

Müasir dövrdə ayrı-ayrı milli iqtisadiyyatlar arasında qarşılıqlı asılılığın artması və beynəlxalq dövriyyədə qızıla dəyişdirilməyən kredit pullarının tətbiq olunması nəticəsində valyuta məzənnəsi ayrı-ayrı milli iqtisadiyyatların inkişafının zahiri təzahürünə çevrilir, onun yeni əmək məhsuldarlığı şəraitində iqtisadi potensialını müəyyən dərəcədə əks etdirir. Valyuta məzənnəsi özünün belə bir rolu ilə istehsal sferasına güclü əks-təsir göstərir.

Valyuta məzənnəsinin bir iqtisadi göstərici kimi, beynəlxalq iqtisadi əlaqələr sistemində əhəmiyyətli rolu var. Belə ki, valyuta məzənnəsinin dəyişməsi ixrac və idxal edilən malların qiymətinə, milli istehsalın dünya bazarında rəqabət qabiliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Valyuta məzənnəsinin xarakteri aşağıdakı kimidir:

1. Əməliyyatların iştirakçılarına görə: alıcı qiyməti; satıcı qiyməti.
2. İstifadə olunan rejimə görə: təsbit edilmiş; üzən; qarışıq.
3. İnflyasiyaya görə: nominal; real.
4. Təyin edilməsinə görə: rəsmi; bazar.

5. Valyuta əməliyyatlarının növlərinə görə: cari valyuta əməliyyatlarının məzənnəsi; müddətli valyuta əməliyyatlarının məzənnəsi [1].

Ölkədə valyuta siyasəti sahəsində mövcud olan problemlər və onların aradan qaldırılması, təkmilləşdirilməsi yollarına gəlincə, qeyd etməliyik ki, bu gün dollar respublikamızda, həqiqətən, əhəmiyyətli yer tutur. Düzdür, ölkənin xarici ticarət dövriyyəsinin təmini üçün milli valyutanın xarici valyutalarla əlaqəsi olmalıdır. Lakin manatın dəyərdən düşməsi bazar subyektlərinin ona inamını azalda bilər. Depozitlərdə manat faizini xarici valyuta faizinə nisbətən yüksəltmək, kreditlərdə isə xarici valyuta faizini manat faizinə nisbətən yüksəltmək; plastik kart sisteminin inkişafı üçün ticarət-xidmət şəbəkəsində müvafiq avadanlıqlardan istifadəni genişləndirməklə nağd pul dövriyyəsini məhdudlaşdırmaq və s. kimi tədbirlərin aparılması məqsədəuyğun olardı.

Başqa bir problem manatın məzənnəsinin proqnozunun verilməməsidir. Respublikamızda tənzimlənən üzən məzənnə rejimi ("valyuta dəhlizi") olmasına baxmayaraq, Mərkəzi Bank tərəfindən manatın məzənnəsinin hansı intervalda dəyişəcəyi proqnozu verilmir. Məzənnənin proqnozunun verilməməsi nəticəsi idi ki, 2015-ci ildə bir günün içində Mərkəzi Bank tərəfindən devalvasiya siyasəti həyata keçirildi və bu siyasətin müsbət cəhətlərindən bəhrələnənlər kimi, mənfi cəhətlərdən də zərər çəkənlər oldu. Bu proseslərin baş verməməsi üçün iqtisadiyyatı hazırlayaraq qabaqcadan məlumat vermək lazımdır. Bütün bunların fonunda gözlənilirdi ki, Azərbaycanda Valyuta Birjası fəaliyyət göstərəcək, genişlənəcək və bu birjalarda banklar alqı-satqı edəcək. Bunun əsasında isə Azərbaycanda valyutaların məzənnəsi formalaşacaq. Hal-hazırda valyuta alqı-satqısı ölkənin valyuta birjasında deyil, məhz "Bloomberg" platformasında həyata keçirilməyə başlanıb. "Bloomberg" oxşar valyuta hərraclarını digər ölkələrdə də həyata keçirir. Mərkəzi bankın valyuta hərracları, o cümlədən yerli banklar arasında valyuta alqı-satqısı bu terminal üzərində həyata keçirilir. Bu gün valyuta birjasında valyutaların məzənnəsi müəyyən edilmir. Hər bir ölkədə maliyyə bazarının mühüm struktur hisssəsi olan valyuta birjalarının müasir dövrün tələblərinə uyğun qurulmasının böyük əhəmiyyəti vardır.

**Ədəbiyyat**

1. Кетти Лин Дейтрейдинг на рынке Forex. Стратегии извлечения прибыли. Из: «Алпина Диджитал», 2011.

2. Грег Михаловски На Волне валютного тренда, 2017 https://www.ozon.ru

3. Суэтин А.А. Международные валютно-финансовые отношения. Учебник. М., 2010

4. Azərbaycan Respublikası Mərkəzi Bankı. İllik hesabat. Bakı, 2012-2016

**Резюме**

***Гурбанова Р.В.***

**Рынок валюты и регулирование его проблемы в Азербайджане**

*Статья посвящена развитию валютного рынка Азербайджана и стратегических валютных резервов страны в соответствии с международными стандартами. Подчеркиваются проблемы, возникающие при реализации денежно-кредитной политики в системе регулирования экономики. В статье описывается создание валютных рынков, которые являются важной структурной частью финансового рынка, в соответствии с требованиями современности.*

**Ключевые слова**: *валютный рынок, валютная политика, национальная валюта, регулирование экономики, обмен валюты, блумберг, экономика страны*

**Summary**

***Qurbanova R.V.***

**Currency Market and its Settlement Problems in Azerbaijan**

*The article focuses on the development of the currency market in Azerbaijan and the country's strategic currency reserves in line with international standards. Problems arising during implementation of monetary policy in the system of regulation of the economy are highlighted. The article describes the establishment of currency exchange markets, which is an important structural part of the financial market, in line with the requirements of modern times.*

***Key words:*** *currency market, currency policy, national currency, regulation of economy, currency exchange, bloomberg, national economy*

# DÖVLƏTİN QANUNVERİCİLİK VƏ İNZİBATÇILIQ SƏYLƏRİNİN VERGİ YÜKÜNÜN OPTİMALLAŞDIRILMASINA TƏSİRİ

***Mədətova Ş.Q.***
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

**Xülasə**

*Tezisdə ölkənin vergi sisteminin, dövlətin qanunvericilik və inzibatçılıq səylərinin qiymətləndirilməsinin əsas göstəricilərindən birincisinin vergi yükü olduğu qeyd olunmuşdur. Dövlətin qanunvericilik və inzibatçılıq səylərinin vergi yükünün optimallaşdırılmasına təsiri araşdırılmışdır. Həmçinin Azərbaycanda vergi yükü digər ölkələrlə müqayisəli təhlil edilmişdir.*

***Açar sözlər:*** *vergi qanunvericiliyi, vergi inzibatçılığı, vergi yükü*

Vergi sistemi dövlətin maliyyə ehtiyatlarına olan tələbatını təmin etməklə yanaşı, vergi ödəyicilərinin sahibkarlıq fəaliyyətinə olan marağını artırmalı və eyni zamanda, onları daim təsərrüfat fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi yollarının axtarışına sövq etməlidir. Təsərrüfat subyektlərinə düşən vergi yükü dövlətin həyata keçirtdiyi vergi siyasətinin nəticəsi olmaqla vergi sisteminin keyfiyyət xarakteristikası sayılır.

Hazırda respublikamızda təsərrüfat subyektlərinə düşən mütləq və nisbi vergi yükü göstəricilərinin kəmiyyətinin hesablanmasının ümumi qəbul edilmiş metodologiyası, demək olar ki, işlənib hazırlanmamış və bu göstəricilərin əhəmiyyəti barədə dəqiq təsəvvür yoxdur.

Bununla əlaqədar vergi ödəyicilərinin optimal vergi yükü problemi istənilən ölkənin vergi sisteminin qurulması və təkmilləşdirilməsində xüsusi rol oynayır. Vergi yükünün yüksəldilməsi ilə dövlət xəzinəsinə daxil olan məbləğlər arasındakı asılılığı hələ XX əsrin ikinci yarısının başlanğıcında professor A.Laffer qurmuşdur. Lafferin nəzəriyyəsinə görə vergi dərəcələrinin müəyyən həddə qədər yüksəldilməsi vergi daxilolmalarının artımına imkan verirsə, həmin həddə özünün maksimum qiymətini alır. Sonra isə büdcə daxilolmaları kəskin azalır: Lafferə görə vergi yükünün əsaslandırılmamış şəkildə artırılması iqtisadiyyatın gizli sektorunun inkişafının birbaşa şərti kimi çıxış edir. O, göstərmişdir ki, yalnız vergi yükünün azaldılması sahibkarlıq fəaliyyətini stimullaşdırır və təşəbüskarlığı inkişaf etdirir. Bu zaman dövlət gəlirlərinin artımı məhsul (iş, xidmət) istehsalçılarına düşən vergi yükünün artırılması hesabına deyil, istehsalın artırılması hesabına vergitutma bazasının genişləndirilməsi əsasında baş verir. Bununla belə, «Laffer əyrisi» yalnız göstərilən asılılığı əks etdirməklə dövlət büdcəsinə alınan vergilərin kəmiyyəti haqqında dəqiq təsəvvür yaratmır. Bu kəmiyyəti həmişəlik və dəqiq təsəvvür etmək mümkün deyil. Onun səviyyəsi konkret ölkədə fəaliyyət göstərən vergi ödəyicisinin maliyyə vəziyyətindən və həmin ölkənin ümumi iqtisadi vəziyyətindən əhəmiyyətli dərəcədə asılıdır.

Lakin bir çox ölkələrdə vergi yükü göstəricisinin kəmiyyəti yüksəkdir. Məsələn, İsveçdə vergi sistemi elə qurulmuşdur ki, vergi ödəyiciləri öz gəlirlərinin 50% və daha artıq hissəsini dövlət xəzinəsinə ödəyirlər. Bu heç də onların istehsalın inkişafına olan marağını azaltmır. Burada heç bir paradoks yoxdur. Belə ki, bu ölkələrdə dövlət bir sıra iqtisadi və sosial xarakterli məsələləri vergilərin hesabına həll edir, hansı ki, əksər digər ölkələrdə vergi ödəyiciləri bu məsələləri vergiləri ödədikdən sonra özlərinin sərəncamında qalan gəlirləri hesabına həll edirlər. Göründüyü kimi, belə hallarda maraqların balansı qorunub saxlanılır.

Vergi yükünün hesablanmasına müxtəlif yanaşmalar mövcuddur. Məsələn, vergi potensialının, əhaliyə düşən vergi yükünün səviyyəsinin, makro səviyyədə vergi yükünü və onun dinamikasını müəyyən edən və ölkə iqtisadiyyatının əsas makroiqtisadi göstəriciləri əsasında təyin olunan vergilərin Ümumi Daxili Məhsulda (ÜDM) xüsusi çəkisinin hesablanması metodikaları məlumdur.

Fikrimizcə, vergi yükünün hesablanmasına bu cür yanaşma xalq təsərrüfatının müxtəlif sahələrini təmsil edən müxtəlif təsərrüfat subyektləri üçün alınan nəticələri müqayisə etməyə imkan vermir. Lakin makrosəviyyədə vergi yükünün hesablanması zamanı bu metodikadan istifadə etmək mümkündür. Məsələn: bütün vergiləri və büdcədənkənar sosial sığorta fondlarına ödəmələrin cəminin təqdim olunmuş məhsulun həcminə nisbəti kimi təyin olunan vergi yükü göstəricisi müəyyən çatışmazlıqlarla xarakterizə olunur.

Ölkənin vergi sisteminin, dövlətin qanunvericilik və inzibatçılıq səylərinin qiymətləndirilməsinin əsas göstəricilərindən birincisi vergi yüküdür. Vergi yükü vergi dərəcələrinin səviyyəsini, vergi güzəştlərinin həcmini, iqtisadiyyatın fəaliyyət sahələri üzrə inkişaf tempini, vergi nəzarətinin təşkili və digər bir sıra göstəriciləri ifadə edə bilər (Cədvəl 1).

**Cədvəl 1.**

**Vergi yükü barədə məlumat (milyon manatla)**

| İllər | 2014 icra | 2015 icra | 2016 icra | 2017 proqnoz |
|---|---|---|---|---|
| **ÜDM** | **58 182,0** | **54 380,0** | **59 987,7** | **61 419,6** |
| Neft sektoru üzrə ÜDM | 24 968,4 | 16 459,6 | 20 584,6 | 19 742,1 |
| Qeyri-neft sektoru üzrə ÜDM | 33 213,6 | 37 920,4 | 39 403,1 | 41 677,5 |
| **Vergi daxilolmaları** | **7 113,6** | **7 118,2** | **7 015,6** | **7 510,0** |
| Neft sektoru üzrə vergilər | 2 807,1 | 2 089,8 | 1 610,1 | 1 840,0 |
| Qeyri-neft sektoru üzrə vergilər | 4 306,5 | 5 028,4 | 5 405,5 | 5 670,0 |
| **Dövlət Gömrük Komitəsinin gəlirləri** | **1 510,8** | **1 591,9** | **2 291,6** | **2 200,0** |
| **DSMF-nin gəlirləri (transfertlər çıxılmaqla)** | **1 870,0** | **1 950,2** | **1 972,2** | **2 125,0** |
| **Cəmi vergi və ödənişlər** | **10 494,4** | **10 660,3** | **11 279,4** | **11 835,0** |
| Neft sektoru üzrə | 2 807,1 | 2 089,8 | 1 610,1 | 1 840,0 |
| Qeyri-neft sektoru üzrə | 7 687,3 | 8 570,5 | 9 669,3 | 9 995,0 |
| **Vergi yükü*(%-lə)*** | **18,0** | **19,6** | **18,8** | **19,3** |
| Neft sektoru üzrə | 11,2 | 12,7 | 7,8 | 9,3 |
| Qeyri-neft sektoru üzrə | 23,1 | 22,6 | 24,5 | 24,0 |
| **Vergilər Nazirliyi üzrə vergi yükü *(%-lə)*** | **12,2** | **13,1** | **11,7** | **12,2** |
| Neft sektoru üzrə | 11,2 | 12,7 | 7,8 | 9,3 |
| Qeyri-neft sektoru üzrə | 13,0 | 13,3 | 13,7 | 13,6 |

Əvvəldə qeyd olunduğu kimi, vergi yükünün hesablanmasında bir sıra metodlardan istifadə olunur. Ümumiyyətlə vergi yükü makroiqtisadi səviyyədə Azərbaycanda iki metodla hesablanır. Birinci halda ödənilmiş vergilərin ümumi daxili məhsula olan nisbəti, ikinci halda ödənilmiş vergilərin və digər məcburi dövlət ödənişlərinin ÜDM-də xüsusi çəkisi. Ölkəmizdə İcmal Dövlət Büdcəsinin gəlirlərinin formalaşdırılmasında Vergilər Nazirliyi ilə yanaşı, həmçinin Dövlət Gömrük Komitəsi və Dövlət Sosial Müdafiə Fondu da iştirak edirlər. Bu baxımdan da vergi və ödənişlərin cəmi dedikdə hər üç dövlət qurumunun daxilolmalarının ÜDM-də nisbətini nəzərə almaq lazımdır. 2016-cı ildə bu göstərici 18,8% təşkil etmişdir. Bu da 2015-ci ilə nisbətən 0,8 bənd azalma deməkdir. Vergilər Nazirliyinin daxilolmaları üzrə vergi yükünün həcmi 2016-cı ildə 11,7% təşkil etmişdir. Bu göstərici qeyri-neft sektorunda 13,7%, neft sektorunda isə 7,8% olmuşdur. Vergi yükünün göstəriciləri 2015-ci ildə 13,1% olmaqla qeyri-neft sektorunda 13,3%, neft sektorunda isə 12,7% olmuşdur. 2015-ci illə müqayisədə 2016-cı ildə neft sektoru üzrə vergi yükü göstəricisinin azalması iqtisadiyyatın bu sahədən asılılığının azalması və qeyri-neft sektorunun inkişafı ilə büdcə daxilolmalarının daha çox qeyri-neft sektorundan təmin edilməsi hesabına olmuşdur.

Cədvəl 1-dən müəyyən olur ki, Azərbaycanda vergi yükü aşağıdır. Müqayisə üçün qeyd edək ki, bu göstərici Almaniyada 23,1%, Belçikada 31,1%, Danimarkada 49,7%, İtaliyada 27,4%, Fransada 24,9%, Rusiyada 27,0%-dir. Müstəqil Dövlətlər Birliyində də Azərbaycanda sahibkarlığın inkişafı, əlverişli investisiya mühiti nöqteyi nəzərincə ən yaxşı yerlərdə durur.

Müasir mərhələdə Azərbaycan dövlətinin qanunvericilik və inzibatçılıq səyləri nəticəsində ölkənin iqtisadi inkişaf səviyyəsinə uyğun makroiqtisadi səviyyədə optimal vergi yükünün yaradılması vergi sistemində əsas problem olmaqla yanaşı, digər məsələləri də diqqətdə saxlamaq vacibdir. Vergi yükünün vergi ödəyiciləri arasında proporsional paylanması mühüm əhəmiyyət kəsb edən problemlərdəndir. Məlum məsələdir ki, Azərbaycanın vergi sistemi yaradılarkən qanunvericiliyində vergi ödəyicilərinin bərabərliyi prinsipi öz əksini tapmışdır. Ancaq digər qanunvericilik və inzibatçılıqlarda ayrı-ayrı vergi ödəyicilərinə və həmçinin ayrı-ayrı istehsal sahələrinə edilən vergi güzəştləri və imtiyazları bəzi hallarda vergi yükünün onlar arasında qeyri proporsional bölgüsünə gətirib çıxarır. Belə halların aradan qaldırılması üçün, fikrimizcə, vergi qanunvericiliyində müəyyən dəyişikliklərə ehtiyac vardır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2017

2. Musayev A.F. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırılması. Azərbaycan Universiteti, Bakı, 2014, 184 s.

3. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri. Monoqrafiya, Bakı, Elm, 2005, 468 s.

4. Həsənov Ə.N., Mehdiyev C.A., Hüseynov E.Ə., Məhərrəmov R.B., Babayev Z.A., Yadigarov F.M. Vergi inzibatçılığı. Bakı, 2017.
5. www.taxes.gov.az

**Резюме**

***Мадатова Ш.Г.***

**Влияние государственных законодательных и административных усилий на оптимизацию налогового бремени**

*В тезисах было отмечено, что налоговое бремя является одним из основных показателей налоговой системы страны, государственной законодательной и административной оценки. Изучено влияние законодательных и административных усилий государства на оптимизацию налогового бремени. Кроме того, налоговое бремя в Азербайджане сравнивается с положением в других странах.*

***Ключевые слова:*** *налоговое законодательство, налоговое администрирование, налоговая нагрузка*

**Summary**

***Madatova Sh.Q.***

**Impact of State Legislative and Administrative Efforts on Tax Burden Optimization**

*It was noted in the thesis that the tax burden was one of the main indicators of the country's tax system, state legislative and administrative efforts assessment. The impact of the legislative and administrative efforts of the state on the tax burden optimization has been studied. Also, the tax burden in Azerbaijan has been analyzed compared comparatively with other countries.*

***Key words:*** *tax legislation, tax administration, tax burden*

## BANK SEKTORUNDA MALİYYƏ TƏHLÜKƏZLİYİNİN TƏMİNATINDA OPTİMAL PUL SİYASƏTİ: YENİ ÇAĞIRIŞLAR VƏ PERSPEKTİVLƏR

***Məmmədov Z.F.***
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

***Xülasə***

*Azərbaycan qarşısında dayanan sürətləndirilmiş inkişaf üzrə strateji məqsədlərlə əlaqədar bank sisteminin maliyyə təhlükəsizliyinin təminatında pul siyasətinin rolu xüsusi əhəmiyyət kəsb edir. Tədqiq edilən məqalədə bank sektorunda maliyyə təhlükəsizliyinin təmin edilməsində monetar tənzimləmə və nəzarət sisteminin rolunun yeni çağırışlara uyğun müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.*

***Açar sözlər:*** *pul siyasəti, bank sektoru, maliyyə təhlükəzliyi, əmanət sığorta fondu, maliyyə sabitliyi, prudensial nəzarət*

Hazırda dünyada gedən iqtisadi dəyişiklər fonunda ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini artırmaq, idxaldan asılılığı azaltmaq və ixracyönümlü qeyri-neft iqtisadiyyatının əsaslı inkişafını təmin etmək məqsədi ilə iqtisadiyyatda maliyyə təhlükəzliyinin təminatının ön plana çəkilməsini zəruri edir. Bütövlükdə Maliyyə təhlükəsizliyi milli təhlükəsizliyin bir bölməsi olaraq qəbul olunur. Bu problemin tədqiqatda xüsusi olaraq nəzərdən keçirilməsi, maliyyə-bank sisteminin sabitliyini xarakterizə edən geniş məcmu amillərin təhlili və proqnozlaşdırılması, onun fəaliyyətində təhdid və zəif yerlərin aşkara çıxarılması zərurətindən irəli gəlir. Belə yanaşma maliyyə təhlükəsizliyinin nə dərəcədə iqtisadiyyatın hansı göstəricilərindən asılılığını müəyyən etməyə imkan verir. Bank sistemində maliyyə təhlükəsizlyi dedikdə elə bir vəziyyəti başa düşülməlidir ki, dövlət burada müəyyən hədlərdə dövlət hakimiyyət təsisatlarının və bazar institutlarının ümumiqtisadi fəaliyyət şəraitinə təminat verə bilsin. Maliyyə-bank sisteminin təhlükəsizliyinin qiymətləndirilməsi monetar orqanların aşağıdakı indikatorlardan istifadəsini məqsədəuyğun sayır: qeydiyyatdan keçmiş bankların nizamnamə kapitalının orta kəmiyyəti; qeydiyyatdan keçmiş nizamnamə kapitalı orta kəmiyyətdən yuxarı olan bankların payı; təqdim edilmiş kreditlərin kəmiyyəti (ÜDM-ə görə %-lə);iqtisadiyyatın monetizasiya səviyyəsi (M2-nin ÜDM-ə nisbəti %-lə); vaxtı keçmiş kreditlərin məbləği (ÜDM-ə görə %-lə); beynəlxalq likvidlik ehtiyatları; inflyasiya səviyyəsi; manatın dəyəri; xarici borc (ÜDM-ə görə %-lə); daxili borc (ÜDM-ə görə %-lə)[1, 122].

Qlobal maliyyə böhranları dövrünün başlanmasından maliyyə bazarlarında sabitliyin təminatı problemi fasiləsiz olaraq müzakirə edilir. Bank sistemində maliyyə təhlükəzliyinin təminatında optimal pul siyasəti siyasəti - Mərkəzi Bank və maliyyə bazarlarının fəaliyyətinə nəzarəti həyata keçirən orqan tərəfindən maliyyə bazarlarında sabitliyini təmin etmək məqsədilə həyata keçirilən tədbirlər məcmusudır. Azərbaycanda davamlı iqtisadi inkişafa keçid Bank sektorunda maliyyə təhlükəzliyinin təminatında optimal

pul siyasətinin aparılmasını tələb edir. Son zamanlar ölkə xaricində keçirilən maliyyə qeyri-sabitliyinin tədqiqatı meqatənzimləyicilərin yaradılması vasitəsilə maliyyə sektoru və ümumiyyətlə iqtisadiyyatda geniş şok spektrının təsirinin qarşısının alınmasının məqsədəuyğunluğunu təsdiq edir. Belə yanaşma meqatənzimləmə sisteminə malik olan, həmçinin məqsədi sistem risklərinin monitorinqi olan yeni nəzarət orqanının Avropa İttifaqi çərçivəsinə daxil olan bir sıra ölkələrin təcrübəsində istifadə olunur.

Belə ki, təcrübənin göstərdiyi kimi, hal-hazırda MBNP tərəfindən mikroiqtisadi stress-testlər, BVF və milli tənzimləyicilərlə birlikdə Ümumdünya bankının keçirdiyi maliyyə sektorunun sabitliyinin qiymətləndirilmısi Proqramı Azərbaycanda bank sektorunun sistem riskinin qiymətləndirilməsində istifadə olunur.

Beləliklə, Azərbaycan maliyyə təhlükəsizliyinə təsir edən ən əsas amil dünya bazarında neft qiymətlərinin dəyişikliyidir. Bununla biz hesab edirik ki, üzən məzənnə rejiminin liberal tətbiqi ilə istehlakla istehsalın dinamikasının sabitləşdirilmənin təmin edilməsi üçün zəruridir. Nisbi qiymətlərin uyğunlaşmasına müdaxilə etməməklə mərkəzi bankın vəzifəsi inflyasiyanın və istehsal məşğulluğunun volatilliyini azaltmaqdır. Təcrübə göstərir ki, neft ixracçısı olan ölkə üçün ən optimal olanı inflyasiya üzərində fokuslanmaq, yəni inflyasiyanın targetləşdirilməsi rejiminə söykənən monetar siyasətini həyata keçirməkdir. Beləliklə, qeyd etmək olar ki, üzən məzənnə və inflyasiyanın targetləşdirilməsi (sərt və ya qeyri-sərt) pul siyasətinin optimal kombinasiyasını təşkil edir. Üzən məzənnə iqtisadiyyatın neftin qiymətinin dəyişməsinə çevik şəkildə uyğunlaşmasını təmin edirsə, inflyasiyanın targetləşdirilməsi makroiqtisadi sabitləşdirməni təmin edir.

Neftin qiyməti aşağı düşdükdə, makroprudensial siyasətin yumşaldılması iqtisadiyyatda kreditləşdirməni və tələbi dəstəkləməyə köməklik edir, bununla da pul və büdcə siyasətinin sərtləşdirilməsinin neqativ nəticələrini yumşaldır. Biz hesab edirik ki, neft ixrac edən ölkələrin Maliyyə Nəzarət orqanları neftin qiyməti artdıqda makroprudensial siyasəti sərtləşdirməli, aşağı düşdükdə - yumşaltmalıdırlar. Müasir makroiqtisadi nəzəriyyə neft ixrac edən ölkələr üçün optimal monetar siyasətin iki rejimi tətbiq etməyi tövsiyə edir - üzən valyuta məzənnəsi və inflyasiyanın targetləşdirilməsi. Həqiqətən də, valyuta məzənnəsinin zəiflədilməsindən sonra istehsalın genişləndirilməsi hadisəsi müşahidə olunur. Məlum olduğu kimi, aktiv və passivlər arasında valyutanın uyğunsuzluğu (currency mismatch) dollarlaşma prosesininə təsir edir. Azərbaycanda maliyyə dayanıqlılığının təmin edilməsi və bu sahədə koordinasiya olunmuş siyasətin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurası fəaliyyət göstərir. Maliyyə təhlükəzliyinin təminatı üçün makroprudensial orqanının maliyyə bazarı haqqında geniş məlumatlar bazasına çıxış imkanı olmalıdır. Bu məlumatlar ən azı aşağıdakıları xarakterizə etməlidir: maliyyə vasitəçilərinin cari maliyyə durumunu; mərkəzləşdirilmiş qaydada yardım alan kredit təşkilatları; sistem əhəmiyyətli maliyyə təsisatlarındakı vəziyyəti; maliyyə təsisatları, bazarlar və sistemlər arasındakı qarşılıqlı əlaqələri; maliyyə təsisatları tərəfindən ayrılan kreditlər üzrə qəbul edilən təminatların keyfiyyət dinamikasını[2, 85 ].

Pul siyasəti və makroprudensial qərarın qəbulu prosedurunda mütləq iştirak edən iki əsas orqandan biri mərkəzi bank (pul-kredit tənzimləmə orqanı kimi), digəri isə maliyyə bazarlarına nəzarət orqanıdır. Beləliklə, bank sistemində maliyyə təhlükəzliyinin təminatında optimal pul siyasətinin tətbiqi prosesində aşağıdakı göstəricilərin təsirinə xüsusi diqqət vermək gərəkdir: ölkədə makroiqtisadi vəziyyət, bank sisteminin vəziyyəti; cəmiyyətin inkişafının sosial-iqtisadi prioritetləri; qanunverici bazanın mükəmməlliyi; uçot, yenidən maliyyələşdirmə və kredit siyasəti; bankın qanunverici və icra hakimiyyəti orqanlarından asılılıq dərəcəsi və ölkədə bank nəzarətinin tarixən mövcud xüsusiyyətləri.

**Ədəbiyyat**

1. Сенчагов В.К. Экономическая безопасность: глобализация, самосохранение и развитие. М.: Финстатинформ, 2014. 850 с.

2. Z.F.Məmmədov. Bank işi. Bakı: Azərnəşr, 2016, 2 cilddə. 1100 s.

**Резюме**

***Мамедов З.Ф.***

**Оптимальная денежная политика в обеспечении финансовой безопасности в банковском секторе: новые вызовы и перспективы**

*Вопросы финансовой безопасности в банковском секторе имеют особое значение из-за стратегических целей ускоренного развития, стоящих перед Азербайджаном. В статье основное внимание уделяется определению роли органа монетарного регулирования и пруденциального надзора в финансовой безопасности в соответствии с новыми задачами.*

***Ключевые слова:** денежная политика, банковский сектор, финансовая безопасность, фонд страхования депозитов, финансовая стабильность, пруденциальный надзор*

**Summary**

***Mammadov Z.F.***

**Optimum Monetary Policy in Ensuring Financial Security in the Banking Sector: New Challenges and Prospects**

*The issues of financial security in the banking sector are of particular importance because of the strategic goals of accelerated development towards Azerbaijan. The article focuses on determining the role of the monetary authority and prudential supervision in financial security in accordance with new tasks.*

***Key words**: monetary policy, banking sector, financial security, fund of deposit insurance, financial stability, prudential control*

## İNNOVASİYA POTENSİALININ ARTIRILMASINDA PUL-KREDİT SİSTEMİNİN ROLU

***Məmmədov Z.M.***

*Sumqayıt Dövlət* Universiteti

***Xülasə***

*İnnovasiya prosesinə ən ümumi şəkildə elmi- texniki yeniliyi ilə seçilən və yeni ictimai tələbatı zəmin edən məhsulların və texnologiyaların yaradılması, geniş yayılması və tərtib edilməsi kimi tərif verilir. Bilavasitə innovasiya prosesi axtarış xarakterli ETİ aparılması mərhələsindən başlanır, ETİ əsasən dövlət büdcəsindən və qaytarılmamaq şərtilə maliyyələşdirilir.*

***Açar sözlər:** innovasiya prosesi, pul-kredit sistemi, dövlət büdcəsi, milli iqtisadi təhlükəsizlik.*

Ümumiyyətlə, müasir beynəlxalq rəqabət şəraitində elmi- texniki və intellektual potensialın azalması və qiymətdən düşməsi ölkənin iqtisadi inkişafında daxili mənbələrin, hərəkətverici qüvvələri sıradan çıxararaq, qeyri ekvivalent xarici iqtisadi mübadilə ilə ölkəni onun malik olduğu milli sərvətlərdən məhrum olmağa sürükləyir.

İqtisadi islahatlar dövründə iqtisadiyyatda aparılan struktur dəyişiklikləri arasında duran prioritet vəzifələr deyildir. Məhz səmərəli fəaliyyət göstərən iqtisadi sistem istehsalatda köhnəlmiş texnologiyanın fasiləsiz olaraq yenisi ilə əvəz edilməsi və istehsalın müasir dövrün tələbləri səviyyəsində idarə edilməsini tələb edir. İqtisadiyyatda innovasiya sferası struktur dəyişikliklərinin əsas nüvəsi, özəyi hesab olunur və onun inkişaf səviyyəsi milli iqtisadi sistemdə aparılan surətli və keyfiyyətli dəyişikliklərin müəyyən edici amili kimi çıxış edir.

Məhz iqtisadi inteqrasiyanın ən yüksək inkişaf səviyyəsinə innovasiya prosesində nail olmaq olar. Bu prosesin səmərəliliyi resursların uğurlu işinin formalaşmasına kömək edən şəraitdən asılıdır. İnnovasiya sferasında bütün növ resursların inteqrasiyasına çətinlik törədən bir sıra maneələr vardır. Bununla yaxından tanış olaq[1]:

1. Elmi- innovasiya layihəsi arasında maneə.
2. İnnovasiya layihəsi- maliyyə sistemi.
3. İnformasiya izolyasiyası maneəsi.
4. İstehsal- innovasiya layihəsi arasında maneə.

Pul-kredit tənzimlənməsi yolu ilə dövlət ölkənin milli maraqlarını təmin etməyə, iqtisadi böhranları yumşaltmağa, inflyasiyanın qarşısını almağa çalışır. Burada əsas məqsəd tam məşğulluq və qiymətlərin sabitliyi ilə səciyyələnən istehsalın ümumi səviyyəsinin artmasına nail olmaqdan ibarətdir. Ölkənin iqtisadi təhlükəsizliyinin pul-kredit tənzimlənməsi metodlarından istifadə edərkən, fiskal siyasətə nisbətən monetar siyasətinin bir sıra üstünlüklərini qeyd etmək vacibdir.

Ölkədə iqtisadi təhlükəsizliyin formalaşması prosesi xeyli dərəcədə pul-kredit siyasətinin qarşılıqlı tənzimlənmə prinsipləri əsasında qurulmasından asılıdır. Milli iqtisadi maraqların təminatı zərurəti meydana çıxdıqda Mərkəzi Bank iqtisadi fəallığı stimullaşdırmaq məqsədilə tədavüldəki pulun həcmini artırır. Ölkədə iqtisadi təhlükəsizliyin, milli iqtisadi maraqların təmin edilməsi üçün ən əsas məsələlərdən biri məhz bank sisteminin sabitliyinə nail olmaqdan ibarətdir. Ölkədə iqtisadi təhlükəsizlik sisteminin formalaşmasında milli bank sisteminin dayanıqlığı ilə yanaşı milli valyutanın sabit dinamikası da mühüm əhəmiyyət kəsb edir.

Odur ki, fikrimizcə, Mərkəzi Bankın pul- kredit siyasətinin əsas məsələlərindən biri də məhz milli valyutanın arıcılıq qüvvəsinin sabitliyinin, ödəniş və hesablaşma sisteminin elastikliyinin təmin edilməsindən ibarətdir. Ölkənin iqtisadi təhlükəsizliyi üçün pul kütləsinin ÜDM-ə olan nisbət göstəricilərinin çox böyük əhəmiyyəti vardır. İqtisadiyyatın və bank sisteminin sağlamlaşdırılması və onların dünya standartlarına çatdırılması üçün qeyri-nağd vəsaitlərin pul kütləsində xüsusi çəkisinin artmasına nail olmaq lazımdır. Milli iqtisadiyyatın formalaşmasında müəyyən rol oynayan uzunmüddətli kredit qoyuluşlarının ümumi kredit qoyuluşları paketində xüsusi cəkisi hələ də azdır. Bu gün Azərbaycanda dövlət tərəfindən həyata keçirilən

aktiv tədbirlərə baxmayaraq, qonşu respublikanın təcavüzü və dövlətin ərazi bütövlüyü uğrunda xalqın mübarizəsi ilə bağlı mürəkkəb proseslər davam edir. Bu və ya digər mürəkkəb, bəzən də iqtisadiyyatda böhran prosesləri hər bir dövlətin siyasətində mühüm istiqamətlərdən biri olan iqtisadi təhlükəsizliyin əhəmiyyətini dəfələrlə artırır[2].

Maliyyə pul dövriyyəsi sahəsində milli iqtisadi təhlükəsizliyin təmin olunması aşağıdakı məsələlərin həllini tələb edir.

- ilk öncə, ölkədə maliyyə sferasında sabitliyə nail olmaq, elmi-texniki inkişafın və informasiya texnologiyalarının müasir nailiyyətlərindən istifadə imkanlarını genişləndirmək;
- milli valyutanın yüksək rəqabətqabiliyyətliliyini, dönərliliyini təmin etmək;
- ölkədə maliyyə bazarını müasir iqtisadi sistemin tələblərinə uyğun formalaşdırmaq.

İqtisadi təhlükəsizliyin təmin olunmasında dövlət strategiyası müəyyən məsələlərin həlli bir sıra tələblərin təmin olunması yolu ilə uğurla reallaşa bilər.

Birincisi, hökümətin, icra orqanlarının üzərinə düşən funksiyaları dəqiq müəyyənləşdirmək. İkincisi, dövlətin tənzimləyici funksiyalarının adekvat innovasiya təminatı tələb olunur. Maliyyə sistemi üçün təhlükə səviyyəsi nə qədər az olarsa, yatırılan vəsaitlərdən gələn gəlir, fayda bir o qədər çox olar.

**Ədəbiyyat**


1. Məmmədov N., Bərxudarov M. İqtisadi təhlükəsizlik. Bakı, 2006.
2. Mikayılova S.M. İqtisadi təhlükəsizliyin təmin olunmasının makroiqtisadi problemləri. Bakı, 2009.



**Резюме**

***Мамедов З.М.***

**Роль системы «деньги- кредит» в увеличении инновационного потенциала**

*В повышении инновационного потенциала, система «деньги-кредит» играет важную роль. Регулируя систему «деньги-кредит», государство обеспечивает достижение национальных интересов страны, предотвращение экономического кризиса, понижение уровня инфляции.*

***Ключевые слова:*** *инновационный процесс, денежная система, государственный бюджет, национальная экономическая безопасность.*

**Summary**

***Mammadov Z.M.***

**The Role of the Money-Credit System in Increasing Innovative Potential**

*In raising the innovative potential, the "money-credit" system plays an important role. By regulating the money-credit system, the state ensures the achievement of the country's national interests, preventing the economic crisis, and lowering the level of inflation.*

***Key words:*** *innovation process, monetary system, state budget, national economic security.*


## MÜƏSSİSƏLƏRİN İNNOVASİYA FƏALİYYƏTİNİN İNVESTİSİYA TƏMİNATI


***Məmmədova S.R.***

*Sumqayıt Dövlət Universiteti*



***Xülasə***

*Azərbaycanın neft-qaz, kimya, neft-kimya və neft emalı sənaye sahələri investisiya tələbatı çox olan iqtisadi fəaliyyət sferalarıdır. Milli iqtisadiyyatın digər sahələrin inkişafında müstəsna rol oynayan kimya və neft –kimya sənayesinin yeni inkişaf konsepsiyası Strateji Yol Xəritəsində öz əksini tapmışdır. Həmin konsepsiyanın reallaşmasında məqsədli investisiya layihələrinin həyata keçirilməsi prinsipial xarakter daşıyır.*

***Açar sözlər:*** *innovasiya, investisiya, milli iqtisadiyyat, Strateji Yol Xəritəsi*


Azərbaycan hökumətinin xarici-iqtisadi siyasətinin üzvi tərkib hissəsini xarici investorların, investisiya və kredit resurslarının Azərbaycana gətirilməsi və həmin maliyyə resurslarının bir hissəsini kimya və neft-kimya kompleksində innovasiya layihələrinin icrasına yönəltmək təşkil edir və bu xarici-iqtisadi əlaqələr mexanizminin məqsədidir. Neft strategiyasının formalaşması, “İnvestisiya fəaliyyəti haqqında” [1] və “Xarici investisiyaların qorunması haqqında” [2] Azərbaycan Respublikası qanunlarının qəbul edilməsi ölkəyə xarici investisiya axınını sürətləndirmiş və 1995-2016-cı illərdə bütün maliyyə mənbələrindən 231,6 mlrd.ABŞ dolları məbləğində investisiya yönəldilmişdir. Bu vəsaitin 114,2 mlrd. dolları xarici investisiya təşkil etmişdir. Bu növ investisiyanın 66,7 mlrd. dolları və yaxud 58,4%-i neft-qaz sənayesi kompleksinə sərf edilmişdir.

Azərbaycanın kimya və neft-kimya kompleksində son illər həyata keçirilən investisiya layihələrində ABŞ, Yaponiya, Almaniya, Türkiyə, Çexiya, İngiltərə, Hollandiya, Polşa, Finlandiya, Rusiya, Fransa və

digər xarici ölkələrin firma və kompaniyaları yaxından iştirak etmişlər. Lakin adı çəkilən sahəyə qoyulan investisiya bütünlükdə neft-qaz sənayesinə sərf edilən investisiyanın cüzi bir hissəsini təşkil edir. Odur ki, kimya kompleksinin inkişaf perspektivləri konsepsiyasının yerinə yetirilməsində və xarici investorların bu sahəyə cəlb edilməsində fəallığının artması üçün bu kompleksin idarəetmə menecmentinə yeni konstruktiv və tarazlaşdırılmış, kompleksləşdirilmiş xarici-iqtisadi əlaqələr strategiyasını yaratmağın vacibliyi durur və bunun üçün aşağıdakı əsas prinsiplərin qəbul edilməsi məqsədəuyğun olardı[3]:

- kimya və neft-kimya kompleksi üzrə investisiya layihələrin neft strategiyası ilə uzlaşdırılması və bu layhələrin icrasına dünyanın iri neft-qaz və neft-kimya firmalarının cəlb edilməsi;
- kimya və neft-kimya investisiya layihələrin kompaktlaşdırılması, kommersiya əlaqələri səviyyəsində və şərtləri əsasında dövlət zəmanəti olmadan investisiya və kredit resurslarının cəlb edilməsi üçün dünyanın təcrübəli kimya və neft-kimya firmaları (kompaniyaları) ilə uzunmüddətli əməkdaşlığın təşkil olunması;

Son illər Azərbaycanda həyata keçirilən sənayeləşdirmə siyasəti kontekstində qeyd edilən prinsiplərə riayət olunmasına başlanmışdır. Azərbaycanın kimya və neft-kimya sənayesinin mövcud potensialının onurğa sütunu olan SOCAR-ın "Azərikimya" İB-nin tabeliyində olan müəssisələrin, texniki- texnoloji cəhətdən beynəlxalq standartlara uyğun qurulması hökumətin diqqət mərkəzindədir. Bu məqsədlə İqtisadiyyat Nazirliyi tərəfindən işlənilən məqsədli proqramda eləcə də Strateji Yol Xəritəsində "Azərikimya" kompleksinin yeni xammal bazası əsasında yenidən qurulması və onun tərkibində yeni, idxalı əvəz edən, ixracyönümlü, genişçeşidli kimya və neft-kimya məhsulları istehsal edən zavodların inşa edilməsi nəzərdə tutulmuşdur.

Sumqayıt Kimya Sənaye Parkının (SKSP) əsasnaməsində göstərilir ki, o, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsullar istehsalı və xidmətləri göstərilməsi məqsədləri üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir. Həmin parkın ərazisində neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların (işlərin, xidmətlərin) istehsalı və emalı müəssisələri yaradılmalıdır. Parkda yaxın gələcəkdə dövlət və qeyri-dövlət mülkiyyətində olan aqro və tibb kimyası, məişət kimyası, tikinti sənayesi kimyası, elektronika və avtomobil sənayesi kimyası, polimerlər və sənaye avadanlıqlarının istehsalı üçün nəzərdə tutulmuş müəssisələr yerləşdiriləcəkdir. Bütünlükdə həmin parkda 35-40 müxtəliftəyinatlı müəssisələrin fəaliyyət göstərməsi və 5-7 minə qədər daimi iş yerinin açılması nəzərdə tutulmuşdur. SKSP-nin yaradılmasından cəmi 5 il ötsə də, artıq onun tərkibində "Azertexnolayn" MMC, "SOCAR Polyamer" MMC, "Azerfloat" QSC, "Azerbaijan Fibro Cement" MMC, "Aqrokimya Azərbaycan" MMC, "MST Engineering" MMC, "SİKA" MMC, "Bakı Əlvan Metallar və Ferroərintilər Şirkəti" MMC və "Alco Lubricant Company" MMC parkda rezident statusu almış və onların parkın inkişafına 1,1 mlrd. ABŞ dolları investisiya qoyacağı planlaşdırılır. Artıq SKSP-nin ilk rezidenti olan "Azertexnolayn" MMC- nin Polad Boru, Polietilen məmulatları və texniki avadanlıqlar zavodu fəaliyyət göstərir. SKSP-nin yaradılmasında əsas məqsəd aşağıdakılardan ibarətdir:

- ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq; bu sahədə sahibkarlığı dəstəkləmək;
- qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək;
- əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq.

"SKSP" MMC eyni zamanda Sumqayıt Kimya, Mingəçevir, Qaradağ, Pirallahı sənaye parklarının idarə edilməsi, onların infrastrukturunun qurulması, parka investorların cəlb edilməsi, rezidentlərin qeydiyyatı üçün sənədlərin toplanması, "bir pəncərə" sistemi ilə qeydiyyatdan keçirilməsi prosesinə və rezident statusu almış şirkətlərin 7 il müddətinə vergilərdən azad olmasına dəstək, monitorinqlərin keçirilməsi, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində rezidentə köməklik göstərilməsi, yerli və xarici şirkətlərin nümayəndələri ilə görüşlərin keçirilməsi, dünyanın qabaqcıl sənaye parklarının araşdırılması və onların təcrübəsinin öyrənilməsi, müəssisənin tabeliyində olan sənaye parklarının təşviqi istiqamətində və s. işlərin aparılması ilə məşğul olur. "SKSP" MMC-nin ərazisində bir sıra sosial obyektlər və innovasiya infrastrukturları –sərgi-konfrans kompleksi, peşə təhsil mərkəzi, laboratoriya binası, emalatxanalar, uşaq baxım mərkəzi, açıq və qapalı idman meydançaları, sağlamlıq mərkəzi, yataqxana kompleksi, həmçinin rezidentlər və işçilərə xidmət edəcək digər obyektlər fəaliyyət göstərəcəkdir.

Bütünlükdə SKSP neft-kimya aktivləri arasında inteqrasiya olunan proseslərin möhkəmləndirilməsinə, xam neft və qazın son məhsullara qədər emal edilməklə müxtəlif çeşidli yekun istehlak malları hazırlanmasına güclü təkan verəcəkdir.

Qeyd edilən rezidentlər içərisində "SOCAR-POLİMER" müəssisəsi nəinki Azərbaycanda, regionda ən böyük investisiya layihələrindən biridir. Son 40 ildə həmin layihə öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk layihədir. "SOCAR-Polimer " 2013-cü ildə təsis

edilmişdir və orada illik gücü 180 min ton polipropilen və 120 min ton yüksək sıxlıqlı polietilen qurğuları inşa edilir.

Azərbaycanın kimya və neft-kimya kompleksinin innovativ inkişafında SOCAR-ın xarici ölkələrdə müştərək inşa etdiyi müəssisələrin rolu danılmazdır.

Ölkənin kimya sənayesində son illər həyata keçirilən təşkilati, texniki-texnoloji tədbirlər nəticəsində kəmiyyət və keyfiyyət dəyişikliyinin baş verməsinə baxmayaraq, sahənin innovasiya aktivliyi gözlənilən səviyyədən xeyli aşağıdır.

Araşdırmalar göstərir ki, həmin vəziyyəti şərtləndirən bir sıra səbəblər mövcuddur və onların aradan qaldırılması istiqamətində təsirli tədbirlər həyata keçirilmir.

Dünyada kimya və neft-kimya sənayesi məhsullarına olan tələbatın durmadan artması ölkədə kimya məhsullarının çeşidinin genişləndirilməsini və keyfiyyətinin artırılmasını təmin edə bilən, ən son texnologiyalar və müasir avadanlıqların tətbiq olunaraq ixrac məhsullarının həcmini maksimum artırmağa imkan verən xammal bazalı təbii qazın dərin emalına söykənən, yeni neft-kimya müəssisələrinin, regionlarda dərman vasitələri istehsal edən bir neçə yeni zavodun inşasına zərurət yaratmışdır.

İnşası yaxın gələcəkdə gerçəkləşən 19 müəssisə və istehsalat sahələrini cəmləşdirən yeni neft - qaz emalı və neft-kimya kompleksinin Qaradağ rayonu ərazisində tikilib istifadəyə verilməsi, "Star" neft emalı zavodunun, "Petkim" neft-kimya kompleksinin layihə gücünə çatdırılması Sumqayıt Kimya Sənaye Parkının istehsal imkanlarının genişləndirilməsi, daxili və xarici bazarlarda yüksək tələbatın ödənilməsinə imkan verən, digər iqtisadi fəaliyyət sahələrinin, eləcə də özəl kimya müəssisələrinin, səhmdar cəmiyyətlərinin logistik təminatını əsaslı şəkildə yaxşılaşdırmağa yönəldilən yeni məhsulların istehsalına təminat yaradacaqdır.

**Ədəbiyyat**

**1.** "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Biznesmenin Bülleteni (BB) № 26, Bakı, 2001, 21 s.

2. "Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu.(BB) №12, Bakı, 2015, 16 s. (Əlavələr və dəyişikliklərlə)

3. http://studme.org/.../innovatsionnyy-protsess-etapy-vidy-fazy.

**Резюме**

***Мамедова С.Р.***

**Инвестиционное обеспечение инновационной деятельности предприятий**

*Нефтегазовая, химическая, нефтехимическая и нефтеперераба-тывающая промышленность Азербайджана это экономические сферы деятельности требующие больших инвестиционных затрат. Новая концепция развития химической и нефтехимической промышленности, нашедшая свое отражение в Стратегическом Дорожной Карте, играет решающую роль в развитии других отраслей национальной экономики. В реализации данной концепции принципиальное значение имеет претворение в жизнь целевых инвестиционных проектов.*

***Ключевые слова:*** *инновации, инвестиция, национальная экономика, стратегическая дорожная карта.*

**Summary**

***Mammadova S.R.***

**Investment Support of Innovative Activity Of Enterprises**

*The oil, gas, chemical, petrochemical and oil refining industries of Azerbaijan are economic spheres requiring large investment costs. A new concept for the development of the chemical and petrochemical industry, which is reflected in the Strategic Road Map, has a decisive role in the development of other branches of the national economy. In implementing this concept, the implementation of targeted investment projects is of fundamental importance.*

***Keywords:*** *innovation, investment, national economy, strategic road map.*

# NEFT-QAZÇIXARMA KOMPLEKSİ MÜƏSSİSƏLƏRİNDƏ BÜDCƏLƏŞDİRMƏ VƏ RİSKLƏRİN İDARƏ EDİLMƏSİ

**_Mikayılov A.K._**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

**Xülasə**

*Müntəzəm dəyişən iqtisadi mühitdə fəaliyyət göstərən neftqazçıxarma müəssisələrində idarəetmənin müasir metodlarının tətbiq edilməsi səmərəliliyin artırılmasının əsas şərtlərindəndir. Bu müəssisələrin mürəkkəb strukturlu olması, texnoloji prosesin təbii şəraitdən asılı olması risk yaradan amillərdən olub, idarəetmə prosesinin özünü mürəkkəbləşdirir. Bu səbəbdən büdcə tərtibi zamanı risklərin qiymətləndirilməsi zəruridir.*

***Açar sözlər:*** *büdcə tərtibi prosesi, risklərin idarə edilməsi, planlaşdırma prosesi, biznes proseslər, idarəetmə*

Müasir dövrdə müəssisələr daim dəyişən və qeyri-müəyyənliklərlə xarakterizə olunan iqtisadi mühitdə fəaliyyət göstərir, rəqabət qabiliyyətinin gücləndirilməsi, bazarda yerin möhkəmləndirilməsi, yeni bazarlara çıxışın təmin edilməsi, istehlakçıların tələbatlarının öyrənilməsi və təmin edilməsi, məhsul keyfiyyətinin müasir tələblərə müvafiq artırılması, malgöndərənlərlə münasibətlərin tənzimlənməsi kimi yeni iqtisadi tələblərin qarşılanması vəzifələrini müxtəlif iqtisadi resurslardan istifadə etməklə həyata keçirirlər. Belə bir şəraitdə səmərəli idarəetmə qərarlarının verilməsi üçün maliyyə resurslarının mövcudluğu və hərəkəti haqqında dolğun və vaxtında tərtib olunmuş proqnoz məlumatlarına ehtiyac yaranır. Bu isə öz növbəsində müəssisə fəaliyyətinin planlaşdırılması, uçotu, təhlili və nəzarətinin tamamilə yeni metodlarının tətbiq edilməsi zərurətini yaradır ki, belə metodlardan biri büdcələşdirmədir. Müxtəlif tədqiqatçılar büdcənin təyininə müxtəlif cür yanaşırlar. İ.A.Blank göstərir ki, büdcə, adətən, bir il çərçivəsində işlənilən, ayrı-ayrı investisiya layihələri, əməliyyatlar, təsərrüfat fəaliyyətinin ayrı-ayrı istiqamətləri üzrə vəsait daxilolmaları və xərclənmələrini əks etdirən operativ maliyyə planıdır [1].N.D.Şimşirtin fikrincə, büdcələşdirmə biznesin strateji məramlarına çatmaq istiqamətində natural və dəyər ifadəsində göstəricilərlə xarakterizə edilən resursların bölüşdürülməsi üzrə idarəetmə alətidir. Büdcələşdirməni eyni zamanda əvvəl qəbul edilmiş qərarların təhlili prosesi kimi təsvir etmək olar. Bu yolla müəssisə aktivlərdən istifadənin məqsədəuyğunluğunu, istifadə edilən mənbələrin keyfiyyətini qiymətləndirə bilir [2]. V.A.Samoçkin göstərir ki, büdcələşdirmə müəssisədə baş verən əməliyyatların istiqamətləndirilməsi və uzlaşdırılması yolu ilə səmərəliliyin artırılması, risklərin aşkar edilməsi və səviyyələrinin aşağı salınması, çeviklik və dəyişikliklərə uyğunluğunun artırılması məqsədi ilə məlumatların emalı əsasında, gələcək hadisələrlə bağlı idarəetmə qərarlarının qəbulu prosesidir [3].

Qeyd etmək lazımdır ki, yerli şirkətlərdə büdcələşdirmənin tətbiqi postsovet dövrünün planlaşdırma təcrübəsinə əsaslanır. Müasir dövrdə müəssisələrdə korporativ planlaşdırmada aşağıdakı çatışmazlıqlar mövcuddur və büdcələşdirmə qeyd edilən məsələlərin həllinə gətirib çıxara bilir:

- planlaşdırma prosesinin uzun zaman tələb etməsi və əmək tutumlu olması;
- plan məlumatlarının etibarlı olmaması;
- planlaşdırma prosesinin məhsul satışından deyil, ənənəvi olaraq istehsal prosesindən başlaması;
- planlaşdırma prosesində qiymətqoymanın xərc mexanizminin üstünlük təşkil etməsi, yəni bazar qiymətləri nəzərə alınmadan məhsulun tam maya dəyəri ilə rentabellik normasından irəli gələn qiymətqoyma mexanizmi;
- maliyyə təhlili üçün zəruri alətin olmaması;
- iqtisadi planlaşdırmanın maliyyə planlaşdırmasına gətirib çıxarmaması, nəticədə, müəssisə fəaliyyətinin maliyyələşmə tələbatının təyin edilməməsi;
- ssenar təhlilin və müəssisənin maliyyə dayanıqlığının qiymətləndirilməsi metodunun olmaması.

Eyni zamanda müəssisələrin təşkilati strukturunun büdcə modelinə müvafiq olmaması da müəyyən problemlər yaradır. Bildiyimiz kimi, müəssisənin təşkilati strukturu müxtəlif istiqamətlərdə fəaliyyət göstərən, bir-biri ilə qarşılıqlı biznes münasibətlərində olan və müəyyən mərhələdə tabeçilik strukturuna malik bölmələrdən ibarətdir. Yəni təşkilati struktur bölmələrin funksional xüsusiyyətlərini nəzərə alaraq qurulur. Bir sıra şirkətlərin təşkilati strukturunda mövcud olan bəzi çatışmazlıqları qeyd edək:

- bir sıra bölümlərin fəaliyyətinin vahid rəhbərdə cəmlənməsi;
- bölüm rəhbərinin bir neçə müavininin olması və onların məsuliyyət dairələrinin çox zaman çarpazlaşması;
- personalla işin zəif olması;
- müəssisə fəaliyyətinin qeyri adekvat məlumatla dəstəklənməsi;

- müəssisənin maliyyə nəticələrinə görə cavabdeh şəxsin olmaması və ya belə şəxslərin çox olması.

Qeyd etmək lazımdır ki, ənənəvi büdcələşdirmə prosesi dəyər yaradılması məqsədini tam əhatə etmir və büdcə prosesi müəssisə strategiyası ilə uzlaşmır. Ənənəvi büdcə prosesi biznes-proseslərə deyil, xərclərin yaranma yeri və xərc maddələrinə yönəldilmişdir. Nəticədə, bu və ya digər biznes proseslərin həyata keçirilməsi səmərəliliyi nəzərə alınmır, proseslərin təşkilindəki çatışmazlıqlar aşkar edilmir və təkmilləşdirmələr üzrə imkanlar müəyyən edilmir. Hal-hazırda dünya təcrübəsində proseslərə yönəldilmiş büdcələşdirmə geniş istifadə olunur. Bu, fəaliyyətin səmərəliliyinin artırılması məqsədi ilə müəssisənin biznes proseslərinin idarə edilməsinə yönəldilmişdir. Biznes proseslərin idarə edilməsi rəhbərliyə imkan verir ki, müəssisə fəaliyyətinin təkmilləşdirilməsi üzrə zəruri tədbirləri həyata keçirsin, keyfiyyəti təmin etsin və vəzifələrin həllini asanlaşdırsın. Eyni zamanda qeyd etmək lazımdır ki, proseslərə yönəldilmiş büdcələşdirmənin tətbiqi ayrı-ayrı biznes proseslərin müəssisə fəaliyyətinin maliyyə nəticələrinə təsirini təyin etmək və qiymətləndirmək imkanı verir. Neft-qazçıxarma kompleksi müəssisələrində istehsal büdcəsi o zaman tam hesab olunur ki, o, hasilat prosesinin bütün istehsal mərhələlərini əhatə edir və əsas, qeyri-əsas biznes prosesləri nəzərə alır. Hasilat istehsal tsiklinin biznes prosesləri mayenin çıxarılması, lay təzyiqinin saxlanması, quyu fondunun idarə edilməsi, məhsulun təmizlənməsi, texnoloji hazırlanması, saxlanması və nəqli, itkilərin idarə edilməsi və sair proseslərdən ibarətdir. Biznes proseslər neftqazçıxarma prosesinin aşağıdakı fərqləndirici xüsusiyyətlərini özündə əks etdirir [R-34]:

- əmək vəsaitləri, alətləri və məhsulu bilavasitə təsir və müşahidədən uzaqdır;
- istehsal obyektləri, əsasən ölkənin uzaq ərazilərində yerləşir;
- obyektlərin işlənməsinin texniki-iqtisadi göstəricilərinin və xərclərin səmərəlilik kriteriyalarının təbii şəraitdən, karbohidrogen ehtiyatlarının mənimsənilmə səviyyəsindən asılı olması;
- təbii amillərin dinamik xarakterli olması;
- yataqların işlənməsinin bir neçə mərhələdən ibarət olması və uzunmüddətli olması.

Belə bir mürəkkəb struktura malik olan neft-qazçıxarma idarələrində büdcə tərtibi zamanı risklərin qiymətləndirilməsi zəruridir. Bu zaman müəssisələr müxtəlif yanaşmadan istifadə edə bilərlər: əsas maliyyə büdcələrində risklərin reallaşmasından gözlənilən zərərin ayrı bir bənd kimi nəzərə alınması və ya risklərin idarə edlilməsi üzrə büdcənin formalaşdırılması. Qeyd etmək lazımdır ki, neft-qazçıxarma kompleksi müəssisələri nəinki texnoloji proses zəncirinin hər bir mərhələsində təbii, texniki, texnoloji risklərlə üzləşir, eyni zamanda büdcə tərtibi prosesinin də hər bir mərhələsində müəyyən risklərlə qarşılaşır.Belə risklərə aşağıdakıları aid etmək olar:

- büdcə tərtibi üzrə tənzimləyici normativ sənədlərin olmaması və ya qənaətbəxş olmaması;
- uçotun düzgün qurulmaması və ona riayət olunmaması;
- büdcə tərtibi prosesinin uzun zaman tələb etməsi;
- işçilərin məsuliyyətinin az olması;
- işçilərin müəssisənin strategiyası və missiyasından xəbərsiz olması və bu sahədə əmək sərf etməməsi
- büdcə tərtibi prosesində müasir informasiya texnologiyalarından istifadə edilməməsi və ya İT dəstəyin zəif olması;
- büdcənin tərtibi zamanı subyektivliyə və büdcənin şişirdilməsinə yol verilməsi;
- büdcəyə nəzarət sisteminin zəif olması;
- büdcə icrasının təhlilində təhriflərə yol verilməsi və nəticədə, səhv idarəetmə qərarlarının verilməsi.

Büdcə tərtibi zamanı risk yaradan amillərin özlərinin müəyyənləşdirilməsi də əsas şərtlərdəndir. Qeyd edilən risklərin və risk yaradan amillərin müəyyənləşdirilməsi, onların aradan qaldırılması üçün tədbirlər planının işlənməsi, qiymətləndirmələrin aparılması, göszlənilən zərərin təyin edilməsi büdcə tərtibi prosesi zamanı müsbət nəticələrə gətirib çıxara bilər. Sonda qeyd etmək lazımdır ki, müəssisələrin dayanıqlı inkişaf siyasətinin əsas bəndlərindən biri büdcələşdirmə və risklərin idarə edilməsi proseslərinin vəhdətinin təmin edilməsi olmalıdır.

**Ədəbiyyat**

1. Бланк И. А. Управление прибылью. К.: Изд-во Ника-Центр, 1998, 544 с. (Серия: «Библиотека финансового менеджера», Вып.2).

2. Шимширт Н.Д. Современная теория и практика финансового менеджмента на предприятии. Томск.: Изд-во Томского ун-та, 2011, 348 с.

3. Самочкин В.А., Тимофеева О.А., Калюкин А.А., Захаров Р.А. Учет риска при принятии управленческих решений на этапе формирования бюджета // Менеджмент в России и за рубежом, 2001, №3, с.21-30

**Резюме**

***Микаилов А.К.***

**Бюджетирование и управление рисками на предприятиях нефтегазового комплекса**

*Развитие нефтегазодобычи в современной, динамически изменяющейся социально-экономической среде происходит в условиях риска и неопределенности. В связи с чем, основным условием достижения эффективности является применение современных методов управления. Основными риск образующими риск факторами являются сложная организационная структура и зависимость технологического процесса от природных условий, которые в свою очередь усложняют сам процесс управления. В связи с этим, оценка рисков при построении бюджетов является актуальным вопросом.*

***Ключевые слова:*** *процесс формирования бюджетов, управление рисками, процесс планирования, бизнес процессы, управление*

**Summary**

***Mikayilov A.K.***

**Budgeting and Risk Management in Oil and Gas Enterprises**

*In the modern dynamically changing socio-economic environment, the development of oil and gas production takes place under conditions of risk and uncertainty. In this connection, the main condition for achieving efficiency is the application of modern management methods. The main risk-forming factors are the complex organizational structure and the dependence of the technological process on the natural conditions, which in turn complicate the management process itself. In this regard, the assessment of risks in the construction of budgets is a main issue.*

***Key words:*** *budgeting process, risk management, planning process, business processes, management*

## BÜDCƏ-VERGİ SİYASƏTİNİN YAXŞILAŞDIRILMASI İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASINDA PRİORİTET İSTİQAMƏT KİMİ

***Mikayılova S.M.***

*AMEA-nın İqtisadiyyat İnstitutu*

***Xülasə***

*Məqalədə makromaliyyə sabitliyinin möhkəmləndirilməsinin zəruriliyi vurğulanmışdır. Eyni zamanda büdcə-vergi sistemində iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsinin əsas prioritet istiqamətləri tədqiq edilmişdir. Həmçinin ölkəmizin dövlət büdcəsinin son beş il ərzində gəlir və xərclərinin strukturu nəzərdən keçirilmişdir.*

***Açar sözlər:*** *iqtisadi təhlükəsizlik, büdcə siyasəti, büdcə gəlirləri, büdcə xərcləri, vergi siyasəti, vergi dərəcələri, dövlət büdcəsi, dayanıqlı inkişaf*

Dayanıqlı və tarazlı iqtisadiyyatın formalaşması, davamlı iqtisadi inkişafın təmin edilməsi, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası üçün ölkədə iqtisadi təhlükəsizliyin təmin edilməsi vacibdir. Davamlı iqtisadi inkişaf isə cəmiyyətin inkişafıdır. Belə ki, dövlət iqtisadi təhlükəsizliyini təmin etməklə, iqtisadi inkişafa təkan verərək əhalinin həyat səviyyəsinin yaxşılaşmasına şərait yaradır. Ona görə də büdcə-vergi sahəsində iqtisadi təhlükəsizliyi öyrənmək mühüm elmi əhəmiyyət kəsb edir.

Müasir Azərbaycan dövləti bu gün dinamik inkişaf yolu gedir və səmərəli şəkildə fəaliyyət göstərir. Son onillikdə milli iqtisadiyyatda dinamik inkişaf və şaxələnmə prosesləri davam etmiş, müxtəlif sosial-iqtisadi göstəricilər üzrə ölkənin beynəlxalq reytinqləri daha da yaxşılaşmışdır. Milli iqtisadiyyat qlobal gərginliyə və risklərə qarşı daha yüksək dayanıqlıq nümayiş etdirmiş, iqtisadi artım davam etmişdir. Lakin dünya maliyyə böhranları makromaliyyə sabitliyinə, milli iqtisadi inkişafa müəyyən dərəcədə öz təsirini göstərir. Gələcək illər ərzində də dünya üzrə inkişaf meyilləri də nəzərə alınmaqla uzunmüddətli dövrdə ölkədə makroiqtisadi sabitlik qorunması, möhkəmləndirilməsi üçün müvafiq tədbirlər həyata keçirilməsi vacibdir [2].

Dövlət qarşısında duran mühüm məsələlərdən biri makroiqtisadi sabitliyinin həm milli iqtisadiyyat, həm də regional səviyyədə təmin olunması və qorunub saxlanmasıdır. Lakin regional səviyyədə istehsalın qeyri-bərabər yerləşdirilməsi makroiqtisadi sabitliyin regional səviyyədə təmin edilməsinin qarşısını alır. Regional səviyyədə makroiqtisadi sabitliyi təmin etmək üçün məqsədəuyğun pul-kredit və büdcə-vergi siyasəti həyata keçirilməlidir. Makromaliyyə sabitliyini möhkəmləndirmək üçün uzunmüddətli strategiya işlənib hazırlanmalı və daima təkmilləşdirilməlidir. Büdcə strategiyasının və bütövlükdə dövlətin maliyyə-iqtisadi siyasətinin alternativ ideyalarının işlənib hazırlanması mühüm əhəmiyyət kəsb edir. İqtisadi

tənzimlənmənin mühüm vasitəsi kimi, büdcə siyasətinin işlənib hazırlanmasında çoxvariantlılıq ölkə iqtisadiyyatının davamlı inkişafının təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, büdcə layihələrinin başlıca çatışmazlığı məhz onların alternativsiz xarakter daşıması ilə bağlıdır. Büdcə gəlirlərinin həcm və quruluşunda baş verən dəyişikliklər digər sosial-iqtisadi göstəricilərin dinamikasına ciddi təsir göstərir. Bu baxımdan büdcə siyasətinin düzgün və səmərəli aparılması vacibdir. Büdcə-vergi siyasətinin təkmilləşdirilməsi məqsədilə həyata keçirilməli əsas tədbirlər aşağıdakı prioritet istiqamətlərdə olmalıdır: büdcə qanunvericiliyinin təkmilləşdirilməsi; büdcə gəlirlərinin artırılması; büdcə xərclərinin səmərəliliyinin yüksəldilməsi; dövlət borcunun idarə edilməsi mexanizminin təkmilləşdirilməsi [3].

Makro səviyyədə uzunmüddətli sabitləşməyə nail olmaq üçün milli iqtisadiyyatın xarakterinə uyğun iqtisadi inkişaf modeli seçilməlidir. Hər bir ölkənin özünəməxsus makroiqtisadi sabitləşmə proqramı olmalıdır. Büdcə-vergi siyasəti ölkənin sosial-iqtisadi inkişaf konsepsiyasına uyğun müəyyənləşdirilməlidir. Büdcə-vergi siyasəti hansı məqsədlərdə və kimlər tərəfindən istifadə ediləcəyindən asılı olaraq milli iqtisadiyyatın stabilləşməsinə həm müsbət, həm də mənfi təsir göstərə bilər [2].

Vergitutma sahəsində strateji məqsəd və hədəflərə nail olmaq üçün son dövrlərdə səmərəli vergi siyasəti həyata keçirilmişdir. Vergi siyasəti əsasən dövlət vergilərinin və digər büdcə daxilolmalarının düzgün hesablanmasına, onların vaxtında və tam məbləğdə dövlət büdcəsinə köçürülməsinə, vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsinə, vergi nəzarətinin gücləndirilməsinə, vergi ödəyicilərinə xidmətin keyfiyyətinin yüksəldilməsinə və vergi sistemində insan resurslarından istifadənin səmərəliyinin artırılmasına yönəldilmişdir [1].

2012-2016-cı illərin statistik göstəricilərinə əsasən demək olar ki, vergi daxilolmaları içərisində əsas yeri ƏDV və mənfəət vergisi tutur. 2015-ci ilə nisbətən büdcə kəsiri 2016-cı ildə 40,9 mln.manat azalmışdır. Dövlət büdcəsinin gəlirlərinin ÜDM-də xüsusi çəkisi isə 32,1 %-dən 29,0 %-ə düşmüşdür.

**Cədvəl 1.**

**Azərbaycan Respublikası dövlət büdcəsinin gəlir və xərclərinin ümumi daxili məhsulda (ÜDM) xüsusi çəkisi [4].**

| Göstərici | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| Dövlət büdcəsinin gəlirləri (mln.AZN) | 17281,5 | 19496,3 | 18400,6 | 17498,0 | 17505,7 |
| Dövlət büdcəsinin gəlirləri ÜDM-də, % | 31,6 | 33,5 | 31,2 | 32,1 | 29,0 |
| Dövlət büdcəsinin xərcləri (mln.AZN) | 17416,5 | 19143,5 | 18709,0 | 17784,5 | 17751,3 |
| Dövlət büdcəsinin xərcləri ÜDM-də, % | 31,8 | 32,9 | 31,8 | 32,7 | 29,4 |
| Büdcə kəsiri (mln.AZN) | -135,0 | +352,8 | -308,4 | -286,5 | -245,6 |
| Büdcə kəsirinin ÜDM-də xüsusi çəkisi, % | 0,2 | 0,6 | 0,5 | 0,5 | 0,4 |
| Vergi daxilolmaları (mln.AZN) | 6817,4 | 7465,7 | 8177,5 | 8543,6 | 8574,0 |
| Vergi daxilolmalarının ÜDM-ə nisbəti % | 12,5 | 12,8 | 13,9 | 15,7 | 14,2 |
| Vergilərin gəlirlərdə payı % | 39,4 | 38,3 | 44,4 | 48,8 | 49,0 |
| Digər vergilər (mln. AZN) | 157,6 | 161,5 | 192,7 | 247,7 | 457,0 |
| Sair gəlirlər (mln.AZN) | 10306,5 | 11842,1 | 10030,4 | 8706,7 | 8474,7 |

Hesablamalar göstərir ki, büdcə kəsiri ÜDM-in 3-4%-ə qədəri olduqda o inflyasiya və bütövlükdə iqtisadiyyatın inkişafına mənfi təsir göstərmir.

Dünya ölkələri xarici iqtisadi fəaliyyətdə gömrük rüsumlarını tətbiq etməklə, ölkə üzrə makroiqtisadi proseslərin tənzimlənməsinə və makroiqtisadi tarazlığın təmin edilməsinə çalışırlar. Bu məqsədlə məcmu tələbin və məcmu təklifin tarazlıq vəziyyəti uyğunlaşdırılır. Ölkə əhalisinin maddi tələbatlarının ödənilməsi məqsədi ilə beynəlxalq ixtisaslaşmanın üstünlüklərindən istifadə olunur. Bu isə gömrük rüsumlarının tətbiqi yolu ilə inkişaf etdirilməli olan digər istehsal sahələrinin yüksəlməsinə şərait yaradır.

Aşağıdakı cədvəldə Dövlət Gömrük Komitəsi tərəfindən büdcə daxilolmaları haqqında məlumat verilmişdir.

**Cədvəl 2.**

**Dövlət Gömrük Komitəsi tərəfindən büdcə daxilolmaları haqqında məlumat [4].**

| Gömrük ödənişləri | Məbləğ (min AZN) | | |
|---|---|---|---|
| | 01.01.2015-31.12.2015 | 01.01.2016-31.12.2016 | 01.01.2017-31.12.2017 |
| Gömrük rüsumları üzrə | 387379,80 | 600208,37 | 706874,34 |
| ƏDV üzrə | 1101155,34 | 1515252,82 | 1 773189,74 |
| Aksizlər üzrə | 83588,73 | 92894,26 | 93923,40 |

| | | | |
|---|---|---|---|
| Yol vergisi üzrə | 19783,56 | 83242,06 | 34792,13 |
| Cəmi | 1591907,43 | 2291597,51 | 2 608779,61 |

Cədvəl 2-yə diqqət yetirsək görərik ki, 2017-ci il ərzində Dövlət Gömrük Komitəsi tərəfindən dövlət büdcəsinə 2016-cı illə müqayisədə 317182,10 min manat və yaxud 13,8 % çox müxtəlif vergi və rüsumlar daxil olmuşdur. O cümlədən gömrük rüsumları üzrə 106665,97 min manat və yaxud 17,8 %, əlavə dəyər vergisi üzrə 257936,92 min manat və yaxud 17,0 %, aksizlər üzrə 1029,14 min manat və yaxud 1,1 % çox vergi və rüsumlar daxil olmuşdur. Lakin 2017-ci il ərzində dövlət büdcəsinə 2016-cı illə müqayisədə yol vergisi üzrə 48449,93 min manat və yaxud 2,4 dəfə az ödənişlər daxil olmuşdur.

İqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi və davamlı iqtisadi inkişaf sahibkarlığın inkişaf etdirilməsindən asılıdır. Sahibkarlıq fəaliyyətini inkişaf etdirmək və əlverişli investisiya mühitini yaratmaq üçün vergi dərəcələri, vergi yükü yol verilən həddə olmalıdır. Vergi dərəcələrinin yüksək olması ölkəyə investisiya axınının qarşısını alır və nəticədə tədiyyə balansının pozulmasına gətirib çıxarır. Müxtəlif ölkələrin təcrübəsinə əsasən demək olar ki, vergi tutulmalarının səviyyəsi artdıqca iqtisadi artım tempi aşağı düşür. Əksinə, vergi yükü azaldıqca həm mikro, həm də makro səviyyədə iqtisadi inkişafa nail olmaq olar.

Yuxarıda qeyd edilən istiqamətlərdə iqtisadi təhlükəsizliyin təmin olunması bütövlükdə büdcə-vergi sisteminin fəaliyyətinin iqtisadi səmərəliliyinin yüksəldilməsində mühüm rol oynaya bilər.

**Ədəbiyyat**

1. Mikayılova S.M. İqtisadi təhlükəsizliyin təmin olunmasının makroiqtisadi problemləri. Monoqrafiya. Bakı: Gənclik, 2009. 400 s.
2. Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə. Büdcə sistemi. Bakı: Əbilov, Zeynalov və oğulları, 2003. 418 s.
3. Əhmədov M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı: Azərnəşr, 2003. 520 s.
4. www.azstat.org - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.

**Резюме**

***Микаилова С.М.***

**Улучшение бюджетно-налоговой политики как приоритетного направления в обеспечении экономической безопасности**

*В статье отмечена необходимость укрепления макро финансовой стабильности. Одновременно исследуются основные приоритетные направления в бюджетно-налоговой системе по укреплению экономической безопасности. А также рассматриваются структура доходов и расходов государственного бюджета за последние 5 лет.*

***Ключевые слова:*** *экономическая безопасность, бюджетная политика, доходы бюджета, бюджетные расходы, налоговая политика, налоговые ставки, государственный бюджет, устойчивое развитие*

**Summary**

***Mikayilova S.M.***

**Improving Fiscal Policy as a Priority for Economic Security**

*The article stresses the need to strengthen macro financial stability. Simultaneously, the main priority directions in the fiscal system for strengthening economic security are being explored. Also, the structure of income and expenditures of the state budget for the last 5 years is considered.*

***Key words:*** *economic security, budget policy, budget revenues, budget expenditures, tax policy, tax rates, state budget, sustainable development*

## MİLLİ İQTİSADİ TƏHLÜKƏSİZLİK SİSTEMİNDƏ ÖLKƏNİN XARİCİ BORC PROBLEMİ VƏ MALİYYƏ DAYANIQLIĞI

***Musayeva C.Q., Tağıyev A.M.***
*Mingəçevir Dövlət Universiteti*

***Xülasə***

*Məqalə müasir dövrdə milli iqtisadi təhlükəsizlik sisteminin əsas elementlərindən biri kimi ökənin xarici borc probleminə və onun tənzimlənməsinə həsr edilmişdir. Xarici borcların tənzimlənməsinin əsas göstəricisi kimi ölkənin xarici borclarının valyuta ehtiyatlarına, ÜDM-ə, dövlət büdcəsinə nisbətinin təhlili əsasında maliyyə dayanıqlığı əsaslandırılmışdır.*

***Açar sözlər:** milli iqtisadiyyat, milli iqtisadi təhlükəsizlik, xarici borc, ölkənin valyuta ehtiyatları, maliyyə dayanıqlığı, inteqrasiya,iqtisadiyyatın tənzimlənməsi.*

İnteqrasiya prosesi zəminində hər bir milli iqtisadiyyatın üzləşdiyi əsas problemlərdən biri burada mövcud olan güclü və amansız rəqabət mühitinə davamlı və dayanıqlı iqtisadi sistemin yaradılması, başqa sözlə, özünün milli təhlükəsizliyinin təmin edilməsidir. Bu, olduqca mürəkkəb, əsaslı iqtisadi və maliyyə dayanıqlığı tələb edən bir problem olmaqla, güclü dövlət tənzimlənməsi tələb edir. Milli təhlükəsizlik və onun təmin edilməsi son dövrlərdə Azərbaycan dövlətinin siyasi-ictimai və sosial-iqtisadi siyasətinin prioritet sahələrindən biri kimi xüsusi diqqət mərkəzindədir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik konsepsiyası"nda qeyd edildiyi kimi, "Azərbaycan Respublikasının təhlükəsizlik mühiti onun suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, milli maraqları, davamlı inkişafı, əhalisinin rifah və dəyərlərinin qorunmasına təsir edən amillərin məcmusudur"[2]. Bu mənada "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununda ölkənin milli, o cümlədən onun tərkib hissəsi kimi iqtisadi, sosial və ekoloji təhlükəsizliyinin təmin olunmasına xüsusi yer verilmiş, onun konkret istiqamətləri və prioritetləri burada öz əksini tapmışdır [ 1 ].

Buradan göründüyü kimi, bu tədbirlərin həyata keçirilməsini və ya reallaşdırılmasını təmin etmək üçün güclü iqtisadi bazaya malik olmaq lazımdır, yəni ilk növbədə onun iqtisadi təhlükəsizliyi təmin olunmalıdır.

İqtisadi təhlükəsizlik - dünya iqtisadi sistemində və ya ölkədə siyasi-ictimai, sosial-iqtisadi və ya ekoloji xüsusiyyətli fors-major şəraitinin meydana gəlməsindən asılı olmayaraq, ölkənin maddi nemətlərə olan həyati tələbatını təmin edən milli iqtisadiyyatın vəziyyətidir [4]. Yəni iqtisadi təhlükəsizlik iqtisadiyyatın elə bir vəziyyətidir ki, bu zaman dayanaqlı iqtisadi artım, iqtisadi-sosial inkişaf dinamikası, ərzaq təhlükəsizliyi təmin olunsun, xarici mühitdən asılılıq, inflyasiya, işsizlik, kasıbçılıq hədləri minimum səviyyədə olsun. Qəbul olunmuş normativlərə görə, dövlətin iqtisadi təhlükəsizlik göstəricilərinin əksəriyyəti sırf sosial-iqtisadi və maliyyə münasibətlərlə bağlıdır. Buraya ÜDM-in əsas və adambaşına düşən həcmi, dövlət büdcəsinin vəziyyəti, əhalinin gəlirləri, xarici ticarət dövriyyəsi, o cümlədən idxal-ixrac və digər makroiqtisadi göstəricilərin dinamikası, strukturu, dövlətin xarici borcunun vəziyyəti, dəyişməsi, onun ÜDM-ə nisbəti, tədiyyə balansının vəziyyəti, ölkə valyutasının dünya valyutasına nisbətən dönərliliyi və onun dəyişməsi, inflyasiya səviyyəsi, ölkə iqtisadiyyatının ümumi proseslərə və beynəlxalq maliyyə böhranlarına qarşı həssaslığı və digər bu kimi iqtisadi kateqoriyaları aid etmək olar.

Hazırda milli iqtisadiyyatımız qlobal iqtisadiyyata kifayət qədər inteqrasiya olunmuşdur və təbii ki, dünya təsərrüfatı sistemində yarana biləcək hər bir iqtisadi disproporsiya, maliyyə böhranları öz təsirini Azərbaycana da göstərmiş, son illərdə iqtisadi artım tempi xeyli aşağı düşmüşdür. Qlobal dünya təsərrüfatına inteqrasiya ölkə iqtisadiyyatının xarici mühitdən asılılığını və ya bu mühitə həssaslığını xeyli yüksəltmiş olur. Bu mənada ölkə iqtisadiyyatına və maliyyə vəziyyətinə təsir göstərən amillərdən biri dünya bazarlarında xam neftin qiymətinin dəyişməsi və maliyyə-kredit sektorunda baş verən qeyri-sabitlik olmuşdur. Bunlar Azərbaycan iqtisadiyyatına və valyuta gəlirlərinə ciddi təsir göstərsə də, ölkə iqtisadiyyatının çevik surətdə tənzimlənməsi milli iqtisadi təhlükəsizliyin təmin olunmasına şərait yaratmaqla bərabər, onun kifayət qədər dinamik inkişafını təmin edə bilmiş və dünya maliyyə böhranından daha az ağrılarla çıxan ölkələrdən biri olmuşdur.

Gənc ölkələrin qlobal dünyada üzləşdikləri ən çətin problemlərdən biri beynəlxalq kredit və xarici borc problemidir. Beynəlxalq kreditlər Azərbaycanın qlobal iqtisadi və maliyyə mühitinə inteqrasiyasının mühüm kanallarından biridir və dövlət borcları problemi ilə sıx əlaqəlidir.

Ölkənin dünya iqtisadi və maliyyə mühitindəki mövqelərinin möhkəmləndirilməsi üçün onun beynəlxalq ödəmə gücünün artırılması və xarici borclarının vaxtında ödənilməsi olduqca vacibdir. Milli iqtisadi maraqlar naminə dövlət qənaəti vasitəsilə, yəni dövlət kreditləri kanalları ilə daxil olan vəsaitdən səmərəli istifadə edilməsi və qaytarılması mexanizminin hüquqi bazasının təkmilləşdirilməsi dövlətin səmərəli fəaliyyətinin əsas sahələrindən biridir. Məhz bu amillər Azərbaycan dövlətinin beynəlxalq kredit və dövlət borcu siyasətinin strateji istiqamətlərinin əsasını təşkil edilir. Dövlət borclarının alınması konkret məqsədlərin reallaşdırılmasına sərf olunmalı və iqtisadi cəhətdən sərfəli və səmərəli olmalıdır. Təcrübədə dövlətinin götürdüyü kreditlərin əsas məqsədi strateji investisiya layihələrinin maliyyələşdirilməsi; büdcə kəsirinin ödənilməsi; tədiyyə balansı kəsirlərinin maliyyələşdirilməsi və valyuta məzənnəsinin tənzimlənməsi; xarici ticarətin kreditləşdirilməsi; fövqəladə hadisələrin aradan qaldırılmasının maliyyələşdirilməsi və bu kimi digər xərclərin ödənilməsinə istifadə olunması təşkil etdiyi halda, Azərbaycan dövlətinin xarici borcları daha çox iqtisadi islahatların və beynəlxalq strateji investisiya layihələrinin maliyyələşdirilməsi məqsədi ilə həm neft sektoruna, həm də qeyri-neft sektorunun aparıcı sahələri kimi elektrik enerjisi sektoruna, yol tikintisi və nəqliyyata, infrastruktur sahələrinin inkişafına

qoyulan investisiyalar təşkil edir. Azərbaycanın xarici borcları daha çox güzəştli beynəlxalq kreditlərdən ibarətdir və onların faiz dərəcələri orta hesabla 2-4% təşkil edir. Bu isə beynəlxalq aləmdə o qədər də yüksək borc faizi hesab edilmir. Eyni zamanda nəzərə almaq lazımdır ki, keçid dövrünün ilk illərində neft müqavilələri ilə bağlı alınmış kreditlərin bəzilərinin borc faizi bu rəqəmlərdən də az olmuşdur. Bu kreditlər BVF, DB, AY və İB, İİB, bir çox tanınmış banklar tərəfindən verilib.

AR DSK-nın və Maliyyə Nazirliyinin məlumatlarına əsasən 01 yanvar 2017-ci il tarixinə Azərbaycan Respublikasının xarici dövlət borcu 6913,2 milyon ABŞ dolları (12241,3 milyon manat), xarici dövlət borcunun Ümumi Daxili Məhsula (ÜDM) olan nisbəti 20.4 faiz təşkil etmişdir. 1 iyul 2017-ci il tarixinə isə Azərbaycan Respublikasının xarici dövlət borcu 7172,6 mln. ABŞ dolları (12208,5 mln. manat), xarici dövlət borcunun Ümumi Daxili Məhsula (ÜDM) olan nisbəti 18,9% təşkil edir. Xarici dövlət borcu əsasən beynəlxalq maliyyə institutlarının kredit proqramlarından və infrastruktur layihələrindən, həmçinin beynəlxalq maliyyə bazarlarında yerləşdirilmiş qiymətli kağızlardan ibarətdir.

İqtisadiyyatın maliyyə dayanıqlığı və xarici sərmayənin ölkəyə cəlb edilməsi baxımından dövlətin valyuta ehtiyatlarının həcmi ciddi əhəmiyyətə malikdir. Məhz bu səbəbdəndir ki, Azərbaycan hökuməti valyuta ehtiyatlarının artırılması siyasətinin davamlılığını təmin etmişdir. Nəticədə, Azərbaycanın strateji valyuta ehtiyatlarının həcmi 2003-cü ildə 1,6 milyard ABŞ dolları olduğu halda, ötən illər ərzində dəfələrlə artaraq 2013-2014-cü illərdə artıq 50 milyard ABŞ dollarına çatmışdır. Sonrakı illərdə dünya bazarlarında neftə tələbatın və qiymətinin aşağı düşməsi, o cümlədən ölkə valyutasının dayanıqlığının və məzənnəsinin qorunması məqsədi ilə istifadə nəticəsində ölkənin valyuta ehtiyatları bir qədər azalmışdır. Hazırda ölkənin strateji valyuta ehtiyatları təxminən 40 milyard ABŞ dolları təşkil edir ki, bunun da təxminən 33 milyard dollarını Dövlət Neft Fondunun, qalan hissəsini isə Mərkəzi Bankın ehtiyatları təşkil edir. Başqa sözlə, ölkənin strateji valyuta ehtiyatının təxminən 18 faizə qədəri Mərkəzi Banka, digər 82 faizi isə Neft Fonduna məxsusdur. Buradan göründüyü kimi, ölkənin xarici valyuta ehtiyatları illik ÜDM-in həcminə bərabərdir. Halbuki 2003-cü ildə müvafiq göstərici cəmi 22 faiz idi. Həmçinin qeyd etmək lazımdır ki, ölkəmizin valyuta ehtiyatları onun xarici borcundan 8 dəfə çoxdur. Hazırda ölkənin valyuta ehtiyatları 3 illik mal və xidmətlərin idxalına imkan verəcək qədərdir.

Strateji valyuta ehtiyatı nə qədər çox olarsa, bu, ölkəmizin maliyyə dayanıqlığının əsası kimi xarici investisiyaların cəlb edilməsində etibarlı tərəfdaş statusunu gücləndirir və maliyyə təhlükəsizliyini əsaslandırır.

Valyuta ehtiyatlarının artım dinamikasına diqqət etdikdə görmək olar ki, 2012-ci illərdən başlayaraq neft hasilatının azalmasına baxmayaraq, bu sahədə artım davam etmişdir. Bu isə onu deməyə əsas verir ki, zaman keçdikcə ölkəmiz öz maliyyə-kredit siyasətinin həyata keçirilməsində daha çox təcrübə qazanır.

Ölkənin maliyyə imkanlarının genişlənməsi və strateji valyuta ehtiyatlarının həcminin artması beynəlxalq kredit reytinq agentlikləri tərəfindən də yüksək qiymətləndirilir və hazırkı reytinq qiymətləndirmələrində Azərbaycan həm rəqabətqabiliyyətlik (dünya ölkələri arasında 35-ci yer), həm də investisiya mühiti normal olan və həmçinin maliyyə dayanıqlığı yüksək qiymətləndirilən ölkə olaraq səciyyələndirilir.

Xarici borcu bir sıra göstəricilərə görə təhlil etməklə ölkənin iqtisadi təhlüksizliyini qiymətləndirmək olar (bax cədvəl 1)

**Cədvəl 1.**

**Azərbaycanın xarici borcunun dinamikası və əsas makroiqtisadi göstəricilərə nisbətən xüsusi çəkisi** ***(mlrd.ABŞ dolları)***

| İllər | ÜDM | Xarici borc | Valyuta ehtiyatları | İxrac | Büdcə gəlirləri | Xarici borcun ÜDM-də xüsusi çəkisi(%) | Xarici borcun valyuta ehtiyatlarında xüsusi çəkisi (%) | Xarici borcun ixracda xüsusi çəkisi(%) | Xarici borcun büdcə gəlirlərində xüsusi çəkisi(%) |
|---|---|---|---|---|---|---|---|---|---|
| **2010** | 52,9 | 3,8 | 30,0 | 26,6 | 9,2 | 7,2 | 12,7 | 14,3 | 41,3 |
| **2011** | 66,0 | 4,8 | 40,0 | 34,4 | 15,7 | 7,3 | 12,0 | 14,0 | 38,7 |
| **2012** | 69,7 | 5,7 | 46,0 | 34,1 | 17,3 | 8,2 | 12,4 | 16,7 | 41,9 |
| **2013** | 74,1 | 6,7 | 48,0 | 32,8 | 19,5 | 9,0 | 14,0 | 20,4 | 43,8 |
| **2014** | 75,2 | 6,5 | 50,9 | 30,2 | 18,4 | 8,6 | 12,8 | 21,5 | 45,1 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **2015** | 53,0 | 6,9 | 39,4 | 16,6 | 17,5 | 13,0 | 17,5 | 41,8 | 38,3 |
| **2016** | 37.8 | 6.9 | 38.0 | 13,1 | 17,5 | 18,3 | 18,1 | 52,7 | 24,4 |

*Mənbə: www.maliyye.gov.az, www.cbar.gov.az, www.stat.gov.az və müəllif hesablamaları*

Buradan göründüyü kimi, 2010-2016-cı illərdə dövlətin xarici borcunun artması ÜDM-də xüsusi çəkisinin 7,2%-dən 20,4%-ə və valyuta ehtiyatlarında xüsusi çəkisinin 12,7%-dən 18,1%-ə qədər yüksəlməsinə səbəb olmuşdur. Xarici borcun ÜDM-də çəkisi ölkə iqtisadiyyatının borc yükünün səviyyəsini göstərir və maksimum olaraq 50 faizə qədər olmalıdır. Azərbaycanda bu göstərici cədvəldən də göründüyü kimi, maksimum 20,4%-dir. Təhlükəsizlik baxımından bu göstərici beynəlxalq təcrübədə qəbul edilmiş göstəricidən aşağıdır.

Xarici borc səviyyəsinin qiymətləndirlməsində istifadə olunan digər göstəricilərdən biri xarici borcun valyuta ehtiyatlarında xüsusi çəkisinin müəyyən edilməsidir. Ölkə neft-qaz sektorundan əldə etdiyi gəlirlər hesabına beynəlxalq mövqeyini gücləndirmişdir. Nəticədə, 2010-2014-cü illər ərzində ölkənin strateji valyuta ehtiyatları artmış və xarici dövlət borcunu üstələmişdir. 2015- 2016-cı illərdə ölkənin məcmu valyuta ehtiyatlarında azalma tendensiyası müşahidə olunmuş və müvafiq göstərici 2014-cü ilə nisbətən 24% azalaraq 2016-cı ildə 38 milyard dollar civarında olmuşdur.

Xarici borcun qiymətləndirilməsinin digər göstəricisi xarici borcun illik ixracın həcminə nisbətidir ki, bunun vasitəsilə ölkənin illik cari borclarını ödəmək qabiliyyəti başa düşülür. 2010-cu ildə xarici borcun ixracda xüsusi çəkisi 14,3% olduğu halda, 2015-ci ildə müvafiq göstərici 41,8% təşkil edib. 2010-cu illə müqayisədə bu göstəricinin artmasına səbəb həmin illər ərzində ixracın azalmasıdır. O cümlədən dünya bazarında neftin qiymətinin ucuzlaşması ixrac potensialının əsasını təşkil edən neft məhsullarının ixracının azalmasına səbəb olmuşdur.

Xarici borcların səviyyəsini qiymətləndirən digər bir göstərici xarici borcların məbləğinin büdcə gəlirlərinə olan nisbətidir. Cədvəldəki məlumatlardan göründüyü kimi, 2014-cü ilə kimi xarici borcların büdcə gəlirlərinə olan nisbəti 40 faizdən yuxarı olduğu halda, son illərdə bu göstəri nisbətən aşağı düşərək 2015-ci ildə 38,3 faiz, 2016-cı ildə isə 24,4 faiz təşkil etmişdir.

Beləliklə, aparılan araşdırmalar göstərir ki, ölkənin iqtisadi təhlükəsizlik sistemində maliyyə dayanıqlığı kifayət qədər təmin olunmuşdur və məqsədyönlü şəkildə idarə olunur.

## Ədəbiyyat


1. "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanunu. AR Prezidentinin 29 iyun 2004-cü il tarixli Fərmanı.
2. "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası". AR Prezidentinin 23 may 2007-ci il tarixli, 2198 nömrəli Sərəncamı.
3. "Ümumdünya İqtisadi Forumu"nun (World Economic Forum, WEF) Qlobal Rəqabətlilik Hesabatları.
4. Əyyubov V.S., Tağıyev A.M. Milli iqtisadiyyatın tənzimlənməsi. Dərs vəsaiti. Bakı: Avropa nəşriyyatı, 2014, 350 s.
5. Musayeva C.Q. Milli iqtisadiyyatın təhlükəsizliyi: təhlükələr və təhlükəsizliyin təmin olunması məsələləri. Elmi Əsərlər toplusu, №5 , 2017.
6. www.maliyye.gov.az
7. www.ekonom.gov.az
8. www.azstat.gov.az


## Резюме


***Мусаева Дж.Г., Тагиев А.М.***


**Проблемы внешнего долга страны в системе национальной экономической безопасности и ее финансовой устойчивости**


*Статья посвящена проблемам внешнего долга страны и ее регулированию как одного из элементов системы национальной безопасности на современном этапе. Как основной показатель регулирования внешнего долга страны и определения финансовой устойчивости, использованы такие показатели как отношение внешнего долга к ВВП, государственный бюджет и валютные запасы страны*



***Ключевые слова:*** *национальная экономика, национальная экономическая безопасность, внешней долг, валютные запасы страны, финансовая устойчивость, интеграция, регулирование экономики.*

**Summary**

***Musayeva J.Q., Taghiyev A.M***

**Problems of the Country's External Debt in the System of National Economic Security and its Financial Sustainability**

*The article is devoted to the problems of the country's external debt and its regulation as one of the elements of the national security system at the present stage. The financial stability based on the analysis of the ratio of foreign debt of the country to foreign exchange reserves, GDP, and the state budget was justified as the main indicator of foreign debt regulation.*

***Key words:** national economy, national economic security, external debt, the country's foreign exchange reserves, financial stability, integration, regulation of the economy.*

## İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİNATINDA VERGİLƏRİN STİMULLAŞDIRILMASININ TƏTBİQİ

***Niftəliyev N.F.***

*Mingəçevir Dövlət Universiteti*

Beynəlxalq normalara əsaslanan demokratik, hüquqi dövlət quruculuğu prosesinin başlanması və uğurla davam etdirilməsi, müasir dövlət təsisatlarının yaradılması, ölkənin əsas qanununun – Konstitusiyanın qəbulu, milli təhlükəsizliyin təmin olunması və yeni iqtisadi xəttin müəyyənləşdirilməsi xalqımızın Ümummilli lideri Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyinin diqqətəlayiq bəhrələri kimi ölkənin və xalqın gələcək inkişafı üçün möhkəm təmələ çevrildi. Azərbaycan Respublikasının vergi sisteminin yaradılması və onun normativ-hüquqi bazasının formalaşmasında xarici ölkələrin təcrübəsindən milli xüsusiyyətlər nəzərə alınmaqla geniş istifadə edilmişdir. Məhz buna görə də öz struktur və quruluş prinsiplərinə görə o, dünya iqtisadiyyatında geniş yayılmış vergitutma sistemlərinə uyğun gəlir.

Dünya iqtisadiyyatının qloballaşması şəraitində cəmiyyətin inkişaf etdirilməsi və onun üzvlərinin rifahının təmin edilməsi mühüm dərəcədə onların fəaliyyətinin təhlükəsizliyindən, bu təhlükəsizliyin həyata keçirildiyi şəraitdən asılıdır. Təhlükəsizliyin vacib tərkib hissəsi kimi iqtisadi təhlükəsizlik çıxış edir. Təsərrüfat obyektlərinin fəaliyyətinin iqtisadi səmərəliliyi ilə, iqtisadi müstəqillik, sabitlik və cəmiyyətin təhlükəsizliyi ilə ayrılmaz şəkildə bağlıdır.

Dövlətin və onun xalqının ümumi təhlükəsizliyi, bir tərəfdən iqtisadi təhlükəsizlik, digər tərəfdən bir-biri ilə sıx bağlıdır. Dövlətin və ya onun strukturlarının iqtisadi təhlükəsizliyi yalnız onların xarici və daxili təhlükələrdən qorunmasını təmin edən tədbirlər yaradıldığı halda təmin oluna bilər. Eyni zamanda ölkənin iqtisadi potensialını artırmadan dövlətin və onun xalqının müxtəlif təhlükələrdən qorunmasını təmin etmək mümkün deyil. Bazar münasibətlərinin spesifikası özündə yüksək risk şəraitində fəaliyyət göstərməyə məcbur olan milli iqtisadiyyat üçün bir çox təhlükə gizlədir. İqtisadiyyatın bazar münasibətlərinə keçməsi ölkənin yalnız səmərəli bazar strategiyasına deyil, həm də kəskin olaraq milli iqtisadi maraqların, o cümlədən azad investisiya fəaliyyətinin müdafiəsi üzrə xüsusi proqramlar ehtiva edən iqtisadi təhlükəsizlik strategiyasının işlənib hazırlanmasını tələb edir [2]. Eyni zamanda Azərbaycan iqtisadiyyatının təsərrüfat subyektlərinin, xüsusən milli sahibkarlığın fəallığının inkişaf etdirilməsinin maliyyə-vergi üsullarının müəyyən olunması iqtisadi təhlükəsizliyinin təmin edilməsində ən optimal yollardan biri olaraq çıxış edir. Bütün bunlar isə tədqiqat aktuallığı yaradır və maliyyə-vergi sahəsində Azərbaycan iqtisadiyyatının təsərrüfat subyektlərinin, xüsusən milli sahibkarlığın fəallığının inkişaf etdirilməsinin maliyyə-vergi üsullarının müəyyən olunması məsələləri kontekstində araşdırmaların predmetinə çevrilir.

Dünya İqtisadi Forumu (DİF) indeks göstəricilərinin dinamikası bu gün Azərbaycan iqtisadiyyatı üçün nəinki mövcud rəqabət üstünlüklərinin saxlanmasının önəmli olduğunu, həm də yeni, yüksək texnologiyalara və "biliklərin iqtisadiyyatı"na əsaslanan innovasiyalı iqtisadiyyatın tətbiqi yolu ilə daha yüksək üstünlüklərə keçmək və bununla milli iqtisadi təhlükəsizliyimizin təmini üçün mümkün olan hər şeyi etmək haqqında danışmağa imkan verir. Bununla yanaşı, DİF-in reytinqlərinin təhlili göstərir ki, bunu yalnız uğurlu makroiqtisadi göstəricilər hesabına etmək mümkün olmayacaq. Azərbaycanın müasir iqtisadiyyatının keyfiyyətli artımı ilə hər yeni addım daha çox qüvvə tələb edir və burada iqtisadi təhlükəsizliyə təsir edən bütün amillərin yalnız tarazlı və kompleks yaxşılaşdırılması uğurun zəmini ola bilər [1].

Dövlətin vergi təhlükəsizliyinin mahiyyəti dövlətin vergi təhlükəsizliyi konsepsiyasının formalaşdığı zaman daha tam və dərindən açıla bilər. Onun əsasında aşağıdakılar durmalıdır: 1. Vergi təhlükəsizliyinin təmin edilməsi nəzəriyyəsi məsələləri; 2. Vergi siyasətinin optimallaşdırılması məsələləri dövlətin maliyyə siyasətinin mühüm elementi kimi; 3. Azərbaycan Respublikası Vergilər Nazirliyinin vergiqoyma sahəsində praktiki fəaliyyətinin gedişində təhlükəsizlik prinsiplərinə riayət edilməsinin tətbiqi məsələləri. Sadalanan

hər üç bəndlərdən hər biri nəinki vahid sənəd kimi dövlətin vergi təhlükəsizliyi konsepsiyasının tərkib hissəsi, həm də sərbəst elmi tədqiqatın predmeti ola bilər. Bu zaman, fikrimizcə, qeyd etmək lazımdır ki, dövlətin vergi təhlükəsizliyinin aktual cari problemləri nöqteyi-nəzərindən yuxarıda adları çəkilən istiqamətlərdən daha önəmlisi üçüncüdür. Vergi təhlükəsizliyinin infrastruktur təminatı metodlarının səmərəliliyi vergiqoyma sahəsində müəyyən şərtlərin yaradılmasından ibarət olub, vergi ödəyicisinin daim vergiqoymanın optimal sisteminin seçilməsinə stimulunu yüksəltməlidir ki, bu da müasir bazar iqtisadiyyatı və daim dəyişən vergi qanunvericiliyi şəraitində mürəkkəb çoxmeyarlı vəzifədir. Vergi təhlükəsizliyinin təmin edilməsinin infrastrukturlu mexanizmləri institusional mexanizmlərlə qarşılıqlı əlaqədə olan və dövlətin, biznesin və cəmiyyətin vergi maraqlarının tənzimlənməsi və mühafizəsi problemlərinin daha intellektual həll edilməsini təmin edən əlavə elmi yanaşmalar, prinsip və metodların məcmusudur. Vergi sisteminin kifayət qədər mürəkkəb və daim dəyişən mexanizm olması ilə əlaqədar olaraq, dövlətin və cəmiyyətin vergi təhlükəsizliyinə təsir edən infrastruktur metodlarının əsasında aşağıdakı modellər dura bilər [3]:

- Klassik model onunla səciyyələnir ki, dövlət və biznes özünün uzunmüddətli maliyyə sabitliyini dövlətin milli maraqları, inzibati-ərazi quruluşu, dövlət özəl maliyyə axınlarının bölüşdürülməsi prioritetləri və iqtisadiyyatın ayrı-ayrı sahələrinin stimullaşdırılmasından asılı olaraq, dövlətin sosial-iqtisadi inkişafının müxtəlif dövrlərində strateji və taktiki vəzifələrin həllinə yönəldilmiş vergi preferensiyaları kompleksindən istifadə ilə təşkil etməyə çalışır.
- Vergi təhlükəsizliyinin təmin edilməsinin infrastruktur metodlarının innovasiya modeli maksimum resurs veriminə nəzərdə tutulmaqla, vergiqoymanın bütün sahələrində innovasiya yanaşmalarının işlənib hazırlanmasına və real tətbiqinə yönəldilmiş daha intellektual yanaşma ilə xarakterizə olunur.

Müxtəlif ölkələrin milli vergi təhlükəsizliyi sisteminin üstünlükləri və ya nöqsanları sahibkarlar üçün biznes fəaliyyətindən maksimum dərəcədə səmərəli nəticə əldə etməyə cəlb edən müəyyən vergi riski ilə bağlıdır.

Beynəlxalq vergi tənzimlənməsinin iqtisadi təhlükəsizliyin səviyyəsinin yüksəldilməsinə yönəldilmiş liberallaşdırılmasının və ahəngdarlığının başlıca strateji istiqamətləri, fikrimizcə, aşağıdakılardır [5]:

- ikiqat vergiqoymanın aradan qaldırılması və müxtəlif dövlətlərin vergi sistemlərinin və vergi siyasətinin ahəngdarlığının yaradılması;
- başqa dövlətdə xarici iqtisadi siyasət aparan qabaqcıl təsərrüfat subyektlərinin vergi təhlükəsizliyinin təmin edilməsi;
- beynəlxalq kommersiya fəallığının yüksəldilməsi, qarşılıqlı əməkdaşlıq sayəsində ölkələr arasında kapital axınlarının artması;
- beynəlxalq vergi münasibətlərinin ayrı-seçkiliyi, bu zaman fiskal orqanlarla informasiya mübadiləsinin köməyi ilə özünün vergi suverenliyi və vergidən yayınma faktları olduqda qabaqcadan araşdırmaların aparılması təmin edilir;
- vergiqoymanın müxtəlif dövlətlər və vergi ödəyiciləri arasında beynəlxalq hüquq normaları əsasında meydana çıxan mübahisəli məsələlərin razılaşdırılması prosedurlarının işlənib hazırlanması.

Azərbaycan Respublikasının vergi təhlükəsizliyinin təmin edilməsi Azərbaycan vergi orqanlarının üzərinə düşür. Onların fəaliyyəti vergi inzibatçılığının gedişində, eyni zamanda, xəbərdarlıq metodlarından istifadə və vergi təhlükəsizliyi risklərinin aşkara çıxarılması ilə bağlıdır. Lakin vergi orqanlarının fəaliyyətinin müxtəlif elementləri ölkənin vergi təhlükəsizliyinin təminatı sistemində müxtəlif yerləri tutur. Bu fərqləri nəzərdən keçirmək üçün vergi orqanlarının Azərbaycan Respublikası Vergi Məcəlləsində təsbit olunmuş öhdəlikləri siyahısına müraciət etmək lazımdır.

Ölkənin vergi təhlükəsizliyinin təmin edilməsi nöqteyi-nəzərindən vergilər haqqında qanunvericiliyə riayət edilməsinə nəzarət üzrə vergi orqanlarının funksiyası daha önəmlidir. Bu funksiyanın həyata keçirilməsi zamanı vergi orqanları vergi yoxlamaları keçirir, qarşılıqlı razılaşmalar əsasında nazirliklər və dövlət orqanları vergi və vergi cinayətləri, görülən tədbirlər və aparılan yoxlamalar barədə onlarda olan mövcud materiallarla məlumatlandırılır. Vergi nəzarəti uçot və hesabatların yoxlanması, gəlir əldə etmək üçün və başqa formalarda istifadə olunan binalara və ərazilərə baxış formasında həyata keçirilir. Vergi yoxlamalarının gedişində aşkara çıxan, xarakteri və ictimai təhlükəsi dərəcəsindən asılı olaraq hüquq pozuntuları vergi hüquq pozuntuları, inzibati hüquq pozuntuları və vergi cinayətləri kimi təsnifləşdirilir. Məhz vergi cinayətləri çox yayıldıqda vergi təhlükəsizliyi üçün daha böyük risklər yaranır [4]. Bununla belə, qeyd etmək istərdik ki, Azərbaycanda əldə edilmiş siyasi sabitlik şəraiti, həmçinin son illər islahatların gələcək irəliləyişi üçün yaradılmış uğurlu sosial-iqtisadi baza, zənnimizcə, artıq bu gün iqtisadiyyatımız qarşısında rəqabət qabiliyyəti daha yüksək olan ilk əlli ölkə sırasına daxil olmasına imkan yaratmışdır. Belə dinamika, fikrimizcə, milli iqtisadi təhlükəsizliyimizin təmin edilməsinin təkmilləşdirilməsinin davam etdirilməsi işinin real və eyni zamanda irimiqyaslı məqsədidir. Çoxillik beynəlxalq təcrübə göstərir ki,

iqtisadiyyatın modernləşdirilməsinin davam etdirilməsi və Azərbaycanda innovasiya sisteminin formalaşması iqtisadiyyatımızı üstün xammal ixracı inkişafı zonasından çıxarmağa imkan verəcək və emal sahələrinin artım dinamikasına güclü təkan verəcək, ölkənin dünya birliyində rəqabətqabiliyyətliliyini və onun dünya iqtisadi məkanına bərabər hüquqlu inteqrasiyasını tam mənada təmin edəcək.

**Ədəbiyyat**


1. Dünya İqtisadi Forumu. Global Rəqabətqabiliyyətlilik Hesabatı. 2011-2012.

2. Тимофеева И.Ю. Налоговая безопасность государства и бизнеса: проблемы теории и практики. Бухгалтер и закон. № 2, 2012, с. 45-48.

3. «Налоговая политика в социально-экономическом развитии стран с переходной экономикой». Под ред. Р.С.Гринберга, З.Н.Кузнецовой, Санкт-Петербург, 2011, Алетея, 392 с.

4. Брызгалин А.В. и др. Налоговая оптимизация: принципы, методы, рекомендации, арбитражная практика. Екатеринбург: Изд-во Налоги и финансовое право, 643 с.

5. Теория и практика налогообложения. Под ред. Н.И.Малис. М., Магистр, 2012, Инфра-М. 314 с.



**Резюме**

***Нифталиев Н.Ф.***

**Применение обеспечения налогового стимулирования экономической безопасности**

*В тезисах исходя из масштабности исследуемой проблемы исследование было проведено строго в финансово-налоговом контексте. Полученные научные результаты могут быть использованы при совершенствовании налоговой стратегии государственных органов и частных предприятий. Были определены финансово-налоговые методы, стимулирующие рост активности хозяйствующих субъектов в условиях развития рыночной экономики Азербайджана, на основе увеличения инвестиционных потоков в национальную экономику.*

***Ключевые слова:*** *экономическая безопасность, налогообложение, финансы*

**Summary**

***Niftaliyev N.F.***

**Application of Tax Incentives to Ensure Economic Security**

*The scientific results received in article can be used in improvement of investment strategy to be used by government bodies and private enterprises. The financial and tax methods were defined stimulating growth of activity of economic entities in the conditions of development of market economy of Azerbaijan on the basis of investment growth in national economy.*

***Key words:*** *economic security, taxation, finance*


## MAKROİQTİSADİ TARAZLIĞIN TƏMİN OLUNMASINDA BÜDCƏ-VERGİ SİYASƏTİNİN ROLU


***Rəhmanova L.R.***

*Sumqayıt Dövlət Texniki Kolleci*



***Xülasə***

*Bazar iqtisadiyyatı şəraitində vergi siyasətinin prioritet istiqamətlərinin düzgün müəyyənləşdirilməsi məsələləri aktual bir problemdir. Hazırda Azərbaycan Respublikasında da vergi siyasətinin və onun mühüm bir forması olan büdcə-vergi siyasətinin bazar iqtisadiyyatı şəraitinə uyğun aparılması, onun səmərəli təşkili üçün prinsip, metod və mexanizmlərin tədqiq və təhlili, həmçinin ümumiləşdirilmiş makroiqtisadi dövlət tədbirlərinin hazırlanması nəzəri və əməli əhəmiyyət kəsb edir.*

***Açar sözlər:*** *vergi siyasəti, büdcə- vergi tənzimlənməsi, ölkə iqtisadiyyatı.*


Respublikamızda büdcə-vergi siyasətinin nəzəri-metodoloji, praktiki və təşkilati cəhətləri bu aspektdən kompleks tədqiq olunmalıdır. Büdcə-vergi siyasətinin Azərbaycan modeli ölkə iqtisadiyyatının mövcud vəziyyətini, onun perspektiv inkişaf dinamikasını, məhsuldar qüvvələrin inkişaf aspektlərini əhatə etməklə təşkil olunmalıdır. Məqalədə makroiqtisadi tarazlığın təmin olunmasında büdcə-vergi siyasətinin rolu, vergi daxilolmalarına büdcə-vergi siyasətinin təsiri məsələləri araşdırılmış, büdcə-vergi siyasətinin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmiş və əsaslandırılmışdır.

Vergi siyasətinin bütün parametrlər üzrə optimallaşdırılması effektiv iqtisadi tədqiqatların, o cümlədən empirik tədqiqatların nəticəsində müəyyən edilə bilər. Bu baxımdan, büdcə-vergi siyasəti üzrə iqtisadi tədqiqat bazasının gücləndirilməsinə ciddi ehtiyac vardır. Respublikamızda büdcə-vergi siyasətinin təkmilləşdirilməsi istiqamətində xeyli işlər görülsə də, bu sahədə müəyyən problemlər mövcuddur. Bu

problemləri həll etmək üçün dövlət vahid büdcə-vergi siyasətini həyata keçirərkən inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanmaqla yanaşı, milli, regional prinsipləri də nəzərə almalıdır. Azərbaycanın iqtisadi potensialı kifayət qədər böyükdür. Lakin son illərdə büdcədə kifayət qədər artım templərinə baxmayaraq, hesab edirik ki, ölkənin iqtisadi potensialı mövcud büdcə reallıqlarına uyğun gəlmir. Respublikamızda həyata keçirilən büdcə- vergi siyasətinin əsas məqsədi neftdən asılı olmayan büdcəni inkişaf etdirmək və qeyri-neft sektorundan büdcəyə daxilolmalarını artırmaq olmalıdır. Respublikamızın sosial-iqtisadi inkişaf konsepsiyasına və orta müddətli maliyyə proqramına uyğun olaraq iqtisadiyyatın inkişaf etdirilməsini və nəzərdə tutulan fiskal siyasətin effektiv həyata keçirilməsini təmin etmək üçün aşağıdakılar nəzərə alınmalıdır:

- ümumi daxili məhsulun strukturuna və sahə quruluşuna uyğun büdcə gəlirlərinin artımını təmin etmək;
- vergi daxilolmalarının proqnozlaşdırılması modelini təkmilləşdirmək və bu prosesi keyfiyyətli həyata keçirmək üçün real informativ-məlumat sistemini təsis etmək;
- potensial gəlirlərin büdcəyə daxilolma əmsalının yüksəldilməsinə nail olmaq.

Büdcə gəlirlərinin artırılması istiqamətində vergi yükünün bütün vergi ödəyiciləri arasında bərabər və ədalətli bölüşdürülməsi məsələsi diqqət mərkəzində olacaqdır. Bu zaman, hər şeydən əvvəl iqtisadi fəaliyyətin vergi güzəştlərindən istifadə etməyən iştirakçılarına nəzərən vergi sisteminin ədalətlilik prinsipini pozan və sistemsiz fəaliyyət göstərən bir sıra vergi güzəştlərinin sayı azaldılacaq. Belə ki, bir qrup vergi ödəyiciləri üçün güzəştli hesab olunan rejim labüd sürətdə digərləri üçün əlavə vergi yükü və gərginlik deməkdir. Eyni zamanda mövcud vergi və rüsumların, habelə sosial sığorta haqlarının dərəcələrinə yenidən baxılaraq onların optimal səviyyəsi və strukturu müəyyənləşdiriləcək, sadələşdirilmiş verginin tətbiqi mexanizmi təkmilləşdiriləcəkdir. Vergilər arasında mühüm yeri olan əlavə dəyər vergisinin tətbiqi qaydaları təkmilləşdiriləcək, habelə idxalda ƏDV-dən azadolmalar minimuma endiriləcəkdir. Həmçinin cəmiyyətdə vergi mədəniyyətinin inkişaf etdirilməsi məqsədilə əhalinin maarifləndirilməsi gücləndiriləcəkdir. Bu inkişaf planında büdcə xərcləri də diqqətdən yayınmamış, bu sahədə aşağıdakı alt istiqamətlər üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- büdcə xərclərinin sağlamlaşdırılması;
- büdcə xərclərinə nəzarətin gücləndirilməsi;
- büdcə prosesinin şəffaflığının artırılması.

Dövlət büdcəsinin xərclərinin sağlamlaşdırılması üçün icmal büdcə xərclərinin strukturu təhlil edilərək lazımlı dəyişikliklər ediləcək, icmal büdcənin qeyri-neft kəsirinin ÜDM-də xüsusi çəkisinin kəskin artmasına yol verilməyəcək, büdcə xərcləri proqnozlaşdırılarkən və müəyyənləşdirilərkən həyata keçiriləcək məqsədli proqramların maliyyələşməsi nəzərə alınacaqdır. Həmçinin büdcə xərclərinə normativ (adambaşına) maliyyələşmə prinsipinin tətbiqinin təmin edilməsi üçün zəruri tədbirlər görüləcəkdir.

Vergi-büdcə sisteminin təkmilləşdirilməsi istiqamətində xeyli işlər görülsə də, bu sahədə müəyyən problemlər mövcuddur. Bu problemləri həll etmək üçün dövlət bir sıra iqtisadi qanunlar qəbul etməklə iqtisadi inkişafa zəmin yaradır. Bu qanunların əksəriyyəti, o cümlədən büdcə sistemi haqqında qanun xüsusi əhəmiyyət kəsb edir. Bu da öz əksini dövlətin əsas maliyyə planı olan dövlət büdcəsində tapır. Dövlət büdcəsinin tənzimlənməsi və büdcə kəsirinin aradan qaldırılması üçün vahid büdcə-vergi siyasətinin aparılmasına böyük ehtiyac vardır. Vahid büdcə-vergi siyasətində, inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanmaqla yanaşı, milli, regional prinsiplər nəzərə alınmalıdır. Yuxarıda da qeyd etdiyimiz kimi büdcə gəlirlərinin formalaşmasında əsas rol oynayan vergilərin xüsusi çəkisinin son ildə azalması istisna edilmir. Uzunmüddətli perspektivdə ölkənin dayanıqlı iqtisadi inkişafını təmin etmək baxımından bu normal hal hesab edilə bilməz. Lakin nəzərə almaq lazımdır ki, qeyri-neft sektorunun inkişafı istiqamətində məqsədyönlü, uğurlu tədbirlər davam etdirilir. Bu da öz müsbət nəticəsini göstərir və nikbin proqnozlara əsas verir. Araşdırılmalar göstərir ki, respublikamızda büdcə-vergi siyasətinin təkmilləşdirilməsi naminə mühüm addımlar atılır, böyük nailiyyətlər əldə edilir. Aşağıda sadalanan təkliflərin həyata keçirilməsinin də bu istiqamətdə öz töhfəsini verəcəyi fikrindəyik:

1. Büdcə təşkilatlarının və idarəetmə orqanlarının sayının azaldılması;
2. Bələdiyyə büdcələrinin inkişaf etdirilməsi üçün yerlərdə (paytaxtdan uzaq rayonlarda və şəhərlərdə) istehsal və emal sahələrinin yaradılmasının təşkili;
3. Yerli sahibkarlığın inkişafı və məşğulluğun səviyyəsinin yüksəldilməsi naminə vergi dərəcələrinin aşağı salınması;
4. Daxili bazarın qorunmasını təmin edən çevik gömrük-vergi siyasətinin təkmilləşdirlməsi;
5. İqtisadiyyatın sərbəstləşdirilməsi, azad istehsal və ticarətin, yüksək səviyyəli rəqabətin formalaşdırılması üçün müvafiq tədbirlərin həyata keçirilməsi;
6. İstehsalın genişləndirilməsi üçün səmərəli pul-kredit siyasətinin aparılması;

7. Vergi bazasının daim genişləndirilməsi;

8. Vergidənyayınma hallarına qarşı mübarizənin daha da gücləndirilməsi;

9. Vergi islahatlarının investisiya mühitinə mənfi təsir göstərmədən dövlət gəlirlərinin artırılmasına yönəldilməsi.

Azərbaycan iqtisadi cəhətdən gələcəyi olan bir ölkədir. Belə gələcəyə getməkdə isə bugünədək büdcə-vergi siyasəti dövlətin bir nömrəli köməkçisi olmuşdur.

**Ədəbiyyat**


1. Məmmədov F.Ə və başqaları. Vergilər və vergitutma. Bakı, 2010, 508 s.
2. Bədəlov Ş.Ş. və başqaları. Büdcə sistemi. Bakı: 2003, 420 s.
3. www.maliyye.gov.az.



**Резюме**

***Рахманова Л. Р.***

**Роль бюджетно-налоговой политики в обеспечении макроэкономического равновесия**

*В условиях рыночной экономики актуальной проблемой налоговой политики является правильное определение ее приоритетных направлений. В настоящее время в Азербайджанской Республике теоретическое и практическое значение имеет проведение бюджетно- налоговой политики в соответствии с требованиями рыночной экономики, изучение и анализ принципов, методов и механизмов ее эффективной организации, а также подготовка государственных мероприятий по урегулированию макро-экономики.*

***Ключевые слова:*** *налоговая политика, бюджетно-налоговое регулирование, экономика страны*

**Summary**

***Rahmanova L.R.***

**The Role of Fiscal Policy in Ensuring Macroeconomic Balance**

*In the conditions of a market economy, an urgent problem of tax policy is the correct definition of its priority areas. At present, in the Republic of Azerbaijan, the implementation of fiscal policy in accordance with the requirements of a market economy, the study and analysis of the principles, methods and mechanisms for its effective organization, as well as the preparation of state measures for the regulation of macroeconomics, is of theoretical and practical importance.*

***Key words:*** *tax policy, fiscal regulation, the economy of the country.*


## BEYNƏLXALQ STANDARTLAR ƏSASINDA İNFORMASİYALARIN AÇIQLANMASI VƏ HESABATIN TƏQDİM OLUNMASINA QOYULAN TƏLƏBLƏR


***Səbzəliyev S.M.***

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*



***Açar sözlər:*** *MHBS, maliyyə hesabatı, interpretasiya, risklər, modifikasiya, hecirlənmə, məcmu gəlir, maliyyə alətləri, aktiv, öhdəlik, kapital*


MHBS sistemində maliyyə hesabatının təqdim olunması MHBS (İAS) 1 "Maliyyə hesabatının təqdimatı" adlı əsas standart vasitəsilə tənzimlənir.

MHBS (İAS) 1 "Maliyyə hesabatının təqdimatı" adlı standartın məqsədi ümumi təyinatlı maliyyə hesabatının təqdimanın əsaslarını şərh etməkdən ibarətdir. Bu zaman bir müəssisənin hesabat göstəricilərinin həm əvvəlki dövrlə, həm də digər müəssisələrinin maliyyə hesabatları ilə müqayisəli nəzərdə tutulur.

MHBS-na uyğun olaraq, uçot informasiyalarının açıqlanmasına qoyulan tələblər elə qaydada təqdim olunur ki, hesabat tərtib edən təsərrüfatçılıq subyektinin informasiyalarının bütün komponentlərinin toplanılması və yoxlanılması kifayət qədər sadələşdirilsin.

Maliyyə informasiyaları təsərrüfat subyektinin, illik hesabatında verilən digər informasiyalardan dəqiq surətdə seçilməli və fərqləndirilməlidir (məs., illik hesabata bilavasitə başlığın daxil edilməsi) .

Eyni zamanda elə informasiyalar vardır ki, onlar xüsusi olaraq seçilməli və təkrar verilməlidir. Belə informasiyalara konkret surətdə aid etmək olar:

- hesabat verən təsərrüfat subyektinin adı və onun haqqında digər məlumatlar;
- maliyyə hesabatının müxtəlif subyektlərinin yaxud subyektlər qrupunun əhatə edib-etməməsinin yada salınması;
- maliyyə hesabatının tərtib edildiyi hesabat tarixi yaxud dövrü;
- maliyyə hesabatında rəqəmləri verildiyi zaman istifadə olunan hesabat valyutası və dəqiqlik səviyyəsi (məs., hesabat valyutasının yüzlük yaxud minlik vahidi).

Bundan başqa, maliyyə hesabatının MHBS-na uyğun tərtib olunması hökmən qeyd olunmalıdır.

Əgər maliyyə hesabatı MHBS interpretasiya üzrə daimi komitəsinin tələblərinə cavab vermirsə onu MHBS-na uyğun tərtib edilmiş saymaq olmaz.

Əgər hesabat valyutası təsərrüfat subyektinin yerləşdiyi ölkənin valyutasından fərqlənirsə, onda hesabat valyutasında baş verən bütün dəyişikliklərin səbəbini göstərmək lazımdır.

Maliyyə hesabatına əlavələrdə göstərilməlidir:

- əhəmiyyətli əməliyyatlara və hadisələrə münasibətdə maliyyə hesabatının tərtib edilməsinə və seçilmiş uçot siyasətinə əsas yanaşmalar haqqında informasiyaların məzmunu;
- MHBS-da nəzərdə tutulan, lakin maliyyə hesabatının digər hissəsində verilməyən informasiyaların açıqlanması;
- maliyyə hesabatının digər komponentlərinin tərkibində əks etdirilməyən, lakin onun obyektiv surətdə təcəssüm etdirilməsi üçün zəruri sayılan əlavə informasiyaların verilməsi.

Maliyyə hesabatına əlavələr MHBS (İAS) 1 vasitəsilə qaydaya salınmalıdır (94-cü maddə).

Mühasibat balansının, mənfəət və zərər haqqında hesabatın və pul vəsaitlərinin hərəkəti haqqında hesabatın hər bir sətiri maliyyə hesabatına əlavələrdə verilən müvafiq niformasiyalara istinad olunmalıdır.

Müqayisəli informasiya, əgər MHBS icazə verirsə, bütün miqdar məlumatlarına aid edilməlidir (əsas vəsaitlərin hərəkəti, xüsusi kapitalın hərəkəti və i.a. daxil edilməklə).

Müqayisəli göstəricilər cari dövrün maliyyə hesabatlarının dərk olunmasına kömək göstərirsə, onlar hesabatın təsvir və izah edilən hissəsində əksini tapmalıdır.

Müqayisəli göstəricilərin hər hansı bir yenidən təsnifatının xarakteri, məbləği və səbəblərinin açıqlanması zəruridir. Əgər bunu etmək qeyri-mümkündürsə, yenidən təsnifləşmədən imtinanın səbəbləri və xarakteri göstərilməlidir.

Maliyyə hesabatına əlavələr maliyyə xülasəsində hazırlanıla bilər. Belə xülasələrə aid edilə bilər: əsas və dəyişən amillərin xülasəsi, maliyyə nəticələrinin xülasəsi, iqtisadi məkanın dəyişilməsinin xülasəsi, bu dəyişikliklərlə bağlı müəssisənin fəaliyyətinin xülasəsi, investisiya sahəsində müəssisənin siyasətinin xülasəsi, dividendlərin ödənilməsinə münasibətdə xülasə və s.

Maliyyə xülasəsinə MHBS-na uyğun tərtib olunan mühasibat balansında öz əksini tapmayan maliyyələşmə mənbələri, risklərin idarə edilməsi riskləri, müəssisənin borc vəsaitlərinin o və resurslarının payına münasibətdə siyasət və s. daxil edilə bilər.

Maliyyə hesabatları ilə yanaşı, qeyri-müəyyənliyin başlıca amilləri haqqında informasiyalar da (məs. proqram təminatının əhəmiyyətli modifikasiya ilə əlaqədar həm sərf olunan, həm də gələcəyə planlaşdırılan fəaliyyətin və xərclərin təsviri).

Maliyyə hesabatlarında maliyyə alətlərindən istifadə dərəcəsi və bununla əlaqədar risklərin səviyyəsi təqdim edilə bilər. Onlar həm nəzarət, həm də əvəzlənir (məsələn, mövcud riskin hecirlənməsi), habelə maliyyə alətlərindən istifadə məqsədləri üçün istifadə edilir.

Eyni zamanda ətraf mühitin mühafizəsi tədbirləri haqqında hesabat, əlavə dəyər haqqında hesabat, əgər tələb olunarsa rəhbərliyin razılığı ilə müvafiq iqtisadi qərarların qəbuluna kömək edə bilən digər hesabatlar təqdim edilə bilər.

MHBS (İAS) 1 standartının "Əsas anlayışlar" bölməsində bir sıra terminlər öz əksini tapmışdır. Həmin terminlər standartın mətnini tam və dəqiq başa düşmək zəruridir, habelə o, təqdim edilən informasiyanın istifadəçilərinin daha geniş dairəsi üçün əlçatan olmağa imkan yaradır.

Standartda qeydə alınan əsas terminləri nəzərdən keçirək.

**"Ümumi təyinatlı maliyyə hesabatı"** – dedikdə istifadəçilərin ehtiyaclarını ödəmək üçün nəzərdə tutulan hesabat başa düşülür. Əslində, həmin istifadəçilərin bilavasitə özləri üçün zəruri sayılan konkret informasiyaları hesabatı təqdim edən təşkilatdan tələb etmək imkanı yoxdur.

Əhəmiyyətlilik və qeydlərlə bağlı anlayışlar heç bir dəyişikliyə məruz qalmamışdır.

**"Sair məcmu gəlir"** mənfəət və yaxud zərərdə tanınmayan gəlir və xərclər maddələrinin (düzəlişə məruz qalan təsnifat maddələri də daxil edilməklə) özündə birləşdirir. Belə maddələr MHBS-nın digər standartları vasitəsilə tanınır və aşağıdakı hallarda əmələ yaranır: əsas vəsaitlər, qeyri-maddi aktivlər və maliyyə institutlarının yenidən qiymətləndirilməsi ilə bağlı əməliyyatlar zamanı.

Beləliklə, məcmu gəlir aşağıdakılardan ibarətdir:

- əsas vəsaitlərin və qeyri-maddi aktivlərin yenidən qiymətləndirilməsindən artımın dəyişilməsi;
- MHBS (İAS) 19 "İşçilərin mükafatlandırılması" adlı standartın tələblərinə uyğun olaraq, mühasibat uçotunda tanınan müəyyən ödənişlər əsasında pensiya, planlar üzrə aktual mənfəət və zərərlər;

• MHBS (İAS) 21 "Valyuta məzənnələrinin dəyişilməsini təsiri" adlı standartın tələblərinə uyğun olaraq, xaricdə həyata keçirilən fəaliyyət üzrə maliyyə hesabatlarının yenidən hesablanılması nəticəsində yaranan mənfəət və zərərlər;

• MHBS (İAS) 39 "Maliyyə alətləri: tanınma və qiymətləndirmə" adlı standartın tələblərinə uyğun olaraq, təşkilatlarda mövcud olan və satılmaq üçün nəzərdə tutulan maliyyə aktivlərinin yenidən qiymətləndirilməsindən alınan mənfəət və zərər.

Standartda söhbət gedən təsnifat üzrə düzəlişlər cari dövrün yenidən qiymətləndirilən mənfəətin yaxud zərərin məbləği kimi başa düşülməlidir. Həmin məbləğ cari, yaxud ötən dövrün sair məcmu gəlirin tərkibində tanınır.

**"Məbləğ ifadəsində məcmu gəlir"** dedikdə baş verən əməliyyatlar, yaxud digər hadisələr nəticəsində xüsusi kapitalda baş verən dəyişikliklər başa düşülməlidir. Belə dəyişikliklər sahibkarlarla əməliyyatlar nəticəsində baş verir. Məbləğ ifadəsində məcmu gəlir özündə mənfəət, yaxud zərəri, habelə sair məcmu gəlirləri birləşdirir.

Sahibkarlar dedikdə xüsusi kapital şəklində təsnifləşdirilən maliyyə alətlərini saxlayanlar başa düşülür.

Maliyyə hesabatının əsas məqsədi müəssisənin maliyyə vəziyyəti, onun maliyyə nəticələri və pul vəsaitlərinin hərəkəti haqqında informasiyaların təqdimatından ibarətdir.

Qarşıda duran məqsədlərə nail olmaq üçün şirkətlərin aşağıdakı göstəricilərinə münasibətdə informasiya təminatını həyata keçirmək məqsədə uyğundur:

• aktivlər;
• öhdəliklər;
• xüsusi kapital;
• mənfəət və zərərlər daxil edilməklə gəlirlər və xərclər;
• sahibkarların haqları;
• pul vəsaitlərinin hərəkəti.

Maliyyə hesabatının tam dəsti aşağıdakı komponentləri özündə birləşdirir:

• dövrün axırına maliyyə vəziyyəti haqqında hesabat;
• dövr ərzində məcmu gəlir haqqında hesabat;
• dövr ərzində xüsusi kapitalda dəyişikliklər haqqında hesabat;
• dövr ərzində pul vəsaitlərinin hərəkəti haqqında hesabat;
• əlavələr (uçot siyasətində olan əhəmiyyətli elementlərin və sair əlavə informasiyaların qısa təsviri də daxil edilməklə);
• müqayisə olunan ən əvvəlki dövrün başlanğıcına maliyyə vəziyyəti haqqında hesabat (təşkilatın uçot siyasətini retrospektiv əsasda tətbiq etdiyi dövrdə, yaxud özünün maliyyə hesabatında maddələri yenidən təsnifləşdirdikdə).

MHBS-na uyğun olaraq retrospektiv tətbiq dedikdə əməliyyatlara, digər hadisələrə və şərtlərə yeni uçot siyasətinin tətbiqi başa düşülür. Retrospektiv qaydada yenidən hesablanma əslində əvvəlki dövrdə heç bir zaman yol verilməyən səhvlərin tanınması, qiymətləndirilməsi və açıqlanmasının maliyyə hesabatının elementlərində düzəldilməsi deməkdir.

Mənfəət və zərər haqqında informasiya ya məcmu gəlir haqqında vahid hesabatın, ya da mənfəət və zərər haqqında ayrıca hesabatın tərkibində təqdim oluna bilər. Əgər şirkət, mənfəət və zərər haqqında hesabat tərtib edirsə, o, hesabat dəstinin bir hissəsi sayılır və məcmu gəlir haqqında hesabatın varisi hesab olunur.

Standartda maliyyə hesabatlarının adı ilə bağlı müvafiq qeyd vardır. Təşkilat, həmin məqsəd üçün digər addan da istifadə edə bilər.

Standart vasitəsilə maliyyə hesabatının tam dəstini təşkil edən bütün maliyyə hesabatlarının paritetinin (statusun bərabərliyi, balansın prioritetsiz əhəmiyyəti və mənfəət və zərər haqqında hesabat) mövcudluğu göstərilir.

**"Struktur və məzmun"** bölməsində təsərrüfat subyektinin illik maliyyə hesabatının komponentlərinin strukturu və mahiyyəti müəyyənləşdirilir.

**Ədəbiyyat**


1. Sadıqov Ə.və b. Mühasibat ucotu. Bakı, 2012.
2. Səbzəliyev S., Abbasov Q. Xidmət sahələrində mühasibat ucotu. Bakı, 2015.
3. Səbzəliyev S. Xarici ölkələrdə mühasibat ucotu. Bakı, 2014.
4. Səbzəliyev S., Quliyev V. İdarəetmə ucotu. Bakı, 2014.
5. Kommersiya Təşkilatları üçün Milli Mühasibat Ucotu Standartları. Bakı, 2008.

**Резюме**

***Сабзалиев С.М.***

**Требования к раскрытию информации и представление отчетности по международным стандартам**

*Целью исследования является состоит в предписание основы представления финансовой отчетности общего назначения для достижения ее сопоставимости как с собственной финансовой отчетностью отдельной организации за предшествующие периоды, так и с финансовой отчетностью других организаций.*

***Ключевые слова:*** *МСФО, финансовая отчетность, интерпретация, риск, изменение, кража, совокупный доход, финансовые инструменты, активы, обязательства, капитал*

**Summary**

***Sabzaliyev S.M***

**Requirements for Disclosure of Information and Reporting on International Standards**

*The purpose of the study is to prescribe the basis for the presentation of general purpose financial statements in order to achieve its comparability both with the financial statements of an individual organization for prior periods and with the financial statements of other organizations.*

***Key words:*** *IFRS, financial statement, interpretation, risk, modification, stealing, aggregate income, financial instruments, asset, liability, equity*

## İQTİSADİ TƏHLÜKƏSİZLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ PUL-KREDİT SİYASƏTİ ALƏTLƏRİNİN TƏSİRİNİN GÜCLƏNDİRİLMƏSİ

***Şəfiyeva T.İ.***

*Sumqayıt Dövlət Universiteti*

***Xülasə***

*Məqalədə iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsində pul-kredit siyasətinin əsas istiqamətləri araşdırılmışdır. Eyni zamanda pul-kredit sistemində mövcud olan problemlərə toxunulmuş və bu sahədə iqtisadi təhlükəsizliyin təmin edilməsi ilə bağlı təklif və tövsiyələr irəli sürülmüşdür.*

***Açar sözlər:*** *iqtisadi təhlükəsizlik, pul-kredit siyasəti, inflyasiya, dayanıqlı inkişaf, iqtisadi artım, Mərkəzi Bank*

Pul-kredit siyasətinin əsas öhdəliklərindən biri iqtisadi inkişafın davamlılığını təmin etməkdir. İqtisadi təhlilə əsasən demək olar ki, ölkədə aparılan düzgün pul-kredit siyasəti inflyasiyanın səviyyəsinin aşağı düşməsinə, ölkədə iqtisadi artımın yüksəlməsinə və iqtisadi inkişafa şərait yaradıb. Lakin iqtisadiyyat daim bir xətt üzrə inkişaf etmir. Davamlı iqtisadi inkişafı təmin etmək üçün makromaliyyə sabitliyinin qorunub saxlanması, möhkəmləndirilməsi vacibdir. İqtisadiyyatın uzunmüddətli sabit inkişafı pul-kredit siyasətinin təkmilləşdirilməsi, iqtisadi şəraitə uyğunlaşdırılmasını tələb edir. Qlobal risklərin milli iqtisadiyyatın inkişaf səviyyəsinə mənfi təsirlərini qabaqlayıcı rejimdə məhdudlaşdıran çevik makroiqtisadi tənzimləmənin həyata keçirilməsi vacib şərtdir.

Makromaliyyə sabitliyini qoruyub saxlamaq üçün mövcud şəraitə uyğun pul-kredit və büdcə-vergi strategiyası hazırlanmalı və səmərəli şəkildə həyata keçirilməlidir. 2018-ci ildə də Mərkəzi Bankın fəaliyyətində iqtisadi təhlükəsizliyin qorunması əsas hədəflərdəndir. Mərkəzi Bank pul-kredit siyasətini həyata keçirməklə ölkədə iqtisadi təhlükəsizliyi təmin etməyə, onu qoruyub saxlamağa çalışır. Mərkəzi Bank qarşıdakı il üçün dövlətin pul siyasətinin əsas istiqamətlərini oktyabr ayının 1-dən gec olmayaraq Azərbaycan Respublikası Prezidentinə təqdim edir və dekabr ayının 31-dək kütləvi informasiya vasitələrində ictimaiyyətə açıqlayır. Pul-kredit siyasətinin başlıca istiqamətlərində Azərbaycan Respublikasının maktoiqtisadi və makromaliyyə vəziyyəti təhlil edilir, pul-kredit siyasətinin və bank sisteminin inkişafının əsas istiqamətləri əks etdirilir.

Pul-kredit siyasətinin başlıca istiqamətlərində inflyasiyanın səviyyəsinin azaldılması və manatın xarici dönərli valyutalara nisbətən məzənnəsinin möhkəmləndirilməsi kimi əsas vəzifələrin yerinə yetirilməsi üçün aşağıdakılar nəzərdə tutulur:

- qarşıdakı il üçün pul-kredit siyasətinin məqsəd və vəzifələrinin, bunlara nail olmaq yollarının müəyyənləşdirilməsi;
- inflyasiyanın proqnozlaşdırılan səviyyəsinə nail olmaq üçün pul kütləsi həcminin və strukturunun tənzimlənməsi;

- daxili aktivlərin və ehtiyat pulun maksimum və xarici ehtiyatların minimum səviyyəsinin təmin olunması tədbirləri;

- ölkənin tədiyyə qabiliyyətinin sabitliyi və valyuta bazarının tənzimlənməsi üçün valyuta ehtiyatlarının zəruri səviyyəsinin müəyyənləşdirilməsi;

- həyata keçirilən pul-kredit siyasətinə uyğun olaraq, bank işinin təkmilləşdirilməsi tədbirləri.

Pul-kredit siyasəti yalnız iqtisadi təhlükəsizliyin təmin edilməsi naminə deyil, istehsalın canlandırılması və sağlamlaşdırılmasına və bütövlükdə iqtisadi konyunkturanın yaxşılaşdırılmasına kömək etməlidir. Manatın sabitliyinin və inflyasiyanın cilovlanmasını təmin edən sərt pul-kredit siyasəti elə aparılmalıdır ki, bu siyasətin iqtisadiyyata olan mənfi təsirini minimuma endirmək mümkün olsun. Bu gün iqtisadi islahatları uğurla aparmaq üçün sabit manat və inflyasiyanın aşağı olması vacibdir. Buna nail olmaq üçün iqtisadi təhlükəsizliyin təmin edilməsi zəruridir. Bunun üçün pul-kredit siyasəti iqtisadi siyasətin digər blokları ilə əlaqə aparmalı və bütövlükdə iqtisadiyyatın səmərəli fəaliyyət göstərməsinə xidmət etməlidir [1].

Pul-kredit siyasətinin əsas istiqamətləri aşağıdakılardır.

1. Məzənnə sabitliyi.
2. İxracın stimullaşdırılması.
3. İnflyasiyanın qarşısının alınması, aşağı təkrəqəmli inflyasiya səviyyəsinin qorunması.
4. Qeyri-neft sektorunun inkişaf etdirilməsi.
5. Tədiyyə balansının tarazlığının qorunub saxlanması.
6. Əlverişli investisiya mühitinin yaradılması [2].

Pul-kredit siyasətinin əsas istiqamətlərindən biri kimi, əlverişli investisiya mühitinin yaradılması əsas prioritetlərindən biridir. Qeyd edək ki, düşünülmüş neft-qaz strategiyasının reallaşdırılması ölkənin dayanıqlı maliyyə resurslarının formalaşmasına və bununla da mövcud qeyri-neft sənaye potensialından səmərəli isrifadə imkanlarının genişləndirilməsinə şərait yaratmışdır.

Ölkə iqtisadiyyatının pul-kredit siyasətinin həyata keçirilməsi zamanı labüd olaraq inflyasiyaya qarşı mübarizə ilə iqtisadi artımın stimullaşdırılması problemi arasında obyektiv ziddiyyət yaranır. Bu baxımdan pul-kredit siyasəti ən sıx şəkildə dövlətin investisiya maliyyə siyasəti ilə əlaqələndirilməli, vergi tənzimləmə sistemi ilə tamamlanmalıdır. Yüksək iqtisadi artım inflyasiyanın artmasına səbəb ola bilər. Yüksək iqtisadi artımı təmin etməklə, inflyasiya səviyyəsini qorumaq üçün büdcə-vergi və pul-kredit siyasəti bir-biri ilə əlaqələndirilərək sistemli şəkildə həyata keçirilməsi daha məqsədəuyğundur. İqtisadi artım çevik pul siyasəti ilə dəstəklənməli, Mərkəzi Bank o cümlədən risklərin minimallaşdırılmasını, bank sektorunda maliyyə dayanıqlığının qorunmasını təmin etməlidir. Bank sektorunun maliyyə dərinliyinin artırılması və onun iqtisadi artımda daha səmərəli iştirakının stimullaşdırılması istiqamətində də fəaliyyət gücləndirilməlidir. Dövlətin pul-kredit siyasətinin əsas xətti banklara olan etimadın artırılmasıdır. Əvvəlki illərdə olduğu kimi, ortamüddətli dövrdə də bank sisteminə etimadın, sistemin dayanıqlığının, bank sektorunun iqtisadiyyatda maliyyə vasitəçisi rolunun dəstəklənməsi, iqtisadi subyektlərin bank sisteminə inamını qorumaq və daha da artırmaq mühüm prioritetlər olmalıdır. Bunun üçün bank sisteminin likvidliyinin adekvat səviyyədə saxlanması siyasəti davam etdirilməlidir. Qeyd edək ki, hesabat ili ərzində ödəniş sistemlərinin inkişaf etdirilməsi, elektron ödəniş sistemlərindən daha fəal istifadə olunması, dövriyyədə olan nağd pul kütləsinin nağdsız dövriyyə ilə əvəz edilməsi istiqamətində işlər davam etdirilmişdir. Regional bankçılığın inkişafı 2017-ci ildə də diqqətdə saxlanılmış, kredit institutlarının regional şəbəkəsinin genişləndirilməsi təşviq olunmuşdur. Fiziki filial şəbəkəsi ilə yanaşı, distansion bankçılıq mexanizmlərinin, o cümlədən, elektron bankçılıq alətlərinin inkişaf etdirilməsi mühüm prioritetlərdən olmuşdur. Dövlət pul-kredit siyasəti vasitəsi ilə qiymət sabitliyinə, vayuta sabitliyinə, pul tədavülündə , xarici ticarət balansında, tədiyə balansında tarazlığa nail olmağa çalışır. Beynəlxalq təcrübəyə görə inflyasiyanın birbaşa hədəflənməsi qiymət sabitliyini təmin etməyin ən səmərəli çərçivəsidir [3].

Mərkəzi Bankın faiz dərəcələri vasitəsilə məcmu tələbə, iqtisadi artıma və inflyasiyaya yüksək təsir imkanlarını nəzərdə tutan bu siyasət çərçivəsi inflyasiya gözləntilərini sabitləşdirir və makroiqtisadi şokların təsirlərini çevik neytrallaşdırmağa imkan verir. Bunun üçün müvafiq şərait formalaşdıqca faiz dərəcəsindən məcmu tələbə təsir edən operativ hədəf kimi istifadə olunması imkanları yaranacaqdır. İnflyasiyanın aşağı təkrəqəmli səviyyədə saxlanması pul siyasətinin əsas hədəfini təşkil edəcəkdir. Pul siyasəti çərçivəsinin təkmilləşdirilməsi zamanı son vaxtlar dünyada pul siyasəti dizaynında baş verən dəyişikliklər də nəzərə alınmalıdır. Son qlobal böhran göstərdi ki, mərkəzi banklar dayanıqlı iqtisadi inkişafı yalnız qiymət sabitliyi ilə dəstəkləməklə kifayətlənməməli, ümumi makroiqtisadi sabitliyə nail olmağa çalışmalıdırlar. Manatın məzənnəsinin sabitliyi növbəti ildə mühüm prioritetlərdən biri olacaqdır. İqtisadi vəziyyətdən asılı olaraq iqtisadi artıma səmərəli dəstək vermək üçün pul siyasətinin çevikliyi artırılacaqdır. 2017-ci ildə məzənnə siyasətini həyata keçirərkən Mərkəzi Bank makroiqtisadi sabitliyin təmin edilməsi, maliyyə sabitliyinin və qeyri-neft iqtisadiyyatının rəqabət qabiliyyətinin qorunması kimi hədəfləri əsas götürmüşdür. Manatın sabit

məzənnəsi aşağı təkrəqəmli inflyasiya hədəfinə nail olunmasında, sosial rifahın və investisiya aktivliyinin qorunmasında mühüm rol oynayır. Bunu nəzərə alaraq, 2018-ci ildə manatın məzənnəsinin sabitliyi və möhkəmləndirilməsi mühüm prioritetlərdəndir. Məzənnə rejimi əsasən dəyişməz saxlanacağını hədəfləyirdi. Lakin əvvəlcədən müəyyən olunmuş strategiya, proqnoz göstəriciləri özünü doğrultmaya bilər. Son zamanlarda baş verən proseslər manatın məzənnəsinin kəskin sürətdə aşağı düşməsinə səbəb oldu. Ümumiyyətlə, uzunmüddətli iqtisadi təhlükəsizliyə və iqtisadi artıma nail olmaq üçün vergi-büdcə və pul-kredit siyasəti daha da təkmilləşməli, bir- biri ilə səmərəli şəkildə əlaqələndirilməli, mövcud şəraitə uyğun iqtisadi siyasət həyata keçirilməlidir.

**Ədəbiyyat**


1. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Monoqrafiya. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2009, 415 s.
2. Vəliyev D.Ə. Azərbaycan iqtisadiyyatı. Bakı: Azərbaycan Universitetinin nəşriyyatı, 2010, 428 s.
3. Zeynalov V.Z. Maliyyə böhranı: tarix, nəzəriyyə və antiböhran siyasət. Bakı: Azərnəşr, 2012, 176 s.



**Резюме**

***Шафиева Т.И.***

**Усиление влияния средств денежно-кредитной политики на укрепление экономической безопасности**

*В статье рассмотрены основные направления денежно-кредитной политики в укреплении экономической безопасности. Также затронуты проблемы имеющиеся в денежно-кредитной системе, сформулированы предложения и рекомендации, связанные с обеспечением экономической безопасности в этой страны.*

***Ключевые слова:*** *экономическая безопасность, денежно-кредитная политика, инфляция, устойчивое развитие, экономический рост, Центральный банк*

**Summary**

***Shafiyeva T.I.***

**Strengthening the Influence of Monetary Policy Instruments on Strengthening Economic Security**

*The article examines the main directions of monetary policy in strengthening economic security. Also, the problems in the monetary system are touched upon, proposals and recommendations related to ensuring economic security in this country are formulated.*

***Key words:*** *economic security, monetary policy, inflation, sustainable development, economic growth, Central Bank*


## ÖDƏMƏ QABİLİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ METODİKASININ ƏSASLANDIRILMASI


***Vəliyeva L.M.***

*Sumqayıt Dövlət Universiteti*



**Xülasə**

*Hazırkı dövrdə müəssisənin maliyyə vəziyyətinin təhlilini aparan zaman ön plana metodikanın seçilməsi problemi çıxır ki, onun əsasında da ödəmə qabiliyyətinin qiymətləndirilməsi və maliyyə dayanıqlığının əsas göstəricilərinin hesablanması və eyni zamanda göstəricilərin izahı həyata keçirilir. Müəssisənin maliyyə vəziyyətinin təhlilinin müasir metodikaları üçün bir sıra göstəricilərin hesablanması və onların hesablanma əmsallarının bir sıra meyar qiymətləri ilə müqayisə edilməsi prosesi, eyni zamanda hesabat dövrü ərzində və bir neçə il ərzində onların dinamikada öyrənilməsi əsas xarakterik xüsusiyyətlərdən biridir.*



***Açar sözlər:*** *ödəmə qabiliyyəti, borc kapitalı, rentabellik əmsalı, likvidlik əmsalı,cari öhdəliklər*


Hazırda qüvvədə olan istehsal-maliyyə fəaliyyətinin qiymətləndirilməsi üzrə normativ sənədlər idarəetmə nəzəriyyəsi və təsərrüfat təcrübəsi arasındakı mövcud olan ziddiyyəti aradan qaldırmır, bu isə müəssisənin maliyyə vəziyyətinin qiymətləndirilməsinin vasitələri məcmusunun qeyri-səmərəliliyini (yaxud da onun menecment tərəfindən tətbiqi zəifliyini), onun müəssisələrin təsərrüfat şəraitinə və uyğunlaşma imkanlarına qeyri-adekvatlığını sübut edir. İş ondadır ki, bu cür qiymətləndirmə üçün metodiki təminat müasir ölkə iqtisadiyyatının spesifikliyi, onda axıb gedən proseslərin xüsusiyyətləri ilə bağlı bir sıra özəllikləri nəzərə almalıdır. Göstərilən cəhət müəssisələrin maliyyə müstəqilliyi və dayanıqlığının qiymətləndirilməsi metodikasında müvafiq transformasiyaları tələb edir [1].

Maliyyə vəziyyətinin dəqiq və tam qiymətləndirilməsi üçün nisbətən az sayda maliyyə əmsalları kifayət edir. Hesablama göstəricilərindən hər birinin maliyyə vəziyyətinin ən əhəmiyyətli tərəflərini əks etdirməsi vacibdir.

Bir qayda olaraq, meyar qiymətlərinə malik hesablama göstəricilərinin qiymətlərinin müqayisəsinin nəticələri üzrə bütövlükdə təhlil edilən müəssisənin maliyyə vəziyyətini qiymətləndirmək üçün əsas olan müəssisənin balansının likvidliyi haqqında və onun maliyyə dayanıqlığı haqqında qərar çıxarılır.

Müəssisələrin maliyyə vəziyyətinin təhlili metodikasının mahiyyətini və onun reallaşması mexanizmini başa düşmək üçün fəaliyyətdə olan və təcrübədə tətbiq edilən maliyyə vəziyyətinin təhlili metodikalarının bir çoxunun mahiyyətinə baxaq.

Xarici iqtisadçı Van Xorn C.K bütün maliyyə əmsallarını dörd qrupda birləşdirməyi təklif edir:

1. likvidlik əmsalları;
2. borc kapitalının xüsusi çəkisi əmsalı (borc əmsalları);
3. kreditlər üzrə faizlərin təminatlılığı əmsalları;
4. rentabellik əmsalları.

Likvidlik əmsalları firmanın öz qısamüddətli öhdəliklərini yerinə yetirmək qabiliyyətini qiymətləndirmək üçün tətbiq edilir.

Müəllif ümumi borc məbləğini qısamüddətli və uzunmüddətli borca ayırır. Bununla bərabər qısamüddətli kreditor borcuna daxildir:

- bank kreditləri və ödəmə vekselləri;
- kreditor borcu;
- vergi ödəmələri;
- digər öhdəliklər.

Bütün qalan borc uzunmüddətli kreditor borcuna aiddir.

Müəssisənin rentabelliyini qiymətləndirmək üçün Van Xorn C.K. iki növ rentabelliyi fərqləndirir: satışların rentabelliyi və investisiyaların rentabelliyi[3].

Bununla bərabər ödəmə qabiliyyəti və maliyyə dayanıqlılığının qiymətləndirilməsi üçün aşağıdakı göstəricilərdən istifadə etmək təklif olunur.

1. Ümumi ödəmə qabiliyyəti dərəcəsi təşkilatın borc vəsaitləri məbləğinin orta aylıq mədaxilə nisbəti kimi müəyyən edilir. Bu göstərici təşkilatın ödəmə qabiliyyəti, onun borc vəsaitlərinin həcmi və təşkilatın öz kreditorları qarşısında borcunun mümkün ödənməsi müddəti ilə ümumi vəziyyəti xarakterizə edir.

Təşkilatın borcunun strukturu və kreditləşdirmə üsulları “ümumi ödəmə qabiliyyəti” göstəricisinin bank kreditləri və borclar, digər təşkilatlar, fiskal sistem, daxili borc üzrə borc əmsallarına bölgüsünü xarakterizə edir.

2. Bank kreditləri və borclar üzrə borc əmsalı uzunmüddətli passiv və qısamüddətli bank kreditləri və borcları cəminin orta aylıq mədaxilə nisbəti kimi hesablanır.

3. Başqa təşkilatlara borc əmsalı “tədarükçü və podratçılar”, “ödəmə vekselləri”, “qız müəssisələri qarşısında borc”, “alınan avanslar”, “sair kreditorlar” sətirləri üzrə öhdəliklərin cəminin orta aylıq mədaxilə nisbəti kimi hesablanır. Balansın passivinin bütün bu sətirləri funksional olaraq təşkilatın birbaşa kreditorları və yaxud onun kontragentləri qarşısında öhdəliklərinə aiddir.

4. Fiskal sistemə borc əmsalı “dövlət büdcədənkənar fondları qarşısında borc” və “büdcə qarşısında borc” sətirləri üzrə öhdəliklər cəminin orta aylıq mədaxilə nisbəti kimi hesablanır.

5. Daxili borc əmsalı “təşkilatın heyəti qarşısında borc”, “gəlirlərin ödənməsi üzrə iştirakçılara (təsisçilərə) borc”, “gələcək dövrün xərcləri”, “qarşıda duran xərclərin ehtiyatı”, “sair qısamüddətli öhdəliklər” cəminin orta aylıq mədaxilə nisbətikimi hesablanır.

6. Cari öhdəliklər üzrə ödəmə qabiliyyəti dərəcəsi təşkilatın cari borc vəsaitlərinin (qısamüddətli öhdəliklərinin) orta aylıq mədaxilə nisbəti kimi müəyyən edilir. Bu göstərici təşkilatın cari ödəmə qabiliyyəti, onun qısamüddətli borc vəsaitlərinin həcmi və təşkilatın onun kreditorları qarşısında cari borcunun mümkün ödənməsi müddəti ilə vəziyyəti xarakterizə edir.

7. Cari öhdəliklərin dövriyyə aktivləri ilə ödənməsi əmsalı ehtiyatlar, debitor borcu, qısamüddətli maliyyə qoyuluşları, pul vəsaitləri və sair aktivlər şəklində bütün dövriyyə vəsaitlərinin dəyərinin təşkilatın cari öhdəliklərinə nisbəti kimi hesablanır. Bu əmsal cari öhdəliklərin təşkilatın dövriyyə aktivləri ilə hansı dərəcədə ödəndiyini göstərir. Bundan başqa, ödəmə imkanlarını (o cümlədən “qayıtmaz”) və mövcud ehtiyatların (o cümədən likvid olmayan ehtiyatların) reallaşmasını xarakterizə edir. Təhlil olunan dövr ərzində bu göstəricinin azalması təşkilatın aktivlərinin likvidliyi səviyyəsinin azalması və yaxud itkilərin artmasını sübut edir.

8. Dövriyyədəki xüsusi kapital təşkilatın xüsusi kapitalı ilə onun dövriyyədən kənar aktivləri arasında fərq kimi hesablanır. Dövriyyədə xüsusi kapitalın (xüsusi dövriyyə vəsaitlərinin) mövcudluğu təşkilatın

maliyyə dayanıqlığının ən vacib göstəricilərindən biridir. Təşkilatın dövriyyəsində xüsusi kapitalının olmaması onu sübut edir ki, təşkilatın dövriyyə vəsaitləri, eyni zamanda ola bilsin ki, dövriyyədən kənar aktivlərin bir hissəsi (göstəricinin mənfi qiyməti halında) borc vəsaitləri (mənbələri) hesabına yaranmışdır.

9. Dövriyyə vəsaitlərində xüsusi kapitalın payı (xüsusi vəsaitlərlə təmin olunma əmsalı) dövriyyədəki xüsusi vəsaitlərin dövriyyə vəsaitlərinin bütün kəmiyyətinə nisbəti kimi hesablanır. Göstərici xüsusi və borc dövriyyə vəsaitlərinin nisbətini xarakterizə edir və təşkilatın maliyyə dayanıqlığı üçün tələb olunan onun təsərrüfat fəaliyyətinin xüsusi dövriyyə vəsaitləri ilə təmin olunması dərəcəsini müəyyən edir.

10. Avtonomluq (maliyyə müstəqilliyi) əmsalı xüsusi kapitalın təşkilatın aktivlərinin məbləğinə nisbəti kimi hesablanır. Avtonomluq və yaxud maliyyə müstəqilliyi əmsalı təşkilatın kapitalı və itkilərdən təmizlənmiş ehtiyatlarının dəyərinin təşkilatın dövriyyədən kənar və dövriyyə aktivləri qismində vəsaitlərinin cəminə olan nisbəti ilə müəyyən olunur. Bu göstərici xüsusi kapitalın (xüsusi əmələgəlmə mənbələri ilə təmin olunur) hesabına ödənən təşkilatın aktivlərinin payını müəyyən edir. Aktivlərin yerdə qalan payı borc vəsaitləri hesabına ödənir. Təşkilatın xüsusi və borc kapitalının nisbətini xarakterizə edir [2].

Birinci yeddi göstərici müəssisənin ödəmə qabiliyyəti dərəcəsini, yerdə qalan üç göstərici isə onun maliyyə dayanıqlığı səviyyəsini xarakterizə edir. Kreditor borcunun bütün növlər üzrə daha ətraflı olaraq dərəcələrə bölünməsi ödəmə qabiliyyətinin qiymətləndirilməsinin bu metodikasının xüsusiyyətidir. Göstərilən əmsalların spesifik xüsusiyyəti həm də ondan ibarətdir ki, müəssisənin orta aylıq mədaxili onların müəyyən edilməsi üçün bazadır.

**Ədəbiyyat**

1. Ataşov V.X., Novruzov N.A., İbrahimov E.Ə. Müəssisələrin maliyyəsi: Dərslik. Bakı: Kooperasiya nəşriyyatı, 2009, 336 s.

2. Бочаров В.В. Финансовый анализ. – СПб: Питер, 2011. 232 с.

3. Ван Хорн Дж.К., Вахович Д. Основы финансового менеджмента. Киев: Вильямс, 2006, 1232 с.

**Резюме**

***Велиева Л.М.***

**Обоснование методики оценивания платежеспособности**

*В современных условиях в анализе финансового состояния предприятия на первый план выходит выбор методики, на её основе разъясняется оценивание платежеспособности и оценивание основых показателей финансовой стабильности. Для современных методик анализа финансового положения предприятия одним из основых характеристик является расчет ряда показателей и процесс сравнения факторных цен их коэффициентов.*

***Ключевые слова:*** *платежеспособность, долговой капитал, коэффициент рентабельности, коэффициент ликвидности, текущие обязательства*

**Summary**

***Valiyeva L.M.***

**Justifying Methodology of Solvency Assessment**

*In the current period, while analyzing the entity's financial position, there is a problem with the choice of advanced methodology, based on the ability to pay solvency and financial sustainability indicators, as well as an explanation of the indicators. The calculation of a number of indicators for the modern methods of financial condition analysis of the entity and the comparison of their computational ratios with as their dynamics study over a period of time and for a number of years, are one of the key characteristics.*

***Key words***: *solvency, debt capital, profitability ratio, liquidity ratio, current commitments*

## MİLLİ İQTİSADİYYATIN BEYNƏLXALQ MALİYYƏ MÜHİTİNƏ İNTEQRASİYASINDA İNVESTİSİYALARIN ROLU

*Yəhyayeva A.Y.*

***Sumqayıt Dövlət Universiteti***

***Xülasə***

*Məqalədə beynəlxalq maliyyə mühitinin tərkib hissələri nəzərdən keçirilmişdir. Eyni zamanda beynəlxalq maliyyə mühitinin tərkib hissəsi kimi investisiyaların rolu tədqiq edilmişdir. Həmçinin milli iqtisadiyyatın beynəlxalq maliyyə mühitinə inteqrasiyası sahəsində səmərəliliyə nail olmaq üçün təklif və tövsiyələr irəli sürülmüşdür.*

***Açar sözlər:*** *beynəlxalq maliyyə əməliyyatları, inteqrasiya, beynəlxalq maliyyə mühiti, qloballaşma, valyuta, investisiya*

Dünya maliyyə-iqtisadi böhranın baş verdiyi şəraitdə dünyanın bir çox dövlətləri qlobal inteqrasiya proseslərinin birgə inkişaf sxemlərini hazırlayır, hansı ki, öz növbəsində yeni geosiyasi və geoiqtisadi mərkəzlərin yaradılmasını öz tərkibinə alır. Bu prosesdə Azərbaycan gənc, müstəqil dövlət kimi, beynəlxalq regional əməkdaşlığın siyasi və iqtisadi təhlükəsizliyi təmin edə biləcək stabil sisteminin yaradılmasına can atır. Bu meyil nəinki Azərbaycanın dünya cəmiyyətinə inteqrasiyasını stimullaşdırır, eləcə də ölkənin müxtəlif regionlarda təsirinin artmasına, ticari-iqtisadi əlaqələrin və istehsal kooperasiyasının inkişafına, məhsul satışının perspektiv bazar axtarışına imkan yaradır.

Məlumdur ki, ümumdünya təsərrüfatı sisteminin və iqtisadi məkanın aparıcı elementi beynəlxalq maliyyə mühitidir. Beynəlxalq maliyyə mühitinin əsas tərkib hissələri kimi beynəlxalq maliyyə bazarları, beynəlxalq bank sistemi və beynəlxalq portfel investisiyalarının idarə olunma şəbəkəsi, yəni kapital bazarı çıxış edir. Milli və beynəlxalq maliyyə korporasiyaları isə onun əsas iştirakçılarıdır.

İqtisadiyyatın qloballaşdığı müasir şəraitdə beynəlxalq ticarət, beynəlxalq kapital və maliyyə axınları sürətlə genişlənməyə başlamışdır. Ümumdünya əhəmiyyətinə malik olan nəhəng layihələrin həyata keçirilməsi bu prosesi daha da sürətləndirir. Böyük perspektivə malik iş imkanlarının açılması yeni iqtisadi məkanda yeni beynəlxalq maliyyə mərkəzinin yaranacağı imkanını xeyli artırmışdır.

Tarixi təcrübə göstərir ki, dünyanın müasir maliyyə mərkəzləri ölkənin kapital ixrac və idxal edən ölkə olmasından aslı olmayaraq, kapitalın toplanması və təmərküzləşməsi özünü göstərən yerlərdə yaranır. Beynəlxalq maliyyə mərkəzlərinin əsas funksiyası qlobal və ya regional miqyasda maliyyə fondlarının təklif edənlərdən ehtiyacı olanlara ən səmərəli şəkildə ötürülməsini təmin etməkdir [1].

Azərbaycanın beynəlxalq maliyyə mühitə inteqrasiyasında investisiya amili mühüm rol oynayır.

Azərbaycanın beynəlxalq maliyyə mühitinə inteqrasiyasının bir istiqaməti xarici investisiyalarla bağlıdır. Ölkəmizdə xarici investisiyalar 1992-ci ildə "Xarici investisiyaların qorunması" haqqında Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Ölkədə investisiya qoyuluşlarının hüquqi və iqtisadi prinsipləri müəyyən edilmişdir. Qanunçuluq Azərbaycan iqtisadiyyatında xarici maddi və maliyyə ehtiyatlarının, qabaqcıl texnika və texnologiyaların, idarəetmə təcrübəsinin cəlb olunmasına, onlardan səmərəli istifadə olunmasına yönəlmişdir və xarici investorların hüquqlarının müdafiəsinə təminat verir. Xarici kapitalın cəlb olunması üçün edilən güzəştlər ölkəyə investisiya axını üçün təməl qoymuşdur.

Bunu son illər ölkə iqtisadiyyatına yönəldilən xarici investisiya qoyuluşlarının həcmində daha aydın görə bilərik.

**Cədvəl 1.**

**2010-2016-cı illərdə Azərbaycan iqtisadiyyatına yönəldilən xarici investisiyalar, mənbələr və ölkələr üzrə mln.dollar**

| | 2010 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|
| **Cəmi xarici investisiya qoyuluşu** | **8247,8** | **10314,0** | **10540,9** | **11697,7** | **10719,1** | **10161,1** |
| O cümlədən, maliyyə kreditləri | 3405,9 | 3135,5 | 2655,8 | 1880,6 | 2210,2 | 2197,8 |
| Birbaşa investisiyalar | 3614,9 | 5382,3 | 5976,2 | 8049,2 | 7483,1 | 7323,6 |
| O cümlədən: neft sektoruna | 2955,3 | 4287,8 | 4935,2 | 6730,7 | 6622,7 | 5617,4 |
| Birgə və xarici investisiyalı müəssisələr | 659,6 | 1094,5 | 1041,0 | 1318,5 | 860,4 | 1706,2 |
| Türkiyə | 147,5 | 185,9 | 401,3 | 481,4 | 220,4 | 307,5 |
| Niderland | 163,5 | 186,0 | 141,6 | 103,8 | 85.9 | 127,9 |
| ABŞ | 40,0 | 92,5 | 24,4 | 89,3 | 18,9 | 38,2 |
| Almaniya | 17,0 | 45,6 | 15,1 | 51,0 | 60,1 | 36,4 |
| Rusiya | 11,7 | 21,8 | 36,1 | 13,6 | 15,9 | 363,2 |
| Böyük Britaniya | 144,0 | 149,3 | 136,0 | 153,5 | 173,1 | 174,4 |
| Birləşmiş Ərəb Əmirlikləri | 30,3 | 92,4 | 109,3 | 90,2 | 103,9 | 60,2 |
| İsveçrə | 11,7 | 79,4 | 18,2 | 18,9 | 15,7 | 370,5 |
| İtaliya | 4,6 | 22,1 | 21,3 | 21,2 | 14,6 | 11,6 |
| Fransa | 6,2 | 14,4 | 6,1 | 7,2 | 7,2 | 5,5 |
| Yaponiya | 1,4 | 5,4 | 3,0 | 2,9 | 3,4 | 0,5 |
| Sair ölkələr | 37,7 | 203,5 | 186,0 | 117,5 | 235,1 | 139,4 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Neft bonusu | 2,0 | 2,0 | 2,4 | 17,0 | 2,0 | 0,1 |
| Digər investisiyalar | 1225,0 | 1794,2 | 1906,5 | 1750,9 | 1023,8 | 639,6 |

***Mənbə:*** *Azərbaycanın Statistik Göstəriciləri. Bakı, 2017* **[4].**

Cədvəl 1-in məlumatlarından aydın olur ki, 2016-cı il ərzində ölkə iqtisadiyyatına 10161,1 milyon dollar xarici investisiya qoyulmuşdur ki, onun da 7323,6 milyon dolları və yaxud 72,1 %-i birbaşa xarici investisiyaların payına düşmüşdür. Birbaşa xarici investisiyaların 5617,4 milyon dolları və yaxud 76,7%-i neft sektoruna, 1706,2 milyon dolları və yaxud 23,3%-i isə qeyri-neft sektoru olan birgə və xarici investisiyalı müəssisələrə yönəldilmişdir.

Hazırda respublikamızda yerli müəssisələrə xarici iqtisadi əlaqələrin bərabər hüquqlu iştirakçısı və tərəfdaşı olmaq ixtiyarı verilmişdir. Məhz bu imkandan istifadə edərək ölkə iqtisadiyyatının bütün sahələrində xarici tərəfdaşlarla faydalı iqtisadi əlaqələr yaradılır. Bu zaman hər bir müəssisə xarici iqtisadi əlaqələr amilinin üstünlüklərindən yararlanmağa can atır. Çox vaxt bunu ölkə iqtisadiyyatında gedən proseslərlə, xüsusilə də istehsalın bərpası və genişləndirilməsi üçün maddi-texniki təminatın, investisiya mənbələrinin və maliyyə vəsaitlərinin məhdudluğu ilə izah edirlər. Odur ki, dövlət və özəl sektorun mülkiyyətçiləri xarici iqtisadi əlaqələr yaradaraq ayrı-ayrı sahələrin, istehsal və qeyri-istehsal müəssisələrinin inkişaf yoluna qaytarılması məqsədilə investisiya cəlb etməyə çalışırlar. Bu istiqamətdə aparılan işlər artıq öz nəticəsini yanacaq-enerji kompleksinin, habelə ölkə iqtisadiyyatının əsas sahəsi olan neft və qaz hasilatı sahəsində vermişdir. Hazırda respublikamıza xarici investisiya axını davam edir və onun tətbiq dairəsi tədricən genişlənərək emal, tikinti və xidmət sahələrini əhatə etməkdədir [2].

Mövcud şəraitdə maliyyə-kredit bazarında kredit faizlərinin yüksək olması müxtəlif ölkələrin firmalarını irihəcmli investisiya layihələrini həyata keçirən zaman elmi-texniki potensialın və maliyyə ehtiyatlarının birləşdirilməsinə vadar edir. Həm xarici, həm də yerli şirkətlər üçün iqtisadi əlaqələrə girməklə mühüm investisiya layihələrini birgə həyata keçirmək daha faydalı olur. Bununla da tərəflər iri həcmli layihələrin həyata keçirilməsində riskin payını bölüşməklə onlara deyə biləcək zərərin müəyyən hissəsindən özlərini sığortalamış olurlar. Bu zaman həm investorların, həm investisiya alanların, həm də dövlətin maraqlarının nəzərə alınması daha vacibdir. Daha doğrusu, investisiya bazarının təşkilində iştirakçı olan bütün tərəflərin maraqlarının təmin olunmasına çalışmaq lazımdır. Belə ki, əgər investorları maksimum gəlir götürmək və satış bazarına yiyələnmək maraqlandırırsa, investisiya alanları istehsalı modernizasiya etmək, ilkin kapital əldə etmək və kapital dövriyyəsini artırmaq daha çox maraqlandırır. Göstərilən tərəflərin maraqları çərçivəsində dövlətin marağı daha önəmlidir və o, investisiya prosesinin tənzimlənməsi, iqtisadiyyatın səmərəli olması və sosial yönümlü layihələrin tətbiqinə daha çox üstünlük verir. Odur ki, ölkə iqtisadiyyatının inkişaf etdirilməsinin strateji istiqaməti kimi lazımi investisiyanın cəlb olunması hesabına tez bir müddətdə milli iqtisadiyyatın bütün sahələrinin gələcək inkişafı üçün vacib olan valyuta axınını təmin etmək lazımdır. Şübhəsiz ki, qeyd edilən strateji xəttin ardıcıl olaraq həyata keçirilməsi qarşıya çıxan problemlərin dövlət səviyyəsində həlli və investisiya axını üçün mühüm olan iqtisadi şəraitin yaradılması son nəticədə ölkənin iqtisadi tərəqqisini təmin edəcəkdir [3].

Ümumiyyətlə, milli iqtisadiyyatın beynəlxalq maliyyə mühitinə inteqrasiyası sahəsində səmərəliliyə nail olmaq üçün bir-biri ilə qarşılıqlı əlaqədə olan aşağıdakı vəzifələri yerinə yetirmək lazımdır.

1. Dünya təcrübəsində qəbul edilmiş prinsiplər, normalar və iqtisadi mexanizmlərdən istifadə etməklə inkişaf etmiş bazar sisteminin formalaşdırılması.
2. Milli təsərrüfatı genişləndirmək üçün dünya iqtisadi sisteminin imkanlarından, o cümlədən xarici investisiyalardan istifadə olunması.
3. İnvestisiyaları dinamik və yüksək səmərəli artımı təmin edə biləcək amilə çevirmək.
4. Milli maliyyə sisteminin digər ölkələrin maliyyə sistemləri ilə inteqrasiya əlaqələrinin yaxşılaşdırılması yollarını müəyyən etmək.

Bütün bunlara əsaslanaraq deyə bilərik ki, Azərbaycan Respublikasının beynəlxalq maliyyə mühitinə inteqrasiya proseslərinin güclənməsi maliyyə sisteminin təkmilləşdirilməsini, onun maddi-texniki bazasının modernləşdirilməsini, bütün istiqamətlərdə maliyyə fəaliyyətinin beynəlxalq standartlara tam uyğunlaşdırılmasını və investisiyaların ölkənin sosial-iqtisadi inkişafında rolunun daha da artırılmasını tələb edir.

**Ədəbiyyat**

1. Abbasov Ç.M. Azərbaycanın dünya iqtisadiyyatında inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.
2. Bayramov Ə.İ. Regional iqtisadi inteqrasiya: nəzəriyyə və praktika. Bakı: Elm, 1997, 167 s.
3. Vəliyev D.Ə. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: Adiloğlu nəşriyyatı, 2008, 428 s.
4. Azərbaycanın Statistik Göstəriciləri. Bakı, 2017.

**Резюме**

***Яхьяева А.Ю.***

**Роль инвестиций в интеграции национальной экономики в международную финансовую среду**

*В статье рассматриваются составные части международной финансовой среды. Также дана информация об инвестициях как составной части международной финансовой среды. Предложены рекомендации по достижению эффективности интеграции национальной экономики в международную финансовую среду.*

***Ключевые слова:*** *международные финансовые операции, интеграция, международная финансовая среда, глобализация, валюта, инвестиция*

**Summary**

***Yahyayeva A.Y.***

**The Role of Investment in Integrating the National Economy into the International Financial Environment**

*The article examines the components of the international financial environment. Information is also given on investments as an integral part of the international financial environment. And also recommendations are offered on achievement of efficiency of integration of national economy into the international financial environment.*

***Key words:*** *international financial transactions, integration, international financial environment, globalization, currency, investment*

## BİZNESİN MALİYYƏ TƏHLÜKƏSİZLİYİ GÖSTƏRİCİLƏRİ VƏ AMİLLƏRİ

**Zalov Z.M.**

*Sumqayıt Dövlət Universiteti*

***Xülasə***

*Məqalədə biznesin iqtisadi təhlükəsizliyinin tərkib hissələrindən biri olan maliyyə təhlükəsizliyinə toxunulmuşdur. Maliyyə təhlükəsizliyinin əsas göstəriciləri nəzərdən keçirilmişdir. Eyni zamanda biznesin maliyyə təhlükəzisliyinin daxili və xarici amilləri araşdırılmışdır.*

***Açar sözlər:*** *biznes, maliyyə təhlükəsizliyi, daxili və xarici amillər, mənfəət, rentabellik, ödəmə qabiliyyəti*

Biznesin iqtisadi təhlükəsizliyinin təmin olunmasının əsas məqsədi qarşıya qoyulan hədəflərə qısa zamanda nail olmaqdır. Bunun üçün həvəsləndirici tədbirlər lazımdır, bunlardan ən mühümü mənfəət əldə etməkdir. Bunu təmin edən ən yaxşı vasitə əmək məhsuldarlığının artırılmasıdır. Eyni zamanda istehsal, insanların və ümumiyyətlə cəmiyyətin ehtiyacına uyğun tənzimlənməlidir. Biznesin iqtisadi təhlükəsizliyinin təmin olunmasının əsas məqsədlərindən biri də hazırda və gələcəkdə müəssisənin iqtisadi potensialını artırmaq və bunun əsasında müəssisənin iqtisadi inkişafını təmin etməkdir.

Biznesin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin ən mühüm istiqamətlərindən biri maliyyə təhlükəsizliyidir. Maliyyə təhlükəsizliyi göstəricilərinə aşağıdakılar daxildir:

1. Alım gücü göstəriciləri;
2. Maliyyə sabitliyi göstəriciləri;
3. İşgüzar fəallıq göstəriciləri;
4. Rentabellik göstəriciləri [1].

Alım gücü olan müəssisə maliyyə cəhətdən yaxşı hazırlanmış müəssisələr sinfinə daxildir. Bunun ən yaxşı göstəricisi kredit aldığı qurumlara öz resursları ilə borcunu vaxtında və tam olaraq geri ödəməsidir.

Maliyyə təhlükəsizliyin əsas göstəricisi maliyyə əməliyyatlarının keçirilməsi, təşviq edilən sərmayənin qorunması ilə xarakterizə edilir. İşgüzar fəallığın göstəricisi isə əsas və dövriyyə kapitalının dövriyyə sürəti ilə ölçülür. İstehsal fondlarının strukturunda passiv hissənin yüksək olması müəssisənin iqtisadi cəhətdən qeyri-sabitliyinə səbəb olur. Bu da müəssisənin alıcılıq qabiliyyəti səviyyəsinin aşağı olmasına səbəb olur [4].

Müəssisənin aktivinin (müəssisənin balansında aktivlərin cəmi) dövriyyə sürəti onun maliyyə siyasətinin keyfiyyət göstəricisidir. Yəni dövriyyə sürəti nə qədər yüksək olarsa, seçilmiş strategiya bir o qədər səmərəli olur. Qurum öz mənbəyini qısamüddətli maliyyə varlıqlarına çevirmək istiqamətinə yönələndə aktivlərini asanlıqla reallaşdıra bilir. Təşkilat ziyanla işləyirsə, demək, normal istehsal fəaliyyətini davam etdirmək üçün xüsusi maliyyə mənbəyi yoxdur. Müəssisənin fəaliyyəti gəlir əldə edirsə, bu halda

ümumi fondla istehlak fondu arasında optimal balans yaratmaq mümkündür. Bu zaman əlavə bölmələr istehlak fondunun artmasını və müəssisənin maliyyə fəaliyyətinin həyata keçirilməsini xarakterizə edir. Rentabellik biznesin maliyyə təhlükəsizliyinin göstəricilərindən olub, onun şəxsi vəsaiti, istehsal fondlarının kəmiyyət və keyfiyyəti, uzun və qısamüddətli maliyyə qoyuluşlarının həcmi, mənfəətin səviyyəsi ilə ölçülür. Biznesin fəaliyyətinin mütləq nəticəsi istehsalı təşkil etmək və idarəetmədə mühüm rol oynayan kapitalın və ümumi kapitalın həcmindən, eləcə də mənfəətin dövriyyəsindən asılıdır. Sahibkarlıq fəaliyyətinin səmərəliliyinin iqtisadi göstəriciləri içərisində rentabellik göstəricisi xüsusi rol oynayır. Əgər mənfəət biznesin mütləq qazanclığını əks etdirirsə, rentabellik nisbi qazanclığı göstərir və mənfəətin müəyyən bazaya nisbəti ilə ifadə edilir. Biznes o halda səmərəli sayılır ki, məhsulun satışından əldə edilən mədaxil məhsulun istehsalı və satışı xərclərini ödəməklə bərabər, müəyyən mənfəəti də təmin etsin. Beləliklə rentabellik biznesin səmərəliliyini səciyyələndirir, biznesin kapitalı artırmaq qabiliyyəti haqqında təsəvvür yaradır [2].

Hər bir sahibkar biznesin iqtisadi təhlükəsizliyini təmin etmək istəyirsə o iqtisadi təhlükəsizliyin göstəricilərini müəyyən etməli və vaxtında onun qarşısını almalıdır. Bunun ən yaxşı yolu rüblük və aylıq hesabatlar əsasında biznesin fəaliyyətini yoxlamaq və təhlükənin dərəcəsini müəyyən etməkdir. Biznesin iqtisadi fəaliyyətinin qısamüddətli təhlili onun vəziyyətinin zəif və güclü cəhətlərini aşkar etməyə imkan verir. Bu zaman açıq illik hesabatlar istifadə edilməlidir.

İndi isə müəssisələrdə maliyyə təhlükəsizliyinə baxaq.

Müəssisələrdə maliyyə təhlükəsizliyinin bir sıra daxili və xarici amilləri var: Xarici amillərə bunlar daxildir:

1. Əlverişsiz makroiqtisadi şərtlər, ölkə və regionda ümumi iqtisadi vəziyyət.
2. Dövlətin ixtisaslaşmamış maliyyə siyasəti.
3. Normativ-hüquqi bazanın və iqtisadi böhranların dayanıqlılıq səviyyəsi.
4. Mərkəzi Bank tərəfindən sıxışdırılmalar.
5. İnfilyasiya səviyyəsi və inflyasional gözləntilər.
6. Sağlam vergi siyasətinin olmaması.
7. İqtisadiyyatın real sektorunun kreditləşmə şərtləri və investisiya fəallığının səviyyəsi.
8. Əlverişsiz kriminogen vəziyyət və s.

Daxili amillərə isə bunlar daxildir:

1. İxtisaslaşmamış idarəetmə forması, bankın strateji planlaşdırılmasında və proqnozlaşdırılmasında qeyri-peşəkarlıq.
2. Müəssisənin iqtisadi normativlərinin yerinə yetirilməməsinin nəticəsi olaraq likvid aktivlərin çatışmazlığı.
3. İxtisaslaşdırılmış kadrların olması.
4. Verilmiş kreditlərin vaxtında və tam olaraq geri ödənməməsi, yüksək riskli kredit siyasəti.
5. Biznes fəaliyyətində haqsız rəqabət və rəqiblərin mənfi təsiri.

Maliyyə təhlükəsizliyinin təmin edilməsi digər təhlükəsizlik amilərinin də təmin edilməsinə zəmin yaradır. Biznesin maliyyə təhlükəsizliyi təşkilati, idarəetmə, texniki və profilaktik tədbirlərin sistemli bir şəkildə təmin edilməsindən ibarətdir ki, bu tədbirlər müəssisələrin hüquq və maraqlarının qorunmasına, nizamnamə kapitalının artırılmasına, aktiv likvidliyin artmasına, verilmiş kreditlərin geri ödənmə təminatına, maliyyə və maddi qiymətlilərin qorunmasına zəmanət verir.

Biznesin maliyyə təhlükəsizliyi aşağıdakılarla müəyyən edilir:

- investisiya layihələrinin maliyyələşdirilməsi üçün zəruri vasitələrin defisitinin səviyyəsi ilə;
- müəssisənin maliyyə durumunun sabitliyi və sarsılmazlığı ilə;
- maliyyə axınlarının və haqq-hesab münasibətlərinin normallaşması;
- maliyyə əməkdaşları ilə münasibətlərin sabitliyi;
- səhmdarların maraqlarının təhlükəsizlik dərəcəsi;
- müəssisənin investisiya və innovasiya fəaliyyətinin aktivləşməsi üçün maliyyə şəraitlərinin təminatı.

İqtisadi böhran şəraitində biznes fəaliyyətinin maliyyə-iqtisadi təhlükəsizliyini idarə etməsinin strategiyası aşağıdakıları özündə ehtiva etməlidir:

- böhran vəziyyətlərinin diaqnostikası;
- obyektiv və subyektiv neqativ təsirlərin bölünməsi;
- iqtisadi təhlükəsizliyin təhdidlərinin qarşısının alınması üzrə tədbirlər siyahısının müəyyən edilməsi;
- neqativ təsirlərin neytrallaşdırılması nöqteyi-nəzərindən planlaşdırılan tədbirlərin səmərəliliyinin qiymətləndirilməsi;

- iqtisadi təhlükəsizliyin təhdidlərinin aradan qaldırılması üzrə təklif edilən tədbirlərin dəyərinin qiymətləndirilməsi.

Mövcud bazar iqtisadiyyatı şəraitində biznesin iqtisadi təhlükəsizliyini xarakterizə edən göstəricilərdən biri onun ödəmə qabiliyyətidir. Ödəmə qabiliyyəti dedikdə müəssisənin möhlətli öhdəlikləri üzrə tədiyyələrin vaxtında ödənilməsi qabiliyyəti başa düşülür. Ödəmə qabiliyyəti müəssisələrdə istehsal planlarının yerinə yetirilməsinə müsbət təsir göstərir və istehsalı lazımi resurslarla təmin edir. Buna görə də ödəmə qabiliyyəti təsərrüfat fəaliyyətinin maliyyə resursları ilə təmin edilməsində onun mühüm tərkib hissəsi kimi çıxış edir. Bundan başqa, ödəmə qabiliyyəti hesablama intizamı yaratmaqla, xüsusi və borc kapitalı arasında səmərəli mühitin formalaşmasına və onun effektli istifadəsinə şərait yaradır. Bazar iqtisadiyyatı şəraitində müflisləşmənin qarşısını almaq üçün müəssisə öz maliyyə resurslarının idarə edilməsini, nizamnamə kapitalının strukturunu və yaranma mənbələrini, o cümlədən xüsusi və borc kapitalının tərkibini bilməlidir. Mövcud bazar iqtisadiyyatı şəraitində ödəmə qabiliyyətinin təhlilinin əsas məqsədi təsərrüfat subyektinin maliyyə fəaliyyətində olan çatışmazlıqların aradan qaldırılması və ödəmə qabiliyyətinin yaxşılaşdırılması üçün maliyyə ehtiyatının yaradılmasıdır [3].

Mülkiyyət formasından asılı olmayaraq ödəmə qabiliyyəti nəinki müəssisə təsisçilərinin, eyni zamanda xarici sərmayədarların, bankların, qarşılıqlı əlaqədə olan kənar müəssisələrin marağını təmin edən problemlərdən biridir. Bu, onları maliyyə resurslarının səmərəli istifadəsində, bank öhdəlikələrinin və kreditlərin yerinə yetirilməsini qiymətləndirdikdə, risklərin dərəcəsini müəyyənləşdirdikdə, vergi orqanları ilə büdcəyə daxilolmaları həyata keçirdikdə və s. daha çox maraqlandırır. Ödəmə qabiliyyətinin təhlilinin daxili və xarici növləri fərqləndirilir. Daxili təhlil müəssisənin daxili istifadəçiləri tərəfindən həyata keçirilir və bu təhlilin nəticələri müəssisənin planlaşdırma, proqnozlaşdırma və nəzarətinin həyata keçirilməsində istifadə edilir. Təhlilin bu növünün həyata keçirilməsinin əsas məqsədi müəssisənin pul vəsaitlərinin və maliyyə resurslarının planlı şəkildə daxil olmasını həyata keçirmək, bunun nəticəsində müəssisənin normal fəaliyyətinə şərait yaratmaq və son nəticədə isə təsərrüfat subyektinin maksimum mənfəətli işləməsinə şərait yaratmaq, əks təqdirdə onun müflisləşmə ehtimalını azaltmaqdır.

**Ədəbiyyat**


1. Abbasov A.B., Abbasov S.A. Maliyyə biznesi. Bakı, İqtisad Universitetinin nəşriyyatı, 2014, 356 s.
2. Həsənov R.T. İqtisadi siyasət: metodologiya və praktika. Bakı, İqtisad Universitetinin nəşriyyatı, 2009, 282 s.
3. Hüseynov T.Ə. Firmanın iqtisadiyyatı. Bakı, Azərnəşr, 2009, 600 s.
4. Yaroçkin İ. V, Buzanova V. Y .Biznesin və sahibkarlığın təhlükəsizliyinin əsasları. Bakı, 2008, 174 səh.



**Резюме**

***Залов З.М.***

**Показатели и факторы финансовой безопасности бизнеса**

*В статье рассмотрена одна из важнейших составных частей экономической безопасности бизнеса-финансовая безопасность. Рассмотрены основные показатели, а также внутренние и внешние факторы финансовой безопасности.*

***Ключевые слова:*** *бизнес, финансовая безопасность, прибыль, рентабельность, возможность погашения*

**Summary**

***Zalov Z.M.***

**Indicators and Factors of Financial Security of Business**

*In the article, one of the most important components of business economic security of business is financial security. The main indicators, as well as internal and external factors of financial security are considered.*

***Key words:*** *business, financial security, internal and external factors, profit, profitability, repayment*

# РАЗВИТИЕ ЭКОНОМИЧЕСКОГО АНАЛИЗА КАК ЭЛЕМЕНТ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

***Иванова В.Б., Рахматуллин Ю.Я.***
*Башкирский государственный университет*

**Резюме**

*В статье раскрывается сущность финансово - экономического анализа. Исследуются его роль и место, особенности в истории Советского государства. Анализируется сравнение экономического анализа Советского периода и современности.*

***Ключевые слова**: экономический анализ, потребительская кооперация, комплексный анализ, анализ баланса и отчета, операционный и ситуационный анализ*

*«Точные науки называются точными не потому, что они достоверны, а потому, что в точных науках ученые знают меру неточности своих утверждений»*
(Любищев А.А.).

Экономический анализ играет важную роль в повышении экономической эффективности деятельности организаций, в укреплении их финансового состояния и является элементом экономической безопасности. Он представляет собой экономическую науку, которая изучает экономику организаций, их деятельность с точки зрения оценки их работы по выполнению бизнес-планов, оценки их имущественно-финансового состояния с целью выявления неиспользованных резервов повышения эффективности деятельности организаций.

Как научная система знаний, экономический анализ сформировался в условиях послереволюционного советского периода.

Строительство крупных предприятий, рост потребительской кооперации, расширение торговли, создание коллективных хозяйств на селе поставили перед учетом, контролем и экономическим анализом ряд принципиально новых задач, связанных с укреплением хозрасчета. Если до 30-х годов экономический анализ развивался как анализ баланса, то в 30-е годы намечается комплексное использование экономической информации для экономических разработок.

Экономический анализ в торговле развивался поначалу несколько быстрее, чем в промышленности. Этому способствовали использование опыта аналитических разработок, имевшихся в дореволюционной потребительской кооперации, наличие достаточно опытных кадров старых кооператоров, создание городских кооперативов и значительный их рост в сельской местности [2, 3, 4].

В 1930-1940 годы экономический анализ окончательно сформировался в качестве самостоятельной дисциплины высших учебных заведений, получившей название «Анализ хозяйственной деятельности», а позднее - «Теория экономического анализа хозяйственно-финансовой деятельности». Содержанием их, с одной стороны, стало стимулирование научных исследований и разработка учебников в этой области, с другой - подготовка высококвалифицированных специалистов, обеспечивающая внедрение научно- обоснованной методики анализа в практику.

В послевоенные годы в период с 1945 по 1953 года отмечается дальнейшее развитие экономического анализа, которое выразилось:

- во-первых, в дифференциации анализа по отраслям народного хозяйства;
- во-вторых, в углублении анализа деятельности внутренних подразделений хозрасчетных предприятий;
- в-третьих, в разработке методик анализа сводных отчетов;
- в-четвертых, в монографическом исследовании основных проблем экономического анализа и, наконец, в использовании методологии и методики экономического анализа за пределами нашей страны.

Расширенное воспроизводство в военный период осуществлялось за счет внутренних накоплений, повышения производительности труда, мобилизации внутрипроизводственных резервов, снижения себестоимости.

Посильный вклад в дело победы в Великой Отечественной войне внесли и работники экономической службы. Всеобщий принцип: больше высококачественной продукции с наименьшими затратами, приобрел во время войны особое значение. Наркомфин, а также отраслевые наркоматы издавали переработанные в соответствии с требованиями военного времени Указания по анализу

балансов и отчетов. К годовому отчету за 1945 год прикладывались и акты о списании раздельно основных средств и товарно-материальных ценностей. Анализ годовых отчетов предусматривал тогда не только изучение хозяйственной деятельности, но и оценку материальных потерь, причиненных войной [1, 5, 6].

Достаточно активно происходила дифференциация экономического анализа в сфере товарного обращения. Существовал анализ собственно торговых предприятий, реализующих товары народного потребления, и анализ предприятий и организаций материально-технического снабжения, реализующих средства производства. Анализ торговых предприятий государственной торговли отделился от анализа предприятий потребительской кооперации, так как последние являются многоотраслевыми хозяйственными образованиями, охватывающими торговлю, заготовки, производство, транспорт, рыболовный промысел и т.п. Выделился анализ продажи аптечных товаров, обособился анализ хозяйственной деятельности внешнеторговых объединений [7, 8, 14].

На современном этапе развития экономики с 1989 года перед анализом хозяйственной деятельности как наукой ставятся новые задачи, определяются новые направления развития, осуществляется управленческий учет, финансовый, налоговый учет, аудит, сметное планирование и другие виды учета и анализа. Рыночная экономика характеризируется коммерческой деятельностью предприятий и постоянно изменяющимися условиями внешней среды.

Особая роль принадлежит операционному, или ситуационному, анализу. Его сущность заключается в комплексности изучаемых вопросов, что позволяет по состоянию на определенную дату оценить характер изменений на рынке, позитивные и негативные результаты финансовой деятельности, своевременно сформулировать рекомендации и выводы для разработки тактики маркетинга и текущих планов предприятия. При этом значительно повышаются требования к информационному обеспечению, большинство которых приобрело коммерческую тайну [9, 10, 12].

В то же время расширились методы экономического анализа, стали создаваться автоматизированные рабочие места, применяться экономико-математические способы, компьютерные программы, экспертные оценки, в том числе с привлечением потребителей и внешних аналитиков.

В наибольшей степени экономический анализ приобрел актуальность для товаропроизводителей. Многообразие форм собственности, далеко не одинаковые размеры предприятий, коммерциализации производства, привели к расширению исследований сфер деятельности, оценки условий и факторов производства. В условиях рынка добавились новые факторы, игнорирование которых приводило к банкротству предприятий [11, 13].

Таким образом, экономический анализ в условиях кризиса рынка - сложная система изучения экономических явлений, находящихся в постоянном изменении, во взаимосвязи и взаимозависимости с комплексом внешних и внутренних условий бизнес-среды, нередко непредсказуемых по направлению и степени их влияния на результат и на экономическую безопасность предприятия.

**Литература**

1. Баканов М. И. Теория экономического анализа. Учебное пособие / М.И. Баканов, А.Д. Шеремет. М.: финансы и статистика, 2012, 264 с.

2. Вильданова Л.И., Сандакова И.Е., Гильмутдинова Р.А. Продовольственный рынок в условиях экономических санкций. В сборнике: Проблемы и перспективы развития регионов и предприятий в условиях глобализации экономики. Российский экономический университет имени Г.В. Плеханова, Уфимский институт (филиал) Дрезденский технический университет, Словацкий технологический университет, Институт экономики УрО РАН. 2014, с. 183-189.

3. Рахматуллин Ю.Я. Экономический анализ финансовых результатов от продажи продукции на примере сельскохозяйственных организаций [Текст]: монография / Ю.Я. Рахматуллин. СПб: Свое издательство, 2016, 163 с.

4. Рахматуллин Ю.Я. Теоретические и практические аспекты учета финансовых результатов от продаж на примере сельскохозяйственных организаций: монография. Уфа: РИЦ БашГУ, 2014, 152 с.

5. Рахматуллин Ю.Я. Анализ путей реализации продукции сельского хозяйства в Республике Башкортостан / Ю.Я. Рахматуллин // Вестник Башкирского государственного аграрного университета. 2013, № 3 (27), с. 146-149.

6. Рахматуллин Ю.Я. Анализ финансовых результатов от реализации сельскохозяйственной продукции / Ю.Я. Рахматуллин // Экономика сельского хозяйства России. 2016, № 12. с. 72-76.

7. Рахматуллин Ю.Я. Оптимизация доходов и расходов в бухгалтерском и налоговом учете от продаж в коммерческих организациях / Ю.Я. Рахматуллин // Известия Оренбургского государственного аграрного университета. 2014, № 2. с. 255-258.

8. Рахматуллин Ю.Я. Оценка резервов и прогнозирование окупаемости затрат в АПК [Текст] / Ю.Я. Рахматуллин // АПК: Экономика, управление. 2017, - № 2. с. 36-42.

9. Рахматуллин Ю.Я. Проблемы формирования прибылей и убытков в отечественной и зарубежной практике / Ю.Я. Рахматуллин // Известия Оренбургского государственного аграрного университета. 2013, № 3 (41), с. 204-206.

10. Рахматуллин Ю.Я. Пути совершенствования и проблемы формирования отчета о прибылях и убытках для организаций АПК / Ю.Я. Рахматуллин // Вестник Алтайского государственного аграрного университета. 2013, № 4 (102), с. 139-142.

11. Рахматуллин Ю.Я. Учет доходов, расходов и финансовых результатов по основным видам деятельности для предприятий АПК / Ю.Я. Рахматуллин // Известия Оренбургского государственного аграрного университета. 2013, № 4 (42), с. 183-186.

12. Савицкая Г. В. Экономический анализ / Г.В. Савицкая. М.: ИНФРА-М, 2013, 656 с.

13. Сосненко Л. С. Комплексный экономический анализ хозяйственной деятельности. Краткий курс / Л.С. Сосненко, Е.Н. Свиридова, И.Н. Кивелиус. М.: КноРус, 2013, 256 с.

14. Сурков И. М. Экономический анализ деятельности сельскохозяйственных организаций / И.М. Сурков. М.: Колос, 2012, 240 с.

**Summary**

***Ivanova V.B., Rakhmatullin Y.Y.***

**Development of Economic Analysis as an Element of Economic Safety**

*The article reveals the essence of financial and economic analysis. Its role and place, peculiarities in the history of the Soviet state, are examined. Comparison of economic analysis of the Soviet period and modernity are analyzed.*

***Key words****: economic analysis, consumer cooperation, complex analysis, balance and report analysis, operational and situational analysis.*

## ИЗМЕНЕНИЕ НАЛОГОВОГО ЗАКОНОДАТЕЛЬСТВА, КАК ОДИН ИЗ ФАКТОРОВ УКРЕПЛЕНИЯ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ РФ

***Климова А. Д.***

*Финансовый университет при Правительстве РФ*

***Ахтамова Г.А.***

*ФБГОУ ВО «Уфимский государственный нефтяной технический университет»*

**Резюме**

*В статье рассмотрены особенности бухгалтерского и налогового учета черных и цветных металлов в 2018 году. Предложена возможность использования схемы вывода НДС из бюджета с помощью изменения налогового законодательства. Также приведен порядок документального оформления и бухгалтерского учета реализации лома и отходов черных и цветных металлов на примере компании.*

*Ключевые слова: бухгалтерский учет, налогообложение, налог на добавленную стоимость, бюджет, сертификат качества*

Изменения налогового законодательства требуют уточнения порядка ведения бухгалтерского учета фактов хозяйственной жизни, так как налогоплательщики определяют налоговую базу в конце каждого налогового периода из данных регистров бухгалтерского учета, а также на основе бухгалтерских справки первичных учетных документов, подтверждающих данные об объектах налогообложения. Вести бухгалтерский учет и составлять бухгалтерскую отчетность обязаны экономические субъекты независимо от применяемого ими режима налогообложения.

До01.01.2018 г. реализация лома и отходов черных и цветных металлов на внутреннем рынке не подлежала обложению НДС согласно пп. 25.п. 2 ст.149 НК РФ. Как показала практика применения п п. 25. п. 2 ст.149 НК РФ, указанное обстоятельство давало возможность участникам рынка необоснованно возмещать НДС из бюджета на стадии переработки и реализации полученной продукции из лома и отходов черных и цветных металлов.[1]

Характеристика продукции, произведенной из лома и отходов черных и цветных металлов, определяется на основании сертификата качества. По существу сертификат качества –это документ, который сопровождает товар и подтверждает, что товар соответствует установленным критериям качества, отвечает определенным техническим характеристикам, удовлетворяет требованиям безопасности здоровья человека, его жизни и окружающей среды; должен отвечать требованиям действующих стандартов и нормативных документов. Принадлежность металлопродукции к тому или иному сплаву определяется на основании данных сертификата качества, содержащего достаточный перечень информации для подтверждения соответствия требованиям ГОСТ.

По налоговому законодательству реализация на экспорт сплава алюминиевого литейного дает экспортеру право на вычет из бюджета НДС, предъявленного российским поставщиком. Если же имеет место реализация на экспорт лома и отходов черных и цветных металлов, не облагаемых налогом на добавленную стоимость, исключается возможность возмещения сумм НДС из федерального бюджета, предъявленных поставщиками этих товаров.

Одна из важнейших характеристик финансового состояния предприятия – стабильность его деятельности в долгосрочной перспективе. Она связана с общей финансовой структурой предприятия, степенью его зависимости от кредиторов и инвесторов. Многие предприниматели предпочитают вкладывать в дело минимум собственных средств, а финансировать его в основном за счет денег, взятых в долг [1,6,10]. Показатели финансовой устойчивости характеризуют степень зависимости предприятия от внешних источников финансирования [3,9]. Однако если структура «собственный капитал – заемные средства» имеет значительный перекос в сторону долгов, предприятие может легко обанкротиться, если несколько кредиторов одновременно потребуют свои деньги обратно в одно и то же время.

Таким образом, составленный предварительный прогноз системы финансовой устойчивости поможет оптимизировать финансовую политику предприятия, и тем самым позволит снизить риски возникновения неблагоприятных результатов в процессе принятия управленческих решений и повысит экономическую безопасность предприятия в современных условиях.

**Литература**

1. Галиев Р.Р. Мировой опыт развития агропромышленного комплекса. Уфа, 2002, с.15-17

2. Галиев Р.Р. Продовольственная безопасность Башкортостана: проблемы и решения [Текст] / Р.Р. Галиев, И.М. Ханова, Ф.А. Курбангалеева // Проблемы прогнозирования. 2017, №2 (161), с. 36-52

3. Галиев Р.Р. Теоретико-методологические аспекты устойчивого развития сельских территорий [Текст] / Р.Р. Галиев // Проблемы функционирования и развития территориальных социально-экономических систем. Материалы VIII Всероссийской научно-практической internet-конференции. 2014, с. 24-26

4. Гусманов У.Г. Научно-обоснованное определение уровня затрат в принятии управленческих решений [Текст] / У.Г. Гусманов, И.М. Ханова // Никоновские чтения. 2016. №21, с. 272-274

5. Рахматуллин Ю.Я. Выявление резервов и прогноз окупаемости затрат в сельскохозяйственных организациях [Текст] / Ю.Я. Рахматуллин // Экономика сельского хозяйства России. 2016, № 11, с. 56-62

6. Рахматуллин Ю.Я. Динамика и развитие финансовых результатов от реализации продукции по отраслям производства в сельском хозяйстве [Текст] / Ю.Я. Рахматуллин // Вестник АПК Ставрополья. 2016, № 4, с. 348-351

7. Рахматуллин Ю.Я. Оценка резервов и прогнозирование окупаемости затрат в АПК [Текст] /

Ю.Я. Рахматуллин // АПК: Экономика, управление. 2017, № 2, с. 36-42
8. Сабирьянова Р.Г. Государственное регулирование внешнеторговой деятельности [Текст] / Р.Г. Сабирьянова Р.Г. // В сборнике: Актуальные проблемы социального, экономического и информационного развития современного общества Всероссийская научно-практическая конференция, посвящённая 100-летию со дня рождения первого ректора Башкирского государственного университета Чанбарисова Шайхуллы Хабибулловича. Башкирский государственный университет. 2016, с. 273-277
9. Сабирьянова Р.Г. Некоторые аспекты увеличения производства продовольствия отечественными производителями [Текст] / Р.Г. Сабирьянова, Т.П. Федотова // Евразийский юридический журнал. 2017, №4 (107), с. 316-317
10. Ханова И.М. Применение статистических методов в управлении затратами производства зерна [Текст] / Р.Р. Галиев // В сборнике: Перспективы инновационного развития АПК Материалы Международной научно-практической конференции в рамках XXIV Международной специализированной выставки "Агрокомплекс-2014". 2014, с. 242-246

**Summary**

***Khanova I.M., Gilmutdinova R.A.***

**Financial Forecasting as an Element of Risk Management in the Conditions of Ensuring Economic Safety of the Enterprise**

*We studied methods of financial forecasting, which can be used to predict the strategy of managerial decision-making. One of the methods of financial forecasting in modern conditions is the method of trend forecast calculations, which will allow to make timely decisions in terms of financial policy, and thereby ensure the economic security of the enterprise.*

***Key words:*** *economic security, financial resources, stability, forecast, risk*

## THE EXPERIENCE OF DEVELOPED FOREIGN COUNTRIES IN ORDER TO REGULATE THE FINANCIAL MARKETS IN AZERBAIJAN

***Jafarov J.F.***

*Azerbaijan State Agricultural University*

As the financial market of our republic has started to be formed in recent years, it is necessary to use the experience of foreign countries in the field of improvement of its activity. The main problems observed in the financial market as well as in other areas of the financial system are the lack of information base, low transparency, as well as insufficient number of investors, lack of financial literacy and interest of the population are considered in this field. To eliminate these problems, draft laws, state programs and various standards that are relevant to the experience of foreign countries have been developed by the relevant structures. In developing countries, by examining the mechanism of functioning of the financial market and its regulatory methods, we can apply and improve it in our country. [1]

It should be noted that most developed countries do not have specific laws regulating foreign investment (Great Britain (UK), Belgium, the Netherlands, Luxembourg, Italy, Africa etc.). However, these countries have separate notes regulating the legality of foreign investment in strategic areas (air and maritime transport, insurance and banking systems, aviation industry, etc.). In Great Britain there are restrictions on foreign investment for the aviation industry, aviation and maritime transport, film industry, television and radio industry. Satellite connection in the United States, the construction and operation of the Atomic Power Station and the investment of a foreign investor in television broadcasting are generally banned by federal law. [2] In Italy, a foreign investor must obtain special permission from relevant ministries to invest in publicly funded areas. Finland has been forbidden to invest foreign investment in the paper-pulp industry, nuclear power, agriculture and railway transport which are major importance to the country. Nevertheless, it is allowed to establish enterprises with the participation of 100% foreign capital in most developed countries (Belgium, Great Britain, Switzerland, the USA, AFR, Italy, Austria and others). These businesses are mainly created in areas that are not of strategic importance to those countries.

Any country with a market economy tries to create the most favorable conditions for attracting foreign investment. Of course, these investments are monitored by allowing foreign investment to be permitted by relevant government agencies. In England, such permit is issued by the Bank of England. There is a more sharp permission system in France. In this country, a foreign investor declares the economy, finance and budget ministries. This declaration is permitted for investment activity after verification. It should be noted that, while issuing such permits in developed countries, the foreign investor does not face any obstacles,

bureaucratic hassles or procrastination. Basically these permits are formal. This approach in regulation of the financial market activity is considered to be an integral part of the state's financial policy.[3]

The United States has a special place among countries that are liberal towards foreign investment. Foreign investors are not required to register and obtain permission in this country. The process of assisting only stockholders is very complicated registration procedure. The most liberal legislation is available in Delaware. At present, the most favorable, liberal regime for foreign capital is available in Germany and Luxembourg. In these countries, import and export of capital is carried out without any special permission, restrictions.

In some countries, they create a favorable regime for foreign investment. For example, Portugal has created a preferential regime in all priority areas. Municipalities in this country create specific areas called "industrial areas". There is a pre-installed production infrastructure and foreign investors are using this infrastructure on concessional basis.

Tax legislation is one of the most important factors affecting the country's investment. The tax laws of the countries of the world are significantly different from each other. Thus, foreign companies are mainly subject to income tax, capital increase tax, VAT. Profit tax is different in different countries; this tax rate is 25-35% in the UK, 30-39% in Belgium, 37% in Finland, 56% in Germany, and 35% in Japan and Spain. VAT is the main in indirect taxes. The average rate for this tax is 15% in the UK, 19% in Belgium, 18.6% in France and 19% in Italy. However, the number and degree of taxes applied to the activities of foreign companies in our country is not so different from the local companies. In some cases, some incentives may also be required to improve the investment climate and stimulate the financial market. Thus, according to the tax legislation of the Republic of Azerbaijan, 20% profit tax, 18% VAT is applied both to foreign and local companies. These are much lower rates compared to developed countries. [4]

In a number of countries, there are special regions where foreign companies operating they are subject to a preferential tax, or they are exempt from tax. For example, investing in Italy's backyard regions the foreign investor does not pay taxes for 10 years. Proactive tax regime is applied to enterprises created in France, called Private Entrepreneurship Zones (Dunkern, La Sot, La Sena). Businesses operating in these regions are exempt from taxes for the first 10 years. Countries that apply tax exemptions to foreign investors, as well as Liechtenstein, Bermuda, Normandies, Antilis Islands, etc. can be shown as an example.

Most countries have already adopted the benefits of creating favorable investment climate and simultaneously promoting the financial market stimulus. Over the last few decades free economic zones have been widely used to create favorable conditions for both domestic and foreign investors. The Free Economic Zone is a phenomenon involving individuals engaged in entrepreneurial activity in a limited area, tax, currency, social and customs privileges. That is, there is a complex system of privileges here that attracts a foreign investor. [5]

**List of literature**


1. www.maliyye.gov.az – Maliyyə Nazirliyinin rəsmi saytı
2. Wolters Kluwer, "The US Foreign Investment in Real Property Tax ACT: A Practical Guide", 2017 (p.176)
3. World Bank Publications, Attracting Foreign Direct Investment into Infrastructure: Why is it So Difficult? (Occasional Paper), 2011 (p.71-74)
4. Azərbaycan Respublikası Vergi Məcəlləsi. Bakı, 2015
5. www.cbar.az – AR Mərkəzi Bankının rəsmi saytı


**Xülasə**


***Cəfərov C.F.***

*Azərbaycan Dövlət Aqrar Universiteti*


**Azərbaycanda maliyyə bazarlarının tənzimlənməsində inkişaf etmiş xarici ölkələrin təcrübəsi**


*Artıq bir neçə ildir ki, Azərbaycan iqtisadiyyatı yeni iqtisadi sistemə transformasiya etmişdir. Azərbaycanda sərt mərkəzləşdirilmiş planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid ölkədə maliyyə bazarının, eləcə də ümumilikdə maliyyə sisteminin yenidən qurulmasını tələb edirdi. Lakin bu məsələ çox qəliz və irimiqyaslı idi. Uzun illər Azərbaycanda nəinki maliyyə bazarı, həmçinin onun heç bir strukturu; kommersiya və investisiya bankları, birjalar, sığorta təşkilatları və s. fəaliyyət göstərməmişdir. Buna baxmayaraq, uğurlu iqtisadi siyasətin nəticəsi olaraq maliyyə sisteminin formalaşması və təkmilləşməsinə nail olunmuşdur ki, təbii olaraq bu inkişaf maliyyə bazarının inkişafına da təsirsiz ötüşməmişdir.*



***Açar sözlər:*** *maliyyə bazarı, maliyyə sistemi, xarici investisiya, investisiya mühiti, azad iqtisadi zona.*

## Резюме

***Джафаров Д.Ф.***
*Азербайджанский государственный аграрный университет*

**Использование опыта развитых зарубежных стран при регулировании финансовых рынков Азербайджана**

*В современный период Азербайджанская экономика полностью трансформировалась в новую экономическую систему. Переход от жесткой централизованной плановой экономики к рыночной системе требовал перестройки всей финансовый системы , в том числе и финансовых рынков. Но эта проблема была очень сложной и масштабной. Долгое время в Азербайджане отсутствовали не только финансовые рынки, но и его структурные звеня: коммерческие и инвестиционные банки, биржи, страховые организации и т.д. Несмотря на это, в результате реализованной удачной экономической политики в стране возникла новая финансовая система.*

***Ключевые слова:*** *финансовые рынки, финансовая система, иностранные инвестиции, инвестиционный климат, свободная экономическая зона.*

# IV BÖLMƏ

# BEYNƏLXALQ İQTİSADİ TƏHLÜKƏSİZLİK VƏ MİLLİ MARAQLAR

# IV СЕКЦИЯ

# МЕЖДУНАРОДНАЯ ЭКОНОМИЧЕСКАЯ БЕЗОПАСНОСТЬ И НАЦИОНАЛЬНЫЕ ИНТЕРЕСЫ

# PART 4

# INTERNATIONAL ECONOMIC SECURITY AND NATIONAL INTERESTS

## AZƏRBAYCAN VƏ POLŞA RESPUBLİKALARININ İQTİSADİ MÜNASİBƏTLƏRİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

***Allahmanlı T.M.***
*Odlar Yurdu Universiteti*

***Açar sözlər:*** *Azərbaycan iqtisadiyyatı, Polşa iqtisadiyyatı, xarici iqtisadi əlaqələr, idxal, ixrac, geoiqtisadi münasibətlər*

Azərbaycan və Polşa Respublikalarının iqtisadiyyatının sahə quruluşunun, inkişaf xüsusiyyətlərinin, xarici əlaqələrinin tipoloji baxımdan təhlili özlüyündə geniş fakturaya, qarşılıqlı iqtisadi bağlantıların yeni istiqamətlərinin yaranmasına və perspektivliyinə imkanlar yaradır. Qloballaşmanın mahiyyətində duran əsas məsələ dünya evinin bütün müstəvidə vahid məcraya istiqamətlənməsi, sosial, iqtisadi, mədəni, siyasi sferada olanların ortaqlıq nöqtələrinin tapılmasıdır. Beynəlxalq iqtisadi əlaqələrin uğurluluğu timsalında respublikamızın iqtisadi strateji hədəflərinin sistemli şəkildə öyrənilməsi gələcəyə hesablanmış hadisədir.

**Məsələnin qoyuluşu.** Polşa Respublikası Mərkəzi Avropada olub bir sıra sahələrin üstünlükləri, məsələn, xidmət sahəsi, daxili bazarlarının imkanlığı, iqtisadi münasibətlərin əhəmiyyətliliyi ilə seçilir. Burada respublikanın coğrafi şəraitin uğurluluq əmsalı da mühüm önəm daşıyır. Qərbdə Almaniya, cənubda Çex və Slovakiya, şərqdə Ukrayna, Belarus, şimalda Baltik dənizi, Litva və Rusiya ilə həmsərhəd olması idxal, ixrac münasibətlərinin əhatəliliyinə əsas verir. Ölkənin Danimarka və İsveçlə dəniz sərhədləri vardır ki, bu da xarici iqtisadi münasibətlərin qurulmasının münbitliliyini şərtləndirir.

Azərbaycanın ümumi coğrafi şəraitinə, yerləşmə arealının xüsusiyyətlərinə diqqət yetirdikdə uğurluluq baxımından ciddi bir mənzərə yaranır. Cənubi Qafqazda, Xəzər dənizi hövzəsində yerləşən dövlət kimi bərpa olunmayan resursların zənginliyi ilə seçilir. Onun iqtisadi imkanlılığı, geoiqtisadi şərait üçün əlverişli səciyyə daşıması, tranzit ölkə kimi Şərq, Qərb, Şimal, Cənub üçün böyük marağa səbəb olması mühüm önəm daşıyır. Azərbaycan ilə Polşanın iqtisadi müstəvidə əlaqələrinin təhlili siyasi və mədəni əlaqələrin də tarixini aydınlaşdırmağı zəruriləşdirir.

XIX əsrin əvvəllərindən başlayaraq Polşanın elm, mədəniyyət adamlarının, yaradıcı mühitin, coğrafiyaçıların Qafqaza, eləcə də onun bir hissəsi olan Azərbaycana marağı həmişə artan istiqamətdə getmişdir. Bunu memarlıq abidələri, Polşa etnoqparlarının, arxeoloqlarının, tarixçilərinin, ədəbiyyatşünas və

musiqiçilərinin dedikləri də tam aydınlıqla göstərir. Məsələn: Polşa şərqşünası Y.Sepkovskinin tərcümələri, B.Romanoviç Bakı və onun memarlığı haqqında məqalələri (1825), "Koroğlu" dastanının kitab kimi ilk nəşri (1842, A.Xodzkonun) və s. bu bağlantıların, Azərbaycana marağın göstəricisidir.

Azərbaycanın Xəzər hövzəsi ölkəsi kimi iqtisadi potensialının Mərkəzi Avropanın digər bir ölkəsi, Polşa ilə əlaqələrinin geoiqtisadi münasibətlər səviyyəsində təhlili müasir şəraitdə qloballaşmanın genetikasını, onun daxili texnoloji sferasında baş verənləri, hansı məzmunla səciyyələndiyini aydınlaşdırmağa şərait yaradır. İqlim şəraitinin eyniyyətində, lakin fərqli-fərqli siyasi sistemlərin əhatəsində beynəlxalq iqtisadi münasibətlər səviyyəsində məsələnin araşdırılması bütünlükdə dünya iqtisadi sferasındakıların təmas nöqtələrini, iqtisadi proseslərin inkişaf texnologiyalarını aydınlaşdırmağı, perspektiv dünya hədəflərini diqiqləşdirməyi bir zərurətə çevirir. Məlum olduğu kimi, "iqtisadi diplomatik fəaliyyətin tənzimlənməsində mühüm prinsiplərdən biri də təbii ehtiyatlar və iqtisadi fəaliyyət üzərində dövlət suverenliyinin təmin olunmasıdır... Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində xüsusi çəkisi olan prinsiplərdən biri də iqtisadi əməkdaşlıq prinsipidir" **(3, 92-93).** Ona görə də beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində iqtisadi əməkdaşlıq prinsipinin müəyyənləşdirilməsi və qoyuluşu ciddi olan məsələdir.

Polşa sənayesi əsaslı müxtəlifliklərlə səciyyələnir. Gəmi istehsalı, meşə sahələri, tekstil, kimya, metal sənayesi, alüminium, neft məhsulları başlıca istiqamətlər kimi uğurlu inkişafla xarakterizə olunur. Dada çox isə mədənçilik və mədən sənayesi ilə xarici bazarda təmsil olunur. Onu da əlavə edək ki, Polşa Almaniya və İngiltərədən sonra Avropanın ən çox kömür istehsal edən ölkəsidir. Duz, dəmir, manqan və s.yeraltı sərvətləri sırasında xüsusi çəkiyə malikdir. Son dövrlərdə ən çox uğur qazanan sahələrdən diri kağız sənayesinin inkişafıdır.

Həm Polşa, həm də Azərbaycan cəmiyyətin və iqtisadiyyatın liberallaşdırılmasında xeyli müvəffəqiyyətli addımlar atmışdır. Ölkənin bu istiqamətdə həyata keçirdiyi sistemli münasibət konsepsiyası müxtəlif sahələrin uğurlar qazanmasına əsas olmuşdur. İqtisadi proseslərin uğurluluğu üçün elmi ədəbiyyatda istənilən ölkə üçün liberallaşdırma, sabitləşdirmə, özəlləşdirmə, iqtisadi institutların formalaşdırılması, iqtisadiyyatın strukturunun yenidən qurulması kimi ciddi istiqamətlər vurğulanır. Ümumiyyətlə, iqtissadiyyatın transformasiyasını üç istiqamətdə qruplaşdırırlar:

"-cəmiyyətin və iqtisadiyyatın liberallaşdırılmasının əsası kimi gəlirlərin formalaşdırılmasına sistemli münasibət;

-bazar iqtisadiyyatının bazisi kimi kapitalların yaranmasına və fəaliyyətinə münasibətin sistemli surətdə yenidən qurulması;

İdarəetmənin, iqtisadiyyatın – institutsional strukturuna, bazar tələblərinə uyğun yenidən qurulması" **(2, 598).**

Beynəlxalq iqtisadi münasibətlər səviyyəsində Azərbaycan ilə Polşa arasında bağlanan sazişlər, müqavilələr, perspektiv layihələr, ölkə prezidenti səviyyəsində imzalanan sənədlər məhz bu uğurlu başlanğıcın, güzəştli münasibətlərin, qarşılıqlı yararlanmanın nəticəsidir. Dünyanın müasir iqtisadi mənzərəsində gedən proseslər, geoiqtisadi məkanların formalaşması və yeni məzmun, mahiyyətlə görünüşü, heç şübhəsiz bu proseslərdə iştirakı və ayaqlaşmanı zəruri edir.

XVIII əsrin sonu XIX əsrin əvvəllərində yaşamış ingilis iqtisadçısı D. Rikardo vurğulayırdı ki, "xarici ticarət, bir ölkə üçün olduqca faydalı olmasına baxmayaraq, gələcəkdə gəlir əldə edə biləcəyi obyektlərin məbləğini və müxtəlifliyini artırır və malların bolluq və ucuzluğu, səmərənin qənaət edilməsi və səmərəliliyinin təşviqi ilə təmin edir" **(4, 89).**

Əkinçilik məhsulları baxımından geniş imkanlara malik olan Polşa kartof, tütün, kətan, çovdar, arpa, buğda, yulaf üçün xeyli üstünlüklərə malikdir. Heyvandarlıq sahəsində mal və qoyunçuluq təsərrüfatı geniş inkişaf etmişdir. Balıqçılıq sənayesində də ciddi nailiyyətlər vardır. Əhalinin 30%-i əkinçilik və heyvandarlıqla məşğul olur.

Son dövrlərin statistik göstəricilərinə diqqət yetirdikdə məlum olur ki, Polşanın sənayesi yüksək göstəricilərlə səciyyələnir və müxtəlifliklərlə maraq doğurur. Yüngül və ağır sənaye, kimya sənayesi, gəmi istehsalı, metal avtomobil, təyyarə, maşın, sement, alüminium başlıca sənaye aspektləridi. Son zamanlarda taxta-şalban və kağız sənayeləri, tekstil, meşə məhsulları da ölkənin iqtisadi həyatında xüsusi rola malikdir. Mədənçilik və mədən sənayesi olduqca inkişaf etmişdir. Bunların ən əhəmiyyətliləri kömür, sink və misdir.

Aydınlıq üçün Polşada istehsal olunan malların bir hissəsinə diqqət yetirək; bunlar elektronika, vertolyot və təyyarə (PZL Swidnik, PZL Mielec), gəmi (Gdansk Shipyard, Szczecin Shipyard, Gdynia Polşa Dəniz Tersanesi), avtobus və tramvay (Solaris, Solbus), hərbi avadanlıqlar (FB "Lucznik" Radom, Bumar-Labedy SA), kimyəvi məhsullar, dərmanlar (Polpharma, Polfa), şüşə dulusçuluq (Boleslawiec), ərzaq (Tymbark, Hortex, E.Wedel), geyim (LLP) və s. Onu da əlavə edək ki, Polşa dünyanın ən böyük mis, gümüş, kömür istehsalçılarındandır.

Azərbaycan Xəzər hövzəsi dövlətlər sırasında əsaslı imkanlılıqla təmsil olunur. Zəngin karbohidrat yataqları, neft strategiyası, qeyri-neft sektorunda gedən inkişaf tendensiyası bir bütöv olaraq bizə əsas verir ki, bunların iqtisadi uğurluluq əmsalından istifadə etməklə, ölkənin dinamik inkişafını, davamlılıq sistemini yaradaq. Azərbaycanın, Qazaxsıstanın və Türkmənistanın malik olduğu enerji ehtiyatları güclü rəqabətlilik zəminində yeni bazarların və yeni iqtisadi münasibətlərin gərəkliliyini əsas edir və regionu iqtisadi maraqların cəmləşdiyi nöqtəyə çevirir. Rusiyanın, ABŞ-ın, Avropa irtifaqı ölkələrinin, İranın mövqe üstünlüyü müstəvisində yeritdiyi iqtisadi siyasət eyni zamanda Azərbaycan üçün perspektivlər vəd edir.

Azərbaycan neft ölkəsi olaraq böyük perspektivlər vəd edir və onun karbohidrat potensialı bundan birgə yararlanmanı bir zərurət kimi ortaya qoyur. Bütün bunlardan yüksək səviyyədə istifadə etməklə Azərbaycan qeyri neft sahəsində aparılan işlərin daha da yaxşılaşdırılması təmin etməyə çalışır. Polşanın iqtisadi göstəricilərində gəmi istehsalı, meşə sahələri, tekstil, kimya, metal sənayesi, alüminium, neft məhsulları, mədənçilik və mədən sənayesi kömür istehsal, duz, dəmir, manqan və s. mühüm yer tutur. Xidmət sahələrində olan göstəricilər mühüm tərəf kimi önəm daşıyır. Ona görə də həm Polşa, həm də Azərbaycan idxal və ixrac proseslərinin tənzimlənməsi və qarşılıqlı faydalanma üçün xüsusi çəkiyə malikdir. A.Smit vurğulayırdı ki, "bütün müxtəlif əmanətlər üzrə, adi dərəcə nisbəti, gəlirlərin müəyyənlik və ya qeyri-müəyyənliyi ilə daha az və ya çox dəyişir. Bunlar daxili ticarətdə və xarici ticarətdə bəzi sahələrdə başqalarına nisbətən daha az qeyri-müəyyəndir". **(5, 91).**

**Nəticə.** Azərbaycan və Polşa Respublikalarının iqtisadiyyatının Qərb və Şərq iqtisadi sistemləri üzrə geniş müstəvidə təhlili, eləcə də bərpə olunan və olunmayan iqtisadi göstəricilərinin xüsusiyyəti ilə araşdırılması perspektiv imkanlar yaradır və respublikamızın iqtisadi potensialının daha da güclənməsi haqqında müsbət təsəvvür formalaşdırır. Çünki bu ölkələrin iqtisadiyyatının inkişaf xüsusiyyətləri, sahə quruluşu, xarici iqtisadi əlaqələri iqtisadi münasibətlərin düzgünlüyünü düşünməyə əsas verir. Bütün bunlar problemin köklü şəkildə izlənməsini və sistemli araşdırmaları zəruri edir.

### Ədəbiyyat


1. Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.
2. İqtisadi nəzəriyyə. Dərslik. Bakı, Çaşıoğlu, 2001, 691 s.
3. Məhərrəmov A.M. İqtisadi diplomatiya. Bakı, Adventa MMC, 2013, 386 s.
4. Rikardo D. On the prinsiplen of political economy and taxation. Canada, Ontario, Kitchener, 2001, 333 p.
5. Smith A. An inquiry into the nature and causes of the wealth of nations. USA, New York, Metalibri, 2007, 754 p.


### Резюме


***Аллахманлы Т.М.***

*Университет Одлар Юрду*


**Особенности развития экономических отношений Азербайджана и Польши**


*Анализ международных экономической отношений между Азербайджанской Республикой и Польской Республикой дает существенный материал для разъяснения общего содержания того, что произошло в социальной, экономической, культурной и политической сферах, а также перспективы связей в глобализирующемся мире. Из-за богатых углеводородных месторождений Азербайджана, нефтяных ресурсов, а также других альтернативных отраслей экономики и т. д. с точки зрения серьезных связей.*



***Ключевые слова:*** *экономика Азербайджана, Польская экономика, внешнеэкономические связи, импорт, экспорт, геоэкономические отношения и т. д.*


### Summary


***Allahmanli T.M.***

*Odlar Yurdu University*


**Development Features of Economic Relations of Azerbaijan and Poland**


*The analysis of the international economic relations between the Republic of Azerbaijan and the Polish Republic provides a substantive material for clarifying the general content of what has happened in the social, economic, cultural and political spheres, and the prospects of connections in a globalizing world. Because of Azerbaijan's rich hydrocarbon deposits, oil resources, as well as other alternative fields of economy, etc. in terms of serious links.*



**Key words:** *Azerbaijan's economy, Polish economy, foreign economic relations, import, export, geo-economic relations*

**BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRDƏ VALYUTA MƏZƏNNƏSİNİN DƏYİŞMƏSİNİN İQTİSADİ NƏTİCƏLƏRİ**

**_Aslanov H.H._**
*Bakı Dövlət Universiteti*

***Açar sözlər:*** *dünya, beynəlxalq ticarət, idxal, ixrac, valyuta, bazar, əmtəə*

Beynəlxalq iqtisadi münasibətlərin əsasını valyuta münasibətləri təşkil edir. O, iqtisadi əlaqələrin beynəlmiləlləşməsi əsasında meydana gəlmiş və valyutanın fəaliyyəti ilə əlaqədar iqtisadi münasibətlərin məcmusu kimi yaranmışdır. Ölkənin iqtisadi strukturunun formalaşmasında və xarici əlaqələrin xarakterində valyuta siyasəti mühüm rol oynayır. Müasir şəraitdə ayrı-ayrı milli iqtisadiyyatlar arasında qarşılıqlı asılılığın artması ilə əlaqədar olaraq, valyuta məzənnəsi milli iqtisadiyyatın inkişafının zəruri amilinə çevrilmiş, onun iqtisadi potensialını, əmək məhsuldarlığını müəyyən dərəcədə əks etdirməklə, istehsala güclü təsir göstərir.

Dünyada siyasi istiqlaliyyət əldə etmiş dövlətlər ölkə daxilində fəaliyyət göstərən milli pul vahidinə malikdirlər. Ölkələrin beynəlxalq iqtisadi əlaqələrində isə ən azı iki müxtəlif pul vahidi iştirak edir. Ona görə də ölkədə iki fərqli qiymət özünü göstərir: xarici ticarətlə əlaqədar olan mal və xidmətlərin xarici valyuta ilə qiyməti və daxili pul vahidi ilə ifadə olunan qiyməti.

Beynəlxalq ticarətdə bir tərəfdə ölkə vətəndaşı olan alıcı , digər tərəfdə isə başqa ölkə vətəndaşı olan satıcı durur. Burada daxili ticarətdən fərqli olaraq, iki fərqli milli pul vahidi iştirak edir. Beynəlxalq kapital hərəkəti və xidmət idxal-ixracı da eyni qəbildən olan əməliyyatlardır. Onların birgə araşdırılması valyuta münasibətləri sistemində valyutanın məzənnəsinin öyrənilməsini zəruri edir.

Bu əməliyyatların həyata keçirilməsi üçün bir ölkənin pul vahidi digər ölkənin pul vahidinə dəyişdirilməlidir. Bu dəyişdirilmə əməliyyatında bir "nisbət" və ya "qiymət" olmalıdır ki bu da valyuta məzənnəsini əmələ gətirir. Valyuta məzənnəsi iki ölkə valyutası arasında dəyişmə nisbətidir. Başqa sözlə, valyuta məzənnəsi hər hansı bir xarici valyutanın milli pul vahidi ilə qiymətidir. Valyuta məzənnəsi spesifik xarakterə malik pul kateqoriyasıdır və milli iqtisadiyyatla dünya iqtisadiyyatı arasındakı qarşılıqlı əlaqəni ifadə edir [1,s.69]. Əgər hər hansı bir valyutanın əsas xarakteristikası milli təsərrüfat çərçivəsində formalaşırsa, onun miqdar ölçüsü dünya bazarında beynəlxalq iqtisadi əməliyyatlar prosesində müəyyən edilir.

Valyuta məzənnəsi beynəlxalq tədavül sferasının elementlərindən biridir. Ona görə də beynəlxalq əmtəə-pul münasibətləri sisteminin bütün həlqələri beynəlxalq müdafiə prosesində formalaşan dəyər nisbətləri ilə sıx əlaqədardır [2,s.145].

Beynəlxalq iqtisadi əlaqələr həyata keçirilərkən iki növ qiymətlər (daxili və xarici) müqayisə edilir.

Birincisi, malların müxtəlif milli dəyərləri əsasında formalaşır, ikincisi, onların beynəlxalq dəyərləri əsasında yaranır. Ayrı-ayrı ölkələrin malları beynəlxalq dövriyyəyə daxil olduqda sanki öz üzərindən qiymətləri atır və əksər hallarda dünya bazarı qiymətləri ilə satılır.

Ona görə də beynəlxalq mübadilə genişləndikcə malların milli dəyərlərinin onların beynəlxalq səviyyəsi ilə müqayisə edilməsinə bir o qədər çox ehtiyac yaranır. Pulun əmtəə dəyərlərinin bilavasitə ölçüsü kimi çıxış etdiyi milli bazarlardan fərqli olaraq, beynəlxalq mübadilə prosesində müxtəlif ölkələrdə formalaşan qiymətlər milli pul vahidlərinin nisbəti kimi özünü göstərir. Beləliklə, valyuta məzənnəsi milli əmtəə dəyərlərinin ölçüsü rolunu bilavasitə deyil, dolayı şəkildə - milli pul vahidlərinin müqayisə olunması vasitəsi ilə oynayır. Lakin ayrı-ayrı əmtəələrin qiymətləri öz dəyərindən müxtəlif şəkildə kənarlaşdığı üçün valyuta məzənnəsi müxtəlif milli valyutaların alıcılıq qabiliyyətinin nisbətini ölçür, yəni müxtəlif ölkələrdə qiymətlərin orta nisbətini ifadə edir. Valyuta məzənnəsində müxtəlif milli təsərrüfatlar arasındakı dəyər münasibətləri ifadə olunur. O, Müxtəlif ölkələrdə baş verən iqtisadi proseslərin müəyyən mənada ölçü vahididir. Valyuta məzənnəsinin göstərilən rolu beynəlxalq mübadilənin özünün həyata keçirilməsini mümkün edir, çünki beynəlxalq hesablaşmalar aparılarkən dəyər meyarının mövcudluğunu təmin edir, xarici iqtisadi əlaqələrin səmərəliliyinin ölçülməsinə imkan verir.

Dünya bazarının milli təsərrüfatların normal fəaliyyəti üçün zəruri şərtə çevrilməsi ilə valyuta məzənnəsi artıq müxtəlif ölkələrin xarici ticarət bölməsində formalaşan qiymətlər arasında yalnız əlaqələndirici halqa kimi çıxış etmir, o həm də bütünlükdə ictimai istehsal məsrəflərinin ölçüsü rolunu oynayır. Axırıncı vəziyyət milli geniş təkrar istehsal proseslərinin sıx qarşılıqlı əlaqədə olması zəruriliyindən doğur.

Müasir dövrdə ayrı-ayrı milli iqtisadiyyatlar arasında qarşılıqlı asılılığın artması və beynəlxalq dövriyyədə qızıla dəyişdirilməyən kredit pullarının tətbiq olunması nəticəsində valyuta məzənnəsi ayrı-ayrı milli iqtisadiyyatların inkişafının zahiri təzahürünə çevrilir, onun yeni əmək məhsuldarlığı şəraitində iqtisadi potensialını müəyyən dərəcədə əks etdirir. Valyuta məzənnəsi özünün belə bir rolu ilə istehsal sferasına

güclü əks-təsir göstərir. Bu cəhət Yamayka valyuta sistemi tətbiq olunduqdan sonra özünü aydın şəkildə göstərməyə başlamışdır.

Dünya bazarı şəraitində valyuta məzənnəsi müxtəlif miqdarda milli əməyi vahid ekvivalentə-beynəlmiləl ictimai zəruri əmək sərfinə bərabərləşdirir. Bunun nəticəsində valyuta məzənnəsi ümumi ictimai məhsul və milli gəlirin iqtisadi bölmə vasitəsilə ölkələr arasında yenidən bölgüsünə bilavasitə təsir göstərir. Milli dəyərlərin, onların beynəlmiləl səviyyəsinə bərabərləşdirilməsi ayrı-ayrı ölkələrin xarici iqtisadi fəaliyyətdən müxtəlif nəticələr əldə etməsinə səbəb olur. Belə ki, ölkə iqtisadiyyatının öz əsas ticarət tərəfdaşlarının müvafiq göstəricilərindən geri qalması eyni zamanda müəyyən miqdarda idxal olunan malın əvəzində dünya bazarına daha çox milli dəyərlər çıxarmasını tələb edir.

Valyuta məzənnəsi ayrı-ayrı ölkə daxilində gəlirlərin bölgüsünə də ciddi təsir göstərir. Məlum olduğu kimi, valyuta məzənnəsi ayrı-ayrı milli təsərrüfatlarda, həm istehsalın orta şərtini (orta ictimai zəruri iş vaxtını), həm də daxili və dünya qiymətlərinin orta nisbətini ifadə edir. Ona görə də ölkədəki orta səviyyəyə nisbətən əmək məhsuldarlığı yüksək olan ayrı-ayrı təsərrüfat vahidləri xarici iqtisadi fəaliyyətdən əlavə mənfəət əldə edirlər və əksinə.

Milli və dünya bazarının dəyər göstəriciləri arasında əlaqə yaradan bir alət rolunu oynayan valyuta məzənnəsi beynəlxalq iqtisadi münasibətlərdə və geniş təkrar istehsalında fəal iştirak edir. Təşəbbüsçü iş adamı valyuta məzənnəsindən istifadə edərək öz istehsal xərclərini dünya bazarı qiymətlərilə müqayisə edir. Bu ayrı-ayrı müəssisələrə və bütövlükdə ölkələrə imkan verir ki, xarici iqtisadi əməliyyatların nəticələrini müəyyən etsinlər. Mal dünya bazarında satıldıqda milli əməyin məhsulu beynəlmiləl dəyər ölçüsü əsasında ümumi etiraf olunur. Dünya valyuta bazarında isə valyutanın beynəlmiləl dəyər pariteti aşkara çıxır. Bu ölkənin dünya ticarətində xüsusi çəkisi nəzərə alınmaqla valyutaların məzənnə nisbəti əsasında səmərəli valyuta məzənnəsi hesablanır. Valyuta məzənnəsi idxal və ixrac qiymətləri nisbətinə, firmaların rəqabət qabiliyyətinə, müəssisələrin mənfəətinə müəyyən təsir göstərir.

Valyuta bazarları siyasi və iqtisadi hadisələrin gedişinə qarşı son dərəcədə həssasdırlar. Ölkənin xarici gəlir və xərclərinə bilavasitə və dolayı şəkildə təsir göstərən hər hansı bir hadisə, dəyişiklik və inkişaf dərhal valyuta bazarında öz əksini tapır və valyuta məzənnəsinin dəyişməsinə səbəb olur. Valyuta məzənnəsi bir sıra amillərdən asılıdır.

Müxtəlif ölkələrdə baş verən daxili qarşılıqlı, hərbi müdaxilələr, müharibə ehtimalları və yaxud həlledici bir dövlət adamının ölümü və bu kimi digər hadisələrin yaratdığı inamsızlıq şəraiti valyuta bazarına yaxından təsir göstərir. Belə hallarda yerli sərvət və yığım sahibləri əllərindəki ehtiyatları valyutaya çevirib xaricə çıxarmağa çalışırlar. Siyasi hadisələrin iqtisadi siyasətə təsir edə bilmək ehtimalı (məsələn, milliləşdirmə təhlükəsi və s.) möhtəkir axınların sürətlənməsinə səbəb ola bilər. Belə hallarda möhtəkir xarakterli əməliyyatlardan doğan axınlar, yəni zəif bir valyutadan kütləvi surətdə sabit valyutaya qaçmaq valyuta məzənnəsinə çox ciddi təsir göstərir. Bundan başqa, faiz dərəcələrinin daxili və xarici səviyyəsindəki dəyişikliklər də ölkəyə kapital axınını sürətləndirir. Bütün bunlar isə valyuta məzənnəsinə ciddi təsir göstərir [3,s.145].

İndi valyuta məzənnəsinin qeyri-sabitliyinin beynəlxalq iqtisadi münasibətlərə təsirini nəzərdən keçirək. Hər şeydən əvvəl belə bir suala cavab verək: Valyuta məzənnəsi mexanizmi ixrac və idxalın fiziki həcminə necə təsir göstərir? Təxmini sxem aşağıdakı kimidir. Valyuta məzənnəsinin aşağı düşməsi onu göstərir ki, xarici valyutaya çevrilərkən müəyyən məbləğ milli valyuta indi əvvəlkinə nisbətən az miqdar xarici valyutanı ifadə edir və əksinə, hər vahid xarici valyutaya daha çox yerli valyuta əldə etmək olar. Bu halda xarici ixracatçı öz valyutasında əvvəlki məbləği əldə etmək üçün malın bu ölkə valyutası ilə ixrac qiymətini artırmağa məcbur olur. Bu, ixraca gedən malın bütün istehsal xərclərinin ödənilməsi və müəyyən mənfəət əldə edilməsi zəruriliyi ilə əlaqədardır. Lakin ixrac qiymətlərinin belə qaldırılması həmin malın ixrac miqdarının azalmasına səbəb olur. Çünki bir tərəfdən, həmin yerli istehsalçıları arasında rəqabət artır, digər tərəfdən isə, yerli əvəzedici malların istehlakına keçirməsi ehtimalı yaranır. Eyni zamanda ixrac qiymətlərinin lazımi qədər artırıla bilməməsi həmin malın bu ölkəyə satılmasını qeyri –rentabelli edir.

Milli valyutanın ucuzlaşması eyni zamanda idxalı bahalaşdırır ki, bu da ölkədə qiymətlərin artmasını, mal ixracının və istehlakının azalmasını, yaxud idxalı əvəz edən sahələrin inkişafını stimullaşdırır. Valyuta məzənnəsinin aşağı düşməsi milli valyuta ilə borcların real məbləğini azaldır, xarici valyutada ifadə olunmuş xarici borcların yükünü ağırlaşdırır. Ölkədə mənfəət, faiz, dividend şəklində xarici investorların gəlirinin xaricə aparılmasını əlverişsiz edir [4,s.275].

Eyni zamanda valyutası ucuzlaşan ölkədə ixracın artmasına stimul çoxalır. Çünki xaricdə mal satışından əldə edilmiş eyni miqdar xarici ödəmə vasitələri dəyişdirilərkən, indi xarici valyuta ilə ifadə olunmuş daha çox məbləğ əldə etmək mümkündür. Beləliklə, ixracatçılar öz valyutaları qiymətdən düşdükdən sonra malları xaricdə rəqabət qabiliyyətli dünya qiymətləri ilə valyutada lazım olan mənfəəti əldə edirlər. Valyuta bahalaşdıqda əks-məzənnə yaranır.

Valyuta məzənnəsi yüksəldikdə daxili qiymətlərin rəqabət gücü azalır, ixracın səmərəliliyi azalır. Bunlar isə ixrac sahələri və milli istehsalın bütövlükdə azalmasına gətirib çıxara bilər. İdxal isə, əksinə, genişlənir. Ölkəyə xarici və milli kapitalın axını təşviq edilir, xarici investisiyalar üzrə mənfəətin xaricə aparılması artır. Xarici valyuta ilə ifadə olunmuş xarici borcların real məbləği azalır [5,s.267].

Valyutanın xarici və daxili ucuzlaşması, yəni onun məzənnəsi ilə alıcılıq qabiliyyəti arasındakı fərq beynəlxalq iqtisadi münasibətlər üçün mühüm əhəmiyyətə malikdir. Əgər pulun daxili inflyasiya xarakterli qiymətdən düşməsi valyuta məzənnəsinin azalmasından sürətlidirsə, valyutanın xarici alıcılıq qabiliyyəti onun daxili alıcılıq qabiliyyətindən sürətlə aşağı düşürsə, xarici rəqiblərin bazardan sıxışdırılıb çıxarılması məqsədilə valyuta dempinqi, yəni malların orta dünya qiymətindən ucuz qiymətlərlə ixracı üçün şərait yaranır. Valyuta dempinqi üçün aşağıdakılar xarakterikdir:

1. İxracatçı, malları inflyasiyanın təsiri ilə daxili bazarda yüksəlmiş qiymətlərlə satın alaraq onun xarici bazarda daha sabit valyuta ilə orta dünya qiymətlərindən daha aşağı qiymətlərlə satır.

2. İxrac qiymətlərinin azalma mənbəyi əldə edilmiş daha sabit xarici valyutanın ucuzlaşmış milli valyutaya çevrilməsi zamanı meydana çıxan fərqdir.

3. Malların kütləvi ixracı ixracatçılar üçün ifrat mənfəəti təmin edir. Dempinq qiyməti istehsal qiymətindən və ya dəyərindən aşağı da ola bilər. Lakin ixracatçılar üçün həddən artıq azaldılmış qiymət əlverişli deyildir, çünki malların xarici rəqiblərə təkrar ixracı nəticəsində milli mallara rəqabət çoxala bilər.

4. Məlumdur ki, valyuta dempinqi ölkələr arasında ziddiyyətləri artırır. Onların ənənəvi əlaqələrinə xələl gətirir, rəqabət mübarizəsini kəskinləşdirir. Valyuta dempinqini həyata keçirən ölkədə ixracatçıların mənfəəti artır, lakin daxili qiymətlərin artması nəticəsində əhalinin rifah səviyyəsi pisləşir. Dempinq obyekti olan ölkədə isə ucuz xarici malların rəqabətinə davam gətirməyən iqtisadiyyat sahələrində inkişafı zəifləyir, işsizlik çoxalır. İri ixracatçı firmalar valyuta dempinqindən rəqiblərini boğmaq üçün geniş istifadə etməyə çalışırlar. Ona görə də Tarif və Ticarət üzrə Baş Saziş (TTBS) Konfransı 1967-ci ildə dempinq əleyhinə məcəllə qəbul etdi. Məcəllə dempinq həyata keçirilərkən xüsusi cəza tədbirləri nəzərdə tutmuşdur. TTBS məcəlləsində nəzərdə tutulur ki, dempinqdən zərər çəkən dövlət müvafiq mal üzrə dempinq əleyhinə xüsusi idxal rüsumu tətbiq etsin. Bu rüsumun məbləği ixracatçı ölkənin daxili bazarındakı qiymətlərlə, həmin malların ixrac edildiyi qiymətlər arasındakı fərq qədər olmalıdır. Rəqabətqabiliyyətliliyinin qiymətlə deyil, keyfiyyətlə müəyyən edildiyi indiki şəraitdə xarici bazarların əldə edilməsi vasitəsi kimi dempinqin əhəmiyyəti azalır.

Beləliklə, valyuta məzənnəsinin dəyişməsi ümumi milli məhsulun xarici bazarlarda satılan hissəsinin ölkələr arasında yenidən bölüşdürülməsinə təsir edir. Üzən valyuta məzənnəsi şəraitində məzənnə nisbətinin qiymət mexanizminə və inflyasiya prosesinə təsiri artır. Hesablamalar göstərir ki, ixrac kvotası 25% olan ölkədə valyuta məzənnəsinin 20% aşağı düşməsi idxal olunan malların qiymətlərini 16% artırır. Bunun nəticəsində isə ölkədə qiymətlərin ümumi səviyyəsi 4-6% çoxalır.

Üzən valyuta məzənnəsi şəraitində onun dəyişməsinin kapital, xüsusən qısamüddətli kapital hərəkətinə təsiri güclənmişdir. Bu isə ayrı-ayrı dövlətlərin ümumi valyuta-iqtisadi vəziyyətinə təsir edir [6,s.87].

Valyuta məzənnəsi artan ölkədə möhtəkir xarici kapitalın axıb gəlməsi nəticəsində borc kapitalı və xarici investisiya məbləğləri müvəqqəti çoxala bilər ki, bu da ölkə iqtisadiyyatının inkişafı və büdcə kəsrlərinin ödənilməsi üçün istifadə edilə bilər. Kapitalın xaricə axması isə, onun çatışmazlığına, investisiyaların məhdudlaşmasına , işsizliyin artmasına səbəb ola bilər.

Valyuta məzənnəsinin qalxıb-enməsinin nəticələri ölkənin valyuta-iqtisadi potensialından, onun ixrac kvotasından, beynəlxaq iqtisadi münasibətlərdəki mövqeyindən asılıdır. Valyuta məzənnəsi ölkələr, milli ixracatçılar və idxalatçılar arsında mübarizə obyektinə çevrilmişdir. Ona görə də, valyuta məzənnəsi problemləri iqtisad elmində mühüm yer tutur.

**Ədəbiyyat**

1. Quliyeva M. Milli valyuta və onun dönərliliyi problemi. Bakı, 2003.

2. Vəliyev D. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı, 2008.

3. Vəliyev D. Qloballaşma şəraitində Azərbaycanın dünya maliyyə bazarlarına inteqrasiyası. Bakı, 2006, 239 s.

4. Məhərrəmov A., Aslanov H. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi. Bakı, 2008.

5. Rəhimov M. Beynəlxalq maliyyə. Bakı, 2000.

6. Sadıqov M., Babayeva E. Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi. Bakı, 2003.

**Резюме**

***Асланов Г.Г.***

**Экономические результаты изменения обменного курса в международных экономических отношениях**

*Основу международных экономических отношений составляют валютные отношения. Они сложились в процессе интернационализации мирового хозяйства и представляют его консолидированное выражение. Валютная политика оказывает сильнейшее воздействие на формирование структуры экономики стран мира и характеристику внешних экономических связей. Валютные отношения превратились в фактор экономического развития, экономического потенциала, производительности, отражая весь комплекс производственных возможностей стран.*

***Ключевые слова:*** *мировой, международная торговля, импорт, экспорт, валюта, рынок, товар*

**Summary**

***Aslanov H.H***

**Economic Outcomes of Exchange Rate Changes in International Economic Relations**

*Currency relations are the basis of international economic relations. They were formed in the process of internationalization of the world economy and are its consolidated expression. Monetary policy has the strongest impact on the structure of the world economy and characterization of Foreign Economic Relations. Currency relations have become a factor of economic development, economic capacity, performance, reflecting the whole complex production capabilities of countries.*

***Key words:*** *world, international trade, import, export, currency, market, commodity*

## ÖLKƏDƏ MƏNAFELƏRİN QORUNMASININ ƏSAS PRİNSİPLƏRİ

***Babayeva T.P.***

*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Məqalədə kompleks metodoloji əsasları nəzəri-iqtisadi təhlükəsizlik, keçid dövrü və onun milli xüsusiyyətlərinin iqtisadi inkişafi təmin edilmişdir. Burada milli iqtisadi maraqların qorunması prinsipləri, spesifik üsul və transformasiya prosesində makroiqtisadi sabitləşməsi və ətraflı tədqiqi göstərilmişdir.*

***Açar sözlər:*** *ölkə, iqtisadi təhlükəsizlik, kapital, xammal*

Dünya ölkələrində iqtisadi təhlükəsizliyin əsas parametrləri istehsalın dinamikası, dövlət büdcəsinin vəziyyəti və dövlət borclarının səviyyəsindən asılıdır. Belə ki, texnoloji, siyasi, ekoloji, hüquqi xarakterli təhdidlər ölkənin iqtisadi potensialının zəifləməsində heç də az əhəmiyyət kəsb etmir. Lakin iqtisadi təhlükəsizliyə qarşı olan hər hansı bir qorxu, təhdid maddi və maliyyə itkilərilə nəticələnə bilər ki, bu da ölkənin ödəmə balansında öz mənfi təsirini əks etdirir. Belə ki, iqtisadi təhlükəsizliklə bağlı böhrana səbəb olan daxili amillər sırasına kapitalın «axınının» dövlət tərəfindən tənzimlənməməsi; vergi və gömrük siyasətinin qeyri-təkmil olması, ölkə ərazisində mineral xammal emalının az olması, texnogen faciələr və qəzalar nəticəsində ölkə ərazisində hər il irimiqyaslı maddi itkilərin olması; «beyin axınının» davam etməsi və ölkənin elmi-texniki potensialının dağılması aid edilir.

Bütün bu amilləri aktiv və passiv təsiri olmaqla iki yerə bölmək olar. Belə ki, kapital axınının dövlət tərəfindən tənzimlənməməsi və qeyri-təkmil vergi və gömrük siyasətinin aparılması amilləri təhlükəsizliyə qarşı fəal təhdidlər hesab olunursa, dövlətin xarici borcları passiv amilləri sırasına aiddir. Respublika ərazisindən xarici fiziki və hüquqi şəxslərin pul vəsaitləri axınının tənzimlənməməsi bir çox səbəblərdən irəli gəlir [1]. Pul vəsaitlərinin əlverişli saxlanma şəraiti, səmərəli kretidləşmə və investisiya yatırma imkanları, inflyasiyadan qorunma, ölkədə siyasi stabilliyin olmaması, kapital sahibinin dövlətin siyasi kursuna qarşı inamsızlığı, həmçinin pul vəsaitlərinin qeyri-qanuni yollarla əldə edilməsi nəzərə alınmalıdır.

Qeyd etmək lazımdır ki, milli valyutanın kursu ölkənin iqtisadi vəziyyətinin əsas göstəricisi sayılır. Belə ki, iri miqyaslı maliyyə vəsaitlərinin axını milli iqtisadi təhlükəsizliyə qarşı yönələn ən ciddi çətinliklərdən biridir. Bundan əlavə, maliyyə vəsaitlərinin qanuni axınına kommersiya bankları tərəfindən iri pul məbləğlərinin xarici banklardakı hesablara köçürülməsini misal ola bilər. Ölkədən qeyri-qanuni yollara isə ixrac zamanı qiymətlərin aşağı düşməsi, idxal zamanı isə yüksəldilməsi aiddir .

Dünyanın bəzi ölkələrində bu sahədə qanunvericilik bazasının və pul axınının dövlət tərəfindən tənzimlənməsi mexanizmlərinin olmaması ölkənin illik büdcəsi ilə müqayisə olunmayacaq dərəcədə çox kapitalın axınına səbəb ola bilər.

Qeyd etmək lazımdır ki, ölkədən kapital axınının qarşısını almaq üçün ölkə ərazisində pul vəsaitlərindən normal istifadəni təşkil edən hüquqi, normativ şəraitinin olması vacibdir. Belə ki, vergi və bank güzəştlərinin tətbiqi mexanizmlərini işləyib-hazırlamaq lazımdır. Bu isə real sektora vəsaitlərin yönəldilməsinə də müsbət təsir göstərər.

Ölkədə texnogen faciələr və qəzalar təkcə genişmiqyaslı maddi itkilərlə deyil, eyni zamanda kütləvi şəkildə insan ölümünə səbəb olması baxımından iqtisadi təhlükəsizlik probleminin araşdırlmasında vacib hesab edilir.

Belə ki, mürəkkəb texniki sistemlərin istismarının təhlükəsizliyini təmin etmək, ağır maddi, iqtisadi, texniki və mənəvi itkilərin qarşısını almaq üçün bu məsələlərə diqqət artırılmalıdır:

1. Ölkədə potensial təhlükəli obyektlərə, texniki sistemlərə, istehsal proseslərinə kompleks nəzarət və yoxlama sistemlərinin işlənib-hazırlanması;

2. Ölkədə ixtisaslaşmış müxtəlif dövlət nəzarət xidməti orqanlarının mürəkkəb texniki sistemlərə, onların fəaliyyətinə qarşı vahid tələblər sisteminin işlənib həyata keçirilməsi;

3. Ölkənin bütün təsərrüfat-texniki obyektlərlə yanaşı, mürəkkəb texniki sistemlərin fəaliyyətinə vahid, mərkəzləşmiş dövlət nəzarətinin gücləndirilməsi;

4. Ölkədə geniş miqyaslı texnogen faciələrin və qəzaların baş verməsindən əvvəl ən vacib problemlərin aşkara çıxarılması, qəza vəziyyətinin nəzəri və təcrübi olaraq modelləşdirilməsini həyata keçirmək; dövlət orqanlarının xarici təşkilatlar və firmalarla genişmiqyaslı qəzalar zamanı, eləcə də bu qəzaların qarşısının alınması istiqamətində qarşılıqlı fəaliyyətin və əməkdaşlığın yaradılması, təcrübə mübadiləsinin həyata keçirilməsi olduqca vacibdir [2].

Ölkədə iqtisadi təhlükəsizlik nöqteyi-nəzərindən texnogen qəzaların qarşısının alınması bu sahədə ixtisaslaşmış dövlət nəzarəti orqanlarının idarəetmə strukturunun təkmilləşdirilməsi, hərbi sahədə, atom sənayesində, kimya istehsalında həyata keçirilən yoxlama-sınaqlar üçün hüquqi aktlar olmalıdır. Belə mürrəkəb texniki sistemlərə xidmət edən mütəxəssislərin attestasiya qaydalarının sərtləşdirilməsi vacibdir. Ölkə iqtisadiyyatı və əhalisi üçün potensial təhlükə mənbəyi olan texniki sistemlərin istismarı üzrə xüsusi qanunların işlənib-hazırlanması diqqətdə saxlanılmalıdır.

Xarici investisiyaların cəlbi mühüm rol oynayır. Belə ki, portfel investisiyalar likvidlik amili əsasında maksimal gəlir əldə etmənin qısa müddətli strategiya hesab edilir.

Tədqiqatlar göstərir ki, nizamnamə kapitalında transsəhmlərin həcmi 10-20% olduqda, bu portfel adlanır. Bu investisiyaların sahibləri idarəetmə qərarlarına təsir edə bilmirlər.

Ölkədə iqtisadi təhlükəsizliyin təmin olunmasının strateji məqsədləri ölkə vətəndaşlarının inkişafı və həyatları, yaşayışları üçün əlverişli şərait yaratmaq, cəmiyyətdə sosial-iqtisadi və hərbi-siyasi stabilliyi təmin etmək, dövlətin bütövlüyünü qorumaq vacibdir. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi sahəsində strategiyası yerli istehsalın, elmi-texniki potensialın səviyyəsinin qaldırılması, əhalinin həyat səviyyəsinin aşağı düşməsinə yol verməmək, əhali qrupları və əhali təbəqələri, arasında yarana biləcək münaqişələrin qarşısını almağa yönəlməlidir. Tətbiq edilən strategiya ilk növbədə qanunvericilik, icra və məhkəmə orqanlarının, ictimai və başqa təşkilatların, birliklərin yaratdıqları təhlükəsizlik sistemi vasitəsilə həyata keçirilməlidir.

Hal-hazırda iqtisadi təhlükəsizliyin təmin olunmasında dövlət strategiyası müəyyən məsələlərin həlli bir sıra tələblərin təmin olunması yolu ilə uğurla həyata keçrilir. Bunun üşün hökumətin, icra orqanlarının üzərinə düşən funksiyaları dəqiq müəyyənləşdirmək və dövlətin tənzimləyici funksiyalarının adekvat informasiya təminatı tələb olunur. Bu iqtisadi təhlükəsizliyin təmin olunması üzrə dövlətin fəaliyyətinin bir istiqamətidir və dövlət büdcəsinin, dövlətin sosial-iqtisadi inkişaf proqnozları layihələrinin işlənib hazırlanması prosesində həyata vəsiqə alır.

Təhlükəsizlik tədbirləri sırasına fəal struktur və sosial siyasətin həyata keçirilməsi, investisiya, maliyyə, pul-kredit və xarici iqtisadi sferada dövlətin fəallığının gücləndirilməsi, institutsional dəyişikliklərin davam etdirilməsi daxildir.

Belə ki, struktur siyasəti sahəsində mühüm məsələlərin həlli durur. Makroiqtisadi səviyyəyə bu məsələlər daxildir: 1) Məcmu tələbin yüksəldilməsi; 2) Yığım normalarının artırılması və əlverişli investisiya mühitinin formalaşması; 3) Maliyyə və istehsal resurslarının fəaliyyət göstərə bilməyən müəssisələrdən və sektorlardan daha səmərəli istehsal sahələrinə yönəlməsinin təmin edilməsi; 4) İxracın stimullaşdırılması və onun diversifikasiyası; 5) Ümumi qaydalar çərçivəsində yerli istehsalın qorunması məqsədilə idxalın tənzimlənməsi [3].

Respublikamızda dövlətin həyata keçirdiyi sosial siyasət ölkə vətəndaşlarının yüksək həyat səviyyəsi, sabit iqtisadi vəziyyətləri şəraitində cəmiyyətin inkişafına uyğun olmalıdır. Belə ki, əhalinin orta aylıq pul gəlirlərinin artması ilə müşahidə olunan müəyyən müsbət dəyişikliklər pul ödəmələrinin xeyli gecikdirilməsi, müxtəlif sosial-demoqrafik qrupların gəlirlərində diferensasiyanın çoxalması fonunda meydana çıxır.

**Ədəbiyyat**

1. Məmmədov N., Bərxudarov M. İqtisadi təhlükəsizlik. Ali məktəblər üçün dərslik. Bakı, İqtisad Universiteti, 2006, 452 s.
2. Sençakov Q. İqtisadi təhlükəsizlik. M.: 2010.
3. DGK-nın internet saytı.

**Резюме**

***Бабаева Т.П.***

**Основные принципы защиты интересов страны**

*В статье комплексно исследованы теоретико- методологические основы обеспечения экономической безопасности, ее национальные особенности и законамерности развития в переходном периоде. Здесь детально исследовано сушность, специфические способы и принципы защиты национальных экономических интересов в процессе трансформации и макрэкономической стабилизации.*

***Ключевые слова:*** *страны, экономическая безопасность, капитал, сырье*

**Summary**

***Babayeva T. P.***

**Basic Principles of Protection of the Interests in the Country**

*From this point of view research of theoretical and methodological aspects of maintenance of economic safety of the country and problems of protection and realization of national interests are very actual and have the practical importance. The essence, specific ways and principles of protection of national economic interests during transformation and macroeconomic stabilization are investigated in detail here.*

***Keywords:*** *country, economic security, the capital, raw materials*

## QİDA VƏ YEMLƏMƏ MƏHSULLARININ PRESLƏNMƏSİNİN NÖVLƏRİNİN TƏDQİQİ

***Bayramova A.H.***

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Xülasə**

*Qida sənayesində müxtəlif konstruksiyalı preslər istifadə olunur. Onları iki böyük qrupa ayırmaq olar: hidravliklər və mexaniklər. Həmçinin mexaniki basqıların müxtəlif növləri mövcuddur:Maili şnek tipli pres, şaquli şnek tipli pres. Onlardan hər biri daxili quruluş və iş prinsiplərinə görə fərqlənir.*

***Açar sözlər:*** *hidravlik,mexaniki, piston, şnek, ştutser.*

Qida sənayesində müxtəlif konstruksiyalı preslər istifadə olunur, bunları iki böyük qrupa ayırmaq olar: hidravlik və mexaniki.

Hidravlik pres. Onun əsas hissəsi səyyar lövhə ilə birləşdirilmiş daxilində sürgü qolunun hərəkət etdiyi işçi silindrdir. Sürgü qolu yüksək təzyiqli maye tərəfindən hərəkətə gətirilir. Preslənən material səyyar ilə sabit lövhələr arasında yerləşdirilir. (Şəkil 1)

Material üzərində pistonun yaratdığı təzyiq qüvvəsi onun sahəsi düz mütənasibdir

$$P = pF,$$

burada $p$ – hidrosistemdəki təzyiq, N/m$^2$; $F$ – pistonun sahəsi, m$^2$.



Şəkil.1. Hidravlik presin sxemi

Mexaniki preslər. Şəkər sənayesində cecənin suyunun çəkilməsi üçün bir və ya iki tərəfli sıxmaya malik maili, üfüqi və şaquli şnek tipli preslər istifadə olunur. İki tərəfli sıxma presləri daha səmərəlidir və cecəni daha aşağı son nəmə qədər sıxmağa imkan yaradır.

*Maili şnek tipli presdə* (şəkil. 2) cecə separatora daxil olur, burada su qismən çıxarılır, daha sonra isə cecə presə daxil olur, burada da onun əsas hissəsi sıxılır. Sıxılmış suyun bir hissəsi *5* silindrik ələkdən keçərək *9* ştutser vasitəsilə çıxaırlır, digər hissəsi isə - *3* ələyi vasitəsilə şnek valının oyuq hissəsinə daxil olur və *10* dəliyi ilə *9* ştutser vasitəsilə çıxarılır. Sıxılmış



Şəkil. 2 Maili şnek presinin sxemi:
*1*–separator; *2*–şnek valı; *3*–ələk; *4*–sıxıcı şnek; *5*–silindrik ələk; *6*–tənzimləyici qurğu; *7*–cecənin boşaldılması üçün dəlik; *8*–konusşəkilli ələk; *9*–ştutser; *10*–suyun çıxarılması üçün dəlik; *11*– əlavə süzmə səthi; *12*–suyun çəkilməsi üçün ştutser

cecə konusşəkilli ələk ilə sıxıcı şnek korpusu arasındakı halqaşəkilli dəliklər vasitəsilə boşaldılır. Onların ölçüsü cecənin presdə qalma müddətinə və suyun sıxılma dərəcəsinə təsir göstərir və *6* qurğusu vasitəsilə tənzimlənir.

Şaquli şnek tipli pres şəkil 3-də göstərilib. Onun əsas hissəsi – xüsusi traverslərdə quraşdırılmış oyuq şaquli şnekdir. Şnek örtüyünün əks tərəflərində şnek pərlərinin arasındakı aralara daxil olan və materialın onunla bərabər hərlənməsinə mane olan əks-pərlər var. Əks-pərlər boru ilə çəkilən buxarın keçdiyi dəliklərə malikdir.

Presdə sıxılmış suyun bir hissəsi silindrik ələyin dəlikləri, digər hissəsi isə şnekin oyuq valı vasitəsilə çıxarılır. *10* kanalı və *9* ştutseri vasitəsilə su presdən çıxarılır. Silindrik ələyin aşağı hissəsində *7* boltlar vasitəsilə qaldırıla və endirilə bilən səyyar konusşəkilli ələk yerləşir. Bu ələklər arasında dəliyin ölçüsünün dəyişdirilməsi ilə cecənin sıxılma səviyyəsi tənzimlənir. Konusşəkilli və silindrik ələklər arasında yaranmış dəlikdən çıxan preslənmiş cecə ərsinlər vasitəilə şnekdən boşaldılır.




Şəkil. 3. Şaquli şnek presinin sxemi
*1*–ötürücü dişli çarx; *2*–yükləmə qıfı;
*3*–şnek; *4*–sökülə bilən ələk; *5*–əks-pər;
*6*–konusşəkilli ələk; *7*–bolt; *8*–ərsin;
*9*–ştutser; *10*–kanal

**Ədəbiyyat**


1. Баканов В.Н., Менькин В.К. Кормление сельскохозяйственных животных. М.: Агропромиздат, 1989, 511с.

2. Fərzəliyev M.H Maşın və mexanizmlər nəzəriyyəsi. Bakı, ADİU nəşriyyatı, 2005.

3. Kərimov Z.H. Maşın hissələri. Bakı, 1999.

4. Груздев И.Э. Мирзоев Р.Г., Янков В.И. Теория шнековых устройств. Издательство Ленинградского университета, 1978г.


**Резюме**


***Байрамова А.Х.***

*Азербайджанский государственный экономический университет (UNEC)*


**Исследование видов прессования в пищевой и кормовой промышленности**


*В пищевой промышленности используются прессы различной конструкции. Их можно разделить на 2 большие группы: гидравлические и механические. Существуют также различные виды механических прессов: Наклонные шнековые прессы, вертикальные шнековые прессы. Каждый из них отличается по внутреннему строению и принципу работы.*



***Ключевые слова:*** *гидравлические, механические, поршневые, резьбовые, заикающиеся.*


**Summary**


***Bayramova A.H.***

*Azerbaijan State Economic University (UNEC)*


**Research of Pressed Types of Food and Feed Products**


*In the food industry, presses of various designs are used. They can be divided into 2 large groups: hydraulics and mechanics. There are also different types of mechanical presses: inclined screw presses, vertical screw presses. Each of them differs in its internal structure and work principle.*



***Key words:*** *hydraulic, mechanical, piston, threading, stuttering.*

# ETİBARLI ƏRZAQ TƏMİNATI DÖVLƏTİN İQTSADİ TƏHLÜKƏSİZLİYİNİN ƏSAS KOMPONENTLƏRİNDƏN BİRİ KİMİ

***Əhmədova F.M.***
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Xülasə**

*Məqalədə dövlətin iqtisadi təhlükəsizliyinin tərkib hissəsi kimi ərzaq təhlükəsizliyinin təmin olunmasında gömrük rüsumlarından istifadənin zəruriliyi əsaslandırılmış, müasir rəqabət şəraitində respublikada gömrük-tarif siyasətinin formalaşması xüsusiyyətləri tədqiq edilmişdir. İqtisadiyyatın rəqabətqabiliyyətliliyinin təmin olunmasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsinin təkmilləşdirilməsi yolları təklif edilmiş və Azərbaycanın gömrük-tarif siyasətinin təkmilləşdirilməsi istiqamətləri verilmişdir.*

***Açar sözlər:*** *ərzaq təhlükəsizliyi, rəqabətqabiliyyətlilik, xarici iqtisadi fəaliyyət, gömrük-tarif siyasəti, gömrük rüsumları*

Son illər ərzində qlobal maliyyə böhranının daha da dərinləşməsi, enerji daşıyıcılarının qiymətlərində baş verən bahalaşma, eləcə də əhali sayının sürətlə artması və s. kimi amillər əsas ərzaq məhsullarının qıtlığına və beynəlxalq bazarda qiymətlərin artmına səbəb olmuşdur. Ərzaq qıtlığı problemi dünya ölkələri arasında real təhlükə potensialını tədricən ortaya qoymuş və ərzaq resurslarının azalması müşahidə edilmişdir. Etibarlı ərzaq təminatı isə hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlığının başlıca şərti, dövlətin iqtisadi təhlükəsizliyinin əsas komponentlərindəndir.

Kənd təsərrüfatını iqlim dəyişikliklərinə adaptasiya etmək qlobal ərzaq təhlükəsizliyinin təmin olunması və ekosistemi qorumaq baxımından vacib olmaqla yanaşı, həm də xeyli xərc tələb edir. Bütün bu faktlar onu göstərir ki, hazırda ərzaq təhlükəsizliyi probleminin səmərəli həlli dünyada gedən sürətli qloballaşma prosesi fonunda ən mühüm məsələlərdəndir.

İqtisadi ədəbiyyatda qeyd olunduğu kimi, əslində ərzaq təhlükəsizliyi və rəqabət üstünlüyünə malik sahələrin inkişafı bir medalın iki üzüdür [1, s. 217]. Doğrudan da, bir halda ki, ərzaq təhlükəsizliyi milli səviyyədə bütün ərzaq malları ilə tam təminatı öz üzərinə götürürsə, rəqabət üstünlüyü nəzəriyyəsi də öz növbəsində ölkənin yalnız rəqabət üstünlüyünə malik olduğu sahələrin inkişafını əsas götürür.

Ölkə Prezidenti İ. Əliyevin 2008-ci il 25 avqust tarixli sərəncamı ilə «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»nda əkinəyararlı torpaq sahələrindən səmərəli istifadə olunması, bitkiçiliyin, xüsusən taxılçılığın, meyvəçiliyin, tərəvəzçiliyin, üzümçülüyün, heyvandarlığın, o cümlədən ət və süd məhsulları istehsalının artırılması nəzərdə tutulmuşdur. Bu tədbirlərin vaxtında və uğurla həyata keçirilməsi ölkədə ərzaq məhsullarının istehsalında artıma və hər bir ölkə vətəndaşının keyfiyyətli və təhlükəsiz ərzaq məhsullarına tələbatının tam ödənilməsinə şərait yaratmışdır.

Ölkə Prezidentin ayrı-ayrı dövrlərdə qəbul etdiyi regional dövlət proqramlarında ərzaq təhlükəsizliyi ən vacib sırada dayanır. Dövlət başçısının "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda ərzaq təhlükəsizliyi məsələsinə geniş yer ayırması, tapşırıq və tövsiyələrini verməsi idxaldan asılılığı azaldacaq, ixrac potensialını daha da genişləndirəcək.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülən tədbirlər nə qədər çox olsa da, bir sıra problemlər hələ də öz həllini tapmamışdır.

1. Hazırda respublikamızın gömrük orqanları fiskal siyasəti həyata keçirməklə dövlət büdcəsi gəlirlərinin beşdə bir hissəsindən çoxunu təmin edir. Onlar daxili bazarı və bütövlükdə dövlətin iqtisadi maraqlarını qorumaq üçün gömrük-tarif tənzimlənməsi tədbirlərini və gömrük işi sahəsində valyuta nəzarətini həyata keçirirlər. Təhlil göstərir ki, son illər ərzində idxalın əmtəə strukturunu səmərələşdirmək, ixracı stimullaşdırmaq, daxili istehsala şərait yaratmaq istiqamətində xeyli işlər görülmüşdür ki, bu da ölkə iqtisadiyyatını xarici rəqabətin mənfi təsirindən qorumaq üçün mühüm əhəmiyyət kəsb edir. Belə ki, 2010-2017-cü illərdə ərzaq məhsullarının ümumi idxalda xüsusi çəkisi xeyli azalaraq 10-15 faiz civarında təşkil etmişdir. Bu isə onunla izah olunur ki, əhalinin ət və ət məhsullarına, konserv məmulatlarına, mineral sulara, tütün və tütün məmulatlarına, spirtli içkilər, toyuq əti və yumurtaya, habelə bir sıra digər mallara tələbatının əsas hissəsi daxili istehsal hesabına ödənilir. Onu da qeyd edək ki, qeyd edilən dövrdə idxalda maşın və elektrik aparatları, avadanlıqlar və onların ehtiyat hissələrinin həcmi 3 dəfədən çox artmaqla, ümumi idxalın 25,8%-ni təşkil etmişdir. Fikrimizcə, idxal üçün respublikadan kənara aparılan ümumi miqdarda vəsaiti daxildə həmin malların istehsalına yönəltmək və bu işdə gömrük-tarif tənzimlənməsinin bütün imkanlarından istifadə etmək lazımdır.

2. Hazırda Azərbaycanda istehsal olunan məhsulların dünyanın əksər ölkələrinə ixrac edilməsi onu deməyə əsas verir ki, Azərbaycanda dünya standartlarına uyğun, yüksək keyfiyyətli məhsul istehsal edən müəssisələr mövcuddur və onların sayı davamlı olaraq artır. Bu, eyni zamanda dövlətin iqtisadi siyasətinin

prioritetlərindəndir. Keyfiyyət respublika üçün əhəmiyyətli göstəricidir. Çünki istehsal olunan məhsulların yüksək keyfiyyətli olması həmin məhsulların ixrac bazarlarında rəqabət qabiliyyətini artırdığı kimi, istehlakçılarımızın da keyfiyyətli məhsul istehlak etmək hüququnun təmin olunması deməkdir.Ona görə də, daxili bazarın haqsız rəqabətdən qorunması, idxal malların müvafiq keyfiyyət standartlarına uyğunluğuna nəzarətin gücləndirilməsi və istehlakçılarımızın hüquqlarının təmin edilməsi məqsədilə Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyəti daha da genişləndirilməlidir. İxrac bazarlarında rəqabətqabiliyyətlilik baxımından qablaşdırma, etiketləmə də böyük əhəmiyyətə malikdir və xüsusi diqqət mərkəzində saxlanılmalıdır.

3. "Azərbaycan Respublikasının 2014-cü il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası "nda göstərildiyi kimi dünyada gedən qloballaşma prosesi şəraitində ölkənin iqtisadi təhlükəsizliyinin və daxili bazarın qorunmasında, ölkə iqtisadiyyatının dünya iqtisadi məkanına inteqrasiya olunmasında gömrük siyasətinin rolu əhəmiyyətli dərəcədə artır. Ölkənin ildən-ilə idxal-ixrac əməliyyatlarının həcminin artması və Azərbaycanın beynəlxalq iqtisadi sistemə inteqrasiyasının dərinləşməsi çevik gömrük siyasətinin aparılmasını zəruri edir [2, s.46].

4. Respublikamızın iqtisadi maraqlarını qorumaq üçün idxal olunan mallara müvafiq surətdə xüsusi, antidempinq və kompensasiya rüsumları tətbiq oluna bilər [3, s.4]. Qanunvericiliklə etil spirtinə, alkoqollu içkilərə (pivədən başqa), tütün məmulatlarına kvotalar müəyyən edilmişdir. Onu da qeyd edək ki, ölkənin metallurgiya müəssisələrinin xammal bazasının gücləndirilməsi və onların səmərəli inkişafına nail olmaq məqsədilə respublika prezidentinin 17 aprel 2001-ci il tarixli Fərmanı ilə qara və əlvan metal qırıntılarının və tullantılarının ixracına qadağa qoyulmuşdur.

5. Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv olmasına hazırlıq prosesi ilə əlaqədar olaraq ölkədə xüsusi qrup fəaliyyət göstərir. Ölkəmizin bu nüfuzlu quruma daxil olması üçün istehsalın stimullaşdırılması və rəqabət qabiliyyətli məhsulların istehsalı məqsədəuyğun hesab edilir. Mütəxəssislərin fikrincə, əgər yerli iş adamları yüngül, yeyinti və emal sənayesində hazır məhsulların istehsalına keçsələr, yəni xammal son məhsul halına göstərilib dünya bazarına çıxarılsa, Azərbaycan ÜTT-yə hazır ölkə kimi girmiş olacaq [4, s.135]. Odur ki, Avropa ölkələri ilə sıx ticarət əlaqələri qurarkən ilk növbədə yerli istehsalın rəqabət qabiliyyətinin gücləndirilməsinə çalışılmalıdır.

6. Həm fritreder, həm də proteksionist nəzəriyyənin istifadə ideyasına tənqidi yanaşmaq lazımdır. Onların müdafiəsinin hansısa bir istiqamətə yönəldilməsi dağıdıcı nəticələrə səbəb ola bilər. Müasir dünya təsərrüfatı dayanıqlı iqtisadiyyatın və müqayisəli üstünlüyün vahidliyinin ümumi qanununa əsaslanır. Odur ki, xarici iqtisadi siyasətin aparılmasında milli iqtisadiyyatın inkişafı və dünya iqtisadiyyatına inteqrasiyası vasitəsi kimi ixraca yönüm istiqamətini və idxalın əvəz olunmasını balanslaşdırmaq zəruridir.

İdxalın azaldılmasının daha geniş yayılmış forması kimi həmçinin kompensasiya rüsumları istifadə edilməlidir. Məsələn, antidempinq tariflərini digər ölkələr öz əmtəəsini Azərbaycanda orta xərclərdən aşağı qiymətlər və ya daxili bazardan aşağı qiymətlər üzrə satdığı, daha doğrusu, dempinq meydana çıxdığı vaxt müəyyən etmək lazımdır. Bu halda idxal əmtəəsinə "dempinq rüsumları" müəyyən etmək lazımdır.

Nə qədər ki, digər ölkələr idxal məhdudiyyətlərindən istifadə edirlər və ya digər metodlarla bizim məhsula qarşı ayrı-seçkilik edirlər, onda ölkəmiz yalnız optimal tarif və kvotaları tətbiq etməklə müdafiə olunmalıdır. Məhz bu prinsip nəzərə alınmaqla, Ümumdünya ticarət Təşkilatı ilə əməkdaşlığa getmək lazımdır.

**Ədəbiyyat**


1. Qasımlı V. İqtisadi modernizasiya. Bakı, 2014. 311 s.
2. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi. Azərbaycan Respublikasının 2014-cü il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri. Bakı: 2013, 107 s.
3. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, Bakı, Qanun, 2003.
4. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti : Dayanıqlı və davamlı inkişafın təntənəsi (Monoqrafiya) Bakı, İqtisad Universiteti, 2011.


**Резюме**

***Ахмедова Ф.М.***

**Надежное снабжение продовольствием - один из ключевых компонентов экономической безопасности государства**

*В статье рассматривается необходимость использования таможенных пошлин в обеспечении продовольственной безопасности как неотъемлемой части экономической безопасности государства, особенностей формирования таможенно-тарифной политики в Республике в условиях современной конкуренции. Были предложены пути улучшения регулирования импортно-экспортных операций для обеспечения конкурентоспособности экономики и направлений совершенствования таможенно-тарифной политики Азербайджана.*

***Ключевые слова:*** *продовольственная безопасность конкурентоспособность, внешнеэкономическая деятельность, таможенная тарифная политика, таможенные пошлины*

**Summary**

***Ahmadova F.M.***

**Reliable Food Supply is One of the Key Components of the State's Economic Security**

*The article considers the necessity of using customs duties in ensuring food security, as an integral part of the state's economic security, the features of formation of customs-tariff policy in the Republic in the conditions of modern competition. Ways to improve the regulation of import-export operations were proposed to ensure the competitiveness of the economy and directions of improvement of customs-tariff policy of Azerbaijan were given.*

***Key words:*** *food security, competitiveness, foreign economic activity, customs tariff policy, customs duties*

## RESPUBLİKADA GÖMRÜK İŞİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

***Əhmədova G.S.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Ölkə iqtisadiyyatının idarə edilməsi və inkişafında gömrük-tarif tənzimlənməsi vacib rol oynayır. Məqalədə ölkədə gömrüyün vəzifələri və gömrük işinin təkmilləşdirilməsinin əsas istiqamətləri nəzərdən keçirilir.*

***Açar sözlər**: xarici iqtisadi fəaliyyət (XİF), idxal-ixrac fəaliyyəti, gömrük siyasəti, gömrük-tarif, ÜTT*

Respublikamızda gömrük xidməti, xarici iqtisadi fəaliyyətin tənzimlənməsi, gömrük siyasətinin həyata keçirilməsində mühüm institutdur. Belə ki, ölkə iqtisadiyyatının idarə edilməsi və inkişafında gömrük-tarif tənzimlənməsi vacib rol oynayır və çoxsahəli funksiyalara malikdir. Burada gömrük-tarif tənzimlənməsi daxili bazarı qoruyur, iqtisadi təhlükəsizlik baxımından lazımi məhsulların istehsalı stimulluşdarılır. Bundan əlavə valyuta ehtiyatlarından səmərəli istifadə olunur və ona nəzarət edilir, dövlət büdcəsinə gəlir gətirilir. Gömrük tarifi və rüsumları dövlətin iqtisadi təhlükəsizliyinin, eləcə də xarici ticarət əlaqələrinin inkişaf etdirilməsinin təmin edilməsində mühüm amilə çevrilir. Ölkədə idxal gömrük tarifi adətən ayrı-ayrı milli iqtisadiyyat sahələrini müdafiə edir və fəal xarici ticarət siyasəti yürütməyə, milli əmtəələrin ixracının formalşmasına imkan verir.

Bu baxfmdan idxal ixrac siyasətinin formalaşması, iqtisadi maraqlarla yanaşı sosial mənafelər və sosial inkişaf, iqtisadi təhlükəsizlik və daxili resursların iqtisadi dövriyyəyə cəlb olunması olduqca vacibdir. Ölkədə idxal strukturu istehsal və istehlak tələbatı və daxili istehsalın tələbatının ödənilməsində rolundan asılı olaraq formlaaşır. Bu baxımdan idxalın məhz istehlak xarakterli olması ölkədən valyutanın getməsinə, ölkənin iqtisadiyyatının öz resursları hesabına inkişafının zəiflənməsinə səbəb olur. Bu isə iqtisadi müstəqilliyinin və əmtəə və xidmət bazarının məhz idxaldan asılı olmasına gətirir.

Bundan başqa Azərbaycan kimi inkişaf etməkdə olan bazar iqtisadiyyatı tam təşəkkül tapmayan bir ölkədə gömrüyün əsas vəzifələri büdcə gəlirlərindən yaranmasında bilavasitə iştirak etmək, imkan düşdükcə milli iqtisadiyyatı xarici rəqabətin hər cür mənfi təsirindən qorunmaqdır. Hal-hazırda Azərbaycanın gömrük siyasətində hər iki istiqamətdə iş həyata keçirilir.

Respublikamızın daxilindəki istehsalçıların maraqlarının qorunması üçün cəmi beş dərəcədən (0,3,5,10,15) ibarət olan ditfferensiallaşdırılmış tarif sistemi qəbul edilmişdir. Respublika daxilində istehsal edilən və ya istehsalını təşkil etmək mümkün olan mallara yüksək gömrük rüsumları, əksinə yerli istehsalı mümkün olmayan mallara isə aşağı gömrük rüsumları müəyyənləşdirilir. Belə ki, bu uzun müddətli olmamalıdır. Ayrıca, hər bir ölkə milli istehsalın inkişafının bir «uşaqlıq dövrü» və müdafiə tədbirləri var. Belə tariflər sistemi özəlləşdirmənin birinci mərhələsindən sonra yaranmış yeni milli istehsalımızın «ayağa durması» onun müdafiəsi üçün vacibdir.

Dünya təcrübəsinə əsasən XİF-in (Xarici İqtisadi Fəaliyyət) gömrük tarif tənzimlənməsi tətbiqi kimi diferensiallaşdırılmış tarif sisteminə uyğun olaraq Respublikamızın gömrük tarifi müəyyən edilmiş, Nazirlər Kabineti ilə «Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri», «Azərbaycan Respublikasından ixrac zamanı ixrac ömrük rüsumuna cəlb olunan malların siyahısı və ixrac rüsumunun dərəcələri» və «Gömrük rəsmləşdirilməsinə görə gömrük yığımlarının miqdarı» haqqında sənədlər təsdiq edilmişdir˙ Ölkədə diferensiallaşdırılmış tarif sisteminə uyğun olaraq bu gün bəzi məhsulların ixrac rüsumlarının tətbiq edilməsi məqsədəuyğun hesab edilmişdir.

Qeyd etmək lazımdır ki, Kənd Təsərrüfat Nazirliyinin verdiyi rəydə respublikada aqrar sənayeni inkişaf etdirmək üçün, «Azərbaycan Respublikasının Gömrük Tarifi[15]« layihəsinhdə ayrı-ayrı qruplarda qeyd olunan kənd təsərrüfatı bitkiləri toxumlarının, hibridlərinin, linq və qələmlərinin, eyni zamanda buğda səpini və barama toxumlarına, mineral gübrələr və zəhərli-kimyəvi maddələrə gömrüyk tarif dərəcəsini sıfır faiz təklif edərək yerli istehsalı inkişafını ön plana çəkmişdir.

Belə ki, Respublikamızın gömrük sərhədindən keçirilən mallara gömrük rüsumlarının differensiallaşdırılmış dərəcələrinin müəyyən edilməsi ölkəmizin iqtisadi təhlükəsizliyinin qorunmasında mühüm rol oynayır.

Ölkəmizdə gömrük siyasətinin başlıca istiqamətlərindən biri də məhz respublikamızın ÜTT-yə üzv olmaqla bağlı gömrük məsələlərinin elə düzgün qoyulmasıdır ki, bundan həm bütövlükdə ölkə iqtisadiyyatı, həm də dövlət büdcəsi maksimum səmərə əldə edə bilsin. Bu isə respublikamızın yeni differensiallaşdırılmış gömrük-tarif sisteminin qəbul edilməsi xüsusi əhəmiyyətli addım kimi qiymətləndirilə bilər. Mövcud sistemin hazırlanması zamanı heç də gömrük tariflərinin qaldırılması başlıca vəzifə kimi qarşıya qoyulmamışdır. Vacib məqam tariflərin yalnız büdcə mədaxilini təmin etmək funksiyası deyil, eyni zamanda daxili istehsalı tənzimləmək funksiyasının da reallaşdırmasına nail olmaq idi. Belə ki, hazırkı dövrdən ölkəmizin ÜTT-yə üzv olduğu vaxta qədər bir müddət üçün optimal sayıla bilər.

Respublikamızın ÜTT-yə daxil olması dünya təsərrüfat əlaqələrinə inteqrasiya olmağın bir mərhələsidir. ÜTT-yə daxil olmaqla respublikamız öz iqtisadiyyatının müqayisəli üstünlüklərini reallaşdıra bilmək imkanı qazanacaq, ticarət şəraitini yaxşılaşdıracaq, ixracın həcmini artıracaq və daha da rəngarəng edəcək, satış bazarlarını stabilləşdirəcək və onun coğrafiyasını genişləndirəcək və məhsulların keyfiyyətinin artırılmasının stimullaşdırılması üçün əlverişli şərait yaranacaqdır.

Bundan başqa respublikamızın ÜTT-yə üzvlüyünün bir sıra müsbət cəhətlərini qeyd etmək vacibdir:

1. Respublikamızın ÜTT-yə üzv olmaqla nəinki dünya ticarətində daha geniş şəkildə iştirak etmək imkanı qazanacaq, həmçinin milli maraqlarımızı nəzərə almaqla onun inkişafında iştirak edəcəkdir;

2. Respublikada ixracatçı və idxalatçılarımız müxtəlif sazişlərə əsaslanar vahid hüquqi məkandan istifadə etmək imkanı qazanacaqlar, həmçinin digər ölkələrlə ticarətdə beynəlxalq hüquqi müdafiə ilə təmin olunacaqlar. Belə ki, ölkəmiz digər dövlətlərin əsassız ayrı-seçkilik tədbirlərindən hüquqi cəhətdən qorunacaqlar;

3. Başqa ölkələrlə ticarətdə tarif və qeyri-tarif maneələrinin ölkə ixracına mənfi təsiri kəskin surətdə azalacaq. Respublikamız beynəlxalq istehsal kooperasiyasına və beynəlxalq işgüzar əməkdaşlığın digər formalarına qoşulması üçün əlverişli zəmin yaranacaq. Ölkədə birgə müəssisələrin yaradılmasından intellektual mülkiyyətin mübadiləsinə qədər əməkdaşlıq üçün şərait yaradır;

4. Xarici əlaqələr üçün real hüquqi əsas yaranacaq, yerli istehsalçıların sağlam beynəlxalq rəqabətə qoşulması onlar üçün stimulluşdırıcı rol oynayacaqdır.

Bütün deyilənlər respublikamızın dünya təkrar istehsal proseslərinə daha tez inteqrasiyanı təmin edəcək və bu əsasda da xarici iqtisadi fəaliyyətə istiqamətlənmiş perspektiv istehsal sahələri daha da inkişaf edəcəkdir. Başqa tərəfdən, müasir istehsal və idarəetmə texnologiyalarının idxalı imkanları daha da genişlənəcək və ölkəmizə birbaşa investisiya axını güclənəcək.

## Ədəbiyyat


1. Məmmədov N., Bərxudarov M. İqtisadi təhlükəsizlik. Ali məktəblər üçün dərslik. Bakı, İqtisad Universiteti, 2006, 452 s.

2. Сенчагов Г. İqtisadi təhlükəsizlik. M.: 2010.

3. DGK-nin internet saytı


## Резюме


***Ахмедова Г.С.***


**Основные направления совершенствования таможного дела в Республике**


*Регулирование таможенных тарифов играет важную роль в управлении страной. В статье рассмотреваются цели и основные направление совершенсвования таможенного дела республике.*



***Ключевые слова:*** *внешно экономическая деяткльность (ВЭД),экспортно-импортная деятельность,таможная политика, ВТО*


## Summary


***Ehmedova G.S.***


**The Main Directions of Improvement of Customs in the Country**


*The economy plays an important role in the development and management of customs and tariff regulation. The article is considered the main directions of improvement of customs duties and customs of the country.*

***Key words:*** *Customs and tariff policy and customs, import-export, foreign economic activities (TRADERS), the activities of the WTO*

## NEFT VƏ NEFT MƏHSULLARI İXRACININ TƏNZİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Əhmədova T.M.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Məqalədə Azərbaycanın neft strategiyasının enerji təhlükəsizliyinin təminatında rolu nəzərdən keçirilmişdir, neft və neft məhsulları ixracının tənzimlənməsinin təkmilləşdirilməsinin əsas istiqamətləri tədqiq edilmişdir. Həmçinin Dövlət Statistika Komitəsinin məlumatları əsasında neft və neft məhsullarının ixracının, bu sahədə investisiya qoyuluşunun strukturu təhlil edilmişdir.*

***Açar sözlər:*** *neft məhsulları, ixrac, investisiya, tənzimləmə, təkmilləşdirmə, inteqrasiya, qloballaşma*

Müasir qloballaşma şəraitində Azərbaycanın neft strategiyasının inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə, şaxələndirilməsinə, ticarət dövriyyəsinin artmasına, ölkəmizin dünya iqtisadiyyatına sürətli inteqrasiya etməsinə şərait yaradır. Bu sahənin inkişaf qanunauyğunluqlarının dərk edilməsi və bu yolda qarşıya çıxan problemlərin həlli yollarının axtarılması, göstərilən istiqamətdə elmi araşdırmaların davam etdirilməsi zərurətini yaradır. Hazırda Azərbaycanın təbii qaz hasilatının artması və ixrac perspektivləri: Yeni Neft Strategiyasının xarici ticarət əlaqələrinin, iqtisadi əlaqələrinin inkişaf etdirilməsində məqsədyönlü, effektiv və çevik strategiyanın ölkəmizin gələcək inkişafında oynaya biləcəyi həlledici rol bu problemin tədqiq olunması zərurətini müəyyən etmişdir.

Azərbaycanın neft strategiyasının reallaşması nəticəsində ölkəmizin ictimai-siyasi və iqtisadi həyatına yeni bir dinamizm baş vermiş, bu strategiya xalqımızın rifahının yüksəlişini təmin edən stimullaşdırıcı komponentə çevrilmişdir. Neft strategiyası çərçivəsində görülmuş kompleks tədbirlər nəticəsində ölkəmiz davamlı iqtisadi inkişafa nail olmuşdur. Azərbaycan özünün enerji təhlükəsizliyini tam təmin etmişdir və artıq Avropanın enerji təhlükəsizliyinin təminatında da strateji tərəfdaş missiyasını yerinə yetirmək məramı ilə mühüm addımlar atmaqdadır. Azərbaycan neft ixarc edən ölkə statusundan qaz ixrac edən ölkə statusuna qədər yüksəlmiş və bununla da Avopanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilməkdədir. Neft strategiyası ölkəmizin xarici ticarət əlaqələrinin də genişlənməsinə gətirib çıxarmışdır.

Milli iqtisadiyyatın dünya iqtisadi təsərrüfatına qoşulmasında və bazar münasibətlərinə keçid şəraitində mühüm məsələlərdən biri məhz sənaye sahələri məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsində ölkəmizin xarici iqtisadi əlaqələri, onun ixrac potensialıdır. Dünya bazarı ilə münasibətlərin formalaşdırılmasının müasir mərhələsində olan Azərbaycan Respublikasının xarici iqtisadi strategiyası qarşısında ixrac imkanlarının artırılması nəinki ixracın, həmçinin idxal əməliyyatlarının strukturunun təkmilləşdirilməsi, o cümlədən dünya bazarına onun tələb və standartlarına uyğun rəqabətədavamlı məhsulla çıxa bilmək kimi məqsədlər dayanmışdır. Azərbaycan hazırda dünya miqyasında neft və neft məhsulları ixracatçısı kimi tanınır. Xam neft və təbii qaz emalını genişləndirmək, şaxələndirmək məqsədi ilə emal kompleksində texnoloji proseslərin yeniləşdirilməsi və optimallaşdırılması ölkəmizin diqqət mərkəzindədir. Neft-qaz sektoru və neft-kimya sənayesinin modernləşdirilməsi məsələsi Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 29 noyabr tarixli Sərəncamı ilə imzalanmış "AZƏRBAYCAN-2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında öz əksini tapmışdır.

ARDNŞ-nin 2025-ci ilə kimi strateji inkişafına dair Kompleks Planında da ixarcyönümlü neft-qaz emalının genişləndirilməsi əsas hədəflərdəndir. İxracyönümlü neft-qaz emalının genişləndirilməsi, bir çox layihələrin reallaşdırılması məqsədi ilə ölkə rəhbərliyimizin dəstəyi ilə müvafiq tədbirlər həyata keçirilməkdədir.

Neft və neft məhsulları ixracının tənzimlənməsinin təkmilləşdirilməsinin həyata keçirilməsi üçün sahəyə xüsusi diqqət yönəldilir. Neft və neft məhsulları ixracının təkmilləşdirilməsinin təşkili və yeni istiqamətlərin müəyyən edilməsi məqsədi ilə bu sektora yerli və xarici investisiyalar cəlb edilir, texniki məsələlərin müasirləşməsi və yeniləşməsinə çalışılır ki, bu da enerji resurslarının səmərəli, israfsız, ehtiyatlı hasilatına nail olmağa, yataqların ehtimal olunamış potensialının aşkarlanmasına yeni şərait yaradır [1].

**Cədvəl 1.**

**2012-2016-cı illərdə Azərbaycan iqtisadiyyatına yönəldilən investisiyalar (mənbələr üzrə mln.dollar) [3].**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| Cəmi investisiya qoyuluşu | 25777,8 | 27340,0 | 27907,5 | 19547,2 | 14329,5 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Cəmi daxili investisiya qoyuluşu | 15463,8 | 16799,1 | 16 209,8 | 8828,1 | 4168,4 |
| Cəmi xarici investisiya qoyuluşu | 10314,0 | 10 540,9 | 11 697,7 | 10719,1 | 10161,1 |
| o cümlədən maliyyə kreditləri | 3135,5 | 2655,8 | 1880,6 | 2210,2 | 2197,8 |
| Birbaşa investisiyalar | 5382,3 | 5976,2 | 8049,2 | 7483,1 | 7323,6 |
| o cümlədən: neft sektoruna | 4287,8 | 4935,2 | 6730,7 | 6622,7 | 5617,4 |
| Qeyri-neft sektoruna | 1094,5 | 1041,0 | 1318,5 | 860,4 | 1706,2 |
| Neft bonusu | 2,0 | 2,4 | 17,0 | 2,0 | 0,1 |
| Digər investisiyalar | 1794,2 | 1906,5 | 1750,9 | 1023,8 | 639,6 |

Cədvəl 1-in məlumatlarından aydın olur ki, 2016-cı il ərzində ölkə iqtisadiyyatına 14329,5 milyon dollar investisiya qoyulmuşdur ki, onun da 10161,1 milyon dolları və yaxud 70,9 %-i xarici investisiyaların, 4168,4 milyon dolları və yaxud 29,1 %-i daxili investisiyaların payına düşmüşdür. 2016-cı il ərzində ölkə iqtisadiyyatına 7323,6 milyon dollar birbaşa xarici investisiyalar qoyulmuşdur ki, bunun da 5617,4 milyon dolları və yaxud 76,7 %-i neft sektoruna, 1706,2 milyon dolları və yaxud 23,3 %- i isə qeyri-neft sektoruna yönəldilmişdir.

Neft məhsulları ixracının tənzimlənməsinin təkmilləşdirilməsinin əsas istiqamətləri kimi yataqların istismar şəraitinin yaxşılaşdırılması, neftvermənin artırılması məqsədilə yeni mütərəqqi üsulların tətbiqi və genişləndirilməsi istiqamətində atılan adımlardır.

Neft məhsulları ixracının tənzimlənməsinin təkmilləşdirilməsinin əsas istiqamətləri kimi enerji resurslarının şaxələndirilməsi hazırda beynəlxalq təşkilatların əsas arenasında müzakirə olunan məsələdir. Azərbaycan şaxələndirmədə öz rolunu oynayır. Şaxələndirmə haqqında danışanda biz yalnız marşrutların deyil, həm mənbələrin, həm də təbii qaz, neft sənayesi məhsullarının şaxələndirilməsini nəzərdə tuturuq. Ölkəmiz dünya bazarına xam neft, təbii qaz, müxtəlif adda neft emalı və neft-kimya məhsulları ixrac edir. Hazırda respublikamızın qarşıya qoyduğu əsas məsələlərdən biri həm neft, həm də qeyri-neft sektorunda dünya bazarına ixrac olunan hazır məhsul tədarükünü şaxələndirmək, genişləndirməkdir. Bu məqsədlə, neft-qaz emalı müəssisələrinin modernizasiyası, yeni, müasir avadanlıqlarla təchizi təmin edilir, istehsal gücü artırılır, yeni müəssisələr tikilir [2].

**Cədvəl 2.**

**Xam neft ixracının ümumi ixracda xüsusi çəkisi [3].**

| **İllər** | **Xam neft ixracı, min.dollar** | **Ümumi ixrac, min.dollar** | **Xam neft ixracının payı** |
|---|---|---|---|
| 2012 | 20232597,8 | 23907983,7 | 84,6 |
| 2013 | 20244052,8 | 23975416,8 | 84,4 |
| 2014 | 18404936,6 | 21828608,9 | 84,3 |
| 2015 | 8866158,6 | 12729138,5 | 69,7 |
| 2016 | 6504517,3 | 9143279,8 | 71,1 |

Cədvəl 2-dən göründüyü kimi, 2016-cı il ərzində 6504517,3 min dollar xam neft ixrac olunmuşdur ki, onun da ümumi ixracda xüsusi çəkisi 71,1 % təşkil etmişdir. Son illər həm neft hasilatında, həm də xam neft ixracında azalma tendensiyası müşahidə olunmuşdur.

**Cədvəl 3.**

**Neft hasilatı və ixracı (mln.ton)[3].**

| | **2012** | **2013** | **2014** | **2015** | **2016** |
|---|---|---|---|---|---|
| Neft hasilatı, mln.ton | 43,375 | 43,457 | 42,076 | 41,570 | 41,050 |
| Xam neft ixracı, mln.ton | 24,244 | 24,856 | 23,612 | 21,960 | 20,901 |
| Xam neft ixracının hasilatda payı, % | 55,9 | 57,2 | 56,1 | 52,8 | 50,9 |

Ümumiyyətlə, yaddan çıxarmamaq lazımdır ki, neft və qaz tükənən təbii ehtiyatlardandır. Odur ki, gələcəkdə əsas enerji təchizatında onların payı yavaş-yavaş azalacaqdır. Qeyd edək ki, məhz bu səbəbdən və ekoloji səbəblərdən elmi-texniki tərəqqi əsrində yaşayan müasir insanlar daha qənaətcil nəqliyyat vasitələrindən alternativ bioenerji mənbələrindən istifadə etmək barədə düşünürlər. British Petrolum şirkəti proqnozlarına görə, alternativ yanacaq növlərindən dünya miqyasında 2010-cu ildə 5% istifadə olunurdusa, bu göstərici 2030-cu ildə 15%-ə çatacaqdır. Ancaq onu da xüsusi ilə qeyd edək ki, hasil olunan neftin əsas hissəsi daxili yanma mühərriklərində istifadə olunur və avtomobil sənayesi isə ilbəil daha da genişlənir ki, bu da gündən-günə neftə olan tələbatın daha da artması deməkdir. Bu, onu göstərir ki, neft-qaz ehtiyatları hələ

uzun müddət əsas enerji tələbatını ödəyən ehtiyatlar olaraq qalacaqdır və ölkəmizin ixrac potensialında üstün mövqe tutacaqdır.

**Ədəbiyyat**


1. Hacızadə E.M., Abdullayev Z.S. Neft təsərrüfatının iqtisadi strukturunun modernizasiyası Bakı: Elm, 2009, 512 s.
2. Səfərov Q.Ə., Dadasova K.S. Neft-qaz kompleksində məhsulun keyfiyyəti və rəqabətqabiliyyətliliyi. Bakı: Elm, 2011, 224 s.
3. www.azstat.org - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.



**Резюме**

***Ахмедова Т.М.***

**Направления совершенствования регулирования экспорта нефти и нефтепродуктов**

*В статье рассматривается роль нефтяной стратегии Азербайджана в обеспечении энергетической безопасности. Исследуются основные направления совершенствования регулирования экспорта нефти и нефтепродуктов. Также на основе данных Государственного Комитета Статистики анализируются структура экспорта нефти и нефтепродуктов, а также структура инвестиционных вложений в этой области.*

***Ключевые слова:*** *нефтепродукты, экспорт, инвестиция, совершенствование, интеграция, глобализация.*

**Summary**

***Ahmadova T.M.***

**Directions for Improving the Regulation of Exports of Oil and Petroleum Products**

*The article examines the role of Azerbaijan's oil strategy in ensuring energy security. The basic directions of perfection of regulation of export of oil and oil products are investigated. And also on the basis of data from the State Statistics Committee, the structure of exports of oil and oil products, as well as the structure of investment in this area, are analyzed.*

***Key words:*** *oil products, export, investment, improvement, integration, globalization.*


## İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ: XARİCİ İNVESTİSİYALARIN ARTIRILMASI YOLLARI


***Əlixanov A.E.***

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*



**Xülasə**

*Birbaşa xarici investisiyaların ölkəyə axının artırılması iqtisadiyyatın dayanıqlı inkişafı üçün əhəmiyyətlidir. Bu baxımdan investisiyaların artırılması yollarının nəzəri və praktiki hipotezalarının öyrənilməsi vacibdir. Məruzə xarici investisiyaların bir sıra nəzəriyyə və hipotezalarının təsviri, praktiki və statistik təhlilini əhatə edir.*

***Açar sözlər****: birbaşa xarici investisiyalar, valyuta məzənnəsi, ixrac.*


Hazırda hər bir ölkənin iqtisadiyyatın dayanıqlı inkişafında investisiyalar əsas fundametal dayaqdır. İnvestisiyalar xarici və daxili investisiyalar olmaqla iki yerə bölünür. Birbaşa xarici investisiyalar iqtisadi artım və dayanıqlığı inkişafı təmin edən vasitələrdən biri hesab edilir. Bu baxımdan birbaşa xarici investisiya nəzəriyyələri və praktiki aspektlərinin öyrənilməsi olduqca vacibdir.

Xarici investisiyaların artmasına olan təsirləri və səbəbləri Aliber öz əsərində valyuta məzənnə nəzəriyyəsi çərçivəsində müxtəlif valyutalarla nisbətdə izah etmişdir. Bu nəzəriyyəyə əsasən güclü valyutaya sahib ölkələr daha çox xarici investisiyalar mənbəyi olaraq nisbətən daha zəif valyutaya sahib ölkələrə investisiya edirlər. Bu nəzəriyyə əsasən kapital bazarları, xarici valyuta riskləri və maliyyə bazarlarının səmərəliyi fonunda daha güclü valyutada aktivlərin saxlanılması məsələsini özündə ehtiva edir. Aliber qeyd edir ki, yerli şirkətlərlə müqayisədə transmilli şirkətlər özlərinin reputasiyasından istifadə etməklə daha güclü (misal üçün dollar və ya avro) olan valyutanı aşağı faizlərlə borc götürə bilirlər. Daha sonra isə həmin vəsaitləri valyutası nisbətən daha aşağı olan ölkələr yatırırlar. Borc faizinin aşağı olmasına baxmayaraq, belə investisiyalar zamanı şirkətlər xarici valyuta risklərinə məruz qala bilərlər. Halbuki, həmin maliyyə risklərin əksər hallarda törəmə maliyyə alətləri vasitəsi ilə hedcinq edilə bilər. Bu nəzəriyyə empirik yolla test edilə bilər. Belə ki, valyuta məzənnəsi və xarici investisiyalar arasında əlaqənin empirik və statistik olaraq təhlilinə baxıla bilər. Əgər hipoteza özünü doğruldursa, o halda valyutanın bahalaşması ölkədən xarici investisiyaların azalmasına, valyutanın ucuzlaşması isə xarici investisiyaların artması ilə nəticələnə bilər.

Lakin valyutanın devalvasiyaya uğraması, xarici investisiyaların sürətlənməsi eyni və tez bir zamanda baş vermir.

Qeyd edək ki, əsasən neft sektorunun inkişafı ilə əlaqədar 2014-ci il 4-cü rübünə qədər xarici investisiyalarda müsbət artım olmuşdur. Azərbaycanda birbaşa xarici investisiyaların axınında 2016-cı ildə 2015-ci illə müqayisədə 2.3 % azalma, 2017-ci ilin 3rübü 2016-cı ilin eyni dövr ilə müqayisədə 15% azalma müşahidə olunmuşdur.

**Qrafik 1: Birbaşa Xarici İnvestisiyalar və AZN/USD məzənnəsi**




*Mənbə: AMB, 2018.*

Manatın devalvasiya olunmasına baxmayaraq, qeyd edək ki, xarici investisiyaların artması ilə valyutanın ucuzlaşması arasında olan nəzəriyyə bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə özünü doğrultmamışdır. Çünki hipoteza məzənnənin dəyişməsinin investisiyalara təsiri bir qədər zaman alır. Çünki iqtisadiyyatda xarici investisiyaların cəlb edilməsi digər iqtisadi və institutsional faktorlardan asılıdır.

**“Kojima”ticarətin təşviqi hipotezası**

Kojima (1985) birbaşa xarici investisiyaları kapitalın, yeni texnoloqiyaların və idarəetmə qabiliyyətinin transfer edilməsi vasitəsi hesab edir. Bu nəzəriyyə “faktorlar transferi” adlanan makroiqtisadi yanaşma hesab edilir. Kojima xarici investisiyaları ticarətə təsiri baxımından iki yerə ayırır: Ticarətyönümlü və ticarətyönümlü olmayan xarici investisiyalar. Ticarətyönümlü investisiyalar izafi təklif yaradır və ixracı stimullaşdırır. Bu əsasən ölkədə iqtisadi imkanlar olan sahələrə investisiyaların yatırılması zaman daha effektiv olur. Digər ticarətyönümlü olmayan investisiyalar isə əksinə, ticarətə mənfi təsir göstərir. Beləliklə, Kojima hipotezası, əsasən ticarət və xarici investisiyaların araşdırılması nəzəriyyəsinə əsaslanır (Moosa, 2002).

Aşağıdakı qrafik Azərbaycanın birbaşa xarici investisiyalarla ticarət göstəricilərinin trendini göstərir.

Bu nəzəriyyəyə əsasən investisiya artırılmasının əsas mənbəyi olaraq, transmilli şirkətlərin ölkədə mövcüd törəmə müəssisələri tərəfindən qazanılmış mənfəətin iqtisadiyyata istiqamətləndirilməsi ilə formalaşır. Bu nəzəriyyənin baniləri Barlov və Vender (1955-ci il) qeyd edirlər ki, transmilli şirkətlər ilkin xarici investisiya ilə böyük yatırımlar edirlər. Daha sonra isə sözü gedən şirkətlərin genişlənməsi sonrakı mərhələlərdə qazanılmış mənfəət hesabına gerçəkləşir. Bu məhz şirkətlərin qazanc əldə etməsi və bölüşdürülməmiş mənfəəti iqtisadiyyata yenidən yerləşdirilməsi ilə baş tutur. Bu nəzəriyyə şirkətlərdə daxili nəğd vəsaitlərin formalaşması və yeni xarici investisiyaların formalaşması arasında müsbət əlaqəni ehtiva edir. Froot və Stein iddia edirlər ki, daxili maliyyələşmə mənbələri hesabına xarici investisiyaların artırılması xarici maliyyələşmə (misal üçün, borc almaq) ilə müqayisədə daha ucuz olur. Bunun əsas səbəbi isə informasiya natamamlığının kapital bazarlarında yer almasıdır. Bu nəzəriyyənin inkişaf etməkdə olan ölkələrdə birbaşa xarici investisiyaları izah etməsinin iki səbəbi var: Birincisi, maliyyə axınlarının hərəkətinə olan məhdudiyyətlər. İkincisi isə, maliyyə bazarlarının qeyri-səmərəli olmasıdır.

**Qrafik 2: Birbaşa xarici investisiyalar və xarici ticarət (milyon ABŞ dollar)**




*Mənbə: AMB, 2018.*

**Daxili maliyyələşmə nəzəriyyəsi**

Bu nəzəriyyəyə əsasən investisiya artırılmasının əsas mənbəyi olaraq, transmilli şirkətlərin ölkədə mövcüd törəmə müəssisələri tərəfindən qazanılmış mənfəətin iqtisadiyyata istiqamətləndirilməsi ilə formalaşır. Bu nəzəriyyənin baniləri Barlov və Vender (1955-ci il) qeyd edirlər ki, transmilli şirkətlər ilkin xarici investisiya ilə böyük yatırımlar edirlər. Daha sonra isə sözü gedən şirkətlərin genişlənməsi sonrakı mərhələlərdə qazanılmış mənfəət hesabına gerçəkləşir. Bu məhz şirkətlərin qazanc əldə etməsi və bölüşdürülməmiş mənfəəti iqtisadiyyata yenidən yerləşdirilməsi ilə baş tutur. Bu nəzəriyyə şirkətlərdə daxili nəğd vəsaitlərin formalaşması və yeni xarici investisiyaların formalaşması arasında müsbət əlaqəni ehtiva edir. Froot və Stein iddia edirlər ki, daxili maliyyələşmə mənbələri hesabına xarici investisiyaların artırılması xarici maliyyələşmə (misal üçün, borc almaq) ilə müqayisədə daha ucuz olur. Bunun əsas səbəbi isə informasiya natamamlığının kapital bazarlarında yer almasıdır. Bu nəzəriyyənin inkişaf etməkdə olan ölkələrdə birbaşa xarici investisiyaları izah etməsinin iki səbəbi var: Birincisi, maliyyə axınlarının hərəkətinə olan məhdudiyyətlər. İkincisi isə, maliyyə bazarlarının qeyri-səmərəli olmasıdır.

Qeyd olunanlarıda nəzərə alsaq, Azərbaycan iqtisadi təhlükəsizliyinin dayanıqlığı xarici investisiyaların cəlb edilməsində bir sıra innovativ addımların sürətləndirilməsi zərurəti yaradır və bu istiqamətlərin bəzilərinə daxildir:

- Xarici investisiya üzrə gömrük və ya vergi güzəştlərin tətbiq edilməsi;
- Maliyyə subsidiyalarının və maliyyə borclarının verilməsi;
- Sənayedə səmərəli istehsala əsaslanan xarici investisiyaların cəlb edilməsi;
- Xüsusi hesab edilən və ixrac dəstəkləyəcək zonaların və investisiya təşviq edilməsi üzrə agentliklərin yaradılması;
- Xarici investisiyaları cəlb etmək məqsədilə ətraf mühit standardlarına riayət edilməsi və təkmilləşdirilməsi;
- Xarici investisiyaları təşviq edən metodoloji iş planı və strategiyanın müəyyən edilməsi.

**Ədəbiyyat**

1. Moosa İ. A. “Foreign Direct Investment: Theory, Evidence and practise”. Böyük Britania 2002, s. 42-48.
2. Moran T.H. “Harnessing Foreing Direct Investmet for Development”, Vaşinqton, 2006, s. 142-147.
3. Azərbaycan Respublikası Mərkəzi Bankı, Statistik bülliten, Bakı, 2018, s. 9.

**Резюме**

***Алиханов А.Е.***
*Азербайджанский государственный экономический университет*

**Обеспечение экономической безопасности: способы увеличения иностранных прямых инвестиций**

*Существуют теоретические гипотезы и практический issus, которые описывают способы увеличения прямых инвестиций. В статье исследуются и описываются теоретические, практические аспекты ПИИ. Наконец, он обеспечивает краткий статистический анализ ПИИ в свете экономики Азербайджана.*

*Ключевые слова:* *прямые зарубежные инвестиции, валютный курс, экспорт.*

**Summary**

***Alikhanov A.E.***
*Azerbaijan University of Economics*

**Fostering Economic Security: Ways to Increase Foreign Direct Investments**

*Acceleration of direct foreign investments to the country is crucial for the sustainable development of the economy. There are theoretical hypotheses and practical issus that describe ways to increase foreing direct investments. Article explores and describes theoretical, practical aspects of FDI.Finally, it provides brief statistical analysis of FDI in the light of the economy of Azerbaijan.*

***Key words****: foreing direct investments, foreing echange rates, export*

## İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ SAHƏSİNDƏ İNVESTİSİYALAR ƏSAS PRİORİTET İSTİQAMƏT KİMİ

***Əliyeva G.O.***
*Azərbaycan Texniki Universiteti*

**Xülasə**

*Bildiyimiz kimi, dövlətin iqtisadi təhlükəsizliyi onun milli təhlükəsizliyinin çox vacib tərkib hissəsidir. Dünya təcrübəsi göstərir ki, iqtisadi təhlükəsizliyin təmin edilməsi ölkənin müstəqilliyinin zəmanətçisi, sabitliyin və cəmiyyətin səmərəli fəaliyyətinin mühüm şərtidir. İqtisadi təhlükəsizliyin təmin edimәsində və formalaşdırılması şəraitində investisiyalardan əlverişli istifadə mühüm milli prioritetlər sırasına aiddir.*

***Açar sözlər:*** *iqtisadi təhlükəszilik, investisiyalar, investisiya cəlbediciliyi, dayanıqlılıq və maliyyə-investisiya potensialı.*

Son onilliklərdə, inkişaf etmiş ölkələrin iqtisadiyyatlarında qloballaşma prosesi ilə əlaqədar baş verən dərin struktur dəyişiklikləri nəticəsində iqtisadi təhlükəsizlik anlayışına milli iqtisadiyyatın və ya onun aparıcı sahələrinin dünya bazarlarında rəqabət qabiliyyətliliyinin təmin edilməsi kimi vacib əlamət də əlavə edilmişdir.

İqtisadi təhlükəsizlik milli iqtisadiyyatın müstəqilliyini, sabitliyini və dayanıqlığını təmin edən, ona daim yenilənməyə və özünü təkmilləşdirməyə imkan verən şərt və amillər məcmusudur. İqtisadi təhlükəsizliyin mahiyyətini daha yaxşı başa düşmək üçün investisiya qoyuluşu üçün əlverişli biznes mühiti yaratmaq lazımdır. Çünki investisiya qoyuluşu iqtisadi təhlükəsizliyin komponentlərindən biridir. İnvestisiya qoyuluşu inkişaf etmirsə, iqtisadi təhlükəsizliyin daxili və xarici təhlükələrə qarşı müqaviməti kəskin aşağı düşür. Eyni zamanda dayanıqlıq və təhlükəsizlik iqtisadiyyatın bir vahid sistem kimi vacib xüsusiyyətlərindəndir.

Hal-hazırda, Azərbaycanda müxtəlif sahələri əhatə edən dövlət proqramları uğurla həyata keçirilir, xalqımızı düşündürən sosial-iqtisadi problemlər öz müsbət həllini tapır. İstehsal və sosial infrastruktur obyektləri, yeni iş yerləri yaradılır, aqrar sahədə müsbət dinamika davamlı xarakter alır. Təhsilə, elmə, mədəniyyətə, səhiyyəyə və idmana dövlət qayğısı durmadan artır. Bütün bu islahatlar iqtisadi təhlükəsizliyin təmin olunmasına dəlalət edir.

Azərbaycan Respublikasının sosial-iqtisadi sahələrdə əldə etdiyi müsbət göstəricilər nüfuzlu beynəlxalq reytinq qurumlarının hesabatlarında da öz ifadəsini tapır. Dünyanın aparıcı “Fitch”, “Moody’s” və “Standard & Poor’s” reytinq agentlikləri, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, “Qoldman Saks” təşkilatı, Beynəlxalq Maliyyə Korporasiyası, Müstəqil Dövlətlər Birliyinin Statistika Komitəsi, habelə digər qurumların hesabatlarında Azərbaycan iqtisadiyyatının sürətli inkişafı ilə bağlı mühüm nəticələr, o cümlədən ölkəmizdə investisiyalar üçün əlverişli biznes mühitinin yaradılması, sahibkarlıq subyektlərinin qeydiyyat prosesinin təkmilləşdirilməsi məsələləri diqqətə çatdırılır.

Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2014-cü ilin birinci rübünün yekunlarına həsr olunmuş iclasında demişdir: *“Çalışmalıyıq ki, xarici investisiyaları sənaye inkişafının artırılmasına, kənd təsərrüfatına, turizm, xidmət, İKT sektorlarına cəlb edək. Əlbəttə ki, bu, o qədər də asas məsələ deyildir... Ancaq Azərbaycanda islahatlarla, biznes mühitinin yaxşılaşdırılması və ümumi inkişafla bağlı mənzərə çox müsbət olduğu üçün hesab etmək olar ki, əgər bu məsələləri düzgün təşkil etsək, biz xarici investisiyaları daha çox lazım olan sahələrə yönəldə bilərik. Biz bu məsələlər ətrafında işləməliyik.[2.].*

Hal-hazırda Azərbaycan həm də öz tərəfdaşları ilə mühüm transmilli enerji və kommunikasiya layihələrini uğurla reallaşdırmaqla regionun və Avropanın iqtisadi xəritəsini dəyişdirməkdə, onu

zənginləşdirməkdə davam edir. Hazırda enerji təhlükəsizliyini təmin etmiş ölkəmiz Avropanın enerji bazarında da mühüm oyunçuya çevrilir, onun enerji təhlükəsizliyinə öz töhfələrini verir.

Aparılan araşdırmalar nəticəsində belə bir qənaətə gəlinir ki, son 20 ildə ölkənin iqtisadi təhlükəsizliyinin əsası kimi iqtisadi maraqların təmin olunması dövlətin qarşısında duran mühüm məsələlərdən biri olmuşdur. Belə ki, həyata keçirilən irihəcmli layihələrin milli və dövlətçilik maraqlarının qorunması, eləcə də ümumilikdə iqtisadi təhlükəsizliyin təmin olunması baxımından qiymətləndirilməsinə xüsusi diqqət verilir.

Maliyyə-investisiya potensialının iqtisadi təhlükəsizlik baxımından araşdırılmasından bu nəticəyə gəlinir ki, mövcud potensialın qabaqcadan qiymətləndirilməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Bütün bunlar həm də region və ya sahə üzrə investisiya ehtiyaclarını da üzə çıxarmağa imkan verir ki, nəticədə perspektiv investisiya layihələrini daha dəqiq planlaşdırmaq mümkün olur. Bu isə öz növbəsində iqtisadi təhlükəsizlik baxımından vacib sayılan uzunmüddətli dayanıqlı iqtisadi inkişafa dəstək verir.

Hazırda, Azərbaycanın milli mənafeyi bölgələrdə son məhsul istehsal edən yüngül və yeyinti sənaye müəssisələrinin tikilməsini tələb edir. Belə yanaşma regionların sosial-iqtisadi problemlərini həll edər, daxili bazarı xarici təhlükədən xilas edər və Azərbaycanın öz vətəndaşlarını ərzaqla təmin etmək imkanı olduğu halda, xarici ölkələrdən kənd təsərrüfatı məhsullarının daxili bazara idxalını tədricən azaltmış olar. Buna görə də Azərbaycan dövləti investisiya siyasətini təkmilləşdirməklə, onları istehlak məhsulları istehsal edən sahələrə, ən çox isə aqrar bölməyə yönəltmək üçün konkret tədbirlər həyata keçirməyi nəzərdə tutur. Azərbaycan dövləti milli maraqlara, davamlı və keyfiyyətli inkişafa xidmət edən müstəqil siyasət yeridir ki, bu da ölkəmizin iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün müstəsna əhəmiyyət kəsb edir[1, s.206].

Xarici investorları Azərbaycana cəlb etmək iqtisadi təhlükəsizliyin təmin edilməsinə əsaslanan əsas prioitetlərdən biri hesab olunur. Xaricdən alınan vəsaitlər, ilk növbədə, ən müasir texnologiyaların tətbiqinə, innovasiyalı iqtisadiyyatın qurulmasına xidmət etməlidir. Belə ki, Azərbaycanda investisiya qoyuluşunun əlverişli olması haqqında informasiya yaymaq vacib məsələlərdən biridir. Xarici investorları Azərbaycanın strateji mövqedə yerləşməsi, qiymətli və zəngin təbii resursları, təbii xammalı, elmi və kadr potensialı olması haqqında bilgilərlə məlumatlandırmağın əhəmiyyəti böyükdür.

Bu nəticəyə gəlmək olar ki, istər investisiya cəlbediciliyində, istər vəsaitlərin iqtisadiyyatın sahələri və regionlar arasında bölüşdürülməsində, istərsə də əhalinin məşğulluğu sahəsində mövcud olan problemlərin həlli dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri hesab edilən ölkənin etibarlı iqtisadi təhlükəsizliyinin təmin olunması üçün vacib işlərdir.

**Ədəbiyyat**

1. Məmmədov Ə. C., Seyfullayev İ.Z. Vergi və investisiya mühiti. Bakı, BESTRASK, 2014, 376 s.
2. www.president.az

**Резюме**

***Алиева Г.О.***

**Инвестиции как основной приоритет области в экономической безопасности**

*Как вы знаете, экономическая безопасность государства является очень важным компонентом ее национальной безопасности. Мировая практика показывает, что обеспечение экономической безопасности является жизненно важной гарантией независимости страны, необходимым условием стабильности и эффективности общества. В контексте обеспечения и поддержания экономической безопасности наиболее выгодным применением инвестиции является перечень важных национальных приоритетов.*

***Ключевые слова:*** *экономическая безопасность, инвестиции, инвестиционная привлекательность, устойчивость и финансово-инвестиционный потенциал.*

**Summary**

***Aliyeva G.O.***

**Investments as the Main Direction Possibility in the Field of Economic Security**

*The state's economic security is a very important component of its national security. World practice shows that ensuring economic security is a vital guarantee of the independence of the country, an essential condition for the stability and effectiveness of society. The most advantageous use of investment is in the list of important national priorities in the context of ensuring and maintaining economic security.*

***Key words:*** *economic security, investments, investment attractiveness, sustainability and financial and investment potential*

## AZƏRBAYCANDA METALLURGİYANIN İXRAC İMKANLARI

***Əmirov İ.B., Allahverənov S.M.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Məqalədə qeyri-neft sənayesində ən mühüm sahələrdən biri olan metallurgiya sənayesinin ixrac imkanları tədqiq olunur. Burada qeyri-neft sektorunun aparıcı sahəsi olan metallurgiyanın inkişaf etdirilməsinin digər sahələrin inkişafının təməlində durması vurgulanmışdır.*

*Araşdırmalar nəticəsində mövcud ehtiyatlardan maksimum istifadə edərək metallurgiyanın qeyri-neft sektorunun strateji sahələrdən biri kimi inkişaf etdirilməsinin zəruriliyi əsaslandırılmışdır.*

***Açar sözlər:*** *metallurgiya, qeyri-neft sektoru, texnologiya, filiz, polad, idxal, ixrac, texnika, istehsal, istehlak*

Hal-hazırda iqtisadi islahatların keçirildiyi bir dövrdə ölkə iqtisadiyyatının qarşısında duran mühüm vəzifələrdən biri qeyri-neft sektorunun inkişaf etdirilməsidir. Davamlı iqtisadi inkişafa nail olan ölkəmiz həyatımızın bütün sahələrində yeni uğurlar qazanmaqdadır.

Ötən hesabat ilinin sosial-iqtisadi yekunlarına əsasən ümumi daxili məhsulun artaraq 70135,1 mln. man. təşkil etmişdir. Sosial-iqtisadi proqnozlara istinad edərək söyləmək olar ki, dövlətimiz 2020-ci ilə qədər bu göstəricinin 100 mlrd. $-a catdırılmasını hədəfləyir. Milli iqtisadiyyatımızda prioritet sayılan qeyri-neft sektorumuz 2,5 və kənd təsərrüfatı (k/t) 4,1 % artmışdır. Valyuta ehtiyatlarımız 2017-ci ildə 4,5 mlrd.$ artmış və hazırda 42,5 mlrd. $ təşkiıl edir. Ölkə iqtisadiyyatına 14,6 mlrd. $ sərmayə qoyulmuşdur. İxrac potensialımız ölkə üzrə 19 % artmış, qeyri-neft ixracatımız isə 24 % çoxalmışdır [1, səh.3].

Milli iqtisadiyyatımızın 2-ci əsas qolu olan qeyri-neft sektorunun strukturuna nəzər salsaq, onun, əsasən: ticarət və sosial xidmətlər; tikinti; rabitə və telekommunikasiya; nəqliyyat; qeyri-neft sənayesi və k/t-dan ibarət olduğunu görərik. Bu sektorda qeyri-neft sənayesi önəmli rol oynayır ki, bu da öz növbəsində bir neçə sənaye sahələrinə ayrılır.

Göstərmək lazımdır ki, qeyri-neft sektoruna daxil olan və qeyri-neft sənaye sahələrinin sırasında ən vacib hesab edilən sahələrdən biri də ***metallurgiya sənayesidir.*** Məhz metallurgiya sənayesi qeyri-neft sənaye sahələrinin inkişafına birbaşa təsir göstərməklə, qeyri-neft sektorunun hərtərəfli inkişaf etməsinə səbəb ola bilər. Bu sahədə istehsal olunan metal məmulatları digər sahələrdə istehlakı təmin etməklə daxili tələbatı ödəyə və metallurgiya məhsullarının idxalının aradan qaldırılmasına gətirib çıxarda bilər. Qeyd edək ki, hər il daxili tələbatı ödəmək məqsədi ilə xaricdən ölkəmizə 1,2-1,3 mlrd. $ metallurgiya məhsulları idxal olunur.

Azərbaycanda bol xammal bazasının, təbii resursların, metal tələbatlı sənaye və tikinti sahələrinin və təcrübəli kadr potensialının mövcudluğu ağır sənayenin, o cümlədən metallurgiya sənayesinin inkişafı üçün geniş imkanlar yaradır. Strateji sahələrdən hesab edilən metallurgiya sənayesinin inkişafında xammal bazası dəmir filizi ehtiyatlarıdır ki, bu da adı çəkilən sahənin inkişafı üçün geniş perspektivlər açır.

Dünya iqtisadiyyatına nəzər salsaq, dəmir filizi ehtiyatlarının çox hissəsinin təqribən 50 ölkəyə məxsus olduğu məlum olur (98 ölkənin ərazisində bu mineral ehtiyat aşkarlanıb). Həmin ölkələrin sırasında əsasən, RF-in, Avstraliyanın, Kanadanın və digər dövlətlərin öndə getdiyini müşahidə etmək mümkündür (cədvəl 1) [2].

**Cədvəl 1**

**Dünyada dəmir filizinin cari ehtiyatları, tərkibi və orta illik istehsalı**

| | Ölkələr | Ümumi ehtiyatlar, mln.t | Təsdiqlənən ehtiyatlar, mln.t | Dünyada payı, % | Dəmirin tərkibi, % | İstehsalı, mln.t | Dünyada istehsal payı, % |
|---|---|---|---|---|---|---|---|
| | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** |
| | Rusiya | 43075 | 29281 | 16,9 | 36 | 70,9 | 6,7 |
| | Avstraliya | 32200 | 18000 | 10,4 | 64 | 157,1 | 14,9 |
| | Ukrayna | 19387 | 16836 | 9,7 | 35 | 53 | 5 |
| | ABŞ | 25000 | 16000 | 9,3 | 24 | 63 | 6 |
| | Kanada | 26000 | 12000 | 6,9 | 40 | 37,3 | 3,5 |
| | Braziliya | 17000 | 11000 | 6,4 | 58 | 188 | 17,8 |
| | Çin | 9000 | 9000 | 5,2 | 33 | 250 | 23,7 |
| | Qazaxıstan | 7392 | 5504 | 3,2 | 39 | 12,6 | 1,3 |
| | Hindistan | 12000 | 5400 | 3,1 | 61 | 69 | 6,6 |
| | Cənubi Afrika | 9300 | 4000 | 2,3 | 62 | 30,7 | 2,9 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 0 | Respublikası | | | | | | |
| 1 | İsveç | 4600 | 3000 | 1,7 | 53 | 21,9 | 2 |

Dünyada dəmir filizinin kəşf edilmiş ehtiyatları təqribən 160 mlrd.t. təşkil edir ki, bunun da tərkibinin 80 mlrd.tonu xalis dəmirdən ibarətdir. ABŞ-ın Geoloji xidmətinin məlumatlarına görə filiz yataqlarının payı dünya üzrə belədir: Ukrayna-18%, Rusiya-16%, Çin-13%, Braziliya-13%, Avstraliya-13%, Hindistan-4%, ABŞ-3%, digər dövlətlər-20%. Bəzi məlumatlara görə, hazırda filiz strateji xammalı üzrə ehtiyatların real miqdarı 212 mlrd. tondur. Lakin alimlərin hesablamalarına görə dünyada belə yataqlardakı ehtiyatların miqdarı 790 mlrd. t.-a qədərdir.

Dünya ölkələrinin filiz hasilatı üzrə ötən ilki reytinqinə əsasən Çin, Braziliya, Rusiya, Hindistan məcmu olaraq bütün dəmir tərkibli metalların 80 %-ni hasil edir. Metallurgiya sənayesinin xammal bazası olan dəmir filizinin çıxardılmasının necə inkişaf etməsinə nəzər salaq. Böyük ehtiyatlara malik olan ölkələrin illik filiz hasilatı üzrə müqayisəli göstəriciləri cədvəl 2-də verilmişdir [3].

**Cədvəl 2**

**Dəmir filizi sənayesində istehsalın müqayisəli göstəriciləri (mln.t)**

| | Ölkələr | 2010 | 2016 | Şirkətlər | İstehsal gücü |
|---|---|---|---|---|---|
| *1* | *2* | *3* | *4* | *5* | |
| 1 | Çin | 900 | 1300 | Anben | 44,7 |
| 2 | Avstraliya | 420 | 875 | BHP Billiton,<br>Fortescue Metals | 188,5<br>55,0 |
| 3 | Braziliya | 370 | 391 | Vale | 417,1 |
| 4 | Hindistan | 160 | 260 | | |
| 5 | Rusiya | 100 | 100 | Evrazxoldinq,<br>Metallainvest | 56,9<br>44,7 |
| 6 | Ukrayna | 72 | 80 | Metinvest Xoldinq | 42,8 |
| 7 | Cənubi Afrika Respublikası | 55 | 60 | Anqlo Amerikan | 41,1 |
| 8 | Qazaxıstan | 21 | 22 | | |
| 9 | Böyük Britaniya | | | Rio Tinto<br>ArcelorMittal | 273,7<br>78,9 |
| 10 | İsveç | | | LKAB | 38,5 |

Hasil edilən bütün dəmir tərkibli mineralların 87 %-i aşağı keyfiyyətlidir (dəmirin tərkibi 16-40 %). Belə xammallar zənginləşmə tələb edir. Rusiya yüksəkkeyfiyyətli birləşmələrin yalnız 12 %-ni hasil edir ki, bu hasilatın da 60 %-dən çoxu dəmir tərkiblidir. Metallurgiya üçün daha keyfiyyətli xammal Avstraliya materikindədir (64 % Fe). Cədvəl 2-dən göründüyü kimi, dəmir filizi istehsalında öndə gedən ölkələrdən biri də Hindistandır. Hindistanda filiz sənayesinin durmadan artımı müşahidə olunur. Bu ölkə üzrə 2020-ci ilə göstəricilərin 35 % artması proqnoz edilir. Hesablamalara görə, mövcud hasilat saxlanılarsa bu strateji xammal ilə dünya təsərrüfatı özünü 250 il dəmirlə təmin edə biləcəkdir.

Ümumiyyətlə, metallurgiya xammalının hasilatı və satışı ilə xüsusi şirkətlər məşğul olur. Məsələn, Rusiyada olan belə şirkətlərdən Metallinvesti və Evrazxoldinqi göstərmək olar ki, onlar da 100 mln.tona yaxın dəmir filizi məhsulu istehsal edirlər. ABŞ-ın Geoloji xidmətinin məlumatlarına uyğun olaraq, dəmir filizinin hasilatı və istehsalı bütün dünyada daima artır. Lakin bu, beynəlxalq miqyasda insanların ehtiyaclarını tamamilə ödəmir.

Dağ-mədən və metallurgiya sənaye sahəsi inkişaf edən bir çox ölkələr özünün dəmir filizi resursları kifayət etmir və onlar həmin resursları xaricdən tədarük etməli olurlar. Dəmir filizi idxal edən ölkələrin sırasına Cənubi Koreya, Yaponiya, ABŞ daxil edilir. Belə ki, maşınqayırması və sənaye sahəsi inkişaf etmiş Yaponiya və Cənubi Koreyanın özünün yataqları mövcud deyildir. Bu səbəbdən də dəmir filizini hasil edərkən iqtisadi məsrəfləri azalda bilən yeni texnologiyaların tətbiq edilməsi vacibdir. Dəmir filizi yataqlarına malik olan dünya ölkələri hasil edilmiş xammalın zənginləşdirilməsinin yeni texnologiyalarını axtarmaqdadırlar. Hətta dəmir filizi hasilatı üzrə 1-ci yeri tutan Avropa Birliyi ölkələri belə bu məhsulu idxal etmək məcburiyyətindədir. Dəmir filizi idxalı, əsasən, ölkələr üzrə aşağıdakı kimi paylanmışdır:

◊ Çin-628,2 mln.t.;◊ Fransa-17 mln.t;

◊ Yaponiya-105,5 mln.t;◊ Tayvan-14,6 mln.t;

◊ Cənubi Koreya-42,1 mln.t;◊ Niderland-9,8 mln.t;

◊ Almaniya-28,8 mln.t;

İl ərzində 2,5-3 mlrd.tona yaxın dəmir filizi hasil edilir ki, bu da dünya bazarında onun dəyərini aşağı salır. Hal-hazırda 1 t filizin qiyməti təqribən 40 $-a bərabər götürülür, rekord qiymət isə 2007 və 2011-ci illərdə 1 t üzrə 180 $ qeydə alınmışdır. Növbəti 3 ildə dəmir filizinin qiyməti tədricən azalaraq 2015-ci ildə 40 $-dan da aşağı düşmüşdür [4].

Azərbaycan regionda ən perspektivli metallurgiya ölkəsidir. Hələ 2001-ci ildə Bakıda istehsal gücü ildə 350 min ton olan müasir "Bakı Polad istehsal şirkəti" (Baku Steel Company) işə salınmışdır. Müasir Azərbaycan metallurgiyasında xüsusi çəkisi olan bu müəssisə hazırda da böyük uğurla fəaliyyət göstərir. H.Əliyev şirkətin açılış mərasimindəki çıxışında vurğulamışdır ki, metallurgiyanın inkişafı Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması üçün vacib olan dövlət əhəmiyyətli strateji məsələdir. Bu məsələnin həlli üçün respublikamızın dünya ölkələrilə iqtisadi əlaqələrin yaradılmasına imkan verən əlverişli coğrafi mövqeyi, zəngin enerji və material ehtiyatları, 160 ildən çox tarixi olan metallurgiya təcrübəsi vardır [5, s.222].

Hazırda milli iqtisadiyyatımızda metallurgiya sənayesinin daha böyük perspektivləri vardır. Bu da öz növbəsində digər sənaye sahələrinin-maşınqayırma, cihazqayırma, gəmiqayırma, energetika, məişət texnikası sənayesinin və digər sahələrin inkişafına əlverişli imkan açır. Qara metallurgiya qeyri-neft sektorunun strateji sahələrindən biri sayılır. Bu sahənin müasir texnologiyaların tətbiqi ilə inkişaf etdirilməsi, dünya bazarına rəqabətqabiliyyətli məhsullar çıxara bilən yeni müəssisələrin yaradılması başlıca məsələlərdən biridir.

Ən iri qara metallurgiya mərkəzləri olan Bakı, Sumqayıt, Gəncə və Daşkəsən bu sahədə geniş potensiala malikdir. Əlvan metallurgiyaya gəlincə, Daşkəsən alunit, Naxçıvan Muxtar Respublikası volfram, molibden, qurğuşun-sink, Kəlbəcər, Laçın, Göygöl, Tovuz, Gədəbəy rayonları qızıl və mis yataqları ilə zəngindir. Bu yataqların istismarını təmin etməklə ölkədə metallurgiyanın sürətli inkişafına nail olmaq mümkündür. Müstəqil dövlət kimi öz sərvətlərimizdən səmərəli istifadə etmək, sənaye məhsullarını dünya bazarına çıxarmaq imkanlarımız tam realdır.

Ölkə başçısının 23.04.13 il tarixli sərəncamı ilə "Azərbaycan Polad İstehsalı Kompleksi" (APİK) Qapalı SC-nin yaradılması da bu strategiya üçün bazanın formalaşdırılmasına hesablanmışdır. QSC-yə həvalə olunan əsas vəzifə polad istehsalı kompleksinin layihələndirilməsi, tikintisi və idarə olunmasından, bu sahədə yeni texnologiyaların tətbiqindən, maddi-texniki bazanın müasirləşdirilməsindən və ondan səmərəli istifadə edilməsindən ibarətdir. APİK QSC yeni texnologiyaları, texniki vasitələri tətbiq etməklə, yüksəkkeyfiyyətli poladın, digər qara metalların istehsalını, emalını, onlardan müasir tələblərə cavab verən rəqabətədavamlı məhsulların istehsalı, daxili və xarici bazarlarda satışını həyata keçirəcək. QSC həmçinin dəmir filizinin hasilatından polad istehsalına qədər bütün mərhələləri əhatə edən, habelə poladdan, digər qara metallardan hazır məhsulların istehsalı üzrə müasir zavodların və istehsal sahələrinin mühəndis-axtarış, layihələndirmə və tikintisi işlərinin həyata keçirilməsini reallaşdıracaq [6, səh.438].

Artıq APİK QSC-də ölkə rəhbərinin sərəncamından irəli gələn vəzifələrin icrasına başlanıb. Bu məqsədlə məsləhətçi şirkət də seçilib. Yaponiyanın "Marubeni Corporation" konsaltinq şirkəti Gəncə və Daşkəsəndə dəmir filizinin hasilatından polad istehsalına qədər bütün mərhələləri əhatə edəcək polad istehsalı kompleksinin yaradılması ilə bağlı Azərbaycan tərəfinə məsləhət xidməti göstərəcək. Müqaviləyə əsasən "Marubeni Corporation" bu sahədə Azərbaycanda xammal bazasını araşdıracaq, dəmir filizi hasilatı və polad istehsalında müasir texnologiyaların tətbiqi, istehsal olunan məhsulların çeşidi barədə təkliflər verəcək, ölkə və region üzrə perspektivli hesab olunan digər bazarları təhlil edəcəkdir. Məsləhətçi şirkət həmçinin istehsal ediləcək müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli məhsulların iqtisadiyyatın müxtəlif sahələrində: tikinti, maşınqayırma, neft sənayesi, gəmiqayırma sahələrində istifadə imkanları barədə müvafiq təkliflər hazırlayacaq. Hazırda Yaponiya, Kanada və İngiltərədən olan mütəxəssislər ölkəmizdə tədqiqatlara başlayıblar.

Ölkədə polad və polad məhsulların idxalının qarşısını almaq üçün APİK QSC 2015-2018-ci illərdə ölkədə mövcud müəssisələrin yenidən qurulmasını və yeni müəssisələrin işə salınmasını nəzərdə tutan tədbirləri reallaşdırmalıdır. İlkin olaraq dənəvər dəmir istehsalı, reduksiya yolu ilə dəmir istehsalı və polad istehsalı zavodları işə salınacaq. Respublikada poladdan istehsal olunan məhsulların (armatur, şveller, rels, borular, polad məftil və s.) istehsalı ilə məşğul olacaq zavod və sexlərin yenidən qurulması işləri davam etdiriləcək. SC-nin strukturunda olan "Daşkəsən Filizsaflaşdırma" ASC-də hazırda texniki bazanın yenidən qurulması, işçilərin sosial müdafiəsinin və əmək şəraitinın yaxşılaşdırılması, əməyin mühafizəsi tədbirlərinin həyata keçirilməsi, onların müvafiq sosial xidmətlərlə təmin edilməsi üçün komissiya yaradılıb və araşdırmalara başlanıb.

Azərbaycan iqtisadiyyatının və sənayesinin rəqabətqabiliyyətli inkişafı ilk növbədə iqtisadi artımın yeni keyfiyyətini təmin edən bilik iqtisadiyyatına keçidi tələb edir. Onun başlıca xarakteristikası isə yüksək texnologiyalı sahələrin dinamik inkişafı, tədqiqat və işləmələrə investisiya qoyuluşunun intensiv artımı,

məhsul və xidmətlərin elmtutumluluğunun, müəssisələrin innovasiya fəallığının yüksəldilməsi və iqtisadiyyatda innovasiya mənfəətinin artırılmasına nail olunmasıdır [6, s.12].

Mövcud ehtiyatlardan maksimum istifadə edərək onların qeyri-neft sənayesinin tələbatlarının ödənilməsinə yönəldilməsi təmin olunmalıdır. Bu amilin reallaşdırılması üçün ETT-nin ən yeni nailiyyətləri əsasında istehsalın daha da inkişaf etdirilməsi və hərtərəfli formalaşdırılmış müasir sənaye sahələrinin təşəkkülü prosesi həyata keçirilməlidir.

Qeyri-neft sənayesinin strukturunda aparılan keyfiyyət dəyişiklikləri iqtisadi siyasətin mühüm tərkib hissəsinə çevrilməlidir. Sabit iqtisadi artımın əsas mənbəyi kimi yeni texnoloji bazanın müasirləşdirilməsi vəzifəsi təmin olunmalıdır. Mövcud köhnə istehsal fondlarının və texnologiyaların həcminin tədricən azaldılması, kapital axınının köməyi ilə yenilərinin payının artması prosesi davam etdirilməlidir.

**Ədəbiyyat**

1. Əliyev İ.H.İqtisadiyyat qəzeti, № 03(998) 18-24 yanvar 2018, s.8.
2. https://expert.ru Ekspert jurnalı.
3. https://promzn.ru.
4. https://ru.wikipedia.org.
5. İqtisadiyyatın Rəqabətqabiliyyətinin Yüksəldilməsi Yolları Respublika Elmi Konfransı 17-18 oktyabr Sumqayıt 2017, s.273
6. IV Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu 26÷28 Aprel 2017 Nigde Türkiyə 496 Cild 4.

**Резюме**

***Амиров И.Б., Аллахверанов С.М.***

**Экспортные возможности металлургии в Азербайджане**

*Основная цель статьи исследование экспортных возможностей металлургической промышленности как одной из основных отраслей ненефтяной промышленности. В статье раскрываются причины развития других промышленных отраслей, вытекающих из развития металлургической промышленности.*

*В результате исследования обоснована необходимость развития металлургической промышленности с максимальным использованием существующих ресурсов.*

***Ключевые слова:*** *металлургия, ненефтяной сектор, технология, руда, сталь, импорт, экспорт, техника, производство, потребление.*

**Summary**

***Amirov I.B., Allahveranov S.M.***

**Export Opportunities of the Metallurgy in Azerbaijan**

*It is consists of the export opportunities of the industry of metallurgy one of the most important areas in the preparing article investigation being. It have been shown get up in the foundation of the development of the other areas.*

*Necessity of the developing as one of strategically areas of the non-oil sector of the metallurgy well-grounded using maximum from existing reserves in the investigations in the result of.*

***Key words:*** *metallurgy, non-oil sector, technology, ore, steel, import, export, technique, production, consumption.*

## AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ TİCARƏT ƏLAQƏLƏRİ VƏ ONUN ƏSAS İSTİQAMƏTLƏRİ

***Fərzəliyev M.M.,***
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*
***Əhmədov M.Ə.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Məqalədə Azərbaycan Respublikasının xarici ticarət əlaqələri və onun inkişaf istiqamətləri nəzərdən keçirilir. Respublikanın xarici ticarət əlaqələrinin inkişaf tarixi üç mərhələyə ayrılmış və onların əsas xüsusiyyətləri göstərilmişdir. Burada eləcə də, xarici ticarət əlaqələrinin inkişaf etdirilməsinin üç əsas istiqaməti təhlil olunur.*

***Açar sözlər:*** *xarici ticarət, "Əsrin müqaviləsi", ixrac, beynəlxalq əmək bölgüsü, rəqabətqabiliyyətlilik*

Milli iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsinin təmin edilməsinin əsas istiqamətlərindən biri beynəlxalq əmək bölgüsünün üstünlüklərindən yararlanmaqla xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsidir. Tarixən xarici iqtisadi əlaqələrin əsas forması isə xarici ticarət əlaqələri olmuşdur.

Müstəqillik illərində Azərbaycan Respublikasının xarici ticarətinin inkişaf tarixini üc mərhələyə ayırmaq olar: 1) 1991-1994-cü illər; 2) 1995-2000-ci illər; 3)2001-ci ildən sonrakı dövr.

Birinci mərhələdə ixracın səviyyəsi ildən ilə azalmaqda davam edirdi. Bu dövrdə istehsala əsaslı vəsait qoyuluşu hər il 40% azalırdı. Bu dövrün əsas əlamətdar hadisəsi 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan münasibətlərində mühüm əhəmiyyət kəsb edən atəşkəsin əldə edilməsi oldu. Atəşkəsin əldə olunması, eləcə də xarici investisiyaların cəlb edilməsi ucun "açiq qapı" siyasəti xarici neft şirkətlərinin maraqlarının Azərbaycan neftinə yönəldilməsini mümkün etdi.

1994-cü il sentyabrın 20-də dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin müqaviləsi" kimi tanınmış ilk müqavilə imzalandı. Bunula da Azərbaycanın neft strategiyasının həyata kecirilməsinə başlandı. 2001-ci ilə qədər 32 xarici şirkətin iştirakı ilə bağlanmış 21 neft müqaviləsi üzrə Azərbaycana ümumilikdə 60 milyard ABŞ dolları həcmində investisiya qoyuluşu nəzərdə tutulurdu.

İkinci mərhələdə (1995-2000-cü illər) Azərbaycan iqtisadiyyatında ixracın səviyyəsi ilk illər (1995-1998-ci illər) azalmaqda davam etsə də, istehsala (əsasən neft sektoruna) əsaslı vəsait qoyuluşu hər il təxminən 50% artırdı. Qeyd etmək lazımdır ki, yalnız 2000-ci ildə Azərbaycan Respublikası xarici ticarət dövriyyəsinin, o cümlədən ixracın səviyyəsinə gorə 1992-ci ilin səviyyəsini ötüb kecə bildi [3].

"Əsrin müqaviləsi"nə uyğun olaraq, "Azəri-Çiraq-Günəşli" neft yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında sazişin imzalanması, beynəlxalq neft müqavilələri çərçivəsində görülən işlər Azərbaycana yeni, mütərəqqi texnologiyaların gətirilməsinə və bununla yanaşı, nəqliyyat və xidmət sahələrinin inkişafına, peşəkar kadrların hazırlanmasına və minlərlə iş yerlərinin açılmasına imkan verdi [1].

1997-ci ilin noyabrın 12-də "Çıraq-1" platformasında ilk neft quyusu istismara verildi və faktiki olaraq 1998-ci ildən etibarən "Əsrin müqaviləsi" üzrə neft hasilatına start verildi. "Çıraq-1" dəniz platformasından Sənqəçaldakı Sahil terminalına və Neft Daşlarındakı kompressor stansiyasınadək sualtı boru kəmərləri çəkildi. Bakı-Novorossiysk neft kəmərində yenidənqurma işləri aparıldı və 1997-ci ilin oktyabrında kəmər istismara verildi. Bu dövrdə eləcə də "Dədə Qorqud"; "İstiqlal", "Qurtuluş" kimi iri dəniz qazma qurğuları istifadəyə verildi. 1999-cu ilin 17 aprelində Baki-Supsa neft kəməri işə salındı və Gürcüstanın Qara Dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi. Baki-Supsa neft kəmərinin illik buraxılış qabiliyyəti 5 milyon tona bərabər idi.

Neft müqavilələrinin reallaşdırılması nəticəsində və 1998-ci ildən başlayaraq neft hasilatının artması hesabına Azərbaycanın ixrac potensialı kəskin surətdə artmağa başladı. Əgər 1997-ci ildə 9 mln.ton neft hasil edilmişdirsə, 1998-ci ildə 11,4 mln. ton; 1999-cu ildə 13,8 mln. ton; 2000-ci ildə14,5 mln. ton neft hasil edildi.

Üçüncü mərhələdə, yəni 2001-ci ildən başlayaraq isə neft strategiyasının həyata kecirilməsi nəticəsində Azərbaycanın xarici ticarət dövriyyəsi, o cümlədən ixrac göstəriciləri sürətlə artmağa başladı. Xüsusilə, 2006-cı ilin 13 iyulunda Baki-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsi respublikamızın imkanlarını kəskin surətdə artırdı. Yeni neft kəmərinin ötürücülük qabiliyyəti gündə 1 mln. barel, ildə isə 50 mln. tona bərabər idi [2].

Azərbaycan Respublikasında xarici iqtisadi fəaliyyətin digər növlərinin də inkişafı məhz neft sənayesinin təşəkkülü və bu əsasda xarici ticarətin inkişafı ilə bağlıdır. Neft hasilatı və onun nəqli ilə əlaqədar birgə fəaliyyət-istehsalat kooperasiyaları yaradılmışdır. Bu kooperasiyaların fəaliyyəti isə, hər şeydən əvvəl, xarici investisiya axınını və beynəlxalq valyuta kredit əməliyyatları ilə müşayət olunur.

Müstəqillik illərində Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin müasir vəziyyətini təhlil edərək onun əsas inkişaf istiqamətlərini formalaşdıra bilərik. Ümumiləşdirilmiş şəkildə konkret növlərindən asılı olaraq, milli iqtisadiyyatda xarici iqtisadi fəaliyyətin inkişafının dörd əsas istiqamətinin olduğunu qeyd etmək olar. Bu istiqamətlər aşağıdakılardır:

- beynəlxalq əmək bölgüsünün üstünlüklərindən yararlanmaqla xarici ticarət dövriyyəsinin artırılması;
- təsərrüfatçılığın müxtəlif sahələrində xarici firmalarla birgə istehsalat kooperasiyasının təşkili;
- qarşılıqlı faydalılıq əsasında investisiya əməkdaşlığının inkişaf etdirilməsi;
- səmərəli beynəlxalq valyuta və maliyyə kredit əməliyyatlarının aparılması.

Lakin xarici iqtisadi fəaliyyətin inkişaf etdirilmə istiqamətlərinin bu cür müəyyənləşdirilməsi həddindən artıq ümumiləşdirilmiş təsnifat olardı. Bu təsnifat milli xüsusiyyətləri, konkret olaraq Azərbaycan iqtisadiyyatının inkişaf səviyyəsini, onun iqtisadi potensialını və ən nəhayət, onun milli maraqlarını tam ifadə etmir.

Müstəqillik illərində Azərbaycan Respublikasının milli iqtisadiyyatının inkişaf meyillərini, eləcə də ölkəmizin iqtisadi potensialini və onun milli maraqlarını nəzərə alaraq müasir Azərbaycanın xarici iqtisadi fəaliyyətinin prioritet sahələrini, onun əsas inkişaf istiqamətlərini aşağıdakı kimi formalaşdırmaq olar:

- ixracyönümlü milli istehsal sahələrinin inkişaf etdirilməsi;

• rəqabətqabiliyyətliliyi nisbətən aşağı olan milli istehsal sahələrinin inkişaf etdirilməsi;
• xarici ticarətdə regional prioritetlərin müəyyənləşdirilməsi.

Birinci əsas istiqamət ənənəvi ixracyönümlü istehsal sahələrinin inkişaf etdirilməsini və bu sahələrdə istehsal olunan məhsulların rəqabətqabiliyyətliliyinin təmin edilməsini hesab etmək olar. Hal-hazırda ixracın strukturunda neft və neft məhsulları üstünlük təşkil etsə də (2010-cu ildə ümumi ixracın 94,2%-i), neft sənayesinin inkişafı davam etdirilməlidir. Lakin bu zaman əsas diqqət neft emalı müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılmasına yönəldilməlidir. Bu məqsədlə respublikamızın regionlarında da neft emalı müəssisələrinin tikintisinə başlamaq olar. Bu eyni zamanda regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsini təmin edərdi. İllik neft hasilatının isə respublikamız üçün 40-50 mln. ton səviyyədə saxlanması məqsədəuyğun olardı.

Digər ixracyönümlü istehsal sahələrindən, məsələn, təbii qaz hasilatının və elektrik enerjisinin istehsalının, kənd təsərrüfatı məhsulları və onların sənaye emalı əsasında yeyinti məhsullarının, eləcə də kimya və digər sənaye məhsullarının istehsalının artırılmasını göstərmək olar. Bu məqsədlə əsas vəzifələrdən biri göstərilən məhsulların rəqabətqabiliyyətliliyinin yüksəldilməsini təmin edə bilən mütərəqqi texnologiyaların tətbiqidir.

Xarici iqtisadi fəaliyyətin inkişaf etdirilməsinin ikinci əsas istiqaməti inkişaf etdirilməsi zəruri olan, lakin texniki və keyfiyyət göstəriciləri beynəlxalq standartlara cavab verməyən istehsal sahələri üçün əlverişli iqtisadi mühitin formalaşdırılmasıdır. Bu bir tərəfdən həmin istehsal sahələrinin texniki-texnoloji göstəricilərinin yaxşılaşdirilməsını, digər tərəfdən isə analoji məhsulların idxalının yüksək gömrük rüsumları hesabına məhdudlaşdırılmasını tələb edir.

Üçüncü istiqamət xarici ticarətdə regional prioritetlərin müəyyənləşdirilməsidir. Regional prioritetlər nöqteyi-nəzərindən Azərbaycan Respublikasının xarici ticarət tərəfdaşı olan dünya ölkələrini dörd qrupa ayırmaq olar. Bu qrup ölkələr aşağıdakılardır: 1) MDB ölkələri; 2) İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələri; 3) Avropa Şurası ölkələri; 4) Digər xarici ölkələr.

Lakin bu zaman qeyd etmək lazımdır ki, hər hansı bir ölkənin eyni vaxtda müxtəlif iqtisadi birliklərə daxil olmasına baxmayaraq (məsələn, Qazaxıstan, eləcə də Azərbaycan həm MDB, həm İqtisadi Əməkdaşlıq Təşkilatı, həm də Avropa Şurasına daxildirlər), əsas məqsəd Azərbaycan Respublikasının İqtisadi Birliklərə daxil olduğu ölkələrlə mövcud birliyin xüsusiyyətlərindən asılı olaraq iqtisadi əlaqələrin qurulmasıdır.

**Ədəbiyyat**

10. Abdullayev R.S., Abbasov A.B. Neft sənayesinin iqtisadiyyatı və idarə edilməsi, Bakı, 2000, 165 s.
1. Əliyev İ.H. Xəzər dənizinin Azərbaycan nefti. Bakı, 2003.
24. Mikayılova S.M. İqtisadi təhlükəsizliyin təmin olunmasının makroiqtisadi problemləri. Monoqrafiya. Bakı: Gənclik, 2009, 400 s.

**Резюме**

***Фарзалиев М.М , Ахмадов М.А.***

**Внешнеторговые связи Азербайджанской Республики и основные направления их развития**

*В статье рассматриваются внешнеторговые связи Азербайджанской Республики и основные направления их развития. История развития внешнеторговых связей республики подразделяется на три этапа. В статье показаны основные их особенности, а также проанализированы основные направления развития внешнеторговых связей.*

*Ключевые слова: внешняя торговля, «Контракт века», экспорт, международное разделение труда, конкурентоспособность*

**Summary**

***Farzaliyev M. M., Ahmadov M.A.***

**International Trade Relations of the Republic of Azerbaijan and its Main Directions of Development**

*The article examines the foreign trade relations of the Republic of Azerbaijan and the main directions of its development. The history of development of foreign trade relations of the Republic is divided into three stages and shows their main features. And also the main directions of development of foreign trade relations are analyzed.*

***Key words:*** *foreign trade, "Contract of the Century", export, international division of labor, competitiveness*

# QİDA VƏ YEMLƏMƏ MƏHSULLARININ PRESLƏNMƏSİ TEXNOLOGİYASININ NƏZƏRİ ƏSASLARI

***Fərzəliyev M.H., Bayramova A.H.***
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Xülasə**

*Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, dənəvərlənmiş məhsulun preslənməsi 3 mərhələdə həyata keçirilir:*

*1. Sıxlaşdırma prosesinin birinci mərhələsində zərrəciklər bir-birinə yaxınlaşır, onların formaları bir-birinə uyğunlaşdırılır.*

*2. Prosesin ikinci mərhələsində kövrək və plastik dönməyən deformasiyalar baş verir.*

*3. Üçüncü mərhələdə elastiki deformasiyalar üstünlük təşkil edir, bu zaman hətta əhəmiyyətli təzyiq artımı sıxlığın əhəmiyyətsiz artımına gətirib çıxarır.*

***Açar sözlər:** faza, mexaniki, dənəvər, elastiki*

Presləmə maddələrin sıxlığını artırmaq, formasını, fazalarını, onun mexaniki və digər xassələrini dəyişdirmək məqsədilə maddələrin təzyiq ilə emal olunması prosesidir.

Bir qayda olaraq presləmə üçün presləmə maşınlarından istifadə olunur. Preslənmədən sənayenin müxtəlif sahələrində, eləcə də qida sənayesində istifadə olunur.

Dənəvər məhsul tərkib zərrəciklərinin nisbi yerdəyişməsi və həmçinin qalıq (dönməyən) və elastiki (dönən) deformasiyalar nəticəsində sıxlaşır. Sıxlaşma prosesi zamanı sıxlaşdırılan cismin mexaniki və struktur xüsusiyyətləri fasiləsiz olaraq dəyişir (şəkil 1).

Sıxlaşdırma prosesinin birinci mərhələsində zərrəciklər bir-birinə yaxınlaşır, onların formaları bir-birinə uyğunlaşdırılır. Yüksək təzyiqlər sahəsindən zərrəciklər daha zəif təzyiqlər sahəsinə doğru hərəkət edir. Sıxlaşma əsasən əhəmiyyətli deformasiya olmadan, zərrəciklərin məsaməliliyinin dəyişməsi nəticəsində baş verir. Bu mərhələdə hətta əhəmiyyətsiz təzyiq artımı emal edilən məhsulun gözə çarpan sıxlaşmasına gətirib çıxarır.




Şəkil1.Preslərdə məhsulların preslənməsinin asılılığı

Prosesin ikinci mərhələsində kövrək və plastik dönməyən deformasiyalar baş verir. Kövrək deformasiyalar zərrəciklərin dağılması ilə müşayiət olunur, onların daha sıx yığılmasına gətirib çıxarır, plastik deformasiyalar isə zərrəciklərin dağılması olmadan baş verir.

Üçüncü mərhələdə elastiki deformasiyalar üstünlük təşkil edir, bu zaman hətta əhəmiyyətli təzyiq artımı sıxlığın əhəmiyyətsiz artımına gətirib çıxarır. Əlbəttə ki, bu mərhələlər arasında dəqiq sərhəd çizmək mümkün deyil.

Presləmənin ilkin dövründə (şəkil 1) məhsul xüsusi güc tələb etmədən $h_3$ briketinin qalınlığına qədər sıxılır (presləmənin birinci mərhələsi). Sonra təzyiqin artması briketin hündürlüyünün azalmasına gətirib çıxarsa da, bu proses yavaşlayan sürətlə gedir (ikinci mərhələ). Nəhayət, hətta əhəmiyyətli təzyiq artması briketin hündürlüyündə heç bir gözlə görünən dəyişikliyə gətirib çıxarmır. Təzyiq aradan qaldırıldıqda hündürlük $h_1$ qiymətinə qədər artır və zamanlaelastiki deformasiyaların təzahürü və məhsula preslənmiş havanın genişlənməsi nəticəsində $h_2$-yə qədər artmağa davam edir.

Briketin sıxlığının göstəricisi $\beta$ sıxlaşma əmsalıdır

$$\beta = \frac{V_4 - V_3}{V_4} = \frac{h_4 - h_3}{h_4},$$

burada $V_4$ – preslənən məhsulun həcmi, m$^3$; $V_3$ – briketin həcmidir, m$^3$.

Bundan əlavə, briketləşdirmə prosesi $\varepsilon$ briketin nisbi elastik genişlənməsinin dəyəri ilə səciyyələnir:

$$\varepsilon = \frac{V_3 - V_2}{V_2} = \frac{h_3 - h_2}{h_2},$$

burada $V_3$ –briketin həcmi, m$^3$; $V_2$ –maksimal təzyiq şəraitində minimal briket həcmi m$^3$.

**Ədəbiyyat**

1. Баканов В.Н., Менькин В.К. Кормление сельскохозяйственных животных. М.: Агропромиздат, 1989, 511с.

2. Fərzəliyev M.H. Maşın və mexanizmlər nəzəriyyəsi. Bakı: ADİU nəşriyyatı, 2005.
3. Kərimov Z.H. Maşın hissələri. Bakı, 1999.

**Резюме**

***Фарзалиев М.Х., Байрамова А. Х.***
*Азербайджанский государственный экономический университет (UNEC)*

**Теоретические основы предварительной технологии прессования в пищевой и кормовой промышленности**

*В результате исследований было установлено, что уплотнение гранулированной продукции осуществляется в 3 этапа:*

*1. На первом этапе процесса уплотнения гранулы приближаются друг к другу, их формы адаптируются друг к другу.*

*2. На втором этапе процесса возникают хрупкие и пластичные необратимые деформации.*

*3. На третьем этапе преобладают эластичные деформации, в это время даже значительное повышение давление, приводит к незначительному увеличению плотности.*

***Ключевые слова:*** *фазовый, механический, гранулированный, эластичный*

**Summary**

***Farzaliyev M.H., Bayramova A.H.***
*Azerbaijan State Economic University (UNEC)*

**Theoretical Basis of Pressing Technology of Food and Feeding Products**

*As a result of the research it was found that the compaction of granulated products is carried out in 3 stages:*

*1. At the first stage of the compaction process, the granules approach each other, their shapes adapt to each other.*

*2. At the second stage of the process brittle and plastic irreversible deformations arise.*

*3. At the third stage, elastic deformations prevail, at this time even a significant increase in pressure leads to an insignificant increase in density.*

***Key words:*** *phase, mechanical, granular, elastic*

## KİMYA MÜƏSSİSƏLƏRİNİN İXRAC POTENSİALININ ARTIRILMASINDA VƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ LOGİSTİK MƏRKƏZLƏRİN ROLU

***Həmidova A.M.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Məqalədə kimya müəssisələrinin ixrac potensialının artırılmasında logistik mərkəzlərin rolu tədqiq edilmişdir. Həmçinin logistik mərkəzlərə kimya müəssisələrinin iqtisadi təhlükəsizliyi baxımından yanaşılmışdır.*

***Açar sözlər:*** *kimya müəssisələri, logistik mərkəzlər, iqtisadi təhlükəsizlik, ixrac potensialı, dünya bazarı, hazır məhsul, xammal*

Məlumdur ki, hər bir müəssisənin dinamik inkişafı və hazır məhsulların dünya bazarlarına çıxarılması strategiyası olmalıdır. Belə olan təqdirdə kimya müəssisələrinin uğurlu fəaliyyətinə və ölkənin iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsinə ümid etmək mümkündür. Bu baxımdan kimya müəssisələrinin xaricdən aldıqları xammal və materialların və yaxud, əksinə, xaricə ixrac etdikləri məhsulların yüksək səviyyədə qablaşadırılması, sığorta edilməsi və gömrük prosedurları ilə bağlı sənədləşdirmələrin yüksək səviyyədə təşkili vacib hesab olunur. Belə olduğu halda kimya müəssisəsi ilə onun xarici partnyoru arasında sıx əməkdaşlıq münasibətləri formalaşır və müəssisənin beynəlxalq aləmdə nüfuzu artmağa başlayır. Digər mühüm şərtlər kimi kimya müəssisələrinin daxili və xarici təsərrüfat və biznes subyektləri qarşısında götürdükləri öhdəliklərə müəyyənləşdirilmiş vaxtda və şərtlərlə əməl olunmasının qorunmasıdır. Buna görə də kimya müəssisəsinin logistika sisteminin təşkili və idarə edilməsində mütərəqqi dünya təcrübəsi nümunələri nəzərə alınmaqla bərabər, həm də logistika menecmentinin peşəkarlığı, hazırlığı və mobilliyi mütləq şərtlər kimi nəzərə alınmalıdır.

Ölkənin kimya müəssisələrinin ixrac potensialının genişlənməsində və bu potensialdan səmərəli istifadə olunmasında məhsulun maya dəyərinin optimallaşdırılmasının, xammal və materiallara çəkilən xərclərin, izafi sərflərinin azaldılması mühüm rol oynamışdır. Bundan əlavə, bir sıra inkişaf etmiş ölkələrin kimya müəssisələrinin inkişaf meyilləri göstərir ki, burada marketinq və logistika strategiyalarına diqqət

artmışdır. Bu istiqamətdə fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi və inkişafının intensivləşdirilməsi prosesləri diqqət çəkir.

Kimya müəssisələrinin ixrac potensialının artırılması və iqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından logistika sisteminin əsas üstün cəhətlərindən və prinsiplərindən biri logistika zənciri üzrə aparılan əməliyyatların təhlükəsizliyinin təmin edilməsinə ciddi önəm verilməsi və bu əməliyyatların mütləq formada sığortalanmasıdır. Digər tərəfdən, logistika əməliyyatları bütövlikdə müəssisənin dinamik və gəlirlik prinspilərinə adekvat səviyyədə xammal təminatı və hazır məhsulların axınları üzrə ən xırda detalları belə nəzərə alıb, xammal və məhsulların hərəkətinin, yerdəyişməsinin, yüklənməsinin, boşaldılmasının operativliyini və təhlükəsizliyini təmin edir. Logistika sisteminin səmərəliliyi bütövlikdə müəssisənin rəqabətqabiliyyətliliyin artması üçün əlavə stimullar formalaşdırır [1]. Təsadüfi deyildir ki, dünyanın məhşur kompaniyalarından olan “Deloitte”nin hazırladığı “Kimya logistikası - 2020” hesabatında qeyd olunur ki, qlobal iqtisadi transformasiyalar və qlobal iqtisadi təhlükələrin artdığı bir şəraitdə kimya xammalarından və hazır məhsullardan istifadənin maksimum səmərəli təşkili, ətraf mühitin qorunması, kimya xammal axınlarının hərəkətinin təhlükəsizliyinin təmin edilməsi, bu sahədə maksimum səmərəli fəaliyyətin təşkilində kimya logistikasının inkişafının yeni mərhələyə qaldırılması və təkmilləşdirilməsi böyük əhəmiyyət kəsb edəcəkdir. Belə ki, logistika sisteminin mövcud elementləri, mexanizmləri və praktiki alətlərin kompleks səmərəli istifadəsi hesabına bu qeyd olunan problemlərin öhdəsindən gəlməyin mümkün olacağı proqnozlaşdırılır. Belə ki, kimya müəssisələrinin strateji idarəetmə sisteminin inkişaf etdirilməsi zamanı ortaya çıxan ən mürəkkəb problemlər sırasında nəqliyyat və anbar təsərrüfatı sahələrinin müəssisənin potensialına adekvat formalaşdırlıması, inkişaf etdirllməsi və onların manevr qabiliyyətlərinin yüksək olmasının təmin edilməsidir [3].

Məlumdur ki, bir çox kimya müəssisələri xammal çatışmazlığı, xammalın fasilələrlə təchizatından yaranan problemlər nəticəsində əsas qurğuların işlərini müvəqqəti olaraq saxlamağa məcbur olurlar, anoloji proseslər və boş dayanmalar hazır məhsul anbarlarında məhsul qalığının həddindən çox olduğu hallarda da baş verir. Hətta iş o yerə çatır ki, bəzən kimya müəssisələri hazır məhsullarını müvəqqəti saxlamaq üçün əlavə anbarlar icarə etməyə, bəzi hallarda isə müəssisənin həyətində və ya hasarları boyu açıq şəkildə məhsulu saxlamağa məcbur olurlar. Əlbəttə, bütün bunlar davamlı və proqnozlaşdırlmış, uzun müddətli marketinq və satış konsepsiyasının zəifliyi ilə də izah oluna bilər. Amma, optimal logistika sistemi bütün bunları əvvəlcədən proqnozlaşdırmaq və müəssisənin ilboyu fasiləsiz (şübhəsiz, qrafik əsasında cari və yaxud əsaslı təmirlər, proflatik tədbirlər istisna olmaqla) fəaliyyəti üzrə zəruri tədbirlərin görülməsini, mal axınlarının, xammalın hərəkətinin, emalının, qablaşdırılmasının, hazır məhsulların satışının, son istehlakçılara çatdırılmasının bütöv bir tsiklini əhatə etmək iqtidarındadır. Logitsika sistemi bu proseslərdə qarşılıqlı fəaliyyətin və bunlarla əlaqədar olaraq sistemdaxili funksiyaların fasiləsiz və səmərəli yerinə yetirilməsini təmin edir[2].

Ölkəmizin kimya müəssisələri son onilliklərdə innovatik funksiyaların fəal tətbiqi prosesləri fazasına keçmişlər. Bunlarla əlaqədar olaraq, optimal innovatik fəaliyyət komponentlərindən biri kimi logistikadan, logistika sistemindən istifadənin modelləşdirilməsi və intensivləşdirilməsi tendensiyaları diqqət çəkir. Çünki bu, müəssisənin və bütövlükdə milli iqtisadiyyatın təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir.

Ölkəmizin iqtisadi təhlükəsizliyi, geosiyasi, geostrateji və geoiqtisadi maraqları və mövqeyi nəzərə alınmaqla, həmçinin ölkəmizin nəqliyyat-logistika potensialının regional və beynəlxalq nəqliyyat-logistika marşrutlarında manevrlik imkanları əsas götürülməklə, kimya müəssisələrimizin strateji hədəflərinə adekvat olan logistik modellərin tətbiqini və logistika sisteminin formalaşdırılmasını, yaradılmasını daha məqsədəuyğun hesab edirik. Ölkəmizdə regional və dünya əhəmiyyətli logistik mərkəzlərin və ya terminalların yaradılması potensialı da böyükdür. Belə mərkəzlərin yaradılması əlavə dəyərin yaradılması, sahibkarlığın daha geniş inkişaf etdirilməsi, kimya məhsullarının ixrac potensialının artırılması və sahənin iqtisadi təhlükəsizliyi baxımından səmərəli ola bilər.

**Ədəbiyyat**

1. Брыкин А.В. Инновационная логистика в системе формирования и реализации промышленной политики. Дисс. д-ра экон. наук. М.: 2009, 300 с.

2. Брагинский О.Б. Современные состояние и тенденции развития мировой и отечественной нефтегазохимической промышленности. Издательство ИНП РАН. М.: 2014, 85 с.

3. Косинова Н.Н. Развитие системы стратегического управления предприятиями промышленности. Дисс. д-ра экон. наук. Ростов - на Дону, 2008, 362 с.

**Резюме**

***Хамидова А.М.***
*Сумгаитский государственный университет*

**Роль логистических центров в повышении экспортного потенциала и укреплении экономической безопасности химических предприятий**

*В статье исследуется роль логистических центров в повышении экспортного потенциала химических предприятий. А также логистические центры изучаются с позиции экономической безопасности химических предприятий.*

***Ключевые слова:** химические предприятие, логистические центры, экономическая безопасность, экспортный потенциал, мировой рынок, готовый продукт, сырье*

**Summary**

***Hamidova A.M.***
*Sumgayit State University*

**The Role of Logistics Centers in Increasing the Export Potential and Strengthening the Economic Security of Chemical Enterprises**

*The article explores the role of logistics centers in increasing the export potential of chemical enterprises. And also the logistics centers are studied from the point of view of the economic safety of chemical enterprises.*

***Key words:** chemical enterprise, logistics centers, economic security, export potential, world market, finished product, raw materials*

## AZƏRBAYCANIN REGİONAL İQTİSADİ İNTEQRASİYA PROSESLƏRİNDƏ MÖVQEYİ

***Həmzəyeva İ.R.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyası Azərbaycan üçün daha böyük əhəmiyyət kəsb edir. Müasir dövrdə bazar iqtisadiyyatı yolunu seçən Azərbaycan Respublikası özünün geniş iqtisadi potensialını hərəkətə gətirmək məqsədilə İEÖ-nün qabaqcıl texnologiyalarını və maliyyə imkanlarını milli iqtisadiyyata cəlb edir, onlarla səmərəli əməkdaşlıq əlaqələrini inkişaf etdirir.*

***Açar sözlər:** milli iqtisadiyyat, regional inteqrasiya, səmərəli əməkdaşlıq, beynəlxalq təşkilatlar*

Regional iqtisadi inteqrasiya milli təsərrüfat mexanizmlərinin yaxınlaşmasına, qarşılıqlı uyğunlaşmasına və artımına gətirən, dövlətlərarası sazişlər formasını qəbul edən və razılaşdırılmış şəkildə dövlətlərarası orqanlar tərəfindən tənzimlənən obyektiv iqtisadi qarşılıqlı təsir prosesidir. Milli təsərrüfatların beynəlmiləlləşməsinin yeni forması olan beynəlxalq iqtisadi inteqrasiya proseslərinin əsasında müstəqil fəaliyyət göstərən subyektlərin iqtisadi maraqları və beynəlxalq əmək bölgüsü durur. Ölkələr arasında əmtəələrin və istehsal amillərinin sərbəst hərəkətini, yəni onların istehsal olunduğu və satış üçün göndərildiyi ölkələrdə ayrı-seçkilik qoyulmadan hərəkət etməsini nəzərdə tutur. Beynəlxalq iqtisadi inteqrasiya əmtəə və xidmətlərin sərbəst hərəkəti, kapital və iş qüvvəsinin beynəlxalq hərəkəti, birgə iqtisadi, valyuta maliyyə, elmi-texniki, sosial, xarici və hərbi siyasətin razılığı ilə həyata keçirilməsinə əsaslanır. Dünya dövlətləri iqtisadi inteqrasiya yolu ilə öz istehsal güclərini, istehsalın səmərəliliyini və bütün bunların nəticəsində isə əhalinin rifahını yüksəltməyə səy göstərirlər. İqtisadi inteqrasiya milli çərçivədən üstün olan və daim fəaliyyət həyata keçirən qurumların, təşkilatların, proqramların, layihələrin və mexanizmlərin biri olub beynəlxalq iqtisadi birliklərin yaradılması prosesidir [1]. Beynəlxalq iqtisadi birliklərin yaradılmasının əsas səbəbi dünya təsərrüfat sisteminə təsir edən problemləri həll edib ölkələr arasında normal ticarət münasibətlərinin qurulmasına yardım etməkdən ibarətdir. Bir sıra inteqrasiya birlikləri artıq bu problemlərin həllinə yardım edib və bundan sonra da etməkdədir. Ümumiyyətlə, Azərbaycan Respublikasında və beynəlxalq iqtisadi birliklər çərçivəsində əməkdaşlıq edən ölkələrdə demokratiyanın bərqərar olmasında, iqtisadi vəziyyətin yaxşılaşdırılmasında bazar iqtisadiyyatına keçidin tamamlanmasında, qanunvericiliyin Avropa standarları ilə sərmayə qoyuluşlarının təmin olunmasının böyük təsiri olmuşdur.

Müstəqillik əldə etdikdən sonra Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması və diplomatik münasibətlərin yaradılması dünyanın bir çox ölkələri ilə ikitərəfli iqtisadi əlaqələrin qurulmasına və ölkənin dünya iqtisadiyyatına sistemli surətdə inteqrasiyasına geniş yol açmışdır. İkitərəfli siyasi əlaqələrin qurulması iqtisadi əlaqələrin inkişafına zəmin yaratmış və qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq siyasi münasibətlərin dərinləşməsində və qarşılıqlı etimadın güclənməsi yolunda mühüm rol oynamışdır. Buradan aydın olur ki, xarici iqtisadi əlaqələrin məqbul vasitələrlə genişləndirilməsi və inkişafı yolu ilə ölkə

iqtisadiyyatının dünya ticarət sisteminə səmərəli inteqrasiyası müasir dövrdə Azərbaycan Respublikasında sosial iqtisadi inkişafın təmin edilməsinin zəruri şərtidir. Lakin bu da bir həqiqətdir ki, dünya ticarət sisteminə səmərəli daxil olmaq üçün, ilk növbədə, yaranmış şəraitdə adekvat, elmi cəhətdən əsaslandırılmış xarici ticarət siyasətinin formalaşdırılması tələb olunur.

Azərbaycanın iqtisadi potensialı və iqtisadi inkişaf dinamikasının ətraflı təhlili, o cümlədən onun xarici əlaqələrinin öyrənilməsi, ölkəmizin dünya təsərrüfatı sisteminə inteqrasiyasının güclənməsini şərtləndirən üstünlükləri aşağıdakı kimi müəyyənləşdirməyə imkan verir [2]. Əlverişli coğrafi-nəqliyyat mövqeyi ilə yanaşı, xariclə intensiv əlaqələr yaratmaq imkanını asanlaşdıran inkişaf etmiş beynəlxalq əhəmiyyətli nəqliyyat şəbəkəsinin mövcudluğu; güclü təbii-iqtisadi potensialın, o cümlədən zəngin mineral-xammal ehtiyatları, məhsuldar torpaq sahələri, əlverişli təbii iqlim şəraiti, böyük işçi qüvvəsi və s. mövcudluğu; bir sıra sahələrdə, xüsusi ilə enerji ehtiyatları üzrə güclü elmi potensial və ixtisaslı kadr ehtiyatlarının mövcudluğu; bazar münasibətlərinin yaradılmasına istiqamətlənən iqtisadi islahatların dərinləşməsi və genişlənməsi sayəsində onun dönməzliyinin təmin olunması; xarici investisiyaların cəlb olunması, onun təşviqi və qorunmasının geniş hüquqi bazasının yaradılması və həyata keçirilməsi üçün kompleks təşkilati idarəetmə işlərinin görülməsi; ölkədə xarici işgüzar dairələrlə birgə təsərrüfatçılıq fəaliyyəti ilə məşğul olan müəssisələrin yaradılması; Azərbaycan Respublikasının artıq bir çox ölkələrlə dövlətlərarası iqtisadi əlaqələrə dair müqavilələr bağlaması, bir sıra beynəlxalq müqavilə və sazişlərə qoşulması, bir neçə beynəlxalq və regional iqtisadi birliklərə daxil olması. Milli iqtisadi inkişaf strategiyalarının formalaşmasında geoiqtisadi arxitekturaya malik olması dövlət üçün əsas struktur yaradıcı amil hesab olunur. Belə geoiqtisadi inkişaf strategiyası Azərbaycan iqtisadiyyatının inkişaf potensialının geoiqtisadi prizmadan qiymətləndirilməsi, o cümlədən inkişafın əsas determinantlarının müəyyənləşdirilməsi, seçilməsi kimi məsələləri əhatə edir.

**Ədəbiyyat**

1. Həsənov R. İqtisadi siyasət: Metodologiya və praktika. Dərs vəsaiti. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2009, 282 s.

2. Şəkərəliyev A. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı; İqtisad Universitetinin nəşriyyatı, 2009.

**Резюме**

***Гамзаева И.Р.***

**Позиция Азербайджана в региональных экономических интеграционных процессах**

*Интеграция национальной экономики в мировую экономику имеет большое значение для Азербайджана. Выбравшая рыночную экономику Азербайджанская Республика, для того, чтобы привести в действие свой широкий экономический потенциал привлекает в национальную экономику передовые технологии и финансовые возможности развитых стран, а также фактически развивает посреднические отношения с ними.*

***Ключевые слова:*** *национальная экономика, региональная интеграция, эффективное сотрудничество, международные организации*

**Summary**

***Hamzayeva I.R.***

**Azerbaijan's Position in Regional Economic Integration Processes**

*Integration of the national economy into the world economy is of great importance for Azerbaijan. The newly chosen market economy of the Republic of Azerbaijan, in order to activate its broad economic potential, attracts to the national economy advanced technologies and financial capabilities of developed countries, and also actually develops intermediary relations with them.*

***Key words:*** *national economy, regional integration, effective cooperation, international organizations*

## ÖLKƏ İQTİSADİYYATININ İNKİŞAFINDA GƏLMƏ TURİZMİN ROLU

***Hüseynov N.R., Növrəsli T.N.***

*Azərbaycan Turizm ve Menecment Universiteti*

**Xülasə**

*Gəlmə turizm ölkədəki iqtisadi vəziyyət və sosial şəraitdən asılıdır. Turist fəaliyyətinin tənzimlənməsinin mövcud təşkilati strukturu müəyyən dərəcədə müasir tələbləri ödəyir.*

***Açar sözlər:*** *turizm, turist məhsulu, turist bazarı, gəlmə turizm*

Gəlmə turizm qəbul edən ölkə üçün iqtisadi cəhətdən daha məqsədəuyğundur, çünki onun fəaliyyəti pul vəsaitlərinin cəlb edilməsinə kömək edir.

Gəlmə turizm sferasında iqtisadi münasibətlərin tədricən dəyişməsi onun bazar özünü tənzimləməsinə keçidi ilə bağlıdır. Ancaq turist bazarının tənzimlənməsinin dövlət metodlarının zəruriliyi onun üstünlük və çatışmazlıqlarını – bazarın özünü tənzimləmə mexanizminin regionun mühüm sosial-iqtisadi problemlərini həll edə bilməməsinin mövcudluğu ilə bağlıdır. Turist müəssisələri tərəfindən göstərilən xidmətlərə tələb mövcud turist resurslarından və turizm sənayesinin vəziyyətindən birbaşa asılılıqdadır. Turist müəssisələri bazarda turist resursları və inkişaf etmiş turizm sənayesinin müasir vəziyyətinə uyğun gələn turist xidmətləri olmadan satıcılar qismində çıxış edə bilməzlər. Bazara turist məhsulunun əsas tədarükü turagent fəaliyyəti üzrə ixtisaslaşan turist vasitəçiləri tərəfindən həyata keçirilir. Pullarını yerləşmə və qida müəssisələrinin, nəqliyyat təşkilatlarının vəsaitlərinə xərcləyərək, muzeylərə, teatrlara və mədəniyyət və asudə vaxtın digər müəssisələrinə gedişin haqqını ödəyərək turistlər turizm sənayesinin və turist resurslarının gələcək inkişafına kömək edirlər. Sonuncuların daha yüksək səviyyəsi turist bazarının tutumunun genişlənməsinə gətirib çıxarır. Turist tələbinin artması bölmələrin infrastrukturuna kapital qoyuluşlarının artmasına və turizm istehlakının əmtəə və xidmətlərinin istehsalının real həcminin çoxalmasına səbəb olur ki, bu da iqtisadi fəaliyyətin aktivləşməsinin mütləq əlamətləridir. Turizmin əsasını qoyduğu artım impulsu zəncir üzrə iqtisadiyyatın digər sahələrinə ötürülür. Onlarda investisiya fəaliyyəti aktivləşir, yeni iş yerləri yaradılır, ticarət dövriyyəsi genişlənir, nəticədə isə, gəlir mənbələri - əmək haqları, renta mənfəət artır. Əldə olunmuş gəlirlərin artım meylinə malik olan bir hissəsi vergi daxilolmaları və digər məcburi ayırmalar formasında büdcəyə daxil olur.

Bundan başqa, dövlət xəzinəsi idxal gömrük rüsumları hesabına dolur. Bu cür toplanan vəsaitlər turist axınlarının maliyyələşdirilməsinə, əhalinin sosial cəhətdən aztəminatlı qruplarının istirahətinin təşkilinə maddi yardım göstərilməsinə, turist kadrlarının peşəkar hazırlığı sisteminin inkişaf etdirilməsinə, texnologiyaların inkişafına istiqamətlənə bilər. Turist xidmətlərinin yaranması və inkişafı müvafiq regionların turist potensialı ilə birbaşa bağlıdır.

Turist və rekreasiya fəaliyyətinə dövlət dəstəyi, tənzimlənməsi və hüquqi təminatı regional turizm bazarının və turist-rekreasiya kompleksinin inkişafı dinamikasına, turist sənayesinin subyektlərinin fəaliyyətindən müvafiq büdcə gəlirlərinin artmasına, iş yerlərinin yaradılmasına, turizm resurslarından istifadənin səmərəliliyinin artmasına müsbət təsir göstərir.

Gəlmə turizm bir sıra spesifik amillərlə əsaslanır ki, onlara da aşağıdakıları aid etmək olar: ölkədə sosial-iqtisadi şərtlərin dəyişməsi; təşkilati regional strukturların vəziyyəti; gəlmə turizmin turizm firmaları və mehmanxanalar sektoru, mədəni-əyləncəli müəssisələrin fəaliyyətinin işgüzar aktivliyi mövqeyindən imkan və perspektivləri; regionda turist reklamının keyfiyyəti.

Gəlmə turizmin sferasının iqtisadi fəaliyyətinin nəticələrinə təsir edən xarici mühit elementləri qismində aşağıdakıları ayırmaq olar: ölkədə xarici turistlər tərəfinin şəhərə (regiona) gəlişinə təsir göstərən iqtisadi şərtlərin məcmusu; diskont vasitəsilə ölkədəki pulun müvəqqəti qiymətini müəyyən edən maliyyə vəziyyəti; dünyada gəlmə turist axınlarının formalaşmasına təsir göstərən iqtisadi vəziyyət; regionda gəlmə turizm sferasına xüsusi investisiyaların cəlb edilməsi imkanını müəyyən edən maliyyə-iqtisadi vəziyyəti [1, 111-121].

Gəlmə turizm ölkədəki iqtisadi vəziyyət və sosial şəraitdən asılıdır. İqtisadiyyatın vəziyyətindən turist sənayesinin vəziyyəti asılıdır, sosial şərait isə cinayətkarlığın səviyyəsini, millətlərarası problemləri və cəmiyyətdəki sabitliyi pozan digər hadisələri müəyyən edir. Turist fəaliyyətinin tənzimlənməsinin mövcud təşkilati strukturu müəyyən dərəcədə müasir tələbləri ödəyir. Bununla yanaşı, turizm sferasında dövlət tənzimlənməsi ilə xüsusi sahibkarlıq arasında fərqin mövcudluğu da qaçılmazdır.

Gəlmə turizm biznesi gəlmə turməhsul bazarı ilə əlaqədədir. Belə qənaətə gəlmək olur ki, əsas kapitalın elementləri, altsistemlər gəlmə turizmin infrastruktur sferasının komponentləridir. Ümumi şəkildə onlar optimallaşdırma məsələlərində müvafiq idarə olunan dəyişənlər kimi təqdim edilməlidir. Buna baxmayaraq, bu cür qoyuluşda məsələlərin böyük ölçüdə olması ilə bağlı olaraq turizm sənayesinin, hər şeydən əvvəl, gəlmə turizmin elə sferalarının təkmilləşdirilməsi istiqamətlərini tədqiq etmək məqsədəuyğun hesab edilir ki, onlar bu sferanın iqtisadi səmərəliliynə ən böyük töhfə versinlər.

Büdcə ödəmələrinə əsas töhfəni turist-mehmanxana sektoru edir. Turist-mehmanxana sektorunda gəlmə turizm sektoru sənayesinin dəyərcə çox əhəmiyyətli hissəsi cəmləşmişdir. Bu vəziyyət bütövlükdə gəlmə turizmin infrastrukturunun inkişafı üzrə tədbirlərin mühüm hissəsi olaraq mehmanxana sektoru sənayesinin təkmilləşdiriməsini nəzərdən keçirməyə əsas verir. Buna müvafiq olaraq gəlmə turizmin infrastrukturunun inkişafı yollarının seçilməsi turist-mehmanxana kompleksi obyektlərinin təkmilləşdirilməsinin (modernləşdirilməsi və yenisinin tikilməsi) optimal variantlarının nəzərdən keçirilməsi kimi qələmə verilir. [2, 56-59].

Gəlmə turizmin inkişafı aşağıdakı üstünlükləri verəcəkdir.: xarici valyutanın axını və müvafiq olaraq əhalinin gəlirlərinin artması (ölkəyə gəlmə-ölkədən getmənin aktiv strukturu şəraitində); - ümumi milli məhsulun artımı; - qəbul edən regionun vergi yığımları və digər daxilolmaları səbəbindən büdcənin doldurulması; - yeni iş yerlərinin yaradılması, yəni əhali məşğulluğunun artması; - kapitalın, o cümlədən xarici kapitalın cəlb edilməsi; - multiplikator effekti – turizm sferasını inkişaf etdirərək ölkə tədricən digər sahələri də inkişaf etdirir; regionlarda və bütövlükdə ölkə üzrə həm turistlər, həm də yerli əhali tərəfindən istifadə edilə bilən infrastrukturun inkişafı. Gəlmə turizmin çatışmazlıqlarına aşağıdakıları aid etmək olar: - yerli istehsal təyinatlı əmtəə və xidmətlərin qiymətlərinin artması; - bir sıra hallarda torpaq və digər təbii resurs və daşınmaz əmlakın qiymətinin qarşısıalınmaz artımı; - turizm idxalı zamanı pulun xaricə axması; turizmin mövsümi xarakteri; - ekoloji və sosial problemlər. Xarici turizmin əsas xüsusiyyəti ondan ibarətdir ki, ölkənin iqtisadiyyatına təsir turistlərin tələb və istehlakı vasitəsilə baş verir. Belə turist istehlakının spesifik xüsusiyyəti odur ki, bu cür əmtəə və xidmət turistlərə və istehlakçıya çatdırılmır, məhz turist-istehlakçının özü həmin əmtəə və ya xidmətin istehsal və istehlak edildiyi yerə gəlir. Məhz istehlak funksiyası vasitəsilə turizm ayrıca regionun, hətta ölkənin təsərrüfat fəaliyyətini inkişaf etdirir və zənginləşdirir. Nəticə olaraq, yerləşdirmə vəsaitlərinin, qida və nəqliyyat müəssislərinin, gəlirləri səviyyəsi artır, idman obyektləri, mədəniyyət və təhsil müəssisələri inkişaf edir və s. Ümumi və xüsusi təyinatlı bütün müəssisələrin əmtəə dövriyyəsi artır. Gəlmə turizmin iqtisadi inkişafın aləti kimi əhəmiyyətli potensiala malik olmasına baxmayaraq bütün iqtisadi problemlərin panaseyası (problemləri aradan qaldırma vasitə) deyildir. Hökumət öz ardınca inkişafı aparan xərcləri göz önünə alaraq turizmdən mənfəətin maksimallaşdırılması deyil, optimallaşdırılması üçün səy göstərməlidir. Xarici turizmdə biz, əsasən, hər hansı diqqətəlayiq yerlərə gəlməkdən təəssüratları satırıq, yəni söhbət tarixi, mədəni, arxitektur, etnoqrafik və digər resurslardan gedir. Xidmətlər istehsalının vəsaitləri (mehmanxana, restoranlar, nəqliyyat) bizdə qalaraq gələcəkdə də yeni-yeni turistləri qəbul etməyə imkan yaradır. Qeyd etmək lazımdır ki, xaricilərə turist xidmətləri vergilər və əlavələr şəklində böyük artırmaları özündə ehtiva edən pərakəndə qiymətlər üzrə satılır. Nəhayət, demək olar ki, hər bir turist ənənəvi ixrac kanalı ilə satıla bilməyən böyük miqdarda gündəlik istehlak mallarını əldə edir.

Gəlmə turizmin inkişafı – bir çox ölkənin, o cümlədən Azərbaycanın daxili və xarici siyasətinin mühüm aspektidir, o, əksər hallarda həmin ölkələrin iqtisadi sistemlərinə valyuta daxilolmalarının ciddi mənbəyi, regional əmək bazarlarının sabitləşdirilməsi amili, ümumdünya proseslərinə daxil olmağın vasitəsi hesab edilir. İqtisadiyyata təsirlə yanaşı gəlmə turizm yerli cəmiyyətlərin sosial sferasına və mədəni yerlərinə böyük təsir göstərir.

Azərbaycanın müasir turizm imici, əsasən, sovet keçmişi əsasında yaranmışdır. Ölkədə turizmin inkişafının daxili problemləri sırasına aşağıdakıları daxil etmək olar:

- turist infrastrukturunun qeyri-kafi inkişafı;
- turist xidmətləri üzrə yüksəldilmiş qiymətlər;
- qeyri-kafi rahat nəqliyyat;
- turizm sferasında peşəkar kadrların qıtlığı;
- xarici dillərdə turist naviqasiyasının olmaması.

Bu gün ümumqəbul olunmuşdur ki, turizmi planlaşdırma prinsiplərini tətbiq edərək idarə olunan, nəzarət olunan və kompleks əsasda inkişaf etdirmək lazımdır. Bu cür yanaşma sayəsində turizm ciddi ekoloji və sosial problemlərə səbəb olmayaraq konkret regiona əhəmiyyətli iqtisadi fayda gətirə bilər. Belə şəraitdə turist resursları gələcəkdə istifadə üçün təkrar istehsal ediləcəkdir.

Milli və regional planlaşdırma dövlətin, onun regionlarının, turist mərkəzlərinin, mehmanxanalarının, ictimai iaşə müəssisələrinin, nəqliyyatın turist infrastrukturunun inkişafı üçün əlverişli şərait yaradır. Bu planlaşdırma səviyyəsi məlum ölkədə və beynəlxalq səviyyədə turizmin inkişafının təmin edir, yəni onun beynəlxalq turizm bazarında rəqabətqabiliyyətli edir.

**Ədəbiyyat**

1. Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi. Bakı, 2002.
2. Soltanova H.B., Hüseynova Ş.H. Turizmin əsasları. Bakı, 2007.

**Резюме**

***Гусейнов Н.Р., Новрасли Т.Н.***
*Азербайджанский институт туризма и менеджмент*

**Роль проездного туризма в развитии экономики страны**

*Приезд туристов зависит от экономического и социального положения в стране. Деятельность туристов регулируется существующими организационными структурами, которые в некоторой степени оплачивают современную потребность.*

***Ключевые слова:*** *туризм, продукции туриста, рынок туризма, проездной туризм*

**Summary**

***Huseynov N.R., Novrasli T.N.***
*Azerbaijan Institute of Tourism and Management*

**The Role of Travel in the Development of the Country's Economy**

*The arrival of tourists depends of the economic and social situation in the country. The activity of tourists is regulated by existing organizational structures, which to some extent meets modern requirements.*

***Key words:*** *turism, tourist product, tourist market, travel*

# İNNOVASİYA QURUMLARI AQRAR SAHƏNİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASI VASİTƏÇİSİ KİMİ

***Köçərli H.R.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə***

*İstənilən dövlətin, sahənin innovasiya siyasəti innovasiya fəaliyyətinin inkişafına və stimullaşdırılmasına yönəldilən sosial-iqtisadi siyasətin tərkib hissəsidir. Aqrar sahədə innovasiya siyasəti dedikdə-bu sahədə elmi- tədqiqatların, təcrübi- konstruktor işləri və ya hər hansı elmi-texniki nailiyyətlərin tətbiqi ilə iqtisadi dövriyyədə reallaşan yeni və ya təkmilləşdirilmiş texnoloji proseslərin, yeni və ya təkmilləşdirilmiş məhsulların yaradılması nəzərdə tutulur.*

***Açar sözlər:*** *aqrar sahə, innovasiya qrumları, aqrotexnopark, biznes inkubatorları*

İnnovasiyanın aqrar sahədə müvəffəqiyyətli inkişafını təmin etmək üçün innovasiya qrumlarının yaradılması zəruridir. Aqrar sahədə innovasiya qrumlarına aşağıdakılar aid edilir: aqrotexnoparklar; elmi-sənaye mərkəzləri; inteqrasiya edilmiş elm – təhsil- universitet- akademiya kompleksləri; elmi-istehsal birlikləri; assosiasiyalar, seleksiya mərkəzi, kənd təsərrüfatı üzrə sınaq məntəqələri; konstruktor biroları və laboratoriyaları, biznes inkubatorları; innovasiya- məsləhət mərkəzləri; aqrosənaye tipli xüsusi zonalar; regional- sahəvi aqroklastrlar. Bir sıra geniş yayılmış özəl qrumlar olan injinirinq və digər sahələr üzrə məsləhət firmalarıdır. İnnovasiya qrumlarının içərisində aparıcı yeri aqrotexnoparklar tutur. Bu qurum elm, təhsil və istehsalın inteqrasiyasını özündə birləşdirir. Aqrotexnoparklar yeni innovasiya məhsullarının yaradılmasının bütün mərhələlərini- elmi-tədqiqat, yaradılması və reallaşdırılmasını yerinə yetirir. Aqrotexnoparkların tərkibinə aşağıdakı struktur elementləri daxildir: tədqiqat (innovasiya) mərkəzi; tədris; innovasiya məsləhət; marketinq; mühasibat və audit; istehsal zonası.

Klassik texnoparklarda biznes inkubatorları da fəaliyyət göstərir. Aqrotexnoparklarda elm və təhsil sahəsinin mülkiyyəti əsasən dövlətə məxsus olur. Qeyd edilən innovasiya qrumları yeni universitetlərin və akademiyanın tədris- istehsal ərazisində fəaliyyət göstərir və onların maddi- texniki bazasından və elmi nailiyyətlərindən ödənişsiz istifadə edir. Azərbaycanda aqrar sahənin müasir durumu innovasiyayönümlü iqtisadiyyatın inkişaf etdirilməsi üçün bir sıra tədbirlərin həyata keçirilməsini zəruri edir. Burada biz, fikirimizcə, müəyyən etdiyimiz tədbirlərin arqumentləşdirilməsinə və əsaslandırılmasına toxunmayacağıq, onların yalnız konturlarını verəcəyik.

Aqrotexnopark innovasiya prosesinin elə infrastruktur obyektləri kompleksindən ibarətdir ki, aqrar elmin intellektual potensialının inteqrasiyasını innovasiya prosesinin bütün mərhələlərinə: elmtutumlu elmi-texniki məhsulun işlənilməsi, sınaqdan keçirilməsi, istehsal edilməsi və geniş miqyasda reallaşdırılmasına yönəldir. Dünya təcrübəsində, innovasiya strategiyasının müxtəlif formaları vardır: hücum xüsusiyyətli; müdafiə xüsusiyyətli; imitasiya xüsusiyyətli; asılılıq xüsusiyyətli. Əgər məqsəd dünya bazarlarında liderlik mövqeyini tutmaqdırsa, onda hücum xüsusiyyətli strategiya tətbiq edilir. Əgər qarşıya qoyulan məqsəd liderdən geri qalmamaq, onun ardınca getmək kimi qoyularsa onda müdafiə xüsusiyyətli strategiya tətbiq edilir. İmmitasiya strategiyası hər iki qrupun nailiyyətlərindən istifadə etmək və səhv etməmək məqsədi qarşıya qoyulan halda tətbiq edilir. Asılılıq xüsusiyyətli strategiya isə özünü qorumaq məqsədi qarşıya qoyulan halda tətbiq edilir[1].

Qeyd edilən bu strategiyalar ayrı- ayrılıqda və onların müxtəlif kombinasiyaları ilə aqrar sahədə tətbiq edilə bilər. Yeri gəlmişkən, qeyd edək ki, Milli İnnovasiya Sisteminin alt sistemi olan aqrar sahənin İnnovasiya Mərkəzinin strukturu elə təşkil edilməlidir ki, seçilən innovasiya strategiyasının həyata keçirilməsinə zəmin yaratsın. Aqrar sahənin innovasiya fəallığının gücləndirilməsində sahə müəssisələrində elm tutumlu texnologiyaların tətbiqi xüsusi yer tutur. Sadalananlara nail olmaq üçün aşağıdakıların yerinə yetirilməs izəruridir:

- İnnovasiyanın investisiyalaşdırılmasında təkcə dövlət dəstəyindən deyil, eyni zamanda daxili və xarici müəssisələrin investisiyalarından da istifadə etməli;

• Texnoloji yeniliyin, ödənilmə müddətinin və iqtisadi risk səviyyəsinin azaldılması;

• Yeni perspektivli texnologiyalar haqqında informasiyanın yayılmasının sürətləndirilməsi;

• Yeni məhsula olan tələbatın və bazar infrastrukturunun inkişaf etdirilməsi;

• Ixtiraların potentləşdirilməsinin və mütərəqqi texnologiyaların lisenziyalaşdırılmasının, onların ölkə daxilində və xaricdə satışının gücləndirilməsi;

• ölkə daxilində hazırlanmış innovasiya məhsullarının sənədləşdirilməsinin, beynəlxalq müqavilələrin, məsləhət xidmətlərinin beynəlxalq standartlara uyğun olması;

• Azərbaycanın kənd təsərrüfatı üzrə elmi- tədqiqat institutlarının və Azərbaycan Kənd Təsərrüfatı Universitetinin elit toxumların və yüksək məhsuldarlığa malik olan cins heyvanların təsərrüfatçılıq subyektlərinin əldə edilməsinə həmçinin təsərrüfatın elmi əsaslarla idarə edilməsinə köməklik göstərmələri.

Yuxarıda qeyd edilən bütün tədbirlər və bu kimi tədbirlərin həyata keçirilməsi Azərbaycanda aqrar sahənin iqtisadiyyatının innovasiyayönümlü iqtisadiyyata keçməsinin sürətləndirilməsinə təkan verəcəkdir. Yeri gəlmişkən, aqrar sahənin innovasiyayönümlü inkişafının əsas istiqamətlərini qeyd edək [2]. Bu istiqamətlər ümumiləşdirilmiş şəkildə aqrotexniki, texnoloji və təşkilati–iqtisadi qruplara ayrılır. Aqrar sahənin innovasiyayönümlü inkişafının aqrotexniki istiqamətinə aşağıdakılar daxildir: torpağın becərilməsində intensiv səpin üsullarından və digər mütərəqqi texnologiyalarından istifadə edilməsi; yeni yüksək məhsuldarlıqlı və tez inkişaf edən heyvan və quş cinslərinin alınması və istifadə edilməsi; suvarmanın genişləndirilməsi və suvarılma işlərinin təkmilləşdirilməsi; gübrələrdən, bitkilərin qorunmasında kimyəvi və bioloji vasitələrdən istifadə edilməsi. Aqrar sahənin innovasiyayönümlü inkişafında rol oynayan ən əsas şərtlərdən biri istehsalın zəruri olan resurslarla və vasitələrlə təmin edilməsidir. Azərbaycanın aqrar sahəsində innovasiyayönümlü iqtisadiyyatın inkişafının zəruri şərtlərindən biri də kənd təsərrüfatı istehsalının sənayeləşdirilməsi və intensivləşdirilməsidir.

Aqrar sahədə elmi- tədqiqatların, işlənilmələrin təcrübi- konstruktor işləri və ya hər hansı elmi- texniki nailiyyətlərin tətbiqilə iqtisadi dövriyyədə reallaşan yeni və ya təkmilləşdirilmiş məhsulların, və texnoloji proseslərin yaradılması nəzərdə tutulur. Aqrar sahənin innovasiya siyasəti innovasiya fəaliyyətinin prioritetlərinin qəbul edilməsi, yerli məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi, dayanıqlı iqtisadi artımın, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə ölkənin texnoloji və ekoloji təhlükəsizliyinin təmin edilməsinə yönəldilən tədbirlər sistemidir.

Aqrar sahədənin innovasiya siyasətinin əsas məqsədləri aşağıdakılardır:

• yeni kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin artırılmasını, elmi- texniki nəticələrin səmərəli keçirmək, sosial- iqtisadi inkişaf məsələlərini həll etmək məqsədilə innovasiya fəaliyyəti üçün iqtisadi, hüquqi və təşkilati şəraitin yaradılması;

• aqrar sahənin elmi- texniki potensialının inkişafı, səmərəli yerləşdirilməsi və istifadə edilməsi, onun strukturlarının formalaşdırılması;

• aqrar sahənin iqtisadi inkişafını elm və texnikanın nailiyyətləri ilə zənginləşdirilməsini artırmaq, maddi istehsal sahələrində mütərəqqi struktur dəyişikliklərini, onların səmərəliliyini və rəqabət qabiliyyətinin təmin edilməsinə yönəldilən məsələləri reallaşdırmaq;

• texnoloji və ekoloji təhlükəsizliyini möhkəmləndirmək;

• tstifadə edilməsini həyata keçirmək.

Qeyd edilən məsələlərə nail olmaq üçün aqrar sahənin idarəetmə orqanları aqrar sahədə innovasiya ilə əlaqədar olan məsələləri həll etməlidir:

- aqrar sahədə innovasiya siyasətinin formalaşdırılması;
- aqrar sahədə innovasiya proseslərinin hüquqi bazasının yaradılması, xüsusilə innovasiya sahəsində çalışan mütəxəssislərin müəllif hüquqlarının müdafiəsi və intellektual mülkiyyətin qorunması;
- aqrar sahədə innovasiya fəaliyyətinin və bu sferada rəqabətin stimullaşdırılması;
- innovasiya risklərinin sığortalanması, köhnəlmiş məhsulların istehsalına görə qadağaların qorunması, aqrar sahədə innovasiya infrastrukturunun formalaşdırılmasında iştirak etmək.

## Ədəbiyyat

1. Tağıyev A.H.. İnnovasiya (2 saylı broşura). Bakı: Təknur, 2012, 56 s.
2. Tağıyev A.H., Köçərli H.R. İnnovasiya siyasəti. Bakı: Təknur, 2013, 154 s.

**Резюме**

***Кечарли Х. Р.***

**Инновационная структура как средство обеспечения экономически безопасной аграрной сферы**

*Инновационная система аграрной отрасли - это система мероприятий, обеспечивающих принятие приоритетов инновационной деятельности, повышение конкурентоспособности местных товаров, устойчивый экономический рост, снабжение качественными продуктами питания населения, техническую и технологическую безопасность страны.*

***Ключевые слова:****аграрный сектор, инновации, агротехнопарк, бизнес- инкубаторы.*

**Summary**

***Kocharli H.R.***

**Innovative Institutions as a Means of Ensuring an Economically Safe Agrarian Sphere**

*The innovative system of the agrarian sector is a system of measures ensuring the adoption of priorities for innovation, increasing the competitiveness of local goods, sustainable economic growth, improved products, technical and technological security of the country.*

***Keywords:*** *agricultural sector, innovation bodies, agrotechnopark, business incubators.*

## ŞİRVAN DÜZÜNDƏ EKOLOJİ ZƏRƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Qarayeva İ.R.***

*Sumqayıt Dövlət Universiteti*

***Açar sözlər:*** *təbii şərait, düzənlik, ekosistem, məhsuldarlıq, hidroloji rejim*

Regionların 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafının Dövlət Proqramının icrasının 3 ilinin yekunlarına həsr olunmuş konfransda cənab İlham Əliyev yekun nitqində Azərbaycanın bütün təsəttüfat sahələrində və eləcə də infrastruktur xidmətlərində böyük müvəffəqiyyətlər qazanılmasına və bundan sonra dövlət strukturlarında və özəl sektorlarda qazanılacaq nailiyyətlərdən danışaraq bildirmişdir ki, "Hər bir bölgədə və hər bir rayonda inkişaf, abadlıq, quruculuq, sosial layihələrin icrası və ümumiyyətlə böyük canlanma prosesi gedir. Biz keçid dövrünü artıq geridə qoymuşuq. Biz qarşıda gələcək dövrdə regionları elektrik enerjisi, yüksəksəviyyəli yollarla, yüksək keyfiyyətli kanalizasiya, infrastrukturla təmin etməliyik. Kənd təsərrüfatı məhsulları yüksək səviyyədə inkişaf etdikcə biz özümüzü yaxın illərdə kənd təsərrüfatının bütün məhsulları ilə təmin etməklə yanaşı, xarici bazarlara da çıxmalıyıq".

Göstərilənlərə nail olmaq üçün biz təbii resurslarda və eləcə də suvarma mənbələrindən, əkin dövriyyəsinə buraxılan torpaqlardan, istehsal olunan məhsullardan və s. səmərəli istifadə etməliyik.

Azərbaycan regionlarının gələcək inkişafı ilə əlaqədar olaraq cənab prezident bildirmişdir ki, "Biz strategiyamızı müəyyən etmişik və növbəti on illik üçün strateji inkişaf planımızı hazırlamalıyıq – 2013-2023-cü illəri əhatə edən strateji inkişaf planı".

Yuxarıda göstərilən taleyüklü problemlərin həyata keçirilməsi məqsədilə Azərbaycan regionlarının təbii şəraiti və təbii resurslarının tədqiqinə yüksək elmi tələblərlə yanaşmaqla təbii şəraiti və təbii ehtiyatları mühafizə sahəsində elmi və praktiki əhəmiyyət kəsb edən tədbirlər hazırlanmasına səy göstərməliyik. Deyilənlərlə əlaqədar olaraq, Şirvan düzünün təbii şəraiti və təbii ehtiyatlarının tədqiq edilməsi, onlardan səmərəli istifadə edilməsi məqsədilə ekoloji tədqiqatlara böyük ehtiyac yaranmışdır [1]. Həmin məqsədlə, ilk növbədə Şirvan düzünün təbii-tarixi şəraitini qiymətləndirməyə, müasir dövrdə təbii proseslərdə gedən dəyişikliyi və eləcə də ərazinin antropogen təsirlərinin qiymətləndirilməsinə böyük ehtiyac vardır. Problemin aktuallığını qiymətləndirən cəhətlərdən biri də ondan ibarətdir ki, müasir dövrdə (son 15-20 ildə) qlobal iqlim dəyişiklikləri də təbii, təbii-sosial proseslərə və s. güclü təsir etməkdədir. Həmin proseslər alim və mütəxəssislər tərəfindən tədqiq edilsə də, zonaların və ovalıqların irimiqyaslı tədqiqinə böyük ehtiyac vardır.

Tədqiqat zonası ilk baxışda sadə, təbii şəraitdən ibarət düzən ərazi kimi görünsə də, tarixən baş verən endogen (geoloji və geotektonik), ekzogen və eləcə də ekzoekstremal hadisələr (şiddətli isti, sel və daşqınlar və s.) antropogen proseslərin təsiri altında qalmaqla müxtəlif dövrlərdə müxtəlif dərəcədə dəyişmişdir. Ərazi özünəməxsus təbii şəraitə, təbii ehtiyatlara və təsərrüfat sahələrinə malik olduğu kimi, ekoloji gərginliyə, çirklənmələrə qarşı özünəməxsus reaksiyaya malikdir [2]. Burada çirklənmələrin bütün növləri vardır: bioloji, fiziki, kimyəvi, mexaniki, sanitar və s. Göstərilənlər təbii şəraitin, təsərrüfatın, infrastrukturun təsiri ilə yaranmaqdadır. Çirklənmədə antropogen fəaliyyət daha təsirli və dağıdıcıdır. Çirklənmənin ənənəvi mənbələri, eləcə də onun bir sferadan, komponentdən digərinə keçməsi daha çox təbii şəraitlə əlaqədardır. Burada iqlim (küləklər, yağıntılar, sinoptik şərait və s.), torpaqlar, bitki örtüyü bir çox halda təbii təmizləməni nizamlaya bilmir (Şəkil 1.). Bəzi yerlərdə kənd təsərrüfatı, sənaye sahələrində, infrastrukturlarda çirkləndirməyə yol

verilən həddi aşırlar. Nəzərə almaq lazımdır ki, çirklənmə növlərinin müddəti bir çox halda təbii şəraitin təsirindən asılı olaraq davam edir. Onları hər zaman müşahidə etmək və aradan qaldırmaq çox halda çətin olur [3].

Ərazinin bütün rayonlarında, xüsusilə rayon mərkəzlərində, tikinti sahələrində, magistral yolların kənarında mexaniki çirklənmələr, kənd yaşayış məntəqələri ətrafında, şəhər və qəsəbələrdə məişət tullantılar geniş yayılmışdır. Məişət və sənaye tullantıları içərisində metal, xüsusilə dəmir tullantıları daha çoxdur.



Şəkil 1.

Təbii şərait və təbii ehtiyatların qiymətləndirilməsində əsas məzmun ondan ibarətdir ki, insanın yaşaması və əmək fəaliyyəti üçün əlverişli şərait yaradan təbii komponentlər yararlılıq dərəcəsindən asılı olaraq qiymətləndirilir. İndiyə qədər Şirvanın təbii şəraiti və təbii ehtiyatlarından istifadənin səviyyəsi qismən təsərrüfat tarix vasitəsilə məlum edilmişdir və demək olar ki, Şirvanda bağçılıq, xüsusilə quru subtropik meyvəçiliyi və eləcə də üzümçülük üçün əlverişli şərait mövcud olmuşdur. Süni suvarma ilə taxılçılıq, çəltikçilik üçündə əlverişli şərait vardır. Şirvan düzündə kənd təsərrüfatı əsasən regional əhəmiyyətli heyvandarlıqdan, xüsusilə iribuynuzlu mal-qaranın yetişdirilməsi üçünəlverişlidir. Qeyd etməliyik ki, Şirvanda nəinki adı çəkilən sahələrin, eləcə də quşçuluğun, balıqçılığın da inkişaf etdirilməsi üçün əlverişli təbii şərait vardır. Həmin şəraiti, eləcə də ekoloji mühiti daha əlverişli etmək məqsədilə təbiəti bərpa və yerli əhəmiyyətli təbiəti rekonstruksiya və bərpa işləri aparmaq lazım gəlir [4].

Qeyd edildiyi kimi, ekoloji problemlər, əsasən, təbii və antropogen faktorların birgə təsiri nəticəsində baş verir. Şirvan düzünün ekoloji cəhətdən ekspert qiymətləndirilməsi hibrid şəkildə həyata keçirilə bilər. Ekspert modelləşmə ekoloji durumun antropogen və təbii faktorlardan asılılığını əks etdirir (Şəkil 1).



**Şəkil 1.**

Azərbaycanın digər zonaları kimi Şirvan düzünün təbiəti və təsərrüfatı qismən mütəxəssislər tərəfindən öyrənilmişdir. Lakin Azərbaycanda düzən ərazilərə irimiqyaslı – diferensial yanaşmalar lazımı səviyyədə həyata keçirilməmişdir. Hətta, rayonlaşdırma sahəsində böyük təcrübələrə malik mütəxəssislər, Arxitektura və Şəhərsalma sahəsində və s. Kür-Araz ovalığına daxil olan düzənlikləri kifayət dərəcədə fərqləndirmir. Qeyd etmək lazımdır ki, layihə institutunun təcrübəsində düzən və yaylalardan ibarət ərazilərin layihələrinin tərtibi təcrübəsi olmuşdur. Onlar aşağıdakı tiplərdə həyata keçirilirdi: 1. sənaye şəhərləri ilə şəhərətrafı istirahət yerləri; 2. ərazisi, sənaye üçün məhdud istifadə edilən irihəcmli kənd təsərrüfat regionu; 3. kurort-rekreasiya regionu; 4. landşaftı, flora və faunası qorunmalı olan ərazilər, yasaqlıqlar regionu; 5. genişmiqyaslı urbanizasiya üçün yararlı ola biləcək, lakin müxtəlif landşaft-bərpa, mühəndis-konstruktiv tədbirlər aparılacaq regionlar. İkinci tip region Şirvan düzünə tam uyğun gəlir.

Şirvan düzünün sahəsi Azərbaycanın ərazisinin 7 faizindən bir qədər artığını təşkil edir. Ərazinin 63 faizə qədəri, yəni 392,2 min hektarı kənd təsərrüfatına yararlı hesab edilir. Gostərilən sahənin 29 faizə qədəri (179,6 min ha) əkinə yararlı, 31 faizdən çoxu örüş yeridir.

Qeyd etmək lazımdır ki, Şirvanda torpaqlardan hələ kifayət dərəcədə səmərəli istifadə edilmir, bəzi yerlərdə ekoloji tələblərə lazımi səviyyədə riayət olunmamışdır. Hər bir təbii-tarixi dövrlərdə kortəbii də olsa torpaqlardan istifadə sahəsində müəyyən təcrübə toplanmışdır. Məsələn, torpaqlar dincə qoyulurdu, əkinlər, bağlar, həyətyanı sahələr, təbii sədlər və xiyabanlar, qoruqlar, meşəliklər, örüşlər, kələsərliklər olunurdu. Göstərilənlər mikroiqlim yaradaraq rütubəti nizamlayır, güclü küləklərdən ərazini mühafizə edirdi. Belə təbii-mədəni landşaftlar biomüxtəlifliyin yaranmasına, təbii və mədəni bitkilərin normal tozlanmasına da şərait yaradırdı.

Bununla yanaşı, qeyd etməliyik ki, suvarma mənbələrinə yaxın ərazilərdə bağların, meşəliklərin salınması, yaxud da onların süni suvarma sistemi ilə təmin edilməsi təbiəti bərpa və rekonstruksiya edilməsinə şərait yaradır.

Torpaqların yararlıq dərəcələrinin qiymətləndirilməsi, onlardan təyinatına görə istifadəsinin planlaşdırılması mühüm əhəmiyyət kəsb edir (Cədvəl 1). Cədvəldən aydın olur ki, zonada kənd təsərrüfatına yararlı torpaqlar düzgün strukturlaşdırılmır. Ərazinin bəzi yerlərində də torpaqlardan səmərəli istifadə edilmir. Hər şeydən əvvəl ərazidə meşə örtüyü 2,7 % təşkil edir. Bu ölkəmizin meşə örtüyündən 3,5-4 dəfə, tələb olunan ekoloji normadan 9-10 dəfə aşağıdır. Əgər meşələrin yararlılıq dərəcəsini müqayisə etsək, Şirvan düzündə meşələr yox dərəcəsindədir. Şirvan düzündə meşələrin 16,8 min ha olması ekoloji tələbatı ödəməməklə yanaşı təbiidir ki, azda olsa meşə materiallarına olan tələbatı da ödəmir [5]. Bununla yanaşı, ən problem məsələlərdən biri də odur ki, məşələr zəif olması ilə qoruyucu əhəmiyyəti də yox dərəcəsindədir. Deyilənlər Şirvan düzünün ekoloji şəraitində olan ən mühüm çatışmamazlıqdır.

Bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatına yararlı torpaqların strukturunda xeyli dəyişikliklər yaradılmışdır. Torpaqlar bələdiyyələrin, xüsusi mülkiyyətçilərin, dövlətin ixtiyarına verilmişdir. Xüsusi mülkiyyətçilər torpaqlarından səmərəli istifadə edilməsində, məhsuldarlığın artırılmasında mühüm yer tuturlar.

**Cədvəl 1.**

**Torpaqların kənd təsərrüfatına yararlılığı (ha)**

| Rayon-lar | Ümumi sahə | K/t-na yararlı sahə cəmi | | O cümlədən kənd təsərrüfatına yararlı sahələr | | | | | | | | | | Həyət-yanı sahələr | | Meşə fondu torpaq-ları | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Əkin | | Çoxillik əkinlər | | Dincə qoyul. | | Biçənək | | Örüş | | | | | |
| | | *Sahə* | *%* | *Sahə* | *%* | *Sahə* | *%* | *Sahə* | *%* | *Sahə* | *%* | *Sahə* | *%* | *Sahə* | *%* | *Sahə* | *%* |
| Ağdaş | 102305 | 57818 | 56,62 | 28822 | 49,77 | 742 | 1,3 | 1845 | 3,2 | 1107 | 1,9 | 25302 | 43,7 | 6103 | 5,9 | 9225 | 9,0 |
| Göyçay | 75527 | 49426 | 65,45 | 20102 | 40,67 | 5030 | 10 | - | - | - | - | 24294 | 49,1 | 6081 | 8,0 | 210 | 0,3 |
| Ağsu | 108393 | 77852 | 71,83 | 35346 | 32,61 | 3467 | 4,4 | 829 | 10,0 | 492 | 0,6 | 37718 | 48,4 | 2959 | 2,7 | 3108 | 2,8 |
| Ucar | 83398 | 38203 | 45,82 | 18583 | 48,64 | 194 | 0,5 | - | - | - | - | 19426 | 50,8 | 6806 | 8,1 | 210 | 0,2 |
| Zərdab | 87670 | 56344 | 64,27 | 30506 | 54,15 | 466 | 0,8 | - | - | - | - | 25372 | 45,0 | 2022 | 2,3 | 220 | 0,2 |
| Kürdə-mir | 166296 | 112412 | 67,62 | 46198 | 41,09 | 1276 | 1,1 | 43 | 0.0 | - | - | 64895 | 57,7 | 7770 | 4,6 | 739 | 0,4 |
| Yekun | 623589 | 392055 | 62,90 | 179557 | 45,79 | 11175 | 2,8 | 2717 | 0,7 | 1599 | 0,4 | 197007 | 50,4 | 31741 | 5,1 | 13712 | 2,2 |

Yuxarıda göstərildiyi kimi, torpaqların düzənlikdə olmasına baxmayaraq, mürəkkəb təbii əsasa və mürəkkəb struktura malik olması onlardan istifadə məsələsində özünəməxsus problemlər yaratmışdır. Ən başlıcası odur ki, torpaqların suvarma mənbələrindən istifadəsi, meliorasiya işlərinin aparılması, texnikadan, gübrələrdən və s. istifadə edilməsi yeni tipli birliklərin yaradılmasını tələb edir. Xüsusilə, torpaqların mühafizə edilməsi daha müasir tədbirlər tələb etməklə yanaşı, onların rayonlardaxili, rayonlararası səviyyəsində aparılması tələb edilir [6].

Düzən Şirvanın təbii resurslarının qiymətləndirəlməsi torpaqların səciyyəsindən və konfiqurasiyasından, səth sularının oroqrafik xüsusiyyətlərindən, ərazinin suvarma üçün yararlığından, eləcə də maddələr və enerji axınının hərəkət istiqamətindən və intensivliyindən, ekstremal proseslər və onların təkrarlanmasından asılı olaraq ərazinin ekoloji sistemlərinin xüsusiyyətlərini, ekomeliorativ tədbirlərə olan

tələbin müəyyən edilməsinə və həyata keçirilməsinə şərait yaradır. Deyilənlər eyni zamanda, ərazidə aparılacaq təbiəti bərpa və mühafizə tədbirlərinin elmi əsaslarla həyata keçirilməsinə şərait yaranmış olar.

**Ədəbiyyat**


1. Aslanov H.Q. Torpaqların meliorasiyası Bakı, 2004, 352 s.
2. Göyçaylı Ş.Y. Coğrafi ekologiyanın əsasları. 2010, 406 s.
3. Ümummilli lider H.Ə.Əliyevin 90 illik yubileyinə həsr edilmiş "Qlobal dəyişkənliklər şəraitində geosistemlərin təbii ehtiyat potensialının qiymətləndirilməsi və səmərəli istifadəsi" mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları [Mətn] /baş red. R.M.Məmmədov; red. hey. E.K.Əlizadə; Azərb. Coğrafiya Cəmiyyəti; AMEA, H.Ə.Əliyev adına Coğrafiya İnstitutu. Bakı: Avropa, 2013, 436 s
4. Алиев В.Г., Сафарли С.А. Перспективы развития сельского хозяйства Азербайджана в условиях глобального потепления. Баку, 2011, 1089, с. 879
5. Гаджизаде А.М. Природные ресурсы и естественные условия развития промышленности Азербайджанской ССР. Баку, 1983, 173 с.
6. Низамзаде Т.Н. Окружающая среда аграрного региона и ее деградация в условиях техногена (на примере Талдомского района Московской области). Автореферат диссертации на соискание ученой степени кандидата географических наук.


**Резюме**


***Караева И.Р.***
***Сумгаитский государственный университет***


**Оценка экологических потерь в Ширванской области**


*В статье оцениваются природные условия и природные ресурсы Ширванской равнины, как признак, формирующий благоприятные экологические условия. При этом основной целью является разделение зоны исследования в зависимости от пригодности природных компонентов,которые в свою очередь создают благоприятные условия для жизнедеятельности и трудоспособности населения.*



***Ключевые слова:*** *природные условия, низменность, экосистема, плодородность, гидрологический режим*


**Summary**


***Qarayeva I.R.***
***Sumgayit StateUniversity***


**Estimation of Ecological Loss in Shirvan Region**


*The article is devoted to natural conditions of Shirvan plain's natural resources as a basic social process with agricultural evaluation as a sign of forming the favorable environmental conditions.In environmental evaluation of Shirvan natural resources and natural conditions the main goal is pointed evaluation according to natural components which create favorable life conditions and population's work ability.*



***Key words:*** *natural conditions, lowland, ecosystem, productivity, the hydrological regime*


## PEŞƏ-İXTİSAS TƏHSİLİ KRİMİNAL HADİSƏLƏRİN QARŞISININ ALINMASINDA ƏSAS VASİTƏLƏRDƏN BİRİ KİMİ


***Qurbanova İ.M.***
*AMEA-nın İqtisadiyyat İnstitutu*


***Xülasə***


*Məqalədə cinayət hadisələrinin qarşısının alınmasında təhsilin, o cümlədən peşə təhsilinin əhəmiyyətli rolundan bəhs olunur. Peşəyə, ixtisasa mailk olmayan gənclərin hüquqa zidd hərəkətlərə yol verməsi işsizliklə əlaqələndirilir. Çıxış yolu kimi isə onların peşə-ixtisas təhsili ilə əhatəliliyinin yaxşılaşdırılması, bununla da məşğulluq səviyyəsinin artırılması göstərilir.*



***Açar sözlər***: *peşə təhsili, məşğulluq, gənclər, işçi qüvvəsi, peşə-ixtisas təhsili ilə əhatəlilik, cinayət.*


Müasir dövrdə cəmiyyətin mümkün qədər çox hissəsinin keyfiyyətli təhsillə təmin olunması və peşə-ixtisas təhsili ilə əhatə olunma səviyyəsinin yüksəldilməsi dövlətin təhsil siyasətinin əsas məqsədlərindən birini təşkil edir. Belə ki, ölkənin yüksək inkişafını və güclü iqtisadiyyata malik olmasını təmin edən əsas mənbələrdən biri yüksək ixtisaslı və rəqabətqabiliyyətli kadrların müntəzəm hazırlanmasını təmin edən keyfiyyətli təhsil sisteminin olmasıdır. İnsanın həm şəxsiyyət, həm də kadr kimi yetişdirilməsi bütövlükdə

təhsil sisteminin ayrı-ayrı pillələrində həyata keçirilir. Bu da gələcəkdə onun tələbatlarını qənaətbəxş şəkildə ödəyə biləcək iş tapmasına zəmanət verir. Buna görə də gənclərin təhsildən kənarda qalmasına yol vermək olmaz.

Yuxarıda sadalanan məsələlərin həllində peşə təhsilinin rolu böyükdür, çünki hər bir Azərbaycan gəncinin hər hansı peşəyə və ixtisasa yiyələnməsi çox vacibdir. Gənclərin səmərəli məşğulluğunun təmin olunması ölkə iqtisadiyyatının inkişafının, əhalinin yaşam keyfiyyətinin və bir çox sosial problemlərin həlli ilə yanaşı, sağlam nəsillərin yetişməsinə də bir körpüdür.

Tədqiqatlar göstərir ki, hər il ən azı 40 mindən artıq gənc peşə-ixtisas təhsili ala bilmir. Lakin peşə təhsilinin şəbəkəsini genişləndirməklə bu gənclərin də müəyyən peşə bacarıqları qazanmalarına şərait yaratmaq olar. Əks halda işsiz-peşəsiz insanların kriminal hadisələrin üzvünə çevrilməyəcəyinə heç kim zəmanət verə bilməz. Aşağıda təsvir olunmuş cədvəldəki göstəricilər də bunu deməyə əsas verir.

*Cədvəl 1*-dən göründüyü kimi, 14-17 yaşlı cinayət törədənlərin sayı hər il təxminən 400-500 nəfər (təxminən 3%) olmasına baxmayaraq, cinayət törədənlərin tərkibində təhsil alanların sayı 122-dən aşağıdır. Belə görünür ki, 14-17 yaşlarda, yəni, orta məktəb yaşında olan gənclərin heç də hamısı təhsilə cəlb olunmayıb. Deməli, peşə-ixtisas təhsilinə cəlb olunmayanların da sayı az deyil. Ən yuxarı göstəricilər isə 18-24 yaş qrupu üzrədir, hansılar ki, məhz peşə-ixtisas təhsili almaq yaşında olan gənclərdir. 14-29 yaşlı gənclər isə cinayət törədənlərin orta hesabla 40 faizini təşkil edir.

Təəssüflə qeyd olunmalıdır ki, 7 faizə qədər qadınlar da belə hadisələrin iştirakçıları sırasındadır və onların arasında 14-18 yaşlılar da vardır. [1, s. 43]

**Cədvəl 1.**

**Cinayət törətmiş şəxslərin sosial-demoqrafik əlamətlərinə görə bölgüsü (*nəfər*)**

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|
| **Cəmi** | **18689** | **18612** | **17030** | **14841** | **15560** | **16322** | **16676** |
| *yaşına görə* | | | | | | | |
| 14-15 | 79 | 102 | 80 | 112 | 127 | 115 | 114 |
| 16-17 | 360 | 373 | 410 | 402 | 354 | 362 | 328 |
| **14-17 yaşlıların cəmi** | **439** | **475** | **490** | **514** | **481** | **477** | **442** |
| *ümumi saya görə, %* | *2,3* | *2,6* | *2,9* | *3,5* | *3,1* | *2,9* | *2,7* |
| 18-24 | 3367 | 3452 | 3272 | 2950 | 3045 | 2968 | 2855 |
| 25-29 | 3270 | 3424 | 3219 | 2837 | 2915 | 2958 | 3147 |
| **14-29 yaşlıların cəmi** | **7076** | **7351** | **6981** | **6301** | **6441** | **6403** | **6444** |
| *ümumi saya görə, %* | *37,9* | *39,49* | *41,0* | *42,5* | *41,4* | *39,2* | *38,6* |
| 30 yaş və yuxarı | 11613 | 11261 | 10049 | 8540 | 9119 | 9919 | 10232 |
| *məşğuliyyətinəgörə:* | | | | | | | |
| fəhlələr | 523 | 488 | 455 | 427 | 389 | 395 | 352 |
| Qulluqçular | 601 | 618 | 511 | 496 | 424 | 407 | 393 |
| təhsilalanlar | 122 | 117 | 112 | 109 | 117 | 88 | 76 |
| digər məşğulluq növləri üzrə | 1908 | 2240 | 2283 | 2389 | 2622 | 3441 | |
| **əməkqabiliyyətli yaşda olub işləməyən və oxumayanlar** | **15535** | **15149** | **13669** | **11420** | **12008** | **11991** | **12751** |
| *ümumi saya görə, %* | *83,1* | *81,4* | *80,3* | *76,9* | *77,2* | *73,5* | *76,5* |
| *ümumi saya nisbətdə qadınlar, %* | *12,4* | *11,1* | *9,8* | *6,8* | *6,2* | *6,9* | *6,2* |
| Mənbə: Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar. Statistik məcmuə. Bakı, 2017. s. 35, 43, 46 məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. | | | | | | | |

Bütün cinayət törədənlərin ümumi sayında heç bir məşğuliyyəti olmayan əmək qabiliyyətli şəxslər üstünlük (77 %-ə qədər) təşkil edir. Bu da onu bir daha sübut edir ki, faydalı bir işlə və yaxud təhsillə məşğul olanlar cinayətlərdən daha uzaqdırlar.

Nəzərə almaq lazımdır ki, bu gənclərin əksəriyyəti oğurluq edənlərdir, onlar sanki bunu özlərinə peşə seçmişlər. Bu da ondan irəli gəlir ki, peşə-ixtisas təhsilləri yoxdur, özlərinə münasib iş tapmaqda çətinlik çəkirlər, maddi ehtiyaclarını ödəməyi əyri yollarda axtarır, bir tərəfdən öz nəfsinin, digər tərəfdən də işsizliyin qurbanına çevrilirlər. Cəmiyyət isə potensial işçi qüvvəsini itirir (iqtisadiyyatda faydalı işçilər olacaqları təqdirdə, vaxtında düzgün tərbiyə və peşəyönümü olmadığına görə potensial cinayətkarlara çevrilirlər). 400-500 rəqəmləri başqa bir halda çox kiçik görünə bilər, lakin söhbət cinayətkarların sayından gedirsə xüsusilə yeniyetmə və gənclər bunlar çox böyük rəqəmlərdir. Bu 500 ailə, 500 ailə başçısı, 500 ər, 500 ata və nəhayət, 500 nəfər yararlı işçi qüvvəsi deməkdir.

Narkotik maddələrin dövriyyəsi ilə bağlı məhkum olunanların statistikasına baxsaq, görərik ki, bu cinayətlərin də böyük əksəriyyəti işləməyən və oxumayanlar tərəfindən törədilir.

Ümumiyyətlə, cinayət törədənlərin 70%-dən çoxunu işləməyən və oxumayan əməkqabiliyyətli şəxslər təşkil edir.

Belə halları yaradan səbəblər aradan qaldırılmalıdır, gənclərin asan qazanc yolu axtarmasını qabaqlayan tədbirlər həyata keçirilməlidir. Əsas rol isə təhsil sisteminə məxsusdur, lap erkən yaşlarından düzgün tərbiyə, əməksevərliyin aşılanması, keyfiyyətli təşkil olunmuş əmək təlimi dərslərinin artırılması, islam dini dəyərlərinin (orada həm tərbiyə, həm hər kəs üçün faydalı öyüd-nəsihət, həm cəmiyyət qarşısında öz borclarını, insani vəzifələrini dərk etmək, həm də halal qazanc barədə zəruri biliklər kompleks şəkildə öz əksini tapmışdır) öyrədilməsi çox vacibdir.

Bir daha aydın olur ki, insan həyatında təhsil və məşğuliyyətin rolu son dərəcə önəmlidir və cinayət hallarının daha az olmasına, beləliklə də, sağlam cəmiyyətin formalaşmasına zəmanətdir.

Hər bir insanın yaxşı yaşamaq, təhsil almaq, layiqli işlə məşğul olmaq haqqı vardır. Bütün bunlar ölkənin ali qanunvericiliyi olan konstitusiyamızın 35, 42-ci maddələrində də öz əksini tapmışdır. [2]

Elə gənclərin peşə təhsilinə cəlb olunmsının vacib məqsədi onlara doğru həyat yolu seçməkdə kömək göstərmək, onları səmərəli işçi qüvvəsinə çevirməkdir və bununla həm vətəndaşın faydalılığını, həm də ölkədə iqtisadi inkişafı artırmaqdır. Nəzərə alsaq ki, həmin gənclər potensial işçi qüvvəsidir, onları sadəcə olaraq taleyin öhdəsinə buraxmaq olmaz. Buna görə də cəzaçəkmə müəssisələrinin nəzdindəki (Ədliyyə Nazirliyinin islah əmək müəssisələrində 8 peşə məktəbi fəaliyyət göstərir) peşə məktəblərinin fəaliyyəti yaxşılaşdırılmalı, oradakı gənclərin azadlığa çıxmadan öncə mütləq bir peşəyə yiyələnməsi üçün imkanlar artırılmalıdır. Onları həm cəmiyyətə, həm də iqtisadiyyata yararlı vətəndaş və keyfiyyətli işçi qüvvəsi kimi qazandırmaq lazımdır. Bundan başqa, bu cür gənclərin işlə təminatı barədə də ciddi tədbirlər görülməlidir, çünki işsizlik və maddi çətinlik keçmiş məhbusun yenidən əvvəlki əməllərinə dönməsinə səbəb ola bilər, xüsusən də pis vərdişləri var idisə. Ona görə də elə şərait yaradılmalıdır ki, məhkumluq həyatı yaşamış gənc azadlığa çıxan kimi normal həyata qayıda bilsin, bunun üçün isə o dərhal müvafiq işlə təmin olunmalıdır ki, cəmiyyətdə özünü faydalı insan kimi hiss etsin və bu, tədricən onun həyat tərzinə çevrilsin.

**Ədəbiyyat**

1. Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar. Statistik məcmuə. Bakı 2017. 101s.
2. Azərbaycan Respublikasının Konstitusiyası. 46 s. www.president.az. constitution_a.pdf

**Резюме**

***Гурбанова И.М.***

**Профессиональное образование как одно из главных средств в предотвращении криминальных событий**

*В статье отмечается значимость роли образования, и в том числе профессионального образования, в предотвращении криминальных событий. Нелегальные действия, допускаемые молодежью не имеющими профессии и специальности, связывается с безработицей. В качестве выхода подчеркивается улучшение охвата молодежи профессиональным образованием и тем самым повышения уровня их занятости.*

***Ключевые слова**: профессиональное образование, занятость, молодежь, рабочая сила, охваченность профессиональным образованием, преступление.*

**Summary**

***Gurbanova I.M.***

**The Professional Education as one of the Main Means to Prevent of Crime Incidents**

*In the article important role of education, is noted, including vocational education in the prevention of criminal incidents. The illegal behaviors of young peoples, who don't have profession and*

*specialty, are connected with unemployment. The way out is to improve their coverage with vocational education and thereby increasing employment.*

***Key words**: vocational education, employment, young people, workforce, surround with professional education, crime.*

## SOVET RUSİYASININ AZƏRBAYCAN SSR-DƏ İQTİSADİ MARAQLARI (1920-1921-Cİ İLLƏRDƏ)

***Məhərrəmov S.Q.***
*Sumqayıt Dövlət Universiteti*

***Açar sözlər:** kənd təsərrüfatı, milliləşdirmə, müəssisə, mülkədar, əmlak*

Azərbaycan Xalq Cümhuriyyətinə düşmən mövqeyi nümayiş etdirən sovet Rusiyası nəinki onun müstəqilliyini heç zaman tanımamış, əksinə bir an belə onun müstəqilliyinə təcavüz etmək niyyətindən vaz keçməmişdi. Azərbaycanın işğalı üçün Rusiya bolşevikləri tərəfindən ölkəmizdəki sol qüvvələr də səfərbər edilmiş, Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz Diyar Komitəsinin Bakı Bürosunun 1918-ci il aprelin 22-də keşirilmiş müşavirəsində həmin ayın 27-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə ultimatum verilməklə Bakıda silahlı üsyana başlanılması haqqında qərar qəbul olundu [4, s.238]. 1918-ci ilin aprelində Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra qarşıda dayanan əsas məqsəd onu iqtisadi cəhətdən asılı hala salmaq idi. Bunun üçün tezliklə mülkiyyəti ictimailəşdirmək, ona sərəncam vermək hüququnun bir qrup partiya-təsərrüfat işçisinin simasında bolşevik rəhbərlərə vermək vacib idi. 1920-ci ilin mayın 5-də Azərbaycan İnqilab Komitəsinin ilk qanunverici aktlarından olan torpaq haqqında dekreti ilə torpaq üzərində xüsusi mülkiyyət rəsmən ləğv edilirdi [8, s.16]. İri mülkiyyətçilərdən, habelə kilsə, monastır və vəqflərdən müsadirə olunan torpaqlar “heç bir ödənc olmadan, torpaqdan bərabər istifadə prinsipi əsasında dərhal zəhmətkeş xalqa” verildiyi bəyan edilirdi. Həmin dekret ilə Azərbaycan kəndlisi 1382947 desyatin torpaq alır, onların xəzinəyə və sahibkarlara ödədiyi illik 6 milyon qızıl rubl miqdarında vergi ləğv edilir, sahibkar torpaqlarından istifadə müqabilində onlara illik 3 milyon rubl dəyərində 1 milyon pud taxılı natura ilə ödəməkdən azad olurdu [9, s. 8]. Tarixçi alim F.İbrahimli çox düzgün olaraq torpaqların bərabərçilik prinsipi əsasında bölüşdürülməsi müddəasının bolşeviklərin aqrar proqramına uyğun gəlmədiyini qeyd edir [6 , s.25]. Həqiqətən də, bolşeviklər torpağın milliləşdirilməsinin, yəni dövlət mülkiyyətinə verilməsinin tərəfdarı idilər; bunun əsasında tədricən kolxoz və sovxozların yaradılması güman edilirdi. Torpaqların bərabərçilik əsasında bölüşdürülməsi ideyası isə eserlərin “sosiallaşma” haqqında proqramının özəyini təşkil edirdi.

Mülkədar torpaq sahibliyinin ləğvi və torpaqların bölüşdürülməsi üçün yerlərdə xalq torpaq komissarlığına tabe qəza və kənd torpaq komitələri təşkil edildi. Nəzərdən qaçırılmamalıdır ki, torpaqların bölüşdürülməsi xaotik şəkildə baş verməkdə idi. Çünki torpağın kəndlilər arasında bərabərçilik əsasında bölüşdürülməsi nəticəsində daha çox torpağa malik kənddən torpaq sahəsi kəsilib digər kəndə verilir, kəndlilər isə bir torpaq sahəsindən digərinə köçürülürdü [6, s.36]. Məsələni mürəkkəbləşdirən bir amil də Azərbaycanda torpaq quruluşu işlərinin, yəni torpaqların dəqiq təsvirinin 1920-ci illərdə başa çatdırılmaması idi. Azərbaycan İnqilab Komitəsinin 13 iyun 1920-ci il tarixində respublika ərazisində olan bütün kənd təsərrüfatı texnikasının, anbarların Xalq Torpaq Komissarlıqlarının sərəncamına verilməsi məqsədilə dekret verir [10, s.98]. Əvvəllər hərbi kommunizm siyasətinə uyğun olaraq kəndlilər məhsulun yalnız acından ölməmək üçün onlara saxlanan kiçik bir hissəsindən başqa, hamısını dövlətə verməyə məcbur idi. 1920-ci il avqustun 26-dan taxıl ticarəti dövlət inhisarına alınmışdı. Elə həmin vaxtlar Bakının, əsasən, erməni və rus fəhlələrindən təşkil edilmiş xüsusi ərzaq dəstələri kəndlərə göndərilir, camaatın öz kasıbçılığı üçün saxladığı taxıl, yağ, mal-qara, yem əllərindən alınırdı. Mülkədarlar, varlı kəndlilər sovetləşmənin elə ilk günlərindən mülklərini, təsərrüfatlarını atıb getmiş və ya mübarizə üçün gizlənmişdilər. Buna görə də zərbə, əsasən, zəhmətkeş ortabab və yoxsul kəndlilərə dəyirdi. Onlar dilənçi vəziyyətinə düşmüşdülər. Respublika rəhbərliyi N.Nərimanov başda olmaqla, xüsusi komissiya təşkil edib 1920-ci il sentyabrın 30-dan oktyabrın 14-dək qəzalarda vəziyyətlə tanış olmuşdu. N.Nərimanovun oktyabrın 12-də Şuşadan teleqramla verdiyi əmrdə qeyd olunurdu ki, kəndlilər şikayətlənirlər ki, İnqilab komitələri, Ərzaq agentləri və qırmızı ordu hissələri nümayəndələri tərəfindən sonuncu tikə çörək, axırıncı atı, iş heyvanı mənimsənilir. Bu cinayətkarlığa, biabırçılığa son qoyulmalıdır. Milliləşdirmə sahəsində digər tədbirlər də iqtisadiyyata rəhbərliyi bir əldə - bolşeviklərin əlində cəmləşdirməyə və mərkəzin mənafeyinə uyğun qurulmasına şərait yaratdı. 1920-ci ilin mayın 15-də respublika ərazisində meşələr, sular, yeraltı sərvətlər, mayın 27-də neft sənayesi, iyunun 1-də Xəzər ticarət donanması, iyunun 9-da banklar, habelə balıq sənayesi, iyunun 12-də “Elektrik qüvvəsi” və s. özəl müəssisələr, iyunun 21-də Tağıyevin fabriki, sonrakı aylarda tütün, sement,

şüşə, yağ, sabun, dağ-mədən, pambıqtəmizləmə zavodları və s. müəssisələr milliləşdirildi. Ümumiyyətlə, 1920-ci ilin may-dekabr aylarında təkcə Bakıda 299 sənaye sənaye müəssisəsi milliləşdirilmişdi [5]. Nərimanov iddia edirdi ki, milliləşdirməni proqram xatirinə deyil, ölkəyə fayda verilməsi naminə aparmaq lazımdır. Hələ Azərbaycanın sovetləşməsi ərəfəsində "Bizim Türküstanda siyasətimiz" adlı məqaləsində (21 mart 1920) o yazırdı: "İri istehsal milliləşdirilməli ikən xırda istehsal müəyyən vaxta qədər tərəfimizdən hətta təşviq edilməlidir" [11, s.265]. Aprel çevrilişi öncəsi Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi qarşısında Azərbaycanla bağlı məruzəsində Nərimanov bir daha kiçik müəssisələrə toxunmamağı və ticarətə icazə verməyi məsləhət görmüşdü [7, s.419]. Təsərrüfatı idarə etmək üçün Azərbaycan Xalq Təsərrüfatı Şurası (sədri əvvəllər S.P.Solovyov, az sonra B.A.Talıblı) təşkil edildi. Yüngül və yerli sənaye sahələrində firmalar ləğv edildi. 200-dən çox müəssisə milliləşdirildi. Əvvəllər neft təsərrüfatını idarə edən 272 xüsusi neft sənaye firması ləğv olundu. Neftin cəmi 15 faizi onun həqiqi sahibinə - Azəraycana verilirdi. Lakin bunu da respublika tam ala bilmirdi. Azərbaycanda əhaliyə neft başqa respublikalardakından baha satılırdı. Kənd təsərrüfatında da əməyin sosialist təşkilat formaları tətbiq olunmağa başlamışdı. 1920-ci ildə H.Z.Tağıyev, Ziyadxanov, Zülfüqarov, Şustov, Qukasov və b. mülkədarlara məxsus nümunəvi təsərrüfatların bazasında 100-ə qədər sovxoz təşkil olunmuşdu. 1920-ci ilin sonunda 3 min yoxsul kəndlini birləşdirən 32 kənd təsərrüfatı arteli, kommuna vardı. Bakı mədənləri neft qəbristanlığını xatırladırdı. Yeni quyular, demək olar ki, qazılmırdı. Gədəbəy mis, Zəylik zəy, Tovuz, Keşlə sement zavodları dayanmışdı. Tağıyev fabrikində dəzgahların üçdə biri işləyirdi. Nuxadakı 69 baramaaçan müəssisədən üçü fəaliyyət göstərirdi. 46 pambıqtəmizləmə zavodundan ikisində iş gedirdi. 1920-ci ildə respublikada sənaye məhsulu istehsalı 1913-cü ildəkindən 57 faiz, neft çıxarılması - 2,6 dəfə, neft emalı - 2,5 dəfə, sement istehsalı 5 dəfə, pambıq-parça istehsalı 3 dəfə, Naxçıvanda duz istehsalı 48 faiz azalmışdı. Kənd təsərrüfatı bərbad vəziyyətdə idi. Suvarma sistemi dağılmışdı. 150 suvarma qurğusundan 24-ü salamat qalmışdı. 1920 və 1921-ci ilin əvvəllərində Azərbaycan ac və səfil ordunu doydurmaq və geyindirmək üçün sanki baza kimi xidmət göstərirdi. Cavanşir qəzasında mal-qara və atlar dəyər-dəyməzinə rekvizisiya edilirdi və qəza inqilab komitəsinin sədrinin buna mane olmaq cəhdləri az qala onun həbsi ilə nəticələnəcəkdi [2]. Kürdəmirdə yerli inqilab komitəsinin sədri ordu tərəfindən mal-qaranın rekvizisiyasının dayandırılmasını tələb etdikdə ərzaq komissiyası bildirmişdi ki, onlar heç bir hakimiyyətə tabe deyil, öz şəxsi təşəbbüsləri ilə hərəkət edirlər [1]. Zaqatala dairəsinin müvəqqəti müvəkkili Əliyevin Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəyə təqdim etdiyi məruzəsində (7 iyul, 1920) deyilirdi ki, "Qızıl Ordu hissələrinin vəhşilikləri haqqında təhriklərdən qorxuya düşmüş əhali qoşunlarımızın hücumu zamanı özünün bütün əmlakını ataraq, dağlara qaçmışdı" [3]. Azərbaycan Xalq Təsərrüfatı Şurasına (AXTŞ) tabe olan 20-yə qədər yüngül sənaye, habelə 37 baramaaçan müəssisə, 13 pambıqtəmizləmə zavodu, 71 balıqçılıq müəssisəsi, bəzi kiçik neftli sahələr icarəyə verildi. Son olaraq onu qeyd edək ki, 1920-1921-ci illərdə Azərbaycan iqtisadiyyatı mərkəzə tabe edilmiş, əhalinin güzəranı xeyli pisləşmişdi.

**Ədəbiyyat**


1. ARDA, f.27, s.4, iş 27, v. 7
2. ARDA, f.410, s.1, iş 121, v. 37
3. ARPİİSSA, f.1, s.1, iş 124, v. 6
4. Azərbaycan tarixi. Üç cilddə: Üçüncü cild. I hissə. Bakı: Elm, 1973, 548 s.
5. Bakinskiy raboçiy qəzeti, 1923, 27-28 aprel, №91-92
6. İbrahimli F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930). Bakı: Mütərcim, 2001, 168 s.
7. Nərimanov N. Seçilmiş əsərləri. Bakı: Lider, 2004, 496 s.
8. Декреты Азревкома. Баку: Азернешр, 1989, 519 с.
9. Дилбазов А.К. Роль союза рабочего класса и крестьянства в восстановлении народного хозяйства Аз. ССР в первые годы Советской власти (1920-1923 гг.). АКД, Баку, 1959. 31 с.
10. Магеррамов Е.А. Газета «Коммунист» (на азерб. языке) и вопросы восстановления сельского хозяйства Азербайджанской ССР (1921-1928 гг.). Баку: Нурлан, 2004, 344 с.
11. Нариманов Н. Избранные произведения. В 3-х томах. Т.2. Баку: Азернешр, 1989, 768 с.


**Резюме**


***Магеррамов С.Г.***

*Сумгаитский государственный университет*


**Экономические интересы Советской России в Азербайджанской ССР (в 1920-1921 гг.)**


*После создания Советской власти в Азербайджане основной целью было сделать ее экономически зависимой. В этот период для обоснования экономической зависимости была организована политика национализации. Эта политика была реализована не в интересах страны.*



***Ключевые слова:*** *сельское хозяйство, национализация, предприятие, арендодатель, имущество*

**Summary**

***Maharramov S.Q.***
*Sumgayit State University*

**Economic Interests of Soviet Russia in Azerbaijan SSR ( in 1920-1921)**

*After the establishment of Soviet power in Azerbaijan, the main goal was to make it economically dependent. During this period for, the justification of economic dependence the nationalization policy was organized. This policy was for the sake of the program, not for the benefit of the country.*

***Key words:*** *agriculture, nationalization, enterprise, landlord, property*

# ENERJİ TƏHLÜKƏSİZLİYİ MİLLİ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏRKİB HİSSƏSİ KİMİ

***Məhərrəmova S.R.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Məqalədə enerji təhlükəsizliyi milli iqtisadi təhlükəsizliyin tərkib hissəsi kimi nəzərdən keçirilmişdir. Həmçinin enerji ehtiyatlarından səmərəli istifadə problemlərinə də baxılmışdır.*

***Açar sözlər:*** *enerji təhlükəsizliyi, milli təhlükəsizlik, neft, qloballaşma*

Müasir şəraitdə dünyada baş verən iqtisadi proseslər milli iqtisadiyyatların inkişafına müxtəlif səviyyədə təsir göstərir. Belə ki, bir tərəfdən qloballaşma prosesi dünya ölkələri arasında əməkdaşlığın aparılmasına, inteqrasiyanın dərinləşməsinə imkan yaradırsa, digər tərəfdən dünya maliyyə böhranının gedişatına ölkələr səviyyəsində eyni dərəcədə təsir göstərmir. Belə ki, hər bir ölkədə yeridilən iqtisadi siyasətin həyata keçirilməsindən asılı olaraq onun dünya təsərrüfat sisteminə verəcəyi töhfə fərqli xarakter daşıyır. Bu baxımdan Azərbaycanda həyata keçirilən iqtisadi islahatlaşma prosesi eyni zamanda ölkənin iqtisadi təhlükəsizliyinin qorunması naminə və milli mənafelərin reallaşması baxımından həyata keçirilən iqtisadi siyasət ölkənin milli inkişaf modelini formalaşdırır ki, bu da qarşıya qoyulan iqtisadi-sosial, mədəni-ekoloji və digər tədbirlərə hədəflənən məqsədlərin uğurla həyata keçirilməsinə təkan verir. Ona görə də Azərbaycanın milli mənafelərinin qorunmasına və iqtisadi təhlükəsizliyinə təminat verən enerji təhlükəsizliyinin təmin olunması əsasında onun Avropa məkanında rolunun artmasına təkan verir. Hazırda dünyada baş verən maliyyə böhranı enerji daşıyıcılarına ciddi təsir göstərsə də, hal-hazırda enerji təhlükəsizliyi milli təhlükəsizliyin mühüm tərkib hissəsi kimi formalaşmaqdadır. Hazırda Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində Avropa ölkələri ilə aparılan iqtisadi əməkdaşlığın həyata keçirilməsi milli iqtisadi inkişaf modelinin mühüm tərəfi kimi özünü əks etdirir. Bununla əlaqədar olaraq qeyd etməliyik ki, Azərbaycanın hal-hazırda təkcə region üçün deyil, Avropanın enerjisinin təmin edilməsində rolu durmadan artır. Bu, hər şeydən əvvəl, onunla əlaqədardır ki, Azərbaycan Avropa enerji təhlükəsizliyinin təmin olunmasındakı mövqeyi birmənalı və dəyişilməz xarakter daşıyır. Ona görə ki, Azərbaycan öz enerji layihələrini uzunmüddətli əməkdaşlıq çərçivəsi daxilində qarşılıqlı faydalanma və kommersiya prinsipləri əsasında həyata keçirməyə üstünlük verir. Həm də Azərbaycan enerji təhlükəsizliyi ilə əlaqədar problemə müstəqil iqtisadi layihələrin qəbul olunduğu 1994-cü ildəki "Əsrin müqaviləsi"ndən başlayır. Avropada enerji təhlükəsizliyi məsələsi isə son illərin problemi kimi qarşıya çıxmışdır. Azərbaycanda enerji təhlükəsizliyinin təmin olunması istiqamətində Şərq-Qərb dəhlizi istiqamətində 4 boru kəməri layihəsinin həyata keçirilməsi Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə salınması ölkəmizin iqtisadi əməkdaşlığının genişlənməsi iqtisadi təhlükəsizliyin təmin olunmasına geniş şərait yaratmışdır [1].

Ölkəmiz dünyada baş verən qloballaşma prosesindən kənarda qala bilməz. Azərbaycan dünyada gedən qloballaşma proseslərinə qoşulmaq üçün öz təbii sərvətlərindən istifadə etmişdir. Bu taleyüklü məsələnin həllində əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyası önəmli rol oynamışdır. Ölkə mənafelərinin qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədilə strateji əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Tbilisi-Ərzurum (BTƏ) əsas ixrac neft və qaz boru kəməri layihələrinin gerçəkləşməsi Azərbaycan Respublikasını ümumdünya inteqrasiya proseslərinə daxil etdi və ölkəmizi dünyanın aparıcı dövlətlərinin strateji maraq kəsb edən bölgəsinə çevirdi.

Neft strategiyası nəticəsində Azərbaycan Respublikası Xəzər dənizinin nəhəng enerji potensialını ilk mənimsəyən və regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında, bir çox nəhəng layihələrin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan bir dövlətə, dünyanın neft mərkəzlərindən birinə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 13 iyul 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin açılış mərasimində söylədiyi nitqində bildirdi ki, çətinliklərə baxmayaraq, "1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanda böyük neft siyasəti başlanmışdır. Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə başlanmış Azərbaycanın yeni neft strategiyası öz imkanlarından istifadə edib bizi qarşıda duran bütün məqsədlərə çatdırdı. Xarici neft şirkətlərinin neft sektorundakı fəaliyyəti bizə imkan verir ki, Azərbaycan iqtisadi cəhətdən inkişaf etsin, neft amilindən məharətlə istifadə etsin" [2].

Milli iqtisadiyyat o zaman mökəmlənib müstəqil olur ki, onun təbii sərvətlərinin hasilatından, satışından, daşınmasından əldə olunan gəlirlər iqtisadiyyatın digər sahələrinin inkişaf etdirilməsinə, əhalinin işlə təmin olunmasına, sosial sahələrin, sosial və istehsal infrastrukturlarının inkişafına sərf edilsin.

Ölkədaxili istehlakın təmin edilməsi, milli istehsalın daxili istehlaka uyğun qurulması və ona xidmət etməsi milli iqtisadiyyatın davamlı inkişafının zəruri şərtidir. Ölkədaxili istehlak sabit olmalı və onun qeyri-sabitliyinə yol verməк olmaz, əks halda istehsalın da sabitliyi pozular. Buna görə də neft və qaz hasilatının artması ilə bütövlükdə iqtisadiyyatın, o cümlədən də sənayenin digər sahələrinin inkişafı arasında kəskin fərqin yaranmasına yol verilməməlidir. Neft hasilatının ilbəil artması ilə sənayenin inkişaf istiqaməti və quruluşunda ciddi dəyişiklər olmuşdur. Belə ki, neft-qaz sənayesinin inkişafı ölkə iqtisadiyyatının digər sahələrinin də inkişafına müsbət təsir göstərmişdir.

Azərbaycanda neft sərvətlərinin idarə edilməsinin səmərəli strategiyasının işlənməsi və onun mərhələlərlə reallaşdırılması hazırkı inkişaf dövründə müstəsna əhəmiyyət kəsb edir. Bu strategiya neft ölkəsi olan respublikamızda uzunmüddətli makroiqtisadi idarəetmənin bir çox strateji məqamlarını əhatə etməli və neft gəlirlərinin səmərəli istiqamətlərini özündə əks etdirməlidir. Strategiyanın konseptual əsasını "Holland sindromu"na yol verilməməsi prinsipləri təşkil etməlidir. Bu prinsipləri müəyyən etmək üçün ilk növbədə neft ixracatçısı olan ölkələrin iqtisadi idarəetmə təcrübələrinin müsbət və mənfi cəhətlərinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Qeyd edək ki, "Holland sindromu" neft gəlirlərinin bolluğu hesabına dövlət xərclərinin kəskin genişlənməsi ilə qeyri-neft sektorunun xərclərinin onun yığımına nisbətən artmasına və beləliklə də, bu sektorda resurs balansının pozulmasına gətirib çıxaran fenomendir. Neft gəlirlərinin artımının qeyri-sabit olması şəraitində bu meyil gələcəkdə ölkənin yığım potensialının tükənməsinə səbəb ola və makroiqtisadi sabitliyi təhlükə altına ala bilər [3].

Göründüyü kimi, Ümummilli Liderimiz Heydər Əliyevin müdrikliyinin təntənəsi olan "Əsrin müqaviləsi" respublikanın enerji təhlükəsizliyinin təmin edilməsinin əsas mənbələrindən biridir və hələ uzun müddət bu missiyanı özündə daşıyacaqdır. Lakin yeni enerji ehtiyatlarının axtarışı daima davam etməlidir, çünki yeni enerji ehtiyatlarının təsərrüfat dövriyyəsinə cəlb edilməsi ictimai həyatın bütün sahələrinin zənginləşməsinə, əhalinin artmaqda olan tələbatının hərtərəfli ödənilməsinə şərait yarada bilər. Odur ki, bu enerji mənbələrinin aşkar edilməsi və məhsuldar qüvvəyə çevrilməsi milli iqtisadiyyatın tarazlıq şəraitində davranışının, xalqın mənafelərinə uyğun şəkildə inkişaf etməsinin və bütövlükdə ölkənin iqtisadi təhlükəsizliyinin rəhni olacaqdır.

**Ədəbiyyat**

1. Əliyev Ü.Q. Keçid dövrünün milli iqtisadi problemləri. Bakı: Azərnəşr, 2008, 354 s.
2. Mikayılova S.M. İqtisadi təhlükəsizliyin təmin olunmasının makroiqtisadi problemləri. Monoqrafiya. Bakı: Gənclik, 2009, 400 s.
3. Məmmədov N.M. Ölkənin iqtisadi təhlükəsizliyi. Bakı: Azərnəşr, 2005, 278 s.

**Резюме**

***Магеррамова С.Р.***

*Сумгаитский государственный университет*

**Энергетическая безопасность как неотъемлемая часть национальной экономической безопасности**

*В статье рассматривается энергетическая безопасность как неотъемлемая часть национальной экономической безопасности. Рассмотрены проблемы эффективного использования энергетических ресурсов.*

***Ключевые слова:*** *энергетическая безопасность, национальная безопасность, нефть, глобализация*

**Summary**

***Maharramova S.R.***
*Sumgayit State University*

**Energy Security is as Part of National Economic Security**

*The article considers energy security as an indefinable part of the national economic security. It also discusses the problem of effective use of energy resources.*

***Key words:*** *energy security, national security, oil, globalization*

## AZƏRBAYCAN RESPUBLİKASI İLƏ ALMANİYA FEDERATİV RESPUBLİKASI ARASINDA TİCARƏT ƏLAQƏLƏRİ

***Məhərrəmova S.S.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Almaniya dünyanın iqtisadi cəhətdən ən inkişaf etmiş ölkəsidir. Azərbaycan ilə AFR arasında iqtisadi münasibətlərin inkişafında xarici ticarət əlaqələri mühüm yer tutur. AFR ticarət sahəsində Azərbaycanın əhəmiyyətli tərəfdaşlarından birinə çevrilmişdir.*

***Açar sözlər:*** *xarici ticarət, əlaqə, saldo, iqtisadiyyat, tərəfdaş*

Azərbaycan ilə AFR arasında iqtisadi münasibətlərin inkişafında xarici ticarət əlaqələri mühüm yer tutur. AFR ticarət sahəsində Azərbaycanın əhəmiyyətli tərəfdaşlarından birinə çevrilmişdir. 1990-cı ildə Azərbaycan ilə Almaniya arasında ümumi mal dövriyyəsi 755.0 min ABŞ dolları olmuşdur ki, onda idxalın payı 410.0 mln dollar, ixracın payı 345.0 min dollar, saldo – 65.0 min dollar olmuşdur. 1992-ci ildə AFR ilə ticarətdə Azərbaycanın idxalı 12941,5 min dollar, ixracı 9620,6 min dollar, ticarət balansı -3320,9 min dollar olmuşdur. 1993-cü ildə 728.7 min ABŞ dolları ümumi mal dövriyyəsi olmuşdur ki, onda idxalın payı 382.6 min dollar, ixracın payı 346.1 min dollar, saldo -36.5 min dollar olmuşdur. 1995-ci ildə 953.0 min ABŞ dolları ümumi mal dövriyyəsindən 508.4 min dollar idxalın, 444.6 min dolar ixracın payına düşmüşdür, saldo – 63.8 min dollar olmuşdur. 1996-cı ildə Azərbaycanın Almaniya ilə idxalı 77242,8 min ABŞ doları, ixracı 3069 min ABŞ dolları, saldo – 74173,5 olmuşdur [1, s.231]. 1997- ci ildə 958.1 min dollar ümumi mal dövriyyəsinin 512.5 min dolları idxalın, 445.6 min dolları ixracın payına düşmüş, saldo -66.9 min dollar olmuşdur. 1998-ci ildə Azərbaycanla Almaniya arasında idxal 46706,1 min ABŞ dolları, ixrac 5572,1 min ABŞ dolları, saldo isə -41134.0 olmuş [2, s.395]; 1999-cu ildə Azərbaycanın Almaniya ilə xarici ticarət əlaqələrində idxalın payı 46254,1 min ABŞ dolları, ixracın payı isə7623,2 min ABŞ dolları, xarici ticarət saldosu -38630,9 olmuş [3, s.517]; 2000-ci ildə Azərbaycanın Almaniya ilə xarici ticarət əlaqələri idxalda 67552,3 min ABŞ dolları , ixracda 8293, 0 min ABŞ dolları, saldo -59259,3 olmuş [4, s.578-582]; 2001-ci ildə Azərbaycanın Almaniya ilə xarici ticarət əlaqələrində idxalın payı 72840,3min ABŞ dolları, ixracın payı 12864,2 min ABŞ dolları, saldo -59976,1 olmuş [5, s.632]; 2002-ci ildə Almaniya ilə 83453,9 min ABŞ dolları idxal əməliyyatı, 28773,3 min ABŞ dolları ixrac əməliyyatı aparılmış, saldo -54680,6 olmuş [6, s.635]; 2003-cü ildə isə Almaniya ilə 169902,9 min ABŞ dollarlıq idxal, 7307,2 min ABŞ dollarlıq ixrac əməliyyatı aparılmış, saldo -162595,7 olmuşdur [7, s.669].

Azərbaycanda aparılan ardıcıl və sistemli iqtisadi islahatlar ölkə rəhbəri İ.Əliyev tərəfindən uğurla davam etdirilir. 2004-cü il 11 fevral tarixli Prezident Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramı (2004-2008-ci illər) bütün ölkə ərazisinin inkişafını təmin etmişdir. Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının hesablamalarına görə, 2005-ci ildə Azərbaycanda ÜDM-un artımı 26,5 faiz olmuşdur. 2006-cı ilə Azərbaycanda ÜDM 34,5 faiz, 2007-ci ildə 30 faiz, 2008 – ci ildə isə 25 faiz olmuş, ticarət dövriyyəsi 6 dəfə artmışdır. Son iki ildə Azərbaycan ÜDM artımına görə liderdir. Respublika 2008-ci ildə də yüksək artım tempinə malik olmuşdur. Prezidenti İlham Əliyev 2007-ci ilin fevralında AFR-ə rəsmi səfəri zamanı Kansler A.Merkel ilə birgə mətbuat konfransında bildirmişdir ki, son 10 il ərzində ölkəmizə 30 milyard dollardan çox investisiya qoyulmuşdur.

Son illərdə Almaniya ilə Azərbaycan arasında xarici ticarət əlaqələri də artmışdır. Belə ki, 2004–cü ildə 198477,8 min ABŞ dolları yəni 5,65% idxal, 37596,5 min ABŞ dolları yəni 1,04% ixrac əməliyyatı aparılmışdır ki, saldo – 160881,3 min dollar olmuş [8, s.713-718]; 2005-ci ildə Azərbaycanın Almaniya ilə əmtəə dövriyyəsi 291127,1 min ABŞ dolları, 3,4%, idxal 256325,5 min ABŞ dolları 6,1%, ixrac 34801,6min ABŞ dolları 0,8%, ticarət balansı -221523,9 min ABŞ dolları olmuşdur. 2006-cı ildə iki ölkə arasında ümumi ticarət dövriyyəsi 412,5 milyon ABŞ dollar olub ki, bunun da 9 milyon (9004.7) ABŞ dolları ixracın, 403,5 milyon (403838.5) ABŞ dolları isə idxalın payına düşür və ticarət balansı -394833.8 min ABŞ dollar olmuşdur [9, s.550-556]. 2005-ci illə müqayisədə 2006-cı ildə ümumi ticarət dövriyyəsinin

70%, idxal 57,5%, ixrac 25,9% artmışdır. 2001-ci ilə nisbətən xarici ticarət dövriyyəsi 327 milyon ABŞ dollar çoxalmışdır. 2007-ci ildə iki ölkə arasında ümumi mal dövriyyəsi 490 milyon 929 min ABŞ dollar olmuşdur ki, onda da idxalın payı 471197,8 min ABŞ dollar, ixracda payı 19731,2 min ABŞ dollar, ticarət balansı isə -451466.6 min ABŞ dollar olmuşdur [10, s.587]. 2006-cı ilə nisbətən ticarət əlaqələri 2007-ci ildə 40 faiz artmışdır.

Almaniyadan Azərbaycana, əsasən, aşağıdakı mühüm növ məhsullar idxal edilir: diri quşlar, kərə yağı, digər süd pastalar və yağlar, pendir, kəsmik, uşaq, yeməkləri, meyvə və tərəvəz şirələri, pivə, sıqarlar, siqaret, yağlar və sürtgülər, dərman vasitələri, sintetik yuyucu maddələr, plastik kütlələrdən hazırlanmış borular, şlanqlar və fitinqlər, plastik kütlədən hazırlanmış plitələr, təbəqələr, rezin şinlər, çap-poliqrafiya məhsulları, isti yayılmış polad prokatı, qara metaldan çubuqlar və armaturlar, qara metaldan künclüklər və şvellerlər, qara metaldan neft -qaz kəməri boruları, qara metaldan qazma boruları, qara metaldan digər borular, qara metaldan boru fitinqləri, metal konustruksiyalar, maye nasosları, yeyinti məhsullarının istehsalı üçün avadanlıqlar, məişət paltaryuyan maşınları, hesablama maşınları, hesablama maşınlarının blok və qurğuları, avtobuslar, minik avtomobilləri, yük avtomobilləri, tibbi elektrodioqnostik aparatlar, topoqrafik, meteroloji, geofizik cihazlar.

Azərbaycandan Almaniyaya əsasən pambıq mahlıcı, konserv məhsulları, alma şirəsi və qabığı, təmizlənmiş meşə fındığı, təzə meyvələr, nərə kürüsü, xam neft, ağ neft məhsulları ixrac olunur.

Ticarət münasibətlərinin inkişafına Almaniya-Azərbaycan Assosiasiyası təkan verir buraya 40 alman şirkəti daxildir. Təşkilatın əsas məqsədi Almaniya və Azərbaycanın iqtisadi maraqlarını birləşdirmək, hər iki ölkənin maraqlarına uyğun hərəkət etməkdir. Azərbaycan Ticarət və Sənaye Palatası Berlində öz ofisini açmışdır və iki ölkənin iş adamlarının iqtisadi ticarət maraqları uzlaşdırılır. İki ölkənin iqtisadi potensialının imkanlarını bilmək və gələcəkdə yeni əlaqələrin qurulmasına yardım etmək üçün Almaniya-Azərbaycan İqtisadiyyat günlərinin böyük əhəmiyəti vardır. Almaniya iş adamları üçün Azərbaycan cəlbedici məkandır. Almaniya-Azərbaycan əməkdaşlığında bazar iqtisadiyyatının inkişafı, iqtisadiyyatın çeşidləndirilməsi əsas yer tutur. Növbəti əsas proyektlər ardıcıl maliyyə tədbirləri vasitəsi ilə kreditlər verilmənin inkişaf etdirilməsidir. Bu işə mikromaliyyələşdirmə Bankı, Alman-Azərbaycan Fondu, Alman-Azərbaycan İqtisadi Yardım Cəmiyyəti (DAWF), özəl müştəri xidmətlərinin müdafiəsi müəssisəsi kömək edir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın statistik göstəriciləri 1999. Bakı: Səda, 1999, 435 s.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın statistik göstəriciləri 2000. Bakı: Səda, 2000, 561 s.
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın statistik göstəriciləri 2001. Bakı: Səda, 2001, 698 s.
4. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın statistik göstəriciləri 2002. Bakı: Səda, 2002, 765 s.
5. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın statistik göstəriciləri 2003. Bakı: Səda, 2003, 773 s.
6. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın statistik göstəriciləri 2004. Bakı: Səda, 2004, 801 s.
7. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın statistik göstəriciləri 2005. Bakı: Səda, 2005, 868 s.
8. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın statistik göstəriciləri 2007. Bakı: Səda, 2007, 728 s.
9. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın statistuk göstəriciləri 2008. Bakı: Səda, 2008, 774 s.
10. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Xarici ticarət 1997-2001-cı illər. Statistik məcmuə. Bakı: Səda, 2002, 175 s.


## Резюме


***Магеррамова С.С.***

*Сумгаитский государственный университет*


**Торговые отношения между Азербайджанской Республикой и Федеративной Республикой Германии**


*Германия - самая экономически развитая страна в мире. Внешнеторговые отношения играют важную роль в развитии экономических связей между Азербайджаном и ФРГ. ФРГ стала одним из важных партнеров Азербайджана в области торговли.*



***Ключевые слова:*** *внешняя торговля, связь, сальдо, экономика, партнер*

**Summary**

***Maharramova S.S.***
*Sumgait State University*

**Trade Relations Between the Azerbaijan Republic and the Federal Republic of Germany**

*Germany is the most economically developed country in the world. Foreign trade relations play an important role in the progress of economic relations between Azerbaijan and the FRG. Germany became one of Azerbaijan's substantial partners in the area of trade.*

***Key words:*** *foreign trade, communication, balance, economy, partner*

## MODERNLƏŞMƏ ŞƏRAİTİNDƏ AQRAR SAHƏYƏ DÖVLƏT YARDIMI MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

***Məmmədova E.B.***
*Azərbaycan Kooperasiya Universiteti*

**Xülasə**

*Kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqəyə mailik olan sahələr aqrar sahə qeyri-neft sektorunun ən mühüm tərkib hissələrindən biri hesab edilir və ölkə iqtisadiyyatının müasir inkişafında mühüm rola malikdir. Respublikamızın müasir durumu qeyri-neft sektorunun inkişafının dinamikasını obyektiv zərurətə çevirir və məhz bunun əsasında da dövlət büdcəsinin həcmini yüksəltmək və onun strukturunu təkmilləşdirmək mümkündür. Ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə keçirilən müşavirələrdə və Nazirlər Kabinetinin illik yığıncaqlarında iqtisadiyyatın şaxələndirilməsi və bu baxımdan kənd təsərrüfatının inkişafına xüsusi önəm verilməsi, dövlətin iqtisadi, o cümlədən aqrar siyasətinin mühüm prioritetləri kimi vurğulanır.*

***Açar sözlər:*** *aqrar sahə, aqrar islhatlar, qeyri-neft sektoru, maliyyə münasibətləri, maliyyə yardımları, maddi texniki resurslar, modernləşdirmə*

Modernləşmə şəraitində aqrar sahənin maliyyə təminatının yaxşılaşdırılması və bu sahədə maliyyə münasibətlərinin təkmilləşdirilməsinin ən başlıca istiqamətlərindən birini aqrar sahəyə dövlət yardımları mexanizmləri təşkil edir. Aqrar sahənin özünəməxsus spesifik xüsusiyyətləri bütövlükdə bu sahənin dövlət dəstəyində olmasını obyektiv zərurətə çevirir. Modernləşmə şəraitində aqrar sahəyə dövlət yardımı daha geniş məqsədləri əhatə edir. Belə ki, aqrar sahənin dövlət tərəfindən dəstəklənməsində əsas başlıca məqsədlərdən biri geniş təkrar istehsal prosesinin uğurla başa çatdırılması və mülkiyyət mənsubiyyətindən asılı olmayaraq, kənd təsərrüfatı əmtəə istehsalçılarının zərərlə işləməsinin qarşısını almaqdan və maliyyə baxımından müflisləşməsinin neytrallaşdırılmasından ibarətdir. Modernləşmə şəraitində isə aqrar sahəyə göstərilən dövlət yardımları daha geniş əhatə dairəsinə malik olur. Belə ki, modernləşmə şəraitində aqrar sahəyə dövlət yardımları nəinki aqrar əmtəə istehsalçılarının zərərlərinin kompensasiya olunmasına və kənd təsərrüfatı istehsalının iqtisadi cəhətdən səmərəli qurulmasına istiqamətlənir, eyni zamanda bu prosesə məqsədli dövlət proqramları da şamil edilir. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkənin perspektiv inkişaf hədəflərini və istiqamətlərini müəyyənləşdirmək, onların gerçəkləşdirilməsini təmin etmək məqsədilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətlərinin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamına uyğun olaraq, "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" təstiq edilmişdir. (3, səh.1). Burada əsas strateji hədəf kimi Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi dövlət siyasətinin ən mühüm istiqamətlərindən biri kimi çıxış etdiyindən növbəti illərdə də bu sahədə görülən işlər genişləndiriləcək, nəzərdə tutulan tədbirlər ölkə əhalisinin zəruri həcmdə və keyfiyyətdə ərzaq məhsulları ilə daimi əsaslarla təmin edilməsinə istiqamətlənəcəkdir. (3, səh.51). Bundan əlavə, məqsədli dövlət proqramları çərçivəsində kənd təsərrüfatında istehsalın genişləndirilməsi, eləcə də istehsalın intensivləşdirilməsinə istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsi ön plana çəkilir.

Modernləşmə şəraitində aqrar sahədə maliyyə münasibətlərinin təkmilləşdirilməsinin mühüm vasitəsi olmaqla, aqrar sahəyə dövlət yardımının hal-hazırda təkmilləşdirməyə ciddi yardımı vardır. Ümumiyyətlə, kənd təsərrüfatına dövlət yardımı sisteminin təkmilləşdirilməsi zamanı aşağıdakı prinsiplərin nəzərə alınması vacibdir:

- kənd təsərrüfatı əmtəə istehsalçıları mülkiyyət mənsubiyyətindən asılı olmayaraq, bazar münasibəti şəraitində özünümaliyyələşdirmə prinsipi əsasında fəaliyyət göstərməlidir. Dövlət tərəfindən

göstərilən dəstək tədbirləri isə əsas etibarilə həmin təsərrüfatçılıq qurumlarının fəaliyyətinin normal iqtisadi şəraitinin təmin edilməsi üçün əlavə stimul verməlidir;

- dövlət dəstəyinin mühüm vasitəsi olmaqla tətbiq edilən subsidiyalar, dotasiyalar, güzəştlər və digər tənzimləyici vasitələr əslində mülkiyyət mənsubiyyətindən asılı olmayaraq kənd təsərrüfatında səmərəli təsərrüfatçılıq fəaliyyəti həyata keçirmələrinə istiqamətlənməli və həmin vasitələr bir qayda olaraq ciddi diferensiallaşma meyarları ilə tətbiq edilməlidir;

- modernləşmə şəraitində aqrar sahəyə dövlət tərəfindən həyata keçirilən dəstək tədbirləri məqsədli proqramlar əsasında həyata keçirilməli və bu zaman regional xüsusiyyətlər və şərait nəzərə alınmalıdır. Aqrar sahəyə dövlətin yuxarıda adı çəkilən vasitələri, o cümlədən subsidiyalar, dotasiyalar, güzəştlər və digər tənzimləmə tədbirlərin istehsalın inkişafın prioritet istiqamətlərini stimullaşdırmalı, eyni zamanda mütərəqqi, təşkilati, hüquqi təsərrüfatçılıq formalarının tətbiqinə mühüm stimul yaratmalı və qeyri-istehsal xərclərinin aşağı salınmasına yönəldilməlidir.

Modernləşmə şəraitində kənd təsərrüfatına yönəldilən dövlət dəstəyi tədbirləri bir qayda olaraq prioritet sahələrin inkişafına və eləcə də elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsalda tətbiqinin stimullaşdırılmasına əsaslanır. Bu zaman torpaq resurslarının yaxşılaşdırılması, əlavə torpaqların istifadəsiz torpaqların torpaq dövriyyəsinə daxil edilməsi, iri təsərrüfatların yaradılması və bu kimi tədbirlər mühüm əhəmiyyətə malikdir.

Kənd təsərrüfatı məhsullarının istehsalında elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərini tətbiq etmək, mütərəqqi texnologiyaları yerli istehsalına cəlb etmək məqsədilə istər ərzaq, istər kənd təsərrüfatı məhsulları və istərsə də emal məhsulları üçün xammal və materialların ölkə sərhədindən keçməsi, mineral gübrələrin, yanacaq və yağlayıcı materialların, eləcə də mütərəqqi texnologiyaların ölkəyə daxil olması ilə bağlı gömrük rüsumları tamamilə aradan qaldırılmalı və həmin məhsulları ölkəyə gətirən sahibkarlar iqtisadi cəhətdən stimullaşdırılmalıdır.

Kənd təsərrüfatına dövlət yardımının ən mühüm istiqamətlərindən biri də aqrar sahəyə münasibətdə daha təkmil xarakter daşıyan, aqrar sahənin maraqlarını düzgün nəzərə ala bilən vergi siyasətinin həyata keçirilməsidir. Aqrar sahədə mövcud vergi sistemi demək olar ki, tam mənası ilə torpaq vergisi istisna olmaqla digər vergilərdən azad olunmasını nəzərdə tutur. Lakin bununla belə, daxili bazarın səmərəli şəkildə qorunması və daxili bazarda sabitliyin təmin edilməsi məqsədilə emal məhsulları istehsal edən müəssisələrin də vergi yükünün azaldılmasına diqqət yönəldilməlidir. Vergi sistemində antiinhisar siyasətinin tətbiqi ilə bağlı zəruri tədbirlər həyata keçirilməli, bu sahədə azad rəqabət mühitinin dəstəklənməsinə yönəldilmiş vasitələr tətbiq edilməlidir.

İqtisadiyyatın sabitləşdirilməsi və onun strukturunun yenidən qurulmasını təmin etmək, dünya bazar konyunkturunda baş verən böhranlı vəziyyətin ölkə iqtisadiyyatının aqrar sektoruna təsirini azaltmaq məqsədilə elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsalda tətbiqinə yönəldilmiş tədbirlər həyata keçirilməli, eləcə də aqrar əmtəə istehsalçılarının iqtisadi cəhətdən stimullaşdırılması yönümündə zəruri tədbirlər həyata keçirilmədir ki, bu da aqrar sahənin iqtisadi dayanıqlılığını, böhrana qarşı müqavimət imkanlarını genişləndirməlidir. Beləki, 2017-ci ilin 9 ayı ərzində ümumi iqtisadi inkişaf 2.5 % olmuşdur. O cümlədən kənd təsərrüfatında 2.8 % iqtisadi artıma nail olmuşdur. Bu müddət ərzində respublikamıza kənd təsərrüfatı təyinatlı 8180 ədəd müasir texnalogiyalı maşın və avadanlıq idxal olunmuşdur. Respublikamızın valyuta ehtiyatları 4.2 milyard dollar artaraq 42 milyard dollara çatmışdır. Bütün bu iqtisadi göstəricilər göstərir ki, Strateji Yol Xəritəsi üzrə qarşıda duran vəzifələrin reallaşdırılması üçün maliyyə imkanlarımız yetərincədir.

Elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərini aqrar sahədə tətbiq edən müəssisələr üçün investisiyalara vergi güzəştləri genişləndirilməli, həmin müəssisələrin istehsal güclərini formalaşdırmaq məqsədilə istehsal etdikləri texnologiyaların tətbiqini stimullaşdırmaq, onların texniki cəhətdən yenidən qurulması və genişləndirilməsi ilə bağlı fəaliyyəti vergidən azad edilməlidir.

## Ədəbiyyat

1. Abbsov A.F. Ərzaq təhlükəsizliyi. Bakı, 2007.

2. Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı».

3. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi».

**Резюме**

***Мамедова Э.Б.***

**Пути совершенствования механизмов государственной помощи аграрному сектору в условиях модернизации**

*Сельское хозяйство и его отношения с аграрным сектором считаются одним из важнейших компонентов ненефтяного сектора и играют важную роль в современном развитии экономики страны. Современное состояние нашей республики превращает динамику развития ненефтяного сектора в объективную необходимость. Исходя из этого можно повысить государственный бюджет и улучшить его структуру. Диверсификация экономики, является одним из обсуждаемых вопросов, на встречах и ежегодных заседаниях Кабинета Министров под руководством президента Ильхама Алиева и в этом отношении придается большое значение развитию сельского хозяйства как важного приоритета экономической, в том числе, аграрной политики государства.*

***Ключевые слова:*** *аграрный сектор, аграрная реформа, ненефтяной сектор, финансовые отношения, финансовая помощь, материально-технические ресурсы, модернизация*

**Summary**

***Mammadova E.B.***

**Ways of Improving the Mechanisms of State Aid to the Agricultural Sector in the Conditions of Modernization**

*Agriculture and agrarian sector which have interaction with each other are considered as one of significant parts of non-oil sector and have important role in modern development of country economy. Modern condition of our Republic turns dynamic development of non-oil sector to objective necessity and exactly on this basis it is possible to enhance volume of state budget and upgrade its structure. Issues on diversification of economy in annual meetings of The Cabinet of Ministers held by leadership of Ilham Aliyev, The President of Azerbaijan and giving special importance to development of agriculture are stressed as significant priorities of economic as well as agrarian policy.*

***Key words:*** *agrarian sector, agrarian reforms, non-oil sector, financial relations, financial aids, material technical resources, modernization*

## ÖLKƏNİN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN HƏLLİ İSTİQAMƏTİNDƏ KƏND TƏSƏRRÜFATINDA TƏBİİ YEM ƏLAVƏSİNİN TƏTBİQİ MƏSƏLƏSİ

***Məmmədova Ş.S.***

*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Məqalədə ərzaq təhlükəsizliyinin həlli istiqamətində şam ağacının təbii şəkildə olan qozasının tumu ilə birlikdə üyüdülmüş formada emal edilmədən və heç bir əlavələr qatılmadan kənd təsərrüfatında, xüsusilə iribuynuzlu heyvanların yeminə, onların məhsuldarlığının: südlülüyünün və ətliliyinin artırılması məqsədilə təbii yem əlavəsi kimi istifadəsi məsələsindən bəhs edilir.*

***Açar sözlər:*** *ərzaq təhlükəsizliyi, təbii yem əlavəsi, şamağacı qozası, məhsuldarlıq, yem sənayesi*

Müasir dövrdə dünya birliyinin qəbul etdiyi əsas qlobal problemlər sırasında ərzaq təhlükəsizliyi ən aktual, ağır problem olaraq qalmaqdadır. Bu səbəbdən də hər bir ölkə, dövlət öz xalqının inkişafı üçün bu problemin həlli sahəsində diqqət və səylərini artırmalıdır. Əkinçilik və heyvandarlığın aktiv inkişafı, sənaye – şəhərsalma işlərinin genişləndirilməsi meşə fondunun, otlaq sahələrinin, torpaq ehtiyatlarının sıradan çıxmasına səbəb olmuşdur. Hal-hazırda torpaqların yararsızlaşdırılması hesabına ilə ən azı 6 - 7 mln hektar yararlı torpaq kənd təsərrüfatı dövriyyəsindən çıxır və məhsuldarlığını itirir. Nəzərə alsaq ki, bütün bunlarla yanaşı, yer kürəsinin əhalisi də sürətlə artır, onda əhalinin tələbatının ödənilməsi ilə bağlı ərzaq təhlükəsizliyi qlobal problem olaraq dünya birliyini narahat etməyə bilməz. Dünya əhalisinin sürətlə artdığı, təbii ehtiyatların isə tükəndiyi belə bir şəraitdə ərzaq təhlükəsizliyi probleminin getdikcə kəskinləşməsi Azərbaycan Respublikasının əhalisinin də ərzaq təhlükəsizliyinin qayğısına qalmağı çox aktual məsələ kimi vacib edir .

Təklif olunan ideya ölkənin ərzaq təhlükəsizliyinin həlli isiqamətində şam ağacının təbii şəkildə olan qozasının tumu ilə birlikdə yalnız üyüdülmüş formada, emal edilmədən və heç bir əlavələr qatılmadan kənd təsərrüfatında iri buynuzlu heyvanların yeminə, onların məhsuldarlığının: südlülüyünün və ətliliyinin artırılması məqsədilə təbii yem əlavəsi kimi istifadəsini nəzərdə tutur.

İdeyanın tətbiqi ərzaq təhlükəsizliyinin həllinə kömək etməklə yanaşı, iqtisadi, sosial və ərzaq mühit faktorlarını nəzərə almaqla, fermer təsərrüfatları, maldarların həyat şəraitinin yaxşılaşdırılmasına, kənd

təsərrüfatı avadanlığı istehsal edən müəssisələr üçün əlavə məhsul istehsalının stimullaşdırılmasına, ətraf mühit, ekoloji problemlərin həllinə şərait yaradır.

Yem əlavəsinin təklif olunan variantı emala məruz qalmadığı üçün şam ağacı qozasının tərkibində olan efir yağları, C, B, K və P vitaminləri, karotin, yağ turşuları, mikro vəı makro elementlər və s. [1, 3] məlum yem əlavələrindən fərqli olaraq təbii formada yemlərə əlavə olunur. Bu da yem əlavəsinin heyvanların orqanizmi tərəfindən rahat mənimsənilməsinə şərait yaratmaqla, onların bioloji – fizioloji vəziyyətinə müsbət təsir göstərməsinə səbəb olur. Yemin yaxşı mənimsənilməsi onun qənaətinə də səbəb ola bilir. Təklif olunan yem əlavəsi özündə yüksək təbii keyfiyyət və miqdar xarakteristikasını saxlamaq və təmin etməklə, üyüdülmüş formada quru olduğu üçün süni stabilizatorlar olmadan uzun müddətli saxlamaq imkanına da malikdir. İdeya digər yem əlavələrindən fərqli olaraq praktiki əhəmiyyətilə seçilir. Belə ki, yem əlavəsinin hazırlanması və istehsalı əsasən təbii şəraitdə yetişən və quruyan şam ağacı qozalarının yığılması, üyüdülməsi (üyüdülmə sərfiyyatı kifayət qədər aşağı olan və dizel yanacağı ilə işləyən xüsusi yem xırdalayan, kompakt aqreqatdan istifadə etməklə) xərclərini nəzərdə tutduğu üçün, istehsalla bağlı digər növ enerji resurslarına kifayət qədər qənaət etməklə həm iqtisadi, həm də bioloji–ekeloji, zootexniki və s. əhəmiyyətini bir daha artırır. Bu məqsədlə şam ağacının qozası ilə yanaşı, digər qoza meyvəli ağaclar, o cümlədən palıd və s. ağacların meyvələrindən də istifadə etmək olar. Şam ağacının qozası ilə birlikdə beynəlxalq adı latınca " Pinus sylvestris" adlanır. İdeyanın digər tətbiq sahəsi kimi quşçuluq-broyler fabriklərində təbii yem əlavəsi kimi istifadəsi məqsədli hesab edilə bilər .

Qeyd etmək lazımdır ki, ideyanın heyvandarlıqla və quşçuluqda yem əlavəsi kimi tətbiqi, eyni zamanda mal-qaranın və quşların sağlamlığının möhkəmləndirilməsinə də əlavə töhfə ola bilər. Çünki şam ağacının qozalarından istifadə etməklə, insanların müxtəlif xəstəliklərinin müalicəsi təcrübəsi çoxdan məlumdur və bundan indi də geniş istifadə olunur. Bununla əlaqədar, təqdim olunan ideyanın heyvanların və quşların sağlamlığına heç bir problem yaratmaması, əksinə onun məhsuldarlığının artırılması vasitəsi olması ilə yanaşı, zootexniki dəyərə malik olması nəticəsinə də gəlmək olar. Daha doğrusu, ondan istifadə heyvanların xəstələnmə səviyyəsinin aşağı salmasına şərait yarada bilər.

Məlumdur ki, təkcə şəhərimizin parklarında, yol kənarlarında olan şam və həmişəyaşıl ağacların hər il kifayət qədər yetişən meyvələri-quru qozalar yerə tökülür, onlar yığışdırılaraq məhv edilir. Bura meşədə bitən palıd və s. ağacların qozalarını da əlavə etsək, hər il kifayət qədər qozaların itkisini təsəvvür etmək çətin deyildir. Buna görə də bu layihənin tətbiqi məqsədli və çox səmərəlidir.

Beləliklə, təklif olunan ideya kənd təsərrüfatında heyvanların, xüsusilə iri buynuzlu mal-qaranın məhsuldarlığının-südlülüyünün artırılması üçün şam ağacının qozalarının üyüdülmüş formada, qozanın tərkibində olan müxtəlif xeyirli elementlərin (23 əsas və 111 mikrozada olan elementlər) birbaşa, emal edilməmiş və əlavələr qatılmadan heyvanların istifadəsinə imkan yaradan təbii yem əlavəsi kimi istifadə üçün nəzərdə tutulmuşdur [2].

Son dövrlərdə yem sənayesi tərəfindən, xüsusilə iribuynuzlu mal-qara üçün istehsal olunan yemlərdə bioloji tam dəyərli əlavələrlə zəngin olan əlavələr, (premikslər) demək olar ki, emal olunmur. Heyvanların yem rasionunu balanslaşdırmaq üçün onların yemlərini tam dəyərli bioloji əlavələrlə zənginləşdirmək lazımdır. Məlumdur ki, bərkidilmiş bio-(fito) kütlə böyük potensial enerji dəyərinə malik olduğu üçün onlardan müxtəlif yüksək qidalı yem və xeyirli qida tərkibləri - əlavələrin alınması mənbəyi kimi istifadə etmək olar. Bu məqsədlə şam ağacının qozalarını üyüdülmüş şəkildə heç bir əlavələr və emal olunmadan təbii yem əlavəsi kimi istifadəsi çox dəyərli və səmərəlidir.

İdeyanın praktiki tətbiqi ölkənin maldarlıq fermalarında həyata keçirilmişdir.

## Ədəbiyyat


1. Приходько А.Н. Диссертация на тему «Влияние шелухи шишек сосны корейской на продуктивные и репродуктивные функции телок». Автореферат Артикул: 187492, 2004 г.

2. Фаритов Т.А. Корма и кормовые довабки для животных. Лань. 304 с., 2010 г. bookea.ru

3.Науменко З.М. Кормовые ресурсы леса / З.М. Науменко, С.И.Ладинская. М: Агропромиздат, 1990, 192 с .

4.http://www.findpatent.ru/patent/258/2586897.html.

5. http:// biolekks.ru/our-products/pets


## Резюме


***Маммедова Ш.С.***


### Задача применения натуральной кормовой добавки в сельском хозяйстве в направлении решения продуктовой безопасности страны


*В статье рассмотрены проблемы использование измельченной сосновой шишки как натуральной кормовой добавки в сельском хозяйстве с целью повышения производительности животных, а именно повышение молочной и мясной продуктивности крупного рогатого скота.*

***Ключевые слова***: *продуктовая безопасность, натуральные кормовые добавки, сосновые шишки, производительность, кормовая промышленность*

**Summary**

***Mammadova Sh.S.***

**Destruction of country's risk security application of natural food additives in terrarfatus**

In the article, in the light of the solution of food safety, together with the naturally-occurring pitch of the pine tree, and without the addition of any supplements, in the agriculture, in particular for the feeding of livestock, their productivity: the use of natural feed supplement to increase milk yield and cereal.

***Key words:*** food safety, natural feed supplement, shagagic pot, fertility, feed industry

## İDARƏETMƏ PROSESİNDƏ İNFORMASİYANIN ROLU

***Mirzəyeva S.T.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*Müəssisənin sabit, səmərəli fəaliyyət göstərməsində onun informasiya təminatının rolu böyükdür. Səmərəli informasiya təminatı sisteminin yaradılması hər bir təşkilatın qarşısında duran əsas vəzifələrdən biridir.*

***Açar sözlər:*** *müəssisə, informasiya, idarəetmə, iqtisadi informasiya, resurs*

Müəssisələrin idarə edilməsində əsasən iqtisadi informasiyadan müxtəlif iqtisadi göstəricilərdən istifadə edildiyi üçün informasiya sisteminin istifadəçilərinin informasiyaya olan tələbatı müəyyən iqtisadi göstəricilər toplusu ilə ifadə oluna bilər. İqtisadi göstəricilərin tərkibi və onların formalaşıdırılması və toplanmasının dövri xarakter daşıması informasiya sisteminin informasiya resurslarının həcmini müəyyən edən amillərdəndir. İqtisadi göstəricilərin kəmiyyət əlamətləri ilə yanaşı, keyfiyyət əlamətləri də nəzərə alınmalıdır. İqtisadi göstəricilərə olan tələbatın ödənməsinin keyfiyyət tərəfini onların istehlak xüsusiyyətləri əks etdirir. Belə xüsusiyyətlərə göstəricilərin dolğun və doğru olması, vaxtında formalaşdırılması və işlənməsi, istifadəçilərə gecikdirilmədən, operativ təqdim edilməsi və s. aid edilə bilər. Bütün bunlar informasiyanın aktual olmasına dələlət edən amillərdir. İnfromasiya təminatı sisteminin təşkili və ondan müəssisələrin idarə edilməsində istifadə olunmasının mümkünlüyü nöqteyi nəzərindən, aşağıdakı texnoloji proseslər, funksiyalar ayrıla bilər:

-idarə edilən müəssisədə həyata keçirilən proseslər, əməliyyatlar haqqında ilkin informasiya resurslarının toplanması;

-ilkin məlumatların sistemləşdirilməsi və işlənmə üçün hazır formaya salınması;

-sistemə daxil edilən məlumatların doğru və düzgün olmasına nəzarət edilməsi;

-məlumatların təyinatından asılı olaraq məqsədyönlü şəkildə işlənməsi;

-məlumatların sistemdə aktual vəziyyətdə saxlanması və lazım gəldikdə axtarılıb tapılması;

-isitifadəçilərin tələbatına uyğun olaraq, məlumatların işlənib formalaşdırılması;

-məlumatların tələb olunan formada istehlakçılara ötürülüb çatdırılması;

İdarəetmə proseslərində istifadə olunan informasiya resurslarını 3 yerə bölmək olar:

1. Daimi, dəyişməz xarakter daşıyan informasiya resursları. Belə resursların mahiyyətini açıqlayan kəmiyyət və keyfiyyət xarakteristikaları vaxtından asılı olaraq dəyişmir. Məsələn, natural ölçü vahidləri, maddələrin xüsusi çəki əmsalları və s.

2. Şərti daimi xarakterə malik olan informasiya resursları. Bunlara müəyyən müddət ərzində dəyişməz qalan informasiya resursları aid edilir. Belə resurslara müəyyən vaxtdan sonra qiyməti dəyişən iqtisadi göstəricilər, əmsallar aid edilir. Məsələn, əmtəələrin qiymətləri, valyuta məzənnələri, müxtəlif vergi normaları, rüsumlar, struktur elementlərinin xüsusi çəkiləri və s.

3. Dəyişən xarakterə malik olan informasiya resursları. Belə resurslar vaxtdan, məkandan və digər amillərdən asılı olaraq, daimi dəyişir [4].

İdarəetmə texnologiyasının mühüm tərkib hissələrindən birini iqtisadi informasiya təşkil edir. İqtisadi informasiya dedikdə iqtisadi xarakter və məzmun daşıyan müxtəlif məlumatlar başa düşülür. İqtisadi məlumatları birmənalı qeyd etmək, sənədləşdirmək, ötürmək, işləmək, toplayıb saxlamaq və onlardan xalq təsərrüfatının idarə edilməsi ayrı-ayrı səviyyələrində (müəssisələrdə, sahələrdə, regionlarda) planlaşdırma, uçot, nəzarət və təhlil məsələlərinin həllində təkrarən istifadə etmək mümkündür.

İqtisadi informasiya idarə edilən obyektlərdə konkret vaxta olan maddi resursların, əmək ehtiyyatlarının, pul vəsaitlərinin mövcud vəziyyəti və eləcə də hərəkəti haqqında məlumatları özündə əks

etdirir. Sahələrin, müəssisələrin və təşkilatların fəaliyyətlərinin müxtəlif cəhətlərini və istiqamətlərin əks etdirən iqtisadi informasiya müxtəlif göstəricilər sistemi ilə ifadə edilə bilər. Ən çox istifadə olunan göstəricilər sisteminə natural göstəricilər, dəyər göstəriciləri və müxtəlif əmsallar aid edilir. Bu göstəricilərin toplanması mənbələri, işlənməsi üsulları və mexanizmləri, istifadə istiqamətləri və təyinatı çox müxtəlifdir. Bütün bunları nəzərə alaraq, iqtisadi informasiyanın aşağıdakı xarakterik xüsusiyyətlərini göstərə bilərik:

-həcminin və əhatə dairəsinin çox böyük olması;

-əmələgəlmə, əldə edilmə mənbələrinin, təyinatının və istifadə istiqamətlərinin və məqsədlərinin çox müxtəlif olması;

-informasiyanın formalaşdırılması, işlənməsi və ötürülməsi proseslərinin qabaqcadan müəyyən olunmuş reqlamentə uyğun olan dövrlər üzrə (günlük, 10 günlük, aylıq, rüblük, illik) təkrarlanması;

-informasiyanın qruplaşdırılması, işlənməsi zamanı məntiqi və adi hesablama əməliyyatlarından geniş istifadə edilməsi;

-idarəetmədə yüksək dəqiqliyə, aktuallığa və dəyərliliyə malik olan informasiyadan istifadə olunması;

-iqtisadi informasiyanın toplanması və işlənməsi prosesləriniun çox vaxt aparması və yorucu olması;

-informasiyanın məzmununu və mahiyyətini açıqlayan kəmiyyət və keyfiyyət əlamətlərinin dəyişkən xarakterə malik olması [3].

Maddi istehsal sahələrinin məhsulları kimi informasiya da insan əməyinin məhsuludur. İctimai istehsalın müxtəlif sahələrinin idarə edilməsində istifadə olunan informasiyalar və digər məhsullar kimi istehsal olunur. Onlardan idarəetmə sistemlərində, uçot, nəzarət, planlaşdırma, təhlil, müxtəlif idarəetmə məsələlərinin həllində istifadə olunur. İnformasiya məhsullarına olan tələbatı dolğun ödəmək üçün informasiya sistemli şəkildə toplanıb emal olunmalıdır. Belə proseslər informasiya istehsalı vasitələrindən və mexanizmlərindən istifadə olunması əsasında həyata keçirilir.

İnformasiyaya insan əməyinin məhsulu, onun işlənməsi proseslərinə isə istehsal prosesi kimi baxılması spesifik istehsal sahəsinin mövcud olmasından xəbər verir. Deməli, başqa istehsal sahələrində olduğu kimi, bu sahədə də istehsalın təşkili, informasiya məhsullarının istehlakı xüsusiyyətlərini öyrənmək lazımdır. Məhz bu yolla informasiya istehsalı proseslərini rasional təşkil etmək olar. Bu zaman maddi istehsal sahələrində istehsalın təşkili istifadə olunan oxşar təşkilati-iqtisadi mexanizmləırdən faydalanmaq mümkündür.

İnformasiya resurslarından müxtəlif məqsədlər üçün faydalı ola biləcək infromasiya məhsullarının istehsal edilməsinin mümkünlüyü informasiya istehsalında istifadə olunan texnoloji vasitələrin xüsusiyyətlərindən və imkanlarından asılıdır. İctimai istehsalın inkişafı, müəssisələrin istehsal-təsərrüfat əlaqələrinin genişlənməsi, idarəetmə funksiyalarının həyata keçirilməsinə qarşı irəli sürülən tələblər, informasiyanın işlənməsində istifadə olunan texnoloji vasitələrin və üsulların yeniləşməsi informasiya məhsullarının istehsalının təşkilinini daha da təkmilləşdirilməsini tələb edir. Bu zaman informasiyanın istehsalının təşkilinin səmərəliliyinin artırılması meyarları əsas götürülməlidir. İnformasiya təminatı sistemlərinin təşkili variantlarının seçilməsi aşağıdakı meyarlar əsasında aparıla bilər:

1.İnformasiya istehsalına çəkilən xərclərin minimuma endirilməsi ilə yanaşı, idarəetmə funksiyalarının yerinə yetirilməsi üçün lazım olan informasiyanın itkilərinin qarşısının alınması;

2.İdarəetmə sisteminə verilən məlumatların dəyərlilik (faydalılıq) səviyyəsinin maksimuma çatdırılması və ayrılmış resurslardan səmərəli istifadə olunması;

3.İnformasiya məhsullarının istehsalı (buraxılışı) proqramının reallaşdırılması üçün ayrılmış bütün resursların məsrəfinin həcminin aşağı salınması;

Yuxarıda sadalanan meyarlar əsasında hər hansı bir müəssisənin idarə edilməsinin informasiya təminatı təşkil edildikdə, informasiyanın həm istehsalının, həm də istehlakının özünəməxsus xüsusiyyətləri nəzərdən qaçırılmamalıdır. İnformasiya məhsullarının mühüm xüsusiyyətlərindən birini onların eyni təbiətli olmaması təşkil edir. Eyni məna daşıyan 2 göstəricinin əldə edilməsinin heç bir əhəmiyyəti yoxdur. Ancaq müəyyən bir neçə nüsxədə hazırlanmış sənədlərlə əks etdiriləcək müxtəlif istifadəçilərə təqdim edilə bilər. Bu halda istifadəçilərdən hər biri ondan öz konkret məqsədləri üçün istifadə edə bilər. Deməli, müəyyən məzmunda olan iqtisadi göstəricini çoxlu sayda istifadəçilərə təqdim etmək mümkündür.

İnformasiya elə toplanıb işlənməlidir ki, idarəetmə kadrları iqtisadi proseslərin və hadisələrin fərqləndirici əlamətlərini və xüsusiyyətlərini müəyyən edə bilsin. Müxtəlif olan göstəricilər çoxlu sayda eyni elementlərə, əlamətlərə malik ola bilər. Məsələn, neftqayırma zavodları üzrə benzin buraxılışının həcmi min tonla, çoxlu sayda iqitisadi göstəsirici üçün ümumi ola bilər. Belə göstəricilərin alınması o vaxt iqtisadi məna daşıya bilər ki, onlar heç olmasa, bir əlamətə görə fərqləndirilsin (məsələn, ayrı-ayrı vaxta görə, zavodlar üzrə, neft məhsullarının növləri üzrə). İkinci mühüm xüsusiyyətini informasiya mənbələrinin müxtəlifliyi təşkil edir. Bununla əlaqədar olaraq, informasiyanın toplanması proseslərinin mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi çətinləşir. Üçüncü xüsusiyyəti istifadə prosesində informasiyanın istehlak olunub yoxa

çıxmamasıdır. Dördüncü, informasiyadan dəfələrlə, çoxlu sayda, təkrarən istifadə olunmasının mümkün olmasıdır.

İnformasiya müasir dövrün strateji əhəmiyyətli resursu rolunda çıxış edir. Özündə müəyyən yenilik əlamətləri daşıyan informasiyanı vaxtında əldə edən şirkətlər rəqabətdə üstünlüyə malik olurlar. Eyni zamanda da sistem əmələgətirmə xüsussiyyətinə malik olan informasiya resursları iqtisadi inkişafda həlledici rol oynayır. İnformasiyanın, informasiya texnologiyalaırının və informasiya istehsalı sistemlərinin idarəetmədə rolu durmadan artır. İnformasiya texnologiyalaırının yaradılmasına və istifadəsinə investisiya qoyuluşları ən səmərəli istiqamətlərindən birinə çevrilmişdir.

**Ədəbiyyat**


1. Yahudov. X .M. Müəssisənin iqtisadiyyatı. Dərslik. Bakı: Elm, 2002, 548 s.
2. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Dərslik. Bakı: Təhsil EİM, 2005, 996 s.
3. Quliyev T.Ə. Menecmentin(idarəetmənin) əsasları. Bakı, 2001, 520 s.
4. Əliyev T.Q. İnformasiyanın iqtisadiyyatı. Bakı, Elm, 2008, 220 s.
5. Axundov S.Ə. Marketinqin əsasları. Dərs vəsaiti. Bakı: Əbilov Zeynalov və oğulları, 200, 572 s.



**Резюме**

***Мирзоева С.Т.***

**Роль информации в процессе управления**

*Предпринимательская деятельность не может осуществляться без информационных обеспечений. Добыча, разработка и использование информации считается главной в принятии решений в процессе хозяйственной деятельности.*

***Ключевые слова:*** *предприятие, информация, управление, экономическая информация, ресурс*

**Summary**

***Mirzayeva S.T.***

**Role of Information in the Process of Management**

*Enterprise activity cannot be realized without information support. Extraction, processing and usage of the information are considered principal in decision-making in the course of housekeeping.*

***Key words***: *enterprises, information, management, economic information, resources*


## ƏNƏNƏVİ ENERJİ MƏNBƏLƏRİNDƏN BƏRPA EDİLƏ BİLƏN ENERJİ MƏNBƏLƏRİNƏ KEÇİDİN İQTİSADİ VƏ EKOLOJİ ƏSASLARI


***Mustafayev E.R.***

*Azərbaycan Texniki Universiteti*



**Xülasə**

*Məqalədə ənənəvi enerji mənbələri və onların ehtiyatları, ənənəvi enerji mənbələrindən istifadə problemləri, bərpa edilə bilən enerji mənbələri və onların ehtiyatları araşdırılıb. Müəllif belə nəticəyə gəlir ki, karbohidrogen ehtiyatlarının azalması və ekoloji problemlər bərpa edilə bilən enerji mənbələrinin inkişaf etdirilməsini global miqyasda imperativ edib. Ona görə də bərpa edilə bilən enerji mənbələrinin bəzi texnoloji çatışmazlığı olsa da, iqtisadi və ekoloji cəhətdən perspektivi yüksəkdir.*

***Açar sözlər:*** *ənənəvi enerji mənbələri, bərpa edilə bilən enerji mənbələri, külək enerjisi, günəş enerjisi, ekoloji problemlər, karbohidrogen ehtiyatları*


Ənənəvi enerji mənbələrinin getdikcə tükənməsi, həmçinin ətraf mühitə dəyən zərərin azaldılması zərurəti bərpa oluna bilən enerji mənbələrindən (BOEM) istifadəni aktuallaşdırıb. Xüsusilə karbohidrogenlə zəngin olmayan inkişaf etmiş ölkələrdə alternativ və bərpa oluna bilən enerji mənbələrinin inkişaf etdirilməsi daha çox diqqətdə saxlanılır. İqtisadiyyatın davamlı inkişafı enerji ehtiyatları ilə davamlı təminatın olmasını zəruri edir. Neftlə zəngin ölkələrdə və regionlarda sabitliyin vaxtaşırı pozulması inkişaf etmiş ölkələrin davamlı olaraq enerji ilə təminatına təhdidlər yaradır. Enerji təminatına lokal və vaxtaşırı baş verən problemlərin mənfi təsiri qlobal təsirləri, xüsusilə ekoloji təsirləri daha da gücləndirir.

Son yüz ildə elmi-texniki inkişafın yüksək səviyyədə olmasına baxmayaraq, karbohidrogen yanacağı əsas yanancaq növü olaraq qalır. Müasir sivilizasiyanın texniki mahiyyətini təşkil edən elektrik enerjisinin əsas hissəsi də məhz neft, qaz və kömür ehtiyatları hesabına istehsal edilir. Bu üç əsas karbohidrogen ehtiyatlarından ikisi –neft və qaz kömürə nisbətən XX əsrdə və XXI əsrin əvvəllərində daha mühüm əhəmiyyət kəsb edir. Çünki kömürün hasil edilməsi və nəqli çətin və baha başa gəlir.

Hələ birinci dünya müharibəsində dünya ölkələri neft mənbələrinə sahiblik üstündə müharibəyə başlamışdı. Hazırda dünya siyasətində və iqtisadiyyatında neft mühüm faktordur. Xüsusilə, neft və qaz

ehtiyatlarının azalan xətlə inkişafı gələcəkdə enerji faktorunun geosiyasi məsələlərdə əsas rol oynayacağından xəbər verir. Beynəlxalq Enerji Agentliyinin məlumatlarına əsasən hazırda dünya enerji istehlakında neftin payı 45% [1], BP-nin 2012-ci il hesabatına görə isə 33,1% təşkil edir. Neft istehlakı, əsasən, nəqliyyat sektorunun həyatını təmin edir. Sənayedə, xüsusilə plastik məhsulların istehsalında və asfalt sənayesində də neft dən istifadə edilir. BP-nin 2012-ci il hesabatına görə, dünya 1,6 trilyon barel neft ehtiyatına malikdir [2]. Lakin belə artım problemin həllinə gətirib çıxara bilməz. Əlbəttə, bu gün mövcud neft ehtiyatlarından başqa, yeni kəşf edilə bilən ehtiyatlar da ola bilər və bütün ehtiyatların artıq kəşf edildiyini birmənalı təsdiq etmək olmaz.

Həm OPEC-in , həm də BP-nin 2012-ci il hesabatlarına [2] əsasən təsdiq etmək olar ki, bu ehtiyatların 70%-i Yaxın Şərq ölkələrində, 7%-i Afrikada, 7%-i Cənubi Amerikada, 7%-i Şərqi Avropada və Rusiyada, 4%-i Şimali Amerikada, 3%-i Asiya ölkələrində, 1%-i isə Qərbi Avropa ölkələrindədir. Büyük neft ehtiyatlarına malik olan Yaxın Şərq ölkəridə isə Səudiyyə Ərəbistanı (260 milyard barel), İran (130 milyard barel), İraq (115 milyard barel), BƏƏ (98 milyard barel) əsas neft ehtiyatları olan ölkələrdir. Hasilatın əsas hissəsi (31%) Yaxın Şərqin payına düşür. Şərqi Avropada hasilat 15%, Latın Amerikasında 14%, Asiya ölkələrində 10%, Şimali Amerikada 10%, Qərbi Avropada isə 7% təşkil edir. Bu regionların ümumi hasilat həcminə əsasən mövcud neft ehtiyatlarının nə qədər müddətə kifayət edəcəyini hesablamaq o qədər də çətin deyil. Belə ki, dünya neft ehtiyatlarının 1,4 trilyon barel olduğunu və dünya üzrə illik neft hasilatının həcminin 30 mlrd barel olduğunu nəzərə alsaq, neft ehtiyatlarının təqribən 40- 50 ilə tükənə biləcəyi ehtimalı aydın olar.

Neft lə bağlı həyəcanlı vəziyyət eyni ilə qazla da bağlıdır. Belə ki, dünyanın enerjiyə olan tələbatının digər əsas hissəsini qaz ehtiyatları təmin edir. BP-nin 2012-ci il hesabatına əsasən [2] dünya üzrə qaz ehtiyatı 187 trilyon kub metr həcmində dəyərləndirilir. Qaz ehtiyatı ən çox olan ölkələr isə Rusiya Federasiyası (23,9%), Qatar (13,5%) və İrandır (15,8%). ABŞ-ın qaz ehtiyatı 7,7 trilyon kub metrdir. Bu ümumi həcmin 4,1% deməkdir. Regionlar üzrə götürdükdə isə Şimali Amerikada 5,3%, Cənubi və Mərkəzi Amerikada 4%, Avropada 2,8%, Yaxın Şərqdə 40,5%, Afrikada 7,9%, Asiya ölkələrində 8,7%, MDB ölkələrində isə 31,2% qaz ehtiyatı var. Göründüyü kimi, qaz ehtiyatlarının da əsas hissəsi Yaxın Şərq ölkələrindədir. Yaxın Şərqdə böyük qaz ehtiyatlarının olması səbəbindəndir ki, bu region inkişaf etmiş ölkələrin diqqət mərkəzindədir. Bütün inkişaf etmiş ölkələrin, o cümlədən ABŞ-ın qaz istehlakı durmadan artır. BP-nin 2011-ci il hesabatlarına görə, 2010-cu ildə ABŞ-ın qaz istehlakı 683,4 miyard kub metr, Avropa ölkələrinin qaz istehlakı isə 550 milyard kub metrdən çox olub. Beləliklə, bu ölkələrin öz qaz ehtiyatları ən çoxu 10 il istehlak həcmini təmin edə bilər. Bu ölkələrin qaz idxalının getdikcə çoxalacağı və dünyada qaz ehtiyatları uğrunda gərginliyin artacağı şübhəsizdir.

Kömürdən istifadə hazırda dünyada enerjiyə olan ehtiyacın müəyyən hissəsini öz üzərinə götürüb. Lakin kömür ehtiyatları da gələcəkdə enerji böhranının aradan qaldırılması ilə bağlı narahatçılığı daha da artırır. Hazırda dünyada kəşf edilmiş kömür ehtiyatları 860 milyard tondur. Bu ehtiyatların 27,6% ABŞ-da, 18,2% Rusiya Federasiyasında, 13,3% Çində, 8,9% Avstraliyada, 7% isə Hindistanda, 4,7% Almaniyada yerləşir. Dünyanın qalan ölkələri o qədər də böyük olmayan kömür ehtiyatlarına malikdir. Dünyanın kömür istehlakı isə ildə 3555,8 milyon neft ekvivalenti miqdarındadır. Bu təqribən 5333,7 milyon ton kömür deməkdir.

ABŞ Enerji İnformasiya İdarəsinin məlumatlarına görə [3], dünya üzrə gündəlik neft hasilatı və istehlakı durmadan artaraq 2030-cu ildə 120-125 milyon barel ola bilər. Əgər belə olarsa, mövcud neft ehtiyatları daha tez bir müddətdə tükənə bilər. Bəzən belə iddia edilir ki, neft hasilatının artması əlavə investisiyaların qoyulmasını tələb etdiyindən və neftin aşağı qiymətinin saxlanmasını təmin etdiyindən neft hasil edən ölkələr hasilatı artırmaqdan imtina edə bilər. Bu isə neft istehlakının zorla azaldılmasını təmin etməklə, onun daha uzun müddətdə istifadəsinə imkan yarada bilər. Əlbəttə, bu variant mümkündür. Lakin hasilatın artmasının qarşısının alınması və ya qiymətlərin artması ilə istehlakın azaldılmasının təmin edilməsi gələcəkdə digər məhsulların qiymətinin kəskin qalxmasına və sosial problemlərin kəskinləşməsinə səbəb ola bilər. Deməli, istənilən halda neftlə bağlı kəskin problemlərin olacağı şübhəsizdir. Xüsusilə, neft istehlakı yüksək olan və daha az neft ehtiyatlarına malik olan inkişaf etmiş ölkələrin neftə olan tələbatının təmin edilməsi zərurəti regionda ciddi qarşıdurmaların ola biləcəyindən xəbər verir.

Dünyada qazın illik istehlakı təqribən 3,2 trilyon kub metrdir. Hazırda mövcud qaz ehtiyatlarının təqribən 187,1 trilyon kub metr olduğunu nəzərə alsaq, bu ehtiyatların ən çoxu 60 ildə tükənəcəyi şübhəsizdir. Əgər əhali artımını və inkişaf etməkdə olan ölkələrin iqtisadi inkişaf imkanlarını nəzərə alsaq, bu ehtiyatlar daha yaxın dövrlərdə tükənə bilər. Məsələn, Cənubi və Mərkəzi Amerikada qaz istehlakı son 10 ildə 40% artıb. Bu dövr ərzində Yaxın Şərq və Afrika ölkələrinin qaz istehlakı isə, demək olar ki, iki dəfə artıb. Bütün bunlar bir daha təsdiq edir ki, inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial inkişafı bu

ölkələrin qaza və neftə olan tələbatını artıracaq. Belə olan halda neft və qaz ehtiyatları daha az müddətdə tükənə bilər.

Beləliklə, karbohidrogen mənbələrinin getdikcə tükənməsi və onun enerji məqsədləri üçün istifadə edilməsinin qeyri-səmərəliliyi elmi dairələrdə etiraf edilir. Karbohidrogen ehtiyatlarından enerji əldə etmək üçün deyil, daha çox sənaye məqsədləri üçün istifadə etmək daha məqsədəuyğundur.

Karbohidrogen enerji mənbələrindən istifadə imkanlarının getdikcə çətinləşməsi hər bir ölkəni öz enerji təhlükəsizliyi probleminə yenidən və strateji nöqteyi-nəzərdən baxmağa məcbur edir. Karbohidrogen enerji mənbələrinin dünyada qeyri-bərabər paylanması, bu mənbələrin ekoloji cəhətdən xeyli təhlükəli olması və getdikcə tükənməsi alternativ enerji mənbələrinin, xüsusilə bərpa ediləbilən enerji mənbələrinin genişlənməsi zəruriliyini gündəmə gətirir. Bərpa ediləbilən enerji mənbələrinin karbohidrogen enerjisindən əsas üstünlüyü ondadır ki, 1) bu mənbələr insan ömrü ilə müqayisədə tükənməzdir; 2) ekoloji cəhətdən xeyli təhlükəsizdir; 3) demək olar ki, bütün ölkələr üçün əlçatandır.

Bərpa edilə bilən enerji elə enerji növünə deyilir ki, bu enerji ehtiyatları insan ömrü ilə müqayisədə tükənməz hesab edilə bilər. Bərpa edilə bilən enerji mənbələri ənənəvi enerji mənbələrindən fərqli olaraq, daha az ekoloji təsirlərə malik olduğundan bu növ enerji mənbələrinə "yaşıl enerji" də deyilir. Bu enerji mənbələri təbiətdə daim baş verən proseslərlə bağlı olduğundan "bərpa edilə bilən" hesab olunur. Belə enerjinin əsas mənbəyi günəş enerjisi, su axını enerjisi, küləş enerjisi, qeotermal enerji və sair təbii enerjinin texniki istifadə üçün yararlı hala salınmasıdır.

Bütün optimist hesablamalara baxmayaraq, hazırda dünya enerji istehlakının cəmi 21 %-i bərpa edilə bilən enerji mənbələrindən əldə edilir. [4] 2004-cü ildən 2013-cü ilədək Avropa Birliyi ölkələrində bərpa edilə bilən enerjinin həcmi ümumi enerji istehlakında 14%-dən 25% qədər artıb. Qeyd edək ki, hər il bərpa edilə bilən enerji mənbələrindən istifadə edən ölkələrin sayı, istehsal edilən enerjinin miqdarı və istehlak həcmi artmaqdadır. Belə ki, bərpa edilə bilən enerji mənbələrini inkişaf etdirmək əzmində olan və bu sahələrə geniş miqyaslı investisiya yatıran ölkələrin sayı 2008-ci ildə 79 olduğu halda, 2014-cü ildə onların sayı 164 olub. Bu ölkələr BEBE-nin artırılması üçün ilbəil investisiya həcmini artırırlar. Məsələn, 2008-ci ildə bu sahəyə qoyulan investisiyanın həcmi 130 milyard olduğu halda 2014-cü ildə iki dəfədən çox artaraq 270 milyard ABŞ dolları olub. Belə ki, 2008-ci ildə bərpa edilə bilən mənbələrdən istehsal edilən elektrik enerjisinin miqdarı 1140 Qvt, 2014-cü ildə isə 1712 Qvt olub [5]. Qeyd etmək lazımdır ki, bu enerji mənbələrinin arasında su elektrik statnsiyalarından alınan enerji aparıcı yer. Lakin su elektrik stansiyalarından alınan enerjinin BEBE-nin ümumi həcmində miqdarı digər növlərin inkişafı ilə bağlı getdikcə azalır. Məsələn, 2008-ci ildə 77,6% təşkil etdiyi halda 2014-cü ildə 61,6% olub.

Bərpa olunan enerji mənbələri arasında külək enerjisi mühüm yer tutur. Bu texnologiya küləyin kinetik enerjisini elektrik enerjisinə çevirir. Bu sadə texnologiya artıq Almaniyada istehlak edilən elektrik enerjisinin mühüm hissəsini təmin edir. Külək enerjisindən istifadəyə, külək enerji qurğularının istehsalına, quraşdırılmasına və istismarına görə Almaniya dünyanın ən inkişaf etmiş ölkəsidir. Bərpa edilə bilən enerji qurğularından istifadə sənayedə yeni sahənin, "yaşıl sənayenin" inkişafına təkan verib. Artıq Almaniyada ancaq külək enerjisi qurğularının istehsalı, quraşdırılması və istismarı sahəsində 35 mindən çox işçi çalışır.

Elektrik enerjisinin istehsalında suyun potensial-enerjisinin elektrik enerjisinə çevrilməsi təcrübəsi günəş enerjisinin və külək enerjisinin elektrik enerjisnə çevrilməsindəndən bir qədər genişdir. Bəlkə də, elə buna görə su-elektrik statnsiyalarında istehsal olunan enerjinin həcmi digər bərpa edilə bilən mənbələrdən daha çoxdur. Lakin külək və günəş enerjisindən alınan elektrik enerjisinin həcmi sürətlə artmaqdadır. Günəş enerjisinin birbaşa istilik enerjisinə çevrilməsi dünya praktikasında geniş yayılmışdır və bu, inkişaf etmiş ölkələrdə energetikanın əsas istiqamətlərindən biri hesab olunur. 1997-ci il Kioto razılaşmasının protokoluna əsasən Avropa Birliyi ölkələrində və ABŞ-da alternativ enerji mənbələrindən istifadə etmək üçün iri miqyaslı stansiyaların tikintisinə başlanmışdır [6].

Külək enerjisi digər mənbələrdən fərqli olaraq, maya dəyərinə görə daha ucuz, ekoloji cəhətdən isə daha təmizdir. Lakin külək generatorlarının bitki və heyvanlara təsiri, telerabitəyə və radiorabitəyə təsiri, təbii landşafta təsiri və böyük torpaq sahələrini zəbt etməsi ciddi çatışmazlıq hesab edilə bilər. Külək generatorlarına xas olan bu çatışmazlıqlar elektrik enerjisinin təminatında onun üstünlükləri ilə müqayisədə yol verilə biləndir. Belə ki, Yer kürəsində külək enerjisinin potensialı hətta 17,1 min trilyon vtsaat qədər qiymətləndirilir. 2010-cu ildə Avropada bu potensialın yalnız 0,0003%-dən istifadə edilib [7]. Başqa sözlə desək, külək enerjisinin istifadəsi texnoloji cəhətdən təkmilləşdirilərsə, bu enerji karbohidrogen enerjisini ən yüksək səviyyədə əvəz edə bilər.

**Ədəbiyyat**

1. World Energy outlook 2012 http://www.worldenergyoutlook.org/publications/weo-2012/.

2. BP Statistical Review of World Energy June 2012 http://www.bp.com/liveassets/bp_internet/globalbp/globalbp_uk_english/reports_and_publications/statistical_energy_review_2011/STAGING/local_assets/pdf/statistical_review_of_world_energy_full_report_2012.pdf

3. AnnualEnergyReview 2011 http://www.eia.gov/totalenergy/data/annual/pdf/aer.pdf.

4. http://www.ren21.net/Portals/0/documents/Resources/GSR/2014/GSR2014_full%20report_low%20res.pdf.

5. http://www.ren21.net/wp-content/uploads/2015/06/GSR2015_KeyFindings_lowres.pdf.

6. Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı (http://www.minenergy.gov.az/db/462.pdf).

7. Квитко А.В. Характеристики ветра, особенности расчета ресурса и экономической эффективности ветровой энергетики.//научный журнал КубГАУ №97(03), 2014.

**Резюме**

***Мустафаев Э.Р.***

**Экономические и экологические основы перехода от возобновляемых источников энергии к традиционным источникам энергии**

*В статье рассматриваются традиционные источники энергии и их ресурсы, проблемы с использованием традиционных источников энергии, возобновляемых источников энергии и их ресурсов. Автор приходит к выводу, что сокращение запасов углеводородов и проблемы окружающей среды, препятствуют развитию возобновляемых источников энергии в глобальном масштабе и, хотя некоторые из возобновляемых источников энергии имеют некоторые технологические недостатки, являются экономически и экологически высокими.*

***Ключевые слова:*** *традиционные источники энергии, возобновляемые источники энергии, энергия ветра, солнечная энергия, экологические проблемы, углеводородные ресурсы.*

**Summary**

***Mustafayev E.R.***

**Economic and Ecological Bases of Transition from Traditional Energy Sources to Renewable Energy Sources**

*The article examines traditional energy sources and their resources, problems of using traditional energy sources, renewable energy sources and their resources. The author concludes that reduction of hydrocarbon reserves and ecological problems have made the development of renewable energy sources imperative on a global scale and although renewable energy sources have some technological deficiencies, but their perspectives are economically and ecologically high.*

***Key words:*** *traditional energy sources, renewable energy sources, wind energy, solar energy, environmental problems, hydrocarbon resources*

## QLOBALLAŞMA ŞƏRAİTİNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASININ SPESİFİK XÜSUSİYYƏTLƏRİ

***Nəcəfova Ç.M., Quliyeva M.G.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə**

*İqtisadi təhlükəsizlik milli maraqların qorunmasını, daxili və xarici təhdidlərə qarşı müqaviməti, insanların, cəmiyyətin, dövlətin həyati mənafelərinin inkişaf etdirilməsi və qorunmasını təmin edən milli iqtisadiyyat dövlətidir. Bu məzmunda həyati mənafelərin altında fərdi, cəmiyyət, dövlətin mövcudluğunu və mütərəqqi inkişafını təmin edən bir sıra ehtiyacları nəzərdə tuturuq.*

***Açar sözlər:*** *qloballaşma, iqtisadi təhlükəsizlik, milli təhlükəsizlik*

Ölkənin iqtisadi təhlükəsizliyini müəyyənləşdirmək üçün bir çox ümumi və sınaqdan çıxmış metodlar vardır. Bunlardan biri mühüm makroiqtisadi göstəricilərdir, bunlar öz əhəmiyyətinə görə digər iqtisadi göstəricilərdən daha böyük əhəmiyyət kəsb edir. Digəri isə tədqiq olunan hadisə və prosesin kəmiyyət və keyfiyyət göstəricilərinin ekspert qiymətləndirilməsi metodudur. Hər hansı sahənin problemlərini yaxşı bilən şəxslərdən ekspertlər qrupu təşkil olunur və onlar əsas göstəriciləri hərtərəfli öyrəndikdən, tədqiq etdikdən sonra müəyyən rəyə gəlirlər. Ölkənin iqtisadi təhlükəsizliyinin səviyyəsi bal sistemi ilə qiymətləndirilir. Müəyyən edilmiş nəticələr əsasıda həm bütövlükdə ölkənin, həm də müxtəlif sahələrin iqtisadi təhlükəsizlik səviyyələri təhlil olunur və bunun əsasında ölkənin iqtisadi təhlükəsizliyinin strategiyası müəyyənləşdirilir.

Hər bir dövlətin iqtisadi təhlükəsizliyi qiymətləndirilərkən həmin ölkənin iqtisadi səviyyəsi, onun keçdiyi inkişaf yolu, geoiqtisadi, geostrateji və başqa xüsusiyyətləri nəzərə alınmaqla yanaşı, iqtisadi təhlükəsizliyin qiymətləndirilməsinin ümumi metodları da tətbiq olunur. Bunlar, əsasən, aşağıdakılardır:

- ssenarilərin təhlili və emal edilməsi metodu;
- optimal, ən münasib metod;
- nəzəri-oyun metodu;
- faydalılıq metodu;
- qeyri- səlis sistem nəzəriyyələri metodu;
- çoxmeyarlı statistik təhlil metodu.

Ökənin iqtisadi təhlükəsizliyinin səviyyəsinin öyrənilməsi və onun təhlükəsizliyinin təmin olunmasında ssenarilərin təhlili və emal edilməsi metodu böyük əhəmiyyətə malikdir. Bunun mahiyyəti ölkənin iqtisadi təhlükəsizliyini təmin etməkdən və onun nəzəri əsaslarını işləyib hazırlamaq üçün etibarlı materiallar verməkdən ibarətdir. Bu sənədlər təhlil-təsvir xarekteri daşıyır, lakin burada ardıcıllıq olduğuna görə gələcək inkişafı müəyyən etmək üçün nəzəri müddəalar və ümumi qanunauyğunluqlar çıxarmaq mümkün olur. Metodun mahiyyəti bir də ondan ibarətdir ki, yüksək səviyyəli mütəxəssislərə- ekspertlərə müxtəlif istiqamətlərdə olan böyük və çətin sosial-iqtisadi və ümumi-iqtisadi problemlərin həllində müasir riyazi vasitələrdən istifadə etməyə imkan verir. Ssenari anlayışı burada mərkəzi yerdə durur. Bu metodu tətbiq etməklə, ilkin proqnozlar dəqiqləşdirilir, konkretləşdirilir, eyni zamanda ssenarinin yeni variantları yaranır, axtarılıb tapılır.

İqtisadi təhlükəsizliyin qiymətləndirilməsi metodlarından biri də optimallaşdırma metodudur. Bir qayda olaraq, bu metoddan təsviri təhlildən təhlükəsizliyin kriteriyasını müəyyən etmək üçün istifadə edilir. Bu variant dövlətin iqtisadi təhlükəsizliyinin digər real kriteriyalarını məhdudlaşdırır. Başqa sözlə, təhlükəsizlik əsasən bir göstərici üzrə hesablanır, halbuki təhlükəsizlik kriteriyaları çoxdur və onlar bir-birini qarşılıqlı əlaqələndirir, şərtləndirir.

Nəzəri oyun metodundan ikitərəfli və çoxtərəfli konflikt situasiyası zamanı istifadə olunur. Burada məqsəd konfliktlərə sintez şəkildə, bir-birinə təsiri və asılı olması şəklində baxmaqdır. Çünki bütün ziddiyyətlər bir-birilə sıx surətdə əlaqədardır. Bu metod formanın məzmunu qabaqlamasının qarşısını almaq üçün əhəmiyyətlidir və bu metodun tətbiqi real prosesi daha düzgün əks etdirir.

Qeyri-səlis sistem nəzəriyyəsi də iqtisadi təhlükəsizliyin qiymətləndirilməsində tətbiq edilir. Bu metod müasir vasitələrlə ən mürəkkəb problemləri həll etməkdə açar rolu oynayır. Onlar qeyri-səlis, qeyri-mükəmməl, bəzi hallarda ziddiyyətli biliklər verir. Bu mütəxəssislərə düşünməyə, axtarmağa, tapmağa, öz mühakimələrini yürütməyə, ondan istifadə etməyə imkan yaradır, başqa sözlə, mütəxəssislərin başa düşdüyü EHM-in dilinə yaxınlaşdırılır. Bu isə insanların intellektual səviyyəsinin yüksəlməsinə, hadisə və prosesin obyektiv səbəblərinin aşkara çıxarılmasına və aradan qaldırılmasına imkan verir.

Qeyri-səlis sistem insan fəaliyyətinin müxtəlif sahələrinə tətbiq oluna bilir. Məsələn, sosial-iqtisadi sistemə, insan-maşın, bioloji, təşkilatı və başqa sahələrdə bu nəzəriyyədən geniş istifadə edilir. Ekspertlər sistemli təhlil və sintez vəzifələrinin yerinə yetirilməsində ən çox qeyri-səlis nəzəriyyədən səmərəli istifadə edirlər. Bu nəzəriyyədən atom elektrik stansiyalarının təhlükəsizliyini təmin etmək sahəsində də istifadə olunur. Sözügedən nəzəriyyədən siyasət, iqtisadiyyat, sosiologiya, hərbi siyasi konfliktlər, səhiyyə, ekologiya və başqa sahələrdə də istifadə edilir.

Çoxmeyarlı statistik təhlil metodu da iqtisadi təhlükəsizliyin qiymətləndirilməsi metodlarından biridir. Onun mahiyyəti bir qayda olaraq ilk göstəricilərdən asılı olan və müqayisə olunan göstəricilərə keçilməsi ilə izah olunur. Bu prosesdə hər hansı göstəricinin bir hissəsi təhlil edilir, onun digər göstəricilərlə qarşılıqlı əlaqəsi öyrənilir və bu zaman iqtisadi təhlükəsizliyin səviyyəsi daha yaxşı qiymətləndirilir. Beləliklə, ümumiləşdirilmiş əsas komponent müəyyənləşdirilir ki, bu komponentdən istifadə etmək iqtisadi təhlükəsizliyin səviyyəsini düzgün qiymətləndirməyə imkan verir.

Komponent təhlil metodunun tətbiqi prosesində ölkənin iqtisadi təhlükəsizliyinin səviyyəsini qiymətləndirmək üçün elə göstəricilər seçilməlidir ki, həmin göstəricilər dünya dövlətlərinin əksəriyyətinə uyğun gəlsin və onları həmin dövrdə bir-biri ilə müqayisə etmək mümkün olsun.

Bütün bunlarla bərabər, ölkənin iqtisadi təhlükəsizliyini qiymətləndirərkən ona çoxvariantlı yanaşma faydalı olur. Bu mürəkkəb prosesi öyrənərkən riyazi aparatdan istifadə etmək də səmərəli ola bilər. Bunun əhəmiyyəti bir çox göstəriciləri azaltmaqla hadisənin mahiyyətini dərk etməyi asanlaşdırmaqdır. Başqa sözlə, əsas göstəriciləri ikinci, üçüncü dərəcəli göstəricilərdən ayırmaqla və kəmiyyət göstəricilərindən istifadə etməklə hadisənin keyfiyyətini elmi cəhətdən düzgün təhlil etmək mümkün olur.

İqtisadi təhlükəsizliyin mühüm problemlərindən biri makroiqtisadi səviyyədə əsas göstərici və kriteriyaların müəyyən edilməsidir. Bu göstəricilər iqtisadi təhlükəsizliyin risk kateqoriyası ilə sıx qarşılıqlı əlaqədədir. Risk kateqoriyasından istifadə etmək iqtisadi təhlükəsizliyin idarə edilməsinin səmərəliliyini

yüksəldən amillərdən biridir. Bu xüsusilə indiki dövrdə, inzibati-amirlik iqtisadi sistemindən bazar iqtisadiyyatına keçid zamanı mühüm əhəmiyyət kəsb edir. Cəmiyyətin sosial prosesinin idarə edilməsi sahəsində dövlətin vəzifələrinin bir hissəsinin yerli orqanlara verilməsi təhlükəsizliyin təmin edilməsi riskini artırır. İqtisadi təhlükəsizlik strategiyasında risk konsepsiyası iqtisadi təhlükəsizliyin iki ünsürünü özündə birləşdirir:

1. Riskin qiymətləndirilməsi;
2. Riskin idarə edilməsi.

Riskin qiymətləndirilməsi bir qayda olaraq ekspert, ehtimal, mümkünlük xarakteri daşıyır. Riskin idarə olunmas sosial- iqtisadi situasiyanı qabaqlamaq deməkdir.Təhlükəni qabaqcadan görmək, onun nəticələrini yumşaltmaq və yaxud qarşısını almağın mümkün olması baxımından risk konsepsiyasının əhəmiyyəti böyükdür. Buradan belə nəticə çıxırki, iqtisadi təhlükəsizliyin qiymətləndirmə səviyyəsi risk amillərinin təhliliilə sıx bağlıdır və bu zaman zərər konsepsiyasından istifadə etmək zəruridir. Bu gözlənilən və gözlənilməyən təhlükənin qarşısının alınmasında mühüm əhəmiyyətə malikdir.

Etibarlılıq konsepsiyası risk konsepsiyasının əksidir. Etibarlılığın qiymətləndirilməsi konsepsiyası da risk konsepsiyası kimi ekspert və ehtimal xarakteri daşıyır. İstənilən ölkənin iqtisadi təhlükəsizliyi demək olar ki, ekspert metodu ilə qiymətləndirilir. Etibarlıllıq və riskin qiymətləndirilməsi metodlarının bəzilərini nəzərdən keçirək:

Ümumilikdə iqtisadi sahədə iqtisadi təhlükəsizliyə təsir göstərən amillərə ümumi daxili məhsulun baza göstəricisinə nisbətən aşağı düşməsi, faizlə ölkənin xaricdən gətirilən ərzaq məhsullarından asılılıq səviyyəsi, ixrac olunan məhsulların içərisində yüksək texnologiyaya əsaslanan məhsulların xüsusi çəkisi, ümumi daxili məhsulun neçə faizinin elmin inkişafına yönəldilməsi və.s aiddir. Bütün bu göstəricilər üzrə Azərbaycanın indiki vəziyyəti normal, orta səviyyədə inkişaf etmiş ölkələrlə müqayisə etsək, Azərbaycanın iqtisadi təhlükəsizliyinin aşağı səviyyədə olmasını görərik.

Ölkənin iqtisadi təhlükəsizliyinin digər qrup göstəriciləri bunlardır: minimum və orta əmək haqqının nisbəti, yoxsulluq həddində yaşayan əhalinin xüsusi çəkisi, işsizliyin səviyyəsi, hər yüz min əhaliyə görə cinayətkarların sayı, doğulanlarla ölənlərin sayının bir-birinə nisbəti, hər yüz min nəfərin içərisində psixi xəstələrin sayı.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasının bir göstəricisi də ölkədə olan siyasi sabitlikdir. Bu isə əhalinin məhz dövlət orqanlarına etibarlılıq səviyyəsindən, iqtidarın hakimiyyətə qanuni yolla gəlməsindən asılıdır. Əgər dövləti idarə edənlərin əksəriyyəti ədalətsizlik edir və rüşvətxorluğa, korrupsiyaya qoşulursa, bu zaman əhalinin onlara inamı qırılır. Belə vəziyyətdə ölkədə siyasi sabitlik ola bilməz. Deməli, iqtidarın qeyri-qanuni yolla hakimiyyəti ələ keçirməsi, öz şəxsi mənafeyini milli mənafedən üstün tutması, buna görə də əhalinin əksəriyyətinin ona inamını itirməsi ölkənin iqtisadi təhlükəsizliyi üçün ən böyük qorxudur.

Riskin qiymətləndirilməsi isə bilavasitə qlobal risklərin sayından, ölkənin siyasi-iqtisadi sabitliyindən, habelə daxili iqtisadi və xarici iqtisadi riski şərtləndirən idxal və ixrac amillərindən asılıdır.

Ölkənin iqtisadi təhlükəsizliyinin qiymətləndirmə metodlarından biri kəmiyyətcə qiymətləndirmə metodudur. Bu metodla ölkənin iqtisadi təhlükəsizliyini qiymətləndirmək məqsədilə ekspertlər qrupu yaradılır. Onlar ildə bir neçə dəfə bir yerə yığışır, müxtəlif metodların köməyi ilə ölkənin siyasi və iqtisadi şəraitini öyrənir və müzakirə edirlər. Onlar arasında anketlər paylanır, hər birisi bir- birindən xəbərsiz öz əldə etdikləri nəticələri orada yazırlar. Hər bir suala verilən cavab faiz-ball şkalası ilə qiymətləndirilir. Eyni zamanda suallara bir çox variantla qiymət verilir. Bu prosesdə yalnız həmin ölkənin deyil, həm də xarici ölkə mütəxəssisləri də iştirak edirlər.

**Ədəbiyyat**

1. Məmmədov N. Ölkənin iqtisadi təhlükəsizliyi. Bakı, Elm, 2009.
2. Piriyev A. “ Siyas istrategiya və milli təhlükəsizlik. 2008, 126 s.
3. Azərbaycanın Statistik Göstəriciləri. Bakı, 2015.
4. “Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının qanunu
5. www.azstat.org
6. www.economy.gov.az

**Резюме**

***Наджафова Ч.М., Гулиева М.Г.***

**Специфические особенности экономической безопасности в условиях глобализации**

*Экономическая безопасность это такое состояние национальной экономики, при котором обеспечиваются защита национальных интересов, устойчивость к внутренним и внешним угрозам, способность к развитию и защищенность жизненно важных интересов людей, общества, государства. Под жизненно важными интересами в данном контексте понимают совокупность*

*потребностей, которые обеспечивают существование и прогрессивное развитие личности, общества, государства.*

***Ключевые слова:*** *глобализация, экономическая безопасность, национальная безопасность*

**Summary**

***Najafova Ch.M., Quliyeva M.G.***

**Specific Features of Economic Safety in Globalization Condition**

E*conomic security is a state of the national economy in which the protection of national interests, resistance to internal and external threats, the ability to develop and protect the vital interests of people, society, state are ensured. Under vital interests in this context we mean a set of needs that ensure the existence and progressive development of the individual, society and state.*

***Key words:*** *globalization, economic security, national security*

## AZƏRBAYCAN RESPUBLİKASINDA HAVA NƏQLİYYATI İLƏ YÜKDAŞIMALARIN İQTİSADİ SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Osmanov İ.O.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə***

*Məqalədə avianəqliyyat məhsulu istehsalının özünəməxsus spesifik xüsusiyyətləri şərh edilmiş, aviadaşımaların proqnozlaşdırılması üzrə əsas çətinliklər araşdırılmışdır. Eyni zamanda Azərbaycan Respublikası üzrə avianəqliyyat məhsulları istehsalının dinamikasına baxılmış və iqtisadi səmərəliliyi qiymətləndirilmişdir.*

***Açar sözlər:*** *avianəqliyyat, məhsul, istehsal, proqnozlaşdırma, yük dövriyyəsi, yük daşıma*

Bazar iqtisadiyyatı şəraitində ixtiyari kommersiya müəssisəsinin istehsal-təsərrüfat fəaliyyətinin nəticələri ən əvvəl məhsul istehsalı və satışı planının düzgün və real müəyyən edilməsindən asılıdır. Məhsul istehsalı və satışı planı müəssisələrin strateji inkişafının planlaşdırılması və idarə edilməsi sistemində əsas təşkil edir. Buna görə də məhsul növləri üzrə istehsalın həcminin və satışının elmi əsaslarda proqnozlaşdırılması ixtiyari biznesin müvəffəqiyyətlə inkişafı, riskin səviyyəsinin azaldılmasının vacib komponentinə çevrilmişdir.

Avianəqliyyat məhsulu istehsalının özünəməxsus spesifik xüsusiyyətləri bu sahə üzrə proqnozlaşdırma qarşısında bir sıra çətin və mürəkkəb məsələlərin həll edilməsini tələb edir.

Aviadaşımaların proqnozlaşdırılması üzrə əsas çətinliklər aşağıdakılardan irəli gəlir:

- ölkə əhalisinin aviadaşımalara olan tələbinin təsadüfi xarakter kəsb etməsi;
- ölkə əhalisinin hərəkətinə (miqrasiya, immiqrasiya və s) onların həyat səviyyəsinin təsir göstərməsi və bu amilin dinamik olaraq dəyişməsi;
- aviasiya nəqliyyatının digər nəqliyyat növləri (ilk növbədə, dəmiryolu nəqliyyatı və son dövrlərdə avtomobil nəqliyyatı) ilə daim rəqabətdə olması və rəqabətin xarakterinin dəyişməsi;
- daşımalara tələb və təklifin qarşılıqlı təsiri;
- sərnişin daşımalarının proqnozlaşdırılması üzrə vəzifələrin çox böyük miqyasa malik olması və s. [1].

Mülki aviasiyada ən əsas göstərici yük və sərnişin daşımalarının göstəricisidir. Müxtəlif səviyyələrdə qarşıda duran problemlərin həlli və planlaşdırma məqsədi ilə yük, sərnişin daşımaları müxtəlif göstəricilər vasitəsi ilə ifadə edilir.

Hər bir səviyyə üzrə daşınan yük dövriyyəsi göstəricisindən müxtəlif məsələlərin həlli, digər göstəricilərin planlaşdırılması üçün istifadə edilir. Bu göstərici, əsasən, aviaistismar müəssisəsi aviaşirkətlər, regionlar, dünya üzrə hesablanır və proqnozlaşdırılır. Eyni zamanda hər bir səviyyə üzrə mövcud olan informasiyalar daşınan yüklərin proqnozlaşdırılması üçün müxtəlif metodlardan istifadə edilməsini şərtləndirir.

Aviayük daşımalarına tələb və aviayük daşımalarının həcmi ayrı-ayrılıqda proqnozlaşdırılır. Aviayük daşımaları reallaşmış tələbdir, yəni tələblə təklifin kəsişməsidir. Çünki aviayük daşımalarının həcmi, tələb təklifdən çox olduqda təklifə bərabər olur. Buna görə də əvvəlcə aviasərnişin daşımalarına tələb proqnozlaşdırılır və sonra tələbin ödənilməsi üçün təkliflər müəyyən və təhlil edilir, müvafiq qərarlar qəbul edilir [2].

İndi isə Azərbaycan Respublikası üzrə hava nəqliyyatı üzrə yükdaşımaları son beş ilin statistik məlumatları əsasında təhlil edək.

Azərbaycan Respublikası üzrə avianəqliyyat məhsulları istehsalının dinamikası 1-ci cədvəlin məlumatları ilə xarakterizə edilir.

**Cədvəl 1.**

**Azərbaycan Respublikası üzrə avianəqliyyat məhsulu istehsalının həcminin dinamikası [3]**

| **Göstəricilərin adları** | **İllər** | | | | |
|---|---|---|---|---|---|
| | **2012** | **2013** | **2014** | **2015** | **2016** |
| 1. Yük daşınması, min ton | 82 | 126 | 125 | 129 | 160 |
| 2. Yük dövriyyəsi, mln.ton• km | 357 | 443 | 481 | 582 | 683 |
| 3. Bir ton yükün orta daşıma məsafəsi, km | 4353,7 | 3515,9 | 3848,0 | 4511,6 | 4268,8 |
| 4. Sərnişin daşınması, min sərnişin | 1599 | 1664 | 1788 | 1818 | 1980 |
| 5. Sərnişin dövriyyəsi, mln.sərnişin • km | 2 476 | 2579 | 2918 | 3 338 | 3 549 |
| 6. Bir sərnişinin orta daşıma məsafəsi, km | 1548,5 | 1549,9 | 1632,0 | 1 836,1 | 1792,4 |

Respublika üzrə aviayük daşımalarının həcmi 2012-ci ilə nisbətən 2016-cı ildə 78 min ton və yaxud 2 dəfəyə qədər artmışdır. Bir ton yükün orta daşıma məsafəsi isə müqayisə edilən dövrdə 84,9 km və yaxud 0,2% artmışdır.

Aviayük daşınmasının həcminin dinamikasının təhlili zamanı əsas və silsiləvi qaydada mütləq artım, artım tempi, nisbi artım göstəriciləri hesablanır.

**Cədvəl 2.**

**Azərbaycan Respublikası üzrə aviayük dövriyyəsinin dinamikasının təhlili [3]**

| Göstəricilərin adı | İllər | | | | |
|---|---|---|---|---|---|
| | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
| Yük dövriyyəsi, mln.ton• km | | | | | |
| 1.SD | 224 | 357 | 443 | 481 | 578 |
| 2. Mütləq artım (+; -) | | | | | |
| 2.1. Əsas | - | +123 | +219 | + 257 | + 354 |
| 2.2. Silsiləvi | - | +123 | +86 | +38 | +97 |
| 3. Artım tempi əmsalı | | | | | |
| 3.1. Əsas | - | 1,5937 | 1,9776 | 2,1473 | 2,5803 |
| 3.2. Silsiləvi | - | 1,5937 | 1,2408 | 1,0857 | 1,2016 |
| 4. Artım tempi, % | | | | | |
| 4.1. Əsas | - | 159,37 | 197,76 | 214,73 | 258,03 |
| 4.2. Silsiləvi | - | 159,37 | 124,08 | 108,57 | 120,16 |
| 5. Nisbi artım, % | | | | | |
| 5.1. Əsas | - | 59,37 | 97,76 | 114,73 | 158,03 |
| 5.2. Silsiləvi | - | 59,37 | 24,08 | 8,57 | 20,16 |

Yük dövriyyəsinin orta illik həcmi sadə hesabi orta kəmiyyət kimi hesablanır:

$$SD = \sum_{n=1}^{n} SD_i : n = (224 + 357 + 443 + 481 + 578) : 5 = 416,6$$

Yəni Azərbaycan Respublikası üzrə 2011-2015-ci illərdə orta illik yük dövriyyəsi 416,6 mln.ton• km təşkil etmişdir.

Yük dövriyyəsinin orta illik mütləq artımı

$$\Delta SD = \frac{SD_n - SD_1}{n-1} = \frac{578-224}{4} = 88,5$$

Yük dövriyyəsi hər il 2011-2015-ci illər ərzində orta hesabla hər il 88,5 mln.ton• km artmışdır.

Yük dövriyyəsinin orta illik artım tempi əmsalını ( $\overline{K}_T$ ) həndəsi orta kəmiyyət kimi hesablamaq olar.

$$\overline{K}_T = \sqrt[4]{578:224} = \sqrt[4]{2,58035714} = 1,2674$$

2011-ci ilə nisbətən 2015-ci ildə yük dövriyyəsinin həcmi 158,03% artmışdır. Hər il orta hesabla yük dövriyyəsi 26,74% (1,2674 • 100% - 100%) artmışdır.

Aviayük dövriyyəsinin həcminin dinamikasını daha aydın təsəvvür etmək üçün sütunlu diaqramdan istifadə etmək daha məqsədəuyğundur. Bu qrafik aviayük dövriyyəsinin dinamikası haqqında aydın təsəvvür yaratmağa imkan verir.

**Qrafik 1.**

**Aviayük dövriyyəsinin artım templərinin dinamikasının müqayisəli təhlili**




Cədvəl 3-dən göründüyü kimi, yük daşımalarının əsas hissəsi beynəlxalq daşımaların payına düşür. Yük daşınmalarından əldə olunan gəlir 2016-cı ildə 2012-ci illə müqayisədə

717528-392 242=325286 min manat və yaxud

(717528:392 242) • 100% - 100% = 82,9% artmışdır.

Yük daşınmalarına çəkilən xərclər də artmışdır. Belə ki,

601140 – 279 201 = 321939 min manat və yaxud

(601140 : 279 201) • 100% - 100% = 115,3% artmışdır.

Ümumiyyətlə, 2012-2016-cı illər üzrə aviasahədə yükdaşıma ilə əlaqədar əsas statistik məlumatları aşağıdakı cədvəldən daha aydın görmək olar.

**Cədvəl 3.**

**Azərbaycan Respublikasında aviasiya sahəsində yük daşımalarının əsas iqtisadi göstəriciləri [3]**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| Yük daşınmışdır, min ton | 82 | 126 | 125 | 129 | 160 |
| Beynəlxalq | 80 | 124 | 123 | 127 | 158 |
| Yerli | 2 | 2 | 2 | 2 | 2 |
| Yük dövriyyəsi, milyon ton-km | 357 | 443 | 481 | 582 | 683 |
| Beynəlxalq | 356 | 442 | 480 | 581 | 682 |
| Yerli | 1 | 1 | 1 | 1 | 1 |
| Sərnişin daşınmışdır, min sərnişin | 1 599 | 1 664 | 1 788 | 1818 | 1980 |
| Beynəlxalq | 1 110 | 1 157 | 1 236 | 1284 | 1 432 |
| Yerli | 489 | 507 | 552 | 534 | 548 |
| Sərnişin dövriyyəsi, milyon sərnişin-km | 2 476 | 2 579 | 2 918 | 3 338 | 3 549 |
| Beynəlxalq | 2 201 | 2 286 | 2 589 | 2 986 | 3 185 |
| Yerli | 275 | 293 | 329 | 352 | 364 |
| Bir ton yükün orta daşınma məsafəsi, km | 4 353,7 | 3 515,9 | 3 848,0 | 4 511,6 | 4 268,8 |
| Bir sərnişin orta daşınma məsafəsi, km | 1 548,5 | 1 549,9 | 1 632,0 | 1 836,1 | 1 792,4 |
| Daşınmalardan əldə olunan gəlir, min manat | 617 870 | 779 843 | 837 820 | 828 058 | 1 053 949 |
| Yük daşınmasından | 392 242 | 517 410 | 539 196 | 531 151 | 717 528 |
| Beynəlxalq | 391 904 | 516 988 | 538 838 | 530 771 | 717 118 |
| Yerli | 338 | 422 | 358 | 381 | 410 |
| Sərnişin daşınmasından | 225 628 | 262 433 | 298 624 | 296 907 | 336 421 |
| Beynəlxalq | 201 524 | 228 495 | 262 824 | 263 812 | 303 503 |
| Yerli | 24 104 | 33 938 | 35 800 | 33 095 | 32 918 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Daşınmalara çəkilən xərclər, min manat | 538 080 | 678 670 | 770 221 | 810 422 | 975 035 |
| Yük daşınmasına | 279 201 | 381 071 | 455 603 | 448 755 | 601 140 |
| Sərnişin daşınmasına | 258 879 | 297 599 | 314 618 | 361 667 | 373 895 |
| İşçilərin orta illik sayı, nəfər | 5 437 | 11 029* | 12 083 | 12 451 | 12150 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 985,2 | 833,1* | 789,3 | 819,4 | 846,8 |
| Əsas kapitala investisiyalar, min manat | 280 482 | 281 956 | 82 185 | 397 157 | 10 226 |
| Əsas fondların istifadəyə verilməsi, min manat | 152 716 | 10149,9 | 619325,0 | 399 262,0 | 10 104,2 |

Qeyd edək ki, aviayük daşımalarının quruluşunun dəyişməsi digər iqtisadi göstəricilərin səviyyəsinə də təsir göstərir. Aviayük daşımaları üzrə mövsumi dəyişiklər də onların həcminə təsir göstərir. Aviayük daşımaları üzrə mövsumi dəyişikliklərin bu daşımaların illik həcminə təsiri mövsumilik indeksi əsasında təhlil edilir.

Ümumiyyətlə, hava nəqliyyatında yükdaşımaların iqtisadi səmərəliliyi aşağıdakı vasitələr hesabına mümkün olur:

- aviakompaniyalar tərəfindən tətbiq edilən daşımalara tariflərin və aeroportlarda xidmətlərin qiyməti;
- bütün növ tariflərin və qiymətlərin istifadəsinin səmərəliliyi;
- müxtəlif növ tariflərin istifadəsi ilə müntəzəm, əlavə və çarter reyslərlə yerinə yetirilmiş daşımalar həcminin təhlili;
- rəqib aviakompaniyaların tarif siyasətinin dəyişmə tendensiyaları (meyilləri);
- müxtəlif region və ölkələrdə əhalinin gəlir səviyyəsinin dəyişməsi və bunun aviadaşımalara olan tələbata təsiri;
- müxtəlif bazarlarda tələbatın tariflərə və digər amillərə elastikliyinin təyin edilməsi və bu məlumatların tarif siyasətinin təkmilləşdirilməsi üçün istifadə edilməsi.

Bu tendensiyaların müsbət istiqamətdə reallaşdırılması təkcə hava nəqliyyatının deyil, bütövlükdə milli iqtisadiyyatın səmərəliliyinə təsir göstərər.

**Ədəbiyyat**


1. Əliyev E.Ə. Beynəlxalq daşımaların hüquqi tənzimlənməsi. Dərs vəsaiti. Bakı: Zərdabi LTD, 2008. 524 s.
2. Егиазаров В.А. Транспортное право. Учебник. М.: ЗАО Юстицин-форм, 2007, 552 с.
3. www.azstat.org - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin elektron səhifəsi.


**Резюме**


***Османов И.О.***


**Оценивание экономической эффективности грузоперевозок воздушным транспортом в Азербайджанской Республике**


*В статье комментируются специфические особенности производства авиатранспортного продукта, исследуются основные трудности прогнозирования авиаперевозок, также рассмотрена динамика производства авиатранспортного продукта в Азербайджанской Республике и оценена ее экономическая эффективность.*



***Ключевые слова:*** *воздушный транспорт, продукция, производство, прогноз, грузооборот, перевозка грузов*


**Summary**


***Osmanov I.O.***


**Estimation of Economic Efficiency in Cargo Transportation by Air Transport in the Republic of Azerbaijan**


*The article comments on the specifics of the production of the air transport product, examines the main difficulties in forecasting air transportation, also examines the dynamics of the production of the air transport product in the Republic of Azerbaijan and assesses its economic effectiveness.*



***Keywords:*** *air transport, product, production, forecast, cargo turnover, cargo transportation*

## MİLLİ İQTİSADİ MƏNAFENİN TƏMİN OLUNMASININ ZƏRURİLİYİ

**_Pənahova G.T._**
_Sumqayıt Dövlət Universiteti_

**Xülasə**

_Məqalədə milli iqtisadi mənafenin təmin olunmasının zəruriliyi şərh edilmişdir. Eyni zamanda milli maraqların realizə olunmasının daxili və xarici şərtlərinə baxılmışdır._

**_Açar sözlər:_** _milli iqtisadi mənafe, milli istehsal, təhlükəsizlik, daxili, xarici_

Ölkənin iqtisadi inkişafı milli mənafelərin qorunması sahəsində siyasətin yeridilməsindən asılıdır. Digər tərəfdən milli iqtisadi mənafenin təmin olunması olduqca vacibdir. Bu bir tərəfdən milli və regional iqtisadi inkişafın vəhdətinin təmin olunmasını, digər tərəfdən vətəndaş, dövlət və cəmiyyət mənafelərinin balanslaşdırılmasını qarşıya qoyur.

İstənilən ölkənin milli mənafeyinin təmin olunmasının əsas məqsədlərinə daxildir: dövlət müstəqilliyi, ərazinin müdafiəsi, xalqın çiçəklənməsi və onun firavanlığı, həyat fəaliyyətinin təkmilləşməsi, mədəni-mənəvi dəyərlərin saxlanılması və inkişaf etdirilməsi. Milli mənafenin təmin olunmasının iyerarxiyası, onların zaman və məkan parametrləri daxili və xarici şərait dəyişdikcə dəqiqləşdirilə bilərlər.

Maraqların realizə olunmasının prioritetli daxili şəraitləri bunlardır: fərdiyyətin inkişafı, konstitusional quruluşun möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, əlverişli ətraf mühitə olan hüququn və səhhətin təsərrüfat fəaliyyəti və başqa fəaliyyətlər, qəzalar, fəlakətlər, təbii bəlalar nəticəsində ətraf mühitə pis təsirlərdən müdafiə hüququnun realizə olunması.

Maraqların realizə olunmasının prioritetli xarici şəraitləri bunlardır: tərəfdaşlıq və əməkdaşlıq əsasında səmərəli beynəlxalq əlaqələr sisteminin yaradılması və inkişaf etdirilməsi, istənilən xarici təcavüzün qarşısının alınması və dəf edilməsi qabiliyyətinin təmin edilməsi, beynəlxalq münasibətlər sistemində ölkənin tarixi, siyasi, iqtisadi və intellektual səviyyəsinə, hərbi-siyasi və xarici iqtisadi imkanlarına və tələbatlarına daha çox müvafiq olan yeri tutmaqla fəal və tamhüquqlu iştirak.

İqtisadi məkanın vahidliyi, daxili bazarın genişliyi və rəngarəngliyi ölkənin ən mühüm milli sərvətidir. Regionların istehsal ixtisaslaşması nəzərə alınmaqla onun saxlanılıb inkişaf etdirilməsi, məsələn, Azərbaycan iqtisadiyyatı üçün birləşdirici əhəmiyyətə malikdir. Xarici iqtisadi sahədə ölkənin milli maraqları milli istehsalçı üçün elə iqtisadi əlaqələrin qurulmasındadır ki, həmin əlaqələr onların maraqlarının həyata keçirilməsinə rəvac versin, milli məhsulun rəqabətqabiliyyətliliyinin artırılmasına, istehsalın səmərəliliyinə və iqtisadi yüksəlişə kömək etsin.

Milli maraqların qorunmasının təsərrüfatçı subyektlərin, onların iqtisadi və maddi bazasının möhkəmləndirilməsinə, inkişafın dayanıqlılığına ehtiyacı var. Bu zəmində iqtisadi maraqlar formalaşır ki, onların da məzmunu və hüquqi statusuna iqtisadi uğurların, mümkün zərərlərin və itkilərin, müvafiq investisiyaların məcburən xərclənməsi, əldən verilmiş mənfəəti və sahibkarlıq fəallığı riskinin qiymətləndirilməsi daxildir. İqtisadi maraqların formalaşması bir çox həyat fəaliyyəti amilləri ilə müəyyənləşir ki, onlar həm fərdi-eqoistik (sağ qalma, sabitləşmə, inkişaf), həm də qarşılıqlı təsir münasibətləri ilə (üstünlük, üstünlükverim, dayanıqlılıq, rasionallıq) səciyyələnir.

Milli iqtisadi mənafenin qorunmasında siyasi vasitələrlə yanaşı, sırf iqtisadi proseslər və metodlar mühüm əhəmiyyət kəsb etmişdir. Onlar milli təhlükəsizliyin möhkəmləndirilməsinin əsaslı komponentinə, dövlətçiliyin saxlanılmasının mütləq şərtinə və regional münaqişələrin qarşısının alınmasının mühüm şərtinə çevrilir. Xatırladaq ki, beynəlxalq həyatın "iqtisadiləşməsi" çoxdan qeyd olunmuşdur. Hələ 1912-ci ildə məşhur rus filosofu S.N.Bulqakov qeyd etmişdi ki, bizim dövrümüzün tarixi necəliyinin milli əlamətlərindən biri, şübhəsiz, iqtisadçılıqdır. Başqa ölkələdə edildiyi kimi, xarici siyasəti "iqtisadiləşdirmək" lazımdır, çünki bunda Azərbaycan diplomatiyasının səmərəliliyinin xeyli artırılması ehtiyatı vardır.

Dünya məkanında təsərrüfat sisteminin üzvləri çox vaxt maraqların öbyektiv olaraq üst-üstə düşməsi hesabına yekdil fəaliyyət göstərirlər. Bu üzvlər oyun qaydalarını, dili, təsir texnologiyalarını, təşkilati strukturları və kommunikasiyaları formalaşdıran özütörədən tamlıq əmələ gətirir. Onlar iri beynəlxalq kapitalı birləşdirən iqtisadi maraqlara şərait yaradır, dünya bazarı miqyasında fəaliyyət göstərirlər və siyasət müxtəlif ölkələrin və dövlətlərarası ittifaqların siyasəti ilə qəribə tərzdə uzlaşaraq qlobal xarakter alır. Hər bir ölkənin iqtisadi modeli transmilli və milli kapitalların, dünya oliqarxiyası və milli elita arasında dövlət hakimiyyəti institutları üzərində nəzarət uğrunda gərgin mübarizədə formalaşır. Onların maraqları və dəyərləri müxtəlifdir, iqtisadiyyata təsir alətləri fərqlidir.

Yuxarıda qeyd olunmuş geniş spektrli məsələlər insanın, cəmiyyətin və dövlətin həyat fəaliyyətinin aspektlərini qismən əks etdirirlər. Bu aspektlər həyat maraqlarının təmin edilməsi üzrə davranış motivlərini müəyyənləşdirir və qorunmasının - təsərrüfat inkişafının təhlükəsizliyinin tərkib hissələridir. İqtisadi zəmini

olduğundan onlar bütün səviyyələrdə: dövlətlərarası, milli, regional, yerli, ev təsərrüfatı və ayrı-ayrı fərdlər səviyyəsində təzahür edir. Dünya birliyi səviyyəsində təsərrüfat sistemlərinin təhlükəsizlik maraqları qarşısındakı mühüm məsələ elə inkişafı təmin etməkdir ki, dövrün aclıq və yoxsulluğun ləğvi, mühitin dağıdılmaması, sabit səmərəli inkişaf, terrorizmin aradan qaldırılması, xalqlar, irqlər, dini cərəyanlar arasında münasibətlərin yaxşılaşdırılması və s. kimi bütün məsələlərini balanslaşdırılmış şəkildə həll edə bilsin.

Milli iqtisadiyyat səviyyəsində belə məsələlərə birinci növbədə yüksək həyat səviyyəsini təmin etməyə qabil olan effektiv iqtisadiyyatın yaradılması və saxlanılması, beynəlxalq əmək bölgüsündə öz "yerinin" tapılması, beynəlxalq ticarətdə "milli üstünlükdən" rasional istifadə və s. aiddir. İqtisadi maraqlar beynəlxalq əmək bölgüsündə öz yerini tutan milli iqtisadiyyatın elə vəziyyətini şərtləndirir ki, bu zaman əhali öz maddi və mənəvi tələbatlarını ödəmək üçün kifayət qədər yüksək həyat səviyyəsinə malik olur, əhalinin sağlamlığını və yaşayış mühitinin sabitliyini təmin etmək mümkün olur.

Regional səviyyədə həyat fəaliyyəti maraqları problemləri öz əksini dövlətdaxili və xarici ticarət mübadiləsində yerli üstünlüklərin tapılması və istifadə edilməsində, əhalinin həyat səviyyəsinin yüksəldilməsində, regionun xüsusiyyətlərindən istifadədə tapır.

Yerli səviyyədə əhalinin həyat fəaliyyəti üçün əlverişli şəraitin təmin edilməsi, həmin bölgədə yerləşən müəssisə və şirkətlərin fəaliyyətinin tənzimlənməsi, sosial təminatların, aztəminatlı ailələrə yardımın tam təmin edilməsində yerli imkanlardan istifadə kimi problemlər həll olunur.

Ev təsərrüfatı səviyyəsində ailənin gəlirləri tənzimlənir; müasir, mütərəqqi vergi siyasəti aparılır; ailə büdcəsinin, sosial tələbatların ödənilməsinin və s. iqtisadi problemləri həll olunur. Ayrı-ayrı fərdlərə, şəxslərə münasibətdə onlar əməyin layiqincə ödənilməsi, sağlamlığın qorunması və intellektual zənginləşmə şəraiti, özünə və ailəsinə görə məsuliyyətin tərbiyə edilməsi ilə konkretləşdirilir.

Bütövlükdə milli maraqlar problemləri sırasında iqtisadi komponent təsərrüfat fəaliyyətində və dünya münasibətlərində iqtisadi potensialın aparıcı əhəmiyyət kəsb etməsinə görə aparıcı yer tutmağa başlayır. Birincisi, o, istehsalın və bazar münasibətlərinin, əmtəə və xidmətlər mübadiləsinin inkişafında həlledicidir. İkincisi, preventiv tədbirlər və müdafiə-mühafizə tədbirlərinin təmin edilməsini formalaşdırır. Üçüncüsü, o, təcavüzkar və ya yaradıcı-intellektual niyyətləri və hərəkətləri tənzimləməyə imkan verir.

Təsərrüfat sııbyektlərinin maraqlarının gözlənilməsi aşağıdakılara təsir etməklə, insanların həyatını yaxşılaşdıran amil-nəticələrin təhlilindən çıxış edir:

- birbaşa - məişət vasitəsilə, ərzaq və sənaye əmtəələri ilə təmin etməklə;
- dolayısıyla - təbii-resurs potensialından istifadə etməklə;
- həyat fəaliyyəti şəraitinin dəyişdirilməsi: rahatlıq, məşğulluq, insan hüquqları və azadlıqlar, yaşayış mühitinin keyfiyyəti.

Respublikamızda bunun üçün bütün obyektiv şəraitlər var: ixtisaslı kadrlar, müxtəlif cür və kifayət qədər təbii resurslar, güclü istehsal və elmi-texniki potensial var. Coğrafi məkan baxımından beynəlxalq münasibətlər inkişaf etdikcə maraqlar milli-dövlət forması kəsb edir. Onun sinonimi də - "etnos-millətə" deyil, "dövlət-millətə", yəni həmin dövlətin qanunları üzrə yaşayan və bu qanunlar qarşısında bərabərhüquqlu olan bütün şəxslərə, xalqlara, əhaliyə aid olan "milli maraq" məfhumu geniş işlədilməyə başlayır.

Milli maraqlar əməkdaşlıq və öz iqtisadi potensialından həyat tələbatlarının məcmusu ilə şərtlənən istifadə prioritetlərini diktə edir ki, bunlara da aşağıdakılar aiddir: dünya birliyində layiqli yer, sağlamlıq və firavanlıq, ərazi bütövlüyü, ənənələrin, maddi və mənəvi sərvətlərin saxlanılması. Dünyanın müxtəlif bölgələrində inkişaf edən proseslər xalqların vəziyyətinə və inkişaf perspektivlərinə, bəzən isə milli məqsədlərin dərkinə və müəyyənləşdirilməsinə bilavasitə və əhəmiyyətli dərəcədə təsir edə bilirlər. Tarixi inkişafın hər bir mərhələsində milli dövlət maraqları siyasi, iqtisadi, hərbi və texnoloji sahələrdə öz prioritetlərini yaradır, amma ən əsas kimi milli xüsusiyyətlər: mənəviyyatın, milli sağlamlığın, ləyaqət və rifahın saxlanılması qalır. Milli dövlət maraqlarının formalaşması iqtisadiyyatın inkişafının, dövlətçiliyin sosial ilkin şərtlərinin və institusional mexanizmlərinin baza prioritetləri sistemində həlledici olur.

**Ədəbiyyat**

1. Abbasov Ç.M. Azərbaycanın dünya iqtisadiyyatında inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.

2. Mikayılova S.M. İqtisadi təhlükəsizliyin təmin olunmasının makroiqtisadi problemləri. Monoqrafiya. Bakı, Gənclik, 2009. 400 s.

3. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Monoqrafiya. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2009, 415 s.

**Резюме**

***Панахова Г.Т.***
*Сумгаитский государственный университет*

**Необходимость обеспечения национальных экономических интересов**

*В статье излагается необходимость обеспечения национальных экономических интересов. В то же время были рассмотрены внутренние и внешние условия реализации национальных интересов.*

***Ключевые слова:*** *национальные экономические интересы, национальное производство, безопасность, внутренние, внешние*

**Summary**

***Panahova G.T.***
*Sumgayit State University*

**The Need to Ensure National Economic Interests**

*The article outlines the need to ensure national economic interests. At the same time, internal and external conditions for the realization of national interests were examined.*

***Key words:*** *national economic interests, national production, security, internal, external*

## İQTİSADİYYATIN İNNOVASİYALAR ƏSASINDA İNKİŞAFA KEÇİDİ PROBLEMİNƏ SİSTEMLİ YANAŞMA

***Seyfullayev İ.Z.***
*Azərbaycan Texniki Universiteti*

**Xülasə**

*Məqalədə iqtisadi sistemin innovasiyalar əsasında inkişafa keçidi probleminə sistem və özünütəşkil nəzəriyyəsi prizmasından yanaşılmış, iqtisadi sistemin xarici və daxili təsirlərə uyğunlaşma qabiliyyətinin və dayanıqlı inkişafının təmin edilməsinə, eləcə də onun daha səmərəli mexanizmə çevrilməsinə yönəlmiş tədbirlərin hazırlanması prosesinin ardıcıllığı təklif edilmişdir.*

***Açar sözlər:*** *özünütəşkil nəzəriyyəsi, fluktuasiya, innovasiya.*

İqtisad elminin təkamülünün təhlili göstərir ki, iqtisadi sistemlər açıq, qeyri-xətti və mürəkkəb sistemlərə xas olan "sadədən mürəkkəbə doğru hərəkət", "dinamik struktur", "kəmiyyət və keyfiyyət dəyişikliyi", "ətraf mühitə uyğunlaşma", "xaos və qaydanın dezinteqrasiya və inteqrasiyanın uzlaşması", "böhranlarla inkişaf" və digər bu kimi xüsusiyyətlərə malikdir. Hansı təsirlər iqtisadi sistemin tərəqqisini və ya tənəzzülünü dəstəkləyir? Hansı hallarda iqtisadi sistemlər seçim *(dəyişiklik)* qarşısında qalır və ya sabit rejimdə fəaliyyətini davam etdirə bilir? Hansı kəmiyyət dəyişiklikləri sistemin keyfiyyətcə dəyişməsinə gətirir və əksinə, hansı keyfiyyət dəyişikliyi kəmiyyət dəyişikliyinə gətirir? Bu proseslər necə baş verir?

İqtisadi sistemin innovasiyalar vasitəsilə təkmilləşdirilməsi üsullarına dair nəzəri fikirlərin ümumiləşdirilməsinə həsr olunmuş bu məqalə qeyd edilən tədqiqatlar üçün ideyaların və metodologiyaların seçilməsində faydalı ola bilər.

Müasir tədqiqatlarda faktların və amillərin tam və qarşılıqlı təsir kontekstində öyrənilməsi metodologiyası daha çox istifadə olunur. Sistem, təşkil, oyunlar və informasiya nəzəriyyələri, kibernetika və digər elm sahələrinin inkişafı təbiətdə və cəmiyyətdə baş verən hadisələrin izahında ümumi prinsiplərdən istifadənin mümkünlüyünü göstərmiş, müxtəliftəbiətli sistemlərdə hadisələrin başvermə qanunauyğunluqlarında təəccüb doğuran eyniliklərin olduğunu sübuta yetirmişdir. Təsadüfi deyil ki, Çarlz Darvin (*1809-1882*) təkamül nəzəriyyəsinin "təbii seçmə" prinsipini məhz Adam Smitin (*1723-1790*) "görünməz əl" ideyasından bəhrələnərək irəli sürmüşüdür [1].

Sistemli yanaşmanın müasir istiqamətlərindən biri olan özünütəşkil nəzəriyyəsi rus həkimi və filosofu A.A.Boqdanov (*1873-1928*) və avstriyalı bioloq Lüdviq fon Bertalanfinin (*1901-1972*) tədqiqatları əsasında formalaşmağa başlamışdır [1,2].

L.Bertalanfi deyirdi: "Əgər canlı orqanizmlərə baxsaq, onda möhkəm qaydanı, təşkili, fasiləsiz dəyişiklikləri, tənzimləməni... görə bilərik. Buna oxşar olaraq insanın davranışında da məqsədyönlülüyü, müəyyən məqsədlərə can atmanı görməmək mümkün deyil"[1].

Qeyd edilən nəzəriyyələrə əsaslanaraq özünü təşkil edən sistemlər barədə aşağıdakı fikri söyləmək olar**:** "özünü təşkil edən sistem daxili və kənar amillərin müəyyən həddlər daxilində olan təsiri ilə daxili elementlərinin qarşılıqlı əlaqələrini, qayda və təşkilini dəyişərək belə təsirlərə uyğunlaşa və fəaliyyətini davam etdirə bilən sistemdir.

Özünütəşkil nəzəriyyəsinə görə, sistemin inkişafı və mühitə uyğunlaşmasını tektoloji seçmə müəyyən edir. Belə seçmənin struktur elementlərinə aşağıdakılar aid edilir: obyekt - təsirə məruz qalan; subyekt - obyektə təsir edən amil; seçmə meyarı - obyektin inkişafı və ya məhdudlaşdırılmasının asılı olduğu cəhət

[2,3,4].

Texnoloji seçmənin iqtisadi sistemdə təzahürü belə ola bilər:

*1. Obyekt* - iqtisadi sistem və ya onun elementləri: istehsal resursları; tələbat; sahələr (iqtisadi resursları tələbatları ödəyən əmtəələrə çevirən oxşar texnologiyalı müəssisələr); elementlərarası əlaqələri tənzimləyən institutlar.

*2. Subyekt* – iqtisadi sistemə təsirlər (*kim tərəfindən, necə, nə zaman, nə üçün, hansı intensivliklə və s.*);

*3. Seçmə meyarı* –təsir obyektinin(*iqtisadi sistemin ayrı-ayrı elementləri və ya elementlər qrupu*) sistem üçün prioritetliyi, iqtisadi artım, rəqabətə davamlılıq və s.

Açıq və mürəkkəb sistemlərin inkişaf üsullarını əsasən üç qrupa ayırırlar: “İmpuls”; “Mühit”; “Dağıtma” [1,2,3,4].

***“İmpuls” yanaşmasında*** sistemin əsas elementlərindən biri və ya bir neçəsi seçilir, bu elementlərə ilkin təsir göstərməklə sistemin məzmun və forması dəyişdirilir. Bu zaman sistemə yeni elementin daxil edilməsi, sistemin strukturunun yenidən təşkili və digər strategiyalardan da istifadə edilir. Sistem nəzəriyyəsindən məlumdur ki, sistemin bir elementində baş verən dəyişiklik onun bütün elementlərində və beləliklə, ümumi və xüsusi xassələrində dəyişikliyə gətirir. “İmpuls” yanaşması fizikadan məlum olan rezonans hadisəsinə əsaslanır: kiçik təsirin köməyi ilə böyük və uzunmüddətli dalğaların yaranmasına nail olmaq mümkündür. Bir kibrit çöpünün alovu böyük meşə yanğınlarına çevrilə bilir.

Özünütəşkil nəzəriyyəsində “impuls” anlayışı “fluktuasiya” anlayışı ilə sinonim kimi istifadə olunur. Fluktuasiya dedikdə sistemi tarazlıq vəziyyətindən çıxaran hər-hansı təsir - hadisə nəzərdə tutulur [4]. Bu təsir xaotik və ya düşünülmüş ola bilər.

Sistemin fluktuasiya nəticəsində formalaşan yeni strukturunun ilkin struktura qalib gələ bilməsi üçün müəyyən şərtlər lazımdır [3,4]:

- ❖ yeni struktur ilk mərhələdə sistemin müəyyən hissəsində formalaşmalıdır (*uğurlu olduqda tədricən sistemin bütün fəzasını əhatə edir*);
- ❖ sistem daxilində formalaşan yeni strukturun kəmiyyət və keyfiyyət göstəriciləri kritik (*minimal və maksimal*) hədlər daxilində olmalıdır (*köhnə münasibətlərə qalib gəlmək üçün güclü olmalı, sistemin tam dağılmasına gətirməmək üçün isə müəyyən dərəcədə məhdudlaşdırılmalıdır*).

Sistemin yeni halının müjdəçisi olan fluktuasiyanın kritik ölçüləri sistemin bütün elementlərini əhatə edən diffuziya mexanizminin səmərəliliyindən asılı olaraq artır. Başqa sözlə, köhnə strukturun daxili informasiya kanallarının səmərəliliyi artdıqca nəticəsiz fluktuasiyaların sayı da artır, yəni sistemin dayanıqlılığı güclənir. Fluktuasiyanı əhatə edən köhnə struktur onu inkar edir. Fluktuasiyanın inkişaf etməsi və ya sönməsi onunla əhatə mühiti arasında əlaqə kanallarının effektliliyindən də asılıdır. Beləliklə, fluktuasiyanın kritik ölçüləri sistemin birləşdirici gücü və fluktuasiyanı gücləndirən dağıdıcı mexanizmlərinin rəqabəti ilə müəyyən edilir [4].

Sistemin struktur dəyişikliklərinə dayanıqlılığı problemini belə təsvir etmək olar: sistemə az miqdarda yeni elementlərin daxil edilməsi struktur daxilində yeni münasibətlərin və əlaqələrin formalaşmasına gətirir. Yeni münasibətlər sistemin əvvəlki funksional fəaliyyət üsulları ilə mübarizə aparır. Əgər sistemin struktur dayanıqlılığı güclüdürsə, onda sistem daxilində yeni münasibətlərin ömrü az olur. Yeni elementlərin sistemdaxili mühitə uyğunlaşması uğurla nəticələndiyi halda isə sistem yeni funksional rejimdə yeni qaydalarla işləməyə başlayır və beləliklə, sistemin strukturu dəyişir.

Sistemlərin inkişafı üçün ***“Mühit” yanaşması*** lazımi mühitin yaradılmasını nəzərdə tutur. Fəaliyyət mühitində baş verən dəyişikliklər (*xarici fluktuasiya*) sistemin daxili mühitinə təsir göstərərək onun keyfiyyətcə dəyişməsinə gətirir.

***“Dağıtma” yanaşması*** yeni sistemin qurulması üçün köhnə sistemin böyük sürətlə dağıdılmasını - *xaosu* nəzərdə tutur. Xaos vəziyyətində olan elementlər arasında formalaşan yeni əlaqələr (bu əlaqələrin təbiəti ehtimalxarakteri daşıyır) yeni strukturun yaranmasına gətirir və sistem keyfiyyətcə yeni səviyyəyə keçir.

*“İmpuls”* və *“Mühit”* yanaşmaları isə təkamül xarakteri daşıyır. Bu yanaşmaların tətbiqi zamanı məqsədə nail olma böyük zaman kəsiyində baş verir. İnkişaf etmiş ölkələrin nail olduqları sosial-iqtisadi və elmi-texniki tərəqqi məhz “Mühit” və “İmpuls” yanaşmalarının birgə tətbiqinin nəticəsidir. Bu ölkələrdə sahibkarlığın dəstəklənməsi və iqtisadi sistemin makro səviyyədə tənzimlənməsi “Mühit” yanaşmasının, innovasiyalar əsasında inkişaf isə yenilikçiliyin dəstəklənməsinə yönəlmiş tənzimləmə tədbirlərinin - “İmpuls” yanaşmasının nəticəsidir.

Qeyd olunanları nəzərə alaraq, iqtisadi sistemin xarici və daxili təsirlərə uyğunlaşma qabiliyyətinin və dayanıqlı inkişafının təmin edilməsinə, eləcə də onun daha da səmərəli mexanizmə çevrilməsinə (*məqsəd və vəzifələrin icrasının təkmil üsullarının mənimsənilməsinə*) yönəlmiş tədbirlərin (*iqtisadi sistemə təsirin*)

hazırlanmasının aşağıdakı ardıcıllığını təklif etmək olar:

- iqtisadi sistemə daxili və xarici təsirlərin qiymətləndirilməsi;
- iqtisadi sistemin təkmilləşdirilməsinin məqsəd və vəzifələrinin müəyyən edilməsi;
- iqtisadi sistemin elementlərinin və onlar arasında əlaqə kanallarının xüsusiyyətlərinin təhlili və bu əsasda hər bir elementin təkmilləşdirmənin məqsədinə görə prioritetliyinin qiymətləndirilməsi (*təsir obyektinin seçilməsi üçün*);
- iqtisadi sistemin hər bir elementinin daxili və xarici təsirlərə reaksiyasının və müqavimətinin qiymətləndirilməsi (*ən kiçiklərin uyğunlaşma qabiliyyətinin və nisbi müqavimətinin müəyyən edilməsi üçün*);
- təsir nəticəsində hər bir elementdə, elementlər arası əlaqə kanallarında və ümumilikdə sistemdə baş verə biləcək dəyişikliklərin proqnozlaşdırılması (*təsirin məqsədinin və nəticələri barədə təsəvvürün formalaşdırılması üçün*);
- aparılan qiymətləndirmələrə və sistemin elementlərinin qarşılıqlı əlaqə kanallarının öyrənilməsinə əsaslanaraq müvafiq təkmilləşdirmə tədbirlərinin (*seçmə amilinin* ) işlənməsi və həyata keçirilməsi.

İqtisadi sistemin təkmilləşdirilməsi üçün təsir obyektinin (elementin) seçilməsi səmərəliliyin mühüm amilidir. Elementin prioritetliyi və digər elementlərlə qarşılıqlı əlaqələrinin səviyyəsi, təsir nəticəsində obyektdə baş verəcək dəyişikliklər barədə gözləntilər, bu dəyişikliklərin iqtisadi sistemə bütövlükdə təsir ehtimalları əsas seçmə meyarları kimi qəbul oluna bilər.

Öünütəşkil nəzəriyyəsinə görə, iqtisadi sistemin dayanıqlığının və uyğunlaşma qabiliyyətinin təmin edilməsi əsas elementlərin *(istehsal resursları, tələbat, iqtisadi fəaliyyət subyektləri)* və onlar arasında əlaqə kanallarının (*institutlar - münasibətlər, informasiya mübadiləsi, diffuziya kanalları*) keyfiyyətindən asılıdır. Belə yanaşma iqtisadi sistemin inkişafının ümumi prinsiplərinin formalaşmasının və təkmilləşdirilməsinin elmi əsaslarından biri kimi qəbul oluna bilər.

## Ədəbiyyat


1. Ludviq von Bertalanfy (1962) General System Theory - a Critical Review, “General Systems, vol. VII, p.p.1-20, пер. Н.С.Юлиной.
2. Богданов А.А. (1989). Тектология: Всеобщая организационная наука. В 2-х книгах, кн. 1 - 304 с., кн. 2. М.: Экономика, 354 с.
3. В поисках новой теории: Книга для чтения по экономической теории с проблемными ситуациями: Учебное пособие. Под.ред.А.Г.Грязновой и Н.Н.Думной. М.: КНОРУС, 2004, 368 с.
4. Пригожин И., Стенгерс И. (1986).Порядок из хаоса: Новый диалог человека с природой. Пер. с англ./Общ.ред. В.И.Аршинова, Ю.Л.Климонтовича и Ю.В.Сачкова. М.:Прогресс, 432 с.


## Резюме


***Сейфулаев И.З.***


**Системный подход к проблеме перехода развития экономики, основанная на инновациях**


*В статье предпринята попытка для изучения проблем инновационного развития экономики через призму теорий самоорганизации и системного подхода, предложена последовательность процесса разработки мер для обеспечения устойчивого развития и приспособления системы к внешним и внутренним воздействиям, а также для превращения экономической системы в более эффективному механизму.*



***Ключевые слова:*** *теория самоорганизации, флуктуация, инновация.*


## Summary


***Seyfullayev I.Z.***


**A Systematic Approach to the Problem of the Transition of Economic Development, Based on Innovation**


*The article is dedicated to study of problems of innovative development of the economy through the prism of theories of self-organization and the system approach; proposes a sequence of the process of developing measures to ensure sustainable development and adaptation of the system to external and internal influences, and to transform the economic system into a more efficient mechanism.*



***Keywords:*** *theory of self-organization, fluctuation, innovation*

# İDXALIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ SAHƏSİNDƏ BEYNƏLXALQ TƏCRÜBƏ

***Seyfullalı R.İ.***
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Xülasə**

*Məqalədə inkişaf etmiş və inkişaf etməkdə olan bir sıra ölkələrdə idxalın dövlət tənzimlənməsi sahəsində tətbiq olunan üsullar (proteksionizm, yerli istehsalın dəstəklənməsi və s.) təhlil edilmiş, əldə edilən nəticələr ümumiləşdirilmiş, uğurlu tənzimləmə nümunələri təqdim olunmuşdur.*

***Açar sözlər:*** *proteksionizm, idxal, Xornik qaydaları.*

Hazırda qloballaşan iqtisadiyyatda liberal iqtisadi təfəkkürün hakim mövqedə olmasına rəğmən, bir sıra inkişaf etmiş ölkələrdə (ABŞ, Avropa Birliyi və Şərqi Asiya ölkələri) proteksionist tədbirlərin geniş tətbiqi iqtisadiyyatın dövlət tənzimlənməsi mexanizmlərinin hələ də aktual olduğunu göstərir. Qeyd edilən ölkələrdə daxili bazarın qorunması və idxalın dövlət tənzimlənməsi alətlərinə diqqət yetirsək, bu alətlərin 300 il bundan əvvəl təklif olunan tənzimləyici mexanizmlərin müasirləşmiş forması olduğunu görə bilərik.

XVII əsrdə yaşamış alman iqtisadçısı Filip fon Xornik (1638-1712)1684-cü ildə nəşr olunmuş "Avstriya hər şeydən üstündür" adlı əsərində ölkənin sərvətinin artması və yerli istehsalın inkişafının təmin edilməsi üçün 9 qayda təklif etmişdir (əlamətdar haldır ki, Xornikin bu əsəri Osmanlı dövlətinin Vena şəhərinə sonuncu hücumundan bir il sonra nəşr edilmişdir) [5, s.346-348]:

1. Ölkənin torpağını diqqətlə öyrənmək və onun bir qarışını belə emalsız qoymamaq.
2. Ölkədə mövcud olan bütün istehsal ehtiyatlarının emalını təşkil etmək.
3. Əvvəlki iki qaydaya riayət olunması üçün insan lazım olacaq. Buna görə də əhaliyə diqqət yetirmək lazımdır. Bu, yaxşı təşkil olunmuş dövlətin əsas qayğısıdır.
4. Ölkənin qızıl və gümüşünün xarici ölkələrə axınının qarşısı mümkün qədər alınmalıdır. Qızıl və gümüş ölkə daxilində dövriyyədə iştirak etməlidir.
5. Ölkə əhalisi mümkün qədər yerli məhsullarla dolanmağa və xarici məhsullardan istifadə etməməyə cəhd etməlidir (ən zəruri hallar istisna olmaqla).
6. Əgər xarici ölkələrin məhsullarının alışı qaçılmazdırsa, onda onların birbaşa istehsalçıdan alınması təmin edilməlidir. Bu zaman çalışmaq lazımdır ki, həmin məhsullar yerli məhsullarla dəyişdirilməsi yolu ilə alınsın.
7. Xarici məhsullar ölkəyə son istehlaka hazır vəziyyətdə gətirilməməlidir. Yaxşı olar ki, bu idxal məhsulunun istehlaka tam yararlılığı (emalı) ölkə daxilində təmin olunsun.
8. Ölkə hər zaman çalışmalıdır ki, artıq məhsulunu xarici ölkələrə mümkün qədər son istehlaka hazır formada satsın.
9. Zəruri hallar istisna olmaqla, ölkədə kifayət qədər istehsal oluna bilən malların idxalının qarşısı alınmalıdır.

Xornikin 9 qaydası idxalın tənzimlənməsində həm proteksionist siyasətin, həm də yerli istehsalın inkişaf etdirilməsi siyasətinin əsas istiqamətlərini müəyyən etməyə imkan vermiş və bu gün də aktuallığı ilə seçilir.

Norveç iqtisadçısı Erik Raynert inkişaf etmiş Şərqi Asiya ölkələrində və inkişafdan geri qalmış Latın Amerikası ölkələrində tətbiq olunan proteksionizm siyasətinin əsas xüsusiyyətlərini müqayisə etmişdir. Onun əldə etdiyi nəticələr Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə proteksionizm siyasətinin aparılmasının zəruriliyini əsaslandırmağa imkan verir, bu siyasətin lazımi nəticələrə gətirməsi üçün hansı elementlərlə zənginləşdirilməsinin lazım olduğunu göstərir.

**Şərqi Asiya və Latın Amerikası ölkələrində tətbiq olunan proteksionizm siyasətinin müqayisəsi** [5, səh.344-345]

| **ŞərqiAsiya "səmərəli proteksionizm"** | **Latın Amerikası "səmərəsiz proteksionizm"** |
|---|---|
| Dünya bazarları üçün yeni məhsulların istehsalının /yeni sənaye sahələrinin müvəqqəti müdafiəsi. | Daxili bazarlar *(adətən, kiçikhəcmli)* üçün məhsulların /ənənəvi sənaye sahələrinin daimi müdafiəsi. |
| Başqa ölkələrlə müqayisədə məhsuldarlığın kəskin artımı. | Məhsuldarlıq başqa ölkələrdən aşağıdır. |
| Dünyanın dinamikanlamına, bazarın rəqabət mexanizmi tərəfindən dəstəklənən yaradıcılığa əsaslanır. | Dünyanın static anlamına, inhisarlı iqtisadiyyata əsaslanır. |
| Daxili bazarda rəqabət qorunur. | Daxili bazarda rəqabət çox zəifdir. |

| | |
|---|---|
| Əsas texnologiya ölkə daxilində yaradılır və inkişaf edir. | Əsas texnologiya idxal olunur (ölkə sənaye məhsullarının yığımı üzrə ixtisaslaşır, sənayeləşmə aşağı səviyyədədir) . |
| Təhsilə irihəcmli investisiyalar qoyulur (sənayeləşmə siyasəti təhsilə böyük tələbat yaradır, təhsilli mütəxəssislərin təklifi tələbatla uzlaşır). | Təhsilə diqqət azdır. Mövcud sənaye sahələrinin yüksəkixtisaslı mütəxəssislərə tələbatı az olduğu üçün təhsilə investisiyalar immiqrasiyanı (beyin axınını) gücləndirir. |
| Meritokratiya – kapital, iş yerləri və imtiyazlar mütəxəssislərin keyfiyyətinə görə bölüşdürülür. | Nepotizm - kapital, iş yerləri və imtiyazlar şəxsi, qohumluq və digər əlaqələrə görə bölüşdürülür. |
| Gəlirlərin nisbətən bərabər bölgüsü daxili bazarda tələbatı artırır və sənayenin inkişafı üçün münbit şərait yaradır. | Gəlirlərin qeyri-bərabər bölgüsü daxili bazarı məhdudlaşdırır və yerli sənaye müəssisələrinin rəqabət qabiliyyətini azaldır. |
| Mənfəət rentanın dinamik axtarışında yaranır. | Mənfəət rentanın statik axtarışında yaranır. |
| İstehsalçılarla yerli təchizatçılar arasında fəal tərəfdaşlıq var. | İstehsalçılarla yerli təchizatçılar arasında qarşıdurma var (satınalma proseslərinin qeyri-şəffaflığına görə). |
| Texnologiyaların yayılması elə tənzimlənir ki, bu zaman daha çox biliyin ötürülməsi təmin olunur. | Texnologiyaların yayılmasının tənzimlənməsi tələlərdən yan keçmək üçün aparılır. |

Azərbaycan Respublikasında qəbul edilmiş dövlət proqramları, dövlət başçısının müvafiq qərqarları ilə təsdiq olunmuş strateji yol xəritələri (iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı ilə bağlı) daxil istehsalın dəstəklənməsi vasitəsilə idxalın tənzimlənməsi məsələlərini ehtiva edir.

Hazırda ölkəmizdə milli istehsalın qorunmasına yönələn siyasətin əsas istiqamətlərini bir-birini tamamlayan iki istiqamətdə birləşdirə bilərik:

- daxili bazarın qorunması üçün gömrük-vergi mexanizmlərinin inkişaf etdirilməsi;
- yerli istehsalın inkişaf etdirilməsi üçün institusional islahatların aparılması.

Daxili bazarın gömrük tarifləri vasitəsilə qorunması qısamüddətli dövrdə yerli istehsalın inkişafı üçün münbit zəmin yaratsa da, uzunmüddətli perspektivdə istehlakçıların mövqeyini zəiflədir, inkişafın ən əsas daxili təkanverici qüvvəsi olan rəqabəti məhdudlaşdırır. Buna görə də, idxalda gömrük tarifləri və vergilərin müəyyən edilməsində "müddət" amili mütləq nəzərə alınmalı və bu tənzimləmə tədbiri daxili bazarda yerli istehsalçılar arasında rəqabətin qorunması məqsədilə aparılan antiinhisar tədbirləri ilə tamamlanmalıdır. Eyni zamanda Şərqi Asiya ölkələrinin səmərəli proteksionizminə aid olan elementlərin ölkəmizdə tətbiqinin genişləndirilməsi milli iqtisadiyyatımızın inkişafına böyük töhfələr verə bilər.

## Ədəbiyyat


1. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı, 2011.
2. Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A. Gömrük işinin təşkili və idarə edilməsi. İqtisad Universiteti, 2015.
3. Məhərrəmov A.M., Aslanov H.H. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi. Bakı: Zərdabi LTD MMC NPM, 2008.
4. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. "Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Bakı, 2006.
5. Райнерт Е.С. Как богатые страны стали богатыми, и почему бедные страны остаются бедными. /пер. с англ.Н.Автономовой, под ред. В.Автономова. М.: Изд-ва Гос.ун-т - Высшая школа экономики, 2011, 384 с.


## Резюме


***Сейфуллалы Р.И.***


**Международный опыт в области государственного регулирования импорта**


В статье на примере некоторых развитых и развивающихся стран анализированы способы государственного регулирования импорта (протекционизм, поддержка местного производства и т.д.), полученные результаты обобщены и выделены успешные примеры регулирования.



***Ключевые слова:*** *протексионизм, импорт, правил Хорника.*

**Summary**

***Seyfullali R.I.***

**International Experience in the Field of State Regulation of Imports**

In the article, on the example of some developed and developing countries, the ways of state regulation of imports (protectionism, support of local production, etc.) are analyzed, the obtained results are summarized and successful examples of regulation are highlighted.

***Key words:*** *protectionism, import, Hornick rules.*

## 1920-1921-Cİ İLLƏRDƏ AZƏRBAYCANDA NEFT SƏNAYESİNİN VƏZİYYƏTİ

***Səlimov Ş.D.***
*Sumqayıt Dövlət Universiteti*

***Açar sözlər:*** *Rusiya, Bakı, neft sənayesi, milliləşdirmə, neft istehsalı*

Sovet Rusiyası Azərbaycanı işğal etdikdən sonra bolşevik hökumətinin 1920-ci il mayın 28-də verdiyi dekretlə Bakı neft sənayesi milliləşdirildi. May ayı üçün olan məlumata görə, Bakıda 1.465 quyudan istifadə edilirdi [11, c.156]. Milliləşdirmənin ağır nəticələri qısa müddətdə özünü göstərdi. Neft hasilatı aşağı düşdü. 1920-ci ilin aprelində 17,2 mln., iyunda 14,9 mln., sentyabrda isə 10,8 mln. pud neft çıxarılmışdı. Neftayırma zavodunda 1920-ci ilin iyun ayında 6,9 mln., iyul ayında 7,9 mln., sentyabrda isə 4,8 mln. pud neft məhsulu emal edilmişdi. Milliləşdirmə neft sənayesini bərbad hala saldı [11, c.156]. 1920-ci ilin sonunadək Rusiyaya Bakıdan 9,9 milyon ton neft daşınmışdı [14, c.118].

Əvvəllər Avropa və Rusiya ilə əlaqəli olmuş neft sənayesi bərbad hala düşdü. Sovet hökumətinin onu bərpa etməyə imkanları yox idi. Bunu kommunist xadimlərinin özləri də etiraf edirdilər. Azərbaycan KP-nin 1921-ci il fevralın 11-18-də keçirilmiş III qurultayında Serebrovski deyirdi ki, bizim Azərbaycan nefti sənayesi Qərbi Avropa və Rusiya ilə bağlıdır [5].

Belə şəraitdə Azneft məhsulunun heç cüzi bir hissəsini də xaricdə özü sata və lazım olan məhsulları ala bilmirdi. Hər şey xalq xarici ticarət komissarlığının ixtiyarına keçmişdi. Belə şəraitdə neft sənayesini inkişaf etdirmək xeyli çətin idi. 1920-ci il aprelin 28-dən 1921-ci il aprelin 1-dək Azneftin gəlirləri 475.592.010.437 rubl təşkil etmişdi [12, c.10].

1920-ci ildə Rusiyada, o cümlədən Bakıda neft sənayesində istehsal xeyli aşağı düşmüşdü. Həmin ildə Rusiyada çıxarılan 233,7 mln. pud neftin 175,6 mln. pudu, 1921-ci ildəki 246,4 mln. pud neftin 156,1 mln. pudu, 1922-ci ildəki 283,5 mln. pud neftin 183,7 mln. pudu Bakının payına düşürdü. Bakı rayonunda neft və neft ehtiyatları 1920-ci il oktyabrın 1-də 198,8 mln. pud idisə, 1921-ci il oktyabrın 1-də 103,4 mln. pud, 1922-ci il oktyabrın 1-də 41,4 mln. pud, 1923-cü il oktyabrın 1-də 39,3 mln. pud olmuşdu.

Bakı neft rayonu qiymətli və strateji əhəmiyyətli yağ, kerosin və neft yanacağı verirdi. Neft dəmiryolu, gəmilər və boru kəməri ilə daşınırdı. Bidonlarda satılan Bakı kerosini müstəmləkə ölkələrində, Şərqdə, İranda, Türkiyədə, Misirdə və b. xeyli məşhur idi. Bu ölkələrin imkanları olmasa da, Qərb dövlətlərini Bakı neft sənayesinə yaxın buraxmaq istəmirdilər.

Bakı neft rayonu Rusiya neft sənayesinin beşiyi idi. Bakı nefti əsasən böyük su magistralı olan Xəzər dənizi – Volqa-Petroqrad yolu ilə daşınırdı. Bu yol bolşevik hökuməti üçün müstəsna rol oynayırdı. Bakı Cənubi Qafqazla – Tiflis və Batum, Türkiyə və İranla sərhəddə yerləşən Bakı-Culfa dəmiryolu ilə əlaqə saxlayırdı [4].

Cənubi Qafqazın bolşeviklər tərəfindən işğal edilməsi bu limanlar vasitəsilə ixrac məsələsini də ön plana çıxardı [11, c.137]. 1921-1922-ci illərdə Bakıdan 800 verstlikdə yerləşən Batum vasitəsilə 6,2 mln. pud neft məhsulu xarici ölkələrə göndərildi [11, c.138]. 1921-ci ildə iri Avropa dövlətləri sovet, o cümlədən Bakı neftini almağı boykot etdikdən sonra Batum vasitəsilə Türkiyəyə neft məhsulları satılmağa başlandı. Lakin boykot siyasəti böyük dövlətlərə sərfəli deyildi. Ona görə də Royal-Detç-Şell kimi nəhəng neft trestləri az sonra blokadanı ləğv edərək Bakı kerosinini almağa başladılar.

Bolşevik Rusiyası hökuməti Serebrovskini neftə görə məhz Bakıya göndərmişdi. Aprelin 14-də Serebrovskiyə 5355a №-li mandat verildi. 1921-ci il aprelin 17-də Lenin Serebrovskinin Bakıya Azneftə göndərilməsi barədə dekret imzaladı. O, XI ordu ilə bərabər Bakıya gəldi. Bundan sonra neft daha çox daşınmağa başladı. Serebrovski etiraf edirdi ki, neftin Həştərxana daşınması kampaniyası uğurla həyata keçirildi [9]. Mandatda deyilirdi ki, o, neft və neft məhsullarının daşınmasına rəhbərlik etməli idi. Rusiyaya ən çətin gündə mazut, neft, kerosin, yağ daşındı, bolşeviklər kerosin və neft aclığına düşmüşdülər. 1920-ci ilin noyabrında Stalinin Bakıya gəlməsi də daha çox neft daşınması ilə bağlı idi. Neftin daşınmasının yerinə yetirilməsindən razı qaldığını bildirən Stalin onun artırılması barədə tövsiyələrini verdi. Stalin Bakıda neftin vəziyyətinə dair Serebrovskinin «1920-ci ilin sonunda Bakı rayonunda neft sənayesində vəziyyət» adlı 1921-ci il 25 fevral tarixli qeydlərini V.İ.Leninə təqdim etdi.

Bolşevik istismarı neft sənayesinin bərbad hala düşməsini dərinləşdirirdi. 1921-ci ildə Bakıda 169,9 mln. pud neft çıxarılmışdı [9].

Bolşevik işğalı neft sənayesində işçi qüvvəsinə də mənfi təsir göstərdi. Azərbaycanlı sahibkarların və fəhlələrin çoxu mühacirət etməyə məcbur olurdular. Əgər 1916-ci ildə Bakıda 52.00 neft fəhləsi var idisə, 1920-ci ildə onlardan cəmi 29.000 nəfəri qalmışdı. Belə vəziyyət neft sənayesini bərbad hala salırdı. Nəticədə, Bakıya Rusiyanın müxtəlif rayonlarından qeyri-azərbaycanlıları yerləşdirilməyə başlandı. Sənayedə işləmək üçün Bakıya gətirilən şəxslər azərbaycanlıların evlərində yerləşdirilirdilər.

Bolşeviklər neftlə məşğul olan bütün müəssisələri öz əllərinə aldılar. Belə ki, 1920-ci ilin iyun-iyul aylarında zavod şöbəsinə 27 neftayırma zavodu, 2 kislota zavodu, 3 kükürd zavodu, 2 sabunbişirmə zavodu və b. daxil idi. Bu qruplar dörd inzibati-təsərrüfat qrupuna bölünmüşdü [3]. 1920-ci ilin iyun ayında Bakıda 6.932.079 pud neft məhsulları istehsal olunmuşdu. İyul ayında isə 6.029.042 pud neft emal üçün qəbul edilmişdi [3].

1920-ci il iyulun 2-dən 31-dək Bakıdan 78.864.421 pud 10 funt neft və neft məhsulları aparılmışdı. Bunlar Həştərxan, Krasnovodsk, Petrovsk, Lənkəran, Ənzəli, Salyan və b. yollarla daşınmışdı [1]. Bu müddət ərzində neft və neft məhsullarını daşıyan gəmilərin sayı 59-65 arasında olmuşdu [2].

1920-1921-ci naviqasiya ilində Bakıdan Rusiyaya 290.2 mln. pud, xaricə və qonşu sovet respublikalara isə 38,2 mln. pud müxtəlif neft məhsulları daşınmışdı. 1920-1922-ci illərdə isə Azərbaycanda təxminən 304,2 mln. pud neft çıxarılmışdı [12, c.1].

Neftə kəskin ehtiyac duyan bolşeviklər yalnız Bakı ilə kifayətlənmədilər. 1920-ci ilin iyulunda bolşevik ordu hissələri Nobelin Rəşt və Ənzəlidəki neft məhsullarını zorla aldı Azərbaycan Neft Komitəsi fars şöbəsinin müdiri R.Xəlilovun bu hərəkətlərin dayandırılması barədə məktubuna da məhəl qoyulmadı. Nobel qardaşları cəmiyyətinin 24 iyul tarixli məktubundakı xahişi də yerinə yetirilmədi [2]. Neftin ələ keçıirilməsi bolşevikləri daha da gücləndirdi.

1920-ci ilin iyulunda 129 quyudan neft çıxarılırdı. Bakıda ehtiyatda 110.000.000 ton mazut, 88.000.000 ton neft və neft məhsulları, 13.000.000 ton kerosin və müxtəlif yağlar və s. var idi [6, c.23].

Bakıda 1920-ci ilin sentyabrında hər gün 390 ton, oktyabrda 406 ton, noyabrda 460 ton, dekabrda isə 490 ton neft çıxarılmışdı [6, c.24].

1921-ci ilin sentyabrında Bakıda 730 quyudan orta hesabla 390.000 pud neft çıxarılmışdı [13, c.8]. Bütövlükdə, 1920-ci ilin sentyabrından 1921-ci ilin sentyabrınadək olan müddətdə Bakı neft rayonunda 150.02 mln. pud neft çıxarılmışdı [13, c.10].

1920-ci il oktyabrın 1-dən 1921-ci il oktyabrın 1-dək Bakıdan su yolu ilə neft daşınması Həştərxan, Petrovsk, Krasnovodsk, Salyan, Lənkəran, İran istiqamətində, dəmiryol xətti ilə Şimal və Qərb istiqamətində daşınırdı. Eyni zamanda 1921-ci ilin martınadək işləməyən Bakı-Batum kəməri işə düşdükdən sonra bu yolla da neft daşınmağa başladı. Neft və neft məhsulları həmçinin tara ilə də daşınırdı [13, c.93].

Neft sənayesinin milliləşdirilməsindən sonrakı üç ildə buradan dəniz yolu ilə 509472 min pud neft məhsulları daşınmışdı. Həştərxana 453797 min, Petrovska 14900 min, Krasnovodska 37896 min, İrana 2006 min, başqa limanlara 874 min pud neft məhsulları daşınmışdı [10, c.91].

Dəmiryolu ilə bu üç ildə 25.940.314 pud, Bakı-Batum boru kəməri ilə 19.845.539 pud neft məhsulu daşınmışdı [10, c.92].

Serebrovskinin fikrincə, Azərbaycan öz neft sərvətləri ilə sovet hökuməti üçün qiymətli idi. Göründüyü kimi, Azərbaycan nefti sovet dövlətinin güclənməsi və təsirini yayması üçün bir vasitə rolunu oynayırdı. Ona görə də Rusiya ilə Azərbaycan arasında əlaqələrin sıxlaşdırılmasına xüsusi diqqət verilirdi.

Sovet hökuməti qurulduqdan sonra sənayedə işləmək üçün fəhlələr çatışmırdı. Ona görə də nümayəndə heyəti neft sənayesi üçün fəhlə problemini də həll etməklə məşğul oldu. Xaricə qaçmış şəxslərin Azərbaycana qaytarılması üçün də təbliğat aparılırdı. Bütün bunların nəticəsində Azneft 8 min gənc və güclü fəhlə ilə təmin edildi [7]. Bununla belə, neft hasilatı artmır, əksinə, geriləyirdi. Bakıda 1922-ci ilin dekabrında 15 mln. 200 min pud neft çıxarılmışdısa, 1922-ci ilin yanvarında 15 mln. 1.2 min ton çıxarılmışdı [8]. 1922-ci ildə Bakıda 1.125-1.500 quyu istismar edilirdi.

Bu zaman neft sənayesinin bərpasının iki yolu mümkün sayılırdı: dövlət ya Azneftdən bütün məhsulu alaraq onu tam təmin etməli idi; ya da dövlət Azneftdən məhsulunun bir hissəsini alırdı, digərinin isə daxili və xarici bazarda sərbəst satışına icazə verirdi. Lakin dövlətin Azneftı tam təchiz etmək imkanı olmadığından ikinci yolu üstün sayırdı. Lakin hesab olunurdu ki, neftin istismarının xaricilərə verilməsi ölkəni onlardan tamamilə asılı sala bilərdi. Çünki xaricilər sənayeni qurmadan məhsulun daşınmasına üstünlük verəcəkdilər. Qeyd etmək lazımdır ki, bu zaman Bakıda 75 milyon qızıl rublluq neft məhsulları var idi.

Beləliklə, Azərbaycanın sovet Rusiyası tərəfindən işğalından sonra yaranmış daxili vəziyyəti əsasən aşağıdakı amillər səciyyələndirirdi. İqtisadi vəziyyətə aclıq və səfalət xas idi. İşğaldan sonra Azərbaycanın iqtisadi vəziyyəti xeyli ağır idi. Zəngin təbii sərvətləri baxımından nadir bir ölkə olmasına baxmayaraq əhalinin ümumi vəziyyəti günü-gündən çətinləşirdi.

**Ədəbiyyat**


1. ARSPİHDA, f.1, siy.1, iş 100, v.8,
2. ARSPİHDA, f.1, siy.1, iş 100, v.9.
3. ARSPİHDA , f.1, siy й.1, iş 40, v.292.
4. ARSPİHDA , f.1, siy.2, iş 1, v.313.
5. ARSPİHDA , f.1, siy.2, iş 1, v.263-264.
6. ARSPİHDA , f.1, siy.2, iş 3, v.7.
7. ARSPİHDA, f.1, siy.74, iş 41, v.1.
8. ARSPİHDA, f.1, siy.74, iş 6, v.15.
9. ARSPİHDA, f.268, siy.16, iş 44, v.20.
10. Бакинская нефтяная промышленность за три года Национализации (28 мая 1920-28 мая 1923) Баку, 1923, 166 с.
11. Бондаревский Б.М. Советская нефт. М.: 1926, 200 с.
12. Краткий обзор Бакинской нефтяной промышленности за первое полугодие 1921-1922 г. Баку, 1922, 64 с.
13. Обзор Бакинской нефтяной промышленности за период 1 октября 1920-1 октября 1921 г. Баку, 1921, 344 с.
14. Yasin A. Azerbaycan tam bağımsızlık yolunda. Ankara, 1992, 254 s.


**Резюме**


**Салимов Ш.Д.**

*Сумгаитский государственный университет*


**Состояния нефтяной промышленности в Азербайджане в 1920-1921 гг.**


*В статье рассматриваются меры, принятые Советской Россией для национализации нефтяной промышленности в первые годы после аннексии Азербайджана и транспортировки бакинской нефти в Россию. В течение этого периода изучалось участие России в контроле над нефтяной промышленностью Баку и применение системы управления, которая соответствует её интересам. Отмечено влияние негативных событий на развитие нефтяной промышленности.*

***Ключевые слова:*** *Россия, Баку, нефтяная промышленность, национализация, нефтепроизводство*


**Summary**


***Salimov Sh.D.***

*Sumgayit State University*


**The Situation of Oil Industry in Azerbaijan in 1920-1921**


*The article covers measures for nationalization of oil industry after the period of invasion of Azerbaijan by Soviet Russia and oil transportation by exploitation from Baki to Russia. Total control of Russia over Baki oil industry and application of management system compatible with its own interests during this period, as well as impact of negative cases on development of oil industry (while foregoing measures were implemented) are involved in research.*

***Key words:*** *Russia, Baki, oil industry, nationalization, oil production*


## AZƏRBAYCAN-İRAN İQTİSADİ MÜNASİBƏTLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ


***Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A.***

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*


**Xülasə**


*Məqalədə Azərbaycan-İran xarici iqtisadi əlaqələrinin hazırki durumu, mövcud problemlər və onun həlli yolları göstərilir. Həmçinin Azərbaycan-İran əlaqələrinin təkmilləşdirilməsi məsələləri öyrənilir.*

***Açar sözlər:*** *iqtisadi əlaqələr, geoiqtisadi amillər, geosiyasi amillər, idxal-ixrac*

Azərbaycanın müstəqillik dövründə xarici-iqtisadi əlaqələrində İranın xüsusi yeri olmuşdur. İran üçün Azərbaycan yeni iqtisadi tərəfdaş və ona çox vacib olan şimal bazarına çıxışda Azərbaycanla inkişaf edən iqtisadi əlaqələr İranın təhlükəsizliyi üçün zəmanətlərdən biridir. İkitərəfli əhəmiyyətlə yanaşı, Azərbaycan-İran iqtisadi əlaqələri regional inteqrasiya və təhlükəsizlik üçün də mühüm şərtdir. Ümummilli Lider Heydər Əliyev İranla dostluq və əməkdaşlığı Azərbaycanın və regionun təhlükəsizliyi və sabitliyi üçün mühüm amil hesab edirdi. Son illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Azərbaycan-İran iqtisadi əlaqələrinin dərinləşməsinə mühüm töhvələr verirlər. Belə ki, bu ilin 28-29 mart tarixlərində Bakıda keçirilmiş görüş zamanı iqtisadi və siyasi əlaqələrin inkişafına önəm vermişdir. Hər iki dövlət başçısı qarşılıqlı əlaqələrin bütün sahələrinin, xüsusən, iqtisadi sahənin inkişaf etdirilməsində ciddi səylər göstərirlər. Lakin nəzərə almaq lazımdır ki, İran-Azərbaycan iqtisadi əlaqələrinin inkişafı üçün hələ geniş potensial vardır.

Beynəlxalq iqtisadi münasibətlərdə geoiqtisadi amillərin əhəmiyyəti geosiyasi proseslərin beynəlxalq siyasi əlaqələrdə olan əhəmiyyəti kimidir. Geosiyasi amillər dövlətlərin xarici siyasi fəaliyyəti ilə bağlıdırsa, geoiqtisadi amillər onların iqtisadiyyatları ilə əlaqəlidir. Geoiqtisadi amillərin iqtisadiyyatla bağlılığı məhdudlaşmayaraq geosiyasi amillərlə qarşılıqlı təsir münasibətlərinə girir. Yəni geosiyasi amillər və geoiqtisadi amillərin bir-birini qarşılıqlı şəkildə tamamlayırlar. Misal olaraq göstərmək olar ki, ABŞ alimləri tərəfindən geosiyasi və geoiqtisadi amillər əsas götürülərək İran körfəzi və Xəzər hövzəsi "Vahid enerji ellepsinə" daxil edilmişdir. Eyni zamanda qeyd etmək lazımdır ki, İran İslam Respublikası da geosiyasi və geoiqtisadi fəal ölkədir. Doğrudur, onun geoiqtisadi proseslərdə iştirakı və vəziyyətində Azərbaycan Respublikası ilə müəyyən fərqlilikləri vardır. Bu fərqliliklərin kökündə ABŞ-la 1979-cu ildən başlayaraq ziddiyyətlərin olması durur. Belə demək olar ki, dövlətlərin müasir geoiqtisadi doktrinaları ondan ibarətdir ki, ümumdunya gəlirinin bölüşdürülməsində sərfəli iştirak üçün bütün geoiqtisadi amillərdən və geomaliyyə və texnologiya imkanlarından istifadə edilsin.

Müstəqillik illəri ərzində aparılan islahatlar və görülən tədbirlər nəticəsində Azərbaycan iqtisadiyyatı yüksək dinamika və pozitiv dəyişikliklərlə xarakterizə olunur.

İran və Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafı hər iki tərəf ücün çox böyük əhəmiyyət kəsb edir. Belə ki, qloballaşan dunya iqtisadi sistemi daxilində İran və Azərbaycan iqtisadiyyatlarının da müəyyən qarşılıqlı asılılığı məvcuddur. Azərbaycan iqtisadiyyatının son dövrlərini əks etdirən statistik məlumatlara baxılarsa, İranın Azərbaycanla hansı sahələrdə idxal-ixrac münasibətlərində necə mövqe tutması ortaya çıxar. Həmin rəqəmlər bir sıra istiqamətlərdə İranın Azərbaycana idxalda aparıcı yerlər tutduğunu sübut etməkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüş zamanı bəyanatında demişdir: "İqtisadi sahədə gözəl imkanlar var. Hökumətlərarası birgə komissiya fəal işləyir və gözəl nəticələr vardır. Biz bu gün energetika sahəsində əməkdaşlığı müzakirə etdik. Neft-qaz, elektrik enerjisi, qaz mübadiləsi sahələrində çox böyuk imkanlar var. Artıq bir neçə layihə icra edilib. Yeni layihələrin icra edilməsi də gözəldir. Eyni zamanda, biz bu gün nəqliyyatla bağlı məsələləri geniş müzakirə etdik. Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması hər iki tərəfin marağındadır. Biz bu önəmli layihənin həyata kecirilməsində fəal iştirak edirik, öz səylərimizi qoyuruq. Şimal-Cənub nəqliyyat dəhlizi nəinki İran və Azərbaycan, bütün bölgə üçün önəmlidir. Ümumiyyətlə, demək istəyirəm ki, bizim siyasi, iqtisadi əlaqələrimiz, konkret layihələrin icrası, eyni zamanda, bəlgədə sabitliyin möhkəmlənməsinə xidmət göstərəcək və göstərir".

Azərbaycandan İrana idxal edilən məhsullar arasında həmişə olduğu kimi, metal və metal məhsulları, kimya sənayesi məhsulları, tütün və tütün məhsulları və b. məhsullar üstünlük təşkil edir. İranın idxal etdiyi bəzi mallar bu ölkənin özü tərəfindən də istehsal edilir. Fəqət bəzən İran kimi böyük bir əraziyə sahib olan dövlət özündə istehsal edilən mallardan idxal etməkdə maraqlı olur. Məsələn, Azərbaycandan idxal edilən benzin əsasən İranın mərkəzindən gətiriləcək benzinin bahalığını kompensasiya edir. İran həmçinin Azərbaycan vasitəsi ilə Rusiyadan xeyli miqdarda məhsullar idxal edir.

İrandan fərqli olaraq Azərbaycan Cənub-Qafqaz regionun əsas güc mərkəzi olaraq öz geoiqtisadi maraqlarını Xəzəryanı regionu çərçivəsində həyata keçirərək Qara Dəniz iqtisadi və geoiqtisadi məkanında aktiv formada bütün layihələrdə nəinki iştirak edir, hətta bir neçəsinin reallaşmasında təşəbbüskarlıq edib. Əslində belə bir strategiyanın əsasında Azərbaycan hər iki regionun arasında inteqrasiyasının sürətləndirilməsində həlledici rol oynayır.

Azərbaycanla İran iqtisadi əlaqələrinin əsasını enerji və nəqliyyat layihələri təşkil edirdi. Lakin Azərbaycanda həm İranda resurs satışı ilə yanaşı, həm də bir-birinin geosiyasi yerləşməsindən məqsədli istifadə edilməsinə ehtiyac duyulurdu.

İran Prezidenti Həsən Ruhani Bakıda, Heydər Əliyev Mərkəzində kecirilən Azərbaycan-İran biznes forumunda çıxışı zamanı göstərmişdir: "İki ölkə arasında enerji, neft, qaz, neft-kimya sahələrində yaxşı imkanlara malikik. Siz sahibkarlar hər iki ölkədə bu sahədə fəal ola bilərsiniz. Biz son illər hətta kənd

təsərrüfatı sahəsində də əməkdaşlıq etməyə başlamışıq və bu işi inkişaf etdirməliyik. Biz müxtəlif sahələrdə də əməkdaşlıq edə bilərik. Səhiyyə, dərman istehsalı, qabaqcıl texnologiya, elm sahələrində də bir-birimizin yanında ola bilərik. Bizim alimlər, şairlər, ziyalılar tarix boyu bizi qardaşlığa, dostluğa dəvət ediblər. Avtomobil istehsalından daha vacib, Xəzər dənizindəki əməkdaşlıqdan daha mühüm, Rəşt-Astara yolundan daha önəmli, Şimal-Cənub, Cənub-Qərb dəhlizlərindən daha mühüm dostluqdur, qardaşlıqdir, bir-birini fikirləşməkdir".

Azərbaycan-İran iqtisadi əlaqələri regional inteqrasiyaya zəmin yaradacaqdır. Son dövrlər sivilizasiyalararası dialoqdan tez-tez söhbət açılmaqdadır. Bu dialoqa iqtisadi münasibətlərin normal inkişafını təmin etmədən, iqtisadiyyatları qarşılıqlı faqdalanma şəraitində əlaqələndirmədən nail olmaq mümkün deyil. Belə ki, Azərbaycan və İran isə sivilizasiyaları birləşdirən başlıca təmas nöqtələrindəndir.

İran Prezidenti Həsən Ruhani görüş zamanı göstərmişdir ki, "Azərbaycan Respublikası, o cümlədən İran elə bir coğrafi mövqedə yerləşir ki, onlar bir-biri üçün keçid-körpü ola bilər və biz Oman dənizində, Hind okeanından tutmuş Asiyadan Avropaya qədər körpülərimizi birləşdirə bilərik. Biz Azərbaycan və Qafqaz vasitəsilə Avropa ilə birləşə bilərik. Azərbaycan da İran vasitəsilə cənub dəhlizləri ilə, okeanlarla birləşmiş olar. Biz gərək bu dəhlizdən cox yaxşı istifadə edək, bundan faydalanaq və bunu daha da genişləndirək və çalışaq ki, bir-birimizə kömək etməklə Qəzvin-Rəşt və Rəşt-Astara dəmir yolunun tikintisinə və birləşməsinə nail olaq. Biz bu dəhliz vasitəsilə Qara dənizə və Avropaya, Rusiyaya çıxaq, onların dəmir yolu sisteminə birləşək. Biz bu sahədə əməkdaşlıq etməliyik.

